**Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi**

# Azərbaycan Respublikasının
# Diplomatiya Tarixi

## I cild


Baş redaktor:
Azərbaycan Respublikasının xarici işlər naziri,
tarix elmləri namizədi E.M.Məmmədyarov

Redaksiya heyəti:
Xarici işlər nazirinin müavini,
*filologiya elmləri namizədi V.İ.Sadıqov,*
Xarici İşlər Nazirliyi İnformasiya İdarəsinin rəisi,
*tarix elmləri namizədi C.Ə.Axundov,*
Xarici İşlər Nazirliyinin müşavirləri,
*tarix elmləri namizədi C.M.Vəkilov,*
*tarix elmləri namizədi C.İ.Məmmədov,*
*tarix elmləri namizədi Q.T.Köçərli,*
*filologiya elmləri namizədi A.A.Əliyev*




downloaded from KitabYurdu.az

**Cəmil Həsənli**

# Azərbaycan Xalq Cümhuriyyətinin Xarici Siyasəti

# (1918-1920)

**Bakı - 2009**



downloaded from KitabYurdu.az

Elmi redaktor: tarix elmləri doktoru, professor E.R.İsmayılov

Rəyçi: Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin
İnformasiya İdarəsinin rəisi, tarix elmləri namizədi
C.Ə.Axundov

**C.P.Həsənli.** Azərbaycan Xalq Cümhuriyyətinin Xarici Siyasəti (1918-1920). Bakı, "GARISMA" MMC, 2009, - 576 səh.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin qərarı ilə "Azərbaycan Respublikasının diplomatiya tarixi" seriyasından hazırlanan birinci kitab Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətini əhatə edir. Tarix elmləri doktoru, professor C.Həsənli tərəfindən yazılmış bu kitabda 1918-1920-ci illərdə Azərbaycan diplomatiyasının keçdiyi çətin və maraqlı yol araşdırılmışdır. Müəllif Azərbaycan, Türkiyə, Rusiya, ABŞ, Fransa, Böyük Britaniya və digər ölkələrin çox nadir arxiv sənədlərinə əsasən Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətinin maraqlı mənzərəsini yarada bilmişdir. Kitabda istifadə edilən sənəd və materialların bir çoxu ilk dəfə elmi dövriyyəyə gətirilmişdir.

Azərbaycan Respublikasında diplomatik xidmətin yaranmasının 90 illiyi ilə bağlı hazırlanmış bu kitabda Azərbaycan Xalq Cümhuriyyətinin ilk xarici siyasət addımları, Bakının azad edilməsi uğrunda diplomatik mübarizə, qonşu dövlətlərlə münasibətlər, Paris Sülh konfransı tərəfindən Azərbaycanın müstəqilliyinin tanınması haqqında oxuculara geniş məlumat verilir.

Kitab beynəlxalq münasibətlər tarixi ilə məşğul olan mütəxəssislər, bu ixtisas üzrə təhsil alan tələbələr və yaxın keçmişimizin diplomatiya tarixi ilə maraqlanan geniş oxucu dairəsi üçün nəzərdə tutulur.

**ISBN: 978-9952-455-00-7**

© C.P.Həsənli
© Azərbaycan Respublikası
Xarici İşlər Nazirliyi



downloaded from KitabYurdu.az

## Ön söz

Dünya tarixindən məlumdur ki, hər millətin dövlətçiliyinin və təhlükəsizliyinin təmin edilməsində, beynəlxalq səhnədə mövqe və maraqlarının müdafiəsində diplomatiya xüsusi rola malikdir. Diplomatiya, xarici siyasət vasitəsi kimi, millətin istiqlaliyyətinin bərpa edilməsi, beynəlxalq ictimaiyyətin bərabərhüquqlu üzvü kimi tanınması və ərazi bütövlüyü uğrunda mübarizəsi zamanı daha böyük, fövqəladə əhəmiyyətə malik olur.

XX əsrdə Azərbaycan xalqına, onun siyasi xadimlərinə və yaranmaqda olan diplomatiyasına istiqlaliyyət bayrağını qaldırmaq və milli dövlətçiliyin bərqərar olması naminə mürəkkəb regional və beynəlxalq şəraitdə ağır mübarizələr aparmaq iki dəfə nəsib olmuşdur: 1918-1920-ci illərdə və ötən əsrin 80-90-cı illərində.

Məlum olduğu kimi, ümummilli lider Heydər Əliyev 1918-1920-ci illərin Azərbaycan Xalq Cümhuriyyəti (AXC) tarixinə xüsusi diqqətlə yanaşırdı. Onun fərmanı əsasında Azərbaycan xarici siyasət sənədləri toplusunun hazırlanması ilə yanaşı, ilk dəfə olaraq, AXC dövlətinə aid bütün sənədlər nəşr edilmişdir.

Bu əhəmiyyətli işin davamı kimi, Prezident İlham Əliyevin qərarına uyğun olaraq Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaranmış milli diplomatiyamızın 90-cı ildönümü ilə bağlı bu il keçiriləcək tədbirlər çərçivəsində müasir Azərbaycan diplomatik xidmətinin günümüzə qədər tarixi haqqında geniş əsərin yazılması və nəşr edilməsi nəzərdə tutulmuşdur.

Əsərin Azərbaycan diplomatiyasının 1918-ci ildən 1991-ci ilə qədər tarixinə həsr olunmuş fəsilləri bu dövr üzrə tanınmış mütəxəssis, tarixçi professor Cəmil Həsənli tərəfindən yazılmışdır. Kitabın yazılması prosesində, xarici arxivlərdə əlavə mənbələr tədqiq olunmuş, bir çox yeni, maraqlı faktlar aşkar edilmişdir. 1918-1920-ci illərdə müstəqil Azərbaycan dövlətinin yaranması, öz paytaxtı Bakıda və ölkə ərazisində bərqərar olması, dünya dövlətləri tərəfindən tanınması uğrunda birinci milli hökumətin, onu təşkil edən görkəmli dövlət xadimi və diplomatların mübarizəsinə həsr olunmuş fəsillər xüsusi maraqla oxunur.

Bu il 28 May - Respublika gününə həsr olunmuş rəsmi qəbuldakı nitqində Prezident İlham Əliyev 91 il əvvəl müsəlman aləmində ilk dəfə demokratik respublika olaraq Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) qurulmasını tarixi hadisə kimi qiymətləndirmiş, AXC-nin ömrünün uzun olmadığı və iki ildən sonra respublikanın müəyyən səbəblər üzündən süqut etdiyini təəssüflə vurğulamış, Azərbaycan xalqı və Azərbaycan dövlətinin AXC-nin, onun qurucularının fəaliyyətinə həmişə böyük hörmətlə yanaşdığını, bu tarixin bizə məxsusluğunu və ondan həmişə ibrət dərsi götürməli olduğumuzu bildirmişdir.

Müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin yalnız 23 ay yaşamasına baxmayaraq, yeni Sovet Azərbaycanının paytaxtı Bakı və suveren ərazisi ilə Sovet İttifaqı tərkibində, formal da olsa, bərabərhüquqlu respublika kimi saxlanılmasını bu dövrün bir nəticəsi kimi qiymətləndirmək olar.



downloaded from KitabYurdu.az

Kitabın Azərbaycan diplomatiyasının 1991-ci ildən bu günümüzə kimi tarixinə həsr olunmuş fəsilləri Bakı Dövlət Universitetinin professoru Musa Qasımlı tərəfindən yazılmışdır. Bu mürəkkəb və hadisələrlə dolu dövr üzrə mənbələr kifayət qədər çox olsa da, dövlətin xarici siyasətini və praktiki diplomatiyasını ölkə daxilində və dünyada gedən proseslərlə əlaqədə təhlil etmək çətin vəzifə təşkil edir və bu vəzifə layiqincə yerinə yetirilmişdir.

Bizim çağdaş tariximizi təşkil edən bu dövr ilə 1918-1920-ci illər arasında bir sıra paralellər müşahidə etmək olar, - Sovetlər İttifaqının dağılması ərəfəsində meydana çıxmış münaqişələr, daim regionda mövcud olan güclü xarici təzyiqlər və neft amilinin əhəmiyyəti, Azərbaycana qarşı erməni təcavüzü. Eyni zamanda, təəssüflə qeyd etməliyik ki, 1980-ci illərin sonunda və müstəqilliyin ilk illərində ölkəyə başçılıq edən rəhbərlər zamanın tələbləri səviyyəsində fəaliyyət göstərə bilməmiş, əmələ gələn və getdikcə genişlənən Ermənistan təcavüzünü düzgün qiymətləndirməmiş və zəruri tədbirlər görməmiş, ümumilikdə, ölkənin xarici və daxili siyasətində böyük səhvlərə yol vermişdirlər.

Tarix elmində belə bir mülahizə var ki, dahi siyasi şəxsiyyətlər zamanın hökmü ilə tarixi səhnəyə çıxır. Bu gün, on altı il keçəndən sonra tam əminliklə demək olar ki, ümummilli lider Heydər Əliyevin yeni müstəqil Azərbaycanın rəhbərliyinə gəlməsi belə tarixi əhəmiyyətli hadisələrdən biri olmuşdur. Prezident Heydər Əliyevin hərtərəfli fəaliyyətinin əsas nəticələri olan milli dövlətçiliyin bərpası və möhkəmləndirilməsi, Azərbaycan ətrafında regionda və dünyada yeni, daha əlverişli strateji reallığın yaranması haqqında məsələlər əsərdə ətraflı şəkildə təhlil edilmişdir.

Əsərin son fəsillərində göstərilir ki, Heydər Əliyevin nəhəng fəaliyyətinin nəticələrinə arxalanaraq, Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi altında siyasi, sosial-iqtisadi və hərbi sahələrdə nəzərəçarpan tərəqqi əldə edərək, yürütdüyü diplomatiya vasitəsi ilə öz mövcudluğunu və təsirini beynəlxalq səhnədə, o cümlədən beynəlxalq təşkilatlarda xeyli genişləndirmiş və gücləndirmişdir. Bu gün Azərbaycan geniş regionda baş verən strateji siyasi və iqtisadi proseslərin gedişinə təsir göstərməyə qadirdi. Bu gün bütün dünyaya bəllidir ki, Ermənistan-Azərbaycan münaqişəsi, ancaq Azərbaycanın beynəlxalq prinsiplərə əsaslanan şərtləri əsasında həll oluna bilər.

Sözümü bitirərək, məmnun olduğumu bildirmək istərdim ki, müasir Azərbaycan diplomatiyasının tarixinə həsr olunmuş bu sanballı əsər ölkəmizdə beynəlxalq münasibətlər üzrə get-gedə çoxalan institutlar, fakültələr, araşdırma mərkəzləri və alimlər üçün faydalı tədris, təlim və tədqiqat mənbəyi olacaqdır.

*Azərbaycan Respublikasının xarici işlər naziri*
*E.M.Məmmədyarov*



downloaded from KitabYurdu.az

## Giriş

Azərbaycan dünyanın qədim ölkələrindən biri olaraq öz coğrafi mövqeyinə, strateji əhəmiyyətinə görə həmişə diqqət mərkəzində olub. Tək şərqdən qərbə uzanan ticarət yolları deyil, tarixin müəyyən məqamlarında böyük imperiyaların, dünya cahangirlərinin dağıdıcı yürüşləri də Azərbaycandan keçirdi. Qafqaz dağlarının ətəklərindən Xəzər dənizinə doğru uzanıb gedən böyük bir ərazidə məskunlaşan azərbaycanlılar hələ antik dövrdən bəri böyük güclərin hədəfinə çevrilmiş, Əhəməni hökmdarlarından qədim Roma legionlarına, Sasani satraplarından ərəb sərkərdələrinə qədər hər kəs gücünü burada sınamağa çalışmışdır. Azərbaycan uzun əsrlər boyu qılınc səsinin səksəkəsi ilə diplomatiya fəlsəfəsinin qovşağında yaşamış və bu tarixi prosesdə qılıncla diplomatiyanın vəhdətini yarada bilmişdir. Əmir Teymurla Şirvanşah İbrahimin diplomatik gedişləri, Səfəvi hökmdarı Şah İsmayıl ilə Sultan Səlimin sətrlərindən qan daman məktubları, Ağqoyunlu Uzun Həsənlə Avropa dövlətləri arasında yazışmalar, Səfəvi dövlətinin geniş beynəlxalq əlaqələri diplomatiya tariximizin ilk kövrək səhifələri idi.[1]

XVIII əsrdə Nadir şah imperiyasının dağılmasından sonra yaranan Azərbaycan xanlıqları inzibati idarəçilik sistemi, bəlli sərhədləri, nizami ordusu, ictimai münasibətləri tənzimləyən divanı, iqtisadi münasibətləri stimullaşdıran pul vahidi ilə dövlətçilik atributlarını özündə yaşadan hakimiyyət qurumları olmaqla yanaşı, eyni zamanda regionun beynəlxalq münasibətlərinə tədricən daxil olan ayrı-ayrı dövlətlər idi. Xalqların tarixində belə çoxdövlətçilik mərhələsini yaşayan Azərbaycan bu baxımdan dünyada nə birinci, nə də sonuncu idi. Elə həmin dövrdə bir-biri ilə qanlı müharibələr aparan rus knyazlıqlarının birləşdirilməsi prosesi yenicə başa çatdırılmışdı. İtaliya şəhər dövlətləri hələ ki, öz müstəqilliklərini saxlamaq uğrunda silahdan tutmuş diplomatiyanın bütün incəliklərinə qədər istifadə edirdilər. Azərbaycanda 20 xanlıqla eyni vaxtda Almaniyada çoxsaylı kiçik dövlətlərin mövcud olması, sonralar almanların Avropanın güclü bir milləti kimi formalaşmasının qarşısını ala bilmədi. Lakin xanlıqların acı taleyi və ibrətamiz tarixi təcrübəsi bir həqiqət ortaya qoydu ki, coğrafi baxımdan üç böyük imperiyanın arasında yerləşən Azərbaycanın nicatı vətənin bütövlüyündə və xalqın birliyindədir.

XIX əsrin əvvəllərində Rusiya imperiyasının Qafqaza ayaq açması Azərbaycanı yenidən diplomatik çəkişmələrin mərkəzinə çevirdi. Gəncə hakimi Cavad xanın general Sisianovun hikkəli məktublarına təmkinli cavabları az sonra onun döyüş meydanlarındakı qəhrəmanlığı kimi diplomatiya tariximizin şərəfli səhifələri idi. Məhz, tariximizin bu məqamının dəqiqləşdirilməsi bir həqiqəti aydın şəkildə ortaya qoyur ki, XIX əsrin əvvəllərində beynəlxalq münasibətlər tarixinə

---

[1] Bax: Yaqub Mahmudov. Azərbaycan Diplomatiyası. Ağqoyunlu və Səfəvi dövlətlərinin Avropa ölkələri ilə əlaqələri (XV-XVII yüzilliklər). Bakı, 2006.



downloaded from KitabYurdu.az

Rusiya - İran müharibələri kimi daxil olan keşməkeşli hadisələr Rusiya - İran müharibəsi olmazdan daha əvvəl, Rusiya ilə ayrı-ayrı Azərbaycan xanlıqları arasında baş vermiş müharibə idi. İran ordusu hələ döyüşlərə girməzdən əvvəl bu mübarizə Cavad xanın rus ordusuna qarşı sərt dirənişindən keçirdi. Eyni ilə diplomatiya tarixində Rusiya ilə İran arasında imzalanıb, Azərbaycan xalqının taleyində ayrılıq məqamını rəsmiləşdirən 1813-cü ilin Gülüstan və 1828-ci ilin Türkmənçay müqavilələrindən daha əvvəl, 1805-ci ildə şuşalı İbrahim xanın imzaladığı Kürəkçay müqaviləsi də var idi. Məhz bu müqavilə bitkin bir diplomatik sənəd olaraq, Qarabağ xanlığının, məhz Azərbaycan dövləti olaraq Rusiya protektoratlığına girməsini özündə ehtiva edirdi.[2] Həm Kürəkçay müqaviləsində, həm də onun hüquqi davamı kimi Mehdiqulu ağanın Qarabağ hakimi təyin edilməsi haqqında 1806-cı ilin imperator fərmanında Rusiya tərəfindən tədricən ilhaq edilən Qarabağda, onun hüdudları, dağı və aranında söhbət yalnız və yalnız etnik kimlik olaraq azərbaycanlılardan, dini mənsubiyyəti olaraq, müsəlmanlardan gedir.[3] XIX əsrin əvvəllərində general Sisianov tərəfindən imzalanmış Kürəkçay müqaviləsi, "fələk cəlallı" I Aleksandr tərəfindən imzalanmış imperator fərmanı tarixi baxımdan Qarabağın şəriksiz olaraq, azərbaycanlılara məxsusluğunu təsdiq edən ilk tutarlı diplomatik sənədlərdir. Hələ erməni köçü başlamazdan əvvəl, 1823-cü ildə Rusiya idarəçilərinin hazırladığı və əyalətin əhali sayımını özündə ehtiva edən "Qarabağ vilayətinin təsviri" adlı statistik məlumatlar bu bölgənin etnik-dini tərkibi haqqında real mənzərəni aydın şəkildə ortaya qoyurdu.[4] Qarabağ vilayəti haqqında həqiqətlər XIX əsrdə Rusiyanın Qafqaz siyasətini araşdıran bir sıra rus tədqiqatçılarının əsərlərində və dövlət siyasətini müəyyən edən rəsmi nəşrlərdə də təsdiq edimişdir.[5]

Azərbaycanın taleyində və tarixində əsaslı dönüş XIX əsrin sonlarından başlandı. 30 ilə yaxın silahlı müqavimətin ciddi bir nəticə vermədiyini görən ilk Azərbaycan realistləri mübarizənin forma və metodlarını dəyişərək, yüz illərin

---

[2] Трактат между Карабахским ханом и Российской империей о переходе ханства под власть России от 14 мая 1805 года.// Государственный Исторический Архив АР, ф.130, оп.1, д. 14, лл.245-248; Акты Кавказской Археографической Комиссии. Архив Главного Управления Наместника Кавказа. Томъ II. Издан под редакциею председателя комиссии А.Д.Берже. Тифлис, 1868, с.705

[3] Высочайшая грамота генерал-майора Мехтикули ага от сентября 1806 года.// Акты Кавказской Археографической Комиссии. Архив Главного Управления Наместника Кавказа. Томъ III. Издан под редакциею председателя комиссии А.Д.Берже. Тифлис, 1869, с.336-337

[4] Описание Карабахской провинции, составленное в 1823 году, по распоряжению главноуправляющего в Грузии Ермолова, действительным статским советником Могилевским и полковником Ермоловым 2-м. Тифлис, 1866, 415 с.

[5] Bax: Гражданское Управление Закавказьем от присоединения Грузии до наместничества Великого Князя Михаила Николаевича. Исторический очерк. Составитель по поручению Военно-Исторического отдела В.Н.Иваненко. Тифлис, 1901, 525 с; В.А.Потто. Кавказская война. Персидская война 1826-1828 гг. Том 3, Тифлис, 1901; Н.И.Шавров. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам. СП., 1911



downloaded from KitabYurdu.az

ümmət anlayışından yeni əsrin millət düşüncəsinə keçməyin zərurətini ideya istiqaməti olaraq irəli sürdülər. A.A.Bakıxanov, M.F.Axundov və H.B.Zərdabi kimi mütəfəkkirlər ənənəvi şərq mədrəsəsindən müasir üsuli-cədid məktəblərinə keçməyin zəruriliyini əsaslandırmaqla milli hədəfləri düzgün müəyyənləşdirdilər. Bu böyük mütəfəkkirlərin Ə.Hüseynzadə, Ə.Ağayev və Ə.M.Topçubaşov kimi ardıcılları, məhz bu ideyanın işığında azərbaycanlıların ümmətdən millətə başlayan tarixi keçidini öz çiyinlərində apara bildilər. Bu ideyanın "milli dirilik" fəlsəfəsi olaraq, bitkin bir baxışlar sisteminə çevrilməsi isə M.Ə.Rəsulzədənin adı ilə bağlıdır. 1918-ci ildə tarix səhnəsinə çıxan Azərbaycan Xalq Cümhuriyyəti dünyəvi bir dövlət olaraq, islam ümmətçiliyindən türk millətçiliyinə keçidin məntiqi yekunu, millətləşmə əsrində millət olmaq arzularını özündə ehtiva edən "milli dirilik" fəlsəfəsinin tarixi təsdiqi idi. XX əsrin əvvəllərində dünya xalqları içərisində öz millətinin imzasını görməyən və bundan mənəvi sıxıntı keçirən Azərbaycan aydınları ilk imkan düşən kimi, 1918-ci ilin may ayının 28-də Xalq Cümhuriyyətini yaratmaqla diplomatik baxımdan bu imzanı beynəlxalq aləmdə təsdiq etdirə bildilər. Bu mühüm hadisə başlanan cahan hərbində atılan topların səsindən oyanan və gündən-günə kəskinləşən diplomatik çəkişmələrdə dünyanın siyasi xəritəsinin dəyişəcəyinə ümid bəsləyən Azərbaycan xalqının çox böyük tarixi nailiyyəti idi.

Azərbaycan Xalq Cümhuriyyəti cəmisi 23 ay yaşadı. Bu, zaman etibarı ilə elə də böyük bir dövrü əhatə etmir. Lakin 23 ay ərzində yaradılan tarix, keçilən yol, atılan diplomatik addımların və görülən böyük işlərin siyasi məzmunu millətin varlığına hopdu. 28 may 1918-ci ildə elan edilmiş istiqlal və həmin istiqlalın simvolu kimi ucaldılmış üç rəngli, ay-ulduzlu bayraq tək XIX əsrin sonu - XX əsrin əvvəllərini əhatə edən milli mücadilə yolunun məntiqi yekunu olmayıb, həm də gediləcək yolun müəyyənedici ideoloji istiqaməti, milli hədəflərə doğru başlıca inkişaf strategiyası idi. 1991-ci ildə Azərbaycan Respublikasının Xalq Cümhuriyyətinin siyasi-mənəvi varisi olaraq, bərpa edilməsi 1918-1920-ci illərdə seçilən yolun doğruluğunun, aparılan diplomatik mübarizənin əhəmiyyətinin başlıca yekunu idi. 1998-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 80 illiyi ilə bağlı ümummilli lider Heydər Əliyevin imzaladığı sərəncamda deyilirdi: "Azərbaycan Xalq Cümhuriyyəti ölkənin daxilində və xaricində yaranmış gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə fəaliyyət göstərmişdir. Bu dövlətin qısa bir müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində böyük iz buraxmışdır. Milliyyətindən, siyasi və dini mənsubiyyətindən, cinsindən asılı olmayaraq, bütün vətəndaşlara bərabər hüquqlar verilməsi, dövlət sərhədlərinin müəyyən olunması, Azərbaycan dövlətçiliyi atributlarının qəbul edilməsi, ana dilinin dövlət dili elan olunması Azərbaycanın gələcək müstəqilliyi üçün möhkəm zəmin yaratmışdır. Demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, hərbi quruculuq sahələrində atılmış addımlar Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq fəaliyyətini əks etdirən əsas istiqamətlərdir...1991-ci ildə dövlət müstəqilliyini



downloaded from KitabYurdu.az

bərpa edən xalqımız Azərbaycan Xalq Cümhuriyyətinin qısamüddətli fəaliyyətinin zəngin ənənələrindən istifadə etmiş və bu tarixi varislik üzərində müstəqil Azərbaycan dövlətini yaratmışdır."[6] Bu qərar Azərbaycan dövlətçilik ənənələrinin bərpası, Xalq Cümhuriyyətinin zəngin irsinin qaldırılması və ona siyasi qiymət verilməsi baxımından mühüm dövlət sənədi oldu. 2008-ci ildə Xalq Cümhuriyyətinin 90 illiyinin dövlət səviyyəsində qeyd edilməsi ilə bağlı prezident İlham Əliyevin imzaladığı sərəncam bu siyasətin məntiqi davamı idi. Sərəncamda bildirilirdi: "Azərbaycan Xalq Cümhuriyyətinin öz dövlətçilik atributlarını qəbul etməsi, dövlət və hərbi quruculuq, iqtisadiyyat və mədəniyyət, təhsil və səhiyyə sahələrində atdığı addımlar xalqımız üçün taleyüklü əhəmiyyət kəsb etmişdir. Cümhuriyyətin böyük uğurlarından biri Paris Sülh konfransında 1920-ci il yanvarın 11-də Azərbaycanın müstəqil dövlət kimi tanınması olmuşdur".[7] 2009-cu ilin may ayının 27-də Respublika Günü münasibətilə keçirilən rəsmi qəbuldakı nitqində Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Xalq Cümhuriyyətinin tarixdəki rolunu yüksək qiymətləndirərək demişdir: "91 il bundan əvvəl Şərqdə - müsəlman aləmində ilk dəfə olaraq, demokratik respublika yaranmışdır. Bu hadisə tarixi hadisə idi. Çünki ilk növbədə, müsəlman aləmində ilk dəfə olaraq demokratik cümhuriyyət qurulur, digər tərəfdən Azərbaycan xalqı müstəqilliyə qovuşurdu... Azərbaycan xalqı və Azərbaycan dövləti Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə, onun qurucularının fəaliyyətinə həmişə hörmətlə yanaşmışdır. Keçən il Xalq Cümhuriyyətinin 90 illik yubileyini Azərbaycanda çox geniş və təntənəli şəkildə qeyd etmişdik. Bu gözəl tarix bu il də geniş şəkildə qeyd edilir. İki il bundan əvvəl imzaladığım sərəncama əsasən, Bakının mərkəzində, İstiqlaliyyət küçəsində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə abidə ucaldılmışdır. Bu tarix bizim tariximizdir və biz tarixdən həmişə ibrət dərsi götürməliyik".[8]

Azərbaycan Xalq Cümhuriyyəti dünya müharibəsinin başa çatması ilə müşayiət edilən gərgin diplomatik mübarizə şəraitində yarandı və fəaliyyət göstərdi. İnqilabın dağıtdığı Rusiya imperiyasının 1914-cü il hüdudlarında bərpa edilməsinə göstərilən cəhdlər 1918-1920-ci illərdə gənc Azərbaycan Respublikasından böyük diplomatik bacarıq, dünya siyasətinin dönüş məqamlarından baş çıxarmaq qabiliyyəti tələb edirdi. İki ilin hürriyyət sevdası ilə istiqlal davasının kəsişməsində Azərbaycan diplomatiyası bu mühüm vəzifənin öhdəsindən gələ bildi. Siyasi məzmunda Azərbaycan ideyasını dünyaya təqdim edənlər 1920-ci ildə diplomatik baxımdan bu ideyanın Versal Ali Şurası tərəfindən

[6] "Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamı. 30.01.1998.//Azərbaycan, 1998, 31 yanvar

[7] "Azərbaycan Xalq Cümhuriyyətinin 90 illik yubileyi haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamı. 15.02.2008.//Azərbaycan, 2008, 17 fevral

[8] Azərbaycan, 2009, 28 may



downloaded from KitabYurdu.az

beynəlxalq təsdiqlənməsinə nail oldular. Lakin Birinci Dünya müharibəsindən sonra formalaşan yeni geosiyasi proseslər Azərbaycan millətinin bu tarixi nailiyyətdən yetərincə faydalanmasına imkan vermədi. Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci ilin aprelində ölkə daxilində gedən siyasi proseslərin, məhəlli ziddiyyətlərin nəticəsi kimi deyil, dünya siyasətində baş verən mürəkkəb diplomatik çəkişmələrin nəticəsi kimi süqut etdi. Əslində, 1918-ci ildə Rusiya imperiyası hüdudlarında yaranmış yeni respublikaların, o cümlədən, Azərbaycanın beynəlxalq aləmə çətin inteqrasiya olması, ilk növbədə, Rusiyanın qalib Antantanın üzvü kimi dağılması ilə bağlı idi. Bu səbəbdən də dünya, yaxud onun taleyini müəyyən edən dairələr Rusiyanın dağılmasına və onun xarabalıqları üzərində yaranan yeni dövlətlərin tanınmasına hazır deyildilər. Bir növ Rusiya gözlənilmədən böhrana düşdüyü üçün bolşevizmə müvəqqəti hal kimi baxan müttəfiqlər onun köhnə hüdudlarda bərpa olunacağına ümidlərini itirməmişdilər və ona görə də, Rusiya ilə bağlı bütün məsələlərə son dərəcə ehtiyatla yanaşırdılar. Bu özünü müharibədən sonrakı dünya düzəninin baş memarı hesab edilən və kiçik xalqların dostu sayılan V.Vilsonun 14 sülh prinsipində də açıq şəkildə göstərirdi. Təxminən 70 il sonra SSRİ-nin dağılması nəticəsində Rusiyadan ayrılan 14 respublika 1918-ci ildə hələ ki, V.Vilsonun 14 maddəsində yox idi. Məhz belə bir şəraitdə Azərbaycanın müstəqilliyinin 1920-ci ildə Versal Ali Şurası tərəfindən de-fakto tanınması 1919-cu ilin payızından etibarən dəyişən siyasi vəziyyətlə yanaşı, Azərbaycan diplomatiyasının mühüm uğuru, onun Paris Sülh konfransındakı say etibari ilə kiçik olan heyətinin böyük qələbəsi idi.

Mövcud olduğu dövrün mürəkkəb tarixi şəraiti nəzərə alınmaqla Azərbaycan Xalq Cümhuriyyətini quranlar, onun xarici siyasətini həyata keçirənlər dünyəvi dəyərlərə, demokratik prinsiplərə söykənən çağdaş bir cümhuriyyət yaratmaqla oriyentasiya olaraq, dünya siyasəti və coğrafiyasında azərbaycanlıların yerini müəyyən etdilər. Onlar tək azərbaycanlıların dünyaya baxışını deyil, dünyanın da Azərbaycana baxışlarını dəyişə bildilər. Cümhuriyyətin qurulmasının bir illiyi ilə bağlı Ü.Hacıbəyli 1919-cu ilin may ayının 28-də rəsmi dövlət qəzeti olan "Azərbaycan"da yazırdı: "Bizim vücudumuzu aləmi-mədəniyyət üçün təhlükəli təsəvvür edənlər ilə bir balaca təmas lazım imiş ki, bu fikrin və bu nəzərin sırf yalan və yanlış olduğu meydana çıxsın."[9]

Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin təmin edilməsi Xalq Cümhuriyyəti diplomatiyasının çıxış nöqtəsini təşkil etmişdir. Bu baxımdan Azərbaycan Xalq Cümhuriyyəti, onun diplomatiyasının ən mühüm xidmətlərindən biri Cənubi Qafqazda azərbaycanlıların milli hüdudlarının müəyyənləşdirilməsi ilə bağlı idi. 1918-1920-ci illərdə respublikanın mübahisəsiz əraziləri 97.297,67 kvadrat kilometr, mübahisəli torpaqlarla birlikdə isə bu ərazilərin ümumi sahəsi

[9] Azərbaycan, 1919, 28 may



downloaded from KitabYurdu.az

113.895,97 kvadrat kilometr idi.[10] Sovetləşmədən sonra Azərbaycanın əraziləri ciddi şəkildə azalmağa başladı və bu ərazilərin ümumi sahəsi 86,6 min kvadrat kilometrə endirildi. Sovetləşmənin ilk illərində bu ədalətsizliyə dözməyərək, Azərbaycanın tarixi torpaqlarının mərkəzi bolşevik hökuməti tərəfindən Ermənistana verilməsinə qarşı etiraz edən N.Nərimanov V.İ.Leninə yazırdı: "Müsavat hökuməti dövründə mübahisəsiz hesab olunan Azərbaycan əraziləri sovet hakimiyyətinin qələbəsindən sonra mübahisə subyekti olmağa başlamışdır. Şübhəsiz ki, xalq bunları görür və narazılığını ifadə edir."[11] Aprel çevrilişindən az sonra, 1920-ci ilin iyulunda Qafqazda nüfuzlu hesab edilən bolşeviklər Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanov, RK(b)P Qafqaz bürosunun üzvləri Mdivani, AK(b)P MK üzvləri Mikoyan və Naneyşvili, XI Ordunun hərbi şurasının üzvləri Vesnik, Levandovski və Mixaylov birlikdə imzalayıb, Moskvaya Rusiya Kommunist (bolşevik) Partiyasının Mərkəzi Komitəsinə göndərdikləri sənəddə yazırdılar: "Müsavat hökuməti dövründə Qarabağ bütövlükdə Azərbaycanın tərkibində olmuşdur."[12] Azərbaycanın pozulmuş sərhədlərinin bərpa edilməsi və ərazi bütövlüyünün təmin edilməsi istiqamətində diplomatik mübarizənin getdiyi, yaxın tariximizin diplomatik sənədlərdə əks olunmuş həqiqətlərinin təhrif olunmasına meyllərin gücləndiyi müasir dövrdə bu yazışmalar indi də öz siyasi əhəmiyyətini saxlamaqdadır.

Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasət tarixinin öyrənilməsinə, diplomatik addımlarının araşdırılmasına ilk cəhdlər hələ cümhuriyyətin öz dövründə olmuşdur. Bu baxımdan Ə.M.Topçubaşov, M.Ə.Rəsulzadə, A.Ziyadxanov, R.Vəkilov, C.Hacıbəyli, Y.V.Çəmənzəminli və digərlərinin nəşr olunmuş kitabça və broşurlarında Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti ilə bağlı maraqlı məqamlar vardır.[13]

Azərbaycan Xalq Cümhuriyyətinin devrilməsindən sonra xarici ölkələrə mühacirət etmiş cümhuriyyət xadimləri, ayrı-ayrı ziyalıların dünyanın müxtəlif ölkələrində nəşr etdirdikləri əsərlər 1918-1920-ci illərdə həyata keçirilmiş

---

[10] Адрес-календарь Азербайджанской Республики. Под ред. А.М.Ставровского. Баку, 1920. с.50

[11] Daha ətraflı məlumat üçün bax: "Azərbaycanda sovet quruculuğunun yekunları" haqqında N.Nərimanovun V.İ.Leninə hesabatı. 15.09.1921.// Rusiya Dövlət Sosial Siyasi Tarix Arxivi (RDSSTA), f.5, s.1, i.1219, v.12; N.Nərimanovun V.İ.Leninə məktubu.// Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi yanında Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivi (ARPİİ SPİHDA), f.609, s.1, i.71, v.41; B.Şaxtatinskinin V.İ.Leninə məktubu. 20.09.1920.// Rusiya Federasiyası Xarici Siyasət Arxivi (RF XSA), f.1, s.51, q. 321a, i.54859, v.6-7

[12] Nərimanov, Mdivani, Mikoyan, Naneyşvili, Vesnik, Levandovski və Mixaylovun RK(b)P MK-ya məktubu. 10.07.1920.//ARPİİ SPİHDA, f.1, s.44, i.118, v.25

[13] Ə.M.Topçubaşov. Azərbaycanın təşəkkülü. İstanbul, 1918; M.Ə.Rəsulzadə. Azərbaycanın təşkilində müsavat. Bakı, 1920; A.Ziyadxanlı. Azərbaycan. Bakı, 1919; R.Vəkilov. Azərbaycan Cümhuriyyətinin yaranma tarixi.// Azərbaycan, 1919, 28 may; Djeyhoun Bey Hadjibeyli. La premiera Republique musulmane: l'Azerbaidjan. Editions Ernest Leroux, vol. XXXVI, Paris, 1919; Y.V.Çəmənzəminli. Biz kimik və nə istəyirik. Bakı, 1919



downloaded from KitabYurdu.az

Azərbaycan diplomatiyasının bir sıra qaranlıq səhifələrini aydınlaşdırmağa imkan verir.[14]

1920-ci ildə Azərbaycan Cümhuriyyətinin devrilməsindən sonra sovet dövrü tarixşünaslığında 1918-1920-ci illərin hadisələri ideoloji baxımdan araşdırılsa da, xarici siyasət məsələləri ilə bağlı Azərbaycan hökumətinin siyasəti, əsasən, sovet ideologiyasının tələbləri baxımından təqdim edilsə də, xüsusilə, ilk dövrlərdə yazılmış əsərlərdə çoxsaylı sənəd və materiallar dövriyyəyə gətirilmişdir.[15]

Azərbaycan Xalq Cümhuriyyətinin diplomatik fəaliyyətinin araşdırılması bir sıra Qərb tədqiqatçılarının da diqqət mərkəzində olmuş, müxtəlif ölkələrdə nəşr olunmuş ayrı-ayrı əsərlərdə 1918-1920-ci illərdə Azərbaycan hökumətinin həyata keçirdiyi xarici siyasət xəttinin işıqlandırılmasına geniş yer verilmişdir.[16]

Qərb ölkələri ilə yanaşı, Azərbaycan Xalq Cümhuriyyətinin diplomatik fəaliyyəti Türkiyə tarixçilərinin də daim diqqət mərkəzində olmuşdur. Türk

---

[14] M.Ə.Rəsulzadə. Azərbaycan Cümhuriyyəti. İstanbul, 1923; М.Э.Расул-заде. О пантуранизме (В связи с Кавказской проблемой). Париж, 1930; Mir Yaqub. Dünya siyasətində petrol. İstanbul, 1928; Mir - Yacoub. Le probleme du Caucase. Paris, 1933; M.Məmmədzadə. Milli Azərbaycan hərəkatı. Berlin, 1938

[15] Ю.А.Ратгаузер. Борьба за Советский Азербайджан. Баку, 1929; Его же. Революция и гражданская война в Баку, ч.1. 1917-1918. Баку, 1927; А.Раевский. Английская интервенция и мусаватское правительство. К истории интервенции и контрреволюции в Закавказье. Баку, 1927; Его же. Английские «друзья» и мусаватские «патриоты». Баку, 1927; Его же. Мусаватское правительство на Версальской конференции. Донесения представителей Азербайджанской мусаватской делегации. Баку, 1931; А.Стеклов. Армия Мусаватского Азербайджана. Баку, 1928; И.А.Гусейнов. Баку в захватнических планах английских империалистов в 1918 г.// Труды Азерб. филиала ИМЭЛ. Т. XIII. Баку, 1947; Z.İbrahimov. İngilis - Amerikan müdaxiləçilərinə qarşı Azərbaycan xalqının mübarizəsi. Bakı, 1950; Е.А.Токаржевский. Из истории иностранной интервенции и гражданской войны в Азербайджане. Баку, 1957; Б.Е.Штейн. "Русский вопрос" на Парижской мирной конференции (1919-1920 гг.). М., 1949; А.И.Базиянц. К вопросу о захватнической политике США в Азербайджане (1919-1920).// Уч. зап. ин-та востоковедения. Т.XIX. М., 1958

[16] F.Kazemzadeh. The Struggle for Transcaucasus (1917-1921). New-York, 1951; W.Allen, P.Muratof. Caucasian Battlefields: A History of the Wars and Turco - Caucasian Border (1828-1921). Cambridge, 1953; R.Pipes. The Formation of the Soviet Union; Communist and Nationalism, 1917-1923. Cambridge, 1964; V.Kolarz. Russia and Her Colonial. London, 1953; I.Spector. The Soviet Union and the Moslem World. 1917-1958; Wash. 1958; N.S.Fatemi. Diplomatic History of Russia. 1917-1923; N.Y.; 1952; A.Bennigsen, E.Wimbush. Moslem National Communism in the Soviet Union: A Revolutionary Strategy for the Colonial World. Chicago, London, 1979; R.Ullman. Anglo-Soviet Relations 1917-1921. London, 1968; L.Fisber. The war for Baku. "Oil Imperialism". Ch.1. London, 1976; R.Suny. The Baku Commune, 1917-1918: Class and Nationalist. Princeton (N.Y.), 1972; T.Swietochowski. Russian Azerbaijan, 1905-1920: The Shaping of National Identity in Moslem Community. Cambridge, 1985; T.Swietochowski. Russia and Azerbaijan: A Borderland in Transition. New York, 1995; T.Swietochowski and B.Collins. Historical Dictionary of Azerbaijan. Lanham, 1999; A.Alstadt. The Azerbaijani Turks: Power and Identity under Russian Rule. Stanford, 1992; R.Teague-Jones. The Spy Who Disappeared: Diary of a Secret Mission to Russian Central Asia in 1918. London, 1990; Peter Hopkirk. On Secret Service East of Constantinople. The Plot to Bring Down the British Empire. John Murray, London, 1994



downloaded from KitabYurdu.az

tarixçilərinin əsərlərində Azərbaycan - Türkiyə münasibətləri, Birinci Dünya müharibəsinin sonunda Osmanlı imperatorluğunun Qafqaz siyasəti, Azərbaycanla bağlı beynəlxalq münasibətlərin bəzi məsələləri, Cənubi Qafqazda və Anadoluda erməni probleminin beynəlxalq tərəfləri ətraflı şəkildə araşdırılmışdır.[17]

1991-ci ildə Azərbaycan öz müstəqilliyinə qovuşduqdan sonra Xalq Cümhuriyyətinin tarixinə, onun liderlərinin həyat və fəaliyyətinə böyük maraq yaranmışdır. Bu baxımdan, Azərbaycan hökumətinin xarici siyasət kursunun və diplomatik fəaliyyətinin öyrənilməsi sahəsində ciddi uğurlar əldə edilmiş, dərin elmi tədqiqat xarakteri daşıyan monoqrafik əsərlər nəşr edilmiş, doktorluq və namizədlik dissertasiyaları müdafiə edilmişdir. Bu əsərlər və araşdırmalarda uzun müddət qapalı mövzulardan sayılan Cümhuriyyət tarixinin dərin elmi və siyasi mənzərəsi yaradılmışdır.[18]

Azərbaycan Xalq Cümhuriyyətinin diplomatik fəaliyyətinin araşdırılması zamanı memuar ədəbiyyatından da geniş istifadə edilmişdir. Dövrün tanınmış dövlət xadimlərinin, siyasətçilərinin və diplomatlarının müxtəlif illərdə nəşr

---

[17] Kurat A.Nimet. Birinci dünya savaşında Türkiye'de bulunan Alman generallerinin raporları. Ankara, 1966; Yene onun. Türkiye ve Rusiya. Ankara, 1970; H.Baykara. Azerbaycan İstiklal Mücadelesi Tarihi. İstanbul, 1975; N.Devlet. Rusya Türklerinin Milli Mücadele Tarihi (1905-1917). Ankara, 1985; Mim Kemal Öke. Ermeni Meselesi. İstanbul, 1986; A.Süslü. Ruslara göre Ermenilerin yaptıkları mezalim. Ankara, 1987; T.Sünbül. Azerbaycan Dosyası. Ankara, 1990; Hüsamettin Yıldırım. Rus-Türk-Ermeni Münasebetleri (1914-1918). Ankara, 1990; S.Tansel. Mondros'tan Mudanya'ya kadar. C.I, III, IV, İstanbul, 1991; N.Yücer. Birinci dünya Savaşında Osmanlı Ordusunun Azerbaycan ve Dağıstan Harekatı. Ankara, 1996; N.Erdağ (Akgül). Milli mücadile döneminde Kafkas Cümhuriyyetleri ile ilişkiler (1917-1921). Ankara, 1994; S.Kılıç. Ermeni sorunu ve Almaniya – Türk ilişkileri Alman Arşiv Belgelerile. İstanbul, 2003; N. Mazıcı. ABD`nin Guney Kafkasya Politikası Olarak Ermenistan Sorunu 1919-1921. İstanbul, 2005; Omer Engin Lutem. The Armenian Demands at Paris Peace Conference of 1919.// Review of Armenian Studies, no. 11-12, vol.4, 2007

[18] N.Nəsibzadə. Azərbaycanın xarici siyasəti. Bakı, 1996; İ.Musayev. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı, 1996; yenə onun. Azərbaycanın xarici siyasəti (XX əsr). Bakı, 2001; M.Qasımov. Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914-1918-ci illər). II hissə, Bakı, 2001; M.Qasımlı, E.Hüseynova. Azərbaycanın xarici işlər nazirləri. Bakı, 2003; X.İbrahimli. Azərbaycan siyasi mühacirəti. Bakı, 1996; M.Süleymanov. Azərbaycan ordusu (1918-1920). Bakı, 1998; Yenə onun. Qafqaz İslam ordusu və Azərbaycan. Bakı, 1999; Azərbaycan tarixi. VII clddə, V cild. Bakı, 2001; Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. I-II cildlər. Baş redaktor, Y.Mahmudov. Bakı, 2004-2005; R.Hətəmov. Almaniya - Osmanlı münasibətlərində Azərbaycan amili (1917-1918-ci illər). Namizədlik dissertasiyasının avtoreferatı. Bakı, 2005; Азербайджанская Демократическая Республика (1918-1920 гг.). Отв. ред. Н.Агамалиева. Баку, 1998; Р.С.Мустафазаде. Две республики. Азербайджано-российские отношения в 1918-1922 гг. М., 2006; Азербайджанская Демократическая Республика. Сборник статей. Сост. Р.Абуталыбов. М., 2008; А.Балаев. Мамед Эмин Расулзаде (1884-1955). М., 2009; С.М.Исхаков. Российские мусульмане и революция (весна 1917 - лето 1918). М, 2004; А.Гаджиев. Демократические республики Юго-Западного Кавказа (Карская и Аракс-Тюркская республики). Баку, 2004; П.Дарабади. Военные проблемы политической истории Азербайджана начала XX века. Баку, 1991; С.З.Юсифзаде. Первая Азербайджанская республика: история, события, факты англо-азербайджанских отношений. Баку, 1998.



downloaded from KitabYurdu.az

olunmuş xatirələrində böyük dövlətlərin Azərbaycana münasibətdə yeritdiyi siyasət, Birinci Dünya müharibəsinin sonunda Bakı uğrunda apardıqları gərgin mübarizə, Azərbaycanın müstəqilliyinin Paris Sülh konfransı tərəfindən tanınması ilə bağlı maraqlı səhnələr vardır.[19]

Azərbaycan Xalq Cümhuriyyətinin diplomatik fəaliyyətinin araşdırılması, 1918-1920-ci illərdə həyata keçirilən xarici siyasətin dolğun mənzərəsinin yaranması məqsədilə müəllif respublika və xarici ölkələrdə saxlanılan çoxsaylı arxiv sənədlərinə müraciət etmişdir. Azərbaycan hökumətinin, onun xarici işlər nazirliyinin, qonşu ölkələrdəki diplomatik nümayəndəliklərinin, Paris Sülh konfransında iştirak etmiş Azərbaycan heyətinin fəaliyyətini əhatə etmək üçün Azərbaycan Dövlət Arxivi, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi yanında Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivi, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Arxiv İdarəsinin, Rusiya Dövlət Sosial Siyasi Tarix Arxivi, Rusiya Federasiyası Xarici Siyasət Arxivi, Fransa Xarici İşlər Nazirliyinin Diplomatik Arxivi, Böyük Britaniya Xarici İşlər Nazirliyinin Arxivi və Birləşmiş Ştatların Dövlət Departamentinin sənəd və materiallarından geniş istifadə etmişdir. Göstərdikləri diqqət və qayğıya görə, müəllif bütün arxiv işçilərinə təşəkkür edir. Bu əsərin yazılmasında və nəşrə hazırlanmasında verdiyi tövsiyələrə və praktiki köməyə görə müəllif Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin rəhbərliyinə, nazirliyin nəzdində yaradılmış redaksiya şurasının üzvlərinə öz dərin minnətdarlığını bildirir.

[19] З.Авалов. Независимость Грузии в международной политике. Париж, 1924; Б.Байков. Воспоминания о революции в Закавказье (1917-1920 гг). Берлин, 1922; А.И.Деникин. Очерки русской смуты. М., 1991; П.Н. Милюков. Воспоминания. М., 1991; Д. Ллойд Джордж. Военные мемуары. Т.I-VI. М., 1934-1938; Его же. Правда о мирных договорах. Т.2. М, 1957; У.Черчиль. Мировой кризис. М., 1932; Ф.Нитти. Вырождение Европы. М.-Пг., 1923; М.Кемаль. Воспоминания президента Турецкой республики. М., 1924; Э.Людендорф. Мои воспоминания о войне. Т.2, М., 1924; Л.Денстервиль. Британский империализм в Баку и Персии в 1917-1918 гг. Тифлис, 1925; A.Rowlinson. Adventures in the New East, 1918-1922, London-New-York, 1923; R.MacDonell. And Nothings Long. London. 1938; Haydar Bammate. Le Caucase et la revolution Russe. Paris, 1929; C.E.Bechofer. In Denikin's Russia and the Caucase, 1919-1920. London 1921; Talat Paşanın Hatıraları. İstanbul, 1946; Записки Джемал паши (1903-1919). Тифлис. 1923; K.Karabekir. İstiklal Harbimiz. İstanbul, 1988; S.İzzet. Büyük Harbte (1918) 15 Piyade Tameninin Azerbaycan ve Şimali Kafkasiyadakı Hareket ve Müharibeleri. İstanbul, 1936



downloaded from KitabYurdu.az

## I FƏSİL

### 1917-ci ilin fevral inqilabından sonra Cənubi Qafqazda vəziyyət və region uğrunda diplomatik mübarizənin başlanması

Azərbaycanın istiqlalı 1918-ci ilin may ayının 28-də elan edilsə də, Cənubi Qafqazın beynəlxalq münasibətlərə daxil olması bir qədər tez baş verdi. Birinci dünya müharibəsinin sonunda yanacağa olan ehtiyacın artması vuruşan ölkələrin Qafqaza marağını artırmış, neft uğrunda mübarizə Bakını qarşı-qarşıya dayanan hərbi blokların cazibə mərkəzinə çevirmişdi. Qafqaz cəbhəsində baş verən ziddiyyətli dəyişikliklər, 1917-ci il rus inqilabının siyasi sarsıntıları, bütövlükdə Cənubi Qafqazdan və o cümlədən, Azərbaycandan da yan keçməmişdi. Ölkənin taleyi ilə bağlı həyati əhəmiyyətli məsələlər Azərbaycan aydınlarını daha fəal şəkildə siyasi proseslərə cəlb etmiş, bölgədə baş verən hərbi, siyasi və diplomatik xarakterli hadisələr onları tarixin sınağından keçirmişdi. Cənubi Qafqazla bağlı siyasi vəziyyətin tez-tez dəyişdiyi 1917-ci ildə, Trabzon və Batum konfranslarının keçirildiyi tarixi şəraitdə Azərbaycanın qabaqcıl siyasi xadimləri müstəqillik ərəfəsində maraqlı diplomatik təcrübə toplamışdılar.

Birinci dünya müharibəsi Rusiyaya görünməmiş fəlakətlər gətirdi, ictimai-siyasi həyatın bütün axarlarında ziddiyyətləri kəskinləşdirdi. 1917-ci ilin fevral inqilabı çar monarxiyasını devirməklə yanaşı, imperiya ənənələrinə də ağır zərbə endirdi, "xalqlar həbsxanası" olan Rusiya imperiyasında milli azadlıq meylləri genişləndi. Mütləqiyyətin devrilməsi Cənubi Qafqazda siyasi prosesləri sürətləndirdi və sonrakı dövrdə hadisələrin inkişafına ciddi təkan verdi. Fevral inqilabından sonra yaranmış Müvəqqəti hökumətin ilk addımlarından biri Cənubi Qafqazın idarə edilməsi ilə bağlı xüsusi qurum yaratmaqdan ibarət oldu. Bu məqsədlə mart ayının 9-da Cənubi Qafqazı idarə etmək üçün Dövlət Dumasının yerli üzvlərindən ibarət Xüsusi Zaqafqaziya Komitəsi (OZAKOM) yaradıldı ki, ona da rus kadeti V.A.Xarlamov sədrlik edirdi. Komitənin tərkibinə gürcü menşeviki A.İ.Çxenkeli, sosial federalist K.Abaşidze, azərbaycanlı kadet, sonralar Xalq Cümhuriyyətinin dördüncü hökumət kabinetində xarici işlər naziri vəzifəsini tutmuş Məmməd Yusif Cəfərov və erməni kadeti M.M.Papacanov daxil idilər.

Xüsusi Komitə bilavasitə Müvəqqəti hökumətə tabe idi. Bu orqan mülki işləri idarə etmək üçün təsis edildiyindən qanunvericilik hüququna malik deyildi. Bir sıra məhdud cəhətlərinə görə Xüsusi Komitə kollektiv canişinlik təsiri bağışlayır və hadisələrin gərginliyi fonunda batıb qalırdı. Digər tərəfdən, fevral inqilabından ruhlanmış Zaqafqaziya xalqlarının siyasi azadlıqlara, muxtariyyətə olan güclü meyli, habelə çoxlu milli partiya və təşkilatların fəaliyyətinin leqallaşması, bölgəyə beynəlxalq marağın artması və digər mühüm amillər Cənubi Qafqazın idarəçiliyini xeyli çətinləşdirmişdi.



downloaded from KitabYurdu.az

Mütləqiyyətin devrilməsi ilə nəticələnmiş fevral inqilabından azərbaycanlılar da çox şey gözləyirdilər. XX əsrin əvvəllərindən başlayaraq milli hərəkatda, siyasi proseslərdə fəal iştirak etmiş qabaqcıl ziyalılar rus inqilabını sevinclə qarşıladılar. "Molla Nəsrəddin" jurnalı öz səhifələrində mütləqiyyətin devrilməsini Azərbaycan xalqı üçün xoşbəxtlik hesab edirdi.[20] M.Ə.Rəsulzadənin fikrincə, "1917-ci il inqilabı məhkum siniflərə hürriyyət, məhkum millətlərə də muxtariyyət verəcəkdi".[21] İnqilab xəbərini alan kimi Bakıda müxtəlif milli qruplar, neft sənayeçiləri ittifaqı və digər təşkilatlar şəhəri idarə etmək üçün İctimai Təşkilatların İcraiyyə Komitəsini yaratdılar. Komitəyə sağ menşevik L.L.Biç sədrlik edirdi. İcraiyyə Komitəsində azərbaycanlı əhalinin nümayəndələri kimi M.H.Hacınski və M.Ə.Rəsulzadə də təmsil edilirdilər. Fevral inqilabından sonra leqal vəziyyətə çıxan bolşeviklərin fəaliyyəti də şəhərdə genişlənməyə başladı, lakin onlar yeni formalaşan Bakı Sovetində azlıq təşkil edirdilər. Martın 6-da 52 min fəhlə və qulluqçu tərəfindən seçilmiş Bakı Sovetinin 52 üzvündən cəmi 9 nəfəri bolşevik partiyasının üzvü idi.[22] Sovetin ilk iclasına menşevik Q.Ayolla sədrlik etsə də, mart ayının 8-də sürgündən qayıtmış S.Şaumyan qiyabi şəkildə Sovetin sədri seçildi. Lakin tezliklə o, öz yerini eserlərin lideri Sako Saakyana verməli oldu.[23]

Bakıda fəallaşan müsəlman milli təşkilat və cəmiyyətləri 1917-ci ilin mart ayının 27-də şəhərdə Müsəlman Milli Şurasının Müvəqqəti İcraiyyə Komitəsini yaratdılar. Şuranın İcraiyyə Komitəsinə az sonra yaranan Azərbaycan Xalq Cümhuriyyətinin ilk xarici işlər naziri, hüquqşünas Məmməd Həsən Hacınski sədrlik edirdi. Şurada ən böyük nüfuza malik olan partiya "Müsavat" partiyası idi və siyasi proseslərin dərinləşməsi fonunda tezliklə bu partiya Ümumazərbaycan partiyasına çevrildi. 1917-ci ilin oktyabr ayında Bakı Sovetinə keçirilən yeni seçkilərdə "Müsavat" 25 min seçicidən 9617 nəfərinin - yəni bütün seçicilərin 40 faizinin səsini qazanmışdı. Halbuki özləri üçün əlverişli şəraitdə keçirilən bu seçkilərdə bolşeviklər 3823, eserlər 6305, menşeviklər 687, daşnaklar 528 seçicinin səsini ala bilmişdilər.[24] Bakı Sovetinə keçirilən oktyabr seçkiləri qüvvələr nisbətinin hansı siyasi partiyanın xeyrinə olduğunu nümayiş etdirdi. Bu uğurlar bir tərəfdən müsəlman kütlələrinin siyasi proseslərə fəal cəlb edilməsi ilə bağlı idisə, digər tərəfdən milli təşkilatların Rusiyanın ərazi muxtariyyəti prinsipi üzərində qurulması tələbi və müsəlmanlara geniş siyasi hüquqlar verilməsi ideyasını irəli sürmələri ilə bağlı idi.

Milli-ərazi muxtariyyət ideyası ilk dəfə Qafqaz müsəlmanlarının aprel ayının 15-dən 20-dək keçirilən Bakı qurultayında müzakirəyə çıxarıldı. Qurultay

---

[20] Molla Nəsrəddin, 1917, № 5
[21] M.Ə. Rəsulzadə. Azərbaycan Cümhuriyyəti. Bakı, 1990, s.26.
[22] Баку, 1917, 9 марта
[23] Сурен Шаумян. Бакинская коммуна 1918 года//Пролетарская революция, 1926, № 12, с.71
[24] Каспий, 1917, 25 октября



downloaded from KitabYurdu.az

fevral inqilabının qələbəsindən sonra Nəsib bəy Usubbəyovun başçılığı ilə Gəncədə yaranmış Türk-ədəmi mərkəziyyət və Müsavat partiyalarının milli demokratik prosesdə qabaqcıl rol oynadığını nümayiş etdirdi. Gərgin müzakirələrdən sonra qurultay milli məsələyə dair bu məzmunda qərar qəbul etdi: "Federativ əsaslarla demokratik respublika Rusiya dövlət quruluşunun müsəlman xalqlarının mənafeyini ən yaxşı təmin edən forması kimi tanınsın".[25]

Bakı qurultayı milli məktəblərin dövlət tərəfindən müdafiə edilməsi, ana dilində universitet açılması Zaqafqaziya Xüsusi Komitəsinin müsəlmanlar hesabına genişləndirilməsi, müsəlman əhalisinin siyahıya alınması və gözlənilən təhlükə ilə əlaqədar onun hərbi potensialının öyrənilməsinin zəruriliyini də qeyd etdi.[26] Məhəlli muxtariyyət tərəfdarı olan türkçülərlə milli mədəni muxtariyyət tərəfdarı olan islamçılar və sosialistlər arasındakı mübahisə Bakı qurultayından 10 gün sonra 1917-ci ilin may ayının 1-də Moskvada keçirilən Ümumrusiya müsəlman qurultayında da davam etdi. Moskva qurultayında sosialistlər məhəlli muxtariyyətə etirazlarını onunla əlaqələndirirdilər ki, guya məhəlli muxtariyyət inqilabın nailiyyətlərinin məhvi ilə nəticələnər, milli mədəni muxtariyyət çərçivəsində isə Mərkəzi Rusiya hökuməti müsəlmanların hüquqlarının qorunmasının təminatçısı olar.

May ayının 3-də qurultayda əsas məruzə ilə çıxış edən M.Ə.Rəsulzadə ərazi muxtariyyətinin tələb edilməsinin zəruriliyini tutarlı dəlillərlə izah etdi. İslam amilini ön plana gətirənlərə o bildirdi ki, artıq bir çox türk xalqları anlamağa başlayıblar ki, "əvvəlcə onlar türkdürlər, sonra isə müsəlman". M.Ə.Rəsulzadə qeyd edirdi ki, məsələni belə qoymaq lazımdır: "Millət nə deməkdir? Mən əminəm ki, millət üçün zəruri olan amillər dil, tarixi əlaqələr, adət və ənənələrin ümumiliyindən ibarətdir. Bəzən türk tatardan onun milliyyəti haqqında soruşduqda, o cavab verir ki, müsəlmanam. Lakin bu səhv nöqteyi-nəzərdir. Xristian milləti mövcud olmadığı kimi, islam milləti də mövcud deyildir. Bu böyük müsəlman evində türkün, farsın, ərəbin ayrıca mənzili olmalıdır."[27] Uzun müddət sovet və xarici ədəbiyyatda pantürkizmdə günahlandırılan M.Ə.Rəsulzadə qurultaydakı məruzəsində türk xalqlarının bir-birindən xeyli dərəcədə fərqləndiyini qeyd edirdi. Mədəni-milli muxtariyyət tərəfdarlarının güclü müqavimətinə baxmayaraq, may ayının 7-də qurultayın 6-cı iclasındakı səsvermədə M.Ə.Rəsulzadənin məruzəsində irəli sürülən məhəlli muxtariyyət ideyası 271 səsə qarşı 446 səslə qəbul edildi.[28] Rusiya müsəlmanlarının Moskva qurultayında məhəlli muxtariyyət ideyasının qələbəsindən sonra məqsəd və məramları bir-birinə yaxın olan Türk-ədəmi

---

[25] Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), f.970, s.l, i.18, v.3
[26] Azərbaycan Cümhuriyyəti (1918-1920). Bakı, 1998, s.39
[27] İhsan İlgar. Rusiya'da Birinci müslüman Kongresi tutanakları. Ankara, 1990, s.164-165
[28] С.М.Исхаков. Российские мусульмане и революция (весна 1917 г.- лето 1918 г.) - Москва, 2004, с. 176



downloaded from KitabYurdu.az

mərkəziyyət və Müsavat partiyaları birləşməyi qərara aldılar. May-iyun aylarında hazırlıq işləri başa çatdırıldıqdan sonra iyun ayının 20-də Bakıda keçirilən I qurultayda hər iki partiyanın birləşdirilməsi prosesi başa çatdırıldı və birgə mərkəzi komitə yaradıldı. "Türk-ədəmi mərkəziyyət Müsavat partiyası"nın Mərkəzi Komitəsinə M.Ə.Rəsulzadə, M.H.Hacınski, R.Vəkilov, X.Rəfibəyov, N.Usubbəyov, Ş.Rüstəmbəyov, A.Ağazadə və M.Axundov daxil oldular. Bununla da qısa vaxtda Müsavat partiyası təkcə Bakıda deyil, bütün Azərbaycanda böyük siyasi qüvvəyə çevrildi. Birləşdirici qurultaydan sonra "Türk-ədəmi mərkəziyyət Müsavat partiyası" təcili olaraq öz nümayəndələrini Daşkəndə göndərdi. Bu nümayəndələr Türküstanın ayrı-ayrı şəhərlərində keçirilən toplantılarda Türküstan federalistlər partiyasının yaradılmasında mühüm rol oynadılar.[29]

Siyasi partiyalara daxil olmayan nüfuzlu Azərbaycan ziyalıları da fevral inqilabının nailiyyətlərinin qorunub saxlanmasını zəruri hesab edirdilər. Müvəqqəti hökuməti devirməyə yönəlmiş Kornilov qiyamı baş verdikdə məşhur siyasi xadim Əlimərdan bəy Topçubaşovun imzası ilə Cənubi Qafqazda müsəlmanların rus inqilabına həmrəy olduğunu əks etdirən vərəqələr yayıldı. Eyni zamanda müsəlman əhalisini siyasi proseslərə daha yaxından cəlb etmək üçün 1917-ci ilin yayında Bakıda Müsəlman Milli Komitəsi yenidən təşkil edildi, Ə.M.Topçubaşov Komitənin sədri seçildi. Yeni Komitənin üzvlərindən olan Fətəli xan Xoyski Müəssislər Məclisinə seçkilərlə bağlı çağırılmış xüsusi müşavirədə iştirak etmək üçün Petroqrada ezam olundu.

1917-ci ilin oktyabr çevrilişi xalqların milli müstəqilliyə olan ümidlərini daha da artırdı. Bu ümidlər xeyli dərəcədə bolşeviklərin ilk günlərdə elan etdikləri bəyannamələrdən qidalanırdı. Sülh haqqında dekret, habelə "Rusiya xalqlarının hüquq bəyannaməsi", Rusiyanın və Şərqin müsəlman zəhmətkeşlərinə müraciətnaməsi ilk addım kimi keçmiş imperiyaya daxil olan xalqların azad surətdə ayrılıb öz müstəqil dövlətlərini yaratmaq üçün hüquqi təminat verirdi. Lakin az sonra məlum oldu ki, bu sənədlər real əməli addımlardan uzaq olub, daha çox təbliğat xarakteri daşıyır. Tanınmış sovetoloq V.Kolarzın qeyd etdiyi kimi, "1917-ci ilin Oktyabr inqilabı rus müstəmləkəçiliyinə son qoymaq əvəzinə ona yeni təkan verdi".[30] Bütün bunların nəticəsi olaraq fevral inqilabından sonra Rusiya ərazisində yaranmış müxtəlif idarəçilik formaları Petroqraddakı Xalq Komissarları Sovetini tanımayacaqlarını elan etdilər.

Petroqradda Oktyabr hadisələri baş verən gün Bakıda beş gün davam edən Müsavat partiyasının birinci qurultayı işə başladı. Qurultay yaranmış vəziyyətdə

[29] С.М.Исхаков. Российские мусульмане и революция, с. 176
[30] V.Kolarz. Russia and her Colonia. London, 1953, p.7



downloaded from KitabYurdu.az

Azərbaycana milli ərazi muxtariyyəti verilməsinin taktiki və strateji istiqamətlərini müəyyən etdi.[31] M.Ə.Rəsulzadə partiya MK-nın sədri seçildi.

Noyabr ayının 11-də Tiflisdə Cənubi Qafqazda fəaliyyət göstərən siyasi təşkilatların yığıncağı keçirildi. Gürcü menşeviklərinin rəhbəri Noy Jordaniya geniş nitq söyləyib bildirdi ki, son yüz ildə Cənubi Qafqaz Rusiya ilə çiyin-çiyinə olmuşdur və özünü "Rusiya dövlətinin ayrılmaz hissəsi" hesab etmişdir. İndi bizə bədbəxtlik üz vermişdir. Rusiya ilə əlaqə kəsilmiş və Cənubi Qafqaz tək qalmışdır. Biz ayağa qalxmalıyıq, ya özümüzü xilas etməliyik, ya da anarxiya burulğanında məhv olmalıyıq. Sonra Jordaniya Cənubi Qafqazı fəlakətdən xilas etmək üçün müstəqil yerli hökumət yaradılmasını təklif etdi. Qərara alındı ki, Məclisi Müəssisan tərəfindən hakimiyyət məsələsi həll edilənə qədər regionu idarə etmək üçün Cənubi Qafqaz komissarlığı yaradılsın. Noyabrın 15-də yeni yaradılmış hökumətin tərkibi elan edildi. Ona gürcü menşeviki E.P.Geqeçkori sədrlik edirdi və Cənubi Qafqazın hər üç milləti komissarlıqda təmsil edilmişdi. Daxili İşlər Nazirliyinə A.İ.Çxenkeli, hərbi nazirliyə D.Donskoy, maarif nazirliyinə F.Xoyski, ədliyyə nazirliyinə Ş.Alekseyev-Mesxeyev, ticarət və sənaye nazirliyinə M.Y.Cəfərov, yollar nazirliyinə X.Məlik-Aslanov, qanunlara nəzarət nazirliyinə X.Xasməmmədov, əkinçilik, dövlət əmlakı və dini işlər nazirliyinə A.Neruçev, maliyyə nazirliyinə X.Korçikyan, himayəçilik nazirliyinə A.Ohancanyan, ərzaq nazirliyinə A.Ter-Qazarov rəhbərlik edirdilər. Yeni yaradılmış hökumətdə əmək və xarici işlər nazirliyi E.Geqeçkorinin öz səlahiyyətində idi.[32] Müvəqqəti Komitə ilə müqayisədə Komissarlıq irəliyə, müstəqilliyə doğru daha bir addım idi. Lakin Cənubi Qafqazda vəziyyəti sabitləşdirmək üçün yeni hökumətin icra orqanları hələ zəif idi. Cənubi Qafqazın üç millətinin və bölgədə fəaliyyət göstərən siyasi partiyaların nümayəndələri Komissarlıqda təmsil olunduğu üçün müxtəlif partiyalar öz milli fraksiyalarını yaratdılar. Noyabr ayında M.Ə.Rəsulzadənin rəhbərliyi ilə Azərbaycan Milli Fraksiyası təsis edildi. Komissarlığın qəbul edəcəyi qərarlar əvvəlcə fraksiyaların iclaslarında müzakirə edilir, sonra isə qəti qərar çıxarılırdı. Müəssislər Məclisinə qədər özünü Cənubi Qafqazın Müvəqqəti hakimiyyət orqanı elan etmiş bu hökumət Birinci dünya müharibəsi və daxili ziddiyyətlərlə əlaqədar Cənubi Qafqazın ərazi bütövlüyünü saxlamağı xarici siyasətin başlıca vəzifəsi kimi qarşıya qoymuşdu. Komissarlıq yarandıqdan iki həftə sonra noyabr ayının 26-da Məclisi Müəssisana seçkilər keçirildi. Nəticədə gürcü menşevikləri 11 yer, müsavatçılar 10, daşnaklar 9 yer, müsəlman sosialist bloku 2 yer, bolşeviklər, eserlər və ittihadçılar hər biri 1 yer əldə etdilər.[33] Bu Zaqafqaziya seçki dairəsində bütövlükdə 4,4 faiz səs alan bolşeviklərin sosial

[31] Программные документы мусульманских политических партий. 1917-1920 гг. Оксфорд, 1985, с. 13-15
[32] Документы и материалы по внешней политике Закавказья и Грузии. Тифлис, 1919, с.7
[33] С. Беленки и А. Манвелов. Революция 1917 года в Азербайджане. Баку, 1927, с.219



downloaded from KitabYurdu.az

bazasının olmamasının əyani təsdiqi idi.[34] Seçkilərin gedişində aydın oldu ki, Azərbaycan türklərinin böyük əksəriyyəti Müsavatın uğrunda mübarizə apardığı ərazi muxtariyyəti ideyasını müdafiə edirlər.

Oktyabr hadisələri Qərb dövlətlərinin Cənubi Qafqaza olan marağını artırdı. Bolşeviklərin döyüşən ölkələrə sülh dekreti ilə müraciət etməsi Antanta tərəfindən Qafqaz cəbhəsinə diqqəti artırmağı tələb edirdi. Böyük dövlətlərin Cənubi Qafqazda olan nümayəndələri ABŞ konsulu Smit, ingilis generalı Şor, fransız polkovniki Şardinyi və digərləri bölgədə gedən prosesləri diqqətlə izləyir və öz ölkələrinə mütəmadi məlumatlar göndərirdilər. Tiflisdəki ABŞ konsulu Dövlət Departamentinə vurduğu teleqramda xatırladırdı ki, Cənubi Qafqazın yerli əhalisinin əksəriyyəti və ordu, bolşeviklərin ardınca getməkdən imtina etmişlər. Smit sözünə davam edərək bildirirdi: "Müttəfiqlərin mənafeyinə uyğun göstərilməsi zəruri olan maliyyə yardımını almadan onların beş gündən artıq dözəcəyinə mən şübhə edirəm".[35] Vaşinqtona göndərdiyi məktubda Smit Cənubi Qafqaz Komissarlığını de-fakto tanımağı və bolşevizmə qarşı mübarizə məqsədilə Tiflisə 10 milyon dollar göndərməyi təklif edirdi.[36]

Doqquz gün sonra vurduğu ikinci teleqramda o, Bakının bolşeviklərin əlində olduğunu göstərməklə bərabər, Cənubi Qafqazın əhalisinin əksəriyyətinin bolşevikləri və onların rəhbərlərini tanımaq istəmədiklərini, separat sülhə tərəfdar olmadıqlarını yazırdı. Lakin ABŞ hökuməti Rusiyanın parçalanmasından ehtiyat edərək, Cənubi Qafqaz Komissarlığına maliyyə yardımı göstərməyi lazım bilmədi və dövlət katibi Robert Lansinqin tapşırığı üzrə Smitə məlumat verildi ki, Rusiyadakı hadisələr aydınlaşmayınca Cənubi Qafqaz hökumətini tanımaq üçün Amerika konsuluna vəkalət verilmir. ABŞ-ın əksinə olaraq Fransa, İngiltərə və İtaliya rəhbərləri Cənubi Qafqazdakı hərəkatı müdafiə etməyi mümkün hesab edirdilər. Bu, daha çox alman-türk qoşunlarının Bakıya girə biləcəyi ehtimalının doğurduğu təşvişdən irəli gəlirdi. Almaniya-Avstriya ordusu yanacaqla təchiz olunsaydı, bu, Qərb cəbhəsində müttəfiqlərin vəziyyətini ağırlaşdırardı.[37]

Cənubi Qafqaz Komissarlığının xarici siyasətinə münasibətdə ilk gündən milli fraksiyalar arasında fikir ayrılığı mövcud idi və bu fikir ayrılığı sonralar daha da dərinləşdi. Müsəlman fraksiyası ayrı-ayrı dövlətlərlə əlaqə məsələsində hökumətin tam müstəqilliyini elan edən Bəyannamə qəbul edilməsini zəruri hesab edirdi. Gürcü fraksiyası yalnız bir sıra daxili məsələlərin həll edilməsi ilə

---

[34] Л.М.Спирин. Итоги выборов во Всероссийское Учредительное Собрание в 1917 г. //История СССР, 1988, № 2, с.96

[35] Papers relating to the Foreign Relations of the United States, 1918, Russia, vol. II Washington, 1932, p.581

[36] Е.Токаржевский. Из истории иностранных интервенций и гражданской войны в Азербайджане. Баку, 1957, с.39

[37] W.E.D. Allen and Paul Muratof. Caucasian Battlefields: A History of the Wars and Turco-Caucasian Border (1828-1921). Cambridge, 1953, p.458



downloaded from KitabYurdu.az

kifayətlənməyi lazım bilirdi. Erməni milli fraksiyasının isə nə müstəqilliyin elan edilməsi, nə də sülh məsələsində yekdil fikri yox idi.

Cənubi Qafqaz Komissarlığının yaranması ilə Qafqaz cəbhəsində olan rus ordusu ağır vəziyyətdə qaldığından Türkiyə ilə müharibənin davam etdirilməsinin qeyri-mümkünlüyü artıq heç kəsdə şübhə oyatmırdı.[38] Rus ordusunun iflic vəziyyətə düşdüyü bir vaxtda Komissarlığın ordusu demək olar ki, mövcud deyildi. Digər tərəfdən, Sovet Rusiyasının Mərkəz ölkələri ilə atəşi dayandırmaq haqqında razılığa gəlməsi Qafqazda da hərbi əməliyyatları dayandırmaq üçün zəmin yaradırdı. Komissarlıqdakı fraksiyalara gəldikdə isə, müsəlman fraksiyası Türkiyə ilə vuruşmağın əleyhinə idi. Gürcülər sazişə gəlməyi təhlükəli hesab etmirdilər. Ermənilər müharibənin əvvəllərində Türkiyədə milli qırğın törətdiklərinə görə pis vəziyyətə düşəcəklərindən ehtiyat edirdilər.[39] Ümumilikdə isə, Komissarlığın Türkiyə ilə danışıqlara başlamaq qərarına gəlməsi onun ilk mühüm müstəqil xarici siyasət addımı kimi qiymətləndirilməlidir.

1917-ci ilin noyabr ayının axırlarında Ənvər paşanın göstərişi ilə Qafqaz cəbhəsi üçüncü türk ordusunun komandanı Mehmed Vehib paşa barışıq bağlanması ilə əlaqədar Qafqaz cəbhəsinin komandanı general Prjevalskiyə müraciət etdi. Cənubi Qafqaz Komissarlığı Prjevalskinin təklifini müzakirə edərək Antantanı qıcıqlandırmamaq üçün türk qoşunlarının heç bir yerdəyişmə aparmayacağı təqdirdə atəşin dayandırılması barədə barışıq bağlanmasına razı olduğunu bildirdi.[40] Noyabr ayının 21-də general Prjevalski Komissarlığın qərarı haqqında türk komandanlığına məlumat verdi. Bir neçə gündən sonra A.Smirnov, V.Tevzaya, general Vışinski və daşnak A.Camalyandan ibarət kiçik nümayəndə heyəti Ərzincana gəldi və dekabr ayının 5-də (18-də) on dörd maddədən ibarət barışıq imzalandı.[41] Barışığın şərtlərinə görə, onun maddələri sülh müqaviləsi bağlanana qədər tərəflərin hər biri üçün məcburi idi. Müqaviləni pozan tərəflərdən biri hərbi əməliyyata başlamağı 14 gün əvvəldən bildirməli idi. Əks təqdirdə, barışıq müqaviləsi ümumi sülh müqaviləsi bağlananadək qüvvədə qalmalıydı. Döyüşən tərəflər arasında elə həmin gün demarkasiya xətti müəyyən edilməli idi. Tərəflər öz ordularının strateji yerdəyişməsinə yol verməməli idilər və xüsusən türk ordusu Qafqaz cəbhəsindən Mesopotamiyaya aparılmamalı idi.

Barışıq müqaviləsində qeyd olunurdu ki, Rusiya Respublikası ilə Mərkəz ölkələri arasında ümumi barışıq sazişi imzalanacağı təqdirdə onun maddələri Qafqaz cəbhəsi üçün də məcburi olmalıdır. Həmçinin Qara dənizdə də vuruşan ölkələrin hərbi gəmiləri arasında hərbi əməliyyatlar dayandırılırdı. Barışıq

---

[38] З.Авалов. Независимость Грузии в международной политике (1918-1921). Париж, 1924, с.30
[39] Жорж де Малевил. Армянская трагедия 1915 года. Баку, 1990, с.66-98
[40] Документы и материалы по внешней политике Закавказья, с. 11-12
[41] A.Nimet Kurat. Türkiye ve Rusiya. Ankara, 1990, s.332-333



downloaded from KitabYurdu.az

müqaviləsinə əlavə olaraq Ərzincanda elə həmin gün demarkasiya xətti haqqında akt imzalandı.[42]

Göründüyü kimi, "Ərzincan barışığı" Petroqrad hökuməti ilə deyil, Cənubi Qafqaz Komissarlığı ilə imzalanmışdı və bununla da dolayısı ilə Osmanlı Baş Komandanlığı Cənubi Qafqaz Komissarlığını hökumət kimi tanımış olurdu.[43]

Ərzincanda barışıq müqaviləsi imzalanmaqla Qafqaz cəbhəsində rus qoşunları geri çəkilməyə başladı. Əslində isə Rusiya üçün bu cəbhə dağıldı. Qafqaz cəbhəsi qərargahının komissarı D.Donskoy qərara aldı ki, ordunu milli zəmində təşkil etsin. Buraya gürcü, erməni, azərbaycanlı, ukraynalı, rus milli korpusları daxil olmalı idi. Cənubi Qafqaz Komissarlığı rus ordusunun Qafqazda qalmasından ehtiyat edirdi, dağılma və pozğunluq həddinə çatmış ordu bolşevik təbliğatının təsirinə düşüb Komissarlıq üçün təhlükə törədə bilərdi. Bolşevik təbliğatçıları Qafqaz cəbhəsində ordu içərisində əsgərləri zabitlərə qarşı qoyur və bildirirdilər ki, inqilab dərinləşmədən xalq nə sülh, nə torpaq, nə də çörək əldə edəcəkdir.[44] Qafqaz ordusunun II qurultayında yeni ordu dairə sovetləri seçildi ki, ora 52 bolşevik düşə bildi. Hətta sonralar Bakı Kommunasında hərbi komissar işləmiş Q.Korqanov Sovetin sədri seçildi. Ordunun bolşevikləşməsi ciddi narahatçılıq doğururdu. Ona görə də hökumət 1917-ci il dekabrın 19-da Qafqazda olan rus ordusunun tərxis olunması haqqında əmr verdi və həmin əmrə, əsasən, Qafqazdan olan hərbi hissələr yalnız milli korpuslar halında saxlanılırdı. İlk addım kimi Qafqaz cəbhəsi baş komandanlığının 26 dekabr əmrinə əsasən, tərkibində üç piyada diviziyası, bir atlı briqadası və bir neçə ərazi polkları olan erməni ordu korpusu yaradıldı. Lakin az sonra bu korpuslar Cənubi Qafqazda və Şərqi Anadoluda müsəlman əhalisinə divan tutan başıpozuq dəstələrə çevrildi. Əslində milli korpusların təcili yaradılması cəbhədən qayıdan rus əsgərlərinin yerli əhaliyə qarşı törətdiyi terror və soyğunçuluqla da bağlı idi. Ordunun milli zəmində yaradılması Komissarlığa daxil olan millətlərin Hərbi Şurasının yaradılması ilə nəticələndi. Hərbi Şura hökumət strukturunda yeganə orqan idi ki, cəbhədən qayıdarkən fərarilik edən rus ordusunun soyğunçuluğunun qarşısını almağa cəhd göstərirdi.

Erməni və gürcü milli korpuslarının yaradılması bir qədər asanlıqla oldu, çünki Qafqaz cəbhəsində rus ordusunun tərkibində onlar könüllü hərbi dəstələr adı ilə fəaliyyət göstərirdilər. Ordunun özəyini təşkil edən zabit heyətini də qısa müddətdə yaratmaq mümkün idi. Lakin erməni və gürcü milli korpusları türklərdən müdafiə olunmaq zərurətindən yaranmışdısa da, çox vaxt daxili milli münaqişələrdə iştirak edirdilər. Xüsusilə yarandığı gündən etibarən rəhbərliyi avantürist və qatı millətçi dairələrin əlində olan erməni hərbi hissələri bölgədə azərbaycanlılara qarşı terror əməliyyatlarına başladılar. Həmin dövrdə yaranmış

[42] Документы внешней политики СССР. Т.1, Москва, 1957, с.53-57
[43] Kemal Öke. Ermeni meselesi. İstanbul, 1986, s.158
[44] Г.В. Хачапуридзе. Борьба грузинского народа за установление Советской власти. М., 1956, с.78



downloaded from KitabYurdu.az

belə dəstələrdən biri müsəlman əhalisinə qarşı törətdiyi vəhşiliklərə görə ad çıxarmış qaniçən Andronikin dəstəsi idi.[45]

Bu təhlükəni Azərbaycanın qabaqcıl siyasi xadimləri artıq 1917-ci ilin əvvəllərində hiss edirdilər və ona görə də Fevral inqilabından sonra onlar Müvəqqəti hökumətə müraciət edərək milli ordunun yaradılmasına icazə istədilər. Lakin müsbət cavab almadılar. 1917-ci ilin payızında baş verən məlum hadisələrdən sonra Müsəlman milli fraksiyası milli ordunun yaradılması istiqamətində əhəmiyyətli addımlar atdı. Milli fraksiyanın təşəbbüsü ilə Gəncədə, Bakıda, Lənkəranda və Tiflisdə Azərbaycanın qabaqcıl aydınlarının iştirakı ilə müsəlman hərbçilərinin yığıncaqları keçirildi. Hərbi hissələrin yaradılması böyük çətinliklərlə qarşılaşdı. Ordunu yaratmaq üçün zəruri olan zabit heyəti çatışmırdı, silah və hərbi sursat isə yox dərəcəsində idi. Azərbaycan milli hərbi korpusunun əsasını Petroqraddan köçürülən əfsanəvi "müsəlman diviziya"sının tatar süvari polku təşkil edirdi. Lakin inqilab və qarışıqlıq bu diviziyadan da yan keçməmişdi, çoxlu sayda istedadlı hərbçilər tatar süvari polkunu tərk etmişdilər. General Əliağa Şıxlinski ümumi komandanlığı öz üzərinə götürdü. Qafqaz cəbhəsindən tərxis olunan zabitlər, ilk növbədə isə müsəlmanlar milli hərbi birləşmələrə götürülürdü, 1917-ci ilin payızında Bakıda kadet məktəbində yerli zabit kadrlarının hazırlanması işinə də başlanıldı. Çətinlik bir də onunla bağlı idi ki, erməni və gürcülərdən fərqli olaraq, Azərbaycanın əsas sənaye şəhəri olan Bakı 1917-ci ilin payızından etibarən bolşeviklərin nəzarəti altında olduğundan bolşeviklər milli hərbi hissələrin yaradılmasına güclü müqavimət göstərir, ordunu sinfi əsasda yaratmaq adı altında özlərinə yaxın olan silahlı qüvvələri orduya cəlb edirdilər.

Bu məsələdə Cənubi Qafqazın xristian əhalisinin üstünlüyü həm də onda idi ki, Tiflisdə olan Antanta ölkələrinin konsulları və hərbi nümayəndələri erməni, gürcü hərbi hissələrinin yaradılmasında maraqlı idilər və bu işdə onlara yardım göstərirdilər. Bu yardımın göstərilməsində başlıca məqsəd türk ordusunu Qafqaz cəbhəsində saxlamaq, onun Mesopotamiyadakı ingilis ordusuna qarşı toplanmasının qarşısını almaq idi. Əsl həqiqətdə Cənubi Qafqazda milli korpusların yaradılması ideyası ingilislərdən gəlirdi. Onlar belə hesab edirdilər ki, ermənilərdən, gürcülərdən və rus ordularının tör-töküntülərindən yaradılan milli hissələr vasitəsi ilə alman-türk blokunun Bakıya doğru irəliləməsinin qarşısını almaq olar. Milli korpusların yaradılması vəzifəsi Tiflisdə olan Britaniya missiyasının başçısı briqada generalı Offli Şor üzərinə qoyulmuşdu. Qafqazda gedən prosesləri yaxından izləmək üçün Bakıda yeddi ilə yaxın vitse-konsul işləmiş, Forin Ofisin Britaniya Kəşfiyyat Xidmətinin fəaliyyətdə olan keçmiş əməkdaşı Ronald Makdonell Tehrandan Tiflisə göndərilmişdi. Az sonra digər xüsusi xidmət əməkdaşı, rus və fars dillərini yaxşı bilən kapitan Edvard Hoel də ona qoşuldu. R.Makdonell özü də yerli adətləri və dilləri çox yaxşı bilirdi.

[45] Rusiya Dövlət Ən Yeni Tarix Arxivi (RDƏYTA), f.5, s.33, i.221, v.37



downloaded from KitabYurdu.az

1917-ci ilin oktyabrında R.Makdonell ilk olaraq aydınlaşdırdı ki, rus ordusunun böyük bir hissəsi artıq Qafqaz cəbhəsini tərk edib. Rus ordusunun tərkibində olmuş erməni hissələri isə hələ ki, cəbhə xəttində qalmaqda idilər. Bu vəziyyətdə britaniyalılar belə qərara gəldilər ki, erməni, assuriya, rus, yunan və digər millətlərin nümayəndələrindən ibarət bir diviziya yaradıb türklərin cəbhədə irəliləməsinin qarşısını alsınlar. R.Mak-donellin etirafına görə gürcülərə ümid yox idi. Belə ki, onların piyada qüvvələri bolşevik meylli idi, atlı dəstələri isə öz ərazilərini qoruyacaqlarını bildirmişdilər. Maddi cəhətdən bu hissələri müdafiə etmək üçün maliyyə vəsaiti ayırmaq və həmin vəsaiti Rusiya Baş qərargahı vasitəsilə çatdırmaq haqqında qərar qəbul edildi. Britaniyalılar ona görə belə edirdilər ki, kömək göstərilən millətlər "ingilis yardımı" haqqında əlavə söz-söhbət yaratmasınlar və bu yardımın müstəsna qaydada onlara göstərildiyini öz maraqlarına uyğun yaymasınlar. Lakin R.Makdonellin etiraf etdiyi kimi, ermənilər bu məsələni öz maraqlarına uyğun şəkildə yaya bildilər və belə təəssürat yaratdılar ki, britaniyalılar müstəsna qaydada erməniləri müdafiə edirlər. Erməni diviziyaları Qafqaz cəbhəsində olduqları üçün onlar Rusiya Baş qərargahı vasitəsi ilə 1 milyon rubl həcmində Britaniya yardımını aldılar, 200 min rubl isə rus könüllüləri əldə etdilər. Bundan əlavə, Tiflis hökumətinə də 4 milyon rubl həcmində borc ayrıldı. Eb bu zaman Britaniya Xarici İşlər Nazirliyinin təlimatına uyğun ingilis konsulu Stivens bəyan etdi ki, "Britaniya hökuməti bütün mümkün vasitələrlə ermənilərə yardım göstərmək niyyətindədir". Bununla bağlı R.Makdonell yazırdı ki, ermənilər bizdən yardım alan yeganə qüvvə idi və onlar böyük məharətlə bundan Qafqazın, xüsusilə Bakının və Yelizavetpolun müsəlman əhalisinə qarşı təbliğati məqsədlər üçün istifadə edirdilər.[46]

Britaniyalılar ermənilərin onlar üçün yaratdığı yeni problemləri çox tez anladılar. Bununla bağlı R.Makdonell yazırdı: "Mənim Tiflisə gəlişim zamanı ermənilər və sadə adamların bir hissəsi belə düşünürdü ki, Britaniya missiyası ermənilərə kömək üçün yaradılıb və onlar bunu böyük uğur kimi təqdim edirdilər və bununla da müsəlmanlar arasında bizim haqqımızda yayılmış acı təəssüratları daha da ağırlaşdırır, onlarla dil tapmağı qeyri-mümkün edirdilər".[47] Bunu nəzərə alaraq Yaxın Şərqdə, xüsusilə müsəlmanlar arasında böyük iş təcrübəsi və strateji planları olan ingilislər Azərbaycan məsələsinə ehtiyatla yanaşmağa başladılar. E.Noel 1917-ci ilin dekabrında Tehrandakı Britaniya nümayəndəsi Koksa yazırdı ki, ingilislər loyal Azərbaycan müsəlmanlarının Hindistan və Mesopotamiya müsəlmanları ilə birlikdə vahid blok yaradıb, Türkiyə və İranda almanpərəst qruplara qarşı qoyulması haqqında fikirləşməlidirlər. Onun fikrincə, əgər ingilislər buna nail olsaydılar, bu halda İranın Azərbaycan vilayətinin əhalisi Qafqaz

[46] Azərbaycan Xalq Cümhuriyyəti. Böyük Britaniyanın arxiv sənədləri. Elmi redaktoru və ön sözün müəllifi Y.Mahmudov, tərtib edəni N.Makevell. Bakı, 2009, s.68
[47] Yenə orada, s.69



downloaded from KitabYurdu.az

Federasiyasına birləşməyi arzulayardılar və İranın asılılığından qurtarardılar. Bu, İran məsələsinin həllində güclü vasitə ola bilərdi".[48]

İran Azərbaycanının muxtariyyəti və tədricən onun Cənubi Qafqaza birləşməsi ideyası diplomatik yazışmalarda hələ 1908-1909-cu illərdə meydana çıxmışdı. Rusiyanın Tehrandakı müvəqqəti işlər vəkili V.F.Minorski Müvəqqəti hökumətin xarici işlər naziri P.N.Milyukova və sonra bu vəzifədə onu əvəz edən M.İ.Tereşenkoya yazdığı məktublarda qeyd edirdi ki, "Azərbaycanın muxtariyyəti" artıq Rusiyada keçirilən müsəlman qurultaylarında və geniş yayılan şayiələrə görə, eyni zamanda Təbrizdə dəfələrlə xatırladılmışdır. Belə siyasi meyllərin hansı nəticələri ola bilər? V.F.Minorskinin fikrincə, Azərbaycan türklərinin özü üçün birləşmənin və özünüidarənin faydaları aydındır. İran dövlət orqanizminin içərisində bu milli qrup ən möhkəm və sağlam qüvvədir. Rusiya üçün isə Azərbaycanın ayrılması (İrandan-C.H.) onun Cənubi Qafqazla daha sıx yaxınlaşması demək olardı.[49]

1917-ci ilin axırlarında Qafqaz cəbhəsindən tərxis olunan rus ordusunun vətənə dönməsi ciddi bir problemə çevrilmişdi. Geri qayıdan silahlı rus əsgərləri aclıq və səfalət içində olduğu üçün keçdiyi ərazilərdə talançılıqla məşğul olurdu. Cənubi Qafqaz Komissarlığı bu başıpozuq qüvvəni Tiflisə buraxmadı və rus əsgərlərinin Tiflisə daxil olmadan Qarayazı stansiyasından yola salınması barədə göstəriş verdi. 1918-ci ilin yanvarında Şamxor stansiyasında rus əsgərləri ilə hökumət qüvvələri arasında ağır nəticələr verən qanlı toqquşma baş verdi. S.Şaumyan yanvar ayının 9-12 arasında baş verən hadisələri Müsavatın əksinqilabi fəaliyyəti ilə əlaqələndirməyə cəhd göstərirdi.[50] Halbuki məsələ heç də belə deyildi. Bakıya doğru hərəkət edən rus ordusunun bolşeviklərə xidmət edəcəyi və ən azı öz silah və hərbi sursatlarını bolşeviklərə verəcəyini nəzərə alıb, Cənubi Qafqaz Komissarlığı onların tərksilah edilməsini zəruri bildi. Komissarlığın milli hərbi şurası Cənubi Qafqazda olan silahın və hərbi sursatın burada qalmasını zəruri bilib, rus əsgərlərinin tərksilah edilməsi haqqında qərar qəbul etdi. Ordunun qayıtmasından ən çox ziyan çəkən Azərbaycan əhalisi idi. V.Stankeviç özünün "Rusiya xalqlarının taleyi" əsərində bu hadisəyə obyektiv yanaşaraq qeyd edir ki, "qəzəblənmiş və dağılmış rus ordusu cəbhədən qayıdan zaman əsasən müsəlman əhalisini soyur və talayırdılar. Məlumatlara əsasən, bu əməliyyat zamanı 200 müsəlman kəndi dağıdılmışdı." İyirmi ilə qədər Bakıda yaşamış rus kadeti B.Baykov Berlində 1922-ci ildə nəşr olunmuş xatirələrində qeyd edir ki, "Müsəlman kəndlərindən başqa digər millətlərin yaşadığı heç bir yaşayış məntəqəsinə toxunulmamışdı."[51] Belə bir vəziyyətdə daxili işlər naziri N.Ramişvili əmr verdi ki, rus əsgərlərini Şamxor stansiyasında saxlasınlar. Bundan əlavə, 1918-

[48] Yenə orada, s.69
[49] С.М.Алиев. История Ирана. XX век. Москва, 2004, с.90-91
[50] В. Станкевич. Судьба народов России. Берлин, 1921, с.245
[51] Б. Байков. Воспоминания о революции в Закавказье 1917-1920 гг. Берлин, 1922, с.114



downloaded from KitabYurdu.az

ci ilin yanvar ayının 6-da N.Jordaniyanın cəbhədən geri qayıdan rus əsgərlərinin tərksilah edilməsi barədə yerlərə məktubu var idi.[52] Cənubi Qafqaz hökumətinin qərarı ilə Şamxor stansiyasında rus əsgərlərinin tərksilah edilməsi işi rotmistr Abxazova həvalə edildi. Əsgərlər silahı verməkdən imtina etdikdə tərəflər arasında toqquşma baş verdi ki, hər iki tərəfdən ölənlər və yaralananlar oldu. Bu hadisələrdə azərbaycanlılar fəal iştirak edirdilər. Çünki qeyd olunduğu kimi, rus əsgərlərinin qayıtmasından ən çox ziyan çəkən azərbaycanlılar idi. Hökumətin əmrinin yerinə yetirilməsində erməni və gürcülərlə yanaşı, azərbaycanlıların da iştirakına təbii baxılmalıdır, onlar külli miqdarda silahın müsəlmanların milli mənafeyi və muxtariyyəti üçün ciddi təhlükə törədən Bakı Sovetinin timsalında bütün Azərbaycana sahib durmaq niyyətində olan bolşeviklərin əlinə keçməsini istəmirdilər. Digər tərəfdən, qonşularının silahlandığı bir şəraitdə müdafiə olunmaq üçün onlar da silahlanmaq istəyirdilər. Bu məsələ ilə bağlı ayrı-seçkilik etdiyinə görə, azərbaycanlılar komissarlığın siyasətindən narazı idilər. A.Səfikürdski qeyd edirdi ki, "Cənubi Qafqazda kiçik qardaşlar olan ermənilər və gürcülər silahlandırıldıqları halda, böyük qardaş olan müsəlmanlara silah verilmədi".[53] Gəncədə olan Azərbaycanın tanınmış siyasi xadimləri ata-oğul Ələkbər və Xudadat bəy Rəfibəyovlar, Ş.Rüstəmbəyov, A.Səfikürdski Şamxor toqquşmasının dayandırılmasında mühüm rol oynadılar. Tanınmış cərrah Xudadat bəy Rəfibəyov yaralı rus əsgərlərinin müalicə edilməsi işini öz üzərinə götürdü. Qırğının qarşısını almaq məqsədi ilə yuxarıda adları çəkilən şəxslərlə stansiyada olan rus ordusu rəhbərliyi arasında yanvarın 11-də danışıqlar aparıldı. Bundan əlavə, münaqişənin dayandırılmasında Cənubi Qafqaz seyminin üzvləri Xan Xoyskinin, X.Xasməmmədovun və X.Məlik-Aslanovun müsəlman əhalisinə müraciət imzalamalarının böyük əhəmiyyəti oldu. Dəmir yolu ətrafına toplanmış 10 minə yaxın adamın ehtirasını soyutmaq üçün tərəflər arasında protokol imzalandı. Nəzərə almaq lazımdır ki, münaqişə zamanı azərbaycanlı əhali içərisindən xeyli ölənlər var idi. Protokola əsasən, yaxın vaxtlarda Tiflisdən bir hərbi batareyanın silah və sursatını müsəlman korpusuna verməyi eşalonun rəhbərliyi öz üzərinə götürdü.[54] Eşalonun rəhbərliyi ilə danışıqlar zamanı A.Səfikürdski bildirdi ki, ordunun tərksilah edilməsi haqqında N.Jordaniyanın teleqramı vardır.[55] Şamxor və ona yaxın dəmir yolu stansiyalarında ordunun tərksilah edilməsi əməliyyatına bütövlükdə gürcü polkovniki, knyaz L.Maqalov rəhbərlik edirdi. Az sonra Tiflisdə keçirilən Diyar Sovetinin sessiyasında Şamxor hadisələrinin törədilməsində N.Ramişvili günahlandırıldı. Şamxor hadisələrində nə qədər rus əsgər və zabiti həlak olub? Bu rəqəm haqqında müxtəlif fərziyyələr mövcuddur. Və elə həmin

---

[52] С.Е.Сеф. Борьба за Октябрь в Закавказье. Тифлис, 1932, с.74

[53] Cənubi Qafqaz dəmir yolunun Ağstafa-Hacıqabul sahəsində 9-13 yanvar 1918-ci ildə baş vermiş hadisələrin təsviri. Yanvar, 19187/ARDA, f.970, s.I, i.86, v.22

[54] Yenə orada, v.26-27

[55] Yenə orada, v.22



downloaded from KitabYurdu.az

dövrdə Bakıda bolşeviklər bu hadisədən müsəlmanlara divan tutmaq məqsədi ilə istifadə etmək istədikləri üçün ölənlərin və yaralananların sayını süni surətdə şişirdirdilər.

İlk dəfə bu barədə çıxış edən S.Şaumyan Şamxor hadisələri zamanı bir neçə min əsgərin öldüyünü və yaralandığını bildirdi.[56] Sonralar, 20-ci illərdən 80-ci illərin axırlarına qədər Sovet tarixçiləri, əsasən, S.Şaumyanın və "Бакински рабочи» qəzetinin məlumatlarına istinad edirdilər. A.Stavrovskinin 1925-ci ildə nəşr edilən kitabında 2000-ə qədər əsgərin öldürüldüyü iddia edilirdi. 50-ci illərdən başlayaraq Azərbaycan sovet tarixçiləri Şamxorda mindən artıq əsgərin öldürüldüyünü göstərirdilər. Xarici müəlliflərdən Tadeuş Svyatoxovski və Brain Kollins Azərbaycanda çıxan ədəbiyyata əsaslanaraq "mindən artıq" rəqəmini,[57] Firuz Kazımzadə bir neçə yüz[58] Ronald Qriqor Syuni min nəfərin öldürüldüyünü yazır.[59] Lakin həmin eşalonla birlikdə Ümumqafqaz diyar ərzaq komitəsinin iclasına gedən, bir çox xalqların (o cümlədən rusların) nümayəndələrindən ibarət olan bir heyət, eşalon rəhbərliyinin iştirakı ilə bilavasitə şahidi olduqları hadisələr barəsində "1918-ci il yanvar ayının 9-13-də Cənubi Qafqaz dəmir yolunun Ağstafa-Hacıqabul sahəsində baş vermiş hadisələrin təsviri" adlı sənəd tərtib ediblər. Orada göstərilir ki, Bakıya çatan kimi nümayəndəlik qərara aldı ki, fəhlə və əsgər deputatları sovetində və şəhər Dumasında yolda baş vermiş hadisələr barədə məruzə ilə çıxış etsinlər. Belə bir məruzə ona görə zəruri idi ki, şəhərdə baş vermiş hadisələr barədə yalan şayiələr dolaşırdı.[60] Əsl həqiqətdə isə baş vermiş münaqişə zamanı eşalonun sərnişinlərindən 53 nəfər ölmüş, 212 nəfər isə yaralanmışdı".[61]

Şamxor hadisələri ətrafında Bakı Sovetinin güclü təbliğat kampaniyası qaldırması bir sıra amillərlə bağlı idi. Birincisi, Cənubi Qafqaz hökumətini bu işdə ittiham edib, regionun sovetləşməsi üçün ictimai rəyi hazırlamaq. İkincisi, cəbhədən qayıdan rus ordusunun yerli əhaliyə qarşı qəzəbini coşdurub onun Bakı Sovetinin xidmətinə keçməsinə nail olmaq və həmin silahlı qüvvə ilə Azərbaycanın sovetləşməsi adı altında onun ələ keçirilməsini başa çatdırmaq. Üçüncüsü isə, bu hadisədən istifadə edib müsəlman əhalisini tərksilah etmək və Bakıda "əksinqilaba qarşı mübarizə" adı ilə müsəlman qırğını törətmək, bununla da şəhəri müsəlman "əksinqilabından" təmizləmək. B.Baykov sonuncu fikirlə bağlı yazır ki, hərbi hissələrdən biri öz ölən yoldaşlarını gətirib Bakı qəbristanlığında dəfn etdilər. Dəfn mərasimini sosialist təşkilatları böyük hay-küylə keçirdilər və azərbaycanlı

---

[56] С.Г. Шаумян. Статьи и речи 1917-1918 гг. Баку, 1929, с.99

[57] T.Swietochowski and B.Collins. Historical Dictionary of Azerbaijan. The Scarecrow Press, Inc, Lanham, Maryland and London, 1999, p.116

[58] F.Kazemzadeh. The Struggle for Transcaucasia (1917-1921). New York, 1951, p.

[59] R.G.Suny. The Baku Commune, 1917-1918. Princeton, 1972, p.199

[60] Cənubi Qafqaz dəmir yolunun Ağstafa-Hacıqabul sahəsində 9-13 yanvar 1918-ci ildə baş vermiş hadisələrin təsviri. Yanvar, 1918. //ARDA, f.970, s.1, i.86, v.25

[61] Yenə orada, v.26



downloaded from KitabYurdu.az

əhalisində bu, qorxunc təəssürat yaratdı. Şəhərin azərbaycanlılar yaşayan hissəsində həyəcan gözlənilirdi, lakin xoşbəxtlikdən bu, baş vermədi. Şəhərdə əhvali-ruhiyyə son dərəcə gərgin idi, azərbaycanlıların qırğını gözlənilirdi.[62]

Şamxor hadisələri ətrafında qaldırılan təbliğat kampaniyası müsavatçılarla bolşeviklər arasındakı ziddiyyətləri daha da dərinləşdirdi. Müsavatın Azərbaycan muxtariyyəti uğrunda mübarizəsinin genişlənməsi, S.Şaumyan başda olmaqla, bolşevikləri narahat etməyə başlamışdı. "Бакински рабочи" qəzeti bu barədə yazırdı: "Azərbaycanın muxtariyyəti türk burjuaziyasının muxtariyyətidir. Bu muxtariyyətlə nə Rusiya burjuaziyası, nə də Rusiya demokratiyası razıdır. Azərbaycan muxtariyyətini istəyən müsavatçılar nəticədə xarabazar alacaqlar".[63] Azərbaycan muxtariyyətinə qarşı mübarizə aparan S.Şaumyan Rusiya XKS tərəfindən Qafqaza fövqəladə komissar təyin edildikdə, "Türkiyə Ermənistanı"nın muxtariyyəti haqqında Xalq Komissarları Sovetinin İ.Stalin tərəfindən hazırlanmış 29 dekabr 1917-ci il tarixli dekretinin icrası ona tapşırılmışdı. Dekretdə deyilirdi ki, Xalq Komissarları Soveti rus ordusu tərəfindən işğal edilmiş "Türkiyə Ermənistanı"nda erməni xalqının tam istiqlaliyyətini elan etməklə, təyini müqəddərat haqqını müdafiə etdiyini bütün erməni xalqına bildirir. Dekretdə rus ordusu çıxdıqdan sonra "Türkiyə Ermənistanı" əhalisinin və onların əmlakının təhlükəsizliyi üçün erməni milis dəstələrinin yaradılması, "Türkiyə Ermənistanı"ndan mühacirət etmiş ermənilərin maneəsiz ora qaytarılması, demokratik yolla seçilən erməni xalq deputatlar şurasının müvəqqəti idarəçiliyinin yaradılması kimi məsələlər öz əksini tapmışdı. Dekretdə Qafqazın fövqəladə komissarı S.Şaumyana həvalə edilirdi ki, bu bəndlərin həyata keçirilməsində "Türkiyə Ermənistanı" əhalisinə hər cür yardım göstərsin.[64] Cənubi Qafqaz xalqları arasında milli ziddiyyətlərin güclənməsində, hadisələrin millətlərarası qırğına gətirilib çıxarılmasında bu dekretin acı nəticələri oldu. Bu dekretlə bolşeviklər "ermənilərin hamisi" olduqlarını və bununla da çar Rusiyasının siyasətini təkrar etdiklərini göstərdilər.[65] Eyni zamanda son yüzillikdə Rusiya tarixində 29 dekabr (11 yanvar) dekreti "Böyük Ermənistan" yaratmağa rəvac verən ilk rəsmi sənəd idi. Lakin bu dekretin arxasında daha böyük məqsədlər dururdu. 29 dekabr dekreti ilə türk torpaqlarında erməni çoxluğu yaratmaq, referendum yolu ilə rus himayəsi altında oyuncaq bir erməni dövləti qurmaq, gələcəkdə bu yolla türk torpaqlarını bolşevik Rusiyasına ilhaq etmək nəzərdə tutulurdu. Lakin Cənubi Qafqazdakı real vəziyyət heç də bu dekreti həyata keçirmək üçün əlverişli deyildi. İki aydan sonra Sovet Rusiyasının xarici işlər komissarının müavini L.Karaxan Brest-Litovskdan vurduğu teleqramla Qars, Batum, Ərdəhanın Türkiyəyə keçdiyini Sovet Rusiyası

---

[62] Б. Байков. Воспоминания о революции в Закавказье 1917-1920 гг., с. 114

[63] M.Ə.Rəsulzadənin "Azərbaycan Cümhuriyyəti. 1918-1920" kitabçasının türk dilindən tərcüməsi. Əli Hüseynzadənin "Bir fikir" adlı ön sözü ilə. 1923.//ARDA, f.894, s.10, i.198, v.29

[64] Документы внешней политики СССР. Т.1, с.74-75

[65] T.Sünbül. Azerbaycan Dosyası. Ankara, 1990, s.75



downloaded from KitabYurdu.az

tərəfindən tanındığını bildirməklə əslində, "Türkiyə Ermənistanı" haqqında elan olunmuş dekretdən imtina edildiyini bildirdi. Eyni zamanda "Türkiyə Ermənistanı" haqqında dekretə münasibətdə erməni siyasi dairələrinin özləri arasında fikir ayrılıqları var idi. Qafqazdakı hadisələrdə fəal iştirak edən A.Mikoyan "Qafqaz məsələsinə dair" V.Leninə göndərdiyi məruzənin tezislərində etiraf edirdi ki, Sovet Rusiyasının heç bir müsbət nəticələri olmayan, yalnız Türkiyənin deyil, Qafqazın da bütün müsəlman əhalisini özünə qarşı qoyan Türkiyə Ermənistanının müstəqilliyi haqqında dekreti (1917-ci il) böyük səhv idi.[66]

1917-ci ilin ortalarından başlayaraq türklər Rusiyada cərəyan edən hadisələri böyük diqqətlə izləyirdilər. 1918-ci ilin əvvəllərindən başlayaraq Türkiyə Cənubi Qafqazı özünün fəal xarici siyasət orbitinə daxil etdi. Ərzincan barışığı müvəqqəti olduğu üçün 1918-ci ilin yanvarında Türkiyə Cənubi Qafqaz hökuməti ilə sülh danışıqlarına başlamağa təşəbbüs etdi. Yanvarın 14-də türk komandanlığı general Odişilidzeyə göndərdiyi məktubda bildirdi ki, Ənvər paşa bilmək istəyir sülh bağlamaq üçün hansı formada "müstəqil Qafqaz hökuməti" ilə əlaqə yaratmaq olar. Və elə həmin məktubda Vehib paşa Tiflisə nümayəndə heyəti göndərməyi mümkün hesab etmişdi.[67] İki gün sonra Vehib paşa Odişilidzeyə yeni məktubla müraciət etdi. Həmin məktubda Türkiyə hökuməti Cənubi Qafqaz Komissarlığını Brest-Litovskda aparılan sülh danışıqlarına dəvət edirdi və vəd edirdi ki, yeni dövlətin tanınması üçün əlində olan bütün vasitələrdən istifadə edəcəkdir. Cənubi Qafqazın müstəqilliyi yolunda bu uğurlu addım ola bilərdi. Hətta Türkiyənin subyektiv niyyətlərindən asılı olmayaraq bu təklifin siyasi nəticələri Cənubi Qafqaz üçün əhəmiyyətli idi. Şübhəsiz ki, Rusiya imperiyasının dağılmasından sonra Türkiyə Cənubi Qafqazı öz təsiri altında olan müstəqil dövlət kimi görmək istəyirdi. Bu dövlət Rusiya ilə Türkiyənin bir əsrə yaxın qarşı-qarşıya dayandığı Qafqazda bufer rolunu oynayıb, Asiya Türkiyəsinə gedən yolda Rusiyaya qarşı ciddi maneəyə çevrilə bilərdi. Ona görə də Türkiyə Cənubi Qafqaz Komissarlığını nəinki özü tanımaqla kifayətlənir, eyni zamanda onu Brest-Litovsk danışıqlarına cəlb etməklə Mərkəz ölkələri (Almaniya, Avstriya-Macarıstan və Bolqarıstan) və Rusiya tərəfindən də tanınmasına nail olmaq istəyirdi. Belə ki, 1918-ci ilin əvvəllərində Sovet Rusiyasının ağır vəziyyəti ilə əlaqədar Cənubi Qafqaz Komissarlığını tanımaq üçün bolşevik hökumətinə diplomatik təzyiq göstərməyə əlverişli şərait var idi. Bundan əlavə, rus ordusunun Qafqazdan çıxması ilə əlaqədar Antantanın bölgəyə nüfuz etməsindən də Türkiyə ehtiyat edirdi. Türk siyasi dairələrinin fikrincə, Cənubi Qafqazda yaranan müstəqil dövlət, necə olmasından və hansı formada fəaliyyət göstərməsindən asılı olmayaraq, Türkiyə

[66] RK(b)P-nın Qafqaz diyar komitəsinin üzvü A.Mikoyanın "Qafqaz məsələsinə dair" V.Leninə göndərdiyi məruzənin tezisləri. Dekabr, 1919.//Rusiya Dövlət Sosial-Siyasi Tarix Arxivi (RDSSTA), f.5, c1, i.1202, v.9

[67] Документы и материалы по внешней политике Закавказья и Грузии, с.24-25



downloaded from KitabYurdu.az

üçün Rusiyadan dəfələrlə münasib olardı. Ona görə də Türkiyə hökuməti Brest-Litovskda Komissarlığın iştirakçı dövlətlər tərəfindən tanınmasını vəd edirdi. Vehib paşa Osmanlı dövləti adından bildirirdi: "Vəkalətim çərçivəsində Sizə məlum etməyi özümə şərəf bilirəm ki, Brest-Litovskda toplanan Mərkəz ölkələrinin nümayəndələri var qüvvə ilə Cənubi Qafqaz hökumətinin müstəqilliyinin tanınmasını müdafiə edəcəklər. Siz uğur qazanacağınıza əmin olub öz səlahiyyətli nümayəndələrinizi Brest-Litovska göndərə bilərsiniz".[68] Lakin Cənubi Qafqaz hökumətinin Türkiyə ilə əməkdaşlıq etmək niyyəti yox idi. İlk növbədə hökumətin tərkibi yekcins deyildi. Komissarlığın gürcü və xüsusi ilə erməni fraksiyası Türkiyə ilə əməkdaşlığın əleyhinə idilər. Digər tərəfdən isə, Komissarlıqda çoxları bolşevizmə müvəqqəti hal kimi baxır və fevral inqilabının nəticəsi kimi bölünməz demokratik Rusiyanın yaranacağına ümidlərini itirməmişdilər.[69] Ermənilər isə hər hansı partiya və təşkilata mənsub olmalarından asılı olmayaraq, türklərlə əməkdaşlığın əleyhinə idilər. Oktyabr çevrilişinin ilk günlərindən onlar bu fikirdə idilər ki, "türklərdənsə bolşeviklər yaxşıdır, onlar hər halda rusdurlar".[70] "Türkiyə Ermənistanı" haqqında dekretin imzalanması belə fikrin formalaşmasında az rol oynamamışdı.

Cənubi Qafqaz hökumətinin müsəlman nümayəndələri müzakirələrin gedişində Türkiyə təkliflərinin qəbul edilməsini mümkün hesab edirdilər. Yanvar ayında sülh məsələsi ətrafında gedən müzakirələrdə Azərbaycan nümayəndələrindən hökumət üzvləri X.Məlik-Aslanov, M.Y.Cəfərov, M.H.Hacınski iştirak edirdilər. Komissarlığın sədri E.Geqeçkori sülh danışıqlarına başlamağın qeyri-mümkünlüyünü keçmiş Rusiya imperiyasına daxil olan xalqlarla birgə müzakirə etməyin və habelə baş tutmasına hələ ümid bəslənilən Məclisi Müəssisanla razılaşdırılmağın zəruriliyi ilə əlaqələndirdi. Əslində bu, Məclisi Müəssisanı gözləmək bəhanəsi ilə Türkiyənin təklifini rədd etmək demək idi.[71] Azərbaycan nümayəndəsi X.Məlik-Aslanov öz çıxışında bildirdi ki, Rusiya ərazisində yeni yaranmış hökumətlərin Cənubi Qafqazda heç bir marağı yoxdur. Ona görə də o, yeni yaranmış hökumətlərin rəyini gözləmədən Cənubi Qafqazın müstəqilliyini elan edib sülh danışıqlarına başlamağın zəruri olduğunu bildirdi. Son nəticədə sülh məsələsində ümumi bir rəyə gələ bilməyən hökumət türklərdən "üç həftəlik vaxt verilməsini məqsədəuyğun hesab etdi".[72] Lakin bu fikir də qəti deyildi, çünki hadisələrin gedişi Məclisi Müəssisana olan ümidləri itirdi, məlum oldu ki, bolşeviklər hakimiyyət məsələsini kiminləsə müzakirə etmək fikrində deyillər.

[68] Yenə orada, s.52
[69] З. Авалов. Независимость Грузии в международной политике. Париж, 1924, с.31
[70] Б. Байков. Воспоминания о революции в Закавказье 1917-1920 гг., с.191
[71] A.N. Kurat. Türkiye ve Rusiya. Ankara, 1990, s.465
[72] Kemal Öke. Ermeni meselesi, s.158



downloaded from KitabYurdu.az

Cənubi Qafqazın özündə də vəziyyət getdikcə mürəkkəbləşdi, cəbhədən qayıdan rus ordusunu əvəz edən erməni dəstələri yerli türk əhalisinə qarşı bir sıra cəza tədbirləri həyata keçirirdi. Vehib paşa general Odişelidzeyə və Prjevalskiyə müraciət edərək müsəlman əhalisinə qarşı törədilən cinayətləri, hətta bəzi adamların diri-diri yandırılması barədə vəhşilikləri xatırlatdı. Yanvar ayı ərzində çoxlu sayda müsəlman əhalisinin öldürülməsi türk komandanlığında ciddi narazılıq yaratmışdı.[73] Erməni hərbi hissələrinin belə vəhşilikləri "Qafqaz çərçivəsində türklərin qüvvəsi yoxdur" fikrinə inamdan irəli gəlmişdi. Ərzincan danışıqlarında iştirak edən A.Camalyan təsdiq edirdi ki, "bütün demarkasiya xətti boyunca onlar bir nəfər də türk əsgəri ilə qarşılaşmamışlar, hamı aclıq və soyuqdan qaçmışdır".[74] Əlverişli məqamdan istifadə edərək Komissarlıq tərəfindən 1917-ci ilin axırlarında general-mayor titulu almış Andronik Torosoviç Ozanyan erməni xalqının milli hissləri ilə oynayaraq türklərə qarşı möhkəm dayanmaq çağırışı ilə çıxış etmişdi.[75] Cəzasız qalacaqlarına arxayın olan daşnak hərbi hissələri "dənizdən-dənizə erməni dövləti yaratmaq" sərsəm iddiası altında yerli türk əhalisinə qarşı açıq vəhşiliklərə əl atdı.

Eyni zamanda sülh məsələsinə həsr olunmuş növbəti iclasda general Odişelidze belə vəhşiliklərin törədilməsini etiraf etmişdi. İclasda iştirak edən M.Y.Cəfərov general Lebedinskidən müsəlmanların vəhşicəsinə öldürülməsi və evlərinin yandırılmasının günahkarları haqqında nə tədbir görüldüyünü soruşduqda, baş komandan Rize və Trabzonda əhalinin öldürülməsi və evlərinin yandırılmasının rus ordu hissələrinin geri çəkilən dəstələrinin əsgərləri tərəfindən törədildiyini bildirmişdi.[76] General bu məsələdən çıxış yolunu millətlərin qarşılıqlı danışıqlarında və sülh konfransının açılmasında görürdü. Yanvar ayının 29-da xarici işlər naziri E.Geqeçkori Ukraynaya və Cənub-Şərq İttifaqına Türkiyənin sülh təşəbbüsü haqqında məlumat verib, birgə siyasət hazırlamaq üçün fevral ayının 14-nə onları Tiflisə dəvət etmişdi.[77] Lakin bu dövlətlərdən heç biri dəvəti müxtəlif bəhanələrlə qəbul etmədi, çünki bu məsələnin onlara doğrudan da, dəxli yox idi. Həm də Ukrayna almanların köməyi ilə Brest-Litovsk danışıqlarında iştirak etməyə can atırdı.

Cənubi Qafqaz hökumətinin tərəddüdləri Türkiyəni işə qarışmağa sövq edirdi. Fevral ayının 12-də türk komandanlığı ermənilərin törətdiyi vəhşiliklərin davam etdirildiyini bir daha xatırladıb, türk ordusunun müsəlmanların qırılmasında, sadəcə müşahidəçi olmayacağını bildirdi. Vehib paşa öz ordusuna hücum etmək əmri verdi. Yerli əhalinin qırğınında fərqlənən erməni ordu hissələri

---

[73] Документы и материалы по внешней политике Закавказья и Грузии, с.41-46

[74] Лео. Из прошлого. Эривань, 1921, с. 17

[75] RDƏYTA, f.5, s.33, i.221, v.43; О. Минасян. Внешняя политика Закавказской контрреволюции в первой половине 1918 года. //Историк марксист, 1938, книга VI, с.59

[76] Документы и материалы по внешней политике Закавказья и Грузии, с.54

[77] Документы и материалы по внешней политике Закавказья и Грузии, с.36-37



downloaded from KitabYurdu.az

iş əsl müharibə həddinə çatanda döyüşmək qabiliyyətinə malik olmadıqlarını nümayiş etdirdilər. Ərzurumun müdafiəsinə cavabdeh olan Andronik erməni ordusunun kütləvi fərariliyinin qarşısını ala bilmədi.[78] Polkovnik Morel (Tokioda keçmiş rus hərbi attaşesi) rəhbərlik etdiyi Ərzincan polkuna geri çəkilmək əmri verdi. Erməni və az miqdarda gürcü hərbi birləşmələrinin geri çəkilməsi on bir gün davam etdi.[79] Sayca üstün olmalarına baxmayaraq, ermənilər demək olar ki, Ərzurumu döyüşsüz verməli oldular.[80] Son illərdə Rusiyada çıxan yeni ədəbiyyatda 1918-ci ilin fevral hadisələrini tamamilə təhrif olunmuş formada təqdim etmək cəhdləri vardır. Türkiyə komandanlığı, məhz erməni silahlı dəstələrinin törətdikləri vəhşiliklərə cavab olaraq hərbi əməliyyatlara başlamaq məcburiyyətində qaldıqları halda, bir sıra rus müəllifləri bunun üzərindən sükutla keçir və yazırlar ki, "türklərin hücumu erməni əhalisinin dəhşətli qırğını ilə müşayiət olunurdu".[81]

Cənubi Qafqaz Komissarlığı başlanmış hərbi əməliyyatlara münasibətdə müəyyən qərara gələ bilmirdi. Nəhayət, bu məsələnin fevral ayının 23-də (10-da) açılacaq Cənubi Qafqaz Seymində (Parlamentində) baxılması qərarına gəlindi və bu barədə türk komandanlığına məlumat verildi.

Yeni ali hakimiyyət orqanı haqqında ilkin müzakirələrdən sonra gürcü fraksiyası onu Rusiya imperiyasından ayrılmış Polşanın parlament strukturuna uyğun Seym adlandırmaq təklifini irəli sürdü. Müvəqqəti hökumətin son günlərində Zaqafqaziyada olan bolşeviklər buna bənzər ideyanı müdafiə edirdilər.[82] Lakin 1918-ci ilin fevralında bolşeviklər müstəqilliyə doğru yeni bir addım olacaq Seym yaradılmasının qatı əleyhdarlarına çevrildilər. Menşeviklərin Seym yaratmaq təklifi daşnaklar və eserlər tərəfindən də etirazla qarşılandı.[83] Azərbaycan fraksiyasının mövqeyi belə vəziyyətdə həlledici əhəmiyyət kəsb edirdi. Onlar Seym ideyasına tərəfdar çıxmaqla Cənubi Qafqaz parlamentli üsul-idarə yaradılmasına öz əhəmiyyətli yardımını göstərmiş oldular. Seym Məclisi Müəssisan seçkilərində iştirak etmiş partiyaların nümayəndələrindən təşkil olunduğundan on siyasi partiya orada təmsil edilmişdi. Bura menşeviklər, müsavatçılar, daşnaklar, kadetlər, eserlər, sosial-federalistlər, milli demokratlar, ittihadçılar, müsəlman sosialistləri və hümmətçilər daxil idilər. Bütün partiyalar, əsasən, Cənubi Qafqazda yaşayan üç millətin nümayəndələrindən ibarət idilər.

Məclisi Müəssisana seçilmiş nümayəndələrin sayını bərabər şəkildə üç dəfə artırmaq yolu ilə Seymdə menşeviklər 33 yer, müsavatçılar 30 yer, daşnaklar 27 yer, eserlər 5 yer tutmuşdular.[84] Seymdə çoxluq müsəlman partiyaları blokuna

---

[78] F.Kazemzadeh. The Struggle for Transcaucasia, p.87

[79] W.E.D. Allen and Paul Muratof. Caucasian Battlefields, p.462

[80] F.Kazemzadeh. The Struggle for Transcaucasia, p.88

[81] Системная история международных отношений. В двух томах. Под редакцией А.Д.Богатурова. Том первый. События 1918-1945 годов. Москва, 2007, с. 117

[82] С. Беленький, Н. Манвелов. Революция 1917 года в Азербайджане. Б., 1927, с.28

[83] Пролетарская революция, 1924, № 5, с .15

[84] Ю. Семенов. «Закавказская республика». //Возрождения, Париж, 1949, с. 122



downloaded from KitabYurdu.az

məxsus idi. Müsavatdan başqa müsəlman sosialist bloku 7 yer, hümmətçilər 4 yer, ittihadçılar 3 deputat yeri əldə etmişdi.[85] Ümumiyyətlə, 1917-ci ilin noyabrında Məclisi Müəssisana keçirilən seçkilərdə Müsavat partiyası Zaqafqaziya müsəlmanlarının 63 faizinin səsini almışdı.[86] Bu böyük qələbə onun Qafqazda güclü siyasi partiyaya çevrildiyindən xəbər verirdi.

Cənubi Qafqaz Seyminin yeni formalaşan müsəlman fraksiyasından Müsavat partiyasından Məmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Nəsib bəy Usubbəyov, Fətəli xan Xoyski, Məmməd Yusif Cəfərov, Həsən bəy Ağayev, Xosrov Paşa bəy Sultanov, Məmməd Həsən Hacınski, Mir Hidayət Seyidov, Xəlil bəy Xasməmmədov, Qazi Əhməd Məhəmmədbəyov, Aslan bəy Qardaşov, Şəfi bəy Rüstəmbəyov, Cavad Məlik-Aslanov, Mustafa Mahmudov, Mehdi bəy Hacıbabayev, Hacı Molla Səlim Axundzadə, Mehdi bəy Hacınski, Xudadat bəy Məlik-Aslanov, Müseyib Axicanov, Lütfəli bəy Behbudov, Firudin bəy Köçərli, İbrahim ağa Vəkilov, Həmid bəy Şaxtaxtinski, Rəhim bəy Vəkilov, Ələsgər bəy Mahmudbəyov, Yusif Əfəndi Əfəndizadə, Mirzə Cəlal Yusifzadə, Məmmədrza Vəkilov, İslam bəy Qəbulov, Müsəlman sosialist blokundan İbrahim bəy Heydərov, Əlixan Qantəmir, Aslan bəy Səfikürdski, Əhməd Cövdət Pepinov, Bağır Rzayev, Camo Hacınski, Məhəmməd Məhərrəmov, "İttihad" partiyasından Sultan Məcid Qənizadə, Mir Yaqub Mehdiyev, Heydərqulu Məmmədbəyov, "Hümmət" partiyasından Cəfər Axundov, İbrahim Əbilov, Əkbər ağa Şeyxülislamov, Səmədağa Ağamalıoğlu təmsil olunurdular.[87] Məhz bu şəxslər Azərbaycanın sonrakı taleyində mühüm rol oynadılar və siyasi proseslərin ağırlığını öz çiyinlərinə götürdülər.

Seym yarandıqdan sonra müzakirəyə ilk çıxarılan məsələ Türkiyə ilə sülh danışıqlarına başlamaq haqqında idi. Seymdə təmsil olunan Azərbaycan nümayəndələri Trabzon danışıqlarında ilk dəfə olaraq geniş diplomatik arenaya çıxdılar. Fevral ayının 23-də Vehib paşa Cənubi Qafqaz hökumətinin sülh danışıqlarına başlamaq xahişinə müsbət cavab verdi. Elə həmin gün Cənubi Qafqaz Komissarlığı və Seyminin birgə iclası keçirildi. İclasda türk komandanı Vehib paşanın Tiflisdə, yaxud Batumda sülh danışıqlarına başlamağa Osmanlı hökumətinin hazır olduğunu göstərən məktubu oxundu. Sülh danışıqlarının Tiflisdə və Batumda keçirilməsinə Seym üzvlərinin bir çoxu razı olmadı. İclasda Azərbaycan nümayəndələri adından çıxış edən F.Xoyski hökumətin sülh danışıqlarına başlamasını onun müstəqilliyə olan meyli kimi qiymətləndirdi və sülh danışıqlarına başlanmasının zəruriliyini qeyd etdi. Onun fikrincə, konfransın harada keçirilməsi o qədər də prinsipial əhəmiyyətə malik deyildi. Müzakirələrin

85 M.B. Mehmetzade. Milli Azerbaycan hareketi. Ankara, 1991, s.67
86 S. Zenkovsky. Pan-Turkism and Islam in Russia. Cambridge, 1960, p.257
87 Адрес-календарь Азербайджанской Республики на 1920-й год, ч.2. Под ред. А.М.Ставровского. Баку, 1920, с.8-9



downloaded from KitabYurdu.az

gedişində münasib bir yer kimi İstanbul və ya Trabzon təklif edildi, son anda Sülh konfransının Trabzonda keçirilməsi barədə qərar qəbul edildi.

Mart ayının 1-də Seymin bütün partiyalardan və milli qruplardan ibarət olan xüsusi komitəsi türklərlə sülhün hansı prinsiplər üzrə bağlanacağını müəyyən etməyə cəhd göstərirdi.[88] Seym üzvü Aleksandr Xatisyan Rusiyadan ümidini üzmüş ermənilərin fikrini ifadə edərək bildirirdi: "Cənubi Qafqaz Rusiyadan ayrıldıqdan sonra ermənilərlə Türkiyə arasında mehriban qonşuluq münasibətləri tamamilə mümkündür".[89] O, ermənilərə Türkiyə daxilində altı vilayət hüdudlarında muxtariyyət verilməsi təklifi ilə çıxış etdi. A.Xatisyan, hətta Cənubi Qafqaz respublikalarının ayrılıqda Türkiyə Federasiyasına daxil olmasının mümkünlüyünü də bildirdi. Bu fikir Seymin erməni və gürcü fraksiyasında öz gələcəklərinə ehtiyatla yanaşmaq zərurətindən irəli gəlirdi. Onların fikrincə, Almaniya Rusiya ilə sazişə gələrdisə, onda öz qüvvələrini Qərb cəbhəsində toplayıb Antantanı tezliklə məğlub edə bilərdi. Belə olan surətdə Osmanlı imperiyası nəinki öz hüdudlarını saxlayırdı və ümumilikdə regionda nüfuzlu və güclü dövlətə çevrilirdi. Seym daxili müzakirələrdə Türkiyə əleyhinə hərbi əməliyyatlarda iştirak etməyəcəyini bildirməklə yanaşı, Azərbaycan fraksiyası Cənubi Qafqazın hər hansı formada Türkiyə Federasiyasına daxil olmasının əleyhinə olduğunu bildirmişdi.[90] Ona görə də mart ayının 1-də keçirilən iclasda Seymin bütün fraksiyaları aşağıdakı təkliflər əsasında türklərlə sülh bağlanmasına tərəfdar oldular.

1. Seym sülh bağlamaq üçün səlahiyyətlidir;
2. Türkiyə ilə yekun sülh müqaviləsinin bağlanmasını Seym əsas vəzifəsi hesab edir;
3. Türkiyə ilə sülh müqaviləsi 1914-cü il sərhədlərinin bərpa edilməsinə əsaslanmalıdır;
4. Cənubi Qafqaz nümayəndələri Şərqi Anadolunun təyini müqəddəratına və Türkiyə dövləti daxilində Türkiyə Ermənistanına muxtariyyət verilməsinə çalışacaqlar.[91]

Seymin kadet partiyasından olan üzvü Y.Semyonov müttəfiqlərin sülh konfransına dəvət edilməsini təklif etdi. Lakin bu, mümkün olan iş deyildi. Nə ingilis-fransızlar Türkiyə ilə danışıqlar stolu arxasında oturmağa razılıq verərdi, nə də Türkiyə belə şərt daxilində konfransa gələrdi. Y.Semyonov, həmçinin ikinci maddəyə qarşı öz etirazını bildirib, yekun sülh müqaviləsinin Ümumavropa sülh konfransında hazırlanacağını göstərdi.

Danışıqlar üçün seçilmiş nümayəndəlikdə Cənubi Qafqazın hər üç millətinin nümayəndələri təmsil edilmişdilər. Nümayəndəliyin rəhbəri Akaki Çxenkeli idi. Seymin Azərbaycan fraksiyasından M.H.Hacınski,

---

[88] N. Kurat. Türkiye ve Rusiya, s.466
[89] F.Kazemzadeh. The Struggle for Transcaucasia, p.90
[90] T.Swietochowski. Russian Azerbaijan, p.121
[91] Документы и материалы по внешней политике Закавказья и Грузии, с.83-84



downloaded from KitabYurdu.az

X.Xasməmmədov, M.Mehdiyev, İ.Heydərov, Ə.Şeyxülislamov Trabzon konfransına gedəcək nümayəndə heyətinin tərkibinə daxil idilər.[92] Eyni zamanda ümumən prosesə nəzarət etmək və danışıqları istiqamətləndirmək məqsədilə M.Ə.Rəsulzadə və Ə.Pepinov da nümayəndə heyətinin tərkibinə daxil edilmişdi. Azərbaycan heyətinə daxil olan bu siyasi xadimlərin üç nəfəri - M.H.Hacınski, M.Mehdiyev və Ə.Şeyxülislamov sonralar Paris Sülh konfransında da respublikanı təmsil etdilər. Beləliklə, 1917-ci ilin rus inqilabından sonra Cənubi Qafqazda son dərəcə mürəkkəb siyasi şərait yaranmış, vuruşan ölkələrin region uğrunda mübarizəsi açıq müstəviyə keçmiş, qarşı-qarşıya dayanan hərbi blokların Qafqaza nəzarət etmək cəhdləri intensivləşmişdi. Dünya müharibəsinin gedişində, hərbi, siyasi və diplomatik çəkişmələrin gündən-günə kəskinləşdiyi bir dövrdə, milli maraqlara uyğun xarici orientasiya müəyyənləşdirmək Azərbaycan siyasi dairələrinin qarşısında duran başlıca vəzifə idi. 1918-ci ilin yazında keçirilən Trabzon və Batum konfransları bu mühüm vəzifəni həll etməli idi.

[92] Azərbaycan tarixi. Yeddi cilddə, V cild. Bakı, 2001, s.296



downloaded from KitabYurdu.az

## II FƏSİL

### Trabzon və Batum konfransları. Azərbaycanın müstəqilliyinə doğru ilk diplomatik addımlar

Trabzon konfransı ərəfəsində Seymin ayrı-ayrı fraksiyaları sülh məsələsi ilə bağlı qarşıya çıxan vəzifələri müzakirə edir və problemə münasibətlərini dəqiqləşdirirdilər. Fevral ayının 26-da Azərbaycan fraksiyası bu məsələ ilə bağlı iclas keçirdi. Müsəlman Milli Şurası Azərbaycanda və onun ətrafında cərəyan edən hadisələri dərindən təhlil etdi. Qafqaz cəbhəsindən qayıdan erməni hərbi hissələrinin Bakıda toplanması, Yaxın Şərqdəki ingilis hərbi hissələrinin İranın şimalına - Xəzərin cənubuna doğru hərəkət etməsi nəticəsində Bakı üçün yaranan təhlükə, almanların Qafqazda fəallaşması və Bakı neftini ələ keçirməklə bağlı niyyətləri Azərbaycan milli fraksiyasını narahat etməyə başlamışdı. Müsəlman fraksiyası Türkiyə ilə sülh müqaviləsinin tezliklə imzalanması və Cənubi Qafqazda vəziyyətin sabitləşməsini zəruri hesab edirdi.

Fevral ayının 28-də isə Trabzona gedəcək nümayəndə heyətinin birgə iclası oldu. İclasda erməni nümayəndələri millətlərin öz müqəddəratını təyin etmək hüququna istinad edərək, "Türkiyə Ermənistanı" üçün muxtariyyət tələb etdilər və Osmanlı dövlətinin Qars, Batum, Ərdahana olan iddiasının rədd edilməsi haqqında fikirlər söylədilər. Müsəlman sosialist bloku adından çıxış edən İ.Heydərov bunu Türkiyənin daxili işlərinə müdaxilə kimi qiymətləndirdi və Cənubi Qafqaz xalqlarının öz müqəddəratını təyin etməsindən yalnız Zaqafqaziya hüdudlarında ola biləcəyini mühüm şərt kimi irəli sürdü. Türkiyəni Ərzincan barışığının pozulmasında günahlandırmağa cəhd edənlərə qarşı cavab olaraq M.Ə.Rəsulzadə qeyd etdi ki, türklərin də bizi barışığı pozmaqda günahlandırmağa haqları vardır.[93] Bundan iki gün əvvəl isə Zaqafqaziya seyminin iclasında F.Xoyskinin çox kəskin çıxışı olmuşdu və sülh danışıqları ilə bağlı bir sıra məsələlərə münasibətdə E.Geqeçkori ilə onun arasında ciddi fikir ayrılıqları meydana çıxmışdı.[94]

Müzakirələrin gedişində ilk dəfə olaraq gürcü nümayəndəsi Q.B.Qvazov Sülh konfransı barədə almanları məlumatlandırmaq ideyasını irəli sürdü. Lakin Azərbaycan nümayəndələri bunun əleyhinə çıxdı, A.Çxenkeli isə haqlı olaraq sülh nümayəndələrinin buna mandatı olmadığını bildirdi. O, Türkiyənin hərbi hazırlıq işlərindən və daimi müharibə vəziyyətində yaşamağın çətinliyindən narahatçılığını ifadə etdi. X.Xasməmmədovun fikrincə, "nə vaxt türklər sərhədi keçsələr, o zaman fikirləşmək lazımdır ki, müharibə elan edək, ya yox, Cənubi Qafqazın bütün əhalisi müharibə elan edəcək, yoxsa onun bir hissəsi". M.Mehdiyevin fikrincə, sülh heyəti Seymə Cənubi Qafqazın müstəqilliyini elan etməyi tövsiyə etməli idi. O bildirdi: "Nə qədər ki, müstəqillik elan edilməmişdir, danışıqlar heç bir nəticə

---

[93] С.Аркомед. Материалы по истории отпадения Закавказья от России. Тифлис, 1923, с.31

[94] Документы и материалы по внешней политике Закавказья и Грузии, с.98-106



downloaded from KitabYurdu.az

verməyəcəkdir".[95] Hadisələrin sonrakı gedişi M.Mehdiyevin bu fikrinin doğruluğunu təsdiq etdi.

Cənubi Qafqaz Seymi nümayəndələrinin Trabzona yola düşdüyü ərəfədə mart ayının 2-də RSFSR Xalq xarici işlər komissarının müavini, Sovet Rusiyasının Brest sülh nümayəndəliyindəki katibi L.Karaxandan alınan teleqram vəziyyəti xeyli mürəkkəbləşdirdi.[96] Teleqramda deyilirdi: "Biz hələlik müzakirədə olan müqaviləni imzalamaq qərarına gəldik. 21 fevral (3 mart) müqaviləsinin ən ağır şərti Ərdahan, Qars və Batumun təyini müqəddəratı adı altında Rusiyadan ayrılmasıdır".[97] Bir gün sonra Sovet Rusiyası Brest-Litovsk müqaviləsini imzaladı və bununla da iki ay əvvəl V.İ.Leninin və İ.V.Stalinin "Türkiyə Ermənistanı" haqqında imzaladıqları dekretdən rəsmi şəkildə imtina etdi. Müqavilədə göstərilirdi ki, Rusiya Şərqi Anadolunun tezliklə təmizlənməsi və onun Türkiyəyə qaytarılması üçün hər şeyi edəcəkdir. Ərdahan, Qars və Batum vilayətləri rus ordularından təmizlənəcəkdir. Rusiya bu vilayətlərdə yeni dövlət – hüquqi münasibətlərin yaradılmasına müdaxilə etməyəcəkdir. Qars, Ərdahan və Batum sancaqlıqlarına münasibətdə 1877-1878-ci il rus-türk müharibəsinə qədərki sərhəd xətti bərpa ediləcəkdir.[98]

Brest müqaviləsinə toxunan bir sıra xarici müəlliflər "Türkiyə Ermənistanı" haqqında dekretin əməli deyil, təbliğati məqsədlərə xidmət etdiyini göstərirlər. Onların fikrincə, Xalq Komissarları Soveti bir tərəfdən "Türkiyə Ermənistanı" haqqında dekret verdi, digər tərəfdən isə rus ordusunu çıxartmaqla bu ərazilərin Türkiyə tərəfindən tutulması üçün şərait yaratdı.[99] Brest müqaviləsi ermənilərin Türkiyənin Şərq vilayətlərini ələ keçirmək niyyətlərini, Sovet Rusiyasının müdafiə etdiyi "Türkiyə Ermənistanı" yaratmaq planlarını puça çıxartdı. Petroqradda və digər şəhərlərdə olan erməni koloniyaları Brest müqaviləsinə öz etirazlarını bildirsələr də, lakin bunun elə bir əhəmiyyəti olmadı.[100] Brest müqaviləsinə görə, Sovet Rusiyası nəinki Qars, Ərdahan və Batumun Türkiyəyə keçdiyini təsdiq edirdi, eyni zamanda həmin müqaviləyə əlavə olaraq RSFSR ilə Türkiyə arasında imzalanmış müqaviləyə əsasən, o, öz üzərinə öhdəlik götürürdü ki, müharibə zamanı rus qoşunlarının tutduğu türk ərazilərində və Rusiya hüdudlarında erməni könüllü dəstələrini tamamilə tərksilah edib buraxsın.[101] Əlavə müqavilənin II

[95] С.Аркомед. Материалы по истории отпадения Закавказья от России, с.31-32
[96] Türkiyə ilə sülh danışıqlarının gedişi haqqında Zaqafqaziya seyminin nümayəndəliyinin məruzəsi. 19187/ARDA, f.970, s.1, i.3, v.1-2
[97] Документы и материалы по внешней политике Закавказья и Грузии, с.85
[98] Ю.Ключников и А. Сабанин. Международная политика новейшего времени в договорах, нотах и декларациях. Часть II, Москва, 1926, с. 123-127
[99] R.Hovannisian. The Republic of Armenia. Berkley-Los-Angelos-London, 1971, p.20
[100] F.Kazemzadeh. The Struggle for Transcaucasia, p.93
[101] Bax: Ronald Grigor Suny. Looking toward Ararat. Armenia in Modern History. Indiana University Press, Bloomington and Indianapolis, 1993, p. 123-124: R.Hovannisian. Armenia on the Road to Independence, 1918. Berkeley, 1967, p.97-100



downloaded from KitabYurdu.az

maddəsi Rusiya vətəndaşları olan müsəlmanlara öz əmlaklarını da aparmaq şərti ilə Türkiyəyə azad surətdə mühacirət etmək hüququ verirdi. Lakin R.Hovanisyanın belə bir mülahizəsi ilə razılaşmaq olmaz ki, guya Sovet Rusiyası Brest müqaviləsini "dünya inqilabı" naminə müsəlman aləminin rəğbətini qazanmaq üçün bağlamışdı.[102]

Türkiyənin ciddi təkidinə və yardım göstərəcəyi barədə vədinə baxmayaraq, Cənubi Qafqaz hökumətinin Brest-Litovsk sülh danışıqlarında iştirak etməkdən və öz müstəqilliyini elan etməkdən imtina etməsi indi həmin hökuməti pis vəziyyətdə qoymuşdu. L.Karaxandan teleqram alınan kimi, Cənubi Qafqaz hökuməti Petroqrada, Londona, Parisə, Vaşinqtona, Romaya, Tokioya, İstanbula, Berlinə, Vyanaya, Kiyevə göndərdiyi teleqramda bolşeviklərin Brest-Litovskdakı hərəkətləri əleyhinə öz etirazını bildirdi. Orada deyilirdi: "Cənubi Qafqaz hökuməti Zaqafqaziya və onun sərhədləri barədə ondan xəbərsiz və iştirakı olmadan imzalanmış hər hansı müqaviləni özü üçün qüvvədən düşmüş hesab edir".[103] Lakin gec idi. Trabzon konfransı açılana qədər Vehib paşa Qafqazdakı rus ordusunun Baş komandanı general Lebedinskidən tələb etdi ki, Rusiya Respublikası ilə imzalanmış Brest-Litovsk müqaviləsinin şərtlərinə görə Qars, Batum və Ərdahanı boşaltsın. Bir çox keçmiş sovet müəlliflərinin, o cümlədən A.Kadişevin Türkiyənin bu tələbini, qeyd edilən vilayətlərin əhalisinin guya "erməni və gürcülərin çoxluğundan ibarət olduğuna" əsaslanaraq müdaxilə kimi qiymətləndirməsi ilə razılaşmaq olmaz.[104] Çünki istər XIX əsrin və istərsə də XX əsrin əvvəllərindəki əhali sayımlarının nəticəsi Qars, Batum və Ərdahanda türk əhalisinin çoxluq təşkil etdiyini göstərir. Bu dövrdə Cənub-Qərbi Qafqazda yaşayan 730 min əhalinin 56,3 faizi türk, 26 faizi erməni, 3 faizi gürcü, 15 faizi rus, qaraçı, yunan və digər xalqların nümayəndəsi idi. Ayrı-ayrı vilayətlərə gəldikdə isə, Batumun əhalisinin 70 faizi türk, 12,5 faizi erməni, 7 faizi gürcü, Qarsın əhalisinin 49,5 faizi türk, 29 faizi erməni, 0,3 faizi gürcü, 19,3 faizi rus idi.[105] Axalsıxın əhalisinin 73,5 faizi türk, 12,5 faizi erməni, 8,8 faizi gürcü idi.[106] Rusların məlumatına görə, Ərdahanda yaşayan 89 min nəfər əhalinin 51,9 faizi türk, 20 faizi kürd, 17,2 faizi rus-yunan, 7,5 faizi yezdi, 2,9 faizi erməni idi.[107] Bu ərazilərdə türk əhalisinin çoxluq təşkil etməsini əsas tutaraq Türkiyə Brest müqaviləsinə əsasən, burada rəy sorğusu keçirilməsinə razı olmuşdu. U.Allen və Paul Muratov Brest sülhü ilə bağlı yazırlar ki, "hadisələrin belə dəyişməsi bu rayonların (Qars, Batum, Ərdahanın - C.H.)

---

[102] R.Hovannisian. The Republic of Armenia, p.21
[103] Документы и материалы по внешней политике Закавказья и Грузии, с.85
[104] А.Б.Кадишев. Интервенция и гражданская война в Закавказье. М., 1960, с.46
[105] İrəvan quberniyasının qəzalarında əhalinin yerləşməsi haqqında. 01.01.1916.//ARDA, f.28, s.1.i.42, v.34
[106] B.Şahtaxtinski V.Leninə "Zaqafqaziya respublikaları arasında mübahisə obyekti olan ərazilər haqqında". 01.03.1921.//RDSSTA, f.5, s.1, i.2796, v.4
[107] Rusiya Federasiyası Xarici Siyasət Arxivi, f.4, s.39, qovluq 232, i.53001, v.79



downloaded from KitabYurdu.az

xristian azlığını çətin vəziyyətdə qoydu".[108] İndi bir tərəfdən Cənubi Qafqaz hökuməti və parlamenti öz müstəqilliyini elan etmirdi, digər tərəfdən də Sovet Rusiyasının imzaladığı müqavilə ilə razılaşmırdı. Bu məntiqsizlik Trabzon konfransında Cənubi Qafqaz nümayəndələrinin qarşılaşdığı ən çətin məsələlərdən biri oldu. Cənubi Qafqaz nümayəndələri mart ayının 8-də Trabzona çatdılar və martın 12-nə qədər türk nümayəndə heyətini Batumdan gəldikləri "Kral Karl" gəmisində gözlədilər.[109] Mart ayının 14-də konfrans rəsmən açıldı. Türkiyə nümayəndə heyətinin başçısı Rauf Orbay konfransın açılışında bildirdi ki, sədrlik növbə ilə hər iki nümayəndə heyətlərinin başçılarına həvalə olunacaq. Lakin Cənubi Qafqaz nümayəndəliyi bundan imtina etdi. Rauf bəy öz giriş nitqində Türkiyənin Cənubi Qafqazla mehriban münasibətlər əsasında uzunmüddətli sülh müqaviləsi bağlamaq istədiyini bildirdi. Elə ilk gündən Türkiyə nümayəndələri Qafqazda yaranan yeni respublikanın idarəçilik forması, siyasi və inzibati strukturu barədə sorğu ilə müraciət etdilər. Türklər üçün maraqlı idi ki, bu nümayəndəlik kimi təmsil edir - müstəqil dövləti, yoxsa Rusiyanın bir hissəsini.[110]

Cənubi Qafqaz nümayəndələri türkləri inandırmağa çalışırdılar ki, Cənubi Qafqaz "demək olar ki" müstəqil dövlətdir. Bununla əlaqədar F.Kazımzadə haqlı olaraq obrazlı formada yazır: "guya beynəlxalq hüquq nöqteyi-nəzərindən "demək olar ki, müstəqildir" anlayışı vardır".[111]

Konfransda Zaqafqaziya nümayəndəliyi Brest müqaviləsinin Qafqaza aid olan maddələrinə etiraz etdi.[112] Lakin türklər bildirdilər ki, Cənubi Qafqazın Brest sülhündə marağı və mənafeyi olduğu üçün, beynəlxalq hüquq normalarına cavab verən prinsiplər əsasında qurulmalı və digər dövlətlər tərəfindən tanınması üçün tədbirlər görməlidir. Ona görə Cənubi Qafqaz hökuməti, hətta indi tanınsa belə, əvvəlki beynəlxalq hüquqi prinsiplərə etiraz edə bilməz.[113] Halbuki həmin hökumət yanvar ayının 23-də vurduğu teleqramda Brest sülhündə iştirak etməkdən imtina etdiyini və özünü Rusiyanın tərkib hissəsi olduğunu bildirmişdir. Odur ki, Türkiyə nümayəndəliyi Brest sülhü haqqında etirazı rədd etdi.[114] Türk nümayəndələrinin fikrincə, əgər doğrudan da, Cənubi Qafqaz hökuməti beynəlxalq hüququn subyekti olmaq istəyirsə, tezliklə Rusiyadan ayrılmalı və öz müstəqilliyini elan etməlidir.[115] Belə olan surətdə Türkiyə onunla mehriban qonşuluq münasibətlərinə girməyə

[108] W.E.D.Allen and Paul Muratof. Caucasian Battlefields, p.463
[109] Türkiyə ilə sülh danışıqlarının gedişi haqqında Cənubi Qafqaz Seymi nümayəndəliyinin məruzəsi. 1918. //ARDA, f.970, s.1, i.3, v.2
[110] Yenə orada, v.3
[111] F.Kazemzadeh. The Struggle for Transcaucasia, p.96
[112] Türkiyə ilə sülh danışıqlarının gedişi haqqında Cənubi Qafqaz Seymi nümayəndəliyinin məruzəsi. 1918. //ARDA, f.970, s.1, i.3, v.4
[113] İnsan Berkuk. Böyük Harpda Şimali Kafkasyadakı faaliyetlerimiz ve 15.firkanın hareketi ve müharibeleri. //Askeri mecmua, 1934, № 35
[114] Документы и материалы по внешней политике Закавказья и Грузии, с. 110
[115] Türkiyə ilə sülh danışıqlarının gedişi haqqında Cənubi Qafqaz Seymi nümayəndəliyinin məruzəsi. 1918. //ARDA, f.970, s.1, i.3, v.6



downloaded from KitabYurdu.az

hazırdır. Türkiyə tərəfi Trabzon konfransında Cənubi Qafqazın idarəçilik forması, onun sərhədləri, dövlət dili və dini, həmçinin Zaqafqaziya hökumətinin Osmanlı imperiyasına olan münasibətinin rəsmən müəyyən edilməsi məsələlərini müzakirə etməyin zəruriliyini qeyd etdi. Qoyulan məsələlərlə bağlı Zaqafqaziya nümayəndələri xüsusi bəyanatla çıxış etdi. Orada göstərilirdi: "Cənubi Qafqaz dövlətinin idarəçilik forması Seym tərəfindən işlənilir və belə düşünməyə əsas vardır ki, demokratik federativ respublika qurulacaqdır. Cənubi Qafqazın ərazisinə Bakı, Yelizavetpol, İrəvan, Tiflis, Kutaisi quberniyaları, Batum və Qars vilayətləri, Suxumi və Zaqatala dairələri daxildir. Dağıstan vilayəti və Qara dəniz sahili quberniyalarının məsələsi onların Seymə nümayəndə göndərməsinə qədər açıq qalır. Rəsmi dil hələlik rus dilidir, lakin hazırlanan Konstitusiyada gürcü, erməni və türk dilləri dövlət dili olacağı nəzərdə tutulur. Cənubi Qafqazda vicdan azadlığı haqqında qanun fəaliyyətdədir, heç şübhəsiz ki, Konstitusiya kilsəni dövlətdən ayıracaq və pravoslav kilsəsinin hökmranlığını aradan qaldıracaqdır".[116]

Cənubi Qafqaz nümayəndəliyinin Batum və Qars vilayətlərinə olan iddiaları üzərində dayanmaları, Brest sülhünün şərtlərini tanımaqdan imtina etmələri, habelə bir sıra digər mübahisəli məsələlər tərəflər arasında ziddiyyətləri daha da dərinləşdirdi.

Seym tərəfindən müstəqilliyin elan edilməməsi Türkiyənin danışıqlara olan marağını zəiflədirdi. Akaki Çxenkeli etiraf edirdi ki, "Türkiyə obyektiv olaraq Cənubi Qafqazın müstəqilliyinin elan edilməsində maraqlıdır. Çünki Cənubi Qafqazın müstəqilliyi Türkiyənin şimaldan təhlükəsizliyini təmin edir".[117]

Osmanlı imperatorluğu nümayəndə heyətinin başçısı Rauf bəy bildirirdi ki, Cənubi Qafqaz nümayəndələrinin bəyanatı Türkiyənin daxili işlərinə müdaxilə ruhunda olduğu üçün Türkiyə nümayəndəliyi onu rədd edir. Onun fikrincə, bəyanatda irəli sürülən fikirlər mehriban qonşuluq siyasəti ilə bir araya sığmır. Cənubi Qafqaz hökumətinin Osmanlı imperiyası tərəfindən qəti və rəsmi şəkildə tanınması o zaman mümkündür ki, bu hökumət Qars, Batum və Ərdahana olan iddialarından xüsusi müqavilə vasitəsi ilə imtina etmiş olsun.[118] Bu, Rusiya ilə Osmanlı imperiyası arasında qarşılıqlı öhdəliklərə zidd deyildir, çünki Rusiya öz xalqlarının təyini müqəddərat hüququnu qəbul etmişdir. Brest-Litovskda imzalanmış beynəlxalq akt Osmanlı imperiyasına əsas verir ki, bu üç sancaqlıqda yeni qaydalar yaratsın və eyni zamanda Osmanlı hökuməti bu sancaqlıqlarla Qafqaz əraziləri arasında əlverişli iqtisadi əlaqələri bərqərar etməyə də hazırdır.[119] Cənubi Qafqaz nümayəndələririn öz aralarında da birlik yox idi. İrəli sürülən hər

---

[116] С.Аркомед. Материалы по истории отпадения Закавказья от России, с.37
[117] С.Аркомед Материалы по истории отпадения Закавказья от России, с.39
[118] Türkiyə ilə sülh danışıqlarının gedişi haqqında Cənubi Qafqaz Seymi nümayəndəliyinin məruzəsi. 1918. //ARDA, f.970, s.1, i.3, v.7
[119] С.Аркомед. Материалы по истории отпадения Закавказья от России, с.45-46



downloaded from KitabYurdu.az

hansı fikir ya bu, ya da digər tərəfin mənafeyinə uyğun gəlmirdi. A.Çxenkeli haqlı olaraq bildirirdi ki, bizim vəziyyətimizin ağırlığı onunla bağlıdır ki, Cənubi Qafqazın formalaşması hələ başa çatdırılmamışdır və "nümayəndə heyətimiz öz tələbləri üzərində möhkəm durmur. Biz buraya hazırlıqsız gəldik. Seymin özündə də o qədər birlik yoxdur ki, biz burada öz mövqelərimizi möhkəm müdafiə edə bilək".[120] Onun fikrincə, vəziyyətdən yeganə çıxış yolu hər xalqa ayrılıqda öz vəziyyəti və qarşısında duran problemlərdən çıxış yolunu aydınlaşdırmaq imkanı verilməsində idi. A.Çxenkeli deyirdi: "Mən bilirəm, buna həddindən çox vaxt gedəcək, lakin təkrar edirəm, bu, yeganə çıxış yoludur. Diqqət yetirin, bu gün bizim irəli sürdüyümüz maddələrdən biri bir xalqı təmin edir, eyni zamanda digərinin mənafeyinə uyğun deyildir, ikincini təmin edən üçüncünün mənafeyinə uyğunlaşmır".[121] Ona görə də Çxenkeli bildirirdi ki, Trabzonda qalmağın heç bir əhəmiyyəti yoxdur. Nümayəndələrin bir qismi Tiflisə qayıtmağın, digər qismi isə İstanbula gedib Osmanlı dövlət adamları ilə daha yaxından danışıqlar aparmağın tərəfdarı idi. Qarşılıqlı razılıq əsasında sülh danışıqları müvəqqəti dayandırıldı və elan olunmuş fasilə müddətində tərəflər təmsil etdikləri dövlətlərlə məsləhətləşmələr keçirib müvafiq direktivlər almalı idi. Cənubi Qafqaz nümayəndəliyi belə qərara gəldi ki, Seymə məruzə etmək üçün öz üzvlərindən 3 nəfəri Tiflisə göndərsinlər. İ.Heydərov, Q.Lasxişvili və R.Kaçaznuni tezliklə Tiflisə gəldilər və mart ayının 22-də Trabzon danışıqları haqqında Seymdə məruzə etdilər.[122] Seymin iclasında iki məsələ qoyulmuşdu: 1. Cənubi Qafqazın müstəqilliyinin elan edilməsi haqqında; 2. Əvvəllər elan edilmiş sülh şərtlərində dəyişikliklər haqqında. Elə bu zaman Vehib paşa Cənubi Qafqazdakı mübahisəli əraziləri boşaltmağı tələb etdi. Bununla əlaqədar Seymdə gedən gərgin müzakirələr Zaqafqaziya xalqları arasında ziddiyyətlərin güclü olduğunu əks etdirirdi. Ermənilər və gürcülər Türkiyənin tələblərini rədd edib onunla müharibə aparmağa çağırırdılarsa, müsəlman fraksiyası qarşılıqlı güzəştlər əsasında Osmanlı imperiyası ilə razılığa gəlməyi təklif edirdi. Müzakirələr zamanı M.Mehdiyev müsəlman fraksiyası adından bildirdi ki, əgər Cənubi Qafqazın müstəqilliyi elan edilməsə, fraksiya sülh danışıqlarını davam etdirilməsini müdafiə etməyəcəkdir. O qeyd etdi ki, ümumiyyətlə, sülh danışıqlarını Seym üzvləri deyil, öz xarici işlər naziri vasitəsi ilə suveren hökumət aparmalıdır.[123] Ərazi məsələlərinin müzakirəsi son anda ona gətirib çıxartdı ki, gürcülər Batumu əldə saxlamaqla Qars və Ərdahanın güzəştə gedilməsinə razı idilərsə, ermənilər Batum və Acariyanın güzəştə gedilməsinə tərəfdar olub, Qarsın Türkiyəyə verilməsinə razı deyildilər. Qeyd

---

[120] Z.İbrahimov. Sosialist inqilabı uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi. Bakı, 1957, s.300

[121] О.Минасян. Внешняя политика Закавказской контрреволюции в первой половине 1918 года. //Историк-марксист, 1938, книга VI, с.66

[122] Türkiyə ilə sülh danışıqlarının gedişi haqqında Cənubi Qafqaz Seymi nümayəndəliyinin məruzəsi. 1918. //ARDA, f.970, s.1, i.3, v.7

[123] Документы и материалы по внешней политике Закавказья и Грузии, с. 145



downloaded from KitabYurdu.az

edilən ərazilərlə bağlı Azərbaycan fraksiyası bu fikirdə idi ki, Qars və Ərdahanın əhalisinin əksəriyyəti türklər olduğu üçün, Brest-Litovsk müqaviləsinin bu iki sancaqlıq haqqındakı maddələri yerinə yetirilməlidir. Onların fikrincə, Acariya Cənubi Qafqazın tərkibində ayrıca müsəlman respublikasına çevrilməli, əgər bu, mümkün olmazsa Türkiyəyə birləşdirilməli idi. Batum isə xaricə mühüm çıxış yolu kimi Cənubi Qafqazın tərkibində qalmalı idi. Bu məsələdə Azərbaycanın xarici iqtisadi-ticarət mənafeyi əsas götürülürdü. T.Svyatoçevski qeyd edir ki, Batumun Cənubi Qafqazda qalması ideyası yalnız neft sənayesi ilə bağlı idi və bu təklifi müsəlman fraksiyası adından X.Xasməmmədov müdafiə edirdi.[124] Bu, əslində bütün Azərbaycan fraksiyasının fikri idi. Seymin martın 26-dakı iclasında F.X.Xoyski də öz çıxışında Batum məsələsinə toxunmuşdu. O da Azərbaycan fraksiyasının fikrini ifadə edərək bildirmişdi ki, Batum Cənubi Qafqazın dənizə yeganə çıxış yoludur (Bakı bolşeviklərin əlində olduğu üçün - C.H.), onsuz Cənubi Qafqaz keçinə bilməz".[125] Trabzona ezam olunmuş hökumət üzvü N.Usubbəyov aprel ayının 1-də Seymə məlumatında qeyd edir ki, "Batumu heç bir halda vermək olmaz".[126] Batum məsələsində Azərbaycan və gürcü fraksiyasının mövqeyi üst-üstə düşürdü. Çünki Batum Türkiyənin ucqar, əhəmiyyətsiz bir şəhəri olacağı halda, Cənubi Qafqazın xaricə başlıca çıxış yolu olub, əslində onun üçün həyati əhəmiyyəti olan bir şəhər idi. Seymin hələ 11 mart tarixli iclasında N.Jordaniya qeyd edirdi ki, "Petroqrad Rusiya üçün, İzmir Türkiyə üçün nə dərəcədə əhəmiyyətlidirsə, Batum da Zaqafqaziya üçün eyni dərəcədə əhəmiyyətli bir şəhərdir".[127] N.Jordaniya bu çıxışında qəti surətdə Brest müqaviləsinin inkar edilməsini tələb edirdi. O bildirirdi: "Biz böyük inqilabı ona görə etmədik ki, bir kölәlikdən digər köləliyə düşək".[128] N.Jordaniya Seymi Türkiyənin tələblərini rədd etməyə çağırırdı. Ondan sonra Azərbaycan fraksiyası adından F.X.Xoyski geniş nitq söylədi. O, bildirdi ki, sülh danışıqlarına münasibət Cənubi Qafqaz üçün həyati əhəmiyyətli məsələdir. Müharibə region üçün ağır nəticələr verə bilər və onsuz da sabit olmayan vəziyyəti daha da gərginləşdirər. Türkiyə ilə münasibətlərə gəlincə o dedi ki, Türkiyənin hərəkətlərində biz "məntiqi bir ardıcıllıq görürük. Türkiyə hökuməti dəfələrlə bizə müstəqil bir qurum kimi baxırdı və əgər belə demək mümkünsə, bu ideyanı bizə qəbul etdirmək istəyirdi. Türkiyə hökuməti Zaqafqaziya hökumətinə danışıqlar aparmaq üçün öz nümayəndələrini Brest-Litovska göndərməyi təklif etdi. Bəzi mülahizələrə görə, Zaqafqaziya hökuməti bunu o zaman edə bilmədi. Türkiyə hökuməti bir neçə dəfə Zaqafqaziya hökumətinə müraciət edərək onun istiqlaliyyətinin elan edilməsini arzuladı. Buna

[124] T.Swietochowski. Russian Azerbaijan, p. 123
[125] О.Минасян. Внешняя политика Закавказской контрреволюции в первой половине 1918 года, с.70
[126] С.Аркомед. Материалы по истории отпадения Закавказья от России, с.68
[127] Документы и материалы по внешней политике Закавказья и Грузии, с.94-95
[128] Yenə orada, s.95



downloaded from KitabYurdu.az

müsbət cavab verilmədi. Seymin əvvəlki iclasında bu məsələ bütün qətiyyəti ilə qarşımızda qoyulduğu zaman, biz ona aydın bir cavab vermədik. Ona görə indi Türkiyə bizi Rusiya Respublikasının bir hissəsi hesab edirsə, bizə Rusiyanın bir hissəsinə baxdığı kimi baxırsa və Rusiya ilə bağladığı sülh müqaviləsinin şərtlərinə əməl etməyi bizə təklif edirsə, bu hərəkətdə bir məntiq görməmək mümkün deyildir."[129] F.Xoyski hökuməti qeyri-ardıcıllıqda günahlandırırdı ki, bir vəziyyətdə o özünü Rusiyanın ayrılmaz hissəsi hesab edir, digər bir vəziyyətdə Rusiyanın imzaladığı müqaviləni tanımaqdan imtina edir. Lakin F.Xoyskinin obyektiv reallığı əks etdirən "ədalətli qeydləri"[130] eser İ.Lordkipanidze və kadet Semyonovun, habelə erməni fraksiyasının müqavimətinə rast gəldi, E.Geqeçkori isə onları müdafiə etdi. Lakin heç bir qərar qəbul edilmədi. İndi Cənubi Qafqaz Seyminin qarşısında iki yol qalırdı: ya Brest sülhünün Qafqaza aid olan maddələrini təsdiqləmək və öz müstəqilliyini elan etmək, ya da müharibəni davam etdirmək.

Trabzonda və Tiflisdə mübahisələrin getdiyi bir vaxtda türk ordusu Brest sülhünün ona verdiyi hüquqların gerçəkləşdirilməsinə başladı. Martın 19-da Ərdahan alındı və erməni hərbi dəstələri tərksilah edildi.[131] Erməni terroruna məruz qalmış yerli müsəlman əhalisi hərbi əməliyyatlarda Türkiyəni müdafiə edirdi. Əlverişli məqam yarananda erməni hərbi hissələri yerli türk əhalisinə qarşı zorakılıq törədən zaman susan Seymdəki və hökumətdəki erməni nümayəndələri indi Müsavatı müsəlman əhalisinin mövqeyi ilə əlaqədar xəyanətdə təqsirləndirməyə cəhd göstərirdi.

Mart ayının 25-də hökumət üzvlərinin və Seym liderlərinin birgə keçirdiyi iclasda müharibə və sülh məsələsinə münasibətdə mövqelər xeyli aydınlaşdı. Trabzon danışıqlarında iştirak edən erməni nümayəndəsi R.Kaçaznuni məlumat verdi ki, Türkiyə Cənubi Qafqazın müstəqilliyinin elan edilməsini zəruri sayır. Onlar üçün Türkiyə ilə Rusiya arasında bufer olacaq bir dövlət vacibdir. Azərbaycan fraksiyası adından çıxış edənlər aydın şəkildə Cənubi Qafqazın müstəqilliyinin elan edilməsini zəruri sayırdılar. Azərbaycan fraksiyası adından çıxış edənlər aydın şəkildə Cənubi Qafqazın müstəqilliyinin elan edilməsini tələb etdilər. Müzakirələrdə iştirak edən Azərbaycan nümayəndələri, müxtəlif siyasi partiyalara mənsub olmaqlarına baxmayaraq Türkiyə ilə müharibə aparılmasına razı deyildilər. Onlar müharibə elan edilərsə, azərbaycanlıların türklərə qarşı vuruşmayacaqlarını bildirdilər. X.Xasməmmədov qeyd edirdi ki, əgər siz türklərin tələblərini qəbul etməsəniz, onda müharibə labüddür, biz türklərlə olan bu müharibədə iştirak edə bilmərik. Əgər erməni və gürcü xalqları özlərində güc və qüvvət hiss edirlərsə, qoy onda məsuliyyəti öz üzərlərinə götürüb müharibəyə risk etsinlər. Müsəlmanlar bu müharibədə iştirak etməyəcəklər. "Hümmət" partiyasının

[129] Документы и материалы по внешней политике Закавказья и Грузии, с.99
[130] F.Kazemzadeh. The Struggle for Transcaucasia, p.95
[131] N.Kurat. Türkiye ve Rusiya, s.469



downloaded from KitabYurdu.az

üzvü Ə.Şeyxülislamov da bu fikirdə idi ki, Türkiyə ilə müharibə başlandığı təqdirdə müsəlmanlar neytral olacaqlar.[132] Bu iclas qəti qərar qəbul etməsə də, iki mühüm məsələ aydınlaşdı. Birincisi, Cənubi Qafqaz hökuməti öz vəziyyətinin həddindən çox böhranlı olduğunu anlamağa başladı, ikincisi, Trabzon danışıqlarında işi sürətləndirmək üçün A.Çxenkeliyə fövqəladə səlahiyyət verildi, üçüncüsü, Seym Türkiyə əleyhinə Antanta dövlətlərindən yardım almaq məsələsini aydınlaşdırmağa cəhd göstərdi. Lakin 1917-ci ilin payızından fərqli olaraq, 1918-ci ilin yazında nə Böyük Britaniya, nə Fransa, nə də ABŞ bu dövrdə Cənubi Qafqaz hökumətinə realköməklik göstərmək iqtidarında deyildilər. ABŞ dövlət katibi Lansinq Tiflisdəki konsul Smitə vurduğu teleqramda etiraf edirdi ki, "ABŞ Qafqaz cəbhəsindəki hərbi əməliyyatları fəal müdafiə etmək iqtidarında deyildir".[133]

Mart ayının 25-də Tiflis sarayında Seymin bütün müsəlman fraksiyalarının və Şimali Qafqaz dağlılarının nümayəndələrinin birgə iclası keçirildi. M.Y.Cəfərovun sədrliyi və Rəhim bəy Vəkilovun katibliyi ilə keçirilən iclasda Seymin müsəlman fraksiyalarının üzvləri ilə yanaşı, Şimali Qafqazdan Zubayir Temirxanov, Məhəmməd Qazi Dibirov, Heydər Bammatov, Tona Çermoev və İnquşetiyanın təmsilçisi Liyanov iştirak edirdilər. İclasda Şimali Qafqazın Zaqafqaziya dövlətinə birləşdirilməsi məsələsi geniş müzakirə edildi. İlk söz alan H.Bammatov Şimali Qafqazda gedən hadisələrin siyasi xarakteri və yaxınlaşan rus təhlükəsi qarşısında dağlıların ağır vəziyyətlə üzləşməsi barədə geniş məlumat verdi. H.Bammatov eyni zamanda bir gün əvvəl gürcü və erməni nümayəndələri ilə aparılmış danışıqlar barədə məlumat verib, ermənilərin xarici təhlükəyə qarşı, öz qonşuları ilə həmrəy olmadıqlarını bildirdi. Bununla yanaşı, o, erməni məsələsinə münasibətdə dözümlü olmağı təklif etdi. H.Bammatov velikorus-bolşevik təhlükəsinin dəf edilməsi üçün Qafqaz daxilində millətlərarası münasibətlərin tezliklə həll ediləcəyinə əminliyini ifadə etdi. N.Usubbəyov Qafqaz dağlılarının və Zaqafqaziya türklərinin vahid müsəlman ailəsinin üzvləri kimi yaxınlaşmalarını və Cənubi Qafqaz dövlətində birləşmək arzularını yüksək qiymətləndirdi. Qafqaz dağlılarının Zaqafqaziya hökumətinə birləşməsini işləyib hazırlamaqdan ötrü Cənubi Qafqaz türklərinin və dağlıların nümayəndələrindən ibarət hər birindən üç nəfər olmaqla altı nəfərdən ibarət xüsusi komissiya yaradıldı.[134] Mart ayının 26-da keçirilən Seymin bütün müsəlman fraksiyasının iclasında Trabzon konfransından yeni qayıtmış sülh heyətinin üzvü Ə.Şeyxülislamovun məruzəsi dinlənildi və müsəlman partiyalarının sonrakı fəaliyyəti müzakirə edildi. İclasda müsəlman fraksiyasının üzvləri Brest sülhünün şərtlərinin qəbul edilməsinə tərəfdar

---

[132] С.Аркомед. Материалы по истории отпадения Закавказья от России, с.55

[133] Papers Relating to the Foreign Relation of the United States, 1918, Russia, vol.VII, p.263

[134] Seymin bütün müsəlman fraksiyasının və Şimali Qafqaz Dağlılarının nümayəndələrinin iclasının protokolu. 25.03.1918.//ARDA, f.970, s.1, i.1, v.3-4



downloaded from KitabYurdu.az

olduqlarını bildirdilər. Müzakirələr zamanı bir neçə gün əvvəl Seym üzvü M.H.Hacınskinin məhz bu təlimatla Trabzona ezam edilməsi bəyənildi.[135]

Erməni və bolşevik qüvvələrinin birgə səyi ilə törədilmiş mart qırğınları barədə Bakıdan alınan həyəcanlı xəbər sülh danışıqlarında və Seymdə vəziyyəti daha da gərginləşdirirdi. Aprelin 2-də Bakı hadisələri barədə Seymdə məlumat verildi. Seym üzvü N.Ramişvili bunu Tiflisə bolşevik hücumunun və Cənubi Qafqazda hakimiyyəti ələ keçirməsinin başlanğıcı kimi qiymətləndirdi. Mart soyqırımından sarsılmış müsəlman fraksiyası Bakıda bolşeviklərə qarşı təcili tədbirlər görülməsini tələb etdilər və əks təqdirdə müsəlman fraksiyasının Seymi boykot edəcəyini bildirdilər.

Azərbaycanda hakimiyyəti ələ keçirmək üçün mart ayında Bakı Sovetinin daşnaklarla birlikdə şəhərdə törətdiyi müsəlman qırğını və aprel ayında Bakı quberniyasında həyata keçirilən milli qırğın siyasəti xalqların təyini müqəddəratını elan etmiş Sovet Rusiyasının və bütövlükdə bolşeviklərin Azərbaycana münasibətinin təzahür forması idi. Ona görə bu hadisələrə, əsasən, ermənilərdən ibarət olan Bakı bolşeviklərinin Azərbaycanda hakimiyyəti ələ keçirməsi kimi deyil, Sovet Rusiyasının yeritdiyi təcavüzkarlıq siyasətinin tərkib hissəsi kimi baxılmalıdır. Hadisələrin sonrakı inkişafı bunu daha aydın şəkildə təsdiq etdi. Bakı quberniyasında mart-aprel aylarında törədilən milli qırğınlar ilk baxışda yerli hadisə təsiri bağışlasa da, Sovet Rusiyasının və Osmanlı imperatorluğunun mövqeyi baxımından bu, beynəlxalq məzmuna malik bir hadisə idi. Mart qırğınını törətməklə bolşeviklər Bakıda milli qüvvələrin sosial bazasını məhv etməyə nail olmaq ümidində idilər. Mart soyqırımında qarşıya qoyulan məqsədləri S.Şaumyan bu hadisə törədiləndən və müsəlman əhalisinə divan tutulduqdan sonra daha açıq etiraf edirdi. O, yazırdı ki, əgər müsəlman "əksinqilabı" qalib gəlsəydi, Bakını Azərbaycanın paytaxtı edərdi və "Zaqafqaziya Rusiya üçün itirilmiş olardı".[136]

Qeyd etmək lazımdır ki, Azərbaycan əhalisinin geniş kütlələri tərəfindən müdafiə edilən muxtariyyət məsələsinə münasibətdə Rusiya mərkəzi bolşevik hökuməti ilə Bakı Soveti arasında fikir ayrılığı var idi. Mart hadisələri ərəfəsində, ayın 19-da RK/b/P MK-nın S.Şaumyan və A.Caparidzeyə göndərdiyi məktubda deyilirdi ki, əgər müsəlmanlar muxtariyyət tələb edirlərsə, bunu onlara vermək lazımdır.[137] Lakin azərbaycanlıların muxtariyyətə olan təbii arzularını S.Şaumyan Bakını "Azərbaycan xanlığının paytaxtına" çevirmək istəyən "Azərbaycan millətçilərinin arzuları" kimi şərh edirdi.[138] Hələ 1918-ci ilin əvvəllərində "Türkiyə Ermənistanı" haqqında dekretin icrasına cavabdeh olan S.Şaumyan "Bakını

---

[135] Seymin bütün müsəlman fraksiyalarının birgə iclasının protokolu. 26.03.1918.//ARDA, f-970, s.1,i.1,v.4

[136] С.Г.Шаумян. Избранные произведения в двух томах. Том 2, 1915-1918 гг. Баку, 1978, с.245-246

[137] Я.Ратгаузер. Революция и гражданская война в Баку. Т.I, 1917-1918. Баку, 1927, с. 140

[138] С.Г.Шаумян. Избранные произведения, с.257



downloaded from KitabYurdu.az

Azərbaycanın paytaxtı etmək xülyasına düşən"[139] müsəlmanlara tamamilə başqa münasibət bəsləyirdi. "Azərbaycan kəlməsi onun dilində həmişə məsxərə ilə səslənirdi".[140] Amerika alimi T.Svyatoçovski haqlı olaraq qeyd edir ki, "bunun əksinə, bolşeviklər daşnaklara mülayim münasibət bəsləyir, ermənilər də buna məhəbbətlə cavab verirdilər".[141] Belə bir şəraitdə Bakı Soveti əlverişli məqamın yetişdiyini dəqiqləşdirib fəaliyyətə başladı. Mart ayının 15-də Bakı Sovetinin iclasında "Cənubi Qafqazda işlərin vəziyyəti" mövzusunda məruzə edən S.Şaumyan göstərirdi: "Bakı Soveti Cənubi Qafqazda vətəndaş müharibəsinin başlıca və mərkəzi dayağı olmalıdır".[142] Artıq bu zaman silahlı qüvvələri, əsasən, ermənilərdən ibarət olan Bakı Soveti ilə daşnaklar və digər erməni milli təşkilatları arasında müsəlmanlara divan tutmaq, şəhəri əsl sahiblərindən təmizləmək barədə gizli razılıqlar əldə edilmişdi.

Beləliklə, ciddi hazırlıq görüldükdən sonra mart ayının 30-da başlayan və üç gün davam edən Bakı faciəsi zamanı əksinqilabçı adı ilə 12 min nəfər müsəlman əhalisi qətlə yetirildi.[143] Bakı qırğınlarından az sonra eyni faciəli hadisələr Şamaxıda da yaşandı. Qısa zaman ərzində Şamaxıda 7 min nəfərdən çox müsəlman əhalisi məhv edildi ki, bunun da 1653 nəfəri qadın, 965 nəfəri uşaq idi.[144]

Az sonra yaranan Azərbaycan Xalq Cümhuriyyətinin Xarici İşlər Nazirliyinin ilk əhəmiyyətli addımlarından biri 1918-ci ilin martında Bakıda və ümumilikdə həmin ilin yazında Azərbaycanda bolşevik-erməni silahlı dəstələrinin törətdiyi müsəlman soyqırımını təhqiq edən Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında təşəbbüslə çıxış etməsi oldu.

Avropada ermənilərin təsiri altında olan informasiya vasitələrinin Azərbaycanda onların törətdiyi vəhşiliklərin tamam əks istiqamətdə təbliğ etməsi Azərbaycan Xarici İşlər Nazirliyini məcbur etdi ki, hökumət qarşısında bu məsələnin ətraflı təhqiq edilməsini qaldırsın. Azərbaycan Xalq Cümhuriyyətinin ilk xarici işlər naziri M.H.Hacınski 1918-ci ilin iyul ayının 15-də hökumətə məruzəsində yazırdı: "Dörd aydan artıq bir müddətdə Azərbaycan ərazisində bolşevizm adı altında məsuliyyətsiz erməni milli dəstələrinin dinc müsəlman əhalisinə qarşı görünməmiş vəhşiliklər törətdikləri məlumdur. Eyni zamanda bu quldur dəstələrin təşkilatçıları ictimai rəyi öz xeyirlərinə formalaşdırmaq üçün

---

139 Yenə orada, s.192

140 T.Swietochowski. Russian Azerbaijan, p.114

141 Yenə orada, s. 114

142 С.Г.Шаумян. Избранные произведения, с. 189

143 Fövqəladə İstintaq Komissiyasının üzvü A.E.Kluqenin Bakı şəhərinin müsəlman əhalisi üzərində törədilən zorakılıqlar haqqında komissiyanın sədri A.Xasməmmədova məruzəsi. İyul, 1919.//Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivi (ARPİİ SPİHDA), f.277, s.2, i.27, v.18; 1918-ci ilin martında Bakıda törədilmiş türk-müsəlman soyqırımı haqqında geniş məlumat üçün bax: С.Рустамова-Тохиди. Март 1918 в Баку. Азербайджанские программы в документах. Баку, 2009

144 Fövqəladə İstintaq Komissiyasının qərarı. 28.07.1919.//ARDA, f.1061, s.1, i.108, v.7



downloaded from KitabYurdu.az

bunun əksinə olan saxta materiallar Avropa ölkələrinə göndərirlər. Ona görə Xarici İşlər Nazirliyi təcili şəkildə istintaq komissiyası yaradıb. 1.Bütün zorakılıq hadisələrinin dəqiq qeydə alınmasını; 2. Zorakılığın hansı şəraitdə törədilməsini; 3. Günahkarların və dəyən ziyanın müəyyən edilməsini zəruri hesab etdi. Məruzədə göstərilirdi: "Yaradılacaq təşkilat Fövqəladə İstintaq Komissiyası xarakterində olmalıdır, onun materialları başlıca Avropa dillərində (rus, fransız, alman və türk) elan edilməli və geniş yayılmalıdır".[145] Avqust ayının 31-də hökumətin qərarı ilə Fövqəladə İstintaq Komissiyası təsis edildi. Komissiya qısa vaxtda bütövlükdə Bakı quberniyasında törədilən cinayətkarlıqlar barədə külli miqdarda istintaq materialları topladı, həmin materialların çox cüzi bir hissəsindən 1919-cu ildə Paris sülh konfransında iştirak edən Azərbaycan nümayəndələri məqalə və broşura buraxılmasında istifadə etdilər. 1919-cu ildə İstanbulda fransız dilində buraxılmış 73 səhifəlik "Ermənilərin müsəlman əhalisi üzərində etdikləri vəhşiliklər haqqında sənədlər"[146] toplusunda da bəzi məsələlər öz əksini tapmışdır.

Əsasən, qeyri-azərbaycanlılardan təşkil olunmuş Fövqəladə İstintaq Komissiyasının materiallarının bir hissəsi Xarici İşlər Nazirliyi tərəfindən Parisdəki Azərbaycan nümayəndəliyinə göndərildi və nümayəndəlik həmin materiallardan təbliğati məqsədlər üçün nəşr etdikləri kitab və broşurlarda istifadə etdilər. 1919-cu ildə Paris sülh konfransında iştirak edən Azərbaycan nümayəndə heyətinin Parisdə buraxdığı kitabçada qeyd edilirdi: "Müsəlmanlar üçün məlum nəticələri olan bu qanlı hadisələrdə hər yerdə olduğu kimi, Bakıda da öz millətçi partiyalarını (Daşnaksutyun) yaratmış ermənilər fəal iştirak edirdilər... Həmin dəhşətli günlərdə 12000-dən çox azərbaycanlı əhalini öldürdülər. Öldürülənlər arasında qocalar, qadınlar və uşaqlar üstünlük təşkil edirdilər. Yəqin ki, gələcək tarixçilər bu hadisələrin üstündən sükutla keçməyəcəklər".[147] Ermənilərin mart hadisələrində fəal iştirakını həmin dövrdə Bakıda fəaliyyət göstərən Britaniya missiyasının əməkdaşı R.Makdonell də təsdiq edir. O yazır: "ermənilər müsəlmanlara qarşı bolşeviklərlə birləşməklə öz tarixlərinin ən böyük səhvinə yol verdilər. Bunun üçün bütün məsuliyyət "Daşnaksutyun" təşkilatının üzərinə düşür".[148]

Bakı quberniyasında törədilən müsəlman soyqırımı Seym daxilində ziddiyyətləri gücləndirməklə yanaşı, Türkiyə ilə aparılan danışıqlara da ciddi şəkildə təsir göstərdi. Digər tərəfdən, Bakıda törədilən hadisələrlə bir vaxtda ermənilər 1918-ci ilin mart ayının ortalarında Türkiyədə, xüsusilə Ərzurumda da buna bənzər hadisələr törətmişdilər. Ərzurum şəhərinin yaxınlığındakı

---

[145] Xarici işlər naziri M.H.Hacınskinin müsəlmanlara qarşı törədilmiş zorakılıqların istintaqının aparılması üçün komissiya yaradılmasının zəruriliyi haqqında Nazirlər Şurasının sədri F.X.Xoyskiyə məruzəsi. 15.07.1918.//ARDA, f.1061, s.1, i.95, v.1

[146] Documents relatil's aux Alrecites Commises parles Armenies Surla population musulmane. Constantinopol, 1919, p.73

[147] Claims of the Peace Delegation of Caucasian Azerbaijan. Paris, 1919, p.16-17

[148] Azərbaycan Xalq Cümhuriyyəti. Böyük Britaniyanın arxiv sənədləri, s.169



downloaded from KitabYurdu.az

Yaşılyaylada təkcə mart ayının 11-12-də üç min türk əhalisi məhv edilmişdi. Ərzurum cinayətlərinə erməni başçıları Andronik, Muradyan, Doluxanov və digərləri rəhbərlik edirdilər.[149] Türk ordusunun təzyiqi altında geri çəkilən bu quldur dəstələri yolboyu Azərbaycan kəndlərini dağıdır, əhalini kütləvi şəkildə qırırdılar. Bu vəhşiliklərin törədilməsində Andronikin dəstəsi xüsusi fəallıq göstərirdi. Törətdiyi cinayətin ağırlığına, vəhşiliklərin dərəcəsinə görə azərbaycanlı və türk əhalisinin yaddaşında Andronik "qəddarlıq" simvolu kimi qalıb.[150] Bakı quberniyasındakı mart-aprel qırğını, eyni vaxtda Ərzurumda və Türkiyənin digər Şərq vilayətlərində türk əhalisinə qarşı törədilən vəhşiliklərlə sıx surətdə bağlı idi və bu hadisələr Türkiyə ilə aparılan danışıqları daha da çətinləşdirirdi.

Müharibə və sülh məsələsinə münasibət ayrılıqda Seym fraksiyalarında da müzakirə edilirdi. Lakin uzun müzakirələrdən sonra aprel ayının 5-də Cənubi Qafqaz nümayəndələri Qars və Ərdahanın bir hissəsinin güzəştə gedilməsinə tərəfdar oldusa da, Brest müqaviləsinin qanuniliyini qəbul etməkdən imtina edirdi. Danışıqlar stolu arxasında eyni cavabların təkrarından usanmış Türkiyə tərəfi aprel ayının 6-da Zaqafqaziya nümayəndələrinə ultimatum verib, Brest-Litovsk müqaviləsini tanıyıb-tanımamaq barəsində 48 saat ərzində cavab tələb etdi. Eyni zamanda ultimatumda göstərilirdi ki, əgər Cənubi Qafqaz Türkiyə ilə müqavilə münasibətlərinə girmək istəyirsə, öz müstəqilliyini elan etməlidir, yalnız bundan sonra diplomatik danışıqlar davam etdirilə bilər.[151] Aprelin 7-də A.Çxenkeli alınmış ultimatum barədə Tiflisə məlumat verdi. Ölkədə anarxiyanın hökm sürdüyünə və cəbhənin dağılmasına istinad edərək o, Batum istisna olmaqla, Brest müqaviləsinin tanınmasına və təcili surətdə müstəqilliyin elan edilməsinə çağırırdı. Eyni zamanda A.Çxenkeli Gürcüstan Milli Şurasının sədri N.Jordaniyaya yazırdı: "Vəziyyət böhranlıdır, bizim ordu hər cür tənqiddən aşağı səviyyədədir, türkləri Batumun lap yaxınlığına buraxmışlar, Çakvi yaxınlığında dəmir yolu kəsiləcəkdir. Əgər Batum alınarsa, Gürcüstanın taleyi barədə düşünmək lazım gələcəkdir".[152] O, Seymdən və Gürcüstan Milli Şurasından Batum limanını saxlamaqla, Brest-Litovsk müqaviləsini tanımağa səlahiyyət istəyirdi. Trabzonda olan erməni nümayandələri A.Xatisov və R.Kaçaznuni Brest müqaviləsinə münasibətdə əvvəlki təkliflərinin əhəmiyyətsiz olduğunu anladılar. Onlar Türkiyə ilə gizli danışıqlar aparmağa cəhd göstərdilər. Bu məqsədlə A.Xatisov başda olmaqla, ermənilər türk nümayəndə heyətinin başçısı Rauf Orbayla görüşdülər. Erməni nümayəndələri bildirdilər ki, Osmanlıların əlindən qaçıb Qafqazda yerləşdirilən 400 min nəfər erməni vardır. Osmanlı dövləti onların təkrarən Osmanlı torpaqlarında yerləşməsinə icazə verərsə, ermənilər Qars-Ərdahan və Batumun türklərdə

---

[149] Enver Konukçu. Ermenilerin Yeşilyayladakı Türk soykırımı (11-12 mart 1918). Ankara, 1990, s. 19-22

[150] V.Stepakov və T.Kuprikov - Sov.İKP MK-ya. 25.06.1965. //RDƏYTA, f.5, s.33, i.221, v.35

[151] N.Kurat. Türkiye ve Rusiya, s.472

[152] С.Аркомед. Материалы по истории отпадения Закавказья от России, с.67



downloaded from KitabYurdu.az

qalmasına qarşı çıxmayacaqlar. Lakin ermənilərin təklifi qəbul edilmədi. Belə olduqda A.Kaçaznuni yaranmış vəziyyətdə Brest müqaviləsini "ən az bəla" hesab edib, bütövlükdə Batum da daxil olmaqla, onun tanınmasını təklif etdi.[153] Ermənilər Batumun türklərə verilməsi təklifini, Qars məsələsində möhkəm dayanmadıqları üçün, gürcülərin acığına etdilər. Azərbaycan nümayəndəsi X.Xasməmmədov Brest müqaviləsinin beynəlxalq hüquqi akt olduğuna istinad edərək bildirdi ki, həmin müqavilə nöqteyi-nəzərindən Türkiyənin hərəkətlərinə təbii baxılmalıdır. "Türk ordusunun hərəkətinə, qayda-qanunun bərqərar edilməsi kimi baxılmalıdır. Rusiya öz üzərinə düşən öhdəlikləri yerinə yetirdi və tezliklə ordusunu bu vilayətlərdən çıxartdı. İndi Türkiyə orada fəaliyyət göstərən milli hissələrə partizanlar kimi baxır və bu əraziləri partizan dəstələrindən təmizləyir".[154] İndi artıq Brest müqaviləsinin təsdiq edilməsi mübahisəsiz bir fakt kimi qarşıda durmuşdu. Əvvəlki müzakirələrdə tərəddüd edən A.Çxenkeli də bu fikrə gəldi. Ultimatumun müddəti tamam olduqda o, Tiflisdən cavab gözləmədən Osmanlı imperiyasının nümayəndələrinə bildirdi: "Zaqafqaziya sülh nümayəndəliyi Osmanlı nümayəndələrinin 6 aprel 1918-ci il məktubuna cavab olaraq bildirir ki, o, Brest-Litovsk müqaviləsini qəbul edir və sonrakı danışıqları onun əsasında davam etdirməyə hazırdır".[155] Sonralar bir sıra erməni siyasi xadimləri və müəllifləri nəinki müsavatçıları, eyni zamanda A.Çxenkeli başda olmaqla gürcü menşeviklərini Brest müqaviləsini tanımaqla, erməni xalqına xəyanət etdiklərini iddia edirdilər. Leo 1921-ci ildə çap olunmuş xatirələrində yazırdı: "Sən demə, Çxenkelinin əsas məqsədi türk ordusunun Batuma hücumunun dayandırılmasına nail olmaq imiş... Sonralar aydın oldu ki, bu menşevik siyasəti ermənilər hesabına türklərlə dostluq üzərində qurulub".[156] A.Çxenkelinin türk ultimatumunu qəbul etmək haqqında qərarına gəlincə, bu, gecikmiş bir qərar idi. T.Svyatoçovski düzgün olaraq yazır ki, "Çxenkeli aprel ayının 10-da Brest müqaviləsinə razılıq verdikdə məlum oldu ki, Batum istisna olunarsa, osmanlılar tələb etdiyi ərazilərin hamısını ələ keçiriblər".[157] Bununla belə, A.Çxenkelinin cavabı alınan kimi aprelin 11-də türk komandanlığı Batumun komendantına bildirdi ki, əldə olunan razılığa əsasən, atəş dayandırılır. Bir gün sonra türklər şəhəri boşaltmaq və 1877-ci il sərhədini bərpa etməyi tələb etdilər.

Trabzondan fərqli olaraq, Tiflisdə hadisələr bir qədər ayrı istiqamətdə inkişaf edirdi. Batum haqqında ultimatum verilən kimi, Zaqafqaziya Seyminin təcili iclası çağırıldı. E.Geqeçkori, İ.Sereteli, X.Karçikyan, Y.Semyonov və digərləri öz çıxışlarında müqavimət göstərməyi zəruri hesab edərək, əslində Türkiyəyə rəsmən müharibə elan etməyi tələb edirdilər. Seymin erməni və gürcü

[153] Seymin müsəlman fraksiyasının iclasının protokolu. 03.04.1918.//ARDA, f.970, s.1, i.1, v.10
[154] С.Аркомед. Материалы по истории отпадения Закавказья от России, с.63
[155] Документы и материалы по внешней политике Закавказья и Грузии, с. 160
[156] Лео. Из прошлого. Эривань, 1921, с.33
[157] T.Swietochowski. Russian Azerbaijan, p. 123



downloaded from KitabYurdu.az

nümayəndələrinin çıxışlarında müharibəyə çağırış artıq açıq hiss edilirdi. Aprelin 13-də (martın 31-də) Seymin iclasından əvvəl bütün müsəlman seym fraksiyasının birgə toplantısı keçirildi. Türkiyə ilə müharibə məsələsində tam yekdillik yox idi. Hümmətçilər öz əvvəlki mövqeyini dəyişərək, bu məsələdə gürcü menşevikləri ilə birgə olacaqlarını bildirdilər. Müsəlman sosialist bloku isə müharibəyə tərəfdar olmasa da, öz mövqeyini bildirməyib, Seymdə müstəqil hərəkət etmək fikrində idi.[158]

Yaranmış vəziyyətə münasibətdə mövqeləri bir-birinə yaxın olan Müsavat, bitərəflər qrupu və ittihadçılar müharibə əleyhinə birgə qətnamə qəbul etdilər. Orada deyilirdi ki, Türkiyə ilə müharibənin Cənubi Qafqaz demokratiyası və onun daxili həyatı üçün ağır nəticələr verə biləcəyini əsas tutaraq müsavat firqəsi, bitərəflər qrupu və ittihad partiyası onun məsuliyyətini öz üzərinə götürmür. Bu qətnamə ilə Seymdə çıxış etmək seym üzvü Ş.Rüstəmbəyova tapşırıldı. Seymin iclasında qeyd olunduğu kimi, bütün qeyri-müsəlman partiyaları müharibəyə tərəfdar idi. Ş.Rüstəmbəyov müsavat, ittihad və bitərəf qrupun yuxarıda göstərilən qətnaməsini elan etməklə yanaşı, mövcud vəziyyətin müsəlman demokratiyası üçün müstəsnalıq təşkil etdiyini bildirdi və dedi: "Biz bu müharibədə fəal iştirak edə bilmərik, ona görə də öz üzərimizə böyük məsuliyyət götürmürük". O əlavə etdi ki, "Birincisi, hələ indiyə qədər müsəlmanlara münasibətdə hərbi mükəlləfiyyət tətbiq edilmədiyindən, ikincisi, Türkiyə ilə bizi bağlayan dini əlaqələr baxımından müsəlmanların Türkiyəyə qarşı hərbi əməliyyatlarda fəal iştirak etməsi məqsədəuyğun deyildir".[159] Dini amillə bağlı erməni və gürcülər şiə azərbaycanlıların uzun bir tarixi dövr ərzində sünni türklərə qarşı döyüşdüyünü xatırlatdılarsa da, bunun elə bir əhəmiyyəti olmadı. Hadisələrin sonrakı inkişafı Azərbaycan fraksiyasının aparıcı qüvvələrinin düzgün mövqe tutduğunu təsdiq etdi. Türkiyə ilə müharibədə iştirak etmək - xüsusən Bakıdakı mart hadisələrindən sonra - Azərbaycan üçün acınacaqlı nəticələrə gətirib çıxara bilərdi. F.Kazımzadənin yazdığı kimi, "türklərin gəlişindən azərbaycanlıların qorxmağına heç bir əsas yox idi. Əksinə, türklərin köməyi ilə onlar Bakını sovetlərdən geri qaytarmağa, şəhərin küçələrində hələ qurumayan qan üçün qisas almağa ümid bəsləyirdilər".[160]

Azərbaycan partiyalarının antimüharibə mövqeyi Seymi öz fikrindən döndərə bilmədi. Seym 13 aprel tarixli iclasında Türkiyə ilə müharibə haqqında qərar qəbul etdi. Ölkədə hərbi vəziyyət elan edildi. "Ali Müdafiə Şurası" yaradıldı və Cənubi Qafqazın bütün xalqlarına əldə silah "vətəni" qorumaq haqqında müraciət qəbul edildi. İ.Sereteli və digərləri azərbaycanlıları nəzərdə tutaraq deyirdilər ki, "əgər arxadan xəyanət olmazsa", Zaqafqaziya ordusu Osmanlılara

158 Seymin müsəlman fraksiyasının iclasının protokolu. 31.03.1918.//ARDA, f.970, s.1, i.1, v.6
159 Документы и материалы по внешней политике Закавказья и Грузии, с. 178
160 F.Kazemzadeh. The Struggle for Transcaucasia, p. 101



downloaded from KitabYurdu.az

uğurla müqavimət göstərə bilər.[161] Əlbəttə, bu fikrin elə bir əsası yox idi, cəbhə xəttinə yaxın olan və vəziyyəti bilavasitə yerində müşahidə edən A.Çxenkeli çox gözəl görürdü ki, ordu dağılıb, fərarilik hökm sürür və Zaqafqaziya ordusu Türkiyə hücumuna müqavimət göstərmək iqtidarında deyildir.

Cənubi Qafqazda vəziyyətin gərginləşməsi Rusiyaya olan meyli yenidən qüvvətləndirirdi. Hətta Seymin iclasında menşeviklər Rusiyaya sədaqətlərini nümayiş etdirib, rus proletariatına manifestlə müraciət etdilər. Orada göstərilirdi: "Zaqafqaziya Brest-Litovsk müqaviləsini ona görə rədd edir ki, bu müqavilə ilə razılaşmaq Rusiyadan ayrılmaq deməkdir". Rusiya proletariatına müraciəti menşeviklərlə bərabər, hümmətçilər də imzalamışdılar, bu da müsəlman fraksiyaları arasında "Bakıda minlərlə müsəlmanın bolşevik-erməni dəstəsinin əli ilə öldürüldüyü bir vaxtda" ciddi narazılığa səbəb olmuşdu. Gürcü xalqının mənafeyindən çıxış edən menşeviklərin quyruğunda sürünən hümmətçilərin hərəkətlərinin milli mənafeyə zidd olduğu göstərilmişdi. D.Axundov və S.Ağamalıoğlu (hümmətçilər) rus demokratiyası və proletariatına müraciətin heç də bolşeviklərə müraciət olmadığını əsaslandırmağa çalışırdı. Oriyentasiya məsələsində hümmətçilər arasında birlik yox idi. Onlardan bəziləri deyirdi: "Əgər müstəqillik olmayacaqsa və şimaldan bolşeviklər gələcəksə, biz bu halda onların əleyhinə olub, Türkiyə oriyentasiyasına tərəfdarıq, əgər şimaldan əsil demokratlar gələrsə, biz onlarla türklərin əleyhinəyik".[162] Bütün bu dolaşıq fikirlərə qarşı M.Ə.Rəsulzadə dedi: "biz hər hansı formada Zaqafqaziyanın Rusiyaya geri qaytarılmasına qarşıyıq və əlimizdə silah buna qarşı mübarizə aparacağıq. Biz öz qüvvəmizə inanırıq və çətin anlarda cənub-qərbdən (Türkiyədən - C.H.) kömək çağıra bilərik".[163] Müharibə elan etmək haqqında qərarın qəbul edilməsi və Rusiyaya meylin güclənməsi digər amillərlə də bağlı idi. Hələ müharibə haqqında qərar qəbul edilməzdən bir neçə gün əvvəl Qara dəniz donanması Mərkəzi Komitəsindən teleqram alınmışdı ki, onlar Batumu müdafiə etmək üçün hərbi gəmilər göndərmək barədə göstəriş vermişlər.[164] Batumun tutulması ərəfəsində (aprel ayının 12-də) RSFSR Xalq Xarici İşlər Komissarlığı G.Çiçerin və L.Karaxanın imzası ilə Almaniyaya nota verib, ondan Cənubi Qafqazda hücumu dayandırmaq məqsədilə Türkiyəyə təsir göstərməyi xahiş etdi. Notada deyilirdi: "Türkiyə cəbhəsində üstünlük Rusiyanın tərəfində idi, Ərdahan, Qars və Batumu ona görə vermək lazım idi ki, Türkiyənin müttəfiqi Almaniya idi".[165] Hadisələrin sonrakı inkişafından aydın oldu ki, bu nota bir növ Almaniyanın Cənubi Qafqaza nüfuz etməsini sürətləndirmək məqsədi güdürdü. Çünki az sonra, aprel ayının 27-

---

[161] Документы и материалы по внешней политике Закавказья и Грузии, с. 174

[162] Seymin bütün müsəlman fraksiyasının birgə iclasının protokolu. 06.04.1918.//ARDA, f.970, s.1,i.1,v.15

[163] Yenə orada, v.17

[164] Документы и материалы по внешней политике Закавказья и Грузии, с. 115

[165] Документы внешней политики СССР. T.I, с.240-241



downloaded from KitabYurdu.az

də Almaniya sultan hökumətini məcbur etdi ki, Cənubi Qafqazın nüfuz dairəsinə bölüşdürülməsi haqqında gizli saziş imzalasınlar. Həmin sazişə görə, Gürcüstan və Ermənistan Berlinin, Azərbaycan isə İstanbulun təsir dairəsinə düşməli idi.[166]

13 aprel iclasında hərbi vəziyyətlə əlaqədar yaradılmış "Ali Müdafiə Şurası"na hökumətin sədri və hərbi nazir E.P.Geqeçkori, daxili işlər naziri N.V.Ramişvili, maliyyə naziri X.Karçikyan daxil edilmişdilər. Seymin fəaliyyəti iki həftəliyə dondurulmuşdu.[167] Göründüyü kimi, "triumviratda" Azərbaycan təmsil edilməmişdi. Bu, Azərbaycan fraksiyasının müharibə əleyhinə olmağından daha çox, onları hadisələrdən təcrid etməyə yönəldilmişdi. Seymin iclaslarının olmaması isə, Azərbaycan fraksiyasını tamamilə təcrid vəziyyətinə salmışdı. Ona görə Azərbaycan fraksiyası ona qarşı yönəldilmiş bu iki qərara biganə qala bilməzdi. Elə həmin gün, aprel ayının 13-də axşam Seymin müsəlman fraksiyasının iclası çağırıldı. İclasda Seymin qəbul etdiyi qərarlar barədə Ş.Rüstəmbəyov məlumat verdi. Türkiyəyə müharibə elan edilməsi ilə bağlı Seymin iki həftəlik fasiləsi və fövqəladə səlahiyyətə malik üç nəfərdən ibarət hərbi kollegiyanın yaradılması ilə bağlı yaranmış vəziyyətdə müsəlman fraksiyasının vəzifələrini müəyyənləşdirmək zərurəti meydana çıxmışdı. İclasda çıxış edən H.Məmmədbəyov bildirdi ki, hökumət və Seym bu addımı ilə müsəlmanların hüquqlarını tapdalayır, belə olduqda erməni və gürcülərlə işləmək mümkün deyildir. O, təklif edirdi ki, Seymin tərkibindən çıxıb Qafqazın çeçen və inquş nümayəndələrini bir yerə toplayıb, bu xalqların gələcək taleyi barədə fikirləşmək lazımdır.[168] Lakin M.Y.Cəfərov Trabzondan sülh nümayəndələri qayıdana qədər Seymin tərkibindən çıxmaq məsələsini müzakirələrdən çıxarmağı məsləhət gördü. Eyni zamanda müharibə ilə bağlı o, milli münasibətlərin gərginləşdiyi bir vaxtda bütün hakimiyyətin hərbi kollegiyanın əlində cəmlənməsi ilə müsəlmanların barışa bilməyəcəyini göstərdi. H.Ağayev isə bu fikirdə idi ki, fövqəladə səlahiyyətli hərbi kollegiyanın yaradılması müsəlmanları ağır vəziyyətə salacaq. Bundan yaxa qurtarmaq üçün o, təklif edirdi ki, hansı hüquqların hərbi kollegiyaya verildiyi qabaqcadan aydınlaşdırılmalıdır və paralel şəkildə Seym işləməlidir. Bir sıra çıxışlardan sonra üç bənddən ibarət qərar qəbul edildi: "1. Seymin fəaliyyətinin dayandırılmasına bütün vasitələrlə etiraz etmək; 2. Seym buraxılacağı təqdirdə onun hüquqları hökumətə verilməlidir, hərbi kollegiyaya hansı hüquqların verildiyi dəqiq göstərilməlidir və o, hökumət qarşısında məsuliyyət daşımalıdır; 3. Hərbi kollegiyaya fövqəladə səlahiyyət veriləcəyi və Seym fəaliyyətə başlayandan sonra kollegiyanın Seymə cavab verəcəyi təqdirdə, müsəlman nazirləri hökumətin tərkibindən çıxmalıdırlar".[169]

[166] Системная история международных отношений, Том первый, с. 117
[167] Адрес Календарь Азербайджанской Республики, с.6
[168] Seymin müsəlman fraksiyasının iclasının protokolu. 13.04.1918.//ARDA, f.970, s.1, i.1, v.8
[169] Seymin müsəlman fraksiyasının iclasının protokolu. 13.04.1918.//ARDA, f.970, s.1, i.l, v.9



downloaded from KitabYurdu.az

Müharibə haqqında qərar qəbul edildikdən bir gün sonra E.Geqeçkori A.Çxenkeliyə şifrəli teleqramla məlumat verdi ki, danışıqları dayandırıb tezliklə Trabzonu tərk etsin.[170] Bu xəbər Trabzonda olan Azərbaycan nümayəndələrini bərk əsəbiləşdirdi. M.Hacınski Cənubi Qafqaz Seyminin bu qərarını sülhü pozmağa yönəldilmiş cəhd kimi qiymətləndirir və bunu "beynəlxalq münasibətlər tarixində bənzəri olmayan bir təxribat adlandırırdı". O, yaranmış vəziyyətdən hiddətlənib bildirdi ki, "bizim zəruri sülhə nail olmağımız üçün İstanbula gedib qəti tədbirlərə əl atmaq barəsində öz partiyamızdan mandatımız vardır".[171]

Müharibə tərəfdarı olmayan A.Çxenkeli M.Hacınskinin məsləhəti ilə danışıqları tamamilə kəsməyib daha münasib formada türk nümayəndələrinə bildirdi ki, Cənubi Qafqaz hökumətindən təlimat almaq üçün nümayəndə heyəti bu gün Tiflisə yola düşməlidir.[172] A.Çxenkeli bu fikirdə idi ki, Tiflisə qayıtdıqdan sonra ola bilsin ki, hökuməti müharibə avantürasından uzaqlaşdıra bilsin. O, müharibənin Cənubi Qafqazda milli ziddiyyətləri kəskinləşdirəcəyindən ehtiyat edirdi. Onun fikrincə, "müharibə nəinki Zaqafqaziyanın müstəqilliyini, eyni zamanda onun birliyini də təhlükə altına alırdı". Vəziyyəti daha düzgün qiymətləndirən "Çxenkeli müharibədən uşaq oddan qorxan kimi qorxurdu".[173]

Danışıqları tamamilə kəsməməsi üçün razılığa gəlindi ki, nümayəndə heyətinin bir neçə nəfər üzvü Trabzonda qalsın. Azərbaycanlılardan M.Hacınski və Ə.Pepinov, gürcü Milli Şurası Rəyasət Heyətinin üzvü Q.Voşapeli, Zaqafqaziya birliyinə daxil olmaq üçün Tiflisə, oradan da Trabzona gəlmiş Şimali Qafqaz nümayəndələri H.Bammatov və T.Çermoyev Trabzonda gözlədilər.[174] Lakin nümayəndə heyətləri danışıqlar aparmaq üçün bir daha orada toplanmadılar. Bununla da Trabzon konfransı öz işini dayandırdı. Regionda gərgin vəziyyət yarandı.

Gürcü Milli Şurasında müharibənin qarşısını almaq uğrunda A.Çxenkelinin səyi bir nəticə vermədi. Batumun türklər tərəfindən tutulması ciddi psixoz yaratmış və gürcüləri müharibə üzərində kökləmişdi. Trabzondan qayıdan erməni nümayəndələri Gümrüdə Erməni Milli Şurasının iclasında danışıqlar barədə məlumat verdilər. R.Kaçaznuni geniş məruzə ilə çıxış etdi. O, etiraf edirdi ki, ermənilər vuruşmaq iqtidarında deyil və təkid edirdi ki, sülh şərtləri qəbul edilməli və müharibə dayandırılmalıdır. R.Kaçaznuni ümid edirdi ki, təzyiq göstərmək vasitəsi ilə Seymin müharibə haqqında qərarına yenidən baxmasına nail olmaq olar. Lakin Kaçaznuninin təklifləri erməni Milli Şurasının üzvləri tərəfindən süngü

---

[170] Seymin müsəlman fraksiyasının iclasının protokolu. 16.04.1918.//ARDA, f.970, s.l, i.l, v.10
[171] T.Swietochowski. Russian Azerbaijan, p.124
[172] Cənubi Qafqaz Seyminin bütün müsəlman fraksiyalarının birgə iclasının protokolu. 01.05.1918.// ARDA, f.970, s.1, i.l, v.31
[173] С.Аркомед. Материалы по истории отпадения Закавказья от России, с.39
[174] Cənubi Qafqaz Seyminin bütün müsəlman fraksiyalarının birgə iclasının protokolu. 01.05.1918.//ARDA, i.970, s.1, i.l, v.31



downloaded from KitabYurdu.az

ilə qarşılandı. İclasda iştirak edənlərin əksəriyyəti müharibəni davam etdirməyə səs verdi. Qərara alındı ki, Milli Şuranın üzvləri səfərbərlik keçirmək üçün yerlərə gedib kəndlilər içərisində izahat işi aparsınlar, lakin onlardan heç biri yerlərə getmədi. "Heç kəs şuranın işi ilə maraqlanmadı, hamı səfərbərlikdən yayınaraq öz ticarət işləri ilə məşğul idi... Daşnaklar özləri zəngin dövlət ehtiyatlarını qəsb edərək silah alveri edirdilər".[175]

Cənubi Qafqaz hökumətilə Türkiyə arasında müharibə cəmisi səkkiz gün davam etdi. Aprel ayının 15-də Batumun tutulması barədə rəsmi məlumat İstanbulda elan edildi. Batumun tutulmasında Acariya əhalisi türklərə yaxından köməklik etdi. 40 ildən sonra Türkiyə yenidən Batumu özünə qaytardı. Qars uğrunda döyüşlər bir qədər uzandı. Nəzərdə tutulan ərazilərin böyük bir hissəsini tutduqları üçün, artıq itki verməyi lazım bilməyən türklər, aprel ayının 22-də sülh təşəbbüsü ilə çıxış etdilər. A.Çxenkeliyə göndərdiyi teleqramda Vehib paşa Cənubi Qafqazı Trabzon danışıqlarını kəsməkdə günahlandırdı və bildirdi ki, sülh məsələsi Cənubi Qafqazdan asılıdır.[176] Seym sülh danışıqlarına başlamaq haqqında təklifi qəbul etdi. Əslində Cənubi Qafqaz hökuməti belə bir təklifə hazır idi, çünki müharibəni aparmaq onu elan etməkdən çox çətin idi. Seymin müsəlman fraksiyasında müharibənin aparılmasından, gürcü fraksiyasında isə məğlubiyyətdən ciddi narazılıq yaranmışdı. Aprel ayının 20-də hümmətçilərin iştirakı olmadan Seymin Azərbaycan fraksiyasına daxil olan bütün partiyaların nümayəndələrinin iştirakı ilə təcili birgə iclası keçirildi. İclasda Bakı hadisələri ilə bağlı hökumətin biganə siyasətindən, bolşevik terroru və özbaşınalığına qarşı ciddi tədbir görülmədiyindən danışıldı, daşnakların Bakı bolşevikləri ilə əlaqəsindən, habelə gürcü menşeviklərində də belə meylin hiss edildiyindən bəhs edildi. Orada göstərildi ki, "polkovnik knyaz Maqalov indi hər gün həddindən artıq həyəcanlı teleqramlar göndərib xahiş edir ki, zirehli qatar, top, mərmi, pulemyot və patron göndərilsin, lakin hökumət buna heç bir əhəmiyyət vermir və onların göndərilməsi üçün əməli tədbir görmür".[177] N.Usubbəyov bu fikirdə idi ki, hökumətə və menşeviklərə ultimatum verib, Cənubi Qafqazın müstəqilliyinə nail olmaq lazımdır. Onun fikrincə, müstəqilliyin elan edilməsi Bakı Sovetinə qarşı mübarizəni sürətləndirə bilərdi. X.Xasməmmədov haqlı olaraq qeyd edirdi ki, Zaqafqaziyada indi hökumət yoxdur, Geqeçkori, Karçikyan və Ramişvilidən ibarət erməni və gürcülərin diktaturası vardır. M.Ə.Rəsulzadə bu fikirdə idi ki, Trabzon danışıqlarına tərəfdar olan menşeviklərdən istifadə etmək, Seym üzvü olan A.Çxenkeli ilə danışmaq lazım idi. A.Çxenkeli müstəqilliyin elan edilməsinə tərəfdar idi. Uzun müzakirələrdən sonra iclasda belə bir razılıq əldə edildi ki, rəhbər partiyaların (menşevik və daşnak - C.H.) nümayəndələrinin nəzərinə

[175] Лео. Из прошлого, с.39
[176] Документы и материалы по внешней политике Закавказья и Грузии, с. 199
[177] Seymin bütün müsəlman fraksiyalarının birgə iclasının protokolu. 20.04.1918.//ARDA, f.970, s.1, i.l,v.20



downloaded from KitabYurdu.az

çatdırılsın ki, Seymin müsəlman fraksiyası qəti surətdə bu əqidədədir ki, Cənubi Qafqazın müstəqilliyi elan edilməlidir, əks təqdirdə fraksiya Azərbaycanın müstəqilliyinin elan edilməsinin mümkünlüyü məsələsini müzakirə etməli olacaqdır.[178]

Elə həmin gün, aprelin 20-də, yəni Türkiyədən danışıqlara başlamaq haqqında təklif almazdan iki gün əvvəl Seym fraksiyalarının birgə iclası oldu. Rus kadetləri və eserlərin bir hissəsi istisna olmaqla, aparıcı partiyaların hamısı Türkiyənin bütün tələblərinin qəbul edilməsi və müstəqilliyin elan edilməsinə tərəfdar olduqlarını bildirdilər. Azərbaycan fraksiyasının öz iclaslarında qəbul etdikləri qərar Seymdə elan edildi. Gürcü fraksiyası, Batum limanı da daxil olmaqla, ərazi bütövlüyünə təminat almaqla Türkiyə tələblərini qəbul etməyə hazır idilər. Sol eserlərin bir hissəsi isə Türkiyəyə qarşı birgə mübarizə aparmaq məqsədi ilə Bakı və Şimali Qafqaz bolşevikləri ilə danışıqlara girməyi təklif edirdilər. Ölkədə yaranmış vəziyyət və cəbhədəki məğlubiyyətlər menşeviklərin tərəddüdünə son qoydu. Bir gün sonra müharibənin davam etdirilməsinin ölkə üçün məqsədəuyğun olmadığını qeyd edərək menşeviklər təcili surətdə hərbi əməliyyatların dayandırılması və Cənubi Qafqazın müstəqilliyinin elan edilməsinə tərəfdar oldular. Gümrü müşavirəsindən yenicə qayıtmış və müharibəni davam etdirmək haqqında qərar qəbul etmiş erməni fraksiyası təcrid olunmuş vəziyyətdə qaldı. Belə olduqda onlar Brest müqaviləsi və müstəqilliyin elan olunması haqqında məsələlərin müzakirəsində susmağı lazım bildilər.[179] Gec də olsa, Cənubi Qafqazın müstəqilliyinin elan edilməsi artıq reallığa çevrilmişdi.

Bu müddət ərzində Trabzonda qalan nümayəndələr də fəaliyyətsiz olmadılar. Danışıqlar kəsildikdən az sonra Ənvər paşanın Trabzona və Batuma səfəri oldu. O, Azərbaycan nümayəndələrini Trabzonda qəbul etdi.[180] M.Hacınki gürcü-türk münasibətlərindəki düşmənçiliyi aradan qaldırmağın Batum məsələsindən asılı olduğunu bildirib, bu şəhərin gürcülərdə qalmasına çalışdısa da, lakin bunun əhəmiyyəti olmadı. Ənvər paşa Türkiyənin Batuma olan hüququnun Rusiya hökuməti tərəfindən tanındığını qeyd edib bildirdi ki, ağılsız erməni siyasətinə uyub türklərə qarşı düşmənçilik mövqeyində durmasalar, Türkiyə Gürcüstanın azad şəkildə mövcud olmasını arzulayır və onu etibarlı qonşu hesab edir.[181]

---

178 Seymin bütün müsəlman fraksiyalarının birgə iclasının protokolu. 20.04.1918.//ARDA, f.970, s.1, i.l, v.22

179 О.Минасян. Внешняя политика Закавказской контрреволюции в первой половине 1918 года, с.74

180 Cənubi Qafqaz Seyminin bütün müsəlman fraksiyalarının birgə iclasının protokolu. 01.05.1918.// ARDA, f.970, s.1, i.1, v.31

181 Cənubi Qafqaz Seyminin bütün müsəlman fraksiyalarının birgə iclasının protokolu. 01.05.1918.// ARDA, f.970, s.1.i-1, v.32



downloaded from KitabYurdu.az

Azərbaycan nümayəndələri Cənubi Qafqazın siyasi quruluşu, ən başlıcası isə iki qardaş Azərbaycan və Osmanlı türklərinin gələcək qarşılıqlı münasibətləri barədə Türkiyənin siyasətini müəyyən edən Ənvər paşanın fikrini bilmək istəyirdilər. Ənvər paşa dedi ki, müsəlman qəzaları olan Axalsıx və Axalkələk əsrlərlə can atdığı Türkiyəyə qovuşmalıdır, Azərbaycan, Gürcüstan və Ermənistan isə ümumi Seymi olan, habelə Türkiyə ilə sıx ittifaqda federasiya, yaxud konfederasiya yarada bilərlər. Əgər vahid Zaqafqaziya dövləti yaratmaq mümkün olmazsa, Ənvər paşa qeyd etdi ki, onda Türkiyə ilə ümumi sərhədi olan müstəqil Azərbaycan Osmanlı imperiyası ilə daha sıx ittifaqa girə bilər, hətta Avstriya-Macarıstan formasına qədər. Eyni zamanda Ənvər paşa əlavə etdi ki, artıq Türkiyə Azərbaycana hərtərəfli yardım göstərilməsi istiqamətində ciddi addımlar atmağa qərarlıdır. M.Hacınski məlumat verdi ki, Osmanlı imperatorluğunun hərbi naziri Ənvər paşanın qardaşı Nuru paşa 300 hərbi təlimatçı ilə yaxın vaxtlarda İran vasitəsi ilə Azərbaycana gələcəkdir, onlar yəqin ki, Təbrizdən Araza doğru gələn yoldadır.[182] Lakin bu ideya ilə bağlı Seymin müsəlman fraksiyasının müzakirələri göstərdi ki, Azərbaycan siyasi xadimləri Osmanlı imperiyası ilə sıx əlaqədə olan müstəqil Azərbaycan dövləti yaratmağı üstün tuturdular, onlar Azərbaycanı Türkiyənin Macarıstanına çevirmək fikrindən uzaq idilər.

Danışıqlar zamanı M.Hacınski müstəqil Ermənistan dövlətinin yaradılacağı təqdirdə türklərin hansı mövqedə duracağı ilə maraqlandı. Ənvər paşa öz cavabında qeyd etdi ki, "əgər erməni xalqı ingilis-rus siyasətinə uymayıb türklərə qarşı fitnə-fəsada son qoyarsa, Türkiyə müstəqil erməni dövlətinin yaradılmasının əleyhinə deyildir".[183] Bu danışıqlar barəsində Seym fraksiyasına məruzəsində M.Hacınski Trabzon danışıqlarında Türkiyə nümayəndəliyinin rəhbəri Rauf bəyin və hadisələrə daha yaxından bələd olan Qafqaz cəbhəsinin komandanı Vehib paşanın Ənvər paşadan fərqli fikirlərə malik olub, bu regionda sülhü bərqərar etmək naminə Cənubi Qafqazın daxili işlərinə müdaxilə edilməməsinə tərəfdar olduqlarını qeyd etdi.

Hərbi kollegiyanın hökmranlığı və müharibənin davam etdirildiyi dövrdə özünün hadisələrdən, ən başlıcası isə hakimiyyətdən təcrid edildiyini görən Azərbaycan nümayəndələri Cənubi Qafqazda yaranmış vəziyyət barədə Almaniyanın regiona gəlmiş nümayəndəsi ilə danışıqlar apardılar. Seym üzvləri F.X.Xoyski və X.Xasməmmədov Almaniyanın İrandakı keçmiş konsulu, onun şərqdə siyasi məqsədlərini izləyən və Almaniya siyasi dairələrinə yaxın olan Tiflis universitetinin professoru Q.Şreyder ilə görüşdülər. Cənubi Qafqazın gələcəkdə siyasi cəhətdən necə qurulacağı və oriyentasiya məsələləri danışıqların əsas mövzusu oldu. Q.Şreyder Mərkəz dövlətlərinə istiqamət götürmək məsələsinə toxunduqda, Azərbaycan nümayəndələri bu ad altında Almaniya-Türkiyənin nəzərdə tutulduğunu, Avstriya-Macarıstan və Bolqarıstanın isə Cənubi Qafqaza

[182] Yenə orada, v.33
[183] Yenə orada, v.33



downloaded from KitabYurdu.az

münasibətdə elə ciddi bir rol oynamadıqlarını göstərərək qeyd etdilər: "Oriyentasiya məsələsində Cənubi Qafqaz türklərinin mövqeyi aydın və dəqiqdir, bu alman-türk oriyentasiyasıdır. Bizim bu düşüncəmiz möhkəmdir, hətta qonşularımızın hər hansı birinin razılaşmayacağı təqdirdə belə dəyişməz qalacaqdır, ola bilsin ki, hətta Azərbaycanın ayrılmasına aparacaqdır".[184] Q.Şreyderin ölkə daxilində anarxiyanın hökm sürəcəyi təqdirdə qayda-qanun yaratmaq üçün xarici qüvvənin dəvət olunmasının mümkünlüyü sualına cavab olaraq bildirildi ki, əgər həmin xarici qüvvə türk ordusu olarsa, bu, mümkündür. Q.Şreyder dünyada gedən proseslərin Almaniya ilə İngiltərə arasındakı mübarizədən asılı olduğunu, habelə Rusiyanın bir daha Zaqafqaziyaya qayıtmasına və yaxud orada İngiltərənin təsirinin güclənməsinə Almaniyanın imkan verməyəcəyini söylədi. O, hətta təklif etdi ki, bilavasitə Almaniya ilə danışıqlar aparmaq üçün Cənubi Qafqaz türklərinin nümayəndələri onunla birlikdə Berlinə getsinlər. Lakin Azərbaycan nümayəndələri Türkiyənin xəbəri olmadan Almaniya ilə əlaqəyə girməyi lazım bilmədilər.[185]

Türkiyənin yeni sülh təşəbbüsü ilə çıxış etməsində Trabzonda qalan nümayəndələrin və xüsusilə M.H.Hacınskinin mühüm rolu olmuşdu. Seymin müstəqilliyini elan etmiş tarixi iclası ərəfəsində müsəlman fraksiyasının günün birinci yarısı yığıncağı keçirildi və qəti razılıq əldə olundu ki, müstəqilliyin elan olunmasına və sülh danışıqlarına tərəfdar olan A.Çxenkelini müdafiə etmək lazımdır. Müzakirələrdə qeyd edilirdi ki, digər menşevik rəhbərlər elə də möhkəm olmayıb, tez-tez öz fikirlərini dəyişirlər. F.Xoyski deyirdi ki, Sereteli səhər bir şey deyir, axşam ayrı şey, menşeviklərin digər nümayəndəsi Noy Ramişvili axşam bir şeyi təsdiq edir, səhərisi isə bunun tamamilə əksinə hərəkət edir.[186] Yığıncaq qərara aldı ki, iki məsələnin üzərində möhkəm dayanmaq lazımdır:

Sülh nümayəndəliyinin addımlarını müdafiə etmək;

Sərhədlərin müəyyən edilməsilə müstəqilliyi müdafiə etmək.[187]

Bu bəndlərdən hər hansı biri yerinə yetirilməzsə, müstəqil bəyannamə ilə çıxış etmək nəzərdə tutulurdu.

Nəhayət, Türkiyə tərəfindən təklif alınan kimi aprel ayının 22-də N.Çxeidzenin sədrliyi ilə Seymin tarixi iclası çağırıldı. Onun gündəliyində üç mühüm məsələ dururdu: 1. Cənubi Qafqazın müstəqilliyi. 2. Trabzon sülh konfransı haqqında A.Çxenkelinin məruzəsi. 3. Hökumətin təşkili. Birinci məsələ barədə menşevik Oniaşvili məruzə edib bildirdi ki, hazırkı mövcud vəziyyətdə rus oriyentasiyası əslində mürtəce oriyentasiyasıdır. Sosializm işini təhlükə altına alan

---

[184] Seymin bütün müsəlman fraksiyalarının birgə iclasının protokolu. 17.04.1918.//ARDA, f.970, s.1, i.1, v.12

[185] Seymin bütün müsəlman fraksiyalarının birgə iclasının protokolu. 17.04.1918.//ARDA, f.970, s.1,i.1,v.13

[186] Yenə orada, v.25

[187] Yenə orada, v.25



downloaded from KitabYurdu.az

Rusiyadakı irtica və anarxiya Cənubi Qafqazı məcbur edir ki, yeni oriyentasiya axtarsın. O bildirdi ki, Rusiyadan ayrılmaq indi artıq zərurətdir. Bolşevizm Rusiyada ideya baxımından öz simasını itirmiş və mürtəce hərəkata çevrilmiş, nəinki indi Rusiyada, eləcə də bütün dünyada sosializm işini təhlükə altına atmışdır. Oniaşvili öz məruzəsində əsaslandırdı ki, Cənubi Qafqaz müstəqil federativ respublikasının elan edilməsi hazırda siyasi zərurətə çevrilmişdir.[188] Məruzə ətrafında birinci olaraq M.Ə.Rəsulzadə söz aldı. O, çox parlaq bir nitq söylədi. Bu, təsadüfi deyildi, çünki Cənubi Qafqazın müstəqilliyi Müsavat partiyası və Seymin müsəlman fraksiyasının tələbi ilə elan edilirdi. O, öz çıxışında deyirdi ki, Cənubi Qafqaz böyük rus inqilabının nailiyyətləri əvəzinə, bizə yalnız irtica vəd edən Rusiyaya qurban verilməməlidir. Cənubi Qafqaz müstəqil olmalıdır. Bu müstəqillik zərurətə çevrilməlidir. Əgər biz istəyiriksə, Cənubi Qafqazın yeni doğulan övladı həyat qabiliyyətli olsun, ilk növbədə biz onun müstəqilliyini qorxunun hökmü ilə deyil, vicdanın hökmü ilə qəbul etməliyik, bu halda müstəqillik Cənubi Qafqaz xalqlarını daha sıx şəkildə bir-birinə bağlayacaqdır. M.Ə.Rəsulzadə qeyd edirdi ki, Cənubi Qafqaz xalqları despotizmin zülmü altında inləyiblər və bu despotizmə qarşı ümumi arzu və ümumi ideallarla birgə mübarizə aparıblar. Bu arzu və ideallar özünü onda ifadə edib ki, despotik Rusiyanın yerində demokratik Rusiya qurulsun, milliyyət, dini etiqad fərqi qoymadan bütün xalqların azad Rusiyası qurulsun və bu xalqlar ögey ananın ayrı-seçkiliyinə məruz qalmadan özlərini bərabər hiss etsinlər.[189]

Seymin iclasında müstəqilliyin elan edilməsi ilə bağlı Georqadze, Tumanov, Kaçaznuni və digərləri də çıxış etdi. Məlum oldu ki, bütün Seym fraksiyaları müstəqilliyin elan edilməsinə tərəfdardır. Uzun tərəddüdlərdən sonra 1918-ci ilin aprel ayının 22-də gecədən xeyli keçmiş Seym böyük səs çoxluğu ilə Cənubi Qafqazı Müstəqil Demokratik Federativ Respublika elan etdi.[190] Qərar qəbul edildi ki, yeni yaranmış dövlətin konstitusiyasını hazırlamaq üçün komissiya təsis edilsin. Müstəqilliyin elan edilməsi Azərbaycan fraksiyasının, ilk növbədə isə Müsavat partiyasının mühüm qələbəsi idi.[191] T.Svyatoçovski yazır ki, "gürcülər müstəqillik ideyasında azərbaycanlılarla həmrəy olduqda, ermənilər də eyni cür hərəkət etmək məcburiyyətində qaldılar".[192] Cənubi Qafqazın müstəqil respublika elan edilməsi onun beynəlxalq münasibətlərin subyekti olması yolunda mühüm addım idi. Cənubi Qafqazın müstəqilliyinin elan edilməsi siyasi, hərbi və diplomatik baxımdan Rusiyadan ayrılma prosesini başa çatdırdı və Azərbaycanın, eləcə də digər Zaqafqaziya millətlərinin müstəqilliyinin elan olunması ərəfəsində

---

[188] Документы и материалы по внешней политике Закавказья и Грузии, с.203
[189] Yenə orada, s.204-205
[190] T.Swietochowski. Russia and Azerbaijan. Borderland Transition. Columbia University Press, New York, 1995, p.66
[191] F.Kazemzadeh. The Struggle for Transcaucasia, p.107
[192] T.Swietochowski. Russian Azerbaijan, p.125



downloaded from KitabYurdu.az

əhəmiyyətli hadisə oldu. Lakin elə bu zaman, aprelin 25-də bolşeviklərin Bakıda hakimiyyəti ələ keçirməsi nəticəsində Azərbaycan ərazisinin mühüm hissəsi Cənubi Qafqaz federasiyasının nəzarətindən kənarda qalmışdı.[193]

Seymin 22 aprel tarixli iclasında Trabzon danışıqları barədə A.Çxenkelinin məruzəsi dinlənildi və hökumətə tapşırıldı ki, sülh müqaviləsi bağlamaq üçün sülh danışıqlarını davam etdirsin. Seymin iclasında eser İ.Lordkipanidze müstəqilliyə beynəlxalq təminat almaq məqsədilə danışıqların tək Türkiyə ilə deyil, eyni zamanda onun müttəfiqləri ilə də aparılmasını təklif etdi. İclasın səhəri gün, aprel ayının 23-də A.Çxenkeli Vehib paşaya məlumat verdi ki, öz müstəqilliyini elan etmiş Cənubi Qafqaz respublikası Türkiyənin bütün tələblərini qəbul edir və Brest müqaviləsi əsasında danışıqları davam etdirməyə hazırdır. O, xahiş etdi ki, danışıqlar Batumda davam etdirilsin. A.Çxenkeli təcili surətdə Batum və Qars cəbhələrində atəşin dayandırılması, şəhərlərin boşaldılması haqqında sərəncam verdi.

Aprel ayının 26-da Seym müstəqil Cənubi Qafqaz hökumətinin tərkibini təsdiq etdi və hökumət bəyanatını dinlədi. Yeni hökumətin təşkili Cənubi Qafqazın idarəçiliyində azərbaycanlıların rolunun yüksəkliyini nümayiş etdirirdi. A.Çxenkelinin təşkil etdiyi hökumət kabinəsində (o, həm də xarici işlər naziri idi) F.X.Xoyski ədliyyə naziri, N.Usubbəyov xalq maarifi naziri, X.Məlik-Aslanov yollar naziri, M.Hacınski ticarət və sənaye naziri, İ.Heydərov dövlət nəzarətçisi vəzifələrini tutdular.[194] Seymin sədri Çxeidzenin tapşırığı üzrə hökumətin tərkibi A.Çxenkeli tərəfindən təqdim edilmişdi. Cənubi Qafqazın idarəçiliyində azərbaycanlıların rolunun artması bir sıra əsas məsələlərə münasibətdə A.Çxenkeli ilə Azərbaycan fraksiyasının eyni mövqedən çıxış etməsi və azərbaycanlı siyasi xadimlərin Cənubi Qafqazın müstəqilliyinin elan olunmasında mühüm rol oynamaları ilə bağlı idi. Hətta gürcü menşevikləri mərkəzi komitəsinin orqanı olan "Mübarizə" qəzeti yeni hökumət kabinəsi ilə bağlı yazırdı: "E.Geqeçkori kabinetinin getməsi və yeni kabinəyə A.Çxenkelinin rəhbərlik etməsi Müsavat partiyasının böyük qələbəsidir".[195] Öz kabinetini təqdim etdikdən sonra A.Çxenkeli xüsusi bəyanatda çıxış edib, hökumətin əsas vəzifələri üzərində dayandı. Bunlar Konstitusiyanın hazırlanmasından, respublikanın sərhədlərinin müəyyən edilməsindən, müharibəyə son qoymaqdan, anarxiya və əksinqilaba qarşı mübarizədən və torpaq islahatı keçirməkdən ibarət idi.[196] Azərbaycan fraksiyasının sədri M.Ə.Rəsulzadə daha iki mühüm məsələni baş nazirin proqramına əlavə etməyi zəruri sayırdı. O, yeni hökumətə xatırlatdı ki, Bakını özünü Zaqafqaziyanın fövqəladə komissarı adlandıran yadelli casusların hakimiyyətindən azad etmək, habelə Cənubi Qafqaz federasiyasına daxil olmaq arzusunda olan Dağıstanla əlaqə

[193] T.Swietochowski. Russia and Azerbaijan, p.68
[194] Документы и материалы по внешней политике Закавказья и Грузии, с.229
[195] Борьба, 1918, 27 апреля
[196] Документы и материалы по внешней политике Закавказья и Грузии, с.230-231



downloaded from KitabYurdu.az

məsələlərini də diqqət mərkəzində saxlamaq lazımdır.[197] Aprel ayının 28-də yeni yaradılmış Cənubi Qafqaz Müstəqil Demokratik Federativ Respublikası Osmanlı imperiyası tərəfindən tanındı.

Hələ sülh danışıqları başlanmazdan əvvəl A.Çxenkelinin Qarsı təhvil vermək haqqında sərəncamı silahlı erməni hərbi birləşmələrini bərk əsəbiləşdirdi. Hətta bu haqda Seymdə məlumat verildikdə az qalmışdı yeni yaranmış kabinet öz ilk böhranı ilə qarşılaşsın. Qarsın türklərə qaytarılması haqqında məlumat elan edildikdə, erməni fraksiyası zaldan çıxmağa başladı və öz nümayəndələrinə də tapşırıq verdi ki, hökumətdən çıxsınlar. Bu böhrandan hökuməti A.Çxenkeliyə o qədər də rəğbəti olmayan N.Jordaniya xilas etdi. O, ermənilərə bildirdi ki, "siz bu hərəkətinizlə Zaqafqaziya federasiyasını dağıdırsınız".[198] Bundan sonra ermənilər öz yerlərinə qayıtdılar, əlbəttə ki, tək qalmaq vahiməsi də burada müəyyən rol oynadı. Qarsın müdafiəsinə rəhbərlik edən general Nazarbeqov daşnak lideri Kaçaznuniyə bildirdi ki, onsuz da silahlı qüvvə çatışmadığından Qarsı müdafiə etmək mümkün deyildi. Bundan az əvvəl isə ermənilər Ərzurumdan geri çəkilməyə başlamışdılar. Türkiyənin şərq vilayətlərində qanlı hadisələr törədən quldur dəstələrə rəhbərlik edən Andronik rüsvayçı məğlubiyyətinə görə erməni liderlərini lənətləməklə yanaşı, erməni əsgərlərinin də cəbhəyə getmək istəmədiklərini etiraf etmişdi.[199]

Lakin Qarsın "müdafiəçiləri" və oradan çıxan silahlı ermənilər intiqam hissini yolboyu yerli türk əhalisinə qarşı zorakılıq və terror hesabına soyutmağa başladılar. Qars hadisələri, orada erməni silahlı dəstələrinin törətdiyi vəhşiliklər barədə Seym üzvü Əli xan Qantəmirov müsəlman fraksiyasının iclasında geniş məlumat verdi. Qarsdan sonra zorakılıq dalğası İrəvan quberniyasına keçdi.[200] Qısa müddətdə Qars vilayətində 82, İrəvan quberniyasında 211 müsəlman kəndi yandırıldı, əhalisinin bir hissəsi qırıldı, qalan hissəsi isə didərgin düşdü.[201] İrəvan quberniyasından olan qaçqınların sayı 80 min nəfəri keçirdi.[202] Qars vilayətində ermənilərin törətdikləri vəhşilikləri ermənilərlə bərabər, Qarsı tərk etmiş yunanlar belə təsvir edirdilər: "Türk ordusu qarşısında geri çəkilən silahlı erməni qaçqınları ətrafdakı müsəlman kəndlərini yer üzündən silərək, hər bir şeyi atəş və qılıncdan keçirir, təsəvvürə gəlməz bir vəhşət və fəlakət törədirdilər. "Qalib" erməni ordusu "hərbi qənimətlərini", yəni, süngü ucuna keçirilmiş südəmər uşaqları nümayiş etdirmək üçün keçəcəkləri uzun yollar boyunca çılpaq soyundurulmuş müsəlman qadınlarını düzürdülər. Bu cəhənnəm əzabından ağlını itirmiş qadın və uşaqların

---

[197] Yenə orada, s.233-234

[198] О. Минасян. Внешняя политика Закавказской контрреволюции в первой половине 1918 года, с.76

[199] Enver Konukçu. Ermenilerin Yeşilyayladakı Türk soykırımı, s. 18

[200] Öke Kemal. Ermeni meselesi, s.160

[201] Seymin bütün müsəlman fraksiyasının iclasının protokolu. 28.04.1918.//ARDA, f.970, s.1.i.1, v.29

[202] Seymin bütün müsəlman fraksiyalarının birgə iclasının protokolu. 23.04.1918.//ARDA, f.970, s.1,i.1,v.26



downloaded from KitabYurdu.az

ürək parçalayan iniltilərini, qocaların ümidsiz nalələrini dinləmək üçün adamın qəlbi daşdan olmalıdır. Səksən iki kənddən ibarət bir sancaq bu təsəvvürə gəlməz fəlakətə düçar edilmişdi".[203] Sənəddə göstərilir ki, general Areşivin və kapitan Mosesyanın dəstələrinin vəhşilikləri nəticəsində Qars vilayəti 1915-ci ilin əvvəllərindəki faciəni xatırladırdı. İndi bütün Qars vilayəti nəhəng bir qəbristanlığa bənzəyirdi ki, onun hər bir daşı əbədi olaraq insanlıq simasını itirmiş, erməni quldurlarının yırtıcılığı, vəhşiliyi, əxlaqsızlığı və həyasızlığı barədə şahidlik edə bilərdi.

Qars vilayətində və İrəvan quberniyasında törədilən vəhşiliklər Seymin müsəlman fraksiyasında aprel ayında iki dəfə müzakirə edildi. Müzakirələrdə qeyd edildi ki, Ermənistan muxtariyyəti yaratmaq üçün erməni ordusu İrəvan quberniyasını düşünülmüş şəkildə müsəlmanlardan təmizləyir. Qərara alındı ki, yeni təşkil edilmiş Çxenkeli hökuməti ilə İrəvan quberniyasının müsəlman əhalisinin həyatı üçün yaranmış təhlükə ilə bağlı danışıqlar aparılsın və Seymə aşağıdakı tələblər verilsin:

daxili işlər nazirinə tapşırılsın ki, müsəlmanlara kömək etmək üçün xüsusi komissiya göndərilsin:

bütün müsəlman qaçqınları öz yerlərinə qaytarılsın;

Ərzaq Nazirliyinə tapşırılsın ki, təcili yardım göstərilsin;

azğınlıq edən erməni hərbi hissəsi buraxılsın;

müsəlman qaçqınlarının sayı və vəziyyəti öyrənilsin, onlara əlavə yardım göstərilsin.

Azərbaycan fraksiyasının gərgin səyi nəticəsində Cənubi Qafqaz hökuməti bu məsələni öyrənmək üçün komissiya yaratdı və ilk addım kimi qaçqınların ən zəruri ehtiyaclarını ödəmək üçün bir milyon manat vəsait ayırdı.[204]

Türkiyə hökuməti yeni sülh danışıqlarının Batumda keçirilməsinə razılıq verdi və bu danışıqların xüsusi əhəmiyyətini nəzərə alaraq, Batuma daha nüfuzlu sülh nümayəndəliyi göndərdi. Xəlil Menteşənin rəhbərliyi ilə Batuma yollanan nümayəndəliyi Qafqaz cəbhəsinin komandanı Vehib Mehmed paşa müşayiət edirdi. Sülh konfransının açılışında iştirak etmək üçün dənizçilik naziri Camal paşa da Batuma gəlmişdi.

Sülh konfransında iştirak edəcək Cənubi Qafqaz nümayəndəliyinə 45 nəfər daxil idi.[205] Nümayəndəliyin belə çox olması Cənubi Qafqazdakı siyasi vəziyyətin mürəkkəbliyinə dəlalət edirdi. Hər bir Seym fraksiyası və bu fraksiyalara daxil olan hər bir siyasi partiya nümayəndəlikdə təmsil olunmaq arzusunda idi. Bu arzu Batumu görmək, yaxud konfransda iştirak etmək istəklərindən daha çox, fraksiya və partiyaların bir-birinə inamsızlığından irəli gəlirdi. Lakin heyətin böyük

---

[203] Seymin bütün müsəlman fraksiyalarının birgə iclasının protokolu. 28.04.1918.//ARDA, f.970, s.1,i.1,v.28-29

[204] Seymin müsəlman fraksiyasının iclasının protokolu. 23.04.1918.//ARDA, f.970, s.1, i.1, v.27

[205] N.Kurat. Türkiye ve Rusiya, s.464



downloaded from KitabYurdu.az

olmasına baxmayaraq, nümayəndəlik altı həlledici üzvdən ibarət idi. Ora Azərbaycandan M.Ə.Rəsulzadə və M.H.Hacınski, Gürcüstandan A.Çxenkeli və H.Nikoladze, Ermənistandan R.Kaçaznuni və A.Xatisyan daxil edilmişdi.[206]

Batum konfransının Trabzon konfransından fərqi onun daha mötəbər olmasında idi. Batumda Almaniya və Türkiyənin arzusuna uyğun Şimali Qafqaz dağlılarının nümayəndələri də iştirak edirdi. Alman nümayəndəliyinə İmperiya ali komandanlığının Türkiyə hökuməti yanında nümayəndəsi general fon Lossov rəhbərlik edirdi. Hələ Batum konfransı ərəfəsində gürcülərlə almanlar arasında yaxınlaşma meyli güclənmişdi. Gürcülər gizli şəkildə Berlinə nümayəndə heyəti göndərib Almaniya himayəsinə daxil olmaq istədiklərini bildirmişdilər.[207] Bu təklif Almaniyanın Cənubi Qafqaza nüfuz etməsi üçün ideal şərait yaradırdı. Nümayəndəliyə Almaniyanın Tiflisdəki keçmiş konsulu qraf Şulenberq, Yaxın Şərq üzrə mütəxəssis, gənc diplomat fon Vezendonk daxil idi.[208] Alman nümayəndələrinin Batum konfransında iştirak etməsi ona xüsusi əhəmiyyət verirdi. Bundan əlavə Bammatov, Çermoyev, Temirxanov və Seym üzvü Qandəmirovdan ibarət olan Şimali Qafqaz dağlılar ittifaqının nümayəndələri də Batuma gəlmişdilər. Yeri gəlmişkən, onlar Trabzon konfransında da qeyri-rəsmi iştirak etmişdilər və sonra Rauf bəylə birlikdə İstanbula gedib, elan etdikləri istiqlaliyyət barədə Türkiyəyə və Mərkəz ölkələrinə məlumat vermişdilər.[209] Türkiyə və Almaniya Dağlılar İttifaqının Batum konfransında iştirak etməsinə məmnuniyyətlə razılıq verdilər. Sovet Rusiyası bu barədə Almaniyaya öz narazılığını bildirdisə də, bunun əhəmiyyəti olmadı, konfransın birinci iclasında bu məsələ müzakirə edildi və Şimali Qafqazın dağlılar ittifaqının nümayəndələri konfransa buraxıldılar.

Batum konfransı may ayının 11-də açıldı və cəmisi bir iclası oldu. Türkiyə nümayəndəliyi adından Xəlil bəy giriş nitqi söylədi, habelə Türkiyənin tələblərini şərh etdi. Nitqin qısa mahiyyəti ondan ibarət idi ki, əgər iki dövlət arasında Brest-Litovsk müqaviləsindən sonra qan axıdılmışsa, həmin müqavilənin şərtləri indiki danışıqlar üçün əsas ola bilməz. Türkiyə tərəfindən hazırlanmış on iki maddədən və üç əlavədən ibarət olan "Osmanlı imperiyası ilə Cənubi Qafqaz konfederasion respublikası arasında sülh və dostluq haqqında" müqavilənin layihəsi müzakirə üçün Zaqafqaziya nümayəndələrinə təqdim edildi. Bu layihədə artıq Türkiyə hərbi əməliyyatlar meydanında verdiyi qurbanların əvəzi olaraq yeni ərazilər tələb edirdi. Yeni ərazi iddialarına Tiflis quberniyasının Axalsıx, Axalkələk rayonları, Gümrü və Eçmiədzin qəzalarının bir hissələri, habelə Qars-Aleksandropol-Culfa dəmir yolu daxil idi. Ümumiyyətlə, layihədə dünya müharibəsi qurtarana qədər

[206] T.Swietochowski. Russian Azerbaijan, p.125
[207] Hikmet Yusuf Bayur. Türk İnkilabi Tarihi. cilt III. Ankara, 1983, s.165
[208] З.Авалов. Независимость Грузии в международной политике, с.38
[209] С.Аркомед. Материалы по истории отпадения Закавказья от России, с.92



downloaded from KitabYurdu.az

Türkiyənin ingilislərə qarşı hərbi əməliyyat aparmaları üçün Cənubi Qafqazın dəmir yol şəbəkələrindən istifadə ediləcəyi göstərilmişdi.[210]

A.Çxenkeli yeni ərazi iddialarının əleyhinə çıxış edib danışıqlar üçün Brest müqaviləsinin əsas götürülməsi üzərində təkid etdi. Türkiyənin təklifləri Ermənistan və Gürcüstanın mənafeyinə toxunduğu halda, Azərbaycan təqdim olunan layihə üzrə heç nə itirmirdi. Əksinə, Bakı Sovetinə, habelə İrəvan quberniyasında müsəlmanlara qarşı törədilən vəhşiliklərə Cənubi Qafqaz hökumətinin biganə münasibəti Azərbaycan nümayəndələrinin Türkiyəyə olan meylini artırırdı.[211]

Cənubi Qafqazın müstəqilliyinin elan edilməsi onun daxili və xarici siyasətində o qədər də dəyişiklik etməmişdi. Zaqafqaziyanı böhrandan çıxarmaq üçün Seymin ümumi proqramı yox idi, fraksiyalararası ziddiyyətlər nəinki azalır, əksinə daha da dərinləşirdi. Milli münaqişələr qarşısıalınmaz problemə çevrilirdi. Təkcə İrəvan quberniyasında deyil, Bakı və Yelizavetpol quberniyalarında da türk əhalisi terrora məruz qalırdı. Hələ nümayəndə heyəti Batuma yola düşməzdən əvvəl keçirilən yığıncaqda N.Usubbəyov göstərirdi ki, biz ölkənin daxili və xarici vəziyyətini dərindən öyrənib öz nümayəndələrimizə direktivlər verməliyik. Alınan yeni məlumatlar Cənubi Qafqazın hər yerində dəhşətli anarxiyanın hökm sürdüyünü göstərir. Kənd kəndin üstünə gedir, vətəndaş müharibəsinin dəhşətli dövrü başlanır, hər gün adamlar soyulur və öldürülür. Günün günorta çağı Gəncədə heç nədən çəkinməyən qudurmuş soyğunçular müsəlman qadınının çadrasını cırır və qiymətli zinət şeylərini soyurlar. İndi təkcə Azərbaycan türklərini deyil, bütün Cənubi Qafqazı bürüyən anarxiyanı öz qüvvəmizlə dəf edə bilmərik.[212] Hələ aprel ayında Qarsı azad edəndə Vehib paşa bildirmişdi: "Mən belə hesab edirəm ki, Bakını yadellilərdən təmizləmək və müsəlmanları xilas etmək üçün türk ordusunun göndərilməsi zəruridir".[213] May ayının əvvəllərində vəziyyət o qədər ağırlaşdı ki, Azərbaycanın ayrı-ayrı yerlərindən nümayəndələr Batuma gedib Türkiyədən kömək istəmək qərarına gəlmişdilər. May ayının 13-də Yelizavetpol quberniyasının qəzalarından gələn nümayəndələrlə Seymin müsəlman fraksiyasının birgə iclası oldu. İclasda göstərildi ki, Seym üzvləri M.Ə.Rəsulzadə və M.Hacınskinin Batumda bütün Azərbaycanın mənafeyini müdafiə etdiyi halda, ayrı-ayrı şəxslərin Batuma getməsinə ehtiyac yoxdur. Yerlərdən gələn nümayəndələrin təkidindən sonra qərara alındı ki, Türkiyə tərəfindən yardım almağı sürətləndirmək üçün M.Y.Cəfərov, N.Usubbəyov və X.Xasməmmədov Batuma və İstanbula ezam olunsunlar.[214] Elə bu vaxt Gürcüstanın türklər yaşayan

[210] W.E.D.Allen and Paul Muratof. Caucasian Batlefilds, p.468

[211] T.Sünbül. Azerbaycan Dosyası, s.83

[212] Адрес Календарь Азербайджанской Республики, с. 12-13

[213] Возрождение. 1918, 16 мая.

[214] Seymin bütün müsəlman fraksiyasının birgə iclasının protokolu. 13.05.1918.//ARDA, f.970, s.1,i.1,v.39-40



downloaded from KitabYurdu.az

ərazilərindən və Şimali Qafqazdan olan müsəlman nümayəndələri Türkiyə ilə birləşmək üçün Osmanlı imperatorluğuna müraciət etdilər. Batum konfransındakı Almaniya nümayəndəsi fon Lossov yazırdı: "Batumun və Qarsın alınmasından sonra geniş müsəlman kütlələri içərisində Türkiyənin nüfuzu gündən-günə yüksəlirdi".[215] Bütün bunlar Batum konfransında Türkiyənin mövqeyinə müsbət təsir göstərirdi.

Türkiyə tərəfinin təqdim etdiyi layihə öyrənildikdən sonra Cənubi Qafqaz nümayəndələri Xəlil bəyə dörd təklif təqdim etdilər: "Müqavilə təkcə Türkiyə ilə Cənubi Qafqaz arasında deyil, Dördlər İttifaqı ilə Cənubi Qafqaz arasında imzalanmalıdır, hazırda müharibəyə aid bütün sazişlər xüsusi bir konvensiyanın predmeti olmalıdır, Türkiyə ilə Cənubi Qafqaz arasında iqtisadi əlaqələrin yaradılması ikitərəfli xüsusi sazişlə təsdiq edilməlidir, Avstriya ilə Bolqarıstan nümayəndələrinin iştirak etməməsi müqavilə imzalanmasına mane olmur, onlar müqaviləyə sonrakı mərhələdə də qoşula bilərlər.[216] Bu təkliflər Almaniyanı Sülh konfransına daha yaxından cəlb etmək üçün diplomatik bir manevr idi və birinci təkliflə dördüncü təklif arasında ziddiyyət var idi. Xəlil bəy Çxenkelidən alınmış təkliflərə etiraz edib bildirdi ki, türklər Cənubi Qafqaz nümayəndələrinin təkliflərində yer alan hansı dövlətin müqaviləni imzalayıb-imzalamayacağına aid mülahizələrini qəbul etmir, bu, müttəfiqlərin öz daxili işidir.[217]

May ayının 14-də Bakı istiqamətində, Xəzərin cənubuna doğru hərəkət edən ingilis qoşunlarının qarşısını almaq üçün türk qoşunlarının Cənubi Qafqaz ərazisinə buraxılması haqqında Xəlil bəy Zaqafqaziya nümayəndələrinə nota təqdim etdi. Orada qeyd olunurdu ki, bütün cəbhə komandirlərinə Cənubi Qafqaz ərazisində hərəkət edən zaman orduya qarşı silah işlədilməzsə, yerli əhaliyə toxunulmayacağı barədə göstəriş verilmişdir.[218] Öz növbəsində Azərbaycan nümayəndələri Bakı Xalq Komissarları Sovetinin Gəncə istiqamətində hərəkət etməsinin qarşısını almaq üçün türk qoşunlarının Zaqafqaziya ərazisinə daxil olmasına razılıq verilməsini tələb etdilər. Cənubi Qafqazdakı vəziyyətin gərginliyi tərəflərin mənafeyinə müxtəlif cür təsir göstərdiyi üçün Batumdakı nümayəndələr arasında fikir ayrılığını gücləndirdi. Almaniyanın Azərbaycan ərazisindən Mərkəzi Asiya, Əfqanıstan və Hindistana müdaxilə edərək orada düşmən dövlətlərin mövqelərinə zərbə endirmək niyyətləri türklərə bəlli idi.[219]

Türkiyənin Şərqi Qafqaza olan meyli təkcə ingilislərə qarşı olmayıb, eyni zamanda Almaniyanın planlarına qarşı idi. Batumda olan alman nümayəndəsi fon Lossov hələlik danışıqların gedişini sakit izləyirdisə və bəzən tərəflər arasında

---

[215] T.Swietochowski. Russian Azerbaijan, p.126

[216] Документы и материалы по внешней политике Закавказья и Грузии, с.286-289

[217] Yenə orada, s.272-273

[218] Yenə orada, s.269-270

[219] R.Hətəmov. Almaniya-Osmanlı münasibətlərində Azərbaycan amili (1917-1918-ci illər). Namizədlik dissertasiyasının avtoreferatı. Bakı, 2005, s.18



downloaded from KitabYurdu.az

vasitəçiliyə can atırdısa, Fələstindəki məğlubiyyətdən sonra Tiflisə gəlmiş polkovnik Kress fon Kressenşteyn türklərə münasibətdə dostluqdan və müttəfiqlikdən xeyli uzaq idi. O, Gürcüstan hakimiyyət dairələrində türklərin Bakıya dair planlarını pozmaq üçün vasitə axtarırdı. Gürcülər isə bu vasitəçiliyə Gürcüstanın yeganə xilası kimi baxırdılar.[220] Göründüyü kimi, Qafqaza münasibətdə dünənki müttəfiqlər bugünkü rəqiblərə çevrilmişdilər. Yeganə çatışmayan cəhət ondan ibarət idi ki, Ukraynanı və Qara dənizin Şimal sahillərini öz nüfuz dairələrinə daxil edən almanların Cənubi Qafqazda hərbi qüvvəsi yox idi. Fon Kressenşteyn bu fikirdə idi ki, gürcü hərbi hissələri Almaniya bayrağı altında fəaliyyət göstərərsə, bu türkləri çətin vəziyyətdə qoyar. Bunun üçün fon Kressenşteyn diplomatik missiyanın sıravi üzvlərindən, hərbi əsirlərdən tutmuş milliyyətcə alman olan Yelenendorf sakinlərinə qədər səfərbər etməyə hazır idi.[221] Osmanlı dövlətinin müttəfiqi olan Almaniya bütün vasitələrlə Ənvər paşanın Şərq siyasətini pozmaq istəyirdi. Ermənilər də Almaniya qəyyumluğuna can atırdılar.[222] Lakin ermənilərin müdafiə edilməsində almanlar maraqlı deyildilər. Onlar türkləri Ermənistan və Cənubi Azərbaycan ərazisindən keçib, ingilislərin Bakıya yolunu bağlamağa istiqamətləndirirdilər. Çünki almanlar üçün Bakı nefti artıq böyük zərurətə çevrilmişdi və onlar gözəl bilirdilər ki, şəhər türklərin əlinə keçsə, almanlar neft almayacaqlar.[223] General E.Lyüdendorf 1914-1918-ci illər müharibəsi haqqında xatirələrində yazırdı: "Biz yalnız öz qüvvəmiz hesabına Bakıdan neft ala bilərdik".[224]

Batum danışıqlarındakı ziddiyyətlər Azərbaycan nümayəndələrinin Türkiyəyə, gürcü və erməni nümayəndələrinin Almaniyaya meylini sürətləndirdi. Ona görə may ayının ortalarından başlayaraq azərbaycanlı nümayəndələr Türkiyə ilə, erməni və gürcülər isə Almaniya ilə gizli əlaqələr yaratmağa başlamışdılar. Erməni və gürcülər müharibənin son mərhələsində Almaniya ilə Türkiyə arasındakı ziddiyyətlərdən xəbərdar idilər. Almanları cərəyan edən hadisələrə daha yaxından cəlb etmək üçün türk ordusunun hərəkəti ilə bağlı A.Çxenkeli may ayının 15-dəki etiraz notasını təkcə Türkiyəyə deyil, eyni zamanda onun digər üç müttəfiqinə də göndərdi.[225]

Əvvəllər danışıqlarda yalnız müşahidəçi kimi iştirak edən fon Lossov və digər alman nümayəndələri may ayının ortalarından başlayaraq xeyli fəallaşdılar. Onların bir sıra təklifləri erməni və gürcü nümayəndələri tərəfindən rəğbətlə qarşılandı. Almanlar Batum danışıqlarında türklərin yalnız Cənubi Qafqaz dəmir

---

[220] W.E.D.Allen and Paul Muratof. Caucasian Batlefilds, p.470
[221] Yenə orada, s.470
[222] Tevfik Biyiklioğlu, Mondros Mütarikesinin Evliye-i selase ile ilgili Yeni vesikalar. //Bulleten, 1957, Ekim, cilt XXI, s.571
[223] Kemal Öke. Ermeni meselesi, s. 162
[224] Э.Людендорф. Мои воспоминания о войне 1914-1918 гг. Т.П., М., 1924, с.219
[225] Документы и материалы по внешней политике Закавказья и Грузии, с.278



downloaded from KitabYurdu.az

yolundan ordu daşınması üçün olan tələbini müdafiə edir və göstərirdilər ki, dəmir yolunun idarəsi türklərə deyil, alman, türk, Zaqafqaziya qarışıq komissiyasına verilməlidir. İkincisi, almanlar təklif edirdilər ki, Batumda Brest sülhü əsasında ilkin saziş imzalansın, qalan müqavilələr isə İstanbulda Dördlər İttifaqının nümayəndələrinin iştirakı ilə imzalansın.[226] Türklər bu təkliflərin heç birini qəbul etmədilər, almanlar Türkiyə ilə münasibətləri kəskinləşdirməmək naminə təkid etmədilər və danışıqların sonrakı gedişi üçün öz vasitəçiliyini təklif etdilər. Vasitəçilik məsələsi ilə bağlı fon Lossovun məktubunun müzakirəsi Cənubi Qafqaz nümayəndələri arasında fikir ayrılığının olduğunu əks etdirirdi. Azərbaycan nümayəndələri bunun yalnız Türkiyə ilə Almaniya arasında razılıqdan sonra mümkün olacağını qeyd edib, əslində Almaniya vasitəçiliyi məsələsinin əleyhinə çıxdılar. Müzakirələrin gedişində aydın oldu ki, vasitəçilik məsələsi almanlarla gürcülər arasında qabaqcadan razılaşdırılmışdır. Seym üzvü Bernşteyn gürcülərin təşəbbüsü ilə fon Lossovu Cənubi Qafqazdakı vəziyyətlə tanış etməli idi və bu məqsədlə regionun etnoqrafik xəritəsi də fon Lossova təqdim edilmişdi.[227] Azərbaycan nümayəndələrinin etirazına baxmayaraq, Cənubi Qafqaz nümayəndəliyi Almaniya vasitəçiliyindən istifadə etmək qərarına gəldi. Lakin Azərbaycan nümayəndələrindən bu qərar barədə məlumat almış Xəlil bəy alman vasitəçiliyinə qəti surətdə etiraz etdi. Hətta almanlar bu etirazın alman-türk münasibətlərinin kəsiləcəyinə səbəb olacağını bildirdilərsə də, bunun elə bir əhəmiyyəti olmadı. Çünki türklər yaxşı bilirdilər ki, Almaniyanın vəziyyəti elə deyildir ki, o Türkiyə ilə əlaqələrini kəssin. Ona görə də daha əlverişli məqam yetişəcəyinə ümid edən fon Lossov "vasitəçilik" məsələsində Türkiyənin müqaviməti qarşısında geri çəkildi. M.Mehdiyev Batum danışıqlarında azərbaycanlıların mövqeyini səciyyələndirərək yazır: "Almaniya Azərbaycan neftinə və Türkistan pambığına laqeyd deyildi və bu istismar regionlarına yaxınlaşmaq üçün hər cür vasitə axtarırdı. Qafqazın müsəlman millətləri almanlardan çox türklərə rəğbət bəsləyirdi, onlar Almaniyanın müstəmləkəçi olmasından qorxurdular. Buna görə də Batumdakı müsəlman nümayəndələri almanlara qarşı soyuq münasibət bəsləyir, türklərə isə böyük inam və ümidlə baxırdılar".[228]

Almaniyanın Batum konfransına Rusiyanı cəlb etmək planları da müsbət nəticə vermədi. Ümumiyyətlə, Almaniya Bakı neftinə dinc vasitələrlə nail olmaq üçün Rusiya hökuməti ilə də gizli danışıqlar aparırdı. May ayının ikinci yarısında Moskvada olan Almaniya səfiri qraf Mirbax Sovet Rusiyasının Batum konfransına cəlb edilməsinə cəhd etdi. Eyni zamanda o, Rusiyaya bildirdi ki, bu heç də Cənubi

---

[226] О.Минасян. Внешняя политика Закавказской контрреволюции в первой половине 1918 года, с.78
[227] Hikmet Yusuf Bayur. Türk İnkilabı Tarihi, cilt III, s.198
[228] Mir-Yacoub. Le probleme du Caucase. Paris, 1933, p.110



downloaded from KitabYurdu.az

Qafqaz hökumətinin tanınması demək deyildir.[229] Cavabında Sovet Rusiyası ikibaşlı formada bildirdi ki, o Batum danışıqlarına cəlb olunmağı zəruri hesab edir, eyni zamanda Cənubi Qafqaz hökumətinə qarşı xalq hərəkatının yüksələcəyini düşünür və Rusiya tərəfindən qəbul edilməyən bu hökumətin imzalayacağı sənədlərin Sovet hökuməti tərəfindən tanınmayacağı fikrindədir.[230] Rusiya tərəfindən Zaqafqaziya hökumətinin mövcudluğunun inkar edilməsi Cənubi Qafqaz nümayəndələrinin Rusiyanın dəvət olunmasına qarşı müqavimətini gücləndirdi. Son nəticədə Almaniyanın Cənubi Qafqaz nümayəndələri ilə Rusiya arasında görüşü Kiyevdə keçirmək barədə təklifinə ilkin razılıq əldə edildisə də, bu görüş baş tutmadı.[231] Sovet Rusiyasının belə mövqeyi Bakıda bolşeviklərin hakimiyyəti ələ keçirmələri ilə bağlı idi. Çünki aprelin 25-də S.Şaumyan başda olmaqla Bakı Xalq Komissarları Sovetinin yaradılması ilə bolşeviklərin mart ayından başlayaraq hakimiyyəti zor gücünə ələ keçirmək uğrunda mübarizəsi uğurla başa çatmışdı.

Cənubi Qafqaz Seymində Bakı Xalq Komissarları Sovetinə münasibət məsələsi müzakirə edildikdə, Seymin müsəlman fraksiyası elan etdi ki, əgər hökuməti bolşeviklərin Bakıdan çıxarılması haqqında tədbir görməsə, onlar Seymi tərk edəcəklər. Məcburiyyət qarşısında qalan Seym Bakı üzərinə azərbaycanlı və gürcülərdən ibarət zəif bir hərbi dəstə göndərdisə də, bu uğursuzluqla nəticələndi. Aprel ayının sonuna qədər Bakı Soveti öz hakimiyyətini Bakı quberniyasına yaymaq məqsədilə qəzalarda müsəlman əhalisinə qarşı soyqırım siyasətini davam etdirdi. Cənubi Qafqaz Seymi bu təcavüzün qarşısını ala bilmədi. Çünki Seymin əlində müntəzəm hərbi qüvvə yox idi. "Azərbaycanlılar üçün tək çıxış yolu Osmanlı Ordusundan yardım istəmək idi".[232] Bakıda cərəyan edən hadisələrlə tanış olduqdan sonra Almaniyanın İstanbuldakı səfiri Bernsdorf göstərirdi ki, Bakıda baş verənlər "daha çox erməni hərəkatıdır, nəinki bolşevik siyasəti".[233]

Seymin Bakı XKS-nə münasibətlə bağlı qərarına erməni fraksiyası səs verməyib, "bitərəf" olduqlarını elan etdilər. Şübhəsiz ki, bu qərar daşnakların inqilaba rəğbətindən deyil, Bakıda S.Şaumyanın rəhbərlik etdiyi və həlledici mövqeləri ermənilər tərəfindən tutulan mövcud Xalq Komissarları Sovetinin onların maraqlarına uyğun olduğundan irəli gəlirdi. Lakin Cənubi Qafqaz Seyminin gücsüzlüyü ucbatından Türkiyəyə müraciət etmək meylinin artdığını hiss edən daşnak liderləri Bakı Sovetinə olan "bitərəf" münasibətini bəzi şərtlər daxilində dəyişməyə hazır olduğunu müsəlman nümayəndələrinə təklif etdilər. Siyasi alver xarakteri daşıyan bu şərtlər Bakıda gələcək hökumətin təşkilində

[229] Документы и материалы по внешней политике Закавказья и Грузии, с.291
[230] A.Nimet Kurat. Türkiye ve Rusiya, s.476
[231] Mir-Yacoub. Le probleme du Caucase. Paris, 1933, p.110
[232] H.Baykara. Azerbaycan İstiklal Mücadilesi Tarihi. İstanbul, 1975, s.256
[233] Azərbaycanın İstanbuldakı nümayəndəliyinin sədri M.Ə.Rəsulzadənin xarici işlər naziri M.H.Hacınskiyə məktubu. 19.07.1918.//ARDA, f.894, s.10, i.31, v.2



downloaded from KitabYurdu.az

onların iştirakının təmin edilməsi, habelə erməni hərbi hissələrinin Bakıda saxlanmasından ibarət idi. Bu iki şərt daxilində Seymin erməni fraksiyası "Bakı hadisələrini (bolşeviklərin hakimiyyətini - C.H.) ləğv etməyi öhdələrinə"[234] götürdülər. Lakin müsəlman fraksiyası bu şərtləri qəbul etməkdən qəti surətdə imtina etdi. May ayının 6-da Seymin müsəlman fraksiyasının birgə iclasında Seym üzvü F.X.Xoyski fövqəladə bəyanat verərək dedi: "Daşnaksütyun partiyasının Seym fraksiyasının məsul nümayəndələri bildirmişlər ki, Bakı hadisələrini ləğv etməyi bu şərtlərlə öz üzərlərinə götürürlər ki, Bakıda gələcək hökumət sırf müsəlmanlardan deyil, beynəlmiləl hökumət kimi yaradılsın və erməni hərbi hissələri Bakıda saxlanılsın". F.X.Xoyski qeyd edirdi ki, belə həyasız təklifi o, həmin dəqiqə taktiki mülahizələrlə rədd etməmişdi". Seym üzvü N.Usubbəyov bildirdi ki, daşnakların bu qeyri-səmimi xidmətləri mehriban qonşuluq şəraitində yaşamaq arzusundan deyil, daha çox türk qoşunlarının Azərbaycana yaxınlaşmasından irəli gəlir. Seym üzvü X.Xasməmmədov Bakıda hakimiyyətin bölüşdürülməsinin yolverilməz olduğunu söyləyib qeyd edirdi ki, Bakıda və ümumilikdə Şərqi Zaqafqaziyada bütün hakimiyyət müsəlmanlara məxsus olmalıdır, biz Bakını müvəqqəti olaraq itirmişiksə də, lakin onu bütövlükdə və əbədi olaraq qaytarmaq üçün hər şey etməliyik, ikinci bir yol yoxdur, ya hamısını, ya da heç nə. İclasda iki bənddən ibarət qərar qəbul edildi: "Bakıda hakimiyyət müsəlmanlara verilməlidir. 2. Müsəlman hərbi hissələri həmin hökuməti müdafiə etmək üçün Bakıya daxil olmalı, erməni hərbi hissələri isə tərksilah edilib oradan çıxarılmalıdır".[235] Lakin məlum səbəblərə görə Seymin tərkibində olan Azərbaycan bu vəzifələri yerinə yetirməkdə ciddi çətinliklərlə qarşılaşmışdı. Bakı Sovetinin simasında Sovet Rusiyasının bütün Azərbaycanı işğal etmək niyyətinin qarşısını yalnız xarici qüvvə ilə almaq olardı. Seymin müsəlman fraksiyasının may ayının axırlarında keçirilən iclasında ölkədə vəziyyət haqqındakı çıxışında N.Usubbəyov dedi: "Yalnız Azərbaycanı deyil, bütün Cənubi Qafqazı bürüyən dəhşətli anarxiyanı biz öz qüvvəmizlə aradan qaldıra bilmərik. Şərq tərəfdən bolşeviklərin bizim əsrlik düşmənimizlə birləşərək hücum etməsi vəziyyəti daha da ağırlaşdıraraq türk millətinə çox böyük müsibət və fəlakət gətirir. Vəziyyət belə ikən, bizə xarici bir qüvvənin müdaxiləsini istəməkdən başqa çarə qalmayır. İstiqlalımızın qızğın tərəfdarı olmaqla bərabər, mən bu məsələ haqqında birinci olaraq məsləhətləşmək məcburiyyətindəyəm. Fəlakətin gözünün içinə düz baxaraq biz şükür etməliyik ki, xoş bir təsadüf olaraq müdaxilə edəcək xarici qüvvə bizimlə dost və qardaş olan Türkiyədir. Bəlkə bu bizim qonşularımızın çox xoşuna gəlməyəcəkdir. Lakin başqa çarəmiz də yoxdur. Müdhiş anarxiya qarşısında, onlar da bizim kimi gücsüzdürlər... Kimin xatirinə isə xəstə yatağında yata bilmərik. Bizim heyətin Batuma gedərək, Şərqi Zaqafqaziya türkləri adından Osmanlı

[234] Seymin bütün müsəlman fraksiyalarının və Cənubi Qafqaz mərkəzi müsəlman şurası üzvlərinin birgə iclasının protokolu. 06.05.1918.//ARDA, f.970, s.1, i.1, v.37
[235] ARDA, f.970,s.1,i-1,v.37



downloaded from KitabYurdu.az

dövlətindən yardım istəməsinin zamanı gəlmişdir... Bununla birlikdə Azərbaycanın istiqlal üsul-idarəsini də heç bir vaxt unutmamalıyıq".[236] Bakı Sovetinin müsəlman əhalisinə qarşı törətdiyi zorakılıqlar "vətəndaş müharibəsi" adı altında milli qırğın siyasəti sinfi əlamətlərə görə deyil, milli əlamətlərə görə adamların öldürülməsi müsəlman əhalisi içərisində sovet ideyasına əvvəllər də olmayan inamı birdəfəlik qırmışdı.

Azərbaycanda baş vermiş mart-aprel hadisələrinin xəbəri Türkiyəyə də gəlib çatmışdı. Türkiyənin Batum konfransındakı nümayəndə heyətinin başçısı Xəlil bəyin 1918-ci ilin may ayının 26-da Zaqafqaziya heyətinin başçısına təqdim etdiyi memorandumda deyilirdi: "...Zati-alilərinə məlum olduğu üzrə Qafqazın vəziyyəti çox kritik və qarışıqdır və çözümlənməyə möhtacdır. Bakı və ətrafında yüz minlərcə türk və müsəlmanlar özlərinə inqilabçı deyən vicdansız haydukların qanlı pəncəsində inləyir. Bu zavallıları təhdid edən düzəlməsi imkansız fəlakət gündən-günə artmaqdadır. Saysız mütəşəkkil quldur dəstələrinin təcavüzünə məruz qalan Qafqazın başqa bölgələrindəki türk və müsəlman xalqın vəziyyəti də heç cür ümidverici deyildir. Rəis həzrətləri, qəbul edərsiniz ki, bu adı daşımağa layiq olan heç bir hökumət, qonşu olduğu bir ərazidə belə cinayətlərin cəzasız olaraq qalmasına dözə bilməz və yenə qəbul edərsiniz ki, Qafqazı məhv edən bu anarxiya münasibətilə Dövlət-Aliyeyi-Osmaniyyənin vəziyyəti çox nazikdir. Çünki bu anarxiya Dövlət-Aliyeyi-Osmaniyyənin əhalisi ilə eyni irq və dinə mənsub bir əhalinin asayişinə dəxi əlaqəsi vardır. Digər tərəfdən, ümumi hərbin gərəyi olaraq Dövlət-Aliyə öz ordusunu digər cəbhələrə Qafqaz yolu ilə göndərmək məcburiyyəti qarşısındadır. Bu da indiki müəyyən olmayan vəziyyətə son qoymağı tələb edir".[237]

May ayının ortalarından başlayaraq, təkcə Azərbaycan fraksiyası deyil, gürcü fraksiyası da xarici qüvvə dəvət etmək qərarına gəlmişdi. Menşevik qəzeti "Ertoba" yazırdı: "Anarxiya bizi məhv edir. Bolşeviklər gah bu, gah da digər yerdə bizim üçün üsyanlar təşkil edirlər. Ona görə bizim xalq əgər bizə qayda-qanun yaradarsa, xaricilərin hökmranlığı ilə tez barışacaqdır".[238]

May ayının 14-də gürcü milli şurasının gizli iclası keçirildi və qərara alındı ki, general fon Lossov vasitəsi ilə Gürcüstana qəyyumluq göstərmək üçün Almaniya hökumətinə müraciət edilsin. Əslində Milli Şuranın bu iclası keçiriləndə Berlinə getmiş gürcü nümayəndələri Gürcüstanı himayədarlığa götürmək barədə Almaniyanın razılığını almışdılar.[239] Ona görə Milli Şuranın iclası formal şəkildə bu razılığı rəsmiləşdirməli idi. Milli Şuranın qərarında göstərilirdi: 1. Alman sülh

---

[236] M.B.Mehmetzade. Milli Azerbaycan hareketi. Milli Azerbaycan "Müsavat" Halk Fırkası tarihi. Ankara, 1991, s.86-87
[237] T.Sünbül. Azerbaycan Dosyası, s.83-84
[238] Г.В.Хачапуридзе. Борьба грузинского народа за установление Советской власти. М., 1956, с.133
[239] H.Baykara. Azerbaycan İstiklal Mücadilesi Tarihi, s.257-258



downloaded from KitabYurdu.az

nümayəndə heyətinin başçısı general fon Lossova məlumat verilsin ki, gürcü Milli Şurası Gürcüstanın dövlət-siyasi və beynəlxalq məsələlərdə Almaniya tərəfindən müdafiə edilməsi arzusundadırlar; 2. Fon Lossovdan xahiş edilsin ki, alman ordusu Şimali Qafqazdan Türkiyə sərhədlərinə doğru yolunu davam etdirsin və Gürcüstanı xarici təhlükədən qorumaq barədə onlarla saziş imzalansın; 3. General fon Lossovdan xahiş edilsin ki, Almaniyadakı gürcü hərbi əsirlərinin tezliklə vətənə qayıtmasını təşkil etsin; 4. General fon Lossovdan xahiş edilsin ki, əgər mümkünsə alman hərbi əsirlərinin və zabitlərinin Gürcüstanda qalıb hərbi birləşmələr formasında təşkil olunmasına göstəriş versin və gürcü hökuməti bu qüvvədən anarxiyaya qarşı mübarizə və daxili qayda-qanunu bərqərar etmək üçün istifadə etsin.[240] General fon Lossovla gizli danışıqlar aparmaq üçün menşeviklərin lideri N.Jordaniya başda olmaqla komissiya yaradıldı. Göründüyü kimi, Batum konfransı ərəfəsində gürcü nümayəndələrinin Berlinə səfəri və konfrans açıldıqdan üç gün sonra gürcü Milli Şurası separatçılıq yoluna qədəm qoymuşdu. Bu elə bir dövr idi ki, Gürcüstan Cənubi Qafqaz federasiyasının tərkibində idi və hələ müstəqilliyini elan etməmişdi. General fon Lossov bildirdi ki, Almaniya bir şərtlə Gürcüstana qəyyumluğu öz üzərinə götürür ki, o Zaqafqaziya federasiyasının tərkibindən çıxıb özünün müstəqilliyini elan etsin. Danışıqlar zamanı Almaniya Cənubi Qafqaz dəmir yolunun Gürcüstan hissəsindən, Gürcüstanın təbii ehtiyatlarından istifadə etmək hüququ alırdı, əvəzində isə Gürcüstanın müstəqilliyinin Sovet Rusiyası tərəfindən tanınacağını vəd edirdi.[241]

Batum danışıqlarına gəlmiş üç nümayəndəlikdən ən çətin vəziyyətdə olanı erməni nümayəndəliyi idi. Gürcülərin almanlarla sövdələşməsi onları həyəcana gətirmişdi. Gürcü-alman razılaşmaları haqqında xəbər tutan R.Kaçaznuni N.Jordaniya ilə görüşündə ona demişdi: "Deməli, Noy Nikolayeviç siz bizi satırsınız", N.Jordaniya qısa cavabında bildirmişdi ki, "biz özümüzü xilas edirik".[242] Artıq may ayının 22-də gürcü nümayəndəliyi müstəqillik elan etmək haqqında qəti qərara gəldi. May ayının 24-də A.Çxenkeli Gürcüstan Milli Şurasının prezidentinə göndərdiyi teleqramda yazırdı: "Müstəqilliyin elan edilməsinin yubadılması gözlənilməz nəticələr verə bilər. Almanların vasitəçi olmaq cəhdi baş tutmadı. Bir şey qalır, türk müdaxiləsinə qarşı Almaniyanın müdafiə etdiyi müstəqil Gürcüstanı qoymaq. Gürcüstan hökumətində alman nümayəndəsi qraf Şulenberq olacaqdır. Almaniya ilə bir sıra müvəqqəti sazişlər imzalanmaq üçün hazırdır".[243] May ayının 25-də gizli şəkildə imzalanmış, lakin hələ elan edilməmiş müqavilənin şərtlərinə görə Almaniya ilk addım kimi

[240] О.Минасян. Внешняя политика Закавказской контрреволюции в первой половине 1918 года, с.83
[241] Hikmet Yusuf Bayur. Türk İnkilabı Tarihi, cilt III, s.204-205
[242] О.Минасян. Внешняя политика Закавказской контрреволюции в первой половине 1918 года, с.83
[243] З.Авалов. Независимость Грузии в международной политике, с.59



downloaded from KitabYurdu.az

Gürcüstana 5 min, daha sonra isə 12 min əsgər göndərməli idi.[244] May ayının 25-də general fon Lossov Cənubi Qafqaz nümayəndələrinə sonuncu məktubunda açıq surətdə bildirdi ki, onda olan məlumata görə, Cənubi Qafqaz federasiyası parçalanmaq ərəfəsindədir. Onun vəkalətinin yalnız Zaqafqaziya federasiyası ilə danışıqlar aparmağa aid olduğunu bildirib, yaranmış vəziyyətlə əlaqədar öz hökumətindən təlimat almaq üçün Berlinə yola düşdüyünü bildirdi. Fon Lossovun Batumu tərk etməsi böhranı daha da sürətləndirdi.

May ayının 25-də Batumdan Tiflisə qayıdan N. Jordaniya sülh danışıqlarının gedişi barədə menşeviklərin konfransına məlumat verdi və Gürcüstanın Cənubi Qafqaz federasiyasından çıxıb müstəqilliyini elan etmək məsələsini qoydu. Gürcülər bu fikrə artıq fon Lossovla gizli danışıqlar zamanı gəlmişdilər.[245]

Federasiyanı qismən də olsa saxlamağı zəruri bilən Batumdakı Azərbaycan nümayəndələri gürcülərə təklif etdilər ki, ermənilərsiz ikilikdə dövlət yaratsınlar. Lakin gürcülər bildirdilər ki, onlar özlərinin ayrıca dövlətlərini yaratmaq fikrindədirlər. Azərbaycan fraksiyası bu xəbəri eşidən gün iki dəfə, səhər və axşam iclas keçirdi. Səhər iclasında bildirildi ki, etibarlı mənbələrdən alınan məlumata görə, gürcü fraksiyası Batumda olan gürcü nümayəndələri ilə birlikdə Gürcüstanın ayrılmasına və müstəqilliyini elan etməsinə dair gizli danışıqlar aparırlar. Qərara alındı ki, Gürcüstanın ayrılması məsələsi demək olar ki, həll edildiyindən Seymin müsəlman fraksiyası bu akta hazır olmalıdır. İclasda bütün Seym fraksiyası belə bir qəti qərara gəldi ki, "Gürcüstanın ayrılıb müstəqilliyini elan edəcəyi halda, Azərbaycan da öz müstəqilliyini elan etməlidir".[246]

Axşam iclasında da Gürcüstanın ayrılacağı təqdirdə Azərbaycan fraksiyasının vəzifələri məsələsi müzakirə edildi. İclasa F.X.Xoyski sədrlik edirdi və on altı nəfər Seym üzvü toplanmışdı. İclas açılan kimi F.X.Xoyskiyə tapşırıldı ki, Zaqafqaziya Seyminin sədri Çxeidzenin yanına gedib sabaha təyin edilmiş iclasın gündəliyini öyrənsin və Batumdakı Azərbaycan nümayəndələri ilə birbaşa əlaqəyə girsin. F.X.Xoyski getdikdən sonra müvəqqəti olaraq iclasa sədrlik edən X.Xasməmmədov ölkədəki vəziyyət haqqında məlumat verir. O, Cənubi Qafqaz hökumətində əsl birliyin olmadığını və Azərbaycan türklərinə heç bir yardım göstərilmədiyini qeyd edib Kürdəmirə doğru hərəkət edən bolşeviklərə qarşı menşeviklərin heç bir ciddi tədbir görmədiyindən şikayətləndi.[247]

Az sonra F.X.Xoyski gürcü menşeviklərinin liderləri Cənubi Qafqaz Seyminin sədri N.Çxeidze, Seym üzvləri İ.Sereteli və E.Geqeçkori ilə birlikdə

---

[244] T.Sünbül. Azerbaycan Dosyası, s.84

[245] З.Авалов. Независимость Грузии в международной политике, с.57

[246] Cənubi Qafqaz Seyminin bütün müsəlman fraksiyalarının birgə iclasının protokolu. Səhər iclası. 25.05.1918.//ARDA, f.970, s.1, i.1, v.43

[247] Cənubi Qafqaz Seyminin bütün müsəlman fraksiyalarının birgə iclasının protokolu. Axşam iclası. 25.05.1918.//ARDA, f.970, s.1.i.1, v.43a



downloaded from KitabYurdu.az

qayıtdı. Azərbaycan fraksiyasının iclasında bəyanatla çıxış edən İ.Sereteli göstərdi ki, Seymin gürcü fraksiyası bu fikirdədir ki, Cənubi Qafqaz xalqlarını müstəqillik şüarı ətrafında birləşdirmək mümkün olmadı, Cənubi Qafqazın parçalanması artıq göz qabağındadır. Birliyin olmaması xüsusi ilə Türkiyə ilə danışıqlarda özünü göstərdi. Ona görə biz indi Gürcüstanın müstəqilliyini elan etməyə məcburuq. Sonra Seymin sədri N.Çxeidze Zaqafqaziya xalqlarının parçalanmasına təəssüf etdiyini bildirdi. Onlara Azərbaycan fraksiyası adından Seym üzvü F.Xoyski cavab verdi. Onun fikrincə, Zaqafqaziya xalqları öz mənafeləri baxımından bir-birləri ilə sıx surətdə bağlıdırlar, onların ayrılması o qədər asan məsələ deyildir. Lakin gürcü xalqının iradəsi belədirsə, biz ona mane olmaq iqtidarında deyilik, bu yeni vəziyyətdən asılı olaraq Azərbaycan türklərinin müvafiq qərar qəbul etməkdən başqa yolları qalmır. F.X.Xoyski Seym üzvü X.Korçikyanla söhbəti barədə məlumatında gürcülər ayrılarsa, ermənilərin də müstəqilliklərini elan edəcəklərini bildirdi. Yaranmış siyasi vəziyyəti hərtərəfli müzakirə edərək Seymin müsəlman fraksiyası aşağıdakı məzmunda qərar qəbul etdi: "Əgər Gürcüstan özünün müstəqilliyini elan edərsə, bizim tərəfimizdən də Azərbaycanın müstəqilliyi elan olunmalıdır".[248]

Beləliklə, istiqlaliyyətin elan olunmasına doğru gedən yolda yeni təşəkkül tapan Azərbaycan diplomatiyası 1918-ci ilin yazında çətin və ziddiyyətli bir yol keçdi. Siyasi böhran məngənəsində boğulan Cənubi Qafqaz Seyminin dağılması Azərbaycanın istiqlalının elan edilməsi ilə nəticələndi.

---

[248] Cənubi Qafqaz Seyminin bütün müsəlman fraksiyalarının birgə iclasının protokolu. Səhər iclası. 25.05.1918.//ARDA, f.970, s.1, i.l, v.43-45



downloaded from KitabYurdu.az

# III FƏSİL

## Müstəqilliyin elan edilməsi və Azərbaycan Xarici İşlər Nazirliyinin ilk addımları

May ayının 26-da Cənubi Qafqaz Seyminin sonuncu iclası keçirildi. İclasda çıxış edən İ.Sereteli Zaqafqaziya Federasiyasının dağılmasının günahını çox asanlıqla Azərbaycan fraksiyasının üzərinə qoydu. İ.Sereteli müsəlman fraksiyasının və Cənubi Qafqazın müsəlman əhalisinin Türkiyəyə qarşı vuruşmaq istəməməsini, Batum konfransına nümayəndə göndərməklə yanaşı, yerlərə də təbliğatçılar göndərildiyini xüsusi şəkildə vurğuladı. Onun fikrincə, bu təbliğatçılar müsəlman vilayətlərinin Türkiyəyə birləşdirilməsini tələb edirdilər.[249] İ.Sereteliyə cavab verən Ş.Rüstəmbəyov qeyd etdi ki, Cənubi Qafqaz federasiyasından çıxmaq qərarına gəlmiş gürcü nümayəndələrinin gətirdiyi dəlillər həqiqətə uyğun deyildir. Lakin gürcülər artıq bizimlə işləyə bilmirsə, biz Seymin buraxılmasının əleyhinə deyilik. Mübahisələrin qarşısını almaq üçün gürcü milli demokratı Q.Qvazov daha düzgün yol seçdi. O dedi: "Cənablar, gəlin mübahisə etməyək. Bu gün biz özümüzü buraxırıq, lakin biz dostcasına ayrılmalıyıq. Mehribanlıqla toplanmışdıq, mehribanlıqla da ayrılağın".[250] Beləliklə, Gürcüstanın federasiyadan çıxmaq haqqında bəyanatından sonra Cənubi Qafqaz Seymi özünün buraxılması haqqında qərar qəbul etdi. May ayının 26-da Gürcü Milli Şurası tərəfindən Gürcüstanın müstəqilliyi elan edildi və H.Ramişvili başda olmaqla hökumət kabinəsi yaradıldı.[251] Yeni yaradılmış hökumətin ilk xarici siyasət addımı may ayının 28-də Almaniya ilə əvvəlcədən hazırlanmış sazişi imzalamaq oldu, bununla da yeni yaranmış Gürcüstan Respublikası Almaniya qəyyumluğunu qəbul etdi.[252]

Cənubi Qafqaz Seyminin buraxılması ilə əlaqədar yaranmış böhranlı siyasi vəziyyəti müzakirə etmək üçün Azərbaycan Seym fraksiyasına daxil olan nümayəndələrin mayın 27-də fövqəladə iclası keçirildi. İclas Batumdan qayıtmış sülh heyətinin üzvü N.Usubbəyovun məruzəsini dinlədi. Nəsib bəy Batumda danışıqların gedişi, orada müşahidə edilən alman-türk ziddiyyətləri və Türkiyə ilə danışıqların davam etdirilməsinin zəruriliyi haqqında ətraflı məlumat verdi. O dedi ki, Batumdakı türk nümayəndələrinin fikrincə Zaqafqaziyanın çiçəklənməsinin başlıca təminatı Qafqaz xalqlarının həmrəyliyi və birliyidir. Buna nail olmaq üçün bizim tərəfimizdən ermənilərə müəyyən ərazi güzəştlərinin edilməsi zəruri olacaqdır.[253] Yaranmış vəziyyətin ciddiliyini nəzərə alaraq iclas yekdilliklə

---

[249] Документы и материалы по внешней политике Закавказья и Грузии, с.317-325.
[250] Адрес Календарь Азербайджанской Республики, с. 14.
[251] Hikmet Yusuf Bayur. Türk İnkilabi tarihi. c.III, s.205.
[252] Документы и материалы по внешней политике Закавказья и Грузии, с.332-336
[253] Keçmiş Cənubi Qafqaz Seyminin müsəlman üzvlərinin fövqəladə iclasının protokolu. 27.05.1918. //ARDA, f.970, s.1, i.1, v.46



downloaded from KitabYurdu.az

Azərbaycanın idarə olunması vəzifəsini öz üzərinə götürməyi qərara aldı və özünü Azərbaycan Müvəqqəti Milli Şurası elan etdi. Gizli keçirilən səsvermədə M.Ə.Rəsulzadə böyük səs çoxluğu ilə Milli Şuranın sədri seçildi. Onun namizədliyini ittihaddan başqa bütün partiyaların nümayəndələri müdafiə etdilər. H.Ağayev və M.Seyidov gizli səsvermə ilə sədrin müavinləri, M.Mahmudov və R.Vəkilov isə Milli Şuranın katibləri seçildilər. Sonra isə müxtəlif sahələrdə işlərə rəhbərlik etmək üçün partiya prinsipinə uyğun Milli Şuranın doqquz nəfərdən ibarət icraiyyə orqanı yaradıldı. F.X.Xoyski yekdilliklə icraiyyə orqanının sədri seçildi.

May ayının 28-də Azərbaycan Milli Şurasının ilk iclası keçirildi. İclasda 26 nəfər iştirak edirdi və gündəlikdə üç məsələ dururdu: 1. H.Ağayevin Gəncədəki son hadisələr barədə məlumatı; 2. M.Ə.Rəsulzadənin Batumdan göndərdiyi teleqramın və məktubun oxunması; 3. Seymin buraxılması və Gürcüstanın müstəqilliyini elan etməsi ilə əlaqədar Azərbaycanın vəziyyəti. Birinci məsələ ilə bağlı çıxış edən H.Ağayev Gəncədə yaranmış vəziyyət barədə müfəssəl məlumat verdi, ora 2-3 nəfər türk zabitinin gəldiyini göstərdi. O, qəti şəkildi bildirdi ki, türk zabitlərinin Gəncəyə gəlişi Azərbaycanın gələcək siyasi həyatının müəyyənləşdirilməsi ilə bağlı deyildir. O, əlavə etdi ki, türklər Qafqaz Azərbaycanında heç bir təcavüzkarlıq məqsədi güdmürlər, əksinə, onlar Azərbaycanın və Cənubi Qafqazın müstəqilliyində maraqlıdırlar.[254] Hələ may ayının 26-da Xəlil Menteşənin ultimatumunda göstərilirdi ki, Cənubi Qafqazın türk əhalisini hər yerdə soyub qırırlar və "xüsusən Bakıda minlərlə adam qəddar quldurların qanlı zülmündən əzab çəkir".[255] Ultimatumda açıq şəkildə qeyd edilirdi ki, türklər onları quldur inqilabçıların əlində qoya bilməzlər.[256] Bu barədə Batumda olan türklərlə Azərbaycan nümayəndələri arasında danışıqlar olmuşdu.

28 may iclasında ən mühüm məsələ Seymin buraxılması və Gürcüstanın istiqlaliyyətinin elan edilməsi ilə bağlı Azərbaycanın vəziyyəti barədə müzakirə idi. Şuranın üzvü X.Xasməmmədov bu məsələ barəsində məruzə ilə çıxış edərək təxirə salınmadan Azərbaycanın müstəqil respublika elan edilməsinin zəruriliyini əsaslandırırdı. Şura üzvlərindən N.Usubbəyov, Ə.Şeyxülislamov, M.Seyidov və digərləri bu fikrə tərəfdar çıxdılar. F.X.Xoyski təklif etdi ki, yerlərdə bəzi məsələlərin aydınlaşdırılmasına qədər Milli Şura Azərbaycanın istiqlaliyyətini elan etməkdən çəkinsin, ölkələrlə sülh danışıqları aparmaq üçün tamhüquqlu Azərbaycan hökumətinin yaradılması ilə kifayətlənsin. Bu təklif ətrafında geniş müzakirələrdən sonra Milli Şura 24 səslə (iki nəfər - S.M.Qəniyev və C.Axundov bitərəf qalmışdı) dərhal Azərbaycanın istiqlaliyyətinin elan edilməsi haqqında qərar qəbul etdi və altı bənddən ibarət "İstiqlal bəyannaməsi"ni, Azərbaycanın

---

[254] Müsəlman Milli Şurasının 2 saylı iclasının protokolu. 28.05.1918. //ARDA, f.970, s.1, i.l, v.49
[255] T.Sünbül. Azerbaycan Dosyesi. S.85
[256] З.Авалов. Независимость Грузии в международной политике, с.61



downloaded from KitabYurdu.az

istiqlaliyyəti haqqında tarixi aktı elan etdi.[257] Sənəddə göstərilirdi: "Böyük Rusiya inqilabının cərəyanı ilə dövlət vücudunun ayrı-ayrı hissələrə ayrılması Zaqafqaziyanın rus orduları tərəfindən tərkini mövcud bir vəziyyəti siyasiyyə hasil oldu. Kəndi qəvayi-məxsusələrinə tərk olunan Zaqafqaziya millətləri müqəddəratlarının idarəsini bizzət kəndi əllərinə alaraq Zaqafqaziya Qoşma Xalq Cümhuriyyətini təsis etdilər. Vəqayi-siyasiyyənin inkişaf etməsi üzərinə gürcü milləti Zaqafqaziya Qoşma Xalq Cümhuriyyəti cüzindən çıxıb da müstəqil gürcü Xalq Cümhuriyyəti təsisini səlah gördü.

Rusiya ilə Osmanlı imperatorluğu arasında zihur edən müharibənin tövsiyəsi yüzündən hasil olan vəziyyəti-hazıreyi-siyasiyyə və məmləkət daxilində bulunan misilsiz anarşi Cənubi-Şərqi Zaqafqaziyadan ibarət bulunan Azərbaycana dəxi bulunduğu xarici və daxili müşkülatdan çıxmaq üçün xüsusi bir dövlət təşkilatı qurmaq lüzumunu təlqin ediyor.

Buna binaən arai ümumiyyə ilə intixab olunan Azərbaycan Şurayi-milliyeyi islamiyyəsi bütün cəmaətə elan ediyor ki;

1. Bu gündən etibarən Azərbaycan xəlqi hakimiyyət həqqinə malik olduğu kibi Cənubi-Şərqi Zaqafqaziyadan ibarət olan Azərbaycan dəxi kamil-əl-hüquq müstəqil bir dövlətdir.

2. Müstəqil Azərbaycan dövlətinin şəkil-idarəsi xalq cümhuriyyəti olaraq təqərrür ediyor.

3. Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlər və bilxassə həmcüvar olduğu millət və dövlətlərlə münasibəti-həsənə təsisinə əzm edir.

4. Azərbaycan Xalq Cümhuriyyəti millət, məshəb, sinf, məslək və cins fərqi gözləmədən qələmrovunda yaşayan bütün vətəndaşlarına hüquqi-siyasiyyə və vətəniyyə təmin eylər.

5. Azərbaycan Xalq Cümhuriyyəti ərazisi daxilində yaşayan bilcümlə millətlərə sərbəstanə inkişafları üçün geniş meydan buraxır.

6. Məclisi-Müəssisan toplanıncaya qədər Azərbaycan idarəsinin başında arai ümumiyyə ilə intixab olunmuş Şurayi Milli və Şurayi Milliyə qarşı məsul hökuməti müvəqqətə durur.[258] İclasda iştirak edən bütün Milli Şura üzvləri "İstiqlaliyyət bəyannaməsi"ni ayaq üstə dinlədilər. "İstiqlaliyyət bəyannaməsi" elan olunduqdan sonra Azərbaycan hökumətinin yaradılmasını Milli Şura F.X.Xoyskiyə tapşırdı. Bir saatlıq fasilədən sonra F.X.Xoyskinin hökumətin yaradılması haqqında məruzəsini dinləmək üçün Milli Şuranın iclası öz işini davam etdirdi. İlk Azərbaycan müvəqqəti hökumətini F.X.Xoyski aşağıdakı tərkibdə təqdim etdi: Nazirlər Şurasının sədri və daxili işlər naziri - Fətəli xan Xoyski, hərbi nazir Xosrovpaşa bəy Sultanov, xalq maarifi və maliyyə naziri - Nəsib bəy Usubbəyov, xarici işlər naziri – Məmməd Həsən Hacınski, poçt-teleqraf və yollar naziri -

[257] Müsəlman Milli Şurasının 2 saylı iclasının protokolu. 28.05.1918. //ARDA, f.970, s.1, i.l, v.50
[258] Azərbaycanın istiqlaliyyəti haqqında Akt. 28.05.1918. //ARDA, f.970, s.l, i. 4, v.1-2



downloaded from KitabYurdu.az

Xudadat bəy Məlik-Aslanov, əkinçilik və əmək naziri - Əkbər ağa Şeyxülislamov, ədliyyə naziri - Xəlil bəy Xasməmmədov, ticarət və sənaye naziri – Məmməd Yusif Cəfərov, dövlət nəzarəti naziri - Cəmo bəy Hacınski.[259]

Bununla da, Azərbaycan Milli Şurası Azərbaycan milləti qarşısında çox böyük tarixi bir missiyanı yerinə yetirdi. Müsəlman mənşəli bütün dövlətlər, əsasən, dini təməl üzərində qurulduğu halda, Azərbaycan Xalq Cümhuriyyəti dünyəvi təməl üzərində qurulan ilk türk dövləti idi. Azərbaycan milli dövlətinin yaradılması bir sıra mühüm səbəblərə görə millətin taleyində tarixi hadisə idi. M.Ə.Rəsulzadə bu barədə yazırdı: "28 mayis 1918 Bəyannaməsini nəşr etməklə Azərbaycan Şurayi - Millisi, sözün siyasi mənası ilə, bir Azərbaycan millətinin varlığını təsbit etmişdir. Beyləki, Azərbaycan kəlməsi sadə coğrafi, etnoqrafi və linqvistik bir kəlmə olmaqdan çıxaraq siyasi bir aləm olmuşdur".[260]

Məlum olduğu kimi, Sovet tarixşünaslığında milli istiqlaliyyətin elan edilməsi faktına uzun müddət qeyri-elmi, qeyri-obyektiv, məhdud sinfi ideoloji təkəbbür mövqeyindən yanaşılıb, səhv olaraq istiqlaliyyətin elan edilməsinin yalnız bəy, xan, mülkədar, buıjuaziyanın mənafeyinə uyğun olduğu göstərilib. Bir il sonra müstəqillik günü münasibətilə M.Ə.Rəsulzadə "İstiqlal" qəzetinin 31 may tarixli nömrəsindəki məqaləsində yazırdı: "Mayisin 28-də istiqlal bayramını qeyri-qabili-təsvir bir səmimiyyətlə qarşılamaları ilə azərbaycanlılar bütün aləmə göstərdilər ki, istiqlaldan əl çəkməyəcəklər və bütün böhtançılara deyəcəklər ki, istiqlal xanların, bəglərin, ağaların deyil, Azərbaycan xalqının, türk millətinin milli, ən müqəddəs idealıdır."[261] Bir çox cəhətlərinə görə 1918-ci ilin mayında Azərbaycan Respublikasının yaradılması Rusiyada, Cənubi Qafqazda və dünyada gedən hərbi, diplomatik və siyasi proseslərin tərkib hissəsi olduğundan, keçmiş rus imperiyasının dağılması baxımından digər yeni respublikaların təşəkkülü ilə birlikdə beynəlxalq əhəmiyyətli hadisə idi.

Fətəli xan Xoyskinin formalaşdırdığı birinci və ikinci hökumət kabinetlərində xarici işlər naziri vəzifəsini tutan M.H.Hacınski 1918-ci ilin oktyabrına qədər bu vəzifədə qaldı və Azərbaycan Xalq Cümhuriyyətinin ilk xarici işlər naziri kimi tarixə düşdü. May ayının 28-də Azərbaycan Respublikası yaranandan sonra müvəqqəti olaraq yerləşdiyi Tiflis şəhərində müvafiq şəraitin olmaması ilə bağlı ciddi təşkilati işlər görmək mümkün olmasa da, xarici işlər nazirliyinin fəaliyyəti ilə bağlı müəyyən məsələlərin nizamlanmasına və kadr məsələlərinin həllinə başlanıldı, funksional-operativ şöbələrin yaradılması üçün ilk addımlar atıldı.

---

[259] Azərbaycan Cümhuriyyəti Hökumətinin qanun və binagüzarlıqları məcmuəsi. 1919, № 1, s.6
[260] İstiqlal, 1933, 28 may
[261] İstiqlal, 1919, 31 may



downloaded from KitabYurdu.az

Azərbaycan Respublikası yarandığı gündən xarici siyasət fəaliyyətinə başlamış, dövlətlərarası münasibətlərə daxil olmağa cəhd göstərilmişdir. Hökumət kabinəsi yaradılan kimi, Azərbaycan Xarici İşlər Nazirliyinin ilk addımı Batumda olan Osmanlı hökumətinin Ədliyyə naziri, Türkiyə Dövlət Şurasının sədri və Batum sülh danışıqlarında Türkiyə nümayəndəliyinə rəhbərlik edən, yaxud sənəddə deyildiyi kimi, "Osmanlı heyyəti mürəxxəsə rəisi" Xəlil bəyə Azərbaycan Milli Şurasının və F.X.Xoyskinin rəhbərlik etdiyi hökumət kabinəsinin yaradılması haqqında məlumat vermək oldu.[262] May ayının 30-da isə Azərbaycan Respublikasının yaranması barədə Nazirlər Şurasının sədri F.X.Xoyskinin imzaladığı məlumat radioteleqrafla bütün ölkələrin xarici işlər nazirliklərinə göndərildi. İstanbul, Berlin, Vyana, Paris, London, Roma, Vaşinqton, Sofiya, Buxarest, Tehran, Madrid, Haaqa, Moskva, Stokholm, Kiyev, Xristaniya (Oslo) və Kopenhagenə göndərilən məlumatda deyilirdi: "Gürcüstanın ittihaddan çıxması üzərinə "Mavərayi-Qafqaz müttəhid cümhuriyyəti" inhalal eyləmişdir. Şəhri halın 28-ci günü əqdi-ictimai edən "Azərbaycan Şurayi-Millisi" Mavərayi-Qafqazın Cənubi-Şərqisində vaqe olan Azərbaycan Cümhuriyyətini təşkil eyləmişdir. Keyfiyyətdən hökuməti-mətbuənizin xəbərdar edilməsini surəti məxsusda rica eylər və ehtiramati - faiqəmi təqdim ilə kəsbi şərəf edərəm. Hökumətin şimdilik məqərri - müvəqqəti Elizavetpoldur. 30 mayis 1918. Azərbaycan Cümhuriyyəti məclisi - nüzzar rəisi Xoyski".[263] Xarici ölkələrin paytaxtlarına Tiflisdən bu məlumatı çatdırmaq çətinlik təşkil etdiyi üçün F.Xoyski Batumda olan xarici işlər naziri M.Hacınskiyə yazırdı ki, Azərbaycanın istiqlaliyyəti haqqında teleqramı göndərmək üçün bizim qarşımıza müxtəlif çətinliklər çıxıb. Teleqramın rus və fransız dillərində olan mətnlərini Sizə göndərirəm ki, siz oradan onu birbaşa radio vasitəsi ilə İstanbula çatdırasınız və oradan da radio vasitəsi ilə yayasınız. Teleqramı xarici işlər naziri kimi özünüz də imzalaya bilərsiniz. Fransızca mətnin axırına əlavə edin ki, hökumətin müvəqqəti olaraq yerləşdiyi yer Elizavetpol şəhəri olacaqdır.[264] F.X.Xoyski xarici işlər naziri M.H.Hacınskiyə bildirirdi ki, Nəsib bəy və Sultanov əhalini məlumatlandırmaq və hazırlamaq üçün Gəncəyə getmişlər. O, əlavə edirdi ki, ermənilərlə bütün mübahisələri sona çatdırıblar. F.X.Xoyski yazırdı: "Onlar ultimatumu qəbul edirlər və müharibəyə son qoyurlar. Biz İrəvanı güzəştə getdik".

Ümumilikdə yeni yaranmış respublikanın dövlətlərarası münasibətlərə daxil olması böyük çətinliklərlə qarşılaşırdı. Lakin bu işin zəruriliyi də dərindən başa düşülürdü. Yaranmış çətin vəziyyətdən çıxış yolu Osmanlı dövlətinin xarici işlər

---

[262] Azərbaycan xarici işlər naziri M.H.Hacınskinin Osmanlı imperatorluğu sülh heyətinin başçısı Xəlil Menteşəyə məktubu. 29.05.1918. //ARDA, f.970, s.1, i. 4, v.6

[263] Nazirlər Şurasının sədri Fətəli xan Xoyskinin müstəqil Azərbaycan Respublikasının yaradılması haqqında bir sıra dövlətlərin xarici işlər nazirlərinə radioqramı. 30.05.1918. //ARDA, f.970, s.1,i. 4

[264] Nazirlər Şurasının sədri Fətəli xan Xoyskinin Azərbaycanın müstəqilliyinin elan edilməsi haqqında radioqramın göndərilməsi barədə xarici işlər naziri M.H.Hacınskiyə təlimatı. 29.05.1918. //ARDA, f.970, s.1, i. 4, v.1-2



downloaded from KitabYurdu.az

nazirliyinin imkanlarından istifadə edilməsində idi. Bu məqsədlə xarici işlər naziri M.Hacınski Türkiyə Xarici İşlər Nazirliyinə teleqramında göstərirdi ki, böyük dövlət əhəmiyyətli məsələlər Avropa ölkələri ilə münasibətlər yaratmağı zəruri edir. Lakin yenicə öz müstəqilliyini elan etmiş Azərbaycan Respublikası məlum səbəblərə görə, tezliklə Avropa mərkəzlərində nümayəndəliklər yaratmağa çətinlik çəkir. "Belə bir şəraitdə Osmanlı dövləti beynəlxalq qaydalar əsasında Avropa paytaxtlarında, o cümlədən Moskvada olan türk səfirlikləri vasitəsilə Azərbaycanla Avropa dövlətləri arasında vasitəçi olmağa razıdırmı?"[265] Bu məsələ ilə bağlı qeyd etmək lazımdır ki, müxtəlif ölkələrin paytaxtlarında olan türk səfirlikləri sonralar Azərbaycan Respublikasının yaradılması haqqında məlumatla çıxış etmişdilər.

Cənubi Qafqaz hökumətinin başladığı Batum danışıqlarını yeni elan edilmiş milli respublikalar davam etdirdi və hər dövlətin nümayəndəsi öz sülh şərtlərini irəli sürdü. İstiqlaliyyət elan edildikdən sonra yeni yaranmış dövlətin sərhədlərini müəyyən etmək zərurəti meydana çıxmışdı və Cənubi Qafqazda yaranan milli respublikalar içərisində ən çətin vəziyyətə Ermənistan respublikası düşmüşdü. Hələ müqavilə bağlanmazdan əvvəl erməni nümayəndələri yardım üçün Azərbaycan hökumətinə müraciət etmiş və xeyirxahlıq görmüşdülər. May ayının 29-da erməni Milli Şurası ilə danışıqlar barədə Nazirlər Şurasının sədri F.X.Xoyski Azərbaycan Milli Şurasının iclasına məlumat verdi. O göstərdi ki, Ermənistan Federasiyası yaratmaqdan ötrü onlara siyasi mərkəz lazımdır, Aleksandropol türklər tərəfindən tutulduqdan sonra belə bir siyasi mərkəz, ancaq İrəvan şəhəri ola bilər, ona görə bu şəhərin ermənilərə güzəştə gedilməsi labüddür. Bu məsələ barəsində X.Xasməmmədov, M.Y.Cəfərov, Ə.Şeyxülislamov, M.Məhərrəmov çıxış edərək İrəvan şəhərinin ermənilərə güzəşt edilməsini qaçılmaz bəla kimi qiymətləndirdilər. Milli Şuranın iclası İrəvan şəhərinin ermənilərə güzəştə gedilməsi barədə öz razılığını bildirdi.[266] İki gün sonra İrəvan Milli Şurasının üzvləri Mir Hidayət Seyidov, Bağır Rzayev və Nəriman bəy Nərimanbəyov İrəvan şəhərinin Ermənistan Respublikasına güzəştə getməsinə etiraz etdilər, lakin iyun ayının 1-də keçirilən Azərbaycan Milli Şurasının iclası bu etirazı qəbul etmədi.[267] Bununla belə, Milli Şura İrəvan şəhərinin güzəşt edilməsi ilə bağlı meydana çıxan problemləri həll etməkdən ötrü İrəvana M.Seyidov, B.Rzayev, M.Y.Cəfərovdan ibarət nümayəndə heyəti göndərməyi lazım bildi. Sonra iclas Yelizavetpol quberniyasındakı məsələni müzakirə etdi. Bu barədə Gəncədən qayıdan N.Usubbəyov və Ş.Rüstəmbəyov məlumat verdilər. İclas qərara aldı ki, Batumdakı

[265] Xarici işlər naziri M.H.Hacınskinin Türkiyə Xarici İşlər naziri Əhməd Nəsim bəyə Türkiyə səfirliklərinin Azərbaycanı Avropa paytaxtlarında təmsil etmək xahişi barədə teleqramı. 30.05.1918. //ARDA, f.970, s.1, i. 5, v.14

[266] Azərbaycan Milli Şurasının 3 saylı iclasının protokolu. 29.05.1918. //ARDA, f.970, s.1, i.l, v.51

[267] Azərbaycan Milli Şurasının 4 saylı iclasının protokolu. 01.06.1918. //ARDA, f.970, s.1, i.1,v.53



downloaded from KitabYurdu.az

Azərbaycan nümayəndələrini respublikadakı vəziyyətlə yaxından tanış etmək üçün N.Usubbəyovu Batuma ezam etsin.[268]

Batumda olan Azərbaycan və Ermənistan nümayəndələri arasında da sərhəd məsələləri ilə bağlı danışıqlar aparıldı və razılıq əldə edildi ki, Azərbaycan "Aleksandropol quberniyası" hüdudlarında Erməni dövlətinin yaradılmasına razıdır, bu şərtlə ermənilərə güzəştə gedilir ki, ermənilər Yelizavetpol quberniyasının bir hissəsinə (Qarabağa) olan iddialarından imtina edirlər.[269] Azərbaycan nümayəndələri Türkiyə ilə Ermənistan arasında müqavilə bağlanmasına yardım göstərəcəklərini vəd etdilər.

Cənubi Qafqazda Ermənistan dövlətinin yaradılmasına və tarixən azərbaycanlılara məxsus olan bir sıra ərazilərin dövlət ola bilmək üçün ermənilərə verilməsində Osmanlı siyasi dairələrinin fikirləri birmənalı deyildi. Birinci dünya müharibəsinin sonunda Türkiyənin siyasətini müəyyən edən baş nazir Tələt paşa və hərbi nazir Ənvər paşa Cənubi Qafqazda erməni dövlətinin yaradılmasını uyğun bilmir, bu mümkün olmazsa zəif, yaşamaq qabiliyyəti olmayan bir Ermənistanın yaradılmasını mümkün hesab edirdilər.[270] Batum danışıqlarında Türkiyəni təmsil edən Xəlil bəy və Vehib paşa isə tarixən Azərbaycana məxsus bir sıra ərazilərin ermənilərə verilməsini qaçılmaz hesab edir və bu məqsədlə sülh konfransında olan Azərbaycan nümayəndələrinə tövsiyə edirdilər ki, beynəlxalq aləm qarşısında ermənilərin mövcudluğunu tanımaq və onlara müəyyən güzəştlər edilməsi qaçılmazdır.[271] Batumda olan Xəlil bəy Ənvər paşaya ərazi güzəştləri barədə məlumat verdikdə Ənvər paşa buna qarşı çıxdı. O, may ayının 27-də Vehib paşaya göndərdiyi teleqramda yazırdı: "Xəlil bəyin teleqramından anlaşıldığına görə, ermənilər bizə qaytardıqları ərazilərə müqabil Cənubi Qafqaz müsəlmanlarına aid ərazidən bir qisim almaq istəyirlərmiş və müsəlmanlar da buna muvafakat edəcəklərmiş. Məncə, bu, tamamilə yanlışdır. Əgər bu gün Qafqazda beş-altı yüz min əhalisi olan və kafi miqdarda əraziyə malik kiçik bir Ermənistan təşəkkül edərsə, gələcəkdə əmrləri Amerikadan alaraq, o tərəfdən gələn ermənilərlə bu hökumət milyonlarla əhaliyə sahib olacaqdır. Və bizim üçün şərqdə bir Bolqarıstan daha yaranar ki, bu bizim üçün Rusiyadan daha müzir bir düşmən olar". Ənvər paşa ermənilər tərəfindən işğal edilmiş ərazilərin, ilk növbədə isə müsəlmanların yaşadıqları İrəvan quberniyasının ermənilərdən azad edilməsinə üstünlük verirdi. O, yazırdı: "Mənafeyimizə ən çox uyğun olan bu şəkil gerçəkləşməzsə, onda ermənilərə də bir mövcudiyyət verilməsi qaçılmaz olar. Belə olan təqdirdə,

---

268 Yenə orada, v.54

269 ARPİİ SPİHDA, f.276, s.9, i. 1, v.47; З.Авалов. Независимость Грузии в международной политике, с.57

270 N.Kurat. Türkiye ve Rusiya. S.661-662.

271 Türkiye Cümhuriyeti Genelkurmay Başkanlığı Askeri Tarih ve Stratejik Etüd Arşivi. 4/3671. k.2919, d.61-499, f.3-26 (Bu iqtibas V.Qafarovun "Şimali Azərbaycan məsələsi Rusiya-Türkiyə münasibətlərində (1917-1922-ci illər)" adlı əlyazmasından götürülmüşdür).



downloaded from KitabYurdu.az

ermənilərin gələcəkdə vücud bularaq yaşamayacaq surətdə olduqca çox zəif bir halda buraxılmalarına çalışmaq lazımdır. Həm hökumətimizin, həm də Qafqazdakı müsəlmanların indiki və gələcəkdəki mənafeləri, ancaq bu surətdə təhlükədən qurtarıla bilər".[272] Ənvər paşanın teleqramına cavabında Vehib paşa 1918-ci ilin may ayının 29-da yazırdı: "Erməniləri büsbütün qeyri-mövcud edə bilmərik. Hər halda onlara bir vücud vermək zərurəti və məcburiyyətindəyik".[273] Bu halda Ənvər paşa elə həmin gün Batuma göndərdiyi təlimatda belə hesab edirdi ki, Osmanlı dövlətinin mərkəzi Gəncə olan hökumətlə birbaşa sərhədləri olmalıdır. Onun fikrincə, bu sərhədlər Qarakilsənin şimalından və Naxçıvandan keçməli idi.

Bütün bu məsələlər Batum danışıqlarının nəticəsi kimi iyun ayının 4-də hər üç respublika ilə "Sülh və Dostluq" haqqında müqavilələrin imzalanmasında bu və ya digər formada öz əksini tapdı. İyun ayının 4-də "Osmanlı imperatorluğu hökuməti ilə Azərbaycan Respublikası arasında dostluq müqaviləsi" imzalandı. Müqaviləni Türkiyə tərəfindən Ədliyyə naziri Xəlil Menteşə, Qafqaz cəbhəsinin baş komandanı Ferik Mehmet Vehib paşa, Azərbaycan tərəfindən xarici işlər naziri M.H.Hacınski və Milli Şuranın sədri M.Ə.Rəsulzadə imzaladılar. Bu, Azərbaycan Respublikasının xarici dövlətlərlə imzaladığı ilk müqavilə idi. Onun preambulasında göstərilirdi. "Bir tərəfdən Osmanlı imperiyası hökuməti, digər tərəfdən isə öz müstəqilliyini elan etmiş Azərbaycan Respublikası hökuməti öz ölkələri arasında siyasi, hüquqi, iqtisadi və intellektual zəmində mehriban dostluq münasibətləri bərqərar etməkdə qarşılıqlı surətdə razılığa gəlirlər".[274]

Müqavilənin birinci bəndi təsbit edirdi ki, Osmanlı imperiyası ilə Azərbaycan Respublikası arasında daimi sülh və möhkəm dostluq bərqərar olacaqdır. İkinci maddə Osmanlı imperiyası ilə Azərbaycan, Gürcüstan və Ermənistan arasında sərhəd xəttinin müəyyən edilməsinə aid idi. Bu maddədə göstərilən hüdudlara əsasən, Azərbaycan Türkiyə ilə geniş sərhədləri olan dövlət idi. Müqavilənin üçüncü bəndinə əsasən, Azərbaycan, Gürcüstan və Ermənistan öz aralarında tezliklə sərhədləri müəyyən edən protokol imzalayacaq və Osmanlı hökumətinə məlumat verəcək, öz növbəsində həmin protokollar bu müqavilənin bir hissəsini təşkil edəcəkdir. Azərbaycan üçün ən mühüm olan dördüncü maddədə göstərilirdi ki, dinclik və asayişi möhkəmləndirmək, ölkənin təhlükəsizliyini təmin etmək üçün əgər ehtiyac olarsa, Osmanlı hökuməti Azərbaycan Respublikasına hərbi yardım göstərməyi öz üzərinə götürür. Beşinci maddəyə əsasən, Azərbaycan hökuməti onun sərhədyanı ərazilərində yaradılmış silahlı quldur dəstələrini tərksilah etməyi və qovmağı öz üzərinə götürürdü. Altıncı maddə dəmiryol

---

[272] Türkiye Cümhuriyeti Genelkurmay Başkanlığı Askeri Tarih ve Stratejik Etüd Arşivi. 4/3671. k.2919, d.61-499, f.3-31 (Bu iqtibas V.Qafarovun "Şimali Azərbaycan məsələsi Rusiya-Türkiyə münasibətlərində (1917-1922-ci illər)" adlı əlyazmasından götürülmüşdür).
[273] Yenə orada. K.2930, d.553, f.4.
[274] Osmanlı imperatorluğu hökuməti ilə Azərbaycan Respublikası arasında dostluq müqaviləsi. 04.06.1918. //ARDA, f.894. s.2, i. 88, v.l



downloaded from KitabYurdu.az

yüklərinin daşınmasında tərəflərin öhdəliklərindən, yeddinci maddə konsulluq konvensiyası, ticarət müqaviləsi və digər aktların hazırlanmasından, səkkizinci maddə azad gediş-gəlişdən, doqquzuncu maddə Azərbaycanın beynəlxalq poçt-teleqraf ittifaqına qoşulmasına qədər iki ölkə arasında poçt-teleqraf əlaqələrindən, onuncu maddə hazırkı müqaviləyə zidd olmayan Brest-Litovsk müqaviləsinin tərəflər arasında qüvvədə olmasından bəhs edirdi. Sonuncu, on birinci maddədə müqavilənin bir ay ərzində təsdiq edilməsi və təsdiq edilmiş mətnlərin İstanbulda mübadilə ediləcəyi göstərilirdi.[275]

Osmanlı imperiyası ilə bağlanan müqavilə Azərbaycan hökumətinin beynəlxalq nüfuzuna müsbət təsir göstərməklə yanaşı, Azərbaycan türk millətinin mövcudluğunu qoruyub saxlamaq üçün zəruri bir təminat idi. Müqaviləyə hərbi yardım haqqında maddənin daxil edilməsi o demək idi ki, əslində Qarabağın dağlıq hissəsində azğınlıq törədən erməni quldur dəstələri ləğv ediləcək və Bakı xarici düşmənlərdən təmizlənib orada əmin-amanlıq yaradılacaqdır.[276]

1918-20-ci illər Azərbaycan Türkiyə münasibətləri ilə bağlı əsərlər yazan sovet tarixçiləri bu müqavilənin üstündən çox vaxt sükutla keçmiş və ya bu müqaviləni soyğunçu müqavilə kimi təqdim etmişlər. Qeyd edilən səhv nöqteyi-nəzər bu dövrlə bağlı tədqiqatların hamısı üçün xarakterikdir. Sovet tarixçilərindən fərqli olaraq bu məsələ ilə bağlı T.Svyatoçevski daha doğru mövqedən yanaşaraq yazırdı: "İyunun 4-də hər üç dövlət Türkiyə ilə "sülh və dostluq" haqqında separat müqavilə bağladı. Dörd min kvadrat kilometr ərazi itirmiş Ermənistan və ya iki rayonunu tərk etmək məcburiyyəti qarşısında qalmış Gürcüstandan fərqli olaraq Azərbaycan-Osmanlı müqaviləsindəki "dostluq" sözü xüsusi məna kəsb edirdi. Azərbaycan, nəinki bütün ərazilərini özündə saxladı, həm də imzalanmış müqavilənin IV maddəsinə görə təhlükəsizlik və ictimai asayişin bərpa edilməsi üçün osmanlılardan hərbi kömək haqqında, habelə Bakının azad edilməsi və Qarabağın dağlıq hissəsində fəallıq göstərən erməni dəstələrinin təcavüzünü cilovlamaq haqqında təminat aldı.[277] F.Kazımzadənin fikrincə isə 4 iyun müqaviləsi nəticəsində "Azərbaycan heç nə itirmirdi, əksinə Osmanlı yardımına arxalanaraq Bakını tutmaq ümidində idi".[278] Lakin qeyd etmək lazımdır ki, istifadə etdiyi sovet məxəzlərinin təsiri altına düşərək T.Svyatoçevski də müqavilədə Azərbaycanın müstəqil dövlət kimi tanınmadığını göstərir.[279] Osmanlı-Azərbaycan müqaviləsinə münasibətdə belə səhv nöqteyi-nəzər R.Syuni tərəfindən də təsdiq edilir.[280] Qeyd

---

275 Osmanlı imperatorluğu hökuməti ilə Azərbaycan Respublikası arasında dostluq müqaviləsi. 04.06.1918. //ARDA, f.894, s.2, i. 88, v.1-3

276 N.Kurat. Türkiye ve Rusiya. s.662-669

277 T.Swietochowski. Russian and Azerbaijan, p.69

278 F.Kazemzadeh. The Struggle for Transcaucasia, p. 128

279 T.Swietochowski. Russian and Azerbaijan. p.69

280 R.Suny. The Baku Commune. 1917-1918. Class and Nationality in the Russian Revolution. Princeton, 1972, p.287-288



downloaded from KitabYurdu.az

edilən səhv yanaşma son illərdə Rusiyada çıxan bir sıra araşdırmalara da aiddir.[281] Halbuki son illərdə bu sənədi daha düzgün dəyərləndirmək üçün çoxlu arxiv mənbələri açıqlanmışdır. 4 iyun müqaviləsinin mətninin və onun doğurduğu siyasi nəticələrin araşdırılması belə mülahizələrin əsassız olduğunu söyləməyə imkan verir. Birincisi, beynəlxalq münasibətlərin nəzəriyyəsində və praktikasında bir-birini müstəqil dövlət kimi tanımayan tərəflərin siyasi, hüquqi və iqtisadi zəmində mehriban qonşuluq münasibətləri barədə müqavilə imzalanması qeyri-mümkündür. İkincisi, bir-birini müstəqil dövlət kimi tanımayan tərəflər arasında müqavilənin birinci bəndində göstərilən daimi sülhün və möhkəm dostluğun təsbit edilməsinə ehtiyac olmazdı. Üçüncüsü, beynəlxalq münasibətlərin tarixində müqaviləyə girən hər hansı tərəfin, müstəqilliyini tanımadığı hər hansı tərəfə yardım göstərməsi təcavüz və işğal kimi qiymətləndirilir. Dördüncüsü isə, müqavilə imzalandığı andan işlək sənədə çevrilmiş, Bakının azad edilməsinin və Azərbaycanın suverenliyinin təmin edilməsinin hüquqi, hərbi, siyasi və diplomatik əsaslarını təşkil etmişdir. Müqavilədə iştirak edən hər iki ölkənin hökumətləri diplomatik addımlarında onun maddələrini əsas kimi götürmüşdür. Lakin yuxarıda qeyd edilən "tanımamaq" mülahizəsini qəbul etməməklə yanaşı, qeyd etmək lazımdır ki, 4 iyun müqaviləsi və ona əlavə kimi imzalanmış Bakı-Batum neft kəməri, Cənubi Qafqaz dəmiryolu haqqında olan saziş və protokollar Türkiyə tərəfinə müəyyən imtiyazlar verirdi.

Batum konfransının yekunu kimi iyunun 4-də Türkiyə Gürcüstan və Ermənistanla da "Sülh və Dostluq" müqavilələri imzalayıb onların müstəqilliyini tanıyırdı. Gürcüstanla müqaviləyə, əsasən, Qars, Batum və Ərdahanın, habelə Axaltsıx və Axalkələkin Türkiyəyə keçdiyi təsdiq edilirdi. Lakin Türkiyə may ayının 11-də elan etdiyi tələbləri yumşaldaraq Abastuman və Askurun Gürcüstanda qalmasına razılıq verdi.[282] 4 iyun müqaviləsi ilə Ermənistan Brest-Litovsk müqaviləsinin şərtlərini qəbul edir, Eçmiədzin və Aleksandropol Türkiyəyə keçirdi, habelə Türkiyə Aleksandropol-Culfa yolundan istifadə etmək hüququ əldə edirdi. Ermənistanın sərhədi İrəvanın yaxınlığından keçirdi. Onun ixtiyarında cəmisi altı kilometrlik dəmir yolu qalmışdı. Batum müqaviləsinin şərtlərinə görə Ermənistan Respublikası Cənubi Qafqazda 10 min $km^2$ ərazisi olan dövlət idi.[283] Ermənistan tərəfindən müqaviləni R.Kaçaznuni, A.Xatisyan və M.Papacanov imzalamışdılar. Batum müqaviləsinə, əsasən, Gürcüstan və Ermənistan respublikaları öz ərazisində yaşayan müsəlman əhalisinin təhlükəsizliyini və azad

---

[281] Bax: Р.Мустафазаде. Две республики. Азербайджано-российские отношения в 1918-1922 гг. Москва, 2006, с. 113; М.Волхонский, В.Муханов. По следам Азербайджанской Демократической республики. Москва, 2007, с. 127

[282] Документы и материалы по внешней политике Закавказье и Грузии, с.343-349.

[283] R.Hovanuisian. Armenia on the Road to Independence, 1918. Berkeley, University of California Press, 1967, p.190-194; İ.Parmaksızoğlu. Ermeni Komitelerinin İhtilal hareketleri ve Besledikleri emeller. Ankara, 1981, s.133.



downloaded from KitabYurdu.az

inkişafını təmin etmək, ana dilində təhsil almaq, dini ayinləri azad şəkildə icra etməyə şərait yaratmaq barədə öz üzərlərinə öhdəliklər götürürdülər. 4 iyun müqavilələri əsasında Türkiyənin Azərbaycanı və digər Qafqaz respublikalarını tanıması barədə Ə.M.Topçubaşov "Azərbaycanın təşəkkülü" əsərində yazır: "Bu gün Azərbaycan hökuməti cümhuriyyəsini işğal edən yeganə məsələ cümhuriyyət istiqlalının dövlətlər və bilxassə etilaf dövlətləri tərəfindən təsdiqi məsələsidir. Burada Dövləti-Aliyi-Osmaniyənin Azərbaycanla və sair Cənubi Qafqaziyə hökumətlərinə qarşı nə böyük alicənablıq göstərmiş olduğu zikr edilmədən keçilməz. Üç cümhuriyyətin üçü də, yəni Azərbaycan, erməni və gürcü cümhuriyyətləri ilk əvvəl Osmanlı hökuməti tərəfindən təsdiq edildi".[284]

İyun ayının 4-də Batumda Azərbaycanla Türkiyə arasında "Sülh və Dostluq" müqaviləsinə əlavə olaraq, daha iki müqavilə imzalandı. Birinci müqavilə əsasında sərhədyanı zonada ticarət, gediş-gəliş və gömrük məsələləri əhatə edilirdi.[285] İkinci müvəqqəti əlavə müqavilə, 4 iyun müqaviləsində ümumi şəkildə təsbit edilmiş bəzi maddələri dəqiqləşdirirdi. Altı maddədən ibarət olan müqavilənin birinci maddəsinə əsasən, Azərbaycan hökuməti Osmanlı imperiyası və onun müttəfiqləri ilə müharibə edən ölkələrin zabit və mülki çinovniklərini təcili şəkildə respublikanın hüdudlarından çıxardacağını öz üzərinə götürürdü. Bundan əlavə, müharibənin davam etdiyi dövrdə Azərbaycan hökuməti Dördlər İttifaqına qarşı vuruşan ölkələrin zabitlərini hərbi xidmətə qəbul etməməli idi. Müqavilənin ikinci maddəsi Azərbaycan dəmir yolundan istifadə qaydasını müəyyənləşdirirdi. Bu maddəyə əsasən, Osmanlı hərbi komendantlığı hərbi məqsədlərlə Azərbaycan dəmir yolundan istifadə etmək hüququ alırdı. Osmanlı və Azərbaycan birgə komissiyası dəmir yoluna aid meydana çıxan problemləri birgə həll etməli idilər. Azərbaycan Respublikası dəmir yolunu öz qüvvələri ilə mühafizə etməli idi. Əgər müxtəlif səbəblərlə bağlı Azərbaycan hökuməti bunu edə bilmədikdə, türk ordusu bu vəzifəni öz üzərinə götürməli idi və nəhayət, ordunun daşınmasına zərurət olmadığı halda, Türkiyə hərbi komandanlığı Azərbaycan hökumətinin dəmir yollarının istismarını çətinləşdirməməli idi.[286]

4 iyunda imzalanmış "Sülh və Dostluq" müqavilələrinə əlavə olaraq daha iki saziş də bağlandı. Birinci saziş Bakı-Batum neft kəmərinə aid olub Azərbaycan, Gürcüstan və Türkiyə arasında imzalandı. Tərəflər razılığa gəldilər ki, öz ərazilərində neft kəmərinin fəaliyyətini təmin etsinlər. Bu sazişin imzalanması Azərbaycan neft sənayesinin işinə müsbət təsir göstərib, onun xarici bazara çıxışını təmin edirdi.[287] Eyni zamanda bununla Türkiyə tərəfində Trabzon və Batum

---

[284] Ə.M. Topçubaşov. Azərbaycanın təşəkkülü. //Azərbaycan EA-nın Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası. 1990, №3. c.133.

[285] Sərhədyam yerlərdə ticarətə tətbiq edilən xüsusi güzəştlər barədə. 04.06.1918 //AR Pİİ SPİHDA, f.277, s.2, i.17, v.8.

[286] Türkiyə ilə Azərbaycan Respublikası arasında dostluq haqqında müqaviləyə əlavə olaraq imzalanmış müqavilə. 04.06.1918. //ARDA, f.894, s.10, i. 47, v.5-6

[287] Документы и материалы по внешней политике Закавказья и Грузии, с.364



downloaded from KitabYurdu.az

konfranslarında qarşıya qoyduqları əsas strateji məqsədə - Bakı neftinin Batum limanına daşınmasına nail olurdular. İkinci saziş dəmir yollarına aid idi və dörd dövlət - Osmanlı imperiyası, Ermənistan, Azərbaycan və Gürcüstan respublikaları arasında imzalanmışdı. Sazişdə qeyd edilirdi ki, keçmiş Rusiya dövlətinin mülkiyyəti olan dəmir yol nəqliyyat vasitələri müqavilə imzalayan tərəflərinin ərazi hüdudlarına uyğun olaraq onlar arasında bölüşdürüləcək.[288] Cənubi Qafqaz respublikalarından Gürcüstana məxsus dəmir yolları Türkiyə ilə bərabər 28 may müqaviləsinə görə almanların da istifadəsinə verilirdi. Almaniya Gürcüstan qəyyumluğunu qəbul etdikdən və onun dəmir yollarından azad şəkildə istifadə etmək imtiyazı aldıqdan sonra Bakı neftinə doğru əhəmiyyətli addım atmış oldu. Almaniya Gürcüstana daxil olduqdan sonra müxtəlif yollarla türklərin Bakıya nəzərdə tutulan hücumunu pozmağa çalışırdı. Amerika alimi C.Lençkovski yazır: "İstənilən vəziyyətdə almanlar neftlə zəngin olan bu vilayəti türklərə güzəştə getmək istəmirdilər, ona görə gizli alman casusları bu zaman Tiflisə uzağa gedəcək vədlər verirdilər".[289]

Azərbaycan Respublikasının müstəqilliyinin elan edilməsi xarici dövlətlər içərisində birinci olaraq Sovet Rusiyasını və İranı narahat edirdi. Dəqiq müəyyən edilməmiş sərhədlər daxilində yeni yaradılmış dövlətin Azərbaycan Xalq Cümhuriyyəti adlandırılmasından İranın rəsmi dairələri şübhələnirdi ki, Azərbaycan Respublikası Türkiyənin köməkliyi ilə Cənubi Azərbaycanı onlardan alsınlar, iyun ayının 4-də Osmanlı imperiyası ilə Azərbaycan arasında dostluq müqaviləsinin imzalanması bu şübhələri daha da artırdı. İran tərəfinin narahatçılığı özünü onda ifadə edirdi ki, müxtəlif xarici yazışmalarda Tehran Azərbaycan hökumətini Qafqaz Azərbaycanı kimi təqdim etməyə başlamışdı. Osmanlılara gəldikdə isə onlar hər iki Azərbaycanla Türkiyə arasında, hələlik qeyri-müəyyən şəkildə də olsa, əlaqələrin güclənəcəyini ehtimal edirdilər.[290]

Batumda olan Azərbaycan nümayəndələri respublikadakı vəziyyət haqqında Milli Şuranın nümayəndəsi N.Usubbəyovdan və ayrı-ayrı yerlərdən gəlmiş nümayəndələrdən ətraflı məlumat aldıqdan sonra 4 iyun müqaviləsinin dördüncü bəndinə istinad edərək Osmanlı hökumətindən yardım istəməyi qərara aldılar. Bu məqsədlə Milli Şuranın sədri M.Ə.Rəsulzadə və xarici işlər naziri M.H.Hacınski Azərbaycana hərbi yardım göstərilməsi barədə Türkiyə nümayəndələri ilə danışıqlar apardılar. Müqavilə öhdəliklərinə görə onlar Osmanlı hökumətindən Azərbaycana ordu göndərilməsini rica etdilər.[291]

İyun ayının 13-də Milli Şuranın Tiflisdə keçirilən iclasında Batumdan yeni qayıtmış Xarici İşlər naziri M.H.Hacınski sülh danışıqları, yardım istənilməsi və

---

[288] Yenə orada, s.365; ARPİİ SPİHDA, f.277, s.2, i.9, v.24

[289] G.Lençzowski. Russia and the west in Iran. A study in Creat Powers Rivalry: 1918-1948. Ithara, N.Y.: Cornell University press. 1968, p. 17

[290] T.Swietochovski. Russia and Azerbaijan, p.71

[291] N.Kurat. Türkiye ve Rusiya. s.530



downloaded from KitabYurdu.az

imzalanmış diplomatik sənədlər barəsində geniş məlumat verdi. Onun sözlərindən aydın oldu ki, Batumda imzalanmış sülh müqaviləsi İstanbulda Almaniya, Avstriya və Bolqarıstan nümayəndələri ilə birlikdə müzakirə ediləcəkdir. M.H.Hacınski İstanbula Azərbaycan nümayəndələrinin göndəriləcəyini bildirdi.[292] Bu barədə M.Ə.Rəsulzadə yazır: "Azərbaycanın nə kimi müşkilatə məruz qaldığı və bu təhlükəli müşkilatdan çıxa bilmək üçün Türkiyənin müavinətinə möhtac olduğunu Azərbaycan mümə ssilləri Trabzon və Batumda türklərlə vaqe olan təmasları əsnasında gərək şifahən və gərək təhrirən anlatmışlardı. Bu kərə Azərbaycan Şurayi - Millisi naminə biz və Xariciyyə Nəzarəti naminə də Məhəmməd Həsən bəy salifüzzikr müahidənin dördüncü maddəsinə istinadən Türkiyə hökumətinə müraciətlə qəvayi-imdadiyyə istədik. Bütün Azərbaycan xəlqinin çarçeşmlə bəklədiyi ümidə tərcüman olan bu müraciətimizə Türkiyə heyəti-mürəxxəsi həman müvafiqət cavabını verdi". Bununla əlaqədar qeyd edilməlidir ki, xüsusi dəvət və dövlətlərarası müqavilə zəminində Azərbaycana hərbi yardım göstərilməsinin xarici hərbi müdaxilə ilə heç bir əlaqəsi yox idi. Bu məsələ ilə bağlı Azərbaycan Nazirlər Şurasının sədri F.X.Xoyskinin də fikri belə idi. O deyirdi: "Türkiyə-Azərbaycan sülhnaməsinin bir maddəsinə görə, məmləkətimizə nə vaxt lazım olsa hüququmuzun müdafiəsi üçün türklər bizə bir qədər əsgər verməli idilər. Ona görədir ki, darda qaldıqda bu çarəyə təvəssül edildi. Türklər imzalarına əməl və vəzifələrini hüsni-ifa etdilər. Əlbəttə, qoşunsuz, gücsüz görülməsi pək müşkül olan işlər çox çətinliklə yavaş-yavaş işlənirdi. Bizə xaricdən qüvvə almaq üçün başqa millət və dövlətə müraciət etmək bəzi şəraitdən dolayı mümkün deyildi, müraciət etdikdə də bir nəticə hasil olmazdı, ona görədir ki, dindaş və millətdaşımız olan Türkiyəyə müraciət edildi".[293]

Azərbaycan nümayəndələrinin müraciətini qəbul edən Osmanlı dövləti elə etmək istəyirdi ki, Azərbaycana ordu göndərilməsi Almaniyanın etirazına səbəb olmasın. Ona görə Türkiyə hökuməti qərara aldı ki, Osmanlı ordusu və Azərbaycan könüllülərindən ibarət "İslam Ordusu" yaradılsın. Ənvər Paşanın fikrincə, belə olduqda Almaniyanın müqavimətini aradan götürmək olardı.[294] Əslində, "Qafqaz İslam Ordusu"nun yaradılmasına Ənvər paşa hələ 1918-ci ilin mart ayından başlamışdı.

İstanbula gəlib çatan Azərbaycan nümayəndələrindən vəziyyət haqqında məlumat alan baş nazir Tələt paşa Azərbaycana yardım məsələsini hökumət kabinetinin müzakirəsinə çıxarmış və müvafiq qərar qəbul etmişdi. Qərara uyğun olaraq Azərbaycana gedəcək zabitləri seçmək üçün komissiya yaradılmışdı.[295] İlkin olaraq komissiya tərəfindən 20 nəfərədək zabit seçilmişdi. Komanda heyətini

---

[292] Azərbaycan Milli Şurasının 6 saylı iclasının protokolu. 13.06.1918. //ARDA, f.970, s.1, i. 6, v.l

[293] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) Parlament (stenoqrafik hesabatlar). I cild. Bakı, 1998, s.39

[294] Öke Kemal. Ermeni meselesi. s.164

[295] N.Şeyxzamanlı. Azərbaycan istiqlal mücadiləsi xatirələri. Bakı, 1997, s.68-71



downloaded from KitabYurdu.az

formalaşdırmaq üçün Nuru paşa təcili olaraq Mosula yollanmışdı. Burada o, VI Ordunun içərisindən Azərbaycana göndərilmək üçün 149 zabit, 488 gizir və əsgər seçmişdi. Bu kiçik dəstə 1918-ci ilin aprel ayının əvvəlində Azərbaycana yola düşmüşdü. Seçiləcək digər zabitlər və hərbçilər az sonra Azərbaycana yola salınmalı idi.[296]

Aprel ayının 5-də Ənvər paşa Qafqaz İslam ordusunun təşkili haqqında əmri imzaladı. Aprel ayının 8-də Mosuldan hərəkətə başlayan Nuru paşa mayın 9-da Təbrizə çatdı və mayın 20-də Araz çayını keçib Gəncəyə doğru hərəkətə başladı.[297] Mayın 24-də Nuru paşa artıq Yevlaxda idi. İyunun əvvəllərində Türk hərbi dəstələri artıq Gəncəyə yetişməkdə idilər. Türkiyə qoşunlarının bir qismi Qars və Gümrüdən keçib Qarakilsə-Dilican-Qazax və Ağstafa yolu ilə, digər hissəsi isə Cənubi Azərbaycan-Qarabağ istiqamətindən hərəkət edirdi.[298] Mürsəl paşanın başçılıq etdiyi Türkiyə ordusunun ən yaxşı diviziyalarından olan 5-ci diviziya iyun ayının əvvəllərində Gəncəyə daxil oldu. 257 zabitdən və 5575 əsgərdən ibarət olan bu diviziyanı Azərbaycan əhalisi böyük sevinclə qarşıladı.[299] Türkiyənin Qafqazda olan hərbi hissələrinin yeni baş komandanı Ənvər paşanın ögey qardaşı Nuru paşa da öz qərargahı ilə birlikdə Gəncəyə gəldi. Amerika tarixçisi T.Svyatoçovskinin yazdığı kimi "əhali Osmanlı əsgərlərini hərarətlə qarşıladı".[300]

Türk qoşunlarının Gəncə istiqamətində hərəkəti Sovet Rusiyasını və öz hakimiyyətini bütün Azərbaycana yaymaq arzusunda olan Bakı Xalq Komissarları Sovetində ciddi narahatçılığa səbəb oldu. V.İ.Lenin hələ may ayının axırlarında S.G.Şaumyana göndərdiyi teleqramda yazırdı: "Bakının beynəlxalq vəziyyəti çətindir. Buna görə də məsləhət görərdim ki, Jordaniya ilə ittifaqa girməyə cəhd edin".[301] Bu direktivə uyğun olaraq Bakı XKS-i adından S.G.Şaumyan iyun ayının 6-da Gürcüstana, N.Jordaniyaya müraciət edərək guya Cənubi Qafqazın istiqlaliyyətini Türkiyə hücumlarından müdafiə etməkdə Sovet hakimiyyətinə yardım göstərməyi təklif etmişdi. Məktubda göstərilirdi ki, əgər Gürcüstan hökuməti Türkiyə qoşunlarını öz ərazisindən Azərbaycana buraxmasa, RSFSR XKS-nin hakimiyyəti Cənubi Qafqazda bərqərar edildikdən sonra Gürcüstana muxtariyyət verilə bilər.[302] Bu məsələ ilə bağlı öz növbəsində Almaniya da Gürcüstana təzyiq göstərirdi və bütün bu amillərlə bağlı Gürcüstan hökuməti Türkiyə qoşunlarını öz ərazisindən Azərbaycana buraxmamaqda hər iki baxımdan maraqlı idi. Ona görə iyun ayının 10-da Borçalı istiqamətindən Azərbaycana doğru hərəkət edən türk qoşunları alman-gürcü qoşunları ilə üz-üzə dayandı. Böyük

296 M.Süleymanov. Qafqaz İslam Ordusu və Azərbaycan. Bakı, 1999, s.104
297 Yenə orada, s.106.
298 E.K.Rüştü. Böyük Harpte Bakü yollarında. s.24
299 Yenə orada, s.24; N.Nəsibzadə. Azərbaycanın xarici siyasəti (1918-1920). Bakı, 1996, s.63
300 T.Swietochowski. Russian and Azerbaijan, p. 131
301 V.İ.Lenin. Azərbaycan haqqında. Bakı, 1970, s.126
302 Возрождение. 1918, 29 июня.



downloaded from KitabYurdu.az

müharibənin bütün çətinliklərində müttəfiq olan Almaniya və Türkiyə Qafqaz siyasətində bir-birinə qarşı durmalı olmuşdu. Çox da böyük olmayan hərbi əməliyyat nəticəsində Türkiyə ordusu general Kressin başçılıq etdiyi alman-gürcü dəstələrini geri oturtdu və xeyli sayda əsir aldı. Bu hadisə ilə bağlı iyun ayının 11-də Almaniya Baş qərargahı öz teleqramında Türkiyədə və Yaxın Şərqdə olan hərbi hissələrini çıxaracağı ilə Osmanlı hökumətini hədələyirdi və hərbi əsirləri buraxmağı tələb edirdi.[303] Hərbi əsirlər azad edildisə də, alman-gürcü qoşunları Türk ordusunun Gəncəyə, son nəticədə isə Bakıya hərəkətinin qarşısını ala bilmədi. Lakin bu hadisə hələ Tiflisdə olan Azərbaycan hökumətinə münasibəti dəyişdirdi və bundan sonra Gürcüstanda qalmağın mümkünsüzlüyünü başa düşən Azərbaycan hökuməti və Milli Şura iyun ayının 16-da Gəncəyə köçməli oldu.

Eyni zamanda Bakı bolşevikləri və şəhəri ələ keçirmiş ermənilər Gümrü-Qarakilsə erməniləri ilə əlaqə yaradıb onlara bildirmişdilər ki, Türkiyə ordusunun Azərbaycana doğru irəliləməsinin qarşısını almaq üçün onlara hər cür yardım göstərəcəklər.[304] Bu məqsədlə Bakıda bolşeviklər ermənilərlə birlikdə hərbi hazırlıq işlərini xeyli sürətləndirdilər. İyun ayının əvvəllərində Bakı sovetinin hərbi hazırlıq tədbirləri və Gəncə istiqamətində hərəkətə başlaması Osmanlı qoşunlarının Gəncədə toplanmasının sürətləndirilməsini zəruri edirdi. Bu zaman Osmanlı dövlətinin Bakını azad etmək üçün gördüyü hazırlıq tədbirlərinə toxunan Ənvər paşa Qafqaz cəbhəsi komandanı Vehib paşaya yazırdı ki, Bakı və ətrafının bolşeviklərdən təmizlənməsi üçün lazımi hərbi qüvvələri bölgəyə göndərdim və ehtiyac olarsa, bu qüvvələri daha da gücləndirəcəyəm.[305]

Tiflisdəki 18 günlük fəaliyyətdən sonra Milli Şura və hökumət Gəncəyə gəldi. Bu zaman Azərbaycanın hər yerindən müxtəlif dairələrin nümayəndələri Gəncəyə axışmağa başladı. Onların məhdud dünyagörüşlü mürtəce hissəsi Milli Şuranın və hökumətin demokratik, inqilabi əhvali ruhiyyəli şəxslərdən təşkil olunmasından narazı idilər. Azərbaycanın Türkiyəyə ilhaq edilməsi tərəfdarı olan bəzi islamçı dairələr Milli Şuraya qarşı fəal kampaniyaya başlayaraq Nuru paşanı öz tərəflərinə çəkə bildilər. Azərbaycana gəldiyi günlərdə Nuru paşa Azərbaycan hökumətinə hörmət və etimadla yanaşacağını, onun daxili siyasi həyatına müdaxilə etməyəcəyini bildirib, türklərin Azərbaycanı idarə etmək üçün deyil, müdafiə etmək üçün gəldiklərini qeyd etmişdisə, iyun böhranı zamanı onun klerikal islamçı dairələrin təsiri altına düşdüyü açıq-aydın hiss edilirdi. Mürtəce və ilhaqçı dairələr tərəfindən birtərəfli və qərəzli şəkildə məlumatlandırılmış Nuru paşa hiss etdirdi ki, solçulardan və müsavatçılardan daha çox mühafizəkar islam ittihadçılarına rəğbət bəsləyir. O, hökumətin və Milli Şuranın tamamilə buraxılmasına və onun

[303] W.E.D.Allen and Paul Muratof. Caucasian Battlefields, p.479
[304] T.Sünbül. Azerbaycan Dosyesi, s.84
[305] Türkiye Cümhuriyyeti Genelkurmay Başkanlığı Askeri Tarih ve Stratejik Etüd Arşivi. A. 4/3671, k.2922, D.512, F.27 (Bu iqtibas V.Qafarovun "Şimali Azərbaycan məsələsi Rusiya-Türkiyə münasibətlərində (1917-1922-ci illər)" adlı əlyazmasından götürülmüşdür)



downloaded from KitabYurdu.az

hüquqlarının paşanın öz arzusu ilə təşkil edəcəyi hökumətə verilməsini istəyirdi. "Təşkil olunacaq bu "hökumət" isə rus çarlığının köhnə qapı qulları və şeyxülislamdan ibarət olacaqdı". Nuru paşanın Milli Şuraya belə münasibəti onu rus inqilabının nəticəsi kimi qəbul etməsi ilə bağlı idi. İyunun ortalarında türk hərbi nümayəndəliyinin Xan Xoyski hökumətinə etimadsızlığını bildirməklə kabinetin böhranı yarandı. Yaranmış böhranı aradan qaldırmaq üçün Milli Şuranın sədri M.Ə.Rəsulzadə, baş nazir Xan Xoyski və xarici işlər naziri M.H.Hacınskidən ibarət nümayəndə heyəti Nuru paşa ilə görüşüb danışmaq istədilər. Onlar Milli Şuranın və hökumətin adından İslam Ordusunun komandanı kimi Nuru paşanı təbrik etdilər. Lakin Nuru paşa "özünün əsgər olduğunu, siyasətdən başı çıxmadığını, ordunun siyasi müşaviri Əhməd bəy Ağaoğlu ilə görüşüb danışıq aparmağın lazım olduğunu" bildirdi.[306] Görüş zamanı Milli Şuraya qarşı göstərilən soyuq münasibət böhranı daha da ciddiləşdirdi. Əslində, Azərbaycan istiqlaliyyətinin taleyi məsələsi qarşıya çıxmışdı. Nuru paşanın tövsiyəsi ilə Əhməd bəy Ağaoğlu ilə görüşdə Azərbaycanın siyasi həyatının mühüm məsələləri müzakirə edildi. Müzakirələr zamanı Əhməd bəy bildirdi ki, Milli Şura buraxılsın və Nuru paşanın təqdimatı üzrə yeni hökumət yaradılsın. Lakin Azərbaycan nümayəndələri buna qəti şəkildə etiraz etdilər və belə bir addımın Azərbaycanı beynəlxalq münasibətlər baxımından işğal faktı qarşısında qoyacağını bildirdilər. Yalnız güclü müqavimətdən sonra türk komandanlığı yeni hökumət kabinəsinin Milli Şura tərəfindən təşkil olunmasına, Milli Şuranın isə bütün səlahiyyətini yeni təşkil olunmuş hökumətə verib özünü buraxmasına razılıq verdi.[307] Belə bir gərgin vəziyyətlə yalnız M.Ə.Rəsulzadənin başçılıq etdiyi Milli Şuranın tutduğu prinsipial mövqe Azərbaycan istiqlaliyyətinin başı üzərini almış ölüm təhlükəsini sovuşdurmağa imkan verdi. M.Ə.Rəsulzadə haqlı olaraq deyirdi ki, "qanun çərçivəsində bir çıxış yolu tapmayınca, başımızın üstünü alan qara irtica təhlükəsi həmişə qalacaqdır".[308] Bir il sonra M.Ə.Rəsulzadə bu hadisəni xatırlayaraq yazırdı: "Bizə deyirlər ki, türkləri tənqid etmək olmaz, çünki onlar bura bizi idarə etməyə yox, bir əsgər kimi xalqı müdafiə etməyə gəlmişdilər. Bu, doğrudur. Lakin o da doğrudur ki, bizim öz içərimizdə elə bəylər və ağalar var idi ki, onlar burada İstanbulun ağalıq etməsini tələb edirdilər".[309]

İyun ayının 17-də Milli Şuranın say etibarı ilə yeddinci iclası gərgin bir vəziyyətdə işə başladı. Sosialist bloku ilə hümmətçilər Milli Şuranın tərkibindən çıxmaq barədə bəyanat verdilər. İclasa M.Ə.Rəsulzadə sədrlik edirdi və o, Əhməd Ağaoğlu ilə danışıqların yekunları barədə məlumat verib vəziyyətdən çıxış yolu araşdırılmasını zəruri hesab etdi. Onun çıxışında iyun ayının ortalarında

[306] Gəncə şəhər idarəsinin binasında Azərbaycan Milli Şurasının qapalı iclasının protokolu. 17.06.1918. //ARDA, f.970, s.1, i. 1, v.48
[307] H.Baykara. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, 1992, s.240
[308] T.Swietochowski. Russian and Azerbaijan, p.71
[309] Azərbaycan, 1919, 29 may



downloaded from KitabYurdu.az

Azərbaycandakı böhranlı vəziyyət, onu doğuran səbəblər, Azərbaycan demokratlarının rus inqilabına (fevral inqilabına) müsbət münasibəti ətraflı şəkildə şərh edildi. M.Ə.Rəsulzadə öz çıxışında Milli Şuranın buraxılmasını təklif edib göstərdi: ola bilsin ki, bu qərar sevindirici deyildir, lakin yaranmış vəziyyətlə əlaqədar biz onu qəbul etməliyik. Əgər biz yaranmış vəziyyətdən çıxış yolu tapmasaq hakimiyyətə qaragüruhçuların keçmək təhlükəsi vardır. O deyirdi: "Azərbaycanın müvəqqəti paytaxtı olan Gəncədə Xalq Nümayəndəliyinin heç olmasa bir hissəsini təmsil edən bir müəssisənin bu şəkildə səhnəni tərk etməsi məcburiyyəti qarşısında qalması heç şübhəsiz ki, demokratiyanın bir geriləməsi və mürtəce qüvvələrin müvəffəqiyyətidir. Bu geriləmə işıqlı və pak qüvvələrin məğlubiyyəti, qara və müdhiş qüvvələrin güclənməsidir. Bu vəziyyət bizdə Rusiya inqilabının prinsiplərinin iflasa uğramasına dair bir təsəvvür yaratmaqdadır. Fəqət, əfəndilər, yalnız zahiri cəhətlərə aldanmayaq, çox da məyus olmayaq. Kim nə deyir desin Rusiyanın böyük inqilabı məğlub olmadı... Azərbaycan Rusiya inqilabının irəli sürdüyü müsbət ideyaların təsiri altında formalaşan ümumi hürriyyətdən son dərəcə faydalanacaqdır. Müstəqil Azərbaycanda ictimai və şəxsi azadlıqların hər halda müstəbid Rusiyada olduğundan daha geniş, daha sərfəli olacağına dair heç bir şübhəm yoxdur. Hətta əfəndilər, söyləmək istəyirəm ki, Azərbaycan Qafqazda ən hürriyyətpərvər və inqilabçı təsəvvür olunan Gürcüstandan da daha məsuddur. Çünki burada bizim daxili işlərimizə müdaxilə edəcəyi gözlənilən qüvvə yabançı qüvvə deyil, öz qüvvəmizdir".[310]

Milli Şuranın iclasında Türkiyə hərbi nümayəndəliyinin hərəkətlərindən bədgüman olanlar, Türkiyə hərbi yardımına olan ümidlərinin puça çıxdığını söyləyənlər də var idi. Osmanlı rəhbərliyində Nuru paşanın mövqeyi ilə razı olmayanlar Azərbaycanın daxili işlərinə qarışmağın əleyhinə idilər. Vehib paşa Azərbaycan hökumətinə məktubunda yazırdı ki, Osmanlı ordusu müəyyən müqaviləyə əsasən, müstəqil Azərbaycan hökumətinin müraciəti əsasında gəlmişdir və bu ordu Azərbaycan hökumətinin əmrlərini yerinə yetirməlidir.

Milli Şuranın 17 iyun tarixli iclasında M.Ə.Rəsulzadəni müdafiə edən N.Usubbəyov yaranmış böhranla bağlı deyirdi: "Aşkardır ki, paşa həzrətləri və Dövləti-Aliyyeyi-Osmaniyyə Azərbaycanın müstəqilliyini qoruyaraq özünə hökumət təşkil etməsinə tərəfdardır. Məlum məsələdir ki, onlar bizim işlərimizə qarışmaq istəməzlər. Lakin paşanın ətrafını məxsusi adamlar, şübhəli şəxslər tutmuşlar. Bu adamlara qarşı əlimizdə olan hüquqlarımızdan istifadə etmək lazımdır. Əgər biz bu hüquqdan bərk yapışsaq və güzəşt etmək istəməsək ölkənin beynəlxalq vəziyyətinə ziyan vurmuş olarıq. Bu isə belə bir müşkül vəziyyətə düşdüyümüz üçün vətənpərvəranə hərəkət ola bilməz. Buna görə təklif edirəm ki, kabinənin istefasını qəbul edək, sonra rəisimizə tapşırılsın ki, özü inandığı bir adama yeni hökumət təşkilini tapşırsın. Yeni təşkil olunacaq hökumətə əldə edilən

---

310 Milli Şuranın iclasının protokolu. 17.06.1918, //ARDA, f.970, s.1, i.3, v.12-15



downloaded from KitabYurdu.az

bütün azadlıqları mühafizə etməsi və onlara sadiq qalması şərti ilə tam səlahiyyət verək ki, məmləkəti idarə edib yaxın zamanlarda Müəssisələr Məclisi çağırsın və bu ixtiyarını heç kəsə könüllü surətdə təslim etməyərək ən qiymətli bir əmanət kimi saxlasın və yalnız qüvvəyə, süngüyə təslim olsun. Bunu da ərz etməliyəm ki, istiqlalımıza qarışa biləcək təcavüzə qarşı ilk əvvəl üsyana qalxan mən özüm olacağam".[311] Nəhayət, iclasda Baş nazir F.X.Xoyski Milli Şura və rəhbərlik etdiyi hökumət kabinəsi adından göstərdi ki, "Gürcüstan Cənubi Qafqazdan ayrıldıqdan sonra bizim ölkəmiz hökumətsiz və hakimiyyətsiz qalmışdı. Buna görə də biz Müvəqqəti hökumət təşkil etməyə məcbur olduq. İndi biz öz ərazimizdəyik. Mən və mənim yoldaşlarım bizim istefaya çıxmağımızı xahiş edirik. Ümid edirik ki, bizim xahişimizi qəbul edəcək və bizim çatışmamazlıqlarımızı bağışlayacaqsınız".[312] Bundan sonra davam etdirilən müzakirələr nəticəsində iki qətnamə qəbul edildi. Birinci qətnamə Müvəqqəti hökumətin hüquq və vəzifələrinə aid idi. Orada deyilirdi, Müvəqqəti hökumət dövlət müstəqilliyini və mövcud siyasi azadlıqları ləğv etmək, aqrar və buna bənzər inqilabi qanunları dəyişdirmək hüququna malik deyildir, o altı ay müddətindən gec olmayaraq Məclisi Müəssisanı çağırmağa borcludur, qalan məsələlərin idarəsində tam hüquqa malikdir. İkinci qətnamə isə Azərbaycan Milli Şurasının buraxılmasına aid idi. Milli Şura Azərbaycanın daxili və xarici vəziyyətindəki gərginliyi nəzərə alaraq bütün hakimiyyəti Fətəli Xan Xoyskinin rəhbərliyi ilə təşkil edilən hökumətə verir və ona tapşırır ki, yaxın vaxtlarda çağırılacaq Məclisi Müəssisandan başqa öz hakimiyyətini heç kimə güzəştə getməsin.[313] Beləliklə, "iyun böhranı" Milli Şuranın fəaliyyətinin müvəqqəti olaraq dayandırılması ilə nəticələnsə də, hər halda, Milli Şura öz əsas vəzifəsini yerinə yetirmiş oldu. Azərbaycanın dövlət müstəqilliyini siyasi və diplomatik baxımdan qoruyub saxlamaq mümkün oldu.

İyunun 17-də axşam F.X.Xoyskinin rəhbərlik etdiyi ikinci hökumət kabinəsi yaradıldı. On iki nəfərdən ibarət olan hökumət kabinəsinə köhnə hökumətin altı üzvü və altı yeni nazir daxil oldu. Yeni təşkil olunan hökumətdə nazir portfelləri aşağıdakı qaydada bölüşdürüldü. F.X.Xoyski - Nazirlər Şurasına və ədliyyə nazirliyinə, M.H.Hacınski - xarici işlər nazirliyinə, B.Cavanşir - daxili işlər nazirliyinə, X.Məlik-Aslanov - yollar nazirliyinə, Ə.Əmircanov - maliyyə nazirliyinə, X.Sultanov - əkinçilik nazirliyinə, N.Usubbəyov - xalq maarifi nazirliyinə, A.Aşurov - ticarət və sənaye nazirliyinə, X.Rəfibəyli - xalq səhiyyə və himayəçilik nazirliyinə rəhbərlik etməyə başladı. Hökumət kabinəsinə daxil edilmiş Ə.M.Topçubaşov, X.Xasməmmədov, M.Rəfiyev portfelsiz nazir oldular. Müvəqqəti olaraq poçt və teleqraf nazirliyinə rəhbərlik etmək X.Məlik-Aslanova, ərzaq nazirliyinə rəhbərlik etmək A.Aşurova, Nəzarət nazirliyinə rəhbərlik etmək

[311] Azərbaycan Milli Şurasının 7 saylı iclasının prolokolu. 17.06.1918 //ARDA, f 970 s.1, i.l, v.58.
[312] Yenə orada, v.57.
[313] Zaqafqaziya Seyminin müsəlman fraksiyası və Azərbaycan Milli Şurasının iclaslarının protokolu. Bakı, 2006, s.151-152.



downloaded from KitabYurdu.az

xarici işlər naziri M.H.Hacınskiyə tapşırıldı. Hökumət böhranı başa çatan kimi, iyun ayının 19-da Nuru paşa xüsusi qatarla cəbhəyə yola düşdü. Elə həmin gün 600 nəfərdən ibarət Azərbaycan könüllüləri də ön xəttə göndərildi.[314] İyun ayının 23-də Azərbaycanda yaranmış gərgin vəziyyəti nəzərə alaraq, hökumət bütün Azərbaycan ərazisində hərbi vəziyyət elan etdi.[315] İslam Ordusunun Bakıya doğru hərəkətinə Titlisdə olan Almaniya nümayəndələrinin neftə görə maneçilik cəhdlərini nəzərdə tutaraq iyun ayının 24-də Şərq Orduları Qrupunun komandanı Vehib paşa Nuru paşaya teleqramında yazırdı ki, Azərbaycan ərazisində Osmanlı ordusundan başqa digər bir ordu ola bilməz.[316] Yenicə yaradılmış İslam Ordusuna tapşırıldı ki, hərbi vəziyyətə uyğun olaraq daxili işlər nazirliyinin rəhbərliyi altında fəaliyyət proqramı hazırlasınlar. İslam Ordusu osmanlıların Beşinci piyada diviziyası və general Ə.Şıxlinskinin başçılıq etdiyi müsəlman milli korpusu əsasında təşkil edilmişdi. Ümumilikdə Nuru paşanın komandanlıq etdiyi İslam Ordusuna on səkkiz minə qədər adam daxil idi. Bunun altı min nəfəri türk nizami ordusundan, on iki min nəfərə qədəri isə hərbi təlim görməmiş, əslində xalq qoşunu təsiri bağışlayan Azərbaycan hərbi hissələrindən ibarət idi.[317] Türkiyə tərəfi Osmanlı imperatorluğunun üzləşdiyi maliyyə çətinliklərini əsas tutaraq Azərbaycanın öz ordusunun yaradılmasına üstünlük verirdi. Ənvər paşa bildirirdi ki, Azərbaycanda ordu saxlamaq Türkiyəyə hər ay 50 min lirəyə, yəni bir milyon manata başa gəlir.[318] Azərbaycanın müstəqilliyinə qarşı olan solçuların, xüsusilə bolşeviklərin "iyun irticası" kimi təqdim etdikləri ikinci hökumət kabinəsi iyunun sonuncu ongünlüyündən etibarən fəal siyasət dövrünə qədəm qoydu. Beynəlxalq siyasət baxımından Milli Şura özünü buraxmazdan əvvəl çox əhəmiyyətli bir addım atdı. 4 iyunda Osmanlı dövləti ilə imzalanmış müqavilə və sazişlər Milli Şuranın iclasında "böyük razılıq hissi və alqışlarla" təsdiq edildi və ratifikasiya edilmiş sənədlər iyulun 2-də Azərbaycan hökuməti tərəfindən Türkiyə Xarici İşlər Nazirliyinə təqdim edildi.[319]

Azərbaycan Xalq Cümhuriyyətinin ikinci hökumət kabineti yarandıqdan sonra iyun ayının 26-da hökumətin qərarı ilə nazirliklərin işini fəallaşdırmaq üçün hər nazirlikdə, o cümlədən xarici işlər nazirliyində də bir müavin vəzifəsi təsis edildi.[320] İyun ayının 30-da isə xarici işlər nazirliyi də daxil olmaqla nazirliklərdə

---

[314] Azərbaycan Cümhuriyyəti. (1918-1920). Bakı, 1998. s.105

[315] Адрес Календарь Азербайджанской Республики, с.22

[316] Türkiye Cümhuriyeti Genelkurmay Başkanlığı Askeri Tarih ve Stratejik Etüd Arşivi. K.3827, D.38, F.2 (Bu iqtibas V.Qafarovun "Şimali Azərbaycan məsələsi Rusiya-Türkiyə münasibətlərində (1917-1922-ci illər)" adlı əlyazmasından götürülmüşdür)

[317] W.E.D.Allen and Paul Muratof. Caucasian Battlefields, p.480

[318] Azərbaycanın İstanbuldakı nümayəndəliyinin sədri M.Ə.Rəsulzadənin xarici işlər naziri M.H.Hacınskiyə məktubu. 19.07.1918.//ARDA, f.894, s.10, i. 31, v.3

[319] İstiqlal, 1919, №1, s.70. M.B.Mehmetzade. Devletlerarası Münasibetlere Dair Vesikalar. //Azerbaycan Yurt Bilgisi, №31-32, Temmuz-Ağustos, 1934, s.261

[320] Azərbaycan Cümhuriyyəti hökumət qanun və binaküzarlıqları məcmuəsi. 1919, №1, s.25.



downloaded from KitabYurdu.az

katib, işlər müdiri, iki mirzə, bir kuryer olmaqla dəftərxana yaradıldı.[321] Lakin belə kiçik bir heyətlə xarici işlər nazirliyinin fəaliyyətini effektli təmin etmək çətin olduğundan M.H.Hacınski hökumətin toplantısında xarici işlər nazirliyinin tərkibinin genişləndirilməsini təklif etsə də, Bakının azad edilməsinə qədər bu məsələyə baxılmadı. Qafqaz İslam Ordusunun Bakıya doğru hərəkəti dövründə xarici siyasət idarəsinin başlıca vəzifəsi ölkənin paytaxtının yadellilərdən azad edilməsini diplomatik cəhətdən təmin etməkdən ibarət idi. Azərbaycan Xarici İşlər Nazirliyi bu istiqamətdə müstəsna dərəcədə fədakarlıq göstərdi və öz üzərinə düşən vəzifəni şərəflə yerinə yetirdi.

İyun ayının 17-də yaradılmış hökumətin ilk addımlarından biri Mərkəz (Almaniya, Avstriya-Macarıstan, Türkiyə və Bolqarıstan) və Qafqaz (Gürcüstan, Azərbaycan, Ermənistan və Dağlılar İttifaqı) dövlətlərinin İstanbul konfransına göndəriləcək diplomatik heyətinin müəyyən edilməsi və onlar üçün müvafiq sənədlərin təsdiq edilməsi oldu. Bu konfransın Azərbaycanın həyatında oynayacağı mühüm rolu nəzərə alaraq hökumət diplomatik heyətinin üç nəfərdən - M.Ə.Rəsulzadədən, X.Xasməmmədovdan və A.Səfikürdskidən, habelə dörd nəfər məsləhətçi, texniki işçidən ibarət olmasını təsdiq etdi. Onlara hökumət tərəfindən səlahiyyət verildi ki, İstanbul beynəlxalq konfransının iştirakçısı olan Türkiyə, Almaniya, Avstriya-Macarıstran, Bolqarıstan, Gürcüstan, Ermənistan və Dağlılar İttifaqının nümayəndələri ilə siyasi, iqtisadi maliyyə və hərbi məsələlərlə bağlı danışıqlar aparsınlar və müqavilələr bağlasınlar. Bundan əlavə, hökumət İstanbula gedən diplomatik nümayəndəliyə Osmanlı dövləti ilə hər cür gizli siyasi və hərbi müqavilələr bağlamaq və imzalamaq hüququ da verirdi. Belə bir səlahiyyət Dağlılar respublikası ilə münasibətlərə də aid idi.[322] Tanınmış alim T.Svyatoçevski bu addımı tam müstəqilliyə tərəfdar olan qüvvələrin Azərbaycandan uzaqlaşdırılması kimi qiymətləndirir. O yazır: "Osmanlı hakimiyyət dairələri, aralarında Rəsulzadə də olmaqla, bir neçə siyasi xadimi Azərbaycandan uzaqlaşdırmaq niyyəti ilə onları uzunmüddətli görüş üçün Türkiyəyə dəvət etdilər".[323] Bu məsələ ilə bağlı sənəd və materialların dərindən araşdırılması T.Svyatoçevskinin qeyd edilən fikrini inkar etməyə əsas verir. Birincisi, İstanbul konfransı Türkiyənin təşəbbüsü olmayıb, Almaniya və Gürcüstanın təşəbbüsü idi. İkincisi, konfransın uzunmüddətli olacağını hələ heç kim bilmirdi. Üçüncüsü isə, müstəqilliyin tanınması yolunda konfransa böyük ümid bəslənildiyi üçün, habelə Türkiyə tərəfindən daha səmərəli yardım almaq məqsədi ilə Türkiyə siyasi dairələri içərisində böyük nüfuza malik olan, Batum müqaviləsini imzalamış M.Ə.Rəsulzadə kimi tanınmış bir siyasi xadimin nümayəndə heyətinə rəhbər təyin edilməsini zəruri edirdi. Bunlardan əlavə, İstanbulda konfrans keçirmək ideyası

---

[321] Yenə orada. s.37

[322] İstanbul şəhərində beynəlxalq konfransda iştirak etmək üçün nümayəndə heyətinin göndərilməsi haqqında Nazirlər Şurasının qərarı. 18.06.1918. //ARDA, f.970, s.1, i. 138, v.3-5

[323] T.Swietochowski. Russian and Azerbaijan, p.71



downloaded from KitabYurdu.az

ortaya çıxanda hələ "iyun böhranı" baş verməmişdi və kimisə Azərbaycandan uzaqlaşdırmaq cəhdləri də yox idi. Azərbaycandan yola düşən nümayəndələr iyun ayının 24-də İstanbula çatdılar. Türkiyəyə gedən Azərbaycan nümayəndələri ora çatan kimi Ənvər paşaya məktub təqdim edib Azərbaycanın müstəqilliyinin qorunmasının zəruriliyini göstərmişdilər.[324] Məktubda qeyd edilirdi ki, Türkiyənin böyük siyasəti Azərbaycanın hələ ki, müstəqil və güclü olmağını tələb edir. Məktubda Azərbaycanın siyasi vəziyyəti, Bakı quberniyasında cərəyan edən faciəli hadisələr öz əksini tapmışdır. Azərbaycan nümayəndələri Türkiyənin öz müttəfiqləri, xüsusən Almaniya qarşısında Qafqaz xalqlarına eyni cür münasibət bəsləmək məsələsini qaldırmışdılar. Erməni və gürcülərin Almaniya ilə apardığı separat danışıqlara toxunaraq, ermənilərin öz ərazi iddialarını Almaniya vasitəsi ilə həyata keçirmək arzusunda olduqları məktubda qeyd edilirdi. Bakı quberniyasında baş verən hadisələrlə bağlı Azərbaycan nümayəndələri Türkiyə tərəfindən yardım göstərilməsinin sürətləndirilməsini zəruri hesab edirdilər. Onlar Osmanlı nümayəndələrinə xatırladırdılar ki, regionda yaranmış qarışıq və mürəkkəb vəziyyət Cənubi Qafqaz türklərinin həyatını təhlükə altına almışdır. Azərbaycan sülh heyətinin üzvləri yazırdılar: həqiqətən, ermənilər Türkiyədə törətdikləri görünməmiş vəhşilikləri və böyük bəlaları indi Cənubi Qafqaz müsəlmanlarına qarşı törətdiklərindən onlar haqqında hissiz-hiddətsiz danışmaq qeyri-mümkündür. Biz bilirik ki, hər bir böyük dövlət kimi Türkiyə də öz dövlət siyasətini hisslər üzərində qurmur. Lakin biz Cənubi Qafqaz müsəlmanları üçün yaranmış böhranlı vəziyyəti dəfələrlə Dövləti-Alinin diqqətinə çatdırmışıq. Hərbi hissələrin, silahın, qayda-qanunun və təşkilatçılığın olmaması bizi köməksiz vəziyyətə salmışdır. Bakı quberniyası və İrəvan quberniyasının cənub hissəsi ermənilərin və erməni bolşevik quldur dəstələrinin əlinə düşmüş və rəhmsizcəsinə məhv edilmişlər. Müsəlmanların maddi və mənəvi zənginliyinin mərkəzi olan Bakı isə bolşeviklərin əlinə keçmiş və ağlagəlməz bir surətlə dağıdılmışdır. Biz şəhərin tezliklə azad edilməsini acizanə şəkildə sizdən xahiş edirik. Ötən hər gün bizə böyük bədbəxtliklər gətirir. Bir həftə də yubansaq Cənubi Qafqazda bir çəllək də neft qalmayacaq, neft olmadığından sizin istifadə etmək istədiyiniz dəmir yolu öz hərəkətini dayandıracaq, bolşeviklər tərəfindən həbs olunmuş bütün ziyalılar və kapitalistlər vəhşicəsinə məhv ediləcəklər. Biz təxirə salınmadan ora hərbi kömək göndərilməsini rica edirik.

İstanbulda keçirdikləri birinci görüşlər haqqında M.Ə.Rəsulzadə xarici işlər naziri M.H.Hacınskiyə bunları yazırdı: "İyunun 24-də İstanbula yetişdik və Pera Palasda yerləşdik. Bir gün sonra Tələt paşanın qəbulunda olduq, xarici işlər naziri Ənvər paşa, Xəlil bəy, Şeyxülislam və digər nazirlər də orada idilər. Eyni zamanda Almaniya səfiri Bernsdorfun qəbulunda olduq. Ənvər paşa təklif etmişdi ki, ərazilərimizin hüdudlarını elan edək. Hökumətdən rica edirik təcili şəkildə bunu

[324] M.Ə.Rəsulzadə, X.Xasməmmədov və A.Səfikürdskinin Türkiyənin hərbi naziri Ənvər paşaya məktubu. İyun, 1918. //ARDA, f.970, s.1, i. 7, v.4



downloaded from KitabYurdu.az

etsin, əgər vaxtında edə bilməsəniz, biz özümüz müvafiq bəyanat hazırlayırıq. Bütün nümayəndələr buradadır. Bernsdorf bizi nəzakətlə qəbul etdi, bizim hökumətin təşkili qaydası, Milli Şura, siyasi partiyalar haqqında soruşdu. Eyni zamanda ordumuzun olub-olmadığı ilə, hansı qüvvə ilə Bakıya qarşı bolşeviklərlə mübarizə apardığımızla maraqlandı. Həmçinin soruşdu ki, biz konfransda sərhədlərimizin müəyyən edilməsini zəruri hesab edirikmi. Mən cavab verdim ki, bunu biz öz aramızda həll etməyə ümidliyik, nəticələr barədə isə müttəfiqlərə məlumat verəcəyik. Fikirləşirik ki, konfrans Ramazan bayramından tez başlamayacaq".[325]

Konfrans ideyasını ilk dəfə Gürcüstan irəli sürmüşdü. Batum müqaviləsinin imzalanmasından iki gün sonra Almaniya Xarici İşlər Nazirliyinə verdiyi notada Gürcüstan hökuməti Dördlər İttifaqı ilə Gürcüstan arasında Brest-Litovsk sülhü əsasında əlaqələr yaratmaq məqsədi ilə konfrans keçirilməsi ideyasını irəli sürmüşdü. İyun ayının 9-da Almaniya cavab notasında konfrans çağırılması ideyasına tərəfdar çıxmışdı, lakin onlar konfransın tək Gürcüstanla deyil, Qafqazdakı yeni respublikalarla birlikdə keçirilməsini mümkün hesab etmişdilər.[326] Praktiki mülahizələrlə almanlar konfransın İstanbulda keçirilməsini irəli sürdülər. İyun ayının 24-də Reyxstaqdakı çıxışında fon Külman Dördlər İttifaqı üzvlərinin Qafqaz məsələsi ilə bağlı konfrans keçirməyə hazır olduğunu bildirmişdi. İstanbul konfransının keçirilməsində Almaniyanın məqsədləri var idi. Onların Gürcüstanda olan qüvvələri o qədər də böyük deyildi və bu qüvvə ilə Qafqazda nə Türkiyəyə qarşı durmaq olardı, nə də Bakı istiqamətdə hərəkət etmək mümkün deyildi. Ona görə də almanlar özlərinin Qafqaz siyasətini diplomatik yolla davam etdirməyi üstün tuturdular.[327] Konfransın keçirilməsində təşəbbüsçü kimi çıxış edən Almaniya öz müttəfiqlərini və Qafqaz respublikalarını Türkiyə vasitəsi ilə konfransa dəvət etdi. İyulun əvvəllərində konfransa gəlmiş nümayəndələr bir sıra ikitərəfli danışıqlar apardılar və bəzi gizli görüşlər keçirdilər. Türkiyə İstanbul konfransı açılana qədər Qafqazda işlərini başa çatdırıb öz nüfuzunu möhkəmləndirmək və müsəlman həmrəyliyinə nail olmaq istəyirdi.[328] Dağlılar respublikası nümayəndələri Osmanlı hökumətinin təşəbbüsü ilə konfransa dəvət edilmişdilər.

İkitərəfli danışıqların gedişində Almaniya ilə Türkiyə arasında Qafqaz respublikalarını nüfuz dairəsinə salmaq uğrunda gərgin mübarizə başlanmışdı. Bu mübarizənin gedişində gürcülər almanların, azərbaycanlılar isə türklərin tərəfdarı olduqlarını nümayiş etdirdilər. Ermənilər köməksiz vəziyyətdə olub tərəddüd edirdilər. Qısa tərəddüddən sonra İstanbulda olan erməni nümayəndələri güclü

---

[325] Azərbaycanın İstanbuldakı nümayəndəliyinin sədri M.Ə.Rəsulzadənin xarici işlər naziri M.H.Hacınskiyə məktubu. 28.06.1918. //ARPİİ SPİHDA, f.277, s.2, i. 7, v.52-53
[326] З.Авалов. Независимость Грузии в международной политике, с.98
[327] W.E.D.Allen and Paul Muratof. Caucasian Battlefields, p.480
[328] З.Авалов. Независимость Грузии в международной политике, с. 100



downloaded from KitabYurdu.az

türkofil təbliğata başladılar və bununla onlar özlərinin Türkiyənin "pərəstişkarı" olduqlarını sübuta yetirməyə cəhd göstərirdilər. İstanbulda olan Azərbaycan nümayəndə heyətinin rəhbəri M.Ə.Rəsulzadə iyul ayının 19-da xarici işlər naziri M.H.Hacınskiyə göndərdiyi məktubda yazırdı ki, ermənilər türkofil təbliğatla öz yerlərini bir az bizim, bir az da türklərin hesabına genişləndirmək fikrində idilər.[329] Onların Ənvər paşaya təqdim etdikləri ərazi tələbləri də bunu sübut edirdi. Erməni layihəsinə görə Sürməli, Naxçıvan, Ordubad, Axalkələk, Eçmiədzin, İrəvan (qəzası), Borçalı, Qazax, Qarabağ və Zəngəzur qəzaları Ermənistana verilməli idi. Erməni nümayəndələri bu tələblərini onunla əsaslandırırdılar ki, guya bu qəzaların əhalisinin 70 faizi ermənilərdir.[330] Ermənilərin İstanbul konfransının müzakirəsinə təqdim etmək istədikləri belə şişirdilmiş ərazi iddiaları onların real vəziyyətinə uyğun deyildi. Məsələn, ermənilərin iddia etdikləri Qarayazı mahalında əhalinin 89 faizini müsəlmanlar, 11 faizini isə ruslar və digər millətlərin nümayəndələri təşkil edirdi. Ermənilərin daha çox tələb etdikləri Zəngəzur qəzasına gəldikdə isə burada 123095 nəfər müsəlman, 99257 nəfər erməninin yaşadığı qeydə alınmışdı.[331] Rusiya Federasiyası Xarici İşlər Komissarlığının sənədlərində isə ermənilərin iddia etdikləri, 90250 nəfər əhalisi olan, Şərur-Dərələyəz qəzasında əhalinin 67,5 faizini müsəlmanlar təşkil edirdi. 131142 nəfər əhalisi olan Naxçıvanda bu rəqəm 60 faizin, 104791 nəfər əhalisi olan Sürməli qəzasında isə 70 faizin üstündə idi.[332] İstanbulda olan Azərbaycan nümayəndələri respublikanın hüdudları barədə hazırladıqları sənədi həm Türkiyə və həm də Almaniya nümayəndələrinə təqdim etmişdilər. Sənəddə Azərbaycan Respublikasına daxil olan ərazilər və onun sərhədləri göstərilirdi. Bura bütün Bakı quberniyası (Bakı şəhəri də daxil olmaqla Bakı qəzası, Cavad, Göyçay, Şamaxı, Quba, Lənkəran qəzaları), Gəncə quberniyası (Gəncə, Cavanşir, Şəki, Ərəş, Qarabağ, Cəbrayıl, Zəngəzur, Qazax qəzaları), İrəvan quberniyası (Naxçıvan, Şərur-Dərələyəz, Yeni Bəyazid qəzaları), Tiflis quberniyası (Borçalı, Sığnax qəzaları və Tiflis qəzasının bir hissəsi), Zaqatala sancaqlığı daxil idi.[333] Azərbaycan nümayəndələrinin təqdim etdikləri layihə və tərtib etdikləri xəritə əsasında Borçalı qəzası vasitəsi ilə Türkiyə ilə Azərbaycan arasında koridor açılması nəzərdə tutulurdu.[334] Bu layihə əsasında almanlara məlum oldu ki, Türkiyənin müdafiə və yardım etdiyi Azərbaycan hökuməti hazırda bolşeviklərin əlində olan Bakı quberniyasını heç kimə güzəşt

---

[329] Azərbaycanın İstanbuldakı nümayəndəliyinin sədri M.Ə.Rəsulzadənin xarici işlər naziri M.H.Hacınskiyə məktubu. 19.07.1918. //ARDA, f.894, s.10, i. 31, v.4.
[330] Yenə orada. v.20-21
[331] Zaqafqaziya Respublikaları arasında mübahisəli olan ərazilər haqqında. 01.03.1921. //RDSSTA, f.5, s.l,i. 2796, v.4
[332] Qəza administrasiyalarının 1 yanvar 1916-cı il məlumatı əsasında hazırlanmışdır. 28.02.1921. //Rusiya Federasiyası Xarici Siyasət Arxivi (RFXSA), f.04, s.39, qovluq 232, i. 5300, v.80
[333] Topçubaşov Ə.M. Azərbaycanın təşəkkülü. s.122
[334] Azərbaycanın İstanbuldakı nümayəndəliyinin sədri M.Ə.Rəsulzadənin xarici işlər naziri M.H.Hacınskiyə məktubu. 15.09.1918. //ARDA, f.894, s.10, i. 31, v.27



downloaded from KitabYurdu.az

etmək fikrində deyildir. Qafqaz dövlətləri ilə bir sıra ikitərəfli danışıqlar apardıqdan sonra Almaniya nümayəndələri belə bir qənaətə gəldilər ki, Bakı probleminin həllinin açarı Cənubi Qafqaz respublikalarında deyil, Moskvadadır.[335] Bakı Xalq Komissarlar Sovetinin müvəqqəti mövcudluğu və onun Sovet Rusiyası tərəfindən hərtərəfli müdafiə edilməsi Almaniya nümayəndələrini belə qənaətə gətirmişdi. Ona görə də Almaniya Sovet Rusiyası nümayəndələrinin İstanbul konfransına dəvət edilməsi təşəbbüsü ilə çıxış etdi, lakin türklər qəti şəkildə bu təklifə qarşı çıxdılar. Bundan sonra iyul ayının əvvəllərindən etibarən Bakı barəsində almanlar Sovet Rusiyası ilə gizli diplomatik danışıqlara girdilər. Bununla kifayətlənməyərək Bakıya şimal istiqamətindən hərəkət etmək məqsədi ilə Almaniya hökuməti digər bir gizli addım atmış oldu. Ukrayna getmanı və Don kazaklarının atamanı Krasnov Spa şəhərində kayzer II Vilhelm tərəfindən qəbul edildi. Danışıqlar zamanı razılıq əldə edildi ki, Bakı uğrunda türklərə və ingilislərə qarşı kazakların qüvvəsindən istifadə edilsin.[336] Almaniyanın Türkiyədən gizli Sovet Rusiyası, Ukrayna getmanı və Don kazaklarının atamanı ilə apardığı gizli danışıqlar barəsində şaiyələrin yayılması Osmanlı hökumətinin rəhbər siyasi dairələrində antialman əhvali-ruhiyyəsini gücləndirdi.

Beləliklə, Bakının azad edilməsi diplomatik cəhətdən böyük sınaq qarşısında idi. Bu sınaqdan uğurla çıxmaqdan ötrü Azərbaycan hökuməti, onun xarici siyasət idarəsi bütün imkanlarını, diplomatik bacarığını ölkənin paytaxtının azad edilməsi üçün səfərbər etmişdi. Azərbaycanın daxilində gedən siyasi proseslər və onun xaricində cərəyan edən mürəkkəb beynəlxalq çəkişmələr yalnız bir məqsədə, Bakının azad edilməsinə tabe edilmişdi.

---

[335] W.E.D.Allen and Paul Muratof. Caucasian Battlefields, p.481
[336] W.Allen and P.Muratof. Caucasian Battlefields, p.481



downloaded from KitabYurdu.az

## IV FƏSİL

### Bakının azad edilməsi uğrunda diplomatik mübarizə

1918-ci ilin yayında Azərbaycan ətrafında cərəyan edən istər daxili və istərsə də beynəlxalq vəziyyət Bakının tezliklə azad edilməsini zəruri edirdi. Birinci dünya müharibəsinin sonunda Bakı Osmanlı imperiyası, Almaniya, İngiltərə və Sovet Rusiyası arasında mübarizənin əsas obyektinə çevrilmişdi. Rus ağqvardiyaçı generalı A.Denikin obrazlı formada yazırdı ki, Bakı nefti Avropa və Asiya siyasətçilərinin ağıllarını və qəlblərini möhkəmcə fəth etmişdi. 1918-ci ilin yazından başlayaraq Bakıya tez çatmaq uğrunda yürüş başlamışdı. İngilislər Ənzəli, Nuru paşa Azərbaycan, Almaniya isə Gürcüstan vasitəsi ilə son məqsəd olan Bakıya can atırdılar.[337] Göründüyü kimi, Bakı məsələsinə, orada cərəyan edən hadisələrə təkcə daxili siyasi proseslər kimi deyil, bütövlükdə dünya müharibəsi, regionda cərəyan edən hadisələr, Almaniya-Türkiyə-Sovet Rusiyası-İngiltərə hərbi-diplomatik münasibətləri, habelə Dördlər İttifaqı ilə Antanta dövlətlərinin qarşıdurması müstəvisində yanaşılmalıdır. Bu baxımdan Bakı ətrafında cərəyan edən hadisələr nəinki dünya müharibəsinin, eyni zamanda ümumdünya tarixinin maraqlı bir səhifəsi idi. Yaxın Şərqdə işləyən Britaniya xüsusi xidmət orqanlarının əməkdaşı P.Hopkirk Bakı hadisələri haqqında belə yazır: "Ötən əsrin sonlarında Bakı dünyanın ən zəngin şəhərlərindən birinə çevrilmişdi. Rusiya imperiyasının ucqarında yerləşən bu diyarda neft ehtiyatlarının aşkar edilməsi müxtəlif xalqların bura axışmasının başlıca səbəbinə çevrilmişdi. Macəra axtaranlar və bütün təbəqələrdən olan avantüristlər bura can atırdılar. Mütəxəssislər belə hesab edirdilər ki, Bakı bütün yer kürəsini işıqlandırmaq və isindirmək iqtidarındadır. Neft Bakının bütün ətrafını dövrəyə almışdı. Bir kibrit yetərli idi ki, bir dəqiqə ərzində Xəzər dənizini alov bürüsün. Qısa zaman ərzində Bakı bir anın içərisində kazinoda varlanan xoşbəxtləri xatırladırdı. Az savadlı olan bu adamlar dəniz sahilində təmtəraqlı saraylar tikmişdilər. Bir vaxtlar Bakı ABŞ-ın bütövlükdə istehsal etdiyindən daha çox neft verirdi."[338]

May ayında Azərbaycanın istiqlaliyyəti elan olunduqdan sonra Bakı Soveti və onun icraiyyə orqanı olan Bakı Xalq Komissarlar Soveti nəinki milli hökuməti tanımadı, eyni zamanda mümkün saydığı bütün vasitələrlə (siyasi, iqtisadi, hərbi və diplomatik yollarla) ona qarşı mübarizə elan etdi. Bakı Sovetinin özünü heç bir cəhətdən Azərbaycan mühiti ilə bağlamaması, Azərbaycan əhalisinin öz müqəddəratını təyin etmək hüququnun inkar edilməsi, hətta "Bakinski raboçi" qəzetində azərbaycanlıların lağa qoyulması, Bakıda 1918-ci ilin mart hadisələri,

---

[337] А.И.Деникин. Очерки русской смуты. Москва, 1991, с.35

[338] Peter Hopkirk. On secret service East of Constantinople. The Plot to Bring Down the British Empire. John Murray, London, 1994, p.331-332



downloaded from KitabYurdu.az

onun davamı kimi Şamaxıda və digər ətraf yerlərdə müsəlmanlara divan tutulması, kommuna ordusunun əsasən ermənilərdən təşkil edilməsi hələ Cənubi Qafqaz Seyminin müsəlman deputatlarında ciddi narazılıq yaratmış, istər Bakı Sovetinin və istərsə də erməni silahlı dəstələrinin törətdiyi cinayətlərdən müdafiə olunmaq üçün Azərbaycan əhalisinin Türkiyəyə meylini və rəğbətini xeyli gücləndirmişdi.

Bakı XKS öz fəaliyyəti ilə, Gəncə üzərinə yürüş etməklə Cənubi Qafqazda mürəkkəb olan siyasi vəziyyəti daha da kəskinləşdirdi. Kommuna dövründə demək olar ki, bütün siyasi və iqtisadi məsələlər yalnız silah gücünə həll edilirdi. Yenicə yaranmış Azərbaycan hökuməti hələ Gəncəyə keçməzdən əvvəl Bakı XKS "vətəndaş" müharibəsini yenidən alovlandırıb Gəncə üzərinə yürüşə hazırlaşırdı. İyun ayının 2-də Saritsində olan İ.Stalin S.Şaumyana Gəncəni tutmaq barədə direktiv vermişdi. İyun ayının 5-də keçmiş daşnak, sonra isə inqilab ab-havasında bolşevikə çevrilmiş A.Əmiryan "Bakinski raboçi" qəzetində çap olunmuş "Tarixin dərsləri haqqında" baş məqaləsində Paris kommunasının "Yaşasın vətəndaş müharibəsi" şüarını əsas tutaraq qeyd edirdi: "Təəssüf olsun ki, Paris Kommunasının səhvlərini bizim Bakı Soveti də təkrar edir... Qafqazın Versalına qarşı hücuma keçmək əvəzinə, əksinqilabın bütün başçılarını tutub həbs etmək əvəzinə, biz onları toplaşmağa, möhkəmlənməyə və əksinqilabın xarici düşmənlərimizlə ittifaqa girərək, inqilab əleyhinə hücuma keçməsinə imkan verdik. Bu fəlakətli və bağışlanmaz səhv idi. Lakin "keçənə güzəşt deyərlər", görünür ki, indi biz doğru yol tutmuşuq. Müdafiə deyil, necə olursa-olsun hücuma keçmək, yenə və yenə təkrar edirik ki, hücuma keçmək lazımdır. Bizim başqa çıxış yolumuz yoxdur".[339] Bu yazıdan bir gün sonra iyunun 6-da Bakı kommunasının ordu və donanma işləri üzrə komissarı Q.N.Korqanov Gəncə üzərinə yürüş haqqında əmr verdi. Burada əsas məqsəd türk hərbi dəstələri toplanana qədər Azərbaycan istiqlaliyyətinin beşiyi olan Gəncəni dağıtmaq idi. Kommunanın belə təcavüzkar siyasətində may ayının ortalarında V.İ.Lenindən alınan teleqram da az rol oynamamışdı. V.İ.Lenin S.Şaumyana yazırdı: "Sizin möhkəm və qəti siyasətinizə məftunuq. Bacarıb həmin siyasəti, indiki çox çətin vəziyyətin şəksiz tələb etdiyi çox ehtiyatlı bir diplomatiya ilə birləşdirin, - onda biz qalib gələrik. Çətinliklər hədsizdir. Hələlik bizi, ancaq imperialistlər arasındakı ziddiyyətlər, toqquşmalar və mübarizə xilas edir. Bacarıb həmin toqquşmalardan istifadə edin, hələlik diplomatiyanı öyrənmək lazımdır.[340] Gəncəyə hücum başladıqda Bakı kommunasının gələcəkdə N.Jordaniya ilə Azərbaycan Respublikasına qarşı sazişə girmək cəhdləri də elə "diplomatiyadan istifadə etmək bacarığından" irəli gəlirdi. Əslində 1918-ci ilin yazında bolşeviklərin planı tək Gəncəni deyil, eyni zamanda Tiflisi də tutmaq idi. Bu məqsədlə Tiflisdə toplanmış keçmiş Qafqaz cəbhəsi əsgərlərinin üsyanı hazırlanırdı və bu üsyan Bakıdan hərəkət edən Qırmızı Ordunun Tiflisə girməsilə nəticələnməli idi. Gözlənilən təhlükəni hiss edən gürcü

---

[339] Бакинский рабочи, 1918, 5 июня.
[340] V.İ.Lenin. ƏTK, 50-ci cild, s.81-82



downloaded from KitabYurdu.az

menşevikləri onun qarşısını almaq üçün rus menşeviklərinə müraciət etdi. Qəzetlərdə gürcü menşeviki M.Seretelinin Plexanov və Martova müraciəti dərc edildi. Müraciətdə bolşevik yürüşünün doğura biləcəyi qan tökülməsinin qarşısını almaq üçün yardım istənilirdi.[341] Rus menşevikləri belə hesab edirdilər ki, Tiflis üzərinə yürüş ideyası V.İ.Lenindən deyil, Cənubi Qafqazda öz manevrlərini gücləndirmək istəyən İ.Stalindən gəlir. Ona görə də mərkəzi menşevik mətbuatında İ.Stalinin əleyhinə güclü kampaniya başlandı.[342] Bakıya ezam olunmuş menşevik nümayəndələri S.Şaumyanı inandırmağa çalışırdılar ki, V.Lenin Qafqazın yeni milli dövlətlərini tanıya bilər, əks təqdirdə hadisələrin gedişi Stalinin bu regionda siyasi təsirini gücləndirə bilər. Menşevik təbliğatı S.Şaumyanı Tiflis üzərinə "yürüşdən" yayındırsa da, Qafqazın fövqəladə komissarı Gəncə üzərinə getməyə qərarlı idi.

İyun ayının 12-də S.Şaumyan teleqraf vasitəsi ilə V.İ.Leninə və İ.Stalinə Bakı hərbi hissələrinin Gəncəyə hücumu barədə məlumat verirdi. Gəncə üzərinə hücumla bağlı müsəlman əhalisinə qarşı soyqırım müharibəsi qəzalarda yenidən təkrar olmağa başladı. Hərbi əməliyyatların getdiyi ərazilərdə müsəlman əhalisi yeni talanlara məruz qalmağa başladı. Bu Bakı Soveti ordusunun 70 faizinin[343], zabit heyətinin isə hamısının ermənilərdən ibarət olması ilə bağlı idi.[344] Bakı XKS-nin ordusunun komanda heyətinin əsasən ermənilərdən ibarət olduğunu və yerli türk əhalisinə qarşı onların törətdikləri zorakılıqları həmin əməliyyatlarda iştirak etmiş Suren Şaumyan da sonralar etiraf edirdi.[345] May ayının 22-də Sovet Rusiyası XKS-nə göndərdiyi məruzədə Q.N.Korqanov yazırdı ki, Kommuna ordusunun sayı 18 mindir, əsgərlərin böyük hissəsi ermənilərdir, az miqdarda müsəlman hümmətçilər və sol eserlər də vardır. O, öz məruzəsində göstərirdi: "Erməni kəndli kütlələri və şəhər demokratiyası qəti şəkildə vahid Rusiya Respublikasının və Sovet hakimiyyətinin arxasında dayanmışlar.[346] İyunun 18-də Q.Korqanov Bakı XKS-nə məlumatında cəbhədə vəziyyətin bolşeviklərin xeyrinə olduğunu, "düşmənin" böyük itki verdiyini yazırdı. O bildirirdi: briqada komandiri Q.Hamazaspın məlumatına görə, "düşmən" Qaraməryəm kəndində hücuma keçib, ciddi müqavimətə rast gəlib və həyəcan içində geri qaçıb. Bizim itkimiz 5 nəfər ölən, 49 nəfər yaralıdan ibarətdir. "Düşmən" 400 nəfərə qədər itki verdi.[347] Bakı Kommunası haqqında iri həcmli əsərin müəllifi olan Amerika alimi R.Syuni haqlı olaraq bu qənaətə gəlir ki, S.Şaumyanın daşnaklarla ittifaqı təsadüfi deyildi. O, yaxşı başa düşürdü ki, daşnak ordusuna arxalanmadan Bakı hökumətini, idarə və

---

[341] Кавказский листок, 1918, 3 апреля.
[342] Новая жизнь, 1918, 19 апреля.
[343] T.Swietochowski. Russian Azerbaijan, p. 137
[344] F.Kazemzadeh. The Struggle for Transcaucasia, p. 131
[345] ÜİK(b)P MK yanında Partiya Tarixi İnstitutunda Azərbaycan qrupunun iclasında Suren Şaumyanın məruzəsi. 11.07.19277/ RDSSTA, f.84, s.3, i.283. v.53
[346] Q.Korqanov. Rusiya XKS-nə. 22.05.1918. //ARPİİ SPİMDA, f.276, s.3, i.55, v.2-5
[347] Q.Korqanov-S.Şaumyana. 18.06.1918. //ARPİİ SPİHDA, surət fondu, sənəd № 374, v.20



downloaded from KitabYurdu.az

şəhəri müdafiə etmək olmaz.[348] Bunu həmin dövrdə, iyun ayının 23-də Sovet Rusiyasının hərbi-dənizçilik komissarı L.Trotskiyə məlumat göndərən Bakı rayonunun rəis müavini B.Şeboldaev daha qabarıq şəkildə təsdiq edirdi. O yazırdı: Bakı kommunasının silahlı qüvvələrinin şəxsi heyətinin əksəriyyəti, komanda heyətinin isə hamısı ermənilərdən ibarətdir. İyun ayının 10-da kommuna ordusunun briqadaları və korpus qərargahları yaradılanda məlum oldu ki, bura daxil olan korpus komandiri (keçmiş polkovnik) Qazarov, qərargah rəisi (baş qərargahın keçmiş polkovniki) Avetisov və başqaları siyasi görüşlərinə görə əksəriyyəti daşnaklardır. Ordunun komanda heyəti yararsızdır, erməni zabitlərin böyük əksəriyyəti daşnaklardır və bu ordu o zamana qədər Sovet hakimiyyətinin dayağı olacaqdır, nə qədər ki, daşnaklar "Rusiya orientasiyası" tutublar. Əgər orientasiya məsələsi ingilislərin xeyrinə dəyişsə, ordunun buna necə reaksiya verəcəyini demək çətindir. Lakin nəzərə almaq lazımdır ki, ordunun 60-70 faizini ermənilər təşkil edir və ona görə də hər cür gözlənilməz hadisələr baş verə bilər.[349]

Orduya ümumi komandanlıq müsəlman əhalisinə qarşı mübarizədə ad çıxarmış polkovnik Z.Avetisovun və S.Qazarovun, habelə Azərbaycan əhalisinə qarşı partizan hərəkatının "qəhrəmanı" Hamazaspın əlində idi. Sonuncunun fikrincə, "hər bir müsəlman düşməndir, yalnız ona görə ki, o, müsəlmandır".[350] Məhz elə bunun nəticəsi idi ki, Gəncə üzərinə hücum zamanı yol boyu erməni əsgərləri müsəlman əhalisinə qarşı qarətçilik və zorakılıqla məşğul olduğundan, "Kəndlilər arasında bolşeviklərə rəğbətin ən kiçicik bir təzahürünü belə məhv etmişdilər".[351] R.Syuni qeyd edir ki, Qırmızı Ordu Gəncə üzərinə hərəkət edən zaman keçdikləri Azərbaycan kəndlərinin əhalisi onlara yaxşı münasibət bəsləmirdilər. Azərbaycan kəndliləri "öz müsəlman qardaşlarını - türkləri gözləyirdilər".[352] Kiçik bir hərbi dəstə ilə Bakı bolşeviklərinə kömək məqsədilə göndərilmiş sol eser Petrov Şamaxı cəbhəsində emənilərin müsəlman əhaliyə qarşı törətdikləri vəhşilikləri gördükdə Bakıya, XKS-nə teleqramda yazırdı ki, "mən bilmirəm müqəddəs sovet işi uğrunda mübarizə aparıram, yoxsa quldur dəstələrinin arasına düşmüşəm". Petrovun belə mövqeyi onun S.Şaumyandan asılı olması ilə bağlı idi. Çünki o, "Qafqaz məsələləri üzrə fövqəladə hərbi komissar" kimi Bakıya göndərildiyində özünü S.Şaumyandan yuxarı tutmasa da ona bərabər hesab edirdi.[353]

Kommuna qoşunlarının Gəncəyə doğru hücumunun qarşısı iyun ayının sonlarında Göyçayda alındı. İyunun 27-si ilə iyulun 1-i arasındakı dörd günlük gərgin vuruşma cəbhənin taleyini həll etdi. Göyçay vuruşmasında Kommuna

348 R.Suny. The Baku Commune, p.322
349 B.Şeboldaev-L.Trotskiyə. 23.06.1918. //ARPİİ SPİHDA, surət fondu, sənəd № 371, v.1-4
350 F.Kazemzadeh. The Struggle for Transcaucasia, p. 131
351 T.Swietochowski. Russian Azerbaijan, p.137
352 R.Suny. The Baku Commune, p.323
353 ÜİK(b)P MK yanında Partiya Tarixi İnstitutunda Azərbaycan qrupunun iclasında Suren Şaumyanın məruzəsi. 11.07.1927.// RDSSTA, f.84, s.3, i.283, v.57



downloaded from KitabYurdu.az

qoşunlarının məglubiyyəti bolşevik ordusu içərisində fərariliyi gücləndirdi. Belə vəziyyət İslam Ordusunun Bakı istiqamətində hərəkətinə dönməz xarakter verdi və iyul ayının axırlarında İslam Ordusu Bakı ətrafına gəlib çıxdı. İslam Ordusunu gücləndirmək məqsədilə iyul ayının 11-də 1894-1899-cu illərdə doğulmuş azərbaycanlıların orduya səfərbərliyi elan edildi. Bu səfərbərlik İslam Ordusunun tərkibində azərbaycanlıların sayını əhəmiyyətli dərəcədə artırdı. Bunun müqabilində iyunun axırlarında Rusiyadan gətirilən silah və hərbi sursat, o qədər də böyük olmayan hərbi qüvvə vəziyyətə ciddi təsir göstərə bilmədi. İyulun 20-də Bakı istiqamətində mühüm strateji əhəmiyyətə malik olan Şamaxı azad edildi.

Şamaxını sürətlə azad edən və Bakının astanasına gəlib çıxan İslam Ordusu tərəfindən şəhərin azad edilməsinin yubadılması Bakı ətrafında diplomatik mübarizənin kəskinləşməsi ilə bağlı idi. 1918-ci ilin iyul ayının əvvəllərində Almaniyanın İstanbuldakı konsulluğunun hazırladığı hesabatda göstərilirdi: "Əgər biz bolşeviklərlə sazişə gələ bilsək, onda Bakının neft mədənləri və neft ehtiyatları bütövlükdə əlimizə salamat keçəcək. Əgər bunun əksinə olaraq, bolşeviklər şəhəri tərk etməyə məcbur olsalar mədənləri yandıracaqlar, bu halda nə biz, nə də türklər neft ehtiyatlarından istifadə edə biləcəyik. Neftsiz isə Qafqaz dəmir yolunun hərəkəti tezliklə dayanacaqdır".[354] Bu fikri M.Ə.Rəsulzadə ilə görüşündə İstanbuldakı Almaniya səfiri Bernsdorf da dilə gətirmişdi. O qeyd etmişdi ki, Qafqaz İslam Ordusu tərəfindən Bakıya hücum edildiyi təqdirdə, bolşeviklər şəhəri dağıdıb neft mədənlərini məhv edə bilərlər.[355] Əlbəttə, öz hərəkətlərini siyasi avantüra üzərində quran bolşeviklərdən belə bir təhlükə gözlənilirdi və bu istiqamətdə mərkəzi bolşevik hökumətindən belə bir direktiv alınmışdı. Ona görə də 1918-ci ilin iyunun 23-də S.Şaumyan V.Leninə yazırdı: "Hərgah Bakını qoruyub saxlamaq mümkün olmazsa... onda biz sizin resepti həyata keçirərik".[356] Beləliklə, "Bakı məsələsi" haqqında diplomatik mübarizənin kəskinləşdiyini M.Ə.Rəsulzadə İstanbuldan Azərbaycanın xarici işlər naziri M.H.Hacınskiyə məktubunda belə şərh edirdi: "Almanların Bakıya hücum əleyhinə olmalarının dəlili bu imiş ki, Bakıya hərbi yolla gedilərsə, bolşeviklər neft mədənlərini və neft ehtiyatlarını yandırarlar. Halbuki, neft müharibə edən müttəfiqlərə su kimi lazımdır. Buna görə də almanlar Bakı məsələsini başqa formada, sülh yolu ilə həll etmək istəyirlər... Şəxsi kanallarla bizdə məlumat var ki, neftə dair almanlarla bolşeviklər arasında xüsusi müqavilə mövcuddur. Məlumunuz olsun ki, neft məsələsi Azərbaycan-Almaniya məsələsindən daha çox Türkiyə-Almaniya

354 Г.Папия. Политика Германии в Закавказье в 1918 г. Тбилиси, 1971, с.58-59

355 İstanbuldakı Azərbaycan nümayəndəliyinin rəhbəri M.Ə.Rəsulzadənin xarici işlər naziri M.H.Hacınskiyə məktubu. 19.07.1918. //ARDA, f.894, s.10, i.31, v.2

356 Z.İbrahimov. V.İ.Lenin və Azərbaycanda sosialist inqilabının qələbəsi. Bakı, 1970, s.255



downloaded from KitabYurdu.az

məsələsidir. Batum müqaviləsinə görə, neftin artıq qalan hissəsi Türkiyənindir. Görünür, türklər neft amili zəminində almanlardan istifadə etmək istəyirlər".[357]

Sovet Rusiyasından effektli hərbi yardım ala bilməyən Bakı XKS cəbhədə vəziyyət ağırlaşdıqda Moskvanın diplomatik yardımına və İranda olan kazak hərbi dəstələrindən birinin başçısı L.Biçeraxovun köməyinə ümid bəsləyirdi. Sovet Rusiyasının Almaniya vasitəsi ilə işə qarışması Azərbaycan hökumətinin Bakıya daxil olmasını bir qədər yubandırdı. Kommuna qüvvələri vasitəsi ilə Azərbaycan-türk hücumunun qarşısını ala bilməyəcəyini nəzərə alan Sovet Rusiyası 1918-ci ilin iyununda Almaniya ilə danışıqlara girib diplomatik yolla Bakını əldə saxlamaq istəyirdi. Əvvəllər qeyd olunduğu kimi, Qərb cəbhəsində və ümumilikdə müharibənin gedişindəki vəziyyət Almaniyanın Bakıya marağını kifayət qədər artırmışdı. İyun ayında İstanbul konfransına gəlmiş nümayəndələrlə danışıqlar əsnasında Almaniya Rusiya vasitəsi ilə Bakı neftinə nail olmağı müəyyənləşdirmişdi. Öz müttəfiqi Türkiyənin və Azərbaycan hökumətinin ona neft verəcəyinə ümidini itirən Almaniya əlverişli vəziyyətdən istifadə etmək qərarına gəldi. Hələ Rusiya ilə danışıqlar başlamazdan əvvəl iyun ayının ortalarında Tiflisdə olan Almaniya nümayəndələri Bakıya hücum edən türk-Azərbaycan hərbi hissələri içərisinə kiçik alman hərbi dəstəsinin daxil edilməsini təklif etmişdi, lakin "Azərbaycan hökuməti almanların bu tələbinə qəti surətdə etiraz etdi".[358] Bu cavab Almaniyanın Rusiya ilə danışıqlara başlamaq fikrini daha da reallaşdırdı və onun Bakı uğrunda fəal diplomatik mübarizəsi Sovet Rusiyasının Berlindəki səfiri A.İoffenin bu məsələyə qarışması ilə başlandı. İslam Ordusu Bakı istiqamətində hərəkətə başladıqda, A.İoffe Brest-Litovsk müqaviləsinin şərtlərini pozduqlarına görə, almanlara etiraz notası verdi və tələb etdi ki, onlar Osmanlı ordusunu dayandırmaq üçün işə müdaxilə etsinlər.[359] Almaniya Azərbaycanda cərəyan edən hadisələrin ona dəxli olmadığını bildirdisə də, edilən təklifdən faydalanmaq qərarına gəldi və Sovet Rusiyasının Almaniyaya neft verəcəyi təqdirdə, Türkiyənin hücumunu dayandırmaq üçün işə qarışacağını bildirdi. İyunun axırlarında başlanan alman-sovet danışıqlarında ilkin razılıq əldə edildi. Bunu V.İ.Leninin iyunun 30-da İ.Stalinə vurduğu teleqram da təsdiq edir. Teleqramda göstərilirdi: "Bu gün, iyunun 30-da Berlindən - İoffedən xəbər gəlmişdir ki, Külman İoffe ilə ilkin danışıq aparmışdır. Bu danışıqdan bəlli olduğuna görə, almanlar razıdırlar ki, türkləri Brest müqaviləsində göstərilən sərhəddə hərbi əməliyyatı dayandırmağa məcbur etsinlər, bizim üçün dürüst demarkasiya xətti müəyyənləşdirsinlər. Söz verirlər ki, türkləri Bakıya qoymasınlar, özləri də neft istəyirlər. İoffe cavab vermişdir ki, biz Brest sülhünə ciddi əməl edəcəyik, lakin almaq xatirinə vermək prinsipinə tamamilə razıyıq. Bu xəbərə ciddi diqqət yetirin və çalışıb onu Şaumyana tez çatdırın, zira

---

[357] İstanbuldakı Azərbaycan nümayəndəliyinin rəhbəri M.Ə.Rəsulzadənin xarici işlər naziri M.H.Hacınskiyə məktubu. 19.07.1918. //ARDA, f.894, s.10, i.31, v.2

[358] Ə.M.Topçubaşov. Azərbaycan təşəkkülü, s.133

[359] Документы по истории гражданской войны в СССР. М., 1940, т.1, с.381



downloaded from KitabYurdu.az

Bakını əldə saxlamaq üçün indi ən ciddi imkanlar vardır. Neftin bir qismini, əlbəttə, verərik".[360]

Almanların ciddi təzyiqi ilə, general Lüdendorfun bilavasitə işə qarışması ilə türklərin fəal hərbi əməliyyatları müvəqqəti dayandırıldı. Ənvər paşanın bütün yazışmaları türk ordusunda xidmət edən alman müşavirlərinin nəzarətində olduğu üçün o, özünün rəsmi əmrlərində Bakı üzərinə hücumun dayandırılmasını tələb edirdi.[361] Göyçay döyüşünün qələbə ilə başa çatdığı gün, iyul ayının 1-də yeni kömək göndərilməsini tələb edən İslam Ordusu komandanlığına göndərdiyi teleqramda Ənvər paşa yazırdı ki, sizə qüvvə göndərmək lazım deyildir. Vəzifəmiz Bakı üzərinə getmək olmayıb, birliklərimizi toplayaraq bolşeviklərin Gəncə üzərinə hücumunun qarşısını almaq olduğunu bir daha təkrar edirəm.[362] Eyni ilə bu məzmunda bir əmri Ənvər paşa Şərq Ordu Qrupu komandanına da göndərmişdi. Orada deyilirdi: "İcazəm olmadan Nuru paşaya heç bir qüvvə göndərməmənizi, Nuru paşa üçün yola çıxarılan birlikləri geri almanızı rica edirəm. Əvvəlcə bildirildiyi üzrə Nuru paşa qüvvələrini toplu halında hazırlayaraq yalnız bolşeviklərin irəliləməsinə mane olmağa çalışmalıdır.[363] Bolşeviklərin Bakı neft mədənlərini yandıracağı barədə almanların narahatlığının nəticəsi kimi, Ənvər paşa İslam Ordusu komandanlığına xəbərdarlıq edirdi ki, mənim razılığım olmadan qətiyyən Bakı istiqamətində hücum edilməməsini əmr edirəm.[364] Bu vəziyyət Rusiyanı təmin edirdi və iyulun 8-də Bakı barəsində hazırlanan alman-rus sövdələşməsi haqqında S.Şaumyana göndərilən məktubda qeyd edilirdi ki, bizim burada ümumi siyasətimiz Cənubi Qafqaz məsələsinin Rusiyanın daxili işi olduğunu almanlara qəbul etdirməkdir. Almanların diplomatik yardımına böyük ümid bəsləyən Sovet Rusiyası belə güman edirdi ki, onların təzyiqi ilə Türkiyə-Azərbaycan qoşunları geri çəkilməli olacaqdır. Ona görə İ.Stalin S.Şaumyana yazdığı məktubda məsləhət görürdü ki, almanlarla qarşılaşmamaq üçün Yelizavetpoldan o tərəfə keçməyin, istiqlaliyyəti Almaniya tərəfindən tanınmış Gürcüstana daxil olmayın. O yazırdı: "Ola bilsin ki, biz gürcü məsələsində almanlara güzəştə gedək, lakin biz bu güzəşti, ancaq o şərtlə edə bilərik ki, almanlar erməni və Azərbaycan probleminə müdaxilə etməyəcəklərinə təminat versinlər".[365]

Əslində Ənvər paşanın Bakıya hücumu dayandırmaq haqqında əmrləri və teleqramları aldadıcı olub, manevr xarakteri daşıyırdı. Elə həmin vaxt hərbi nazir gizli yollarla səlahiyyətli dairələrə çatdırırdı ki, "38-ci piyada alayını və bir topçu taborunu Qazax yolu ilə Nuru paşaya göndərdim".[366] Bir rəsmi əmrində Bakı

[360] V.İ.Lenin. Azərbaycan haqqında, s.131
[361] M.Süleymanov. Qafqaz İslam Ordusu və Azərbaycan, s.215
[362] Yenə orada, s.215
[363] Yenə orada, s.215
[364] Birinci Dünya Harbinde Türk Harbi Kafkas Cebhesi 3-cü Ordu Hareketi. Cilt II, Ankara, 1993, s.563
[365] Документы по истории гражданской войны в СССР, с.289-290
[366] M.Süleymanov. Qafqaz İslam Ordusu və Azərbaycan, s.215



downloaded from KitabYurdu.az

istiqamətində hücumu dayandırmağı tələb edən Ənvər paşa gizli qeydiyyatla göndərilən digər əmrində Qafqaz İslam Ordusu üçün zəruri olan əsgər, silah və hərbi sursatın dərhal göndərilməsini, Bakıya doğru dərhal hücuma keçib şəhərin, almanların müdaxiləsinə yol vermədən, azad edilməsini tələb edirdi. O, hətta Bakıya doğru hərəkətə mane ola biləcək alman hərbi dəstələri ilə döyüşə girilə biləcəyini də bildirirdi.[367] Eyni zamanda xarici işlər naziri M.H.Hacınski İstanbulda olan M.Ə.Rəsulzadəyə yazırdı ki, Bakının azad edilməsini sürətləndirmək üçün Türkiyə yardımın həcmini genişləndirməlidir. İyulun 22-dəki məktubunda o yazırdı: "Bizim cəbhədə vəziyyətimiz elə də ürəkaçan deyil. İrəliyə hərəkət edə bilmirik. Bolşeviklər güclü müqavimət göstərirlər, çoxlu mərmiləri var. Onlar sayı otuz minə qədər olan orduya malikdirlər (Bütün bunlar haqqında mən sizə ətraflı teleqram göndərəcəyəm). Tezliklə daha bir diviziyanın göndərilməsi məsələsini Ənvər paşanın qarşısında qaldırmağınızı xahiş edirik, əks təqdirdə hər şey məhv olacaq. Biz Bakını ala bilməyəcəyik, Türkiyənin nüfuzu düşəcək. Əgər bilmək istəyirsinizsə, o artıq düşməyə başlayıb... Ola bilsin ki, ordunun Bakı istiqamətində buraxılması və bizim işlərimizə müdaxilə etməməsi məsələsini Türkiyə Almaniya qarşısında israr etsin. Əgər bu mümkün deyilsə, özünüz orada məsləhətləşin".[368]

İyulun axırlarında hərbi əməliyyatların yenidən fəallaşması, İslam Ordusunun Bakı ətrafına gəlib çıxması alman-rus sövdələşməsini daha da reallaşdırdı. Türk qoşunlarının Azərbaycandakı uğurlu hərbi əməliyyatlarından qorxuya düşən Almaniya Baş qərargahı avqustun əvvəllərində məsələyə açıq müdaxilə etməyə başladı. Avqustun 4-də general Lüdendorf Ənvər paşaya bildirdi ki, Azərbaycanda hərbi əməliyyatlar dayandırılmasa, Osmanlı baş komandanlığında olan alman zabitləri geri çağırılacaqdır. O yazırdı: "Mən dözə bilmərəm ki, Türkiyə hakimiyyət dairələrinin sülh müqaviləsi şərtlərinə zidd hərəkətləri Rusiya ilə yeni müharibə təhlükəsi törətsin.[369]

Almaniya ilə yanaşı, Rusiya müxtəlif diplomatik yollarla Türkiyəyə də çəkindirici təsir göstərməyə çalışırdı. Bu məqsədlə avqust ayının 8-də G.Çiçerin Moskvadakı türk səfiri Qalib Kamalla görüşdü və Bakıya türk hücumunun dayandırılmasını tələb etdi, Osmanlı imperatorluğunu Brest sülhünün şərtlərini pozmaqda günahlandırdı. Türk səfiri bununla razılaşmadı və türk ordusunun Azərbaycandakı fəaliyyətini müsəlman əhalisinə divan tutan silahlı erməni dəstələrinin törətdiyi vəhşiliklərlə əlaqələndirdi. Səfir izah etdi ki, Brest müqaviləsinə görə, erməni quldur dəstələrini Rusiya tərksilah etməli idi. Qalib Kamalın fikrincə, Rusiya öz müqavilə öhdəliklərini yerinə yetirmədiyi üçün

[367] N.Yüceer. Birinci Dünya Savaşında Osmanlı Ordusunun Azerbaycan ve Dağıstan Hareketi. Ankara, 1996, s.65

[368] Xarici işlər naziri M.H.Hacınskinin İstanbulda Azərbaycan nümayəndəliyinin rəhbəri M.Ə.Rəsulzadəyə məlumatı. 22.07.1918. //ARPİİ SPİHDA, f.277, s.2, i.7, v.44

[369] T.Swietochowski. Russian Azerbaijan, p.134



downloaded from KitabYurdu.az

Türkiyə Azərbaycan əhalisini və türk təbəələrini bu quldur dəstələrindən qorumaq məcburiyyətindədir.[370]

Berlində və Moskvada alman-rus danışıqlarının davam etdiyi müddətdə Bakı XKS-nin cəbhədəki uğursuzluqları Bakıda vəziyyəti daha da kəskinləşdirdi. Böhranlı günlərdə Bakını necə müdafiə etmək, yaxud kimə təslim etmək məsələsi gündəlikdə dururdu. Nəticədə çar polkovniki Lazar Biçeraxovun yardımından istifadə etmək haqqında qərar qəbul edildi.

Məlum olduğu kimi, Rusiyanın İranda saxladığı ordu 1918-ci ildə buraxıldı, yalnız L.Biçeraxovun başçılıq etdiyi kazak alayı hərbi qüvvə kimi öz fəaliyyətini saxlamışdı. Amerika alimi F.Kazımzadənin sözləri ilə deyilsə, "Biçeraxov tipik rus imperialisti idi".[371] O, bolşeviklərə nifrət edirdi, əsas məqsədi isə Qafqaza hərəkət edib Bakı Sovetini dağıtmaq idi. Lakin o, Azərbaycan Respublikasının Osmanlı yardımı ilə Bakını azad etmək əməliyyatına da mane olmaq istəyirdi. Hələ iyunun 6-da Ənzəlidə olan bolşevik Çelyapin S.Şaumyana yazırdı ki, həmişə ingilislərə yaxın olan L.Biçeraxov öz mövqeyini dəyişmişdir. Öz sədaqətini sübut etmək üçün o, hətta ingilislərin bir sıra gizli planları barədə Bakı Sovetinə məlumatlar da vermişdi. İranda öz vəhşilikləri ilə məşhur olan çar polkovniki L.Biçeraxov indi Bakıya inqilabın müdafiəçilərindən biri kimi gəlirdi. Elə təxminən bu vaxt L.Biçeraxov Qızıl Ordunun komandanlığına başladığı dövrdə onun qardaşı Georgi Biçeraxov Terekdə antisovet qiyama başçılıq edirdi. L.Biçeraxovla sövdələşmə barədə S.Şaumyan iyunun 23-də V.İ.Leninə yazdığı məktubda göstərirdi: "Biçeraxov öz üzərinə məsul bir vəzifə götürmüşdür - bizim sağ cinahımızı qorusun və Şamaxı-Göyçay yolu ilə Kaxetyadan keçib Tiflisə tərəf yerisin və yolda dağlıları, xüsusən osetinləri ayağa qaldırsın. Bu plan onu çox ruhlandırır və onun həmin bu planı ilə əlaqədar biz də Tiflislə müəyyən şəkildə danışmağa başladıq və qəti qərara gəlmədən əvvəl bir daha fikirləşəcəyik. Nəzərdə tutmaq lazımdır ki, məsələnin yarımçıq həlli Biçeraxovu qane etmir, onun üçün kifayət deyildir, çünki o öz dəstəsinə deyir: biz Tiflisdən keçib hərbi Gürcüstan yolu ilə evimizə gedirik. Biçeraxov məsələsi aydınlaşdırıldıqdan sonra ingilislər bizi daha bir o qədər düşündürmür".[372]

Bakı XKS rəhbərliyinin L.Biçeraxovla əməkdaşlığını B.Şeboldayev L.Trotskiyə göndərdiyi 23 iyun tarixli məktubunda təsdiq edir. O yazır: "Ənzəlidən Biçeraxovun dəstəsi hərəkətə başladı. Onlar Ələt stansiyasına gəlib köhnə intizamı saxlamış, texniki cəhətdən təchiz olunmuş 1500 nəfərlik süngü ilə birbaşa cəbhəyə yollanacaqlar. Onların 4 aeroplanı, 3 zirehli maşını ingilis xidmətçiləri tərəfindən idarə olunur. Onların alınması məsələsi açıq qalır, belə ki, biz ingilislərin bizim ərazilərimizə buraxılmasının prinsipial olaraq mümkünsüzlüyünü bildirmişik. Biçeraxov fəaliyyətdə olan ordunun komandanı təyin edilir, lakin faktiki olaraq bu

[370] A.N.Kurat. Türkiye ve Rusiya, s.547
[371] F.Kazemzadeh. Tlıe Struggle for Transcaucasia, p.134
[372] S.Q.Şaumyan. Seçilmiş əsərləri, s.383



downloaded from KitabYurdu.az

formal xarakter daşıyacaq və onun niyyəti dəstəsinin sayını yeni üzvlər hesabına artırıb, Şamaxı və Siqnaxdan keçən köhnə yol ilə Tiflisə doğru hərəkət etməkdir."[373]

Əslində, Bakı XKS və onun rəhbəri S.Şaumyan Bakıya doğru hərəkət edən İslam Ordusuna qarşı siyasi yönümündən asılı olmayaraq hər kəslə əməkdaşlıq etməyə hazır idi. Elə həmin ilin iyul ayında türk ordusunun qarşısında geri çəkilən və keçdiyi yerlərdə, xüsusilə müvəqqəti olaraq bir hissəsini ələ keçirdiyi Naxçıvanda qanlı cinayətlər törədən Andronik S.Şaumyana yazırdı: "Qeyd-şərtsiz Brest-Litovsk müqaviləsinin şərtlərinə tabe oluram. Hazırkı vaxtda öz dəstəmlə birlikdə olduğum Naxçıvan qəzasını Rusiya Respublikasının ayrılmaz hissəsi elan edirəm. Xahiş edirəm, kimə lazımsa deyin ki, mən bu gündən etibarən öz dəstəmlə birlikdə Mərkəzi Rusiya hökumətinin sərəncamındayam. Türk ordusunun Naxçıvan qəzasının hüdudlarına daxil olmasına mane olmağa çalışacağıq. Cavabınızı və sərəncamınızı gözləyirəm".[374] Müsəlman əhalisinə qarşı qəddarlığı ilə ad çıxarmış Andronikdən bu məzmunda teleqram alan kimi S.Şaumyan təcili olaraq Culfaya onun adına cavab teleqramı göndərdi. O, yazırdı: "Sizin teleqramınızı aldım. Tam mətnini Moskvaya, Mərkəzi hökumətə çatdıracağam. Öz tərəfimdən sizin simanızda xalq qəhrəmanını salamlayıram. Əgər cənab Kaçaznuni və digərləri sizə oxşasaydılar, erməni kəndliləri indiki faciələri yaşamazdılar. Sizin bayrağınız altında döyüşən bütün qəhrəman döyüşçülərə, türk süngüsündən və satqın rəhbərlərdən ikiqat əziyyət çəkən zəhmətkeş əhaliyə bizim salamımızı yetirin. Hər hansı çətinliyə baxmayaraq, sizi inqilab bayrağını endirməməyə çağırıram."[375] Teleqramı alan Andronik ondan ruhlanaraq Zəngəzur və Qarabağdan keçib, Bakıya doğru hərəkət etməyə can atırdı.

Biçeraxovun dəstəsi Xəzər dənizi vasitəsi ilə iyulun 5-də Ələtə çıxarıldı. İyulun 7-də o, Bakı müdafiə xəttinin sağ cinahının komandanlığını qəbul etdi. Lakin cəbhədə vəziyyət ağırlaşdığından L.Biçeraxov vuruşmadı və iyulun axırlarında öz dəstəsini cəbhə xəttindən çıxarıb Şimal istiqamətinə çəkildi.[376] Ümumiyyətlə, bu oyuna daxil olanda L.Biçeraxovun özünün də hesablamaları var idi. O, daşnaklarla və erməni Milli Şurası ilə ittifaqda Tiflisi də işğal edib Cənubi Qafqazda hərbi diktatura yaratmaq fikrində idi. 1919-cu ildə Bakıda erməni kilsəsində axtarış aparılan zaman oradan L.Biçeraxovun arxivi tapıldı. Sənədlər erməni Milli Şurasının, daşnak partiyasının liderlərinin L.Biçeraxovla, onların üçünün də İranda olan ingilislərlə sıx əlaqədə olduğunu sübut edirdi.[377]

İyulun son günlərində Bakıda ağır vəziyyət yaranmışdı. Bakı XKS-nin kəndlilərə, müsəlman əhalisinə qarşı yeritdiyi zorakılıq siyasəti ətraf kəndlərin

---

[373] B.Şeboldaev-L.Trotskiyə. 23.06.1918. //ARPİİ SPİHDA, surət fondu, sənəd № 371, v.3
[374] V.Avetisyan, S.Ağayan - Sov.İKP MK-ya. 1965. //RDƏYTA, f.5, s.33, i.221, v.43
[375] Бакинский рабочий, 1918, 20 июля.
[376] R.Suny. The Baku Commune, p.317
[377] Я.Ратгаузер. Революция и гражданская война в Баку, с. 197



downloaded from KitabYurdu.az

Bakı ilə əlaqəsinin kəsilməsinə səbəb olmuşdu. Artıq iyulun 24-də Bakıda keçirilən qeyri-müsəlman fəhlələrin kütləvi mitinqlərində eser-menşevik-daşnak liderləri İslam Ordusunun hücumundan müdafiə məqsədi ilə ingilislərin Bakıya dəvət olunmasına tərəfdar çıxdılar. İyul ayının 25-də Bakı Sovetinin təcili iclası çağırıldı, S.Şaumyan siyasi və hərbi vəziyyət haqqında məruzə etdi. O, ingilis qoşunlarının çağırılması təklifinə etiraz etdi və bu barədə Mərkəzi Sovet hökumətindən alınmış teleqramın V Ümumrusiya Sovetlər qurultayı tərəfindən təsdiq edilmiş mətnini oxudu. İ.Stalinin imzaladığı həmin teleqramda deyilirdi: "Ümumrusiya MİK və Xalq Komissarlar Soveti adından mən bütün Bakı Sovetindən, ordu və donanmadan bütün Rusiya fəhlə və kəndlilərinin iradəsinə tamamilə tabe olmağı tələb edirəm. V Sovetlər qurultayının qərarına əsasən, mən Bakı Xalq Komissarları Sovetindən hökmən müstəqil beynəlxalq siyasət yeritməyi və yadelli kapital agentlərinə qarşı qəti mübarizə aparmağı, hətta müvafiq komissiyalarının üzvlərini həbs etməkdən çəkinməməyi tələb edirəm".[378] S.Şaumyan bildirirdi ki, Bakı RSFSR-in ayrılmaz hissəsi olduğundan Sovet Rusiyasının bu göstərişləri Bakı Soveti üçün məcburidir. İclasda S.Şaumyan başda olmaqla Bakı XKS-nin siyasəti kəskin surətdə tənqid edildi və bildirildi ki, öz xarici işlər komissarlığı olan Bakı Soveti bu işi Rusiyadan asılı olmayaraq müstəqil şəkildə həll etməlidir. İclasda bolşeviklər avantürist müharibəyə başladıqlarına görə kəskin şəkildə tənqid edildilər. Azərbaycan-türk qoşunlarının Bakının astanasında dayanması mart hadisələrini törətmiş Bakı Sovetini dəhşətli vahiməyə salmışdı. Sovetin iclasında çıxış edənlər Sovet Rusiyasının Bakıya heç bir yardım göstərmək iqtidarında olmadığını qeyd edərək, ingilisləri dəvət etməyi zəruri hesab edirdilər. Nəticədə gərgin mübahisələrdən sonra 236 səsə qarşı 259 səslə ingilisləri Bakıya dəvət etmək və koalision hökumət yaratmaq barədə qətnamə qəbul edildi. Belə olduqda bolşevik fraksiyası hakimiyyətdən əl çəkmək məcburiyyətində qaldı və S.Şaumyan Xalq Komissarları Şurasının istefa verəcəyini bildirdi. Bu barədə V.İ.Leninə və İ.Stalinə teleqramla məlumat verən S.Şaumyan "Bakını Rusiya üçün xilas etmək üçün"[379] təcili surətdə qoşun göndərilməsini təkidlə tələb edirdi. V.İ.Lenin cavabında bildirmişdi ki, "qoşun göndərmək haqqında tədbirlər görəcəyik, lakin qəti vəd edə bilmərik".[380] Bakının idarəçiliyində daşnakların həlledici rol oynadığını bilən Lenin həmin teleqramda yazırdı: "V Sovetlər qurultayının qərarına və Mərkəzi Sovet hakimiyyətinə qarşı daşnakların hər cür hərəkətləri üsyan və xəyanət hesab ediləcəkdir".[381]

Bakıya göndərilən belə hədələyici teleqramla yanaşı, Sovet Rusiyası Almaniya və Türkiyəyə münasibətdə diplomatik fəallığını da artırdı. Almanlarla bu məsələdə danışıqlar aparan A.İoffe G.Çiçerinə təcili teleqram göndərmişdi. Orada

[378] S.Şaumyan. Seçilmiş əsərləri, s.412-413
[379] Yenə orada, s.422
[380] V.İ.Lenin Azərbaycan haqqında, s.138
[381] Yenə orada.



downloaded from KitabYurdu.az

deyilirdi: "Almaniya vasitəsi ilə İstanbula təsir göstərilmişdir ki, türklər öz ordularını geri çəksinlər."[382] İyul ayının 25-də G.Çiçerin A.İoffeyə bildirirdi ki, alman-türk orduları Bakıya hücum edir, şəhər böyük təhlükə qarşısındadır. Bu təhlükəni aradan qaldırmaq üçün hücuma son qoymaq lazımdır.[383] Görünür, mərkəzi bolşevik hökuməti Azərbaycandakı vəziyyət haqqında səhv məlumat almışdı. Bakının azad edilməsi əməliyyatında Almaniya qoşunları iştirak etmirdi. Türkiyənin hərbi naziri Ənvər paşa haqlı olaraq qeyd edir ki, Almaniya Bakını tutmaq istəyir, lakin bu planı gerçəkləşdirmək üçün Zaqafqaziyada yetərli qüvvəyə malik deyildir. G.Çiçerinin iyulun 29-da A.İoffeyə göndərdiyi digər bir teleqramda qeyd edilirdi ki, Bakıda Sovet hakimiyyətinin xilas edilməsinin yeganə yolu oradakı türk ordularının geri çəkilməsidir.[384] G.Çiçerinin bu teleqramında və avqustun ortalarında Almaniyanın baş konsulu Hauşildə təqdim edilən sovet notasında söhbət artıq türk hücumundan gedirdi. Notada qeyd olunurdu ki, türk ordusu iyulun 22-də Ələtə, iyulun 28-də Biləcəri stansiyasına gəlib çatıb. İyulun 31-də türklər Şıx yüksəkliklərini və Bibi-Heybəti ələ keçiriblər. Müsəlman əhalisi arasında türklərə qarşı aparılan quduz təbliğata cavab olaraq İslam ordusu tərəfindən belə məzmunda vərəqələr yayılırdı ki, "biz vəhşi heyvanlar deyilik, sizi vəhşi heyvanların əlindən qurtarmağa gəlmişik". Öz notası ilə Rusiya Almaniyanı qorxudurdu ki, türklər Bakını tutmaqla böyük gəlir mənbəyini ələ keçirəcəklər, halbuki Bakı nefti tək Sovet Rusiyasına deyil, onunla iqtisadi müqavilələr bağlayacaq ölkələrə də lazımdır.[385]

Almanlar rusları inandırmağa çalışırdılar ki, türklərin Bakıya hücumu ilə bağlı məlumatlar doğru deyildir. Almaniya Xarici İşlər Nazirliyinin nümayəndəsi cənab Buşe A.İoffe ilə görüş zamanı ona dedi ki, həm İstanbuldan, həm də Tiflisdən alınan məlumatlar türklərin irəli hərəkət etməyəcəyindən və Bakını tutmayacağından xəbər verir. Almaniya Xarici İşlər Nazirliyinin rəsmisinin sözlərinə görə, əgər Sovet Rusiyasının məlumatları doğru çıxardısa, türklərin verdikləri sözə əməl etmədikləri bəlli olardısa, onda almanlar onları vədlərinə əməl etməyə məcbur edəcəkdilər.[386] Berlindəki sovet səfiri A.İoffe avqust ayının 1-də Moskvaya göndərdiyi məlumatda yazırdı: "Az əvvəl alman qərargahından dönmüş Almaniyanın Xarici İşlər Nazirliyinin şöbə müdiri İstanbuldakı alman səfiri Kont Bernsdorfun 30 iyul tarixli teleqramını mənə göndərmişdir. Bu teleqramda "səfirin Bakı haqqında əldə etdiyi məlumatlarla bağlı Ənvər paşa və sədr-əzəm Tələt paşadan xarici işlər naziri Nəsim bəylə də görüşdüyünü" və onların hər üçünün Nuru paşaya Bakı üzərinə hücumu dayandırmaq haqqında qəti bir əmr göndərdiyi

---

382 С.Шаумян. Бакинская Коммуна. Баку, 1927, с.38-39
383 Документы внешней политики СССР, с.410
384 A.N.Kurat. Türkiye ve Rusiya, s.545
385 Документы внешней политики СССР, с.428-431
386 A.N.Kurat. Türkiye ve Rusiya, s.545-546



downloaded from KitabYurdu.az

təsdiq edilirdi.[387] İstanbuldakı Almaniya səfirliyinin məlumatına görə, Bakı üzərinə türk ordusunun hücumu haqqında xəbərlər əsassız idi, əgər belə bir hücum var idisə, bu, Nuru paşanın özbaşınalığı və onun Azərbaycan könüllüləri ilə həyata keçirmək istədiyi bir təşəbbüs ola bilərdi."[388]

Azərbaycan hökuməti Bakını sülh yolu ilə, danışıqlar yolu ilə azad etməyə cəhd göstərirdi. İyul ayının 24-də xarici işlər naziri M.H.Hacınski İstanbula, M.Ə.Rəsulzadəyə yazırdı ki, şəhəri təslim etmək barədə bolşeviklərlə danışıqlar aparmaq üçün Bakı cəbhəsinə yollanır. M.H.Hacınski məlumat verirdi: "Bakı cəbhəsində işlər bizim xeyrimizədir. Doğrudur, dəmir yolu xətti ilə bizimkilər çox olmasa da, Kərrar stansiyasına qədər irəliləyə biliblər. Lakin aldığımız məlumatlara görə, bolşeviklərin əhval-ruhiyyəsi ölmüşdür. Biz Kürdəmir və Salyanda 18 iyul tarixli Bakı qəzetlərini aldıq. Bolşeviklərlə digər partiyalar arasında (eyni zamanda sağ daşnaklar arasında, hərçənd mən buna inanmıram) fikir ayrılığı var. Faktiki olaraq bu fikir ayrılığı milli zəminə keçib. Ələ keçirdikləri yerlərdə erməni bolşevikləri özlərini vəhşi kimi aparırlar, ruslar buna etiraz edirlər. Kürdəmir cəbhəsində yayılan şayiələrə görə, 800 nəfər rus, erməni vəhşiliklərinə etiraz olaraq (müsəlmanları məscidə toplayıb yandırıblar, uşaqları və qadınları kütləvi şəkildə qırıblar, bu fəlakətləri təsvir etməyə imkan yoxdur) silahlarını atıb gediblər. Onlar Bakıda həbs olunublar və indi Nargin adasında saxlanılırlar. Sonra ermənilər Bakıda ümumi səfərbərlik elan ediblər. Ruslar buna etiraz ediblər və vuruşmaq istəmirlər. Müsəlmanlar da bu məsələdə ruslarla həmrəydirlər. Şamaxıdan Çəngiyə qədər Şamaxı-Bakı yolu bizim tərəfimizdən alınıb. Erməni dəstələri vahimə içində Bakıya doğru qaçırlar. Bakı yaxınlığında döyüş gözlənilir".[389] İyulun 31-də isə baş nazir F.X.Xoyski M.Ə.Rəsulzadəyə yazırdı: "İki gün əvvəl Məmməd Həsən cəbhəyə gedib, bu axşam mən də yola düşürəm. Bizim ordu Bakıya çatıb, Qobu, Xırdalan və Sumqayıtı tutub, dəmir yolu boyunca isə Hacıqabulla Ələt arasındadır, ümid edirəm ki, əgər fövqəladə bir hadisə baş verməzsə, Bakı bizim tərəfimizdən götürüləcək".[390] Sonra Fətəli xan erməni məsələsi üzrə təlimat verərək yazırdı: "Azərbaycanın sərhədlərinin eskizləri cızılmış istədiyiniz xəritəni Sizə göndərirəm. Siz bütün vasitələrlə çalışmalısınız ki, əgər ermənilər Qarabağa iddialarını elan etsələr, o zaman İrəvanın və Qazax qəzasının bir hissəsini onlara güzəştə getməkdən imtina edəsiniz... Sizə deməliyəm ki, ermənilər heç cürə sakitləşmirlər, gah bir, gah digər yerdə müsəlmanları qırır, kəndləri və onların yaşayış yerlərini dağıdırlar, bu günlərdə yenidən Yeni Bəyazid qəzasında bir neçə müsəlman kəndlərini dağıdıblar. Onların generalı Andronik öz

---

[387] A.N.Kurat. Türkiye ve Rusiya, s.546

[388] Yenə orada, s.546

[389] Xarici işlər naziri M.H.Hacınskinin İstanbulda Azərbaycan nümayəndələrinin başçısı M.Ə.Rəsulzadəyə məlumatı. 24.07.1918. //ARPİİ SPİHDA, f.277, s.2, i.7, v.41-42

[390] Nazirlər Şurasının sədri F.X.Xoyskinin İstanbuldakı Azərbaycan nümayəndələrinin rəhbəri M.Ə.Rəsulzadəyə təcili diplomatik məlumatı. 31.07.1918. //ARPİİ SPİHDA, f.277, s.2, i.7, v.37



downloaded from KitabYurdu.az

ordusunu İrəvan və Yelizavetpol quberniyaları sərhədləri boyunca Zəngəzur istiqamətində toplayıb Gorusa yetişməkdədir. Hələ ki, biz qəti addımlar ata bilmirik, bütünlüklə Bakı məsələləri ilə məşğuluq, Allah qoysa bu əməliyyat qurtaran kimi, qeyd edilən daşnak-erməni hərəkətlərini də aradan qaldıracağıq". Daxili siyasətə gəldikdə isə, Fətəli xan sözünə davam edərək yazırdı ki, hələlik bütün münasibətlərdə ciddi bir irəliləyiş yoxdur, işlər ürəyimiz istəyən qaydada getmir, hələlik dözmək lazımdır. Baxarıq, sonra nə olacaq. Belə fikirləşirik ki, bu və ya digər formada işləri doğru istiqamətə yönəltməyə imkan olacaq. Məktubun sonunda Fətəli xan Zaqatala dairəsi, Borçalı qəzası və Qarayazı sahəsinin əhalisinin Azərbaycana birləşmək arzuları barədə M.Ə.Rəsulzadəyə yazırdı. O qeyd edirdi ki, "bu ərazilərlə bağlı statistik məlumatlar belədir: Borçalı qəzasında bütövlükdə 80 min nəfərə yaxın əhali yaşayır ki, bunun 50 min nəfəri müsəlmanlardır, Qarayazı sahəsində 30 min əhalinin demək olar ki, hamısı müsəlmanlardır, Zaqatala dairəsinin isə 100 min nəfərə yaxın əhalisinin 95 faizi müsəlmanlardır. Bu ərazilərin Azərbaycanın xeyrinə həll olunmasına ciddi şəkildə çalışmaq lazımdır".[391]

Bolşevik hökuməti əsasən, ermənilərə əsaslanaraq, İslam Ordusuna qarşı öz müqavimətlərinə sinfi rəng verməyə cəhd göstərirdilər. Xalq Komissarları Sovetinin Bakı əhalisinə müraciətində göstərilirdi ki, komissarlar yalnız nizami türk ordusuna qarşı deyil, Gəncə bəy və xanlarının çoxsaylı dəstələrinə qarşı da mübarizə aparırlar.[392] İyul ayının 28-də Mailov teatrının binasında keçirilən toplantıda sol eser M.Vəzirov dedi ki, əsirlik asılılıqdan bezikən müsəlman kəndliləri öz talelərini sovetlərin taleyi ilə bağlayıblar və böyük Rusiyanı müdafiə etmək üçün onlarla müsəlman kəndlisi Qırmızı Orduya yazılırlar.[393] Lakin bu sözlər deklarativ xarakter daşıyırdı və əslində vəziyyət heç də belə deyildi. İyul ayının 28-də Bakı XKS 1883-1892-ci illərdə doğulmuş kişi əhalinin hərbi səfərbərliyi haqqında dekret vermişdi. Bakı Sovetinin nəzarətində olan kəndlərdə müsəlman əhalisi zor gücünə orduya səfərbər edilirdi. Bakı kommunası tərəfindən cəbhəyə göndərilən bu adamlar ilk imkan düşən kimi Bakını mühasirəyə almış İslam Ordusu tərəfinə keçirdi. Hətta XKS-nin Maştağa, Buzovna, Suraxanı, Şüvəlan və Mərdəkan kəndlərinin sakinlərinin hər hansı yerdəyişməsini qadağan edən xüsusi əmri olmuşdu. Bu əmr onunla bağlı idi ki, bu kəndlərin əhalisi kiçik partizan dəstələri yaradaraq Bakının azad olunmasında İslam Ordusuna yardım göstərirdi.[394] Həmin vaxtlar Balaxanıda işləmiş bolşevik Blyumin öz xatirələrində yazırdı: Müsəlman əhalisi bolşeviklərin simasında quldur və soyğunçuları görürdülər. Türklər Bakıya hücum edən vaxt yerli müsəlmanlar onlara qoşuldular.

---

[391] Yenə orada, s.37-38
[392] Известия Бакинского Совета, 1918, 30 июля.
[393] Yenə orada.
[394] Памяти 26-ти. Баку, 1922, с. 165



downloaded from KitabYurdu.az

Onlar türkləri bolşevik zülmündən xilaskar kimi qarşılayırdılar.[395] Hətta cəbhəyə göndərilən müsəlman sosialist hümmətçilərin çoxu türk ordusu tərəfinə keçmişdilər.[396]

İyulun 30-da "Kommuna" ordusunun rəhbərlərindən biri Avetisov Bakı Sovetinə məlumat verdi ki, müqavimətin davam etdirilməsi əhəmiyyətsizdir. Elə həmin gün XKS-nə gələn Erməni Milli Şurasının rəhbərləri bolşeviklərdən hakimiyyəti təhvil verməyi tələb etdilər. İyulun 31-də Bakı XKS-i öz səlahiyyətinin qurtardığını bildirdi və komissarlar "Ərdəhan" gəmisində Həştərxana yola düşdülər. Lakin onlar hələ şəhərdən uzaqlaşmamış, əsasən, erməni Milli Şurasının və daşnakların əlində olan eser-daşnak-menşevik ittifaqı zəminində "Sentrokaspi və Sovetin Müvəqqəti İcraiyyə Komitəsinin Rəyasət Heyətinin diktaturası" deyilən yeni oyuncaq bir hökumət təşkil edildi. Avqustun 1-də təşkil olunmuş Sentrokaspi hökumətinə Xəzər donanmasının zabitlərindən Peçenkin, Tyuşkov, Buşev, Lemleyn, Yermakov, eserlərdən L.Umanski, A.Veluns, menşeviklərdən Q.Ayolla, M.Sadovski, daşnaklardan A.Arakelyan və Məlik-Yolçuyan daxil edilmişdi. Göründüyü kimi, özündən əvvəlki hökumət kimi Sentrokaspi hökumətinin də Azərbaycana heç bir dəxli yox idi və bütövlükdə yadellilərdən təşkil olunmuşdu. Hökumət qurulan kimi Bakının xristian əhalisinə müraciət edildi. Orada deyilirdi: "Türklərə qarşı mübarizədə siz yalqız deyilsiniz. Yaxın günlərdə müttəfiqlərdən ciddi kömək alınacaq".[397] Hökumətin qərarı ilə Bakı XKS-ni tam heyətdə Həştərxana aparan gəmi sahilə qaytarıldı və Bakıdan qaçmağa cəhd göstərən bolşeviklər həbsə alındı. Zavod komitələrinin yeni hökuməti müdafiə məqsədi ilə keçirilən konfransında qəbul olunmuş qətnamədə göstərilirdi ki, keçmiş komissarlar nəinki öz vəzifələrini tərk etmiş, Bakı əhalisi üçün ölümcül təhlükə yarandığı bir dövrdə cəbhəni özbaşına qoymuşlar, eyni zamanda müdafiə üçün zəruri olan ərzağı, hərbi sursatı və silahı da aparmağa xaincəsinə cəhd göstərmişlər. Konfrans komissarları xalqa xəyanətdə günahlandırıb, onları xalq düşmənləri hesab etdi.[398]

Bakı Xalq Komissarları Sovetinin devrilməsi Azərbaycan hökuməti tərəfindən mühüm hadisə kimi qarşılandı. Bu hadisə Almaniya və Avstriyanın Cənubi Qafqazda olan nümayəndələrinin Bakı məsələsində geri çəkilməsi ilə nəticələndi. Bu barədə Xan Xoyski M.Ə.Rəsulzadəyə yazırdı: Məlumat üçün bildirirəm ki, Bakıda bolşevik hakimiyyəti devrilmişdir. Rusiya bolşeviklərinin nümayəndələri həbs edilmişdir. Mədənlərin bir hissəsi və bütün Abşeron yarımadası bizim əlimizdədir. Biz əminik ki, yaxın günlərdə şəhər təslim olacaq.

---

[395] Bakıda və Azərbaycanda 1917-1918-ci illərin inqilabi hadisələri haqqında xatirələr. Blyuminin xatirələrindən. 1922. //ARPİİ SPİHDA, f.276, s.2, i.20, v.18-19

[396] 1917-1920-ci illərdə Bakıda Qırmızı Qvardiya haqqında xatirələr. Tarixsiz. //ARPİİ SPİHDA, f.276, s.2, i.22, v.90

[397] Бюллетень Центрокаспия, 1918, 3 августа.

[398] А. Дубнер. Бакинский пролетариат в годы революции (1917-1920 гг.). Б., 1931, с.95



downloaded from KitabYurdu.az

Almaniya və Avstriya missiyalarının başçıları dəfələrlə burada bizi əmin etmişlər ki, onlar Bakını Azərbaycanın ayrılmaz hissəsi və paytaxtı kimi tanıyırlar. İndi onlar, hətta ordu daşınmasında bizə yardım da göstərirlər."[399] Eyni məzmunda məlumat xarici işlər naziri M.H.Hacınski tərəfindən də İstanbula, M.Ə.Rəsulzadəyə göndərilmişdi. O yazırdı: "Bakı cəbhəsində vəziyyət belədir: bizim ordumuz üç tərəfdən şəhərə yaxınlaşıb. Müsəlman məzarlığı, Sallaxana və Ermənikəndin qarşısı alınıb. Bütün kəndlərin və bağların Bakı ilə əlaqəsi kəsilib və onlar azad şəkildə bizimlə əlaqə saxlayırlar. Mən şəxsən cəbhədə olmuşam. Sizinkilər sağdır. Biz şəhərə girən anda kiçik bir bədbəxtçilik baş verdi və biz bir qədər geri çəkilməli olduq. Bakıda bolşevik hökuməti devrilib, Şaumyan və digərləri həbs olunub, onları menşeviklər və daşnaklar, eyni zamanda bütövlükdə ruslar və yəhudilər əvəz ediblər. Onların qüvvələri böyükdür. Mən bu barədə Xəlil paşaya məruzə etdim. Təcili olaraq Batumdan bir diviziya da hərəkət etməlidir. Bu, o halda mümkündür ki, türklər Abastuman və Asxuru gürcülərə versinlər. Xəlil paşa bu barədə Ənvər paşadan xahiş edib. Siz də bu istiqamətdə hərəkət etməlisiniz, əks təqdirdə Bakı əldən çıxacaq. Düşmənin çoxlu sayda mərmiləri, uzaqvuran topları və aeroplanları var. Əgər bizim əlimizdə güclü silahlar olmasa, hətta Bakı alındıqdan sonra belə düşmənlər şəhəri dağıda və yandıra bilərlər."[400] Sonra isə M.H.Hacınski məlumat verirdi ki, türk ordusu şəhərə həlledici hücum üçün Ənvər paşadan əmr alıb. Avqustun 2 və 3-də türk və Azərbaycan orduları müxtəlif istiqamətlərdən şəhərə daxil oldu. Çətin anda siyasi ixtilafları unudaraq bolşevik, menşevik və eserlər ümumi düşmən hesab etdikləri türklərə qarşı birləşməklə növbəti dəfə nümayiş etdirdilər ki, məsələ sinfi deyil, milli xarakter daşıyır. S.Şaumyanın əmri ilə Petrovun dəstəsi Qurd Qapısında müdafiə mövqeyi tutdu. Həmin gün bolşeviklərin və sentrokaspiçilərin birgə hərəkəti türklərin Bakıya doğru irəliləməsini yubandırdı. Sentrokaspi hökuməti adından daşnak Arakelyan bolşevik Petrova təşəkkür elan etdi.[401]

Hakimiyyətə gəldikdən sonra Sentrokaspi diktaturasının ilk addımlarından biri Ənzəlidə olan ingilislərin Bakıya gəlişini sürətləndirmək oldu. Avqustun ilk günlərində Bakıda keçirilən fövqəladə iclasda eser Lev Umanski hamını inandırmağa cəhd göstərdi ki, ikicə gün dözmək lazımdır, müttəfiqlərin yardımı artıq yaxındadır. O, əmin edirdi ki, əgər türklər şəhərə girsələr, əhalini faciəli fəlakətdən, ancaq ingilislərin gəlişi xilas edə bilər.[402] Erməni Milli Şurası və daşnak liderləri hələ iyun ayında İranda olan ingilis hərbi hissələrinin komandanı general L.Denstervil ilə əlaqə yaratmışdılar. İngilislər türklərin Bakı uğrunda

[399] Bakıda bolşevik hakimiyyətinin devrilməsi barədə F.X.Xoyskinin M.Ə.Rəsulzadəyə şifroqramı. 11.09.1918.//ARPİİ SPİHDA, f.277, s.2, i.8, v.8

[400] Xarici işlər naziri M.H.Hacınskinin Bakının tutulması barədə şifroqramı. 20.09.1918. //ARPİİ SPİHDA, f.277, s.2, i.8, v.13-16

[401] Сурен Шаумян. Бакинская Коммуна. Баку, 1927, с.55

[402] Бюллетень Центрокаспия, 1918, 2 августа.



downloaded from KitabYurdu.az

döyüşlərdə qazandıqları qələbələrdən bərk narahat olmuşdular. Bir tərəfdən bu narahatçılıq alman-türk blokunun Bakı neftini ələ keçirmələri ilə bağlı idisə, digər tərəfdən Nuru paşanın daha uzağa, Orta Asiya, Əfqanıstan və Hindistana doğru hərəkət arzusu istisnalıq təşkil etmirdi. İngilislər kayzer II Vilhelm ilə Əfqanıstan əmiri Həbibullaxan arasında yazışmalardan məlumatlı idilər. İslam Ordusunun qələbələri haqda məlumatların türklər tərəfindən İran və Əfqanıstanda yayılması ingilisləri əsəbiləşdirirdi.[403] İngilislərin baş planına görə türklərin Şərqə yürüşünün qarşısı Bakıda alınmalı idi. Əgər bu mümkün olmazdısa, ehtiyat variant kimi ingilislər Orta Asiyada möhkəmlənməyi düşünürdülər. Bu məqsədlə general-mayor V.Malleson 1918-ci ilin iyununda Orta Asiyada ingilis missiyasının başçısı təyin edilmişdi. L.Denstervil isə Ənzəlidən Bakıya desant çıxarmaq üçün əlverişli məqam gözləyirdi.

1918-ci ilin aprelində Bakı Erməni Milli Şurasının nümayəndəsi doktor Araratyan Həmədana gedərək general Denstervillə gizli danışıqlarda Bakıya qoşun çıxarmağın mümkünlüyü məsələsini müzakirə etmişdi.[404] Ona görə də iyunun 19-da Gilanda olan Çelyapin S.Şaumyana yazırdı ki, daşnakların ingilislərlə əlaqəsi vardır, onlar ingilisləri bütün vasitələrlə Bakıya cəlb etməyə cəhd göstərirlər.[405] İngilislər Xəzər dənizi sahillərinə çatdıqda və Bakıya daxil olmaq üçün əlverişli imkana malik olduqda, erməni Milli Şurası öz nümayəndəsi S.A.Ter-Qazarovu iyul ayının ortalarında "ingilisləri çağırmaq barədə danışıqlar aparmaq üçün Ənzəli şəhərinə, İranda ingilis ordusu komandanı general Denstervilin yanına göndərmişdi".[406] Erməni Milli Şurasının ingilisləri Bakıya dəvət etmək planlarını həmin dövrdə Denstervilin ordusunda xidmət etmiş podpolkovnik A.Roulinson da təsdiq edirdi. O, "1918-1922-ci illərdə Yaxın Şərqdə sərgüzəştlər" adlı xatirələrində qeyd edir ki, ermənilər Bakıda bolşevikləri hakimiyyətdən kənarlaşdırdıqdan sonra bizdən kömək almağa cəhd göstərirdilər. Belə bir şəraitdə qərara alındı ki, onlara kömək edilsin.[407] Bakıda cərəyan edən hadisələri ingilislər çox diqqətlə izləyirdilər. Bakıdakı ingilis konsulu Mak Donel bu barədə tez-tez Denstervilə məlumatlar göndərirdi. Denstervil Bakı daşnakları və eserləri ilə yaratdığı əlaqədən bəhs edərək yazırdı: "Demək olar ki, hər gün gedib-gələn qasidlərin vasitəsi ilə mən Bakı ilə əlaqə yaratmışdım. Belə görünürdü ki, dostlarımız tez bir zamanda bolşevikləri hakimiyyətdən yıxmağa, Bakıda yeni idarə üsulu yaratmağa və ingilisləri köməyə çağırmağa qabildirlər".[408]

Bakıda yaranmış belə vəziyyət Antantanın Qafqazı və ilk növbədə Bakını işğal etməsi üçün əlverişli şərait yaradırdı. 1918-ci ilin yazından başlayaraq

---

[403] В.Маллесон. Двадцать шесть комиссаров. Из английского журнала за март 1933 г. //ARPİİ SPİHDA, f.303, s.1a, i.31, v.6-7
[404] Л.Денстервиль. Британский империализм в Баку и Персии. 1917-1918. Тифлис, 1925, с. 107
[405] Я.Ратгаузер. Революция и гражданская война в Баку, ч.1, с. 197
[406] Б.Байков. Воспоминания о революции в Закавказье, с. 129
[407] A.Rowlinson. Adventures in the Near East, p.69
[408] Л.Денстервиль. Британский империализм в Баку и Персии. 1917-1918, с. 159



downloaded from KitabYurdu.az

Antanta ölkələri Qafqazı fəal hərbi əməliyyat meydanına çevirmək fikrində idilər. Bu məqsədlə onlar bildirirdilər ki, "Şimali İranda və Qafqazda istifadə etmək üçün böyük qüvvə hazırlamaq lazımdır. Görünür ki, bu istiqamət müttəfiqlər üçün ən vacib bir istiqamətdir. Qafqazın ən mühüm neft rayonlarını işğal etmək müttəfiqlərin birinci növbəli vəzifəsidir".[409]

Əslində müttəfiqlər bu işə 1918-ci ilin əvvəllərindən başlamışdılar. Bağdadda olan ingilis Baş Qərargahının qarşısında duran ən mühüm vəzifələrdən biri almanları və türkləri Qafqaza buraxmamaq idi. Hələ 1917-ci ilin dekabr ayının 23-də İngiltərə və Fransa Rusiyanın cənubunu nüfuz dairəsinə bölmək haqqında saziş imzalamışdılar. Fransızlar tərəfindən Klemanso, Pişon və Foşun, ingilislər tərəfindən lord Milnerin, lord Robert Sesilin və digər ingilis hərbi dairələri nümayəndələrinin hazırladığı sazişin 3-cü maddəsinə əsasən, fransızlar Bessarabiya, Ukrayna və Krımı, ingilislər isə Qafqazı tutmalı idilər. Bu planın həyata keçirilməsi üçün ingilislər ilk növbədə Bakını və "Bakı-Batum dəmir yolunu" ələ keçirmək istəyirdilər.[410] Devid Lloyd Corc öz xatirələrində qeyd edir ki, 1918-ci ilin yazında hələ müharibənin taleyi məlum deyildi. Ona görə müttəfiqlər Xəzər sahillərində olan Bakı neft yataqlarından Mərkəz dövlətlərinin hər hansı formada istifadə etməsinin qarşısını almalı idilər.[411] Bu məqsədlə 1918-ci ilin yanvarında Mesopotamiyada xüsusi ekspedisiya yaradıldı ki, ona da general-mayor L.Denstervil başçılıq edirdi. Rəsmi şəkildə bu ordu "Densterfors" adlandırılmağa başlandı. "Londonda elan edilmişdi ki, "Densterfors"un əsas məqsədi Əfqanıstan və Hindistana doğru alman-türk qoşunlarının hərəkətinə mane olmaqdır".[412] Bu ekspedisiya Mesopotamiya-İran sərhədini keçib, Kermanşah, Həmədan, Qəzvin yolu ilə Ənzəli limanına gəlməli və oradan da Tiflisə hərəkət etməli idi.[413] 1918-ci ilin əvvəllərində ingilislər bu fikirdə idilər ki, Cənubi Qafqaz millətlərinin ordusunu yaradıb türk-alman müdaxiləsinə qarşı müqavimət göstərmək olar. Ona görə də ingilislər sürətlə hərəkət edərək fevral ayının 17-də Xəzər dənizinin cənub sahillərinə çıxa bildilər.[414] Bakı nefti uğrunda gedən bu mübarizəni 1928-ci ildə İstanbulda nəşr olunmuş "Beynəlmiləl siyasətdə petrol" adlı kitabında Mir Yaqub Mehdizadə obrazlı formada belə səciyyələndirirdi: ingilis arslanı əcələ ilə gəlirdi, Bakı petrol ocaqlarına qonmaq istəyən alman qartalına yol vermək istəmirdi.[415]

1918-ci ilin əvvəlində Cənubi Qafqazda siyasi vəziyyət tez-tez dəyişirdi. Xristian elementləri türk hücumundan ehtiyat etdiklərindən "istər Tiflisdə və istərsə də Bakıda olan erməni siyasətçiləri ingilislərlə əlaqəyə girib, onlardan

---

[409] The New-York Times, 1918, 14 July
[410] В.Черчилль. Мировой кризис. М., 1932, с. 105
[411] Девид Ллойд Джордж. Военные мемуары. Том VI. М, 1937, с.97
[412] N.S.Fatemi. Diplomatic history of Russia. 1917-1923. New York, 1952, p.143
[413] G.Lenczowski. Russia and the West in Iran, p.98
[414] Д.Ллойд Джордж. Военные мемуары. Том VI, с.98
[415] M.Mehdizadə. Beynəlmiləl siyasətdə petrol. Bakı, 1994, s. 10-11



downloaded from KitabYurdu.az

yardım almağın mümkünlüyünü sınaqdan çıxarmaq istəyirdilər".[416] Cənubi Qafqazda olan milli qüvvələri fəallaşdırmaq və ümumilikdə vəziyyəti öyrənmək üçün ingilislər general Offlini Tiflisə göndərdilər. Həmədana qayıdarkən o, Cənubi Qafqazda alman meylinin güclü olduğu və vəziyyətin müttəfiqlərin xeyrinə olmadığı barədə məruzə etdi. İngilislərin Tiflisə doğru hərəkətinə mane olan bir sıra səbəblər var idi. Birincisi, Gilan vilayətində İran hökumətinə qarşı qiyam qaldırmış Kuçek Xan ingilislərə düşmən münasibət bəsləyirdi. İkincisi, Ənzəli limanı bolşevik təmayüllü elementlərin nəzarəti altında idi. Üçüncüsü, Tiflisə getmək üçün ingilislərin desant çıxaracağı Bakı limanı bolşeviklərin əlində idi. "Bütün bu maneələr Denstervilin Tiflisə tezliklə çatmasının qarşısını aldı. Bununla əlaqədar o, 1918-ci ilin avqust ayının ortalarına qədər İranda qalıb Cənubi Qafqazda daha əlverişli dəyişiklikləri gözləməli oldu".[417] Lakin bununla bərabər bolşeviklərin ingilislərlə əməkdaşlığına dəlalət edən bəzi faktlar da mövcuddur. Podpolkovnik A.Roulinson öz xatirələrində qeyd edir ki, Bakı bolşevikləri Bağdaddan onlara göndəriləcək bir neçə maşına əvəz olaraq bizim sərəncamımıza xeyli benzin verdilər.[418]

Bakı bolşeviklərinin ingilislərlə gizli əməkdaşlığı barədə məlumatlar o qədər geniş yayılmışdı ki, S.Şaumyan və A.Caparidze 1918-ci ilin iyun ayının 21-də Petrovsk, Yekaterinador, Astraxan, Saritsin, Saratov və Moskvaya, şəxsən V.Leninə radioteleqram göndərərək bu məlumatı təkzib etmək məcburiyyətində qalmışdılar.[419]

1918-ci ilin avqust ayının əvvəllərində gözlənilən əlverişli şərait yarandı, beş diktatordan - üç donanma zabitindən və iki matrosdan ibarət olan Sentrokaspi hökuməti bolşevikləri və şəhərdə olan kiçik sayda almanları həbs edib yardım üçün Britaniya qüvvələrinə müraciət etdilər.[420] Yaxın Şərqdə Britaniya gizli xidmətinin xüsusi nümayəndəsi P.Hopkirk bununla bağlı yazır: "Nəhayət, Denstervilin uzun müddət gözlədiyi məqam yetişdi. O, rəsmən Bakıya dəvət edildi. Onun zabitləri tələsik ekspedisiya üçün yararlı gəmiləri gözdən keçirdilər. Makdonell Sentrokaspi diktaturasına xəbər verdi ki, yardım artıq yoldadır. Ənvər paşanı Bakıya buraxmamaq və neft mədənlərində ağalığına yol verməmək məqsədilə yarış başladı.[421]

Avqust ayının 4-də polkovnik Stoksun başçılıq etdiyi ilk ingilis dəstəsi Bakıya gəldi. Onların sayı 240 nəfərdən çox deyildi.[422] Az sonra, avqustun 9-17

---

[416] G.Lenczowski. Russia and the West in Iran, p.17
[417] G.Lenczowski. Russia and the West in Iran, p.17-18
[418] A.Rowlinson. Adventures in the Near East, p.70
[419] S.Şaumyan, A.Caparidze - Petrovsk, Yekaterinador, Astraxan, Saritsin, Saratov və Moskvaya, şəxsən V.Leninə. 21.06.1918. //ARPİİ SPİHDA, surət fondu, sənəd № 370, v.21
[420] N.S.Fatemi. Diplomatic History of Russia, p.143
[421] P.Hopkirk. On Secret Service East of Constantinople, p.330
[422] Bakıda və Azərbaycanda 1917-1918-ci illərin inqilabi hadisələri haqqında xatirələr. Blyuminin xatirələrindən. 1922. //ARPİİ SPİHDA, f.276, s.2, i.20, v.20



downloaded from KitabYurdu.az

arası üç batalyon, bir səhra artilleriya batareyası və bir neçə zirehli maşından ibarət olan ingilis hərbi qüvvələri Bakıya daxil oldular.[423] Həmin anda P.Hopkirk Bakıda olan vəziyyəti belə təsvir edirdi: 1918-ci ilin avqust ayının 17-də britaniyalılar mürgüləyən Bakı limanına yaxınlaşan zaman, bir vaxtlar bərq vuran şəhərdən şirin xatirələrin kölgəsi qalmışdı. Müharibə və inqilabdan sonra Bakı 1919-cu ildə kommunistlər tərəfindən tutulmuş Şanxayı xatırladırdı. Lakin Bakının enişi hələ bolşeviklərin gəlişinə qədər başlamışdı. Neft mədənlərində görünməmiş ağır əmək şəraiti, neft çıxarılmasının səviyyəsinə təsir göstərən çoxsaylı tətillərə gətirib çıxarmışdı. Sənaye birtərəfli inkişaf edirdi. Etnik toqquşmalar və çar hökumətinin repressiya tədbirləri sənayenin inkişafına ağır zərbə vurmuşdu. Neft sənayeçiləri texnologiyaya kapital qoyuluşunu mənasız hesab edirdilər. Müharibə Bakını dünya bazarından uzaqlaşdırmış və şəhəri daxili bazardan asılı vəziyyətə salmışdı. Bütün bunlar Bakının inqilabçıların əlinə keçməsinə gətirib çıxarmışdı. S.Şaumyan başda olmaqla Bakı Sovetinin və Sentrokaspi diktaturasının mövcudluğu üçün qısamüddətli yol açılmışdı.[424]

Bakıya daxil olan ingilis hərbi qüvvələrinin sayı barədə bir-birinə uyğun olmayan müxtəlif fikirlər mövcuddur. Lakin müxtəlif mənbələrin tutuşdurulması və bu əməliyyata rəhbərlik etmiş general Denstervilin xatirələrini əsas götürməklə Bakıya avqust ayında daxil olan Britaniya qoşunlarının sayının 1000 nəfərdən artıq olmaması fikrilə razılaşmaq olar. Avqustun 17-də Denstervil Bakıya daxil olduqda türklərin hücumundan bərk qorxuya düşən şəhərin xristian əhalisi, xüsusilə ermənilər ağ əlcək geyib əllərində meymun tutan ingilis dəstələrini böyük sevinclə qarşıladılar.[425] Lakin Britaniya yardımının təəccüb doğuracaq qədər az olması şəhərin xristian əhalisini hiddətləndirdi. Halbuki Bakıda yardıma gələn ingilis ordusunun sayının 20-30 min olması barədə təbliğat aparılırdı. Belə şayiələr yayılırdı ki, guya ingilislər nəinki şəhərin yorulmuş müdafiəçilərini əvəz edəcəklər, ümumilikdə bütün Cənubi Qafqazı türklərdən təmizləyəcəklər.[426]

Avqust ayının 5-də ingilis komandanlığı ilə Sentrokaspi rəhbərliyinin birgə müşavirəsi keçirildi. İngilislər Sentrokaspi ordusunun sayının az olmasından və pis təlim görməsindən narazılıq edib bildirdilər ki, bu ordu ilə Bakını saxlamaq olmaz. Bu məqamda menşevik Sadovski ironik formada ingilis zabitindən soruşdu: "Bəs

---

[423] Ministère des Affaires Etrangères (MAE) de France (Archives Diplomatique) Correspondanse politique et commerciale. 1914-1940 Sèrie «Z» Europe 1918-1940 Sous-Serie USSR Europe - Russie service russe d'information et d'edudes (S.R.I.E.) XLI Caucase - Azerbaidjan (1918-1920). Direction des Affaires Polotiques et Commerciales Caucase Republique d'Azerbaidjan Evenements Annees 1918-1919. Vol.832, folio 2

[424] P.Hopkirk. On Secret Service East of Constantinople. p.332

[425] Həmid Sultanov. XKS-nin yaranması, iyul günləri, Sovetin dağılması, ingilislərin dəvət edilməsi və Sentrokaspi Diktaturası. 16.10.1923. //ARPİİ SPİHDA, f.276, s.2, i.128, v.2-3; F.Kazemzadeh. The Struggle for Transcaucasia. p.141

[426] W.E.D.Allen and Paul Muratof. Caucasian Battlefields, p.493; Бюллетень Центрокаспия, 1918, 6 августа.



downloaded from KitabYurdu.az

hanı sizin Abram Velunsa və Ter-Aqayana vəd etdiyiniz böyük ordu?" L.Denstervilin nümayəndəsi açıq şəkildə bildirdi ki, İngiltərə heç yerdə, heç kimə, heç vaxt belə bir köməyi vəd etməyib. Belə fikirləşmək gülməli olardı ki, ingilis ordusu Mesopotamiyadan bura gələcək. Bu məsələ barəsində A.Velunsdan soruşan zaman o, qeyd etdi ki, İngiltərə öz nüfuzunu yüksək tutur, əgər ingilislər Bakıya daxil olublarsa, buradan elə də asanlıqla çıxmayacaqlar.[427]

Köməyə gələn qüvvənin az olmasından ciddi narahatçılıq keçirən şəhərin xristian əhalisini sakitləşdirmək üçün şayiələr yaymağa başladılar ki, çoxsaylı ingilis ordusu tezliklə Bakıya gələcək və Sentrokaspi ordusuna britaniyalılar tərəfindən hərbi-texniki yardım gücləndiriləcək. Sentrokaspi əsgərlərinin döyüş ruhunu qaldırmaq məqsədilə hələ Ənzəlidə olan L.Denstervilin bəyanatı oxundu. Bu bəyanatın mənası ondan ibarət idi ki, İngiltərə hökuməti müttəfiqlərlə müqavilə əsasında Bakı əhalisinin xahişi ilə mühasirədə olan şəhərə ordu və hərbi sursat göndərir. Türkiyə və Almaniya ilə mübarizə məqsədilə ingilis ordusu Sentrokaspi hökuməti və L.Biçeraxovla birgə hərəkət edəcək. Nəhayət, L.Denstervil şəhərin "qəhrəman müdafiəçilərini" təbrik edir və bildirirdi ki, əgər hamı düşmənə qarşı mübarizəyə qalxsa, yaxın vaxtlarda qələbəni qeyd etmək olar.[428] Avqust ayının 8-də diktatura üzvlərinin və ingilislərin birgə iclasında general L.Denstervilin bəyanatını oxuyan kapitan Recinald Tiq Cons Sentrokaspi tərəfdarlarını daha böyük pafosla ruhlandıraraq dedi: "Biz inanmırdıq ki, siz Bakını belə müdafiə edə bilərsiniz. Əgər biz birgə hərəkət etsək, nəinki şəhəri saxlayacağıq, eyni zamanda düşməni buralardan qovacağıq".[429] Az saylı ingilis dəstələrinin bir hissəsi əsasən rabitə sisteminin mühəndis-texniki qurğularına xidmət etmək üçün cəbhəyə getdi, digər hissəsi isə şəhərdə qalıb hərbi təlimlərlə məşğul olurdu.

Sentrokaspi Diktaturasında formal şəkildə hakimiyyət Xəzər donanması zabit və matrosların əlində olsa da, əslində real hakimiyyət erməni Milli Şurası, Daşnaksütyun partiyası və digər erməni partiya və təşkilatlarına məxsus idi. Azərbaycan-türk hücumuna qarşı şəhərin müdafiəsinə onlar rəhbərlik edirdi. Avqust ayının ilk günlərində Bakı şəhəri və rayonlarının səfərbərlik işləri üzrə komissarı R.Bekzadyanın və komissarlığın katibi Qukasyanın imzaladığı əmrdə göstərilirdi ki, avqustun 3-də saat 6-dan gec olmayaraq bütün mənzil idarələri şəhərin kişi əhalisinin dəqiq sayı və uçotu barədə məlumatları mərkəzi səfərbərlik idarəsinə təqdim etməlidirlər.[430] ABŞ-da yaşamış erməni tarixçisi S.Atamyan göstərir ki, Denstervil ordusu gələnə qədər Bakını türklərin hücumundan 7-8 min erməni əsgərləri qoruyurdu.[431] P.Hopkirk Denstervilin gəlişindən sonra Bakıda yaranmış vəziyyəti belə təsvir edirdi: Bakıya gəlmiş Britaniya ön dəstələrinin

---

[427] Памяти 26-ти. Баку, 1922, с.55
[428] Бюллетень Центрокаспия, 1918, 9 августа.
[429] Yenə orada.
[430] ARPİİ SPİHDA, f.276, s.7, i.256, v.l
[431] S.Atamian. The Armenian Community. New York, 1955, p.207



downloaded from KitabYurdu.az

komandiri olan zabit gəmiyə qalxıb vəziyyət haqqında məruzə etdi. Məlum oldu ki, sabah türklərin hücumu gözlənilir və cəbhə xətti müdafiəsizdir. Şübhəsiz ki, yerli müdafiəçilər və onların komandirlərinin bütün ümidləri britaniyalılara idi. Sonralar Denstervil yazırdı ki, şəhərdəkilər belə təsəvvür yaratmışdılar ki, guya gəmi karvanı ilə çoxsaylı Britaniya ordusu sahib çıxacaqdır. Ona görə Hempişir polkunun kiçik dəstəsinin gəldiyini gördükdə şəhər sakinləri çox məyus oldular.[432]

Sentrokaspi Diktaturasının hərbi qüvvələri barədə Denstervilin fikirləri daha çox həqiqətə yaxındır. O yazırdı: Belə güman etmək olar ki, şəhəri müdafiə edən canlı qüvvə 10000 nəfər yerli könüllülərdən ibarətdir. Onlardan 3000 nəfəri ruslar, 7000 nəfəri ermənilər idi. Hamı güllə atırdı, lakin az bir hissəsinin döyüş təcrübəsi var idi. Onların çoxu başa düşürdülər ki, həyatları böyük təhlükə altındadır. Bəziləri, hətta düşmənlə danışıqlara da girmişdi. Şəhərdə qalan müsəlmanların hamısı olmasa da, böyük əksəriyyəti türkləri salamlamağa hazır idilər və özlərini potensial "beşinci dəstə" kimi aparırdılar.[433] İslam ordusu şəhərə yaxınlaşdıqca sentrokaspiçilər və xüsusilə Bakının idarəçiliyində həlledici vəzifələri ələ keçirmiş ermənilər müxtəlif vasitələrlə əhalini özlərinin girovuna çevirirdilər.

İngilislərin gəlişi ilə L.Biçeraxov yenidən siyasi səhnədə görünməyə başladı. Avqustun 3-də ondan alınmış teleqram rus və erməni dillərində plakat formasında böyük şriftlərlə çap edilib bütün şəhərə yayıldı. Orada göstərilirdi ki, guya köhnə hökumət düşmənə qarşı mübarizədə onun əl-qolunu bağlamışdı. İndi isə L.Biçeraxov Sentrokaspi qüvvələri və ingilislərlə vahid cəbhə təşkil edib, düşməni əzməyə hazır olduğunu bildirirdi. Elə həmin gün Biləcəri stansiyasını avqust ayının 2-də azad etmiş İslam Ordusuna Biçeraxov kazaklarının hücum etməsi vəziyyəti bir qədər çətinləşdirdi. İlk "qələbə" aldadıcı olsa da, ingilislər Biçeraxova böyük ümid bəsləyirdilər. O, Bakının xristian gəncləri arasında çox məşhur idi. İngilislər belə hesab edirdilər ki, əgər Biçeraxov Bakıya qayıtsa, bu gənclərin çoxunu "qəhrəman" orduya cəlb etmək mümkün olardı.[434] Bu zaman gənclər arasında L.Biçeraxov o qədər məşhur idi ki, hətta onlar başlarını da Biçeraxov kimi qırxdırırdılar. Bakıda onun haqqında yayılan əfsanələrdə hətta L.Biçeraxovu "balaca Napoleon"a bənzədirdilər.[435] Sentrokaspi Diktaturasına teleqramında Biçeraxov şəhərin "müdafiəçilərini" əvəz etməyə hazır olduğunu bildirir və yazırdı ki, "indi bütün Rusiya Bakının müdafiəçilərinə baxır".[436] Lakin kazakların hücumu uzun çəkmədi. Yuxarıda qeyd edilən təntənəli teleqrama baxmayaraq, İslam Ordusu qarşısında duruş gətirə bilməyəcəyini anlayan L.Biçeraxov, heç bir məlumat vermədən, öz dəstəsini dəmir yolu boyunca Dərbənd

---

[432] P.Hopkirk. On Secret Service East of Constantinople, p.333
[433] Yenə orada, s.333
[434] 1917-1920-ci illərdə Bakıda Qırmızı Qvardiya haqqında xatirələr. Tarixsiz. //ARPİİ SPİHDA, f.276, s.2, i.22, v.90
[435] ÜİK(b)P MK yanında Partiya Tarixi İnstitutunda Azərbaycan qrupunun iclasında Suren Şaumyanın məruzəsi. 11.07.1927.// RDSSTA, f.84, s.3, i.283, v.61
[436] Памяти 26-ти, с. 165



downloaded from KitabYurdu.az

istiqamətində şimala çəkdi.[437] Avqustun 8-də o, Xaçmazdan keçdi, 12-də isə Dərbəndi tutub Petrovska doğru hərəkət etdi. Avqust ayının 15-də L.Biçeraxov radio vasitəsi ilə xəbər verdi ki, Dərbənd və Petrovski bolşeviklərdən təmizləmək, Rusiyadan Bakıya kömək gətirmək məqsədilə o, şimala hərəkət edir. O vəd edirdi ki, Şimali Qafqazdan 10 min əsgər və taxıl gətirəcək. Biçeraxov eyni zamanda hesab edirdi ki, ingilislərin Bakıya gəlişi Rusiyanı təhdid etmir. Onun fikrincə, türklər şəhəri mühasirəyə alsalar da, onu tuta bilməyəcəkdilər.[438] Bolşeviklərin təsiri altında olan silahlı qüvvədən sonra min nəfərə yaxın kazakların da cəbhəni tərk etməsi Bakının Sentrokaspi hökumətinin əlində saxlamasını qeyri-mümkün edirdi.

Avqustun 3-nə aid olan digər bir sənəd Şərq cəbhəsində Osmanlı Ordusunun komandanı Mürsəl paşanın Bakıda olan erməni Milli Şurasının sədrinə məktubu idi. Orada qeyd edilirdi ki, "Bakı uğrunda Osmanlı ordusu hərbi əməliyyatlar aparır. Əgər siz şəhəri döyüşsüz versəniz, onda dinindən və milliyyətindən asılı olmayaraq, bütün vətəndaşların hüquqları təmin ediləcəkdir, ermənilər istərlərsə onların Bakıdan Ermənistana maneəsiz gedişi təmin ediləcəkdir. Lakin müqavimət göstərsəniz onsuz da şəhər alınacaq və bu halda tökülən qanların və dəyən ziyanın məsuliyyəti sizin üzərinizə düşəcək. Əgər siz şəhəri verməyə hazırsınızsa, öz nümayəndənizlə cavab göndərin".[439] Lakin erməni Milli Şurası üzvləri ilə Sentrokaspi nümayəndələri məktubu müzakirə etdikdən sonra Britaniya hökuməti tərəfindən və L.Biçeraxovdan əsaslı yardım alacaqlarına ümid bəsləyərək Mürsəl paşaya cavab vermədilər. Bu artıq hərbi əməliyyatların davam etdirilməsi demək idi.

Avqust ayının əvvəllərində İslam Ordusu Bakının mühasirə həlqəsini daha da daraltdı. Ayın 10-da Abşeron kəndləri Sentrokaspi Diktaturasına qarşı üsyan qaldırdılar. Maştağa kəndi İslam Ordusu birlikləri tərəfindən azad edildi.[440] Avqustun 8-də Mürsəl paşanın 3 avqust tarixli ultimatumu Diktaturanın mətbuatında dərc edildi.[441] Bu ultimatum qanlı mart hadisələrindən sonra şəhərdə çox az sayda qalmış türk əhalisini ruhlandırdı.

1918-ci ilin yayında bolşeviklərin devrilməsi və ingilislərin Bakıya daxil olması almanların əvvəllər ciddi xarakter almış diplomatik təzyiqlərini müvəqqəti səngitmişdi. Hələ iyul ayında M.Ə.Rəsulzadə xarici işlər naziri M.H.Hacınskiyə yazırdı: "Bakı məsələsi bizim üçün əlverişli mənada həll olunur. Şübhəsiz ki, biz almanlara məlum iqtisadi güzəştləri verməliyik. Biz xarici işlər nazirindən (Türkiyənin - C.H.) işləri sürətləndirmək üçün bu və ya digər formada almanlarla

---

[437] W.E.D.Allen and Paul Muratof. Caucasian Battlefields, p.492
[438] Бюллетень Центрокаспия, 1918, 16 августа.
[439] Азербайджан, 1919, 15 сентября.
[440] Bakı Kommunasının süqutundan "26-ların" faciəli ölümünə qədər hadisələrin qısa xronikası. Tarixsiz. //ARPİİ SPİHDA, f.303, s.1a, i.14, v.3
[441] Бюллетень Центрокаспия, 1918, 8 августа.



downloaded from KitabYurdu.az

münasibətdə müstəqil addımlar atmağımızın lazım olub-olmadığını soruşduq. O qeyd etdi ki, hələlik buna ehtiyac hiss edilmir, ehtiyac olduğu halda o, bizə deyəcək. Ənvər paşa xahiş etdi sizə (M.H.Hacınskiyə - C.H.) deyəm ki, orada olan diviziyadan başqa yeni alaylar göndərilib və Nuru paşa məlumat göndərib ki, qüvvə yetərli dərəcədədir. Cümə günü icbari qaydada toplanmış yerli qüvvələrin təcili formalaşdırılması işinə başlamaq üçün qərargah zabiti ora gələcək. Almanlarla türklər arasında əldə olunmuş hərbi sazişə əsasən, Nuru paşaya Bakıya hücumla bağlı müvafiq direktiv verilib."[442] Lakin Bakı barəsində alman-rus danışıqları yekun mərhələdə intensivləşdiyindən Berlinin Azərbaycana münasibətdə loyal diplomatik mövqeyi elə də uzun sürmədi. Avqust ayının ortalarında İstanbuldakı nümayəndəlikdən xarici işlər nazirliyinə göndərilən məlumatdan aydın olur ki, almanlar yenidən türklərin Bakıya doğru irəliləmələrinə mane olmağa cəhd göstərirlər. M.Ə.Rəsulzadə yazırdı: "Ayın 17-də Ənvər paşanın və xarici işlər nazirinin yanında oldum. Bir gün əvvəl Tələt paşa ilə şəxsən görüşmüşdüm. Məsələ bundadır ki, almanlar türk ordusunun Qafqazın içərisinə doğru irəliləməsinə etiraz edir, xüsusilə Bakı üzərinə yürüşün dayandırılmasını tələb edirlər. Onlar ehtiyat edirlər ki, geri çəkilərkən bolşeviklər ingilislərin Rumıniyada etdikləri kimi buruqları dağıtsınlar, neft ehtiyatlarını məhv etsinlər. Ona görə almanlar məsələnin sülh yolu ilə həll edilməsinə üstünlük verirlər. Hətta bir vaxtlar onlar Bakını, Şamaxı və Salyan da daxil olmaqla, onun ətrafı ilə birlikdə müstəqil tanımağa tərəfdar olublar. Bu niyyətlər türklər tərəfindən qəti etirazla qarşılanıb və nəhayət, Ənvər və Tələt paşaların sözlərinə görə, razılıq əldə olunub."[443] Buna bənzər məlumatı avqust ayının 10-da Ənvər paşa da Nuru paşaya yazırdı. O bildirirdi ki, Almaniya ilə aparılan danışıqlar ciddi bir nəticə vermədi, onlar Brest sülhünə əməl edilməsində və ruslarla sülhün pozulmamasında israrlıdırlar. Ənvər paşa yazırdı: "Almanlar Bakı şəhərini azərbaycanlılara buraxmaq təəhhüdü altına girmək istəməzlərsə də, təşəkkül edəcək Azərbaycan hökumətinin Bakısız yaşaya bilməyəcəyini iddia və bu nöqtədə israr edirik".[444]

Avqustun 7-də İstanbuldakı Azərbaycan nümayəndə heyətinin başçısı M.Ə.Rəsulzadənin xarici işlər naziri M.H.Hacınskiyə göndərdiyi məktubda Bakının azad edilməsinin sürətləndirilməsi məsələsindən danışılırdı. 1918-ci ilin yayında Qərb cəbhəsində Almaniyanın məğlubiyyəti beynəlxalq vəziyyəti əsaslı şəkildə dəyişdirə bilərdi. Hadisələrin gedişi ilə daha yaxından tanış olan və onun doğura biləcəyi siyasi nəticələri daha aydın görən M.Ə.Rəsulzadə xarici işlər naziri M.H.Hacınskiyə yazdığı məktubda bildirirdi: "Hansı yolla, nəyin bahasına olursa-olsun Bakı tezliklə azad edilməlidir. Əks təqdirdə biz baş vermiş fakt qarşısında,

---

[442] İstanbuldakı Azərbaycan nümayəndələrinin başçısı M.Ə.Rəsulzadənin xarici işlər naziri M.H.Hacınskiyə məktubu. İyul, 1918.//ARPİİ SPİHDA, f.277, s.2, i.7, v.151

[443] İstanbuldakı Azərbaycan nümayəndəliyinin başçısı M.Ə.Rəsulzadənin xarici işlər naziri M.H.Hacınskiyə məktubu. Avqust, 19187/ARPİİ SPİHDA, f.277, s.2, i.7, v.151

[444] Hikmet Yusuf Bayur. Türk İnkilabı Tarihi, cilt III, s.225



downloaded from KitabYurdu.az

çətin vəziyyətdə qalarıq. Bakıya doğru hərəkət yalnız Azərbaycanın adından olmalıdır, onu Azərbaycan hökuməti tutmalıdır. Ayrı cür olarsa çətinliklər yarana bilər". Beynəlxalq aləmdə gedən hadisələri təhlil etdikdən sonra M.Ə.Rəsulzadə Azərbaycan hökumətinə bildirdi: "Siz Bakını tutmalısınız ki, hamı baş vermiş fakt qarşısında qalsın. Onda hadisələr tamamilə ayrı forma alacaq. Bolşeviklər hədələyə bilərlər ki, onlar vuruşacaqlar, mənə elə gəlir ki, onlar vuruşmayacaqlar".[445]

Baş nazir Fətəli xan da öz növbəsində M.Ə.Rəsulzadədən xahiş edirdi ki, Bakının azad edilməsi üçün İstanbuldakı diplomatik səylərini artırsınlar. O yazırdı: "Əsas məsələ olan Bakı məsələsi hələ həll olunmayıb və bilmirik ki, yaxında həll olacaqmı? Bütün gücünüzdən istifadə etmək lazımdır ki, İstanbulda bu məsələnin tez həllinə nail olasınız, əks təqdirdə sonra mümkünsüz olacaq. Bakıda artıq bütün texniki vasitələrlə təchiz olunmuş iki mindən artıq əsgərdən ibarət ingilislər görünməyə başlayıblar. Vəziyyət hər gün ağırlaşır. Qarabağ istiqamətindən Zəngəzur qəzasının bir hissəsini işğal edib, Şuşa qəzasını bizdən ayıran Andronikin ordusu hərəkət edir. Bakı məsələsi həll olunmamış heç nə edə bilmərik."[446] Avqust ayının 31-də M.Ə.Rəsulzadəyə digər bir məktubunda Fətəli xan Bakı uğrunda döyüşlərdə türk ordusunun həlledici rolunu yüksək qiymətləndirməklə yanaşı, türk komandanlığının Azərbaycan hökumətinin işinə müdaxiləsindən və bu müdaxilənin mənfi nəticələr verə biləcəyindən də şikayətlənirdi. O yazırdı: "Ən başlıcası, bizim Türkiyə ilə münasibətlərimizi qəti şəkildə aydınlaşdırmaq lazımdır. Əks təqdirdə ikihakimiyyətlilik və çoxhakimiyyətlilik hər şeyi məhv edir. Mən hesab edirəm ki, bütün idarəçilik Azərbaycan hökumətinin əlində olmalıdır, indi baş verdiyi kimi, idarəçilik işlərinə bilavasitə müdaxilə etmək yolu ilə deyil, türk hərbi hissələri bütün arzu və istəkləri barədə hökumətə müraciət etməlidirlər və onun vasitəsi ilə həyata keçirməlidirlər.[447]

Külli miqdarda Britaniya ordusunun Bakıya gələcəyi haqqında məlumatların şayiə olduğunu bilən İslam Ordusu şəhəri azad etmək uğrunda son hərbi əməliyyatlara başladı. L.Biçeraxov kimi Denstervil də ingilisləri bura dəvət edən hökumətin oyuncaq, şəhərin müdafiəsinin isə əhəmiyyətsiz olduğunu tezliklə başa düşdü. Bir neçə gün Bakıda qalıb vəziyyətlə tanış olduqdan sonra Denstervil avqust ayının 20-də Dərbəndə yollandı ki, Biçeraxovu geri qaytarsın. Lakin limanda naməlum gəmilər dayandığından o, sahilə yan almağa ehtiyat etdi və avqustun 23-də Bakıya döndü.[448] Vəziyyətdən çıxış yolu kimi o, Bakı türkləri ilə erməniləri barışdırmağa cəhd etdi, lakin onlar arasında uçurum dərin olduğundan Denstervil etiraf edirdi ki, 80 minlik Bakı türkləri səbirsizliklə türk ordusunu

---

[445] İstanbuldakı Azərbaycan nümayəndəliyinin başçısı M.Ə.Rəsulzadənin xarici işlər naziri M.H.Hacınskiyə məktubu. 07.08.1918.//ARDA, f.894, s.10, i.154, v.9

[446] Nazirlər Şurasının sədri F.X.Xoyskinin İstanbuldakı Azərbaycan nümayəndəliyinin rəhbəri M.Ə.Rəsulzadəyə təcili diplomatik məlumatı. 23.08.1918. //ARPİİ SPİHDA, f.277, s.2, i.7, v.22

[447] Nazirlər Şurasının sədri F.X.Xoyskinin İstanbuldakı Azərbaycan nümayəndəliyinin rəhbəri M.Ə.Rəsulzadəyə məktubu. 31.08.1918. //ARPİİ SPİHDA, f.277, s.2, i.7, v.23

[448] Л.Денстервиль. Британский империализм в Баку и Персии, с.220



downloaded from KitabYurdu.az

gözləyirdi.[449] Üçüncü bir plana görə o, Bakı ermənilərinin köməyi ilə türk ordusunun arxasında İrəvan ermənilərinin qiyamını qaldırmaq istəyirdi. Türk komandanlığı bunu başa düşdü və avqustun 10-da Nuru paşanın əmri ilə qayda yaratmaqdan ötrü müxtəlif yerlərə hərbi dəstələr göndərildi.[450] Əslində diktatura ilə ingilislər arasında ziddiyyətlər elə ilk gündən meydana çıxmışdı. Sentrokaspi liderləri Britaniya yardımının azlığından pərt olmuşdular. İngilislər isə yerli ordunun heç nəyə qadir olmadığından ümidsizləşmişdilər. Halbuki, ingilislər yeni yaranmış Sentrokaspi hökumətinin hələ bir müddət yaşayacağına arxayın olduqlarına görə İranda olan hərbi qərargahı Bakıya köçürmüşdülər. Az sonra Rəştdə olan Böyük Britaniya konsulluğu tam heyətdə Bakıya gətirilmişdi.[451] Lakin Bakını əldə saxlamaq üçün heç bir real imkanın olmadığını görən Denstervil ingilis əsgərlərini sentyabrın l-nə kimi şəhərdən aparmağı qərara almışdı. Belə olduqda Sentrokaspi hökuməti limanı tərk edəcək hər hansı gəmini atəşə tutacağını bildirmişdi.[452] Əslində Bakıya daxil olduqdan bir həftə sonra general Denstervil hərbi əməliyyatlarda tamamilə iştirak etmədən diktaturanın elan olunmamış əsirinə çevrilmişdi və türklərin sonuncu hücumunu səbirsizliklə gözləyirdi.

Avqustun 26-da Palçıq vulkanı istiqamətindən türk ordusunun Bakıya güclü hücumu başladı. Bu məntəqədə yerləşən ingilis rotası böyük itki verdi. Avqustun 31-də Binəqədi, Digah, Məhəmmədli azad edildi.[453] İslam Ordusunun qarşısında erməni əsgərlərinin fərariliyini müşahidə edən Denstervil yazırdı: "Məndə belə bir fikir yarandı ki, indiki şəraitdən heç bir çıxış yolu olmadığı halda, bu qədər insanın həyatını təhlükədə qoymağa mən nə qədər haqlıyam. Bu inqilabçılar və onların komitələri yığıncaqlarda çıxış etməkdən başqa heç nəyə yaramırdılar. Döyüşə yollananda onların batalyonları iclas keçirirdilər, vəziyyət ağırlaşanda döyüş meydanını qoyub yenidən şəhərə qaçırdılar".[454]

Avqustun 31-də Bakı "diktatorlarına" göndərdiyi yeni məktubda L.Denstervil qeyd edirdi ki, "şəhərin müdafiəsinin uzadılması, vaxtı və insanların həyatını boş yerə qurban vermək deməkdir". Onun fikrincə, yaranmış vəziyyətdə dünyada heç bir qüvvə Bakını türklərdən xilas edə bilməz.[455] L.Denstervil bir hərbçi kimi haqlı olaraq fikrini onunla əsaslandırırdı ki, yerli əhali /azərbaycanlılar - C.H./ Bakını türklərdən müdafiə edən hökumətə düşmən münasibət bəsləyirdi.[456]

Sentyabr ayının 1-də L.Denstervil Sentrokaspi Diktaturası rəhbərliyindən xəbərdarlıq məktubu aldı. Orada göstərilirdi ki, Britaniya ordusu Bakını yalnız dinc əhali şəhərdən çıxarıldıqdan sonra yerli ordu ilə birlikdə tərk edə bilər. Sentyabr

[449] Yenə orada. s.208
[450] ARPİİ SPİHDA, f.276, s.9, i.132, v.14
[451] A.Rowlinson. Adventures in the Near East, p.84
[452] L.Dunsterville. The Adventures of Dunsterforce. London, 1932, p.309
[453] ARPİİ SPİHDA, f.303, s.l a, i.14, v.6
[454] Л.Денстервиль. Британский империализм в Баку и Персии, с.235-236
[455] W.E.D.Allen and Paul Muratof. Caucasian Battlefields, p.495
[456] N.S.Fatemi. Diplomatic History of Russia, p. 143-144



downloaded from KitabYurdu.az

ayının 4-də Britaniya generalı Sentrokaspi Diktaturası rəhbərlərinin onun hərəkətlərini kəskin tənqid edən daha bir xəbərdarlıq aldı. Sentrokaspiçilər bildirdilər ki, Bakı Kommunasının devrilməsindən sonra Moskvadan təklif gəldi ki, şəhəri türklərdən müdafiə etmək üçün hər cür yardım göstərməyə hazırdırlar. Lakin onlar Britaniya yardımına ümid edərək bu təklifdən imtina etmişdilər. Onların fikrincə, gələn yardım gözlənilən yardıma tamamilə uyğun olmadığından Diktatura rəhbərləri böyük səhvə yol verdiklərini etiraf edirlər. Diktatorlar təkid edirdilər ki, şəhəri müdafiə etmək üçün İrandan və ya Bağdaddan zəruri sayda ordu təcili olaraq Bakı cəbhəsinə atılsın.

Sentyabr ayının 5-də L.Denstervil yenidən təklif etdi ki, şəhəri təslim etmək lazımdır, çünki artıq türk ordusunun atdığı mərmilər Bakının mərkəzinə düşürdü. Son günlər Diktatorlarla İngilis komandanlığı arasında qarşılıqlı ittihamlar sistemli xarakter aldığından, L.Denstervilin bu təklifi də qulaqardına vuruldu.

Avqust ayının 22-də gürcü sosial-demokratı İsidor Ramişvili Sentrokaspi hökumətinin üzvləri Ayolla və Velunsa Diktatura və türklər arasında Almaniyanın vasitəçiliyinin mümkünlüyünü təklif etdi. Əvvəlcə, Sentrokaspi hökumətinin rəhbərliyi tərəddüd etdi. Lakin Denstervilin vuruşmayacağına tam əmin olan Diktaturanın başçısı Tyuşkov Tiflisə sentyabr ayının 2-də radioqram göndərdi ki, bu təklifi qəbul etməyə hazırdır. O, İ.Ramişvilinin Bakıya gəlməsini xahiş etdi.[457] Lakin alman vasitəçiliyinin heç bir əhəmiyyəti olmadı. Türklər almanların xoşuna gəlib-gəlməyəcəyindən asılı olmayaraq, Azərbaycan hökumətinin təklifi ilə Bakını azad etməkdə öz yardımlarını göstərmək əzmində idilər. Ona görə İ.Ramişvili Sentrokaspi Diktaturasına məlumat verdi ki, mübahisəni vasitəçiliklə həll etmək mümkün deyildir. O, bunu Bakı barəsində Azərbaycan hökumətinin qəti və dəyişməz mövqeyi ilə izah edirdi. İ.Ramişvili yazırdı: "Heç şübhə ola bilməz ki, azərbaycanlılar Bakıya daha çox can atırlar, nəinki türklər".[458]

Almaniyanın Azərbaycan məsələsində ikibaşlı oyunu Türkiyəni öz müttəfiqindən narazı salmışdı. Almaniya siyasətçiləri son nəticədə Bakının Sovet Rusiyasının əlində qalmasını istəyirdilər və əvvəllər qeyd olunduğu kimi, ehtiyat edirdilər ki, türklər Bakını tutarsa, Almaniyanın ciddi ehtiyac duyduğu neft hasilatı və onun əldə edilməsi məsələsi sual altında qalacaqdır. Digər tərəfdən, Bakıda bolşevik hakimiyyətinin devrilməsi Sovet Rusiyasını da çətin vəziyyətə salmışdı. İndi Rusiya Almaniyanın diplomatik yardımına daha çox ehtiyac duyurdu. Azərbaycan-türk qoşunlarının Bakı astanasına gəlib çatması tərəflərin mövqelərini bir-birinə daha da yaxınlaşdırdı. İngilislərin Bakıya daxil olması ilə vəziyyət dəyişsə də, Sovet Rusiyası böyük neft ehtiyatlarına malik olan Abşeron yarımadasının ona qaytarılmasına bütün vasitələrlə çalışırdı. Avqust ayının axırlarında Berlin danışıqlarında Almaniya Bakıya türklərin hücumunun dayandırılmasına bu şərtlə razılıq verirdi ki, Sovet Rusiyası ingilisləri Bakıdan

---

457 Документы и материалы по внешней политике Закавказья и Грузии, с.440-441

458 Yenə orada, s.443



downloaded from KitabYurdu.az

çıxarsın. Avqustun 23-də V.İ.Lenin Daşkəndə - F.İ.Kolesova vurduğu teleqramda göstərirdi: "Almanlar Bakıya hücum etməmək üçün təminat verməyə razıdırlar, bu şərtlə ki, biz ingilisləri oradan qovaq".[459]

Nəhayət, Berlində üç aya qədər davam edən alman-rus danışıqları Brest-Litovski müqaviləsinə əlavə olaraq, Almaniya ilə Sovet Rusiyası arasında Türkiyədən gizlin 27 avqust sazişinin imzalanması ilə nəticələndi. Bu məsələ ilə bağlı bir çox müəlliflər 27 avqust sazişini Bakı barəsində saziş adlandırırlar. Lakin bu Almaniya ilə Rusiya arasında münasibətlərin böyük bir kompleksinə aid idi. Səkkiz fəsildən və 17 maddədən ibarət olan müqavilədə Ukrayna, Krım, Qara dəniz sahili, Şimali Qafqaz əraziləri, Almaniyanın bəzi sahələrdə imtiyazları, müsadirə edilmiş hərbi ehtiyatlara münasibət və s. məsələlər öz əksini tapmışdı.[460] Sazişin altıncı fəsli Qafqaza aid idi. On üçüncü maddəyə əsasən, Rusiya Gürcüstanın müstəqil dövlət kimi Almaniya tərəfindən tanınmasına razılığını bildirirdi. On dördüncü maddə isə bilavasitə Azərbaycana aid idi. Burada göstərilirdi: Almaniya Qafqazda Gürcüstanın hüdudlarından kənarda hərbi əməliyyatlarda hər hansı üçüncü bir dövlətə heç bir yardım göstərməyəcəkdir. O, təsir göstərəcəkdir ki, Qafqazda üçüncü dövlətin hərbi qüvvələri Kür çayının mənsəbindən Petropavlovsk kəndinə qədər, Şamaxı qəzasının sərhədləri boyunca Əyrioba kəndinə qədər, Bakı, Şamaxı və Quba qəzaları sərhədləri boyunca Bakı qəzasının şimal sərhədlərindən dənizə qədər olan ərazilərə keçməsin. Rusiya Bakı vilayətində neft çıxarılması və istehsalını bütün imkanları daxilində artıracaqdır, hər ay çıxarılan neftin dörddə bir hissəsini, yaxın vaxtlarda daha dəqiq razılaşdırılacaq müəyyən miqdardan az olmamaq şərti ilə Almaniyaya verəcəkdir.[461] Sazişi Rusiya tərəfindən Berlindəki səfir A.İoffe, Almaniya tərəfindən isə Xarici İşlər Nazirliyinin gizli müşavirləri, xarici işlər idarəsinin katibi, istefada olan kontr-admiral Pavel fon Qinse və xarici işlər idarəsinin direktoru İohanes Kriqe imzaladılar. Sazişin Qafqaza aid olan hissəsi ilk növbədə Azərbaycan Respublikasının ərazi bütövlüyünə qarşı yönəlmişdi. Öz müttəfiqlərindən gizli olaraq Sovet Rusiyası ilə razılığa gələn Almaniya, Avstriya-Macarıstanın mənafeyini nəzərə almamış, Osmanlı imperiyasına qarşı isə əslində xəyanət etmişdi. Sazişdə adı çəkilməyən həmin üçüncü dövlət Türkiyə idi ki, o alman-rus sazişində müəyyənləşdirilmiş demarkasiya xəttini Azərbaycan hərbi hissələri ilə birlikdə artıq keçmişdi.

Avqust ayının son günlərində Alman imperatoru II Vilhelm Almaniya Baş qərargahında Sovet Rusiyası ilə imzalanmış sazişi müzakirə etmək üçün Avstriya-Macarıstan imperatoru və Bolqarıstan şahzadəsi Borislə görüş keçirmişdi.[462]

---

[459] V.İ.Lenin. Azərbaycan haqqında, s.147
[460] Документы внешней политики СССР. Т.1, с.437-445
[461] Документы внешней политики СССР. Т.1, с.443-444
[462] İstanbuldakı Azərbaycan nümayəndəliyinin rəhbəri M.Ə.Rəsulzadənin xarici işlər naziri M.H.Hacınskiyə məktubu. 02.09.1918.//ARDA, f.894, s.10, i.31, v.11



downloaded from KitabYurdu.az

Türkiyənin bu görüşə dəvət edilməməsi onun Almaniyadan olan narazılığını daha da artırmışdı.

27 avqust sazişi gizli imzalansa da, lakin onun məzmunu gizli qalmadı, avqustun son günlərində türk mətbuatı böyük hiddətlə onun haqqında məlumat verdi. "İqdam" qəzeti sentyabrın ilk günlərində yazırdı: "Almaniya ilə Rusiya arasındakı müzakiratın nəticəsi ciddi bir həyəcan ortalığa çıxarıb... Bizim bu halda alman dostlarımızdan sorulacaq bir sualımız var: İndiyə kimi hərbi ümuminin ən ağır yükünə cüssə və qüvvətinə nisbətlə Türkiyə yükləndi. Öylə olduğu halda, Türkiyə son hərblərdə yalnız öz nöqteyi-nəzərini təqib etsəydi, hər halda neft yağından çox böyük mənfəətlər və bugünkü Rusiya ilə sülh sazişi məcburiyyətindən çox daha böyük və həyati məcburiyyətlərlə müttəfiqinin mənfəətini fəda eləsəydi, əcaba məzur görüləcəkmiydi?"[463] Sentyabrın 1-də İstanbulda olan Azərbaycan nümayəndələrinin başçısı M.Ə.Rəsulzadə bərk həyəcanla Azərbaycan xarici işlər nazirinə bildirirdi: "Berlindən alınan məlumatlara görə, bolşeviklərlə Almaniya arasında əlavə müqavilə imzalanmışdır. Qafqaz dövlətlərindən bolşeviklər yalnız Gürcüstanın müstəqilliyini tanımışlar və almanlar isə Bakıda çıxarılan neftin bir hissəsini almaq müqabilində Rusiyanın Bakını və onun neft rayonlarını özündə saxlamaq arzularına etiraz etməmişlər. Bu xəbər hamımızı sarsıtdı, qəzetlər onu hiddətlə çap edir. Tələt paşa Berlinə getməyə hazırlaşır. Necə olursa-olsun Bakını almaq, almaq və almaq lazımdır".[464]

Əlaqə saxlamağın çətinliyini nəzərə alaraq, İstanbulda olan Azərbaycan nümayəndələri Azərbaycan hökumətindən göstəriş gözləməyərək, respublikaya qarşı yönəlmiş bu sazişə qarşı diplomatik mübarizəyə başladılar. Bu məlumatı alan kimi, Azərbaycan Xarici İşlər Nazirliyi Almaniyanın Türkiyədəki səfirinə müraciət hazırladı. Orada göstərilirdi: səfir öz ölkəsinin diqqətinə çatdırsın ki, ruslarla imzalanmış müqavilə Azərbaycanın həyati mənafeyinə ziddir, xalqın və hökumətin narazılığını, habelə dərin təəssüf hissini doğurur.[465] Hələ avqust ayının 20-də Osmanlı imperiyası ilə diplomatik əlaqələrin bərqərar edilməsi üçün Azərbaycan hökuməti dövrünün nüfuzlu siyasi xadimlərindən olan, Azərbaycan hökumətinin üzvü, portfelsiz nazir Əli Mərdan bəy Topçubaşovu fövqəladə səlahiyyətli nazir kimi Osmanlı paytaxtına göndərdi və diplomatik nümayəndə kimi ona bütün səlahiyyətlər və hüquqlar verildi. İstanbulda olan Azərbaycan nümayəndə heyətinin sədrinə göndərilən məktubda göstərildi ki, İstanbul beynəlxalq konfransı başlanacağı təqdirdə Ə.M.Topçubaşov Azərbaycan nümayəndə heyətinin tamhüquqlu üzvü kimi onun işində iştirak etmək səlahiyyətinə malikdir.[466]

[463] İqdam, 1918, 2 sentyabr.

[464] İstanbuldakı Azərbaycan nümayəndəliyinin rəhbəri M.Ə.Rəsulzadənin xarici işlər naziri M.H.Hacınskiyə məktubu. 01.09.19187/ARDA, f.970, s.1, i.16, v.2

[465] Azərbaycan Xarici İşlər Nazirliyi - Almaniya səfirliyinə. Sentyabr, 1918. //ARPİİ SPİHDA, f.277, s.2, i.8, v.60

[466] Nazirlər Şurasının sədri F.X.Xoyskinin İstanbuldakı Azərbaycan nümayəndəliyinin rəhbəri M.Ə.Rəsulzadəyə məlumatı. 23.08.1918. //ARDA, f.970, s.1, i.138, v.2



downloaded from KitabYurdu.az

Ə.M.Topçubaşov avqust ayının 23-də Gəncədən çıxdı və bir neçə gün Tiflisdə gözləməli oldu. Burada Gürcüstan hökumətinin rəhbərləri, Osmanlı nümayəndəsi Əbdül Kərim paşa ilə görüşlər keçirildi. Sentyabrın 7-də o, Batuma gəldi və iki həftə gəmi olmadığı üçün burada gözləməli oldu. Elə Bakının azad edilməsi xəbərini və Bakı barəsində imzalanmış Almaniya-Rusiya sazişi haqqında məlumatı da Ə.M.Topçubaşov Batumda eşitdi. Sentyabrın 16-da Batumun komendantı Bakının azad edilməsi münasibəti ilə onu təbrik etdi.[467]

27 avqust sazişi ilə bağlı Ə.M.Topçubaşov belə qərara gəldi ki, Mərkəz dövlətlərinin paytaxtlarına getmək lazımdır. Ona görə sentyabrın 15-də F.X.Xoyskiyə göndərdiyi məktubda o, köhnə tarixdə, köhnə nömrədə yeni mandat göndərilməsini xahiş edirdi. Yeni mandatda təkcə Türkiyə ilə deyil, Almaniya, Avstriya-Macarıstan, Bolqarıstan və Rumıniya paytaxtlarında danışıqlar aparmağa fövqəladə səlahiyyətli nazirə vəkalət verilməli idi. O yazırdı: "Gəmi olmadığı üçün mən hələ beş gün burada olacağam. Mandatı xüsusi kuryerlə göndərin. Əgər mən olmasam, kuryer mandatı Mahmud bəy Əfəndiyevə /Batumdakı konsul - C.H./ versin və o bunu İstanbula Xarici İşlər Nazirliyinə göndərəcək."[468] Belə bir mandata böyük ehtiyac var idi. Türkiyə rəsmi dairələrindən alınan məlumata görə, Sədr-Əzəm Tələt paşanın Berlinə səfəri gözlənilirdi. Ə.M.Topçubaşov onunla birlikdə Berlinə getmək fikrində idi. Lakin o böyük çətinliklərdən sonra İstanbula sentyabr ayının axırlarında gəlib çata bildi. Ə.M.Topçubaşov gələnə qədər İstanbulda olan Azərbaycan nümayəndələri mühüm diplomatik addımlar atmışdılar.

Sentyabrın əvvəllərində Azərbaycan nümayəndələri Sədr-Əzəm Tələt paşa tərəfindən qəbul edilmişdi. Danışıqlar zamanı Tələt paşanın Berlinə səfəri ərəfəsində Bakı məsələsində Almaniyanın tutduğu mövqe, Bakının tezliklə azad edilməsinin zəruriliyi müzakirə edildi. Az sonra Berlinə gedən Tələt paşa Almaniyadan təcili şəkildə 27 avqust sazişinin ləğv edilməsini tələb etdi.

Sentyabr ayının 12-də İstanbulda olan Azərbaycan nümayəndələri Osmanlı paytaxtında olan Almaniya səfirliyinə Azərbaycan hökumətinin etiraz notasını təqdim etdilər. Notanın surəti Türkiyə Xarici İşlər Nazirliyinə, Avstriya-Macarıstan və Bolqarıstan səfirliklərinə, habelə bitərəf ölkələrin diplomatik nümayəndəliklərinə də verildi. M.Ə.Rəsulzadənin imzası ilə Azərbaycan hökuməti adından Almaniyanın səlahiyyətli nümayəndəsi qraf Valdburqa təqdim edilən notada deyilirdi: "Almaniya ilə Sovet Rusiyası arasında sazişin Bakıya aid maddəsindən həddindən artıq təsirlənən və heyrətdə olan hökumətimizdən aldığım təlimata müvafiq surətdə aşağıdakıları Sizin nəzərinizə çatdırmağı özümə şərəf bilirəm:

---

[467] Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli naziri Ə.M.Topçubaşovun Nazirlər Şurasının sədri F.X.Xoyskiyə məktubu. Sentyabr, 1918. //ARDA, f.894, s.10, i.34, v.5
[468] Yenə orada, v.4



downloaded from KitabYurdu.az

Azərbaycan əhalisi rus hökuməti tərəfindən elan olunan və Brest-Litovskda onlar tərəfindən təkidlə bir daha təsdiq edilən "hər millətin öz müqəddəratını təyin etməsi hüququ" haqqındakı şüarına istinad edərək əsrlərdən bəri altında əzildiyi rus boyunduruğunu üzərindən ataraq elanı istiqlal etmişdisə də, bağlanan muahidələr Azərbaycanın təbii paytaxtı, elm və mədəniyyət mərkəzi, iqtisadi və siyasi mərkəzi olan Bakı şəhərinin yenidən rus hakimiyyəti altına alınmasına təminat vermişdir". Bakının Azərbaycanın bir hissəsi olduğu tarixi, coğrafi, etnoqrafik və iqtisadi dəlillərlə əsaslandırıldıqdan sonra notada bildirilir: "Elm və fənlər, mədəniyyət nöqteyi-nəzərindən Bakı Azərbaycana bağlıdır. Siyasi, iqtisadi və ictimai təşkilatlar, tədris, xeyriyyə, zehni mərkəzlər, əhalinin ziyalı nümayəndələrinin toplaşdıqları başlıca yer Bakıdır. Bütün bu məlum səbəblərə görə, məmləkətin istiqlalını fəth etmək fikrindən heç bir zaman sərf-nəzər etməyən Azərbaycan əhalisi Bakını geri qaytarmaq arzusundan da heç bir zaman əl çəkə bilməz. Bu məsələ Azərbaycan üçün yalnız ərazi məsələsi deyil, o, indi xalq üçün ölüm-dirim məsələsinə çevrilmişdir". Bunun əksinə olaraq, notada qeyd edilirdi ki, Rusiya və digər dövlətlər üçün Bakı yalnız iqtisadi baxımdan zəruridir. Belə mülahizələr heç bir halda Azərbaycanı öz qanuni hüquqlarından məhrum etməməlidir. "Yuxarıda deyilən fikirlərə əsasən, mən Almaniya imperatorluğu hökumətinin nəzərinə çatdırıram ki, Bakının Rusiyada qalmasına razılıq verən, haqqında söhbət gedən rus-alman əlavə müqaviləsi Azərbaycanın həyati mənafeyini təhlükə altına alır. Bununla əlaqədar, milli hökumət və Azərbaycan xalqı dərin narahatlıqla bildirir ki, böyük dost ölkənin razılığı ilə Azərbaycanı həyatı mənafeyi olan mərkəzə sahib olmaqdan məhrum edilməsi kimi təhlükə gözləyir və ümidvar olduğunu bildirir ki, onun bu şəhərə qeyd-şərtsiz olan hüququ Almaniya imperator hökuməti tərəfindən ciddi şəkildə nəzərə alınacaqdır.[469]

Bu nota barəsində və dövlətlərarası münasibətlərdə yaranmış vəziyyətlə bağlı Azərbaycan xarici işlər naziri M.H.Hacınskiyə təcili teleqramında İstanbulda olan Azərbaycan nümayəndələrinin başçısı bildirirdi ki, vaxt itirməmək üçün biz notanı guya sizdən aldığımız xüsusi vəkalət əsasında təqdim etmişik. Bu barədə sizin məlumatınız olsun. Əgər fon Kressə rədd olmaq barədə komanda versəniz İstanbulda almanlara təqdim edilmiş notaya uyğun hərəkət edin. Azərbaycan nümayəndələri Almaniyaya notanı Osmanlı imperiyasının baş naziri və xarici işlər naziri ilə məsləhətləşdikdən sonra təqdim etmişdi.[470]

Sentyabr ayının əvvəllərində yaranmış vəziyyəti təhlil edərək M.Ə.Rəsulzadə bildirirdi ki, son anlarda almanlarda yorğunluq hiss edilir, İstanbulda günbəgün ingilis meyli güclənir. Ona görə ingilislərin Bakıda olması vəziyyəti xeyli çətinləşdirirdi. O, M.H.Hacınskiyə yazırdı: "Bakı məsələsi, ancaq

[469] İstanbuldakı Azərbaycan nümayəndəliyinin sədri M.Ə.Rəsulzadənin Almaniya imperator hökumətinin Türkiyədəki səfiri qraf Voldburqa notası. 12.09.19187/ARDA, f.970, s.1, i.8, v.8-9

[470] İstanbuldakı Azərbaycan nümayəndəliyinin sədri M.Ə.Rəsulzadənin xarici işlər naziri M.H.Hacınskiyə məktubu. 01.09.19187/ARDA, f.894, s.10, i.154, v.16



downloaded from KitabYurdu.az

qüvvədən asılıdır. Əgər Bakı alınmasa hər şey bitdi. Əlvida, Azərbaycan. Hətta alındıqdan sonra belə biz çoxlu diplomatik çətinliklərlə qarşılaşmalı olacağıq. Bu vəzifəni yerinə yetirmək üçün biz qabaqcadan ordunu hazırlamalıyıq. Bu məsələ ilə bağlı Türkiyədə ictimai rəy və siyasi dairələr son həddə qədər narahatdır".[471]

Sentyabr ayının əvvəllərində beynəlxalq vəziyyətin Antantanın xeyrinə dəyişməsi Almaniyanın 27 avqust sazişinə marağını zəiflətdi. M.Ə.Rəsulzadə İstanbuldan yazırdı ki, Almaniyanın qələbə çalacağı haqqında fikirləşmək dövrü keçmişdir. Avstriyanın daxilində ciddi çətinliklər meydana çıxır. Türkiyənin daxilində də vəziyyət ciddiləşir. Bolqarıstana gəldikdə isə demək olar ki, o məğlub olmuşdur. Almaniyanın Sovet Rusiyasına olan ümidləri özünü doğrultmadı. Məlum oldu ki, Sovet Rusiyası ingilisləri Bakıdan çıxarmaq imkanına malik deyildir. Halbuki 27 avqust sazişindən az sonra Almaniya bu fikirdə idi ki, bolşeviklər Bakını ingilislərdən təmizləyə biləcəklər. Sentyabr ayının 2-də İstanbulda olan Almaniya səfirliyində danışıqlar zamanı alman səfiri Bersndorf "bolşeviklərin Bakı uğrunda vuruşacağını" demişdi.[472] Şimali Qafqazdan bolşeviklərin Bakı istiqamətində hərəkətinin qarşısı Gürcüstan və Dağlılar İttifaqı tərəfindən alındı. Hətta Almaniya protektoratlığında olan Gürcüstan hökumətinin Bakıda olan ingilislərlə və onların təsiri altında olan Sentrokaspi Diktaturası ilə əlaqələri yaradıldı.[473] İstanbulda olan Gürcüstan nümayəndələrinin burada iki nəfər saxlayıb qalanlarının hamılıqla Tiflisə qayıtması ingilislərlə əlaqələrin yaradılması ilə bağlı idi.[474] Cənubi Qafqazda dəyişmiş vəziyyət Gürcüstanın Almaniya üçün itirilməsi ilə nəticələnə bilərdi. Deməli, mövcud vəziyyətdə Almaniya "üçüncü dövlətə qarşı" Bakını ingilislərin xeyrinə müdafiə etmiş olurdu. Digər tərəfdən, Britaniyanın Bakıda güclənməsi Şərq cəbhəsinin yaranmasına gətirib çıxara bilərdi. Ona görə Almaniya Azərbaycana münasibətdə öz mövqeyində təcili dəyişikliklər etdi. Sentyabrın əvvəllərində almanlar Bakı məsələsində səhv etdiklərini başa düşdülər və bunu onlar Berlində danışıqlar aparan Şimali Qafqaz nümayəndələrinə bildirmişdilər.[475] Türkiyə və Azərbaycanın təkidi Almaniyanın 27 avqust sazişindən imtina etməsində mühüm rol oynadı. İndi Almaniya Baş qərargahı Bakının azad olunmasına öz "töhfəsini" vermək barədə düşünməyə başladı. General Hindenburq Bakının ingilislərdən azad edilməsində iştirak etmək üçün iki alman briqadasının Cənubi Qafqaza göndərilməsi barədə Osmanlı dövlətinə məlumat verdi. Burada ermənilərin təklifi də müəyyən dərəcədə rol oynamışdı. Çıxılmaz vəziyyətdə qalan ermənilər hələ iyul ayının ortalarında

---

471 Yenə orada.

472 İstanbuldakı Azərbaycan nümayəndəliyinin sədri M.Ə.Rəsulzadənin xarici işlər naziri M.H.Hacınskiyə məktubu. 02.09.1918.//ARDA, f.894, s.10, i.154, v.10

473 Документы внешней политики СССР. Т.1, с.478

474 İstanbuldakı Azərbaycan nümayəndəliyinin sədri M.Ə.Rəsulzadənin xarici işlər naziri M.H.Hacınskiyə məktubu. 02.09.1918.//ARDA, f.894, s.10, i.154, v.16

475 Yenə orada, v. 11



downloaded from KitabYurdu.az

almanlara müraciət etmişdilər ki, Bakını onlar tutsunlar.[476] Lakin məlum olduğu kimi, Bakıda ingilislərin elə böyük qüvvəsi yox idi, Azərbaycan hərbi hissələri Türkiyənin yardımı ilə bu işin öhdəsindən gələ bilərdi. Alman hərbi hissələrinin müdaxiləsi isə yeni ağır bir vəziyyət yarada bilərdi, sentrokaspiçilərdən və ingilislərdən təmizlənən Abşeron neft mədənləri Almaniyanın nəzarəti altına düşə bilərdi. Ona görə də "osmanlılar bu köməkdən imtina etdilər".[477] Sentyabr ayının ortalarında İslam Ordusu tərəfindən Bakının azad edilməsi üçün əlverişli şərait yetişdi və son hücum əməliyyatına ciddi hazırlıq işləri başlandı.

Azərbaycana münasibətdə Almaniyanın ikili mövqeyi Azərbaycan hökumətini məcbur etdi ki, imzalanmaq ərəfəsində olan Alman koloniyaları barədə Azərbaycan-Almaniya müqaviləsini dayandırsın. Müqavilənin layihəsində göstərilirdi ki, Azərbaycan Respublikasında təsis ediləcək Almaniya konsulluq və diplomatik idarələri birbaşa vəzifələrindən əlavə, Azərbaycanda yaşayan rus və Azərbaycan təəbələri olan Alman koloniyalarının da mənafeyini müdafiə edəcəkdir. Müqavilənin 2-ci bəndinə görə Azərbaycan hökuməti Alman koloniyalarının əhalisini və əmlakını quldur dəstələrindən qorumaq üçün hər cür tədbir görəcəyini öz üzərinə götürürdü. Alman koloniyalarına qayda-qanunu qorumaq üçün yerli milis yaratmağa, Almaniyadan ora zabit və əsgərlərin ezam olunmasına icazə verilirdi. Alman koloniyalarına dini ayinlərin, adət və ənənələrin yerinə yetirilməsində azadlıq verilirdi. Azərbaycan hökuməti Almaniyaya qayıtmaq arzusunda olan almanları öz təəbəliyindən çıxarırdı və respublikada qalan almanlara münasibətdə Rusiya hökumətinin 2 fevral, 13 dekabr 1915-ci il qanunlarını tətbiq etməyəcəyini bildirirdi.[478] Azərbaycanda yaşayan Alman koloniyalarının hüquq və azadlıqlarına aid olan bu müqavilə imzalanmasa da, sonralar Azərbaycan hökuməti respublikanın ərazisində yaşayan alman əhalisinin azad inkişafı və onların hüquqlarının müdafiəsi ilə bağlı öz üzərinə düşən öhdəlikləri müqaviləsiz də yerinə yetirdi.

Azərbaycanla bağlı Almaniyanın atdığı addımlar və məqsədli "yardım" planları, Bakıya ingilis müdaxiləsi, habelə Sovet Rusiyasının işğalçılıq niyyətləri Azərbaycanın Türkiyə ilə daha çox yaxınlaşmasını zəruri edirdi. Dövr hadisələri o qədər kəskin və ziddiyyətli formada qoymuşdu ki, Türkiyədən başqa, Azərbaycana heç bir dövlətin hərbi, siyasi və diplomatik yardım göstərməsi real deyildi. İstanbulda olan Azərbaycan nümayəndələri məhz bu istiqamətdə Türkiyə siyasi dairələri ilə faydalı danışıqlar aparır, Azərbaycan istiqlaliyyətinin digər dövlətlər tərəfindən tanınmasına çalışırdılar. Azərbaycanın istiqlaliyyət bəyannaməsinin tam mətni İstanbulda olan bütün səfirliklərə çatdırıldı.[479] Azərbaycanın istiqlaliyyətinin

---

[476] İstanbuldakı Azərbaycan nümayəndəliyinin sədri M.Ə.Rəsulzadənin xarici işlər naziri M.H.Hacınskiyə məktubu. 19.07.1918.//ARDA, f.894, s.10, i.31, v.4

[477] T.Swietochowski. Russian Azerbaijan, p.138

[478] ARDA, f.970, s.1,i.29, v.1-3

[479] Азербайджан, 1918, 12 ноября.



downloaded from KitabYurdu.az

tanınması barədə danışıqlar aparmaq üçün böyük dövlətlərin, habelə neytral ölkələrin paytaxtlarına tezliklə nümayəndəlik göndəriləcəyi bildirilirdi. Əlbəttə, İstanbulda təmsil edilən ölkələrin səfirliklərinin və konsul idarələrinin hamısı Azərbaycanın istiqlaliyyət bəyannaməsini eyni cür qarşılamırdı. Sentyabrın əvvəllərində Azərbaycan Xarici İşlər Nazirliyinə göndərdiyi teleqramda M.Ə.Rəsulzadə bildirirdi ki, İstiqlaliyyət bəyannaməsinin "bir surətini İran konsulluğuna göndərdik. Konsulluq onları bir zərfə qoyub bizim kağızların hamısını geri qaytardı. Və İran konsulluğu ayrıca bir kağız yazıb bildirdi ki, onlar Azərbaycan adında dövlətin müstəqilliyini tanımırlar. Xarici işlər nazirliyindən mən öyrəndim ki, o, nota verib Azərbaycanın guya İranın ayrılmaz bir hissəsi olduğunu bildirmişdir, ona görə də bizim müstəqilliyimizin əleyhinə çıxış edir. Konsul bu günlər Berlindən qayıtmışdır. O, özü Qacarlar sülaləsindəndir, türklərin əleyhdarıdır. Tehrandakı ingilispərəst kabinetin tərəfdarıdır. Bizim köhnə tanışlar olmağımıza baxmayaraq, kobud hərəkətinə görə mən onunla görüşməyi arzu etmirəm".[480] Azərbaycan Respublikasına münasibətdə İranın belə mövqeyi 1919-cu ilin yayına kimi davam etdi. Bu xeyli dərəcədə Azərbaycanın müstəqilliyinin elan edilməsinin Cənubi Azərbaycanda milli ideyanın inkişafına təsir göstərə biləcəyindən və Türkiyənin yardımı ilə vahid Azərbaycan dövlətinin yaranacağından meydana gələn qorxunun təzahürü idi. İran hökumətinin bu qeyri-real mövqeyi Azərbaycanın Türkiyəyə olan meylinin güclənməsinə təbii xarakter verirdi.

1918-ci ilin sentyabrın 6-da yeni hakimiyyətə gəlmiş Sultan VI Mehmedin İstanbulda olan Azərbaycan nümayəndələrini qəbul etməsi Azərbaycanın beynəlxalq vəziyyətinə müsbət təsir göstərdi. Həmin gün Qılınc asma mərasimi ilə bağlı İstanbulda olan bir sıra nümayəndəliklər Sultanın qəbuluna dəvət edilmişdilər. Lakin Sultanın şəxsi təşəbbüsü ilə birinci olaraq Azərbaycan nümayəndələri qəbul edildilər. M.Ə.Rəsulzadə, X.Xasməmmədov və A.Səfikürdskidən ibarət Azərbaycan nümayəndələrini Ənvər paşa qarşılayıb Sultana təqdim etdi. Azərbaycan Respublikası adından VI Mehmedi təbrik edən M.Ə.Rəsulzadə yüzillik əsarətdən xilas olmuş Azərbaycan xalqının öz istiqlaliyyətini və hürriyyətini qoruyub saxlamaq yolunda qardaş Türkiyəyə arxalandığını bildirdi. Sultan cavabında qeyd etdi ki, "sevimli Azərbaycanımızın nümayəndələri tərəfindən təbrik edildiyimi həyatımda xoşbəxt bir hadisə kimi qəbul edirəm. Əsarətdən xilas olmuş türk və müsəlman hökumətinin istiqlaliyyət və hürriyyətini təmin etmək mənim hökumətimin ən müqəddəs vəzifəsini təşkil edir. Azərbaycanın həyat və qüvvət kəsb edərək bizimlə birlikdə ümumi düşmənlərimizə qalib gələcəyinə ümid edirəm. Salamımın bütün azərbaycanlı

[480] İstanbuldakı Azərbaycan nümayəndəliyinin sədri M.Ə.Rəsulzadənin xarici işlər naziri M.H.Hacınskiyə məktubu. 01.09.1918.//ARDA, f.970, s.l, i.30, v.l



downloaded from KitabYurdu.az

qardaşlara çatmasını arzu edirəm".[481] Bu qəbul barəsində Azərbaycan hökumətinə məlumat verən M.Ə.Rəsulzadə yazırdı: "Biz çıxanda Sultanın Ənvər paşa həzrətlərinə yaxınlaşaraq "bu dəqiqələr ömrümün ən xoşbəxt dəqiqələridir" dediyini eşitdik və bundan köksümüz iftixarla doldu".[482]

Az sonra oktyabr ayında isə Sultan Azərbaycanın İstanbulda olan fövqəladə səlahiyyətli nümayəndəsi, Azərbaycan hökumətinin üzvü Ə.M.Topçubaşovu qəbul etdi. Danışıqlar zamanı Ə.M.Topçubaşov Sultana müraciət edərək bildirdi: "Əlahəzrət, bir az əvvəl Siz, kiçik türk dövləti olan Azərbaycanın nümayəndələrini qəbul edərkən, böyük ehtiramla dediniz ki, "azərbaycanlılar mənim sevimli övladlarımdır". Biz azərbaycanlılar həmişə səmimiyyətlə və məmnuniyyətlə bu böyük şərəfi xatırlayırıq. Danışıqlar zamanı Ə.M.Topçubaşov qeyd etdi ki, azərbaycanlıları çoxlu istəməyənlər vardır, lakin azərbaycanlılar heç vaxt bu düşmənlərdən qorxmamışlar, çünki bilirlər ki, onların böyük dostu vardır. "Dost yox, qardaş" deyə Sultan söhbətə başlayır. O, bildirir ki, bütün türklər azərbaycanlıların qardaşıdır və bu qardaşlıq əbədi olmalıdır. "Biz həmişə Sizə həqiqi qardaş kimi baxmışıq və bundan sonra da baxacağıq. Siz Azərbaycanın nümayəndəsi kimi vəziyyəti düzgün qiymətləndirməlisiniz. Lakin heç vaxt ruhdan düşməməlisiniz. Bu, keçid dövrüdür. Mən inanıram ki, bütün müsəlman dünyası, xüsusilə Osmanlı və Azərbaycan türkləri tezliklə vəziyyətlərinin yaxşılaşmasının şahidi olacaqlar. Keçmişdə də belə hallar olub, lakin xalq ruhdan düşməməlidir və həmişə gələcəyə inanmalıdır. Mən inanıram azərbaycanlılar gələcəkləri naminə çalışacaqlar. Əmin ola bilərsiniz ki, Osmanlı türkləri heç vaxt sizdən köməyini əsirgəməyəcəkdir".[483]

1918-ci ilin payızında İstanbuldan göndərdikləri məktub və teleqramlarda Azərbaycan nümayəndələri siyasi vəziyyətin dəyişdiyini vurğulayır, yaranmış mürəkkəb, hər an dəyişən şəraitdə güclü hərbi qüvvə və diplomatik təzyiqlə qarşılaşmış Bakının tezliklə azad edilməsini zəruri hesab edirdilər. Azərbaycan nümayəndələri ilə görüşündə Ənvər paşa qeyd edirdi ki, ingilislərin Bakıya daxil olması Almaniya tərəfindən Azərbaycan paytaxtının azad edilməsinə qarşı olan müqaviməti heçə endirmişdir.

1918-ci ilin yayında və payızında ciddi hərbi, diplomatik hazırlıqdan sonra sentyabrın 15-də Bakıya həlledici hücum başlandı. Həmin gün ingilis hərbi qüvvələri Bakını tərk etdilər.[484] Denstervildən acıqlı olan Sentrokaspi Diktaturasının rəhbərləri Bakı dəniz artilleriyası tərəfindən onun gəmilərinə atəş açılacağı ilə hədələsələr də, artıq gec idi. Beləliklə, general L.Denstervilin Bakı

[481] İstanbuldakı Azərbaycan nümayəndəliyinin sədri M.Ə.Rəsulzadənin xarici işlər naziri M.H.Hacınskiyə məktubu. 06.09.1918.//ARDA, f.970, s.l, i.30, v.l

[482] Yenə orada.

[483] Yüksək qəbul zamanı Türkiyə Sultanı ilə söhbətin məzmunu haqqında Ə.M.Topçubaşovun qeydləri. 10.01.1918. //ARDA, f.970, s.1, i.158, v.1

[484] Les Anglais battus à Bakou.// Ministère des Affaires Etrangères de France, Archives Diplomatique, vol.832, folio 3



downloaded from KitabYurdu.az

macəraları uğursuz sonluqla başa çatdı. Bu avantüraya görə o, London tərəfindən vəzifədən uzaqlaşdırıldı, ordusu isə buraxıldı. Əslində, Müdafiə Nazirliyinin gizli direktivinə görə, ingilislər Bakıdan çıxanda neft kəmərini dağıdıb neft anbarlarını partlatmalı idilər. Lakin onlar elə böyük sürətlə qaçdılar ki, bu əmri yerinə yetirməyə macal tapmadılar.[485] Axşama yaxın cəbhədən qaçan erməni dəstələrinin bir hissəsi də, "hərbi nazir" general Baqratuni başda olmaqla, Ənzəliyə yola düşdü. Sentrokaspi hökuməti tərəfindən həbs olunmuş Bakı XKS-nin rəhbərliyi həmin hökumətin rəsmilərindən olan A.Velunsun yardımı ilə A.Mikoyan tərəfindən azad edildi və onlar da həmin axşam Bakını tərk etdilər.[486] Sentyabrın 15-də Azərbaycan ordu hissələri Bakıya daxil oldu. Bakının azad edilməsi ilə bağlı M.Ə.Rəsulzadə yazır: "Altı ay tamam xuni-cigər yeyən əhvali-islamiyyəsinin üzü gülüyor. Qurban bayramı kimi məsud bir gündə Bakı təkrar kəndi sahiblərinin əlinə keçiyor... Qafası məşhur Kilyotin məngənəsində bulunan bir adamın xilası nasıl bir həyati-novin isə, Bakının azad olunması dəxi o nisbətdə ecazkar bir vəqiə idi".[487] "Xalq qoşunu" adı ilə Bakını "müdafiə" edənlər indi limana tərəf qaçıb birinci çatdıqları gəmiyə minirdilər."[488] Ermənilərin şəhəri tərk etmək cəhdləri mart hadisələrinə cavabdehlik qorxusundan irəli gəlirdi. Lakin sentyabrın 17-də Bakıya daxil olan Azərbaycan hökuməti milli qırğın törədilməsinin qarşısını aldı. Sonralar Azərbaycan parlamentinin açılışında hökumətin hesabatı ilə çıxış edən F.X.Xoyski bu məsələyə toxunaraq göstərirdi: "Doğrudur, şəhər alınarkən bəzi müəssəfi hadisələr vaqe olmuşdur, hökumət bunu gizlətmiyor və gizlətməyi layiq bilmiyor. Doğrudur, çox adam əziyyət çəkmişdir, fəqət mümkün idimi ki, hökumət bu hadisənin qabağını tamamilə ala idi? Zənnimcə, insaf gözü ilə baxanlar etiraf edərlər ki, dünyada heç hökumət ala bilməzdi, burada müsəlmanlar qırılmış, hüquqları ayaqlar altında tapdalanmış, şəhər üç ay dava etdikdən sonra alınmış, nəticədə acıqlı camaat - hökumət, əlbəttə, acıqlı deyildir - və əsgər şəhərə girərkən hadisənin önünü almaq mümkünmü idi? Bilxassə ki, hökumət şəhərə, ancaq üç gün sonra daxil olmuşdur. Hökumətin vürudunadək nə olmuşsa da, ondan sonra heç bir şey vaqe olmamışdır. Hökumət şəhərə varid olar-olmaz tədbirlər görüb yüzədək müsəlmanı asdırdı, qurşuna düzdürdü və asayişi təcdid etdi".[489] Şəhərə daxil olan kimi hökumət məlumatı elan edildi. Orada göstərilirdi ki, respublikanın paytaxtı Bakı şəhərinə daxil olan Azərbaycan hökuməti şəhərin və ətrafının bütün əhalisinə bildirir ki, Azərbaycanda yaşayan bütün vətəndaşlar milliyyətindən və etiqadından asılı olmayaraq eyni hüquqa malikdirlər. Hökumət bərabər qaydada bütün vətəndaşların həyatını, əmlakını və hüququnu qoruyacaqdır. Soyğunçular, qatillər

[485] Британский Общественный Архив, Дело ФО 371. 3411, с. 161 а
[486] Ətraflı məlumat üçün bax: Funtikovun işi üzrə A.İ.Mikoyanın şahid ifadəsi. 20.03.1926. // RDSSTA, f.84, s.3, i.283, v.40
[487] M.Ə.Rəsulzadə. Azərbaycan Respublikası, c.42-43
[488] A.Rowlinson. Adventures in the Near East, p.92
[489] Azərbaycan, 1918, 9 dekabr.



downloaded from KitabYurdu.az

və ümumiyyətlə, sakitliyi, ictimai qaydaları pozan şəxslər müharibə dövrü qanunlarının, ölüm hökmü də daxil olmaqla bütün ağırlığı ilə cəzalandırılacaqlar. F.X.Xoyski tərəfindən imzalanmış bu bəyanat çoxdan bəri hərc-mərclik hökm sürən, daxili çəkişmələr və bolşeviklərin, onun ardınca sentrokaspiçilərin avantürist siyasəti nəticəsində dağıdılmış şəhərdə qayda-qanunun bərpa edilməsində mühüm addım oldu. Lakin erməni təşkilatları Azərbaycan Xarici İşlər Nazirliyinin təqdimatı ilə yaradılmış Fövqəladə İstintaq Komissiyasının Bakıda mart soyqırımı və qəzalarda ermənilər tərəfindən törədilən qanlı hadisələr haqqında topladığı sənədlərin təsirini azaltmaq, Türkiyə və Azərbaycana qarşı yeni təbliğat kampaniyasına start vermək məqsədilə sentyabr hadisələrində guya çoxlu sayda erməni öldürüldüyü barədə hay-küy qaldırdılar.[490] Erməni Milli Şurasının yarımleqal şəraitdə, faktlardan daha çox ehtimallar əsasında topladığı saxta materiallar 1920-ci ildə Tiflisdə kitab kimi buraxıldı.[491]

Azərbaycanın paytaxtı azad edildikdən sonra Nuru paşanın komandanlığı altında şəhər ətrafında dayanmış türk qoşunları sentyabrın 18-də Bakıya daxil oldu.[492] Şəhərin əsl sahibi olan azərbaycanlı əhali onları böyük hərarətlə, xilaskar kimi qarşıladı. Osmanlı qoşunları Bakıya daxil olduqda bildirdilər ki, onlar Azərbaycan hökumətinin arzusuna uyğun olaraq, Bakının azad edilməsində iştirak ediblər. 1918-ci ilin 28 mayından sonra Azərbaycanın həyatında ikinci mühüm hadisə baş verdi. Bakı azad edildi və Azərbaycan hökuməti tam heyətdə öz paytaxtına köçürüldü. Bu, təkcə Azərbaycan-Türkiyə uğurlu hərbi əməkdaşlığının deyil, eyni zamanda yeni formalaşan Azərbaycan diplomatiyasının ilk böyük qələbəsi idi. Bakının azad edilməsi ilə Azərbaycan hökuməti öz hakimiyyətini respublikanın ərazisində bərqərar etdi. Bu münasibətlə hökumətin yerləşdiyi kişi gimnaziyasının qarşısında şəhər ictimaiyyətinin çox böyük nümayişi oldu. Hökumət üzvləri nümayişçilər qarşısında təbrik nitqi ilə çıxış etdilər.

Bakının ingilislərə arxalanan mürtəce Sentrokaspi qüvvələrindən təmizlənməsi münasibəti ilə Nazirlər Kabinəsinin rəisi F.X.Xoyski demişdi: "Bizim də həyatda azad yaşamağa hüququmuz vardır. Heç bir zirehli maşın, hidroplan, aeroplan, kanonerka, məftilli çəpər, mina və sairə texniki qurğu, heç bir ingilis, heç bir qüvvə və onların havadarları tarixin təbii axarına mane ola bilmədilər. Bakının 50 minlik qoşun və texnika ilə birlikdə kiçik bir qüvvənin həmləsi qarşısında süqutu başqasının fəlakəti üzərində öz xoşbəxtliyini qurmaq istəyənlərə ibrət dərsi olmalıdır.[493]

---

490 Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol.832, folio 10, folio 12

491 Bax: Б.Ишханян. Великие ужасы в гор.Баку. Анкетное исследование сентябрских событий 1918 г. Издание анкетной комиссии при Бакинском Армянском Национальном Совете. Тифлис, 1920.

492 Bax: Colonel Chardigny, à Ministre Guerre-Paris.// Ministère des Affaires Etrangères de France, Archives Diplomatique, vol.832, folio 6.

493 Азербайджан, 1918, 19 сентября.



downloaded from KitabYurdu.az

Bakının azad edilməsi barəsində məlumatı Ənvər paşa İstanbulda olan Azərbaycan nümayəndələrinə çatdırdı. İstanbuldan Baş nazir Xan Xoyskiyə və xarici işlər naziri M.H.Hacınskiyə yazdığı məktubda M.Ə.Rəsulzadə göstərirdi ki, Bakının alınması burada əhvali-ruhiyyəni qaldırmışdır. Qurban bayramına düşdüyündən Türkiyədə Bakının azad edilməsi iki dəfə bayram edildi. Neft Bakısı uğrunda böyük dövlətlər arasında başlanmış gərgin mübarizə Türkiyənin yardımı ilə Azərbaycanın qələbəsi ilə nəticələndi. Azərbaycan hökumətinin hərbi, siyasi və diplomatik addımları Bakının həmişəlik olaraq respublikanın paytaxtı olmaq missiyasını təmin etdi.



downloaded from KitabYurdu.az

## V FƏSİL

### Birinci dünya müharibəsinin sonunda Azərbaycan Xarici İşlər Nazirliyinin diplomatik fəaliyyəti və müttəfiqlərin Bakıya daxil olması

Bakıya gələn kimi, Azərbaycan hökumətinin ilk addımı çoxdan bəri hərc-mərclik yaranmış şəhərdə qayda-qanun yaratmaq və Nazirlər Şurasının normal fəaliyyətini təmin etmək oldu. Hökumət Bakıya köçdükdən sonra nəşrini paytaxtda davam etdirən "Azərbaycan" qəzetində oktyabr ayının ilk günlərində nazirliklərin və idarələrin müvəqqəti ünvanları dərc edildi.[494] Bu məlumatlardan aydın olur ki, Xarici İşlər Nazirliyinin işini təmin etməkdən ötrü təcili olaraq onun dəftərxanası "Metropol" mehmanxanasının bir neçə nömrəsində yerləşdirilib. Az sonra isə "Azərbaycan" qəzeti Xarici İşlər Nazirliyinin Mirbabayevin Sahil küçəsindəki evinə köçdüyünü xəbər verirdi.[495] Bu ev XX əsrin əvvəllərində Bakıda inşa edilən ən dəbdəbəli binalardan biri idi.

Nazirlər Şurasının 16 oktyabr 1918-ci il tarixli iclasında hökumət kabinəsinə daxil olan nazirliklərin ştat cədvəlinə yenidən baxıldı və əhali ilə hakimiyyət orqanları arasında olan bürokratik maneələr aradan qaldırıldı.[496] Xarici İşlər Nazirliyinin fəaliyyəti ilə bağlı qeyd olunurdu ki, bu nazirlik hökumətin xarici əlaqələr üzrə siyasətini həyata keçirmək və həmin siyasəti rəhbər tutmaq üçün yaradılmışdır. Ona görə də Xarici İşlər Nazirliyinə ən vacib və ən əhəmiyyətli nazirliklərdən biri kimi baxılırdı. 1918-ci ilin yayından payızına qədər hökumətin bütün fəaliyyəti Bakının azad edilməsinə yönəldiyindən Xarici İşlər Nazirliyinin strukturu Nazirlər Şurası Bakıya köçdükdən sonra quruldu. Azərbaycan hökumətinin "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin təsisi haqqında Əsasnamə"sində xarici siyasət idarəsinin rolu və fəaliyyət istiqamətləri belə əsaslandırılırdı:

1. Xarici dövlətlərlə siyasi, iqtisadi, sosial və mədəni sahədə münasibətlər qurmaq;
2. Xarici dövlətlərdə Azərbaycanın ticarət və digər maraqlarını qorumaq;
3. Xarici dövlətlərlə sənaye və ticarət əlaqələrinin güclənməsinə və inkişafina təsir göstərmək;
5. Xaricdə yaşayan Azərbaycan vətəndaşlarının şəxsiyyətini və əmlakını qorumaq;
6. Xarici vətəndaşların şəxsi işləri ilə bağlı qanuni tələblərinin təmin edilməsinə yardım etmək.

[494] Azərbaycan, 1918, 8 oktyabr.
[495] Azərbaycan, 1918, 5 noyabr.
[496] Azərbaycan, 1918, 17 oktyabr.



downloaded from KitabYurdu.az

Bu funksiyaları yerinə yetirmək üçün Xarici İşlər Nazirliyi Əsasnaməyə görə mərkəzi və xarici idarələrə bölünürdü. Mərkəzi idarəyə Nazirliyin Şurası, dəftərxana, daxili və xarici əlaqələri, şəxsi heyətlə iş şöbələrini özündə birləşdirən departament daxil idilər. Xarici idarəyə isə səfirlik və nümayəndəliklər, Baş konsulluq, konsulluq və konsul agentlikləri daxil idilər. Əsasnaməyə görə, nazirliyi müavini və müşaviri olan nazir idarə edir, o, olmadıqda isə onu müavin əvəz edirdi. Dəftərxananın direktoru, vitse-direktoru, xüsusi tapşırıqlar üzrə iki məmuru, diplomatik işlər, təsərrüfat, qeydiyyat üzrə şöbələri, "draqomanat" və arxivi olmalı idi. Diplomatik şöbə, nazirin göstərişi üzrə notalar hazırlamaq, cümhuriyyət hökumətinin tanınması, diplomatik nümayəndələrin, konsulların, agentliklərin qarşılıqlı tanınması, ərazi mübahisələri ilə bağlı işlərlə məşğul olmalı, məxfi və şifrələnmiş sənədlər də daxil olmaqla, diplomatik yazışmalarla məşğul olmalı idi. Nazirliyin istər ölkə daxilindəki, istər ölkə xaricindəki əmlakına sərəncam vermək, nazirliyin xərclər smetasını hazırlamaq, mühasibat işlərini aparmaq məsuliyyəti təsərrüfat şöbəsinin üzərinə düşürdü.[497] Ümumi-qeydiyyat şöbəsi qeydiyyat aparmaqla yanaşı, həm də yazışmaların qəbulu və göndərilməsi, kuryer ekspedisiyalarının işinin yoxlanması ilə məşğul olurdu. Draqoman tərcümələr etməli, xarici dildə tərtib edilən sənədlərin və hüquqi aktların tərcümələrini yoxlamalı idi.

1918-ci ilin sentyabrında Xarici İşlər Nazirliyi Bakıda fəaliyyətə başlayan kimi, nazirliyin arxivi yaradıldı. Təcili olaraq nazirliyin yazışmaları, Bakının azad olunması ilə bağlı diplomatik sənədlər və hüquqi aktlar toplanıb sistemləşdirildi və qaydaya salındı. Hökumətin dövlət dili haqqında 27 iyun tarixli qərarına uyğun olaraq, sənədləşmənin türk dilinə keçirilməsi istiqamətində ilk addımlar atıldı.

Hələ Bakı uğrunda mübarizə getdiyi dövrdə qonşu ölkələrə diplomatik nümayəndələrin göndərilməsinə ilk təşəbbüslər edildi. Cənubi Qafqazda yaxşı tanınan Məmməd Yusif Cəfərov iyunun sonlarında Gürcüstana diplomatik nümayəndə təyin edilmişdi. O, bu vəzifədə olduğu müddətdə Azərbaycanla Gürcüstan arasında siyasi, iqtisadi, diplomatik münasibətlərin inkişafında, iki respublika arasında ərazi mübahisələrinin həllində, təmsil olunduğu ölkədə müsəlman əhalisinin maraqlarının qorunmasında mühüm rol oynadı.

Bakıya girmək ərəfəsində, sentyabr ayının 12-də hökumət Almaniya, Ukrayna, İran və Ermənistana səlahiyyətli diplomatik nümayəndələr göndərmək haqqında qərar qəbul etdi.[498] Sentyabr ayının 14-də isə erməni hökumətinin Azərbaycana göndərdiyi diplomatik nümayəndə T.Bekzadyanın vəkaləti tanındı.[499]

---

[497] Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin təsisi haqqında Əsasnamə. 1918. //ARDA, f.970, s.2, i-35, v.15

[498] Азербайджанская Демократическая Республика. Внешняя политика. Баку, 1998, с.71

[499] Ermənistanın Azərbaycanda diplomatik nümayəndəsinin tanınması haqqında qərar. 14.09.1918. //ARDA, f.100, s.2, i.7, v.45



downloaded from KitabYurdu.az

1918-ci ilin oktyabrında isə N.Kartsivadze başda olmaqla Gürcüstan Respublikasının Bakıda diplomatik nümayəndəliyi fəaliyyətə başladı.

1918-ci ilin oktyabr ayının 6-da hökumət Avropa paytaxtlarına göndərilmək və Azərbaycanın müstəqilliyi haqqında məlumat vermək üçün xüsusi komissiya yaradılması haqqında qərar qəbul etdi. Bu missiyaya yüksək vəkalət vermək məqsədilə elə həmin gün, avqust ayının sonlarında İstanbula ezam olunmuş fövqəladə səlahiyyətli nümayəndə Əli Mərdan bəy Topçubaşov xarici işlər naziri təyin edildi. Teleqrafla ona tapşırıldı ki, təcili olaraq Avropa paytaxtlarına gedəcək missiyanın tərkibini formalaşdırsın.[500]

Oktyabr ayının 22-də Azərbaycan Respublikası Ermənistanda diplomatik nümayəndəsinin təyin edilməsi barədə hökumətin qərarı elan edildi. Ermənistanla münasibətlərdə çoxlu mübahisəli məqamlar olduğu və azərbaycanlı əhalinin hüquqları addımbaşı tapdalandığı üçün ədliyyə nazirinin müavini Teymur bəy Makinski Ermənistana diplomatik nümayəndə təyin edildi.[501] Nazirlər Şurası 1918-ci ilin oktyabr ayının 23-də Krım hökumətində diplomatik nümayəndəlik yaratmaq haqqında qərar qəbul etdi. Qərara əsasən xarici işlər nazirinə tapşırıldı ki, Krım hökuməti yanında diplomatik nümayəndəlik açsın.[502] Bu barədə noyabr ayının əvvəllərində Krım diyar hökumətinin baş naziri Məmməd bəy (Süleyman bəy) Sulkeviç Azərbaycan Nazirlər Şurasının sədri F.X.Xoyskiyə məktubla müraciət etmişdi. Orada göstərilirdi ki, bu yaxınlarda Kiyevdə olarkən Azərbaycanın Ukraynadakı diplomatik nümayəndəsi Krım hökuməti nümayəndələri ilə görüşmüş və Azərbaycanla Krım arasında qarşılıqlı münasibətlərin qurulmasının mümkünlüyünü müzakirə etmişlər. General M.Sulkeviç öz məktubunda Azərbaycanın Xəzər sahili ölkə olduğunu qeyd etsə də, lakin Qara dənizdə böyük marağının olduğunu bildirirdi.[503] Bu müraciəti nəzərə alaraq noyabr ayının 1-də hökumətin qərarı ilə Ukraynaya diplomatik nümayəndə təyin olunan Mir Yusif Vəzirov az sonra Krımda da Azərbaycan Respublikasını təmsil etməyə başladı.[504] Noyabr ayının ortalarında Tiflisdə Qafqaz respublikalarının konfransının keçirilməsi nəzərdə tutulduğu üçün ayın 11-də Gürcüstan hökuməti yanında diplomatik nümayəndə M.Y.Cəfərov və doktor Mustafa Vəkilov Azərbaycanın Zaqafqaziya konfransında nümayəndələri təyin edildilər.[505] Batumun Azərbaycan üçün əhəmiyyətini nəzərə alaraq Nazirlər Şurası noyabr ayının 10-da doktor Mahmud bəy Əfəndiyevi Azərbaycanın Batumda nümayəndəsi təyin etdi.[506] Bir

---

[500] Азербайджанская Демократическая Республика. Законодательные акты (1918-1920). Баку, 1998, с.240

[501] Азербайджан, 1918, 2 октября.

[502] Азербайджанская Демократическая Республика. Внешняя политика, с.89

[503] Krım diyar hökumətinin baş naziri general M.A.Sulkeviçin diplomatik münasibətlər yaratmaq haqqında Nazirlər Şurasının sədri F.X.Xoyskiyə məktubu. Noyabr, 1918. //ARDA, f.970, s.1.i.40, v.l

[504] Азербайджан, 1918, 3 ноября.

[505] Азербайджан, 1918, 11 ноября.

[506] Азербайджан, 1918, 10 ноября.



downloaded from KitabYurdu.az

qədər sonra ətraf ərazilərdə yaranmış dövlət qurumları ilə diplomatik münasibətlər qurmaq üçün Əbdürrəhim bəy Haqverdiyev Dağlılar Respublikasında, doktor Cəfər bəy Rüstəmbəyov Kuban hökumətində, Əkbər ağa Sadıqov Zakaspi hökumətində Azərbaycan Respublikasının diplomatik nümayəndələri təsdiq olundular.[507]

Azərbaycan hökuməti Gəncədən Bakıya köçdükdən sonra 1918-ci ilin sentyabr ayından başlayaraq xarici işlər nazirinin müavini təyin edilmiş Adilxan Ziyadxanov az sonra xarici siyasət idarəsində həlledici şəxslərdən birinə çevrildi. 1918-ci ilin oktyabr ayının əvvəllərində yeni xarici işlər naziri olmuş Ə.M.Topçubaşov Bakıda olmadığı üçün A.Ziyadxanov həmin ilin dekabr ayının sonlarında yeni hökumət qurulana qədər xarici işlər nazirini əvəz etmişdi. Azərbaycan hökuməti Bakıya köçdükdən sonra Xarici İşlər Nazirliyinin qurulmasında və 1918-ci ilin payızında yaranmış böhranlı bir dövrdə Azərbaycanın xarici siyasətinin müəyyən edilməsində onun xidmətləri böyük idi.

Beləliklə, hökumət Bakıya köçdükdən sonra qısa müddət ərzində Azərbaycan Xarici İşlər Nazirliyinin aparatı formalaşdırıldı və qonşu ölkələrlə diplomatik nümayəndəliklərin əsası quruldu. Lakin bu dövrdə Azərbaycan diplomatiyasının qarşısında duran ən ciddi məsələ dünya müharibəsinin sonunda gündən-günə dəyişən beynəlxalq aləmdə böyük dövlətlərlə Azərbaycanın maraqlarına uyğun münasibətlər qurmaq idi.

Paytaxt Bakıya köçən kimi, Almaniya özünün hərbi və ticarət nümayəndəsi baron Fon der Qoltsı buraya göndərdi. Avstriya-Macarıstan diplomatik nümayəndələri də sentyabrın sonuncu ongünlüyündə Bakıya gəldilər. Almaniya nümayəndələri Azərbaycan hökumətinin ağır iqtisadi vəziyyətindən istifadə edərək neft sənayesində və pambıq ticarətində güzəştli imtiyazlar almaq fikrində idilər. Lakin onların bu tələblərinə qarşı milli hökumət "Azərbaycan azərbaycanlılar üçündür" şüarını qoydu və bütün istiqamətlərdə Azərbaycanın müstəqilliyini qorumağa başladı.[508] Hətta Bakının azad edilməsində böyük xidmətləri olan türk komandanlığı belə Azərbaycan hökumətinin daxili işlərinə iyun böhranı zamanı müşahidə edilən müdaxilədən çəkinməyə başladı. Bakı azad edildikdən sonra Osmanlı-Azərbaycan münasibətlərinə toxunaraq T.Svyatoçevski yazır: "Osmanlı generalı artıq Azərbaycanın daxili işlərinə qarışmaqda son dərəcə ehtiyatlı hərəkət edirdi, hərbi məsələlər istisna olunmaqla, qalan bütün işlərin yerli hakimiyyət orqanları tərəfindən həyata keçirilməsini gözləyirdi."[509] Türkiyə komandanlığının əvvəlki mövqeyinin dəyişməsi xeyli dərəcədə müstəqil dövlət idarəçiliyini bərqərar etmək istiqamətində Azərbaycan hökumətinin atdığı prinsipial addımlarla bağlı idi. Bununla belə, iki qardaş ölkə arasında münasibətlər Bakının fəthindən sonra daha intensiv xarakter almağa başladı. Türkiyə hökumətinin baş naziri Tələt paşanın

[507] Азербайджанская Демократическая Республика. Внешняя политика, с.156, 195-196
[508] Azərbaycan, 1918, 9 dekabr
[509] T.Swietochowski. Russian Azerbaijan, p. 140



downloaded from KitabYurdu.az

sentyabrın 6-da Berlinə başlanan səfərinin əsas məqsədlərindən biri Azərbaycanla bağlı məsələ və xüsusilə Almaniyanı avqustun 27-də Rusiya ilə imzaladığı sazişdən çəkindirmək idi. Tələt paşa sentyabrın 5-də Dördlər İttifaqı ölkələri nümayəndələrinin Vyanada keçirilən konfransından sonra Berlinə yollandı və sentyabrın 24-nə qədər həm Almaniya rəsmiləri ilə, həm də Berlindəki Rusiya səfiri ilə çox gərgin danışıqlar apardı.

Sentyabr ayının 7-də Almaniya nümayəndələrindən Hintze və Lossovla görüşən Tələt paşa Almaniyanın Türkiyədən xəbərsiz Rusiya ilə Qafqaz barəsində gizli müqavilə bağlamasından ciddi narahatçılıq ifadə etdi. Almaniya nümayəndələri isə Türkiyəni Bakıya hücum etməyəcəyi ilə bağlı Berlinə verdiyi vədi pozmaqda ittiham etdilər.[510]

Sentyabr ayının 10-da Tələt paşanın Almaniya Xarici İşlər Nazirliyinə təqdim etdiyi Memorandumda Brest-Litovsk sülhündən sonra Cənubi Qafqazda yaranmış vəziyyət dəyərləndirilir və bildirilirdi ki, Bakı əyalətinin əhalisinin 85 faizi müsəlmanlardan ibarətdir və Bakı coğrafi cəhətdən yalnız Azərbaycana aiddir. Eyni zamanda memorandumda qeyd olunurdu ki, Bakısız güclü həyat qabiliyyəti olan qüvvətli bir Azərbaycan dövlətinin qurulması mümkün deyildir. Eyni zamanda memorandumda Rusiyanın Türkiyəyə qarşı daimi düşmən fəaliyyətində olduğunu nəzərə alaraq, Şimali və Cənubi Qafqazda yaşayan müsəlmanlardan ibarət müstəqil bir dövlətin yaradılması fikri irəli sürülürdü. Danışıqlar zamanı Tələt paşa Bakı da daxil olmaqla, Azərbaycanın, Gürcüstan və Ermənistanın, habelə sərhədləri ayrıca müəyyənləşdiriləcək Şimali Qafqaz respublikasının Almaniya tərəfindən tanınmasını istəmişdi.[511]

Almaniya Xarici İşlər Nazirliyinin nümayəndəsi doktor Kriqe sentyabr ayının 11-də Türkiyə memorandumunda irəli sürülən müddəaları Berlindəki Rusiya səfiri ilə müzakirə etdi. Sovet Rusiyasının nümayəndəsi Cənubi Qafqaz respublikaları ilə Türkiyənin imzaladığı müqavilələrin Moskva tərəfindən tanınmadığını bildirdi, lakin əlavə etdi ki, Sovet hökuməti Türkiyə ilə Rusiya arasında Qafqaz dövlətinin yaranmasını mümkün saysa da, müstəqil gürcü, erməni və Azərbaycan dövlətlərindən ibarət bufer dövlətin yaradılmasını daha məqbul hesab etsə də, Şimali və Cənubi Qafqaz müsəlmanlarının bir araya gələrək vahid dövlət yaratması fikrini qəti şəkildə rədd etdi.

Almaniya tərəfi A.İoffenin fikirlərini öyrəndikdən sonra sentyabr ayının 12-də bildirdi ki, onlar, ancaq Sovet Rusiyasının qəbul etdiyi müddəaları dəstəkləyəcəklər və Azərbaycanla Ermənistanın tanınmasına əsas verəcək elə bir beynəlxalq hüquqi normalar görmürlər. Bununla yanaşı, Almaniya hökuməti bildirdi ki, əgər müvafiq şərtlər yaranarsa, Almaniya Bakı şəhərinin də daxil olduğu Azərbaycanın müstəqilliyini tanımağa hazır olacaqdır. Bunun müqabilində

---

510 A.N.Kurat. Türkiye ve Rusiya, s.517

511 Yenə orada, s.519; Əlavə məlumat üçün bax: M.Qasımov. Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti. II hissə. Bakı, 2001, s.271-281



downloaded from KitabYurdu.az

almanlar türk qoşunlarının 27 avqust sazişində müəyyən edilmiş sərhədlərdən geri çəkilməsini tələb edirdilər.[512]

Danışıqların belə gərgin məqamında Bakının alınması barədə Tələt paşanın İstanbuldan aldığı teleqram Türkiyə nümayəndə heyətinin mövqelərini daha da gücləndirdi. İndi onlar Almaniyaya bir sıra iqtisadi güzəştlər vəd etməklə, Qafqaz respublikalarının müstəqilliklərinin tanınmasına nail olmaq istəyirdilər. Bakının azad edilməsi Azərbaycana münasibətdə Almaniya rəsmilərinin sərt müqavimətini aradan qaldırdı. Bu, açıq-aydın özünü sentyabr ayının 18-də Tələt paşaya təqdim olunmuş yeni müqavilə layihəsində göstərirdi. Müzakirələrin gedişində Tələt paşa türk qoşunlarının Azərbaycanda çox qalmayacağını bildirdi. Türkiyənin bu vədi sentyabr ayında imzalanmış 7 maddədən ibarət Almaniya-Osmanlı protokolunda təsbit edildi. Almaniya 27 avqust müqaviləsindən rəsmi şəkildə imtina etdi və Azərbaycanı diplomatik cəhətdən tanımaq arzusunda olduğunu, ilk addım kimi Bakıda tezliklə konsulluq açacağını bildirdi. Bundan əlavə, Osmanlı dövlətinin öz hərbi hissələrini Azərbaycan və Ermənistandan geri çəkməsi müqabilində Almaniya Azərbaycanın müstəqilliyinin Sovet Rusiyası tərəfindən tanınacağına da vəd verdi.[513] Öz növbəsində Türkiyə öz üzərinə təhəddüd götürdü ki, neft sahəsində Almaniyaya bəzi güzəştlər verilməsi istiqamətində Azərbaycan Respublikasına təsir göstərəcək və Azərbaycan ərazisində yaşayan alman əhalisinin hüquqlarının qorunması ilə bağlı əlindən gələni edəcəkdir.

Almaniya-Osmanlı protokolunun imzalanmasından bir gün sonra Tələt paşa Berlində olan gürcü nümayəndələrini qəbul etdi. "Adlon" mehmanxanasında danışıqlar zamanı sədr-əzəm Türkiyə-Gürcüstan münasibətlərinin yaxşılaşdırılmasının vacibliyini gürcü nümayəndələrinə bildirdi. O, qeyd edirdi: "Biz bütün mübahisəli məsələləri birlikdə aradan qaldırmalıyıq... Biz gərək Qafqazda möhkəm dayanaq. Bu gün rus səfiri İoffe mənə dedi ki, baxmayaraq onlar Gürcüstanın Almaniya tərəfindən tanınmasına razılıq veriblər, lakin özləri Gürcüstanı tanımırlar. Siz görürsünüz ki, biz müttəfiq olmalıyıq".[514] Osmanlı imperiyası bolşevik təcavüzünə qarşı Cənubi Qafqaz həmrəyliyinin yaradılmasını Türkiyənin təhlükəsizliyinin və Qafqaz respublikalarının mövcudluğunun başlıca şərti hesab edirdi. Berlində olarkən Tələt paşa gürcü nümayəndələri ilə birlikdə Almaniyaya gəlmiş erməni nümayəndələri A.Zurabyan və A.Ohanyanı da qəbul etdi. Ümumqafqaz həmrəyliyinin yaradılması barədə onlarla fikir mübadiləsi edildi.

Bakının azad edilməsi xəbərini alan kimi G.Çiçerin sentyabrın 19-da Almaniya hökumətinə nota kimi təqdim edilmək üçün uzun bir teleqram göndərdi. Teleqramda "Rusiya respublikasının əsas şəhərlərindən biri" hesab edilən Bakının azad edilməsi Sovet Rusiyasının ciddi etirazına səbəb olmuşdu. Sentyabrın 20-də

---

[512] A.N.Kurat. Türkiye ve Rusiya, s.523

[513] T.Swietochowski. Russian Azerbaijan, p.140

[514] З.Авалов. Независимость Грузии в международной политике, с. 122-123



downloaded from KitabYurdu.az

RSFSR xalq xarici işlər komissarlığının Türkiyəyə notasında "tatar quldur dəstələrininköməkliyi ilə" türk qoşunları tərəfindən Bakının azad edilməsi Sovet Rusiyasının ərazisinə təcavüz kimi qiymətləndirilirdi.[515] Buna görə də Sovet Rusiyası Brest müqaviləsinin Türkiyəyə aid hissəsinin qüvvədən düşdüyünü bildirdi. Sovet respublikasının bu addımı belə fikir söyləməyə əsas verir ki, Rusiya üçün Brest müqaviləsinin Türkiyəyə aid olan hissəsi Bakı üzərində qurulmuşmuş. Halbuki, söhbət konkret mənada bu müqaviləyə riayət edilməsindən gedirsə, may ayından etibarən türk qoşunları Cənubi Qafqazda ayrı-ayrı hərbi əməliyyatlarda iştirak edirdilər və Rusiya da bunlara görə Brest müqaviləsinin ləğv edilməsi məsələsini qaldırmamışdı. Digər tərəfdən, Brest müqaviləsi Cənubi Qafqazda o vaxta qədər qüvvədə idi ki, Zaqafqaziya özünü Rusiyanın bir hissəsi hesab edirdi. Cənubi Qafqaz Seyminin öz müstəqilliyini elan etməsi, Qafqazda ayrı-ayrı xalqların öz müqəddəratını təyin edib milli respublikalarını yaratması Brest müqaviləsinin bu xalqlar üçün hüquqi qüvvəsini itirməsi demək idi. Üçüncü bir tərəfdən, Sovet Rusiyasının 27 avqust sazişinə görə Gürcüstanın müstəqilliyinin Almaniya tərəfindən tanınmasına razılıq verməsi öz-özlüyündə Brest müqaviləsinin Qafqaza aid olan hissəsinin ləğv edilməsi demək idi. Eyni zamanda sentyabrın 21-də Sovet Rusiyası tərəfindən Almaniyanın Moskvadakı baş konsulu Hauşildə nota təqdim edildi. Notada türk qoşunlarının Bakını tutmasında Almaniyanın öz müqavilə öhdəliklərini yerinə yetirmədiyi bildirilir və Almaniya 27 avqust müqaviləsini pozmaqda ittiham edilirdi.[516]

Sovet Rusiyasının Türkiyəyə notası sentyabrın 21-də "İzvestiya" qəzetində dərc edildi. Türkiyə səfiri Moskvada olmadığı üçün onu Berlində olan Osmanlı səfirliyi vasitəsi ilə İstanbula çatdırmaq qərara alındı. Lakin bu zaman Tələt paşa Berlində olduğu üçün Qafqazda yaranmış mübahisə barəsində Sovet səfirliyi ilə danışıqlar başlandı və nota Türkiyə hökumətinə göndərilmədi. Eyni zamanda Sovet Rusiyasının Xarici İşlər Komissarlığı Berlində olan A.İoffeyə təlimat vermişdi ki, "Bakı məsələsi"ni müzakirə etmək üçün Almaniyada olan Tələt paşa və Türkiyənin xarici işlər naziri Əhməd Nəsim bəylə görüşüb "Bakının türklər tərəfindən Sovetlərə təslimini təmin etsin".[517] Bu görüşün baş tutması üçün A.İoffe 20 sentyabr tarixli notanın Türkiyəyə rəsmi təqdimatının yubadılmasına Moskvadan razılıq aldı. Bununla belə, Tələt paşa və Ə.Nəsim bəy notanın məzmunu haqqında artıq məlumatlı idilər. Sentyabrın 21-də Berlində başlanan Türkiyə-Rusiya danışıqlarında Tələt paşa bildirdi ki, Bakı məsələsi yalnız sülh yolu ilə həll edilə bilər və bu məsələdə onun hökumətinin heç bir ilhaqçılıq niyyəti yoxdur. Belə bir mövqe Tələt paşa tərəfindən sentyabrın 22-də danışıqların davam etdirilməsi zamanı da nümayiş etdirildi. Hətta sədr-əzəm bildirdi ki, Türkiyənin Rusiyadan heç bir torpaq ilhaq etmək fikri yoxdur və Qafqazda olan türk hərbi hissələri dərhal

---

515 Документы внешней политики СССР. Т.1, с.491-492
516 Документы внешней политики СССР, с.492-493
517 A.N.Kurat. Türkiye ve Rusiya, s.525



downloaded from KitabYurdu.az

geri çəkiləcəkdir.[518] Lakin Tələt paşanın belə loyal mövqeyinə baxmayaraq, A.İoffenin sözlərindən anlaşıldı ki, hətta Azərbaycanın müstəqilliyinin tanınacağı halda belə Rusiyanın neft Bakısını azərbaycanlılara vermək fikri yoxdur.[519] Sentyabrın 24-də Berlini tərk etməzdən əvvəl keçirilən sonuncu danışıqlarda A.İoffe Bakının Sovet hakimiyyəti orqanlarına təhvil verilməsi tələbini yenidən səsləndirdikdə Tələt paşa bildirdi ki, Türkiyə hər hansı ərazinin Rusiyaya təhvil verilməsi öhdəliyini öz üzərinə götürə bilməz, çünki onun Qafqaz millətlərinin daxili işlərinə qarışmaq niyyəti yoxdur.[520] Elə həmin gün Tələt paşa Berlini tərk edib İstanbula gəldi və Berlində rus səfiri ilə danışıqları davam etdirmək Türkiyənin Almaniyadakı böyük elçisi Rıfat paşaya həvalə edildi. Oktyabr ayının 2-də Ə.M.Topçubaşovu qəbul edən Tələt paşa Berlində aparılan danışıqlar barədə ona məlumat verdi və bildirdi ki, Azərbaycanın mənafeyi naminə nə mümkündürsə hamısını etmişdir. O qeyd edirdi ki, hələlik nə Avstriya-Macarıstan, nə də Almaniya müstəqil Azərbaycan dövlətini tanımaq istəmirlər. Rusiya səfiri isə danışıqlar zamanı göstərmişdi ki, guya "Qafqaz müsəlmanları yalnız Türkiyənin təzyiqi ilə müstəqil dövlət yaratmışlar". Müsəlman kəndlilərinin, bəylərin və varlıların zülmündən əzab çəkməyinə proletar Rusiyasının "dözməyəcəyini" qeyd edərək İoffe Tələt paşaya bildirmişdi ki, "orada /Qafqazda-C.H./ müsəlmanlar şiədirlər, siz türklər isə sünnüsünüz". Tələt paşa bu əsassız iddianı rədd edərək bildirmişdi ki, "bax mən türkəm və şiəyəm". Bu söhbəti dinləyən Ə.M.Topçubaşov isə əlavə etmişdi ki, "əgər mən sizinlə Berlində olsaydım cənab İoffeyə deyərdim ki, bax mən də Qafqaz müsəlmanıyam, lakin sünnüyəm". Bu məsələ ilə bağlı Tələt paşaya məlumat verən Ə.M.Topçubaşov Azərbaycanda və ümumilikdə müsəlmanlar arasında məzhəbçiliyin qızışdırılmasının Rusiyanın ənənəvi siyasəti olduğunu göstərmişdi. O bildirirdi ki, Rusiyadakı indiki hökumət də həmin siyasəti yeridir və bolşeviklər müsəlmanlara düşmən münasibətlərini Bakıda törətdikləri hərəkətləri ilə sübut etdilər.[521]

Almaniyadakı türk səfiri Rıfat paşa Qafqazda hərbi vəziyyəti nizama salmaq üçün Rusiya ilə Türkiyə arasında imzalanması nəzərdə tutulan protokol layihəsini oktyabr ayının əvvəllərində A.İoffeyə təqdim etdi. Həmin layihəyə görə Sovet Rusiyası Azərbaycanın istiqlaliyyətini tanımalı və ona hərbi, yaxud digər yolla müdaxilə etməyəcəyi barədə təminat verməli idi. Bu təkliflər qəbul olunacağı təqdirdə Türkiyə öz qoşunlarını Brest müqaviləsində göstərilən hüdudlara çəkməyi öz üzərinə götürürdü. Oktyabr ayının əvvəllərində protokol layihəsini müzakirə edən Sovet tərəfi ona konkret cavab verməyə tərəddüd edirdi. Sentyabrın 29-da Salonikada Bolqarıstanın təslim aktını imzalaması Sovet hökumətinin Berlindəki

[518] Yenə orada, s.554-555
[519] Y.H.Bayur. Türk İnkilabı Tarihi. Cilt III, s.246
[520] A.N.Kurat. Türkiye ve Rusiya, s.555
[521] Azərbaycan Respublikasının fövqəladə səfiri və səlahiyyətli naziri Ə.M.Topçubaşovun Türkiyənin sədr-əzəmi Tələt paşa ilə söhbətinin yazılı qeydləri. 02.10.1918. //ARDA, f.894, s.10, i.150, v.1-2



downloaded from KitabYurdu.az

səfirinə türk protokolunu imzalamaq haqqında göstəriş verməsi ilə nəticələndi. Dördlər İttifaqının məğlubiyyətini hiss edən Sovet Rusiyası oktyabr ayının 3-də Türkiyənin Almaniyadakı səfiri Rüfət paşaya göndərdiyi notada Türkiyənin Brest müqaviləsində göstərilən hüdudlara çəkilməsini, Türk qoşunları tərəfindən tərk edilən ərazilərin Sovet Rusiyasına təslim edilməsini, Brest müqaviləsinin pozulması nəticəsində türk ordusunun Rusiyaya vurduğu maddi ziyanı müəyyən etmək üçün xüsusi beynəlxalq komissiyanın yaradılmasına, hər iki tərəfin Almaniya imperatorluğuna müraciət edərək, bu öhdəliklərin yerinə yetirilməsində təminatçı olmasını xahiş etməkdən ibarət olan təkliflərini irəli sürdü.[522] Berlində aparılan danışıqlar barəsində Moskvaya müntəzəm məlumat verən A.İoffe oktyabrın 7-də V.İ.Lenin və Y.Sverdlovun imzası ilə belə bir teleqram aldı: "Bakını hakimiyyət orqanlarımıza vermək barəsindəki təklif qəbul edilməyincə, Türkiyə protokolunu imzalamağa razı deyilik, çünki bu maddə olmadan güman etməyə əsas vardır ki, Bakını Antantaya təslim etmək barəsində Antanta ilə gizli saziş bağlanmışdır".[523] Lakin bu ehtimal real həqiqətə uyğun deyildi. Sonralar hərbi qruplaşmalar arasında imzalanmış gizli müqavilələr aşkarlananda məlum oldu ki, Mudros barışığına qədər Türkiyə Bakı barəsində Antanta dövlətləri ilə heç bir gizli danışıqlar aparmamış və heç bir gizli müqavilə imzalanmamışdır.

Oktyabrın 10-da RSFSR Xalq xarici işlər komissarı G.Çiçerin Türkiyə Xarici İşlər Nazirliyinə yeni nota ilə müraciət etdi. Bu notada əvvəlki sovet tələbləri təkrarlanır, Türkiyə Xarici İşlər Nazirliyindən oktyabrda alınan cavab teleqramında irəli sürülən müddəalar təkzib edilirdi. Notada ilk növbədə Bakının, sonra isə müstəqilliyi Almaniya tərəfindən tanınan Gürcüstanı çıxmaq şərti ilə Cənubi Qafqazın bütün qalan hissəsinin Sovet hakimiyyət orqanlarına verilməsi tələb edilirdi.[524] Belə əsassız iddialara görə Berlində aparılan Türkiyə-Rusiya danışıqları baş tutmadı və hazırlanmış protokol imzalanmadı.

İstanbulda olan Azərbaycan nümayəndələrinin Avropa dövlətlərinin paytaxtlarına nümayəndələr göndərmək təşəbbüsü faydalı və zəruri bir ideya idi. Hər an dəyişən siyasi proseslərin və beynəlxalq vəziyyətin nəbzini tutmaq üçün buna böyük ehtiyac var idi. M.Ə.Rəsulzadə İstanbuldan nazirlər kabinəsinin başçısı F.X.Xoyskiyə vurduğu təcili teleqramda qeyd edirdi ki, siyasi konyuktura tamamilə dəyişmişdir. Vilsonun prinsipləri əsasında sülh təklif edilmişdir. Konfrans olmayacaq. Ermənilər Qarabağı tələb edirlər. Təcili şəkildə Milli Şuranı çağırmaq və Avropada təbliğata başlamaq zəruridir.[525] Halbuki, qonşu Gürcüstan və Ermənistan respublikaları avqust ayında artıq öz nümayəndələrini Berlinə

[522] Документы внешней политики СССР. Т.1, с.510
[523] V.İ.Lenin Azərbaycan haqqında, s.151
[524] Документы внешней политики СССР. Т.1, с.516; M.Qasımov. Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti. II hissə, s.279
[525] İstanbuldakı Azərbaycan nümayəndəliyinin sədri M.Ə.Rəsulzadənin Nazirlər Şurasının sədri F.X.Xoyskiyə məktubu. Oktyabr, 1918. //ARDA, f.970, s.1, i.5, v.2



downloaded from KitabYurdu.az

göndərmişdilər. Avropanın mərkəzində hadisələrin gedişini yaxından izləyən bu nümayəndəliklər Dördlər İttifaqının gözlənilən məğlubiyyətini hiss etdikdə Norveç və İsveçin paytaxtlarında ABŞ, İngiltərə və Fransa diplomatik nümayəndələri ilə qeyri-rəsmi əlaqələr yaratmışdılar.[526] Osloda Z.Avalov Britaniya və Fransa səfirləri ilə görüşdü. Böyük Britaniyanın Norveçdəki səfiri ser Mensfeld K.Findli onu qəbul edərək Cənubi Qafqazdakı vəziyyət barədə ətraflı məlumat aldı.[527] Bakının azad edilməsi məsələsi ilə dərindən maraqlanan ingilis səfiri bu fikirdə idi ki, Türkiyə Almaniyanın təhriki ilə Bakı istiqamətində hərəkət etmişdir. Lakin Z.Avalov bu mübahisədə Almaniyanın Rusiya ilə müttəfiq olduğunu qeyd edib bildirdi: "Türkiyə ilə Azərbaycanın yaxınlaşması türk həmrəyliyi zəminində olmuşdur".[528]

Norveçdə olan erməni və gürcü nümayəndələri Osloda olan ABŞ səlahiyyətli nümayəndəsi Artur Şoupfeld ilə görüşüb ona istiqlaliyyətin elan edilməsi haqqında memorandum təqdim etdilər. Az sonra bunun nəticəsi oldu. Artıq sentyabr ayında ABŞ-ın nufuzlu siyasi xadimlərindən olan keçmiş prezident Teodor Ruzvelt və respublikaçı senator Henri Kabot Loc azad Ermənistan dövlətinin yaradılması barədə çıxış etdilər. Senator H.Locun hazırladığı qətnamə əsasında müstəqil Ermənistan dövləti nəinki Rusiya və "Türkiyə Ermənistanı" ərazilərini əhatə etməli, eyni zamanda Kilikiya, Cənubi Azərbaycanın bir hissəsi və digər ərazilər də bura daxil olmalı idi. Az sonra senator Vilyam Kinq də Ermənistan barəsində buna bənzər bir qətnaməni müzakirə üçün senata təqdim etmişdi.

Erməni və gürcü nümayəndələrinin 1918-ci ilin payızında Avropa dövlətlərinin paytaxtlarında Antanta dövlətlərinin diplomatik nümayəndələri ilə apardığı danışıqlar Dördlər İttifaqının məğlubiyyətindən sonra onların beynəlxalq vəziyyətinə müsbət təsir göstərdi. İstanbulda olan Azərbaycan nümayəndələri və xüsusilə fövqəladə səlahiyyətli nümayəndə Ə.M.Topçubaşov Avropa paytaxtlarına xüsusi nümayəndəlik göndərilməsinə böyük əhəmiyyət verirdi. Dörd aya yaxın Bakının azad edilməsi ilə məşğul olan Azərbaycan hökuməti bu istiqamətdə əhəmiyyətli addım ata bilmədiyi üçün Ə.M.Topçubaşov İstanbulda öz təşəbbüsü ilə Əli bəy Hüseynzadənin başçılığı ilə neytral ölkə olan İsveçrəyə göndərilmək üçün kiçik nümayəndəlik yaratdı. Burada onlar xarici ölkələrin diplomatik nümayəndələri ilə görüşməli, Hollandiya, İtaliya və Fransaya getməli idilər. Lakin bu missiyaya Avropa ölkələrinə getmək üçün Antanta ölkələri tərəfindən viza verilmədi.

Berlinə və Vyanaya səfərə çıxmağa hazırlaşan Ə.M.Topçubaşov oktyabr ayı ərzində İstanbulda Türkiyənin rəsmi dövlət nümayəndələri ilə bir sıra görüşlər keçirdi. Lakin Türkiyə məğlubiyyət ərəfəsindəki böhran içərisində olduğu və ay yarım ərzində üç hökumət kabinəsi dəyişdiyi üçün Azərbaycanla Osmanlı dövləti

---

[526] З.Авалов. Независимость Грузии в международной политике, с. 115-116
[527] F.Kazemzadeh. The Struggle for Transcaucasia, p. 162
[528] З.Авалов. Независимость Грузии в международной политике, с.118



downloaded from KitabYurdu.az

arasında sabit münasibətlər bərqərar etmək mümkün olmadı. Ə.M.Topçubaşov Azərbaycan hökumətinin başçısına noyabr ayının 14-də yazdığı məktubda bu barədə deyirdi: "Mənim gəldiyim müddətdə artıq üçüncü kabinet yaradılır, Tələt paşa kabinəsindən sonra yaradılmış İzzət paşa kabinəsi buraxıldı. Və bir neçə gün əvvəl köhnə diplomat Tevfik paşa xarici işlər naziri Mustafa Reşad paşa ilə yeni kabinet yaratdılar. Bir kabinetlə hər hansı bir əlaqə yaratmağa macal tapmamış, yeni kabinə yaranır".[529]

İstanbula gəldikdən sonra birinci olaraq oktyabr ayının 2-də Azərbaycanın fövqəladə səlahiyyətli nümayəndəsini sədr-əzəm Tələt paşa qəbul etdi. Bundan iki gün əvvəl o, İstanbulda olan M.Ə.Rəsulzadə, X.Xasməmmədov və A.Səfikürdskini qəbul etmişdi. Tələt paşa Berlində apardığı danışıqlarda Azərbaycanın mənafeyini müdafiə etdiyini, lakin vəziyyətin xeyli çətinləşdiyini bildirdi. O qeyd edirdi ki, bizim yalnız bir arzumuz - Rusiya imperiyasının dağılması - yerinə yetmişdir: "Bu həm bizim üçün, həm sizin üçün, həm də bütün Qafqaz və Rusiya xalqları üçün yaxşı nəticədir". Bundan səmərəli istifadə etmək üçün azərbaycanlılar, ermənilər və gürcülər öz aralarında olan kiçik ziddiyyətləri və narazılıqları unudub, mehriban əlaqələr yaratmalıdırlar. Eyni zamanda, Tələt paşa qeyd edirdi ki, belə əlaqələrin yaradılmasına məhz indi başlanılmalıdır. "Əlbəttə, mübahisəli məsələləri həll etmək üçün yeni yaranan dövlətlər beş-altı mübahisəli kəndi bir-birinə güzəştə getməlidir. Yalnız bu halda biz Qafqaz dövlətləri ilə Sülh konqresində birlikdə ola bilərik".[530] Tələt paşa danışıqlar zamanı müstəqil Azərbaycan dövlətinin yaradılmasının Türkiyənin çoxdankı arzusu olduğunu bildirdi.

Ə.M.Topçubaşov Berlin səfəri zamanı Azərbaycanın mənafeyi uğrunda, habelə türk əsgərlərinin Bakının azad edilməsində iştirakına görə sədr-əzəm Azərbaycan hökuməti adından təşəkkürünü bildirdi. Qonşularla münasibətlərdə yarandığı gündən Azərbaycan Respublikasının mehriban qonşuluq prinsiplərini rəhbər tutduğunu göstərərək o bildirdi ki, bu xoş məqsədə nail olmağın böyük çətinlikləri vardır. Əgər gürcülərlə sülh yolu ilə keçinmək mümkünsə, lakin ermənilərlə çox çətindir, "bizim müsəlmanların bu işdə səmimiliyi çoxdan məlumdur. Ermənilərin isə yalnız indiki hərəkətlərini göstərmək kifayətdir. Nə qədər ölkə varsa, onların bir o qədər də oriyentasiyaları vardır. İstanbulda sizə öz məhəbbət və sədaqətlərini bəyan edirlər, Berlində almanlara. Ona görə də bizim hökumətimiz məni fövqəladə səlahiyyətli nazir kimi Avstriya-Macarıstan və Almaniya paytaxtına göndərməyi lazım bilmişdir".[531]

---

529 Azərbaycan Respublikasının fövqəladə səfiri və səlahiyyətli naziri Ə.M.Topçubaşovun Nazirlər Şurasının sədri F.X.Xoyskiyə məktubu. 14.11.1918. //ARDA, f.894, s.10, i.34, v.18

530 Azərbaycan Respublikasının fövqəladə səfiri və səlahiyyətli naziri Ə.M.Topçubaşovun Türkiyənin sədr-əzəmi Tələt paşa ilə söhbətinin yazılı qeydləri. 02.10.1918. //ARDA, f.894, s.10, i.150, v.2-3

531 Azərbaycan Respublikasının fövqəladə səfiri və səlahiyyətli naziri Ə.M.Topçubaşovun Türkiyənin sədr-əzəmi Tələt paşa ilə söhbətinin yazılı qeydləri. 02.10.1918. //ARDA, f.894, s.10, i.150, v.3



downloaded from KitabYurdu.az

Elə həmin gün, oktyabr ayının 2-də Ə.M.Topçubaşov Türkiyə xarici işlər naziri Əhməd Nəsim bəyin qəbulunda oldu. Azərbaycan hökuməti tərəfindən İstanbulda, Berlində, Vyanada, habelə Ermənistan və Gürcüstan nümayəndələri ilə danışıqlar aparmaq üçün ona verilmiş fövqəladə səlahiyyətli nazir mandatını Osmanlı Xarici İşlər Nazirliyinə təqdim etdi və Azərbaycan Respublikası barəsində məlumat verdi. Əhməd Nəsim bəy Ə.M.Topçubaşovun missiyası və Azərbaycan barəsində bu yaxınlarda sədr-əzəmlə söhbət etdiyini qeyd edib bildirdi: "İndi ümid etmək olar ki, sizin üçün, azərbaycanlılar üçün yaxşı günlər başlayır və siz öz dövlət quruculuğunuzla məşğul ola bilərsiniz".[532]

Danışıqlar zamanı Türkiyə xarici işlər naziri Qafqaz respublikalarının öz aralarında olan ixtilafları aradan qaldırmağın, qarşılıqlı razılıq əsasında öz aralarında sərhədləri müəyyənləşdirməyin zəruriliyini qeyd etdi. Son vaxtlar dünya hadisələrinin istiqamətinin dəyişdiyini, İstanbul konfransının mümkün olmayacağını qeyd edərək o, Qafqazda sülhün və sabitliyin, mehriban qonşuluq münasibətlərinin bərqərar edilməsini vacib hesab edirdi. Danışıqlar zamanı Əhməd Nəsim bəy bildirdi: "Buna mümkün olduqca tez başlamaq lazımdır ki, Sülh konqresinə hazırlaşmaq mümkün olsun. Azərbaycanlılar, gürcülər və ermənilər ora bir ümumi arzu ilə getməlidir".

Osmanlı xarici işlər naziri ilə razılaşsa da, Ə.M.Topçubaşov ermənilərlə bir yerdə işləməyin qeyri-mümkünlüyünü əsaslandırdı. O bildirdi ki, ermənilərin iştahası çox böyükdür və həm də bu iştahı özgələrinin, ilk növbədə isə bizim hesabımıza doyurmaq istəyirlər. Onlar demək olar ki, bütün ölkələrin paytaxtlarında bizə qarşı təbliğat aparıb, bizim millətin öz dövlət həyatını qurmağa qadir olmadığını və qonşu xalqlarla sülh şəraitində yaşamağı bacarmadığına dair saxta məlumatlar yayıb, Azərbaycanın mənafeyinə ziyan vururlar. Ə.M.Topçubaşov dedi: "Ona görə də mühüm Avropa paytaxtlarında nümayəndəliyimizin olması bizim üçün zəruridir". Türkiyə Xarici İşlər Nazirliyi bu fikrə tərəfdar idi. Bu barədə o, İstanbul konfransına gəlmiş Azərbaycan nümayəndələri ilə də söhbət etmişdi. Əhməd Nəsim bəy danışıqlar zamanı bildirdi ki, bu çox faydalı fikirdir, əgər siz xaricdə olsanız çox yaxşı olar və Azərbaycan haqqında özünüz danışmalı olarsınız.[533]

Oktyabr ayının 3-də Azərbaycanın fövqəladə səlahiyyətli nümayəndəsini Osmanlı imperiyasının hərbi naziri Ənvər paşa qəbul etdi. Hərbi nazirliyin qəbul otağında Ə.M.Topçubaşov vaxtilə Batum danışıqlarında Türkiyə nümayəndə heyətinə başçılıq etmiş ədliyyə naziri Xəlil bəylə qarşılaşdı və Qafqaz

---

[532] Azərbaycan Respublikasının fövqəladə səfiri və səlahiyyətli naziri Ə.M.Topçubaşovun Türkiyənin xarici işlər naziri Əhməd Nəsim bəylə söhbəti. 02.10.1918. //ARDA, f.894, s.10, i.150, v.4

[533] Azərbaycan Respublikasının fövqəladə səfiri və səlahiyyətli naziri Ə.M.Topçubaşovun Türkiyənin xarici işlər naziri Əhməd Nəsim bəylə söhbəti. 02.10.1918. //ARDA, f.894, s.10, i.150, v.5



downloaded from KitabYurdu.az

respublikalarının sərhəd məsələlərinə və qarşılıqlı münasibətlərinə dair qısa fikir mübadiləsi edildi.

Hərbi nazirlikdə danışıqlar zamanı Azərbaycan ordusunun yaradılmasına, bilavasitə qayğısına və Bakının azad edilməsində yardımına, habelə Azərbaycan xalqı qarşısında xidmətləri olan İslam Ordusuna hərbi nazirin qardaşı Nuru paşanın rəhbərlik etdiyinə görə Ənvər paşaya öz minnətdarlığını bildirdi. Azərbaycan ordusu üçün zəruri olan kadrların hazırlanması, silah və hərbi sursat təchizatı ilə bağlı bir sıra məsələlər danışıqlarda müzakirə edildi. Avropa paytaxtlarına Azərbaycan nümayəndələrinin göndərilməsinə Ənvər paşa böyük əhəmiyyət verirdi. O qeyd edirdi ki, nəinki Berlin və Vyanaya, hətta vuruşan ölkələrin səfirlikləri ilə əlaqə saxlamaq üçün neytral dövlətlər olan İsveçrə və Hollandiyaya da getmək lazımdır. Belə səfərlər nəticəsində Azərbaycanın müstəqil bir dövlət olduğunu qəzetlər və digər vasitələrlə təbliğ etmək olar. Ənvər paşa deyirdi: "Uzun müddət, ən azı ümumi sülh bağlanana qədər İsveçrədə qalmaq, Berlinə və digər mərkəzlərə getmək lazımdır. Əgər sizə orada çox qalmaq olmazsa, indiki nümayəndəliyinizdən kimisə göndərmək olar. Daha yaxşı olardı ki, məsələn Cenevrə və Lozannada bütöv bir Azərbaycan nümayəndəliyi olsun".[534]

Lakin dünya müharibəsinin çətinlikləri Türkiyədə hökumət böhranını dərinləşdirmişdi. Oktyabrın əvvəllərində Almaniyada hökumət dəyişikliyinin Osmanlı dövlətinə də təsiri oldu. Oktyabr ayının 8-də Tələt paşa kabineti istefa verdi və oktyabr ayının 19-da Türkiyənin siyasətini ABŞ prezidenti V.Vilsonun "14 maddəsinə" uyğunlaşdırmağa çalışan İzzət paşa kabineti yaradıldı.

Oktyabrın ortalarında Türkiyənin siyasi dairələrində ingilispərəst meyl güclənmişdi. Mətbuatda köhnə kabinə və xüsusi ilə Ənvər paşa ciddi tənqid obyektinə çevrilmişdi, bir növ "bütün günah" onun üzərinə qoyulurdu. Və hətta belə bir sual verilirdi ki, "nə üçün o, Azərbaycanı Türkiyə ilə bağladı?" Bununla belə yeni kabinənin də mövqeyi güclü deyildi. Azərbaycan hökumətinin rəisinə yazdığı məktubda Ə.M.Topçubaşov göstərirdi ki, "indiki kabinet özünün zəifliyini etiraf edir".[535] Türkiyədə yaranmış yeni kabinetin zəifliyi Baş nazir və xarici işlər nazirinin Ə.M.Topçubaşovla danışıqlarında da özünü göstərirdi. Oktyabrın 21-də yeni sədr-əzəm İzzət paşa Azərbaycanın fövqəladə səlahiyyətli nümayəndəsini qəbul etdi. Ə.M.Topçubaşov yeni hökumət kabinəsini təbrik etdi və sədr-əzəmə Azərbaycan Respublikası, İstanbulda keçirdiyi görüşlər, habelə yaranmış vəziyyət barədə məlumat verdi. İzzət paşa vəziyyətin böhranlı bir mərhələyə çatdığını qeyd edərək dedi: "Bəli, zaman sürətlə gedir, indi hər şey gün ərzində deyil, saat ərzində dəyişir. Baxın, dünən nə var idi, bu gün nələr baş verir. Dünən biz elə vəziyyətdə idik ki, özümüzü yaxşı hiss edirdik, bu gün biz... məğlubuq. İndi bizə birlikdə

[534] Azərbaycan Respublikasının fövqəladə səfiri və səlahiyyətli naziri Ə.M.Topçubaşovun Türkiyənin hərbi naziri Ənvər paşa ilə söhbəti. 03.10.1918. //ARDA, f.894, s.10, i.150, v.8

[535] Osmanlı hökumətində Azərbaycan Respublikasının fövqəladə səlahiyyətli nümayəndəsi Ə.M.Topçubaşovun F.X.Xoyskiyə məktubu. 31.10.1918. //ARDA, f.894, s.10, i.34, v.12-13



downloaded from KitabYurdu.az

fəaliyyət göstərmək lazımdır ki, öz mənafelərimizi saxlaya bilək. Heç kim üçün sirr deyildir ki, biz sizin Azərbaycanı sevirik və indiyə kimi nə mümkündürsə etmişik".[536] Danışıqlarda Azərbaycan tərəfi indiyə kimi göstərilən yardıma görə təşəkkürünü bildirdi və yeni kabinənin də Azərbaycana münasibətdə köhnə xətti davam etdirəcəyinə ümidvar olduğunu qeyd etdi. Cavabında İzzət paşa böyük qardaşın kiçik qardaşa imkanları daxilində kömək göstərməsinin vacibliyini təsdiq edərək, daha çox yaranmış obyektiv reallıqlar baxımından çıxış edərək dedi: "Siz özünüz görürsünüz ki, şərait dəyişir, bizim və bizim müttəfiqlərin də vəziyyəti kəskin şəkildə dəyişir. Ona görə indi söz bizim yox, Vilsonun və onun tərəfdarlarınındır".[537] Uzun müzakirələrdən sonra razılıq əldə edildi ki, Türkiyənin Azərbaycana əvvəlki münasibətinin dəyişməz qaldığı barədə Ə.M.Topçubaşov Azərbaycan hökumətinə məlumat versin. Oktyabr ayının 24-də yeni sədr-əzəm İzzət paşa türk ordularının Qafqazdan çıxarılıb Brest-Litovsk sülhündə müəyyənləşmiş sərhədlərə çəkilməsi haqqında əmr verdi. Bu əmr Türkiyənin təslimçiliyə doğru getdiyinin aydın təzahürü idi.

Oktyabr ayının 27-də Ə.M.Topçubaşov yeni xarici işlər naziri Nəbi bəylə görüşdü. Danışıqlar zamanı Azərbaycan-Türkiyə münasibətlərinin bir sıra mühüm istiqamətləri müzakirə edildi və yeni xarici işlər naziri Türkiyənin Azərbaycana olan münasibətinin dəyişməz qaldığını bir daha təsdiq etdi. Azərbaycan tərəfi yeni yaradılmış milli ordunun komplektləşdirilməsi üçün zəruri olan hərbi sursatı Osmanlı dövlətindən alacağına ümidvar olduğunu bildirdi. Türkiyə xarici işlər naziri müttəfiqlərin təzyiqi ilə Osmanlı ordusunun Azərbaycandan çıxmaq məcburiyyətində qalacağını göstərdi. Lakin Nəbi bəy türk zabit və əsgərlərinin könüllü şəkildə Azərbaycan ordusunda qalıb xidmət etməsinin mümkünlüyünü də qeyd etdi. Danışıqlar zamanı Nəbi bəy türk qoşunlarının çıxacağı təqdirdə Azərbaycana tezliklə diplomatik nümayəndə təyin ediləcəyi barədə məlumat verdi. Söhbətin gedişində Qarabağ məsələsinə və bu məsələ ətrafında İstanbul konfransına gəlmiş erməni nümayəndələrinin qaldırdığı təbliğat kampaniyasına da toxunuldu. Ə.M.Topçubaşov bu məsələ ilə bağlı göstərdi ki, ermənilərin iddia etdikləri Gəncə quberniyasının Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzaları Azərbaycanın ərazisinə daxildir və bizim hökumətimiz Andronik kimi avantüristlərin bandasının pozduğu öz ərazi sabitliyini təmin etmək üçün bu rayonlara ordu göndərmək hüququna malikdir. O dedi: "Ermənilərin bəyanatının əksinə olaraq sizə bildirməliyəm ki, bu bizim ordu hissələrimizdir və öz ərazilərimizə göndərilmişdir".[538] Qarabağa Azərbaycan Ordusunun göndərilməsi barədə İstanbulda olan erməni nümayəndələri Tiflisdəki daimi nümayəndələri A.Camalyandan teleqram almışdı. Bu teleqram əsasında erməni nümayəndəliyinin

---

[536] Azərbaycan Respublikasının fövqəladə səfiri və səlahiyyətli naziri Ə.M.Topçubaşovun Türkiyənin yeni sədr-əzəmi İzzət paşa ilə söhbəti. 21.10.1918. //ARDA, f.894, s.10, i.150, v.8

[537] Yenə orada, v.9

[538] Yenə orada, v.12



downloaded from KitabYurdu.az

rəhbəri A.Ağaronyan Andronikin Qarabağda törətdiyi cinayətlərin üstündən sükutla keçərək bura Azərbaycan ordusunun yeridilməsinin guya problemin dinc yolla həll edilməsinə maneçilik törətdiyi barədə Ə.M.Topçubaşova məktubla müraciət etmişdi.[539] Belə bir müraciət Almaniya və Avstriya-Macarıstan səfirliyinə də verilmişdi. Lakin almanların ermənilərə münasibəti o qədər də yaxşı deyildi, onların şıltaqlığına dözsələr də, regionda ağalıq etmək arzularına mənfi münasibət bəsləyirdilər.[540]

Bundan əlavə, Tiflisdə olan Ermənistanın səlahiyyətli nümayəndəsi Almaniyanın Gürcüstandakı diplomatik heyətinin başçısı fon Kressə də müraciət etmişdi. Lakin fon Kress Qarabağ məsələsində Ermənistana heç bir kömək göstərə bilməyəcəyinə təəssüfləndiyini bildirib Gürcüstanda olan Osmanlı nümayəndəsi Əbdül Kərim paşa ilə görüşməyi məsləhət görmüşdü. Əbdül Kərim paşa da bu işin Türkiyəyə dəxli olmadığını və öz növbəsində Tiflisdə olan Azərbaycan nümayəndəsi M.Y.Cəfərovla görüşməyin lazım olduğunu A.Camalyana bildirmişdi.[541]

Oktyabr ayının 28-də Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsi İstanbulda - Türkiyə Xalq Maarifi Nazirliyində qəbul edildi. Maarif naziri xəstə olduğu üçün onun müavini ilə Azərbaycan-Türkiyə mədəni əlaqələri barədə danışıqlar aparıldı. İlk növbədə hələ 1918-ci ilin yayında M.Ə.Rəsulzadə və Ə.Ağayev tərəfindən qaldırılan Türkiyədən müəllimlər dəvət etmək məsələsinə toxunuldu. Türkiyə tərəfi bu işin Maarif Nazirliyi tərəfindən aparıldığını və Azərbaycan tərəfinin bu təşəbbüsünün yaxın vaxtlarda həyata keçiriləcəyini bildirdi.[542] Danışıqlarda azərbaycanlı gənclərin Türkiyəyə oxumağa göndərilməsi, habelə əvvəlcədən burada təhsil alan azərbaycanlı tələbələrin təhsilini başa çatdırdıqdan sonra Azərbaycana qayıtması məsələləri müzakirə edildi. Türkiyənin maarif və mədəniyyət nazirlikləri, qabaqcıl ziyalılarının yardımı ilə Ə.M.Topçubaşov İstanbulda "Azərbaycan mətbuat bürosu" yarada bilmişdi.[543] Bu büronun da Azərbaycan haqqında olan materialların toplanması və yayılmasında böyük rolu oldu.

Yenə həmin gün oktyabr ayının 28-də günün ikinci yarısı Azərbaycanın fövqəladə səlahiyyətli nümayəndəsinin yeni seçilmiş Şeyxülislamla görüşü oldu. Şeyxülislam özü Qafqazdan idi. O, vaxtı ilə Dağıstanın Qünyub aulu yaxınlığındakı İnax kəndindən Türkiyəyə təhsil almağa gəlmişdi və sonra

---

[539] Ermənistanın İstanbuldakı nümayəndəliyinin sədri A.Ağaronyanın Azərbaycan Respublikasının fövqəladə səlahiyyətli naziri Ə.M.Topçubaşova məktubu. Oktyabr, 1918. //ARDA, f.894, s.10, i.34, v.7

[540] Ermənistanın İstanbulda olan nümayəndəliyinin sədri A.Ağaronyanın Almaniya və Avstriya-Macarıstanın Türkiyədəki səfirlərinə müraciəti. Oktyabr, 1918. //ARDA, f.894, s.10, i.31,v.4

[541] ARPİİ SPİHDA, f.276, s.9, i.17, v.44-46

[542] Azərbaycan Respublikasının fövqəladə səlahiyyətli nümayəndəsi Ə.M.Topçubaşovun Türkiyənin xalq maarifi nazirinin müavini ilə söhbəti. 28.10.1918. //ARDA, f.894, s.10, i-150, v.13-14

[543] Osmanlı hökumətində Azərbaycan Rcspublikasının fövqəladə səlahiyyətli nümayəndəsi Ə.M.Topçubaşovun F.X.Xoyskiyə məktubu. 31.10.1918. //ARDA, f.894, s.10, i.34, v.15



downloaded from KitabYurdu.az

Türkiyədə qalmışdı. Ona görə də Şeyxülislam Qafqazdakı vəziyyət, Azərbaycan-Dağıstan, azərbaycanlı gənclərin dinə münasibəti barədə xeyli sual-cavab apardı, şəriətin bəzi vacib cəhətləri üzərində dayandı. Ə.M.Topçubaşov Azərbaycandakı vəziyyət, yüzillik rus müstəmləkəçiliyinin Azərbaycanın mənəviyyatına vurduğu ziyanlar, habelə Qafqazda olan din xadimlərinin rus idarəçiliyinin əlində bir alətə çevrildiyi barədə ətraflı məlumat verdi. Uzun müddət müsəlmanların düşmənlərinin sünni şiə ədavətindən məharətlə istifadə etdiklərini və indi artıq Azərbaycanda belə ziyanlı ideyaların aradan qaldırıldığını eşidən Şeyxülislam bundan çox razı qaldı. O bildirdi: "Bunu sizdən eşitməyə çox-çox şadam. Əlbəttə, bu fərq bir Allahı tanıyan və Quranı qəbul edən müsəlmanları ayırmamalıdır və ayıra bilməməlidir. Nə qədər bu ziyan vurub... Şükür olsun Allaha ki, artıq Qafqazda bu bəlanı başa düşürlər". Ə.M.Topçubaşov bunun ənənəvi rus siyasəti olduğunu göstərib Birinci Pyotrun vəsiyyətlərini misal gətirdi. Vaxtı ilə Birinci Pyotr öz varislərinə məsləhət görürdü ki, sünni və şiəlik zəminində daimi farsları türklərlə salışdırsınlar, müfti və Şeyxülislamları qızılla ələ alsınlar. O, əlavə etdi ki, "indinin özündə də, hətta bolşevik hökuməti belə bunun vasitəsi ilə müsəlmanlar arasında nifaq salmaq istəyir". Danışıqlar zamanı islam dini və milli dil məsələləri müzakirə edildi. Qafqazda bəzi nüfuzlu din xadimlərinin "bütün müsəlmanlar yalnız ərəb dilində danışmalıdırlar" zərərli ideyası tənqid edildi. Həmin din xadimləri bu fikirdə idilər ki, "Osmanlılar türk dilini dövlət dili elan etməklə özlərini məhv etmişlər". Bununla əlaqədar olaraq, Şeyxülislam qeyd etdi ki, "bu mümkün deyildir, hər bir xalq ona əziz olan öz dilini sevir və sevməlidir. Nəinki türklər, eləcə də heç kəs öz doğma ana dilindən imtina edə bilməz".[544] 1918-ci ildə deyilmiş bu sözlər bir çox cəhətlərinə görə bu gün də öz aktuallığını saxlayır.

Ə.M.Topçubaşovun oktyabr ayı ərzində İstanbulda keçirdiyi görüşlər, apardığı diplomatik danışıqlar Azərbaycan Respublikasının beynəlxalq vəziyyətinə müsbət təsir göstərdi. Vəziyyətin günbəgün sürətlə dəyişməsi, Osmanlı dövlətində hökumət kabinetlərinin tez-tez istefa verməsi Azərbaycan səlahiyyətli nümayəndəsinin Berlinə və Vyanaya gözlənilən səfərini ləngitdi. Sonra isə bu səfərə ehtiyac olmadı. Azərbaycan hökumətinin sədrinə yazdığı məktubda indi artıq Ə.M.Topçubaşov təcili şəkildə ABŞ, Böyük Britaniya, Fransa, İtaliya və digər ölkələrin nümayəndələri ilə danışıqlar aparmaq üçün ona mandat verilməsini xahiş edirdi.

Azərbaycan ətrafında gərgin bir vəziyyət yarandığı hiss edilirdi. Müharibənin sonunda regionda yaranmış vəziyyət Forin Ofisin kəşfiyyat idarəsinin 1918-ci ilin oktyabrın 28-də hazırladığı "Zaqafqaziyada siyasi şərait haqqında" Memorandumda belə səciyyələndirilirdi: "Türkiyənin gözlənilən məğlubiyyəti ilə bağlı Azərbaycan haqqında məsələ açıq qalır. Gürcüstan və Ermənistan müstəqil dövlətlərinin mövcudluğu Türkiyə ilə İran və Azərbaycan əraziləri arasında

---

[544] Azərbaycan Respublikasının fövqəladə nümayəndəsi və səlahiyyətli naziri Ə.M.Topçubaşovun Türkiyənin yeni Şeyxülislamı ilə söhbəti. 28.10.1918. //ARDA, f.894, s.10, i.150, v.17-18



downloaded from KitabYurdu.az

əlaqələrin kəsilməsi və onlar arasında maneə yaradılması üçün zəruridir. Azərbaycanlılarla türklərin arasında sədd yaradılmasının başlıca zərurəti onunla bağlıdır ki, əgər Şərqi Qafqazın azərbaycanlıları və Azərbaycan (İran Azərbaycanı nəzərdə tutulur - C.H.) Türkiyə ilə bilavasitə əlaqədə olsa, onda Türkiyə Şimali İran, Əfqanıstan və Türküstana birbaşa təsir göstərmək imkanına malik olacaq. İstanbul və Dardanel boğazlarının açılması nəticəsində bu üç müstəqil dövlətə (Azərbaycan, Gürcüstan və Ermənistan) asan nəzarət edilə bilər. Müəyyən müddət ərzində bu üç dövlət müharibənin doğurduğu çətinlikləri aradan qaldırdıqdan sonra onlar arasında federasiya yaratmaq haqqında razılığa gəlmək elə də çətin olmayacaq və üç dövlətin daxil olduğu Zaqafqaziya federasiyası yaradılacaqdır. Lakin başlıca çətinlik ondan ibarətdir ki, bu federasiya qeyd edilən ölkələr arasında etnik düşmənçiliyi və sonu olmayan həyəcanları aradan qaldırmadan yaradıla bilməz. Burada yalnız siyasi və mədəni proseslərin uzunmüddətli təbii təkamülü federasiyanın prinsipi kimi götürülə bilər".[545]

1918-ci ilin payızında alman-türk bloku dünya müharibəsində məğlub oldu. Oktyabrın 30-da Türkiyə Mudros barışığının ağır şərtlərinə imza atmalı oldu. Bu məğlubiyyət Azərbaycan Respublikasının taleyində acınacaqlı izlər buraxdı. Hələ saziş imzalanmazdan əvvəl oktyabr ayının 27-də Türkiyənin yeni xarici işlər naziri Nəbi bəyin qəbulunda olan Ə.M.Topçubaşov qarşıdakı Vyana və Berlin səfərini dayandırıb Antanta nümayəndələri ilə Sülh danışıqları aparılan Lemnos (Sakkız) adasına getmək istədiyini bildirdi. Lakin Türkiyə xarici işlər naziri danışıqların tezliklə başa çatacağını qeyd edib, gözləmək lazım olduğunu bildirdi.[546] Və üç gündən sonra təkcə Türkiyə üçün deyil, Azərbaycan Respublikası üçün də son dərəcə ağır olan Mudros barışığı imzalandı. Mudros barışığının on birinci maddəsinə görə, Türkiyə ordusu tezliklə Cənubi Azərbaycanı və Zaqafqaziyanı tərk etməli idi. Azərbaycanda olan Osmanlı dəstələrinə bir həftədən gec olmayaraq Bakıdan, bir aydan gec olmayaraq bütün Azərbaycandan çıxmaq barədə ultimatum verdilər. Qafqaz ordusunun baş komandanı Nuru Paşa İstanbuldakı qarşılıqlı razılığa uyğun olaraq son anda Azərbaycan Respublikasının hərbi xidmətinə keçmək fikrində olduğunu bildirərək Bakıda qalmağa çalışdı.[547] Lakin bunun heç bir faydası olmadı. Müttəfiqlərin ultimatumu qəti idi. Mudros barışığının on beşinci maddəsinə görə, Batum müqaviləsinə görə Türkiyənin nəzarəti altında olan Cənubi Qafqaz dəmir yolu müttəfiqlərin nəzarətinə verilirdi. Müttəfiqlər Batumu tutmaq hüququna malik idi və nəhayət, "Türkiyə müttəfiqlər tərəfindən Bakının

[545] "Zaqafqaziyada siyasi şərait haqqında" Forin ofisin kəşfiyyat şöbəsinin memorandumu. 28.10.1918. Azərbaycan Xalq Cümhuriyyəti. Böyük Britaniyanın arxiv sənədləri, s.111-112; M.Qasımlı. Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti. III hissə. Bakı, 2004, s.417

[546] Azərbaycan Respublikasının fövqəladə səlahiyyətli nümayəndəsi Ə.M.Topçubaşovun Türkiyənin yeni xarici işlər naziri Nəbi bəylə söhbəti. 27.10.1918. //ARDA, f.894, s.10, i.150, v.11

[547] Süleyman İzzet. Büyük Harbte (1918) 15 Piyade Tümeninin Azerbaycan ve Şimali Kafkasiyadakı Hareket ve Müharibeleri, s.140



downloaded from KitabYurdu.az

işğal edilməsinə heç bir etiraz etməməli idi."[548] Barışığın iyirmi dördüncü maddəsinə görə isə, Türkiyənin altı erməni vilayətlərindən hər hansı birində qarışıqlıq, iğtişaş baş verərdisə müttəfiqlər oranı tutmaq ixtiyarına malik idilər. Bu maddə erməniləri Türkiyənin üzərinə qaldırmağa səsləyirdi və onları şirnikləndirmək məqsədi güdürdü. Noyabrın əvvəlində Avstriya-Macarıstan və Almaniya təslim aktını imzalayan kimi Sovet Rusiyası Brest müqaviləsinin qüvvədən düşdüyünü bildirdi, bu, o demək idi ki, Ermənistan və Gürcüstan Qars, Batum və Ərdəhana olan iddialarını qaldıra bilərlər. Brest müqaviləsinin ləğv edilməsi 27 avqust sazişinin də qüvvədən düşməsi demək idi. Sadəcə olaraq, bu saziş Rusiya ilə Almaniya arasında gizli bağlandığı üçün Sovet Rusiyası Brest sülhünün ləğv edilməsinə dair ÜRMİK-nin qətnaməsinə həmin müqavilənin ləğv olunmasını salmamışdı.

Oktyabr ayının axırlarında İstanbul konfransında iştirak etmək üçün Türkiyədə olan Azərbaycan nümayəndələri, Mərkəz ölkələri tərəfindən respublikanın istiqlaliyyətini tanıyacaqlarına ümidini itirərək və yaranmış böhranlı vəziyyətlə əlaqədar olaraq konfransın artıq baş tutmayacağına əmin olaraq Bakıya qayıtdılar. Sonuncu olaraq noyabr ayının 1-də X.Xasməmmədov İstanbuldan Bakıya yola düşdü. Lakin, ümumiyyətlə, M.Ə.Rəsulzadənin, X.Xasməmmədovun və A. Səfikürdskinin İstanbul səfəri əhəmiyyətsiz olmadı.

Birinci dünya müharibəsinin başa çatması Azərbaycan üçün yeni çətinliklər gətirdi. Mudros barışığının şərtlərinə görə, müttəfiqlər Bakını işğal etməli idi. Azərbaycan hökuməti və onun Osmanlı dövlətində olan diplomatik nümayəndəsi Mudros barışığının Azərbaycana aid ağır şərtlərinə biganə qalmadı. Türkiyə tərəfindən barışıq şərtlərini vaxtilə Trabzon danışıqlarını aparmış, İzzət paşa kabinetində donanma naziri Rauf bəy imzalamışdı. Noyabr ayının 3-də rəsmi şəkildə Mudros barışığının şərtləri elan edildi. Azərbaycanın fövqəladə səlahiyyətli nümayəndəsi yazır: "Mən elə həmin gün axşam Rauf bəyin yanında oldum".[549] Rauf bəylə danışıqlarda Ə.M.Topçubaşov Azərbaycan nümayəndəsinin iştirakı olmadan Bakı və Azərbaycan dəmir yolu haqqında Mudros barışığına bəndlər daxil edilməsinə öz etirazını bildirdi. Rauf bəy qeyd etdi ki, biz müttəfiqlərlə Bakı barəsində danışıqlar aparmamağa çalışdıq, lakin orada türk ordusunun olduğunu əsas tutaraq onlar bu maddəni bizə qəbul etdirdilər. "Nə etmək olar onlar qalibdirlər, biz məğlub". Rauf bəy məsləhət gördü ki, Azərbaycanın müstəqilliyinin Antanta tərəfindən tanınmasına nail olmaq lazımdır. O, Ə.M.Topçubaşova bildirdi ki, yaxın vaxtlarda müttəfiqlərin nümayəndələri

---

[548] Ю.В.Ключников и А.Сабанин. Международная политика новейшего времени в договорах, нотах и декларациях. Часть II. Москва, 1926, с. 188

[549] Azərbaycan Respublikasının fövqəladə səfiri və səlahiyyətli naziri Ə.M.Topçubaşovun Nazirlər Şurasının sədri F.X.Xoyskiyə məktubu. 14.11.1918. //ARDA, f.894, s.10, i.34, v.18



downloaded from KitabYurdu.az

İstanbula gələcəklər. Hökmən onlarla danışıqlara girmək lazımdır.[550] Noyabr ayının 4-də Ə.M.Topçubaşov Mudros barışığının Azərbaycana aid hissəsi ilə bağlı Osmanlı hökumətinin xarici işlər nazirinin müavini Rişad Hikmət bəyə etiraz notası verdi. Notada deyilirdi ki, Osmanlı hökumətinin Azərbaycan Respublikasını tanımasına baxmayaraq, Azərbaycan Respublikasının paytaxtı Bakı şəhəri haqqında maddənin Mudros barışığına daxil edilməsi beynəlxalq hüquqa və qaydalara zidd olub, Azərbaycanın ingilislər tərəfindən işğal edilməsinin asanlaşdırılmasına xidmət edir. O dedi: "Bu maddənin Osmanlı hökumətinin mənafeyinə cavab verməsi fikrindən uzaq olmaqla yanaşı, mən bu maddəyə etiraz etmək məcburiyyətindəyəm".[551] Notada qeyd edilirdi ki, barışığın Qafqaza və xüsusən Azərbaycana aid olan bəzi maddələri yaxşı olardı ki, Azərbaycan hökumətinə izah edilsin. Danışıqlar zamanı Hikmət bəy qeyd etdi ki, Osmanlı hökuməti özünə məxsus olmayan bir şəhəri Antantaya verə bilməz, Mudros barışığına görə Türkiyə hökuməti müttəfiqlərin Bakını tutmasına etiraz etməyəcəkdir. Təcrübəli hüquqşünas kimi Ə.M.Topçubaşov bu maddəni şərh edərək göstərdi ki, bu birbaşa olmasa da, dolayısı yolla o deməkdir ki, "gedin Bakını götürün".[552] Mudros barışığının Cənubi Qafqaza aid olan on beşinci maddəsi ilə bağlı notada göstərilirdi ki, Azərbaycan Respublikasının dəmir yolları heç bir halda bu maddənin subyekti ola bilməz. "Müstəsna şəkildə Azərbaycan Respublikasına məxsus olan dəmir yollarının xarici dövlətə güzəştə gedilməsi beynəlxalq hüquqla bir araya sığışmır". Azərbaycan Respublikası ilə Osmanlı hökuməti arasında dəmir yollarına aid müqaviləyə əsasən, Osmanlı hökuməti yalnız hərbi məqsədlərlə dəmir yollarından istifadə hüququna malikdir. Qeyd edilən məsələdən başqa Osmanlı hökumətinin Azərbaycan dəmir yoluna heç bir hüququ aidiyyəti yoxdur. Notanın axırında bildirilirdi ki, Mudros barışığında Azərbaycanın mənafeyinə toxunan məsələlərlə bağlı Azərbaycan hökuməti birbaşa, yaxud Osmanlı hökuməti vasitəçiliyi ilə danışıqlar aparmağı zəruri hesab edir. "Bununla əlaqədar təvəqqe edirəm Osmanlı hökuməti öz nöqteyi-nəzərini mənim vasitəmlə Azərbaycan hökumətinə çatdırsın. Əgər o /Osmanlı hökuməti-C.H./ Azərbaycanı siyasi baxımdan taleyin ümidinə qoymaq istəmirsə, biz xahiş edirik ki, bu siyasi danışıqların platformasını hazırlasın və öz dostanə ideyalarını təklif etsin".[553] Noyabr ayının 5-də isə Ə.M.Topçubaşov Türkiyə xarici işlər naziri Nəbi

---

[550] Azərbaycan Respublikasının fövqəladə səfiri və səlahiyyətli naziri Ə.M.Topçubaşovun Türkiyənin dənizçilik naziri Rauf bəylə söhbəti. 03.11.1918. //ARDA, f.894, s.10, i.151, v.1-2

[551] Azərbaycan Respublikasının fövqəladə səfiri və səlahiyyətli naziri Ə.M.Topçubaşovun Mudros barışığının Azərbaycana aid maddələri ilə bağlı Türkiyənin Xarici İşlər Nazirliyinə etiraz notası. 04.11.1918. //ARDA, f.970, s.l, i.68, v.2

[552] Azərbaycan Respublikasının fövqəladə səfiri və səlahiyyətli naziri Ə.M.Topçubaşovun Türkiyə xarici işlər nazirinin müavini Rişad Hikmət bəylə söhbəti. 04.11.1918. //ARDA, f.894, s.10, i.151,v.4

[553] Azərbaycan Respublikasının fövqəladə səfiri və səlahiyyətli naziri Ə.M.Topçubaşovun Mudros barışığının Azərbaycana aid maddələri ilə bağlı Türkiyənin Xarici İşlər Nazirliyinə etiraz notası. 04.11.1918. //ARDA, f.970, s.l, i.68, v.2-3



downloaded from KitabYurdu.az

bəylə görüşdü. Nəbi bəy Mudros barışığını imzalamaqdan ayrı Türkiyənin yolu qalmadığını bildirdi. Onun fikrincə, əgər 15 gün də Türkiyə barışığı gec imzalasaydı, müttəfiqlər İstanbulu tuta bilərdilər. Eyni zamanda, o bildirirdi ki, Bakıdan başqa ingilislər Batuma və bütün Cənubi Qafqaza daxil olacaqlar.[554] Baş verən hadisələrə münasibət barədə İstanbuldakı Azərbaycan diplomatik nümayəndəliyi Azərbaycan hökumətinin başçısına 15 noyabr tarixli məktubunda yazırdı: "Qəbul olunmuş sazişin şərtlərinə görə, Türkiyə öhdəlik götürmüşdür: birincisi, Antanta qoşunlarının Bakını tutmasına maneçilik törətməsin, ikincisi, Cənubi Qafqaz üzərində nəzarət hüququnu Antantaya versin, üçüncüsü isə Antantanın tələbi ilə öz qoşunlarını Cənubi Qafqazdan çıxarsın. Birinci iki öhdəliklə bağlı burada xarici işlər nazirliyinə noyabrın 4-də yazılı etiraz vermişəm. Həm də yazılı şəkildə xahiş etmişəm ki, Azərbaycana diplomatik nümayəndə təyin edilməsi işini sürətləndirsinlər. Belə bir etiraz notası bura gələn kimi Antanta nümayəndələrinə də təqdim ediləcək". Məktubun sonunda Ə.M.Topçubaşov Azərbaycana aid bütün məsələlər barəsində İstanbulda təmsil edilən diplomatik nümayəndəliklərin hamısı ilə danışıqlar aparmaq üçün təcili şəkildə bir ümumi mandat göndərilməsini xahiş edirdi.[555]

Azərbaycanda diplomatik nümayəndəliyin təsis edilməsinə gəldikdə, uzun müddət Türkiyənin Qafqaz Ordusunun siyasi işlər üzrə müşaviri bu missiyanı yerinə yetirirdi. Osmanlı qoşunlarının Azərbaycanı tərk etmək məsələsi meydana çıxdıqda Ə.M.Topçubaşovun 27 oktyabr tarixli müraciətinə cavab olaraq noyabr ayının əvvəllərində Türkiyə hökuməti bildirdi ki, yaxın vaxtlarda Azərbaycanda diplomatik nümayəndəlik təsis ediləcəkdir.[556] Ə.M.Topçubaşov Azərbaycan Xarici İşlər Nazirliyinə yazdığı məktubda xahiş edirdi ki, bu nümayəndəliyi yüksək səviyyədə qəbul edib onunla əlaqədə olsunlar. Lakin noyabrın axırlarında yenidən bu məsələyə qayıdıldı. Bakı ingilislər tərəfindən işğal edildiyi üçün ora məğlub Türkiyənin diplomatik nümayəndəliyini göndərmək mümkün olmadı. Türkiyənin xarici işlər naziri Mustafa Reşad qeyd edilən nota ilə bağlı Azərbaycan hökumətinə məktubunda Antanta dövlətləri ilə Osmanlı imperiyası arasında imzalanmış Mudros barışığının Azərbaycana aid hissəsinə Türkiyənin mövqeyi baxımından bəzi izahatlar verdi. Bakı ilə bağlı o bildirirdi ki, Bakı heç vaxt Osmanlıların ixtiyarında olmamışdır. Ona görə də Osmanlı hökuməti ixtiyarında olmayan bir ərazini Antantaya güzəştə gedə bilməz. Münaqişədən qaçmaq məqsədi ilə Osmanlı imperiyası öz hərbi hissələrini şəhərdən çıxarmalıdır, "bu da Azərbaycan Respublikasının Bakıya olan hüququnu pozmaq deyildir". 30 oktyabr Mudros

[554] Azərbaycan Respublikasının fövqəladə səfiri və səlahiyyətli naziri Ə.M.Topçubaşovun Türkiyənin xarici işlər naziri Nəbi bəylə söhbəti. 05.11.1918. //ARDA, f.894, s.10, i.151, v.8
[555] Azərbaycan Respublikasının fövqəladə səfiri və səlahiyyətli naziri Ə.M.Topçubaşovun Nazirlər Şurasının sədri F.X.Xoyskiyə məktubu. 15.11.1918. //ARDA, f.970, s.l, i.68, v.20
[556] Azərbaycan Respublikasının fövqəladə səfiri və səlahiyyətli naziri Ə.M.Topçubaşovun Türkiyə xarici işlər nazirinin müavini Rişad Hikmət bəylə söhbəti. 03.11.1918. //ARDA, f.894, s.10, i.151, v.5



downloaded from KitabYurdu.az

barışığının şərtlərinə əsasən, Türkiyə öz qoşunlarını bütün Cənubi Qafqazdan geri çağırmışdır. Şübhəsiz ki, bu Azərbaycanda olan Osmanlı qoşunlarına da aiddir. Dəmir yolları məsələsi ilə bağlı o qeyd edirdi ki, Osmanlı hökuməti dəmir yollarını deyil, onun bəzi hissələrinə nəzarət hüququnu barışıq müqaviləsinə əsasən, Antantaya verməli olmuşdur. "İngilis hökuməti ilə sizin hökumətiniz arasında saziş yaratmaq xahişinizə gəldikdə isə, Osmanlı hökuməti ilk imkandan sizin arzunuzu yerinə yetirmək məqsədi ilə istifadə edəcəkdir".[557]

Mudros barışığının Azərbaycana aid maddələrinə görə Osmanlı imperiyasından narazı qalmasına baxmayaraq, Azərbaycan xalqı vaxtilə türk ordusunu böyük hərarətlə qarşıladığı kimi, dünya müharibəsində məğlub dövlətlər arasında olmasından ehtiyat etməyərək onu dərin hörmət və ehtiramla yola saldı. Noyabr ayının 10-da, bazar günü Azərbaycan hökuməti Nuru paşanın şərəfinə ziyafət verdi. Ziyafətdə 400 nəfər tanınmış ziyalı və siyasi xadim, sənayeçilərin nümayəndələri, siyasi partiyaların və cəmiyyətlərin liderləri, Azərbaycan ordusunun rəhbərliyi iştirak edirdi. Ziyafətdə birinci çıxış edən F.X.Xoyski dedi: "Azərbaycanın döyüş meydanlarında bizim türk qardaşlarımızın qanı bizim qanımızla bir-birinə qarışdı. Mənşə etibarı ilə biz bir-birimizə qohumuq, indi Azərbaycan torpaqlarında bir-birinə qarışan qanımız bu qohumluğu daha da möhkəmləndirdi. Azərbaycanın azadlığı uğrunda tökülmüş qanlar Osmanlı və Azərbaycan türkləri arasında dostluğun və qırılmaz əlaqələrin möhkəm təminatıdır".[558]

Sonra "Müsavat" partiyasının lideri, İstanbuldan yenicə qayıtmış M.Ə.Rəsulzadə çıxış edərək bildirdi ki, bir il bundan əvvəl bu zalda müsəlmanlara təyini müqəddərat vermək barəsində gərgin mübahisələr gedirdi. S.Şaumyanın başçılıq etdiyi Bakı "sosialistləri" bunu azərbaycanlı müsəlmanlar üçün yolverilməz hesab edirdilər və müsəlmanların təyini müqəddəratına hər cür maneçilik törədirdilər. Bu elə bir dövr idi ki, digər Qafqaz xalqları onların belə müqaviməti ilə qarşılaşmışdılar. Azərbaycan türkləri öz ideyalarını həyata keçirəcəyi təqdirdə onlar Azərbaycanı xarabalığa çevirəcəkləri ilə hədələyirdilər. "İndi Azərbaycan türkləri qan qardaşlarının köməyi ilə hüququna nail oldu".[559] Ziyafətdəki çıxışında Əhməd bəy Ağayev qeyd edirdi: "Vaxt var idi ki, Azərbaycan türklərinin öz qardaşları olan Osmanlı türkləri haqqında danışması az qala cinayət hesab edilirdi /çar Rusiyasında/. Bolşeviklər Rusiyası xalqların hüquq bəyannaməsini elan etdi və bildirdi ki, siz öz müqəddəratınızı təyin edə bilərsiniz, lakin biz istədiyimiz kimi".[560] Ziyafətdə Osmanlı imperiyası və Türk Qafqaz komandanlığı adından çıxış edən Nuru paşa onun rəhbərlik etdiyi ordunun Azərbaycan üçün nə edibsə, bundan sonra da etməyə hazır olduğunu bildirdi. O,

---

557 ARDA, f.970, s.1.i.68, v.14
558 Азербайджан, 1918, 12 ноября.
559 Азербайджан, 1918, 12 ноября.
560 Yenə orada.



downloaded from KitabYurdu.az

nitqinin sonunda dedi: "Qardaş Azərbaycan türkünün mənafeyi hər bir türk üçün müqəddəsdir... Əgər Azərbaycanın azadlığı yolunda yeni qurbanlar lazım olarsa ona da hazırıq".[561]

Elə həmin gün noyabr ayının 10-da baş nazir F.X.Xoyski və xarici işlər naziri vəzifəsini icra edən Adilxan Ziyadxanov dünya müharibəsinin son mərhələsində həlledici dövlətə çevrilmiş ABŞ-ın prezidenti, müharibədən sonrakı yenidənqurmanın banisi hesab edilən ən nüfuzlu siyasi xadim kimi Vudro Vilsona teleqramla müraciət etdilər. Teleqramda Azərbaycan Respublikasının müstəqilliyinin dünya dövlətləri tərəfindən tanınmasına prezident V.Vilsonun kömək etməsi xahiş edilirdi. Orada deyilirdi: "Avropanın böyük dövlətlərinə müraciət etməzdən əvvəl, Azərbaycan xalqı və hökuməti əzilən kiçik xalqların müdafiəçisi kimi sizin humanist şəxsiyyətinizə müraciət edib yardım almağa və tanınmağa ümid bəsləyir".[562]

İstanbulda olan fövqəladə səlahiyyətli nümayəndə Ə.M.Topçubaşov oktyabr ayının 31-də Baş nazir F.X.Xoyskiyə yazdığı məktubda məsləhət görürdü ki, təcili surətdə Rəştdə və Ənzəlidə olan ingilislərlə danışığa girməyə tələsmək lazımdır.[563] Buna görə də 1918-ci ilin noyabr ayının əvvəllərində təcili olaraq N.Usubbəyov, Ə.Ağayev və M.Rəfiyevdən ibarət Azərbaycan nümayəndələri Ənzəliyə yollanıb Böyük Britaniyanın Şimali İran Ordusunun komandanlığı ilə danışıqlara başladı.[564]

Sentyabr ayının 15-də Bakıdan çıxmış Denstervilin ordusu /"Densterfors"/ 3 gün sonra Ənzəlidə rəsmi şəkildə buraxılmışdı. Yeni yaradılmış Şimali İran ordusuna general V.Tomson komandan təyin edilmişdi. V.Tomsonla danışıqlar o qədər də asan keçmədi. Əvvəlcə o, ümumiyyətlə, Azərbaycan adlı dövlətin mövcudluğunu inkar edirdi. Lakin uzun mübahisədən sonra ingilis generalı bildirdi: "Bizə məlum olduğuna görə, Azərbaycan xalqının ümumi fikrindən meydana gəlmiş bir respublika mövcud deyildir, yalnız türk komandanlığının intiriqası ilə təşəkkül tapmış bir hökumət vardır. Madam ki, siz bunun əksini iddia edirsiniz, o halda hər şeyi yerində yoxlayıb buna münasib də qərar verərik".[565] Həmçinin general Tomson bildirdi ki, müttəfiqlər "dağıtmaq üçün deyil, qurmaq üçün gəlirlər".[566] Danışıqların sonunda V.Tomson bəyan etdi ki, noyabr ayının 17-si səhər saat 10-a qədər Bakı istər Azərbaycan və istərsə də türk ordusundan təmizlənməlidir, Bakı və onun neft mədənləri ingilislərin nəzarəti altına keçəcəkdir, ölkənin qalan hissəsi Azərbaycan hökumətinin və onun ordusunun nəzarəti altında olacaqdır, Azərbaycan rəsmi şəkildə tanınmır, lakin İngiltərə, Fransa və ABŞ nümayəndələri onun hökuməti ilə de-fakto əlaqə yaradacaqlar,

---

[561] Yenə orada.
[562] 28 may 1918. Azərbaycan Cümhuriyyəti istiqlalının birinci sənei dövriyyəsi. Bakı, 1919, s.12
[563] Osmanlı hökumətində Azərbaycan Respublikasının fövqəladə səlahiyyətli nümayəndəsi Ə.M.Topçubaşovun F.X.Xoyskiyə məktubu. 31.10.1918. //ARDA, f.894, s.10, i.34, v.17
[564] A.Ziyadxanlı. Azərbaycan, s.59
[565] M.B.Mehmetzade. Milli Azerbaycan hareketi, s.99
[566] Азербайджан, 1918, 18 ноября.



downloaded from KitabYurdu.az

bütün idarə və təşkilatlar bəzi dəyişikliklərlə fəaliyyət göstərəcəklər", o, (V.Tomson - C.H.) Bakının general-qubernatoru olacaqdır. İngilislər şəhər polisinə rəhbərlik edəcəklər, şəhər Duması yenidən azad şəkildə fəaliyyətə başlayacaq, Azərbaycan Paris sülh konfransında milli müqəddəratını təyinetmə prinsipi əsasında iştirak edəcəkdir, L.Biçeraxov və onun dəstələri Britaniya ordusu ilə birlikdə Bakıya daxil olacaqdır və nəhayət, silahlı ermənilər şəhərə buraxılmayacaqlar.[567] Ənzəlidə olan Azərbaycan nümayəndələri danışıqların nəticəsi barədə Bakıya, Nazirlər Şurasının sədrinə teleqrafla məlumat verib bildirdilər ki, "Müttəfiq orduların nümayəndəsi Azərbaycan hökumətilə əlaqədə bulunmaq istəyir. Bütün siyasi, ictimai idarələr və təşkilatlar öz qaydasında qalacaqdır. Təkcə Bakıda Tomson general-qubernator vəzifəsində olacaq və Bakı polis işlərinin üstündə ingilislərdən bir nəfər olacaqdır".[568] Bütün çətinliklərə baxmayaraq Azərbaycan nümayəndələrinin Ənzəlidəki danışıqları əhəmiyyətsiz deyildi. Azərbaycandakı və ümumən Cənubi Qafqazdakı vəziyyətin bəzi mühüm cəhətləri haqqında general Tomsonla faydalı fikir mübadiləsi edildi, ən başlıcası isə Azərbaycanın Paris sülh konfransında iştirak edəcəyi və Bakıya erməni hərbi hissələrinin daxil olmayacağı barədə V.Tomson öz üzərinə təhəddüdlər götürdü.

Noyabrın 14-də ingilislərlə məhəlli xarakterdə digər bir görüş keçirildi. İranda olan Böyük Britaniya konsulu Qevelek Lənkəran qəzasının nümayəndələri Teymur bəy Bayraməlibəyovu, Axund Molla Əli Tağızadəni və Yusif Qəribzadəni qəbul etdi. Teymur bəy kommuna adı altında Avetisovun silahlı dəstəsinin Muğanda və Lənkəranda dinc əhaliyə tutduğu divan, törətdiyi cinayətlər barədə ingilis konsuluna məlumat verdi və bu barədə toplanmış sənədləri ona təqdim etdi. Teymur bəy bildirdi ki, ingilislərin Azərbaycana daxil olması bu qüvvələri yenidən fəallaşdıra bilər. Konsul qeyd etdi ki, bu və digər məsələlər barəsində Azərbaycan nümayəndələri ilə Ənzəlidə danışıqlar aparılır və o, lənkəranlıların arzusunu ingilis komandanlığına çatdıracağını vəd etdi.[569]

İstanbuldan yazdığı məktubda Ə.M.Topçubaşov Milli Şuranın çağırılmasını birinci dərəcəli vəzifələr sırasına aid edirdi. Noyabr ayının 16-da yaranmış vəziyyətlə əlaqədar hələ iyun böhranı zamanı buraxılmış Milli Şura yenidən toplandı. İclasda Azərbaycanın müstəqilliyini tanımaq barədə bütün dünya dövlətlərinə müraciət qəbul edildi. İclasın qərarı ilə Nazirlər Şurasının sədri həmin gün general V.Tomsona teleqramla müraciət etdi. Orada deyilirdi ki, "Azərbaycan hökuməti noyabr ayının 17-də Sizin komandanız altında müttəfiq ordunun dəstələrinin Bakıya daxil olmasına etiraz etmir. Hökumət əmindir ki, müttəfiq ordunun Azərbaycana gəlməsi ölkəmizin istiqlaliyyətinin və suverenliyinin pozulmasına xidmət etməyəcəkdir. Hökumət ümid edir ki, Ənzəlidə nümayəndələrimizlə edilən danışıqdan sonra bir daha şəxsi görüşməklə əlaqəmiz

---

567 Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol.832, folio 15

568 A.Ziyadxanlı. Azərbaycan, s.41

569 Азербайджан, 1918, 17 ноября.



downloaded from KitabYurdu.az

və münasibətlərimiz daha da aydın olacaqdır".[570] Cavab teleqramında general Tomson Azərbaycan hökumətinin müəyyən etdiyi istiqamətdə əməkdaşlığa hazır olduğunu vəd etdi.

Noyabrın 17-də hindli əsgərlərdən ibarət ingilis qoşunları Mudros razılaşmasının şərtlərinə əsasən, Bakıya daxil oldu.[571] Rəsmi qəbul edilmə mərasimində daxili işlər naziri B.Cavanşir, xarici işlər nazirini əvəz edən A.Ziyadxanov və xarici işlər nazirliyinin bir sıra işçiləri, müxtəlif milli təşkilatların nümayəndələri iştirak edirdilər.[572] Xarici işlər naziri vəzifəsini icra edən A.Ziyadxanov Tomsonu qarşılayaraq bildirdi: "Azərbaycan hökuməti tərəfindən mən xariciyyə naziri vəzifəsini ifa edən, sizi pişvaz etməyə vəkil edildim. Bu surətlə Müttəfiq ordunun baş komandanı və nümayəndəsi sifətilə paytaxtımıza vürudunuzu hökumət namından təbrik edirəm. Cahan müharibəsi nəticəsində millətlərin bir-birindən ayrı düşmələrindən, eyni zamanda qan içinə qərq olmalarından sonra yeni işıqlı bir aləmə gedəcəkləri aşkardır. Cavan Azərbaycan türk xalqı cahan müharibəsinin fəlakətindən xilas olub əbədi rifah və müstəqil səltənət həyatına qədəm qoyur. Bizim millətimiz əmindir və ümid edir ki, onların Avropa və Amerikalı mədəni qardaşları insaniyyət tərəqqisini nəzərə alıb onu mədəni ailələrinə daxil etməkdən boyun qaçırmayacaqlar".[573] General Tomsonun Bakı limanında qarşılanma mərasimindəki cavabı bir qədər ümidverici idi. O, deyirdi: "Dünya müharibəsinin qurtarması münasibəti ilə sizi təbrik edirəm. Birləşmiş fransız, ingilis və Amerika qüvvələrinin komandanı kimi, bildirirəm: biz bura Türkiyə ilə imzalanmış müqaviləyə uyğun olaraq gəlmişik ki, indiyə qədər sizin ərazilərinizi qoruyan Osmanlı ordusunu əvəz edək. Biz nə indi, nə də gələcəkdə sizin daxili işlərinizə müdaxilə etmək fikrində deyilik. Ümidvaram ki, sıx əməkdaşlıq şəraitində hər şey yaxşılığa doğru dəyişəcəkdir".[574] Elə həmin gün L.Biçeraxovun ordusunun Bakıya daxil olmasını şəhərin xristian əhalisi xüsusi rəğbətlə qarşıladı. Onun ordusunun böyük əksəriyyətini ermənilər təşkil edirdi. Bakı limanında söylədiyi qısa çıxışdan fərqli olaraq V.Tomsonun və L.Biçeraxovun bəyanatlarında söhbət Rusiyanın 1914-cü il hüdudlarının bərpa edilməsindən gedirdi. Ona görə də L.Biçeraxovun azğınlaşmış dəstəsi Bakıya daxil olan kimi milli hökumətlə bağlı dövlət rəmzlərini təhqir edir, tezliklə onun dağıdılacağı barədə şayiələr yayırdılar. L.Biçeraxovun gəlişi ilə Bakıda olan rus və erməni milli şuraları belə bir qərar çıxardılar ki, "heç bir Azərbaycan yoxdur, yalnız Rusiya vardır. Azərbaycan hakimiyyəti devrilməlidir və L.Biçeraxovun başçılıq etdiyi Xəzəryanı hökuməti ilə əvəz edilməlidir".[575]

---

[570] Азербайджанская Демократическая Республика. Внешняя политика, с. 105

[571] Les troupes anglo-russes sont à Bakou.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol.832, folio 14

[572] Азербайджан, 1918, 18 ноября.

[573] A.Ziyadxanlı. Azərbaycan, s.60-61

[574] 28 may 1918. Azərbaycan Cümhuriyyəti istiqlalının birinci sənei dövriyyəsi, s.13-14

[575] Б.Байков. Воспоминания о революции в Закавказье, с. 147



downloaded from KitabYurdu.az

Noyabrın 17-də axşam rus milli şurasının üzvləri M.Podşibyakin, Y.Smirnov, B.Baykov və A.Leontoviçin general Tomson tərəfindən qəbul edilməsi Azərbaycan hökumətinin narahatçılığını daha da artırdı. Görüş zamanı rus milli şurasının üzvləri özlərini Azərbaycanın sahibi kimi aparırdılar. Onlar Tomsonun yaradılacaq koalisiyon hökumətə daxil olmaq haqqında təklifini həm öz adlarından, həm də erməni milli şurasının adından rədd etdilər. Onların fikrincə, xristianların Azərbaycan hökumətinə daxil olması onun müttəfiqlər tərəfindən tanınmasını asanlaşdıra bilərdi. Rus kadeti B.Baykov öz xatirələrində yazır: "Azərbaycan Respublikasının müstəqilliyinin Avropa tərəfindən tanınmasına nail olunması ilə siyasi avantürizmin Azərbaycanın taleyində ən yüksək nöqtəyə çatmasını biz nəzərə almaya bilməzdik. Rusiya milli təşkilatlarının nümayəndələrinin hökumətə və parlamentə daxil olma faktı ilə biz heç bir halda tanımaq istəmədiyimiz Azərbaycanın müstəqilliyinin təsdiqlənməsinə nail olmaq istəyənlərin əlinə başlıca dəlil vermiş olardıq. Qeyd etmək vacibdir ki, ermənilərin nümayəndələri bizimlə tamamilə həmrəy idilər".[576] Rus Milli Şurasının üzvləri Paris konfransının yeni yaranmış dövlətlərə münasibəti aydınlaşana qədər bölünməz Rusiya ənənələrini qorumağa çalışırdılar. F.Kazımzadənin qeyd etdiyi kimi, "ruslar üçün Cənubi Qafqaz bir Rusiya vilayəti idi və onlar azərbaycanlıların öz milli müqəddəratlarını təyin etməsinin əleyhinə idilər".[577] Nəhayət, görüş zamanı Tomson rus milli şurasının üzvlərinə xatırlatmağa məcbur oldu ki, hazırkı vəziyyətdə Rusiya, sadəcə olaraq mövcud deyildir.

Antanta qoşunlarının Bakıya daxil olması ilə bağlı noyabr ayının 18-də Azərbaycan hökumətinin rəsmi məlumatı elan edildi. Burada xatırladılırdı ki, müvəqqəti olaraq, ancaq Bakıya daxil olan müttəfiq qoşunları öz əlində yalnız hərbi hakimiyyəti cəmləşdirir, qarşılıqlı razılığa əsasən, ölkənin və onun paytaxtının daxili işlərinə müdaxilə edilməməlidir, bütün hökumət idarələri əvvəlki qaydada fəaliyyət göstərməlidir, son nəticədə Rusiya xalqlarının öz müqəddəratını müəyyən etməsi məsələsi beynəlxalq sülh konqresində /Paris sülh konfransı - C.H./ həll edilməlidir. Məlumatda göstərilirdi ki, biz hələ bilmirik Azərbaycan Müəssislər Məclisinin ölkənin siyasi taleyini müəyyən etmək istiqamətində son qərarı necə olacaqdır, bununla belə hazırkı çətin şərait Azərbaycanın siyasi rəhbərliyindən ölkədə mövcud qayda-qanunu saxlamağı tələb edir. Biz ümidvarıq ki, Bakıya daxil olmuş müttəfiq qoşunları Azərbaycan xalqının suveren hüquqlarını tapdalamayacaqdır.[578]

General V.Tomson bir neçə gün Bakıda olub vəziyyətlə yaxından tanış olduqdan sonra yəqinlik hasil etdi ki, rus kadetlərinin "Azərbaycan bir neçə yüz siyasi fırıldaqçının uydurduğu xəyaldan başqa bir şey deyildir" fikri real həqiqətdən tam uzaqdır. O elan etdi ki, Britaniya komandanlığı Azərbaycan

---

576 Б.Байков. Воспоминания о революции в Закавказье, с. 151
577 F.Kazemzadeh. The Struggle for Transcancasia, p. 167
578 Азербайджан, 1918, 19 ноября.



downloaded from KitabYurdu.az

hökumətinə və onun baş nazirinə böyük hörmət bəsləyir, F.X.Xoyski "Bakıda ən bacarıqlı adamlardan biridir və yeni koalisiyon hökumət təşkil olunana qədər onun hökuməti ölkədə yeganə təsirli hökumət olaraq qalır".[579] 1918-ci ilin noyabrında Londona göndərdiyi məlumatda V.Tomson Azərbaycan Nazirlər Şurasının sədri Fətəli xan Xoyski haqqında yazırdı: "O, ağıllı adamdır, hüquqşünasdır və öz bacarığı ilə Qafqazda bizə məlum olan bütün əvvəlki dövlət qurumlarından daha mükəmməl dövlət qurumu yaratmışdır... Mənimlə görüş zamanı o, ermənilərin xəyanətindən yana-yana danışırdı".[580] Y.V.Tomsonun belə mövqeyi müttəfiqlərin gəlişi ilə imperiya ənənələrinin bərpa olunacağına böyük ümid bəsləyən rus milli şurasının üzvlərini məyus etdi.

Noyabr ayının 23-də Tomson erməni milli şurasının üzvlərini qəbul etdi. Bakı erməniləri adından yepiskop Baqrat ona məlumat təqdim etdi. On bir səhifədən ibarət olan bu məlumatda ingilislər gələnə qədər cərəyan etmiş hadisələr əsaslı şəkildə saxtalaşdırılmışdı. Sentyabr ayında Bakı şəhərinin azad edilməsi ilə bağlı guya Bakıda 20 min erməninin öldürüldüyü iddia edilirdi.[581] Bu rəqəm o qədər şişirdilmişdi ki, sonralar Bakı hadisələrinə toxunan erməni müəllifləri belə həmin rəqəmə şübhə ilə yanaşırdılar. Bakıya daxil olarkən Azərbaycan hökumətinin milliyyətindən asılı olmayaraq bütün vətəndaşları qoruyacağı haqqında bəyanatını yepiskop Baqrat V.Tomsona "diplomatik bir priyom" kimi təqdim edirdi. Sentyabr hadisələri barədə geniş danışmağı lazım bilən erməni yepiskopu Bakıdakı mart hadisələrinin üstündən sükutla keçməli olmuşdu. O, Bakıda və Azərbaycanda ermənilərin əvvəlki imtiyazını bərpa etmək üçün general Tomsona dörd təklif vermişdi: 1. Həbs edilmiş minlərlə erməni məhbusunu azad etmək /onlar mart hadisələrinə görə həbs edilmişdilər. Daxili işlər naziri Behbud ağa Cavanşir bildirmişdi ki, əgər istintaq onların günahsız olduğunu sübuta yetirsə, onlar buraxılacaqlar/; 2. Soyuqlar düşənə qədər İrana və Krasnovodskiyə getmiş erməniləri Bakıya qaytarmaq; 3. Azərbaycan hökuməti və türk komandanlığı tərəfindən müsadirə edilmiş əmlakı ermənilərə qaytarmaq; 4. Bakıdan kənarda yaşayan ermənilərin təhlükəsizliyini təmin etmək.[582] Bundan əlavə, Bakı erməni milli şurası Yelizavetpol quberniyasının dağlıq hissəsi olan Qarabağa ermənilərin iddiasını general Tomsona təqdim etdi. Yepiskop Baqratın general Tomsona təqdim etdiyi məlumatlar təxminən bir ay əvvəl onun Azərbaycan hökumətinin başçısı F.X.Xoyskiyə və İslam Ordusunun komandanı Nuru paşaya təqdim etdiyi müraciətlərdən kəskin şəkildə fərqlənirdi.[583] Lakin bu məsələdə Tomson erməniləri

---

[579] T.Swietochowski. Russian Azerbaijan, p.142

[580] Azərbaycan Xalq Cümhuriyyəti. Böyük Britaniyanın arxiv sənədləri, s.77; M.Qasımlı. Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti. III hissə, s.437

[581] Bakı erməni milli şurası adından yepiskop Baqratın müttəfiq qoşunların komandanı general-mayor V.Tomsona müraciəti. 23.10.1918. //ARPİİ SPİHDA, f.276, s.9, i.3, v.7

[582] Yenə orada, v.73-79

[583] A Monsieur le Ministre-President de la Rèpublique d'Azerbaïdjan - Fataly Han Hoïsky. Le prèsent mèmoire du rapport, traduit en allemand, a ètè transmis au Commandant de l'Armèe musulmane de



downloaded from KitabYurdu.az

müdafiə etmədi. Noyabr ayının 17-dən 24-nə qədər Bakıda keçirdiyi görüşlər haqqında Londona hesabat göndərən V.Tomson yepiskop Baqratın ona verdiyi "məsləhətləri" belə şərh edirdi: "Hər hansı bir xeyirli işi həyata keçirərkən ruslara və tatarlara (azərbaycanlılara - C.H.) qarşı qətiyyətli olmaq lazımdır. Təhsil görmüş ruslar ağıllarını itirmişlər və o qədər də böyük nüfuza malik deyillər. Lakin onlar ermənilərdənsə tatarlarla (azərbaycanlılarla - C.H.) daha asanlıqla əlaqəyə girirlər. Hamı erməniləri tərəfdar olduqları bütün işlərə görə, istər bolşevizmlə bağlı olsun, istərsə də britaniyalılarla, xəyanətkar olduqları üçün rüsvay edirlər".[584] Osmanlılar gedəndən sonra Andronik Qarabağda baş qaldırdı, ingilislərin Bakıya daxil olması ilə Ermənistan hökuməti Qarabağa və Zəngəzura olan iddiaları həyata keçirmək üçün əlverişli şəraitin yetişdiyinə güman edirdi. Dekabrın 1-də F.X.Xoyskinin Andronikin Cəbrayıl qəzasında törətdiyi vəhşiliklərlə bağlı məktubuna istinad edərək Tomson Andronikdən Azərbaycan əhalisinə qarşı hərbi əməliyyatların dayandırılmasını tələb etdi. Az sonra isə ingilis general-qubernatorluğu tərəfindən Qarabağ və Zəngəzurun Azərbaycan hökumətinin idarəsi altında olduğu tanındı. Ermənilərin etirazlarına baxmayaraq, Qarabağ və Zəngəzurda çox yaxşı tanınan Xosrov bəy Sultanov Tomson tərəfindən hər iki ərazinin qubernatoru təyin edildi. Buna etiraz edən ermənilərə general Tomson bildirmişdi: "Məsələ bundadır ki, bəzi ermənilər Azərbaycanın Britaniya tərəfindən tutulmasından intiqam məqamı kimi istifadə edə bilmədiklərindən çox mütəəssir olmuşlar. Onlar başa düşməyə borcludurlar ki, məsələni hərbi qüvvələr deyil, Sülh konfransı həll edəcəkdir".[585] Dekabrın ilk günlərində isə general Tomson Gəncə, Qazax və Cavanşir qəzalarında yaşayan ermənilərin liderlərinə vurduğu teleqramda tələb edirdi ki, ermənilər qeyd edilən ərazilərdə törətdiyi qanunsuzluqlara və soyğunçuluğa son qoysunlar. O bildirirdi: "Bütün ermənilərə xəbər verilsin ki, öz evlərində sakit otursunlar. Əgər onlar bu əmri yerinə yetirməsələr, tökülən qanlar və baş verən qanunsuzluqlara görə bilavasitə cavab verməli olacaqlar.[586]

General Tomsonun Azərbaycan hökumətinə etimadını bir sıra xarici tarixçilər Bakıya daxil olan qoşunların hindlilərdən ibarət olması ilə əlaqələndirirlər.[587] Lakin bu o qədər də inandırıcı deyildir, çünki həmin hindli əsgərlərlə Bakıya daxil olan V.Tomson özünün ilk bəyanat və çıxışlarında "Azərbaycan" ifadəsini belə işlətməyi lazım bilməmişdi. Lakin vəziyyətlə bilavasitə tanış olduqdan sonra azərbaycanlılar barədə ona verilən məlumatların qərəzli olduğunu anlamışdı. Bununla əlaqədar olaraq, Ü.Hacıbəyli sonralar yazırdı:

---

Caucase Noury Pacha. // Ministère des Affaires Etrangère (MAE) de France (Archives Diplomatique) Correspondanse politique et commerciale, 1914-1940 Sèrie «Z» Europe 1918-1940 Sous-Serie USSR Russia-Caucase (Azerbaidjan). Direction des Affaires Politiques et Commerciales 11 janvier 1919-31 mars 1920. Vol.638, folio 1

584 Azərbaycan Xalq Cümhuriyyəti. Böyük Britaniyanın arxiv sənədləri, s.23

585 T.Swietochowski. Russian Azerbaijan, p.143

586 Азербайджан, 1918, 3 декабря.

587 R.Ullman. Anglo-Soviet Relations 1917-1921, p.78-79



downloaded from KitabYurdu.az

"Bizi vəhşi bilənlər və bizdən yalnız qan içməkligi gözləyənlər ilə və bizim vicudimizi aləmi-mədəniyyət üçün təhlükəli ədd edənlər ilə bir balaca təmas lazım imiş ki, bu fikrin və bu nəzərin sırf yalan və yanlış olduğu meydana çıxsın. İngilislər bizim içərimizə girərkən, özlərini vəhşi bir heyvan qarşısına çıxmış bir avçı vəziyyətində saxlamaq ehtiyatına heç bir lüzum olmadığını bir-iki gündən sonra kəmali-təəccüblə anladılar..."[588]

Azərbaycan Respublikası üçün ən ağır vaxtlarda Milli Şura həmişə böhranın aradan qaldırılması yolunda faydalı addımlar atıb. Bu dəfə də belə oldu. Avropa demokratiyası ilə əlaqə yaratmaq üçün parlament üsul idarəsinin təsis edilməsi zəruri idi. Hələ ingilislər Bakıya gəlməmişdən bir gün əvvəl, noyabr ayının 16-da Milli Şura öz iclasında bu məsələyə baxdı və noyabr ayının 19-da seçki qanunu qəbul edildi. Azərbaycanın gələcək taleyi üçün Təsis Məclisi və seçkilər haqqında qanunların mühüm əhəmiyyəti oldu. Bu addım böhranlı vəziyyətdən Azərbaycan siyasi xadimlərinin bacarıqla istifadə etmək iqtidarında olduğuna dəlalət edirdi. Milli Şuranın qəbul etdiyi qərarda Azərbaycanda yaşayan bütün xalqların və siyasi partiyaların parlamentdə təmsil edilməsi nəzərdə tutulmuşdu.[589] Seçkilərin vaxtı dəqiq müəyyənləşdirilməmişdi, əslində yaranmış vəziyyət buna imkan vermədi, belə olduqda Milli Şura öz işini geniş əsasda yenidən qurdu. Onun tərkibi hər 24 min əhalidən 1 deputat olmaqla, inzibati ərazi bölgüsü üzrə yerlərdən göndərilən və milli azlıqda qalan xalqların nümayəndələrinin kooptasiya edilməsi hesabına xeyli genişləndirildi. Azərbaycan Parlamenti 120 deputatdan ibarət olmalı idi, milli tərkibə uyğun olaraq 80 yer azərbaycanlılara, 21 yer ermənilərə, 10 yer ruslara verilməli idi. Yəhudi, alman, gürcü və polyak nümayəndələrinin hər biri üçün bir yer, həmkarlar ittifaqı şurası və neft sənayeçiləri ittifaqı üçün üç yer nəzərdə tutulmuşdu.[590] Respublika ərazisində yaşayan bütün xalqların və hər iki cinsin seçki hüququ təsbit edilirdi. Bununla da, Azərbaycan bütün Şərqdə qadınlara seçki hüququ verən ilk ölkə olurdu. Parlamentin açılışından bir neçə gün əvvəl Azərbaycan Milli Şurasının Azərbaycan xalqına müraciətində deyilirdi: "Müharibə və İnqilab zamanının fövqəladə əhvalını nəzərə alaraq tətil etmiş olan Azərbaycan Şurayi Millisi Zamanın hökmü ilə təkrar Azərbaycan paytaxtı Bakıda toplandı. Şurayi-Millinin ən əvvəl qəbul etdiyi qanun sırf Azərbaycan müsəlmanlarına məxsus olan Şurayi-Millini milli bir şəkildən çıxarıb da dövləti bir şəklə salmaq oldu. Bu ayın 19-da qəbul etdiyi qanunnaməyə görə, Şurayi-Milli, dekabrın 3-nə qədər 120 əzalıq bir, bir məclisi-məbusan /parlaman/ halına gələcəkdir. Bu məclisə azlıqda qalan millətlərdən nümayəndələr cəlb olunduğu kimi, məmləkətin vilayətlərindən də vəkillər çağırılmışdır. Bu surətdə yığılacaq məclisi-məbusan irəlidə ümumi intixab üsuli ilə Azərbaycan Məclisi müəssisanı yığışıncayə qədər

[588] Azərbaycan, 1919, 28 may.
[589] Azərbaycan Məclisi-Məbusanı təsisi haqqında qanun. 19.11.1918. //ARDA, f.895, s.10, i.2, v.23
[590] Yenə orada, v.24



downloaded from KitabYurdu.az

yurdumuzun sahibi olacaq, onun müqəddəratını həll, hökuməti təşkil və mənafeyini mühafizə edəcəkdir".[591]

Azərbaycan Parlamenti dekabrın 3-də açılmalı idi. Onun açılışının dekabrın 7-nə keçirilməsini bəzi texniki səbəblərlə əlaqələndirirlər. Əslində isə Parlamentin dekabrın 3-də açılmasına ingilislər mane oldular. Britaniya baş qərargahının rəisi polkovnik S.Stoks mayor Rolansona dekabrın 3-də göndərdiyi təcili məktubda koalisiyon hökumətin müttəfiqlərin komandanlığı tərəfindən tanınmasına qədər Parlament iclasının açılmasını, qadağan edilməsini tələb edirdi. Məktubda deyilirdi: "Xahiş edirəm, Nazirlər Şurasının sədri cənab Xan Xoyskiyə çatdırın: Müttəfiq qoşunları komandanlığının əmrinə əsasən, Bakıda Parlamentin iclası müttəfiqlər tərəfindən bəyənilən koalisiyon hökumətin yaradılmasından tez açılmamalıdır".[592] İngilis komandanlığının bu kobudluğuna biganə qalmayan Milli Şura ciddi çətinliklərdən sonra dekabrın 7-də Azərbaycan parlamentinin açılmasına nail oldu. Bu ölkənin istər daxili və istərsə də beynəlxalq həyatında çox mühüm hadisə idi. Parlamentin açılışında 120 deputatdan 96-sı iştirak edirdi. Erməni deputatların bir hissəsi Parlamenti boykot etməyə başladılar. Parlamentin açılışında müttəfiq dövlətlərin Bakıda olan hərbi qüvvələrinin nümayəndəsi polkovnik Q.Kokkerel, İranın baş konsulu Səədülvəzir, İran maliyyə agenti Vəkilülmülk, Şimali Qafqaz Dağlıların nümayəndələrindən hökumətin sədri T.Çermoyev və Azərbaycanda Dağlılar İttifaqının səlahiyyətli nümayəndəsi Ə.Qandəmirov, Gürcüstan Respublikasının nümayəndəsi Korçevadze və digərləri iştirak edirdilər. Parlamentin ilk iclasını Milli Şuranın sədri M.Ə.Rəsulzadə açıb, qısa təbrik nitqi söylədi. 1917-ci ilin fevral inqilabından sonra baş vermiş hadisələrin dərin təhlilini verərək M.Ə.Rəsulzadə dedi: "Biz Rusiyanın səadətini istəriz, Rusiya camaatını sevəriz, fəqət, kəndi istiqlalimizi da əziz tutarız. Cəbr ilə qəbul etdirilən bir şeydə səadət olmaz. Çünki səadət və hürriyyət istiqlaldır. İştə bunun üçün əfəndilər, müstəqil Azərbaycanı təmsil edən o üç boyalı bayrağı Şurayi-Milli qaldırmış, türk hürriyyəti, islam mədəniyyəti və müasir Avropa iqtidarı -əhrarınəsini təmsil edən bu üç boyalı bayraq daima başlarımızın üstündə ehtizaz edəcəkdir. Bir dəfə qaldırılmış bayraq bir daha enməyəcəkdir". Ədalətli dünya düzəninin qurulacağına inamını ifadə edərək M.Ə.Rəsulzadə beynəlxalq siyasətin bir sıra mühüm cəhətlərinə toxunub dünya siyasətinin demokratikləşməsinə böyük ümid bəslədiyini bildirərək demişdi: "Mən bəşəriyyətin vicdanına inanıram. Milyonlarla insan bahasına qətali-ümumidən sonra vicdani-bəşər qazandığı həqiqətləri asanlıqla əldən verməz. "Millətlər birliyi" fikri bu gün hər kəsin qəbul etdiyi bir fikirdir. Bu, mənə ümid verir, qüvvətlə inanıram ki, artıq milləti öldürmək, millətin hüququnu tapdalamaq qətiyyən mümkün deyildir. Qaliblər də, məğlublar da millətlərin hüququ etiraf edilməlidir, - deyirlər. Yaxında açılacaq ümumi sülh konqresində bu fikir mütləqi hakim olacaq. Bu gün vəziyyətə hakim olanlar

---

[591] Azərbaycanın bütün vətəndaşlarına. 28.11.1918. //ARDA, f.895, s.l, i.25, v.2

[592] Polkovnik Stoksdan mayor Rolansona. 03.12.1918. //ARDA, f.895, s.1, i.11, v.2



downloaded from KitabYurdu.az

müttəfiqlərdir. İngilis, Amerika, Fransa dövlətlərinin bayraqlarında "millətlərin təmini hüququ" və "millətlər cəmiyyəti" şüarı yazılmışdır. Dövlətlərin Bakıda olan nümayəndələri adından general Tomson Qafqaz məsələlərinin ümumi sülh konqresində həll olunacağını rəsmən elan etmişdir. Biz azərbaycanlılar bütün mövcudiyyətimiz ilə kəndi müqəddəratımızı, kəndi istiqlalımızı müdafiə və mühafizədə israr edər, səbat və mətanət göstərər isək, heç şübhəsiz ki, Azərbaycan Cümhuriyyəti payidar olar".[593]

Ümumiyyətlə, yaranmış vəziyyətdə Müsavat partiyasının rəhbərliyi xarici təhlükəsizliyin əsaslı şəkildə təmin olunması üçün Qafqaz federalizmi prinsiplərinin davam etdirilməsinə üstünlük verirdi. M.Ə.Rəsulzadə ABŞ prezidenti V.Vilsonun on dörd sülh təşəbbüsünün sonuncu maddəsinə əsasən, təsis ediləcək Millətlər Cəmiyyəti ilə hərtərəfli beynəlxalq əlaqələr yaratmağa ümid bəsləyirdi, mövcud şəraitdə isə o, digər Cənubi Qafqaz respublikaları və Dağıstanla sıx regional əlaqələrin tərəfdarı idi. Parlamentin açılışındakı çıxışının sonunda M.Ə.Rəsulzadə dedi: "Bu gün firqə ehtirasları, şəxsi qərəzləri və bütün bu kimi vətən və millət qayəsi qarşısında səqit qalan qərəzlər atılmalı, vətən qayğısı, millət duyğusu hər şeydən yüksək tutulmalıdır".[594]

Sonda isə M.Ə.Rəsulzadə bildirdi ki, Parlamentin sədrini seçmək zəruri məsələlərdən biridir. Ciddi müzakirələrdən sonra Türkiyədəki fövqəladə səlahiyyətli nümayəndə, 1918-ci ilin oktyabr ayının 6-dan xarici işlər naziri təyin edilmiş Ə.M.Topçubaşov Parlamentin sədri, H.Ağayev sədrin birinci müavini, R.Vəkilov isə katib seçildi. Heç bir siyasi partiyanın üzvü olmayan Ə.Topçubaşov öz dövrünün görkəmli siyasi xadimi, diplomatı, geniş əhatəli dünyagörüşə malik demokratik ruhlu ziyalısı idi. Amerika tarixçisi F.Kazımzadə yazır: "Parlamentin prezidenti seçilən Ə.M.Topçubaşov yüksək təhsilli hüquqşünas, öz görüşlərində dözümlü, məhdud millətçilikdən uzaq bir şəxs idi".[595]

Parlamentin qarşısında duran mühüm məsələlərdən biri də yeni hökuməti təşkil etmək idi. Ona görə də parlamentin işinə sədrlik edən Həsən bəy Ağayev hökumətin hesabatı ilə çıxış etmək üçün sözü Nazirlər Şurasının sədri Fətəli xan Xoyskiyə verdi. F.Xoyski hökumətin daxili və xarici siyasəti barəsində hesabat xarakterli məruzə ilə çıxış etdi. O, öz məruzəsində hökumətin keçirdiyi ən böhranlı anları dərindən təhlil edib hər bir addımı, hər bir hadisəni obyektivcəsinə qiymətləndirdi. Osmanlı imperiyasının dünya müharibəsində məğlubiyyətinə, ingilis-türk ziddiyyətlərinə və habelə Müttəfiqlərin nümayəndəsinin Parlamentdə olmasına baxmayaraq Xan Xoyski türk qoşunlarının Azərbaycanda olmasına obyektiv qiymət vermiş və bunun Azərbaycanın müstəqilliyinə xələl gətirmədiyini göstərmişdi. O deyirdi: "Türkiyə ilə imzaladığımız sülhnamədə bir fəsil var ki,

---

[593] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). I cild, Bakı, 1998, s.33-35

[594] Yenə orada. s.36

[595] F.Kazemzadeh. The Struggle for Transcancasia, p.167



downloaded from KitabYurdu.az

Azərbaycan hər vaxt lazım görsə, müdafiə hüququ üçün Türkiyə bir qədər əsgər versin. Hökumət bu çarəyə təvəssül etdi. Özünüz bilirsiniz, Türkiyə öz borcunu yerinə yetirdi. Qonşumuzun köməyi ilə mümkün olmayan bir çox şeylər çətinlik ilə yavaş-yavaş əldə edilirdi. Bu təklif ilə başqasına müraciət etmək mümkün deyil idi. İstəsək də bir fayda olmaz idi. Türkiyə həmdinimiz, həmvətənimiz idi. Ona görə ondan kömək istədik".[596] X.Xoyski göstərirdi ki, "Türk komandanlığı bizim ərazimizə bizim sərhədlərimizi qorumaq, daxili hərc-mərcliyə son qoymaq, daxili işlərimizə xaricdən zor gücünə müdaxilənin qarşısını almaq üçün bizim öz dəvətimizlə daxil olmuşdu. Biz bir tərəfdən suveren hüquqlarımızı qoruyub saxlamağı arzulayır, digər tərəfdən isə türk komandanlığının xidmətlərindən istifadə etməyə möhtac idik. Ona görə də biz elə etməli idik ki, özümüzü həm xarici müdaxilədən qoruyaq, həm də bizim fiziki mövcudluğumuzu böyük qurbanlar vermək hesabına xilas edənləri özümüzdən incitməyək". Azərbaycan hökumətinin xarici siyasətilə bağlı məsələlərə gəldikdə Fətəli xan dedi: "Xarici işlər bilirsiniz ki, nə halda idi. Zülmət zamanı qayalıq içində nazik taxta bir qayığa bənzər idi ki, hər dəqiqə qayalara toxunub dağılmaq təhlükəsi var idi... İştə bizim vəzifəmiz bu idi ki, qayığı qayalar arasından keçirə bilək".[597] Müttəfiqlərin Bakıya daxil olması, ingilislərin siyasəti ilə bağlı Xan Xoyski bildirdi: "İngilislər ən qədim mədəni və hüquq muxtariyyəti müdafiə edən bir millətdir. İngiltərənin hakimiyyəti altında hamıdan ziyadə müsəlman var. Onlar ingilislər ilə çiyin-çiyinə dava edirdilər. Burası göstərir ki, ingilislər onların hüququna təcavüz etmiyor, onları özlərindən incitmiyorlar. Əlbəttə, bizimlə də onlar arasında heç bir inciklik ola bilməz. Ona görədir ki, 3 dövlət sülhi-ümumiyyədək Azərbaycanda asayiş və müsalimət müdafiəsi üçün buraya əsgər göndərmək istədikdə hökumət və Milli Şura razı oldular. Çünki burası millətin hüquq və istiqlalına, Azərbaycanın mövcudiyyətinə bir zərər və qüsur görülmüyordu. Bizim rizamızla müttəfiqlər gəldilər, şimdi görüyorsunuz ki, heç bir zərər də olmamış və hüququmuzu əlimizdən almamışlardır. Millətin haqqı, hüququ və həqqi-idarəsi olan daxili işlərimizə əsla əl uzatmırlar. Bunlar öylə millətlərdir ki, bunlardan xəta baş verməz".[598] F.Xoyski qonşu Dağlılar ittifaqı, Gürcüstan və Ermənistan Respublikası ilə münasibətlərin bəzi məsələlərinə toxunub rəhbərlik etdiyi hökumət kabinəsinin səlahiyyətinin qurtardığını bildirdi və hakimiyyəti Parlamentə təhvil verdi. Çıxışının sonunda o dedi: "Hökumətin fəaliyyətində nə qədər qüsur və nöqsan olmuşsa da, yol göstərən işıqlı yıldızı bu şüar olmuşdur. Millətin hüququ, istiqlalı və hürriyyəti".[599]

F.X.Xoyskinin hesabatından sonra parlament köhnə hökumətin istefasını qəbul etdi və yeni hökumətin qurulmasına qərar verildi. Yeni hökumətin təşkil

---

596 Azərbaycan Xalq Cümhuriyyəti. Parlament. I cild, s.39
597 Yenə orada, s.41
598 Yenə orada, s.43
599 Yenə orada, s.44



downloaded from KitabYurdu.az

edilməsi yenidən F.X.Xoyskiyə tapşırıldı. Dekabrın 26-da hökumətin tərkibi elan edildi. İngilislərin təkid etdiyi yeni koalisyon tərkibdə üç yer ruslara, iki nazir vəzifəsi isə ermənilərə verilmişdi. Lakin ermənilər onlara təklif edilən yerlərdən imtina etdilər. Yeni kabinetdə F.X.Xoyski Nazirlər Şurasının sədri və xarici işlər naziri, S.Mehmandarov hərbi nazir, M.Əsədullayev ticarət və sənaye naziri, İ.Protasyev maliyyə naziri, K.Lizqar /polyak idi - C.H./ ərzaq naziri, X.Məlik-Aslanov yollar naziri, A.Səfikürdski neft, teleqraf və əmək naziri, M.Hacınski dövlət nəzarətçisi, M.Makinski ədliyyə naziri, X.Sultanov əkinçilik naziri, R.Xoyski himayəçilik naziri, A.Qindes xalq səhiyyə naziri vəzifəsini tutdular. Azərbaycan Xalq Cümhuriyyətinin üçüncü hökumət kabinetini təşkil edən Fətəli xan Xoyski eyni zamanda Məmməd Həsən Hacınski və Əli Mərdan bəy Topçubaşovdan sonra respublikanın üçüncü xarici işlər naziri oldu.

Yeni yaranmış hökumətin ən birinci vəzifəsi müttəfiqlərin komandanlığı tərəfindən tanınmağa nail olmaq idi. F.Kazımzadənin fikrincə, Bakıda olan ruslar Azərbaycan millətçiliyi və separatizmini gözə soxmaq üçün dəridən-qabıqdan çıxırdılar. Lakin parlamentə seçkilər, Xoyski kabinetinin konstitusion prosedurаları ingilisləri əmin etdi ki, onların qarşısındakı nüfuzlu bir hökumətdir.[600] Yeni hökumətin yaradılmasından iki gün sonra dekabrın 28-də müttəfiqlərin Bakıda olan nümayəndəsi V.Tomson Azərbaycan hökumətini tanıdığını bildirdi. Tomsonun bəyanatında deyilirdi ki, bütün Azərbaycan ərazisində F.Xoyskinin sədrliyi ilə yaradılmış Azərbaycan koalisiyon hökuməti yeganə qanuni hakimiyyətdir və müttəfiq ölkələrin hərbi qüvvələrinin komandanlığı bu hökumətə hərtərəfli yardım göstərəcəkdir.[601] Az sonra Bakıya gələn Balkanlarda və Qafqazda olan ingilis qoşunlarının baş komandanı general Corc Miln V.Tomsonun bəyanatını təsdiq etdi və bildirdi ki, Böyük Britaniya hökuməti Azərbaycan hökumətini bu ölkənin bütün ərazisində yeganə qanuni hakimiyyət kimi tanıyır.[602] Azərbaycan hökumətində qəbul zamanı o dedi: "Mən buraya böyük müttəfiq millətlərin nümayəndəsi hesabına gəldim. Məqsədimiz bu məmləkətdə sülh və ədalət payidar etməkdir. Müttəfiqlərin qələbəsi hüquqi-ədalət və millətlərin təyini müqəddərat ixtiyarı təminin rəhnidir. Sülh konfransında burası bəyan ediləcəkdir. İbraz etdiyiniz hüsni-istiqbaldan yana təşəkkürümü bəyan edirəm. Qoşunlarımız məmləkətinizdə bulunduqca hüsni-qəbul və hər dürlü müzahirət görəcəklərinə ümidvaram. Məmləkətinizin ticarət və sənaətinin tərəqqisinə var qüvvəmiz ilə çalışacağıq".[603]

Xan Xoyski ilə danışıqlar zamanı C.Miln bildirdi ki, "Azərbaycan dairəsində İngiltərə hökuməti Azərbaycan hökumət Cümhuriyyəsini tanıyır və qəbul edir və hökumətə müttəfiqlər komandanlığı hər məsələdə kömək edəcəkdir. Ayrı-ayrı millətlərin təyini müqəddərat hüququ İngiltərə hökuməti nöqteyi-

[600] F.Kazemzadeh. The Struggle for Transcaucasia, p.168
[601] Наше время, 1918, 30 декабря.
[602] 28 may 1918. Azərbaycan Xalq Cümhuriyyəti istiqlalının sənei dövriyyəsi, s.18
[603] A.Ziyadxanlı. Azərbaycan, s.63



downloaded from KitabYurdu.az

nəzərincə müdafiə edilməlidir. Sülh konfransında İngiltərə nümayəndələri bunu müdafiə edəcəklərdir. Bundan əlavə general bəyan etmişdir ki, Müttəfiqlər komandanlığı təzə təşkil edilmiş Zaqafqaziya hökumətlərinin daxili işlərinə qarışmayacaqdır. Və müttəfiqlərin yeganə məqsədi bu dövlətlərdə asayiş və musaimətə kömək etməkdir".[604] Əlbəttə, bu tək general C.Milnin fikri deyildi, 1918-ci ilin dekabr ayında Cənubi Qafqaz məsələsi bir neçə dəfə Britaniya hökumətinin iclaslarında müzakirə edilmişdi. Lord Kerzon bu fikirdə idi ki, Cənubi Qafqazda sabitlik lazımdır, əks təqdirdə "anarxiya, qarmaqarışıqlıq, yaxud bolşevizm" bu regionda ingilis siyasətinə maneçilik törədə bilərdi. Hətta ilk gündən ingilislər Cənubi Qafqazda Fransanın marağını duyub, onunla qarşılaşmamaq üçün 1917-ci ilin dekabr sazişinin əksinə olaraq, Ermənistanı Fransaya güzəştə getmək qərarına gəldilər. 1918-ci il dekabr ayının 9-da Kerzon hökumət kabinəsinin iclasında elan etdi ki, "Ermənistan Fransaya verilməlidir, ona görə ki, Fransadan başqa heç kim bu qeyri-adi, ürəyə yatmayan adamlarla hər hansı formada əlaqədə olmaq istəmir.[605] Eımənilərin Cənubi Qafqazda, xüsusilə Bakıda dağıdıcı rolları haqqında Böyük Britaniyanın Balkanlardakı ordusunun baş komandanı general C.Miln Bakıya səfərindən sonra İmperiya Baş qərargahının rəisinə məlumat verirdi. O yazırdı: "Bakı erməniləri xüsusilə xoşagəlməz vəziyyət yaradırlar. Onların yoxsul təbəqələri bolşeviklərlə və gizli "Daşnaksütyun" cəmiyyətinə qoşulmuşlar. Onlar Rusiyanın Azərbaycana olan iddialarını müdafiə edirlər. Onların rus milli şurası ilə əlbir olaraq tatarlardan (azərbaycanlılardan - C.H.) intiqam almaqdan başqa heç bir məqsədləri yoxdur".[606]

Dekabr ayında ingilislər Batum və Tiflisi də tutdular və 1919-cu ilin yayına qədər Qafqazda qaldılar. İngilislərin Azərbaycanın daxili işlərinə, əsasən, müdaxilə etməsinə baxmayaraq, Azərbaycan hökuməti addımbaaddım tam müstəqilliyə doğru can atır və bütün işləri öz əlində toplayırdı. U.Çerçil 1932-ci ildə nəşr olunmuş xatirələrində yazır ki, Cənubi Qafqaza daxil olmuş 20 minlik Britaniya Ordusunun yardımı ilə Gürcüstan, Ermənistan və Azərbaycan tam müstəqil olmalı idilər və bu müstəqil dövlətlər İrana və Türkiyəyə bolşeviklərin gözlənilən müdaxiləsinin qarşısında durmalı idilər.[607]

Yeni yaradılmış hökumətin birinci addımı dekabr ayının 28-də Parlamentin ağsaqqallar şurasının üzvləri ilə birlikdə Paris Sülh konfransına göndəriləcək nümayəndə heyətinin tərkibini və statusunu müəyyən etmək oldu. Azərbaycanda yeni nazirlər kabinəsinin təşkilini və Paris Sülh konfransına gedəcək nümayəndə heyətinin yaradılması haqqında məlumatı Ə.M. Topçubaşov Bakıdan İstanbula

---

[604] Yenə orada, s.64
[605] R.Ullman. Anglo-Soviet Relations 1917-1921, p.73
[606] General C.Milnin təcili diplomatik məlumatı. 06.02.1919. //Azərbaycan Xalq Cümhuriyyəti. Böyük Britaniyanın arxiv sənədləri, s.238; M.Qasımlı. Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti. III hissə, s.460
[607] У.Черчиль. Мировой кризис. М., 1932, с. 106



downloaded from KitabYurdu.az

gəlmiş və oradan da Parisə gedəcək İranın xarici işlər naziri Əliqulu xan Ənsaridən öyrəndi. Əliqulu xan onunla söhbətində bildirdi: "Siz Parisə gedəcək nümayəndə heyətinin sədri seçilmisiniz. Sizin hökumət istefa verib. Baş nazir sizi nəzərdə tutublarmış, amma sonra təzədən Fətəli Xan Xoyskini dilə tuta biliblər. Eşitdiklərimizdən belə məlum oldu ki, ingilislər özlərini çox nəzakətli aparırlar və sizin hökumətin işlərinə qarışmırlar."[608]

Müttəfiq qoşunlarının Bakıya daxil olması ilə yaranmış çətinlik Azərbaycanın qabaqcıl siyasi xadimlərinin səyi nəticəsində nəinki aradan qaldırıldı, eyni zamanda böyük diplomatik təşəbbüslər sayəsində hər tərəfdən sıxılan Azərbaycan demokratiyası Müttəfiq komandanlığı tərəfindən de fakto tanınmağa nail oldu. Böyük Britaniyanın Balkanlardakı qoşunlarının komandanı general C.Miln 1919-cu ilin əvvəllərində Londona yazırdı ki, Azərbaycan Respublikasının ərazisi Bakı və Yelizavetpol quberniyalarını, Zaqatala dairəsini və İrəvan quberniyasının bir hissəsini əhatə edir. Azərbaycan adı İranın şimal-şərqində olan bir regionun adı idi və bu ad respublikaya türklərin təklifi, eləcə də panislamçı təşkilat olan Müsavatın təklifi ilə verildi. İran Azərbaycanında hələ də bu dildə danışırlar və bu bölgənin əhalisinin çox hissəsi islam dininə itaət edir. C.Miln əlavə edirdi ki, 1918-ci ilin noyabr ayında Azərbaycan britaniyalılar tərəfindən yenidən tutulduqdan sonra Azərbaycan hökumətinin öz fəaliyyətini davam etdirməsinə icazə verildi. Hökumətdə idarəçilik işləri demək olar ki, Bakının köhnə sakinləri olan müsəlmanların əlindədir. Bizim azərbaycanlılarla əlaqələrimizə ruslar qısqanclıqla yanaşırlar. Onlar başa düşürlər ki, Britaniya Azərbaycana tam nəzarət etmək və Bakı neftini ələ keçirmək niyyətindədir. Ruslar arasında güclü antiingilis meylləri vardır. Ən nəhayət, C.Miln belə bir həqiqəti də etiraf edirdi ki, ingilislərin gəlişi Bakının müsəlman cəmiyyəti tərəfindən müsbət qəbul edilmirdi.[609]

Beləliklə, çox çətin beynəlxalq şəraitdə Azərbaycanın istiqlaliyyətinin qorunub saxlanması Azərbaycan diplomatiyasının tarixində əlamətdar bir hadisə idi. Yeni yaranmış respublikanın bütün diplomatik fəaliyyəti Azərbaycan istiqlaliyyətinin qorunub saxlanması vəzifəsinə tabe edilmişdi. Azərbaycan Respublikasının ilk diplomatik addımları onun beynəlxalq hüququn subyektinə və beynəlxalq münasibətlərin iştirakçısına çevrildiyini təsdiq etdi.

Göründüyü kimi, Azərbaycanın zəngin təbii ehtiyatları, strateji coğrafi mövqeyi onu imperialist qruplaşmaları və Sovet Rusiyası mübarizə obyektinə çevirmişdi. Sovet Rusiyasının Azərbaycana münasibəti inqilabi ideyalardan daha çox iqtisadi-siyasi və diplomatik mülahizələrlə izah edilməlidir. Bu nöqteyi-

---

[608] Azərbaycan Rcspublikasının fövqəladə səfiri və səlahiyyətli naziri Ə.M.Topçubaşovun İranın xarici işlər naziri Müşavirəl Məmalek Əli Qulu xan Ənsari ilə söhbəti. 09.01.1919. //ARDA, f.894, s.1, i. 151, v.21

[609] Bax: M.Qasımlı. Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti. III hissə, s.455-459



downloaded from KitabYurdu.az

nəzərdən Bakının yadellilərdən azad edilməsi beynəlxalq əhəmiyyətli hadisə idi. Məhz bu baxımdan Azərbaycan ətrafında gedən siyasi-diplomatik proseslər yerli, regional hadisələr olmayıb, ümumdünya tarixi prosesinin bir hissəsi idi.

Dünya müharibəsində Dördlər İttifaqının məğlub olması Azərbaycan Respublikasının beynəlxalq vəziyyətinə ağır təsir göstərdi. İstanbulda və Berlində aparılan danışıqlarda Azərbaycan Respublikasının tezliklə Mərkəz Dövlətləri tərəfindən tanınacağı gözlənilirdi. Lakin Dördlər İttifaqının dünya müharibəsindəki məğlubiyyəti Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərinə beynəlxalq sazişlər əsasında Antanta qüvvələrinin daxil olması ilə nəticələndi.

Antanta qoşunlarının Bakıya daxil olması gənc Azərbaycan Respublikasının istiqlaliyyəti, suverenliyi və ərazi bütövlüyü üçün ciddi təhlükə törədirdi. Yerli qeyri-müsəlman pozucu dairələr keçmiş Rusiyanın müttəfiqlərinə arxalanaraq Azərbaycan istiqlalına son qoyub, imperiya ənənələrini bərpa etməyə cəhd göstərirdilər. Lakin Azərbaycan siyasi xadimlərinin, milli hökumətin rəhbərlərinin diplomatik bacarığı, yaranmış böhranlı vəziyyətdən düzgün çıxış yolu müəyyən etmək qabiliyyəti respublikanın mövcudluğunu xilas etdi. Milli hökumət Azərbaycanda yeganə qanuni hakimiyyət orqanı kimi müttəfiq komandanlığı tərəfindən de-fakto tanındı. 1918-ci ilin dekabrında parlamentli respublika üsul-idarəsinin yaradılması Azərbaycanı siyasi cəhətdən qabaqcıl ölkələr səviyyəsinə qaldırdı və onun az sonra dünyanın taleyini müəyyən edən dövlətlər tərəfindən diplomatik cəhətdən de-fakto tanınması yolunda mühüm mərhələ oldu.



downloaded from KitabYurdu.az

## VI FƏSİL

### Azərbaycan diplomatiyası Paris Sülh Konfransına hazırlıq dövründə

1918-ci ilin payızında Dördlər İttifaqına daxil olan ölkələr bir-birinin ardınca təslim aktını imzaladılar. Antanta bloku Birinci dünya müharibəsində qələbə çaldı. Noyabr ayından başlayaraq dünya müharibəsinin nəticələrini təsbit etmək, qalib ölkələrin əldə etdiyi qələbəni rəsmiləşdirmək, müharibədən sonrakı vəziyyəti tənzimləmək və mübahisəli məsələləri həll etmək üçün beynəlxalq Sülh konfransına ciddi hazırlıq gedirdi. Açılışına hazırlıq gedən Versal Sülh konfransının əsas təşkilatçıları Fransa, İngiltərə, ABŞ, İtaliya və Yaponiya idi. Bütün təşkilati məsələlər bu məhdud dairədə həll edilirdi. Konfransa hansı dövlətlərin dəvət edilməsi və onun iş qaydası məsələləri ciddi mübahisələrə səbəb olmuşdu. Fransanın baş naziri Jorj Klemanso bu fikirdə idi ki, bütün məsələlər baş dövlət tərəfindən həll edildikdən sonra konfransın müzakirəsinə təqdim edilsin. O, fikrini əsaslandırmaq üçün deyirdi: «Yeni müharibə baş verərsə Almaniya bütün ordusunu Kuba və Honduras üzərinə deyil, Fransanın üzərinə yeridəcəkdir, Fransa yenidən cavab verməli olacaqdır».[610] ABŞ prezidenti V. Vilson məsələlərin məhdud dairədə həll edilməsinin əleyhinə idi. Böyük Britaniya nümayəndələri Klemansonun təklifinin əleyhinə getməsələr də, təkid edirdilər ki, kiçik xalqlara da konfransın işində iştirak etmək imkanı verilməlidir.

Uzun müzakirələrdən sonra fransızlar tərəfindən hazırlanmış və 1919-cu il yanvar ayının 12-də qəbul edilmiş sənəd əsasında konfransa dəvət edilən ölkələr dörd kateqoriyaya bölünürdü. Birinciyə ümumi mənafe baxımından çıxış edərək, vuruşan ölkələr daxil idi. Bu ölkələr Sülh konfransının bütün işində və komissiyalarında iştirak etməli idilər. İkinci kateqoriyaya məhəlli mənafe baxımından vuruşan ölkələr daxil idi. Bu ölkələr yalnız özlərinə aid məsələlərin müzakirəsində iştirak edə bilərdilər. Üçüncü kateqoriyaya müharibənin gedişində Almaniya bloku ilə diplomatik əlaqələrini kəsmiş ölkələr daxil idilər. Həmin ölkələrin nümayəndələri də yalnız onlara aid olan iclaslarda iştirak etməli idilər. Nəhayət, dördüncü kateqoriyaya neytral və yeni yaranma mərhələsində olan dövlətlər daxil idilər. Bu qrupa daxil olan ölkələr bilavasitə onlara aid olan xüsusi məsələlərin müzakirəsində birinci kateqoriyaya daxil olan beş dövlətdən birinin dəvəti ilə iştirak edə bilərdilər. Onlar şifahi və ya yazılı formada öz arzu və təkliflərini iclasa təqdim edə bilərdilər. Almaniya və onun müttəfiqləri barədə reqlamentdə heç nə deyilmirdi.

Versal Sülh konfransı rəsmi olaraq Antanta dövlətləri ilə məğlub olmuş Almaniya bloku arasında sülh müqavilələrini işləyib hazırlamaq üçün çağırılmışdı. Lakin aydın idi ki, konfransın gündəliyində «rus məsələsi» əsas yer tutacaqdır.

---

[610] С.Бекер. Вудро Вильсон. Мировая война. Версальский мир. М, 1923, с 204



downloaded from KitabYurdu.az

Dağılmış Rusiya imperiyasının ərazisində yeni yaranmış milli respublikalar Sülh konfransından çox şey gözləyirdilər. Öz istiqlaliyyətini elan etmiş Azərbaycan Respublikası dünya dövlətləri tərəfindən tanınmaq, beynəlxalq birliklərin bərabər hüquqlu üzvü olmaq, respublikanın suverenliyi və ərazi bütövlüyünü təmin etmək baxımından ümumdünya Sülh konfransına böyük ümid bəsləyirdi.

Azərbaycan hökumətinin nümayəndələri hələ 1918-ci ilin noyabrında Ənzəlidə Müttəfiq qoşunlarının baş komandanı general V.Tomsonla danışıqlar zamanı Azərbaycanın beynəlxalq Sülh konfransında iştirak edəcəyinə ümüdverici vəd almışdılar.[611] Antanta qoşunları Bakıya daxil olduqdan sonra general Tomson və az sonra Böyük Britaniya hökumətinin rəsmi nümayəndəsi general Corc Miln dəfələrlə verdikləri bəyanatlarda Azərbaycan Respublikasının Paris Sülh konfransında iştirak edəcəyini bildirmişdilər. Qeyd edilən şəxslər Antanta dövlətlərinin regionda rəsmi nümayəndələri olduğu üçün onların bəyanatları Azərbaycan hökumətinin Paris Sülh konfransına dəvəti kimi qəbul edilirdi. General Tomson Azərbaycan hökumətinə yazılı şəkildə bildirirdi ki, bütün mübahisəli ərazi məsələləri Sülh konfransının qərarları ilə həll ediləcəkdir.[612] Bu barədə o, rəsmi göstəriş aldığını qeyd edirdi.

İstanbulda olan Azərbaycanın səlahiyyətli nümayəndəsi Ə.M. Topçubaşov da 1918-ci ilin oktyabr-dekabr aylarında bu istiqamətdə faydalı addımlar atmışdı. Oktyabr ayı ərzində Türkiyə rəsmi dairələri ilə keçirdiyi görüşlərində o, Sülh konqresinə hazırlığın bəzi cəhətlərini müzakirə etmişdi. Oktyabr ayının 31-də F.X.Xoyskiyə göndərdiyi məktubda Ə.M.Topçubaşov gələcək Sülh konqresinə ciddi hazırlaşmağı, göndəriləcək nümayəndə heyətinin üzvlərinin müəyyən edilməsini məsləhət görürdü ki, beynəlxalq konfransa təsadüfi nümayəndə heyəti göndərilməsin. Eyni zamanda o, müəyyən edilmiş nümayəndə heyətinin Sülh konfransına ciddi hazırlaşmasını zəruri hesab edirdi. Beləliklə, yaranmış vəziyyətdə beynəlxalq Sülh konfransına hazırlaşmağı Azərbaycanın İstanbuldakı fövqəladə səlahiyyətli nümayəndəsi ən vacib vəzifə hesab edirdi. O bildirirdi ki, yaranmış vəziyyətlə əlaqədar bizim hər birimiz daha gərgin və səmərəli işləməliyik, taleyin gətirdiyi şıltaqlıqlara və zərbələrə hazır olmalıyıq. Durub fal açmamalıyıq ki, bizi nə gözləyir, indiyə qədər nə olubsa, hər halda ondan pis olmayacaq. Yalnız lazımdır ki, qüvvələri düzgün bölək, hərə öz yerində olsun, öz gücünə inansın. Onun fikrincə, "söhbət xalqın taleyindən getdikdə, şəxsi xarakterli fikirlərə yer yoxdur və olmamalıdır."[613]

Mudros barışığının Bakıya aid maddələri barədə Osmanlı hökumətinə etiraz notası təqdim edən Ə.M.Topçubaşov noyabr ayının ortalarında həmin notanın surətini İstanbula gələn müttəfiqlərin hərbi nümayəndələrinə də təqdim etmişdi.

---

[611] А.Раевский. Английское интервенция и мусоватское правительство, с 33

[612] АВДА, f. 970, s.3, i.4, v.6.

[613] Azərbaycan Respublikasının fövqəladə səfiri və səlahiyyətli naziri Ə.M.Topçubaşovun Nazirlər Şurasının sədri F.X.Xoyskiyə məktubu. 31. 10. 1918. // ARDA, f. 994, s. 10, i. 34, v. 17



downloaded from KitabYurdu.az

Bundan əlavə o, müttəfiq dövlətlərin İstanbula gələcək diplomatik nümayəndələrinə təqdim etmək üçün Azərbaycan Respublikası adından memorandum hazırlamışdı. Eyni zamanda Əli Mərdan bəy İstanbuldakı ingilis nümayəndələri ilə görüşüb Sülh konfransı barədə məlumat almışdı. Noyabr ayının 20-də Azərbaycan nazirlər kabinəsinin sədrinə göndərdiyi məktubda Ə.M.Topçubaşov bir gün əvvəl ingilis nümayəndəsi polkovnik Tampl ilə görüşdüyünü bildirib yazırdı ki, Sülh konfransı iki-üç ay ərzində Parisdə keçiriləcəkdir.[614] İngilis nümayəndələri ilə danışıqlardan aydın olmuşdu ki, Cənubi Qafqaz respublikalarının konfransa müştərək nümayəndə heyəti göndərməsi və Azərbaycan respublikasının orada kifayət qədər təmsil ediləcəyi nəzərdə tutulmuşdu. Belə bir fikir yəni Cənubi Qafqaz respublikalarının vahid nümayəndəliklə Sülh konfransında iştirak etməsi Türkiyə Xarici İşlər Nazirliyində oktyabr ayının əvvəllərində aparılan danışıqlarda da müzakirə edilmişdi. Bu, həmin respublikaların arasında kiçik ziddiyyətlərin aradan qaldırılmasına və onların müstəqilliyinin tanınmasına böyük yardım göstərmiş olardı. Ona görə Ə.M.Topçubaşov erməni və gürcü nümayəndələri ilə təmasda olub əlaqələri möhkəmləndirməyi və Azərbaycanın konfransa hazırlaşmasını zəruri hesab edirdi. Dekabr ayının 16-da Azərbaycan respublikası Nazirlər Şurasının sədrinə yazdığı məktubda Ə.M.Topçubaşov Qafqazın Rusiya əsarətindən azad olması və gələcəkdə yenidən Rusiyanın əsarətinə düşməməsi üçün vahid nümayəndəlikdə birləşməsini zəruri hesab edirdi. O bildirdi ki, indiki yaranmış şəraitdə Qafqaz xalqlarının müstəqilliyinin tanınmasının yeganə yolu "azərbaycanlıların, gürcülərin və ermənilərin birgə addımlarındandır. Bu xalqların milli siyasi ideallarında hər hansı fərq olursa-olsun, indi onların hamısının müstəqilliyi Sülh konfransında birgə işlərindən və birgə çıxışlarından asılıdır". Ə.M.Topçubaşov Paris Sülh konfransında etimad qazanmaq üçün Qafqaz, yaxud Cənubi Qafqaz konfederativ nümayəndəliyi yaratmağı təklif edib yazırdı: "Mənim fikrimcə, hələlik bu yeganə çıxış yoludur".[615] İstanbuldakı Antanta diplomatik nümayəndələrinə təqdim edilən memorandumu Ə.M.Topçubaşov Cənubi Qafqazın hər üç millətinin mənafeyini ədalətli şəkildə nəzərə almaqla hazırlamışdı və memorandumun surəti erməni və gürcü nümayəndələrinə də verilmişdi.[616] Fransa, İngiltərə, Amerika, İtaliya, Yunanıstan və Yaponiya diplomatik nümayəndələrinə təqdim edilmiş memorandumda qeyd edilirdi ki, Azərbaycan Respublikası Azərbaycan xalqının əsrlər boyu qonşuluq etmiş erməni və gürcü xalqları ilə daha da yaxınlaşması, bu

---

[614] Azərbaycan Respublikasının fövqəladə səfiri və səlahiyyətli naziri Ə.M.Topçubaşovun Nazirlər Şurasının sədri F.X.Xoyskiyə məktubu. 20. 11. 1918.// ARDA, f. 70, s.1, i. 68, v. 21

[615] Azərbaycan Respublikasının fövqəladə səfiri və səlahiyyətli naziri Ə.M.Topçubaşovun Nazirlər Şurasının sədri F.X.Xoyskiyə məktubu. 16.12.1918. // ARDA, f.894 , s.10, i.66, v.3

[616] Dövləti - Aliyeyi - Osmaniyə, Gürcüstan və Ermənistan hökumətləri yanında Azərbaycan Respublikasının fövqəladə səlahiyyətli naziri Ə.M.Topçubaşov tərəfindən İstanbuldakı Antanta dövlətlərinin yüksək nümayəndələrinə təqdim olunmuş memorandum. Noyabr, 1918.// ARDA, f.970, s.1, i.108, v.1-27



downloaded from KitabYurdu.az

xalqların bir konfederasiyada birləşməsini mümkün hesab edir.[617] Antanta ölkələrinin İstanbuldakı diplomatik nümayəndələrinə təqdim edilən memorandum, eyni zamanda İngilis və Fransız dillərinə tərcümə edilib Stokholma, Parisə, Cenevrəyə, Londona və Nyu-Yorka göndərilmiş, həmin sənədin mətni Türkiyə Xarici İşlər Nazirliyinə təqdim edilmişdi. Memorandumun fransız dilində olan mətni xüsusi başlıqla İstanbulda olan xarici mətbuat üçün yayılmış, eyni zamanda onun türk dilinə tərcümə edilmiş variantı İstanbulda yayılmaq məqsədilə 750 nüsxəlik bir broşura formasında nəşr edilmişdi.[618] Memorandum Azərbaycanla bağlı siyasi, iqtisadi, mədəni, etnik-milli məsələləri əhatə edən, gənc respublikanın təbliği və tanıdılması zərurətindən meydana gələn kifayət qədər ciddi diplomatik bir sənəd idi. Orada istər Qafqaz haqqında, istərsə də Azərbaycan haqqında çox maraqlı məlumatlar verilirdi. Qafqazın cografiyası, inzibati bölgüsü, regionun demoqrafik vəziyyəti haqqında memorandumda çox saylı faktlar, statistik materiallar yer almışdı. Sənəddə Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasından qısa müddətdə ölkədə aparılan islahatlarından, 1918-ci ilin martında Bakıda törədilmiş faciəli hadisələrindən bəhs edilir və Qarabağ məsələsi, onun tarixi və çağdaş durumu haqqında geniş məlumat verilirdi. Ə.M.Topçubaşov əsaslandırırdı ki, Azərbaycan Respublikasının müstəqil yaşamağa haqqı və qüdrəti çatır, məhz elə bu məqsədlə də Azərbaycan türkləri qurduqları çağdaş cümhuriyyətin dünya tərəfindən tanınacağına ümid bəsləyirlər.

Paris Sülh konfransına hazırlıqla, Azərbaycan nümayəndə heyətinin təşkili və mandatların hazırlanması ilə bağlı o, Bakıya gəlmək niyyətində olduğunu Azərbaycan hökumətinin sədrinə yazırdı. 1918-ci ilin dekabr ayında sədr-əzəm Əhməd Tevfik Paşaya yazdığı məktubda Ə.M.Topçubaşov onun rəhbərlik etdiyi missiyanın (bura Azərbaycan Xarici İşlər Nazirliyinin nümayəndəsi Səlim Bəy Behbutov, Ə.M.Topçubaşovun iki katibi, Mustafa bəy Vəkilov və Əli Mərdan bəyin oğlu Rəşid bəy Topçubaşov daxil idilər-C.H.) Azərbaycana qayıtmasını təşkil etməyi və müvafiq sənədlərin verilməsini xahiş edirdi.[619] Lakin bu məktub qeyd edilən ünvana göndərilmədi, çünki Sülh konfransının yanvar ayında açılacağı artıq elan edilmişdi. Ona görə Paris Sülh konfransına hazırlıqla bağlı Azərbaycan hökuməti ilə diplomatik kuryer vasitəsi ilə əlaqə saxlanılmışdı və məsləhətləşmələr keçirilmişdi. Dekabr ayının ortalarında, o, aydın fəaliyyət proqramı almaqdan ötrü

[617] Azərbaycan Respublikasının fövqəladə səlahiyyətli naziri Ə.M.Topçubaşovun İstanbuldakı Fransa, İngiltərə, Amerika, İtaliya, Yunanıstan və Yaponiya diplomatik nümayəndəhrinə məktubu. Dekabr, 1918. //ARDA, f,970, s.1, v.25

[618] Дипломатические беседы А.М.Топчубашева Стамбуле (записи чрезвычайного посланника и полномочного министра Азербайджанской республики). 1918-1919 гг. Баку, 1994, с. 143

[619] Azərbaycan Respublikasının fövqəladə səlahiyyətli naziri Ə.M.Topçubaşovun Türkiyənin sədri-əzəmi Əhməd Tevfik Paşaya məktubu. Dekabr, 19187/ ARDA, f. 970, s. 1, i. 68, v.25



downloaded from KitabYurdu.az

fövqəladə səlahiyyətli nümayəndəliyin katibi Mustafa bəy Vəkilovu Azərbaycana göndərdi.[620]

Digər tərəfdən, İstanbula gələn Antanta ölkələrinin diplomatik nümayəndələri ilə görüşmək zərurəti də Ə.M.Topçubaşovun orada qalmasını zəruri edirdi. Noyabr-dekabr aylarında Ə.M.Topçubaşov Türkiyə dövlət başçıları və İstanbula gələn müttəfiqlərin nümayəndələri ilə bir sıra faydalı görüşlər keçirmişdi. Noyabr ayının 3-də Türkiyə tərəfindən Mudros danışıqlarını aparmış Rauf bəylə, noyabrın 4-də xarici işlər nazirinin müavini Reşad Hikmət bəylə, noyabrın 5-də xarici işlər naziri Nəbi bəylə, noyabrın 8-də maliyyə naziri Hüseyn Cavid bəylə, noyabrın 15-də Ukrayna nümayəndəsi Sukovçinlə, noyabrın 16-da və 18-də Türkiyənin yeni xarici işlər naziri Mustafa Reşad paşa ilə, yenə həmin gün yeni sədr-əzəm Tevfik paşa və İstanbulda olan İngiltərə diplomatik nümayəndəsi Tampl ilə, noyabrın 25-də Türkiyənin maliyyə naziri Əbdülrəhman bəylə, hərbi naziri Abdulla paşa ilə, dekabrın 7-də Rusiya nümayəndəsi P.N.Milyukovla, dekabrın 23-də Amerika diplomatik nümayəndəsi Braunla, dekabrın 31-də İtaliya krallığının nümayəndəsi qraf Sfors ilə görüşüb danışıqlar aparmışdı.[621] Bu danışıqlarda müharibənin qurtarması ilə bağlı dünyada yaranmış şərait və Azərbaycanın vəziyyəti ilə bağlı məsələlər müzakirə edilmişdi.

Yeni təsis edilmiş Azərbaycan Parlamenti özünün ilk iclaslarında dünya xalqlarına və parlamentlərinə, habelə müharibədən sonrakı dünya düzəninin baş memarı hesab edilən ABŞ prezidenti V.Vilsona müraciət qəbul etdi. Müraciətdə parlamentli respublika kimi, Azərbaycanın istiqlaliyyətinin tanınması xahiş edilirdi. Parlament müzakirələrində Paris Sülh konfransına hazırlığa xüsusi əhəmiyyət verilirdi və qeyd edilirdi ki, gürcü və erməni nümayəndələri artıq Avropada öz ölkələrinin xeyrinə fəaliyyətə başlayıblar. "Azərbaycan" qəzeti 1918-ci il 21 dekabr tarixli nömrəsində Paris Sülh konfransına hazırlıq məsələsini bütün kəskinliyi ilə qoymuşdu. Qəzet yazırdı: "Azərbaycana münasibətdə biz nə görürük. Parisdə, yaxud Londonda onun mənafeyini kim müdafiə edəcək, onun xaricdə hansı "mətbuatı" var, kim Qərbi Avropada və Amerikada Azərbaycan haqqında ictimai rəy yaradacaq."[622] Bu suallarla bağlı Qərbi Avropa ölkələrinə və ABŞ-a xüsusi nümayəndəlik göndərilməsi zəruri hesab edilirdi. Müxtəlif ölkələrdə Azərbaycanın mənafeyinin müdafiə olunması, ictimai rəyin obyektiv məlumatlar əsasında Azərbaycanın xeyrinə formalaşdırılması, Azərbaycanda hansı hökumətin olması, onun müstəqilliyə can atması və demokratiya uğrunda mübarizəsinin əsl səbəbləri barədə məlumat vermək, danışıqlar aparmaq bu nümayəndəliyin əsas vəzifəsi olmalı idi. Azərbaycan Xarici İşlər Nazirliyinin hazırladığı proqrama görə Avropaya və ABŞ-a gedəcək diplomatik nümayəndəlik, əsasən, dörd mühüm

---

620 Ə.M.Topçubaşovun Azərbaycan Respublikası Nazirlər Şurasının sədri F.X.Xoyskiyə məktubu. 16.12.1918. // ARDA, f.894, s.10, i.66, v.3

621 Дипломатические беседы А.М.Топчибашева в Стамбуле, с 33-88.

622 Азербайджан, 1918, 21 декабря.



downloaded from KitabYurdu.az

vəzifəni yerinə yetirməli idi. Birincisi, Böyük Britaniya, ABŞ, Fransa və İtaliya müttəfiq hökumətlərin, habelə İsveçrə və Hollandiya kimi, neytral dövlətlərin nümayəndələri ilə danışıqlar aparıb suveren dövlət kimi, Azərbaycanın müstəqilliyinin tanınmasına nail olmaq, Azərbaycan respublikasını bütün digər iştirakçılarla birlikdə Paris Sülh konfransında bərabər hüquqda iştirakını təmin etmək; ikincisi, müttəfiq dövlətlərdə tanınmış ictimai xadimlərlə, sosialist hərəkatı liderləri, beynəlmiləl təşkilatların başçıları ilə görüşmək və onların diqqətini Azərbaycana cəlb etmək; üçüncüsü, ictimai fikri Azərbaycan haqqında məlumatlandırmaq, onun gələcəkdə xalqlar ailəsində oynaya biləcəyi rolu, mənafeyi ilə bağlı məsələləri yerli mətbuatda işıqlandırmaq; dördüncüsü isə, yerli ticarət-sənaye dairələri ilə kommersiya əlaqələrinə girib Azərbaycanın gələcəyi üçün zəruri olan materiallar toplamaq.[623] Belə bir nümayəndəliyin İstanbul vasitəsilə Romaya və Parisə, oradan neytral ölkələrin paytaxtlarına, Londona, Vaşinqtona göndərilməsi təklif edilirdi. Azərbaycan hökuməti bu məsələyə böyük əhəmiyyət verirdi. Ona görə də noyabr ayında Avropa və Amerikaya fövqəladə nümayəndə heyəti göndərmək üçün Xarici İşlər Nazirliyinə 2,5 milyon manat həcmində vəsait ayrılmışdı. Nümayəndəlik Avropa və Amerika ictimaiyyətini Azərbaycana aid müxtəlif tarixi, etnoqrafik və statistik materiallarla tanış etməli idi.[624] Heç şübhəsiz ki, belə bir addım Azərbaycanın istiqlaliyyətinin tanınmasına müsbət təsir göstərərdi. Lakin Paris Sülh konfransının açılmasına az qalırdı, dünyanın bütün siyasi dairələri Versala toplanmalı idi. Ona görə hökumət Parisə elə bir nümayəndə heyəti göndərmək istəyirdi ki, Versal Sülh konfransında Azərbaycan Respublikasını təmsil etməklə yanaşı, yuxarıda qeyd edilən dörd prinsipi də yerinə yetirmiş olsun.

Dekabr ayının 26-da keçirilən parlament iclasında hökumət proqramı ilə çıxış edən F.X.Xoyski xarici siyasət məsələlərinə, ümumdünya Sülh konfransına hazırlığın gedişi və xarici işlər nazirliyinin fəaliyyət istiqamətlərinə geniş yer verdi. O qeyd etdi ki, beşillik dünya müharibəsindən sonra çağırılan Sülh konfransında bizim başlıca məsələmiz istiqlaliyyətimizin təsdiqi məsələsi olacaqdır. Fətəli xan dedi: "Hökumət bütün vəzifələrindən qabaq, bu istiqlaliyyəti göz bəbəyi kimi müdafiə və mühafizə etməyi özünə borc bilir. Azərbaycan istiqlaliyyəti ondan ibarət deyil ki, özümüz ilə özgə dövlətlər arasında bir divar yapaq. Aşkardır ki, müstəqil Azərbaycan hökuməti özgə dövlətlər ilə rabitəyə girməyə çalışacaqdır. Bu rabitə əvvəlki qonşu Rusiyada təşkil olunmuş məmləkətlər və Rusiyanın özü olacaqdır". Beynəlxalq Sülh konfransından Azərbaycanın gözləntiləri ilə bağlı Fətəli xan bildirdi: "İstiqlalımız Sülh konfransında qəbul olunub tanınacaqdır. Biz ümidvarıq ki, Sülh konfransında Amerikanın bütün cahana elan etdiyi deklarasiya

---

[623] Азербайджан, 1918, 21 декабря.

[624] Avropa və Amerikaya fövqəladə nümayəndəlik göndərilməsi ilə bağlı Azərbaycan Xarici İşlər Nazirliyinə maliyyə vəsaiti ayrılması haqqında Nazirlər Şurasının qərarı. Noyabr, 1918. // ARDA, f.894, s.10, i.147, v.34



downloaded from KitabYurdu.az

ilə demokratik İngiltərə və Fransa cümhuriyyətləri tərəfindən öz istiqlalına cəhd edən bir millətin hüququ tapdalanmayacaqdır. Bu cür hökumət nümayəndələrindən ibarət cahan məhkəməsi olan Sülh konfransında bizim sözümüz eşidiləcəkdir." Xarici İşlər Nazirliyinin başlıca vəzifəsini qonşu dövlətlərlə sülh yaratmaqda, mübahisəli məsələləri dinc yolla nizama salmaqda, xarici dövlətlərlə əlaqə yaratmaqda görən baş nazir yeni hökumətin proqramını təqdim edərkən dedi ki, xarici işlər nazirliyi başqa dövlətlərlə həm siyasi, həm də ticari rabitə qurmalı və həm də sülhü təmin etməlidir. Amma sülhü təmin etmək o demək deyildir ki, hökumət özü üçün bir qüvvə hazırlamayacaq. Gərək hər bir dövlət daima özünü müdafiə etmək üçün qüvvə hazırlasın. Ona görə də bizim həm xarici düşmənlərimizə qarşı, bizim istiqlalımıza hücum edənlərə qarşı müdafiə edəcək bir qüvvəmiz olsun.[625]

Dekabr ayının 28-də yeni yaranmış hökumət kabinəsi Paris Sülh konfransına gedəcək Azərbaycan nümayəndə heyətinin tərkibini təsdiq etdi. Nümayəndə heyətinə parlamentin sədri Əli Mərdan bəy Topçubaşov rəhbərlik etməli idi, onun müavini hökumət üzvü Məmməd Həsən Hacınski təyin edildi. Nümayəndə heyətinə iki nəfər parlament üzvü Əhməd bəy Ağayev və Əkbərağa Şeyxülislamov daxil edildilər. Parlament üzvləri Mir Yaqub Mehdiyev, Məmməd Məhərrəmov və "Azərbaycan" qəzetinin redaktoru Ceyhun bəy Hacıbəylidən ibarət məsləhətçilər müəyyən edildi. Hökumət başçısı və xarici işlər naziri kimi F.X.Xoyskinin imzaladığı etimadnamədə göstərilirdi ki, beynəlxalq Sülh konfransında iştirak etməklə yanaşı, bu heyət müxtəlif dövlət və millətlərlə Azərbaycan adından hər cür siyasi, iqtisadi və maliyyə xarakterli müqavilələr imzalamaq səlahiyyətinə malikdir. Texniki işçiləri nümayəndəlik özü seçməli idi. Ə.M.Topçubaşov Bakıda olmadığı üçün M.H.Hacınski İstanbula çatana qədər hökumətin tapşırığı ilə müvəqqəti olaraq nümayəndə heyətinə başçılıq etməli idi.

Yanvarın ilk günlərində nümayəndə heyətinin üzvlərinə diplomatik pasportlar və zəruri sənədlər təqdim edildi. Müttəfiq qoşunlarının baş komandanı V.Tomson Parisə səfəri asanlaşdırmaq üçün onlara öz imzası ilə rəy məktubu verdi. Xarici işlər nazirliyinin qərarı ilə nümayəndə heyəti sədrinin müavini M.H.Hacınskiyə 150 min manat pul verildi, Avropa və Amerika nümayəndəlik göndərmək üçün ayrılmış 2,5 milyon manat vəsait xarici işlər nazirliyi tərəfindən nümayəndəliyin hesabına keçirildi.[626]

Xarici işlər nazirliyi tərəfindən Azərbaycanın Tiflisdə olan səlahiyyətli nümayəndəsi M.Y.Cəfərova göndərilən teleqramda bildirilirdi ki, aşağıdakı tərkibdə Azərbaycan nümayəndə heyəti Avropaya yola düşür:

1. Nümayəndə heyətinin müvəqqəti sədri M.H.Hacınski.

[625] Azərbaycan Xalq Cumhuriyyəti (1918-1920). Parlament, I cild, s. 122-123
[626] Paris Sülh konfransında iştirak etmək üçün Azərbaycan nümayəndə heyətinə verilmiş etimadnamə. 04.01.1919.// ARPİİ SPİHDA, f.277, s.2, i.22 , v.18



downloaded from KitabYurdu.az

2. Nümayəndəliyin üzvləri: Ə.Ağayev, Ə.Şeyxülislamov, M.Mehdiyev, C.Hacıbəyli və M.Məhərrəmov.[627]

Azərbaycan nümayəndələri Tiflisə gəldikdən sonra ilkin danışıqlardan aydın oldu ki, Cənubi Qafqaz respublikalarının birgə nümayəndəlikdə təmsil olunmaları qeyri-mümkündür, hər bir nümayəndəlik ayrı-ayrılıqda fəaliyyət göstərməlidir. Lakin buna baxmayraq, Tiflisdə E.Geqockori ilə danışıqlarda razılıq əldə edildi ki, Azərbaycan və Gürcüstan nümayəndəlikləri öz fəaliyyətlərini əlaqələndirsinlər. Bunun əksinə olaraq, özünü Antantanın bir hissəsi "hesab edən" Ermənistan nə gürcülərlə, nə də azərbaycanlılarla heç bir əməkdaşlıq etmək fikrində deyildi. Qısa danışıqlardan sonra Azərbaycan nümayəndələri Qafqazdan gedən Dağlılar Respublikası və Gürcüstan nümayəndə heyəti ilə birlikdə yanvar ayının 8-də İstanbula yola düşdülər. Bu barədə Tiflisdə olan M.Y.Cəfərov Azərbaycan Xarici İşlər Nazirliyinə teleqramla məlumat verdi.[628] Elə həmin vaxt xarici işlər nazirinin müavini A.Ziyadxanov Azərbaycanın Paris Sülh konfransına göndərilən nümayəndə heyətinin başçısı Ə.M.Topçubaşova təcili diplomatik məlumat göndərdi ki, Qafqaz xalqlarının taleyi Sülh konfransında həll edilənə qədər Azərbaycanın ayrılmaz hissəsi olan İrəvan quberniyasının müsəlman rayonlarının, eyni zamanda Batum, Qars və Axalsıx vilayətlərinin müsəlman əhalisinin fiziki mövcudluğunu qorumaq və bu ərazilərdə mövcud "status kvo"nu saxlamaq məsələsini müttəfiqlərin nümayəndələri qarşısında qaldırsınlar. Təcili diplomatik məlumatda göstərilirdi ki, Ermənistan ordusu İrəvan quberniyasının müsəlman əhalisini məhv edir və onları yaşadıqları ərazidən təmizləyir. A.Ziyadxanov yazırdı: "Böyük Avropa dövlətlərinin İstanbulda və Parisdə olan nümayəndələri qarşısında vəsadət qaldırmaq lazımdır ki, məsələlər Sülh konfransında həll olunana qədər qeyd edilən vilayətlərin dinc əhalisinin həyatını hər cür cinayətkar qəsdlərdən qorumaq üçün, bu ərazilərə öz hərbi dəstələrinin göndərilməsi məqsədilə Qafqazda olan mütəffiq komandanlığına göstəriş verilsin."[629]

Gürcüstan nümayəndə heyətinə daxil olan üzvlərin bir hissəsi artıq bir neçə ay idi ki, Avropa ölkələrində idilər. Hələ sentyabr ayında Dördlər ittifaqının məğlubiyyəti hiss edildikdə gürcü menşevikləri və Gürcüstan hökumətinin tapşırığı ilə Z.Avalov Fransa, İngiltərə, İsveç və digər ölkələrin diplomatik nümayəndələri ilə görüşmək üçün İstanbula gəlmişdi.[630] Noyabr ayında isə Almaniyanın məğlubiyyətindən sonra Berlində olan gürcü nümayəndələrindən Z.Avalov təcili

[627] ARDA, f. 970, s. 1, i. 34, v. 24

[628] Avropaya Azərbaycan Sülh nümayəndəliyinin göndərilməsi ilə bağlı yazışmalar. Yanvar, 1919.//ARDA, f.894, s.10, i.147, v.34

[629] Avropaya Azərbaycan Sülh nümayəndəliyinin göndərilməsi ilə bağlı yazışmalar. 08.01.1919. //ARDA, f. 970, s.1, i. 147, v.34

[630] Xarici işlər nazirinin müavini A.Ziyadxanovun Paris Sülh konfransında Azərbaycan nümayəndə heyətinin sədri Ə.M.Topçubaşova təcili diplomatik məlumatı. Yanvar, 1919. //ARPİİ SPİHDA, f.277, s.2, i.22, v.40



downloaded from KitabYurdu.az

şəkildə Londona və Parisə, M.Sereteli Skandinaviya ölkələrinə, A.Çxenkeli İsveçrəyə yollanmışdılar.[631] Dekabr ayında İngiltərəyə gələn gürcü nümayəndələri Z.Avalov və D.Qambaşidze Londonda faydalı danışıqlar apardılar, Britaniyaya gedərkən onlar Norveçin Bergen şəhərində Cənubi Qafqazın gələcək Ali komissarı Oliver Uordrop ilə tanış oldular və ondan yardım alacaqlarına təminat aldılar. Azərbaycanın Londonda nümayəndəsi olmadığı üçün ədalət naminə qeyd edilməlidir ki, bir sıra məsələlərdə gürcü nümayəndələri Azərbaycanın da mənafeyini müdafiə etmişdilər və Cənubi Qafqazın "vahid və bölünməz" Rusiyaya bir daha qayıtmayacağını hər iki respublika adından bildirmişdilər. Londonda olan gürcü nümayəndələrinin gərgin mübarizəsindən sonra Böyük Britaniya xarici işlər nazirinin müavini ser Luis Mallet dekabr ayının 31-də belə bir notanı imzaladı ki, İngiltərə Gürcüstan Respublikasının elan edilməsinə rəğbətlə yanaşır və onun müstəqilliyinin Sülh konfransı tərəfindən tanınması məsələsini qaldırmağa hazırdır.[632] Bununla da Parisə yollanmaq ərəfəsində gürcülər öz vəziyyətlərini bir qədər yaxşılaşdırdılar. Versal konfransına gedən Gürcüstan nümayəndə heyətinə N.Çxeidze rəhbərlik edirdi və gürcü nümayəndəliyi bir çox məsələlərdə Azərbaycan nümayəndəliyi ilə birgə çıxış edirdi.

Yanvar ayının 11-də Batuma çatan Azərbaycan nümayəndələri bir gün sonra Ermənistan Respublikasının nümayəndələri ilə burada görüşdülər. Yanvar ayının 13-nə kimi gürcü nümayəndələri ilə də bir sıra görüşlər keçirildi. Gürcü nümayəndələri bu fikirdə idi: "Nə qədər ki, ermənilər onları təmin edən qədər ərazi əldə etməyiblər bizim həyatımızı zəhərləyəcəklər". Ona görə gürcülər təklif edirdilər ki, Ermənistanın ərazi iddiaları Türkiyənin hesabına ödənilməli və Türkiyədə müstəqil Ermənistan dövləti yaradılmalıdır. Bu məsələnin Azərbaycan üçün əhəmiyyətini nəzərə alaraq M.H.Hacınski Batumdan vurduğu şifrəli teleqramda Azərbaycan hökumətinin mövqeyini bilmək istəyirdi. Vəziyyətlə yaxından tanış olduqdan sonra o, özü "Türkiyə Ermənistanın muxtariyyəti haqqında məsələdə müəyyən həddə bəzi güzəştlərə getməyi"[633] mümkün hesab edirdi.

Batumda olarkən Azərbaycan nümayəndələri buradakı vəziyyətlə tanış olduqdan sonra yerli müsəlmanların nümayəndələri ilə bir sıra görüşlər keçirdilər. Qəflətən türklərin Batumdan çıxması və ingilislərin bura daxil olması ilə Batumun və Qarsın müsəlman əhalisi ağır vəziyyətdə qalmışdı və bundan istifadə edən gürcülər dərhal burada öz xeyrlərinə təbliğata başlamışdılar. Azərbaycan nümayəndələri Acariyanın tanınmış adamları ilə danışıqlarda məsləhət gördülər ki, qonşu Qars, Sürməli və digərləri ilə birlikdə öz dövlətlərini yaratsınlar. Bu işdə Batumdakı Azərbaycan konsulu Mahmud bəy Əfəndiyev yerli müsəlman əhalisinə yaxından köməklik göstərməli idi. Yanvar ayının 17-də F.Xoyskiyə göndərdiyi

[631] З.Авалов. Независимость Грузии в международной политике, с. 138
[632] Yenə orada, s.153
[633] Yenə orada, s.163-164



downloaded from KitabYurdu.az

teleqramda M.H.Hacınski bildirdi: "Belə düşünmək olar ki, bizim məsləhətimiz həyata keçiriləcək... Bizim Batumdakı konsula şərait yaradılmalı... və onun ixtiyarına hesabat tələb etmədən təcili şəkildə təbliğat işləri üçün 200 min manata qədər pul buraxılmalıdır. Bunu yalnız Mahmud bəy Əfəndiyev bilməlidir".[634] Konsulluğun işini gücləndirmək məqsədilə M.Əfəndiyev yanvar ayının ortalarında 1919-cu il üçün xərclər smetasını hazırlayıb xarici işlər nazirliyinə göndərdi. O, doktor Əziz bəy Qədimbəyovun Konsulluqda katib vəzifəsinə qəbul edilməsini, Səfvət Ağayevin isə kargüzarlıq işlərinə rəhbərlik etməsini xahiş edirdi. M.Əfəndiyev diplomatik işə cəlb edilən hər iki şəxsi yaxşı tanıdığını onların yüksək mənəvi keyfiyyətlərə malik vətənpərvər, öz millətinə sədaqətli olan adamlar kimi dəyərləndirirdi.[635]

Batumdan Azərbaycan hökuməti başçısına və xarici işlər nazirinə vurduğu teleqramda M.Hacınski daha iki məsələyə - Paris Sülh konfransına yollanan nümayəndəliyin qüvvətləndirilməsi və maliyyə məsələlərinə toxunmuşdu. O yazırdı: "Fətəli xan, Bakıdan nə qədər çox uzaqlaşırıqsa, bizim nümayəndəliyin tərkibinin zəifliyi bir o qədər güclü hiss edilir. Bizim qonşularımız öz nümayəndəliklərinə 12 nəfər çox nüfuzlu və məşhur üzvlər daxil ediblər, məsləhətçiləri də ciddi şəkildə nümayəndəliyə kömək etmək səviyyəsindədir. Nəzərə almalıyıq ki, həm Parisdə və həm də Londonda onların öz adamları və öz komitələri vardır. Siz nümayəndəliyi möhkəmləndirmək barədə ciddi şəkildə fikirləşməlisiniz." Bu, həm də onunla bağlı idi ki, Azərbaycan nümayəndə heyətinin texniki personalı hələ rəsmiləşdirilməmişdi.

Maliyyə məsələlərinə gəldikdə isə M.H.Hacınskinin məlumatından aydın olur ki, qonşularla müqayisədə Azərbaycan nümayəndəliyi çox az maliyyə vəsaiti ilə yola çıxıblar. Halbuki Parisdə və ümumilikdə Qərbi Avropada nəzərdə tutulan işi yerinə yetiımək üçün külli miqdarda maliyyə vəsaiti lazım idi. M.H.Hacınski yazırdı: "Deyirlər iri həcmli maliyyə vəsaiti olmadan orada /Parisdə - C.H./ heç bir iş görmək mümkün deyil". Bunu nəzərə alaraq erməni nümayəndələri 10 milyon, gürcülər isə hələlik 5 milyon manat pul götürmüşdülər.[636] Bunlarla müqayisədə Azərbaycan nümayəndələrinin maliyyə imkanları çox az - 2,5 milyon manata bərabər idi.[637]

Yanvar ayının 18-də Azərbaycan, Gürcüstan və Şimali Qafqaz nümayəndələri Batumdan İstanbula yola düşdülər. Onlar gələnə qədər İstanbulda yanvar ayının ilk günlərindən başlayaraq, Ə.M.Topçubaşov çox mühüm işlər

---

[634] M.H.Hacınskinin Azərbaycan Respublikası Nazirlər Şurasının sədri F.Xan Xoyskiyə teleqramı. 13.01.1919.// ARDA, f.894, s.10, i. 66, v.l

[635] Azərbaycan Respublikasının Batumdakı Konsulu M.Əfəndiyevin 1919-cu ildə Konsulluğu saxlamaq üçün xərclər smetasına qoşma məktubu. 15.01.19197/ ARDA, f.970, s.1, i.43, v.l

[636] M.H.Hacınskinin Azərbaycan Respublikası Nazirlər Şurasının sədri F.Xan Xoyskiyə teleqramı. 17.01.1919. //ARDA, f.894, s.10, i. 66, v.5

[637] M.H.Hacınskinin Azərbaycan Respublikası Nazirlər Şurasının sədri F.Xan Xoyskiyə teleqramı. 17.01.1919. //ARDA, f.894, s.10, i. 66, v.6



downloaded from KitabYurdu.az

görmüşdü. Türkiyə mətbuatı artıq məlumat vermişdi ki, o, Parisə yollanan Azərbaycan nümayəndə heyətinə rəhbərlik edəcəkdir. "Zaman" qəzeti yanvar ayının 12-də yazırdı: "Ə.M.Topçubaşov Azərbaycanın hüququnu müdafiə etmək üçün Bakıdan Paris Sülh konfransına gedən nümayəndə heyətinin sədri təyin edilmişdir. Ona görə Əli Mərdan bəy vətənə dönmək əvəzinə Parisə gedəcəkdir". Elə həmin yazıda qəzet Ə.M.Topçubaşov haqqında və onun İstanbuldakı dörd aylıq missiyası barədə məlumat verirdi: Əli Mərdan bəy Peterburq Universitetini bitirib və Rusiyanın çox tanınmış hüquqşünaslarından sayılır. 30 il yorulmadan çarizmin təqiblərinə və zorakılığına qarşı Rusiya türklərinin siyasi hüquqlarını müdafiə edib. İstanbula gəldiyi müddətdən bəri, əlverişli siyasi şəraitin olmamasına baxmayaraq Əli Mərdan bəy kifayət qədər ciddi və aktiv fəaliyyət göstərmişdir."[638]

Yanvarın ilk günlərində o, İstanbulda olan müttəfiqlərin və neytral ölkələrin nümayəndələri ilə görüşmüş, onlara Mudros sazişi ilə bağlı Azərbaycan Respublikasının etiraz notasını təqdim etmiş, İran və Rusiya diplomatları ilə danışıqlar aparmış, yanvar ayının 11-də Türkiyə Sultanı tərəfindən qəbul edilmişdi.[639] Yanvar ayının 6-da Ə.M.Topçubaşov İstanbulda olan Amerika diplomatik nümayəndəsi mister Heyk ilə görüşüb danışıqlar aparmış və prezident V.Vilsonun "on dörd sülh prinsiplərinin" Azərbaycana şamil edilməsini, respublikanın istiqlaliyyətinin ABŞ tərəfindən tanınmasına köməklik göstərməyi ondan xahiş etmişdi.[640] Yanvarın 10-da isə o, Hollandiya nümayəndəsi Van Der Does de Villebua ilə görüşmüşdü. Görüş zamanı Villebua Ə.M.Topçubaşovun göndərdiyi memorandumu və oradan Qafqaz, habelə Azərbaycan haqqında çoxlu maraqlı məlumatlar aldığını bildirdi. O dedi: "Mən diqqət yetirdim ki, sizin zəngin ölkəniz var, ona görə də siz öz vəsaitləriniz hesabına yaşaya bilərsiniz. Sizdə çoxlu neft, pambıq var, lakin dəmir yollarınız yetərli deyildir." Söhbətin sonunda Villebua Avropanın xəritəsində böyük dəyişikliklər olacağının ehtimal edildiyini xatırlatdı.[641] Hollandiya nazirinin bu ehtimalı müharibənin gətirdiyi dəyişikliklər fonunda Avropada, o cümlədən Rusiya imperiyasının yerində yeni dövlətlərin qurulacağı üzərində qurulmuşdu.

Hələ dekabrın 30-da Ə.M.Topçubaşov Azərbaycanın hazırki vəziyyəti haqqında hazırladığı memorandumu İstanbulda olan İsveç səfiri S.Anşarsveldə təqdim etmişdi. İsveç səfiri ilə razılıq əsasında bu Memorandumla Stokholmda olan böyük dövlətlərin diplomatik nümayəndələri də tanış edilməli idi. Yanvar ayının 12-də S.Anşarsveld Ə.M.Topçubaşova yazırdı: "Sizin dekabrın 30-da

---

638 Ə.M.Topçubaşovun Türkiyə Sultanı tərəfindən qəbul edilməsi haqqında "Zaman" qəzetinin məlumatı. 12.01.1919. //ARDA, f.970, s.1, i.158, v.3

639 Yenə orada, v.3

640 Azərbaycan Respublikasının Sülh nümayəndəliyinin başçısı Ə.M.Topçubaşovun Türkiyədəki Amerika diplomatik nümayəndəsi Heyklə söhbəti. 06.01.1919.// ARDA, f.894, s.10. i. 151,v.45

641 Azərbaycan Respublikasının Sülh nümayəndəliyinin başçısı Ə.M.Topçubaşovun Türkiyədəki Hollandiya nümayəndəsi Van Der Does de Villebua ilə söhbəti. 10.01.1919.// ARDA, f.894, s.10. i. 151, v.52-53



downloaded from KitabYurdu.az

göndərdiyiniz Azərbaycanın indiki vəziyyəti haqqında memorandumu Stokholma, İsveç kral hökumətinin xarici işlər nazirliyinə göndərdim."[642] Belə bir məlumatı İstanbulda olan ingilis Ali komissarı R.Vebb də bildirdi. O da öz növbəsində Ə.M.Topçubaşovun dekabrın 30-da ingilis nümayəndəliyinə təqdim etdiyi sənədi Böyük Britaniya kral hökumətinə göndərdiyini yazırdı."[643]

Yanvar ayının 5-də və 6-da xarici nümayəndəliklərin yerləşdiyi İstanbulun Pera Palas mehmanxanasında Ə.M.Topçubaşov ağqvardiyaçı Kolçak və Denikin hökumətlərinin nümayəndəsi kimi, Paris Sülh konfransına gedən S.D.Sazonovla görüşdü. S.D.Sazonov 1883-cü ildən fəaliyyətə başlayan tanınmış rus diplomatı idi. Böyük Britaniyada, ABŞ və Vatikanda diplomatik işdə olmuşdu, 1909-cu ildən 1916-cı ilə kimi, Rusiya imperiyasının xarici siyasət aparatına rəhbərlik etmiş, Antantanın yaradılmasında xüsusi xidmətləri olmuşdu.[644] Lakin o, Rusiya imperiyasının dağılması və yeni dövlətlərin yaranması ilə heç cürə razılaşmaq istəmirdi. Düz bir ay əvvəl, 1918-ci ilin dekabr ayının 7-də Ə.M.Topçubaşovun belə bir görüşü Rusiyanın keçmiş xarici işlər naziri Pavel Milyukovla da olmuşdu. Rusiyada gedən mürəkkəb proseslər geniş müzakirə edildikdən sonra, Ə.M.Topçubaşov hələ birinci rus inqilabı dövründə Xalq Azadlıq partiyasından yaxşı tanıdığı P.Milyukov qeyri-rus xalqlara münasibət məsələsinə aydın cavab verməkdən çəkinmiş, hazırda başlıca məsələnin Rusiyanın bolşeviklərdən azad olunmasından ibarət olduğunu bildirmişdi. O demişdi: "Əgər bolşeviklər səhnədən getsələr, Rusiya xilas olacaq". Əli Mərdan bəyin öz hökuməti və ordusu olan üç müstəqil Cənubi Qafqaz respublikalarına münasibətlə bağlı sualına cavab olaraq P.Milyukov bildirmişdi ki, mən başa düşürəm, sizin xalqlar özlərini xilas etməli idilər, bu baxımdan sizin respublikaların yaranması təbiidir və siz belə də addım atmalı idiniz. Lakin digər tərəfdən, sizin respublikaların yaranmasında almanların əlinin olduğunu, son dövrlərdə onların Şərq siyasətinin rolu olduğunu da inkar etmək mümkün deyildir. P.Milyukovun bu eyhamına cavab olaraq Ə.M.Topçubaşov bildirmişdi ki, xalqlar artıq öz talelərini həll ediblər, o cümlədən biz azərbaycanlılar da.[645] İlk danışıqlardan P.N.Milyukovun və S.D.Sazonovun Paris Sülh konfransında "vahid və bölünməz Rusiya" uğrunda mübarizə aparacaqları göz qabağında idi. Ə.M.Topçubaşov Azərbaycanın Rusiyanın əsarətindən qurtarıb müstəqil respublika yaratdığını və Rusiyanın daxili işlərinə qarışmayacağını əsaslandıraraq bildirdi: "Biz azərbaycanlılar rusların düşməni deyilik və onlara öz ölkələrində istədikləri kimi, bolşevizm, sosializm, ya da lap elə

---

[642] İsveçin İstanbulda olan nümayəndəsi S.Anşarsveldin Azərbaycan Respublikası Sülh nümayəndəliyinin başçısı Ə.M.Topçubaşova məktubu. 12.01.1919.// ARDA, f.970, s.1, i. 37, v.1

[643] İstanbulda olan Britaniya Ali Komissarı R.Vebbin Azərbaycan Respublikası Sülh nümayəndəliyinin başçısı Ə.M. Topçubaşova məktubu. Yanvar, 1919.// ARDA, f.970, s.1, i. 139, v.2

[644] Дипломатический словарь. Том III, M, 1986, c.6-7

[645] Azərbaycan Respublikasının fövqəladə səfiri və səlahiyyətli naziri Ə.M.Topçubaşovun Rusiya müvəqqəti hökumətinin keçmiş xarici işlər naziri P.N.Milyukovla söhbəti. 07.12.1918.// ARDA, f.894, s. 10, i. 151.v.34



downloaded from KitabYurdu.az

monarxizm əsasında öz həyatlarını sahmana salmağı arzu edirik. Ancaq mən bildirirəm ki, azərbaycanlılar və təkcə azərbaycanlılar deyil, həm də Terek və Kuban kazakları istisna olmaqla, yerdə qalan Qafqazlılar daha ruslarla birgə yaşaya bilməzlər. Əvvələn, baxın, sizdə nə qədər yeni dövlət qurumları meydana çıxıb: Don, Kuban, Şimali Qafqaz respublikası, Dağıstan. Deməli fiziki, əlaqələr qırılıb. Mənəvi əlaqələr, həyat tərzi və xüsusən də sosial siyasi dünyagörüş fərqlilikləri daha böyük əhəmiyyət kəsb edir. Bu cəhətdən ciddi problemlər, son dərəcə böyük uyğunsuzluqlar olub və indi də mövcuddur. Əvvəlki rejim bunu nəzərə almamışdı və Allahın bizdən anadangəlmə istedad və əməyə məhəbbət hissini əsirgəmədiyi bir vaxtda bizi geridə qalmış bədbəxt xalqa döndərən rusların məşum səhvi də bunda idi. Əgər siz yenə də bizim Rusiyanın əsarətində olmağımızı arzu edirsinizsə, onda deməli, taleyimiz belədir ki, bədbəxt qalaq, çünki biz, bizim xalq xalis rus vilayətlərində kök atmış, bütün Mərkəzi Rusiyanı çulğamış bolşevizm formasını alan ifrat sosializmdən son dərəcə uzaqdır. Bizi təzədən belə bir ölkəyə birləşdirsələr, biz həmişə geridə qalacaq və öz geriliyimizlə sizin ümumi hərəkətinizə maneçilik törədəcək, eyni zamanda da mənasız ömür sürməyə düçar olacağıq. Azərbaycanlılar 5-6 milyondurlar, Vilsonun prinsiplərinə əsasən, müstəqil yaşamaq üçün onların əlində əsasları var və biz həmişə müstəqil yaşamağa can atacağıq, yaxın qonşularımızla birgə həyata cəhd göstərəcəyik."[646] Ə.M.Topçubaşovun ayrılmaq, müstəqil olmaq və zərurət olarsa, qonşu xalqlarla birlikdə Qafqaz konfederasiyası yaratmaqla bağlı fikirləri ilə tanış olduqdan sonra S.D.Sazonov bildirdi: "Deməli, Qafqazda tatarlar (azərbaycanlılar - C.H.), yəni müsəlmanlar artıq Rusiyanı dəfn ediblər və onun üzərinə böyük xaç qoyublar." Ə.M.Topçubaşov etiraz edərək bildirdi ki, əksinə, biz azərbaycanlılar öz yolumuzla getməyi, öz gücümüz və imkanlarımızla yaşamağı arzulamaqla, xalis rus əhalisindən və əyalətlərindən ibarət olacaq gələcək Rusiyanın işini asanlaşdırmış oluruq. Belə Rusiyaya biz həmişə xoşbəxtlik arzulayacağıq. Daha sonra biz azərbaycanlılar öz qonşularımız olan gürcü və ermənilərlə dinc şəraitdə birgə yaşamağı arzulayırıq və İsveçrə ittifaqına bənzər vahid federativ respublika yaratmaq niyyətindəyik. Böyük siyasi təcrübəsi olan Sergey Sazonov haqlı olaraq dedi: "Çətin ki, bu mümkün olsun. Qafqaz xalqları arasında çox böyük fərqliliklər vardır. Xüsusilə ermənilər sizinlə birgə addımlamazlar. Axı Qafqazda nə qədər tatarlarla (azərbaycanlılarla - C.H), yəni, müsəlmanlarla qanlı toqquşmalar olub. Ayrı-ayrı xalqlar arasında gedən müharibələri unutmaq mümkündür, lakin qırğını bilmirəm, sizin Bakıda ermənilər tatarları (azərbaycanlıları - C.H) qırdılar, sentyabrda isə əksinə. Əvvəllər də dəfələrlə qırğın olub... Bir də mən sizə deməliyəm ki, Qafqaz müsəlmanlarının Rusiyaya meyli və Rusiyadan uzaqlaşmaq istəmədikləri haqqında tez-tez eşitməli oluram. Onun bu sözləri ilə bağlı Əli Mərdan bəy bildirdi ki, hər şeydən əvvəl biz Rusiyadan deyil, Rusiya özü bizdən

---

[646] Azərbaycan Respublikası Sülh nümayəndəliyinin başçısı Ə.M.Topçubaşovun Rusiya imperiyasının keçmiş xarici işlər naziri S.D.Sazonovla söhbəti. 06.01.1919. // ARDA, f.894, s.10. i.151,v.42



downloaded from KitabYurdu.az

uzaqlaşdı.[647] Danışıqlar zamanı S.D.Sazonov Rusiyanın bərpa ediləcəyini, xalqların hüquqlarının tanınacağını və eyni zamanda "yaxşı idarə olunan Rusiya olacağını" vəd edirdi. Bolşevizmə münasibətdə o bildirdi: "Bu heç ideya da deyil, öz tamahkar məqsədləri üçün özgənin malını qənimət bilmək və dağıtmaqdır. Bir ovuc ağılsız və satqın Rusiyanı zəbt edə bilməz". Dağılmış Rusiya imperiyasına daxil olan xalqlara münasibətdə S.D.Sazonovun mövqeyi onilliklər boyunca formalaşmış velikorus şovinizminin açıq təzahürü idi. Maraqlıdır ki, köhnə rus diplomatı Avstriya-Macarıstan və Osmanlı imperiyasına daxil olan xalqlara müstəqillik verilməsinə tərəfdar olduğu halda, bolşevizmdən yaxa qurtardıqdan sonra, Polşa istisna olmaqla yenidən Rusiya imperiyasının bərpa olunacağını bildirirdi. Bu baxımdan Ə.M.Topçubaşovla S.D.Sazonovun danışıqlarının stenoqramı çox maraqlıdır və ondan bir parçaya diqqət yetirək: "Sazonov. Mən Rusiyanın günahını, təkcə Polşaya münasibətdə görürəm. Biz ona qarşı ədalətsiz olmuşuq və bu tarixi səhvi düzəltmək bizim üzərimizə düşür. Mən həmişə bu fikrin üstündə durmuşam və bu məsələnin ucbatından öz vəzifəmi qurban vermişəm. Qalan xalqların qarşısında isə bizim Rusiyanın vicdanı təmizdir və elə ki, bolşeviklərdən yaxa qurtardıq, biz Rusiyadan ayrılmaq istəyən xalqlara deyəcəyik: buyurun, geriyə yenə bizə /şəhadət barmağı ilə işarə edir/ qayıdın.

Topçubaşov. Neynəyək, deməli, yüz il bundan qabaqkı kimi kazaklarınızı üstümüzə göndərəcəksiniz, biz öyrənmişik.

Sazonov. /Sözünü kəsərək/ Bilmirəm necə olacaq? Ancaq Rusiyanın Qafqazdan ayrılmasına hər şeydən qabaq müttəfiqlər çətin ki, razılaşsınlar. İnanın ki, onlar bunu sizə, gürcülərə, ermənilərə deyəcəklər. Onların Rusiya və bütün Qafqaz xalqlarının mənafeləri ilə üst-üstə düşən maraqları bundadır.

Topçubaşov. Siz belə düşünürsünüz?

Sazonov. Mən əminəm ki, Qafqaz xalqları müstəqil yaşamaq iqtidarında deyillər. Buyurun, deyin görüm bu səfeh, qoyun gürcülər öz dövlətlərini yarada bilərlərmi? Onların cürbəcür rəhbərləri - Çxeidze, Çxenkeli, yaxud bu yaramaz Sereteli Rusiyanı dağıtmağa kömək etsələr də, nə isə bir şey yaratmağa qadir deyillər. Ermənilər nisbətən maraqlı xalqdır. Sizin azərbaycanlılar isə Rusiyadan ayrılmaq istəmirlər, baxmayaraq ki, siz bunun əksini iddia edirsiniz. O ki, qaldı Ukraynaya, onun yaranması Rusiyanın cənubunda ayrıca dövlət yaratmaq yolunda çoxdan bəri əlləşib-vuruşan alman-avstriyalıların işləridir...

Topçubaşov. Elə isə, bəs sizcə, hansı xalqlar müstəqil yaşamaq iqtidarındadır?

Sazonov. Bax, serblər, çexlər. Bu müharibədə serblər necə gözəl rol oynadılar? Bax, mən bunu başa düşürəm.

Topçubaşov. Hansı rol?

---

647 Azərbaycan Respublikası Sülh nümayəndəliyinin başçısı Ə.M.Topçubaşovun Rusiya imperiyasının keçmiş xarici işlər naziri S.D.Sazonovla söhbəti. 05.01.1919.// ARDA, f.894, s.10. i.151, v.39-41



downloaded from KitabYurdu.az

Sazonov. /Bu suala cavab verməyərək/ Bəs çexlər? Görürsünüzmü onlar necə qətiyyət və inad göstərdilər? Ümumiyyətlə, keçmiş Avstriya-Macarıstan xalqları. Və elə bu Türkiyə - axı bu ölü ölkədir, ölü xalqdır, düşünürəm ki, türklərin özləri də bunu dərk ediblər.......................................

Topçubaşov. Əksinə, türklər özlərini məhz indi yaşamağa qabil xalq hesab edirlər və bunun üçün onların əsasları var. Ancaq məni Qafqazla əlaqədar baxışlarınız maraqlandırır. Bax, siz gürcülər barədə bu cür fikir söyləməyi özünüzə rəva gördünüz. Siz Parisə gedirsiniz və orada, əlbəttə, Gürcüstanın və Ermənistanın nümayəndələrini görəcəksiniz...

Sazonov. Onları görmək mənim nəyimə gərəkdir? Ümidvaram ki, bu mənə lazım olmayacaq. Bundan başqa, mən, hətta, düşünürəm və əminəm ki, onlardan heç birini Sülh konqresinə buraxmayacaqlar.

Topçubaşov. Yəni başqa sözlə desək, belə çıxır ki, Qafqaz xalqlarından heç birinin müstəqilliyi tanınmayacaq. Bəs onda Vilson prinsipləri necə olsun?

Sazonov. Vilson prinsipləri yalnız ideologiyadır. Axı o, təzə bir şey demir. O, yalnız təcrübədə və ümumiyyətlə, həyatda çətin tətbiq oluna bilən nəzəri müddəaları sistem halında cəmləşdirib. İnanın ki, həlledici rolu bu prinsiplər oynamayacaqdır.[648]

Bir gün sonra, yanvar ayının 7-də Ə.M.Topçubaşov hələ Tiflisdən tanıdığı Rusiya nümayəndəliyinin üzvü V.İ.Savitski ilə də təxminən bu məzmunda söhbət keçirdi. V.İ.Savitskinin atası İ.K.Savitski uzun müddət Tiflis dairə məhkəməsi sədrinin müavini işləmişdi. İndi V.Savitski A.Denikinin mandatı ilə iqtisadi məsələlər üzrə xüsusi müvəkkil kimi Parisə gedirdi. S.D.Sazonov kimi, o da iddia edirdi ki, Sülh konfransında mədəni, iqtisadi, coğrafi və başqa səciyyəvi çoxlu mülahizələrə görə yeni yaranmış respublikaların müstəqilliyi tanınmayacaqdır. V.İ.Savitski Antantanın yeni dövlətlərə münasibətini xeyli dərəcədə rus borcları ilə əlaqələndirirdi ki, sonralar rus diplomatları, doğrudan da, bu amillə Antanta dövlətlərini qorxuda bilmişdilər. O deyirdi: "Rusiyanın 65-68 milyardlıq borcunun taleyi onları qorxutmaya bilməz. Onda onlar öz pullarını haradan, necə qaytaracaqlar? Ona görə də onlara vahid Rusiyanın olması sərf edəcək, bir-birindən yoxsul onlarca yeni dövlətdənsə, bir borcludan borcu geri qaytarmaq daha asandır."[649] Bu dövrdən başlayaraq beynəlxalq miqyasda "vahid və bölünməz Rusiya" iddiasında olan ağqvardiyaçı hökumətlərin diplomatlarına qarşı Azərbaycan və digər yeni yaranmış respublikaların Parisə gedən nümayəndələrini çətin mübarizə gözləyirdi.

Yanvar ayında Ə.M.Topçubaşovun İranın xarici işlər naziri ilə keçirdiyi görüşün mühüm əhəmiyyəti oldu. 1919-ci ilin yanvar ayının 9-da o, İranın xarici

---

[648] Yenə orada, v.42-44

[649] Azərbaycan Respublikası Sülh nümayəndəliyinin başçısı Ə.M.Topçubaşovun Könüllü Ordunun Parisə gedən nümayəndəsi V.İ.Savitski ilə söhbəti. 07.01.1919.// ARDA, f.894, s.10, i. 151.v.44



downloaded from KitabYurdu.az

işlər naziri Müşavirülməmalik Əliqulu xan Ənsari ilə danışıqlar apardı. Əvvəllər qeyd olunduğu kimi, İranın Azərbaycan Respublikasının yaranmasına münasibəti o qədər də müsbət deyildi. İstanbuldakı yanvar danışıqları zamanı İran tərəfinin düşmənçilik mövqeyini bir qədər yumşaltmaq mümkün oldu. İran xarici işlər naziri ilə görüş barəsində Ə.M.Topçubaşov Azərbaycan Nazirlər Şurasının sədrinə yazırdı: "İranın nümayəndə heyəti, o cümlədən xarici işlər naziri Müşavirülməmaliklə görüş məsələsinin müsbət həlli xəbərini alanda bir qədər tərəddüd etdim. Salonda /diplomatik nümayəndələrin toplandığı Pera Palas mehmanxanasının salonu nəzərdə tutulur - C.H./ özlərini hamıdan təcrid etmələri, mənim göndərdiyim M.Mirzəyevə verilən cavab /nazirin hüquqşünaslıq məktəbində təhsil alan oğlunun Mirzəyevə dediyi "biz türkcə danışmırıq" sözləri/, İran hökumətindən ümumi narazılıq, eləcə də İranın diplomatik nümayəndəsi ilə olan söhbətim, bütün bunlar mənə bir qədər xoşagəlməz anlaşılmazlıq xofu aşılayaraq yolumu kəsirdi... Təsadüfən üçüncü gün İran nazirinin yanına getməyə hazırlaşan təbrizli Seyid Həsən söz verdi ki, elə həmin gün mənə bir cavab deyəcək, amma vədinə xilaf çıxdı. Bununla belə, mən bu münasibəti qeyri-normal hesab etdiyimdən bu gün başına qabaqcadan Qafqazlı papağı geydirdiyim katibim Rəhim bəylə öz tanınma kartımı İranın xarici işlər nazirinə göndərdim. Rəhim bəy çox tezliklə qayıdıb gəldi və bildirdi ki, Müşavirülməmalik yanına gəlməyimi xahiş edir. Dərhal durub getdim və əslən, deyəsən, İran Azərbaycanından olan şair Hüseyn Daneş bəyi də onun yanında gördüm. Nazir məni çox mehriban qarşıladı... Özümü təqdim eləyib qurtarmağa macal tapmamış o, bütün çöhrəsi ilə gülümsünərək dedi: axı biz, sizinlə köhnə tanışlarıq, keçmiş diplomatik nümayəndə Müşirilmülklə birlikdə Bakıda, sizin evinizdə qonağınız olmuşuq. O zaman sizin evinizə yığışan müsəlman ziyalılarının ürəkaçan mühiti indi də mənim yadımdadır"[650]

İranın Azərbaycana iddiasının əsassızlığı ilə bağlı hələ İstanbula gələrkən Bakıda iki gün qalmış İran xarici işlər naziri ilə Nəsib bəy Usubbəyov, Əhməd bəy Ağayev arasında ciddi mübahisələr olmuşdu. Əliqulu xan belə hesab edirdi ki, guya Azərbaycan İran şahlarının hakimiyyətinə tabe olmuşdur. Əhməd bəy Ağayev isə tarixi dəlillərlə Azərbaycan xanlıqlarının yüz illərlə müstəqil yaşadığını sübut etmişdi. Azərbaycan hökumətinə belə bir məlumat daxil olmuşdu ki, İran hökuməti Sülh konqresi üçün hazırladığı proqramın 8-ci bəndində Gülüstan müqaviləsinə qədərki sərhədlərin bərpa edilməsi tələbini irəli sürmüşdür. Bunu dəqiqləşdirmək məqsədi ilə xarici işlər naziri F.X.Xoyski İranın Bakıdakı konsuluna məktubla müraciət edib belə bir tələb olub-olmadığını soruşmuşdu. Bununla bağlı Fətəli xan yazmışdı ki, əgər belə bir tələb yoxsa, onda konsul bunu qəzet vasitəsi ilə təkzib etsin. Azərbaycan Xarici İşlər Nazirliyinin məktubu haqqında konsul yolüstü Bakıda olan Əliqulu xan Ənsariyə xəbər verdikdə İran xarici işlər naziri belə bir

[650] Azərbaycan Respublikasının Sülh nümayəndəliyinin başçısı Ə.M.Topçubaşovun İranın xarici işlər naziri Əliqulu xan Ənsari ilə söhbəti. 09.01.1919.// ARDA, f.894, s.10. i.151, v.50-51



downloaded from KitabYurdu.az

tələbin olmadığını bildirmiş və konsula göstəriş vermişdi ki, bunu təkzib etsin.[651] Lakin sonralar aydın oldu ki, belə bir tələb İranın Paris Sülh konfransına təqdim etdiyi memorandumda vardır.

Danışıqlar zamanı Ə.M.Topçubaşov İran hökumətinin Azərbaycana münasibətinin yaxşı olmamasının əsassız olduğunu bildirdi. O qeyd edirdi ki, "bizim istiqlaliyyətimiz, təkcə özümüz üçün deyil, İrana da fayda gətirəcək, xüsusən də məhz indiki vaxtda. Buna görə də güman edirəm ki, Sülh konqresində sizin nümayəndə heyətiniz, xüsusilə də siz özünüz bizim istiqlaliyyətimizə tərəfdar çıxacaqsınız". İranın xarici işlər naziri Azərbaycanın istiqlaliyyətinə tərəfdar olduğunu və bu işdə ona yardım edəcəyinə vəd verdi. Hətta o, Əli Mərdan bəyə bildirdi ki, "siz, təkcə Qafqazda deyil, bizdə də məşhur adamsınız. Yadınızdadırmı, İran hökuməti məhkəmənin işinin təşkili üçün sizi Tehrana dəvət etmişdi. Siz həmişə müsəlmanların mənafeyini müdafiə edirdiniz və mən də müsəlmanların mənafeyi naminə sizi əmin etmək istəyirəm ki, biz iranlılar sizin Azərbaycana ürəkdən səadət arzulayırıq və onun istiqlaliyyətinə sizinlə birlikdə şad olacağıq."[652] Yanvar ayının 11-də və 15-də Əli Mərdan bəy İranın xarici işlər naziri ilə daha iki görüş keçirdi. Əliqulu xan bir daha Qafqaz respublikalarının, ilk növbədə isə Azərbaycanın İran tərəfindən tanındığını və bu respublikaların İran üçün gələcək Rusiya əleyhinə müəyyən təminatlar verə biləcəyini söylədi. Azərbaycanın dövlət başçısı bu sözlərdən məmnun olduğunu bildirərək əlavə etdi ki, bir qədər əvvəl İran nümayəndəsi Azərbaycan dövlətinin İran Azərbaycanını İrandan qoparmaq istəyən türklərin diktəsi ilə yarandığını bildirmişdi. Əliqulu xan bu anlaşılmazlığın "Azərbaycan" adı ilə bağlı olduğunu bildirərək dedi: "Mənim fikrimcə, bu məsələdə sizin tərəfinizdən səhvə yol verilib. Axı indiyə qədər mərkəzi Təbriz olmaqla bizim ərazilər Azərbaycan adlanıb. Ancaq məsələ bunda deyil. Bəs siz öz müstəqilliyinizi necə saxlayacaqsınız? Axı sizin qonşularınız olan ermənilər və gürcülər sizə düşmən kimi baxır. Antantaçılar da çətin ki, Türkiyəyə görə sizə rəğbət bəsləsinlər." Əliqulu xan gürcü və xüsusilə ermənilərlə birgə konfederasiya yaradılmasının mümkünlüyünə şübhə ilə yanaşdığını bildirdi və dedi ki, ümumiyyətlə, ermənilərlə yola getmək sizin üçün çətin olacaq. İndi onların güclü müdafiəsi var və sizinlə federasiya yaratmağa razı olmayacaqlar, indi onlar öz çarlıqlarını bərpa etməyə can atırlar. Əli Mərdan bəy bildirdi ki, onlar can ata bilərlər, lakin çətin ki, bu onlara nəsib olsun. Söhbət zamanı İran xarici işlər naziri "tarixi hüquqlara" istinadən ölkəsinin də Azərbaycana iddialı olduğuna eyham vurdu. Ə.M.Topçubaşov bu halda İranın "tarixi hüquqlarına" qarşı daha əsaslı xarakter daşıyan digər tarixi hüquqların ortaya qoyulacağını bildirdi. Danışıqların sonunda İran naziri bəzi həqiqətləri dilə gətirməli oldu. O dedi: "İndi gərək siz və biz zamanın ağırlığını unutmayaq, xüsusilə biz müsəlmanlar gərək bir yerdə olaq. Doğrudanmı, hələ indi də biz anlamayacağıq ki, bütün zərbələr bizə dəyəcək.

651 Yenə orada, v.59.
652 Yenə orada, v.51.



downloaded from KitabYurdu.az

Baxın Türkiyə ilə nə edirlər, çətin ki, bu dövlət bir də dirçəlsin. Deməli, bütün ümidlər itir. Əgər indi də bizim həmrəyliyimiz olmasa, demək biz hamımız məhvə məhkumuq. Xüsusilə, Qafqazda hər şeydən əvvəl ruslar, sonra isə gürcülər və ermənilər sizi, sonra isə bizi yeyəcəklər. Düşmənçilik etsələr də, hər halda xristiandılar. Ona görə bizim aramızda gərək etimad olsun. Lakin hələki bu yoxdur.[653] Yanvar ayının 16-da isə Ə.M.Topçubaşov İstanbula gəlmiş Ermənistanın Paris Sülh konfransına yollanan nümayəndə heyətinin başçısı erməni milli şurasının sədri A.Ağaronyanı qəbul etdi. A.Ağaronyan son vaxtlarda Cənubi Qafqazda baş vermiş hadisələr, xüsusilə erməni-gürcü müharibəsi, Azərbaycan-Ermənistan münasibətləri haqqında Ə.M.Topçubaşova geniş məlumat verdi və gürcülərlə dolanmağın mümkün olmadığını bildirdi. O, Lori üstündə başlanmış müharibədən sonra ermənilərin Tiflisdə təqib olunduğunu və ümumiyyətlə, bütün hadisələrin Tiflis üstündə başladığını vurğuladı. A.Ağaronyan izah etdi ki, gürcülər ermənilərin Tiflisə iddialı olmasından şübhələnirdilər. Lakin bizim Tiflisə heç bir iddiamız yoxdur. Biz bu şəhəri gürcülərə buraxırıq. Mən Tiflisdə də dedim, biz qərara aldıq ki, hər şeyi Tiflisdə qoyub bütün erməniləri oradan çıxaraq, onda Tiflis gürcü kəndinə çevriləcək və məhv olacaq. Azərbaycanla münasibətlərə gəldikdə isə Ağaronyan dedi ki, hələ bir çox məsələlər həll olunmayıb, ermənilər, xüsusilə tanınmış adamlar Bakıya gedə bilmirlər. Zaqafqaziya dəmir yolunun Azərbaycana aid olan hissəsində ermənilərlə müsəlmanlar arasında tək-tük toqquşma halları baş verir. A.Ağaronyan bildirdi ki, sizin hökumətin başında Fətəli xan Xoyski durduqca ermənilərin Azərbaycana münasibəti qeyri-normal olacaqdır. Fətəli xanı ermənilər, sentyabrda - Bakı alınan zaman çoxlu sayda ermənilərin öldürülməsinin və zorakılığın günahkarı hesab edirlər. Bizimkilər fikirləşirlər ki, Fətəli xan buna yol verməyə bilərdi. Bununla belə, A.Ağaronyan münasibətlərin tənzim olunmasına tərəfdar olduğunu bildirdi. Qafqaz federasiyası məsələsinə gəldikdə isə o, indi bunun mürəkkəb məsələ olduğunu dedi və əlavə etdi ki, bu məsələ ilə bağlı onun məktubuna A.Çxenkeli cavab verib ki, bizim ayrı-ayrı respublikalar möhkəmlənmədiyi halda, federasiya haqqında düşünmək olmaz. Ə.M.Topçubaşov məsələnin belə qoyuluşundan və Qafqaz xalqlarının qarşıdurması haqqında aldığı məlumatlardan təəssüfləndiyini bildirdi.[654]

Yanvar ayının 20-də Azərbaycan nümayəndə heyəti İstanbula gəldi. M.H.Hacınskinin müvəqqəti sədrliyi başa çatdı. O, Parisdə keçiriləcək Sülh konfransında Azərbaycan nümayəndə heyətinə rəhbərlik etmək haqqında Azərbaycan hökumətinin qərarını və bu məsələ ilə bağlı digər mühüm sənədləri Ə.M.Topçubaşova təqdim etdi. Yanvar ayının 22-də Ə.M.Topçubaşovun

---

[653] Azərbaycan Respublikasının Sülh nümayəndəliyinin başçısı Ə.M.Topçubaşovun İranın xarici işlər naziri Əliqulu xan Ənsari ilə söhbəti. 11-15.01.1919.// ARDA, f.894, s.10, i.151, v.54-55, 58-59

[654] Azərbaycan Respublikasının Sülh nümayəndəliyinin başçısı Ə.M.Topçubaşovun erməni milli şurasının sədri və Paris Sülh konfransında erməni nümayəndəliyinin başçısı A.Ağaronyanla söhbəti. 16.01.19197/ ARDA, f.894, s.10, i.151, v.60-62



downloaded from KitabYurdu.az

mənzilində Azərbaycan nümayəndə heyətinin ilk iclası keçirildi və bir sıra təşkilati məsələlərə baxıldı.[655] İlk növbədə nümayəndə heyətinə bəzi əməkdaşlar əlavə edildi və texniki işçilər aşağıdakı tərkibdə təsdiq edildi: Ə.M.Topçubaşov nümayəndə heyətinin sədri, M.Hacınski, Ə.Ağayev, Ə.Şeyxülislamov nümayəndəliyin üzvləri, M.Məhərrəmov, M.Mehdiyev, C.Hacıbəyli məsləhətçilər, Ə.Hüseynzadə, V.Marçevski əməkdaşlar, Səfvət bəy Məlikov və Ələkbər bəy Topçubaşov katiblər, A.Qafarov fransız dili, Q.Qafarova ingilis dili, H.Məmmədov fransız və türk dilləri tərcüməçiləri və nəhayət, Rəşid bəy Topçubaşov sədrin şəxsi katibi kimi təsdiq olundular.

İclasda iş bölgüsü üzrə üç bölmə yaradıldı. Bunlar siyasi və milli, iqtisadi kommersiya, təbliğat və məlumat məsələləri ilə məşğul olan bölmələrdən ibarət idi. Siyasi və milli məsələlərlə məşğul olan bölməyə Ə.M.Topçubaşov, Ə.Ağayev, Ə.Hüseynzadə, M.Məhərrəmov, S.Məlikov və H.Məmmədov daxil oldular. İkinci iqtisadi kommersiya bölməsi M.Hacınski, V.Marçevski, Ə.Şeyxülislamov, M.Mehdiyev, Ə.Topçubaşov, A.Qafarovdan ibarət idi. Üçüncü bölmə isə Ə.M.Topçubaşov, Ə.Ağayev, C.Hacıbəyli, Q.Qafarova və Ə.Hüseynzadədən ibarət idi. Nümayəndə heyətinin hər bir üzvünün aydın fəaliyyət dairəsi müəyyən edildi. Ə.M.Topçubaşov nümayəndəliyin siyasi və milli məsələlərlə bağlı işlərinə rəhbərlik etməli, memorandum hazırlamalı idi. M.H.Hacınski iqtisadi və maliyyə məsələləri, Ə.Hüseynzadə tarixi-etnoqrafik və ədəbi materiallar hazırlanması, Ə.Şeyxülislamov statistika, sərhəd və xəritələr hazırlanması, M.Məhərrəmov xalq təsərrüfatı və əkinçilik, M.Mehdiyev ticarət və sənaye, Ə.Ağayev siyasi publisistika, C.Hacıbəyli məlumat məsələləri ilə məşğul olmalı idilər. S.Məlikov sədrə, V.Marçevski M.H.Hacınskiyə, Ə.Topçubaşov Ə. Hüseynzadəyə kömək etməli idi.[656] Bundan əlavə, nümayəndəliyin öz daxili işləri ilə bağlı vəzifə bölgüsü də keçirilmişdi. Ə.M.Topçubaşov nümayəndəliyin, bölmə və komissiyaların iclaslarını təyin etməli, bütün orqanların, xərclənən bütün vəsaitin üzərində nəzarət etməli idi. M.H.Hacınski sədrin müavini və xəzinədar idi. Ə.Hüseynzadə məsul katib və protokolların qısa məzmununun fransızca yazılmasına cavabdeh idi. M.Məhərrəmov protokolları ana dilində, Ə.Topçubaşov rus dilində yazmalı idilər, Ə.Şeyxülislamov nümayəndəliyin kitabxanasına baxmalı, M.Mehdiyev maliyyə hesabatlarına nəzarət, S.Məlikov isə dəftərxanaya rəhbərlik etməli idi.

İstanbulda olduğu ilk günlərdə Azərbaycan nümayəndələri təşkilatı məsələlərlə yanaşı, bir sıra mühüm sənədlər hazırladılar, fəaliyyət proqramı tərtib etdilər və qarşıda duran əsas məsələləri müəyyən etdilər. Sosial-iqtisadi həyat məsələlərinə dair hazırlanmış sənəddə siyasi vəziyyət və siyasi partiyalar, milli və dini məsələlər, mədəniyyət məsələləri öz əksini tapmışdı. Bütün bunlara

---

[655] А.Раевский. Мусаватское правительство на Версальской конференции. Донесения председателя Азербайджанской мусаватской делегации. Баку, 1930, с.25

[656] Paris Sülh konfransına gedən Azərbaycan nümayəndə heyətinin iclasının protokolu. 22.01.1919.// ARDA, f.970, s.l, i. 147, v.1-3



downloaded from KitabYurdu.az

baxmayaraq, yanvar ayının 27-də M.H.Hacınski qarşıdakı mübarizənin çətinliyini nəzərə alaraq F.X.Xoyskiyə yazdığı məktubda nümayəndə heyətinin tanınmış siyasi xadimlər hesabına qüvvətləndirilməsini və bir sıra mütəxəssislərin Bakıdan göndərilməsini xahiş edirdi. O yazırdı: "Fətəli xan, bir daha xahiş edirəm nümayəndəliyin gücləndirilməsi barədə fikirləşin... Demək olar ki, bütün xalqlar ora /Parisə - C.H./ böyük tərkibdə ən güclü adamları göndərirlər. Axı böyük mübarizə gözlənilir." Xüsusən Ə.Ağayevin xəstələnməsi və onun haqqında ermənilərin müttəfiqlərin mətbuatında qaldırdıqları kampaniya, habelə Ə.Hüseynzadənin Parisə buraxılmayacağı barədə yayılmış şayiələr vəziyyəti daha da ağırlaşdırırdı. Azərbaycan nümayəndə heyəti İstanbula gələn günün səhərisi fransız dilində çıxan qəzetlərin çoxu və xüsusən, ermənilərin fransız dilində nəşr etdiyi "Renaissanse" qəzeti Ə.Ağayevi müttəfiqlərə qarşı yazmış və türk parlamentində Antantaya qarşı mübarizə aparmış fəal jurnalist kimi təqdim edirdi. Ona qarşı başlanmış güclü təbliğat kampaniyası o dəqiqə müttəfiqlərin İstanbulda olan nümayəndələrinin diqqətini cəlb etdi. Ə.M.Topçubaşovun və M.H.Hacınskinin ciddi cəhdləri, Ə.Ağayevin Qarabağdan olması və Azərbaycan Parlamentinin nümayəndə heyətində olmasının vacibliyi, habelə bilavasitə müttəfiqlərin Bakıda olan silahlı qüvvələrinin Baş komandanı general V.Tomsondan zəmanət məktubu barədə gətirilən dəlillər şübhələri dağıda bilmədi. İstanbulda olan ingilis və fransız nümayəndələri açıq şəkildə bildirdilər: "Azərbaycan nümayəndə heyəti Ə.Ağayevi özü ilə götürməməlidir. Biz məsləhət görmürük, o, arzuolunmaz adamdır, türk jurnalisti və Türkiyə Parlamentinin deputatı kimi bizim əleyhimizə yazmış və danışmışdır." Yanvar ayının 27-də M.H.Hacınski Bakıya yazırdı ki, burada Ə.Ağayevə qarşı ciddi şəkildə kampaniya başlanmışdır, ingilislər onun Parisə getməsinin əleyhinədirlər. Bu və ya digər formada artıq aydındır ki, o gedə bilməyəcək.[657] Ə.M.Topçubaşov mart ayının əvvəllərində Bakıya göndərdiyi ilk geniş hesabatda qeyd edirdi ki, "İttihad və Tərəqqi" partiyasının, xüsusilə, Tələt-Ənvər kabinetinin bütün günahlarını Əhməd bəy Ağayevin adına yazırlar. Bununla kifayətlənməyən "Renaissanse" qəzeti bütün Azərbaycan və Gürcüstan nümayəndə heyətini "İndiserable" - yəni arzuolunmayan heyət adlandırdı.[658]

Azərbaycana qarşı Avropa və Amerikada ermənilərin apardığı təbliğat kampaniyasının gedişində, ya "Azərbaycan" adlı dövlətin mövcud olmadığı əsaslandırılır, ya da Azərbaycan Antantaya qarşı vuruşmuş məğlub Türkiyənin ayağına yazılırdı və bütün vasitələrlə müttəfiqlərin rəhbər xadimlərinə Azərbaycan haqqında qərəzli məlumatlar verilirdi. İlkin addım kimi onlar Ə.Ağayevin "İttihad və Tərəqqi" komitəsinin üzvləri ilə birlikdə həbs edilib, ingilislərin nəzarəti altında olan Malta adasına sürgün edilməsinə nail oldular. T.Svyatoçevski haqlı olaraq bu

---

[657] Yenə orada, v.3

[658] А.Раевский. Мусаватское правительство на Версальской конферунации, с.26



downloaded from KitabYurdu.az

hadisəni müttəfiqlərin Azərbaycan nümayəndə heyətinə birinci hörmətsizliyi kimi qiymətləndirir.[659]

İstanbulda olduğu dövrlərdə Azərbaycan nümayəndə heyəti ehtiyac və çətinliklər içərisində yaşayan Ə.Ağayevin ailəsinə hər ay 150 türk lirəsi həcmində maddi yardım göstərirdi. İstanbulda Azərbaycan nümayəndə heyətinə daxil edilmiş Əli bəy Hüseynzadə də Əhməd bəy Ağayevlə birlikdə həbs edilmişdi.[660] Lakin onu həbsdən azad etmək mümkün olsa da, Parisə getməyə Ə.Hüseynzadəyə viza verilmədi. Ermənilər, təkcə azərbaycanlılara qarşı deyil, eyni zamanda gürcülərə və Dağlılar İttifaqının nümayəndələrinə qarşı da mübarizə aparırdılar. "Renaissanse" qəzeti Parisə gedən Çxeidze və Sereteli haqqında yazırdı ki, onlar Fransaya ona görə gedirlər ki, Petroqrad Sovetinin nümayəndələri kimi bolşevizmi sosializm ruhunda Avropada təbliğ etsinlər.[661] Ermənilərin və yeni yaradılmış ağ rus hökumətlərini təmsil edən nümayəndələrin təbliğatı öz işini gördü. Bu iki qüvvənin təsiri altına düşmüş Fransa hökuməti Azərbaycan nümayəndələrini Parisə buraxmamaq üçün tez-tez müxtəlif bəhanələrə əl atırdı və nəticədə Azərbaycan nümayəndələri üç ay İstanbulda gözləməli oldu.

Paris Sülh konfransı 1919-cu ilin yanvar ayının 18-də Versal sarayında təntənəli şəkildə açıldı. Konfransa mindən artıq nümayəndə gəlmişdi. Lakin işə operativ xarakter verməkdən ötrü beş böyük dövlətin hər birindən beş həlledici səsə malik nümayəndəlik müəyyən edilmişdi. 150-dən artıq jumalist konfransın işini işıqlandırmaq üçün qeydə alınmışdı.

Konfransın işini Fransanın prezidenti R.Puankare qısa təbrik nitqi ilə açdı və ölkənin baş naziri Jorj Klemanso Sülh konfransının prezidenti seçildi. Əvvəlcədən əldə edilmiş razılaşmaya görə Robert Lansinq /ABŞ/, Devid Lloyd Corc /Böyük Britaniya/, Orlando /İtaliya/ və Sayandzi /Yaponiya/ konfransın vitse-prezidentləri seçildilər və Jorj Klemanso, Devid Lloyd Corc və Vudro Vilsondan ibarət "böyük üçlük" yaradıldı. İlk vaxtlarda Vilsonun "14 maddəsi" problemlərin müzakirəsi üçün əsas kimi götürüldü. Konfransın işçi orqanında Onlar Şurası həlledici əhəmiyyətə malik idi. Bura ABŞ-ın prezidenti V.Vilson və Dövlət katibi R.Lansinq, Böyük Britaniyanın Baş naziri Lloyd Corc və xarici işlər naziri Balfur, müvafiq olaraq Fransadan Klemanso və Pişon, İtaliyadan Orlando və Sonnino, Yaponiyadan Makino və Şinda daxil idilər.

Konfransın gündəliyində çoxlu məsələlər olmasına baxmayaraq, "rus məsələsi" diqqət mərkəzində olan məsələlərdən biri idi. Rusiyanın konfransa dəvət edilib - edilməməsi siyasi müzakirələrə hələ üç ay əvvəl 1918-ci ilin noyabrında daxil olmuşdu. 1918-ci ilin dekabrında Klemansoya göndərdiyi notada Lloyd Corc Sovet Rusiyasının konfransa buraxılmasına tərəfdar olduğunu bildirmişdi.

[659] T.Swietochowski. Russian Azerbaijan, p. 154
[660] M.H.Hacınskinin Nazirlər Şurasının sədri və XARİCİ İŞLƏR NAZİRİ F.X.Xoyskiyə məktubu. 27.01.1919.// ARDA, f.894, s.10, i.66, v.9
[661] А.Раевский.Мусаватское правительство на Версальской конференции, с.26



downloaded from KitabYurdu.az

Müttəfiqlərarası müşavirədə Balfur, lord Kerzon və Klemanso bunun əleyhinə oldular. Lakin Lloyd Corc bildirdi ki, Rusiya Avropa ərazisinin üçdə iki, Asiyanın isə böyük bir hissəsini əhatə edir. 200 milyon nəfər əhaliyə aid olan məsələləri onları dinləmədən həll etmək olmaz. Bolşeviklər əhalinin böyük bir hissəsini öz ardlarınca aparırlar. Heç şübhəsiz ki, bu xoşagələn fakt deyildir, lakin xoşagəlmədiyi üçün hər hansı faktı inkar etmək olmaz.[662] Lloyd Corc Sovet Rusiyası ilə birlikdə ağqvardiyaçı hökumətlərin və yeni yaranmış respublikaların da konfransa dəvət edilməsinə tərəfdar idi.[663] J.Klemanso müzakirələrin gedişində bildirdi ki, indi bərqərar edilməsi olan sülhün Rusiyaya heç bir dəxli yoxdur. Yanvar ayının 12-də Onlar Şurasının iclasında Fransanın xarici işlər naziri Pişonun təklifi üzrə qərar qəbul edildi ki, Rusiya rəsmi şəkildə konfransa dəvət edilməsin. Lakin Sazonov, Lvov, Milyukov və digər şəxslər öz fikirlərini bildirmək və bəzi məsləhətlər vermək üçün konfransın işinə buraxılsınlar...

Yanvar ayının 22-də Onlar Şurasının iclasında "rus məsələsi" yenidən ətraflı şəkildə müzakirə edildi. ABŞ prezidenti V.Vilsonun Rusiyada bütün qarşı-qarşıya duran qüvvələrə müraciəti elan edildi. Burada göstərilirdi ki, Rusiyada vuruşan qüvvələr öz aralarında müvəqqəti razılığa gəlməli, hərbi əməliyyatları dayandırmalı, həm bolşeviklər, həm ağqvardiyaçı hökumətlər və həm də Rusiya imperiyası ərazisində yaranmış yeni dövlətlər öz aralarında danışıqlar aparmaq üçün fevral ayının 15-nə qədər Mərmərə dənizində, İstanbulun yaxınlığındakı Şahzadə /İl de Prins/ adasında xüsusi konfrans keçirməlidirlər.[664] Fransa, İngiltərə, Amerika və İtaliya nümayəndələri də Şahzadə adasında keçiriləcək konfransda iştirak etməli idilər.[665] Əslində bu layihənin müəllifi Lloyd Corc idi, lakin bir sıra mülahizələrə görə həmin layihə ilə V.Vilson çıxış etmişdi.

Lakin "rus konfransı" üçün heç də uğurlu yer seçilməmişdi. Mərmərə dənizindəki Şahzadə adası çoxdan baxılmayan bir ada idi, hətta orada konfrans keçirmək üçün münasib bina belə yox idi. Ona lap yaxın olan adaların birinə isə müharibə illərində türklər İstanbulun küçələrini dolanan on minlərlə yoluxucu xəstəliyə tutulmuş itləri aparıb tökmüşdülər. Əvvəlcə, onlar bir-birinin ətini yeməklə bir müddət dözmüş, sonra isə hamısı acından ölmüşdü. Qırılmış itlərin ağarmış sümükləri adada qar təpələrini xatırladırdı. U.Çörçil yazırdı ki, onların sümükləri hələ indiyə qədər bu qonaq sevməyən adaları bəzəyirdi və bu hadisə ətraf yerlərdə hələ unudulmamışdı.[666]

Yanvarın axırında İstanbulda olan ingilis zabitləri "rus konfransı" üçün yararlı bir yer hazırlamaq üçün Şahzadə adasına getdilər. Polşa və Finlandiyanı

---

[662] Д.Ллойд Джордж. Правда о мирных договорах. В 2-х томах. Москва, 1957, том 1, с.278-279

[663] З. Авалов. Независимость Грузии в международной политике, с. 178

[664] Международная политика новейшего времени в договорах, нотах и декларациях. Москва, 1926, ч.2, с.219-220

[665] M.H.Hacınskinin Nazirlər Şurasının sədri və xarici işlər naziri F.X.Xoyskiyə məktubu. 27.01.1919.// ARDA, f.894, s.10, i. 66, v.3

[666] У.Черчиль. Мировой кризис. М., 1932, с. 108



downloaded from KitabYurdu.az

çıxmaq şərti ilə keçmiş Rusiya imperiyasının ərazisində yaranmış bütün dövlətlərə, o cümlədən Azərbaycan respublikasının İstanbulda olan nümayəndələri də Şahzadə adasında keçiriləcək "rus konfransı"na dəvət almışdı. İlk anda konfransın mahiyyətini müəyyənləşdirmək o qədər də asan deyildi və dəvət edilən tərəflərin cavabları da eyni olmamışdı. Sovet Rusiyası fevral ayının 4-də radio vasitəsi ilə Böyük Britaniya, Fransa, İtaliyaya, ABŞ və Yaponiyaya verdiyi notada Şahzadə adalarında keçiriləcək konfransda iştirak etməyə hazır olduğunu bildirdi.[667] Pribaltika dövlətləri bu şərtlə konfransda iştirak etməyə razı idilər ki, onların müstəqilliyi böyük dövlətlər tərəfindən tanınsın və bu konfrans Sovet Rusiyası ilə sülh danışıqları ilə məhdudlaşsın. Dağlılar İttifaqının xarici işlər naziri H.Bammatovun Berndə ABŞ nümayəndəsinə konfransda iştirak etməyə razılıq verməsini çıxmaq şərti ilə Qafqaz respublikalarından heç birisi "rus konfransı"nda iştirak etməyə razılıq vermədi.[668] İstanbulda olan ingilis, fransızların təzyiqinə baxmayaraq yanvar ayının 28-də Azərbaycan və Gürcüstan nümayəndəliyi Şahzadə adalarındakı konfransda iştirak etməyəcəklərini bildirdilər. Onların fikrincə, konfrans ancaq Rusiyanın özündə qarşı-qarşıya duran tərəflərin mübahisəli məsələlərini müzakirə etməli, rus xalqının birliyini bərpa etməli idi. Azərbaycan və Gürcüstan nümayəndələri öz respublikalarının istiqlaliyyətinin tanınması uğrunda mübarizə apardıqları üçün nə bolşevik Rusiyası, nə də köhnə Rusiya nümayəndələri ilə bir masa arxasında danışıqlar aparmağı və konfransda iştirak etməyi lazım bilmirdilər. M.Hacınski Azərbaycan hökumətinin sədrinə yazdığı məktubda bildirirdi ki, bu konfransda iştirak etməyi "biz özümüz üçün yolverilməz hesab edirik."[669]

Fevral ayının 8-də Gürcüstanın Parisdə olan nümayəndələri /Gürcüstan nümayəndə heyətinin əsas hissəsi İstanbulda idi, nümayəndəliyə daxil edilərkən Avropa paytaxtlarında olan gürcü nümayəndələri Parisə gələ bilmişdilər. - C.H/ ABŞ-ın Sülh konfransında olan nümayəndələrinə nota ilə müraciət edib bildirdilər ki, onların məsələsi rus məsələsindən ayrılıqda həll edilməlidir və Gürcüstanın müstəqilliyinin tanınması Sülh konfransının gündəliyinə qoyulmalıdır.[670] Parisdə olan Ukrayna nümayəndəsi Sidorenko yazılı şəkildə konfransın sədri J.Klemansoya bildirdi ki, onun hökuməti Şahzadə adalarında keçirilən konfransda iştirak edə bilməz.[671] Rusiyanın ağqvardiyaçı hökumətlərinin /Sibir, Arxangelsk və Cənubi Rusiya/ Parisdə olan nümayəndələrinin bu konfransa münasibəti müsbət deyildi. Onlar Fransa siyasi dairələri ilə sıx əlaqədə idilər, fransızlar isə Vilsonun

---

[667] Документы внешней политики СССР. М., 1958, т.2, с.58
[668] Foreign Relations of the United States. Russia. 1919, pp.43-44
[669] M.H.Hacınskinin Nazirlər Şurasının sədri və xarici işlər naziri F.X.Xoyskiyə məktubu. 27.01.1919. //ARDA, f.894, s.10, i.66, v.3
[670] З. Авалов. Независимость Грузии в международной политике, с. 181
[671] Foreign Relations of the United States. Russia, 1919, p.54



downloaded from KitabYurdu.az

və Lloyd Corcun "rus konfransı" keçirmək təşəbbüslərinə açıq etiraz etməsələr də, lakin bolşeviklərlə danışıqlar aparmağı da arzulamırdılar.[672]

Rus mühacirləri, Rusiyanın siyasi xadimləri və bolşevik inqilabından sonra Avropaya yayılmış köhnə rus diplomatları yeni zəmində köhnə Rusiyanı bərpa edəcəklərinə ümid bəslədikləri üçün bolşeviklərlə hər hansı danışıqlar aparmaqda maraqlı deyildilər. Bu məsələ yanvar ayının 30-da Rusiya siyasi xadimlərinin Fransanın xarici işlər naziri Pişona təqdim etdikləri bəyanatda öz əksini tapmışdı. Bəyanatda Rusiyada əsl xalq hakimiyyətinin bərqərar ediləcəyinə, dini məhdudiyyətlərin və vətəndaş azadlıqlarına tətbiq edilən qeyri-bərabərliyin aradan götürüləcəyinə, dərin iqtisadi dəyişikliklər keçiriləcəyinə, aqrar məsələnin qısa müddətdə həll ediləcəyinə, idarəçilikdə mərkəzləşmənin aradan qaldırılacağına və "nəhayət yeni Rusiyanın qeyri-rus xalqlara münasibətində yeni siyasət yeridəcəyinə" vədlər verilirdi.[673]

Ona görə də Parisdə olan Sazonov, Lvov, Çaykovski, Maklakov və digərləri Fransa rəsmi dairələrinə təsir göstərirdilər ki, keçmiş Rusiya ərazisində yaranmış yeni dövlətlərlə heç bir məsələni müzakirə etməsinlər və Paris konfransında yalnız Ümumrusiya məsələsini qoysunlar. Rusiya nümayəndələrinin Şahzadə adalarına getmək istəməməsi bir tərəfdən də yeni yaranmış respublikaları tanımamaq və onlarla heç bir danışıqlar aparmamaq niyyətindən irəli gəlirdi. Fevral ayının 12-də Sazonov və Çaykovski Versal konfransının Baş katibliyinə nota ilə müraciət edib bildirdilər ki, "indiki şəraitdə bolşeviklərlə fikir mübadiləsi etməkdən söhbət gedə bilməz və bu mümkün deyildir."[674] Bununla da Şahzadə adasında konfrans keçirmək ideyası özünü doğrultmadı, lakin konfransa tərəflərin münasibəti yeni yaranmış respublikalarla Rusiyanı təmsil edən hər iki tərəf arasında, habelə Rusiyanın özündəki siyasi qüvvələr arasında ziddiyyətin xeyli dərin olduğunu əks etdirirdi. Parisə gedən Azərbaycan nümayəndə heyətinin məsləhətçisi M.Mehdiyev yazırdı: "Mərkəzi Rusiyada hadisələrin heyrətamiz dərəcədə sürətli inkişafı bu planın həyata keçirilməsinə mane olmuşdur. Az sonra o dövrdə ingilis-sakson ölkələrində çox tanınan Lloyd Corc parlamentə bəyan etdi ki, "indi heç bir ölkənin Rusiyanın adından danışmağa hüququ yoxdur..." Bu minvalla Rusiyada yeni yaranmış dövlətlərin birgə konfransının çağırılması planı beləcə dəfn olundu."[675] Bundan sonra amerikanların "Rus məsələsində" cəhd göstərdiyi Bullit missiyası da elə bir uğurlu nəticə vermədi. Bullitin sülh təkliflərində keçmiş Rusiya ərazisində yaranmış yeni dövlətlərin öz aralarında barışığa gəlib sülh konfransı çağırana qədər hər birinin öz ərazisində rəsmi hakimiyyət kimi tanınması məsələsi qoyulmuşdu və

---

[672] З.Авалов. Независимость Грузии в международной политике, с. 182

[673] ARDA, f.894, s.10, i.64, v. 12-17

[674] Б.Е.Штейн. «Русский вопрос» на Парижской мирной конференции /1919-20 гг./. М., 1919, с. 107

[675] Mir Yacoub. Le probleme du Caucase, p.119



downloaded from KitabYurdu.az

bu layihədə digər yeni dövlətlərlə yanaşı, Azərbaycan respublikası da xatırladılırdı.[676]

Yeni respublikalardan olan nümayəndə heyətləri İstanbulda gözləyərkən fevral ayının 13-də gürcü nümayəndələrindən iki nəfərin Çxeidze və Seretelinin Parisə buraxılması haqqında məlumat gəldi. O zaman İstanbulda bunu müxtəlif cür izah edirdilər. Bir fərziyyəyə görə guya onlara "rus ictimai xadimləri" kimi icazə vermişdilər, digərlərinin fikrincə, sosialist hərəkatında xidmətlərinə görə fransız sosialistləri onlara icazə almışdır, üçüncü bir fərziyyədə guya bu icazəni Seretelinin fransızda ərdə olan bacısının yaxın tanışları vasitəsi ilə alındığı qeyd edilirdi. Əslində isə bu işi əvvəlcə Londonda olan, sonra isə Parisə gələn gürcü nümayəndələri Avalov və Qambaşidze görmüşdülər. Onlar hələ yanvar ayında Londonda, sonralar Paris Sülh konfransının katibi olmuş fransız səfiri Pol Kambonla görüşmüş, gürcü nümayəndələrinin Parisə gəlmək məsələsini onunla müzakirə etmiş və ondan yardım istəmişdilər. Versal konfransı başlandıqdan sonra onlar konfransın katibliyinə də müraciət etmişdilər. Burada onlara Almaniya və Türkiyə ilə əməkdaşlıq etməklə, Çxeidze və Seretelinin özlərini nüfuzdan salmaları, gürcü məsələsi haqqında aydın təsəvvürün olmaması, Rusiya və digər qonşularla sabit münasibətlərin olmaması, rus borclarına Gürcüstanın qeyri-müəyyən münasibəti və ən nəhayət, erməni və azərbaycanlılarla ciddi ixtilafların olduğu xatırladıldı, lakin son nəticədə İstanbulda olan gürcü nümayəndəliyindən iki nəfərin Parisə gəlməsinə icazə verildi.[677]

Fevral ayının 14-də Ə.M.Topçubaşov İstanbuldakı Fransa nümayəndəliyinə gedib, onların bu sayğısız münasibətinin Azərbaycan nümayəndəliyinə pis təsir göstərdiyini bildirdi. Fransa nümayəndəliyi azərbaycanlılardan da iki nəfərin qeyri-müəyyən vaxtda Parisə buraxılacağını bildirdi. Fevral ayının 22-də Ə.M.Topçubaşov Azərbaycan hökumətinin sədrinə vurduğu teleqramda bildirirdi: "Təəssüflər olsun ki, hələ Parisə gedə bilməmişik, icazə gözləyirik".[678]

Əvvəllər daha çox texniki məsələlərlə izah edilən yubanmaların az sonra siyasi məzmuna malik olduğu bəlli oldu. Azərbaycan hökumətinə mart ayının 5-də göndərdiyi hesabatında Ə.M.Topçubaşov yazırdı: "İlk əvvəllər bu bizə asan iş kimi görünürdü, Marsel vasitəsilə Parisə arabir gedən paraxodlara yer tapmaq kimi texniki xarakterli maneələrlə rastlaşa biləcəyimizi düşünürdük. Lakin iki dəfə mənim ingilis və fransız nümayəndələri ilə görüş və danışıqlarımdan, bəzi heyət üzvlərinin İngiltərə qərargahlarına baş vurmaları, onların yanına heyətin tərcüməçilərinin dəfələrlə ezam edilməsi və nəhayət, ingilis qərargahına şəxsən

[676] Документы внешней политики СССР. Т.II. М., 1958, с.92
[677] З.Авалов. Независимость Грузии в международной политике, с. 180-187
[678] Azərbaycan Respublikasının Sülh nümayəndəliyinin başçısı Ə.M.Topçubaşovun Nazirlər Şurasının sədri və xarici işlər naziri F.X.Xoyskiyə teleqramı. 22.02.1919. // ARDA, f.894, s.10, i. 66, v.42



downloaded from KitabYurdu.az

özümün getməyim nəticəsində aydın oldu ki, Parisə səfərin ləngiməsi texniki çətinliklərdən əlavə, məhz siyasi xarakterli mülahizələrlə bağlıdır."[679]

Azərbaycan nümayəndələri hələ İstanbulda ikən Parisdə olan Ermənistan və İran nümayəndələri Azərbaycanın mənafeyinə toxunan böyük ərazi iddiaları ilə çıxış etdilər. İran xarici işlər naziri Paris Sülh konfransında İranın "tarixi hüquqlarına" istinad edərək Qafqazda Dərbənddən aşağı, Orta Asiyada Aral dənizindən Şimala qədər ərazilərin, habelə Türkiyə ərazisinin bir hissəsinin XVII-XVIII əsrlərdə ona məxsus olması haqqında bəyanat verib, 578 min kvadrat kilometrlik böyük bir ərazinin İrana qaytarılmasını tələb edirdi.[680]

Müttəfiqlərin onlara göstərdiyi isti münasibətdən ruhlanaraq ermənilər 1919-cu ilin əvvəllərində qonşu xalqlara qarşı ərazi tələblərinin geniş kampaniyasına başlamışdılar. İstər iki tərəfli görüşlərdə və istərsə də özlərinə yaxın olan mətbuat səhifələrində onlar "Böyük Ermənistan" ideyasının təqdimatına başlamışdılar ki, burada da, ilkin hədəf Naxçıvan, Zəngəzur və Qarabağın dağlıq hissəsi idi. 1919-cu ilin yanvarında müttəfiqlərin Bakıda olan komandanı general V.Tomsonun Qarabağın dağlıq hissəsini və Zəngəzur qəzasını Azərbaycanın idarəçiliyində olmasını təsdiqləməsi və Xosrov bəy Sultanovun bu ərazilərə general-qubernator kimi göndərilməsini bəyənməsi erməniləri daha da əsəbləşdirmişdi. V.Tomson bölgənin demoqrafiyası ilə yaxından tanış olduqdan sonra belə qənaətə gəlmişdi ki, böyük miqyasda olmasa da, köçürmə və yerdəyişmə zəruri olacaqdır. Məsələn, nə Qarabağda erməni anklavı qala bilər, nə də hal-hazırdakı kimi "düşmən" sayılan müsəlmanlar İrəvanın cənubi-qərbində oturub qala bilərlər.[681] Bakıya səfərindən sonra fevral ayının 6-da Londona məlumat göndərən general Corc Miln ermənilərin Qarabağda törətdiyi vəhşiliklərlə bağlı yazırdı: bizim Bakını tutmağımızdan əvvəl Şuşanı iki türk alayı Andronikin ordusunun hücumlarından qoruyurdu. İndi isə ermənilər şəhərə dolmuşlar və tatarları (azərbaycanlıları- C.H.) qırırlar. Hökumət (Azərbaycan hökuməti - C.H.) qayda-qanunu qorumaq üçün mümkün olan hər şeyi edir. Qayda-qanun yaratmaq üçün oraya Britaniya əsgərlərindən ibarət bir batalyon göndərmək lazımdır.[682]

Ermənilər Zəngəzur və Qarabağın dağlıq hissəsi ilə bağlı başladıqları pozuculuq işlərini diplomatik müstəviyə keçirməyə cəhd göstərdiklərindən Azərbaycan Xarici İşlər Nazirliyi qeyd edilən ərazilərlə bağlı bir sıra təbliğat xarakterli addımlar atmalı oldu. Bu məqsədlə nazirliyin informasiya şöbəsinin məsul əməkdaşı A.S.Şepotovun rəsmi hökumət qəzeti olan "Azərbaycan"da "Qarabağ" adlı geniş məqaləsi dərc olundu. A.S.Şepotov Qarabağın tarixinin həlledici məqamları, XIX əsrin 20-30-cu illərindən başlayaraq, oraya ermənilərin

---

679 А.Раевский. Мусаватское правительство на Версальской конференции, с.25

680 История дипломатии. Т.3., М., 1945, с.33

681 T.Swietochowski. Russia and Azerbaijan, p.76

682 General C.Milnin təcili diplomatik məlumatı. 06.02.1919. // Azərbaycan Xalq Cümhuriyyəti. Böyük Britaniya Arxiv sənədləri, s.237



downloaded from KitabYurdu.az

köç etməsinin intensiv xarakter almasından maraqlı məlumatlar verirdi. O, yazırdı ki, Qarabağın Rusiya imperiyasına birləşdirilməsi başa çatdırıldıqdan sonra bu ərazi 1844-cü ildə "Zaqafqaziya müsəlman vilayətləri"nin tərkibinə daxil edildi və sonra Gəncə quberniyası yaradılan zaman Qarabağ dörd qəzaya bölünərək onun inzibati hüdudlarına birləşdirildi. A.S.Şepotov 1917-ci ilin statistik məlumatlarına əsasən, Qarabağda 170 min ermənin və 415 min türkün yaşadığını bildirir, onun coğrafi baxımdan vahid bir inzibati məkan olduğunu izah edirdi. O yazırdı: Türklərin Qarabağa tarixi hüquqları şəksizdir, belə ki, doqquz əsrdən çoxdur ki, türk etnosu Qarabağda oturuşmuşdur. Ona görə də Ermənistan hökumətinin son vaxtlar Qarabağa qarşı iddiaları daşnak nazirlərinin fantaziyasından ibarət olub heç nə ilə əsaslandırılmır. Erməni hökumətinin Qarabağa münasibətdə belə iddiaları nə tarixi, nə iqtisadi, nə də etnoqrafik məlumatlarda öz təsdiqini tapmır. A.S.Şepotov belə hesab edirdi ki, Borçalını ələ keçirmək uğrunda mübarizədə məğlub olan daşnaklar indi Azərbaycanın tarixən ayrılmaz hissəsi olan Qarabağa qarşı iddialar irəli sürürlər. Məqalədə bildirilirdi ki, erməni hökumətinin bir vaxtlar rəsmi şəkildə imtina etdiyi, indi isə öz himayəsi altına aldığı "general" Andronikin müraciətlərindən bu iddiaların çoxdan hazırlandığı bəlli olur. A.S.Şepotovun fikrincə, Qarabağın qalan Azərbaycan ərazisinə bağlılığı hər bir Azərbaycan türkü üçün o qədər mübahisəlidir ki, bu barədə heç bir söhbət ola bilməz. Məqalə Qarabağla tanış olmayan və ermənilər tərəfindən birtərəfli məlumatlandırılan xaricilərə regionun keçmişi və çağdaş vəziyyəti haqqında geniş məlumat verməklə ermənilərin iddialarının tamamilə əsassız olduğunu ortaya qoyurdu.[683] Bu materialdan Azərbaycanın xaricindəki nümayəndələri təbliğati işlərində səmərəli istifadə etdilər.

Ermənilərin azğınlığının və Könüllü ordunun nümayəndələrinin özbaşınalığının qarşısını almaq üçün Baş nazir F.X.Xoyski 1919-cu ilin fevral ayının ortalarında Bakının hərbi qubernatoru V.Tomsona müraciət etmişdi. O yazırdı: "Əlimizdə olan məlumatlara görə son vaxtlar Bakı şəhərində baş verən hadisələr dövlətin maraqları və hökumətin ləyaqəti nöqteyi-nəzərindən yol verilməzdir. Könüllü ordunun nümayəndələri Prjevalski və Erdeli Bakı şəhərində və onun rayonlarında səfərbərlik aparırlar, topladığı adamlara silah paylayır və hərbi təlimlər keçirirlər, bir sözlə hərbi hissələrin güclü hazırlığına başlayıblar. Digər tərəfdən, özünü erməni xadimləri adlandıran, o cümlədən bütün keçmiş fəaliyyəti Azərbaycanın müsəlman əhalisinin məhv edilməsinə yönəlmiş Amazasp adlı birisi silah gəzdirə bilən erməni əhalisinin qeydiyyatını aparır, onları qruplaşdıraraq, silahlandıraraq və təşkilatlandıraraq hərbi hissələr yaradır. Hansısa qarışıq rus-erməni hərbi hissələri şəhərin bütövlükdə müsəlmanlar yaşayan Qala hissəsindəki Duma meydanının qapılarının yanındakı kazarmaları tutmuşdur. Bakının müsəlman əhalisi içərisində qorxu və həyəcan ən yüksək həddə çatıb. Belə

[683] Азербайджан, 1919, 11 февраля.



downloaded from KitabYurdu.az

vəziyyətdə ölkənin paytaxtındakı hərəkətləri ilə, nəinki, dövlətin suverenliyini pozmuş, hətta onun mövcudluğuna qarşı yönəlmiş addımların qarşısının alınmamasına görə, həm əhali arasında, həm də parlamentdə hökumətin ünvanına ədalətli tənqidi eyhamlar səsləndirilmişdir. Mən əminəm ki, siz belə vəziyyətin hökumət üçün tamamilə dözülməz olduğu ilə razılaşarsınız. Heç bir dövlətdə, heç bir ölkədə elə bir nümunə yoxdur ki, dövlətə və hökumətə tamamilə yad olan, ona münasibətdə qərəzkar əhvali-ruhiyyədə olan müxtəlif təşkilatlar bu dövlətin paytaxtında belə azad şəkildə yerləşsinlər və hökumətin gözü qarşısında, hətta dövlətin əsaslarına qarşı yönəlmiş öz silahlı qüvvələrini bu cür açıq şəkildə yaratsınlar".[684] Fətəli xan bu azğın qüvvələrin fəaliyyətinin dayandırılmasını Könüllü ordunun hər hansı təşkilatının və əməkdaşları ilə birlikdə Amazaspın Azərbaycanın hüdudlarından uzaqlaşdırılmasını tələb edirdi. Bu məlumat xarici işlər nazirliyi tərəfindən İstanbulda viza gözləyən Azərbaycan Sülh heyətinə də çatdırılmışdı.

Qonşu dövlətlər Parisdə öz ərazi iddiaları ilə çıxış edən zaman Azərbaycan nümayəndələri İstanbulda viza gözləməyə məcbur idilər. Azərbaycan nümayəndə heyətinin bu çətin vəziyyəti ilə bağlı professor T.Svyatoçovski yazır: "Qonşularından fərqli olaraq onlara heç bir kömək göstərilmədi. Qərbdəki ermənipərəstlik hərəkatı, yaxud gürcü menşeviklərinin beynəlxalq sosializm ilə əlaqələri fonunda azərbaycanlıların mövqeyi zəif idi."[685] Lakin fransızların ermənipərəst mövqeyi ilə müqayisədə ingilislərin Azərbaycana münasibəti ümidverici idi. Burada Böyük Britaniya imperiyasının müəyyən dərəcədə marağı və mənafeyi vardı. İstanbulda olan ingilis nümayəndəsi admiral R.Vebblə söhbətində Ə.M.Topçubaşov bunu nəzərə alaraq bildirirdi: "Azərbaycanın müstəqil yaşamasında Böyük Britaniya maraqlı olmalıdır, sizin İranda mənafeyinizi qorumaq üçün müstəqil Azərbaycan dövləti şimal təhlükəsinə qarşı etibarlı sipərdir. Bizim coğrafi vəziyyətimiz dövlət müstəqilliyimizi tanımaq üçün başlıca təminatdır. Buna mən və mənim ölkəmdə çoxları inanır ki, kiçik Azərbaycanın mənafeyi ilə Böyük Britaniyanın mənafeyi tamamilə bir-birinə uyğun gəlir". Bu məsələlər admiralın böyük marağına səbəb olmuşdu və o, bildirmişdi: "Dinc həyatınızı qoruyun və Paris konfransının qərarını gözləyin. Sizi hələ rəsmi tanımayıblar, ona görə görüşlər xüsusi xarakterdə olacaqdır".[686] Admiral Vebb Azərbaycan nümayəndələrinə Parisə Sülh konfransına getmək üçün kömək edəcəyinə söz verdi. Bundan sonra ingilis nümayəndələri ilə keçirilən görüşlər az da olsa müəyyən irəliləyişə səbəb oldu. Mart ayının 6-da Londondan məlumat gəldi ki, Böyük Britaniya hökuməti Azərbaycan nümayəndələrinin Paris Sülh konfransında iştirak etməsinin əleyhinə deyildir və yalnız, Versala getmək üçün

[684] Fətəli xan Xoyski. Həyat və fəaliyyəti, s.48-49
[685] T.Swietochowski. Russia and Azerbaijan, p.154
[686] Ə.M.Topçubaşovun Azərbaycan Nazirlər Şurasının sədri və xarici işlər naziri F.X.Xoyskiyə məktubu. 29.03.1919.//ARDA, MDA f.894, s.10, i. 66, v.9



downloaded from KitabYurdu.az

Fransa hökumətinin vizası lazımdır.[687] Lakin Fransa nümayəndələrindən hələlik heç bir müsbət cavab eşidilmirdi. Azərbaycan nümayəndələrindən başqa, Don, Kuban, Dağlılar İttifaqı nümayəndələri, Ukrayna və gürcü nümayəndəliklərinin bir hissəsi hələ İstanbulda idi. Ona görə nümayəndəliklər bir sıra məsələlərdə və xüsusən Parisə buraxılış almaq məsələsində birgə hərəkət etmək qərarına gəldilər.[688] Ə.M.Topçubaşovun sədrliyi ilə memorandum hazırlandı və onu Azərbaycan, Ukrayna, Don, Kuban və Dağlılar İttifaqının nümayəndələri imzaladılar. Gürcüstan nümayəndəliyində Çxeidzeni əvəz edən Çixiladze siyasi xarakterli addım atmamaq haqqında ondan göstəriş aldığı üçün memorandumu imzalamadı. Memorandumda deyilirdi: "Keçmiş Rusiya imperiyasında yaşayan xalqlar, 1917-ci ilin oktyabrında bolşeviklər hakimiyyəti qəsb etdikdən sonra bir-birinin ardınca öz istiqlaliyyətlərini elan etmiş və müstəqil hökumətlərini yaratmışlar. Müstəqillik uğrunda mübarizədə ukraynalı, donlu, kubanlı, dağlı və azərbaycanlılar çoxlu sayda öz oğullarını qurban vermişlər və bundan sonra da müstəqilliklərini qorumaq üçün nə lazımsa edəcəklər. Öz ədalətli mübarizəsində bu xalqlar prezident Vilson tərəfindən elan edilmiş humanist prinsiplərə arxalanırlar. Öz xilaslarını Saziş ölkələrinin maddi və mənəvi yardımında görürlər. Müstəqilliyə qədəm qoymuş xalqlar Paris Sülh konfransına böyük ümid bəsləyirlər. Ona görə də memorandum imzalayan ölkələrin parlament və hökumətləri təcili şəkildə nümayəndəlik yaratmış, onlara lazımi səlahiyyətlər verib, Sülh konfransına yola salmışdır. Nümayəndə heyətləri onların üzərinə qoyulan məsuliyyəti dərindən dərk edərək, Parisə vaxtında getmək arzusunda idilər. Lakin təəssüflər olsun ki, bizim nümayəndələrimiz bir aydan çoxdur ki, İstanbulda viza gözləyir. Yaranmış vəziyyətlə əlaqədar Ukrayna, Azərbaycan, Don, Kuban və Dağlılar İttifaqının nümayəndələri Saziş ölkələrinin İstanbuldakı hakimiyyət orqanlarına müraciət edərək, onların Parisə səfərini tezliklə təşkil etməyi xahiş edir".[689] Memorandum nümayəndə heyətlərinin sədrləri tərəfindən imzalanaraq mart ayının əvvəllərində İstanbulda olan ingilis ali komissarı admiral Vebbə təqdim edildi. O, viza verilməsi barədə fransız komissarı admiral Amedlə danışacağına söz verdi. Mart ayının 5-də memorandumu imzalayan nümayəndələr İtaliya və Amerika komissarlıqlarında da oldular. Fransa siyasi dairələrinin belə inadkarlığında yeni yaranmış dövlətləri tanımaq fikrindən uzaq olan rus mühacirlərinin şovinist mövqeyi az rol oynamamışdı. Ə.M.Topçubaşov ürək ağrısı ilə Bakıya yazırdı ki, bizi hələ ki, nəinki, konfransa, heç almanlar, avstriyalılar, macarlar, bolqarlar və türklər kimi

---

[687] ARDA, f.970, s.1, i. 139, v.1

[688] ARDA, f.894, s.10, i. 152, v.7

[689] Ukrayna, Don, Kuban, Şimali Qafqaz və Azərbaycan nümayəndələrinin Paris Sülh konfransına və müttəfiqlərin İstanbuldakı nümayəndələrinə memorandumu. Mart, 1919.// ARDA, f.894, s.10, i.147, v.65-67



downloaded from KitabYurdu.az

"məğlubların" buraxılmadığı Parisə də buraxmırlar. Lakin konfransda görünən kimi biz də öz sözümüzü deyəcəyik.[690]

Yeni yaradılmış respublikaların nümayəndə heyətləri İstanbulda olarkən, Versal Ali Şurasının qərarı ilə Rusiyanın cənubunda siyasi və iqtisadi vəziyyəti öyrənmək üçün 30 nəfərdən ibarət xüsusi komissiya yaradılıb yerlərə ezam edilmişdi. Nümayəndə heyəti üç hissəyə bölünmüşdü. Onlardan biri Qafqazda olan vəziyyəti öyrənməli idi. Bu bölməyə amerikalı polkovnik Bencamin Burçeq Moore rəhbərlik edirdi. Martın 3-də Ə.M.Topçubaşov və M.H.Hacınski yolüstü İstanbulda dayanan Moore ilə görüşüb çox mühüm məsələlər ətrafında fikir mübadiləsi etdilər. Danışıqlar zamanı Moore Azərbaycanla bağlı aşağıdakı məsələləri öyrənmək istəyirdi:

1. Siz əminsinizmi Qafqaz Azərbaycanı siyasi və iqtisadi baxımdan müstəqil fəaliyyət göstərə bilər?
2. Bunun üçün sizin maddi və mənəvi gücünüz bəs edirmi?
3. Qafqazda və ya Cənubi Qafqazda siz federasiya və ya konfederasiya yarada bilərsinizmi?
4. Əgər Rusiya Federativ Respublikası yaranarsa, Azərbaycan onun tərkibinə daxil olmağı arzulayırmı?
5. Hər hansı başqa bir dövlətin sizə təsiri məsələsi barədə düşünürsünüzmü?
6. İndi Azərbaycanın daimi, yaxud müvəqqəti neytrallığını təmin etmək barədə məsələ qaldırmaq mümkündürmü?[691]

Əslində birinci iki sualın cavabını Ə.M.Topçubaşov Sülh konfransına təqdim etmək üçün hazırladığı memorandumda əsaslandırmışdı və ona görə də bu suallara müsbət cavab verdi. Cənubi Qafqaz federasiya yaxud konfederasiya yaratmağın mümkünlüyü ilə bağlı Ə.M.Topçubaşov bildirdi ki, indiki şəraitdə o, bunun mümkünlüyünə şübhə edir. Çünki Saziş ölkələri regionda mövcud reallıqlarla hesablaşmayaraq, Türkiyənin və Azərbaycanın hesabına Böyük Ermənistan yaratmaq arzusu ilə çıxış edən ermənilərin hədsiz tələblərini müdafiə edirlər. Rusiya Federativ Respublikasına münasibətə gəldikdə isə o, aydın formada bildirdi ki, Rusiyada hər hansı hökumətin olmasından asılı olmayaraq, öz istiqlaliyyətini elan etmiş, öz parlamenti və hökuməti olan Azərbaycan bir daha onun tərkibinə qayıtmayacaqdır. Moorenin Azərbaycana qəyyumluq edə biləcək ölkəni öyrənmək arzusuna cavab olaraq, Ə.M.Topçubaşov bildirdi ki, bizdən maddi heç nə ummayacağı və prezident V.Vilsonun 14 sülh prinsiplərinin ümumbəşəri və mənəvi dəyərlərinə əsaslanacağı halda ABŞ Azərbaycan üçün

[690] Azərbaycanın Paris Sülh konfransındakı nümayəndəliyinin başçısı Ə.M.Topçubaşovun Nazirlər Şurasının sədri və xarici işlər naziri F.X.Xoyskiyə məlumatı. 05.05.1919.// ARDA, f.894, s.10, i.152, v.16

[691] Bencamin Burçeq Moorenin Azərbaycan Respublikası Sülh heyətinin sədrinə məktubu. 03.03.1919.//ARDA, f.970, s.l, i.68, v.21.



downloaded from KitabYurdu.az

qəyyum dövlət ola bilər.[692] Neytrallıq məsələsi ilə bağlı o, bildirdi ki, bu, Cənubi Qafqazda sabitlikdən asılıdır. Əgər Azərbaycana qarşı xarici təhlükə olmazsa, istiqlaliyyəti böyük dövlətlər tərəfindən tanınarsa, onun daimi neytrallığının elan edilməsinin mümkünlüyü Mooreyə bildirildi. Diplomatik missiyanın Bakıya gedəcəyini nəzərə alaraq Azərbaycan nümayəndələri Moorenin maraqlandığı məsələlər barədə Azərbaycan hökumətinə yazılı məlumat göndərdi.[693]

Yaranmış vəziyyətlə əlaqədar Azərbaycan nümayəndə heyəti Paris Sülh konfransı sədrinin adına qısa məktubla müraciət etməyi qərara aldı. Mart ayının 21-də bu məktub hazırlanıb, nümayəndə heyətinin sədri Ə.M.Topçubaşov və katibi M.Məhərrəmovun imzası ilə Parisə göndərildi.[694] Orada göstərildi ki, hələ 1918-ci ilin may ayının 28-də öz müstəqilliyini elan etmiş, paytaxtı Bakı olan Azərbaycan Respublikasının dörd milyon əhalisi və 100 min kvadrat kilometrə qədər ərazisi vardır. Azərbaycan Parlamentinin rəhbərliyi altında ölkə, respublikada yaşayan əhalinin nümayəndələrindən təşkil olunmuş 14 nazirliyi olan hökumət tərəfindən idarə olunur. Sülh konfransında bu respublikanın tanınması və onun mənafeyinin qorunması məqsədi ilə altı nəfərlik parlament və hökumət üzvlərindən ibarət xüsusi nümayəndəlik təsis edilmişdir. Bu nümayəndəlik Bakıdan çıxarkən, müttəfiq qoşunlarının komandanı general Tomsondan tam təminat almış, onun üzvlərinə zəmanət məktubu verilmişdir. Azərbaycan nümayəndələri yanvar ayının 20-də İstanbula gəlmiş və özünün bütün cəhdlərinə baxmayaraq iki aydır Parisə getmək üçün icazə gözləyir. Gürcüstanla Şimali Qafqaz xalqlarının nümayəndələrinə viza verilmişdir və onlar artıq Sülh konfransının müxtəlif komissiyalarında öz ölkələrinin mənafeyini qoruyurlar. Lakin onlarla bağlı olan iqtisadi, ərazi, sərhəd və digər mühüm məsələlər Azərbaycanın iştirakı olmadan həll edilə bilməz. Yarım il ərzində öz istiqlaliyyəti uğrunda bolşeviklərə qarşı fədarkarcasına mübarizə aparan azərbaycanlılar ədalətli qayğıya möhtac olub, prezident Vilsonun böyük prinsiplərinə ümid bağlayıb, öz səslərinin eşidiləcəyinə inanırlar. Məktubun sonunda Sülh konfransının sədrindən xahiş edilirdi ki, iki ay İstanbulda gözləyən Azərbaycan nümayəndələrinin Parisə buraxılmasına və Sülh konfransında digər yeni yaranmış dövlətlərlə bərabər şəkildə iştirak etməsinə köməklik göstərilsin.[695] Eyni zamanda müraciətin surəti ABŞ, İngiltərə, Fransa və İtaliyanın hökumət başçılarına göndərildi.[696]

---

[692] А.Раевский. Мусаватское правительство на Версальской конференции, с.29

[693] ARDA, f.970, s.1,i. 68,v.21

[694] Prèsident de la Dèlègation de Paix de la Rèpublique d'Azerbaïdjan Ali Mardan Toptchibacheff, Secrètaire Mahomed Maheramoff - A Son Excellence Monsieur le Prèsident de la Confèrence de la Paix. Constantinople, le 21 mars 1919.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol.638, folio 9

[695] Azərbaycan Respublikasının Paris Sülh konfransındakı nümayəndəliyinin başçısı Ə.M.Topçubaşovun Sülh konfransının sədrinə məktubu. 21.03.1919.// ARDA, f.894, s.10, i. 66,v.11

[696] Bax: Prèsident de la Dèlègation de Paix de la Rèpublique d'Azerbaïdjan Ali Mardan Toptchibacheff, Secretaire Mahomed Maheramoff - A Son Excellence Monsieur le Prèsident des Etats-Unis d'Amèrique.



downloaded from KitabYurdu.az

Sülh heyəti üzvlərinin Azərbaycan hökuməti ilə yazışmalardan aydın olur ki, mart ayının ortalarında Fransa hökuməti nümayəndəliyin bəzi üzvlərinin əvvəlcə M.H.Hacınski, sonra isə Ə.Şeyxülislamov və C.Hacıbəylinin Parisə getmələrinə etiraz etməyibdir.[697] Lakin nümayəndə heyətinin rəhbəri Ə.M.Topçubaşovun adı bu siyahıda xatırlanmırdı. Azərbaycan nümayəndələri ilk əvvəl Ə.M.Topçubaşov olmadan Parisə getməyi uyğun hesab etmirdilər və onun Parisə buraxılmamasının səbəbləri də aydın deyildi. Ona görə yenidən müttəfiqlərin İstanbulda olan nümayəndələrinə müraciət edildi. Buna cavab olaraq, mart ayının 27-də İstanbuldakı Amerika komissarı Devis Hek Azərbaycan nümayəndə heyətinin sədrinə bildirdi ki, sizin nümayəndəliyin Sülh konfransında iştirak etmək məqsədilə Parisə getmək arzusu barədə şifahi sorğusuna cavab olaraq, sizə bildirməyi özümə şərəf sayıram ki, Amerika missiyası Azərbaycan nümayəndələrinin Fransaya getmək üçün səlahiyyətli hakimiyyət orqanlarından viza alınmasına heç bir maneə görmür.[698] Mart ayının 29-da belə bir məlumatla İtaliya komissarlığının nəzarət bölməsinin nümayəndəsi Serezoli də çıxış etdi. O, Azərbaycan nümayəndəliyinə göndərdiyi yazılı cavabda qeyd edirdi: "Əlahəzrət cənab, İtaliya ali komissarı mənə tapşırmışdır sizə bildirim ki, Azərbaycan sülh nümayəndələrinin Parisə getməsinə qarşı heç bir maneçiliyi yoxdur".[699] Demək iş, ancaq fransızlardan asılı idi. Mart ayının 15-də Fransa Ali komissarı polkovnik Foulon Azərbaycan nümayəndələrindən bəzilərinin Parisə getməsinə razılıq vermişdisə də, mart ayının 25-də Ali komissarın müavini İ.Seon Fransa Xarici İşlər Nazirliyinin Azərbaycan nümayəndələrinin Parisə buraxılmasına icazə vermədiyini bildirdi və bunun səbəbləri də izah edilmirdi.[700] Ə.M.Topçubaşov Azərbaycan hökumətinə mart ayının 29-da yazırdı ki, Parisdən mənfi cavab aldıqdan sonra Azərbaycan nümayəndələrindən M.H.Hacınski, C.Hacıbəyli və M.Məhərrəmov ingilis nümayəndələrinin yanında olublar və bizim Parisə getməyimizə yardım göstərməyi, bu mümkün olmadıqda isə Londona getməyə icazə verməyi xahiş ediblər. İngilis nümayəndəsi M.Holer Fransa nümayəndəsi Q.Dyupe ilə danışacağına vəd vermiş və söz vermişdir ki, əgər Parisə getməyə icazə verilməsə nümayəndəliyi Londona yola salacaqdır".[701] Mart ayının 28-də Ə.M.Topçubaşov Müttəfiq qoşunlarının Şərqdə Ali Baş komandanı, Birinci dünya müharibəsində

---

(La mème lettre a ètè envoyè à M. Clemenceau).Constantinople, le 21 mars 1919.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol.832, folio 40

[697] Ə.M.Topçubaşovun Azərbaycan Respublikası Nazirlər Şurasının sədri F.X.Xoyskiyə məlumatı. 17.03.1919.//ARDA, f.894, s.10, i. 66, v.11

[698] Amerikalı komissar Devis Hekin Ə.M.Topçubaşova məktubu. 27.03.1919.// ARDA, f.970, s.1.i. 139. v.1; i. 5,v.4

[699] İtaliya komissarlığının nümayəndəsi Serezolinin Ə.M.Topçubaşova məktubu. 29.03.1919.// ARDA, f.970, s.l, i. 5, v.5

[700] Fransa Ali komissarının müavini İ.Seonun Ə.M.Topçubaşova məktubu. 25.03.1919.// ARDA, f.970., s.l.i. 140, v. 1-5

[701] Ə.M.Topçubaşovun Azərbaycan Nazirlər Şurasının sədri F.X.Xoyskiyə məlumatı. 29.03.1919.// ARDA, f 894, s.10, i. 66, v 11



downloaded from KitabYurdu.az

mühüm hərbi əməliyyatlara rəhbərlik etmiş tanınmış fransız generalı Franş D'Esperinin qəbulunda oldu. Azərbaycan nümayəndə heyətinin sədrini diqqətlə dinləyən general onlara kömək edəcəyini bildirdi və nəticəni söhbətdə iştirak edən fransız zabiti vasitəsilə ona bildirəcəyini vəd etdi. Doğrudan da, general vədinə əməl etdi. Bir gün sonra Azərbaycan nümayəndəliyinə məktubla məlumat göndərdi ki, Fransa nümayəndəsi Dyupenin yanına getsinlər və onlardan iki-üç nəfərinə icazə verilmişdir.[702] Ə.M.Topçubaşov yazır: "General Franş D'Esperin 29 mart tarixli göstərişinə əsasən, mən 31 martda Fransanın diplomatik nümayəndəsi Dyupenin yanında oldum. Aydın oldu ki, bizim üç nəfərimizə Parisə getmək imkanı veriləcəkdir. Həmin nümayəndənin tələbi ilə nümayəndə heyətinin siyahısı ona təqdim olundu /üçüncü dəfə/. Üç gün sonra adı çəkilən nümayəndənin dəftərxanasından bildirildi ki, M.H.Hacınski, M.Məhərrəmov, C.Hacıbəyli gedə bilərlər. Bununla əlaqədar Fransa nümayəndəliyinin nəzərinə çatdırılmışdır ki, Parisə gedəcək nümayəndə heyətinin əvəzinə nümayəndəliyin ayrı-ayrı üzvlərinin seçilməsi məqsədəuyğun deyildir".[703] Bu elə bir dövr idi ki, Azərbaycan nümayəndələrindən başqa İstanbulda Parisə gedən heç bir heyət qalmamışdı. Bütün sənədlərdən aydın olur ki, ermənilərin yalan məlumatlarının təsiri altına düşən Fransa hakimiyyət dairələrinin bu süründürməçiliklərdə məqsədi nümayəndə heyətinin başçısı, Azərbaycanın görkəmli siyasi xadimi Ə.M.Topçubaşovu Parisə buraxmamaq idi. M.H.Hacınski mart ayının 30-da Tiflisdəki Azərbaycan nümayəndəsi M.Y.Cəfərova yazırdı ki, əvvəllər Ə.Ağayevə qarşı kampaniya qaldırmışdılar, indi də Topçubaşovu ləkələmək istəyirlər, açıq surətdə bildirirlər ki, o, Parisə buraxılmamalıdır. "Bunun hamısını fransızlar edirlər. İngilislərdən də, amerikanlılardan da yazılı xəbərdarlıq almışıq. Onlar bizim Parisə getməyimizin və tam heyətdə konfrasda iştirakımızın əleyhinə deyillər. Mart ayının axırlarında yaranmış vəziyyətlə əlaqədar Ə.M.Topçubaşovun Sülh heyətinə sədrlikdə dəyişdirilməsi məsələsi meydana çıxmışdı. M.H.Hacınski göstərirdi ki, İstanbulda olan nümayəndələrdən heç kim Əli Mərdan bəyi əvəz etmək məsuliyyətini öz üzərinə götürmək istəmir. Onun fikrincə, işə az-çox tanış olan M.Y.Cəfərovun və X.Xasməmmədovun nümayəndə heyətinə əlavə edilməsi yaxşı olardı. O yazırdı: "Fətəli xanı təklif etməyə qorxuram, çünki Parisdə Azərbaycan hökumətinin başçısı kimi guya erməni qırğını törətməkdə onu günahlandırıb, ləkələməyə başlayacaqlar".[704]

Azərbaycan Respublikasının Batumda olan konsulu da Bakıya göndərdiyi məlumatda təsdiq edirdi ki, ermənilərin intriqası nəticəsində müttəfiqlər Əli Mərdan bəyi Parisə buraxmaq istəmirlər. M.Əfəndiyev yazırdı: "Məndə olan məlumata görə xaricdə olan erməni nümayəndələrinin ciddi cəhdləri nəticəsində bizim Əli Mərdan bəy, Əhməd bəy kimi yaxşı xadimlərimiz, indi bizə lazım olan

[702] Yenə orada, v. 11
[703] ARDA, f.970, s.1, i.142, v.4
[704] M.H.Hacınskinin M.Y.Cəfərova məktubu. 30.03.1919.// ARDA, f.970, s.l, i. 141, v.6



downloaded from KitabYurdu.az

məqamda, o, xaricilərin gözündə hörmətdən salınır ki, həmin xaricilər bizim taleyimizi həll etməlidirlər. İstanbulda çıxan müttəfiqlərin mətbuatı və xüsusən, fransız qəzetləri Əhməd bəydən sonra, bizim çox hörmətli, tanınmış xadimimiz və Azərbaycanın patriotu Əli Mərdan bəyin nüfuzunu aşağı salmaq üçün ona böhtanlar yağdırmağa başlamışlar".[705] Ə.Ağayev və Ə.M.Topçubaşova qarşı qaldırılan kampaniya heç də təsadüfi deyildi. Ermənilər çox yaxşı bilirdilər ki, bunlar Qafqazda milli məsələni çox gözəl bilən, məhdud millətçilikdən uzaq, geniş dünyagörüşə malik demokratik ruhlu ziyalılar idi. Onların hər ikisi hələ 1905-ci il hadisələrindən sonra 1906-cı ildə ermənilərlə müsəlmanlar arasında Tiflisdə keçirilən sülh danışıqlarının iştirakçısı olmuşdular. Ə.M.Topçubaşov 1915-ci ildə Türkiyənin Şərq vilayətində baş verən hadisələr barəsində ermənilərin də, ermənipərəst rus mətbuatının da qaldırdığı hay-küylə bağlı bilavasitə hadisələrin baş verdiyi vilayətlərdə olmuş və ermənilərin qaldırdığı təbliğat kampaniyasının müxtəlif məqsədlərə xidmət etdiyini göstərmişdi. İndi ermənilər bu iki tanınmış siyasi xadimlərə qarşı kampaniya aparmaqla, Qərb siyasi dairələrində onlar haqqında yanlış təsəvvürlər yaratmaqla, Azərbaycan nümayəndə heyətini həm güc, həm nüfuz, həm də intellekt baxımından zəiflətmək istəyirdilər.

Fransa nümayəndəliyindəki mübahisədən sonra M.H.Hacınski Bakıya vurduğu teleqramında bildirirdi ki, Fransa hökuməti bizim nümayəndəliyin Parisə buraxılmasına icazə vermir. Burada söhbət nümayəndəliyin tam heyətdə Fransa paytaxtına buraxılmasından gedirdi. Azərbaycan hökuməti də yaranmış vəziyyətlə əlaqədar bərk narahatçılıq keçirirdi. Mart ayının 30-da F.X.Xoyski İstanbula ingilis komandanlığı vasitəsi ilə göndərdiyi teleqramda işlərin vəziyyətini və nümayəndə heyətinin yola düşəcəyi vaxtı bildirməyi xahiş edirdi. Bununla yanaşı, Azərbaycan nümayəndə heyətinə bildirilirdi ki, Batum və Qars vilayətlərində təşkil olunmuş Cənub-Qərbi Qafqaz Respublikasının müstəqilliyinə, general Denikinin Dağlılar Respublikasından çıxarılmasına nail olsunlar. Teleqramda deyilirdi: "Qarabağ, Naxçıvan və Sürməlini Ermənistanın, Axalsıx, Axalkələk və Borçalını gürcülərin iddialarından müdafiə edin".[706] Artıq aprel ayının əvvəllərində nümayəndəlik tam heyətdə gedə bilmədiyinə əmin olduqdan sonra öz üzvlərindən üç nəfərin Parisə getməsinə razılıq vermişdi. Aprel ayının 7-də Bakıya bu məzmunda bir teleqram göndərildi: "Bakıya - Azərbaycan Respublikası Nazirlər Şurasının sədri Fətəli Xan Xoyskiyə. Nümayəndəlik yola düşə bilmir. Parisə Hacınskinin, Ceyhunun və Məhərrəmovun getməsinə icazə verirlər. Mən burada qalmağa məcburam. Başqa nümayəndələr Londona getməyə çalışırlar. Bura təzə adamlar göndərəcəyiniz halda

---

[705] Azərbaycan Respublikasının Batumdakı konsulu M.Əfəndiyevin Xarici İşlər Nazirliyinə məktubu. 03.04.1919.//ARDA, f.970. s.1, i.141, v.6

[706] Azərbaycan Respublikası Nazirlər Şurasının sədri və xarici işlər naziri F.X.Xoyskinin Ə.M.Topçubaşova teleqramı.30.03.1919.//ARDA, f.970, s.l, i.141, v.10



downloaded from KitabYurdu.az

onların Parisə buraxılışını orada, Bakıda təmin edin. Nümayəndə heyətinin prezidenti Topçubaşov".[707]

Azərbaycan nümayəndələri ümidlərini üzməyərək, Parisə gedib Azərbaycanın hüququnu və mənafeyini müdafiə etmək üçün döymədikləri qapı qoymadılar. Nümayəndə heyətinin iclasında qərara alındı ki, Sülh konfransının sədrinə, Amerika, Böyük Britaniya, Fransa və İtaliya Baş Nazirlərinə teleqramla müraciət edilsin. Aprel ayının 8-də həmin teleqramın mətni hazırlanıb, qeyd edilən ünvanlara göndərildi. Orada göstərildi: "Cənab sədr, sizə bildirməyi özümə şərəf hesab edirəm ki, tərkibində Azərbaycan parlamentinin sədri və beş üzvü olan Azərbaycan Respublikasının sülh nümayəndə heyəti yanvar ayının əvvəllərində Bakıdan çıxmış, yanvarın 20-də İstanbula çatmış və indiyə qədər Parisə getməyə icazə ala bilmədiyi üçün burada yubanırlar. Nəzərə alın ki, Qafqazda Azərbaycan Respublikası ilə qonşu olan erməni, gürcü və Şimali Qafqaz nümayəndələri artıq Parisdədirlər və öz xalqlarını təmsil edirlər. Cənab sədr Azərbaycan sülh nümayəndə heyəti sizdən xahiş edir ki, qeyd edilən nümayəndəliyin Parisə gəlməsi üçün buraxılış verilməsinə və Sülh konfransına buraxılmasına köməklik edəsiniz".[708]

Elə həmin gün Fransa Respublikasının İstanbulda olan fövqəladə səlahiyyətli nazirinə də məktubla müraciət edildi. Məktubun mətni də yuxarıda qeyd edilən teleqramın məzmununa uyğun idi. Lakin məktubda Azərbaycan nümayəndələrinin konfransın çağırıldığı şəhərə buraxılmamasına gətirilən texniki səbəblərin əsassız olduğu göstərilir, öz parlamentindən və hökumətindən vəkalət alan bir nümayəndəliyin sülh konfransında iştirakına maneçilik törədilməsinin beynəlxalq hüquq normalarına zidd olduğu xatırladılırdı. Eyni zamanda Fransa Xarici İşlər Nazirliyinin texniki şöbəsi məlumat vermişdi ki, Azərbaycan nümayəndələrinin Parisə buraxılmaması texniki məsələlərlə bağlı deyildir. Məktubda göstərilirdi ki, fransız generalı Franş D'Esperi ilə razılaşdırılmış 3 nəfər nümayəndənin də Parisə göndərilməsində uzun süründürməçiliyə yol verilir və əsassız maneələr irəli sürülür. Parisə gedəcək üç nəfərin Azərbaycan nümayəndələri tərəfindən deyil, Fransa səlahiyyətli orqanları tərəfindən müəyyən edilməsi Azərbaycan parlamentinə və hökumətinə hörmətsizlik kimi qiymətləndirilirdi və göstərilirdi ki, nə qədər ki, gec deyil Parisə gedəcək üç nəfərin nümayəndəliyin özü tərəfindən müəyyən edilməsinə şərait yaradılsın.[709]

İngilis nümayəndəliyində aparılan danışıqlarda məlum oldu ki, onlar da Ə.M.Topçubaşovu Londona buraxmaq istəmirlər, yalnız Ə.Şeyxülislamov və

---

[707] Ə.M.Topçubaşovun Azərbaycan Respublikası Nazirlər Şurasının sədri və xarici işlər naziri F.X.Xoyskiyə teleqramı. 07.04.1919.// ARDA, f.894, s.10, i. 70, v.2

[708] Ə.M.Topçubaşovun Sülh konfransının sədrinə, ABŞ, Böyük Britaniya, Fransa və İtaliya hökumət başçılarına teleqramı. 08.04.19197/ ARDA, f.970, s.1, i. 140, v.11

[709] Ə.M.Topçubaşovun Fransa hökumətinin İstanbuldakı fövqəladə səlahiyyətli nazirinə məktubu. 08.04.19197/ARDA, f.970, s.1, i.140, v.6-8



downloaded from KitabYurdu.az

M.Mehdiyevin İngiltərəyə getməsinə razılıq verirlər. Aprel ayının 12-də isə Fransa nümayəndələri aprelin 8-də onlara təqdim edilmiş məktuba cavab olaraq bildirdilər ki, yalnız fransızların müəyyən etdikləri üç nəfərə Parisə getməyə icazə verilir. Nəhayət, Azərbaycan nümayəndə heyəti yaranmış vəziyyəti müzakirə edərək belə qərara gəldi ki, bir neçə hissəyə bölünsün. Üç nəfər - M.H.Hacınski, M.Məhərrəmov və C.Hacıbəyli Parisə, iki nəfər - Ə.Şeyxülislamov və M.Mehdiyev Londona getməli, Ə.M.Topçubaşov nümayəndə heyətinin katibliyi, əməkdaşları və texniki işçiləri ilə birlikdə İstanbulda qalmalı idi. Belə olduqda razılıq əldə edilmişdi ki, hərə öz gedəcəyi yerdə nümayəndə heyətinin adından deyil, yalnız onun üzvü kimi fəaliyyət göstərsin. Bu zaman Parisə gedən üç nəfər ən əvvəl bütün səylərini ona yönəltməli idilər ki, nümayəndə heyətinin qalan üzvlərinə də Fransaya gəlmək üçün viza alsınlar.[710]

Ə.M.Topçubaşovun teleqramları və göndərilən kuryer vasitəsi ilə vəziyyətlə tanış olduqdan sonra Azərbaycan hökuməti belə qərara gəldi ki, M.H.Hacınski nümayəndə heyətinin başçısı təyin edilsin və bu məqsədlə aprel ayının 17-də Ə.M. Topçubaşova təcili radioqram göndərildi. Orada bildirilirdi: "Hökumət təklif edir ki, nümayəndə heyətinin üzvləri yubanmasınlar, tezliklə Parisə getməyə çalışsınlar. Əgər şəxsən sizə Paris konfransına getmək mümkün deyilsə, hökumət təklif edir ki, sədrliyi Hacınskiyə verəsiniz, nə olur-olsun nümayəndəliyi göndərmək lazımdır. Nümayəndəliyin tərkibini qüvvətləndirmək üçün bu yaxınlarda yeni adamlar gələcək".[711] Lakin bu teleqramın müzakirəsinə ehtiyac olmadı. ABŞ prezidenti Vudro Vilsonun rəsmi şəkildə Versal Sülh konfransında Qafqaz məsələsini qoymasına bir neçə gün qalmış təcili şəkildə Azərbaycan nümayəndələrini Parisə çağırdılar.[712] 1919-cu ilin aprel ayının 14-də ABŞ-ın dövlət katibi R.Lansinqə Bakı nefti haqqında təqdim olunmuş qısa xülasə Amerikanların Qafqaza marağından xəbər verirdi.[713] Ə.M.Topçubaşovun prezident V.Vilsona müraciətini əsas tutaraq ABŞ dövlət katibi R.Lansinq Azərbaycan nümayəndələrinə viza verilməsi xahişi ilə Fransanın xarici işlər naziri J.M.Pişona məktub göndərdi.[714] Nəhayət, uzun yazışmalardan sonra nümayəndə heyətinin bütün üzvlərinə, texniki işçiləri çıxmaq şərti ilə Parisə getmək üçün pasport və viza verdilər. Aprel ayının 22-də Azərbaycan nümayəndələri İstanbuldan çıxdılar.

---

[710] Azərbaycan Sülh nümayəndəliyinin iclasının protokolu. 12.04.19197/ ARDA, f.970, s.1, i- 142, v.5

[711] Azərbaycan Respublikası Nazirlər Şurasının sədri və xarici işlər naziri F.X.Xoyskinin Ə.M.Topçubaşova radioqramı. 17.04.19197/ ARDA, f.894, s.10, i. 70, v.l

[712] Azərbaycan SSR EA Tarix institutunun əsərləri. XIII cild. Bakı, 1958, s.345

[713] Gouvernement d'Azerbaïdjan. Lettre du 14 avril 1919 à M. Lansing Ministre des Affaires Etrangères des Etats-Unis d'Amèrique, la Commission amèricaine auprès de la Confèrence de la Paix, au sujet de fournitures de pètrole au Gouvemement des Soviets.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 832, folio 52

[714] R.Lansing (American commission to negotiate peace) - His Excellency M.Pichon, Minister of Foreign Affairs of France.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 638, folio 24



downloaded from KitabYurdu.az

İstanbul-Saloniki-Pirey /Afina/-Messina-Neapol xətti ilə üzən gəmi ilə onlar İtaliyaya gəldilər və may ayının 7-də qatarla Romadan Parisə yola düşdülər.[715]

Beləliklə, Azərbaycan nümayəndələrinin İstanbulda üç aydan artıq apardığı gərgin mübarizə öz nəticəsini verdi. Ə.M.Topçubaşov başda olmaqla Azərbaycan Sülh heyəti Versal Sülh konfransının keçirildiyi Paris şəhərinə buraxıldı. Bu, süni maneələrlə üzləşmiş Azərbaycan diplomatiyasının böyük uğuru idi. Yeni yaranmış gənc bir dövlətin nümayəndələri ilk dəfə olaraq, Birinci dünya müharibəsinin hərbi nəticələrini siyasi baxımdan yekunlaşdıran ümumdünya Sülh konfransında Azərbaycanı təmsil edəcəkdilər. Bununla da, Azərbaycan diplomatiyasının qarşısında öz ölkəsini dünyanın taleyini həll edən dövlətlər tərəfindən tanıdılması baxımından yeni üfüqlər açılırdı.

---

[715] ARDA, f.894, s.10, i.70, v.3



downloaded from KitabYurdu.az

## VII FƏSİL

## Azərbaycan Xarici İşlər Nazirliyinin fəaliyyətinin genişlənməsi və Versalda ilk diplomatik addımlar

1919-cu ilin əvvəllərində Azərbaycanın beynəlxalq və daxili vəziyyəti gərgin olaraq qalmaqda idi. Lakin Bakı azad edildikdən sonra hökumətin paytaxta köçməsi və dövlət quruculuğuna başlaması, istər ölkə daxilində və istərsə də Azərbaycanda müvəqqəti yerləşən müttəfiq ordu komandanlığında ona olan etimadı artırmışdı. Noyabr böhranı arxada qalmış, ölkədə parlamentli üsul-idarə yaranmışdı. Əvvəllər müxtəlif bəhanələrlə, daha çox siyasi mülahizələrlə Azərbaycan parlamentində onlar üçün ayrılmış yerlərdən imtina edən rus və erməni deputatları tədricən məclisin işində iştirak etməyə üstünlük verdilər.

Hələ, 1918-ci ilin noyabrında müttəfiqlərin gəlişindən ruhlanıb Azərbaycanı Rusiyanın bir hissəsi hesab edən, "Rusiyanın iradəsindən xəbərdar olmadan biz nə Azərbaycan Respublikasının müstəqilliyini, nə də onun parlamentini tanıma hüququna malik deyilik"[716] - deyən rus milli şurasının nümayəndələri 1919-cu ilin yanvar ayının 30-da Azərbaycanın mövcudluğu faktı ilə barışıb parlamentin işinə qatılmağa qərar verdilər. Rusların bu addımından "ruhlanan" erməni Milli Şurası da Azərbaycan dövlətinin inkar edilməsinin uğursuzluğunu başa düşüb 1919-cu ilin fevral ayının 9-da Nazirlər Şurasının sədri F.X.Xoyskiyə göndərdikləri məktubda parlamentdə iştirak etmək istəklərini bildirdilər. Azərbaycan hökuməti bu müraciətləri dəyərləndirərkən, Azərbaycan parlamentində oturan hər kəsin onun müstəqilliyini tanımasını mühüm şərt kimi irəli sürdü. Rus və erməni Milli Şuralarının üzvləri bu şərtləri qəbul edib Azərbaycan parlamentində təmsil olundular. Azərbaycan Milli Məclisi 1919-cu ilin fevralından başlayaraq tam heyətdə fəaliyyət göstərməyə başladı. Milli azlıqların parlamentdə təmsil olunması müəyyən çətinliklər yaratsa da, hökumət bu məsələni səbr və təmkinlə yoluna qoyurdu. Lakin siyasi xarakterli çətinliklər yalnız bununla bitmirdi. Parlamentdə təmsil olunan sol və islamçı partiyalar ölkənin daxilindəki, xüsusilə onun beynəlxalq aləmə inteqrasiya olmaq yolundakı çətinlikləri nəzərə almayaraq tez-tez hakimiyyət böhranı yaratmağa meylli idilər. Yanvar ayının 28-də parlamentin on birinci iclasında İttihad fraksiyasının 3 bənddən ibarət sorğusu belə meyllərin aydın təzahürü idi. Sorğuda neft möhtəkirliyi, taxıl məhsullarının talanması və H.Z.Tağıyev fabrikində bezlə bağlı məsələlərin araşdırılması tələb edilirdi.[717] Bir sıra nazirlərin izahatından sonra fevral ayının 5-də baş nazir Fətəli xan parlament iclasında çıxış edərək bəzi məsələlərə aydınlıq gətirdi. O dedi: "Siz bunu bilirsiniz ki, Azərbaycanın istiqlalı hər dəqiqə təhlükədədir. Bilirsiniz, indi elə vaxtdır ki, nəinki bez və çit, hətta elə əhval çıxa bilər ki, Azərbaycan belə qalmaz, istiqlalımız

---

[716] Единая Россия, 1918, 17 декабря.
[717] Azərbaycan Xalq Cümhuriyyəti. Parlament, I cild, s.213-226



downloaded from KitabYurdu.az

əldən gedər. Belə mühüm zamanlarda hökumət işlərini Tağıyev fabrikasının bezi ilə ölçmək olarmı? Bilirsiniz ki, hökumətin həftədə 5-6 iclası olur, gecə saat ikiyədək otururuq, lakin bu neçə vaxtda iş o qədər olmuşdur ki, sorğudakı məsələlərə keçmək mümkün olmamışdır. Xarici siyasət o qədər gərgin olmuşdur ki, sıradakı məsələlərə keçmək mümkün olmamışdır. Bu halda mümkündürmü hökumət gedib sənin bezlərini ölçsün, Azərbaycanın başına bir bəla gələrsə, onda bez nəyə gərək, çit və neft nəyə gərək olar."[718] F.X.Xoyskinin bu sözlərinə və Müsavat partiyasının ciddi cədhlərinə baxmayaraq hökumət böhranının qarşısını almaq mümkün olmadı. Baş nazir fevral ayının 25-də səhhəti ilə bağlı səlahiyyətlərinin təhvil verilməsi haqqında bəyanatla çıxış etdi. Yeni hökumətin təşkili N.Usubbəyova tapşırıldı.

Uzun müzakirələrdən sonra N.Usubbəyov aprel ayının 14-də dördüncü hökumət kabinetinin tərkibini parlamentə təqdim etdi. Yeni hökumətdə Nazirlər Şurasının sədri və daxili işlər naziri N.Usubbəyov, maliyyə naziri Əliağa Həsənov, ticarət və sənaye naziri Ağa Əminov, xarici işlər naziri Məmməd Yusif Cəfərov, poçt və teleqraf naziri Cəmo bəy Hacınski, ədliyyə və əmək naziri Aslan bəy Səfikürdski, hərbi nazir Səməd bəy Mehmandarov, təminat naziri V.Klenovski, səhiyyə naziri A.Dostakov, maarif və dini etiqad naziri Rəşid bəy Kaplanov, əkinçilik naziri A.Qardaşov, portfelsiz nazir X.Amaspur, nazir müfəttiş N.Nərimanbəyov təsdiq edildilər. Yeni baş nazir N.Usubbəyov aprel ayının 14-də parlamentdə hökumət proqramı ilə çıxış etdi. Xarici siyasət məsələlərinə toxunaraq, o dedi: "Azərbaycan türklərinin yaxın bir zamanda dünyanın bilcümlə mədəni millətləri ailəsinə daxil olacağına ümidimiz qəvidir... Çünki millətin bu əzminə bilavasitə şahid olan böyük və demokratik İngiltərə komandanlığı heyətinin aldığı təəssüratı qərəzsiz, mübaliğəsiz Parisdə toplanan ümumdünya məhkəməsinə ərz edəcəyi şübhəsizdir". N.Usubbəyov Muğanda, Borçalıda, İrəvanda baş verən hadisələrə toxunaraq bildirdi ki, Azərbaycanın ayrılmaz bir hissəsini təşkil edən Lənkəran qəzası hələ yadellilərin əlindədir. 100 minə qədər vətəndaşımızın həyatlarına, irz və namuslarına təcavüz edilir. Azərbaycanın Tiflis və İrəvan vilayətlərində bulunan hissələrinə göz dikənlər dəxi vardır. Şimali Qafqazda cərəyan edən hadisələrə toxunaraq, N.Usubbəyov dedi ki, Şimali Qafqaz azərbaycanlıların vətəni, Azərbaycan Şimali qafqazlı dindaşlarımızın yurdu, ocağı məsabəsindədir. Məlumi-alilərinizdir ki, Denikinin orduları Şimali Qafqazın üzərinə hücum edərək cəsur və şücaətli dindaşlarımızın qarlı dağlarını al qanlara boyayıb, onları və onlarla bərabər bizləri yenidən təhti-əsarətinə almaq fikrindədirlər."[719] Baş nazir hökumətin proqramını elan edərkən, Qarabağın adını çəkmədiyindən müəyyən qüvvələr bundan onu tənqid etmək məqamı kimi istifadəyə cəhd göstərdilər. N.Usubbəyov onlara üzünü tutaraq dedi: "Mənim bəyannaməmdə nə qədər mübahisəli yerlər və məsələ varsa o xüsusda sözümü

[718] Yenə orada, s.263-264
[719] Azərbaycan Xalq Cümlıuriyyəti. Parlament, I cild, s.444-445.



downloaded from KitabYurdu.az

dedim. Çox mübahisəsiz məsələlər vardır ki, hökumət o xüsusda söz söyləməyi artıq bilir. İrəvan, Lənkəran, Tiflis sözü oldusa o da ondan ötəridir ki, onlar mübahisəlidir. Qarabağ xüsusunda mübahisə yoxdur. Onun üçün də mən mübahisəli olmayan məsələ haqqında bir söz söyləməyi artıq bildim. Müsavat fraksiyasının rəhbəri M.Ə.Rəsulzadə söz alaraq, N.Usubbəyovun mövqeyini müdafiə etdi. O dedi: "Meydanda Lənkəran məsələsi var. Çünki Lənkəran daha əlimizdə deyil, çünki oraya hələ Azərbaycan məmuriyyəti təyin edilməmişdir. Tiflis quberniyasında Borçalı məsələsi var. Çünki orası da bizim hökumət və qüvvətimizin xaricindədir. İrəvan quberniyasının bəzi yerlərinə aid məsələlər var. Çünki hökumət oralara hələ nüfuz etməyib, torpaqlarımız başqa əllərdədir. Halbuki Qarabağ məsələsi belə layənhəll halda deyildir. Oraya general-qubernator təyin edilmişdir. Oradakı hüquqi-mülkiyyəmiz, hətta bir dərəcəyə qədər beynəlmiləl bir halı iktisab eləmişdir. Bir də İrəvan quberniyasının davasını edən hökumətdən qalxıb da Qarabağ məsələsini istizah etmək yersizdir. Çünki İrəvana gedən hökumət təbiidir ki, Qarabağ dağlarını aşıb keçmədən gedəməzdi. Bizcə və hökumətcə Qarabağ məsələsi yoxdur. Necə ki, Bakı məsələsi yoxdur. Buna görə də Qarabağ ünvanı ilə vaqə olan hər növ təklifi rədd edirik".[720]

Azərbaycan hökumətinin yeni baş naziri N.Usubbəyov 1881-ci ildə Gəncədə doğulmuş, XX əsrin əvvəllərində Odessa Universitetinin hüquq fakültəsində oxumuş, 1907-ci ildə məşhur türkçü mütəfəkkir İsmayıl bəy Qaspralının "Tərcüman" qəzetinin əməkdaşı olmuşdu. Krımda olarkən, İ.Qaspralının qızı Şəfiqə Soltanla ailə həyatı quran Nəsib bəy 1908-ci ildə Türkiyəyə mühacirət etmiş və 1909-cu ildə Gəncəyə qayıtmışdı. Fevral inqilabından sonra Gəncədə Türk Ədəmi-Mərkəziyyət partiyasını yaradan N.Usubbəyov 1917-ci ilin aprelində Qafqaz müsəlmanlarının Bakı, həmin ilin mayında Rusiya müsəlmanlarının Moskva qurultayının fəal iştirakçısı olmuşdu. M.Ə.Rəsulzadə sonralar onun haqqında yazırdı: "Azərbaycan ideyasını siyasi bir tələb maddəsi şəklində formula etmək şərəfi mərhum Nəsib bəyindir".[721] Azərbaycana səfər edən və baş nazir kimi N.Usubbəyovla görüşən xaricilər onu çox yüksək qiymətləndirirdilər. 1919-cu ilin payızında Qafqaza Britaniya Ali Komissarı təyin edilmiş Oliver Uordrop sentyabrda Bakıya ilk səyahətindən və N.Usubbəyovla keçirdiyi görüşlərdən sonra oktyabrın 2-də Londona göndərdiyi hesabatda yazırdı: "Baş nazir Usubbəyov geniş dünyagörüşə malik, yüksək təhsil görmüş, itiağıllı, liberal ideyalara sədaqətli, səmimi, vicdanlı, qarşısına qoyduğu məqsədə nail olmağa çalışan nəzakətli bir insandır... Baş nazirin ideyaları dini ideyalar deyil, milli ideyalardır. O, bolşevizmə nifrət edir. Onun istədiyi bircə şey varsa, o da ölkəsinin müstəqilliyidir. Onun komandası və kabineti bəzi Avropa ölkələri üçün nümunə ola bilər... Onlar öz işlərini yaxşı idarə edirlər və bütün

---

[720] Azərbaycan parlamentinin iyirmi doqquzuncu iclasının stenoqramı. 14.04.1919.// ARDA, f.895, s.1,i-82, v.70-71
[721] Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası. II cild. Bakı, 2005, c.441



downloaded from KitabYurdu.az

ləyaqətli adamlar kimi, hər şeydən daha çox yeni dünyada öz yerlərini tutmağa can atırlar."[722]

Dördüncü hökumət kabinetində xarici işlər naziri vəzifəsini tutan Məmməd Yusif Cəfərov artıq xeyli vaxt idi ki, diplomatik fəaliyyətlə məşğul olurdu. O, 1918-ci ilin iyunundan xarici işlər naziri vəzifəsinə təyin olunana qədər Azərbaycan hökumətinin Tiflisdə diplomatik nümayəndəsi olmuşdu. Dövrünün savadlı, istedadlı, geniş dünyagörüşə malik adamlarından olan M.Y.Cəfərovun Gürcüstandakı fəaliyyəti faydalı olmuş, o, burada Azərbaycanın siyasi və iqtisadi maraqlarının qorunması istiqamətində qonşu dövlətlərin, Avropa ölkələri və Türkiyənin nümayəndələri ilə diplomatik danışıqlar aparmış, Tiflisdə keçirilən Zaqafqaziya konfransında Azərbaycanı təmsil etmişdi. 1919-cu ilin payızında Bakıya səfər emiş Tiflisdəki Britaniya Ali Komissarı O.Uordrop xarici işlər naziri M.Y.Cəfərovla görüşündən aldığı təəssüratı Londona göndərdiyi şifrəli teleqramda belə ümumiləşdirirdi: "Keçmiş Rusiya Dövlət Dumasında Kadet partiyasının üzvü və eyni zamanda müsəlman fraksiyasının lideri olmuş M.Y.Cəfərov müharibə və inqilablar dövründə Rusiyanın və Cənubi Qafqazın tarixində böyük rol oynamışdır. O, bacarıqlı və çox tanınmış bir natiqdir".[723]

M.Y.Cəfərov 1919-cu ilin aprel ayının 14-də xarici işlər naziri vəzifəsinə başladıqdan sonra həm nazirliyin mərkəzi aparatında, həm də xaricdəki diplomatik nümayəndəliklərdə bir sıra dəyişikliklər etdi. Aprel ayının 15-də xarici işlər nazirliyi üzrə verilmiş 2 saylı əmrdə nazirliyin şəxsi heyəti və diplomatik missiyaların başçıları öz yerlərinə təsdiq edildilər. Yeni əmrə əsasən, Mir Yusif Vəzirov Ukrayna, Polşa və Krımda, Mahmud bəy Əfəndiyev Batumda, Məmməd Xan Təkinski Ermənistanda, Əbdürrəhim bəy Haqverdiyev Dağlılar İttifaqında, Cəfər bəy Rüstəmov Kuban hökumətində, Əkbər ağa Sadıxov Aşqabadda öz diplomatik fəaliyyətlərini davam etdirməli idilər.[724] M.Y.Cəfərovun Bakıya dönüşündən sonra Tiflisdəki Azərbaycan diplomatik nümayəndəliyinə onun müavini olmuş Fariz bəy Vəkilov başçılıq etməyə başladı. Elə fəaliyyətinin ilk günlərində F.Vəkilov 1919-cu ilin martında ermənilər tərəfindən əsir alınmış müsəlman dinc əhalisinin təcili şəkildə azad edilməsi ilə bağlı müttəfiqlərin komandanlığı qarşısında məsələ qaldırdığını xarici işlər nazirliyinə yazırdı. General Biç ilə söhbətində F.Vəkilov ermənilərin bu azğınlığının qarşısının alınmasını ingilis komandanlığından tələb etmişdi. Eyni zamanda Azərbaycanın Paris Sülh konfransındakı nümayəndə heyətinin başçısı Ə.M.Topçubaşovun

---

[722] Cənab O.Uordropun şifrəli teleqramı. 02.10.1919.// Azərbaycan Xalq Cümhuriyyəti. Böyük Britaniyanın Arxiv sənədləri, s. 188-194

[723] Cənab O.Uordropun şifrəli teleqramı. 02.10.1919.// Azərbaycan Xalq Cümhuriyyəti. Böyük Britaniyanın Arxiv sənədləri, s.188

[724] Diplomatik missiyaların başçılarının təyin olunması haqqında xarici işlər nazirliyinin əmrindən çıxarış. 15.04.1919.//ARDA, f.970, s.2, i.157, v.1-2



downloaded from KitabYurdu.az

Bakıya göndərdiyi diplomatik yazışmaların Batumda Britaniya komandanlığı tərəfindən açılmasına qarşı da o, öz etirazını general Biçə bildirmişdi.[725]

M.Y.Cəfərov xarici işlər nazirliyinin operativliyini artırmaq məqsədilə bir sıra struktur islahatların aparılmasına cəhd göstərirdi. Bu məqsədlə o, 1919-cu ilin may ayının 18-də gündəlik informasiyalar üzrə məruzələrin hazırlanması və onların surətlərinin diplomatik nümayəndələrə göndərilməsi haqqında əmr verdi. Əmrdə göstərilirdi: "Dəftərxana direktoruna təklif edilir ki, nazirlik üzrə səliqəli şəkildə gündəlik məlumatlar haqqında məruzələr hazırlanması və onların surətlərinin respublikanın diplomatik nümayəndəlikləri, səfirlik və konsulluqlarına göndərilməsi haqqında sərəncam versin. Eyni zamanda respublikanın bütün diplomatik nümayəndəlikləri və konsulluqları akkreditə olunduqları ölkələrin gündəlik siyasi və dövlət həyatı haqqında eyni məzmunlu məruzələr hazırlayıb nazirliyə təqdim etməli idilər."[726]

M.Y.Cəfərovun təşəbbüsü ilə 1919-cu ilin iyul ayının 9-da xarici işlər nazirliyinin dəftərxanasının müvəqqəti ştat cədvəli təsdiq edildi. Sənədə görə dəftərxana diplomatik, ümumi işlər və təsərrüfat şöbələrindən ibarət olmalı idi. Yeni əsasnamədə ilk dəfə olaraq, xarici işlər nazirliyi şöbələrinin vəzifələri dəqiqliklə göstərilirdi. Əsasnaməyə görə, diplomatik şöbəyə nazirliyin katibi rəhbərlik etməli idi. Şöbə diplomatik xarakterli yazışmalar aparmalı, nazirin göstərişi ilə xarici dövlətlərə təqdim edilmək üçün etiraz notaları, cavab notaları, hökumətin adından məktublar hazırlamalı, müxtəlif akt və sənədlərin xarici və türk dillərindən tərcüməsini təşkil etməli, məxfi xarakterli yazışmalar və şifrələnmə işlərini təmin etməli idi. Ümumi şöbəyə gəldikdə isə, bu şöbə mərkəzi və yerli idarələrlə yazışmaları, respublikaya gələn xaricilərin, xaricə gedən Azərbaycan vətəndaşlarının sənədlərinin qaydaya salınmasını, nazirliyin bütün strukturlarında olan şəxsi heyətin işlərini yoxlamalı, respublikanın müxtəlif idarələrindən parlamentə göndərilən qanun layihələri ilə tanış olmalı, nazirliyin adından qanun layihələri hazırlamalı və rəhbərlik üçün müxtəlif məsələlərə aid hesabatlar tərtib etməli idi.[727] Aparılan struktur islahatlarından sonra xarici işlər nazirliyinin ştat cədvəli 60 nəfərdən ibarət idi. Bura nazir, nazir müavini, məsləhətçi, 4 nəfər dəftərxana, 11 nəfər diplomatik şöbənin, 10 nəfər informasiya şöbəsinin, 10 nəfər ümumi şöbənin, 5 nəfər təsərrüfat şöbəsinin, 17 nəfər arxiv, draqomanat, ümumi qeydiyyat işçiləri daxil idi.[728] Əsasnaməyə görə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin kollegial orqanı kimi Şura yaradılmışdı, Şuraya nazir, onun müavini və məsləhətçiləri daxil idi. Şöbə müdirləri Şuraya dəvət edilir və rəhbərlik etdikləri sahələr üzrə hesabatlar verirdilər. Şura nazirliyin fəaliyyəti ilə bağlı ən

[725] Gürcüstandakı Azərbaycan Respublikasının diplomatik nümayəndəsinin müavini F.Vəkilovun xarici işlər naziri M.Y.Cəfərova məlumatı. 31.03.1919.//ARDA, f.970, s.1, i.54, v.2
[726] Азербайджанская Демократическая Республика. Внешняя политика, с.223
[727] ARDA, f.970, s.2, i.80, v.33-34
[728] ARDA, f.970, s.2, i.132, v.7-69



downloaded from KitabYurdu.az

zəruri məsələləri müzakirə edir və müvafiq qərarlar qəbul edirdi. Məsələn, diplomatik sahədə işləmək arzusu ilə nazirliyə müraciət etmiş bütün şəxslər Şuranın ciddi müzakirəsindən keçirdi. Xarici işlər nazirliyinə işə qəbul edilən şəxs mütləq fransız dilini bilməli və beynəlxalq hüququn əsasları ilə tanış olmalı idi.

Xarici işlər naziri M.Y.Cəfərovun 1919-cu ilin avqust ayının 12-də imzaladığı 27 saylı əmrlə nazirliyin yanında Kartoqrafiya və Statistika şöbələri yaradıldı. 1919-cu ilin sentyabrında bu şöbələr informasiya bürosu ilə birlikdə nazirliyin dəftərxanasına birləşdirildi. Nazirin əmri ilə müəyyən edildi ki, xarici işlər nazirliyindən bütün informasiyalar dəftərxana müdiri ilə razılaşdırıldıqdan sonra İnformasiya Bürosu tərəfindən verilə bilərdi. Siyasi xarakterli məlumatların isə nazirin icazəsi olmadan verilməsi qadağan edilirdi.[729] İnformasiya Bürosunun tərkibində yaradılan kitabxana 8 bölmədən ibarət olub hüquqi, coğrafi, tarixi, etnoqrafik, mədəniyyət, sənaye, soraqlama və inqilabi ədəbiyyatı əhatə etməli idi. Kitabxananın tarix bölməsində Azərbaycan, Türküstan, Türkiyə, Qafqaz və İslam tarixi ilə bağlı ədəbiyyat toplanmalı, toplanan ədəbiyyatdan diplomatik danışıqlar və yazışmalar zamanı istifadə edilməli idi.[730] Toplanan kitablar və məqalələr, abunə olunan qəzet və jurnallar, müxtəlif kanallarla əldə edilən məlumatlar əsasında hazırlanan arayışlar, kitab və broşurlar Azərbaycanın xaricdə yerləşən diplomatik missiyalarına göndərilirdi. Eyni zamanda bu məlumatlar əsasında "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Xəbərləri" adlı dövrü orqanın buraxılması planlaşdırılırdı. Burada nazirliyin əmrlərinin, hökumətin xarici siyasətlə bağlı sərəncamlarının, siyasi hadisələrin xronikasının, Qafqazda və dünyada baş verən hadisələrin təhlilini əks etdirən məqalələrin, mətbuat icmallarının dərc olunması nəzərdə tutulurdu. Jurnal ayda bir dəfə dörd çap vərəqindən az olmayaraq nəşr olunmalı idi.[731]

Azərbaycanın xarici əlaqələrini genişləndirmək məqsədilə M.Y.Cəfərov İstanbulda və Tehranda yeni diplomatik nümayəndəliyin yaradılması haqqında hökumət qarşısında məsələ qaldırmışdı. Hələ 1919-cu ilin mart ayında danışıqlar aparmaq üçün Tehrana İsmayıl xan Ziyadxanov başda olmaqla fövqəladə səlahiyyətli missiya göndərmək məsələsinə xarici işlər nazirliyi yenidən qayıtdı. Bu missiyaya Azərbaycan hökuməti adından səlahiyyət verilirdi ki, İranın Bakıda və Gəncədə, Azərbaycanın isə Tehranda, Təbrizdə, Rəştdə və Məşhəddə diplomatik nümayəndəliklər açmaq məsələsini, İranla Azərbaycan arasında ticarət, poçt-teleqraf, gömrük, su, dəmir və avtomobil yolları ilə əlaqələr yaradılması haqqında müqavilələrin əsas prinsiplərini, sərhəd xəttinin qorunması üçün birgə tədbirlər görülməsini İran tərəfi ilə müzakirə etsin.

---

[729] ARDA, f.970, s.2, i.120, v.20; i.121, v.31
[730] ARDA, f.970, s.l, i.209, v.l
[731] ARDA, f.970, s.l, i.103, v.12-13



downloaded from KitabYurdu.az

1919-cu ilin birinci yarısında bir sıra xarici ölkələrin Azərbaycanda diplomatik nümayəndəlikləri açıldı. Fevral ayının 5-də Tiflisdə yerləşən Qafqazdakı İsveçrə Milli Şurasının rəhbərliyi Bernə göndərdiyi məktubda Bakıda İsveçrə respublikasının diplomatik nümayəndəsinin təyin edilməsini təklif edirdi. Onlar bu vəzifəyə artıq Bakıda olan Robert de Rianın namizədliyini irəli sürürdülər.[732] Fevral ayının 8-də Ukrayna xarici işlər naziri V.Çexovski Azərbaycan Xarici İşlər Nazirliyinə göndərdiyi məktubda Bakıda Ukraynanın diplomatik nümayəndəliyini açmaq arzusunu ifadə edirdi. Azərbaycan Xarici İşlər Nazirliyi cavabında İ.Kraskovskinin Bakıya diplomatik nümayəndə təyin edilməsinə razılığını verdi və Ukrayna diplomatik missiyasının başçısı öz etimadnaməsini Azərbaycan hökumətinin başçısına təqdim etdi.[733] Fevral ayının 19-da polkovnik Karqaleteli Gürcüstan hökumətinin Azərbaycanda hərbi attaşesi təyin edildi. Tiflisdəki Azərbaycan diplomatik nümayəndəliyində isə bu vəzifəni podpolkovnik Məmməd bəy Əliyev yerinə yetirirdi. Mart ayının 9-da isə hökumət qəzeti olan "Azərbaycan" Araz-Türk Respublikasının diplomatik missiyasının Bakıya gəldiyi barədə məlumat verirdi. Qəzet yazırdı: "Missiyanın tərkibinə məşhur şair və dramaturq, Bakı əhalisinə öz pedaqoji fəaliyyəti ilə yaxşı məlum olan Hüseyn Cavid əfəndi daxildir".[734] 1919-cu ilin mart ayının 22-də xarici işlər nazirliyinin təqdimatı ilə Nazirlər Şurasının iclasında Litvanın Bakıdakı konsulluğunun tanınması haqqında qərar qəbul edildi və B.Mitskeviç Litvanın Azərbaycanda konsulu kimi fəaliyyətə başladı.[735] Aprel ayının 19-da Cənub-Qərbi Qafqaz Respublikasının nümayəndəsi V.Ryumin Azərbaycan Respublikasına diplomatik xidmətə göndərilməsi barədə öz hökumətinin qərarını Nazirlər Şurasının sədri N.Usubbəyova çatdırdı."[736]

1919-cu ilin fevral ayının 21-də Gürcüstan xarici işlər naziri qonşu ölkələr arasında dəmir yol hərəkətini, poçt və teleqraf sahəsindəki problemləri, gömrük, maliyyə və mal mübadiləsi məsələlərini müzakirə etmək üçün Qafqaz konfransının keçirilməsi barədə Azərbaycan, Ermənistan və Dağlılar Respublikasına müraciət etdi. Azərbaycan hökuməti bu müraciəti qəbul edərək, mart ayının 5-də daha altı təklifi konfransın müzakirəsinə təqdim etdi. Orada göstərilirdi: 1.Konfransda iştirak edən dövlətlərin qarşılıqlı olaraq, istiqlaliyyətinin tanınması və bu təntənəli aktın bütün dünyaya bəyan edilməsi; 2.Sülh konqresində birgə iştirak və bu respublikaların müstəqilliyinin müdafiəsi sahəsində fəaliyyətlərinin əlaqələndirilməsi; 3.Qafqazdakı yeni dövlətlərin müstəqilliyinə yönəlmiş təcavüzün qarşısının alınması sahəsində tədbirlər; 4.Bütün sərhəd-ərazi məsələlərinin və mübahisələrin sazişlər yolu ilə həlli, saziş əldə etmək mümkün

---

[732] Азербайджанская Демократическая Республика. Внешняя политика, с. 150-151
[733] Азербайджанская Демократическая Республика. Внешняя политика, с. 151
[734] Азербайджан, 1919, 9 марта.
[735] Азербайджанская Демократическая Республика. Внешняя политика, с. 186-187
[736] Yenə orada, c.206



downloaded from KitabYurdu.az

olmadıqda arbitraj vasitəsi ilə həlli; 5.Cənub-Qərbi Qafqaz Respublikası adlı beşinci respublikanın dördlərin danışıqlarında iştirakının arzu edilməsi və zəruri sayılması; 6.Respublikaların hamısı üçün həssas məsələ olan qaçqınlar məsələsinin müzakirəsinin aparılması. Azərbaycan hökuməti konfransın Bakıda keçirilməsini təklif edirdi, lakin bəzi iştirakçılar üçün bu məqbul hesab edilməzdisə, tədbirin Tiflisdə keçirilməsinə də etiraz etmirdi.[737] Beşinci bənd istisna edilməklə Gürcüstan tərəfi konfransın gündəliyinə təklif edilən əlavə məsələlərə öz razılığını bildirdi. Konfransın işini pozmamaq üçün Azərbaycan hökuməti Cənub-Qərbi Qafqaz respublikası məsələsində israr etmədi. Keçmiş baş nazir F.X.Xoyski başda olmaqla Azərbaycan nümayəndə heyəti Tiflisə yola düşdü və aprel ayının 25-də konfrans işə başladı. Konfransın gedişində onun gündəliyində duran məsələləri həll etmək üçün altı komissiya yaradıldı. Azərbaycan nümayəndələrindən X.Xasməmmədov və M.Vəkilov ərazi komissiyasına, A.Samoylov və F.Vəkilov dəmiryolu və poçt əlaqələri komissiyasına, N.Nərimanbəyov və F.Vəzirov maliyyə-iqtisadi komissiyaya, F.X.Xoyski, M.Y.Cəfərov və S.A.Vonsoviç siyasi komissiyaya, doktor M.Vəkilov və podpolkovnik M.Əliyev qaçqınlar komissiyasına daxil edildilər.[738] Qafqaz konfransının ən mühüm nəticələrindən biri ərazi-sərhəd məsələlərinin həlli prinsiplərinin müəyyən edilməsi, birgə bon buraxılması, köçəri əhalinin hərəkət qaydalarını, maliyyə və iqtisadi məsələlərdə bir sıra razılaşmaların əldə edilməsi idi.

Tiflisdə olarkən Azərbaycan nümayəndə heyətinin başçısı F.X.Xoyski may ayının 5-də Gürcüstana gəlmiş Bakıdakı müttəfiq qoşunların komandanı V.Tomsonla görüşüb bir sıra məsələlər barədə müzakirə apardı. Birinci olaraq dəmir yolu ilə bağlı bəzi mübahisəli məqamlara toxunuldu və Xan Xoyski bu məsələdə Azərbaycan hökumətinin siyasətini izah etdi. Daha sonra V.Tomson rəsmi hökumət orqanı olan "Azərbaycan" qəzetində ingilislərin müdafiə etdiyi Denikin ordusunun əleyhinə çağırışların yer aldığından narahatçılığını ifadə etdi. V.Tomson dedi ki, Könüllü orduya qarşı hərbi dəstələrin yaradılmasına yönəlmiş belə çağırışların hökumət qəzetində dərc edilməsi ingilis komandanlığının gözündə xoşagəlməz təəssürat yaradır və müttəfiq ordunun mübarizə apardığı bolşevizmi gücləndirir. Fətəli xan bununla razılaşsa da, lakin bildirdi ki, Denikinin planları bəlli deyildir, indi dağlıları müstəqillikdən məhrum etməyə cəhd göstərirlər, ola bilsin ki, dağlıları məğlub etdikdən sonra onlar öz ordularını daha irəliyə doğru yeridib bizim dövləti təhlükə altına alacaqdır. General Tomson Denikin ordusunun cənuba doğru irəliləməyəcəyini bildirdi. Azərbaycanın müstəqilliyinə gəldikdə isə generalın fikrincə, İngiltərə hökumətinin bu məsələyə münasibəti Azərbaycana yaxşı məlum olmalı idı. O dedi ki, bu münasibət xoşməramlıdır və Azərbaycanın müstəqilliyini Britaniya hökuməti müdafiə edir. Dağıstana gəldikdə isə general

---

[737] Fətəli xan Xoyski. Həyat və fəaliyyəti, s.50-51

[738] Zaqafqaziya konfransındakı Azərbaycan nümayəndəliyinin iclasının protokolu. 03.05.1919. //ARDA, f.897, s.1, i.47, v.5-6



downloaded from KitabYurdu.az

belə hesab edirdi ki, Dağıstan iqtisadi, topoqrafik və digər şərtlərlə bağlı olduğu Azərbaycana birləşdirilməlidir.[739] Əlbəttə, bu ideya general Tomsona məxsus deyildi, belə fikirlər daha çox Dağıstanın özündən gəlirdi. Aprel ayının 15-də Azərbaycanın Dağlılar Respublikasındakı diplomatik nümayəndəsi Ə.Haqverdiyev Teymur xan-Şuradan Bakıya yazırdı ki, Dağıstanın Azərbaycana birləşdirilməsi məsələsi ciddi şəkildə müzakirə edilir. Bir çox ictimai xadimlərin xahişi ilə mən sizə (MY.Cəfərova - C.H.) şifrəli teleqram göndərdim və razılığınızı bildirməyi xahiş etdim. Zəmin hazırdır, on dairədən dördü artıq birləşmənin lehinə öz fikirlərini bildirib, qalanları da qapalı şəkildə bunu arzulayırlar. Bu istiqamətdə müstəsna olaraq, yerli adamlar işləyirlər. Yaxın günlərdə bu məsələ ilə bağlı müdafiə nazirinin keçmiş müavini general Xəlilov Bakıya gələcək. Bu məsələdə xahiş edirəm tələsin. General Raulensonun qeyri-rəsmi bəyanatı özünü doğrultmadığı və Könüllü ordu cənuba doğru hərəkət etdiyi halda, Dağıstan etibarlı müdafiəyə ümid bəsləyə bilməz. Ona görə icazə verin mən Teymur xan Şuraya bir Azərbaycan alayının göndərilməsi barədə hökumətlə danışım. Belə ki, Azərbaycanın taleyi Dağıstanın etibarlı müdafiəsindən asılıdır. Buradakı vəziyyətdən aydın olur ki, ordu sevinclə qarşılanacaq və sonra hadisələr öz məcrasına düşəcək.[740] Əslində, 1919-cu ilin iyununda Qafqaz konfransının öz işini dayandırması, ilk növbədə, Könüllü ordunun cənuba doğru irəliləməsi və Dağıstan üzərinə hücumu ilə bağlı idi. Denikinin Dağıstana soxulması Azərbaycan Respublikası və müəyyən dərəcədə Gürcüstan üçün təhlükə törədirdi. Elə bu zəmində də 1919-cu ilin yayında iki respublikanın yaxınlaşması başladı və bu yaxınlaşma strateji əməkdaşlıq səviyyəsinə yüksəldi.

Qafqazda hadisələrin kəskinləşdiyi bir vaxtda Azərbaycan nümayəndələrinin Parisə buraxılması hökumətin azad dünyaya inteqrasiya olmaq arzularını real müstəviyə keçirdi. Fransaya gəldikdən sonra Azərbaycan nümayəndələri, əvvəlcə Parisin "Terminus - St.Lazare", sonra isə "Klaric" mehmanxanasında yerləşdilər və həmin andan etibarən fəaliyyətə başladılar. Parisdə yerləşdikdən sonra Ə.M.Topçubaşov nümayəndə heyətinin tərkibi və ünvanı haqqında Fransa Xarici İşlər Nazirliyinə məlumat verdi.[741] Nümayəndə heyətinin ilk mühüm addımı hələ İstanbulda Ə.M.Topçubaşov, Ə.Ağayev və C.Hacıbəyov tərəfindən hazırlanmış "Qafqaz Azərbaycanı Respublikasının Paris Sülh konfransına memorandumu" adlı sənədi yenidən işləyib Sülh konfransının keçirildiyi hər iki dildə, fransız və ingilis dillərində kitabça halında nəşrə hazırlamaq oldu. Bu sənəd üzərindəki gərgin işlə bağlı Ə.M.Topçubaşov yazırdı:

---

[739] Xarici işlər naziri M.Y.Cəfərovun Nazirlər Şurasının sədri N.Usubbəyova məlumatı. 07.05.1919. // ARDA, f.970, s.1, i.60, v.2-3

[740] Dağlılar Respublikasında Azərbaycanın diplomatik nümayəndəsi Ə.Haqverdiyevin xarici işlər naziri M.Y.Cəfərova məlumatı. 15.04.1919.// ARDA, f.970, s.l, i.59, v.15-16.

[741] Prèsident de la Dèlègation de Paix de la Rèpublique d'Azerbaïdjan A.M.Toptchibacheff -Ministère des Affaires Etrangères Service des Affaires Russes.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 638, folio 27-28



downloaded from KitabYurdu.az

"Sülh konfransına təqdim etmək üçün bütünlüklə memorandum hazırlamağa girişdiyimiz üçün az əhəmiyyətli məsələlərə, müxtəlif dövlətlərin nümayəndələrinə və nümayəndə heyətlərinə baş çəkməyə müvəqqəti olaraq vaxt ayırmırıq. İndi nümayəndə heyətinin bütün üzvləri bu işlə məşğuldur, ümid edirik ki, memorandum tezliklə hazırlanıb kimə və hara lazımsa, təqdim olunar, sonra daha geniş yaymaq üçün nəşrinə başlanılar".[742] Bu memoranduma çox yüksək keyfiyyətlə işlənmiş rəngli xəritə də əlavə edilmişdi. Həmin xəritə Azərbaycan Respublikası nümayəndəliyi tərəfindən təqdim edilmiş sənədlər əsasında hazırlanmış və fransız coğrafiyaşünası C.Forerin rəhbərliyi altında nəşr edilmişdi.[743] Memorandumla yanaşı, nümayəndə heyətinin üzvləri Azərbaycanı tanıtmaq baxımından əhəmiyyətli olan "Qafqaz Azərbaycanı əhalisinin etnik və antropoloji tərkibi",[744] "Qafqaz Azərbaycanının iqtisadi və maliyyə vəziyyəti"[745] adlı sənədlərin hazırlanmsı üzərində gərgin işləyirdilər. Hər iki sənədin əlyazması 1919-cu ilin iyun ayının 1-də artıq hazır idi və materiallar Sülh konfransının iştirakçılarına göndərilmişdi. Az sonra bu sənədlər kitabça halında nəşr olundular.

Parisə gəldikləri ilk günlərdən Azərbaycan nümayəndələri Fransa paytaxtındakı siyasi iqlimin dərindən öyrənilməsinə xüsusi əhəmiyyət verirdilər. Məğlub dövlətlərə qarşı irəli sürülmüş sülh şərtləri həddindən artıq ağır olduğu üçün Antanta dövlətlərinin siyasətinə qarşı Avropa ölkələrində narazılıq hiss edilməkdə idi. 1919-cu ilin yazında İngiltərə, Fransa, İtaliya, Almaniya və digər ölkələrdə güclü tətillər dalğası başlanmışdı. Müxtəlif ölkələrdə sosialist partiyasının liderləri Antantanın hədsiz tələblərinə və ümumilikdə, konfransın işinə açıq etirazlarını bildirirdilər. Avropada siyasi böhranın dərinləşməsi fonunda Ə.M.Topçubaşov haqlı olaraq yazırdı ki, bizim kimi yeni yaranmış dövlətlərin bütün görüşləri, danışıqları bir sözlə, marağı Antanta nümayəndələrinin diqqət mərkəzində dayana bilməz.[746] Parisdə aparılan ilkin müşahidələr nəticəsində aydın oldu ki, böyük dövlətlər ilk növbədə, rus məsələsinin həll olunmasında maraqlıdırlar. Yalnız, bundan sonra gözlənilirdi ki, Rusiya imperiyasının dağılması nəticəsində yeni yaranmış respublikaların saysız-hesabsız qarşılıqlı mübahisəli məsələlərinə baxılsın.

---

[742] Azərbaycan Respublikasının Paris Sülh konfransındakı nümayəndəliyinin başçısı Ə.M.Topçubaşovun Nazirlər Şurasının sədrinə məktubu. 08.10.2006.// ARDA, f.970, s.1, i.9, v.9

[743] Tarix, 1991, 23 fevral.

[744] Dèlègation Azerbaïdjanienne à la Confèrence de la Paix. Composition Anthropologique et Ethnique de la Population de l'Azerbaïdjan du Caucase. Classè 1er juin 1919.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 638, folio 44-52

[745] Dèlègation de l'Azerbaïdjan à la Confèrence de la Paix à Paris. Situationèconomique et financière de la Rèpublique de l'Azerbaïdjan du Caucase. Classè 1er juin 1919.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 638, folio 29-43

[746] Azərbaycan Rcspublikasının Paris Sülh konfransındakı nümayəndəliyinin başçısı Ə.M.Topçubaşovun Nazirlər Şurasının sədrinə məktubu. 08.10.2006. // ARDA, f.970, s.l, i-143, v.3



downloaded from KitabYurdu.az

Parisdə Rusiyanın müxtəlif, çoxsaylı nümayəndələri toplanmışdı. Bunların bir qismi ağqvardiyaçı hökumətləri, digər bir qismi ayrı-ayrı siyasi partiyaları təmsil edirdi. Vaxtilə Rusiya imperiyasının müxtəlif ölkələrdə olan səfirlərinin demək olar ki, hamısı Versala gəlmişdilər. Bir çox məsələlərdə onlar arasında ziddiyyətlər olsa da, lakin hamısı "vahid və bölünməz Rusiya" fikrində həmrəydilər. Azərbaycan nümayəndə heyətinin respublika hökumətinə göndərdiyi məlumatda deyilirdi: "Siyasi baxışlarının köklü müxtəlifliyinə baxmayaraq, rusların hamısı "vahid", "bölünməz Rusiya" fikrinin tərəfdarıdırlar. Bu onların şüarıdır. Demokratik Respublikalar Federasiyası və Müəssislər Məclisi fikri arxasında gizlənib, təəssüf ki, dünyanın böyük dövlətləri arasında öz layiqli yerini tutacaq, gələcək Rusiyanın ayrı-ayrı hissələrinin və onların qarşılıqlı münasibətlərinin taleyini həll edirlər. Bura toplanmış Rusiyanın doğma və ögey oğulları köhnə duz-çörəyi unutmuş bütün "yad xalqların" acığına Rusiyanı yenidən yaratmaq haqqında bu sayaq düşünürlər. Lakin bu yad xalqlar, özlərini müstəqil elan etmiş dövlətlərin indiki nümayəndələri "vahid" və "bölünməz Rusiya" haqqında eşitmək belə istəmirlər. Elə buna görə də on gün bundan qabaq (may ayının axırlarında - C.H.) Paris mətbuatı Kolçak hakimiyyətinin keçmiş Rusiyanın bütün ərazisində tanınması imkanı haqda danışmağa başlayanda keçmiş Rusiyadan ayrılmış bütün dövlətlərin nümayəndə heyətləri, o cümlədən Azərbaycan nümayəndə heyəti bir-birinin ardınca qəti etirazlarını bildirdi. Antanta dövlətləri arasında "vahid" və "bölünməz Rusiya" fikrinə ən çox tərəfdar olan onun keçmiş müttəfiqi Fransadır. Müttəfiqlərin başqa üzvləri görünür belə Rusiyanı bir o qədər arzulamırlar, təkcə İngiltərə özünü elə aparır ki, guya belə Rusiyaya onun heç bir etirazı yoxdur.[747]

Fransanın rus məsələsində belə mövqeyi heç də təsadüfi deyildi. Fransızların keçmiş Rusiya imperiyasının bərpa olunmasındakı marağı Rusiyada batan borclarla bağlı idi. Əsasən, sələmçiliklə məşğul olan Fransa imperializminin Rusiyada batmış kapitalının qaytarılmasında 1 milyon 500 min fransızın marağı vardı.[748] Digər tərəfdən isə, "vahid və bölünməz Rusiya" ideyası ilə Fransa siyasi dairələri Avropanın mərkəzində "davakar" Almaniyaya qarşı öz ənənəvi müttəfiqlərini bərpa etmək fikrində idilər.

May ayı ərzində Azərbaycan nümayəndələri Polşa, Gürcüstan, Dağlılar Respublikası, Ermənistan və İran nümayəndə heyətləri ilə görüşlər keçirmişdi. Danışıqlar nəticəsində Qafqaz respublikalarının siyasi-iqtisadi ittifaqının yaradılması qərara alınmışdı. Gürcülər və Dağlılar Azərbaycanla birlikdə bu ittifaqda birləşməyə razı idilər. İttifaqa ermənilər də dəvət edilmişdilər, lakin onlar yalnız Türkiyə və Qafqaz Ermənistanını birləşdirib vahid Ermənistan yaratdıqdan sonra Qafqaz konfederasiyasında iştirak edə biləcəklərini bildirmişdilər.

---

[747] Azərbaycan Respublikasının Paris Sülh Konfransındakı nümayəndəliyinin başçısı Ə.M.Topçubaşovun Nazirlər Şurasının sədrinə məktubu. 08.10.2006. // ARDA, f.970, s.1, i.143, v.4-5.

[748] В.П.Смирнов. Новейшая история Франции. М., 1979, с.43.



downloaded from KitabYurdu.az

May ayının 23-də Parisdə olan Azərbaycan nümayəndələri ingilis nümayəndə heyətinin üzvü ser Luiz Malletlə görüşdülər. Danışıqlar zamanı Cənubi Qafqazda siyasi, hərbi və iqtisadi vəziyyətlə bağlı fikir mübadiləsi edildi, Azərbaycandakı müttəfiq qoşunlarının statusu ilə bağlı bir sıra mühüm məsələlər müzakirə edildi. 1919-cu ilin əvvəllərindən başlayaraq Azərbaycan hökuməti Bakıda ingilis general-qubernatorluğunun ləğv edilməsi uğrunda mübarizə aparırdı. Bu məqsədlə Azərbaycan nümayəndə heyətinin başçısı Ə.M.Topçubaşova da məlumat verilmişdi ki, əlində olan bütün vasitələrlə ingilis general-qubernatorluğunun ləğv edilməsinə çalışsın. Azərbaycan Xarici İşlər Nazirliyinin Ə.M.Topçubaşova teleqramında göstərilirdi: "Nəyin bahasına olursa-olsun, Bakıda ingilis general-qubernatorluğunun ləğv edilməsinə nail olmaq lazımdır. Əks təqdirdə, idarəçilik nöqteyi-nəzərindən dözülməz hesab edilən iki hakimiyyətlilik yaranır. Sonra sizdən belə bir xahişimiz var ki, ingilis komandanlığının bizim maliyyə işlərinə qarışmamasına nail olasınız." Hətta xarici işlər nazirliyi Azərbaycan Respublikasının suverenliyini pozan bu məsələ ilə bağlı Avropa və Amerika dövlətlərinə etiraz notası verilməsini, Avropa mətbuatında bunun Azərbaycanın daxili işlərinə müdaxilə olduğu barədə yazı verilməsini lazım bilirdi.[749] L.Mallet danışıqlar zamanı toxunulmuş məsələlərdə Azərbaycan nümayəndələrinə köməklik göstərəcəyinə vəd verdi. Azərbaycan nümayəndələri ilə danışıqlarda bildirilməsə də, Böyük Britaniya bu zaman qoşunlarını Qafqazdan çıxartmaq barəsində öz müttəfiqləri ilə gizli məsləhətləşmələr aparırdı. ABŞ nümayəndələrinin Azərbaycana artan marağının bir səbəbini də burada axtarmaq lazımdır. Lakin hələ ingilislərin fikri qəti deyildi, onlar bir müddət Azərbaycanda və Gürcüstanda qalmağı, Bakı-Batum dəmir yoluna nəzarət etməyi lazım bilirdilər. Digər tərəfdən isə Cənubi Qafqazda Amerika mandatı məsələsi aprel ayında artıq Sülh konfransının müxtəlif komissiyalarında müzakirə edilmişdi. May ayının 5-də Dördlər Şurasının iclasında ABŞ-a təklif edilmişdi ki, Ermənistana öz ordusunu göndərsin. V.Vilson buna etiraz etməmişdi.[750] Lloyd Corc "Sülh müqavilələri haqqında həqiqətlər" adlı xatirələrində bu məsələ ilə bağlı göstərir ki, Almaniyanın Afrika müstəmləkələrindən hər hansı birinə Amerika mandatı haqqında söhbət getdikdə prezident Vilson sülh konfransındakı çıxışında öz mövqeyini belə izah edirdi: "Filippinlilər indiyə qədər bizim ovcumuzu göynədir. Amerika bir daha Afrikanın zənci tayfalarının idarəçiliyi ilə bağlı yeni eksperiment etmək istəmir. Amerikaya öz ölkəsində heç də az olmayan zəncilərin idarəçiliyinin qayğısı kifayətdir. Lakin Ermənistan və boğazlar üzərində mandat məsələsi meydana çıxanda prezident bu layihəyə çox yaxşı münasibət bəslədi."[751] May ayının 14-də Ermənistan və İstanbul üzərində Amerika mandatı haqqında qətnamə qəbul edildi.

[749] Xarici İşlər Nazirliyinin Paris Sülh Konfransında Azərbaycan nümayəndəliyinin başçısı Ə.M.Topçubaşova məktubu. 14.03.1919. // ARDA, f.970, s.l, i.141, v.9-12
[750] Г.Никольсон. Как делался мир в 1919 г. Москва, 1945, с.257
[751] Д.Ллойд Джордж. Правда о мирных договорах. Т.II, М., 1957, с.389



downloaded from KitabYurdu.az

Lakin mandatlı ərazinin sərhədlərinin müəyyən edilməsi məsələsi açıq saxlanıldı.[752] Bununla belə təxmini də olsa, mandatlı əraziyə Bosfor və Dardanel boğazlarının, "Qara dənizdən Aralıq dənizinə qədər birləşmiş türk, fars və rus Ermənistanının"[753] daxil olacağı nəzərdə tutulmuşdu. Bu, həm ermənilərin konfransa təqdim etdiyi tələblərə, həm də respublikaçı senator Henri Kobet Locun senatın müzakirəsinə verdiyi qətnamə layihəsinə uyğun idi. Ermənistan üzərində ABŞ mandatı ilə bağlı Sülh konfransının müzakirəsinə iki alternativ layihə verilmişdi. Birinci layihə əsasında ABŞ bütün Türkiyə və Ermənistana mandat alırdı, ikinci layihəyə əsasən, Amerikaya, ancaq Ermənistan və Kilikiya üzərində mandat verilirdi. Bu halda həmin mandat rus məsələsi həll edilənə qədər Azərbaycana və Gürcüstana da aid edilməli idi. Lakin sonralar ABŞ-ın bu regionda güclənəcəyindən ehtiyat edən müttəfiqlər Amerika mandatının yalnız, Ermənistanla məhdudlaşmasını lazım bildilər. Lloyd Corc haqlı olaraq qeyd edirdi ki, Türkiyənin mandatlar vasitəsilə müttəfiqlər arasında bölüşdürülməsi arzuolunmaz nəticələr verə bilər. Onun fikrincə, belə yanaşma müttəfiqlərlə Türkiyə arasında müharibənin davam etdirilməsinə gətirib çıxara bilərdi. Lakin dünya müharibəsi yenicə qurtardığı üçün Lloyd Corcun təbirincə desək, nə Böyük Britaniyanın, nə Fransa və İtaliyanın, nə də ABŞ-ın yenidən vuruşmağa nə həvəsi, nə də imkanı vardı.

Hələ may ayının 2-də prezident V.Vilsonun təşəbbüsü ilə ilk dəfə Azərbaycan da daxil olmaqla Cənubi Qafqaz məsələsi ABŞ, Böyük Britaniya, Fransa və İtaliya hökumət başçılarından ibarət olan Dördlər Şurasının iclasında müzakirə edilmişdi.[754] Boğazlar və Qafqaz üzərindəki mandatlar məsələsi ilə bağlı müzakirələr ABŞ rəhbərlərinin Qafqaz respublikaları ilə görüşlər keçirilməsinə marağını artırmışdı və ümumiyyətlə, Versalda olan Amerika nümayəndələri bu məsələ ilə bağlı yeni yaranmış Qafqaz dövlətlərinin fikrini öyrənmək istəyirdilər. Elə bu məqsədlə də Amerika prezidenti Vudro Vilson may ayının axırlarında Azərbaycan nümayəndələrini qəbul etdi. Öz növbəsində Azərbaycan nümayəndə heyəti də bu görüşə böyük əhəmiyyət verirdi. Bu görüşün keçirilməsi Azərbaycan nümayəndələri üçün tarixi bir günə - may ayının 28-nə, istiqlalın birinci ildönümü gününə təsadüf edirdi. May ayının 28-də günün birinci yarısında Ə.M.Topçubaşovu ABŞ nümayəndə heyətinin üzvü, Amerika diplomatı Henri Morqentau qəbul etdi. H.Morqentau müharibə illərində ABŞ-ın Türkiyədə səfiri olmuşdu, 1919-cu ildən isə Yaxın Şərqə Amerika yardımı komitəsinin sədr müavini idi.[755] Danışıqlar zamanı günün ikinci yarısı keçiriləcək prezident V.Vilsonla Azərbaycan nümayəndələrinin görüşünün bir sıra mühüm məqamları müzakirə edildi. Azərbaycanın zəngin təbii ehtiyatlarını və güclü sənaye

[752] Papers Relating of the Foreign Relations of the United States, 1919, vol.V, p.622
[753] Архив полковника Хауза. Т.4. М., 1944, с.220
[754] Б.Е.Штейн. "Русский вопрос" на Парижской мирной конференции, с.346.
[755] Who's who in America? Vol.2. Chicago, 1950, p.383.



downloaded from KitabYurdu.az

potensialını nəzərə alaraq, H.Morqentau Amerika kapitalının Azərbaycana istiqamətləndirilməsinin və Azərbaycan hökumətinə maliyyə yardımı göstərilməsinin mümkünlüyünü qeyd etdi.[756]

May ayının 28-də günün ikinci yarısı Azərbaycan nümayəndə heyəti prezident V.Vilson tərəfindən qəbul edildi. Bununla bağlı Ə.M.Topçubaşov yazırdı: "Bizim nümayəndə heyətinin prezident Vudro Vilson tərəfindən qəbulunu çox böyük hadisə hesab etmək lazımdır, çünki başqa Antanta dövlətlərinin başçıları kimi, o da nümayəndə heyətlərini qəbul etmir."[757] Görüş zamanı Azərbaycan nümayəndə heyətinin başçısı Ə.M.Topçubaşov ABŞ prezidenti V.Vilsona müraciət edərək bildirdi ki, xalqların dinc yanaşı yaşaması, bütün millətlərin, o cümlədən kiçik millətlərin öz taleyini həll etməsi haqqında ali prinsiplərin müəllifi olan Böyük Amerikanın prezidenti Vilsonu Azərbaycan nümayəndə heyəti adından görməyi və salamlamağı özü üçün xoşbəxtlik hesab edir. Biz uzaq Qafqazdan, buradan bir neçə min mil uzaq olan Azərbaycandan gələrək, xalqımızın azad və müstəqil həyatı üçün Sizə minnətdarlığımızı bildiririk. Qüdrətli Amerikanın nümayəndəsi kimi, sizə müraciət edib xahiş edirik ki, cənab prezident bizim ölkəmiz, bizim xalqımız və elə bizim özümüz haqqında məlumatları bizdən eşidəsiniz. Çünki biz Avropa və Amerika mətbuatında tez-tez Azərbaycan haqqında səhv, saxtalaşdırılmış və həqiqətə uyğun olmayan məlumatların verilməsini eşitməli oluruq. Düzdür, bizi hələ yaxşı tanımırlar, biz indi birinci dəfədir ki, Avropadayıq, lakin sizi əmin edirik ki, müstəqil yaşamaq üçün bizdə hər şey vardır. Biz ümid edirik ki, konfrans bizi dinləyəcək və biz Millətlər Cəmiyyətinə buraxılacağıq. Biz əminik ki, bütün xalqlar kimi biz də sizin böyük prinsipləriniz əsasında yardım alacağıq.[758] Çıxışının sonunda Ə.M.Topçubaşov deyirdi: "Biz bildiririk ki, nə Kolçakın, nə Denikinin, nə də köhnə Rusiya imperiyasının hüdudlarında hakimiyyəti bərpa etmək niyyətində olan qeyri birisini tanımayacağıq. Biz Azərbaycan üçün yalnız öz parlamentimizi və öz hökumətimizi tanıyırıq və tanıyacağıq."[759] Ə.M.Topçubaşov öz çıxışında Qafqaz xalqlarının - azərbaycanlılar, ermənilər, gürcülər və dağlıların konfederasiyasının mümkünlüyünü prezident Vudro Vilsona bildirdi və Qafqaz Azərbaycan Respublikası nümayəndələrinin memorandumu Amerika prezidentinə təqdim

---

[756] Azərbaycan Respublikasının Paris Sülh konfransındakı nümayəndəliyinin başçısı Ə.M.Topçubaşovun ABŞ nümayəndə heyətinin üzvü H.Morqentau ilə söhbəti. 28.05.1919.// ARDA, f.970, s.1.i.146, v.11

[757] Azərbaycan Respublikasının Paris Sülh konfransındakı nümayəndəliyinin başçısı Ə.M.Topçubaşovun nümayəndəliyin ABŞ prezidenti V.Vilson tərəfindən qəbul edilməsi haqqında Nazirlər Şurasının sədri N.Usubbəyova məlumatı. 28.05.1919.// ARDA, f.970, s.1, i-143, v.7

[758] Azərbaycan Respublikasının Paris Sülh konfransındakı nümayəndəliyinin başçısı Ə.M.Topçubaşovun ABŞ prezidenti V.Vilsonla söhbəti. 28.05.1919. // ARDA, f.970, s.l, i.143, v.41

[759] А.М.Топчибашев. Письма из Парижа. Баку, 1998, с.38



downloaded from KitabYurdu.az

edildi.[760] Prezident Vilsona təqdim edilən memorandum qısa tarixi-siyasi səpkidə hazırlanmışdı. Orada Qafqazda və Azərbaycanda cərəyan edən hadisələr təsvir edildikdən sonra Versal Sülh konfransının rəhbərlərindən biri kimi Amerika prezidenti Vilsona Azərbaycan nümayəndələrinin tələbləri verilirdi. V.Vilsona təqdim edilən memorandumda 1918-ci ilin may ayının 28-də, Mərkəzi Rusiyada bolşevik inqilabından sonra Milli Şuranın Azərbaycan xalqının iradəsini ifadə edərək, müstəqil respublika yaratdığı qeyd edilirdi. İndi Azərbaycanda ali hakimiyyətin tərkibində, təkcə azərbaycanlıların deyil, respublikanın hüdudlarında yaşayan erməni, rus, polyak və yəhudilərin olduğu parlamentə məxsusluğu göstərilirdi. Böyük müharibə illərində Azərbaycanın müttəfiqlərə göstərdiyi maddi yardımdan bəhs edilərək, sənəddə qeyd edilirdi ki, Azərbaycan xalqı hərbi mükəlləfiyyətdən azad olsa da, onun nümayəndələri könüllülər şəklində general Xan Naxçıvanskinin komandanlığı altında Rusiya imperiyası tərəfindən müttəfiqlərin işi uğrunda vuruşmuşlar. Azərbaycanlılardan general Səməd bəy Mehmandarov, Əliağa Şıxlınski, İbrahim ağa Usubov və digər 200-dən artıq zabit öz mərdliyi və qəhrəmanlıqları ilə fərqlənmişlər. Eyni zamanda Azərbaycanın Antanta Ordusunun tibbi ehtiyaclarının ödənilməsində də iştirak etdiyi, öz xəstəxanalarının və müxtəlif tibbi müəssisələrinin müttəfiq ordularının ixtiyarına verildiyi memorandumda göstərilirdi. Azərbaycan xalqının ruhuna uyğun olmayan xarici müdaxiləçi bolşevik bandalarına qarşı bütün vasitələrlə mübarizə aparıldığı və bu yolda çoxlu qurbanlar verildiyi memorandumda xatırladılırdı. Sənəddə Azərbaycanın coğrafi və etnoqrafik baxımdan Rusiya ilə əlaqəsi olmadığı əsaslandırılaraq göstərilirdi: "Bizim ölkənin coğrafi vəziyyətinə diqqət yetirilsə, onun Rusiyadan ayrı qrupa aid olduğunu asanlıqla görmək olar. Qafqaz sıra dağları onu Rusiyadan ayırır, etnoqrafik baxımdan da belədir, bizim xalqın Rusiyanın slavyan xalqları ilə heç bir ümumi cəhəti yoxdur." Memorandumun axırında göstərilirdi ki, Azərbaycan xalqı qəti şəkildə bu ümiddədir ki, göndərdiyi nümayəndələrin fəaliyyəti və bütün dünyada sülhün və təhlükəsizliyin carçısı, bütün beynəlxalq münaqişələrin vasitəçisi olan sizin himayədarlığınız sayəsində onun milli ehtiyacları ödəniləcəkdir.[761] Görüş zamanı Azərbaycan nümayəndə heyətinin tələbləri V.Vilsona verildi. Altı bənddən ibarət olan bu tələblərdə prezidentdən xahiş edilirdi: 1. Azərbaycanın müstəqilliyi tanınsın; 2. Vilsonun prinsipləri Azərbaycana da şamil edilsin; 3. Azərbaycan nümayəndələri Sülh konfransına buraxılsın; 4. Azərbaycan Millətlər Cəmiyyətinin üzvlüyünə qəbul edilsin; 5. ABŞ-ın hərbi departamentliyi Azərbaycana hərbi yardım göstərsin; 6.

[760] Memoire adresse par la Delegation a la Conference de la Paix de Republique de l'Azerbaidjan du Caucase A M. le President Wilson. Paris, Le 28 mai 1919. //Bulletin D'Information de L'Azcrbaidjan,1919, 1 Septembre, №1, p.6-7

[761] Paris Sülh konfransındakı Azərbaycan nümayəndəliyinin ABŞ prezidenti V.Vilsona təqdim etdiyi Memorandum. 28.05.1919. // ARDA, f.970, s.1, i.143, v.38



downloaded from KitabYurdu.az

ABŞ-la Azərbaycan Respublikası arasında diplomatik münasibətlər yaradılsın.[762] Danışıqlar zamanı ABŞ tərəfindən bu tələblərin qəbul ediləcəyi təqdirdə Ə.M.Topçubaşov Azərbaycanın keçmişdə tərkibində olduğu çar Rusiyasının borclarından öz payına düşəni tədricən ödəyəcəyinə təminat verirdi. Söhbət zamanı V.Vilson Azərbaycan nümayəndələrini görməyə və Azərbaycan haqqında xeyli material aldığına çox şad olduğunu bildirdi. Lakin Azərbaycanın müstəqilliyinin tanınması məsələsini açıq saxlayaraq dedi: 1. Amerikanlar dünyanı kiçik hissələrə bölmək istəmirlər; 2. Əgər Azərbaycan Qafqaz Federasiyası yaratmaq fikrinə qoşulsa, bu, onun üçün yaxşı olar; 3. Bu Konfederasiya Millətlər Cəmiyyətinin təklifi ilə hər hansısa bir dövlətin köməyinə arxalana bilər, 4. Azərbaycan məsələsi rus məsələsindən əvvəl həll edilə bilməz.[763] Danışıqlar zamanı yerlərdə vəziyyəti öyrənmək üçün Qafqaza xüsusi Amerika missiyası göndəriləcəyi barədə Azərbaycan nümayəndələrinə məlumat verildi. Lakin bu missiya xeyli gec, yalnız 1919-cu ilin oktyabrında gəlib Bakıya çıxdı.

Vilsonun Azərbaycana münasibətdə tərəddüdlü mövqeyi bir sıra amillərlə bağlı idi. Birincisi, bütün müəlliflər təsdiq edirlər ki, V.Vilson ermənipərəst bir siyasi xadim idi və erməni missionerləri Qafqazda cərəyan edən hadisələr haqqında ona xeyli saxta məlumatlar vermişdilər.

İkincisi, görüşün keçirildiyi gün Azərbaycan nümayəndələri üçün əlamətdar bir gün olsa da, ümumilikdə dövr yeni yaranmış respublikalar üçün əlverişli deyildi. Belə ki, 1919-cu ilin yazında Rusiyada ağqvardiyaçı generalların - Kolçak, Denikin, Yudeniç və digərlərinin fəallaşması müttəfiqlərin rəhbərlərinin, o cümlədən V.Vilsonun Rusiyanın bərpa olunacağına ümidini artırmışdı. Üçüncüsü isə, Azərbaycan nümayəndələri ilə görüşdən iki gün əvvəl, may ayının 26-da Dördlər Şurasının iclasında Kolçak hökumətini tanımaq barədə Vilson, Lloyd Corc, Klemanso, Orlando və Sayondzi tərəfindən nota imzalanıb gizli şəkildə Kolçaka göndərilmişdi. Lakin bütün bunlara baxmayaraq, V.Vilsonun Azərbaycan nümayəndələrini qəbul etməsi mühüm siyasi əhəmiyyətə malik bir hadisə idi. Bundan sonra Sülh konfransının digər rəhbərlərinin də Azərbaycan nümayəndələrini qəbul edəcəyi gözlənilirdi. Ə.M.Topçubaşov Azərbaycan hökumətinə göndərdiyi məlumatda yazırdı: "Bizim atdığımız bir neçə addım belə bir ümid doğurur ki, nümayəndə heyətimizi Sülh konfransının sədri (Jorj Klemanso - C.H.), habelə İngiltərənin, İtaliyanın, Yaponiyanın baş nazirləri qəbul edəcəklər. İndi məndə belə bir məlumat var ki, bizi Balfur və Orlando qəbul edəcək."[764]

Azərbaycan nümayəndələrinin Amerika prezidenti Vilson tərəfindən qəbul edilməsi, istər Azərbaycan Sovet və istərsə də xarici tarixşünaslıqda birmənalı

---

[762] Memoire adresse par la Delegation a la Conference de la Paix de Republique de l'Azerbaidjan du Caucase A M. le President Wilson. Paris, Le 28 mai 1919. //Bulletin D'Information de L'Azerbaidjan,1919, 1 Septembre, №1, p7

[763] А.М.Топчибашев. Письма из Парижа. Баку, 1998, с.38

[764] А.М.Топчибашев. Письма из Парижа. Баку, 1998, с.38-39



downloaded from KitabYurdu.az

qiymətləndirilmir. Bu faktın siyasi əhəmiyyətini izah etmədən, Amerika prezidentinə təqdim edilən tələbləri təhlil etmədən müəlliflər bəzən belə bir səhv nəticəyə gəlirlər ki, müsavat nümayəndələri Azərbaycanı ABŞ-ın "müstəmləkəsinə" çevirmək istəyirdilər. 1919-cu ilin mayında görüş zamanı prezident Vilsonun Azərbaycana hələlik qeyri-müəyyən münasibətini xarici tarixçilərdən T.Svyatoçevski daha inandırıcı formada izah edir. Onun fikrincə, "Versal dövlətləri separatist hökumətləri tanımaqla Rusiya ilə gələcək münasibətlərdə öz əl-qollarını bağlamağa tələsmirdilər."[765] Ona görə də qəbul zamanı Amerika prezidenti Azərbaycan nümayəndələrinə "ümidverici bir şey demədi."[766]

Vilson tərəfindən Azərbaycan nümayəndələrinin qəbul edilməsi xəbəri may ayının 31-də radio məlumatlarından alınmış və Batuma gələn fransız mətbuatı da bu faktı təsdiq etmişdi.[767] Bu zaman Azərbaycanda istiqlalın birinci ildönümü təntənəli şəkildə keçirilirdi. Parlamentin bayram iclasındakı çıxışında Nazirlər Şurasının sədri N.Usubbəyov Sülh konfransına böyük ümid bəslədiyini bildirərək deyirdi: "Azərbaycanın müstəqilliyi baş vermiş bir faktdır. Mən Sülh konfransının son sözünü tam soyuqqanlıqla gözləyirəm. Ağlım kəsmir ki, dünyanın ən mədəni xalqlarının nümayəndələri Azərbaycan türklərinin arzu və istəklərinə biganə qalsınlar. Əks təqdirdə, məndə bu xalqların mədəni xalqlar olmasına şübhə oyanardı və Azərbaycan türkləri gələcəkdə öz müqəddəratlarını təyin etmək kimi müqəddəs bir hüququ həyata keçirməyə çalışarkən, böyük mədəni xalqları fanatizmə və dini ədavətə görə məzəmmət etməkdə haqlı olardılar."[768]

Bütün qeyri-müəyyən məqamlarına baxmayaraq, üç ay İstanbulda oturub viza gözləyən Azərbaycan nümayəndələri üçün Amerika prezidenti tərəfindən qəbul olunma faktı əhəmiyyətli hadisə idi. Lakin prezident Vilsonun qeyri-müəyyən cavabları heç də Azərbaycan nümayəndələrini ümidsizləşdirmədi. Amerika tarixçisi F.Kazımzadə obrazlı formada yazır ki, Azərbaycan nümayəndələri "Amerika prezidentinin ürəyini fəth edə bilmədikdən sonra onlar konfransa öz rəsmi tələblərini təqdim etdilər."[769] May ayının 28-də danışıqlar zamanı prezident Vilson da Azərbaycan nümayəndələrinə öz tələblərini Sülh konfransının katibliyinə verməyi məsləhət görmüşdü. Rəsmi tələblər əvvəllər qeyd olunduğu kimi, ingilis və fransız dillərində hazırlanmış və iyun ayında çap olunmuş 50 səhifəlik kitabçada toplanmışdı. Hələ kitabça formasında çap edilməzdən əvvəl tələblər əlyazma halında Sülh konfransının katibliyinə təqdim edildi. Tələblərdə Azərbaycan haqqında geniş tarixi-etnoqrafik, iqtisadi və siyasi xarakterli materialların verilməsi konfrans iştirakçılarının Azərbaycan haqqında

---

765 T.Swietochowski. Russian Azerbaijan, p. 156
766 Ibid, p.154
767 ARDA, f.970,s.1,i.168, v.2
768 Азербайджан, 1919, 30 мая
769 F.Kazemzadeh. The Struggle for Transcaucasia, p.268



downloaded from KitabYurdu.az

məlumatlarının ya olmaması, ya da həddindən artıq bəsit olması ilə bağlı idi. Azərbaycan nümayəndələrinin gərgin əməyi nəticəsində hazırlanmış bu sənədin hər bir bəndinin arxasında Azərbaycanın milli maraqları dayanırdı. On dörd bölmədən ibarət olan "Qafqaz Azərbaycanı respublikasının nümayəndəliyinin Paris Sülh konfransına memorandumu"[770] adlı sənədin birinci bölməsi "Azərbaycanın mənşəyi-müstəqil xanlıqlar və onların tənəzzülü" adlanır. Bu bölmədə Azərbaycan xalqının etnogenez prosesi, onun formalaşması, qədim coğrafi hüdudları, müstəqil xanlıqların yaradılması və onların Rusiya imperiyası tərəfindən işğalı barədə Sülh konfransının iştirakçılarına, Avropa və Amerika ictimaiyyətinə qısa məlumat verilirdi. Orada göstərilirdi: "Ən qədim zamanlardan başlayaraq, Xəzər sahili boyunca, habelə Qafqazın cənub-şərq ərazisində qismən türk, qismən isə tatar dilində danışan tayfalar məskunlaşmışlar. Bu tayfalar müxtəlif dövrlərdə müəyyən dərəcədə iranlılarla, eləcə də sayca daha çox, daha qüdrətli və güclü olan türklərlə qaynayıb qarışmışlar. Bu qaynayıb qarışmanı əsas tutaraq Qafqazın həmin yerli sakinləri Azərbaycan türklərini, yaşadıqları ölkənin adına müvafiq şəkildə, sadəcə azərbaycanlılar adlandırmışlar."[771] Sənəddə göstərilir ki, Azərbaycanın cənubu silah gücünə İrana birləşdirilmiş, qalan hissəsi Qafqazın coğrafi sərhədləri daxilində qalmış və uzun müddət özünün siyasi müstəqilliyini qoruyub saxlamış, XVII əsrdən başlayaraq, müstəqil xanlıqlardan ibarət olmuşdur. Gürcüstan Rusiya ilə birləşdikdən sonra Azərbaycan xanlıqlarının təhlükəsizliyi üçün ciddi təhlükə yaranmışdı. Azərbaycan xanlıqları öz azadlıqları və müstəqillikləri uğrunda Rusiyaya qarşı uzun müddət mübarizə aparmışlar. Bununla bağlı memorandumda qeyd edilir: "Azərbaycanın tarixi qəhrəmanlıq epizodları ilə zəngindir. Bu tarixin səhifələrini çevirdikcə bu kiçik xanlıqların silaha sarılaraq, azadlıq və ləyaqətlərini qorumaq üçün rus qoşunları ilə necə cürətlə və qorxu bilmədən vuruşduqları sənəddə təsvir edilirdi. Onlar azadlıqları uğrunda doğma torpaqlarını oğullarının qanı ilə suvarmışdılar. Onlar öz azadlıqlarını XIX əsrin əvvəllərinə, hətta həmin əsrin birinci rübünün axırına qədər mərdlik və müvəffəqiyyətlə qoruyub saxlaya bilmişdilər. Bu dövrdə xanlıqların qüvvəsi tədricən zəiflədiyindən onlar güclü Rusiya ordusunun hücumlarına davam gətirə bilmirdilər."[772] Memorandumda deyilirdi ki, Azərbaycanı işğal etdikdən sonra bu ərazilərdə ruslaşdırma siyasəti yeridən imperiyanın müstəmləkə qaydalarını zorla tətbiq etməklə ölkənin ərazisini istədiyi kimi qayçılayan, sərvətlərini qəddarcasına talayan rus hakimiyyət orqanları burada hər cür özbaşınalıqdan çəkinmirdilər. Tələblərdə göstərilir: "Rus dövləti işğal etdikləri xanlıqların sakinlərinin adlarını dəyişdirməkdən də çəkinmirdi. Etnoqrafiyanı, xalqın dilini və ədəbiyyatını nəzərə almadan, Azərbaycan əhalisinə

---

[770] La Republique de l'Azerbaidjan du Caucase. Paris, 1919; Claims of the Peace Delegation of the Republic of Caucasian Azerbaijan Presented to the Peace Conference in Paris. Paris, 1919

[771] La Republique de l'Azerbaidjan du Caucase, p.3

[772] La Republique de l'Azerbaidjan du Caucase, p.5



downloaded from KitabYurdu.az

Qafqaz tatarları, Qafqaz müsəlmanları, yaxud sadəcə olaraq, müsəlman adı qoymuşdu."[773]

Memorandumun ikinci bölməsi "Azərbaycanın yerli əhalisi. Onların keçmiş rus imperiyasına münasibəti" adlanır. Bu bölmədə azərbaycanlıların Qafqazın digər xalqlarına nisbətən daha çox təqiblərə məruz qalması, uzun müddət milli məktəbin, ana dilli mətbuatın, milli xeyriyyə cəmiyyətlərinin qadağan edilməsi, rus məmurlarının müsəlman xadimlərinə nifrət və etimadsızlığı öz əksini tapıb. Rus imperiyasının öz siyasətini həyata keçirmək üçün dindən bir vasitə kimi istifadə etdiyi göstərilərək, sənəddə yazılır: "Yüksək rütbəli müsəlman ruhaniləri - müftilər, şeyxülislamlar cahil, əksər hallarda savadsız adamlar arasından seçilir, onlara son dərəcə cüzi maaş verilirdi. Məscidlərin əmlakının ixtiyarı rus məmurlarına verilmişdi. Onların icazəsi olmadan məscid tikmək, yaxud bərpa etmək imkan xaricində idi. Sözün qısası müsəlmanlara fanatik damğası vuran ruslar bu mənada özlərinin fanatik olduğunu göstərirdilər."[774]

"Cənubi Qafqaz Seymi və federasiyası, onların zəifləməsi və süqutu" adlı üçüncü bölmə Cənubi Qafqazda müxtəlif dövlət təsisatlarının yaradılması, onun daxili və xarici siyasəti, habelə Seymin daxilindəki ziddiyyətlərin son nəticədə onun dağılması ilə nəticələnməsi məsələləri əhatə edilmişdi.[775] Dördüncü bölmə "Azərbaycan Respublikasının hökuməti və onun paytaxtı Bakı şəhəri" adlanır. Burada göstərilirdi: "Azərbaycan Respublikasının müstəqilliyi elan edilən kimi Milli Şura 12 nazirdən ibarət hökumət yaratdı. Milliyyətcə azərbaycanlı olan həmin dövlət xadimlərinin çoxu Rusiyada və xaricdə universitet və texniki institutlar bitirmişdilər. Azərbaycan hökumətinin ilk addımı Bakını və onun kənarını 1918-ci ilin martında zəbt etmiş bolşeviklərdən təmizləmək oldu."[776] Bu bölməyə Bakı barəsində, onun Azərbaycanın paytaxtı olması, respublikanın intellektual qüvvələrinin burada yerləşdirilməsi haqqında geniş söhbət açılırdı. Bakı ilə əlaqədar 1918-ci ilin avqustunda Almaniya ilə Sovet Rusiyası arasında imzalanmış gizli sazişin heç bir hüquqi əsası olmadığı əsaslandırılaraq, sənəddə göstərilirdi ki, Azərbaycan xalqının "Bakını iqtisadi, zehni, dini və siyasi mərkəz, bir sözlə paytaxt seçməsi heç də təsadüfi deyil. Yeni Azərbaycan dövlətinin gələcəyi Bakı ilə o qədər bağlıdır ki, respublikanın mövcudluğunu bu şəhərsiz təsəvvürə gətirmək mümkün deyil."[777] Memoranduma görə, Bakı rayonundakı zəngin neft ehtiyatları Azərbaycan Respublikasının əsas həyat mənbəyi idi, respublika hökuməti onun istehsalı və satışı üzərində şəriksiz hökmranlığa malik idi. Orada qeyd edilirdi ki, "neft istehsalının yerli tələbatı üstələməsinə və Azərbaycan dövlətinin həmin artıq məhsulu müqavilə əsasında yanacağı olmayan

[773] La Republique de l'Azerbaidjan du Caucase, p.6
[774] La Republique de l'Azerbaidjan du Caucase, p.8-9
[775] La Republique de l'Azerbaidjan du Caucase, p. 10-13
[776] La Republique de l'Azerbaidjan du Caucase, p.14
[777] La Republique de l'Azerbaidjan du Caucase, p. 15



downloaded from KitabYurdu.az

ölkələrə müvafiq müqavilələr bağlamaq yolu ilə satmağa üstünlük verməsinə baxmayaraq, respublika Bakı mədənlərindəki neftin açıq müdaxilə yolu ilə istismar olunmasına heç bir vəchlə icazə verə bilməzdi. Xarici istismar respublika üçün intihar demək olardı."[778]

Bakı şəhərinin Azərbaycanın paytaxtı kimi kəskinliyi ilə qoyulması, onun iqtisadi və tarixi əhəmiyyətindən əlavə, erməni missionerlərinin Bakı haqqında cızdığı müxtəlif layihələrlə bağlı idi. Avropa və Amerika mətbuatında onlar Bakını Azərbaycanla əlaqəsi olmayan rus şəhəri kimi təqdim edirdilər. Əlbəttə, bu təbliğatda daha uzaq məqsədlər güdülürdü. Parisdəki proseslərdən tezliklə aydın oldu ki, erməni nümayəndələri Avropada Fransa siyasi dairələrinin köməyi ilə Bakının və Batumun guya beynəlmiləl şəhərlər olduqları üçün Millətlər Cəmiyyətinin nəzarəti altına verilməsinə nail olmaq istəyirlər. Bu barədə onlar öz fikirlərini Fransa Xarici İşlər Nazirliyinə bildirmişdilər.[779] Lakin erməni nümayəndə heyətinin bu avantürist planları Fransa Xarici İşlər Nazirliyi tərəfindən rədd edilmişdi. Bununla belə, Bakıya, Tiflisə, İstanbula və digər şəhərlərə olan xəyali arzularını daşnaklar gizlətmirdilər. 1919-cu ildə Ermənistanda "Axşatavor" qəzetində nəşr edilmiş, elə həmin ilin iyununda "Bakinskaya jizn" qəzetində tərcüməsi verilmiş bir yazı ermənilərin arzularını daha qabarıq əks etdirir. Qəzet yazırdı: "Orlando İtaliya üçün Fyumu tələb edir. Bu tələb çox ədalətlidir. Fyum İtaliyaya lazımdır... İtaliya qalib gəlmişdir və ona görə nə tələb edirsə, onu da almalıdır... Biz də qalib gəlmişik. Məlum deyildir ki, nə üçün biz qələbədən bu qədər az pay alırıq... Bizim qonşularımız türklərlə və almanlarla vuruşmayıblar. Biz isə vuruşmuşuq, ona görə də biz bir Fium yox, iki Fium almalıyıq... Qısaca desək, Fium rolunu bizim üçün iki şəhər oynayır: Bakı və Tiflis. Bakı ən azı ona görə bizə məxsus olmalıdır ki, Azərbaycanın öz paytaxtı var - Gəncə. Bizim Bakıya hüququmuz şübhəsiz aydındır. Hələ onu demirik ki, bizim ona tarixi hüququmuz da vardır. Biz Bakını martda (1918-ci ilin martında - C.H.) tutmuşuq, ona görə də o bizə qalmalıdır."[780] Şübhəsiz ki, rəsmi erməni dairələrinin arzularını əks etdirən daşnak mətbuatı yalnız bu iki şəhərlə kifayətlənə bilməzdi və əvvəllər qeyd olunduğu kimi, onların Paris Sülh konfransından tələbləri daha böyük idi. Ona görə "Axşatavor" bu tələblərlə bağlı göstərirdi: "Açıq deməliyik. Şəhərlərdən başqa qəzalar da bizə lazımdır. Gürcüstandan Tiflis, Borçalı, Axalkələk, Axalsıx qəzaları, Azərbaycandan isə Bakı quberniyasının bütün qəzaları və Qarabağ bizə keçməlidir. Ümumdünya konfransı İranı və İstanbul daxil olmaqla Türkiyə vilayətlərini bizə verdiyi zaman biz Fars (körfəzinə - C.H.), Qara və Aralıq dənizlərinə çıxacağıq."[781] Belə sərsəm tələblərlə dolu olan məqalələr tez-tez Avropa və Amerika mətbuatında da nəşr etdirilirdi.

---

[778] La Republique de l'Azerbaidjan du Caucase, p.15-16
[779] F. Kazemzadeh. The Struggle for Transcaucasia, p.203
[780] Бакинская жизнь, 1919, 4 июня.
[781] Бакинская жизнь, 1919, 4 июня.



downloaded from KitabYurdu.az

Memorandumun beşinci bölməsi "Azərbaycanın bolşeviklərə qarşı mübarizəsi, bolşevik və erməni hücumları" adlanırdı. Bu bölmədə 1918-ci ilin martında Bakıda və yazında Azərbaycanda törədilmiş müsəlman soyqırımının mahiyyəti bütün kəskinliyi ilə ortaya qoyulurdu. Sənəddə deyilirdi: "Müsəlmanlar üçün məşum nəticələri olan bu qanlı hadisələrdə hər yerdə olduğu kimi, Bakıda da öz millətçi partiyalarını - daşnaksütyunu yaratmış ermənilər fəal iştirak etdilər... Həqiqət budur ki, ermənilər bolşeviklərin himayəsi altında müsəlmanların üzərinə hücum çəkdilər və həmin dəhşətli günlərdə (30-31 mart, 1 aprel - C.H.) 12 000-dən çox azərbaycanlı öldürdülər. Öldürülənlərin arasında qocalar, qadınlar və uşaqlar üstünlük təşkil edirdilər. Yəqin ki, gələcək tarixçilər bu hadisələrin üstündən sükutla ötüb keçməyəcəklər. Lakin indi biz ümidvar olduğumuzu bildiririk ki, digər regionlarda yaşayan ermənilər öz soydaşlarının törətdikləri qanlı cinayətlərə haqq qazandırmayacaqlar."[782] Bu hadisələri törədənlərin niyyətlərinə toxunaraq, memorandumun müəllifləri yazırdılar: "Tamamilə aydındır ki, yerli azərbaycanlı əhalinin öz doğma şəhərindən didərgin salınması uzaq məqsədlər güdən erməni millətçilərinin siyasi məqsədlərinə xidmət edirdi, bu yolla onlar Bakını yerli əhalidən təmizləmək, onun sərvətlərinə sahiblənmək, ən sonda isə bu qədim Azərbaycan şəhərini Ermənistan torpağı elan etmək istəyirdilər. Əsil sərsəmlik xarakteri daşımasına baxmayaraq, həqiqətən də belə bir plan mövcud olmuşdur."[783]

Memorandumun altıncı və yeddinci bölmələrində Azərbaycan xalqının bolşevik və erməni hücumlarına qarşı mübarizə apardığından, daşnakların Bakıda, Şamaxıda və digər yerlərdə bolşeviklərlə əlbir törətdiyi cinayətlərdən və Bakının azad edilməsindən bəhs edilirdi. Orada göstərilirdi: "12 000-dən çox müsəlman martın 18-21-də (yeni təqvimlə martın 30-31-i və aprelin 1-i - C.H.) üç gün davam edən qanlı cinayətlərin qurbanı olmuşdu. Çoxlu insan tələfatı ilə bir sırada xalqın mənəvi həyatında və mədəniyyəti tarixində mühüm rol oynayan bir sıra siyasi və mənəvi mərkəzlər yerlə yeksan edildi, od vurulub yandırıldı. Bunların sırasında Xalq evinin, Müsəlman Xeyriyyə Cəmiyyəti binasının, siyasi partiyaların iqamətgahlarının, müsəlman qəzetləri redaksiyalarının (rus dilində çıxan "Kaspi"nin, azərbaycanca çıxan "Açıq söz"ün) adlarını çəkmək olar. Ən görkəmli müsəlman xadimləri həbs edilir və güllələnirdi. Lakin ən dəhşətli nəticə Bakıda və onun ətraf rayonlarında bolşevik hakimiyyətinin güclənməsi idi."[784] Bolşeviklər və ermənilər tərəfindən dağıdılmış Azərbaycanda bərpa işlərinin başlanması, müttəfiq qoşunlarının Bakıya daxil olması, Azərbaycan Parlamentinin təsis edilməsi və fəaliyyəti səkkizinci bölmədə işıqlandırılırdı.[785]

---

[782] La Republique de l'Azerbaidjan du Caucase, p.18-19
[783] Claims of the Peace Delegation of the Republic of Caucasian Azerbaijan presented to the Peace Conference in Paris, p.20; La Republique de l'Azerbaidjan du Caucase, p.21
[784] La Republique de l'Azerbaidjan du Caucase, p.22
[785] La Republique de l'Azerbaidjan du Caucase, p.24-26



downloaded from KitabYurdu.az

Memorandumun ən əhəmiyyətli bölmələri Azərbaycan Respublikasının ərazisi və əhalisi ilə bağlı olan bölmələr idi. Ermənilərin, gürcülərin və iranlıların konfransa təqdim etdikləri ərazi iddiaları bilavasitə Azərbaycana aid olduğu üçün Azərbaycanın hüdudları barədə konfransın rəhbərlərində aydın təsəvvür yaradılması zərurəti meydana çıxmışdı. Paris Sülh konfransına təqdim edilmiş memorandumda Qafqaz Azərbaycanının ərazisi keçmiş inzibati bölgü sistemi üzrə aşağıdakı qaydada verilirdi: 1. Bakı quberniyası. Bura Bakı şəhəri, habelə Bakı, Cavad, Göyçay, Şamaxı, Quba və Lənkəran qəzaları daxildir. 2. Yelizavetpol (Gəncə) quberniyası. Bu quberniyaya Yelizavetpol (Gəncə), Cavanşir, Nuxa, Ərəş, Şuşa, Cəbrayıl, Zəngəzur və Qazax qəzaları daxildir. 3. İrəvan quberniyası. Bura Naxçıvan, Şərur-Dərələyəz, Sürməli qəzaları, habelə Yeni Bəyazid, Eçmiədzin, İrəvan və Aleksandropol qəzalarının bir hissəsi daxildir. 4. Tiflis quberniyasında Borçalı, Tiflis və Sığnaq qəzalarının mühüm bir hissəsi də Azərbaycan ərazisidir. 5. Zaqatala qəzası. 6. Dağıstan regionunda Kurinə və Samur nahiyələrini əhatə edən ərazinin bir hissəsi, habelə Dərbənd şəhəri və onun ətrafı da daxil olmaqla Kaytaq-Tabasaran qəzasının bir hissəsi. 7. Yuxarıda adları çəkilən İrəvan və Tiflis quberniyalarında, habelə Zaqatala qəzasında mənsubiyyəti Azərbaycan, Ermənistan, Gürcüstan və Şimali Qafqaz respublikaları arasında iddialar doğuran və sahəcə çox kiçik ərazilər də mövcuddur.[786]

Ərazi məsələləri ilə bağlı memorandumda qeyd edilirdi ki, Azərbaycan Respublikası Tiflis quberniyasındakı Axalsıx qəzasının, Batum, xüsusən də Qars əyalətlərini öz ərazisinə daxil etməyə xüsusi əhəmiyyət verir. Göstərilən ərazilərlə bağlı sənəddə yazılırdı: "Bu ərazilərin, xüsusən də Qars ətrafının sakinləri azərbaycanlılarla eyni etnik qrupa daxildirlər, onların dini, adət-ənənələri, vərdişləri, yaşayış tərzləri və məişətləri Azərbaycanın qalan hissələri ilə eyniyyət təşkil edir. Bütün bunlardan sonra həmin ərazidə yaşayan müsəlmanların dəfələrlə Azərbaycan hökumətinə Qars ətrafının respublikanın tərkibinə qatılması təklifi ilə müraciət etmələrini başa düşmək olar. Türk qoşunları ölkəni tərk etdikdən, yerli hökumət və parlament müttəfiq qoşunları komandanlığının nümayəndələri tərəfindən buraxıldıqdan sonra, bu ərazilər qonşu respublikalar: Ermənistan (Qars) və Gürcüstan (Ərdəhan) arasında bölüşdürüldükdən sonra həmin müraciətlər daha da güclənmişdir. Bu bölgünü özbaşınalıq sayan Azərbaycan hökuməti yerli əhalinin hisslərini tapdalayan həmin ədalətsizliyə qarşı qətiyyətlə etiraz edir və bildirir ki, adları çəkilən ərazilərin əhalisi qonşu respublikaların hakimiyyətini tanımaqdan birmənalı şəkildə imtina etmişdir. Yuxarıda qeyd olunduğu kimi, Batum və Qars əyalətlərinin əhalisi həmin ərazinin Azərbaycan Respublikasının tərkibinə qatılması təklifi ilə dönə-dönə bizə müraciət etmişlər. Bu faktlar bizim respublikanı belə bir bəyanatla çıxış etməyə vadar edir ki, Batum və Qars əyalətlərinin, habelə Axaltsıx qəzasının əhalisi talelərini öz istədikləri kimi

[786] La Republique de l'Azerbaidjan du Caucase, p.27-28; Claims of the Peace Delegation of the Republic of Caucasian Azerbaijan presented to the Peace Conference in Paris, p.27-28.



downloaded from KitabYurdu.az

müəyyənləşdirməlidirlər. Bizim nöqteyi-nəzərimizə gəldikdə isə həmin ərazidə müstəqil respublikanın yaradılması məsələnin ən yaxşı həlli olar, regionun maraq və mənafeləri ilə bağlı problemlər yoluna qoyulardı."[787]

Versal Sülh konfransına təqdim olunan memorandumdan məlum olur ki, Azərbaycan Respublikası hökumətin nəzarəti altında olan mübahisəsiz ərazi 83.7866 kv. verstdir və yaxud 94.137,38 kv.km-dir. Bu da bütün Qafqazın 217.408 kv.verst və yaxud 247.376,15 kv.km olan ərazisinin 39 faizini təşkil edir.[788]

"Azərbaycanın müstəqil siyasi mövcudluq hüququ Qafqaz respublikaları ilə münasibətlər" adlı on ikinci bölmədə Versal sülh konfransında çoxlarını maraqlandıran bu suallara ətraflı cavab verilmişdi: 1. Son vaxtlara qədər Rusiya imperiyasının bir hissəsi olmuş Azərbaycan Rusiyanın keçmiş və indiki öhdəliklərinə necə münasibət bəsləyir? 2. Onun qonşuları ilə - digər Qafqaz respublikaları ilə münasibətləri necə olacaq?[789]

Birinci sualla bağlı qeyd edilirdi ki, "bir ölkə daxilində ümumi həyat keçirdiyimiz bir əsrin ağrı-acılarının üzərində dayanmadan biz ruslara öz ərazilərində, öz yeni dövlətlərində səadət arzulayırıq. Azərbaycana gəldikdə isə o, daha Rusiyanın bir hissəsi olmaq istəmir, o yalnız öz parlamentini və dövlətini tanıyır."[790] Keçmiş rus borclarına münasibət demək olar ki, Versal Sülh konfransında siyasi iqlimi müəyyən edən dövlətlərin hamısının mənafeyi olan məsələ idi. Bununla bağlı memorandumda göstərilirdi: "Gənc Azərbaycan Respublikası keçmiş Rusiyanın borclarının bir hissəsini ödəməyi öz üzərinə götürür. Həmin borclar köhnə imperiyanın hissələri arasında ədalətli şəkildə bölündükdən sonra Sülh konfransının maliyyə komissiyasının müəyyənləşdirdiyi şərtlərə müvafiq qaydada ödəniləcəkdir."[791]

Qonşu respublikalara münasibətlərlə bağlı ikinci suala gəldikdə Azərbaycan Respublikasının diplomatik nümayəndəsinin hələ 1918-ci ilin noyabrında İstanbulda Antantanın səlahiyyətli komissarına təqdim etdiyi memoranduma sadiq qaldığı göstərilirdi. Digər məsələlərlə birlikdə həmin memorandumda Azərbaycan Respublikasının belə bir istəyi öz əksini tapmışdı ki, Azərbaycan "öz respublikalarını yaratmış qədim qonşuları ermənilər, gürcülər və Şimali Qafqaz dağlıları ilə eyni nöqteyi-nəzərə əsaslanan dostluq əlaqələrinə girməyə hazırdır, Azərbaycanın Sülh nümayəndəliyi belə bir fikrə mühüm diqqət yetirir ki, bütün bu yerli Qafqaz xalqlarını bir-biri ilə müxtəlif sahələrdə, xüsusən də iqtisadiyyat sahəsində ümumi maraq birləşdirir."[792]

---

[787] La Republique de l'Azerbaidjan du Caucase, p.28-29; Claims of the Peace Delegation of the Republic of Caucasian Azerbaijan presented to the Peace Conference in Paris, p.28-29
[788] La Republique de l'Azerbaidjan du Caucase, p. 30-31
[789] La Republique de l'Azerbaidjan du Caucase, p.38-39
[790] La Republique de l'Azerbaidjan du Caucase, p.39
[791] La Republique de l'Azerbaidjan du Caucase, p.41
[792] La Republique de l'Azerbaidjan du Caucase, p.43; ARDA, f.970, s.l, i.108, v.18



downloaded from KitabYurdu.az

On üçüncü bölmə "Millətlər Cəmiyyəti. Azərbaycanlıların mövqeyi. Bolşeviklərə qarşı mübarizədə türklərə müraciət" adlanırdı və burada Azərbaycan Respublikasının Millətlər Cəmiyyətinə daxil olmaq, onun yüksək tribunasından istifadə etmək arzuları əks etdirilirdi. Memorandumda deyilirdi: "Biz şübhə etmirik ki, azərbaycanlılar da başqa millətlərlə bir sırada onun işində (Millətlər Cəmiyyətinin - C.H.) yaxından çalışacaq, millətlərin sülhün bərqərar olunmasına doğru yönəldilmiş səylərini bölüşdürəcək və öz imkanları daxilində Millətlər Cəmiyyətinin bəşəriyyətin rifahına xidmət göstərən nəcib fəaliyyətində iştirak edəcəkdir. Biz əminik ki, azərbaycanlılar bu beynəlxalq orqanda yüksək ədalət və əxlaq nümunəsi ilə qarşılaşacaq, Millətlər Cəmiyyətinin simasında yuxarıda da qeyd edildiyi kimi, müstəqil siyasi mövcudluq üçün maddi və mənəvi sərvətlərə malik xalqın hüquqlarının müdafiəçisini görəcəyik."[793]

Memorandumda Azərbaycan xalqının dünya xalqlarına tanıdılmasına, onun haqqında obyektiv məlumat verilməsinə böyük əhəmiyyət verilirdi. Onun müəlliflərinin fikrincə, Azərbaycan haqqında məlumatın azlığı ilə bağlı yaranmış vəziyyətin səbəbkarı bir tərəfdən rus müstəmləkəçiliyi idisə, digər tərəfdən azərbaycanlıların özləri idi. Bununla bağlı sənəddə qeyd edilirdi: "Azərbaycanlıların səciyyəvi xüsusiyyəti onların hədsiz təvazökarlığıdır ki, bu da onların özlərini təbliğ etməyə doğru atıla biləcək hər bir addımdan saxlayır. Azərbaycanlılar özlərini gözə soxmağa, başqalarına nisbətən onların payına daha çox düşən dərd və fəlakətləri uca səslə elan etməyə, hamıya çatdırmağa öyrənməmişlər. Bütün bu dərd və fəlakətləri onlar səslərini çıxarmadan, mətbuat vasitəsilə dünyaya car çəkmədən, millətlərə və dövlətlərə müraciətlə ağlayıb-sıtqamadan içərilərində çəkirlər. Bu vəziyyət bir sıra nöqteyi-nəzərdən qüsur sayılmalıdır: məhz azərbaycanlıların xarakterindəki həmin xüsusiyyət onların bir sıra fəlakətlərinin mənbəyinə çevrilmiş və bu xalqa özünün milli fizionomiyasını dolğunluğu ilə göstərməyə mane olmuşdur. Azərbaycanlılar haqqında Avropanın və Amerikanın mətbuat orqanlarında bir sıra yalan məlumatların yazılmasına belə şərait əsas vermişdir. Həmin məlumatların müəllifləri bir sıra hallarda fantaziyaya güc vermiş, bəzən ictimaiyyətin diqqətinə təqdim etmək iddiasında olduqları məsələyə nabələdliklərini nümayiş etdirmiş, əksər hallarda isə belə materiallar bizim xalqa düşmənçilik məqsədi ilə, onu gözdən salmaq niyyəti ilə yazılmışdır. Belə yazıların müəllifləri öz siyasi korluqları ucbatından Azərbaycan xalqına gücləri çatana qədər ziyan vurmaq istəmiş və bu yolla da öz millətlərinə fayda gətirmək fikrində olmuşlar."[794]

Memorandumun sonuncu, on dördüncü bölməsində Azərbaycan sülh nümayəndəliyi, onun Sülh konfransına ümidləri və Sülh konfransından tələbləri öz

---

793 La Republique de l'Azerbaidjan du Caucase, p.44-45; Claims of the Peace Delegation of the Republic of Caucasian Azerbaijan presented to the Peace Conference in Paris, p.43-44

794 La Republique de l'Azerbaidjan du Caucase, p.45-46; Claims of the Peace Delegation of the Republic of Caucasian Azerbaijan Presented to the Peace Conference in Paris, p.44



downloaded from KitabYurdu.az

əksini tapmışdı.[795] Sənəd Azərbaycanın Sülh konfransına tələbləri ilə tamamlanırdı. Orada Azərbaycan nümayəndə heyəti sülh konfransının və Antanta dövlətlərinin mənəvi yardımına arxalanaraq bildirirdilər: "1. Qafqazın, xüsusən də Azərbaycanın fiziki, iqtisadi və siyasi xilas yolu Rusiyanın sosial və siyasi həyatından tamamilə ayrılmaqdadır. Həmin həyat bizə tamamilə yaddır. Biz ondan xilas yolu axtarır və Müttəfiq dövlətlərin yardımına arxalanırıq; 2. Biz Qafqazda artıq de fakto mövcud olan dövlətlərin tanınması məsələsini qoyuruq. Onlardan biri də müstəqil Azərbaycan Respublikasıdır. Biz bu memoranduma belə bir inamla yekun vururuq ki, xalqımızın maddi qüdrəti və mənəvi keyfiyyətləri, onun əxlaqi dəyərləri, əməyə və təhsilə olan məhəbbəti, qayda-qanuna və dövlət prinsiplərinə hörməti Azərbaycanın müstəqil respublika kimi bundan sonrakı mövcudluğuna ən yaxşı zəmanətdir. Buna görə də, Azərbaycan Respublikasının sülh nümayəndəliyi sülh konfransının qarşısında aşağıdakı tələblərin qoyulmasını təvəqqe edir:

Sülh konfransı Qafqaz Azərbaycanının Rusiya imperiyasından ayrılmasını bəyənsin. Azərbaycan, sərhədləri memoranduma əlavə olunan xəritədə göstərilən və Azərbaycan Demokratik Respublikası adı ilə tanınan tam müstəqil dövlət olsun. Azərbaycan Respublikasının Sülh nümayəndəliyinin üzvləri Sülh konfransının və onun komissiyalarının işinə cəlb olunsunlar. Azərbaycan Respublikası başqa dövlətlər kimi yüksək himayəsi altında olmaq istədiyi Millətlər Cəmiyyətinin üzvlüyünə qəbul edilsin.[796]

Azərbaycan nümayəndələrinin tələbləri Parisdə ciddi müzakirələrə səbəb oldu. Ərazi məsələləri ilə bağlı İran, Ermənistan və Gürcüstanın tələbləri kimi Azərbaycanın tələbləri də şişirdilmiş tələblər hesab edilirdi. Xüsusən, Qars və Batumun Azərbaycana verilməsi məsələsi o qədər də real qiymətləndirilmirdi. T.Svyatoçevski yazır: "Azərbaycan hökuməti də tələblərinin sadəliyi ilə fərqlənmədi... Bu tələblər coğrafi yaxınlıq prinsipinə məhəl qoymadan Cənubi Qafqaz müsəlmanlarının paytaxtı Bakı olan ümumi bir dövlətdə birləşdirilməsi məqsədi güdürdü". Lakin Azərbaycan nümayəndələri çıxış yolunu bu vilayətlərin "paytaxtı Bakı olan ümumi bir dövlətdə" birləşdirilməsində deyil, həmin vilayətlərdə yerli əhalinin iradəsinə uyğun olaraq respublika formasında müstəqil dövlət yaradılmasında görürdülər.

Beləliklə, Parisdə olduğu ilk aylarda gərgin işləyən Azərbaycan nümayəndələri Versalda hadisələrin siyasi axarını dərindən izləyib, ona fəal qoşulacaqları məqamı gözləyirdilər. Ə.M.Topçubaşov Azərbaycan hökumətinə göndərdiyi məlumatda yazırdı: "Doğrudur, biz bura başqalarından gec gəlmişik, amma gözlənilməz nəticələr doğura bilən hadisələrin maraqlı vaxtına düşmüşük. Bizim növbəmiz tezmi çatacaq - məlum deyil, amma qüvvəmiz çatıncaya qədər doğma Azərbaycanın mənafeyini qorumaq mövqeyində dayanacağıq."[797] Bu

---

[795] La Republique de l'Azerbaidjan du Caucase, p.48-49
[796] La Republique de l'Azerbaidjan du Caucase, p.51
[797] А.М.Топчибашев. Письма из Парижа. Баку, 1998, с.40.



downloaded from KitabYurdu.az

sözləri yazandan az sonra Azərbaycan nümayəndələri Parisdə, respublika hökuməti isə Qafqazda təmsil etdikləri dövlətin müstəqilliyinə qarşı yönəlmiş "bölünməz Rusiya" və "böyük Ermənistan" iddiaları ilə qarşılaşmalı oldular. 1919-cu ilin yayında bu əsassız iddiaların dəf edilməsi Azərbaycan diplomatiyasının başlıca vəzifəsi idi.



downloaded from KitabYurdu.az

## VIII FƏSİL

### Azərbaycan diplomatiyası "Bölünməz Rusiya" və "Böyük Ermənistan" iddiaları ilə üz-üzə

1919-cu ilin may ayının 28-də Azərbaycan istiqlalının elan edilməsinin birinci ildönümünü təntənəli şəkildə qeyd etdi. Respublika mətbuatında müstəqilliyin əhəmiyyətini, onun millətin taleyindəki rolunu əsaslandıran çoxsaylı yazılar dərc edildi. İstiqlal bayramı münasibətilə parlamentin fövqəladə iclası keçirildi. Parlamentin qırx ikinci iclasına rəhbərlik edən Həsən bəy Ağayev qısa təbrik nitqi söylədi. O dedi: "Möhtərəm məbuslar! Düz bir il bundan qabaq 1918-ci il mayın 28-i idi. Yuvası dağılmış quş kimi, Azərbaycan Milli Şurası yersiz qalmışdı. Tiflis otellərindən "Oriyent" müsafirxanasında, gürcülərdən iki gün sonra elani-istiqlaliyyət edildi. Azərbaycan xalqının nümayəndələri belə zənn edirdilər ki, elani-istiqlaliyyət eləməklə, Azərbaycan xalqı üçün səadət mənbəyi açılır. Bununla demək, Azərbaycan nümayəndələri tarixi bir əsas qoydular. Milli Şuranın bu cür iqdamı, bu duyğusu, bu işi səhih idi, ya xülya idi. Buna cavabən Azərbaycan istiqlaliyyətinin bir illik həyatını gözümüz önündən keçirsək görərik ki, Milli Şuranın duyğusu və xalq haqqındakı zənni həqiqət imiş." Könüllü ordunun Şimalda fəallaşması ilə Azərbaycanın başının üzərini almış təhlükəyə toxunaraq, H.Ağayev dedi ki, "Azərbaycan türkləri üçün hansı tərəfdən bəla olursa-olsun, heç bir təhdiddən və düşməndən qorxmayaraq, istiqlaliyyət yolunda canilə, malilə və qanilə müdafiə və fədakarlığa hazırdır".[798]

Həsən bəy Ağayevin təbrik nitqindən sonra parlamentdə təmsil olunan fraksiya rəhbərləri çıxış edib, istiqlaliyyət gününün əhəmiyyətini və onun xarici təhlükədən qorunmasının zəruriliyini qeyd etdilər. M.Ə.Rəsulzadə öz çıxışında bütün şəhəri bürümüş istiqlal coşqusuna toxunaraq, dedi: "Bu gün Azərbaycan istiqlalı bilxassə, onun üçün əzizdir ki, bu istiqlalımıza xaricdən təhlükə var, təhdid var. Millətin ruhundan çıxan bugünki səmimiyyətlə söylənəni qüvvətlə söyləriz ki, o hər bir atəşdən, hər bir yərəğandan qüvvətlidir. Rədd olsun bizim istiqlalımız əleyhinə olan murdar əllər."[799]

İstiqlal bayramı münasibətilə Üzeyir Hacıbəyovun "Azərbaycan" qəzetində "Bir yaş" adlı məqaləsi dərc edildi. Yazıda Azərbaycanın bir illik müstəqillik tarixinin həlledici məqamları dəyərləndirilir və keçilən yola qiymət verilirdi. Xaricilərin nəzərində Azərbaycan türkləri haqqında təlqin edilmiş yanlış baxışların dəyişdiyinə işarə edərək, Üzeyir bəy yazırdı ki, müttəfiq orduları Bakıya girdikdən az sonra Avropa nümayəndələri azərbaycanlılar haqqında yayılan mənfi fikirlərin doğru olmadığını öz gözləri ilə gördülər və etiraf etdilər.[800]

---

798 Azərbaycan Xalq Cümhuriyyəti. Parlament. I cild, s.626-627
799 Yenə orada, s.629
800 Azərbaycan, 1919, 28 may



downloaded from KitabYurdu.az

İstiqlal bayramı coşqusunu Azərbaycan Denikin təhlükəsinin həyəcanı ilə birgə yaşayırdı. Elə həmin bayram günlərində Petrovski və Dərbəndin tutulması haqqında alınan xəbərlər birinci ildönümü qeyd edilən Azərbaycan istiqlalını Şimal təhlükəsi ilə üz-üzə qoymuşdu. Yaranmış təhlükə ilə bağlı may ayının 26-da keçirilmiş parlament müzakirələrində M.Ə.Rəsulzadə haqlı olaraq qeyd edirdi ki, "Dağıstan Azərbaycanın qapısıdır".[801]

Denikin təhlükəsi və Kolçakın fəallaşması ilə müşayiət olunan "Bölünməz Rusiya" ideyası getdikcə müttəfiqlərin siyasətinə sirayət edir və müxtəlif rəng çalarlarında zühur edən rus qüvvələri Versal iclaslarının diplomatik dəstəyini və siyasi etimadını qazanmağa can atırdılar. Mətbuat materiallarından İyunun əvvəllərindən məlum oldu ki, Antanta dövlətlərinin başçıları Yaponiya baş naziri ilə birlikdə may ayının 26-da admiral A.Kolçaka Nota ilə müraciət edib Omsk hökumətini bütün Rusiya hökuməti kimi tanıdıqlarını bildiriblər. Müttəfiqlərin belə mövqeyi 1919-cu ilin yazında admiral Kolçakın Sovet hökumətinə qarşı hərbi uğurları ilə bağlı idi. Parisə toplanmış dövlət başçılarının çoxu Kolçakın, Denikinin və digər ağqvardiyaçı generalların tezliklə qələbə çalacağına, Sovet hakimiyyətinə son qoyacaqlarına ümid bəsləyirdilər. Ona görə də may ayının 20-dən başlayaraq, Dördlər Şurasının iclaslarında Rusiyaya münasibət məsələsi daha fəal müzakirə edilməyə başladı. Mayın 20-də Dördlər Şurasının iclasında V.Vilson təklif etdi ki, müxtəlif rus qruplaşmalarına yeni müraciət göndərsinlər. Müraciətin mətninin hazırlanması ingilis nümayəndə heyətinin üzvü Filipp Kerrə tapşırıldı. May ayının 23-də Dördlər Şurası iki dəfə "rus məsələsini" müzakirə etdi. Səhər iclasında qısa fikir mübadiləsi edildi və J.Klemanso bildirdi ki, Yaponiya hökuməti Omsk hökumətini tanımaq barədə müttəfiqlərə müraciət etmək istəyir. Lakin onun fikrincə, müttəfiqlər bu məsələdə təşəbbüsü Yaponiyaya verməməli idilər. İclasda qərara alındı ki, Omsk hökuməti ümumrusiya hökuməti kimi tanınsın. Günorta iclasında F.Kerrin hazırladığı mətn Vilson tərəfindən oxundu və müzakirə edildi. May ayının 26-da bu mətn Klemanso, Lloyd Corc, Orlando, Vilson və Sayondzi tərəfindən imzalanıb nota formasında Kolçaka göndərildi. Notada göstərilirdi ki, bu sənəd müttəfiqlərin və birlik ölkələrinin "rus məsələsində" aydınlıq yaratmaq arzusundan irəli gəlmişdir və onlar Rusiyanın daxili işlərinə müdaxilə etmək fikrindən uzaqdırlar. Müharibə dövründə Rusiyaya ordu göndərilməsini müttəfiqlər Almaniya ilə vuruşmaq və bolşeviklər tərəfindən məhv edilmək təhlükəsi ilə qarşılaşmış Çexoslovakiya korpusunu xilas etmək zərurəti ilə əlaqələndirirdilər.[802] Notada göstərilirdi ki, müttəfiqlər və onlara yaxın olan dövlətlər tezliklə Rusiyada sülhün və əmin-amanlığın bərpa edilməsini arzulayırlar və onlar bu fikirdədirlər ki, rus xalqı qanuni şəkildə seçilmiş Məclisi Müəssisan vasitəsilə öz daxili işlərini qaydaya salacaq, köhnə Rusiyanın hüdudlarında meydana çıxan mübahisəli məsələləri dinc yolla həll edəcək, Millətlər Cəmiyyətinin vasitəçiliyi ilə qonşu

[801] Azərbaycan Xalq Cümhuriyyəti. Parlament, I cild, s. 614

[802] Ю.В.Ключников и И.Сабанин. Международная политика новейшего времени. Часть II, с.248



downloaded from KitabYurdu.az

dövlətlərlə əlaqələr yaradacaqdır. Müttəfiq dövlətlər Omsk hökumətinə yardım göstərmək üçün bir sıra məsələlərə admiral Kolçakın münasibətini aydınlaşdırmaq istəyirdilər. Həmin məsələlər bunlar idi: 1. Moskva alındıqdan sonra Müəssislər Məclisi çağırılmalıdır; 2.Şəhər duması, zemstvolar və sonra özünüidarə orqanlarına azad seçkilər keçirilməlidir; 3.Admiral Kolçak Rusiyada hər hansı sinfin və zümrənin xüsusi imtiyazını və inqilabın dağıtdığı rejimi bərpa etməyə cəhd göstərməyəcəkdir, bütün rus vətəndaşlarının vətəndaş və dini azadlıqlarına tərəfdar olacaqdır; 4.Finlandiyanın və Polşanın müstəqilliyi tanınacaqdır. Rusiya ilə bu ölkələrin sərhədləri və digər məsələləri sazişlər yolu ilə tənzim etmək mümkün olmasa, onda bu məsələlər Millətlər Cəmiyyəti vasitəçiliyi ilə həll ediləcəkdir; 5. Əgər tezliklə Rusiya ilə Estoniya, Latviya, Litva, Qafqaz və Zakaspi əraziləri arasında qarşılıqlı münasibətlər xoşluqla həll edilməsə, bu məsələ Millətlər Cəmiyyətinin məsləhəti ilə həll ediləcəkdir. Rus hökuməti de fakto mövcud olan bu ərazilərin muxtariyyətini tanımalıdır; 6.Sülh konfransının Bessarabiyanın rumın hissəsinin gələcək taleyini müəyyən etmək hüququnu tanımalıdır; 7.Rusiyada demokratik əsasda hökumət yaradılan kimi, Rusiya Millətlər Cəmiyyətinə daxil olacaqdır; 8. Admiral Kolçakın rus borcları ilə bağlı 27 noyabr 1918-ci il bəyanatı təsdiq ediləcəkdir.[803]

İyun ayının 4-də admiral Kolçak müttəfiqlərə göndərdiyi cavab məktubunda 26 may notasında irəli sürülən şərtləri qəbul etdiyini bildirirdi. O yazırdı ki, üç Pribaltika, Qafqaz və Zakaspi vilayətlərinə dair mübahisələrin Millətlər Cəmiyyətinə çıxardılması və "milli qrupların" muxtariyyətinin təmin edilməsi mümkündür.[804] İrəli sürülmüş təkliflərə münasibətdə Admiral Kolçakdan qənaətbəxş cavab aldıqdan sonra, iyun ayının 12-də Antanta ölkələrinin Ali Şurası yuxarıda qeyd edilən şərtlər daxilində Omsk hökumətinin tanınması və ona hərtərəfli yardım göstərilməsi barədə nota ilə çıxış etdi.[805] Həmin nota iyun ayının 13-də mətbuatda dərc edildi. Bununla da Parisə öz müstəqilliyini tanıtmaq üçün gəlmiş yeni respublikalar çox ciddi fakt qarşısında qalmış oldular. Beşlər Şurasının dövlət başçıları tərəfindən imzalanmış 12 iyun notası faktiki olaraq, Kolçak hökumətinin Polşa və Finlandiyanı çıxmaq şərti ilə keçmiş Rusiya hüdudlarında tanınması demək idi. Müttəfiq dövlətləri onunla hər cür əlaqəyə girir, öz nümayəndələrini ora göndərir və Omsk hökumətinə hərbi, siyasi, iqtisadi və maliyyə yardımı göstərəcəklərini bildirirdilər.

Müttəfiqlərin Kolçak hökumətini ümumrusiya hökuməti kimi tanımaqlarına qarşı yeni yaranmış respublikaların Parisdəki nümayəndələrindən birinci olaraq, Azərbaycan heyəti etiraz etdi. Bu barədə Dördlər Şurasının iclasları qapalı keçirilsə də, may ayının axırlarında Paris mətbuatı artıq ümumi əhval-ruhiyyəni əks etdirirdi. İnformasiya vasitələrinin məlumatları yaxın vaxtlarda ağqvardiyaçı

---

803 Б.Е.Штейн. "Русский вопрос" на Парижской мирной конференции, с. 237-238
804 Ю.В.Ключников и И.Сабанин. Международная политика новейшего времени. Часть II, с.250
805 Б.Е.Штейн. "Русский вопрос" на Парижской мирной конференции, с.245



downloaded from KitabYurdu.az

hökumətlərin müttəfiqlər tərəfindən tanınacağını fikirləşməyə əsas verirdi. Ona görə hələ may ayının 31-də Azərbaycan nümayəndə heyətinin sədri Ə.M.Topçubaşov nümayəndəlik adından bəyanat verib bildirdi ki, admiral Kolçak hökumətinin dağılmış Rusiya imperiyasının bütün ərazisində tanınmasının mümkünlüyü barədə Paris mətbuatının xəbərləri, keçmiş Rusiya ərazisindən ayrılmış yeni respublikalarla yanaşı, Qafqaz Azərbaycanının da ən ciddi şəkildə həyati mənafeyinə toxunur. Müstəqillik uğrunda on minlərlə qurbanlar vermiş Azərbaycan xalqının Rusiyada hər hansı ad altında bərpa edilən və fəaliyyət göstərən hökuməti tanımayacağı bildirilməklə yanaşı, qeyd edilirdi ki, Qafqaz Azərbaycanının ərazisi gələcək Rusiya dövlətinin ərazisinə daxil edilməməlidir.[806] Bəyanatda irəli sürülən bir sıra fikirlər Azərbaycan nümayəndələrinin iyun ayının 5-də Sülh konfransının sədrinin və Müttəfiq dövlətlərinin Baş nazirlərinin adına göndərilmiş etiraz notasında öz əksini tapdı.[807] Notada Omsk hökumətinin keçmiş Rusiya imperiyasının hüdudlarında tanınmasına etiraz edilir və Azərbaycanın imperiyadan birdəfəlik ayrıldığı təsdiq edilirdi. Notada göstərilirdi ki, Azərbaycan hökuməti öz ərazisini bolşeviklərdən təmizləmək üçün yarım il mübarizə aparmış, mübarizənin gedişində çoxlu qurbanlar vermiş, maddi itkilərə məruz qalmışdır. Orada qeyd edilirdi ki, yüz ilə yaxın tərkibində olduğu Rusiya hökuməti Azərbaycan xalqına yad bir rejim idi və bu rejim xalqın taleyində çox ağır izlər qoymuşdur. Notanın axırında Azərbaycan nümayəndə heyəti bildirirdi ki, "Rusiyada hansı hökumətin tanınmasından asılı olmayaraq, yalnız öz parlament və hökumətini tanıyan Azərbaycan Rusiyanın hüdudlarına daxil edilməməlidir.[808]

Lakin Kolçak hökumətinin tanınması yalnız Azərbaycan nümayəndələrini deyil, Parisə gəlmiş yeni dövlətlərin əksəriyyətinin nümayəndələrini narahat edirdi. Ona görə də, yeni yaranmış respublikalar müttəfiqlərə və Sülh konfransının sədrinə etiraz notası hazırlamaq üçün birlikdə bir sıra iclaslar keçirdilər. Qərara alındı ki, Azərbaycan, Estoniya, Gürcüstan, Latviya, Şimali Qafqaz, Belorusiya və Ukrayna nümayəndələri adından Bəyannamə imzalansın. Bəyannamənin mətni müzakirə edildikdən sonra onu Azərbaycan nümayəndələri adından Ə.Topçubaşov, Estoniya nümayəndələri adından İ.Poska, Gürcüstan nümayəndələri adından N.Çxeidze, Latviya nümayəndələri adından Z.Meerovits, Şimali Qafqaz nümayəndələri adından A.Çermoyev, Belorusiya nümayəndələri adından A.Leşkeviç və Ukrayna nümayəndələri adından Q.Sidorenko imzaladılar. Bəyanatda deyilirdi: "Azərbaycan, Estoniya, Gürcüstan, Latviya, Şimali Qafqaz, Belorusiya və Ukrayna respublikaları bu dövlətlərin xalqlarının azad iradəsinə uyğun olaraq yaradılıb və

---

806 Parisdə Azərbaycan Sülh heyətinin sədri Ə.M.Topçubaşovun Sülh konfransının sədrinə məktubu. 05.06.1919.//ARDA, f.970, s.l, i.143, v.49-50

807 Prèsident de la Dèlègation de Paix de la Rèpublique d'Azerbaïdjan Ali Mardan Toptchibacheff - Son Excellence, Monsieur le Prèsident de la Confèrence de la Paix. Le 5 juin I919.//Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 832, folio 72

808 Parisdə Azərbaycan Sülh heyətinin sədri Ə.M.Topçubaşovun Sülh konfransının sədrinə məktubu. 05.06.1919. //ARDA f.970, s.1, i.143, v.47



downloaded from KitabYurdu.az

fəaliyyət göstərir. Bu respublikaların konstitusiyaları hazırlanma mərhələlərindədir və qonşu dövlətlərlə qarşılıqlı münasibətlər orada təsbit ediləcək və ümumi səsvermə əsasında seçilmiş və seçiləcək Müəssislər Məclisində müəyyən ediləcəkdir. Rusiyada hər hansı dövlət hakimiyyətinin qərarları heç bir halda müstəqil dövlətlər olan Azərbaycan, Estoniya, Gürcüstan, Latviya, Şimali Qafqaz, Belorusiya və Ukraynaya aid edilə bilməz. Sənədi imzalayan respublikalar Sülh konfransının qarşısında belə bir xahişlə çıxış edirlər ki, böyük dövlətlər tezliklə onların siyasi müstəqilliyini tanısınlar.[809] İyun ayının 17-də yeddi respublikanın nümayəndə heyətlərinin başçıları tərəfindən imzalanmış Bəyannamə bir gün sonra, iyunun 18-də Latviya hökumətinin xarivi işlər naziri Z.A.Meerovits tərəfindən ABŞ prezidenti V.Vilsona təqdim edildi.[810]

Parisdə olan Qafqaz nümayəndələri Azərbaycan nümayəndələrinin yerləşdiyi "Klaric" mehmanxanasında iki dəfə - iyunun 15-də və 18-də bu məsələni müzakirə etdi. Birinci iclasda Azərbaycan, Gürcüstan və Dağlı respublikalarının nümayəndələri, ikinci iclasda isə azərbaycanlılar və dağlılar iştirak etdilər.[811] Müzakirələr zamanı hər iki iclasda Kolçakla bərabər Denikinin də Qafqaz respublikaları üçün ciddi təhlükə törətdiyi, Qafqazda Dağlılar respublikası işğal olunana qədərki "status kvo"nun qorunub saxlanmasının zəruriliyi qeyd edildi. Ermənilərin ağqvardiyaçı hökumətlərlə gizli əlaqələri olduğuna görə onlar nə "yeddilərin" Bəyanatına qoşuldular, nə də Qafqaz respublikalarının etiraz notasını imzaladılar.[812] İyun ayının 23-də Azərbaycan, Gürcüstan və Şimali Qafqaz respublikaları adından yeddi maddədən ibarət olan etiraz notası Sülh konfransının sədrinə göndərildi. Azərbaycan nümayəndə heyətinin başçısının imzaladığı əvvəlki iki sənəddən (5 və 17 iyun) bu notanın fərqi onda idi ki, burada Qafqaz respublikaları Rusiyada gedən proseslərə öz taleləri baxımından yanaşır, Kolçakla bərabər Qafqaz respublikaları üçün ciddi təhlükəyə çevrilmiş Denikinə qarşı etiraz edilirdi. Notada göstərilirdi ki, böyük dövlətlər Qafqaz respublikalarına müstəqil siyasi qurumlar kimi baxmalıdırlar və yalnız belə olduqda Rusiya ilə bu ərazilərin gələcək siyasi quruluşu barədə saziş bağlamaq olar. Sənədə imza edən respublikaların nümayəndələri admiral Kolçakla yazışmalarda xatırladılan Millətlər Cəmiyyətinin Rusiya hökumətinin tərkibində bu respublikaların muxtariyyətinin tanınması məsələsinə etiraz edir və Qafqaz dövlətlərinin müstəqilliyinin siyasi cəhətdən tanınmasını Rusiya ilə hər hansı əlaqənin mühüm şərti kimi göstərirdilər. Notada deyilirdi: "Qafqaz respublikaları nümayəndələri müvafiq şəkildə öz hökumətləri adından bildirirlər ki, öz müstəqilliyini elan etmiş Qafqaz xalqları onu

---

[809] Parisdə olan Azərbaycan, Estoniya, Gürcüstan, Latviya, Şimali Qafqaz, Belorusiya və Ukrayna nümayəndələrinin bəyanatı. 17.06.1919. //ARDA, f.970, s.l, i.143, v.50-51; Papers Realting to the Foreign Relations of the United States. Russia, 1919, p.380-381

[810] Б.Е.Штейн. "Русский вопрос" на Парижской мирной конференции, с.244

[811] Parisdə olan Azərbaycan, Gürcüstan və Şimali Qafqaz nümayəndələrinin birgə iclaslarının Protokolu. 15-18.06.1919. //APDA, f.970, s.l, i.142, v.181-186

[812] З.Авалов. Независимость Грузии в международной политике, с. 195



downloaded from KitabYurdu.az

böyük qurbanlar bahasına qorumuşlar və bundan sonra da müstəqil olmaq arzusunu qəti şəkildə müdafiə edəcəklər. Qafqaz respublikaları yenidən Rusiyaya birləşməyə heç bir vaxt razı olmayacaqlar."[813]

Yaranmış vəziyyətlə əlaqədar sənədi imzalayan Qafqaz respublikaları öz gələcək siyasi quruluşlarını Millətlər Cəmiyyətinin himayəsi altında Qafqaz dövlətləri ittifaqının yaradılmasında görürdülər. Antanta dövlətlərinin Parisdə olan nümayəndələrinə məlumat verilirdi ki, Qafqaz respublikaları Tiflisdə çağırılmış konfransda ümumqafqaz konfederasiyası ideyasını müzakirə edir və həmin respublikaların Versaldakı nümayəndələri də bu istiqamətdə bəzi görüşlər keçirmişdilər.

Keçmiş Rusiya imperiyasının hüdudlarında yaradılmış yeni dövlətlərin etiraz notasının altıncı maddəsi Denikin təhlükəsinə qarşı idi. Orada deyilirdi ki, Qafqaz respublikalarının dinc həyata qayıtmasını general Denikinin rəhbərlik etdiyi Könüllülər Ordusunun fəaliyyəti çətinləşdirir. Bu ordu Cənubi Qafqaz üçün daimi təhlükəyə çevrilmişdir və Şimali Qafqaz respublikasının böyük bir hissəsi onun tərəfindən işğal edilmişdir. Notada böyük dövlətlərə məlumat verilməklə yanaşı, onlardan tələb edilirdi ki, Könüllülər Ordusu işğal etdiyi ərazilərdən çıxarılsın və Qafqaz xalqlarının hüquqlarına hörmət edilsin.[814] Ən nəhayət, Müttəfiqlərə bildirilirdi ki, Qafqaz respublikaları ilə bağlı bütün məsələlər müvafiq respublikaların hökumətləri ilə, yaxud onların Parisdəki nümayəndələri ilə razılaşdırılsın. Bu məqsədlə Sülh konfransında Pribaltika komissiyasına bənzər xüsusi Qafqaz işləri komissiyası yaradılması barədə konfransın katibliyinə təkliflər verilmişdi.

İyun ayının 28-də Estoniya, Litva, Latviya, Gürcüstan, Şimali Qafqaz, Azərbaycan və Polşa nümayəndələri Sülh konfransının rəhbərliyinin ünvanına daha bir müraciət göndərdilər. Bu müraciəti eston nümayəndələri adından C.Poska, N.Kostner və S.Pusta, latış nümayəndələri adından C.Seskis və F.Zilens, Litva polyaklarının nümayəndəsi B.Krizanovski, gürcülərin adından N.Çxeidze, İ.Sereteli, K.Qvarçaladze və V.Qabeçiya, Dağlılar Respublikası adından A.Çermoyev və H.Bammatov, azərbaycanlılar adından Ə.Şeyxülislamov və M.Məhərrəmov imzalamışdılar. Polşanın müstəqilliyi Sülh konfransı tərəfindən tanındığından Polşa nümayəndələri sənədi Rusiyada qalan polyak torpaqlarına aid xüsusi rəylə imzalamışdılar. Müraciətdə deyilirdi: "Hazırda Şimali Qafqaz respublikasının ərazisinin general Denikin ordusu tərəfindən işğalı, Azərbaycan və Gürcüstan respublikaları üçün təhlükənin yaranmasından xəbər verir və bununla Rusiyanın mürtəce qüvvələri keçmiş çar Rusiyası ərazisində yaranmış gənc

---

[813] Parisdə Azərbaycan Sülh heyətinin sədri Ə.M.Topçubaşovun müttəfiq və dost ölkələrin Dördlər Şurasının sədrinə məktubu. 20-23.06.1919. //ARDA, f.970, s.l, i.143, v.64-66; əlavə məlumat üçün bax: В.И.Адамия. Из истории Английской интервенции в Грузии (1918-1921 гг.), с. 122

[814] Azərbaycan, Gürcüstan və Dağlılar Respublikası nümayəndələrinin Paris Sülh konfransının rəhbərliyinə müraciəti. 23.06.1919.// ARDA, f.970, s.1, i.142, v.65



downloaded from KitabYurdu.az

müstəqil respublikaları öz əsarətinə qaytarmağa cəhd göstərirlər... Bu sənədin altında imza atan nümayəndələr xüsusi şəkildə qeyd edirlər ki, Denikinin hücumunu müttəfiqlərin maliyyə və hərbi yardımı şərtləndirir. Bütün müstəqil dövlətlərin nümayəndələri bu müdaxiləyə qarşı etiraz edir və bildirirlər ki, öz müqəddəratını təyinetmə hüququ Rusiya məclisi tərəfindən deyil, Sülh konfransı tərəfindən müəyyən edildiyindən Qafqazda bütün dövlətlərin ərazi bütövlüyünün saxlanması və xalqların öz parlamentlərində səsləndirdikləri azad iradənin nəzərə alınması zəruridir". Müraciətin sonunda müttəfiq dövlətlərindən Denikin təcavüzünə son qoyulması və xalqların azad inkişafına yardım göstərilməsi tələb edilirdi.[815]

Keçmiş Rusiya imperiyasının dağılmasından sonra yaranmış yeni respublikaların gərgin səyləri nəticəsində hazırlanıb, Sülh konfransına və ayrı-ayrılıqda müttəfiqlərin nümayəndələrinə təqdim etdikləri Bəyanat və etiraz notalarına o qədər də əhəmiyyət verilmədi. Ə.M.Topçubaşov yazırdı: "Bu etirazlara nə Konfrans, nə də Müttəfiqlər cavab vermədilər. Eyni zamanda çox güclü şəkildə, hər vasitə ilə Kolçak hökumətinin və Könüllülər Ordusunun tərəfi saxlanılır. Bolşeviklər üzərində qələbə qazanıldıqdan sonra onların (müttəfiqlərin) arasında vahid Rusiya yaradılacağına inam artmışdır. Bununla belə, bir şey diqqətdən yayınmışdır: bu məqsədə can atarkən onlar hüquq və maraqlarını himayə etdikləri kiçik xalqların, göründüyü kimi, azadlıq və müstəqilliyini qurban vermişlər. Müttəfiqlər Dağlılar Respublikasının darmadağın edilməsinə elə etinasız yanaşırlar ki, biz, doğrudan da, onların halına acımalı oluruq və buna görə də öz gələcəyimizə həyəcansız baxa bilmirik."[816]

Yaranmış bu təhlükə, habelə Qafqazdan alınan həyəcanlı xəbərlər Qafqaz respublikalarının Versaldakı nümayəndələrinin birliyini və əməkdaşlığını zəruri edirdi. Eyni zamanda yeni respublikaların nümayəndələri müşahidə edirdilər ki, Rusiyaya münasibətdə müttəfiqlər o qədər də yekdil deyillər. Əli Mərdan bəyin yazdığı kimi: "Onlardan bəziləri (İtaliya və Fransa) həqiqətən vahid Rusiya yaradılmasını istəyirlər, başqaları (İngiltərə və Amerika) isə özlərini elə göstərirlər ki, guya bu fikrə tərəfdardırlar."[817] Hətta ingilis və amerikan nümayəndələri Omsk hökumətini tanımaqları ilə yanaşı, yeni respublikaların nümayəndələrinə də son söz demirdilər. Onlar bir tərəfdən yeni respublikaların müstəqilliyini müzakirəyə qoymaqdan imtina edirdilərsə, digər tərəfdən müttəfiqlərin ayrı-ayrı nümayəndələri istiqlaliyyət uğrunda mübarizə aparmağa tərəfdar olduğunu bildirirdilər. Azərbaycan Nazirlər Şurasının sədrinə respublikanın Parisdəki nümayəndələrinin yazdığı hesabatda qeyd edilirdi: "Müttəfiqlər, nəinki bizim müstəqillik məsələmizi müzakirəyə qoymurlar, hətta göründüyü kimi, buna yol vermək belə istəmirlər.

[815] Papers Realting to the Foreign Relations of the United States. Russia, 1919, p.766-767
[816] Azərbaycan Respublikasının Sülh nümayəndəliyinin başçısı Ə.M.Topçubaşovun Nazirlar Şurasının sədrinə məktubu. 22-25.09.1919. //ARDA, f.970, s.l, i.142, v.11
[817] Yenə orada, v.10



downloaded from KitabYurdu.az

Doğrudur, onların nümayəndələri ilə görüşlər zamanı hər biri ayrılıqda bizə xeyirxahlıqla yanaşır və müstəqil olmaq uğrunda atdığımız addımları yüksək dərəcədə qiymətləndirirlər. Bunu biz mətbuatdan, ayrı-ayrı deputatlardan, iqtisadi qurumların və başqa təşkilatların nümayəndələrindən də eşidirik."[818]

Dağlılar Respublikasının Denikin könüllüləri tərəfindən işğal edilməsi Parisdə olan Azərbaycan və Gürcüstan nümayəndələrini ciddi şəkildə narahat edirdi. 1919-cu ilin yazında Şimali Qafqazda cərəyan edən hadisələr bu respublikalar üçün də gözlənilməz nəticələr verə bilərdi. Bu təhlükəni hiss edən Azərbaycan nümayəndələri Versalda olan ingilis nümayəndəsi ser Luiz Malletlə görüşdə bildirmişdilər ki, "Könüllülər Ordusu bolşeviklərlə mübarizə aparmaq əvəzinə müttəfiqlərdən aldıqları silahları dinc yerli əhaliyə qarşı çevirir və bu ordu Şimali Qafqaz Respublikasının ərazisini tutduqdan sonra bizim torpaqlara soxulacaq.[819] Yaranmış vəziyyətlə əlaqədar may ayının axırlarından başlayaraq, Azərbaycan, Gürcüstan və Dağlılar Respublikasının nümayəndələri arasında siyasi və iqtisadi ittifaq bağlamaq haqqında danışıqlar başlandı. May ayının 30-da Versalda A.Çermoyevin mənzilində Azərbaycan və Dağlı nümayəndələrinin birgə iclası keçirildi.[820] İclasda dövlətlərarası komissiyanın Qafqaz konfederasiyası yaratmaq barədə təklifləri müzakirə edildi. Gürcülərin mübahisəli ərazi məsələlərini beynəlxalq arbitraja çıxartmaq təklifləri ilə bağlı göstərildi ki, bu respublikalar arasında ziddiyyətlər o qədər də dərin deyildir və bunları yerlərdə həll etmək olar. Bundan əlavə, Azərbaycan nümayəndələri bu fikirdə idi ki, konfederasiya yaranacağı təqdirdə hər respublika öz siyasi müstəqilliyini saxlamalıdır. Bu məsələ hər üç nümayəndəliyin 15 iyun tarixli iclasında da müzakirə edildi. Konfederasiya haqqında tam razılıq əldə edilməsə də, hər üç nümayəndəliyin vahid siyasi fəaliyyəti haqqında qərar qəbul edildi. Denikin təhlükəsi ilə bağlı iclasda qeyd edildi ki, Könüllü Ordunun Cənubi Qafqaza doğru hərəkəti region xalqları üçün çox ağır nəticələr verə bilər. Ona görə qərara alındı ki, bu fakt ciddi şəkildə müzakirə edilməli və birgə addımlar atılmalıdır. Gürcü nümayəndəsi Z.Avalov düzgün olaraq göstərdi ki, Denikin ordusunu Antanta dövlətləri silah və hərbi sursatla təmin etdiyi üçün onlardan bu ordunun Şimali Qafqazı tərk etməsini tələb etməyin heç bir əhəmiyyəti olmayacaqdır. Onun fikrincə, Qafqaz respublikaları bu təhlükədən öz gücləri ilə xilas olmağın yollarını özləri fikirləşməlidirlər.[821]

Azərbaycan Xarici İşlər Nazirliyinin respublikanın Versal Sülh konfransındakı nümayəndə heyətinin sədrinə göndərdiyi məlumatda "Vahid və

---

818 Yenə orada, v.10

819 Yenə orada, v.11

820 Parisdə olan Azərbaycan və Dağlılar Respublikası nümayəndələrinin birgə iclasının Protokolu. 30.05.1919. //ARDA, f.970, s.l, i.142, v.165

821 Parisdə olan Azərbaycan, Gürcüstan və Şimali Qafqaz nümayəndələrinin birgə iclaslarının protokolu. 15.06.1919. //ARDA, f.970, s.1, i.142, v.181-183



downloaded from KitabYurdu.az

bölünməz Rusiya" uğrunda mübarizə aparan Denikin könüllülərinin yeni yaranmış milli respublikalar, o cümlədən Azərbaycan üçün real təhlükə törətdiyi göstərilirdi.[822] Xüsusilə Qafqazın Qara dəniz sahillərində yerləşən Tuapse, Soçi və Suxumi rayonlarının üstündə Gürcüstanla hərbi toqquşmadan sonra denikinçilərin hərbi təcavüzkarlığı daha da genişlənmişdi. 1919-cu ilin fevralında Dağlılar Respublikası ilə Denikin arasında danışıqların müsbət nəticəsi olmadı. 1918-ci ilin may ayının əvvəllərində öz istiqlaliyyətini elan etmiş, dekabr ayında parlamentini yaratmış Şimali Qafqaz Respublikası 1919-cu ilin mart ayının əvvəllərində Könüllü Ordu tərəfindən hücuma məruz qalmışdı. Onlar bu addımlarını bolşevizmlə mübarizə aparmaq məqsədi ilə əlaqələndirirdilər, halbuki bolşevizm cənubda deyil, şimalda fəaliyyət göstərirdi. Bundan əlavə, Dağlılar Respublikası müttəfiqlərin Bakıdakı komandanlığı tərəfindən tanınmışdı və general Tomson 1918-ci ilin noyabr ayının 27-də Bəyanat verərək bildirmişdi ki, Qafqazın taleyi beynəlxalq Sülh konfransında həll ediləno qədər Müttəfiqlər Şimali Qafqaz hökumətini yeganə qanuni hakimiyyət orqanı kimi tanıyırlar. Həmin bəyanatda bildirilmişdi ki, Denikin könüllüləri Dağlılar respublikasının ərazisinə buraxılmayacaqdır.[823] Lakin indi baş vermiş təcavüz aktı ilə əlaqədar general Tomson Dağlı respublikası hökumətinin sorğusuna birbaşa cavab verməkdən yayınırdı. Polkovnik Raulsonun başçılığı ilə Teymur xan Şurada olan müttəfiqlərin missiyası Denikin hücumundan sonra Bakıya qayıtmışdı. Petrovskda olan iki ingilis piyada batalyonunun başlıca vəzifəsi Denikin könüllülərini Dağıstana buraxmamaq olsa da,[824] əslində onlar Könüllü ordunun cənuba doğru irəliləməsinə laqeyd münasibət bəsləyirdi.

Yaranmış vəziyyətlə əlaqədar olaraq, Azərbaycan hökuməti ölkə daxilində denikinçilərin hərbi siyasi fəaliyyətini məhdudlaşdırmaq üçün bir sıra təxirəsalınmaz tədbirlər gördü. Könüllü ordu nümayəndələrinin və ermənilərin hərbi hissələr yaratmaq cəhdləri ilə bağlı 1919-cu ilin fevral ayının 15-də V.Tomsona məktubundan sonra Denikin təhlükəsi ilə bağlı Azərbaycan Parlamentinin iclasında Baş Nazir F.Xoyskinin fövqəladə bəyanatı elan edildi. Burada Denikinə yardım göstərən qüvvələrin, o cümlədən ermənilərin gizli şəkildə silahlanmasının, hərbi dəstələr təşkil etmələrinin dözülməz fakt olduğunu, belə hərəkətlərin hökumətin ləyaqətinə toxunduğunu qeyd edərək o, təcili şəkildə bu halların qarşısının alınmasının zəruriliyini bildirdi. Fətəli xan dedi: "General Prjevalski özünə könüllü ordu komandanı adı verib, Bakıda məşhur olan Hamazasp ilə guya könüllü əsgər toplayırlar. General Prjevalski sabiq Rusiya əsgərlərinə, Hamazasp isə ermənilərə silah verirlər, bunlar İçəri şəhərdəki və Təzə Pir

[822] Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Paris sülh konfransındakı respublika nümayəndəliyinə məlumatı. İyun, 1919-cu il. //ARDA, f.2905, s.l, i.13, v.51-66
[823] ARDA, f.970, s.3, i.5, v.l
[824] О событиях на Кавказе и в Средней Азии. Донесение генерала Джорджа Мильна. // Каспийский Транзит. В двух томах, т.I. Москва, 1996, с.329



downloaded from KitabYurdu.az

yanındakı qışlaları, Salyan kazarmalarını tutublar. Bu əhvalat əhalini təşvişə salmışdır. Hökumət bunu əvvəl gündən bilib, bu əhvalatı təhqiq etmək və bunların kim və mənzurlarının nə olduğunu kəşf etməyə çalışmışdır".[825] Baş nazir bununla bağlı V.Tomsona məktubunu və ingilis komandanlığının cavabını parlament üzvlərinə çatdırdı. Bundan sonra ilk növbədə rusların Bakıda lövbər salmış Xəzər donanması tərksilah edildi və onun fəaliyyəti hökumətin nəzarəti altına alındı. Azərbaycan ərazisində yaşayan molokanlar arasında təbliğat işi aparıb Denikin ordusu üçün əsgər toplanışı təcili surətdə dayandırıldı və F.Xoyskinin tələbinə əsasən, bu işə rəhbərlik edən general Prjevalski Azərbaycan ərazisini tərk etdi. İngilislər tərəfindən müdafiə edilən L.Biçeraxov dəstəsinin fəaliyyəti də Azərbaycanda qadağan edildi. Məlum olduğu kimi, L.Biçeraxov Azərbaycanda Denikin siyasətinin başlıca aləti idi. Hələ yanvarda o, Azərbaycanda qanuni hakimiyyəti devirmək məqsədi ilə Qafqaz-Xəzər hökuməti yaratmışdı. Bu avantürist plan ingilislərə məlum idi və onlar bu məsələnin sakitliklə həll olunmasını istəyirdilər. İngilislər L.Biçeraxovu guya, danışıqlar aparmaq üçün Londona dəvət etdilər. O, Bakını tərk edən kimi Azərbaycan hökuməti Biçeraxov dəstələrinin 24 saat ərzində Azərbaycanı tərk etmələri barədə əmr verdi. Biçeraxovu əvəz edən general Erdeli Azərbaycan hökumətinin bu hərəkəti barədə general Tomsona etiraz etdikdə, Tomson bildirdi ki, Bakıdan çıxarılan Biçeraxov ordusu öz simasını itirmişdir, sülh və qayda-qanun üçün təhlükə təşkil edir.[826]

İstər Azərbaycan hökuməti ilə danışıqlarda, istərsə də müxtəlif yazışmalarda və bəyanatlarda ingilislər vəd verirdilər ki, Könüllü ordu Dağıstana girməyəcəkdir. Lakin Denikinin Dərbəndə doğru hərəkəti bu vədlərin etibarsız olduğunu sübut etdi. May ayında Azərbaycanın diplomatik nümayəndəsi Ə.Haqverdiyevin Dağıstanda apardığı danışıqlarda isə onlar Dərbənddən cənuba keçməyəcəklərini bildirirdilər.[827] May ayının axırlarında Könüllülər ordusunun bir hissəsinin Dərbəndi tutması haqqında həyəcanlı xəbərlər gəldi. Bu addım Azərbaycanda böyük narahatçılığa səbəb oldu. Britaniya komandanlığı yanında Könüllü ordunun nümayəndəsi polkovnik Lazarev may ayının 21-də baş nazir H.Usubbəyova bildirdi ki, Cənubi Rusiya ordusu komandanlığının Azərbaycana qarşı heç bir təcavüzkarlıq niyyəti yoxdur və Könüllü ordu Azərbaycanın müstəqilliyini tanıyır. Lakin məlumatda qeyd edilirdi ki, Rusiya bolşeviklərindən azad edildikdən sonra köhnə imperiyanın ərazilərində yaradılmış yeni dövlətlərin məsələsinə xalq yığıncağında və ya bolşeviklərə qarşı mübarizə aparan silahlı qüvvələrin öz hüquqlarını təslim etdiyi ali hakimiyyət orqanında baxılacaqdır.[828]

[825] Azərbaycan Xalq Cümhuriyyəti. Parlament, I cild, s.285
[826] F.Kazemzadeh. The Struggle for Transcaucasia, p.243
[827] Azərbaycan Respublikasının Dağlılar İttifaqında diplomatik nümayəndəsi Ə.Haqverdiyevin xarici işlər nazirliyinə məlumatı. May, 1919.//ARDA, f.970, s.1, i.5, v.1
[828] Polkovnik Lazarevin Azərbaycanın müstəqilliyinin tanınması haqqında Nazirlər Şurasının sədri N.Usubbəyova müraciəti. 21.05.1919. //ARDA, f.970, s.1, 4.48, v.15



downloaded from KitabYurdu.az

Bu məktub barədə H.Usubbəyov iyun ayının 5-də keçirilən parlament iclasına məlumat verdi. Məktubun mətni və onun Azərbaycan dilinə tərcüməsi parlament üzvlərinə oxundu. Eyni zamanda baş nazir Könüllü Ordu komandanı Erdelinin may ayının 18-də Yekaterinodardan polkovnik Lazarevə göndərdiyi teleqramı da oxudu. Orada deyilirdi: "Əgər Azərbaycan hökuməti tərəfindən üzərimizə hücum olmazsa, öz tərəfimdən ordularımızın Zaqatala - Qafqaziya dağları və Qızılburun xəttindən irəliyə getməyəcəyini təmin edirəm. N.Usubbəyov alınmış teleqramlarla bağlı ingilis komandanlığı ilə geniş söhbət etdiyini, bu məqsədlə bütün zəruri hazırlıq işlərinin görüldüyünü ingilis komandanlığına bildirdiyini məclis üzvlərinə dedi".[829] Könüllü Orduya münasibətdə Azərbaycan hökumətinin münasibəti birmənalı idi. Parlamentin hələ may ayının 26-da keçirilən iclasında Baş Nazir N.Usubbəyov demişdi ki, Denikin ancaq bizim meyitlərimiz üzərindən Azərbaycan sərhədlərini keçə bilər.[830] İyun ayının 5-də parlament müzakirəsində hökumətin Denikin təhlükəsinə qarşı tədbirləri müdafiə edən M.Ə.Rəsulzadə hökumətə fövqəladə səlahiyyətlər verilməsini təklif etdi. Bu səlahiyyətlər çərçivəsində ümumi səfərbərlik elan edilməli, şiddətli qanunlar qəbul edilməli və sonradan hesabat verilməsi şərti ilə düşmənə qarşı hazırlıq tədbirləri üçün xəzinədən vəsait ayrılmalı idi. Bu təklifə uyğun olaraq, iyun ayının 5-də Azərbaycan Parlamentində xüsusi Dövlət Müdafiə Komitəsi yaradıldı. Bura yeni hökumət kabinəsinə rəhbərlik edən N.Usubbəyov, yollar naziri X.Məlik-Aslanov, ədliyyə naziri A.Səfikürdski, hərbi nazir S.Mehmandarov və xarici işlər naziri M.Y.Cəfərov daxil oldular. Dövlət Müdafiə Komitəsi iyun ayının 11-də bütün Azərbaycanda hərbi vəziyyət elan etdi.

İyun ayının əvvəllərində Denikinə və ona himayədarlıq edən ingilis generalı Q.N.Koriyə vurduğu teleqramda N.Usubbəyov beş gün ərzində denikinçilərin Dağıstanı tərk etmələrini tələb etmişdi. Eyni zamanda Gürcüstan hökuməti də Könüllü Ordunun hərəkətləri ilə bağlı ingilis komandanlığına öz etirazlarını bildirdi. Lakin ingilis komandanlığı işə qarışdısa da, Könüllü Ordu Dərbəndi tərk etməkdən imtina etdi, onlar Samur çayı, Zaqatalanın şimal sərhədləri üzrə yeni demarkasiya xətti müəyyən etdilər. Bununla bağlı Azərbaycan hökumətinin ikinci etirazına cavab olaraq, İngilis komandanlığı bildirdi ki, Denikinin müəyyən etdiyi "Cənub demarkasiya xətti İngiltərə hökumətinin bəyanatına uyğun deyildir".[831] Onlar bu barədə Londona məlumat verəcəklərini bildirdilər. Azərbaycan hökumətini və sonuncu demarkasiya xətti ilə əlaqədar narazı qalan ingilisləri sakitləşdirmək üçün Denikin məktubla müraciət edib, Rusiyada mərkəzi ali hakimiyyət bərpa olunana qədər Azərbaycanın müstəqilliyini tanıdığını bildirdi.[832] Lakin Azərbaycan hökuməti bu və buna bənzər vədlərə artıq inanmırdı.

---

[829] Azərbaycan Xalq Cümhuriyyəti. Parlament, I cild, s.670-671
[830] Yenə orada, s.614
[831] ARDA, f.2905, s. 1, 4-12
[832] ARDA, f.2905, s.1, i.13, v.54



downloaded from KitabYurdu.az

F.Kazımzadənin yazdığı kimi, "azərbaycanlılar başa düşürdülər ki, Denikinin yürüşünün son məqsədi Azərbaycanı və keçmiş Rusiya imperiyasının digər hissələrini qaytarmaq idi.[833]

Ona görə də təcili şəkildə yaradılan Konüllü milli müdafiə dəstələri nizami ordu hissələri ilə birlikdə Azərbaycanın Şimalına yeridildi və Samur çayı boyunca yerləşdirildi. Uzun müddət Denikinlə "əməkdaşlıqda" ittiham edilən Azərbaycan hökumətinin ağqvardiyaçı orduya münasibəti hökumətin xarici işlər nazirinin müavini Ə.Ziyadxanovun Kuban hökumətindəki Azərbaycanın səlahiyyətli nümayəndəsi Cəfər bəy Rüstəmbəyova məktubunda belə şərh edilirdi: "Bizim hökumətimizin fikri belədir: kim olursa-olsun bolşevik - menşevik, denikinçi və i.a. Azərbaycanın istiqlaliyyətinə qəsd edən hər kəs onun düşmənidir... Könüllü orduya da münasibətimiz belədir: birdəfəlik və qəti olaraq qərara alınmışdır ki, Könüllü ordu hissələrini Azərbaycan Respublikası ərazisinə buraxmamalı, Dağıstanda olan Könüllü ordu hissələrinin oradan çıxarılması üzərində israr etməli və Azərbaycan ordusu demarkasiya xəttinə qədər Dağıstanı tutmalıdır".[834] Burada nəzərdə tutulan demarkasiya xətti 1919-cu ilin yanvar ayında ingilis komandanlığı ilə denikinçilərin danışıqlarında müəyyən edilmişdi.

Denikinin qərargahında olan ingilis generalı Briks Azərbaycan hökuməti ilə Könüllü ordu arasında əlaqə yaratmağa cəhd göstərirdi. O, Azərbaycan hökumətinin Kubanda olan diplomatik nümayəndəsi C.Rüstəmbəyovu A.Denikinlə görüşdürmüşdü. General Briks təklif edirdi ki, Denikinlə Azərbaycan arasında ixtilafı aradan götürmək üçün diplomatik nümayəndəliklər təsis edilsin. Denikin buna razı olsa da, Azərbaycan hökuməti bu təklifi rədd etdi.[835] Azərbaycan və Gürcüstan hökumətlərinin Denikin təhlükəsinə, onun cənuba doğru irəliləməsinə qarşı sərt mövqeyi öz nəticəsini verdi. Londondan Könüllü Ordu yanında Britaniya nümayəndəsi general Briksə teleqrama gəldi ki, əlahəzrət hökuməti general Lyaxovun Dağıstanın general-qubernatoru təyin edilməsini böyük narazılıqla qarşılayır. Halbuki, Denikin ordusu ora yalnız "bolşevizmə qarşı mübarizə məqsədi ilə" daxil olmuşdu. Həmin teleqramda göstərilirdi ki, əgər Denikin Böyük Britaniya üçün məqbul olmayan bu istiqamətdə hərəkətini davam etdirsə, əlahəzrət hökuməti ona kömək göstərməkdən imtina edəcək və indi göndərilən yardımı dayandırmalı olacaqdır.[836]

Azərbaycandan çıxmaq ərəfəsində ingilislərin istifadəsində olan Xəzər hərbi donanmasının bir hissəsinin Könüllü Orduya verilməsi Azərbaycan hökumətinin ciddi etirazına səbəb oldu. İngilis komandanlığına avqust ayının 3-də verilən etiraz

---

[833] F.Kazemzadeh. The Struggle for Transcaucasia, p.247

[834] Azərbaycan Respublikası xarici işlər nazirinin müavini A.Ziyadxanovun Kuban hökumətindəki diplomatik nümayəndə C.Rüstəmbəyova təcili diplomatik məlumatı. 26.06.1919. //ARDA f.970, s.1,i.89, v.38

[835] ARDA, f.2905, s.1, i.13, v.61

[836] Е.С.Лукомский. Деникин и Антанта.// Революция и гражданская война в описаниях белогвардейцев. Деникин - Юденич - Врангель. Сост. С.А.Алексеев. Москва, 1927, с.92



downloaded from KitabYurdu.az

notasında Azərbaycan hökuməti, bunu respublikanın suverenliyi üçün təhlükə hesab edən ingilislərin hərəkətini hörmətsizlik kimi qiymətləndirdi. General V.Tomson belə bir addımı Denikinin bolşeviklərə qarşı mübarizəsi ilə əlaqələndirsə də, milli hökumətin başçıları heç nədən çəkinmədən bu diplomatik oyunbazlığı Azərbaycanın təhlükəsizliyinə qarşı yönəlmiş qəsd kimi qiymətləndirdi.

Azərbaycan Xarici İşlər Nazirliyinin respublikanın Versalda olan nümayəndələrinə göndərdiyi məlumatda Denikin təhlükəsinin Gürcüstanla Azərbaycan arasında əməkdaşlığı möhkəmləndirdiyi qeyd edilirdi. 1919-cu ilin aprel ayında çağırılmış Qafqaz konfransında bir çox məsələlərlə bərabər bu respublikaları təhdid edən Denikin təhlükəsi də müzakirə edildi. Konfransda olan erməni nümayəndələri Denikin könüllülərinə münasibətlə bağlı birbaşa cavab verməkdən yayındılar. Lakin Şimaldan gələn təhlükə Azərbaycan və Gürcüstanı eyni dərəcədə narahat etdiyi üçün onlar bu məsələdə həmrəy olduqlarını bildirdilər. Tiflis fəhlə deputatları sovetinin iclasında Geqeçkori bildirdi ki, Bakı proletariatı ilə əl-ələ biz həyasız təcavüzkarı qəti şəkildə dəf edəcəyik və nə qədər ki, çar generalını əzməmişik silahı yerə qoymayacağıq.[837] Ermənistan respublikalarının qeyri-müəyyən mövqeyi bir tərəfdən Azərbaycan və Gürcüstandan fərqli olaraq cəbhəyanı zolaqda yerləşməməsindən irəli gəlirdisə, digər tərəfdən Denikin təhlükəsi ilə bağlı Ararat Respublikasının öz planları vardı. Bu planların böyük bir qismi İ.Şaxdinin 1931-ci ildə Tiflisdə nəşr edilmiş kitabında öz əksini tapmışdır.[838] Kitabda sənədlərə istinad edilərək göstərilir ki, Könüllü ordu ilə Ermənistan Respublikası arasında gizli saziş mövcud idi. Həmin sazişə görə, Ermənistan Respublikası Denikin ordusunun Azərbaycana və Gürcüstana hücumu zamanı ona köməklik göstərməli idi.[839] Öz növbəsində Könüllü ordunun şimaldan bu respublikalara hücumu Ermənistanın Azərbaycana və Gürcüstana olan ərazi iddialarını silah yolu ilə həll etmək üçün əlverişli şərait yaratmalı idi. Denikinlə Ermənistanın məqsədlərinin üst-üstə düşməsini sonralar A.Mikoyan da təsdiq edirdi. O yazırdı: "Təkcə erməni hökuməti Denikinə təslim olaraq öz "neytrallığını" elan etdi. Həmin vaxt onların rəğbəti gündən-günə güclənən Denikinin tərəfində idi."[840]

İngilislərin iyunun 11-də müəyyən etdiyi Petrovsk şəhərinin cənubundan keçən ikinci demarkasiya xəttinə də Denikinin məhəl qoymaması Azərbaycanla - Gürcüstanın əməkdaşlığını daha da sürətləndirirdi və hər iki respublika öz aralarında hərbi xarakterli müqavilə imzalamağı qərara aldılar. Bu barədə Ermənistan hökumətinə də müraciət edildi. Lakin öz qoşunlarına qarşı Denikinlə

---

837 A.İ.Mikoyan. Qafqaz məsələsinə dair. 1920. // RDSSTA, f.298, s.l, i.116, v.2

838 И.Шахдин. Дашнакцутюн на службе русской белогвардейшины и английского командования на Кавказе. Тифлис, 1931

839 Заря, 1919, 25 мая.

840 A.İ.Mikoyan. Qafqaz məsələsinə dair. 1920. // RDSSTA, f.298, s.1, i.116, v.2-3



downloaded from KitabYurdu.az

gizli sazişə girmiş Ermənistan hökumətinin sonralar müxtəlif bəhanələrlə iyun ayının 16-da könüllülər təhlükəsinə qarşı Azərbaycanla Gürcüstan arasında imzalanmış hərbi müdafiə paktına daxil olmaması təbii idi.

Parisdə olan Azərbaycan nümayəndələrinin 1919-cu ilin yazında və yayında gürcü və dağlı nümayəndələri ilə səmərəli əməkdaşlığı müxtəlif beynəlxalq məsələlərə münasibətdə Qafqaz həmrəyliyinin yaranmasında mühüm rol oynadı. Denikin təhlükəsinə qarşı bu respublikaların müqavimətini gücləndirdi. Müttəfiqlərin Kolçak Hökumətini tanımaq haqqında bəyanatı keçmiş Rusiya imperiyasında yaranmış yeni dövlətlərin həmrəyliyini gücləndirdi. Azərbaycan nümayəndələri Versalda "vahid və bölünməz Rusiya" təhlükəsinə qarşı gərgin mübarizə aparmalı oldular. Müttəfiq dövlətlərin etinasızlığına baxmayaraq, Azərbaycan nümayəndələri istiqlaliyyətin tanınması uğrunda mübarizədən bir addım belə geri çəkilmədilər, respublikanın mənafeyi, xüsusilə onun ərazi bütövlüyünün qorunub saxlanılması ilə bağlı dəfələrlə Sülh konfransına, Versal Ali Şurasına və Antanta ölkələrinin dövlət başçılarına öz haqqları və hüquqları ilə bağlı tələbnamələr verdilər. Azərbaycan nümayəndə heyəti Qərb ölkələrinin dövlət və hökumət başçıları tərəfindən müdafiə edilən və bilavasitə, Azərbaycan Respublikasının ərazi bütövlüyünə qarşı yönələn "Böyük Ermənistan" iddialarını bütün vasitələrlə dəf etməyə nail oldular.

Üç il müddətinə imzalanmış hərbi müdafiə xarakterli müqaviləyə görə, Azərbaycan və Gürcüstanın istiqlaliyyəti və ərazi bütövlüyünə hər hansı dövlət tərəfindən təcavüz olunduğu təqdirdə müqavilədə olan tərəflər bir-birinə hərbi yardım göstərməyə borclu idilər. Müqavilədə göstərilirdi: 1. Müqavilədə olan dövlətlər öz üzərlərinə götürürlər ki, bir və ya hər iki tərəfin ərazi bütövlüyü və müstəqilliyinə hər hansı hücum və təhlükə olarsa, özlərinin bütün silahlı qüvvələri vasitələri ilə buna qarşı çıxarlar; 2. Qonşu dövlətlərdən hər hansı biri əvvəlki bəndə uyğun olaraq başlanmış hərbi əməliyyatlar zamanı sərhəd mübahisələrini silah gücünə həll etmək üçün müqavilədə olan tərəflərin birinə, yaxud hər ikisinə hücum edərsə, həmin dövlət vuruşan tərəf kimi tanınır; 3. Müqavilə ciddi müdafiə xarakteri daşıyır, əgər tərəflərdən biri öz xüsusi təşəbbüsü ilə, qabaqcadan razılaşdırılmadan müharibə elan edir, yaxud hərbi əməliyyatlara başlayırsa, müqavilədə olan digər tərəf həmin hərbi əməliyyatlarda iştirak etməyə borclu deyildir; 4. Müqavilədə olan tərəflər, onlar arasında baş verən bütün sərhəd münaqişələrini sazişlər və arbitraj yolu ilə həll etməyi öhdələrinə götürürlər. Belə halda qəbul edilmiş qərar hər iki tərəf üçün sonuncu və məcburi qərar hesab edilir; 5. Müqavilə üç il müddətinə bağlanır. Bu müddətin başa çatmasına bir il qalmış tərəflərə hüquq verilir ki, onun müddətinin uzadılması, yaxud ləğv edilməsi barədə öz arzusunu bildirsin; 6. Müqavilədə olan tərəflər, hər iki dövlətin suveren hüquqlarının və müstəqilliyinin qorunmasına yönəlmiş diplomatik danışıqlar aparmağı və həmrəy çıxış etməyi öz üzərinə götürürlər; 7. Müqavilədə olan tərəflər, separat sülh bağlamamağı öhdələrinə götürürlər; 8. Müqavilədə olan



downloaded from KitabYurdu.az

tərəflər, öz müttəfiqinə qabaqcadan xəbərdarlıq etmədən digər dövlətlə hərbi saziş bağlamamağı öz üzərinə götürür; 9. Əgər 5-ci bənddə göstərilən müddət başa çatmamış bütün dövlətlərin sərhədlərinin toxunulmazlığına təminat verən xalqlar liqası yaranarsa və müqavilədə olan tərəflər ora daxil olarsa, onda bu müqavilə öz qüvvəsini itirir; 10. Bu müqavilə barədə rəsmi surətdə məlumat verdikdən sonra Ermənistan 2 həftə ərzində bu müqaviləyə qoşula bilər.[841] Müqavilə barəsində Azərbaycan və gürcü nümayəndələrinin Paris Sülh konfransına təqdim etdikləri məlumatda göstərilirdi ki, "bu sazişdə yalnız müdafiə məqsədləri güdülür."[842]

16 iyun müqaviləsinə uyğun olaraq, tərəflər hərbi-texniki saziş imzaladılar, Azərbaycan və Gürcüstan müdafiə nazirlikləri birgə hərbi şura yaratdılar. Hərbi şuranın sədri general İ.Odişelidze, üzvləri general Ə.Şıxlinski, general M.Sulkeviç və general Kutateladze idilər. Hərbi Şura hərbi əməliyyatların getdiyi əraziləri və düşmənin imkanlarını dərindən öyrənməli, müdafiə planını işləyib hazırlamalı, hər iki respublikanın ordusunun hərbi hazırlıq səviyyəsindən daim xəbərdar olmalı və onun yerləşdirilmə vəziyyətini işləyib hazırlamalı idi.[843]

Əvvəlcə ingilis komandanlığının Azərbaycan-Gürcüstan müdafiə paktına münasibəti mənfi idi. Lakin sonralar bu qəti şəkildə dəyişildi. İstanbula ezam edilmiş Azərbaycan Respublikasının nümayəndəsi Əziz bəy Tahirbəyov burada Böyük Britaniyanın Şərqi Avropada və Qafqazda olan qüvvələrinin Ali Baş Komandanı general Milnlə görüşüb Denikinin cənuba doğru irəliləməsi barədə ona məlumat verdi. Miln Denikinin onun razılığı olmadan cənub istiqamətində hərəkət etdiyini və bu işdən onun xəbəri olmadığını Ə.Tahirbəyova bildirdi. Ə.Tahirbəyov general Milnin Denikinin hərəkəti ilə razı olmadığı barədə N.Usubbəyova radioteleqram göndərdi.[844]

Xarici işlər nazirliyi tərəfindən Paris Sülh konfransına göndərilən məlumatda qeyd edilirdi ki, ingilis komandanlığı imzalanmış hərbi sazişi Cənubi Qafqaz birliyi üçün başlıca təminat hesab edir. Versaldakı Azərbaycan nümayəndələrinə bildirilirdi ki, Qafqazda Azərbaycanla Gürcüstan arasında tam əlaqə, hərtərəfli razılaşdırılmış birgə fəaliyyət proqramı həyata keçirilir. Denikin ordusunun Dağıstanı tutması və cənuba doğru hərəkət etməsi barəsində İstanbula gəlmiş Ə.Tahirbəyov Parisdə olan Azərbaycan nümayəndələrinə teleqram göndərmişdi.[845]

Azərbaycan hökumətinin Dağlılar İttifaqına, Denikin könüllülərinə münasibətdə sabit siyasəti, yaranmış təhlükə ilə bağlı Gürcüstanla əməkdaşlığı

---

841 Gürcüstan Respublikası ilə Azərbaycan Respublikası arasında hərbi-müdafiə sazişi. 16.06.1919. //ARDA, f.970, s.1, i.64, v.15

842 З.Авалов Независимость Грузии в международной политике, с.210

843 Azərbaycan Respublikası ilə Gürcüstan Respublikası arasında hərbi-texniki saziş - 16.06.1919. //ARDA, f.970, s.1, i.64, v.18

844 Ə.Tahirbəyovun Azərbaycan Respublikası Nazirlər Şurasının sədri N.Usubbəyova radioqramı. 18.07.1919. // ARDA, f.894, s.10, i.70, v.5

845 ARDA, f.2905, s.1, i.13, v.55



downloaded from KitabYurdu.az

respublikanın Versalda olan nümayəndələri tərəfindən razılıq hissi ilə qarşılandı. Qeyd edilən məsələlərdə Azərbaycan hökuməti ilə onun sülh konfransındakı nümayəndələrinin fəaliyyəti bəzən bir-birindən xəbərsiz üst-üstə düşürdü. Şimali Qafqazda vəziyyət haqqında Azərbaycan Xarici İşlər Nazirliyinin məlumatı ilə tanış olduqdan sonra Ə.M.Topçubaşov Bakıya, Azərbaycan Nazirlər Şurasının sədrinə yazırdı: "Belə bir möhkəm, qəti, vətənpərvər siyasətin hər yerdə nə vaxt lazım gəlsə, yerinə yetirilməsini görmək istərdik. Biz əminik ki, hökumət yalnız belə bir siyasətlə saxlanılacaq və hazırda saxlanılır, çünki hər cür məsələlərdə, keçmiş Rusiyaya münasibətdə və xüsusən, Könüllü orduya olan münasibətdə tərəddüd ola bilməz və olmamalıdır: əgər qarşımıza yalnız bütün Dağıstanın təmizlənməsini, daha sonra Şimala qədər təmizlənməsini məqsəd qoysaq, heç bir aldadıcı təkliflər, vədlər, qeyri-müəyyən xarakterli danışıqlar bizə kömək edə bilməz".[846]

Parisdə olan Azərbaycan, Gürcüstan və Dağlılar Respublikasının nümayəndələri Avropa hökumətlərini, Antanta Ali Şurasının üzvlərini inandırmağa çalışırdılar ki, Cənubi Qafqaza Könüllü ordunun yolunu bağlamaq lazımdır. Üç respublikanın nümayəndələrinin Ali Şuraya təqdim etdiyi bəyanatda göstərilirdi ki, müttəfiqlər tərəfindən müdafiə edilən Könüllü orduya bildirilməlidir ki, o Qafqaz xalqları ilə mübarizə aparmaq üçün deyil, bolşevizmlə mübarizə aparmaq üçün yaradılmışdır. Ona görə bəyanatda təklif edilirdi ki, işğal olunmuş ərazilərin tərk edilməsi, Qafqaz respublikalarının hüquqlarına hörmət edilməsi Könüllü ordudan tələb edilməlidir. Hətta bu məqsədlə Azərbaycan və gürcü nümayəndələri Avropa sosial-demokratlarının imkanlarından da istifadə edirdilər. İyul ayının əvvəllərində "Keçmiş Rusiya xalqlarının hüquqlarını müdafiə cəmiyyətinin" üzvlərindən biri sosial-demokrat Albert Tomun təşəbbüsü ilə Denikinin Şimali Qafqaz respublikasının ərazisini tutmasına, Dağlıların hökumət və parlamentinin qovulmasına, habelə Azərbaycan Respublikasının təhlükəyə məruz qalmasına qarşı etiraz notası hazırlandı. Notanı Azərbaycan nümayəndələrindən Ə.Şeyxülislamov və M.Məhərrəmov imzaladılar və onu Albert Tom özü Antanta ölkələrinin xarici işlər nazirlərinə təqdim etdi.[847]

İyul ayının əvvəllərində könüllü ordunun yaratdığı təhlükə ilə bağlı Gürcüstan nümayəndələri ABŞ prezidentinin məsləhətçisi polkovnik Hauzla görüşdülər. O, danışıqlar zamanı Denikinin cənub istiqamətində hərəkətinin dayandırılmasının zəruriliyini təsdiq etdi.[848] Elə bu zaman Azərbaycan nümayəndə heyətinin sədri Ə.M.Topçubaşov da İngiltərə nümayəndəsi Ser Luiz Malletlə görüşdü. Ə.Topçubaşov Malletə məlumat verdi ki, könüllülər ordusu bolşeviklərlə

---

[846] Paris Sülh konfransındakı Azərbaycan nümayəndə heyətinin başçısı Ə.M.Topçubaşovun Nazirlər Şurasının sədrinə məktubu. 22-25.09.1919. //ARDA f.894, s.10. i.70, v.5

[847] Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 832, folio 79; ARDA f.970, s.1, i.143, v.71-72

[848] З. Авалов Независимость Грузии в международной политике, с. 199



downloaded from KitabYurdu.az

mübarizə aparmaq əvəzinə Müttəfiqlərdən aldıqları silahları dinc yerli əhaliyə qarşı çevirir və bu ordu Şimali Qafqaz Respublikasının ərazisini tutduqdan sonra Azərbaycan torpaqlarına soxulacaq. Bununla bağlı, Mallet qeyd etdi ki, Denikin nəzərdə tutulan sərhədi keçə bilməz, buna görə də Gürcüstan və Azərbaycan təhlükədən uzaqdır.[849] Dağlılar Respublikası ilə əlaqədar o, Ə.M.Topçubaşova məsləhət gördü ki, İngiltərə nümayəndələri arasında Şərqin və eləcə də Qafqazın bilicisi sayılan professor Simpsonla görüşsün. Topçubaşov elə həmin gün professor Simpsonla görüşdü. Simpson Azərbaycanın əhalisi, ərazisi, siyasi quruluşu, hökumət və parlamentinin tərkibi haqqında, Azərbaycan Respublikasının Ermənistanla və Rusiyadakı müxtəlif siyasi qüvvələrlə münasibətlərinə dair bəzi məsələləri söhbətin gedişində aydınlaşdırdı. Lakin o, Dağlılar Respublikası ilə bağlı bildirdi: "Tərkibinə görə yekcins millət olmayıb, çoxlu tayfalara bölündüklərinə görə onlar /dağlılar/ öz dövlətlərini yarada bilməzlər."[850] Dağlılar Respublikasının bir hissəsini təşkil edən Dağıstana gəldikdə isə o, qeyd edirdi: "Dağıstan sizindir və Denikin siz tərəfə keçməyəcəkdir." O, əlavə etdi ki, Oliver Uordrop bu məqsədlə oraya göndərilir. O, Könüllülər ordusu və bizim oradakı nümayəndələr üçün təlimat aparır".[851] İyul ayının 24-də Çxeidzenin sədrliyi, Məhərrəmovun katibliyi ilə keçirilən Gürcüstan və Azərbaycan nümayəndələrinin birgə iclasında qərar qəbul olundu ki, 16 iyun müqaviləsi barədə Sülh konfransına məlumat verilsin. Müqaviləyə əlavə edilmiş izahedici məktubda göstərildi ki, bu ittifaq müqaviləsi Ermənistana qarşı deyildir və müqavilədə üçüncü dövlət deyəndə Ermənistan nəzərdə tutulmur.[852]

1919-cu ilin yayında müttəfiqlərin, ilk növbədə ingilislərin Qafqazdan çıxmaq xəbəri, istər yerlərdə Azərbaycan və Gürcüstan hökumətinin, istərsə də, onların Parisdəki nümayəndələrinin ciddi narahatçılığına səbəb oldu. Nə qədər ki, ingilis ordusu Qafqazda idi, Könüllü ordunun Azərbaycana və Gürcüstana hücumunun qarşısı bir növ alınmışdı və müttəfiqlərin nümayəndələri olan general Miln, general Tomson hər iki respublikanın Denikin təhlükəsinə məruz qalmayacaqları barədə bəyanatlar vermişdilər. İngilis ordusunun Qafqazdan çıxmasına Könüllü ordu və ümumiyyətlə, rus ağqvardiyaçıları, onların Parisdə olan rus müşavirəsinin üzvləri Qafqazın yenidən Rusiyaya birləşdirilməsi üçün əlverişli şəraitin yaranması kimi baxırdılar. Omsk hökuməti Antanta tərəfindən tanındıqdan sonra "rus müşavirəsi"nə daxil olanlar rəsmi "rus nümayəndəliyi"ni yaradıb, Parisdə Kolçak hökumətini təmsil etməyə başladılar. "Rus nümayəndəliyi"nə

[849] А.М.Топчибашев. Письма из Парижа, с.55
[850] Yenə orada, s.56
[851] Yenə orada, s.55
[852] Le Prèsident de la Dèlègation Gèorgienne N.Tcheidzè, Le Prèsident de la Dèlègation de l'Azerbaïdjan A.M.Toptchibacheff - Transmis par le Secrètariat General de la Confèrence de la Paix. Le 24 juillet 1919.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 832, folio 82; Copie Convention entre les Rèpubliques de Gèorgie et d'Azerbaïdjan.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol 832, folio 87



downloaded from KitabYurdu.az

köhnə səfirlərdən, diplomatlardan və siyasi mühacirlərdən Lvov, Çaykovski, Sazonov, Maklakov, Savinkov və digərləri daxil idilər. Lakin bunların da arasında birlik yox idi. Sergey Sazonov bir çox məsələlərdə onlarla həmrəy deyildi. Yeni yaranmış respublikaların nümayəndələri ilə "rus nümayəndəliyi" arasında düşmənçilik olduğu üçün demək olar ki, onlar görüşmürdülər. Ə.M.Topçubaşov rus mühacirlərinin təkəbbürü haqda yazırdı: "Biz onların heç birisi ilə, ümumiyyətlə, burada yaşayan ruslarla ünsiyyətdə olmuruq. Bizim müstəqillik üçün möhkəm şəkildə çalışmağımızı görüb, onların heç biri qəzəb və narazılıqlarını gizlədə bilmir. Hamını günahlandırırlar, xüsusilə də gürcüləri. Bizim ünvanımıza belə sözlər yayırlar ki, müstəqil Azərbaycan şüarını yalnız ziyalılar irəli sürüblər. Guya, azərbaycanlılar özləri rusları çox sevdiklərindən, Rusiyadan ayrılmaq arzusunda deyillər. Hər halda bu "vəkillər" bir səslə "vahid və bölünməz Rusiya" - nəhəng ümumrusiya fikrindən möhkəm yapışıblar və utanıb, qızarmadan bildirirlər ki, Polşadan savayı qədim rus votçinasının torpaqlarından bir arşın da olsa belə, heç kəsə verməyəcəklər. Bütün yerdə qalan torpaqlar isə, onların fikrincə, gələcək Rusiyanın tərkibində qalmalıdır. Hələ, Polşa ərazisinin də bir hissəsi - Şərqi Qalitsiya, Xolm quberniyası və Volın da Rusiyanın olmalıdır. Böyük dövlətlərin Finlandiyanın müstəqilliyini tanımasına və onunla diplomatik əlaqələr yaratmasına baxmayaraq, Rusiyanın "nümayəndələri" bunları fakt kimi qəbul etmək istəmirlər. Cənab Denikin isə bunlara qarşı qəti etirazını bildirir."[853]

Rus siyasi mühacirlərinin fəallaşması və yeni yaranmış respublikalara qarşı mürtəce mövqe tutması Azərbaycan nümayəndələrini təmsil etdikləri respublikanın istiqlaliyyətinin qorunmasında daha fəal olmağa sövq edirdi. Bu məqsədlə avqust ayının 19-da və 24-də Sülh konfransının sədrinə, "habelə İngiltərənin xarici işlər naziri Balfura, sentyabr ayının 9-da yenidən konfransın sədrinə məktubla müraciət edildi.[854] Avqust ayının 24-də verilmiş etiraz notasında Denikinin müttəfiqlərin müəyyən etdiyi demarkasiya xəttinə məhəl qoymadan Dərbənd də daxil olmaqla bütün Dağıstanı işğal etdiyi göstərilir. Eyni zamanda müttəfiq komandanlığının Denikin Könüllülərinə verdiyi donanmanın Azərbaycanın Xəzər sahili sərhədləri üçün ciddi təhlükə törətdiyi qeyd edilirdi.[855] Bir çox məsələlərlə yanaşı, Xəzər donanması hərbi gəmilərinin bir hissəsinin ingilis komandanlığı tərəfindən Denikinə verilməsinin Azərbaycanın təhlükəsizliyinə ciddi xələl gətirdiyi Ə.M.Topçubaşovun Balfura məktubunda da öz əksini tapmışdı. Orada deyilirdi: "İndi Könüllü ordu Xəzər dənizi istiqamətindən Azərbaycan Respublikasını

[853] Azərbaycan Respublikasının Paris Sülh konfransındakı nümayəndə heyətinin başçısı Ə.M.Topçubaşovun Nazirlər Şurasının sədrinə məktubu. 22-25.09.1919. //ARDA f.970, s.l, i 142, v.21-22

[854] А.М.Топчибашев. Письма из Парижа, с.71-72

[855] La Dèlègation de Paix de l'Azerbaïdjan. Le Prèsident, Ali Mardan Toptchibacheff-Membres: Mamad Hassan Gadjinsky, Agber Cheik-Ul-Islamoff. Conseillers: Mir Yagoub Mir Mehtieff, Mamed Magueramoff - Monsieur le Prèsident de la Confèrence de la Paix, le 24 août 1919.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 832, folio 95



downloaded from KitabYurdu.az

hədələmək imkanı əldə etmişdir... Ələ keçirdiyi donanma ilə Könüllü ordu öz hərbi hissələrini Azərbaycan sahillərinə gətirib Xəzər dənizinin Azərbaycan sahillərinə, hətta bizim paytaxtımız Bakı şəhərinə hücum edə bilər."[856] Məktubda Könüllü ordu təhlükəsi, Böyük Britaniya ilə Azərbaycan arasında münasibətləri, ümumilikdə Cənubi Qafqazda vəziyyəti müzakirə etmək üçün Azərbaycan nümayəndələrinin Baş nazir Lloyd Corc, yaxud elə xarici işlər naziri Balfur tərəfindən qəbul edilməsi xahiş edilirdi. Azərbaycan nümayəndələri, təkcə Balfura deyil, Fransanın Baş naziri Jorj Klemanso və xarici işlər naziri Jan Mari Pişona da onları qəbul etmək barədə müraciət etmişdilər. Lakin hər dəfə İngiltərə və Fransa dövlət başçıları yeni yaranmış respublikaların nümayəndələrini qəbul etməkdən boyun qaçırırdılar. Azərbaycan Nazirlər Şurası sədrinin adına Versaldan Ə.M.Topçubaşovun göndərdiyi hesabatda göstərilirdi ki, Antantanın "əsas nümayəndələri bizimlə birbaşa görüşdən hələlik boyun qaçırırlar. Mən bu barədə cənab Klemanso, cənab Pişon, cənab Balfur və başqalarından xüsusi məktubla xahiş etmişəm. Eyni zamanda bir neçə nəfər bütün bunları onlara dönə-dönə xatırlatmışdır. Cənab Balfurdan (katibi vasitəsi ilə) aldığımız məktubdan belə məlum olur ki, o, çox məşğul olduğundan bizi qəbul etməyə imkanı yoxdur. Buna görə üzr istəyir. Həmin Balfur hər dəfə nümayəndələrdən aldığı, surətləri Sülh konfransına göndərilən məktublara, konfransa təqdim edilən memorandumun nüsxələrinə görə yazılı şəkildə öz təşəkkürünü bildirir. Sülh konfransının katibliyi də həmin qaydada hərəkət edir. Bir sözlə nə isə gözləyirlər..."[857]

Sentyabr ayının 3-də Parisdə olan Azərbaycan nümayəndələri respublika xarici işlər naziri M.Y.Cəfərovun imzası ilə Könüllü ordunun fəaliyyəti ilə bağlı avqustun 26-da göndərdiyi teleqramı aldılar. Teleqramda ingilislərin müəyyən etdiyi demarkasiya xəttinə Denikinin məhəl qoymadığı, müttəfiqlərin razılığı əsasında Azərbaycana birləşdirilməsi nəzərdə tutulan Dərbənd və bütün Dağıstandan Könüllü ordunun çıxmaq fikrində olmadığı, habelə Xəzər donanması vasitəsi ilə Denikinin öz ordusunu Azərbaycana yaxın ərazilərə daşıdığı göstərilirdi.[858] Bu məlumata uyğun olaraq avqust ayının 29-da Azərbaycan sülh heyəti tam tərkibdə konfransın rəhbərliyinə,[859] Ə.M.Topçubaşov isə sentyabr ayının 9-da yenidən Versal Sülh konfransının sədrinə məktubla müraciət etdi. Məktubda Denikin təhlükəsi ilə bağlı mövcud vəziyyət təsvir edilməklə yanaşı, Denikinin bilavasitə müttəfiqlərdən yardım aldığını nəzərə alaraq, Sülh

---

[856] Paris Sülh konfransında Azərbaycan nümayəndə heyətinin başçısı Ə.M.Topçubaşov Britaniyanın xarici işlər naziri A.Balfura məktubu. 10.09.1919. //ARDA f. 970, s.l, i.142, v.92

[857] А.М.Топчибашев. Письма из Парижа, с.59

[858] Xarici işlər naziri M.Y.Cəfərovun Ə.M.Topçubaşova teleqramı. 26.09.1919. //ARDA, 1970, s.3, i.4, v.99

[859] La Dèlègation de Paix de l'Azerbaïdjan. Le Prèsident, Ali Mardan Toptchibacheff-Membres: Mamad Hassan Gadjinsky, Agber Cheik-Ul-Islamoff. Conseillers: Mir Yagoub Mir Mehtieff, Mamed Magueramoff - Monsieur le Prèsident de la Confèrence de la Paix, le 24 août 1919.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 638, folio 71-72



downloaded from KitabYurdu.az

konfransının qarşısında üç mühüm tələb qoyulurdu: 1. Könüllü ordu Dağıstan vilayətinə münasibətdə müttəfiq komandanlığının müəyyən etdiyi demarkasiya xəttini pozmamalıdır; 2. Könüllü ordu ən qısa vaxtda Dərbənddən təmizlənməlidir; 3. Könüllü ordunun əlinə keçən Xəzər Donanmasının gəmiləri Azərbaycan hökumətinə qaytarılmalıdır.[860] Ümumilikdə, Könüllü ordu ilə bağlı Azərbaycan nümayəndələrinin Parisdə qarşılaşdığı çətinliklər 1919-cu ilin axırlarına qədər davam etdi. 1919-cu ilin noyabrında Böyük Britaniyanın Baş naziri Lloyd Corcun İngiltərə Parlamentinin İcma palatasındakı çıxışından sonra Qafqaz respublikalarının müstəqilliyinin tanınmasına doğru meyl başlandı. Kolçak, Denikin və digər rus generallarının yaratdığı hökumətlərin o qədər də möhkəm və etibarlı olmadığını müttəfiqlər hiss etməyə başladılar.

1919-cu ilin yayında Versal Sülh konfransında böyük dövlətlər arasında ziddiyyətlər daha da kəskinləşmişdi. Almaniya ilə sülh müqaviləsinin işlənib hazırlanması, Avstriya-Almaniya, Yaponiya-Almaniya münasibətləri diqqət mərkəzində olduğundan kiçik xalqların problemi demək olar ki, unudulmuşdu. Almaniya ilə imzalanacaq sülh müqaviləsində onun Avstriya ilə birləşmək imkanı nəzərdən qaçırıldığından bu "xətanın" düzəlişinə müttəfiqlər bir aydan artıq vaxt sərf etmişdilər. Paris mətbuatı da bu zaman əsəbləri xeyli dərəcədə gərginləşdirirdi. Müxtəlif mətbuat orqanları tez-tez yazırdılar ki, Almaniya öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyəcəkdir.

Avropa ölkələrində başlanmış iqtisadi böhran, pulun qiymətdən düşməsi və xüsusilə kömür qıtlığı, Fransa və İngiltərədə seçkilərin başlanması, ABŞ-ın Avropa dövlətlərindən və Yaponiyadan narazılıqları Beynəlxalq Sülh konfransına olan marağı xeyli azaltmışdı. Rumıniyanın Macarıstana qəfil hücumu, Konfransın Yuqoslaviyaya vermək istədiyi Fium şəhərinin şair Qabriel d'Annunsio başda olmaqla italyan əsgərləri tərəfindən istila olunması Versal Sülh konfransının nüfuzunu aşağı salmışdı. Hətta yaranmış vəziyyətdə konfransın öz işini dayandırmaq ehtimalı belə meydana çıxmışdı. Konfransın açılışında iştirak edən dövlət başçılarından yalnız Klemanso öz yerində idi. Vilson, Lloyd Corc, Orlando, Tittoni, Lansinq, Makino və digərləri Parisi tərk etmiş, onları ikinci dərəcəli nümayəndələr əvəz etmişdilər. Belə bir şəraitdə ən ziddiyyətli hesab edilən rus məsələsinin müzakirəsini Antanta dövlətləri yubatmağa çalışırdılar. Hətta Paris mətbuatı yazırdı ki, Rusiya və Türkiyə məsələlərini konfrans yaxın vaxtlarda fəaliyyətə başlayacaq, Millətlər Cəmiyyətinin müzakirəsinə vermək fikrindədir. Bütün bunları dərindən müşahidə edən Ə.M.Topçubaşov öz hökumətinə yazırdı:

[860] Protestation prèsènte par la Dèlègation Azerbaïdjanienne à Monsieur le Prèsident de la Confèrence de la Paix à Paris, à propos des actions éminemment agressives de l'Armée Volontaire contre la République azerbaïdjanienne. Le 12 septembre 1919.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 832, folio 103-106



downloaded from KitabYurdu.az

"Cəsarətlə demək olar ki, bu konfransı Sülh konfransı adlandırmaq olmaz."[861] Əlbəttə, belə bir fikrin meydana çıxması Sülh konfransının kiçik xalqlara münasibətdə aydın mövqe tutmaması, onların taleyinə biganə münasibəti ilə də bağlı idi. O, göstərirdi: "Onlarla (müttəfiqlərin nümayəndələri ilə - C.H.) apardığımız danışıqlardan, adətən dumanlı təsəvvür ortaya çıxır, ümumi məsələlərdən uzağa gedə bilmirik və konkret suallara (Mir Yaqub Mehdiyevin yanında mən Amerika nümayəndəsi Morqentaudan soruşdum ki, müttəfiqlər bizi tanıyacaqmı?) ümumi cavablar alırıq və yaxud susurlar. Elə bil ki, onlar hər məsələni həll ediblər, ancaq nəzakət xatirinə hər şeyi açıq söyləmirlər. Burada nəzakət məsələsi yoxdur, çox mürəkkəb və dolaşıq bir siyasi vəziyyət yaranıbdır, buna görə də müttəfiqlərin özünün də Rusiyanın və ondan ayrılmış hissələrin gələcəyinə aid müəyyən bir fikri olmasına inanmaq belə olmur."[862]

Kiçik xalqların taleyində mühüm rol oynayacağı gözlənilən Millətlər Cəmiyyəti ilk dövrlərdə ümidləri doğrultmurdu. Vilson layihəsi üzrə təsis edilən bu cəmiyyət İngiltərə və Fransa tərəfindən güclü müqavimətə rast gəlməklə yanaşı, Amerika Senatı tərəfindən də çox güclü etiraza səbəb olmuşdu. Vilsonun sevimli övladı hesab edilən "yeni dünya qaydalarının qorunmasına" yönəldilən Millətlər Cəmiyyəti məsələsi ABŞ nümayəndələrinin nəzərdə tutduqlarından fərqli xarakter almışdı. Vilsonun "on dörd maddə"sində nəzərdə tutulan Millətlər Cəmiyyəti İngiltərə və Fransa nümayəndələri tərəfindən bir sıra dəyişikliklər edilməklə təsis edilmişdi. Millətlər Cəmiyyətinin ilk addımlarını nəzərdə tutaraq, Ə.M.Topçubaşov yazırdı: "Hər halda kiçik xalqları xilas etmək üçün yaradılmış bu təşkilat - Millətlər Cəmiyyəti hələlik ölü doğulmuş uşağa bənzəyir, onu kim, necə və nə zaman dirçəldəcək, məlum deyil. Elə bil ki, Fransa, İtaliya və İngiltərə də bunları unudubdur."[863]

Bütün qeyd edilənlərə baxmayaraq, Azərbaycanın istiqlaliyyətinin Sülh konfransı tərəfindən tanınmasına nail olmaq Versaldakı Azərbaycan nümayəndələrinin başlıca məqsədləri olduğu üçün, onlar vaxtaşırı bu məramla konfransın rəhbərliyinə müraciət edirdilər. Parisdəki "rus nümayəndə"lərinin fəallaşdığı bir vaxtda avqust ayının 19-da Azərbaycan nümayəndələri yenidən Sülh konfransının sədrinə Azərbaycanın istiqlaliyyətinin tanınmasını konfransın gündəliyində qoymaq barədə müraciət etdilər. Müraciətdə Azərbaycan nümayəndələrinə konfransın tribunasından çıxış edib, öz tələblərini vermək, onun müstəqilliyini tanımaq, Azərbaycan xalqının istiqlaliyyət uğrunda mübarizəsini obyektiv qiymətləndirmək və digər məsələlər öz əksini tapmışdı. Orada göstərilirdi: "Bütün Azərbaycan xalqı öz gələcəyinə dərindən inanır, Millətlər Cəmiyyətinin yüksək himayəsi altında, qonşu xalqlarla sülh və razılıq şəraitində

[861] Paris Sülh konfransında Azərbaycan nümayəndə heyətinin başçısı Ə.M.Topçubaşovun Nazirlər Şurasının sədrinə məktubu. 22-25.09.1919. //ARDA, f.970, s.l, i.142, v.22
[862] Yenə orada, v.12
[863] Yenə orada, v.13



downloaded from KitabYurdu.az

sosial-siyasi həyatda ona müstəqil yaşamağa imkan verən öz maddi və mənəvi gücünə ümid bəsləyir.[864] Antanta ölkələrinə müraciət edilərək göstərilirdi ki, Böyük dövlətlərdən qayğıkeşlik gözləyən Qafqaz Azərbaycanı "Azərbaycan Respublikası" adı ilə tanınacağına inanır. Müraciətin sonunda Azərbaycan nümayəndələri əvvəlki tələblərini bir daha təkrar edir və konfrans tərəfindən, nəinki, tanınacağını, eyni zamanda ilk addımlarını atan respublikanın dünya siyasətini müəyyən edən ölkələr tərəfindən müdafiə ediləcəyini arzulayırdılar. Müraciətə əlavə olaraq bir sıra tarixi, siyasi, etnoqrafik sənədlər, Azərbaycan Respublikasına aid ayrı-ayrı xəritələr də konfransa təqdim edilmişdi.

1919-cu ilin yayında Paris Sülh konfransında Azərbaycan nümayəndələrinin qarşılaşdığı ciddi məsələlərdən biri də erməni nümayəndəliyi ilə münasibətlər idi. Ermənilər Paris Sülh konfransının onların bütün problemlərini həll edəcəyinə ümid bəslədikləri üçün ona ciddi surətdə hazırlaşmışdılar. Onlar özlərini "böyük müttəfiqlərin kiçik müttəfiqi"[865] hesab edib, Aralıq dənizindən Qara dənizə, Qara dənizdən Xəzər dənizinə qədər "Böyük Ermənistan" yaratmaq xülyasına düşmüşdülər. Amerika tarixçisi F.Kazımzadə haqlı olaraq yazırdı ki, Ermənistan, "nəinki, Anadolunun altı vilayətini, eyni zamanda Kilikiyanı da tələb edirdi. Onlar, hətta İran Azərbaycanının bir hissəsini tələb edirdilər, halbuki İran müharibədə iştirak etməmişdi. Onların əsassız iddialarını Paris, London və xüsusilə, Vaşinqton müdafiə edirdi."[866] Məsələn, mətbuatın məlumatına görə, Təbrizdən Aleksandropola gələn Britaniya generalı Biç «Union» mehmanxanasında onun şərəfinə verilən ziyafətdə guya demişdi ki, "Paris sülh konfransının mərkəzi Van olan geniş ərazilərə malik Ermənistanın müstəqilliyini tanıması münasibətilə erməni cəmiyyətini təbrik etməkdən məmnunluq hissi keçirirəm. Sən demə, siz ermənilər dünya mədəniyyətinə və Antantaya əhəmiyyətli dərəcədə xidmət göstərmisiniz və dənizdən-dənizə Ermənistan yaradılması məsələnin yeganə doğru həllidir. Ermənistanın sərhədləri elan olunan zaman bu qonşularınızın təəccübünə səbəb olacaq. Azərbaycan və Gürcüstana gəldikdə general Biç onların müstəqilliyinin Antanta tərəfindən tanınmayacağını bu respublikaların vahid Rusiyanın tərkibinə qatılacağını bildirmişdi." Bu fikirlər "Sakartvelo" qəzetində çıxanda və "Gürcüstan" qəzetində təkrar dərc ediləndə Britaniya komandanlığının nümayəndəsi redaksiyaya gəlib, generalın belə söz demədiyini bildirmiş və təkzib verilməsini tələb etmişdi. Məsələ dəqiqləşdirilən zaman ermənilərin general Biçin sözlərini təhrif etdikləri bəlli olmuş və "Gürcüstan" qəzeti iyul ayının 3-də təkzib verməli olmuşdu.[867]

---

[864] Azərbaycan Respublikasının Paris Sülh konfransındakı nümayəndə heyətinin başçısı Ə.M.Topçubaşovun Versal konfransının sədrinə məktubu. 16.09.1919. //ARDA f.970, s.1, i.142, v.49

[865] S.Atamian. The Armenian Community. New.York, 1955, p.234

[866] F.Kazemzadeh. The Struggle for Transcaucasia, p.253

[867] Грузия, 1919,3 июля.



downloaded from KitabYurdu.az

Dənizdən-dənizə "Böyük Ermənistan" yaratmaq iddiaları Birinci Dünya müharibəsindən sonra, istər Cənubi Qafqazda, istərsə Parisdə və istərsə də bütün Avropa və Amerikada erməni təbliğatının başlıca mövzusuna çevrilmişdi. Belə böyük iddiaların nəticəsi idi ki, ermənilər Parisə bir deyil, iki nümayəndəlik göndərmişdilər. Birincisi milli erməni diasporunun nümayəndəliyi idi ki, ona Qərbdə və xüsusən Fransa siyasi dairələrində yaxşı tanınan Poqos Nubar paşa (Poqos Nubaryan - C.H.) başçılıq edirdi. Milli erməni nümayəndəliyi müttəfiqlərin müəyyən dairələri tərəfindən konfransa çağrılmışdılar. İkincisi isə, Ermənistan Respublikasının nümayəndəliyi idi ki, ona az əvvəl İstanbul konfransında erməni nümayəndə heyətinə başçılıq etmiş, erməni Milli Şurasının sədri Avetik Aqaronyan başçılıq edirdi. Son məqsəddə münasibət eyni olsa da, ilk dövrlərdə ermənilərin iki nümayəndəliyi arasında müxtəlif məsələlərə münasibətdə fikir ayrılıqları var idi. Lakin digər Qafqaz dövlətləri kimi Ermənistanın da adı rəsmi şəkildə konfransa dəvət edilən dövlətlərin siyahısında yox idi.

Sülh konfransına dəvət edilən dövlətlərin siyahısında Ermənistanı görməyəndə 1919-cu ilin yanvarında Poqos Nubar paşa prezident Vilsona məktubla müraciət edib müttəfiqlərin işi "uğrunda" minlərlə ermənininin öldüyünü xatırlatmışdı. Yanvar ayının 30-da Londonda "Tayms" qəzetinin redaktoruna Poqos Nubarın məktubu dərc edilmişdi. Məktub qəzetin redaktoruna yazılsa da, əslində Antanta dövlətlərinin başçılarına ünvanlanmışdı. Burada göstərilirdi ki, "müttəfiqlərin ümumi işinə görə ölməyə belə hazır olan" ermənilərin konfransa dəvət edilməməsi onların təəccübünə səbəb olmuşdur. Məktubda deyilirdi: "Müttəfiqlərə sədaqətlərinə görə ermənilər böyük əziyyətlər çəkmiş, çoxlu itkilər vermişlər. Müharibənin başlandığı vaxtdan ermənilər bütün cəbhələrdə müttəfiqlərin tərəfində vuruşmuşlar... Lakin bədbəxtlikdən bunu çox az adam bilir.[868] Poqos Nubar az qalırdı ki, Antantanın Yaxın Şərqdəki qələbəsini bütövlükdə ermənilərin adına çıxsın. Bütün bunları xatırlatmaqla o, Sülh konfransında Ermənistana Antantanın bərabər hüquqlu üzvü kimi baxılmasını tələb edirdi. Bundan sonra prezident Vilson erməni nümayəndələrinin konfransa buraxılacağına söz vermiş və bu istiqamətdə çalışacağını bildirmişdi. 1919-cu ilin yanvarın ilk günlərində ingilis diplomatı Q.Nikolson öz gündəliyində qeyd edirdi ki, bu zaman ABŞ Ermənistan üzərində mandat almağa hazırlaşırdı.[869] Yanvar ayının 30-da Onlar Şurasının iclasında Lloyd Corc bildirəndə ki, İngiltərə Türkiyə və Cənubi Qafqazda "əbədi" ordu saxlaya bilməz, bununla ABŞ-a Ermənistana sahib durmağı xatırladırdı.[870] ABŞ prezidenti V.Vilsonun təklifi ilə qərara alındı ki,

[868] Armenian Allegations: Myth and Reality. Handbook of Fakts and Dokuments. Washington, 1987, p. 115-116

[869] Г.Никольсон. Как делался мир в 1919 г. М., 1945, с. 182

[870] Д.Ллойд Джордж. Правда о мирных договорах, Т.2, с.389



downloaded from KitabYurdu.az

fevral ayının 28-də ermənilər Onlar Şurasının iclasında "dənizdən dənizə Böyük Ermənistan" yaratmaq proqramları ilə çıxış etsinlər.[871]

Ermənistan nümayəndə heyətinin başçısı A.Aqaronyan Onlar Şurasının iclasında geniş ərazi tələbləri və hətta əsaslandırılmamış mənəvi iddialarla çıxış etdi. O dedi: "İrəvan şəhərində öz parlamenti və hökuməti olan Ermənistan Respublikası nümayəndəliyi adından aşağıdakı məlumatları Sülh konfransının diqqətinə çatdırmağı özüm üçün şərəf hesab edirəm. Türkiyə və İranda yaşayan erməniləri nəzərə almadan, 1914-1918-ci illər müharibəsinə qədər Cənubi Qafqaz Rusiyasında təxminən 2 milyon erməni yaşayırdı. Bundan 50 faizi Tiflis, Batum və Bakı kimi böyük şəhərlərdə, milyon və ya milyon yarım nəfəri 2-3 min ildir ki, sıx icmalar halında İrəvan, Qars, Şuşa və Aleksandropolda yaşayıblar. Erməni kilsəsinin başçısı sayılan katoliko Eçmiədzin monastrında oturur." Onlar Şurasının məlumatsızlığından istifadə edərək, Aqaronyan tarixi istədiyi kimi saxtalaşdırıb dedi: "Tatarlar (azərbaycanlılar - C.H.) və kürdlər açıq şəkildə Türkiyə ilə birləşərək bizdən xəbərsiz güc topladılar və bizə mane olmaq üçün hər şeyi etdilər. Bizim dindaşlarımız və əqrəbalarımız sayılan gürcülər bizim tərəfimizdə durmağı lazım bilmədilər. Düşmənlər əhatəsində müttəfiqlərdən vəd olunan yardımı almayan ermənilər Qafqaza can atan türklərin yolunu cəsarətlə bağladılar. Bizim işimiz uğursuz olsa da, lakin biz müttəfiq dövlətlərə inamımızı itirmədik."[872] A.Aqaronyan belə saxta məlumatlarla ermənilərin şişirdilmiş ərazi tələblərinə bəraət qazandırmağa və müttəfiqlərdən "Böyük Ermənistan" planlarına dəstək olmağa cəhd göstərirdi.

Ərazi tələblərinə münasibətdə iki erməni nümayəndələri arasında cüzi fikir ayrılığı var idi. Katolikosla sıx əlaqədə olan diasporların nümayəndəsi Kilikiyanı da almaq niyyətində idi. Erməni diasporunun tanınmış nümayəndələrindən biri Loris Melikov sonralar yazırdı ki, S.D.Sazonov da erməniləri Kilikiyaya qarşı iddia irəli sürməyə şövq edirdi. Ola bilsin ki, Sazonov bu fikirdə idi ki, Rusiya tezliklə bərpa olunacaq və Ermənistanla birlikdə Kilikiyanı da alacaqdır.[873] Lakin Ermənistan Respublikasının nümayəndəsi A.Xatisyan Kilikiyanın adını belə çəkməməyi məsləhət görürdü. Maraqlıdır ki, Massaçusetsdən olan senator, ABŞ-da təcridçiliyin görkəmli nümayəndələrindən biri Henri Kobet Locun Amerika Senatına təqdim etdiyi müstəqil Ermənistan qətnaməsi ilə, ermənilərin Paris Sülh konfransına təqdim etdiyi "Böyük Ermənistan" tələbləri bir-birinin eyni idi. Onlar Şurasında müzakirə zamanı Poqos Nubar paşa hər iki nümayəndəlik arasında ermənilərin razılaşdırılmış aşağıdakı ərazi tələblərini Sülh konfransına təqdim etdi. Bu tələblər heç vaxt ermənilərin yığcam yaşamadığı aşağıdakı əraziləri əhatə

[871] Papers Relating of the Foreign Relation of the United States. Paris Peace Conference, vol. IV, 1919, p. 157

[872] Papers Relating to the Foreign Relations of the United States. The Paris Peace conference. 1919, vol.IV, p.147-149

[873] F.Kazemzadeh. The Struggle for Transcaucasia, p.256



downloaded from KitabYurdu.az

edirdi: 1. Türkiyənin yeddi şərq vilayəti - Van, Bitlis, Diyarbəkir, Xarput, Sivas, Ərzurum və Trabzon; 2.Dörd Kilikiya sancaqlığı - Maraş, Xozan, Cebel Berket və Aleksandretta şəhəri ilə birlikdə Adana; 3.Qafqaz Ermənistanın bütün ərazisi, bütün İrəvan quberniyası, keçmiş Tiflis quberniyasının cənub hissəsi, Yelizavetpol (Gəncə) quberniyasının cənub hissəsi, Qars və Ərdəhan.[874] Ərazi iddialarından əlavə, ermənilər təzminat tələbləri də irəli sürmüşdülər ki, bunun da ümumi məbləği 19130982000 franka bərabər idi. F.Kazımzadənin fikrincə, "bu rəqəm fantastik olsa da, ermənilər onu almağa ümid bəsləyirdilər."[875]

Ermənilərin irəli sürdüyü ərazi iddiaları o qədər böyük idi ki, hətta Antantanın qalib üzvü olan dövlətlər belə tələblər irəli sürmürdülər. Bununla razılaşmayan Lloyd Corc bildirir ki, ermənilərin arzuları həddindən artıq çoxdur. Onlar Aralıq dənizindən Qara dənizədək böyük əraziləri bir vaxtlar mövcud olmuş Erməni çarlığına istinad edərək tələb edirlər, lakin təəssüflər olsun ki, bu ərazilərdə ermənilər əhalinin çox az faizini təşkil edirlər.[876] Bir vaxtlar "Daşnaksutyun" partiyasının əsasını qoymuş və Ermənistan baş naziri olmuş O.V.Kaçaznuni ermənilərin şişirdilmiş ərazi planları ilə bağlı 1923-cü ildə yazırdı: "Belə cəfəngiyyat layihə nə erməni hökumətinin, nə də Daşnaksutyun partiyasının rəhbərliyinin ağlına da gəlmirdi. Əksinə, direktivə uyğun olaraq, bizim nümayəndəlik İrəvandan elə də böyük olmayan gücümüzə uyğun tamamilə ağlabatan bir tələblərlə Parisə yollanmışdılar. Nə baş verdi ki, nümayəndəlik "dənizdən-dənizə" tələbini qoydu. Bu qəribə tələblər ağlabatan olmasa da, lakin Parisdə ermənilər bu tələbi irəli sürdülər və bizim nümayəndəlik də koloniyalarda hökm sürən bizə tanış bu əhvali-ruhiyyənin əsirinə çevrildilər... Bundan əlavə göstərilirdi ki, Amerika kiçik Ermənistanın mandatını qəbul etməz, "dənizdən-dənizə" böyük Ermənistan mandatını isə qəbul edər. Beləliklə, ən əsas, ən məsul və ən mühüm məsələlərin həlli zamanı biz öz iradəmizi ifadə etməyib, işlərimizi özümüz anladığımız kimi aparmayıb, öz yolumuzla getməyib başqalarının bizi öz ardınca aparmasına imkan verdik".[877] Erməni daşnakı ilə yanaşı, erməni kommunistin də bu məsələdə mövqeyi xüsusi maraq kəsb edir. Sovet ittifaqının həm siyasi, həm fiziki mənada ən uzunömürlü kommunist liderlərindən olan A.İ.Mikoyan yazırdı: "Erməni şovinistləri hələ də imperialist müttəfiqlərin və general Denikin tör-töküntülərinin köməyinə arxalanaraq, tərkibində yeddi vilayətin yer aldığı Qara dənizdən Aralıq dənizinə qədər tarixi hüdudlarda "Böyük Ermənistan" yaratmaq kimi cinayətkar ideyanın şirin xülyasına ümid bəsləyirlər. Müstəsna qaydada müsəlmanlardan ibarət olan bu ərazidə ermənilərin olmaması onları narahat etmir. "Böyük Ermənistan" ideyasının əhalinin çoxluğuna deyil, onun iradəsinə deyil, imperialist silahına arxalanması Ermənistanı "yadellilərdən",

[874] The Armenian Question Before the Peace Conference, p.5
[875] F.Kazemzadeh. The Struggle for Transcaucasia, p.258
[876] İbid, p.259
[877] О.В.Качазнуни. Дашнакцутюн больше делать нечего. Баку, 1990, с.44



downloaded from KitabYurdu.az

"cinayətkar ünsürlərdən", müsəlmanlardan təmizləmək yolu ilə qurulması təlqin edilir. A.Mikoyanın fikrincə, "belə bir cəhənnəmin" yaradılması ideyası öz agentləri vasitəsi ilə Türkiyəni talamaq istəyən imperialistlərdən qidalanır.[878]

Qafqaz respublikalarının və ümumiyyətlə, köhnə Rusiya imperiyasının hüdudlarında yaranan yeni respublikaların müzakirələrində erməni nümayəndəlikləri demək olar ki, iştirak etmirdilər. Onlar bu fikirdə idilər ki, Paris konfransı «hər şeyi aydınlaşdıracaq, hər şeyi həll edəcəkdir."[879] Səsli-küylü Paris bir növ erməni banketini xatırladırdı. Onlar çoxlu iclas və yığıncaqlar keçirir, bura onlarla jurnalisti, yazıçını, senatoru və keçmiş nazirləri dəvət edib ermənilər və Ermənistan haqqında uzun-uzadı nitqlər söyləyirdilər. "Erməni nümayəndələri Vilsonu, Lloyd Corcu və Klemansonu izləyərək, hər dəqiqə onlara Ermənistan qarşısında borclarını xatırladırdılar."[880] Onların bu hərəkətləri Sülh konfransının rəhbərliyində hamını bezdirmişdi və ermənilər getdikcə öz "dostlarını" itirməyə başlamışdılar. Xüsusən, Anadoluda milli hərəkat başladıqdan sonra böyük dövlətlər ermənilərin Türkiyəni bölüşdürmək planlarına bir qədər ehtiyatla yanaşmağa başladılar. Müttəfiqlərin ermənilərdən uzaqlaşmasında onların haqqında əvvəllər bəhs edilən, Sülh konfransına təqdim etdikləri şişirdilmiş tələbləri az rol oynamamışdı. Sülh konfransı keçirilən zaman Parisdə olan erməni müəllifi Loris Melikov etiraf edirdi ki, konfrans açılan zaman ermənilər hamıdan həqiqi qayğıkeşlik görürdülər. Halbuki bu zaman Gürcüstan soyuq qarşılanırdı. Lakin gürcülər tezliklə avropalıları valeh etdilər, özlərini sevdirməyə nail oldular. Əksinə olaraq, ermənilər əvvəlki qayğıkeşlikdən məhrum oldular. Həddindən artıq şişirdilmiş tələblər və onun təqdimat forması ona gətirib çıxardı ki, adamların çoxu onlardan üz döndərdi.[881]

Parisdə olan erməni nümayəndələrinin öz ərazilərini, təkcə Türkiyənin hesabına deyil, Azərbaycanın və Gürcüstanın hesabına genişləndirmək niyyətləri hər iki nümayəndəliyin ciddi müqavimətilə qarşılaşırdı. Versaldakı Azərbaycan və Gürcüstan nümayəndələri ermənilərə qarşı çox vaxt həmrəy çıxış edirdilər. Ərazi tələbləri ilə bağlı ermənilər, təkcə Avropanın siyasi dairələrini deyil, sosialist və sosial-demokrat qüvvələrini də Gürcüstana və Azərbaycana qarşı səfərbərliyə almağa cəhd göstərir, onların mətbuatından öz məqsədləri üçün istifadə edirdilər. Bu məqsədlə Avropa sosialist dairələrində məşhur olan Mikael Varandyan II İnternasionala 1919-cu ilin mayında şikayət ərizəsilə müraciət etmişdi ki, guya, gürcülər və azərbaycanlılar dinc erməni əhalisinə zülm edirdilər. Bütün Avropada məşhur olan gürcü sosialistlərinin və Azərbaycan sosialist partiyalarının nümayəndələrindən Ə.Şeyxülislamovun, M.Məhərrəmovun səyi ilə bu böhtanı aradan qaldırmaq mümkün oldu. M.Vardanyanın müraciəti ilə bağlı məsələnin

---

[878] A.Mikoyan. Qafqaz məsələsinə dair tezislər. Dekabr, 1919. // RDSSTA, f.5, s.l, i. 1202, v.8
[879] З.Лвалов. Независимость Грузии в международной политике, с.210
[880] F. Kazemzadeh. The Struggle of Transcaucasia, p.258
[881] Ibid, p.258.



downloaded from KitabYurdu.az

müzakirəsində A.Henderson, R.Makdonald, K.Qyusmans, P.Renodel, J.Longe və digərləri iştirak etdilər.[882]

Müttəfiqlərin erməni məsələsini həll etməkdə yubandığını görən daşnaklar yaranmış vəziyyətdən öz xeyirlərinə istifadə etmək qərarına gəldilər. 1919-cu ilin may ayının 28-də istiqlaliyyətin elan edilməsinin birinci ildönümü günü onlar Türkiyənin yeddi vilayətinin Ermənistana ilhaq edilməsi və vahid Ermənistan dövlətinin yaradılması barədə akt qəbul etdilər.[883] Bu elə bir vaxt idi ki, Türkiyə məğlub dövlət kimi əl-qolunu aça bilmirdi. Mustafa Kamal paşanın mübarizəsi isə hələ genişlənməmişdi və ilk addımlarını atırdı. 28 may aktında göstərilirdi ki, Ermənistan bütöv halda bərpa edilir, erməni xalqına əbədi birləşmiş müstəqil Ermənistan dövləti tərəfindən tam azadlıq verilir, onun tərəqqisi üçün hər cür şərait yaradılır. Və guya, erməni xalqı bundan sonra öz birləşmiş ölkəsinin tam sahibidir, erməni parlamenti isə qanunverici orqan kimi bütün erməni xalqının iradəsini ifadə edir.[884] Qəbul olunmuş akt barədə İrəvandan Parisdəki erməni nümayəndələrinə təcili məlumat göndərildi. Əvvəllər bir çox məsələlərdə ayrı-ayrılıqda hərəkət edən erməni nümayəndəlikləri 28 may aktından sonra birgə hərəkət etməyə başladılar.[885] Versalda olan gürcü nümayəndə heyətinin üzvü Zurab Avalov yazırdı ki, Qafqaz və Türkiyə Ermənistanın birləşdirilməsi haqqında akt qəbul etməklə, Ermənistan Respublikası sırf Qafqaz siyasətindən çıxıb, Türkiyə məsələsinə daxil olmağa başladı.[886] Bunu Çxeidze və Topçubaşovla söhbətlərində Ermənistan Respublikasının Paris Sülh konfransında nümayəndə heyətinin başçısı A.Aqaronyan da qeyd edirdi. O bildirirdi: "Sizin, ancaq məhdud Qafqaz mənafeləriniz var, bizim qayğılarımız isə bütün erməni xalqının, birləşmiş Ermənistanın marağını müdafiə etməkdən ibarətdir."[887]

1919-cu ilin yayında Azərbaycan ərazisində qanlı cinayətlər törətmiş, ingilis komandanlığının təkidi ilə Azərbaycan ərazisindən çıxarılmış Andronik də Fransaya gəlmişdi və iyun ayının 15-də Poqos Nubar paşanın vasitəçiliyi ilə Fransa prezidenti Paymon Puankare tərəfindən qəbul edilmişdi. Bu zaman Avropa və Amerikada erməni və ermənilərə xidmət göstərən mətbuat orqanları Türkiyə və Azərbaycan ərazilərində müsəlman əhalisinə qarşı vəhşiliklər törətmiş qaniçən Androniki "Erməni Haribaldisi" kimi ictimaiyyətə və siyasi dairələrə təqdim etməyə cəhd göstərirdilər. Qəbul zamanı Andronik müttəfiqlərin Qarabağ məsələsindəki mövqeyindən narazı olduğunu bilirsə də qeyd etdi ki, "ermənilər müttəfiqlərə arxayındırlar." O, R.Puankareyə bildirdi ki, erməni xalqı dünya

---

[882] З.Авалов. Независимость Грузии в международной политике, с.213
[883] S.Atamian. The Armenian Community, p.214
[884] İbid, p.215
[885] Azərbaycan Respublikasının Paris Sülh konfransındakı nümayəndə heyətinin başçısı Ə.M.Topçubaşovun Nazirlər Şurasının sədrinə məktubu. 22-25.09.1919. //ARDA, f.970, s.l, i.142, v.23
[886] З.Авалов. Независимость Грузии в международной политике, с.211
[887] Azərbaycan Respublikasının Paris Sülh konfransındakı nümayəndə heyətinin başçısı Ə.M.Topçubaşovun Nazirlər Şurasının sədrinə məktubu. 22-25.09.1919. //ARDA, f.970, s.1, i.142, v.23



downloaded from KitabYurdu.az

müharibəsi dövründə həm Türkiyəyə, həm də Almaniyaya qarşı Antanta ilə çiyin-çiyinə vuruşmuşdur. Qafqazdakı rus ordusunun tərkibində 180 min, Avropada isə 15 min erməni könüllüləri guya, müttəfiqlərin "müqəddəs işi" uğrunda mübarizə aparmışdır. Andronik deyirdi: "Biz bunu ona görə etmişik ki, Fransanın və onun müttəfiqlərinin haqq işini bərqərar etmək uğrunda böyük mübarizəsinə öz töhfəmizi verək."[888] ABŞ-a göndərdiyi teleqramda isə o, Amerikanın "Erməni məsələsinin" həllinə müdaxilə etməsini tələb edirdi və yazırdı: "Biz çox qədim xalqıq. Azadlıq işi naminə millətin sayı nisbətində ermənilər vuruşan ölkələrin hər birindən çox itkilər vermişdir... ümid edirik ki, müttəfiqlərə görə verdiyimiz itkilər hədər getməyəcəkdir."[889] Belə klassik demoqogiyaya qarşı mübarizə aparıb, azdırılmış ictimai fikri həqiqət məcrasına qaytarmaq üçün Azərbaycan nümayəndələri çox əziyyət çəkməli olurdu. Ə.M.Topçubaşov Bakıya göndərdiyi hesabatda göstərirdi: "Erməni ziyalılarının Avropanın mərkəzində yarım əsrdən çox apardıqları iş, hər yerdə istifadə etdikləri böyük maddi vəsait, bütün cəbhələrdə hərəkətetmə və adamları özləri tərəfə çəkəbilmə bacarıqları, amerikalı varlı həmvətənləri və ermənilərin həyat tərzi ilə bağlı bütün bu faktlar (bəzi şeylərin üzərində dayanmıram) nəticədə, xüsusilə də, son vaxtlar ermənilərə daha geniş rəğbət oyatmışdır. Bu böyük üstünlüklər ermənilərin bizə məlum olan mənfi tərəflərini hələ ki, gizlədir".[890] Ermənilərin təbliğatının təsiri altına düşən Antanta rəhbərləri Azərbaycan və gürcü nümayəndələri ilə görüşlər zamanı onlara məsləhət görürdülər ki, ermənilərlə sülh şəraitində yaşasınlar.

Birləşmiş Ermənistan haqqında akt qəbul edildikdən sonra A.Aqaronyan hər iki erməni nümayəndəliyi adından Sülh konfransının sədrinə xüsusi məktubla və yeni memorandumla müraciət etdi. Məktubda qeyd edilirdi ki, Rusiya Brest müqaviləsini imzalayıb, Qars və Ərdəhanı Türkiyəyə verməklə münasibətləri xeyli kəskinləşdirmiş, Ermənistanı çətin vəziyyətdə qoymuşdur. A.Aqaronyan bildirirdi ki, bu problemləri həll etmək üçün ermənilər konfransda Polşa, yaxud Çexoslovakiya kimi yeni yaranmış dövlətlərlə bərabər əsasda iştirak etməyi tələb edirlər.[891] Ermənilərin yeni memorandumu Sülh konfransının sədrinə təqdim edilməzdən əvvəl Fransada çıxan "Jurnal de Deba"da çap edilmişdi və bu sənəd ilk növbədə Türkiyə və Azərbaycana qarşı yönəlmişdi. Burada müttəfiqlərə məsləhət görülürdü ki, türkləri və azərbaycanlıları bütün erməni ərazilərini boşaltmağa məcbur etsinlər.[892] Erməni nümayəndələri memorandumda müttəfiqləri qıcıqlandırmaq məqsədi ilə göstərirdilər ki, Şərqdə böyük qələbə ilə bağlı qaldırılan hay-küy çox çəkmədi. Panislamizmin və pantürkizmin tərəfdarlarının səyi ilə düşmən ünsürlər baş qaldırır, öz qanlı fəaliyyətlərini bərpa edirlər.

888 Голос Армения, 1990, 2 декабря.
889 Голос Армения. 1990, 2 декабря.
890 А.М.Топчибашев. Письма из Парижа, с.65
891 F.Kazemzadeh. The Struggle of Transcaucasia, p.260
892 F.Kazemzadeh. The Struggle for Transcaucasia, p.261



downloaded from KitabYurdu.az

Memorandumda demaqoqcasına qeyd edilirdi ki, türklər və azərbaycanlılar müttəfiqlərə rəğbət bəslədiyi üçün erməni xalqını bağışlaya bilmirlər. Onlar hər zaman gözlərinin odunu aldıqları ermənilərə qarşı quduzcasına hücum edirlər. Memorandumun mətnini fransız jurnalında çap etdirməklə bütün Avropaya yayırdılar ki, "türklər və tatarlar sevinc hissi ilə qeyd edirlər ki, barışıq sazişi erməni xalqının həyatında heç bir dəyişikliyə səbəb olmadı və "Türkiyə Ermənistanı" öz əvvəlki sahibinin əlində qalmaqda davam edir."[893] Memorandumda Kilikiyada da guya, ermənilərin qırılması barədə müttəfiqlərə məlumat verilirdi. Təxribatçılıq xarakteri daşıyan bu memorandumla bağlı Parisdəki Azərbaycan nümayəndələri xüsusi bəyanatla çıxış etdi. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi isə Ermənistan hökumətinə qəti etiraz notası göndərdi. Bununla bağlı Azərbaycan Xarici İşlər Nazirliyi hökumətin tapşırığına müvafiq olaraq, müttəfiq komandanlığının Bakıda yerləşən qərargahına, Azərbaycanın Ermənistanda və Gürcüstanda olan diplomatik nümayəndələrinə, habelə Ermənistanın Azərbaycandakı diplomatik nümayəndəliyinə sorğu ilə müraciət etdi. Çünki, Azərbaycan hökumətinin iyun ayının əvvəllərində keçirilən iclasında Ermənistanın Versaldakı nümayəndələrinin saxtakarlıq xarakteri daşıyan memorandumu ilə bağlı çıxış edən Nazirlər Şurasının sədri N.Usubbəyov xarici işlər nazirliyinə tapşırıq vermişdi ki, bu məsələni ətraflı şəkildə öyrənsinlər. İclasın qərarının ikinci bəndində xarici işlər nazirinə tapşırılırdı ki, Cənubi Qafqaz müsəlmanlarının həqiqi vəziyyətini Avropada doğru və hərtərəfli işıqlandırmaq üçün on milyon manat vəsait ayırmaq haqda parlament qarşısında məruzə ilə çıxış etsin. Qərarın üçüncü bəndində isə xarici işlər nazirliyinə göstəriş verilirdi ki, Ermənistanda yaşayan müsəlmanların vəziyyətini yerlərdə öyrənib, Avropa ictimaiyyətinə çatdırmaq üçün azərbaycanlılardan, ermənilərdən və avropalılardan ibarət birgə komissiya yaratsınlar.[894] Bu barədə Ermənistan Respublikasındakı diplomatik nümayəndə M.Təkinskiyə şifrəli teleqramla iyun ayının 4-də məlumat verilirdi.[895] Ermənistandakı diplomatik nümayəndə M.X.Təkinskiyə iyun ayının 10-da xarici işlər nazirliyi tərəfindən göndərilən şifrəli teleqramda təlimat verilirdi ki, İrəvan quberniyasında və Qars vilayətində məxfi şəkildə, dağıdılan müsəlman kəndlərinin nümayəndələrinin köməyi ilə müsəlmanların əhali itkisi, mülkiyyətinə dəyən ziyan, ad və soyadı, yaşı və yaşayış yeri, cinsi göstərilməklə öldürülən şəxslər, əsir götürülmüş adamlar haqqında statistik məlumatlar toplayıb xarici işlər nazirliyinə göndərsin."[896] Verilmiş təlimata uyğun olaraq, M.Təkinskinin yardımı

---

[893] İbid, p.261.

[894] İrəvan quberniyasında müsəlman əhalisinə qarşı törədilən zorakılıq hallarını araşdırmaq üçün beynəlxalq istintaq komissiyası yaradılması haqqında Xarici İşlər Nazirliyinin əmri. 07.06.1919. //ARDA , f.970, s.2, i.157, v.4-5

[895] Xarici İşlər Nazirliyinin müavini A.Ziyadxanovun Azərbaycanın Ermənistanda diplomatik nümayəndəsi M.X.Təkinskiyə direktivi. 04.06.1919. //ARDA, f.979, s.l, i.65, v.38

[896] Xarici İşlər Nazirliyinin Azərbaycanın Ermənistanda diplomatik nümayəndəsi M.X.Təkinskiyə təcili diplomatik təlimat 04.06.1919. //ARDA , f.970, s.l, i.65, v.49



downloaded from KitabYurdu.az

ilə İrəvan müsəlman Milli Şurası təcili şəkildə İrəvan quberniyasında yaşayan azərbaycanlıların dözülməz vəziyyəti haqqında Avropa və Amerikanın böyük dövlətləri üçün məlumat hazırlayıb, Azərbaycan Xarici İşlər Nazirliyinə göndərdi. Xarici işlər nazirliyi isə həmin məlumatı Versalda olan Azərbaycan nümayəndələri vasitəsilə Avropa və Amerika dövlətlərinin Parisdə olan nümayəndələrinə çatdırdılar. Məlumatda qeyd edilirdi ki, mübahisəli əraziləri nəzərə almadan azərbaycanlılar Ermənistan əhalisinin yarısını təşkil edir. Lakin bu əhalinin ən elementar insani hüquqları yoxdur. Orada deyilirdi: "Erməni silahlı quldur dəstələri şəhərlərdə, qəzalarda və kəndlərdə, hətta Ermənistan Respublikasının paytaxtı İrəvan şəhərində ac qurdlar kimi müsəlmanlara hücum edir, hər axşam üç, dörd müsəlman evi dağıdılır və talan edilir, sakinləri öldürürlər".[897] Azərbaycan Xarici İşlər Nazirliyi göstərirdi ki, mövcud olmayan erməni qırğını haqqında bütün Avropa və Amerikanın məlumatı var, lakin onlar bilmirlər ki, İrəvan quberniyasının yalnız cənub hissəsində yüzlərlə müsəlman kəndi dağıdılıb, Azərbaycana qovulmuş 150000 müsəlman qaçqın evsiz və yeməksiz qalmışdır. Bütün bunları ermənilərin törətdiyini Avropa və Amerika bilməlidir.[898] Ermənilər tərəfindən boşaldılmış müsəlman kəndlərinin siyahısı məlumata əlavə edilmişdi. Məlumatın axırında deyilirdi: "Əgər bu vəziyyət davam etsə, Ermənistanda yaşayan müsəlmanların məhvə məhkum olması gün kimi aydındır. Ona görə Ermənistanda yaşayan bütün müsəlmanlar həqiqət, ədalət və insaniyyət naminə Sizə, Böyük dövlətlərə müraciət edib, Ermənistanda yaşayan müsəlmanların vəziyyətini nəzərə almağı, onların hüquqlarının müdafiəsinə qalxmağı və onlara yardım əli uzatmağı xahiş edir."[899] Bu cinayətlər o qədər eybəcər xarakter almışdır ki, hətta ermənilərin içərisində müəyyən dairələr bu faciəli hadisələrə etiraz etməli olmuşdu. Ermənistan parlamentinin eser fraksiyası Daxili İşlər Nazirliyinə ünvanladığı sorğuda soruşurdu: "Cənab nazirə məlumdur ki, son üç həftə ərzində İrəvan, Eçmiədzin və Sürməli qəzalarının bir sıra tatar (azərbaycanlı - C.H.) kəndləri...qarət və qətllərə məruz qalaraq, tatar (azərbaycanlı - C.H.) əhalisindən "təmizlənir". Yerli hakimiyyət, nəinki buna maneçilik törətmir, əksinə, hətta özü baş verən qarət və talanlarda iştirak edir... Əgər bütün bunlar daxili işlər nazirinə məlumdursa, bu zorakılıq və azğınlığın qarşısını almaq üçün hansı tədbirləri görür".[900] Parisdəki erməni nümayəndələri Qarabağda özlərinin törətdiyi cinayətləri azərbaycanlıların ayağına yazır və bununla müttəfiq ölkələrinin nümayəndələri qarşısında Azərbaycan Respublikasını və onun Versaldakı

[897] Avropa və Amerikanın böyük dövlətlərinin nəzər və diqqətinə çatdırılan İrəvan quberniyasının dağıdılmış müsəlman kəndlərinin siyahısı. 1919. //ARDA, f.970, s.1, i.144, v.66

[898] Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi yanında xüsusi təşviqat şöbəsinin yaradılması haqqında 04.06.1919. //ARDA, f.970, s.l, i.216, v.l

[899] Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi yanında xüsusi təşviqat şöbəsinin yaradılması haqqında 04.06.1919. //ARDA, f.970, s.1, i-144, v.66

[900] İnformasya şöbəsinin Azərbaycan Respublikası xarici işlər nazirinə məlumatı. 22.04.1919. //ARDA, f.970, s.1, i.184, v.16-17



downloaded from KitabYurdu.az

nümayəndələrini nüfuzdan salmağa çalışırdılar.[901] 1919-20-ci illərdə Qafqazda münaqişə zonasında olmuş ingilis jurnalisti Skotland Liddel haqlı olaraq yazırdı: "Ermənistan əbədi olaraq münaqişə axtarır, nə vaxt ki, ona nail oldu, onu öz təbliğatlarında "təzyiq aləti" adlandırır və doğrudan da, bu əməlli-başlı cəza alətinə çevrilir. Ermənistanın bədbəxtçiliyi ondadır ki, daşnaklar orda hakimiyyətdədirlər. Bu terrorist inqilabçı təşkilat çox illərdir ki, məqsədli şəkildə erməniləri müsəlmanlar üzərinə hücuma təhrik edir. Müsəlmanlara əhəmiyyətli dərəcədə ziyan vuraraq, onlar bütün aləmə car çəkib, "əzabkeş ermənilərə" dünyanın rəğbətini qazandırmaq istəyirlər. Daşnaklar üçün ölmüş erməni çox qiymətlidir. Əgər ondan lazım olduğu kimi istifadə etmək mümkün olsa, onda o təbliğat işinə çoxlu fayda gətirə bilər."[902] 1919-cu ilin iyun ayında Qarabağda törədilmiş təxribatdan Ermənistan hökuməti Qarabağın general-qubernatoru Xosrov bəy Sultanovu ləkələmək, Parisdəki nümayəndələri isə guya, müttəfiqlər tərəfindən müdafiə edilməyən ermənilərin azərbaycanlılar tərəfindən öldürüldüyünü və qovulduğunu sübut etmək məqsədi ilə təbliğat kampaniyasından geniş istifadə edirdilər. Bu məsələyə qısaca toxunub qeyd etmək lazımdır ki, iyun ayının 4-5-də Qarabağda baş vermiş hadisələr bilavasitə erməni milli şurasının planı əsasında törədilmişdi. Bu şuranın Qarabağda erməni və müsəlman icmaları arasında sabitliyi pozmağa yönəlmiş fəaliyyətini öyrəndikdən sonra ingilis komandanlığı hələ aprel ayında onun üzvlərinin Qarabağın hüdudlarından uzaqlaşdırılmasına vəd vermişdilər. İyun ayının əvvəllərində məlum oldu ki, Erməni Milli Şurası Şuşanın erməni hissəsinə gizli şəkildə silah gətirir. Bu Zəngəzur yaylağına qalxan Azərbaycan əhalisinin qarşısını almaq üçün idi. Belə olduqda Xosrov bəy Sultanov köç gedən yollarda təhlükəsizliyi təmin etmək məqsədilə Azərbaycan ordusunun əsgərlərini təhlükəli yerlərə göndərdi və eyni zamanda erməni Milli Şurasının üzvlərinin həbs edilib Qarabağdan çıxarılması haqqında göstəriş verdi. Buna cavab olaraq silahlanmış ermənilər iyun ayının 4-də Azərbaycan əsgərlərinə atəş açdılar və üç əsgər öldürüldü. Belə hərəkətlərdən sonra o, Şuşada və ətraf kəndlərdə qayda-qanun yaratmaq üçün fəaliyyətə başladı və ilk addım kimi erməni milli şurasının üzvlərinin Azərbaycanın hüdudlarından çıxarılmasına nail oldu. İngilis komandanlığının nümayəndələri Azərbaycan çinovniklərinin müşayiəti ilə erməni milli şurasının üzvlərini Şuşadan çıxardılar.[903] Atışmalar zamanı hər iki tərəfdən ölənlər oldu. İyunun 6-da Şuşada sülh əldə edildi. Baş vermiş hadisə ilə bağlı Şuşa erməniləri X.Sultanova üzrxahlıq məktubu yazaraq bildirirdilər ki, "çox hörmətli Xosrov bəy, icazə verin Sizin şəxsinizdə Şuşa şəhərinin müsəlman camaatından

---

[901] Ermənilərin Qarabağda törətdikləri pozuculuq əməlləri barədə ətraflı məlumat üçün bax: Tofiq Köçərli. Qarabağ: yalan və həqiqət. Bakı, 1998; Yenə onun. Yaddan çıxmaz Qarabağ. Nəqşi-cahan Naxçıvan. Bakı, 1998; Yenə onun. Qarabağ. Bakı, 2002; Yenə onun. Məqalələr. Bakı, 2004

[902] Skotland-Liddel. Müsəlmanlarla müharibə. Ermənilər yenidən hücuma keçirlər. 30.01.1920. //ARDA, f.894, s.10, i.81, v.9-10

[903] Азербайджан, 1919, 18 июня.



downloaded from KitabYurdu.az

dünən törədilmiş hadisə ilə bağlı üzr istəyək. Biz adını erməni qoymuş xuliqanların Sizin əsgərlərə qarşı törətdiyi zorakılıq faktından çox həyəcanlanmışıq və bu, haqlı olaraq Sizin ordunun və zabitlərin həyəcanına səbəb olmuşdur."[904] İyun hadisəsini yerli ermənilər belə qiymətləndirdiyi halda, Ermənistan hökuməti, Versaldakı erməni nümayəndələri tamamilə ayrı fikirdə idilər. Ermənistan hökuməti, bununla bağlı Azərbaycan hökumətinə göndərdiyi notada X.Sultanovun və Azərbaycan ordusunun Qarabağdan çıxarılmasını tələb edirdi. Lakin bu tələb Azərbaycan Xarici İşlər Nazirliyinin Ermənistandakı diplomatik nümayəndəsi M.Təkinski vasitəsi ilə İrəvan hökumətinə verdiyi cavabda rədd edilirdi. İyun ayının 18-də göndərilmiş teleqramda göstərilirdi: "Ermənistan hökumətinə xəbər verin ki, Azərbaycan hökumətinin 15 yanvar 1919-cu il qərarı ilə Sultanov Azərbaycanın ayrılmaz hissəsi olan Şuşa, Zəngəzur, Cavanşir və Cəbrayıl qəzalarına Azərbaycan Respublikası tərəfindən general-qubernator təyin edilmişdir. Müttəfiq komandanlığı aprel ayının 3-də rəsmi şəkildə bu adamı tanımışlar. Bu səbəbə görə Ermənistan hökumətinin Sultanovun fəaliyyəti, yaxud Qarabağda Azərbaycan ordusunun olması barədə bütün etirazları Azərbaycan Respublikasının daxili işlərinə qarışmaq cəhdi olduğu üçün müzakirə obyekti ola bilməz. Şuşa rayonunda qarmaqarışıqlığa gəldikdə isə, general-qubernator tərəfindən qəbul edilən ciddi qərarlar nəticəsində qayda bərpa edilir və həyat normal məcraya daxil olur.[905]

Şuşada törədilmiş hadisə ilə bağlı Ermənistan hökumətinin X.Sultanova qarşı qaldırdığı təbliğat kampaniyasının əsassız olduğunu sübut etmək üçün, onun fəaliyyətini yoxlayan Parlament komissiyası yaradıldı və məlum oldu ki, X.Sultanov baş vermiş hadisədə günahkar deyildir, ermənilər onu ingilis komandanlığının gözündən salmaq üçün bu təxribatı törətmişlər.[906] Azərbaycan hökuməti bu fikirdə idi ki, ümumiyyətlə, erməni-azərbaycanlı münaqişəsini təhqiq etmək üçün beynəlxalq istintaq komissiyası təsis edilməlidir. Bu məsələ Parisdə olan Azərbaycan nümayəndələri tərəfindən də qaldırılmışdı. Həmin məqsədlə Azərbaycan hökuməti Ermənistan hökumətinə müraciət etdi. Əvvəllər, beynəlxalq istintaq komissiyasının yaradılmasına ermənilər razılıq versələr də, sonralar müxtəlif bəhanələrlə bu işi pozdular.[907] Lakin 1919-cu ilin yayında Azərbaycan hökumətinin qəti mövqeyi və məqsədyönlü siyasəti nəticəsində respublikanın Qarabağda suveren hüquqları bərpa edildi. Parisdə olan nümayəndələrə göndərilən məlumatda qeyd edilirdi: "Qarabağ məsələsi adlandırılan məsələ qəti şəkildə həll edildi...7-ci erməni qurultayında Qarabağ ermənilərinin nümayəndələri Azərbaycan

---

[904] Şuşa hadisələrinə dair. 17.06.1919. //ARDA, f.970, s.l, i.65, v.71

[905] Xarici İşlər Nazirliyinin Azərbaycanın Ermənistanda diplomatik nümayəndəsi M.X.Təkinskiyə təcili diplomatik təlimat. 18.06.1919. //ARDA, f.970, s.l, i.65, v.76

[906] Azərbaycan Rcspublikası Nazirlər Şurasının sədrinin Ə.M.Topçubaşova teleqramı. Avqust, 1919.//ARDA, f.2905, s.l, i.13, v.57

[907] 1918-20-ci illər Azərbaycan - Ermənistan münasibətləri və bu respublikalar arasında olan ziddiyyətlər haqqında ətraflı məlumat üçün bax: İ.Musayev. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər) Bakı, 1996



downloaded from KitabYurdu.az

hökumətinin hakimiyyətini tanımaq barədə general-qubernator Xosrov bəy Sultanovla saziş bağladılar."[908] Ümumiyyətlə, Qarabağın dağlıq hissəsində, Zəngəzurda və ermənilərin planlarına daxil olan digər yerlərdə Azərbaycan Respublikasının suveren hüquqlarının bərpa edilməsində Qarabağ general-qubernatoru Xosrov bəy Sultanovun böyük xidmətləri olmuşdu. Məhz, təsadüfi deyildi ki, ermənilər onun əleyhinə təkcə Cənubi Qafqazda deyil, Avropa və Amerikada güclü təbliğat aparırdılar. Elə bu vaxt Muğanda və Lənkəranda milli hökumətə qarşı təşkil edilmiş molokan qiyamı da ləğv edildi. Hər iki hadisə barədə Azərbaycan xarici işlər naziri Parisə, Ə.M.Topçubaşova teleqram göndərdi. Konfransın sədrinə Əli Mərdan bəyin təqdim etdiyi məlumatda göstərilirdi ki, "Lənkəran şəhəri və Lənkəran qəzası bolşeviklərdən təmizlənib, qeyd edilən ərazidə Azərbaycan hökumətinin hakimiyyəti bərpa edilmişdir və Qarabağın erməni əhalisinin nümayəndələri bu əhalinin Azərbaycan hökumətinə tabe olması haqqında qətnamə qəbul etmişlər."[909]

Cənubi Qafqaza aid məsələlərdə Versaldakı erməni nümayəndələrinin təkəbbürlü mövqe tutmasına baxmayaraq, Azərbaycan və Gürcüstan nümayəndələri onlarla münasibətləri kəsmək yolu ilə deyil, birlikdə hərəkət etmək, birgə müdafiə olunmaq yolunu münasib bilirdilər. Əslində hər üç Qafqaz respublikasının müstəqilliyinin tanınması, onların gələcək müstəqil dövlət kimi yaşaması, bütövlükdə bu respublikaların əməkdaşlığından asılı idi. Lakin erməniləri Qafqaz əməkdaşlığına cəlb etmək olduqca çətin idi. Hələ iyun ayında Dağlılar Respublikasının süqutundan sonra Azərbaycan nümayəndələri belə bir təşəbbüs qaldırdı ki, Qafqaza xüsusi komissiya göndərilməsi üçün konfransa ərizə ilə müraciət edilsin. Bu məsələləri müzakirə etmək üçün Hacınski və Mehdiyev (Azərbaycan), Avalov və Qvarçaladze (Gürcüstan), Bammatov və Xazarakovdan (Dağlı Respublikası) ibarət müştərək komissiya yaradıldı. Müzakirəyə ermənilər də dəvət edilmişdilər, lakin onlar bu komissiyada iştirak etməkdən qəti surətdə imtina etdilər.

İyul ayının axırlarında Ə.M.Topçubaşov gürcü, erməni və dağlı nümayəndə heyətlərinin başçılarına məktub göndərərək, Versal Sülh konfransının tərkibində Qafqaz işləri üzrə xüsusi komissiyanın yaradılması üçün konfransa müraciət etməyin vaxtı çatdığını bildirdi. Çünki konfrans Pribaltika ilə bağlı belə bir komissiyanı artıq yaratmışdı. Ona görə də, Topçubaşov bu məsələni müzakirə etmək üçün nümayəndə heyətlərinin başçılarını avqust ayının 4-də öz yanına dəvət etdi. Ermənistan Respublikası nümayəndə heyətinin başçısı A.Aqaronyandan başqa bütün sədrlər müzakirəyə gəldilər, o isə öz yerinə doktor Ohancanovu

[908] Azərbaycan Respublikası Nazirlər Şurası sədrinin Paris Sülh konfransındakı nümayəndə heyətinin başçısı Ə.M.Topçubaşova teleqramı. Avqust, 1919.//ARDA. f.2905, s.l, i.20, v.3

[909] Paris Sülh konfransında Azərbaycan nümayəndə heyətinin başçısı Ə.M.Topçubaşovun Sülh konfransının sədrinə məktubu. 09.09.1919. //ARDA, f.920, s.l, i.142, v.77



downloaded from KitabYurdu.az

göndərmişdi.[910] Ohancanov müşavirəyə əslində müşahidəçi kimi gəlmişdi, çünki o müzakirə edilən məsələyə öz nümayəndə heyətinin fikrini bildirmək vəkaləti almamışdı. Müşavirə nəticəsində həm gürcülər, həm də dağlılar Topçubaşovun təklifinə tərəfdar çıxdılar, belə olduqda ermənilərə öz fikirlərini bildirmək üçün vaxt verildi. Avqustun 13-də Çxeidze, Topçubaşov və Çermoyev bu məsələyə ermənilərin münasibətini aydınlaşdırmaq üçün onların nümayəndələri olan Aqaronyan, Papacanov, Kaçaznuni ilə birlikdə müşavirə keçirdilər. Müşavirədə Qafqaz işləri üzrə xüsusi komissiya yaradılması barədə konfransa birgə müraciət etmək üçün erməni nümayəndələri öz mənafelərinə uyğun olan üç məsələnin aydınlaşdırılmasının zəruriliyini bildirdilər: "1.Birləşmiş Ermənistana - yəni, Qafqaz və Türkiyə Ermənistanına sizin (Azərbaycan, Gürcüstan və Dağlılar Respublikasının nümayəndələrinin - C.H.) münasibətiniz necədir; 2. Siz etiraf edirsinizmi ki, bütün sərhəd və ərazi xarakterli məsələlər qəti surətdə, yalnız, burada Parisdə, Sülh konfransında həll edilməlidir; 3.İngilis qoşunlarının Qafqazdan çıxarılmaması barədə konfransa təcili müraciət etməyi vacib sayırsınızmı?"[911] Danışıqlar zamanı Kaçaznuni elan etdi ki, "bunlar bizim üçün çox vacib məsələlərdir və nə qədər ki, sizinlə razılığa gəlməmişik, komissiya barədə konfransa birgə müraciət qərarını qəbul etmək bizim üçün çox çətindir. Bir də dəqiq müəyyənləşdirmək lazımdır ki, bu komissiya nə iş görəcək, yəni, hansı məsələləri müzakirə edəcək. Əgər biz bu məsələlər barəsində razılığa gəlməsək, nəinki, sizinlə konfransa birgə müraciət imzalaya bilmərik, əksinə, çalışacağıq ki, belə komissiya yaranmasın." Erməni nümayəndə heyətinin digər üzvü Papacanov "Böyük Ermənistan" xülyasına uyaraq deyirdi: "Biz tək deyilik, bütün varlığımızla türkiyəli həmvətənlərimizlə bağlıyıq. Bizim üçün bilmək vacibdir ki, siz bizim birləşməyimizə necə baxırsınız? Biz müstəqil Azərbaycanın və müstəqil Gürcüstanın mövcud olduğunu etiraf edirik. Siz necə, etiraf edirsinizmi ki, vahid Ermənistan var: bizim üçün və türkiyəli həmvətənlərimiz üçün mənəvi cəhətdən bu çox vacibdir."[912] Azərbaycan nümayəndə heyətinin üzvü M.Mehdiyev ermənilərin iddiaları ilə bağlı yazırdı: "Ermənistan rəhbərliyi... erməni məsələsini Qafqazdan kənarda, qüdrətli və qalib ölkələrin köməyilə həll edəcəyinə ümid bəsləyirdi,... arzu edirdi ki, Ermənistan ərazisini Gürcüstan və Azərbaycanın ərazisi hesabına xeyli genişləndirsin. Ermənistan ərazisini bir dənizdən o biri dənizə qədər genişləndirmək xəyalına düşən erməni siyasi xadimləri öz vətəninin taleyini Qafqaz respublikalarının taleyi ilə heç cür bağlamaq istəmirdilər... Sadəcə olaraq, erməni millətçiləri və dövlət başçıları mövcud Ermənistan ərazisini it ilində onlara

910 А.М.Топчибашев. Письма из Парижа, с.66.

911 Paris Sülh konfransındakı Azərbaycan və Gürcüstan nümayəndələrinin birgə iclasının protokolu. 14.08.1919. //ARDA, f.970, s.1, i.142, v.221

912 А.М.Топчибашев. Письма из Парижа, с.66



downloaded from KitabYurdu.az

məxsus olmuş tarixi ərazi səviyyəsinə çatdırmaq kimi gülünc və xam bir xəyala düşdülər."[913]

Ermənilər tərəfindən irəli sürülmüş sualların yalnız üçüncüsü, yəni ingilis qoşunlarının Qafqazda qalması ilə Çxeidze və Topçubaşov razı olduqlarını bildirdilər, qalan məsələlərlə bağlı nümayəndə heyətlərinin üzvləri ilə məsləhətləşmələr keçiriləcəyi qeyd edildi. Ermənilərin qaldırdığı məsələləri ətraflı müzakirə etmək üçün avqust ayının 14-də Ə.M.Topçubaşovun sədrliyi ilə Azərbaycan və Gürcüstan nümayəndələrinin birgə iclası keçirildi. İclasda Azərbaycan nümayəndə heyətinin bütün üzvləri, gürcülərdən isə Çxeidze, Qobeçia, Avalov və Qvarçeladze iştirak edirdilər. Ə.M.Topçubaşov ermənilərin təkliflərini müzakirəyə verdikdən sonra birinci olaraq, Çxeidze və Qvarçeladze çıxış etdilər. Onlar qeyd etdilər ki, Ermənistanın nümayəndələri Qafqaz komissiyası məsələsində əməkdaşlıq etməkdən öz məqsədləri üçün istifadə etmək istəyirlər. Onlar Birləşmiş Ermənistan ideyasını uzun və geniş təbliğat vasitəsi ilə Avropa ictimaiyyətinin beyninə yeridə biliblər. Qvarçeladze deyirdi: "Əlbəttə, biz gürcü nümayəndəliyi, bir demokrat kimi heç vaxt razı ola bilmərik ki, ermənilərin tamamilə azlıqda olduğu altı vilayətdə onlar çoxluqda olan digər xalqın üzərində ağalıq etsinlər, bu baxımdan Türkiyə Ermənistanı ilə süni şəkildə birləşdirilmiş Ermənistanın müstəqilliyinin tanınması qeyri-mümkündür."[914] Qvarçeladze təklif edirdi ki, biz o Ermənistan Respublikasının müstəqilliyini tanımalıyıq ki, orada "millətlərin öz müqəddəratını təyin etməsi demokratik prinsiplərlə, qonşuların mənafeyi ilə ziddiyyət təşkil etmir. İclasda çıxış edənlər göstərirdilər ki, "Türkiyə Ermənistanı" məsələsi beynəlxalq məsələdir və Sülh konfransı bilavasitə özü bu məsələni həll etməlidir. Çıxış edənlərin fikrincə, Qafqaz respublikalarının Sülh konfransının səlahiyyətinə daxil olan məsələyə müdaxilə etməsi zərərli nəticələr verə bilərdi. Hətta Çxeidze qeyd edirdi ki, "Birləşmiş Ermənistana" görə biz kiminləsə münasibətlərimizi qurban verə bilmərik, onda ki, qalıb Türkiyə ilə ola. O ki qaldı, ermənilərin təklif etdiyi digər məsələlərə, biz də öz əks təkliflərimizi qoymalıyıq, "məsələn, Denikinə münasibət məsələsini." Müzakirələrdə çıxış edən C.Hacıbəyov təklif etdi ki, bütün nöqteyi-nəzərlərdən, istər ədalət baxımından və istərsə də azad şəkildə təyini müqəddərat baxımından "Birləşmiş Ermənistanı" tanımaq haqqında ermənilərin təklifi rədd edilməlidir. Gürcü nümayəndəsi Z.Avalov da bu təklifə tərəfdar çıxaraq deyirdi ki, biz öz məsələmizi "Türkiyə Ermənistanı" məsələsi ilə qarışdırmamalıyıq, əks təqdirdə "bizim məsələmizi həll etməli olan komissiya, Türkiyə Ermənistanı məsələsi ilə məşğul olacaqdır. Ola bilsin bir tərəfdən bizim təsirimiz bu məsələnin həllinə səbəb olacaq, digər tərəfdən bizim məsələmiz rus məsələsindən ayrılıb, Ön Asiya məsələsi ilə bir sıraya daxil ediləcəkdir." M.Məhərrəmovun fikrincə, "indi Birləşmiş Ermənistan haqqında

[913] Mir-Yacoub. Le probleme du Caucase, p.132
[914] Paris Sülh konfransındakı Azərbaycan və Gürcüstan nümayəndələrinin birgə iclasının protokolu. 14.08.1919. //ARDA, f.970, s.1, i.142, v.219



downloaded from KitabYurdu.az

danışmaq hər halda tez idi. O, qeyd edirdi ki, Türkiyə Ermənistanı məsələsi varsa və əgər nə vaxtsa bu məsələ həll edilərsə onda, Qafqaz Ermənistanı özünün indiki qərarına baxa bilər."[915] İclasda çıxış edən gürcü və azərbaycanlı nümayəndələrindən heç biri "Birləşmiş Ermənistan" adlı mücərrəd dövlətin müstəqilliyinin tanınmasına tərəfdar olmadı. Onlar yalnız Qafqazda mövcud olan status-kvonun qorunub saxlanmasının mümkünlüyünü qeyd etdilər və bunun ermənilərə də aid olduğunu bildirdilər.

Ərazi məsələləri ilə bağlı mübahisələrin Paris Sülh konfransı tərəfindən həll edilməsi ilə bağlı eımənilərin ikinci təklifi də iclasda ciddi müzakirəyə səbəb oldu. Bu məsələdə Azərbaycan nümayəndə heyətinin üzvü M.Məhərrəmovun təklifi iclasın qərarı üçün əsas götürüldü. M.Məhərrəmov öz çıxışında göstərirdi ki, ərazi mübahisələrinin Parisdə Sülh Konfransı tərəfindən həll edilməsi bizim üçün sərfəli deyildir, konfrans iştirakçıları arasında ermənilərin təsiri güclüdür. Bu məsələ ilə bağlı o, Azərbaycanla Gürcüstan arasında imzalanmış 16 iyun müqaviləsinin bir maddəsini əsas kimi götürməyi təklif edirdi. Həmin maddədə göstərilirdi ki, tərəflər öz aralarındakı ərazi mübahisələrini özləri həll edirlər, yalnız mübahisə yaranacağı təqdirdə bunu arbitraj vasitəsi ilə edə bilərlər.

Ermənilərin irəli sürdüyü üçüncü təklifə - ingilislərin Qafqazda qalmasına həm gürcülər, həm də azərbaycanlılar tərəfdar idilər. Hətta iclasda qeyd edildi ki, ingilislərin Qafqazdan çıxmaması Azərbaycan və Gürcüstan üçün daha vacibdir, nəinki Ermənistan üçün.[916] Lakin bununla belə qeyd edilməlidir ki, erməni nümayəndələri ingilislərin Qafqazda qalmasında çox maraqlı idilər. Çünki ingilislər Qafqazdan çıxacağı təqdirdə onlar törətdiyi əməllərin müqabilində qonşularından ehtiyat edirdilər, bir çox cəhətlərinə və bəzən narazılıq etmələrinə baxmayaraq, Qafqazda olan Böyük Britaniya qoşunlarına müstəqil Ermənistan dövlətinin təhlükəsizliyinin təminatçısı kimi baxılırdı. Yaradılması nəzərdə tutulan Qafqaz komissiyasının erməniləri maraqlandıran statusuna gəldikdə isə Ə.M.Topçubaşov qeyd etdi ki, əvvəlcə birlikdə komissiya yaratmaq barədə Sülh konfransına müraciət etmək lazımdır, sonra onun statusunu və səlahiyyətini müəyyənləşdirmək olar.

Ermənilərin irəli sürdüyü tələblər müzakirə edildiyi günün səhərisi, avqust ayının 15-də Azərbaycan nümayəndəliyinin binasında, Ə.M.Topçubaşovun sədrliyi ilə Azərbaycan, Gürcüstan, Ermənistan və Dağlılar Respublikası nümayəndəliyinin qeyd edilən məsələlərlə əlaqədar birgə iclası keçirildi. Həmin iclası Ə.M.Topçubaşov belə xatırlayır: "Mən iclası açaraq, iştirakçıları salamladım və bütün nümayəndəliklərin birinci ümumi iclasda iştirakından məmnun qaldığımı bildirdim. Sonra iclasın proqramı barədə məlumat verdim və əvvəlcədən ayrı-ayrı nümayəndəliklərdə müzakirə olunmuş, yuxarıda qeyd edilmiş üç məsələni elan

[915] Yenə orada.v.219-221.
[916] Yenə orada,v.220



downloaded from KitabYurdu.az

etdim. Mənim və cənab Çxeidzenin təəccübünə səbəb olaraq (çünki ermənilər bu məsələləri bizim yanımızda qaldırmışdılar) cənab Aqaronyan, sonra isə Papacanov (Kaçaznuni gəlməmişdi, onu Ohancanyan əvəz edirdi) bildirdilər ki, bu məsələləri onlar müzakirə təriqi ilə irəli sürməyiblər, bizimlə söhbətin (13 avqust) nəticəsi kimi qaldırıblar və yaxşı olardı ki, təcili məsələ kimi müttəfiq qoşunların Qafqazda qalması barədə Konfransa müraciət məsələsi müzakirə edilsin. Qəribə vəziyyət yarandı, lakin münasibətləri korlamamaq üçün ermənilərin təklifi ilə razılaşdıq və bu da dağlıların nümayəndələrindən başqa, hamı tərəfindən qəbul olundu. Qərara alındı ki, digər məsələlərlə bağlı daha bir iclas çağırılsın, qoşunlar barədə xahiş üçün tələsilsin. Bu barədə ermənilər özləri xahiş edirdilər. Təəssüf ki, müraciətin redaktə olunub hazırlanması çox vaxt apardı.[917] Müraciəti redaktə edib, razılığa gəlmək üçün avqust ayının 28-ə qədər nümayəndə heyətlərinin sədrləri üç dəfə toplandılar. Bundan əlavə avqust ayının 23-də toplanmış Azərbaycan - Gürcüstan nümayəndələrinin birgə iclasında da müraciətin mətni müzakirə edildi. Azərbaycan və Gürcüstan nümayəndələri müttəfiq qoşunlarının Qafqazda qalmasını xarici təhlükə ilə əlaqələndirir, xüsusən, Denikin təhlükəsini nəzərdə tutur, ermənilər isə bura daxili təhlükəni, yəni azərbaycanlılar və gürcülər tərəfindən Ermənistana ola biləcək təhlükəni Sülh konfransının rəhbərlərinin nəzərinə çarpdırmaq istəyirdilər. Nəhayət, gürcü nümayəndəsi Z.Avalov yeni bir layihə hazırlayıb, avqust ayının 23-də keçirilən iclasın müzakirəsinə verdi ki, orada da nə xarici, nə də daxili təhlükəyə toxunulmur, sadəcə olaraq, Paris Sülh konfransının Qafqazın siyasi taleyini həll edəcəyinə qədər müttəfiq ordularının orada qalmasının zəruriliyi göstərilirdi.[918] Müttəfiq ölkələrin Ali Şurasının sədri Jorj Klemansonun adına hazırlanmış Müraciət cüzi dəyişikliklərlə üç nümayəndəliyin sədrlərinin imzası ilə avqust ayının 28-də Sülh konfransına təqdim edildi. Orada göstərilirdi: "Biz aşağıda imza edən Ermənistan, Azərbaycan və Gürcüstan nümayəndəliyinin sədrləri Sülh konfransına məlumat verməyi özümüzə şərəf bilirik ki, Qafqazdan müttəfiq qoşunlarının çıxarılması arzuolunmaz nəticələr verə bilər. Buna görə də, aşağıda imza edənlər sülh konfransından xahiş edirlər ki, yuxarıda adları çəkilən respublikaların müstəqilliyi tanınana qədər qoşunların çıxarılması dayandırılsın".[919] Bu müraciətdən sonra Parisdə olan Qafqaz nümayəndələri tərəfindən müəyyən əməli addımlar da atıldı. Məlum olduğu kimi, bu dövrdə, əsasən, sosialist və sosial demokrat partiyaları xarici qoşunların keçmiş Rusiya ərazisindən çıxarılmasını tələb edirdilər. Ona görə, bütün Avropada məşhur olan gürcü menşeviklərinin

---

917 А.М.Топчибашев. Письма из Парижа, с.67

918 Paris Sülh konfransındakı Azərbaycan və Gürcüstan nümayəndələrinin birgə iclasının protokolu. 14.08.1919. //ARDA, f.970, s.l, i.142, v.227

919 Azərbaycan Respublikasının Paris Sülh konfransındakı nümayəndəliyinin başçısı Ə.M.Topçubaşovun Müttəfiq və Birlik dövlətlərinin Ali Şurasının sədri Jorj Klemansoya məktubu. 28.08.1919. //ARDA, f.970, s.l. i.142. v.45



downloaded from KitabYurdu.az

liderləri Çxeidze və Sereteli ingilis leyboristlərindən xahiş etdilər ki, Britaniya qoşunlarının Qafqazdan çıxmasını tələb etməsinlər.[920]

Parisdə olan Azərbaycan nümayəndələrinin 1919-cu ilin yazında və yayında gürcü və dağlı nümayəndələri ilə səmərəli əməkdaşlığı müxtəlif beynəlxalq məsələlərə münasibətdə Qafqaz həmrəyliyinin yaranmasında mühüm rol oynadı. Denikin təhlükəsinə qarşı bu respublikaların müqavimətini gücləndirdi. Müttəfiqlərin Kolçak hökumətini tanımaq haqqında bəyanatı keçmiş Rusiya imperiyasında yaranmış yeni dövlətlərin həmrəyliyini gücləndirdi. Azərbaycan nümayəndələri Versalda "vahid və bölünməz Rusiya" təhlükəsinə qarşı gərgin mübarizə aparmalı oldular. Müttəfiq dövlətlərin etinasızlığına baxmayaraq, Azərbaycan nümayəndələri istiqlaliyyətin tanınması uğrunda mübarizədən bir addım belə geri çəkilmədilər, respublikanın mənafeyi, xüsusilə, onun ərazi bütövlüyünün qorunub saxlanılması ilə bağlı dəfələrlə Sülh konfransına, Versal Ali Şurasına və Antanta ölkələrinin dövlət başçılarına öz haqları və hüquqları ilə bağlı tələbnamələr verdilər. 1919-cu ilin sentyabrından Parisdə nəşr olunmağa başlayan "Azərbaycan informasiya bülleteni"nin səhifələrində mütəmadi olaraq, Ermənistan silahlı dəstələrinin İrəvanda, Naxçıvanda, Zəngəzurda və Qarabağda törətdiyi deportasiya və qətllər barəsində məlumatlar, habelə Denikin təhlükəsi haqqında rəsmi sənədlər dərc etməyə başlandı.[921] Azərbaycan nümayəndə heyəti Qərb ölkələrinin dövlət və hökumət başçıları tərəfindən müdafiə edilən və bilavasitə Azərbaycan Respublikasının ərazi bütövlüyünə qarşı yönələn "Böyük Ermənistan" iddialarını bütün vasitələrlə dəf etməyə nail oldu.

---

[920] В.И.Адамия. Из истории Английской интервенции в Грузии, с. 123

[921] Bax: Bulletin d'Information d L'Azerbaidjan. Paris, 1919, 1 Septembre, №1, p.2-4; Bulletin d'Information d L'Azerbaidjan. Paris, 1919, 8 Septembre, №2, p.1-4; Bulletin d'Information d L'Azerbaidjan. Paris, 1919, 13 Octobre, №3, p.1-6; Bulletin d'Information d L'Azerbaidjan. Paris, 1919, 18 November, №4, p.3-4; Bulletin d'Information d L'Azerbaidjan. Paris, 1919, 15 December, № 5, p.1-3



downloaded from KitabYurdu.az

# IX FƏSİL

## Qərb mandatlığına münasibət: Fransa, Britaniya və İtaliya ilə yaxınlaşmaq cəhdləri

Paris Sülh konfransında beynəlxalq siyasətin əsas istiqamətlərini diqqətlə izləyən Azərbaycan diplomatları gənc respublikanın azad dünyaya inteqrasiya olunmasının yollarını arayırdılar. Müxtəlif rəng çalarlarında şimaldan yaxınlaşan təhlükə, ağ və qırmızı Rusiyanın imperiyanın köhnə hüdudlarına münasibətdə eyni mövqedən çıxış etməsi Qərb orientasiyasını Azərbaycan xarici siyasətinin üstün istiqamətinə çevirirdi. Çətinliklə olsa da, Avropa ölkələrinin siyasi dairələrində Azərbaycan haqqında müəyyən təsəvvürlər yaranır, Qafqaza gələn siyasi, hərbi, diplomatik nümayəndələr onun həyat qabiliyyətli olduğunu etiraf edirdilər. Azərbaycanın Qərb nümayəndələrini heyrətə salan təbii zənginlikləri, bir sıra hallarda ona olan marağı şərtləndirən başlıca amilə çevrilirdi. Sülh konfransının regiona göndərdiyi müxtəlif missiyalar öz hesabatlarında bunu açıq-aydın ifadə edirdilər. Azərbaycanın təbii ehtiyatları haqqında əfsanələr, nəinki Avropa paytaxtlarına, hətta okeanın o biri tərəfində yerləşən ABŞ-a belə gedib çatmışdı.

1919-cu ilin ortalarından etibarən, Azərbaycan hökumətinin və onun Paris Sülh konfransındakı nümayəndələrinin müttəfiq axtarışı bir tərəfdən azad dünyaya yaxınlaşmaqla bağlı idisə, digər tərəfdən, köhnə və yeni Rusiyanın Azərbaycana forma etibarı ilə fərqli, mahiyyət etibarı ilə eyni olan münasibətindən irəli gəlirdi. Dünya müharibəsindən sonra, təkcə məğlubların deyil, qaliblərin də yorulduğu mürəkkəb beynəlxalq şəraitdə kimdən kömək ummalı, kimə arxalanmalı sualı bütün kəskinliyi ilə xarici siyasət idarəsinin qarşısında dayanırdı. Azərbaycan Nazirlər Şurasının sədrinə göndərdiyi hesabatında Ə.M.Topçubaşov yazırdı: "Keçmiş Rusiyanın ərazisində yeni yaranmış bütün respublikaların sülh nümayəndələri, demək olar ki, bizimlə eyni vəziyyətdədirlər. Belə bir vəziyyətdə çıxış yolu, kömək və dayaq axtarmaq təbiidir. Lakin harada və kimdən? Bizim xalqımızın müstəqil yaşamaq hüququ şübhəsizdir. Bu haqda biz mümkün qədər hər yerdə danışırıq və hamıya yazırıq. Bunu bizim təsdiq etməyimiz azdır, bir halda ki, bizdən daha çox tanınmış, mütəşəkkil və hətta, müstəqil yaşayan xalqlar özlərinə, ancaq müttəfiqlər deyil, himayədarlar, protektorlar, mandatarilər axtarırlar, bu və ya başqa güclü dövlətlərə arxalanıb, öz yollarını müəyyənləşdirməyə çalışırlar, hər zaman olduğu kimi, öz yolunu müəyyənləşdirmək mühüm həyati bir məsələ olaraq öz əhəmiyyətini və dəyərini saxlamaqdadır. Bizim nümayəndələr İstanbulda bu məsələni dönə-dönə müzakirə etmişdir və burada da həmin sualla məşğul olurlar. Hansı dövlətə arxalanıb yolumuzu müəyyənləşdirməli?"[922]

---

[922] А.М.Топчибашев. Письма из Парижа, с.61



downloaded from KitabYurdu.az

Dünya müharibəsindəki məğlubiyyətə qədər Azərbaycan üçün arxalana biləcəyi müttəfiq dövlət qeydsiz-şərtsiz Türkiyə idi. Dünya müharibəsi qurtardıqdan sonra beynəlxalq siyasi vəziyyət köklü surətdə dəyişdiyindən Azərbaycana dost münasibəti göstərən, ona himayədarlıq edə bilən dövlət Fransa, Böyük Britaniya, ABŞ və İtaliyadan biri ola bilərdi. Lakin bu işin ağırlığını öz üzərinə götürməyə razılıq verən güclü dövlət tapmaq o qədər də asan deyildi. Elə götürək ingilisləri, əslində onları Qafqazdan heç kəs çıxarmadı, əksinə, Qafqaz dövlətləri və onların Parisdəki nümayəndələri Böyük Britaniya hökumətindən xahiş etsələr də, ingilislər Qafqazda qalmadılar.

Qafqaz dövlətlərinə Fransa himayədarlığı o qədər də real deyildi. Fransa işgüzar dairələrinin Qafqaza marağı güclü olsa da, Klemanso hökumətinin "vahid və bölünməz Rusiya" ideyasına sədaqəti daha üstün idi. Sülh konfransında yüksək nüfuza malik olan böyük dövlətlər içərisindən, məhz Fransa yeni yaranmış respublikaların müstəqilliyinin tanınmasının əleyhinə idi. Digər dövlətlər kimi, Fransa hökuməti də 1919-cu ilin ortalarında öz nümayəndələrini Qafqaza göndərmişdi. Fransızların Qafqazda vəziyyəti öyrənməyə göndərdiyi nümayəndə milliyyətcə erməni olan İv.Loris-Melikov idi. O, Paris Sülh konfransında olan erməni milli nümayəndəliyinin üzvü, Ermənistan Respublikasının Parisdəki nümayəndəsi hesab edilən qraf Loris-Melikovun qardaşı oğlu idi. İv.Loris-Melikov vaxtilə Ə.M.Topçubaşovla bir gimnaziyada oxumuşdu. 1905-1906-cı illərdə Peterburqda məşhur rus publisisti Maksim Kovalevski ilə birlikdə "Strana" qəzetində birgə işləmiş, sonra isə Parisə köçüb Fransa vətəndaşlığını qəbul etmişdi. O, Fransanın baş naziri Jorj Klemansonun yaxın dostu idi. Qafqaza yola düşməzdən əvvəl iki dəfə Ə.M.Topçubaşovun yanında olmuş, bir dəfə də Əli Mərdan bəy, M.H.Hacınski ilə birlikdə onun görüşünə getmişdi. Danışıqlar zamanı aydın olmuşdu ki, Loris-Melikovu Qafqaza göndərməkdə Fransa hökumətinin əsas məqsədi bütün Qafqaz xalqlarının daxil olacağı Federativ Respublikanın yaranmasının mümkün olub-olmamasını və Qafqazın siyasi vəziyyətini öyrənməkdir. Loris-Melikovun görüşləri haqda Əli Mərdan bəy yazırdı: "O hər şeyə fransız kimi baxır və qəlbən "vahid və bölünməz" Rusiya tərəfdarıdır. Özünün dediyi kimi, o, millətçi deyil, buna görə də, burada Ermənistan nümayəndəliyinin addımlarını təqdir etmir. Özünün söylədiyinə görə, bu nümayəndəliklə heç görüşməyir də. Bir sözlə, işgüzar siyasətçi təsiri bağışlamasa da, ancaq öz uğuruna inanır. Qafqaz respublikalarının müstəqil bərqərar ola biləcəyinə inanmır, daha doğrusu inanmaq istəmir, böyük Rusiya təşkil etməyi sərfəli hesab edir."[923] Ə.M.Topçubaşovun belə xarakteristikasından sonra İstanbul-Batum-Tiflis-İrəvan-Bakı-Şimali Qafqaz marşrutu ilə hərəkət edən Loris-Melikovun Qafqaz barəsində Fransa hökumətinə verəcəyi təkliflər demək olar ki, məlum idi.

---

[923] Azərbaycan Respublikasının Paris Sülh konfransındakı nümayəndəliyinin başçısı Ə.M.Topçubaşovun Nazirlər Şurasının sədrinə məktubu. 22-25.09.1919. //ARDA, f.970, s.1, i.142, v.31



downloaded from KitabYurdu.az

Fransanın Qafqazda olan iqtisadi marağı belə, 1919-cu ilin ortalarında onun siyasi baxımdan bu respublikalar barədə obyektiv mövqe tutmasına təsir göstərə bilmədi. Fransanın hərbi nazirliyi yanacağa olan ehtiyac səbəbindən Parisdə olan Azərbaycan nümayəndələri ilə kerosin alınması barədə danışıqlar aparırdı.[924] Belə bir danışıqlar Cənubi Qafqazda olan Fransa hərbi və siyasi dairələri ilə Azərbaycan nümayəndələri arasında da aparılırdı və alınan neft məhsullarının Batumdan Marselə daşınması barədə razılıq əldə edilmişdi.[925] Fransanın Azərbaycanın və Gürcüstanın siyasi cəhətdən tanınmasında, onlarla iqtisadi əməkdaşlığa girməsində və son nəticədə onlara himayədarlıq göstərməsində ən çox marağı olan "Aique Navale Fransause" cəmiyyətinin tərkibində yaranmış "Franko Qafqaz" komitəsi idi.[926] Komitənin sədri Fransa parlamentinin üzvü, keçmiş ticarət naziri de Monzie Qafqaz respublikaları, xüsusilə, Azərbaycanla əlaqələrə böyük əhəmiyyət verirdi. Onun fikrincə, Azərbaycan müsəlman ölkəsi kimi, bütün İslam dünyası ilə əlaqələrdə mühüm rol oynaya bilərdi. Komitənin üzvü Labri avqust ayının 27-də Azərbaycan və gürcü nümayəndələri ilə keçirilən iclasda Rusiyadan ayrılmış millətlərin müdafiə edilməsinin zəruriliyini bildirdi. Azərbaycan nümayəndələrindən M.Məhərrəmov, M.Mehdiyev, C.Hacıbəyov, gürcü nümayəndələrindən Qobeçia, knyaz Sumbatov və knyaz Avalov "Franko-Qafqaz" komitəsinin işinə cəlb edilmişdilər.[927] Komitənin avqustun 27-də keçirilən iclasında de Monzie razılıq verdi ki, Azərbaycan və Gürcüstan barəsində Fransa parlamentində çıxış etsin. Avqust ayının 28-də Azərbaycan və Gürcüstan nümayəndəliklərinin sədrləri komitənin üzvü Labri ilə görüşüb de Monzienin parlament çıxışının forma və xarakterini müzakirə etdilər.[928] Bundan əlavə, de Monzie deputat sorğusu ilə Fransa Xarici İşlər Nazirliyindən Qafqaz respublikalarına, o cümlədən Azərbaycan və Gürcüstana Fransa rəsmi dairələrinin münasibətini soruşdu. Sorğuda deyilirdi: "Öz xalqlarının yekdil iradəsinə uyğun olaraq, yaradılmış, konstitusiyası, parlamenti və ordusu olan Qafqaz respublikalarının - Gürcüstanın və Azərbaycanın tanınmasına Fransa hökuməti necə münasibət bəsləyir?" Bu sorğuya cavab olaraq, Fransa xarici işlər naziri Stefan Jan Mari Pişon yazılı şəkildə bildirirdi ki, Fransa hökuməti Qafqaz respublikalarını hüquqi cəhətdən tanımır. Bu tanımamağı Pişon onunla əlaqələndirirdi ki, Qafqazda vəziyyət möhkəm və sabit deyildir. Bununla yanaşı, Fransa xarici işlər naziri Qafqaz xalqlarına rəğbət bəslədiyini, onların

---

[924] ARDA, f.970, s.1, i.157, v.24

[925] Cachet du Cabinet du Ministre de la Guerre/Section Tèlègraphique. Le 26 octobre 1919.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 638, folio 114, folio 115

[926] Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol.638, folio 93, folio 95

[927] Comite France-Caucase.// Bulletin d'Information d L'Azerbaidjan. Paris, 1919, 18 Novembre, №4, p.3

[928] Parisdə olan Azərbaycan və Gürcüstan nümayəndələrinin birgə iclasının protokolu. 28.08.1919. //ARDA, f.970, s.1, i.142, v.230-231



downloaded from KitabYurdu.az

nümayəndələrinin Parisə buraxıldığını, habelə Bakıda, Batumda və Tiflisdə Fransa nümayəndələrinin olduğunu qeyd edirdi. Cavabının sonuncu bəndində Pişon göstərirdi ki, yolların dağıldığı, maliyyə sisteminin pozulduğu bir şəraitdə Fransa hökuməti Qafqaz hökumətləri ilə müqavilələr bağlamağa çətinlik çəkir, lakin bununla belə Fransa Azərbaycan və Gürcüstanla poçt-teleqraf əlaqələrini qurmaq üçün artıq qərarlar qəbul etmişdir. Hökumət bu ölkələrlə ticarət əlaqələrinin mümkün olan dərəcədə inkişaf etdirilməsinə tərəfdardır.[929]

Göründüyü kimi, Azərbaycan və Gürcüstan faktiki olaraq, mövcud olduğu halda Fransa hökuməti onları nə hüquqi, nə də faktiki cəhətdən tanımaq istəmirdi. Lakin bununla belə, Pişonun cavablarından aydın oldu ki, Fransa hökuməti Azərbaycanla ticarət, ümumiyyətlə, iqtisadi əlaqələr yaratmağa meyl göstərir. Bu da şübhəsiz ki, Azərbaycanın təhlükəsizliyi baxımından kifayət deyildi. "Franko-Qafqaz" komitəsinin ciddi cəhdlərinə baxmayaraq, Fransa hökumətinin Qafqaz mandatını götürmək fikri yox idi.[930] Əslində Azərbaycan hökuməti də öz növbəsində fransızların Qafqaza gəlməsinə müsbət münasibət bəsləmirdi. Çünki, Birinci dünya müharibəsindən sonra Fransa hökumətinin erməniləri müdafiə etmək cəhdləri Azərbaycan siyasi dairələrinə məlum idi. Fransa hökuməti açıq ermənipərəst siyasət yeritdiyi üçün sonralar Cənubi Qafqazda olan Britaniya Ali komissarı öz ölkəsinə məsləhət görürdü ki, Fransadan fərqli olaraq, əlahəzrət hökumətinin Azərbaycanı müdafiə etməsi məqsədəuyğundur[931]. Digər tərəfdən, Parisdən alınan məlumatlar göstərirdi ki, Qafqaz respublikalarının siyasi və hüquqi cəhətdən tanınmaması fransız hakim dairələrinin bu respublikalara mənfi münasibəti ilə bağlı idi. 1919-cu ilin yazında Avropa mətbuatı Cənubi Qafqaza Fransa və Yunanıstan qoşunlarının daxil olması ehtimalından yazdıqda Azərbaycan hökumətinin Tiflisdəki diplomatik nümayəndəsi bu məsələni aydınlaşdırmaq üçün aprel ayının 7-də general Tomsonun yanına getmişdi. Tomsonun qeyd edilən orduların Cənubi Qafqaza daxil olmasına Azərbaycanın münasibəti barədə sorğusuna cavab olaraq M.Y.Cəfərov bildirmişdi ki, bizə düşmən münasibət bəsləyən qüvvələrin, xüsusən yunanların Cənubi Qafqaza gəlməsi bizim üçün arzuolunmazdır.[932]

Qafqaza, o cümlədən Azərbaycana Böyük Britaniya və İtaliya mandatlığı məsələsi bir-biri ilə qarşılıqlı şəkildə əlaqədə idi. Daha doğrusu, italyanların Qafqaza meyli ingilislərin oradan çıxmaq arzuları ilə sıx bağlı idi. Əvvəllər qeyd olunduğu kimi, ingilislər hələ 1918-ci ilin noyabrında Bakıya daxil olduqda elan etmişdilər ki, onlar müvəqqəti olaraq, Qafqaza daxil olublar. Bu müvəqqəti müddət

---

929 Azərbaycan Respublikasının Paris Sülh konfransındakı nümayəndəliyinin başçısı Ə.M.Topçubaşovun Nazirlər Şurasının sədrinə məktubu. 22-25.09.1919. //ARDA, f.970, s.1, i.142, v.45

930 Bulletin d'Information de L'Azerbaidjan. Paris, 1919, 8 Septembre, №2, p.5

931 Documents on British Foreign Policy, 1919-1939, Vol.12, p.578-580

932 Azərbaycan Respublikasının Tiflisdəki diplomatik nümayəndəsi M.Y.Cəfərovun V.Tomsona məktubu. 07.04.1919. //ARDA, f.970, s.1, i.42, v.50



downloaded from KitabYurdu.az

beynəlxalq Sülh konfransının Qafqazda siyasi problemləri həll etməsinə qədər nəzərdə tutulurdu. Lakin ingilis qoşunları Bakıya daxil olduqdan üç ay sonra, 1919-cu ilin fevralında Lloyd Corc hökuməti qoşunları Cənubi Qafqazdan mümkün qədər tez çıxarmağı qərara aldı.[933] Lakin ingilislər Qafqazı tərk etməklə yanaşı, elə etmək istəyirdilər ki, nə amerikanlar, nə də fransızlar bu regionda birtərəfli qaydada möhkəmlənməsinlər. Çünki 1919-cu ilin fevral-mart aylarında ABŞ-ın və Fransanın Paris Sülh konfransındakı siyasi dairələrinin çıxışları açıq-aydın bu ölkələrin Qafqaza marağını əks etdirirdi. Belə meylləri hiss etdikdə italyanların Qafqaza cəlb edilməsi ideyası ilk dəfə ingilislər tərəfindən irəli sürülmüşdü. Doğrudan da, İtaliyanın Qafqazda ingilisləri əvəz etməsi Yaxın Şərqdə mövcud olan qüvvələr nisbətini pozmurdu. Digər tərəfdən, bununla İtaliyanın Sülh konfransından narazılığı da bir qədər aradan qaldırılmış olurdu. İlk dövrlərdə ingilislərlə italyanlar arasında Qafqaz barəsində gizli aparılan danışıqlar Vittorio Orlando hökumətinin Qafqaza həm siyasi, həm də iqtisadi marağının olduğunu üzə çıxarmışdı. Digər Avropa rəhbərləri kimi, Orlando da erməniпərəst bir siyasi xadim idi. Hətta o, dünya müharibəsi başa çatdıqda, noyabr ayının 18-dəki çıxışında digər Avropa rəhbərlərindən geri qalmayaraq, Ermənistanın müstəqilliyini müdafiə edəcəyini bildirərək demişdi: "Ermənilərə çatdırın ki, mən onların işini öz işim hesab edirəm"[934].

Cənubi Qafqaz məsələsinə dair ingilislərlə italyanlar arasında aparılan danışıqlar mart ayının 24-də onların Baş qərargahları arasında ilkin sazişin imzalanması ilə nəticələndi. Gizli sazişin şərtlərinə görə, Cənubi Qafqazdakı ingilis ordusunun mövqeləri İtaliya ordusuna təslim edilməli idi. İtalyanlar Batum limanı vasitəsilə Qafqaza yetərli sayda ordu çıxarmalı idilər. Ermənistanın Şərqi Anadolu və Kilikiya torpaqları hesabına Aralıq dənizinə çıxmaq iddiaları, əslində həmin dənizi "İtaliya gölünə" çevirmək istəyən Orlando hökumətinin regionda mövqelərinin möhkəmlənməsinə xidmət etməli idi.[935]

Lakin ilk dövrlərdə Britaniya siyasi dairələri bu məsələdə yekdil deyildilər. Qafqazın bilicisi hesab edilən lord Kerzon xarici işlər naziri Balfura 25 mart tarixli məktubunda göstərirdi ki, Cənubi Qafqaza ordu çıxarmaq İtaliyanın "milli maraqlarına" uyğun deyildir, onlar Qafqaza doğru irəliləyən bolşevizmə qarşı davam gətirə bilməyəcəklər. O, haqlı olaraq yazırdı ki, italyanların Qafqaz xalqları arasında heç bir siyasi nüfuzu yoxdur, biz oradan çıxdıqdan sonra hadisələrlə üz-üzə dayandıqda onlar ağırlaşması ehtimal olunan vəziyyətdən çıxa bilməyəcəklər.[936] Lakin lord Kerzonun təklifi nəzərə alınmadı, aprel ayının 9-da İngiltərənin hərbi şurası martın 24-də gizli şəkildə imzalanmış Britaniya-İtaliya

---

[933] T.Swietochowski. Russian Azerbaijan. p.156
[934] R.Hovannisian. The Republic of Armenia, p.272
[935] R.Hovannisian. The Republic of Armenia, p.306
[936] Г.Никольсон. Как делился мир в 1919 году. М., 1945, с.268



downloaded from KitabYurdu.az

sazişini bəyəndi.[937] May ayının 10-da isə Britaniya komandanlığı İngiltərə hərbi şurasının Cənubi Qafqazdan orduları çıxarmaq qərarı barədə Azərbaycan və Gürcüstan hökumətlərinə məlumat verdi.[938] Bu qərar doğura biləcək siyasi nəticələrinə görə, hətta müttəfiq qoşunlarının Bakıda olan komandanı general V.Tomson üçün belə gözlənilməz idi. General Tomsonun 1915-ci ildə İngiltərədən çıxmasına, I Dünya müharibəsinin müxtəlif cəbhələrində xidmət etməsinə və vətənə dönmək istəyinin üstün olmasına baxmayaraq o, yerli vəziyyətlə yaxından tanış olan bir hərbçi kimi İngiltərə qoşunlarının Qafqazdan və xüsusilə, Azərbaycandan çıxarılmasının əleyhinə idi. V.Tomson deyirdi ki, "britaniyalıların Cənubi Qafqazdan çıxarılması zorakılıq aktıdır, yeni yaranmış respublikalara münasibətdə xəyanətdir."[939] Bununla belə, general Tomson öz hökumətinin qərarını qeyd edildiyi kimi, may ayının 10-da Azərbaycan hökumətinə çatdırdı və eyni zamanda həmin məlumatda xatırlatdı ki, Azərbaycanı tərk edən ingilis ordusu İtaliya ordusu ilə əvəz ediləcəkdir.[940] Paris Sülh konfransı adından general Tomson Azərbaycan hökumətinə göndərdiyi teleqramda yazırdı: "Sizə bildirməliyəm ki, Britaniya qoşunlarını İtaliya hərbi hissələri əvəz edəcəkdir. İtaliya zabitlərindən ibarət olan hərbi heyət artıq Gürcüstana gəlmişdir... Cənubi Qafqazda bu əvəzlənmə yalnız hərbi xarakter daşıyır və məsələnin siyasi həlli demək deyildir. Bu addım Sülh konfransının son qərarını özündə ehtiva etmir və konfransın Cənubi Qafqaz dövlətləri haqqında qərarı hələ qarşıdadır." General Tomson Azərbaycan Xarici İşlər Nazirliyinə bildirirdi ki, bu dəyişiklik sırf hərbi məzmuna malikdir və işğal cəhdlərindən ehtiyat etməyə heç bir əsas yoxdur. Eyni zamanda o, özünün də Qafqazdan İngiltərəyə gedəcəyini, onun general-mayor Kori ilə əvəz olunacağını bildirirdi.[941] Həm Azərbaycan, həm Gürcüstan hökuməti ingilislərin bu respublikaların ərazisindən çıxmasına və onların italyanlarla əvəz edilməsinə ilk dövrlərdə etiraz edirdilər.

General Tomsondan teleqram alındıqdan sonra Azərbaycanın xarici işlər naziri M.Y.Cəfərov Tiflisə gedərək müttəfiq qüvvələrin komandanı ilə görüşdü. Söhbət zamanı M.Y.Cəfərov ingilis qoşunlarının italyan qoşunları ilə əvəz olunmasının arzuolunmaz olduğunu bildirib, bunun gözlənilməz nəticələr verə biləcəyini qeyd etdi. Lakin general Tomson bu qərarın Paris Sülh konfransı tərəfindən verildiyinə istinad edərək, onun dəyişilməsinin qeyri-mümkün olduğunu vurğuladı. Belə vəziyyətdə gündən-günə kəskinləşən Şimal təhlükəsi Azərbaycan hökumətini İtaliya ilə dil tapmağa və ondan sipər kimi istifadə etməyə cəhd

---

937 Document on British Foreign policy 1919-1939, Vol.III, p.229
938 ARDA, f.970, s.1.i.36, v.43
939 T.Swietochowski. Russian Azerbaijan. p.156
940 General V.Tomsonun Azərbaycan Nazirlər Şurasının sədri N.Usubbəyova teleqramı. 10.05.1919. //ARDA, f.970, s.l, i.54, v.11
941 Azərbaycanın Tiflisdəki diplomatik nümayəndəsinin Xarici İşlər Nazirliyinə məlumatı. May, 1919. //ARDA, f.897, s.1, i.38, v.49



downloaded from KitabYurdu.az

göstərmək məcburiyyətində qoydu."[942] Lakin bununla belə britaniyalıların Qafqazı tərk etməsi ilə Azərbaycan Respublikası üçün öz tarixində tam müstəqillik mərhələsi başlandı.[943] 1919-cu ilin may ayının 10-da İtaliyanın bir hərbi korpusu artıq Batuma daxil olmuşdu. May ayının 16-da isə prins Savoyskinin rəhbərlik etdiyi fövqəladə İtaliya missiyası, ondan az sonra isə mayın 22-də polkovnik Melxior Qabbanın başçılığı ilə hərbi ekspertlər qrupu Bakıya gəldi. İtaliya missiyalarının başçıları Azərbaycan hökumətinin baş naziri, xarici işlər naziri və iqtisadi məsələlərlə bağlı bir sıra nazirlikləri ilə danışıqlar apardılar. İlkin danışıqlar zamanı iki mühüm məsələ aydın oldu. Birincisi, Azərbaycan hökuməti ingilislər Qafqazdan çıxacağı təqdirdə, italyanların onu xarici təhlükədən, ən başlıcası isə Denikin təhlükəsindən qorumaq arzusunda olduğunu bildirdi. Bununla bağlı polkovnik Qabba müdafiə qabiliyyətinin möhkəmləndirilməsi istiqamətində Azərbaycan hökumətinə yardım göstəriləcəyini vəd etdi. Bu vədi gerçəkləşdirmək üçün İtaliya missiyası ilk növbədə təhlükəsizlik məsələləri ilə bağlı Azərbaycanın ehtiyaclarını öyrənməyə başladı. Kapitan Oldani Azərbaycana gələcək İtaliya hərbi hissələrinə müvafiq kazarmalar hazırlamaq üçün Şuşa və Şəkiyə səfər etdi. Azərbaycan ordusunun silah və hərbi sursata olan ehtiyacları İtaliya hərbi mütəxəssisləri tərəfindən araşdırılmağa başlandı. Lakin ingilis generalı Briksin dediyi kimi, Cənubi Qafqazın heç bir yerində italyanların gəlişi əhəmiyyətli hadisə hesab edilmirdi. Başqa bir məlumatda isə göstərilir ki, italyanlar regiona nəzarət etmək iqtidarında deyildilər, onların bu missiyanı yerinə yetirmək üçün yetərli dərəcədə siyasi nüfuzu, kifayət qədər maliyyə ehtiyatları və bu prosesdə zəruri sayılan tarixi təcrübəsi yox idi.[944] İkincisi, Cənubi Qafqaz hökumətlərinin arzularından asılı olmayaraq, İtaliyanın Qafqaza marağı bu respublikaları müdafiə etməkdən daha çox özünün iqtisadi ehtiyaclarını ödəmək zərurətindən irəli gəlirdi. F.Kazımzadənin yazdığı kimi, İtaliya "yeganə olaraq ona çalışırdı ki, tez və asan yolla qazanc götürsün."[945] Əslində müharibə başa çatdıqdan sonrakı illərdə "xammal axtarışı" İtaliya xarici işlər nazirliyinin başlıca vəzifələrindən biri idi. Hətta, italyanlar belə bir mülahizə irəli sürmüşdülər ki, xammalın beynəlxalq bölgüsü Millətlər Cəmiyyətinin əsas vəzifəsi olmalıdır.[946] Bu mülahizənin müqavimətlə qarşılanması İtaliyanın Azərbaycan neftinə və Gürcüstan kömürünə olan marağını daha da artırmışdı. Pambıq, ipək, yun və digər məhsullar da İtaliya maraq dairəsindən kənarda qalmamışdı. Siyasi missiya Qafqaza gəlməmişdən əvvəl İtaliyanın müxtəlif ticarət və sənaye dairələrinin nümayəndələri burada özləri üçün xammal axtarışına çıxmışdılar. 1919-cu ilin aprelində Milanda yerləşən "Mişo və Miossi Ticarət Evinin" "Per-il-Marnero" rus-italiya cəmiyyətinin

[942] N.Nəsibzadə. Azərbaycanın xarici siyasəti, s.80
[943] T.Swietochowski. Russian Azerbaijan, p.81
[944] T.Swietochowski. Russian Azerbaijan. p. 157
[945] F.Kazemzadeh. The Struggle for Transcaucasia. p.221
[946] З.Авалов. Независимость Грузии в международной политике, с.221



downloaded from KitabYurdu.az

ipəkçilik üzrə eksperti Vittario Renmuvar öz firmaları üçün Şəkidən xeyli xam ipək almışdı.[947] Azərbaycanla tanış olduqdan sonra polkovnik M.Qabba onun iqtisadi ehtiyatlarından o dərəcədə heyrətlənmişdi ki, o, İtaliya fəhlələrinin Azərbaycana mühacirət edib, işləmələrinin mümkünlüyü məsələlərini Bakıda bir sıra nazirliklərlə danışıqlarda müzakirə etmişdi.[948]

Qafqaza İtaliya ordusu göndərmək məsələsini müzakirə etmək üçün polkovnik Qabba iyun ayının əvvəllərində Romaya çağırıldı. İtaliya hökuməti Qabbanın Azərbaycan və Gürcüstan barədə məlumatını dinləyib, ora ordu göndərilməsinə tərəfdar olduğunu bildirdi. Az sonra, iyun ayının 28-də Böyük Britaniya hökuməti rəsmi şəkildə ingilis ordusunun Qafqazdan və ümumilikdə, keçmiş Rusiya ərazisindən çıxarılması barədə Paris Sülh konfransına məlumat verdi.[949] Belə olduqda müttəfiqlər Qafqazdan çıxan ingilis ordusunu İtaliya ordusu ilə əvəz etmək haqqında rəsmi qərar qəbul etdilər. Cənubi Qafqazın İtaliya mandatlığına verilməsi haqqında vəsadət qaldırıldı. Qafqaza göndərilmiş İtaliya missiyaları oradan əlverişli cavablarla qayıtdığı üçün Orlando hökuməti müttəfiqlərin bu qərarına həvəslə razı oldu. Qafqaza İtaliya ordusu göndərilməsi məsələsinə Azərbaycan və Gürcüstan respublikalarının Versalda olan nümayəndələrinin münasibətini öyrənmək məqsədi ilə italyanlar onlarla əlaqə yaratdılar. İyun ayının 13-də polkovnik Qabbanın hərbi hissəsinin keçmiş nümayəndəsi Valeri Ə.M.Topçubaşovla görüşdü. O bildirdi ki, İtaliya hökuməti Qafqaza ordu göndərilməsinin tərəfdarıdır. Danışıqlar zamanı Valeri qeyd etdi: "Biz əgər sizə ordu göndərməli olsaq, bu işğal və polis məqsədləri daşımayacaq, yalnız mədəni və iqtisadi məramlara xidmət edəcək. Amma iş orasındadır ki, biz indi belə ağır vəzifəni çiynimizə götürə bilmərik və mən bura sizin bu məsələyə münasibətinizi öyrənməyə gəlmişəm."[950] Söhbət zamanı aydın oldu ki, italyanlar Qafqaza daxil olmaq üçün bu respublikaların ya dəvətini, ya da razılığını almaq arzusundadırlar. Belə bir arzu İtaliya hökumətinin italyan xalqı və parlamenti qarşısında özünə bəraət qazandırması zərurətindən irəli gəlirdi. Lakin vəziyyət qeyri-müəyyən olduğu üçün, bu görüş keçirilən zaman ingilislər isə hələlik Qafqazdan çıxacaqlarını Sülh konfransına rəsmi şəkildə bildirmədikləri üçün Ə.M.Topçubaşov İtaliya nümayəndəsinə aydın cavab vermədi.

İyun ayının 15-də Azərbaycan nümayəndəliyinin iqamətgahında gürcü və dağlı nümayəndələri ilə birlikdə keçirilən iclasda qərara alındı ki, ingilislərin Qafqazdan çıxması və onların italyanlarla əvəz edilməsi məsələsi ətraflı öyrənilsin. Amerikalılara verilən sorğudan aydın oldu ki, bu məsələ hələlik Versal hərbi

---

[947] ARDA,f.970, s.1, i.13, v.13

[948] Борьба за победу социалистической революции в Азербайджане. Документы и материалы. Б., 1967, с.321-322

[949] Б.Е.Штейн. "Русский вопрос" на парижской мирной конференции, с.332

[950] Azərbaycan Respublikasının Paris Sülh konfransındakı nümayəndə heyətinin başçısı Ə.M.Topçubaşovun Nazirlər Şurasının sədrinə məktubu. 08.09.07.1919. //ARDA, f.970, s.l, i.142, v.17



downloaded from KitabYurdu.az

şurasında müzakirə edilməmişdir.[951] İyun ayının axırlarında Ə.M.Topçubaşov və İ.Q.Sereteli İngiltərə nümayəndə heyətinin rəhbərlərindən biri L.Malletlə görüşdülər. O, ingilislərin Qafqazdan çıxmaq haqqında qərarını təsdiq edərək bildirdi ki, Qafqazda olan ordu indi onlara başqa yerdə lazımdır. İtalyanların Qafqaza gəlişi ilə bağlı ingilis nümayəndəsi dedi: "İtalyanların gəlişi heç bir halda vəziyyəti dəyişmir, ingilislərin başladığı işi bundan sonra italyanlar davam etdirəcəklər."[952] Denikin təhlükəsi ilə bağlı Əli Mərdan bəyin sualına cavab olaraq Mallet bildirdi ki, "Denikin nə Azərbaycana, nə də Gürcüstana doğru gəlməyəcək, çünki Könüllü ordunun komandanlığı bu günlərdə Qafqaza yola düşən ingilis müvəkkili Uordrop tərəfindən belə bir tapşırıq almışdır."[953] Bu məsələlər barədə Azərbaycan nümayəndələri keçmiş Rusiyanın işləri ilə məşğul olan, Böyük Britaniya nümayəndə heyətinin məsləhətçisi, professor Simpsonla da ətraflı söhbət etdilər.

Yuxarıda qeyd olunduğu kimi, İngiltərə Qafqazdan çıxmaq haqqında qərarını iyun ayının 28-də Sülh konfransına təqdim etdi. Bu məlumatı aldıqdan sonra Azərbaycan, gürcü və dağlı nümayəndələri italyanlarla yaxınlaşmağı mümkün hesab edirdilər. Lakin çətinlik onda idi ki, İtaliyada hökumət kabinəsi dəyişmişdi və əvvəllər Qafqaza həvəs göstərən, ora ordu göndərməyə razılıq verən Orlando hökuməti istefa vermişdi. Romada yeni yaradılmış Françesko Nitti hökuməti ilk addım kimi Qafqaza ordu göndərilməsi məsələsini müvəqqəti olaraq dayandırdı. İyun ayının 28-də Ə.M.Topçubaşovla yeni görüşündə İtaliya nümayəndəsi Valeri Nitti hökumətinin Qafqaz məsələsində tərəddüd etdiyini təsdiq etdi.[954] Lakin bununla belə o, İtaliyanın Qafqazda güclü iqtisadi marağının olduğunu göstərdi.

İyul ayının 7-də Azərbaycan, gürcü və dağlı nümayəndələri İtaliyanın Parisdəki hərbi attaşesi Sadino ilə görüşdülər. Fikir mübadiləsi zamanı Sadino öz hökumətinin Qafqazdakı niyyətlərini belə izah etdi: 1. İtaliya Qafqazda siyasi deyil, yalnız iqtisadi məqsədlər güdür; 2. Qafqazın idarə olunmasına dair Millətlər Cəmiyyətinin mandatını İtaliya həmin ölkələrin razılığı ilə almaq istəyir; 3. İtaliya Qafqazda üç-beş ildən artıq qalmayacaq; 4. Bu müddət ərzində Qafqaz respublikaları konfederasiyası yaradılacaq, bu konfederasiya gücləndiriləcək, Qafqaz xalqları özləri öz talelərini həll edəcəklər. Əgər bu müddət ərzində Rusiya Federativ Respublikası yaradılarsa, ola bilsin ki, Qafqaz Konfederasiyası Rusiya Federasiyasının tərkibinə daxil olsun, bu halda İtaliya Qafqazdan gedəcəkdir; 5.

---

[951] Paris Sülh konfransındakı Azərbaycan, Gürcüstan və Dağlılar Respublikası nümayəndələrinin birgə iclasının protokolu. 15.06.1919. //ARDA, f.970, s.l, i.142, v.181-184
[952] А.М.Топчибашев. Письма из Парижа, с.46
[953] Bulletin d'Information de L'Azerbaidjan. Paris, 1919, 13 Octobre, №3, p.7; Azərbaycan Respublikasının Paris Sülh konfransında nümayəndəliyinin başçısı Ə.M.Topçubaşovun Nazirlər Şurasının sədrinə məktubu. 22-25.09.1919. //ARDA, f.970, s.l, i.142, v.19
[954] ARDA, f.894, s.10, i.94, v.8



downloaded from KitabYurdu.az

İtaliya nə Denikinlə, nə də başqa birisi ilə vuruşmayacaqdır; 6. Qafqazın öz ordusu ola bilər və İtaliya da öz tərəfindən buna kömək edəcəkdir.[955]

Avqust ayının 5-də və 6-da Azərbaycan, gürcü və dağlı nümayəndələrinin birgə iclasında oriyentasiya məsələsi ətraflı müzakirə edildi. Yaranmış çətinlik İtaliyanın Qafqaza ordu göndərməsindən imtina etməsi ilə bağlı idi. İyul ayının axırlarında İtaliya missiyasının üzvü kapitan Oldaninin Gəncə, Şuşa, Şəki və digər yerlərdə İtaliya ordusu üçün kazarmalar hazırladığı, tərkibində iki piyada diviziyası olan İtaliya 12-ci hərbi korpusunun Qafqaza yola düşdüyü bir vaxtda, Cənubi Qafqazda olan İtaliya missiyasının rəhbəri Marlis Mişel iyul ayının 31-də İtaliya Xarici İşlər Nazirliyindən aldığı məlumatı Azərbaycan Xarici İşlər Nazirliyinə çatdırdı. Orada aydın şəkildə göstərilirdi ki, Britaniya qoşunlarını əvəz etmək üçün Cənubi Qafqaza İtaliya ordusu göndərilməyəcəkdir. Bununla belə, İtaliya kral hökuməti Azərbaycan hökumətinin razılığı ilə kommersiya, maliyyə, sənaye və digər sahələrdə Azərbaycan Respublikası ilə əməkdaşlıq etmək arzusunda olduğunu bildirirdi. İtaliya Xarici İşlər Nazirliyi vəd edirdi ki, Azərbaycanı maraqlandıran məsələlərlə bağlı, xüsusilə onun mənafeyi ilə bağlı Paris Sülh konfransında yaxın vaxtlarda başlanacaq müzakirələrdə yaxından iştirak edəcəkdir.[956] Bu məzmunda bir teleqramı Zaqafqaziyadakı İtaliya missiyasının başçısı polkovnik Qabba da xarici işlər naziri M.Y.Cəfərova göndərmişdi.

Bu məsələlər müzakirə edilən zaman Azərbaycan Xarici İşlər Nazirliyi tərəfindən Parisə ezam edilən müttəfiq komandanlığı yanında xüsusi nümayəndə Ə.Tahirov yolüstü Romada dayandı və İtaliya Xarici İşlər Nazirliyinin nümayəndələri ilə bir sıra görüşlər keçirdi. İtaliya Xarici İşlər Nazirliyinin rəsmisi Mayoni ilə görüşdə Ə.Tahirov Azərbaycana ordu göndərilib-göndərilməyəcəyini soruşduqda Mayoni ona bir neçə kağız göstərərək bildirdi ki, Parisdə olan İtaliya nümayəndələri ilə görüşdə Ə.M.Topçubaşov Azərbaycana İtaliya ordusunun göndərilməsinin arzuolunmazlığını bəyan edib. Ə.M.Topçubaşov öz bəyanatında əhalinin bu addımdan narazı qalacağını vurğuladığından Mayoni bilmək istəyirdi ki, belə münasibət Ə.M.Topçubaşovun şəxsi fikridir, yoxsa, doğrudan da, əhali və hökumət Azərbaycana İtaliya ordusu göndərilməsinin əleyhinədir. Əslində İtaliya tərəfi Qafqaza ordu göndərməməyə qərar verdiyindən, Ə.M.Topçubaşovun ilk müzakirələr zamanı hələ ingilis ordusu Azərbaycanda olarkən İtaliya ordusunun ora göndərilməsinə ehtiyac olmadığı haqqında söylədiyi fikrinə istinad edirdi. Bu fikir, həm Azərbaycan, həm Gürcüstan nümayəndələri tərəfindən irəli sürüləndə İngiltərə ordusunun Qafqazı tərk etməsi barədə rəsmi açıqlama hələ elan edilməmişdi. Lakin Britaniya hökumətinin Qafqazı tərk etmək barədə Sülh konfransına rəsmi müraciətindən sonra Cənubi Qafqaz respublikaları ətrafında

---

[955] Azərbaycan Respublikasının Paris Sülh konfransında nümayəndəliyinin başçısı Ə.M.Topçubaşovun Nazirlər Şurasının sədrinə məktubu. 22-25.09.1919. //ARDA, f.970, s.l, i.142, v.21-22

[956] İtaliya missiyasının başçısı M.Mişelin Azərbaycan Xarici İşlər Nazirliyinə məlumatı. 31.07.1919. //ARDA. f.894, s.10, i.86, v.17



downloaded from KitabYurdu.az

siyasi şərait əsaslı dərəcədə dəyişmişdi. Ona görə də Ə.Tahirov Mayoniyə bildirdi ki, siz əhali və xalqın İtaliyaya münasibətini, polkovnik Qabba başda olmaqla, Azərbaycana göndərdiyiniz missiyaya göstərilən münasibət əsasında mühakimə yürüdə bilərsiniz. Bu missiyanın şərəfinə Azərbaycan hökumətinin təntənəli qəbul mərasimi keçirdiyini açıqlayan Ə.Tahirov əlavə etdi ki, hökumət və əhali sizin ordunuzu Azərbaycanda görməkdən şad olardı. İtaliya xarici işlər naziri vəzifəsini icra edən qraf Sforsla görüş zamanı da bu məsələlər ətraflı müzakirə edildi. İtaliya hökumətinin məlum qərarından sonra vəziyyət dəyişdiyindən Sidney Sonninodan sonra xarici işlər naziri vəzifəsini icra edən qraf Sfors tərəfindən məsələ bir qədər fərqli formada qoyulurdu. Ona görə qraf Sfors soruşdu ki, əgər italyanlar Azərbaycana ordu göndərməsələr, yalnız təlimatçılar və bütün sahələri bilən hərbi mütəxəssislər göndərsələr, əhali və hökumət buna necə münasibət bəsləyər. Ə.Tahirov cavabında bildirdi ki, İtaliya ordusunun və Azərbaycan ordusu üçün hərbi sursatın göndərilməsi daha çox arzuolunandır. Bu halda qraf Sfors Azərbaycan ordusunun ilk növbədə ehtiyacı olduğu hərbi sursat haqqında yazılı müraciət hazırlamağı təklif etdi və bu müraciəti İtaliya tərəfinin müzakirə edəcəyini bildirdi. Bu təklifə uyğun olaraq, Ə.Tahirov Azərbaycan ordusunun aeroplan, hidroplan, artilleriya qurğuları və digər silahlara, partladıcı maddələrə, zirehli, yük və sərnişin avtomobillərinə, habelə bu texniki vasitələrdən istifadəni öyrədən təlimatçılara ehtiyacı olduğunu İtaliya Xarici İşlər Nazirliyinə yazılı şəkildə təqdim etdi. Nəhayət, Azərbaycan nümayəndəsi ilə üçüncü görüşdə İtaliya rəsmisi Mayoni öz hökuməti adından Qafqaza ordu göndərməyin mümkün olmayacağını, lakin Azərbaycan ordusu üçün zəruri olan bütün hərbi sursatın göndəriləcəyini açıqladı. Eyni zamanda, Mayoni Azərbaycanın təhlükəsizliyinin İtaliya tərəfindən müdafiə olunacağını da vurğuladı. Mayoni Ə.Tahirova məsləhət gördü ki, Bakıya dönüb istədikləri hərbi sursatı almaq üçün öz hökumətindən yazılı vəkalət gətirsin, habelə bu barədə Qafqazdakı İtaliya missiyasına məlumat versin və qeyd edilən hərbi ləvazimatı qəbul etmək üçün Azərbaycan hökuməti Romaya hərbi mütəxəssislər ezam etsin.[957]

Bu razılaşmalara uyğun olaraq, az sonra Azərbaycan hökuməti silah və hərbi sursat almaq üçün general İbrahim ağa Usubov başda olmaqla, Romaya bir heyət göndərmək arzusunu İtaliya tərəfinə bildirdi. Cənubi Qafqazdakı İtaliya missiyasının başçısı M.Qabba Azərbaycan xarici işlər naziri M.Y.Cəfərova göndərdiyi 6 sentyabr 1919-cu il tarixli məktubda kral hökumətinin bu heyətin İtaliyaya getməsinə razılıq verdiyini yazırdı. O, təklif edirdi ki, İtaliyaya ezam olunacaq şəxslərin sənədləri viza alınması üçün Tiflisdəki İtaliya konsulluğuna göndərilsin.[958] Müvafiq sənədləşmədən sonra 1919-cu ilin noyabr-dekabr aylarında

[957] Müttəfiq komandanlığı yanında Azərbaycanın nümayəndəsi Ə.Tahirovun İstanbul və Romaya səfəri barədə Nazirlər Şurasının sədri N.Usubbəyova yazılı məlumatı. 06.08.1919. //ARPİİ SPİHDA, f.277, s.2, i.22, v. 103-105

[958] Э.Э.Исмаилов. Георгиевские кавалеры-азербайджанцы. Москва, 2005, с.201



downloaded from KitabYurdu.az

İ.Usubov başda olmaqla Azərbaycan hərbi heyəti Romaya ezam olundu. 14 oktyabr tarixində M.Y.Cəfərova göndərdiyi digər bir məktubda isə polkovnik Qabba İtaliya ilə Qafqaz arasında kommersiya xarakterli dəniz yolunun açıqlığını bildirirdi. O, məlumat verirdi ki, Triest limanından çıxan İtaliya gəmisi ayda iki dəfə, cümə axşamı və cümə günləri Batum və Poti limanlarında olacaqdır.[959] Azərbaycan xarici işlər naziri M.Y.Cəfərova göndərdiyi digər bir məktubda polkovnik Qabba italyanların Cənubi Qafqaza köçürülməsinin mümkünlüyünü öyrənmək üçün İtaliya hökumətinin Qafqaza ezam etdiyi doktor Feliks Kalimaninin Azərbaycanda əmək ehtiyatlarının vəziyyətini araşdırmaq üçün Bakıya gələcəyini bildirirdi. O xahiş edirdi ki, bu məsələdə doktor Kalimaniyə köməklik göstərilsin, onun hökumət üzvləri ilə görüşləri təşkil edilsin və ölkənin iqtisadi həyatı ilə bağlı lazımi statistik məlumatlarla təchiz edilsin.[960] Lakin bütün bunlar bir qədər sonrakı hadisələr idi.

1919-cu ilin yayında İtaliya hökumətinin qəflətən Qafqaza ordu göndərməsini təxirə salması Şimal təhlükəsi ilə üz-üzə dayanan yeni respublikalar üçün böyük çətinliklər yaratdı. Avqust ayının 1-də İtaliya Xarici İşlər Nazirliyi Romada olan İngiltərə səfirliyinə məlumat verdi ki, F.Nitti hökuməti Qafqaza ordu göndərməyəcəkdir. İtaliya hökumətinin avqust ayının 5-də elan edilən rəsmi bəyanatı da bu fikri təsdiq etdi. İngilislərin Qafqazı tərk etmələri barədə məlumat verildikdən sonra F.Nittinin belə qərar qəbul etməsi Azərbaycanı və Gürcüstanı çətin vəziyyətə salırdı. Digər tərəfdən, bu dövrdə İtaliyanın sosial-siyasi və iqtisadi vəziyyətinin təhlili belə bir fikir söyləməyə əsas verir ki, Qafqaza hərbi ekspedisiya göndərilməsi İtaliyanın özü üçün ciddi problemlər yarada bilərdi. Özündən əvvəlki hökumət başçısı Orlandoya nisbətən, daha real düşünən Françesko Nitti bunu hiss etmişdi. O qeyd edirdi ki, dünya müharibəsi başa çatdıqdan sonra İtaliya dövlət başçıları iki ağılsız qərar qəbul etmişlər: birincisi, İzmiri tutmaq, ikincisi isə Gürcüstana hərbi ekspedisiya göndərmək. Onun fikrincə, bu addımlar İtaliyanı bir tərəfdən Türkiyə, digər tərəfdən Rusiya ilə müharibəyə aparıb çıxara bilərdi. Bu isə İtaliyanın iqtisadi cəhətdən məhvi demək idi. O, sonralar yazırdı: "İtaliyanın baş naziri kimi, mən şəxsən 1919-cu ilin yayında Gürcüstana (Cənubi Qafqaza ordu göndərmək nəzərdə tutulur - C.H.) hərbi ekspedisiya göndərməyi qadağan etdim".[961] Orlandodan fərqli olaraq Nitti "Böyük Ermənistan" yaradılması çağırışlarını, xüsusilə, Türkiyənin parçalanması ideyasını Antanta dövlətlərinin avantürası hesab edirdi. O vurğulayırdı ki, sözdə hamı prezident Vilsonun "Böyük Ermənistan" layihəsinə tərəfdardır. Lakin nə İngiltərə, nə Fransa, nə də İtaliya böyük bir ordunun yerinə yetirməli olacağı bu işin ağırlığını öz üzərinə götürmək istəmir, ABŞ Senatı isə bu məsələdə Vilsonun arzularının əleyhinə hərəkət edir. Bütün bunları xatırlatdıqdan sonra F.Nitti yazırdı: "Heç olmasa kiçik Ermənistan

[959] Азербайджанская Демократическая Республика. Внешняя политика, с.375
[960] Yenə orada, s.418
[961] Ф.Нитти. Вырождение Европы, с. 105



downloaded from KitabYurdu.az

mövcud olması naminə "Böyük Ermənistan" haqqında əfsanələr uydurmaq lazım deyildir."[962] Antanta dövlətlərinin Türkiyəyə ədalətsiz münasibəti ilə bağlı Nitti bildirirdi ki, böyük dövlətlərə nə vaxt lazımsa, həmin vaxt onlar türklərin öz qonşularına münasibətdə "vəhşi obrazını" yarada bilirlər. Halbuki onun fikrincə, "türklər təbiət etibarilə qəddar və zülmkar deyildilər. Lakin onlar çox hiyləgər və məkrli qonşularla - bir qayda olaraq əkinçilik və sənaye ilə deyil, əsasən, iri və xırda ticarətlə məşğul olan, ticarət və sələmçilik hesabına yaşayan yunanlar, ermənilər və yəhudilərlə əhatə olunmuşlar".[963]

Nitti hökumətinin avqustun 5-də Qafqaza ordu göndərməkdən imtina etməsi oriyentasiya məsələsini yenidən kəskin şəkildə meydana çıxardı. Avqust ayının 6-da Azərbaycan, Gürcüstan və Dağlılar respublikaları nümayəndələrinin birgə iclasında oriyentasiya məsələsi geniş şəkildə müzakirə edildi. İclasa sədrlik edən Ə.M.Topçubaşov qeyd etdi ki, indiki vaxtda bizim dövlətlərimizin müstəqil olmaları hər birimizin ən böyük arzusu olmasına baxmayaraq, müəyyən bir dövrdə yaxın vaxtlar üçün kənardan siyasi kömək və hərbi yardım almadan keçinə bilmərik. O, Qafqaz respublikaları ətrafında yaranmış şəraiti təhlil edərək, dedi: "Bir halda ki, vəziyyət belədir, onda sağımıza və solumuza baxıb, özümüzə kömək axtarmalıyıq". Müzakirələrin gedişində vəziyyətdən çıxış yolu kimi bir sıra təkliflər irəli sürüldü. Ayrı-ayrı nümayəndələrin çıxışlarında göstərildi ki, Azərbaycan və Gürcüstanın Paris Sülh konfransındakı təmsilçiləri Millətlər Cəmiyyətinə müraciət etsinlər və Qafqaz mandatını qəbul edən ölkə Millətlər Cəmiyyəti tərəfindən müəyyən edilsin. Sonra M.H.Hacınski belə bir təklif irəli sürdü ki, ehtimal edilən dövlətlər içərisindən öz gücü və imkanlarına görə, yalnız, Böyük Britaniya bu missiyanı yerinə yetirə bilər və ona görə də Azərbaycanın mandatının götürülməsi İngiltərədən xahiş edilsin. O, iclasdakı çıxışında əsaslandırmağa çalışdı ki, İngiltərədən başqa Qafqaz respublikalarının, o cümlədən, Azərbaycanın heç bir oriyentasiyası olmamalıdır.[964] Çıxış edən Gürcüstan nümayəndələri də bu təklifə tərəfdar çıxdılar. Lakin böyük dövlətlərin regionda maraqlarının toqquşmasını nəzərə alaraq, iclasda qeyd edildi ki, bu xahiş İngiltərədən elə incə formada edilməlidir ki, digər dövlətlər narazı qalmasınlar. Ona görə, müzakirələrin gedişində belə bir razılıq əldə edildi ki, bu məsələ ilə bağlı ilk növbədə, İngiltərə siyasi dairələrinin fikri öyrənilsin, sonra isə Millətlər Cəmiyyətinə müraciət edilsin. Millətlər Cəmiyyətində Böyük Britaniyanın üstün rol oynayacağına əsaslanıb, bu məsələnin mümkün olacağına ümid bəsləmək olardı. Lakin bu ümidlər doğrulmadı. Hətta Azərbaycan hökumətinin qərarı ilə xarici işlər naziri M.Y.Cəfərov Britaniya ordusunun ölkədə müəyyən şərtlər daxilində saxlanması haqqında avqustun 4-də general D.Şatelvorta müraciət etsə

---

[962] Yenə orada, s.109
[963] Yenə orada, s.109
[964] Parisdə olan Azərbaycan, Gürcüstan və Dağlılar Respublikası nümayəndələrinin birgə iclasının protokolu. 06.08.1919. //ARDA, f.970, s.l, i.142, v.205-212



downloaded from KitabYurdu.az

də, ingilis ordusunu Bakıda saxlamaq mümkün olmadı. M.Y.Cəfərov yazırdı: "Hökumətimizin əlində olan rəsmi məlumata görə, avqust ayının ortalarında Britaniya ordusu Azərbaycanı tərk edəcəkdir. Bunu nəzərə alaraq Azərbaycan hökuməti qərar qəbul etmişdir ki, ingilis ordularının müvəqqəti olaraq, Azərbaycanda saxlanmasını əlahəzrət kral hökumətindən xahiş etsin. Əgər Britaniya hökuməti orduların Azərbaycanda saxlanmasına öz prinsipial razılığını bildirsə, onun şərtləri qarşılıqlı razılıq əsasında hazırlana bilər".[965] Lakin Azərbaycan hökuməti və onun Parisdəki nümayəndələrinin ciddi-cəhdlərinə baxmayaraq, avqust ayının axırlarında ingilislər Qafqazı tərk etdilər. Azərbaycan hökumətinin Parisdə olan nümayəndələrinə xarici işlər nazirliyi tərəfindən respublikanın beynəlxalq vəziyyəti ilə bağlı gürcü nümayəndəsi Qambaşidzedan göndərilən hesabatda göstərilirdi ki, avqust ayının axırlarında sonuncu ingilis hərbi dəstələri Azərbaycan ərazisindən çıxmışdır.[966] Azərbaycandan çıxmaq ərəfəsində, avqust ayının 23-də Müttəfiq qoşunlarının komandanlığı adından ingilis generalı Şatelvort Bakı əhalisinə vida çağırışı ilə müraciət etmişdi. Müraciətdə deyilirdi: "Fürsətdən istifadə edib, indi Bakını tərk edən Britaniya qoşunları adından Azərbaycan, xüsusən, Bakı şəhəri əhalisindən üzr istəyirik. Səmimiyyətlə təəssüflənirik ki, çoxsaylı dostlarımızla və tanışlarımızla vidalaşırıq, onlara ürəkdən sülh və xoşbəxtlik arzulayırıq. Britaniya ordusunun bütün şəxsi heyəti Azərbaycanda keçirdikləri günlərin ən yaxşı xatirələrini özləri ilə aparırlar."[967] İngilis qoşunlarının 1918-ci ilin noyabrından 1919-cu ilin avqustuna qədər Azərbaycanda olduğu dövrlə bağlı qeyd etmək lazımdır ki, 1918-ci ilin noyabrında müttəfiq orduları Bakıya işğal niyyəti ilə girsələr də, onların Azərbaycanda yeritdiyi siyasət işğal xarakteri daşımırdı. Bu dövrlə bağlı hadisələrin təhlili belə bir fikrə gəlməyə əsas verir ki, 1918-ci ilin oktyabrında imzalanmış Mudros sazişinin şərtlərinə görə, Bakıya daxil olan ingilis qoşunları 1919-cu ilin avqustunda Azərbaycandan dost kimi çıxdılar. Adil xan Ziyadxanov 1919-cu ildə Bakıda nəşr edilmiş "Azərbaycan" adlı kitabında yazırdı: "Müttəfiqlərin bizə olan münasibət və əlaqələri daha əvvəlinci gündən zahir olub, hörmət pərdəsi aramızda quruldu. Yüz cürə əhvaldan nəticə, əlbəttə, o oldu ki, mədəni millətlərin nümayəndələri bizim torpağımıza gəldikdə, Azərbaycanda bütün əhvali-ictimaiyyə və siyasiyyənin əhalinin rizasilə axıb getməkdə olduğunu gözləri ilə görüb həqiqət halını yaxından dərk etdilər. Mən kəmali ümid və cəsarətlə deyə bilərəm ki, nə qədər böyük, mədəni millətlərlə münasibət və əlaqədə olarıqsa, bir o qədər də

---

[965] Xarici işlər naziri M.Y.Cəfərovun general D.Şatelvorta rəsmi məktubu. 04.08.1919. //ARDA, f.894, s.10, i.86, v.20

[966] ARDA, f-2905, s.1, i-20, v.2

[967] Telegramme du general Shuttleworth.//Bulletin d'Information de L'Azerbaidjan. Paris, 1920, 17 Janvier, №7, p.2; General Şatelvortun Bakı əhalisinə vida müraciəti. 23.08.1919. //ARDA, f-970, s.1, i.144, v.9



downloaded from KitabYurdu.az

aramızdakı əlaqeyi-dostanə möhkəmləşib, bir-birimizin həqiqi əhvalından daha artıq dərəcədə xəbərdar olarıq."[968]

İngilis ordusunun Qafqazda olması yalnız Denikin təhlükəsindən müdafiə olunmaq üçün deyil, eyni zamanda Qafqaz respublikalarının öz aralarında da sülh və sabitlik yaratmaq üçün əhəmiyyətli idi. Tanınmış ingilis siyasətçisi U.Çörçilin belə bir fikri ilə razılaşmaq olar ki, "Qara dənizdən Xəzər dənizinə qədər bütün Qafqazı tutmuş Britaniya diviziyası bir-biri ilə rəqabət aparan xalqlar - ermənilər, gürcülər, tatarlar /azərbaycanlılar - C.H./, dağlılar və ruslar arasında sülhün yeganə təminatçısı idi".[969] Böyük Britaniyanın Cənubi Qafqaz siyasətini obyektiv işıqlandırmağa cəhd göstərmiş R.Uilman da öz araşdırmasında bu fikri təsdiq edir. O, yazır ki, region xalqları arasında bir sıra hallarda milli qırğın xarakteri alan ədavəti aradan qaldırmaq ingilis siyasətinin müsbət cəhəti kimi qiymətləndirilməlidir.[970]

İngilislərin Bakıdan çıxması münasibəti ilə Azərbaycan Nazirlər Şurasının sədri "Metropol" mehmanxanasında general Korinin və digər yüksək rütbəli şəxslərin şərəfinə ziyafət verdi. Ziyafətdəki çıxışında general Kori qeyd etdi ki, bu çətin keçid dövründə Azərbaycan hökumətinin və xüsusən, Azərbaycan Xarici İşlər Nazirliyinin fəaliyyəti, onların gördüyü işlər adamı heyrətləndirir. Bakını tərk edərkən, ingilislər şəhər limanının idarəçiliyini, hərbi hissələrin radiostansiyalarını, ordunun hərbi sursatını və hərbi gəmilərin bir hissəsini Azərbaycan hökumətinə verdilər.[971] Bu məsələ ilə bağlı avqust ayının 4-də Azərbaycanın xarici işlər naziri M.Y.Cəfərov Bakıdakı Britaniya ordusunun komandanı general D.Şatelvorta müraciət etmişdi. O, xahiş edirdi ki, Azərbaycanın sahil ərazilərini və xüsusilə, ölkənin paytaxtı Bakını Xəzər dənizi tərəfindən ola biləcək hər hansı təhlükədən qorumaq üçün Britaniyanın komandanlığının nəzarətində olan donanmanın bir hissəsi Azərbaycan hökumətinə verilsin.[972] Avqust ayının 8-də M.Y.Cəfərov general D.Şatelvorta göndərdiyi ikinci məktubda Britaniya komandanlığının sorğusuna cavab olaraq bildirirdi ki, Azərbaycan hökuməti ölkədə sabitliyi və qayda-qanunu saxlamaqda maraqlı olduğundan alınmış gəmilər sahil sularının müdafiəsi üçün bolşeviklərə qarşı mübarizə məqsədilə istifadə ediləcəkdir. M.Y.Cəfərov yazırdı: "Respublika hökuməti güman edir ki, Astraxan, Zakaspi və digər yaxın ərazilərdə bolşeviklər ləğv edildikdən, bilavasitə Azərbaycanın sahilləri və paytaxtına qarşı yönəlmiş təhlükə aradan qalxdıqdan sonra müttəfiq komandanlığı Xəzər donanmasını tərksilah etməyə qərar versə, Azərbaycan da öz gəmilərində bu tədbiri həyata keçirəcəkdir. İndi Britaniya hökumətinin

---

[968] A.Ziyadxanlı. Azərbaycan, s.61
[969] У.Черчиль. Мировой кризис, с.247
[970] R.Ullman. Anglo-Soviet Relations 1917-1921, p.337
[971] Banquet d'adieu des Anglais. 24.08.19197/Bulletin d'lnformation de L'Azerbaidjan. Paris, 1920, 17 Janvier, №7, p.2
[972] Xarici işlər naziri M.Y.Cəfərovun general D.Şatelvorta rəsmi məktubu. 04.08.1919. //ARDA, f.970, s.l, i.60, v.9



downloaded from KitabYurdu.az

Azərbaycanın paytaxtını və onun Xəzər dənizi sahillərini xaricdən, bolşeviklər tərəfindən ola biləcək təhlükə qarşısında qoyub, çıxmağa qərar verməsi əhalidə böyük həyəcan yaratmışdır. Ona görə, mənim hökumətim bir daha müttəfiqlərin Xəzər dənizindəki gəmilərinin bir hissəsinin Azərbaycan ordusuna verilməsini xahiş edir."[973] Xarici işlər naziri M.Y.Cəfərovun səyləri öz nəticəsini verdi və son anda Britaniya komandanlığı Xəzər dənizində olan hərbi donanmanın böyük bir hissəsini Azərbaycan hökumətinə verməli oldu. İngilislərin verdiyi gəmilər əsasında Azərbaycan Respublikasının Xəzər donanması yaradıldı. Azərbaycan hökumətinin öz dəniz sərhədlərini qorumaqla bağlı atdığı bu mühüm addım, az sonra Denikinin rəhbərlik etdiyi Cənubi Rusiyanın silahlı qüvvələrinin etirazına səbəb oldu. Könüllü ordunun dəniz donanmasının vitse-admiralı Gerasimovun Azərbaycan hökumətinə verdiyi notada Azərbaycanın yeni yaradılan Xəzər donanmasının ləğv edilməsi tələb edilirdi. Notada deyilirdi: "Rusiya ilə İran arasında 10 fevral 1828-ci ildə imzalanmış Türkmənçay müqaviləsinin 8-ci maddəsində, əsasən, Xəzər dənizində, yalnız, Rusiya və İran ticarət donanması saxlaya bilər. Həmin müqaviləyə əsasən, hərbi donanma saxlamaq hüququ isə ancaq Rusiyaya məxsusdur. Cənubi Rusiya silahlı qüvvələrinin Baş komandanlığı yanında Dənizçilik idarəsi bunu bildirməyi zəruri hesab edir ki, Azərbaycan hərbi və ticarət gəmilərinin, rus bayrağından başqa hər hansı bayraq altında üzməsinə yol verməyəcəkdir."[974] Bu əsassız notanı Azərbaycan Dövlət Müdafiə Komitəsi öz iclasında müzakirə edərək, Xarici İşlər Nazirliyinə tapşırdı ki, Cənubi Rusiya silahlı qüvvələrinin Baş komandanlığının nümayəndəsinə aşağıdakı məzmunda cavab versin: 1. Rusiya və İran arasında imzalanmış Türkmənçay müqaviləsi, yalnız, Rusiya və İran üçün məcburi ola bilər, bu yeni yaranmış dövlətlərə şamil edilə bilməz; 2. Xəzər dənizi sahillərində yerləşən Azərbaycan Respublikasının dəniz limanları və ticarət gəmiləri vardır və bu gəmilər Azərbaycan bayrağı altında üzəcəkdir.[975] Eyni zamanda Dövlət Müdafiə Komitəsi Könüllü ordu rəhbərliyinin belə tələblərini Azərbaycanın suveren hüquqlarına qarşı yönəlmiş akt kimi qiymətləndirdi və Xarici İşlər Nazirliyinə tapşırdı ki, bu məsələ ilə bağlı müttəfiqlərin Cənubi Qafqazda olan Ali komissarları və diplomatik nümayəndələri qarşısında etiraz notası ilə çıxış etsin.

---

973 Xarici işlər naziri M.Y.Cəfərovun general D.Şatelvorta rəsmi məktubu. 08.08.1919. //ARDA, f.894, s.10, i.86, v.30

974 Mission Militaire Française au Caucase. Extrait «d'Obnovlenie» (Reproduit d'Azerbaïdjan» le 29 octobre 1919).Correspondance entre l'Armèe volontaire et le Gouvernement d'Azerbaïdjan au sujet de la flotte de la Caspienne// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol.638, folio 125; Rusiyanın cənubunda silahlı qüvvələrin Baş komandanlığı yanında Dənizçilik İdarəsinin vitse-admiralı Gerasimovun Azərbaycan hökumətinə notası. 17.10.1919. //ARDA, f.970, s.l, i.196, v.3

975 Mission Militaire Française au Caucase. Extrait «d'Obnovlenie» (Reproduit d'Azerbaïdjan» le 29 octobre 1919).Correspondance entre l'Armèe volontaire et le Gouvernement d'Azerbaïdjan au sujet de la flotte de la Caspienne// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol.638, folio 125; Dövlət Müdafiə Komitəsinin qərarından çıxarış. 21.10.1919. //ARDA, f.970, s.1, i.196, v.4



downloaded from KitabYurdu.az

Bu məsələ ilə bağlı Azərbaycan Xarici İşlər Nazirliyi ABŞ, Böyük Britaniya və İtaliyanın Cənubi Qafqazda olan missiyalarına etiraz notası verdi. Eyni zamanda nazirlik respublikanın Tiflisdə, Parisdə, Kuban hökumətində və digər yerlərdə olan diplomatik nümayəndələrinə məlumat göndərdi ki, mümkün olan bütün diplomatik vasitələrlə könüllü ordunun Azərbaycanın hərbi donanmasının yaradılmasına qarşı yönəlmiş təcavüzkar məqsədlərini dəf etsinlər. Kuban hökumətindəki diplomatik nümayəndə Cəfər bəy Rüstəmbəyova təlimat verildi ki, admiral Gerasimovun notası ilə bağlı general Denikinlə görüşüb, Azərbaycanın Türkmənçay müqaviləsini imzalamadığını və bu səbəbdən də həmin müqavilənin maddələrinin Azərbaycana dəxli olmadığını onun nəzərinə çatdırsın. Azərbaycan Xarici İşlər Nazirliyinin fikrincə, əgər söhbət Türkmənçay müqaviləsinə görə, gəmilərin yalnız rus bayrağı altında üzməsindən gedirsə, onda Xəzər dənizində gəmilərin ingilis bayrağı altında üzməsi də yolverilməz hesab edilməli idi. Ona görə respublika xarici siyasət idarəsi öz nümayəndəsi C.Rüstəmbəyov vasitəsi ilə general Denikinə çatdırılırdı ki, öz milli donanması olan Azərbaycan hökuməti razı ola bilməz ki, onun donanması ayrı bir ölkənin bayrağı altında üzsün.[976]

Müttəfiq qoşunlarının Qafqazdan çıxması yeni respublikalar və onların Versaldakı nümayəndələri üçün bir qədər gözlənilməz oldu. Ə.M.Topçubaşovun ingilis nümayəndələri ilə görüşündə aydın oldu ki, Britaniya hökuməti tərəfindən qoşunların geri çağırılması artıq həll edilmişdir. O, yazırdı ki, "biz möhkəm əmin idik ki, ingilis qoşunları bizdə qalacaqdır. Ancaq məlum oldu ki, yanılmışıq. Həm də təkcə biz yox, o biri Zaqafqaziya respublikalarının - Gürcüstan və Ermənistanın nümayəndələri də yanılıblar. İngilis nümayəndələri ilə şəxsi görüşlər zamanı Britaniya hökuməti tərəfindən qoşunların geriyə çağırılması məsələsinin artıq həll olunduğundan başqa heç nə öyrənə bilmədik. Belə bir vəziyyətdə biz, gürcülər və ermənilər bir yerə yığışdıq, Sülh konfransına və bütün müttəfiqlərə ayrılıqda, respublikalarımızın taleyi konfransda həll oluncaya qədər, qoşunların bizdə qalması üçün xahişnamə ilə müraciət etməyi qərara aldıq."[977] Nəticədə, hər üç respublika nümayəndələrinin imzaladığı və haqqında yuxarıda bəhs edilmiş 28 avqust xahişnaməsi meydana çıxdı.

Böyük Britaniya hökuməti ingilis qoşunlarının Qafqazdan çıxarılması ilə bağlı Oliver Uordrop başda olmaqla, özünün siyasi missiyasını Cənubi Qafqaza göndərdi. Bu barədə ilk dəfə Paris Sülh konfransında olan Britaniya nümayəndəsi Krou iyul ayının 25-də İngiltərə xarici işlər naziri Balfurun qərarını Azərbaycan nümayəndə heyətinə çatdırdı. Krou yazırdı: "Mən xarici işlər naziri Balfurdan sərəncam almışam sizə bildirim ki, əlahəzrət kral hökuməti Cənubi Qafqaza Uordrop başda olmaqla, missiya göndərmək niyyətindədir. Cənab Uordrop Cənubi

[976] Azərbaycan Xarici İşlər Nazirliyinin Cənubi Rusiya Silahlı Qüvvələrinin Baş komandanlığı yanında diplomatik nümayəndə C.b.Rüstəmbəyova təlimatı. Oktyabr, 1919. //ARDA, f.970, s.l, i.196, v.5
[977] А.М.Топчибашев. Письма из Парижа, с.59-60



downloaded from KitabYurdu.az

Qafqaza yaxşı bələd olduğuna və əlahəzrətin konsul xidmətində uzun müddət çalışdığına görə xüsusi olaraq, bu missiya üçün seçilmişdir. Ümid edirik ki, bu ayın axırında o yola düşəcəkdir. Cənab Uordrop əlahəzrət hökumətini Cənubi Qafqazdakı vəziyyət haqqında məlumatlandıracaqdır, lakin bu təyinat Azərbaycan hökumətinin əlahəzrət hökuməti tərəfindən tanınması kimi qəbul edilməməlidir."[978] Oliver Uordrop Qafqaza yola düşməzdən əvvəl Parisdə olan Azərbaycan, Gürcüstan və Ermənistan nümayəndələri ilə görüşdü. Bu görüş barədə Ə.M.Topçubaşov Azərbaycan Nazirlər Şurasının sədri N.Usubbəyovun adına göndərdiyi hesabatda yazırdı: "Biz Qafqaza göndərilən Britaniya missiyası ilə burada görüşdük, onun gəlişi barədə qabaqcadan xəbərdar edilmişdik. Cənab Uordropun səfəri barədə nazir Balfur... məlumat vermişdi. Cənab Uordrop özü katibləri ilə birlikdə bizim görüşümüzə gəldi, onlardan biri cənab Uayt əvvəllər Təbrizdə və Odessada konsul olduğu üçün bizim dildə və rusca yaxşı danışırdı. Cənab Uordrop özü xoş təsir bağışladı, özünün xeyirxah niyyətdə olduğunu bildirdi və xahiş etdi ki, Qafqazda bütün xalqların əmin-amanlıq şəraitində yaşamasına hər cür təsir göstərək. Gürcülərlə gürcü dilində danışdı və ermənilərlə görüşdü, həmin gün Qafqaza yola düşdü."[979]

İngilis qoşunlarının Qafqazdan çıxarılmasının başa çatdırıldığı dövrlərdə, avqust ayının axırlarında Uordropun başçılıq etdiyi Uayt, Malliqan, Qrandi və daha bir nəfərdən ibarət olan ingilis missiyası Tiflisə gəldi. İngiltərə xarici işlər nazirinin Uordropu Cənubi Qafqaza Ali Britaniya komissarı təyin etməsi barədə qərarı avqust ayının 22-də Azərbaycan hökumətinə çatdırıldı.[980] Bununla da, Böyük Britaniya imperiyasının Azərbaycan və bütövlükdə Qafqaz siyasətinin mahiyyət etibarı ilə əvvəlkindən fərqlənən yeni mərhələsi başlandı. Tiflisdə işə başladıqdan az sonra O.Uordrop sentyabr ayının 27-də Britaniya missiyasının üzvü Uayt, Azərbaycanın Gürcüstanda diplomatik nümayəndəsi F.Vəkilov və Gürcüstanın Azərbaycanda diplomatik nümayəndəsi Q.Alşibayanın müşayiəti ilə Bakıya yola düşdü. Sentyabrın 28-də onu Bakı dəmiryol vağzalında xarici işlər naziri M.Y.Cəfərov və digər rəsmi şəxslər qarşıladılar. Səfər zamanı O.Uordrop Baş nazir N.Usubbəyov, xarici işlər naziri M.Y.Cəfərov, yollar naziri X.Məlik-Aslanov, hərbi nazirin müavini, general Ə.Şıxlinski, daxili işlər nazirinin müavini M.Ağabəyov və digərləri ilə görüşdü. Oktyabr ayının 2-də Bakıya səfəri barədə Londona geniş hesabat göndərən O.Uordrop yazırdı: "İstənilən başqa ölkədən fərqli olaraq, bu ölkənin xalqı və hökuməti Böyük Britaniyaya çox yaxşı münasibət bəsləyir. Baş nazirin mövqeyi kifayət qədər möhkəmdir. Əgər biz onlara kömək etsək, onlar İngiltərə ilə səmimi şəkildə əməkdaşlıq edəcəklər. Cənab

[978] Paris Sülh konfransındakı Britaniya nümayəndə heyətinin üzvü Krounun Ə.M.Topçubaşova məktubu. 25.07.1919. //ARDA, f.970, s.l, i.142, v.46; Bulletin d'Information d L'Azerbaidjan. Paris, 1919, 13 Octobre, №3, p.7

[979] А.М.Топчибашсв. Письма из Парижа, с.68-69

[980] ARDA, f.970, s.3, i.4, v.30



downloaded from KitabYurdu.az

Usubbəyovun səmimiliyi və onun öz ölkəsinin siyasətinə nəzarət etmək bacarığı barədə məndə yüksək fikir oyandı. Bizim hər ikimizdə gələcək münasibətlərimizin inkişafına böyük ümid yarandı." Bakıya səfəri zamanı Britaniya Ali komissarı O.Uordropa ermənilərin Azərbaycanda və bütövlükdə, Cənubi Qafqazda törətdikləri vəhşiliklər haqqında geniş məlumat verildi. O, Londona göndərdiyi hesabatda yazırdı: "Azərbaycanlılar bildirirlər ki, yerli ermənilər bolşeviklərin köməyi ilə çoxlu sayda müsəlman əhalisini qırmışlar." Onların fikrincə, Şaumyan saxta bolşevik imiş. O.Uordrop öz hesabatına əlavə edirdi ki, lap bu yaxınlarda ermənilər yeni Bəyazit, Aleksandropol və İrəvan vilayətlərində 60 müsəlman kəndini yerlə yeksan etmişlər. Bakıdan dönən zaman Britaniya Ali komissarı Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəyə də baş çəkdiyini və şəhərin general qubernatoru Xudadad bəy Rəfibəyov tərəfindən təmtəraqla qarşılandığını bildirirdi. O yazırdı: "Dəmir yol vağzalı başdan-başa yaşıl atlasa bürünmüşdü və hər tərəf xalçalarla bəzədilmişdi, hər yerə milli bayraqlar sancılmışdı."[981]

İngilislərin Azərbaycandan çıxması ilə bağlı Azərbaycanın daxilində və xaricində müxtəlif pozucu qüvvələr şayiələr yaymağa başladılar ki, guya, Azərbaycan hökumətini idarə edən ingilislər idi. Guya, onlar çıxdıqdan sonra Azərbaycan hökuməti ölkəni idarə edə bilməyəcəkdir, ölkədə erməni və rus talanları başlayacaqdır. Bu baxımdan Azərbaycanda olan ingilis hərbi jurnalisti Skotland-Liddelin sentyabr ayının əvvəllərində ingilis qəzetləri üçün hazırladığı material çox maraqlı və səciyyəvi idi. O yazırdı: "Cənubi Qafqaz şayiələr ocağıdır. Burada şayiələr külək təpələr arasında yayılan kimi yayılır. Bir çox şayiələr Moskvada quraşdırılır və dövriyyəyə buraxılır." Skotland-Liddel ingilis ordusunun Azərbaycandan çıxması ilə bağlı qeyd edirdi ki, "Bakıda ingilis ordusuna ehtiyac yoxdur. Azərbaycan özü-özünü idarə edə bilər. Mən bura iki gün əvvəl gəlmişəm və açığını deyim ki, bütün gördüklərim məndə dərin təəssürat yaradıb. Mənim şəhərdə olmadığım dörd həftə ərzində burada çox maraqlı dəyişikliklər olub. Mən buraya gəldim ki, hamının mənə dediyi qarışıqlığı görüm, lakin onu görə bilmədim. Əvəzində tam qayda-qanun gördüm. Mənə deyirdilər ki, qanla dolu küçələr və dəhşətli səhnələr görəcəksən. Onun əvəzində mən sülh və sakitlik gördüm. Mənə deyirdilər ki, ordu əvəzinə pozğunlaşmış kütlə görəcəksən, lakin yaxşı intizam görmüş, güclü və odlu-alovlu gənclərdən ibarət ordu gördüm. Doğrudan da, mən indi Bakıda elə əmin-amanlıq gördüm ki, müharibə başlayandan bəri Bakıda heç vaxt belə əmin-amanlıq olmamışdı... Qayda-qanun, ancaq Bakıda hökm sürmür, son dəyişikliklər bütün respublikada vəziyyəti dəyişmişdir. Qarabağ qarışıqlığı sülhlə əvəzlənmişdir. Ermənilər və tatarlar /azərbaycanlılar - C.H./ sazişə gəlmişlər. Lənkəranda bolşeviklər tatar /azərbaycanlı - C.H./ ordusu tərəfindən məğlubiyyətə uğradıldılar. Onlar bütün silah və sursatlarını Azərbaycan

[981] O.Uordropun Bakıya səfəri haqqında Londona teleqramı. 02.10.1919. //Azərbaycan Xalq Cümhuriyyəti. Böyük Britaniya Arxiv Sənədləri, s.187-194



downloaded from KitabYurdu.az

hökumətinə təhvil verdilər, adamlar isə xahiş etdilər ki, onları Azərbaycan hökumətinin təəbəliyinə götürsünlər... Bütün bunlar şübhəsiz sübut edir ki, Azərbaycan qarmaqarışıqlıqdan qorxmur və bolşeviklərdən çəkinmir. Azərbaycan dövləti indi Cənubi Qafqazın bütün qalan xalqları üçün həqiqi nümunəyə çevrilmişdir."[982] Skotlend-Liddelin sadaladığı daxili vəziyyətlə yanaşı, Azərbaycanın beynəlxalq vəziyyəti də müəyyən qədər sabitləşmişdi. Qonşu Gürcüstanla əlaqələr 16 iyun müqaviləsi əsasında daha da genişlənir, İranla əvvəlki qeyri-müəyyənliyi əməli əməkdaşlıq əvəz edirdi. Oktyabr ayının 7-də İranın Bakıdakı konsulunun məktubuna cavab olaraq, N.Usubbəyov yazırdı ki, ticarət, poçt-teleqraf, gömrük və digər məsələlərlə bağlı İranla Azərbaycan arasında müvafiq sazişlərin bağlanması zəruridir. O qeyd edirdi ki, Azərbaycan hökuməti öz tərəfindən İranla və onun xalqı ilə dost, qardaş və mehriban qonşuluq münasibətləri qurmağı arzulayır.[983] Sentyabr ayının 21-də Azərbaycan Xarici İşlər Nazirliyi Qolovanını Ukrayna Demokratik Respublikasının Bakıda müvəqqəti vitse-konsulu kimi tanıdı.[984] Sentyabrın 22-də isə iqtisad elmləri namizədi Şeyx Əli Useynov Azərbaycan Respublikasının Krıma konsulu təyin edildi.[985] İki gün sonra Paşa bəy Sultanov Rostov şəhərinə Azərbaycanın konsulu agenti vəzifəsinə göndərildi.[986] Yeni yaranmış respublikalardan Finlandiya və Polşanın da Bakıda konsulluq idarələri açıldı. Eyni zamanda Ə.M.Topçubaşov Nazirlər Şurasının sədri N.Usubbəyova göndərdiyi hesabatda Paris sülh konfransındakı Polşa nümayəndə heyətinin başçısı Dımovski, habelə Polşa Nazirlər Şurasının sədri Paderevski, Fransa Xarici İşlər Nazirliyinin Şərq şöbəsinin əməkdaşı Qu ilə görüşüb fikir mübadiləsi etdiyini, Estoniya, Latviya, Belorusiya və Ukrayna nümayəndələri ilə əlaqələr yaradıldığını bildirirdi. O yazırdı: "Bir neçə Amerika yəhudisi ilə əlaqəmiz var. Onlar bizə məsləhət görürlər ki, 1918-ci ilin sentyabr ayında guya, kütləvi şəkildə qətlə yetirilmələri ilə bağlı ermənilər bizə qarşı hay-küylü təbliğat kampaniyasına başlayıblar. Bu təbliğat kampaniyasının əsassız olduğunu göstərmək və onu şübhə altına almaq məqsədilə Amerikaya bir neçə nəfər göndərmək lazımdır."[987] Türkiyəyə diplomatik nümayəndə təyin edilmiş Yusif Vəzirov İstanbulda fəaliyyətə başlamış və xarici işlər naziri tərəfindən qəbul edilmişdi. Türkiyəyə gəlmiş Azərbaycan nümayəndəsi Azərbaycan Xarici İşlər Nazirliyinə yazırdı ki, "Türkiyə dəhşətli dərəcədə ağır vəziyyətdədir. Burada bir

---

[982] Skotland-Liddel. Öz ümidinə qalmış Azərbaycan. İngilislər Bakını tərk etdilər. 08.09.1919. //ARDA, f.894, s.10, i.82, v.1-10
[983] Азербайджанская Демократическая Республика. Внешняя политика, с.363-364
[984] Азербайджан, 1919, 21 сентября.
[985] Ş.Ə.Useynovun Krımda Azərbaycanın konsul agenti təyin edilməsi haqqında Xarici İşlər Nazirliyinin əmri. 22.09.1919. //ARDA, f.970, s.2, i.120, v.52
[986] Азербайджан, 1919, 24 сентября.
[987] А.М.Топчибашев. Письма из Парижа, с.50-51



downloaded from KitabYurdu.az

çox siyasi dairələr Azərbaycanın güclənməsinə böyük ümid bəsləyir və bildirirlər ki, Türkiyədə azadlıq hərəkatına Azərbaycan böyük təsir göstərə bilər.[988]

Oliver Uordropun rəhbərlik etdiyi ingilis missiyasından başqa, Qafqaza gəlmiş mayor de Nonankurun rəhbərlik etdiyi Fransa, polkovnik Y.Haskelin rəhbərlik etdiyi Amerika, polkovnik M.Qabbanın rəhbərlik etdiyi İtaliya missiyaları ilə Azərbaycan hökuməti, respublika Xarici İşlər Nazirliyi arasında getdikcə qarşılıqlı etimada əsaslanan işgüzar münasibətlər yaranırdı. Qərb ölkələri ilə münasibətlər və himayədarlıq məsələlərinin təhlili göstərir ki, böyük dövlətlər içərisindən Qafqaz respublikaları üzərində Paris Sülh konfransının razılığı ilə praktiki cəhətdən, yalnız, Böyük Britaniya himayədarlığı mümkün idi. Bu, Azərbaycan, Gürcüstan və Ermənistanın iqtisadi cəhətdən dirçəldilməsində, siyasi cəhətdən inkişaf etməsində, ümumilikdə, regionda sülhün və sabitliyin təmin edilməsində faydalı addım ola bilərdi. Ən başlıcası isə yalnız Böyük Britaniya himayədarlığı bu respublikaları xarici təcavüzdən - Denikin könüllülərinin və bolşevik Rusiyasının təcavüzündən xilas edə bilərdi. Digər dövlətlərə gəldikdə isə nə ABŞ, nə Fransa, nə də İtaliya müxtəlif səbəblərə görə, yuxarıda qeyd edilən məsələlərin praktiki cəhətdən öhdəsindən gəlmək imkanına malik deyildilər. 1919-cu ilin axırlarından isə hər hansı böyük dövlətin himayədarlıq sistemi vasitəsi ilə Cənubi Qafqaz respublikalarını hərbi və siyasi cəhətdən müdafiə etməsi praktiki baxımdan öz əhəmiyyətini itirməyə başlamışdı. 1919-cu ilin payızından başlayaraq, beynəlxalq vəziyyət yeni respublikaların xeyrinə dəyişməyə başladı. Ümumilikdə, Azərbaycan nümayəndələrinin 1919-cu ilin əvvəllərindən başlayaraq, həmin ilin payızına qədərki ağır təzyiqlərə məruz qaldığı qeyri-müəyyən dövr başa çatmaqda idi.

Azərbaycanla bağlı Qərb himayədarlığı məsələsinin təhlili göstərir ki, doğrudan da, bu dövrdə güclü və iqtisadi cəhətdən inkişaf etmiş dövlətlərdən birinin himayədarlığına respublikanın ehtiyacı var idi. Digər Qərb ölkələri ilə müqayisədə Fransanın Qafqaza, o cümlədən, Azərbaycana marağı tərəddüdlü idi. Almaniya və Türkiyə müstəmləkələrinin bir hissəsini ələ keçirən Fransa Rusiya imperiyasının müstəmləkələrinə son dərəcədə ehtiyatla yanaşırdı. Bir qayda olaraq, Fransız siyasətçiləri "vahid və bölünməz Rusiya" ideyasının tərəfdarı idilər. Digər tərəfdən, Fransanın regionda və ona yaxın olan ərazilərdə güclü hərbi birləşmələri yox idi.

İtaliyanın Azərbaycana güclü iqtisadi marağı var idi. Lakin o mandatlığa götürmək istədiyi əraziləri xarici təcavüzdən qorumaq imkanına malik deyildi. Gələcəkdə Rusiya və Türkiyə ilə qarşılaşmaq qorxusu İtaliyanı belə bir addımdan çəkindirdi. Azərbaycan Respublikası üçün İtaliya mandatlığı sərfəli deyildi.

Bu dövrdə Böyük Britaniya yeganə ölkə idi ki, Qafqaz, o cümlədən Azərbaycan mandatını götürməyə hər cür imkanı var idi. Böyük Britaniyanın

---

988 Türkiyədə diplomatik nümayəndə Y.Vəzirovun Xarici İşlər Nazirliyinə məlumatı. 1919. //ARDA, f.970, s.1, i.22, v.28



downloaded from KitabYurdu.az

regiondakı güclü hərbi qüvvələri xarici təcavüzdən müdafiə olunmaqda onun qüdrətli iqtisadi potensialı, bütün dünyadakı siyasi nüfuzu Azərbaycanın tərəqqisində və taleyində əhəmiyyətli rol oynaya bilərdi.



downloaded from KitabYurdu.az

## X FƏSİL

### ABŞ-ın Qafqaza marağının güclənməsi və Azərbaycan

Birinci dünya müharibəsindən sonra ABŞ qüdrətli dövlət kimi tarix səhnəsinə çıxmışdı. Döyüşən tərəflərin hərbi sifarişi Birləşmiş Ştatları sözün tam mənasında dünyanın iqtisadi və maliyyə mərkəzinə çevirmişdi. 1917-ci ildə Amerikanın hərbi əməliyyatlara daxil olması onun siyasi nüfuzunu artırmış, qalib Antantanın üzvü kimi dünyanın taleyinin müəyyən edilməsində rolunu gücləndirmişdi. Birləşmiş Ştatlar müharibədən sonrakı dünya düzəninin qurulmasında həlledici dövlət statusu qazanmış, onun sülhün memarı kimi məşhurlaşan prezidenti Vudro Vilson eyni zamanda kiçik xalqların dostu kimi tanınmağa başlamışdı.

ABŞ Paris Sülh konfransına hələ 1918-ci ilin yanvar ayında elan edilən Vilsonun 14 maddəsi ilə gəlmişdi. Prezident Vilson tərəfindən sistemləşdirilmiş bu sülh prinsipləri Birləşmiş Ştatların böyük dünyaya və böyük siyasətə gəlişinin çıxış nöqtəsini təşkil edirdi. V.Vilsonun təqdim etdiyi sülh maddələri gücə deyil, prinsiplərə, qaliblər üçün də, məğlublar üçün də maraqlara deyil, hüquqa əsaslanmalı idi.[989] Rusiya imperiyasının dağılması və onun hüdudlarında yaranan yeni dövlətlərin tanınması məsələsi Vilson prinsiplərində yer almasa da, Sülh konfransı başlandıqdan sonra Qafqaz regionu strateji baxımdan Amerika siyasəti üçün cəlbedici görünməyə başladı. Ona görə də Avropa dövlətləri ilə yanaşı, Qafqaz mandatına namizədlərdən biri də ABŞ idi. Böyük Britaniya, Fransa və İtaliyadan fərqli olaraq, Amerika Qara dəniz boğazları, İstanbul və bütövlükdə, Qafqaz mandatını qəbul etməkdə maraqlı idi. Əvvəllər göstərildiyi kimi, Dördlər Şurası hələ may ayında boğazlar və Ermənistan üzərində mandatı ABŞ-a təklif etmişdi. ABŞ prezidenti V.Vilsonla, Amerikanın Paris Sülh konfransındakı nümayəndələri ilə, dövlət katibinin müavini F.Polkla və uzun müddət Yaxın Şərqdə işləmiş H.Morqentau ilə danışıqlardan aydın olmuşdu ki, respublikanın daxili işlərinə müdaxilə etməyəcəyi, Vilsonun "on dörd maddəsinə" əməl edəcəyi və əvəzində ayrı bir şey ummayacağı təqdirdə, Azərbaycan nümayəndələri Amerika himayəçiliyinə razı idilər.[990] Amerikanlar belə bir söhbəti gürcü nümayəndələri ilə də etmişdilər. İyun ayının 11-də N.Çxeidze başda olmaqla, Gürcüstan nümayəndələri prezident Vilsonun müşaviri polkovnik E.Hauzla görüşmüş və Gürcüstan üzərində ABŞ mandatına razılıq vermişdilər.[991] Az sonra,

---

[989] Генри Киссинджер. Дипломатия. Москва, 1997, с.200.
[990] Daha geniş məlumat üçün bax: Jamil Hassanov. Azerbaijani-American Relations from 1918-1920: A page in Their History. // Caspian Crossroads, vol.2, Issue 1, Spring-Sumer 1996, p. 1-9
[991] З.Авалов. Независимость Грузии в международной политике, с.226



downloaded from KitabYurdu.az

iyun ayının axırlarında Parisdəki Amerika nümayəndələri bu məsələni Dördlər Şurasının iclasına çıxardılar.

Dördlər Şurasının 28 iyun iclasında ABŞ nümayəndələri, sonralar Birləşmiş Ştatların prezidenti olmuş Herbert Huver və ABŞ-ın Türkiyədə keçmiş səfiri Henri Morqentau təklif etdilər ki, Amerikanın Ermənistanda geniş səlahiyyəti olan Ali komissarlığına ən yaxşı namizəd general Ceymis Harborddur.[992] Əgər C.Harbord hər hansı səbəbdən bu vəzifəni öz üzərinə götürməsə, onda polkovnik V.H.Haskelin üzərində dayanmaq lazımdır.[993] İyun ayının 28-dən iyul ayının 4-nə qədər Amerika nümayəndələri prezident Vilsonla məsləhətləşmələr keçirib, dəfələrlə bu məsələni müzakirə etdilər. İyul ayının 2-də dövlət katibi R.Lansinqin, Versaldakı ABŞ nümayəndə heyətinin üzvləri Uaytın, Blissin və Huverin iştirakı ilə keçirilən iclasda ABŞ nümayəndələri öz təkliflərini konkretləşdirdilər və Ermənistanda Ali Komissar kimi polkovnik V.N.Haskelin üzərində dayandılar. Paris Sülh konfransında Amerika nümayəndəliyinin Kiçik Asiya və Qafqaz üzrə məsləhətçisi V.Buklerə tapşırıldı ki, H.Huverin memorandumu əsasında iyul ayının 5-də keçiriləcək Onlar Şurasının iclasına təqdimat hazırlasın. İyulun 5-də Onlar Şurasının iclası Amerika təqdimatı əsasında polkovnik V.Haskeli Ermənistana Ali Komissar təyin etdi. Onlar Şurasının qərarında göstərilirdi ki, polkovnik Haskel Birləşmiş Ştatlar, İngiltərə, Fransa və İtaliya hökumətləri adından Ermənistana Ali Komissar təyin edilir, eyni zamanda o, Ermənistana yardım göstərilməsi ilə bağlı bütün tədbirlərə cavabdehdir. ABŞ, İngiltərə, Fransa və İtaliya hökumətlərinin Azərbaycanda, Gürcüstanda, Ermənistanda və İstanbulda bütün nümayəndələri təcili şəkildə polkovnik Haskellə əməkdaşlığa girməli və ona yardım göstərməli idilər.[994] Elə həmin iclasda qərar qəbul edildi ki, repatriasiya, ümumi hərbi və iqtisadi məsələlər üzrə hesabat hazırlamaq məqsədilə general Harbord İrəvana yola düşməlidir. Qəbul edilmiş bu qərarlar haqqında Robert Lansinq elə həmin gün teleqrafla Vaşinqtona məlumat verdi. O yazırdı ki, V.Haskel Qafqazda Dövlət Departamentinin nümayəndəsi kimi hərəkət edəcəkdir, adamlar toplamaqda ona kömək etmək lazımdır, onun fəaliyyəti Yaxın Şərqə Amerika Yardım Komitəsi tərəfindən maliyyələşdiriləcəkdir. Bu komitəyə Ermənistan üzərində Amerika mandatı barədə memorandumla çıxış edən H.Huver başçılıq edirdi. Ona görə V.Haskel eyni zamanda "Yaxın Şərqə Amerika Yardımı Komitəsinin" Qafqaz üzrə sədri təyin edildi ki, həmin komitənin Bakıda və Şuşada da bölmələri açılmalı idi. Lakin burada məqsəd erməni silahlı dəstələrinin vəhşilikləri nəticəsində öz yurdundan didərgin düşmüş azərbaycanlılara köməklik göstərmək deyil, qeyd edilən şəhərlərdə erməni əhalisini himayə etmək idi.

---

992 Г.Гамбашидзе. Из истории политики США в отношении Грузии, с.36
993 В.И.Адамия. Из истории английской интервенции в Грузии, с. 127
994 Papers Relating to the Foreign Relations of the United States. The Paris Peace Conference. Washington, 1947, vol.VII, p.28



downloaded from KitabYurdu.az

"Yaxın Şərqə Amerika Yardımı Komitəsi"nin baş direktoru H.Huver iyul ayının 16-da xüsusi məktubla Sülh konfransının rəhbərliyinə Gürcüstan üzərindən Ermənistana ərzaq yardımı daşınmasının çətinliyi haqqında məlumat vermişdi. O yazırdı: "Yardım komitəsi müttəfiqlərin müxtəlif hökumət orqanları ilə əməkdaşlıq şəraitində Rusiya Ermənistanını bürümüş dəhşətli aclığın qarşısını almaq üçün aylarla işləyir. Bu məqsədlə 50.000 ton ərzaq toplanmışdır. Bu yükün Batum limanından Ermənistana daşınması üçün yeganə yol Gürcüstanın ərazisindən keçir. Bu dəmir yolu qismən Britaniya ordusunun nəzarəti altındadır. Müttəfiqlərin nümayəndələrinin etirazlarına baxmayaraq, yardımın bir hissəsinin onlara verilməsini tələb edən gürcülər mütəmadi olaraq, ərzağın daşınmasına mane olurlar, hətta 4-5 gün dəmir yolunda hərəkət, ümumiyyətlə, dayandırılmışdı. Ermənistanda vəziyyət təsvir ediləsi deyil, artıq 60 gündür ki, adamlar ölüləri yeyirlər. Son iki ayda ərzaq daşınması vəziyyəti bir qədər yaxşılaşdırmışdır, lakin əslində orada ərzaq ehtiyatı heç vaxt 10 gündən artıq olmayıb. Biz Gürcüstan Respublikası ilə əməkdaşlıq etməyə cəhd göstəririk, lakin Gürcüstanda ərzaq ehtiyatı yaratmağa zərurət yoxdur. Gürcüstanla bizim rəsmi nümayəndələr arasında olan danışıqlara toxunmayacağam. Yalnız bir faktı demək yetərlidir ki, onların aclıqdan can üstə olan əhaliyə münasibəti sadəcə olaraq vəhşilikdir. Sonda qeyd etməliyəm ki, bizim nəqliyyat vasitələrimiz artıq bir həftədir ki, dayanıb. Mən başa düşürəm ki, bu məsələ müttəfiqlərin silahlı qüvvələrinin səlahiyyətlərinə aid deyil, lakin Gürcüstanın Ali Şura qarşısındakı öhdəliklərindən mən məlumatlıyam. Mənə belə gəlir ki, Şura Gürcüstana müvafiq teleqram göndərsə və Parisdə gürcü nümayəndələrinə təsir göstərilsə yaxşı olar. Mən teleqramın mətnini belə təklif edirəm: Şura məlumatlıdır ki, gürcülər acından ölən bədbəxt adamlara (ermənilərə -C.H.) ərzaq daşınmasına mane olurlar. Şura bu hərəkətlərə göz yuma bilməz. Bu orada yaşayan bütün insanlara, bütün bəşəriyyətə münasibətdə ədalətsizlik aktıdır. Ona görə Şura gözləyir ki, Gürcüstan nəinki yüklərin dəmir yolu ilə daşınmasını təmin edəcək, eyni zamanda bu yüklərə ən aşağı gömrük tarifləri tətbiq edəcək. Şura Gürcüstan hökumətindən cavab gözləyir."[995]

H.Huver eyni zamanda Birləşmiş Ştatların İstanbuldakı Ali Komissarı Q.Bristolun Türkiyə və Azərbaycan əleyhinə Versala və ABŞ prezidenti V.Vilsona göndərdiyi teleqramların da əsas təşkilatçısı idi. İyul ayının 29-da göndərdiyi teleqramda Bristol, Qarabağ haqqında aydın təsəvvürü olmadığı halda yazırdı ki, türklər və tatarlar (azərbaycanlılar - C.H.) Rusiya Ermənistanının torpaqları olan Qarabağı tutublar. Əgər Britaniya, Qarabağ da daxil olmaqla bütün Rusiya Ermənistanının türklərdən və tatarlardan (azərbaycanlılardan - C.H.) təmizlənməsi haqqında əmr verməzsə, biz buradan kömək göstərilməsini davam etdirə

[995] Papers Relating to the Foreign Relations of the United States. The Paris Peace Conference. 1919, vol.X, p.482-483



downloaded from KitabYurdu.az

bilmərik.[996] Mətndən göründüyü kimi, bütün bu sənədlərin hazırlanmasında ermənilərin əli var idi. H.Huver Cənubi Qafqazda vəziyyəti tünd rəngdə təqdim etməklə Ermənistana Amerika Ali Komissarının təyin olunmasına nail olmaq istəyirdi. Versal Ali Şurasının sənədlərində göstərilirdi: Şura Huverdən xahiş etdi ki, Sülh konfransına və prezident Vilsona ünvanlanmış məktub təqdim etsin. Məktubda ABŞ, Böyük Britaniya, Fransa və İtaliyanın adından təklif edilməli idi ki, Ermənistana ezam olunan şəxsə Müvəqqəti Ali Komissar və yuxarıda adları çəkilən dövlətlərin vahid nümayəndəsi kimi vəkalət verilsin.[997]

1919-cu ilin yayında V.Haskel Qafqaza gəldi. Onun qərargahı İrəvanda yerləşirdi. Ermənistan hökumət nümayəndələri ilə ilk görüşdə Haskel elan etdi ki, Paris Sülh konfransı ona vəkalət vermişdir ki, Ermənistanı və harada yaşamalarından (Gürcüstanda, Azərbaycanda, Türkiyədə) asılı olmayaraq, erməniləri qorusun. Ona görə də o, Paris Sülh konfransının qərarına görə, "müttəfiqlərin Ali komissarı" adlandırılır.[998] İyul ayının axırlarında Paris Sülh konfransına göndərdiyi ilk məlumatda Haskel Ermənistanın ağır vəziyyətdə olduğunu bildirirdi. Haskel missiyasından istifadə edərək, ermənilər öz qonşularına qarşı ərazi iddialarını yenidən qaldırdılar. Avqustun 5-də və sonrakı məlumatlarında polkovnik Haskel Gürcüstan hökumətindən Paris Sülh konfransına şikayət edirdi. Guya, Gürcüstan hökuməti öz ərazisindən Ermənistana göndərilən yardımın daşınmasına icazə vermir. Avqust ayının 13-də Versalda olan Amerika nümayəndələri H.Huverin və V.Haskelin məlumatları əsasında Gürcüstan haqqında xüsusi məsələ müzakirə etdilər və bildirdilər ki, onlar Gürcüstan hökumətinin belə mövqeyinə sadəcə, seyrçi kimi yanaşmayacaqlar. Avqustun axırlarında Sülh konfransı Haskelin məlumatı əsasında yenidən Cənubi Qafqazdakı vəziyyəti müzakirə etdi. V.Haskelin göndərdiyi məlumatı J.Klemanso oxudu. Haskel qayda-qanun yaradılması üçün ya Amerika süvari korpusunun, ya da piyada briqadasının Ermənistana göndərilməsini xahiş edirdi.[999]

V.Haskelin Ermənistana Ali Komissar təyin edildikdən sonra göndərdiyi məlumatlar əsasında prezident V.Vilson Türkiyə sultanına hədələyici tələblər göndərdi. Avqust ayının 23-də İstanbuldakı Amerika Ali Komissarı admiral Bristol bu tələbləri Türkiyə Baş Nazirinə təqdim etdi. Tələblərin hazırlanma metodunda ermənilərin dəsti-xətti açıq-aydın hiss edilirdi. Orada deyilirdi: "Prezident Vilson Türkiyə hökumətinə xəbərdarlıq edir ki, əgər Qafqazda və digər yerlərdə türklər, kürdlər və digər müsəlmanlar tərəfindən ermənilərə münasibətdə təcavüz və qırğın dayandırılmasa, prezident Türkiyənin suverenliyinin saxlanmasını özündə ehtiva

996 Papers Relating to the Foreign Relations of the United States. The Paris Peace Conference. 1919, vol.X,p.532

997 Papers Relating to the Foreign Relations of the United States. The Paris Peace Conference. 1919, vol.VI, p.741

998 Г.Гамбашидзе. Из истории политики США в отношении Грузии, с.38.

999 Yenə orada, c.42



downloaded from KitabYurdu.az

edən 12-ci maddəni sülh müqaviləsindən çıxaracaqdır. Bu addım Osmanlı imperiyasının tamamilə çökməsini başa çatdıra bilər. Əgər türklər imperiyanın hansısa bir hissəsində suverenliyi saxlamaq istəyirlərsə, onda gərək sübut etsinlər ki, öz əhalisinin qeyd edilən cinayətlərdə iştirakını, nəinki dayandırmaq niyyətindədir, eyni zamanda bunu etməyə qabildir. Türk tərəfinin bu hadisələrin qabağını almaq üçün öz gücsüzlüyünə istinad etməsi qəbul edilməyəcəkdir."[1000] Belə tələblər və müraciətlər erməniləri Türkiyəyə, Azərbaycana və Gürcüstana qarşı daha təcavüzkar mövqedən hərəkət etməyə sövq edirdi. Getdikcə onlar özlərini ABŞ tərəfindən övladlığa götürülmüş, lakin böyük vərəsəlik iddiası olan yetim uşaq qismində təsəvvür edirdilər.

Ermənistana V.Haskelin müttəfiqlərin Ali Komissarı təyin edilməsi Türkiyə ilə yanaşı, Azərbaycan Respublikasının da Amerikanın Qafqaz siyasətinə cəlb edilməsinə təsir göstərdi. Yaranmış vəziyyətdən ermənilər indi ABŞ vasitəsi ilə Azərbaycana olan ərazi iddialarını həll etmək istəyirdilər. Avqustun ortalarında daşnak parlamentində çıxış edən V.Haskel ermənilərin ərazi iddialarını müdafiə etdiyini bildirmişdi. Ermənilər bu dəfə Qarabağ və Zəngəzur məsələlərini deyil, Naxçıvan və Şərur-Dərələyəz məsələlərini həll etmək istəyirdilər. V.Haskel öz çıxışında qeyd edirdi ki, Azərbaycan hökumətinin başçıları bu qəzalarla bağlı ermənilərin iddialarını qəbul etməzsə, onda onlar bu məsələyə "şəxsi məsuliyyət daşıyacaqlar."[1001]

Polkovnik V.Haskelin əməkdaşlarından biri kimi polkovnik Ceymis Pey Ali Komissarın Azərbaycan üzrə müvəkkili təyin edilmişdi. Eyni zamanda Tiflisdə olan Amerika konsulluğunun əməkdaşı Con Randolf da vitse-konsul kimi Bakıya göndərilmişdi.[1002]

Polkovnik V.Haskel bir müddət İrəvanda qaldıqdan sonra avqust ayının 28-də Bakıya gəldi. Baş nazir N.Usubbəyov, xarici işlər naziri M.Y.Cəfərov və Nazirlər Kabinəsinin digər üzvləri ilə çoxsaylı görüşlər keçirdi. Ermənistanın maraqlarını özündə ehtiva edən ərazi məsələləri ilə bağlı V.Haskel öz planını sentyabr ayının 1-də elan etdi. Bu plana görə, Amerika Ali Komissarı Qarabağı və Zəngəzuru Azərbaycanın ayrılmaz hissəsi hesab edirdi. Bunun müqabilində V.Haskel təklif edirdi ki, İrəvan quberniyasının cənub hissəsində olan Naxçıvan və Şərur-Dərələyəz qəzalarında neytral zona yaradılmalıdır.[1003] Həmin neytral zona Batumda olan ingilis general-qubernatorluğuna bənzər olmalı idi. Naxçıvan və Şərur-Dərələyəz torpaqlarından ibarət olacağı nəzərdə tutulan general qubernatorluğun Amerika nümayəndəsi tərəfindən idarə olunması planlaşdırılırdı.

---

[1000] Papers Relating to the Foreign Relations of the United States. The Paris Peace Conference. 1919, vol.VII, p.858
[1001] М.И.Найдель, Ю.В.Согомонов. К истории интервенции США в Закавказье. История СССР, 1961, №3, с.35
[1002] ARDA, f.2905, s.1, i. 20, v.2
[1003] ARDA, f.2905, s.l, i.20, v.2.



downloaded from KitabYurdu.az

Əlbəttə, bu planda həm amerikalıların və həm də ermənilərin öz niyyətləri var idi. Amerikalılar hələ nə qədər ki, Qafqaza istədikləri qədər ordu çıxara bilmirdilər, strateji baxımdan əlverişli olan Naxçıvan və Şərur-Dərələyəz general-qubernatorluğunu yaradıb, orada möhkəmlənmək niyyətində idilər. Birinci dünya müharibəsindən sonra Naxçıvan və Şərur-Dərələyəzin strateji mövqeyi təcridçilikdən geniş beynəlxalq əlaqələrə doğru ilk addımlarını atan Amerika üçün çox cəlbedici idi. Buradan gələcəkdə, nəinki Azərbaycana, Ermənistana, İran və Türkiyəyə, eləcə də bütün Yaxın və Orta Şərqə çox asanlıqla nüfuz etmək olardı. Ermənilərə gəldikdə isə, daşnak hökuməti hələ 1918-ci ilin noyabrında türk qoşunları Azərbaycandan çıxdıqdan sonra Naxçıvan və Şərur-Dərələyəz, Eçmiədzin qəzalarını, Qars vilayətini müsəlman əhalisindən təmizləyib, qeyd edilən ərazilərdə Ermənistan hökumətinin hakimiyyətini bərqərar etmək istəyirdi. Lakin bu yerlərin müsəlman əhalisinin güclü müqaviməti bu planın həyata keçməsinə mane olmuşdu. Hətta ingilis komandanlığı müvəqqəti olaraq, Naxçıvanın idarəçiliyini Ermənistana versə də, qəzanın əhalisinin böyük əksəriyyəti Azərbaycan türkləri olduğu üçün daşnak hökuməti bu qərarı həyata keçirə bilməmişdi.[1004]

1919-cu ilin mayında keçmiş xarici işlər naziri Xan Xoyski Tiflisdə general Tomsonla görüşdükdə, müttəfiqlərin baş komandanlığı tərəfindən Naxçıvanın idarəçiliyinin müvəqqəti olaraq, Ermənistan hökumətinə verilməsinə öz kəskin etirazını bildirmiş və Naxçıvan, Ordubad, Şərur-Dərələyəzin qədim Azərbaycan torpaqları olduğunu bildirmişdi.[1005] İndi silah gücünə öz hakimiyyətini qura bilməyən Ermənistan hökuməti, Amerika layihəsi üzrə bu ərazilərdə neytral zona yaradılmasına çalışırdı. Şübhəsiz ki, Amerika nümayəndəsinin idarə edəcəyi Naxçıvan və Şərur-Dərələyəz general-qubernatorluğu gələcəkdə bu ərazilərin Ermənistana keçməsi üçün əlverişli şərait yaratmalı idi. Düzdür, Azərbaycan hökumət başçıları ilə söhbətində Vilyam Haskel inandırmağa çalışırdı ki, o, "ermənilərin vəkili deyildir",[1006] lakin onun Azərbaycan hökumətinə Naxçıvan və Şərur-Dərələyəzlə bağlı təqdim etdiyi layihə bu ərazilərin gələcəkdə Ermənistana verilməsini asanlaşdırmağa xidmət edirdi.[1007]

Türklər Qafqazdan çıxdıqdan sonra Qars və Batum vilayətləri Tiflis quberniyasının Axalsıx və Axalkələk qəzaları ilə birlikdə mərkəzi Qars olmaqla Cənubi Qərbi Qafqaz respublikası yaratdılar. 1919-cu ilin yanvarında yaradılmış Parlamentə Çıldırlı Esad bəy, hökumətə isə Cahangiroğlu İbrahim bəy başçılıq

---

[1004] ARDA, f.2898, s.1, i. 6, v.2.
[1005] Xarici İşlər naziri M.Y.Cəfərovun Bakıda müttəfiq ordularının komandanı V.Tomsonla danışıqların yekunları barədə Nazirlər Şurasının sədri N.Usubbəyova məlumatı. 07.05.1919 // ARDA, f.970, s. 1, i. 60, v.3.
[1006] Борьба, 1919, 28 август - 2 сент.
[1007] Ermənistanda Amerika Ali Komissarı V.Haskelin Naxçıvan və Şərur-Dərələyəzdə Amerika general-qubernatorluğu yaradılması ilə bağlı layihəsi. 01.09.1919. // ARDA, f.970, s.1, i.93, v.3-4.



downloaded from KitabYurdu.az

edirdi.[1008] Qısa müddətdə ingilis valisi Temperley, Azərbaycan Respublikası və Türkiyə Cənub-Qərbi Qafqaz respublikasını tanımışdılar. Qonşu dövlətlərin təcavüzünə məruz qalan Cənub-Qərbi Qafqaz respublikası özünü müdafiə etmək üçün 8 min nəfərlik ordu yaratmışdı. 40 min kvadrat kilometr ərazisi, 1.763.148 nəfər əhalisi olan müstəqil Türk Respublikası altı aya qədər ömür sürdü. Millətlərin öz hüququnu təyinetmə prinsipinə əməl edilməklə yaradılmış Cənub-Qərbi Qafqaz respublikası 1919-cu ilin aprel ayında müttəfiqlərin baş komandanı general Tomsonun dekreti ilə buraxılmışdı.[1009]

V.Haskel layihəsinə keçməzdən əvvəl qeyd etmək lazımdır ki, Azərbaycanın Versal Sülh konfransında olan nümayəndələri də Ermənistan hökumətinin qədim Azərbaycan torpaqları olan Naxçıvan və Şərur-Dərələyəzi, Qafqazda olan Cənub-Qərbi Qafqaz Türk Respublikasını özünə birləşdirmək niyyətlərinə, daşnakların bu ərazilərdə törətdiyi zorakılıq aktlarına qarşı mübarizə aparırdılar. Bu barədə Ə.M.Topçubaşov avqust ayının 19-da Sülh konfransının sədrinə xüsusi etiraz notası təqdim etmişdi.[1010] Notada göstərilirdi ki, Azərbaycan nümayəndə heyəti respublikanın müstəqilliyini tanımaq barədə Sülh konfransı qarşısında çıxış edəcəyi günü səbirsizliklə gözlədiyi halda, bizim ölkəmizdə mühüm hadisələr baş verir, Sülh konfransının səlahiyyətinə aid olan məsələlərə müdaxilə edilir, Qafqaz Azərbaycanının ərazisi zor gücünə dəyişdirilir, əhalisi öz yurdlarından didərgin salınır. Azərbaycan sülh nümayəndə heyəti öz ölkəsindən rəsmi məlumat almışdır ki, Qars vilayəti, İrəvan quberniyasının Naxçıvan, Şərur-Dərələyəz, Sürməli qəzaları və İrəvan qəzasının bir hissəsi Ermənistan Respublikasına birləşdirilmişdir.[1011] Etiraz notasında xatırladılırdı ki, bütün bu ərazilər türk ordusu tərəfindən tutulmuşdu və saziş bağlanana qədər onların əlində olmuşdur. Orada qeyd olunurdu ki, parlamentin və hökumətin başçısı 11 nazirlə birlikdə ingilislər tərəfindən həbs edilmiş və Malta adasına sürgün edilmişdilər. Halbuki ingilis komandanlığı Azərbaycan xarici işlər naziri Xan Xoyskiyə vəd

---

[1008] ARDA, f.970, s.1, iş 27, v.7.

[1009] Qars vilayətinin Ermənistan Respublikasına birləşdirilməsi və Naxçıvan, Şərur-Dərələyəz, Sürməli qəzalarının, İrəvan qəzasının bir hissəsinin Ermənistana verilməsinə qarşı Ə.M.Topçubaşovun müttəfiqlərin sülh konfransındakı nümayəndələrinə etiraz notası. 19.08.1919. // ARDA, f.970, s.l, i.142, v.58; La Question de Nakhitchevan. Note Presentee A Le Conference de La Paix Par La Delegation de L'Azerbaidjan.// Bulletin d'Information d L'Azerbaidjan. Paris, 1919, 8 Septembre, №2, p.2

[1010] La Question de Nakhitchevan. Note Presentee A Le Conference de La Paix Par La Delegation de L'Azerbaidjan.// Bulletin d'Information d L'Azerbaidjan. Paris, 1919, 8 Septembre, №2, p. 1-4

[1011] Qars vilayətinin Ermənistan Respublikasına birləşdirilməsi və Naxçıvan, Şərur-Dərələyəz, Sürməli qəzalarının, İrəvan qəzasının bir hissəsinin Ermənistana verilməsinə qarşı Ə.M.Topçubaşovun müttəfiqlərin Sülh konfransındakı nümayəndələrinə etiraz notası. 19.08.1919. // ARDA, f.970, s.l, i. 142, v.56.; La Question de Nakhitchevan. Note Presentee A Le Conference de La Paix Par La Delegation de L'Azerbaidjan.// Bulletin d'Information d L'Azerbaidjan. Paris, 1919, 8 Septembre, №2, p.l; Bu dövrdə Naxçıvanda cərəyan edən hadisələr haqqında ətraflı məlumat üçün bax: İ.Musayev, Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı, 1996



downloaded from KitabYurdu.az

vermişdi ki, Cənub-Qərbi Qafqaz Respublikasını Paris Sülh konfransında bu ərazinin taleyi həll edilənə qədər qoruyub saxlayacaqdır. İngilislərdən sonra, aprel ayının 30-da guya qaçqınları yerləşdirmək adı altında Qarsa ermənilər, az sonra isə gürcülər daxil oldular. Qarsın işğal edilməsinə qarşı və orada törədilən cinayətlərə görə, Azərbaycan Respublikası Gürcüstan və Ermənistan Respublikalarına, Qafqazdakı ingilis ordusunun komandanlığına öz kəskin etirazını bildirdi.[1012] Versal Sülh konfransının sədrinə təqdim edilmiş notada Azərbaycan nümayəndələri yazırdılar: "Qars vilayətinin belə acı taleyinə Azərbaycan Respublikası adicə seyrçi kimi biganə yanaşa bilməz və yanaşılmamalıdır". Notada xatırladılırdı ki, Qarsın əhalisinin 60 faizi müsəlman olmaqla yanaşı, azərbaycanlılarla bir kökdən olan xalqdır. Ermənilər isə vilayət əhalisinin cəmisi 23,4 faizini təşkil edirdilər.[1013] Ermənilər qaçqınları qaytarmaq adı altında Qarsda milli tərkibi öz xeyirlərinə dəyişmək istəyirdilər.

Etiraz notasının ikinci hissəsi Naxçıvan və Şərur-Dərələyəz hadisələrindən bəhs edirdi. Burada göstərilirdi ki, Naxçıvan, Şərur-Dərələyəz, Sürməli və İrəvan qəzasının bir hissəsinin Ermənistana verilməsi ilə Azərbaycan hökuməti barışmayacaqdır. Etiraz notasında müttəfiq ölkələrin rəhbərlərinə bildirilirdi ki, Versalda olan Azərbaycan nümayəndələri Azərbaycan hökumətinin Naxçıvan qəzası ilə bağlı müttəfiqlərin komandanlığına təqdim etdiyi etiraz notasını müdafiə edir. Paris Sülh konfransına məlumat verilirdi ki, Naxçıvan, Şərur-Dərələyəz, Sürməli və İrəvan qəzasının bir hissəsinin Ermənistanın idarəçiliyinə verilməsi açıq şəkildə Azərbaycan Respublikasının hüquqlarının pozulması deməkdir. Belə bir aktın qəbul edilməsinin regionda daimi münaqişə ocağının yaradılmasına gətirib çıxaracağı böyük dövlətlərin nümayəndələrinə xəbərdarlıq edilirdi. Notada qeyd edilirdi ki, göstərilən ərazilərdə əhalinin milli tərkibi haqqında rəqəmlərin nəzərdən keçirilməsi bu əraziləri Azərbaycan torpaqları hesab etmək üçün kifayətdir. Müttəfiqlərin Versalda olan nümayəndələrinə bildirilirdi ki, Naxçıvan qəzasında 62,5 faiz azərbaycanlı, 36,7 faiz erməni, Şərur-Dərələyəzdə 72,3 faiz azərbaycanlı, 27,1 faiz erməni, Sürməlidə 68 faiz azərbaycanlı, 30,4 faiz erməni, İrəvan qəzasında 60,2 faiz azərbaycanlı, 37,4 faiz erməni yaşayır. Sonuncu qəza ilə bağlı qeyd etmək lazımdır ki, gətirilən rəqəmlər bütün qəza üzrə əhalinin nisbətini əks etdirir. Lakin bu qəzanın mübahisə obyekti olan Vedibasar və Millistanda

---

[1012] Xarici işlər naziri M.Y.Cəfərovun Zaqafqaziyadakı Britaniya qüvvələrinin komandanı general-mayor Q.N.Koriyə notası. 30.04.1919. // ARDA, f.2898, s.l, i. 6, v.2

[1013] Qars vilayətinin Ermənistan Respublikasına birləşdirilməsi və Naxçıvan, Şərur-Dərələyəz, Sürməli qəzalarının, İrəvan qəzasının bir hissəsinin Ermənistana verilməsinə qarşı Ə.M.Topçubaşovun müttəfiqlərin Sülh konfransındakı nümayəndələrinə etiraz notası. 19.08.1919. // ARDA, f.970, 8.1, i.142, v.58; U Question de Nakhitchevan. Note Presentee A Le Conference de La Paix Par La Delegation de L'Azerbaidjan.// Bulletin d'Information d L'Azerbaidjan. Paris, 1919, 8 Septembre, №2, p.2



downloaded from KitabYurdu.az

əhalinin 90 faizi azərbaycanlılar idi.[1014] Əslində əhalinin belə nisbəti Rusiya Qafqaza nüfuz etdikdən və qonşu dövlətlərdən erməniləri İrəvan və Naxçıvan vilayətlərinə köçürdükdən sonra yaranmışdı. Halbuki, Rusiya Qafqaza gələnə qədər İrəvan vilayətində 49 875 nəfər müsəlman, 20 073 nəfər erməni, Naxçıvan vilayətində isə 17 138 nəfər müsəlman, cəmisi 2690 nəfər erməni yaşayırdı.[1015] Bu qəzaların əhalisi 1918-ci ildə təşkil etdikləri müsəlman Milli Şurası vasitəsi ilə kəndbəkənd Azərbaycan Respublikasının idarəçiliyinə keçmək barədə qərar qəbul edib, Azərbaycan hökumətinə göndərmişdilər. Hətta Ordubadda 5 erməni kəndi də Azərbaycan Respublikasının tərkibində olmaq barədə akt tərtib etmişdi.[1016] Qeyd edilən ərazilərdə müsəlman əhalisinin sayını azaltmaq üçün ermənilər rəqəmlərin saxtalaşdırılması da daxil olmaqla müxtəlif üsullardan istifadə edirdilər. Birinci dünya müharibəsinin sonunda hazırlayıb Moskvaya göndərdikləri sənədlərdə onlar türk əhalisini müxtəlif etnik adlar altında verməklə buna nail olmağa cəhd göstərirdilər. Məsələn, ermənilərin Moskvaya göndərdikləri sənəddə Sürməli qəzasında əhalinin 59 faizinin türk, 11 faizinin kürd, 30 faizinin erməni olduğu bildirilirdi. Yaxud, Şərur-Dərələyəzdə 90 250 nəfər əhalinin 58 496 nəfərinin (64,8 faiz) türk, 29 165 nəfərinin (32,3 faiz) erməni, 2589 nəfərinin (2,9 faiz) digər millətlərin nümayəndələri olduğu qeyd edilirdi.[1017] Ermənistan hökuməti statistik məlumatları öz xeyrinə dəyişmək üçün etnik təmizləmə, deportasiya və yerli əhalinin məhv edilməsi üsullarına da tez-tez əl atırdı. Cənubi Qafqazda sovetləşmə prosesi başlananda qırmızı ordunun komandirləri olan Todorski və Sviridov sovetlərin Qafqaz canişini Q.K.Orconikidzeyə yazırdılar: "Araz çayı boyunca Uluxanlı stansiyasından Naxçıvana qədər əhalisi müsəlmanlardan ibarət olan, Arazın bol taxıl anbarı sayılan Şərur rayonu indi meyitlərin çürüdüyü ölüm vadisini xatırladır. Şərurun bütün əhalisinin bir hissəsi 1919-1920-ci illərdə Ermənistan Respublikasının hökumət ordusu tərəfindən məhv edildi, qalanı isə Türkiyəyə qovuldu, əmlakları indi Njdenin malikanəsini mühafizə edən mauzeristlər tərəfindən talan edildi. Bəşəriyyət hələ belə vəhşilikləri görməyib."[1018]

---

[1014] Qars vilayətinin Ermənistan Respublikasına birləşdirilməsi və Naxçıvan, Şərur-Dərələyəz, Sürməli qəzalarının, İrəvan qəzasının bir hissəsinin Ermənistana verilməsinə qarşı Ə.M.Topçubaşovun müttəfiqlərin Sülh konfransındakı nümayəndələrinə etiraz notası. 19.08.1919. // ARDA, f.970, s.1, i. 142, v.60-61; La Question de Nakhitchevan. Note Presentee A Le Conference de La Paix Par La Delegation de L'Azerbaidjan.// Bulletin d'Information d L'Azerbaidjan. Paris, 1919, 8 Septembre, №2, p.3

[1015] Гражданское управление Закавказьем от присоединения Грузии до наместничества Великого князя Михаила Николаевича. Исторический очерки. Тифлис, 1901, с.229

[1016] Naxçıvan, Ordubad, Şərur-Dərələyəz və Vedibasar vilayətlərinin müvəqqəti general-qubernatorunun Azərbaycan Respublikasının Ermənistanda diplomatik nümayəndəsinə məktubu. Oktyabr-dekabr, 1919. // ARDA, f.970, s.l, i 104, v.2-95

[1017] Ermənistan sonuncu erməni-türk müharibəsinin başlanmasına qədər. 28.02.1921. //RDSSTA, f.5, s.1, i. 2797, v.22

[1018] Zəngəzur əməliyyatının ideya təminatı. İyul, 1921. // RDSSTA, f.85, s.13, i.75, v.2



downloaded from KitabYurdu.az

Qeyd edilən ərazilərin əhalisinin, əsasən, müsəlmanlardan ibarət olduğu 1918-ci ilin dekabr ayında Qafqazda olan Fransa missiyasının hazırlayıb Parisə göndərdiyi geniş hesabatda da təsdiq edilir.[1019]

Bölgədə baş verən qanlı hadisələri nəzərə alaraq, Paris sülh konfransına təqdim olunan etiraz notasının axırında Sülh konfransından xahiş edilirdi ki, Qafqazda olan müttəfiq komandanlığı vasitəsi ilə iki mühüm məsələ həll edilsin: 1. Qars vilayətinin hüdudlarından müttəfiq qoşunlarından başqa bütün hərbi qüvvələr çıxarılsın, bu ərazinin taleyi həll edilənə qədər, onun idarəçiliyi yerli əhalinin arzusuna uyğun təşkil edilsin. 2. Naxçıvan, Şərur-Dərələyəz, Sürməli qəzalarının və İrəvan qəzasının bir hissəsinin idarəçiliyi Azərbaycan Respublikasının əlində saxlanılsın.[1020] Azərbaycan nümayəndələri etiraz notasını Sülh konfransına təqdim etməklə yanaşı, Müttəfiqlərin Parisdə olan bütün nümayəndələrinə də verdilər. Bu etiraz notasından sonra Qarsda baş vermiş hadisələrlə maraqlanan və Qafqaza Ali Komissar göndərilən Oliver Uordrop vasitəsilə faktları dəqiqləşdirən lord Kerzon Qars hadisələrində Ermənistan hökumətini günahlandırmışdı. Bununla bağlı Parisdə olan erməni nümayəndə heyətinin başçısı A.Ağaronyan Ermənistan Xarici İşlər Nazirliyinə göndərdiyi məlumatda məsləhət verirdi ki, təcili şəkildə Tiflisdə olan O.Uordropla görüşsünlər.[1021] Ermənilər lord Kerzonun belə mövqe tutmasına biganə qalmadılar. Daşnak A.Saqatelyan Ermənistan Xarici İşlər Nazirliyinin "İnformasiya bülletenin"də nəşr olunmuş "Antanta, bolşevizm və müsəlmançılıq" məqaləsində izah edirdi ki, guya, lord Kerzonun ermənilərə qarşı müsəlmanpərəst mövqe tutması vaxtilə onun Hindistanın vitse-kralı olması ilə bağlıdır. Hətta ermənilər Kerzonun Əfqanıstan siyasətini də onun "müsəlmanpərəstliyi" ilə əlaqələndirməyə çalışırdılar.[1022]

Müttəfiq komandanlığının qeyd edilən ərazilərlə bağlı ermənipərəst mövqeyinə baxmayaraq, bu qəzaların əhalisi Ermənistan hökumətinə tabe olmadılar. Daşnak hökumətinin öz hakimiyyətini silah gücünə yaymaq cəhdləri xeyli müsəlman kəndlərinin boşaldılması ilə nəticələnsə də, lakin bütövlükdə bu siyasət iflasa uğradı. Silah gücünə öz hakimiyyətini Naxçıvan, Şərur-Dərələyəz və Sürməlidə yaya bilməyən ermənilər 1919-cu ilin sentyabrından başlayaraq, buna Amerika diplomatiyası vasitəsi ilə nail olmaq istəyirdilər. Polkovnik Vilyam Haskel Sülh konfransı tərəfindən Ermənistana müvəkkil təyin edildiyindən, Ermənistan hökumətinin İrəvan quberniyasının yuxarıda adları çəkilən qəzalarını

---

1019 Considérations générales sur l'organisation du Caucase en cantons. Annexe № 1 au rapport № 1 du 10 décembre 1918. // Ministère des Affaires Etrangère de France, Archives Diplomatique,vol.832, folio 19

1020 La Question de Nakhitchevan. Note Presentee A Le Conference de La Paix Par La Delegation de L'Azerbaidjan.// Bulletin d'Information d L'Azerbaidjan. Paris, 1919, 8 Septembre, №2, p.3-4

1021 Ermənistan Respublikasının Paris Sülh konfransında olan nümayəndəliyinin başçısı A.Ağaronyanın xarici işlər nazirinə məktubu. Sentyabr, 1919.//ARPİİSPİHA, f.276, s.9, i.29, v.6

1022 Ermənistan Respublikasının Azərbaycandakı nümayəndəsi A.Saqatelyanın "Antanta, bolşevizm və müsəlmançılıq" adlı məruzəsinin surəti. 1920. // ARPİİ SPİHDA, f.276, s.9, i.38, v.2



downloaded from KitabYurdu.az

ələ keçirməsi üçün əlverişli şərait yaradırdı. İngilis komandanlığının Naxçıvan və Şəruru Ermənistan hökumətinin idarəçiliyinə vermək təcrübəsi özünü doğrultmadığı üçün bu dəfə yeni bir plan - Naxçıvan və Şərur-Dərələyəzdən ibarət Amerika general-qubernatorluğu yaratmaq planı irəli sürülmüşdü. Sentyabr ayının 1-də Azərbaycan hökumətinə verilmiş 20 bənddən ibarət Haskel layihəsində, əslində Naxçıvan və Şərur-Dərələyəzin Azərbaycandan ayrılması öz əksini tapmışdı. Layihədə göstərilirdi: Amerikanların yaratdığı neytral zonaya Naxçıvan və Şərur-Dərələyəz daxil edilir, neytral zonanın idarəçiliyi polkovnik Haskelin təyin etdiyi Amerika general-qubernatorunun əlində olacaqdır; ermənilərin üstünlük təşkil etdiyi (bu amerikanlar tərəfindən müəyyən edilməli idi) yerləri çıxmaq şərti ilə yerli hakimiyyət azərbaycanlıların əlində qalırdı; Azərbaycan və erməni hökumətləri neytral zonada olan öz qoşunlarını geri çağırmalı idilər; hər hansı tərəfin qoşunu bura, yalnız, Amerika qubernatorunun icazəsi ilə daxil ola bilərdi; Azərbaycan və Ermənistan hökumətləri təcili olaraq, yerli əhali arasında təbliğat aparan öz nümayəndələrini və ona rəğbət bəsləyən ölkənin nümayəndələrini neytral zonadan çıxarmalıdır; hər iki tərəf 1919-cu ilin 1 sentyabrına qədər törədilmiş hadisələrə görə həbs edilənlərə amnistiya verməlidir; yerli çinovniklər Amerika qubernatoru tərəfindən təyin edilir və qubernator neytral zonanın hüdudlarında istənilən çinovniki dəyişdirmək hüququna malikdir; Azərbaycan hökuməti neytral zonada və İrəvan rayonunda azərbaycanlı, Ermənistan hökuməti isə neytral zonada və Zəngəzur rayonunda erməni əhalisini sakitləşdirmək üçün öz nüfuzundan istifadə etməlidir; Azərbaycan və Ermənistan hökumətləri öz ərazilərində yaşayan azərbaycanlı və erməni əhalisinin həyatının və əmlakının toxunulmazlığına təminat verməlidir; neytral zonanın hüdudlarında olan dəmir yolu xətti üzərində nəzarət hüququ Amerika general-qubernatoruna keçməlidir; Azərbaycan hökuməti "Yaxın Şərqə Amerika Yardım Komitəsi"nin Şuşa və Gorusda nəzərdə tutulan yardım tədbirlərinin həyata keçirilməsinə mane olmamalıdır; Azərbaycan hökuməti erməni qaçqınlarının öz yerlərinə qayıtmasına razılıq verməli və onlara yardım göstərməlidir; Böyük Vedinin azərbaycanlı əhalisi Amerika qubernatorunun müşayiəti ilə neytral zonanın hüdudlarından digər yerə köçürülməlidir və onlara şərait yaradılmalıdır ki, bütün əmlaklarını özləri ilə götürsünlər; hazırda inşa edilən Bakı-Culfa dəmir yolu Azərbaycan hökumətinin səlahiyyətində qalmalıdır; Amerika qubernatorunun idarəçiliyi dövründə neytral zonanı idarə etmək üçün lazım olan maddi vəsait yerli vergilər hesabına ödənilməlidir, bu məqsədlə Azərbaycan hökumətindən əlavə vəsait tələb edilməlidir və s.[1023] İlk baxışda layihənin məzmunundan aydın olur ki, belə bir layihə amerikanlar tərəfindən hazırlana bilməzdi. Bu müttəfiqlərin Ali Komissarı Vilyam Haskelin adı ilə elan edilmiş erməni layihəsi idi. Lakin bu layihə Azərbaycan hökuməti tərəfindən qəbul edilmədiyi üçün sentyabrın 27-də Vilyam

---

[1023] Zaqafqaziyada Amerika Ali Komissarı V.Haskelin Naxçıvan və Şərur-Dərələyəzdə Amerika general-qubernatorluğu yaradılması ilə bağlı yeni layihəsi. 27.09.1919. // ARDA, f.970, s.1. i. 93, v.3-5



downloaded from KitabYurdu.az

Haskel bir qədər yumşaldılmış, əslində isə mahiyyət etibarı ilə birincidən o qədər fərqlənməyən 12 bənddən ibarət ikinci layihəni Azərbaycan hökumətinə göndərdi.[1024] Azərbaycan xarici işlər naziri sentyabr ayının 29-da Haskelə yazırdı ki, onun hökuməti Naxçıvan və Şərur-Dərələyəz qəzalarında xüsusi general qubernatorluğunun yaradılmasının əleyhinə deyildir, lakin təklif edilən şərtlərin bir qisminə etiraz edir.[1025] Bu məsələ ilə bağlı Azərbaycan hökuməti general-qubernatorluq barədə özünün tərtib etdiyi layihəni sentyabr ayının axırlarında polkovnik Haskelə göndərdi. 12 bənddən ibarət layihədə göstərilirdi: Naxçıvan və Şərur-Dərələyəz qəzalarında müvəqqəti olaraq, xüsusi general-qubernatorluq yaradılır; general-qubernatoru Amerika vətəndaşları içərisindən polkovnik Haskel təyin edir; bu qəzalar ümumi, birbaşa, bərabər və gizli səsvermə yolu ilə seçilən yerli Şuralar tərəfindən idarə edilir; vilayətdə bütün hakimiyyət - inzibati, məhkəmə, dəmir və şose yolları, poçt-teleqraf, xalq maarifi və sair Şuranın müstəsna səlahiyyətinə daxil edilir və bu işi general-qubernator tənzim edir; Şura tərəfindən təyin edilən icra hakimiyyəti çoxluq təşkil edən millətin nümayəndəsindən olmalıdır; bütün general-qubernatorluqda mətbuat, vicdan, söz azadlığı, şəxsiyyətin və əmlakını toxunulmazlığı elan edilməlidir; general-qubernatorluğun büdcəsinə Azərbaycan parlamentində baxılmalı, çatışmayan məbləğ Azərbaycan xəzinəsindən əlavə edilməlidir; Azərbaycan pulu rəsmi pul vahidi kimi qəbul edilməlidir; seçkilər keçirilənə qədər general-qubernator Azərbaycandan iki məsləhətçi dəvət edib, onların köməyi ilə qayda-qanun yaratmalıdır; neytral zonadan Bakı-Culfa dəmir yolunun keçdiyi xüsusi zolaq ayrılıb, Azərbaycan hökumətinə verilməlidir; general-qubernatorluğun əhalisi tərksilah edilməməlidir; general-qubernatorluğun bütün ərazisində amnistiya keçirilməlidir.[1026] Lakin Azərbaycan hökuməti tərəfindən tərtib edilən layihə Haskel tərəfindən qəbul edilmədi. Sentyabr ayının ortalarında Haskel Naxçıvan, Şərur və Ordubad nümayəndələri Əli Səbri Qasımovu və Ələsgərovu qəbul edərək bildirdi ki, Birləşmiş Ştatların ordu mühəndisi polkovnik Edmond Deli Naxçıvana qubernator təyin edilmişdir və oktyabr ayının 23-də öz vəzifəsinə başlayacaqdır. Nümayəndələr adından Əli Səbri Qasımov Naxçıvan əhalisinin on bənddən ibarət olan tələblərini V.Haskelə təqdim etdi. Burada Naxçıvan əhalisinin bu rayona erməni qoşunu yeridilməsinə razı olmayacağı, bu qəzaların əhalisinin Ermənistan hökumətinə tabe olmayacağı və lazım gələrsə, azərbaycanlı əhalinin öz istiqlaliyyətini silahlı yolla qoruyacağı göstərilirdi.[1027]

---

[1024] Zaqafqaziyada Amerika Ali Komissarı V.Haskelin Naxçıvan və Şərur-Dərələyəzdə Amerika general-qubernatorluğu yaradılması ilə bağlı yeni layihəsi. 27.09.1919. // ARDA, f.970, s.1, i.93, v.6

[1025] Azərbaycan Respublikası Xarici işlər naziri M.Y.Cəfərovun Zaqafqaziya Amerika Ali Komissarı V.Haskelə məktubu. 29.09.1919. // ARDA, f.970, s.1, i. 93, v.9

[1026] Азербайджан, 1919, 23 октября.

[1027] Yenə orada.



downloaded from KitabYurdu.az

Ümumiyyətlə, türklər Naxçıvanı tərk etdikdən sonra bu regionun əhalisi özünü erməni talanlarından silah gücünə müdafiə edirdi. Azərbaycan hökuməti bütün vasitələrlə İrəvan quberniyasının müsəlman qəzalarının istiqlaliyyət uğrunda mübarizəsini müdafiə edirdi. Ermənilər bu regionu özlərinə tabe edə bilməməklərini həmişə guya burada türk əsgərlərinin olması ilə əlaqələndirirdilər və buna ingilisləri və amerikanları qıcıqlandırmaq üçün bir vasitə kimi baxırdılar. İrəvan quberniyasının müsəlman qəzalarının ermənilərə uğurlu müqavimətində Azərbaycan Respublikasının Ermənistandakı diplomatik nümayəndəsi Məmməd xan Təkinski böyük rol oynamışdı. Əgər müttəfiqlər işə qarışmasaydılar Naxçıvan, Şərur-Dərələyəz, Sürməli qəzalarının əhalisi özünü erməni hücumlarından qorumaq iqtidarında idi. İyul ayının 11-də M.Təkinski Azərbaycan Xarici İşlər Nazirliyinə şifrəli məlumatlar yazırdı ki, Böyük Vedidə erməni ordusunun hücumu dəf edilmişdir, İrəvana çoxlu yaralı erməni əsgərləri gətirirlər, ölmüş erməni əsgərlərinin sayı 200-dən çoxdur. Müsəlmanlar ermənilərdən iki top və səkkiz pulemyot müsadirə etmişlər. Ermənilərin əhvali-ruhiyyəsi aşağı düşüb. Onlar uğursuzluğu ingilis missiyasına inandırmaq istədikləri guya döyüşlərdə türk əsgərlərinin iştirakı ilə izah etməyə çalışırlar. Qəti şəkildə demək olar ki, bu kəndlərdə heç bir türk əsgəri yoxdur.[1028]

Amerikalıların Ermənistanda hərbi qüvvəsi olmadığı, erməni ordusu isə əslində, bu işin öhdəsindən gələ bilmədiyi üçün Haskel müsəlman qəzalarında ümumxalq həyəcanının qalxmasından ehtiyat edir və əhalini sakitləşdirmək üçün diplomatik vasitələrə əl atırdı. O, neytral zonanın müsəlman əhalisinə vəd edirdi ki, onların hüquqları Paris Sülh konfransında nəzərə alınacaqdır.[1029] Oktyabr ayının əvvəllərində xarici işlər naziri M.Y.Cəfərova teleqramında Haskel bildirirdi ki, yaxın vaxtlarda o, Parisə gedəcək, əgər Azərbaycan hökuməti neytral zonaya daxil olan ərazilərdə əhalinin sakitləşdirilməsinə yardım edərsə və neytral zona yaradılması haqqında Amerika planını müdafiə edərsə, Haskel vəd verirdi ki, Paris Sülh konfransı qarşısında Azərbaycanın tanınması məsələsini qaldıracaqdır.[1030] Hətta bu məqsədlə Amerika missiyasının üzvləri podpolkovnik J.A.Ulio və mayor Parker K.Kollok Azərbaycan hökumətindən yazılı şəkildə xahiş edirdilər ki, Sülh konfransı üçün məruzə hazırlandığından Azərbaycana aid statistik məlumatlar xəritələrlə birlikdə, Sülh konfransına təqdim edilmək üçün iki nüsxədən ibarət memorandum formasında Amerika Ali Komissarlığına göndərilsin. Oktyabr ayının 4-də Azərbaycan xarici işlər naziri, Haskelə göndərdiyi notada yazırdı ki, Azərbaycan hökuməti, onun təklifləri və mənafeyi nəzərə alınmaqla bu ərazinin

---

[1028] Azərbaycanın Ermənistanda diplomatik nümayəndəsi M.X.Təkinskinin xarici işlər naziri M.Y.Cəfərova şifrəli teleqramı: 11.07.1919. // ARDA, f.970, s.l, i. 54, v.52

[1029] ARDA, f.970, s.1, i.213, v.9

[1030] Zaqafqaziyada Amerika Ali Komissarı V.Haskelin xarici işlər naziri M.Y.Cəfərova teleqramı. Oktyabr, 1919. // ARDA, f.970, s.l, i 93, v.9



downloaded from KitabYurdu.az

yalnız Azərbaycanın ayrılmaz hissəsi kimi Amerika general-qubernatorluğu tərəfindən idarə edilməsinə razılıq verə bilər. M.Y.Cəfərov polkovnik Haskelə göndərdiyi notada Azərbaycan xalqının prezident Vilson tərəfindən elan olunmuş xalqların hüquqlarına dair prinsipinə uyğun olan ədalətli tələblərinin onun tərəfindən Sülh konfransında müdafiə olunacağına ümidvar olduğunu bildirirdi. Məktubda İrəvan quberniyasında Azərbaycan xalqının öz iradəsinə uyğun olaraq bərqərar etdiyi hüquqlarının da Vilyam Haskel tərəfindən Sülh konfransı qarşısında müdafiə olunması arzu edilirdi.[1031]

Amerika missiyası Denikin təhlükəsindən də neytral zona yaradılması məqsədi ilə istifadə etmək istəyirdi. Denikin təhlükəsi ilə bağlı Şimal sərhədlərində neytral zona yaradılması haqqında Xarici İşlər Nazirliyinin sorğusuna Haskel cavab verirdi ki, Naxçıvan və Şərur-Dərələyəzdə neytral zona yaradılmayınca mənim tərəfimdən Denikinlə və digər məsələlərlə bağlı heç bir addım atılmayacaqdır.[1032]

Haskel layihəsi elan edildikdən sonra təkcə Naxçıvanı deyil, İrəvan quberniyasının bütün müsəlman qəzalarını xalq həyəcanı bürümüşdü. Azərbaycan Xarici İşlər Nazirliyinin Versaldakı Azərbaycan nümayəndələrinə göndərdiyi məlumatda göstərilirdi ki, İrəvan quberniyasında vəziyyət üsyan həddinə çatıb, bu ərazidə Böyük Vedi üsyanı xüsusilə kəskin xarakter alıb, erməni qüvvələrinin tamamilə darmadağın edilməsi ilə nəticələndi və erməni ordusu İrəvan şəhərinin özünə qədər geri oturduldu.[1033] Məlumatda qeyd edilirdi ki, Şərur-Dərələyəzdə müsəlmanların hərəkatına erməni dəstələri və hərbi hissələri tərəfindən incidilən Kağızman əhalisi və Eçmiədzin qəzasının sakinləri də qoşuldular. Hazırda İrəvan quberniyasının bütün müsəlman əhalisi güclü şəkildə həyəcanlanmışdır. İrəvan quberniyasının dinc müsəlman əhalisinə divan tutulması Azərbaycan xalqının və siyasi dairələrinin də narazılığına səbəb olmuşdur. Şübhəsiz ki, hökumət belə zorakılıq aktlarına və incidilən müsəlman əhalisinin yardım çağırışlarına biganə qala bilməzdi. Ona görə də Azərbaycan hökuməti avqust ayında olduğu kimi və sentyabr ayında da İrəvan quberniyası müsəlmanlarına qarşı ermənilərin törətdiyi zorakılıqlara qarşı Ermənistan hökumətinə qəti etiraz notası göndərmişdi.[1034]

---

[1031] Xarici işlər naziri M.Y.Cəfərovun müttəfiqlərin Zaqafqaziyada Ali komissarı U.Haskelə notası. 04.10.1919. // ARPİİ SPİHDA, f.277, s.2, i.18. v.18

[1032] Zaqafqaziyada müttəfiqlərin ali komissarı U.Haskelin xarici işlər naziri M.Y.Cəfərova teleqramı. 26.10.1919.//ARDA, f.970, s.1, i.93, v.7

[1033] Azərbaycan Xarici İşlər Nazirliyinin Versaldakı Azərbaycan nümayəndəliyinə məlumatı. Oktyabr, 1919. // ARDA, f.2905, s.1, i.20, v.2

[1034] La situation de la population musulmane dans la Republique d'Armenie. // Bulletin d'Information de L'Azerbaidjan. Paris, 1919, 13 Octobre, №3, p.4-6; Xarici işlər naziri M.Y.Cəfərovun Ermənistan Respublikası Xarici İşlər Nazirliyinə notası. 22.09.1919. // ARDA, f.970, s.l, i.184, v.16-17; Note de l'Azerbaidjan a l'Armenie. 22 septembre 1919. // Bulletin d'Information de L'Azerbaidjan. Paris, 1919, 15 Decembre, №5, p.1-2



downloaded from KitabYurdu.az

Oktyabrın ortalarında polkovnik Haskel Parisə çağırıldıqdan sonra onun müavini polkovnik Ceymis Rey neytral zona məsələsini müzakirə etmək üçün Bakıya gəlmişdi. Hələ bundan iki həftə əvvəl İstanbuldakı Amerika səfirliyinin nümayəndəsi mayor Doyl da Azərbaycan paytaxtına gəlmişdi.[1035] Danışıqlar zamanı Ceymis Rey Azərbaycan hökumətinə təklif edirdi ki, hökumət öz nümayəndəsini onunla birlikdə neytral zona məsələsini həll etmək üçün İrəvana və Naxçıvana ezam etsin. Bununla amerikanlar yerli əhaliyə göstərmək istəyirdilər ki, Azərbaycan hökuməti neytral zona yaradılmasına tərəfdardır. Lakin hökumət buna etiraz edərək bildirdi ki, o, əhalini çaşdıra bilməz və hökumət tərəfindən bəyənilməyən prinsiplərin bərqərar edilməsində iştirak edə bilməz. Bununla belə, polkovnik Reyə bildirildi ki, əgər əhali amerikanlar tərəfindən təklif olunan şərtlərə razı olarsa, (İrəvan quberniyası müsəlman qəzalarının əhalisinin neytral zona yaradılmasına qarşı kütləvi həyəcanları Azərbaycan hökumətinə məlum idi - C.H.), hökumət neytral zonanın yaradılmasına müqavimət göstərməyəcəkdir. Paris Sülh konfransına göndərilən hökumət məlumatında qeyd edilirdi ki, bu etiraz polkovnik Reyi elə də təmin etmədi və o, Naxçıvana tək qayıtmalı oldu.[1036]

Oktyabr ayının 24-də Ceymis S.Rey Naxçıvana gəldi və müsəlman Milli Şurası qarşısında neytral zona yaratmaq barədə Amerika Ali Komissarı Vilyam Haskelin bəyanatını elan etdi. Bəyanatda deyilirdi: "Ermənilərlə azərbaycanlılar arasında silahlı toqquşmanın dincliyi pozduğunu, vətəndaşların həyatı və əmlakı üçün təhlükə yarandığını, Ermənistan və Azərbaycanın bu əraziyə iddiası olduğunu, Şərur və Naxçıvana Ermənistan və Azərbaycanın hüququnun hələlik Sülh konfransı tərəfindən həll edilmədiyini, Ermənistan və Azərbaycanın bu ərazini idarə etmək üçün qarşılıqlı razılığa gələ bilmədiyini, Ermənistan və Azərbaycanın bu ərazidə sülh yaratmaq arzularını nəzərə alaraq... mən Vilyam N.Haskel Sülh konfransının mənim üzərimə qoyduğu vəkalətə əsaslanaraq, Amerika Birləşmiş Ştatları, Fransa, Böyük Britaniya və İtaliya Ali Komissarı kimi... Şərur və Naxçıvan dairəsində, Amerika qubernatorunun rəhbərliyi altında müttəfiq idarəçilik zonasının yaradıldığını... Şimali Amerika Birləşmiş Ştatları ordusunun hərbi mühəndisi polkovnik Edmund L.Dellinin bu zonaya qubernator təyin edildiyini bildirirəm.[1037] V.Haskeli əvəz edən Ceymis Rey bu bəyanata uyğun iki bənddən ibarət Şərur və Naxçıvanda Amerika qubernatorluğu yaradılması, polkovnik Edmund L.Dellinin qubernator təyin edilməsi haqqında sərəncam imzaladı. Lakin Naxçıvan Milli Şurasının və bütün Naxçıvan əhalisinin təkidi ilə Ceymis Rey bu qərarını dəyişməli oldu. Polkovnik Delli Naxçıvanda general-qubernator kimi deyil, Amerika Ali Komissarın nümayəndəsi kimi qaldı. Ceymis Reyin Naxçıvana səfəri ilə bağlı Naxçıvan Milli Şurasının üzvü S.Cəmillinski

---

[1035] Азербайджан, 1919, 23 сентября.

[1036] Azərbaycan Xarici İşlər Nazirliyinin Versaldakı Azərbaycan nümayəndəliyinə məlumatı. Oktyabr, 1919. //ARDA, f.2905, s.l, i. 20, v.7.

[1037] Azərbaycan arxivi, 1988, №1-2, s.153



downloaded from KitabYurdu.az

Azərbaycan Respublikasının Ermənistandakı diplomatik nümayəndəsi M.Təkinskiyə oktyabr ayının 26-da yazırdı ki, o özü, Xəlil bəy, Kəlbalı xan, D.Məmmədov və digərləri polkovnik Reylə iki günlük danışıqlar apardılar. "Ceymis Rey razılıq verdi ki, polkovnik Dellini general-qubernator kimi deyil, Sülh konfransının, yaxud Amerikanın nümayəndəsi kimi burada saxlasın. Bu nümayəndə bizim idarəçilik işlərimizə qəti surətdə müdaxilə etməyəcək və ermənilərlə bizim aramızda sülh yaratmaq, bizim qaçqınlara kömək etmək istiqamətində fəaliyyət göstərəcəkdir."[1038] S.Cəmillinski qeyd edirdi ki, danışıqlar zamanı məlum oldu ki, artıq burada müttəfiqlərin xüsusi idarə zonasının yaradılması məsələsi təxirə salınır və bir çox cəhətlərinə görə bu diyarın Azərbaycana birləşməsinə amerikanların razılığı hiss edilir. Naxçıvanda olduğu müddətdə Ceymis Rey və digər Amerika nümayəndələri başa düşdülər ki, neytral zona üçün nəzərdə tutulan ərazini Azərbaycandan ayırmaq qeyri-mümkündür.

Noyabr ayında Ermənistanda olan ABŞ zabitlərinin Dellinin sərəncamına gəlməsi Naxçıvan və Şərur əhalisinin bərk həyəcanına səbəb oldu. Yaranmış vəziyyətdən çıxış yolu kimi Delli zabitləri İrəvana qaytarmalı oldu.[1039] 1920 -ci ilin yanvarında amerikanlar tamamilə Şərur və Naxçıvanın hüdudlarından çıxdılar.

ABŞ missiyasının Qafqazda olduğu müddətdə Tiflisdə noyabr ayının 23-də onların vasitəçiliyi ilə Ermənistanla Azərbaycan arasında saziş imzalandı. Amerikanlarla yanaşı, ingilislər də iki respublika arasında hərbi əməliyyatların dayandırılması və sülh bağlanmasına təşəbbüs etmişdilər. Noyabrın 16-da Britaniya Ali Komissarı O.Uordrop Azərbaycan və Ermənistan hökumətlərinə bu məqsədlə teleqram göndərmişdir.[1040] Lakin son anda amerikanlar vasitəçilik etdilər. Sazişdə tərəflər təsbit edirdilər ki, hazırda cərəyan edən toqquşmanı dayandırmağa və yenidən silaha əl atmamağa çalışacaqlar. Ermənistan və Azərbaycan hökumətləri razılığa gəlirdilər ki, dinc əhalinin hərəkəti üçün Zəngəzurdan keçən yolu açmalıdırlar, tərəflər öz üzərlərinə öhdəlik götürürdülər ki, bütün mübahisəli məsələləri, o cümlədən sərhədlər məsələsini də dinc sazişlər vasitəsi ilə həll etməlidirlər. Bu sazişin üçüncü bəndi tərəflər arasında razılıq əldə edilməyəcəyi təqdirdə amerikanlara münsiflər məhkəməsi rolu oynamaq imkanı verirdi. Orada göstərilirdi ki, əgər tərəflər hər hansı məsələni dinc yolla həll edə bilməsələr, neytral şəxsdən ibarət münsiflər məhkəməsi seçilməli və bu məhkəmənin qərarını özləri üçün məcburi hesab etməlidirlər. Sazişə görə, belə neytral şəxs Amerika ordusunun polkovniki Ceymis S.Reydir. Sazişin dördüncü bəndinə əsasən,

---

[1038] Naxçıvanın general-qubernatoru vəzifəsini icra edən S.Cəmillinskinin polkovnik Dellinin Naxçıvanda ABŞ nümayəndəsi vəkalətini alması haqqında Azərbaycanın Ermənistanda diplomatik nümayəndəsi Ə.Haqverdiyevə məlumatı. 26.10.1919. // ARDA, f.897, s.l, i.57, v.12.

[1039] Q.Mədətov Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi və Naxçıvan MSSR-in yaradılması. Bakı, 1958, s.59-60

[1040] Tiflisdəki Britaniya ali komissarı O.Uordropun Azərbaycan və Ermənistan hökumətlərinə teleqramı. 16.11.1919. //ARDA, f.970, s.1, i. 144, v.50



downloaded from KitabYurdu.az

mübahisəli məsələləri müzakirə etmək üçün tərəflər bərabər sayda, yubanmadan Bakı və Tiflis konfransına nümayəndələr göndərməli idilər. Saziş imzalandığı andan etibarən qüvvəyə minirdi.[1041] Sazişi Azərbaycan Nazirlər Şurasının sədri N.Usubbəyov və Ermənistan nazirlər şurasının sədri A.Xatisov imzalamışdılar. Bunlardan əlavə təminatçı kimi sazişə ABŞ tərəfindən Ceymis Rey, Gürcüstan Respublikası tərəfindən xarici işlər naziri və müvəqqəti prezident E.P.Geqeçkori də imza atmışdılar.[1042] Amerikalılar belə hesab edirdi ki, bu saziş Qafqaz respublikaları arasında həmrəyliyi gücləndirəcək və onların Denikin təhlükəsinə qarşı müqavimətlərini artıracaqdır. Paris Sülh konfransının rəhbərliyinə göndərdiyi teleqramda Haskel ABŞ və Gürcüstanın iştirakı ilə azərbaycanlılarla ermənilər arasında imzalanmış sazişi yüksək qiymətləndirir və Denikin təhlükəsi şəraitində bunu əhəmiyyətli hadisə hesab edirdi. Əks təqdirdə Haskel belə hesab edirdi ki, Denikinin Dağıstandan Azərbaycana hücumu Azərbaycanı Türkiyədən kömək istəməyə vadar edə bilərdi.[1043] Sazişin Cənubi Qafqazda sülh yaradacağı barədə Tiflisdə olan Fransa hərbi missiyası da Parisə noyabr ayının 24-də teleqram göndərmişdi.[1044] Lakin bu saziş müvəqqəti sakitlik yaratsa da, tərəflər arasında ziddiyyətlər çox güclü olduğundan, az sonra amerikanlar Qafqazdan çıxdığından, dekabr ayında keçirilən konfrans uğurlu nəticə vermədiyindən uzun ömürlü olmadı.

Sazişin imzalanmasından az sonra erməni hərbi hissələri Zəngəzura hücum edib, bir neçə müsəlman kəndini dağıtdı, Dərələyəz bölgəsində 300 nəfərin ölümü ilə nəticələnən qanlı hadisələr baş verdi.[1045] Azərbaycanın xarici işlər naziri M.Y.Cəfərovun noyabr ayının 29-da göndərdiyi kəskin notaya cavab olaraq, erməni tərəfi bildirdi ki, bu əməliyyatlar Dərələyəzdən Zəngəzur istiqamətinə hərəkət edən türk zabiti Xəlil bəyin başçılığı altında olan hücumun qarşısını almağa yönəlmişdir və notada göstərilən ölüm hallarından onların məlumatı yoxdur. Erməni tərəfi vurğulayırdı ki, onlar 23 noyabr tarixli sazişin bəndlərinə

---

[1041] Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında saziş. 23.11.1919. // AR Pİİ SPİHDA, f.276, s.9, i.29, v.1-2

[1042] Entente conclue entre le Président Khatissov, Représentant le Gouvernement de l'Arménie, et le Président Oussoubekov, Représentant le Gouvernement d'Azerbaïdjan.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol.638, folio 140

[1043] Papers Relating to the Foreign Relations of the United States. The Paris Peace conference. 1919, vol.IX. US Government Printing office. Washington, 1946, p.606-607; Télégramme de Constantinople en date du 1[o] décembre 1919, adressé par le Colonel Haskell.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique,vol.638, folio 148; Délégation Américaine Télégramme de Constantinople en date du 1[er] décembre 1919, adressé par le Colonel Haskell. //Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol.832, folio 127; Commission américaine pour la négociation de la paixParis, le 5 décembre 1919.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol.832, folio 130

[1044] Le Commandant de Nonancourt, Chef P.I. de la Mission Militaire Française au Caucase, à Monsieur le Ministre de la Guerre, Etat-Major de l'Armée - 2[éme] Bureau. // Ministère des Affaires Etrangère de France, Archives Diplomatique,vol.638, folio 142

[1045] Азербайджан, 1919, 3 декабря.



downloaded from KitabYurdu.az

əməl edirlər.[1046] Azərbaycan tərəfi erməni hökumətinin bu cür münasibətindən sonra baş vermiş qanlı hadisələri müttəfiqlərin Cənubi Qafqazdakı nümayəndələrinin diqqətinə çatdırdı. Dekabr ayının 8-də Haskelə göndərdiyi teleqramda Baş nazir N.Usubbəyov yazırdı: "Noyabr ayının 23-də Tiflisdə imzalanmış sazişə uyğun olaraq, Azərbaycan hökuməti Zəngəzurda olan öz ordusunu geri çağırmışdır və indi orada bir nəfər də olsun, Azərbaycan əsgəri yoxdur. Bu şəraitdə top və pulemyotlarla silahlanmış erməni hərbi hissələri fəallaşaraq, müsəlman əhalisini qırmağa və onların əmlakını talan etməyə başlamışdır. Təəssüf ki, bütün bunlar polkovnik Reyin iştirakı ilə keçirilən Tiflis müşavirəsində mənim ifadə etdiyim narahatlığı doğrultmuşdur. Yuxarıda deyilənlərə əsasən, sizdən xahiş edirəm beş gündən gec olmayaraq, erməni dəstələrinin əlində olan top və pulemyotları müsadirə etmək üçün Zəngəzura Amerika zabitlərindən ibarət komissiya göndərəsiniz. Bu tədbir həyata keçməsə, Azərbaycan hökuməti günahsız insanların qanının tökülməsinə və öz vətəndaşlarının üzləşdiyi arası kəsilməyən vəhşiliklərə seyrçi qala bilməz."[1047] Dekabr ayının 11-də V.Haskel xarici işlər naziri M.Y.Cəfərova yazırdı ki, sizin 8 dekabr teleqramınızı aldım və aşağıdakı əlavə ilə birlikdə Ermənistan hökumətinə verdim. Amerika Ali Komissarı qeyd edilən əlavədə xatırladırdı ki, "əgər yoxlamalar zamanı Azərbaycan tərəfinin ittihamları təsdiqlənərsə, bu Ermənistanın gələcəyinə vurulmuş çox güclü zərbə olacaqdır."[1048]

1919-cu il noyabr ayının əvvəllərində Versal Sülh konfransına Cənubi Qafqazda vəziyyət haqqında məlumat vermək üçün Parisə dəvət edilmiş V.Haskel Ə.M.Topçubaşova məktub yazıb Azərbaycan nümayəndələri ilə görüşdü. Parisdə verdiyi müsahibələrində Haskel Naxçıvan general-qubernatorluğunun yaradılmasının əhəmiyyətsiz olduğunu başa düşərək, bu məsələyə toxunmadı. İndi artıq o, belə hesab edirdi ki, Cənubi Qafqazda yeganə çıxış yolu bu regionun bütövlükdə mandatının hər hansı bir ölkə tərəfindən götürülməsindədir. Ə.M.Topçubaşov polkovnik Haskellə Parisdəki görüşü barədə Azərbaycan hökumətinə yazırdı: "Cənab Haskel bizdə gördüyü qayda-qanun haqda tərifli sözlər dedi. Bakıdakı qəbuldan çox razıdır, bizim sadə xalq onun çox xoşuna gəlmişdir, bu xalq çox sülhsevər xalqdır və ümumiyyətlə, erməni xalqının düşməni deyil, əgər siyasətçilər olmasa, ermənilər də sülhlə yaşayarlar... Bizim suallara cavab verərək, polkovnik əmin olduğunu bildirdi ki, Cənubi Qafqaz və hətta bütün Qafqaz xalqları birlikdə yaşaya bilərlər, çünki iqtisadi cəhətdən onlar bir-birinə möhkəm bağlıdırlar. Lakin başlanğıc üçün onlara hər hansı bir güclü dövlətin köməyi vacibdir ki, hər yerdə öz maliyyə vəziyyətlərini qaydaya sala bilsinlər, amma bir

---

[1046] Ermənistan xarici işlər nazirinin Azərbaycan xarici işlər nazirinə cavab notası. Dekabr, 1919.//ARDA, f.897, s.l, i.112, v.20

[1047] Азербайджанская Демократическая Республика. Внешняя политика, с.452

[1048] Zaqafqaziyada müttəfiq ali komissar V.Haskelin xarici işlər naziri M.Y.Cəfərova məlumatı. 11.12.1919. //ARDA, f.970, s.l, i.95, v.22



downloaded from KitabYurdu.az

neçə ildən sonra hər xalq mandatlıqdan azad olaraq, sərbəst yaşaya bilər. "Və birinci olaraq, himayəçilikdən Sizin Azərbaycan azad olmalıdır" -polkovnik Haskel xəritədə Azərbaycanı göstərərək təsdiq etdi."[1049]

Qeyd etmək lazımdır ki, polkovnik Haskel Qafqaza göndərildikdə prezident Vilson başda olmaqla, ABŞ rəsmi dairələrindən göstəriş almışdı ki, ermənilərə kömək etsin. Lakin Qafqazdakı üç aya qədər müşahidələr ona çox şeyi başa saldı. Ən başlıcası isə Haskel etiraf edirdi ki, ermənilər qərb mətbuatının təbliğ etdiyi kimi, heç də "əzabkeş xalq" deyildirlər. Ə.M.Topçubaşov və M.Məhərrəmovla söhbətində o, qeyd edirdi ki, "indiyədək amerikalılar yalnız ermənilər haqqında danışırdılar, çünki amerikalı ermənilər və ümumiyyətlə, hamı onları Qafqazın yeganə əzabkeş xalqı sayırdılar. Bizim missiyanın Türkiyəyə və Qafqaza göndərilməsi və oraya səyahət bir çox amerikalılar üçün çox faydalı oldu. İndi biz inandıq ki, "heç də bütün ermənilər biz düşündüyümüz qədər yaxşı deyillər, eyni ilə necə ki, bütün türklər pis deyillər. Amerikada da bütün xalqların pisi və yaxşısı var." Sözünün sonunda Cənubi Qafqaz respublikalarının Qərb mandatlığına qəbul edilməsi məsələsinə toxunaraq, V.Haskel bildirdi ki, "ümumi mandat altında bu ölkələri birləşdirmək olardı... lakin bu mandatı qəbul edən Amerika olmayacaq."[1050] Polkovnik Haskel bunu düz hiss etmişdi. Hələ noyabr ayının 5-də gürcü nümayəndələri ilə görüşündə o bildirdi ki, "Amerika öz üzərinə mandat götürəcək, ya yox, bunu mən deyə bilmərəm, bu diplomatların işidir. Mənim vəzifəm praktiki məsələləri həll etməkdən, Qafqaz xalqlarına kömək göstərməkdən ibarətdir."[1051] Noyabrın 14-də Versalda diplomatlar Haskelin məruzəsini dinləməli oldu. Ali Şuranın İclasına Haskelin gəlişi bir çoxları üçün gözlənilməz olmuşdu. Müzakirələrin gedişində aydın oldu ki, polkovnik Haskeli Ali Şura deyil, amerikanlar özləri çağırmışlar. ABŞ nümayəndəsi F.Polk bildirdi ki, Haskel sabah gedəcək, Ali Şura üçün Ermənistan haqqında onun məlumatını dinləmək maraqlı olardı. Bu məsələ gündəlikdə olmadığı üçün iclas iştirakçıları Haskelin məlumatını dinləməyə könülsüz razılıq verdilər və Haskel Cənubi Qafqazın ABŞ-a verilməsini siyasi cəhətdən əsaslandıran geniş bir nitq söylədi. İqtisadi vəziyyətlə bağlı o qeyd etdi ki, Cənubi Qafqazda iqtisadiyyat fəlakətli həddədir. Çıxış yolunu Haskel ABŞ kimi güclü dövlətin himayədarlığında görürdü. Siyasi vəziyyətin ağırlığından danışaraq, Haskel qeyd edirdi ki, Ermənistan Gürcüstan və Azərbaycan ittifaqına girmək istəmir və onlarla daimi müharibə vəziyyətindədir. Hər üç respublika arasında ərazi mübahisələri vardır. O dedi: "Nə qədər ki, Azərbaycan və Gürcüstan mənim səlahiyyətimdən kənardadır və nə qədər ki, hər üç respublika ümumi bir

---

[1049] Azərbaycan Respublikasının Paris Sülh konfransındakı nümayəndəliyinin başçısı Ə.M.Topçubaşovun Nazirlər Şurasının sədrinə məktubu. 06-10.11.1919. // ARDA, f.970, s.l, i.146, v.11-12

[1050] Yenə orada, v.13

[1051] З.Авалов. Независимость Грузии в международной политике, с.228



downloaded from KitabYurdu.az

mandatda birləşdirilməyib, mən Ali Şuranın Ermənistanla bağlı üzərimə qoyduğu vəzifəni yerinə yetirə bilməyəcəyəm."[1052] Haskelin təklifindən sonra məlum oldu ki, amerikanların onu Qafqazdan təcili çağırmaqda və Ali Şuranın xəbəri olmadan Qafqaz məsələsini gündəliyə salmağa cəhd göstərməkdə xüsusi məqsədləri vardır. Yalnız Ermənistan haqqında məlumat vermək üçün söz almış Haskelin Azərbaycan və Gürcüstan haqqında da məlumat verməsi iclasın iştirakçıları arasında anlaşılmazlıq yaratdığından F.Polk izahat verdi ki, Haskel Ermənistanla bağlı Ali Şuranın tapşırıqlarını effektli icra etmək üçün Azərbaycan və Gürcüstanda da bir sıra vəzifələri yerinə yetirməli olmuşdur. F.Polk xatırlatdı ki, polkovnik sabah yola düşür. Lakin iclasa sədrlik edən təcrübəli Klemanso başa düşdü ki, məsələnin müzakirəsinin uzadılması yalnız amerikanlar üçün sərfəlidir. Ona görə də o, məlumat üçün Haskelə təşəkkürünü bildirib, məsələnin müzakirəsinin dayandırılması barədə ingilislərin təklifi ilə məmnuniyyətlə razılaşdı.[1053]

Amerikanların bu məsələni yenidən qaldıracaqlarını bilən ingilislər, növbəti iclasa ətraflı hazırlaşdılar. Noyabr ayının 15-də F.Polk Haskel məruzəsi ilə bağlı Ermənistan məsələsini qaldıraraq və Haskelin Ermənistana Ali Komissar təyin edilməyi ilə bağlı Ali Şuranın 5 iyul tarixli iclasının qətnaməsinə "kiçicik" düzəliş edib bildirdi ki, "Ermənistan" sözündən sonra "Gürcüstan və Azərbaycan" sözləri əlavə edilsin.[1054] Deməli, təklif edilən dəyişiklikdən sonra 5 iyul qətnaməsinin giriş hissəsi belə oxunmalı idi: "ABŞ polkovniki V.H.Haskel Ali Şura tərəfindən, Birləşmiş Ştatlar, İngiltərə, Fransa və İtaliya hökumətləri adından Ermənistan, Gürcüstan və Azərbaycana Ali Komissar təyin edilir". İclas iştirakçılarının təəccübləndiyini hiss edən F.Polk əlavə etdi ki, "mən, sadəcə olaraq, Şuraya təklif verməyi arzulayıram, lakin onun qəbul edilməsinə təkid göstərmirəm.[1055] ABŞ nümayəndələrinin bu təklifinin arxasında Azərbaycan neftinə maraq göstərən Amerika sənayeçilərinin mənafeyi dayanırdı. İngilis tarixçisi E.Monro yazır ki, mandatlar bölüşdürülən zaman Birləşmiş Ştatlar neft psixozu dumanında idi.[1056]

ABŞ nümayəndəsinin bu təklifi İngiltərə nümayəndəsi E.Krou tərəfindən kəskin etirazla qarşılandı. O, bəyanat verərək bildirdi ki, F.Polk tərəfindən qaldırılan məsələlər öyrənilmək üçün Böyük Britaniya hökumətinə verilmişdir. Böyük Britaniya hökuməti Haskelin vəkalətinin "Yaxın Şərqə Amerika Yardımı Komitəsi"nin rəhbəri kimi Gürcüstana və Azərbaycana aid edilməsinə etiraz etmir. Lakin Krou qeyd edirdi ki, Amerika nümayəndəsi F.Polkun bugünki təklifi Haskelə iyul ayının 5-də verilmiş vəkalətlə bir araya sığmır. Krou açıq şəkildə bildirdi ki, Böyük Britaniya hökuməti onun razılığı olmadan Amerika Yardımı

[1052] Papers Relating to the Foreign Relations of the United States. The Paris Peace conference, vol.IX, p.107
[1053] Ibid, p.168
[1054] В.И.Адамия. Из истории Английской интервенции в Грузии, с. 129
[1055] Г.Гамбашидзе. Из истории политики США в отношении Грузии, с. 129
[1056] E.Monroe. Britain's Moment in the Middle East 1914-1956. L.,1963, p.102



downloaded from KitabYurdu.az

Komitəsinin Cənubi Qafqazda fəaliyyətinə dözsə də, lakin Amerika polkovniki Haskeli Cənubi Qafqazda Ali Komissar kimi tanımağa hazırlaşmır.[1057] Beləliklə, qərara alındı ki, Haskel missiyasına daxil olan ABŞ nümayəndələri Azərbaycan və Gürcüstanda yalnız "Yaxın Şərqə Amerika Yardımı Komitəsi"nin işi ilə bağlı fəaliyyət göstərə bilərlər, hər iki respublikada siyasi, iqtisadi və digər məsələlərə müdaxilə edə bilməzlər. İngilislərin bu təklifi fransızlar və italyanlar tərəfindən də müdafiə edildi. Beləliklə, amerikanların Haskelin vəkalətinin siyasi cəhətdən Azərbaycana aid edilməsi barədə qaldırdıqları təşəbbüs ingilislərin müqaviməti nəticəsində baş tutmadı. Bu məsələyə toxunan rus alimi B.Şteyn səhv olaraq, təsdiq edir ki, 1919-cu ilin noyabrın 15-dən etibarən, Amerika polkovniki Haskel müttəfiq dövlətlərin bütün Cənubi Qafqaza rəsmən baş komissarı təyin edildi.[1058] Əslində isə yuxarıda qeyd edildiyi kimi, V.Haskelin iyul ayının 5-də təsdiq edilmiş səlahiyyəti saxlanıldı. Yalnız, "Yaxın Şərqə Amerika Yardımı Komitəsi"nin Qafqaz bölməsinin rəhbəri kimi, onun Azərbaycanda və Gürcüstanda fəaliyyət göstərməsinə icazə verildi. Noyabr ayının ortalarında Amerika yardım komitəsinin 40 nəfərdən ibarət tərkibi təsdiq edildi. Onun rəhbərliyinə polkovnik V.H.Haskel, polkovnik C.K.Ri, leytenant-polkovnik Sammer Ueyt, kapitan S.Saunders, kapitan Moris Hyuzik daxil idilər.[1059]

Sonralar amerikanların Qafqaz mandatında təkid göstərməmələri Kiçik Asiyaya və Qafqaza göndərilmiş digər bir missiyanın - Harbord missiyasının prezidentə hazırladığı məlumatla bağlı idi. General Ceyms Harbord prezident Vilsona göndərdiyi məruzədə Qafqaza Amerika mandatının əleyhinə rəy söyləmişdi. 1919-cu ildə ABŞ-ın Qafqaza marağının artdığı, Amerika siyasi dairələrində Qafqaz mandatı məsələsi müzakirə edildiyi üçün prezident Vilson belə qərara gəldi ki, Ermənistan, Azərbaycan, Gürcüstan və Kiçik Asiyada siyasi, hərbi, coğrafi, iqtisadi, idarəçilik və digər məsələləri ətraflı öyrənmək üçün ora xüsusi Amerika missiyası göndərsin.[1060] 1919-cu ilin iyun ayının 12-də Azərbaycan, gürcü və dağlı nümayəndələrinin birgə keçirdiyi iclasın protokolu ilə tanışlıq belə bir fikrə gəlməyə əsas verir ki, hələ iyun ayının əvvəllərində amerikalılar Qafqazdakı vəziyyəti öyrənmək üçün oraya xüsusi missiya göndərmək fikrində olmuşlar. Həmin iclasda çıxış edən Dağlılar İttifaqının nümayəndəsi Bammatov bildirmişdi ki, Qafqaza xüsusi komissiya göndərmək barədə Sülh konfransından xahiş etməyi Parisdə olan Amerika nümayəndələrindən biri ona məsləhət görmüşdür. Amerikalılar Qafqaza komissiya göndərilməsi üçün istəyirdilər ki, Qafqaz

---

[1057] Papers Relating to the Foreign Relations of the United States. The Paris Peace conference, vol.IX.p.180

[1058] Б.Штейн. "Русский вопрос" на Парижской мирной конференции, с.346

[1059] Şimali Amerika Ştatları idarəsi altında birləşdirilən Yaxın Şərqə Yardım Komitəsinin Azərbaycan Respublikasının Gürcüstandakı diplomatik missiyasının katibinə məlumatı. 12.11.1919. // ARDA, f.897, s.l, i. 111, v.154-155

[1060] З.Авалов. Независимость Грузии в международной политике, с.228



downloaded from KitabYurdu.az

respublikalarının özləri Sülh konfransına müraciət edib bildirsinlər ki, Qafqazda vəziyyət çox təhlükəlidir, guya qan tökülməsinin qarşısını almaq və qarşılıqlı münasibətləri tənzim etmək üçün təcili komissiya göndərmək lazımdır. Əgər Qafqaz respublikaları Sülh konfransına belə bir ərizə ilə müraciət edərdilərsə, Amerika nümayəndələri Ali Şuranın iclasında bu təklifi müdafiə edəcəklərini bildirmişdilər. Lakin nə Azərbaycan, nə də Gürcüstan nümayəndələri bu məzmunda müraciət edilməsinə tərəfdar çıxmadılar. Əslində belə addım atmaq Qafqaz respublikalarının tanınmasını çətinləşdirərdi və bu respublikalar haqqında belə rəy yaradardı ki, guya onların hökumətləri yerlərdə qan tökülməsinin qarşısını ala bilmir. Ə.M.Topçubaşov haqlı olaraq qeyd edirdi ki, bu məzmunda müraciət bizi fakt qarşısında qoya bilər. Müzakirələrdə iştirak edən M.H.Hacınski deyirdi: "Dövlətlər arasında Qafqaz ətrafında hansısa siyasi mübarizə gedir, dünən italyanlar bizə meyl edirdi, bu gün amerikanlar, sabah da bir başqası meyl edəcək. Dost məsləhətlərinə çox ciddi ehtiyatkarlıqla yanaşmaq lazımdır, əks təqdirdə biz bu və ya digər qrupun əlində oyuncağa çevrilə bilərik. Mən belə başa düşürəm ki, amerikanlar elan etmək istəyirlər ki, Qafqazda qan axır və daha çox qan axacağı gözlənilir, ona görə də ora komissiya göndərmək lazımdır... Bu, o deməkdir ki, biz özümüz Qafqazda qan axıdılmadan yaşaya bilmərik, ingilis komandanlığı da bizi barışdırmağa qadir deyildir. Bu İngiltərəyə necə təsir göstərər?.. Əslində bu ingilis komandanlığı ilə bizim münasibətlərimizi gərginləşdirər."[1061] İclasda çıxış edənlər yuxarıda qeyd edilən məzmunda konfransa müraciət edilməsinin əleyhinə oldular, lakin mülki şəxslərdən ibarət bir komissiyanın Sülh konfransı tərəfindən Qafqaza göndərilməsini mümkün hesab etdilər. Bu qərar amerikalıları təmin etmədiyi üçün onlar Sülh konfransının adından deyil, öz adlarından Qafqaza xüsusi missiya göndərdilər. Avqust ayının ortalarında Birləşmiş Ştatların Versalda olan nümayəndəliyinin başçısı F.Polk Qafqaz respublikalarının Parisdə olan nümayəndələrinə xüsusi məktubla müraciət edib, Harbord missiyası barədə onlara məlumat verdi.[1062] Avqust ayının 13-də Azərbaycan nümayəndəliyinə göndərilən məktubda qeyd edilirdi ki, Briqada generalı Ceymis Q.Harbord 12 zabitin müşayiəti ilə yaxın vaxtlarda Cənubi Qafqaza yola düşür. Azərbaycan nümayəndələrindən xahiş edilirdi ki, bu barədə öz hökumətinə məlumat versinlər və yerlərdə general Harborda öz vəzifəsini yerinə yetirməkdə Azərbaycan hökuməti tərəfindən yardım göstərilsin. Məktubun axırında xatırladılırdı ki, bu missiyanın göndərilməsi Azərbaycan Respublikası və qalan Cənubi Qafqaz respublikalarının tanınması kimi qəbul edilməməlidir.[1063]

---

[1061] Paris Sülh konfransındakı Azərbaycan, Gürcüstan və Dağlılar Respublikası nümayəndələrinin birgə iclasının protokolu. 12.06.1919. // ARDA, f.970, s.l, i. 142, v.176-177

[1062] Bulletin d'Information de L'Azerbaidjan. Paris, 1919, 13 Octobre, № 3, p.7

[1063] ABŞ-ın Paris Sülh konfransındakı nümayəndəliyinin başçısı F.Polkun Ə.M.Topçubaşova məktubu. 13.08.1919. // ARDA, f.970, s.l, i. 142, v.46



downloaded from KitabYurdu.az

Bundan sonra Versaldakı Azərbaycan nümayəndələri Harbord missiyasının Azərbaycan üzrə müvəkkili polkovnik Rey ilə görüşüb, onu lazımi materiallarla təchiz etdilər. Ə.M.Topçubaşov bu barədə yazırdı: "Polkovnik Rey ilə ... bir neçə dəfə görüşdüm... Azərbaycanda olan missiyanın başçısıdır. Mən onu lazımi materiallarla təmin etdim və ətraflı məlumatlandırdım. Aydın oldu ki, konfrans və xüsusilə də Şimali Amerika Birləşmiş Ştatları bizə və bütün Qafqaza olan münasibətini missiya öz işini qurtarandan sonra bildirəcək, bunun üçün missiya üç ay orada olacaq. O, mən və Hacınski bütün Amerika missiyalarının şefi polkovnik Loqenin yanında olduq, Loqe kömək edəcəyinə söz verərək dedi ki, missiyanın tərkibinə bizim bir nümayəndəmizin salınması barədə göstəriş verəcək. Siz bundan istifadə etməlisiniz."[1064]

General Ceymis Harbord ABŞ siyasi dairələrində tanınmış şəxslərdən biri idi. O, general Perşinqin ordusunda qərargah rəisi olmuşdu. Birinci dünya müharibəsinin sonlarında Avropada Almaniyaya qarşı vuruşmuş, dünya müharibəsi qurtardıqdan sonra Avropada olan Amerika ordusunun vətənə qayıtması işinə rəhbərlik edirdi.[1065] İndi isə üç aylığa Harbordu xüsusi missiyaya rəhbər təyin etdilər. Harbord missiyası avqust ayının axırlarında Fransanın Brest şəhərindən yola düşmüş və sentyabr ayının 2-də İstanbula gəlmişdi. Qısa müddət ərzində Harbord İngiltərə, Fransa, İtaliya komissarları, habelə Yaxın Şərqdə Amerika mənafeyini müdafiə edən İsveç səfiri ilə görüşmüş və İstanbul, Kilikiya, Ərzurum, Diyarbəkir, Xarput, Sivas, Ərzincan, Qars, İrəvan, Tiflis, Bakı və Batum marşrutu üzrə yolunu davam etdirmişdi. Missiya olduğu yerlərdə keçirdiyi görüşlər və müşahidə etdiyi hadisələr barədə İstanbulda olan Amerika missiyasına məlumatlar çatdırırdı.

Sentyabr ayının ortalarında general Harbord Sivasda Mustafa Kamal paşa ilə görüşdü. 3-4 saatlıq danışıqlar zamanı Harbordu, əsasən, kamalçıların Qafqaz siyasəti maraqlandırırdı. Görüş zamanı Mustafa Kamal paşa bildirdi: "Mərkəzi İrəvan olan Erməni Cümhuriyyətinə qarşı bizim heç bir düşmənçiliyimiz yoxdur."[1066] Lakin Ermənistan hökuməti öz ərazisində müsəlmanlara qarşı vəhşiliklər törətməkdən əlavə, digər yerlərdə də erməniləri bu işə təhrik etdiyini və hətta Türkiyənin hüdudlarına müdaxilə etdiyini Mustafa Kamal paşa Harborda bildirdi. O, bu fikirdə idi ki, Ermənistandakı bədbəxt müsəlman əhalisinin xilas edilməsi xeyli dərəcədə Qafqazda Azərbaycan hökumətinin gücləndirilməsindən asılıdır.[1067] Anadoluya Amerika mandatı məsələsinə gəldikdə isə Mustafa Kamal paşa bu ideyaya ehtiyatla yanaşır və Vilsonun "14 sülh prinsipinə ciddi əməl

[1064] А.М.Топчибашев. Письма из Парижа, с.69
[1065] Азербайджан, 1918, 19 сентября.
[1066] H.Baykara. Azerbaycan İstiklal Mücadiləsi Tarihi, s.288
[1067] Yenə orada. s.290



downloaded from KitabYurdu.az

ediləcəyi təqdirdə, yalnız iqtisadi kömək göstərilməsini məqbul hesab edirdi.[1068] Görüş zamanı general Harborda təqdim edilən raportda göstərilirdi ki, ermənilər Ərzurumda yalnız 1918-ci ilin mart ayının 11-12-də üç min dinc türk əhalisini qətlə yetirmişlər.[1069] Ərzurum valisi Zakir Əfəndi ermənilərin müsəlmanları kütləvi şəkildə qırdığı yerləri və toplu məzarlıqları general Harborda göstərmişdi.[1070]

Harbordun avtomobil karvanı Sivasdan Ərzincana və Ərzuruma yola düşüb, köhnə rus-türk sərhədləri boyunca hərəkət edərək, Qarsa gəldi. İstanbula göndərdiyi məlumatda Harbord köhnə rus-türk sərhədi ilə gedəndə türklər tərəfindən böyük xeyirxahlıq göstərildiyini və bu yerlərdə az miqdarda erməni əhalisi olduğunu yazırdı. O qeyd edirdi ki, sərhəd boyunca tez-tez ermənilərin qovduğu müsəlman köç karvanları ilə qarşılaşır. Minlərlə müsəlman ailəsi olan bu qaçqınlar Harbordu inandırmağa çalışırdılar ki, "keçmişdə də, indi də onlar ermənilər tərəfindən öldürülmüşlər." Türkiyənin erməni talanlarına məruz qalmış Şərq vilayətlərində gördüyü dəhşətli vəziyyət haqqında Harbord sentyabr ayının 28-də Qarsdan müttəfiqlərin İstanbulda olan nümayəndələrinə yazırdı ki, Türkiyədən gedəndə müşahidə etdiyimiz ən dəhşətli hadisə ərazilərin əhalidən təmizlənməsi və bu yerlərin boş qalmasıdır. Missiyanın keçdiyi şəhər və kəndlərin böyük hissəsində əhali yox idi və yaşayış məntəqələri dağılmışdı. General Harbordun fikrincə, Aralıq və Qara dəniz sahillərində yerləşən məlum şəhərləri çıxmaq şərti ilə Türkiyənin bu yerlərində sanki həyat yox idi. O yazırdı: "Sanki bütün Osmanlı imperiyası taqətdən düşmüşdür."[1071] Lakin nə general Harbord, nə də missiyanın digər üzvləri Şərqi Anadoluda öz gözləri ilə gördükləri fəlakətləri səfərin yekunları ilə bağlı hazırladıqları hesabatlarına daxil etmədilər. ABŞ-ın Luisvil universitetinin professoru Castin Makkarti haqlı olaraq yazır ki, missiya həqiqəti aşkarlamaqda maraqlı deyildi. O yazır: "Missiya üzvlərinin sonrakı şərhləri göstərir ki, türklərə verilən suallar 1914-cü ildən bəri Şərqi Anadoluda baş verənləri aydınlaşdırmağa yönəlməmişdi. Əksinə, bu məqsədlə suallar verilirdi ki, Şərqi Anadoluda müstəqil Ermənistan dövlətinin yaradılmasına mane olan amilləri müəyyənləşdirsinlər. Missiyanın yekun qərarına münasibətdə J.Makkarti yazırdı ki, amerikanlar öz qərarlarını çoxdan vermişdilər, "ekspertlərin rəyi" əvvəlcədən bəlli idi, türklər birmənalı olaraq, günahkar tərəf kimi tanınmalı idi. Harbordun son hesabatı ermənilərin ona verdiyi materiallar əsasında hələ missiya yola düşməzdən əvvəl hazır idi. Hesabatın böyük bir hissəsi missiyanın öyrənmədiyi məsələlərə həsr edilmişdi. Əgər hesabatda təsadüfən ölmüş türkdən söhbət gedirdisə, bu yalnız ordu həyatından alınmış faktlara aid idi. Lakin bütün hallarda ermənilərin ölümü

[1068] Justin McCarthy. The Report of Niles and Sutherland an American Investigation of Eastern Anatolia after world war I. XI. Türk Tarih konqresi, cilt V, Ankara, 1994, p.1820

[1069] Enver Konukçu. Ermenilerin Yeşilyayla`dakı Türk Soykirimi (11-12 Mart 1918). Ankara, 1990, s.36

[1070] Enver Konukçu. Erzurum tarihi. // Erzurum. Ankara, 1986, s.14

[1071] General C.Harbordun müttəfiqlərin İstanbuldakı Ali Komissarına məktubunun surəti. 28.09.1919. // ARPİİSPİHDA, f.276, s. 9, i. 26, v.27



downloaded from KitabYurdu.az

"soyqırım siyasətinin nəticəsi" kimi qiymətləndirilirdi."[1072] Bu niyyət sensasiya özünü kapitan Emori Naylz və Artur Saterlandın məlumatlarının məqsədli şəkildə "itirilməsində" və həmin məlumatların Harbordun hesabatına daxil edilməməsində daha qabarıq şəkildə göstərirdi. Bu iki Amerika zabitləri ermənilərin əməllərindən daha çox ziyan çəkmiş Van və Bitlis vilayətlərinin bütün kəndlərini üç ay ərzində at belində dolanmışdılar. Onların topladığı materiallar qətiyyən Harbordun konsepsiyasına uyğun gəlmirdi. Çox illər sonra "itirilmiş" bu materialları aşkarlayan J.Makkarti yazırdı: "Naylzın nəticələrinin çoxu Harbordun nəticələri ilə ziddiyyət təşkil edirdi. Kapitan Naylzın məlumatları amerikan informatorlarının məlumatları içərisindən ən neytralı idi. Birinci dünya müharibəsindən sonra Şərqi Anadolunun bütün tədqiqatçıları içərisindən yalnız Naylza və onun ortağı Artur Saterlanda həqiqətə yaxınlaşmaq nəsib olmuşdu. Onlar əhali içərisində sorğular keçirir, müşahidələr aparır, həqiqət axtarışı ilə kəndbəkənd dolanırdılar. Tənha olaraq, bu zabitlər yerli adamlardan soruşurdular ki, müharibə dövründə onlarla bağlı nə baş verib. Məlumatların bir hissəsi məsələn, "canlı tarix" olan Qafqaz qaçqınlarından alınmışdı və bu məlumatlar erməni-türk müharibələri ilə bağlı ermənilərin iddialarını şübhə altına almaq üçün yetərli idi. Naylz və Saterlandın topladığı faktlar onunla fərqlənirdi ki, Şərqə ölmüş erməniləri axtarmağa gələnlər, hər yerdə yalnız ölmüş müsəlmanları tapmışdılar."[1073] Emori Naylz və Artur Saterlandın sonradan aşkarlanan "itirilmiş" hesabatları 1913-1916-cı illərdə İstanbulda ABŞ-ın səfiri olmuş Henri Morqentaunun uydurma "erməni soyqırımı" haqqında amerikalıları heyrətə salan 1918-ci ildə Nyu Yorkda nəşr edilmiş xatirələrinin yalnız ermənilərin verdiyi məlumatlar əsasında yazıldığından nə qədər subyektiv xarakter daşıdığını ortaya qoydu.[1074]

İrəvan və Tiflisdən sonra Harbord başda olmaqla, Amerika missiyası oktyabr ayının 5-də üç general və 15 mütəxəssisin iştirakı ilə Bakıya gəldi. Ermənistan və Gürcüstanda olduğu kimi, Azərbaycanda da Amerika missiyası onları maraqlandıran siyasi, dövlət quruluşu, maliyyə, ticarət, sənaye, səhiyyə, əhali, təbii sərvətlər, coğrafiya, poçt-teleqraf, hərbi və mandatlığa münasibət məsələlərini öyrənməli idilər. H.Z.Tağıyevin evinə düşmüş general Harbord baş nazir N.Usubbəyov, xarici işlər naziri M.Y.Cəfərov, yollar naziri X.Məlik-Aslanov və digər rəsmi şəxslərlə danışıqlar aparmışdı.[1075] Harbord, onu maraqlandıran

---

1072 Justin McCarthy. The Report of Niles and Sutherland on American Investigation of Eastern Anatolia after World War I, p. 1819-1820

1073 Ibid, p.1821-1822

1074 Henry Morgenthau. Ambassador Morgenthau's Story. New York, 1918. Bu əsər haqqında əlavə məlumat üçün bax: Heath W. Lowry. The Story behinde Ambassador Morgenthau's Story. Istambul, 1990; H.Morqentaunun bu xatirələri 2009-cu ildə rus dilinə tərcümə edilib "Генри Моргентау. Трагедия армянского народа. История посла Моргентау. М., 2009, 319 с." adı ilə Moskvada nəşr edilib.

1075 L'Azerbaidjan et la mission americaine.//Bulletin d'Information de L'Azerbaidjan. Paris, 1920, 1 Janvier, №6, p.2-3



downloaded from KitabYurdu.az

Azərbaycan parlamenti və hökuməti, xalq maarifinin vəziyyəti, məhkəmə orqanlarının quruluşu və fəaliyyəti, əyalətlərin idarəçiliyi formaları, seçki sistemi haqqında ətraflı məlumat almışdı.[1076] Harbord missiyasına daxil olan polkovnik Hill və digərləri Bibi-Heybətdə, Qara şəhərdə və digər sənaye rayonlarında olmuşdular. Rəsmi hökumət orqanı olan "Azərbaycan" qəzeti Amerika missiyası ilə danışıqlar barədə məlumatında qeyd edirdi ki, demokratik respublikanın siyasi və iqtisadi vəziyyətindən razı qalan Harbord tezliklə Azərbaycan istiqlaliyyətinin Sülh konfransı tərəfindən tanınacağını söyləmişdi.[1077] Danışıqlar zamanı C.Harbord Ermənistanla Azərbaycan arasında olan ixtilafların tezliklə aradan qaldırılmasının zəruriliyini bildirmiş, Azərbaycanda mövcud olan qayda-qanundan, xüsusilə Azərbaycan əsgərinin intizamından məmnunluğunu ifadə etmiş və bütün bunları Azərbaycanın müstəqil həyata hazır olmasının təzahürü kimi qiymətləndirmişdi. General ümid etdiyini bildirmişdi ki, Sülh konfransı Azərbaycan xalqının bütün arzu və istəklərini nəzərə alacaqdır.[1078]

Harbordun Bakıya qısa müddətli səfərindən şəhərin erməni əhalisi və onların milli təşkilatları da öz mənafelərinə uyğun bacarıqla istifadə etdilər. General Harbordun Tiflisə və Bakıya gedəcəyini nəzərə alaraq, hər iki şəhərdə olan erməni milli təşkilatlarına və erməni kilsələrinə Ermənistan hökuməti tərəfindən tapşırıq verilmişdi ki, ümumerməni tələbləri ilə bağlı general Harborda sənədlər təqdim etsinlər. Hələ İstanbulda Harbordla görüşən erməni nümayəndələri sentyabr ayının 18-də Ermənistan Xarici İşlər Nazirliyi vasitəsi ilə Bakıdakı diplomatik nümayəndə T.A.Bekzadyana çatdırmışdılar ki, general Harbord müstəqil və azad Ermənistan yaranacağı təqdirdə, digər yerlərdə yaşayan erməni sənayeçiləri, tacirləri, mühəndis-texniklərinin öz kapitalları ilə birlikdə Ermənistana gedib-getməyəcəkləri ilə maraqlanır. T.A.Bekzadyana məsləhət görülürdü ki, Harbordu inandırsınlar ki, "Müstəqil və Böyük Ermənistan" yaranarsa, bütün erməni sənayeçiləri, tacirləri, bütün sahədə çalışan mütəxəssislər Ermənistana toplanacaqlar.[1079] Bakıda yaşayan ermənilər bu tövsiyələrə uyğun hərəkət etdilər və Bakı erməni əhalisi adından general Harborda müraciət təqdim etdilər. Müraciətdə deyilirdi: "Amerika xalqının və dövlət xadimlərinin insanpərvər siyasəti nəticəsində Ermənistan dövləti siyasi baxımdan tanınarsa biz, Bakı erməni cəmiyyəti adından təntənəli şəkildə vəd edirik ki, öz tarixi vətənimiz olan Ermənistanın tərəqqisi naminə hər şeyi edəcəyik."[1080] Müraciət elə tərtib edilmişdi ki, guya Azərbaycanda hər şey ermənilərə məxsus olmuşdur və ən maraqlısı odur

---

[1076] Азербайджанская Демократическая Республика. Внешняя политика, с.366-367

[1077] Азербайджан. 1919, 7 октября.

[1078] Azərbaycan arxivi, 1988, №1-2, c. 147-148

[1079] Ermənistan Xarici İşlər Nazirliyinin Bakıdakı diplomatik nümayəndəsi T.Bekzadyana məktubu. 18.09.1919. // ARPİİ SPİHDA, f.276, s.9, i. 26, v.26

[1080] Bakının erməni əhalisinin nümayəndələrinin general Ceyms Harborda məktubu. Oktyabr, 1919. // ARPİİ SPİHDA, f.276, s.9, i. 26, v.29



downloaded from KitabYurdu.az

ki, müraciətdə bir dəfə də "Azərbaycan" adı çəkilmirdi. Bakı erməniləri Orta Asiya, Qroznı, Vladiqafqaz və digər yerlərdə yaşayan ermənilərin də öz sərvətləri ilə Ermənistana yardım göstərəcəyini Harborda bildirirdilər. Müraciətin axırında deyilirdi: "Siz öz hökumətinizə çatdırın ki, Bakı erməniləri digər xarici dövlətlərdə yaşayan ermənilər kimi, vətənlə əlaqəni üzməmişlər, onun dərdləri və sevincləri ilə yaşayır, bütün öz gücünü vətənin çiçəklənməsi naminə sərf etməyə hazırdırlar."[1081] Bundan əlavə, 1918-1919-cu illərdə cərəyan edən hadisələrin saxtalaşdırılmış təsviri də Bakı erməniləri tərəfindən Amerika missiyasına təqdim edildi. Burada ermənilərin Antantanın "müqəddəs işi" uğrunda vuruşduqlarını şərh etməklə yanaşı, guya Osmanlı ordusunun Cənubi Qafqazdan çıxarkən, türk əsgər və zabitlərinin yerli adamlar kimi müsəlmanlar yaşayan ərazilərdə qaldığı, onların Türkiyə və Azərbaycan hökumətindən yardım alaraq, Ermənistan hökumətinə qarşı mübarizə apardığı göstərilirdi. Qarabağla bağlı ermənilər daha cəfəng bir fikirlə amerikalıları qorxudaraq yazırdılar ki, guya Azərbaycan Respublikası Araz, Cənub-Qərbi Qafqaz respublikalarını özünə birləşdirmək yolunda maneə olan Qarabağ və Zəngəzur rayonlarını tutmaqla Türkiyə ilə ittifaqda Aralıq dənizindən - Hind okeanına qədər yalnız müsəlmanlardan ibarət dövlət yaratmaq istəyir. Ermənilərin fikrincə, guya bu, ona görə baş vermişdir ki, müttəfiqlərə inanaraq, Ermənistan hökuməti mübahisəli məsələlərlə bağlı Paris Sülh konfransının qərarını gözlədiyi halda "Azərbaycan hökuməti Sülh konfransının göstərişlərinə məhəl qoymayıb, Türkiyə ilə birlikdə Ermənistan ərazisində müsəlmanların üsyanını qaldırmış" və tarixi erməni "ərazilərini" tutmuşlar. Qarabağ ermənilərinin Azərbaycan hökumətinə tabe olması haqqında qərar qəbul etmələrini[1082] isə Bakı erməniləri onların Ermənistan Respublikası ilə əlaqələrinin kəsilməsi, hərbi sursatdan məhrum olması ilə izah edirdilər.[1083] Bakıdakı erməni icması Qarabağa, Zəngəzura, Naxçıvana və Şərura, Qarsa guya, Ermənistanın tarixi və etnik hüququ olduğu barədə Harborda çoxlu sənədlər təqdim etmişdilər.[1084]

Oktyabr ayının 8-də Ceymis Harbordun missiyası Batumdan Fransaya yola düşəcəkdi. Ona görə o, Bakıdan birbaşa Batuma yola düşdü. Azərbaycan xarici işlər naziri M.Y.Cəfərov Batuma qədər Harbordu müşayiət edərək, respublika xarici və daxili siyasətinin bir sıra zəruri məsələlərini ona aydınlaşdırdı. Azərbaycan xarici işlər nazirinin gəlişi şərəfinə amerikalılar Batumda olan "Corc Vaşinqton" gəmisində ziyafət verdilər. Oktyabrın 8-də isə Azərbaycan konsulluğunda gürcülərlə birlikdə Ceymis Harbordun şərəfinə ziyafət məclisi təşkil edildi. Azərbaycan və Gürcüstan nümayəndələri ilə Batum danışıqlarında

---

[1081] Bakının erməni əhalisinin nümayəndələrinin general Ceyms Harborda məktubu. Oktyabr, 1919. // ARPİİ SPİHDA, f.276, s.9, i. 26, v.38

[1082] Bax: Bulletin d'Information de L'Azerbaidjan. Paris, 1919, 13 Octobre, №3, p.8

[1083] 1918-1919-cu illərdə baş vermiş hadisələr barədə Bakıdakı erməni təşkilatlarının general C.Harborda təqdim etdikləri arayış. Oktyabr, 1919. // ARPİİ SPİHDA, f.276, s.9, i. 26, v.41

[1084] Yenə orada. c.42-48



downloaded from KitabYurdu.az

amerikalılar bacarıqlı və işgüzar adamlardan təşkil olunmuş Azərbaycan hökumətinin bir sıra maneçiliklərə baxmayaraq, çox iş görə bildiklərini xüsusi qeyd etdilər.[1085] General Harbord xüsusi olaraq göstərdi ki, Azərbaycanın sülhsevər xarici siyasəti onda xoş təəssürat yaratmışdır.[1086] Batumdan yola düşməzdən əvvəl general Harbord Azərbaycan hökumətinin başçısı N.Usubbəyova Azərbaycan Respublikasına səfəri zamanı aldığı xoş təəssürata görə təşəkkür məktubu göndərdi. Harbord yazırdı: "Mən və mənim missiyamda olan zabitlər sizin xalq və ölkə haqqında ən yaxşı xatirələrimizi özümüzlə aparırıq ki, qonşularınızın böyük dövlətlər arasında sizə qarşı yaratdığı narazılıq sizin tərəqqinizə mane olmasın."[1087]

Oktyabrın 16-da Ceymis Harbordun başçılıq etdiyi Amerika missiyası Parisə gəldi və Birləşmiş Ştatların Versalda olan dövlət katibinin müavini F.Polka, az sonra isə ABŞ Dövlət Departamentinə və Senata səfər barəsində məruzə təqdim etdi.[1088] Harbordun məruzəsinin qısa mahiyyəti ondan ibarət idi ki, hər üç respublika Qərb nöqteyi-nəzərindən o qədər də yaxşı vəziyyətdə deyildir. Onun fikrincə, Qafqazda iqtisadiyyat və maliyyə sistemi fəlakətli dərəcədə dağılmışdır. O bildirirdi ki, Gürcüstanda "qırmızı təhlükə", bolşevizm təhlükəsi güclüdür, Azərbaycanda idarəçilik üçün yerli kadrlar çatışmır, Ermənistan isə xarabalığı xatırladır. Hər üç respublikanın siyasi istiqaməti Harbord tərəfindən belə müəyyən edilirdi: "Gürcüstan müstəqillik üzərində israr edir, Ermənistan yəqin ki, Rusiya mandatına tərəfdardır, Azərbaycan isə Türkiyəyə meyl edir və xristianlara etibar etmir, lakin onların təhsil görmüş nümayəndələri xarici əlaqələrin inkişaf etdirilməsinin zəruriliyini başa düşür.[1089] Ümumiyyətlə, mandat məsələsində Harbordun fikri belə idi ki, Cənubi Qafqaz vahid bir mandatlıqda birləşməlidir. Lakin bu mandatın Amerikaya verilməsi məsələsində onun fikri müsbət deyildi. Bir hərbi mütəxəssis kimi o, yaxşı başa düşürdü ki, regionda sülhü bərqərar etmək üçün iki, yaxud dörd polk deyil, daha böyük, 60 minlik ordu lazımdır.[1090] 1919-cu ilin payızında isə Amerika ordusu Avropadan çıxarılmaq üzrə idi.

General Harbordun missiyasının əsas vəzifələrindən biri olan Türkiyə Ermənistanı məsələsi daha qaranlıq formada təqdim edilirdi. Hətta Parisdə olan gürcü nümayəndəsi Z.Avalov yazırdı: "Hərdən adama elə gəlir ki, onu xüsusi məqsədlə göndəriblər ki, Ermənistan üzərində Amerika mandatı ideyasını pozsun."[1091] General Harbord öz məruzəsində ABŞ siyasi dairələrini

---

[1085] L'Azerbaidjan et la mission americaine.//Bulletin d'Information de L'Azerbaidjan. Paris, 1920, 1 Janvier, №6, p.2-3
[1086] ARDA, f.2905, s.l, i. 20, v.4
[1087] Азербайджан, 1919, 21 октября.
[1088] Conditions in the Near East: Report of the American military mission to Armenian. By the U.S.Senate. Senate Documents 266, 66-th Congress, 2-nd session, Washington, 1920.
[1089] З.Авалов. Независимость Грузии в международной политике, с.230
[1090] М.И.Найдель, Ю.В.Согомонов. К истории интервенции США в Закавказье. //История СССР, 1961, №3, с.33
[1091] З.Авалов. Независимость Грузии в международной политике, с.231.



downloaded from KitabYurdu.az

məlumatlandırırdı ki, ermənilər üçün nəzərdə tutulan ərazilərdə türklər hələ ermənilər oradan çıxarılmazdan əvvəl çoxluq təşkil edirdilər və bütün erməni qaçqınları ora yenidən qayıdacağı halda türklər yenə çoxluq təşkil edəcəklər.[1092] Harbord ermənilərin yaxşı keyfiyyətini sadalamaqla yanaşı, əlavə edirdi ki, "Amerika missionerləri türkləri ermənilərdən üstün tuturlar."[1093] O, Ermənistana Amerika mandatının lehinə 14, əleyhinə isə 13 dəlil gətirirdi. Lakin birinci on dörd dəlil çox zəif olduğundan, ikinci 13 dəlil ilə çox asanlıqla Ermənistana Amerika mandatının inkar edilməsini sübuta yetirmək olurdu.[1094] General Harbord erməni məsələsi ilə yaxından tanış olduqdan sonra qəti surətdə bu fikrə gəlmişdi ki, ABŞ Ermənistana hər hansı vəkalət verməkdən imtina etməlidir.[1095]

Parisdə yolüstü dayandığı günlərdə Ə.M.Topçubaşov Harbordla görüşməyə cəhd göstərmiş, lakin bu mümkün olmamışdı. Əli Mərdan bəy yazırdı: "Bir həftə əvvəl Qafqazdakı Amerika missiyasının başçısı general Harbord Parisdən keçərək, Amerikaya gedib. O, burada cəmisi iki gün qaldı. Mən iki dəfə onun yanına kuryer göndərdim ki, görüşmək üçün vaxt təyin etsin. Onun adyutantı cavab verdi ki, general görüşməyə çox şad olacaq və o, özü telefonla görüş vaxtını bizə bildirəcək. Təəssüf ki, bu dəfə də onu görmək bizə müyəssər olmadı. General Harbordun gəlişi münasibətilə qəzetlərdə (le Temps) xəbər verilirdi ki, şəxsən prezident Vilsona Qafqaz işləri haqqında məlumat aparır. Həmin məlumatda Ermənistan üzərində mandata qarşı çıxılır."[1096]

General Harbordun missiyasının yekunları barədə hazırladığı məruzə ilə tanışlıq belə bir nəticə çıxarmağa əsas verir ki, o, Cənubi Qafqazın və İstanbulun bir mandatlıqda birləşdirilməsinə tərəfdar idi, lakin Harbord bu mandatın ABŞ tərəfindən götürülməsinə etiraz edirdi. Harbord missiyası, nəinki ABŞ-ın Qafqaz mandatlığına olan marağına son qoydu, eyni zamanda Birləşmiş Ştatların siyasi dairələrində geniş yayılmış ermənipərəstlik əhvali-ruhiyyəsinə şübhə toxumu səpdi. Beləliklə, sənəd və materialların təhlili göstərir ki, ABŞ-ın Qafqaz güclü hərbi, siyasi, iqtisadi və strateji marağı olsa da, lakin Birləşmiş Ştatlar Cənubi Qafqaz respublikalarını gözlənilən Şimal təhlükəsindən effektli müdafiə etmək imkanına malik deyildi. Digər tərəfdən Birinci dünya müharibəsindən sonra avropalı müttəfiqləri Birləşmiş Ştatları, nəinki Qafqaza buraxmağa ehtiyat edir, hətta onun Yaxın Şərqə nüfuz etməsinə qısqanclıqla yanaşırdılar. Bu regionda möhkəmlənmək üçün Birləşmiş Ştatlar İkinci dünya müharibəsinin başa çatmasını gözləməli oldu.

---

1092 Mir Yacoub. Le probleme du Caucase, p.126.
1093 З.Авалов. Независимость Грузии в международной политике, с.231.
1094 Г.Гамбашидзе. Из истории политики США в отношении Грузии, с.44.
1095 Mir Yacoub. Le probleme du Caucase, p.126.
1096 Azərbaycan Respublikasının Paris Sülh konfransındakı nümayəndəliyinin başçısı Ə.M.Topçubaşovun Nazirlər Şurasının sədrinə məktubu. 06-10.11.1919. // ARDA, f.970, s.1, i.146, v.11.



downloaded from KitabYurdu.az

## XI FƏSİL

### ABŞ-da lobbiçilik cəhdləri və Qərbi Avropada təbliğat işlərinin genişləndirilməsi

1919-cu ilin payızından başlayaraq beynəlxalq vəziyyət yeni yaranmış respublikaların xeyrinə dəyişməyə başladı. Bunu müəyyən edən ən mühüm amil rus ağqvardiyaçı generalların məğlubiyyəti idi. Bu dövrdə Yudeniç və Kolçakın məğlub olması, Denikinin isə ümidsiz vəziyyətə düşməsi Antanta siyasi dairələrində "vahid və bölünməz Rusiya" ideyasına inamı sarsıtmış, Avropa üçün ciddi təhlükəyə çevriləcək vahid bolşevik Rusiyasının yaranma ehtimalı isə onları bu və ya digər dərəcədə vahimələndirmişdi.

Versal müqaviləsinin ağır şərtləri ilə taqətdən salınmış Almaniyanın bolşevik Rusiyası ilə yaxınlaşma planları, Baltik respublikalarının Sovet Rusiyası ilə sülh bağlamaq meyllərinin meydana çıxması, Antanta dövlətlərinin yeni yaranmış respublikalara münasibətinin dəyişməsini zəruri edirdi. Sovet hökumətinin 1919-cu ilin avqust ayının 31-də Estoniyaya, sentyabr ayının 11-də isə Litva, Latviya və Finlandiyaya sülh danışıqlarına başlamaq barədə təkliflərlə müraciət etməsi, uzun müddət Antanta dövlətləri tərəfindən tanınmalarını gözləyən bu ölkələrin Rusiyaya meylini artırmışdı.

Digər tərəfdən, Amerika Senatının Versal sülhünə və ümumiyyətlə, sülh konfransına mənfi münasibətinin meydana çıxması müttəfiqlərarası ziddiyyətləri dərinləşdirir və beynəlxalq münasibətlərdə yeni meyllər doğururdu. Bütün bunlar Azərbaycan hökumətindən, Respublika xarici işlər nazirliyindən və onun Parisdəki nümayəndələrindən yaranmış yeni beynəlxalq şəraitə uyğun xarici siyasət xətti yeritməyi tələb edirdi. Bu baxımdan xarici siyasət xəttinin həyata keçirilməsində ABŞ-la ikitərəfli münasibətlərin yaradılmasına xüsusi əhəmiyyət verilirdi.

Azərbaycan Respublikası və onun Parisdə olan nümayəndələri ABŞ-la iqtisadi və siyasi əlaqələr yaradılmasına, xüsusilə, Birləşmiş Ştatlar tərəfindən tanınmağa böyük səy göstərirdilər. Bu xeyli dərəcədə onunla bağlı idi ki, ənənəvi Avropa dövlətləri ilə yanaşı, Birinci dünya müharibəsindən sonra ABŞ iqtisadi cəhətdən çox qüvvətlənmiş və əslində dünya siyasətini müəyyən edən dövlətlərdən birinə çevrilmişdi. Müharibədən sonrakı ilk illərdə Birləşmiş Ştatlar dünyanın əsas bankiri rolunu oynayırdı, yaxud ABŞ dövlət katibi Lansinqin dili ilə desək, Amerika dünyanı iqtisadi cəhətdən idarə edirdi və siyasi cəhətdən də onu idarə etməyə hazırlaşırdı. Bundan əlavə, prezident Vudro Vilson dünya müharibəsindən sonra yaranan dünya sisteminin əsas memarı, yeni yaranmış dövlətlərin müdafiəçisi, kiçik xalqların dostu kimi tanınırdı. Paris Sülh konfransı dövründə Vilsonun Qafqaz respublikalarına soyuq münasibəti onunla bağlı idi ki, bir növ bu respublikalar Polşa, Finlandiya, Çexoslovakiya, Yuqoslaviya və digərlərindən fərqli olaraq, "gözlənilmədən" yaranmışdılar, yaxud Vilsonun 1918-ci ilin



downloaded from KitabYurdu.az

yanvarında elan edilmiş on dörd sülh prinsipində kiçik xalqların təyini müqəddəratı hüququ təsbit edilsə də, həmin prinsiplərdə Rusiya imperiyasının dağılması nəzərdə tutulmamışdı. Bir növ Vilson üçün Rusiyanın dağılması və onun hüdudlarında Gürcüstan və Azərbaycan adlı respublikaların yaranması tamamilə gözlənilməz bir hadisə idi. Qafqazda "qəflətən" meydana çıxan bu respublikalar haqqında, nəinki Amerika prezidentinin və siyasi dairələrinin, eləcə də Birləşmiş Ştatların ictimaiyyətinin məlumatı çox az idi. Bunu nəzərə alaraq Ə.M.Topçubaşov Azərbaycan və Gürcüstanı ABŞ-da təbliğ etməyi, onları siyasi cəhətdən tanıtmağı öz üzərinə götürmüş, Nyu-York şəhərindən ABŞ Konqresinin nümayəndələr palatasının üzvü, vəkil Valter Çandler vasitəsi ilə sentyabr ayının 26-da prezident V.Vilsona məktub və bir sıra materiallar göndərmişdi. Məktubda 1919-cu ilin may ayının 28-də, istiqlaliyyət elan edilməsinin birinci ildönümü günü Azərbaycan nümayəndələrinin Vilson tərəfindən qəbul edilməsi prezidentə xatırladılır və bu görüşün onlar üçün unudulmaz hadisə olduğu qeyd edilirdi. O yazırdı ki, "biz sizin simanızda xalqları, xüsusən sizin prinsipləriniz əsasında milli və siyasi cəhətdən öz müqəddəratını təyin etmiş kiçik xalqları sülhə, azadlığa və yanaşı yaşamağa çağıran müasir Apostolu görürük. Belə xalqlardan biri olan Azərbaycan xalqının nümayəndəsi kimi, biz ümidvarıq ki, xalqımız Böyük Amerika və Sizin tərəfinizdən də müstəqilliyini və azadlığını qorumaq kimi müqəddəs işdə müdafiə olunacaq və yardım alacaqdır."[1097] Prezident Vilsonun Azərbaycan haqqında məlumatının azlığını nəzərə alaraq, Ə.M.Topçubaşov Azərbaycanın müstəqilliyi haqqında memorandumu, sərhədlər göstərilən iqtisadi xəritəni, Azərbaycanın iqtisadi və maliyyə vəziyyəti haqqında diaqramları, etnoqrafik xəritə ilə birlikdə Azərbaycan əhalisinin milli-etnik tərkibi haqqında memorandumu ona göndərdi.[1098]

Amerika ilə əlaqələri genişləndirməyi zəruri edən digər bir səbəb də var idi. Dünya müharibəsi başa çatan kimi ermənilər ABŞ-da "Müstəqil Ermənistanın Amerika Komitəsi"ni yaratmışdılar və bu komitə, təkcə Ermənistanın müstəqilliyini tanıtmaq uğrunda deyil, eyni zamanda Azərbaycanı və Gürcüstanı Amerika siyasi dairələri, Amerika ictimaiyyətinin gözündə nüfuzdan salmaq istiqamətində iş aparırdı. Ona görə, ABŞ-da Azərbaycan haqqında həqiqətin yayılmasına, Amerika siyasi dairələrinin Azərbaycan haqqında təsəvvürlərinin düzgün formalaşmasına böyük zərurət duyulurdu. Bu məqsədlə Baltik ölkələri, Azərbaycan və Gürcüstan nümayəndələri vəkil V.Çandlerlə müqavilə bağlamışdılar.[1099] 1919-cu ilin sentyabrında Ə.M. Topçubaşov Parisdə olan bütün nümayəndə heyətinin iştirakı ilə V.Çandlerlə iki müqavilə imzaladı. 3 ay

---

[1097] Azərbaycanın Paris Sülh konfransındakı nümayəndə heyətinin sədri Ə.M.Topçubaşovun ABŞ prezidenti V.Vilsona məktubu. 26.09.1919.//ARDA, f.970, s.l, i.146, v.55

[1098] Yenə orada, v.56

[1099] Third session of the Sixty-Fifth Congress of the USA, vol.57, part 5, p.39



downloaded from KitabYurdu.az

müddətinə imzalanmış birinci müqaviləyə görə, Amerika vətəndaşı Valter M.Çandler Azərbaycan nümayəndə heyətinin tərkibinə təbliğati məsələlərlə bağlı hüquq məsləhətçisi kimi qəbul edilirdi və üç ay müddətinə Azərbaycan Respublikasının mənafeyini və müstəqilliyini müdafiə etməyi öz üzərinə götürürdü. Azərbaycan tərəfi isə bu xidmətin müqabilində V.Çandlerə 5 min Amerika dolları həcmində zəhmət haqqı verməli idi. Bu məbləğin yarısı müqavilə imzalanan kimi, qalan yarısı isə 1919-cu ilin dekabr ayının 1-dən gec olmayaraq ödənilməli idi. Qarşılıqlı razılığa əsasən, müqavilə imzalandığı andan qüvvəyə minirdi. Azərbaycan tərəfi müqavilənin parlamentdə təsdiq edilməsinə təminat verirdi. Bu müqavilə ilə yanaşı, eyni zamanda tərəflər uzunmüddətli dövr üçün nəzərdə tutulan ikinci kontraktı hazırlamalı idilər və oktyabr ayının 4-dən başlayaraq V.Çandler öz müqavilə öhdəliklərinin icrasına, yəni ABŞ-da Azərbaycan haqqında təbliğat kampaniyasına başlamalı idi.[1100] Az sonra imzalanan ikinci müqavilənin preambulasında göstərilirdi: bu sazişə əsasən, Azərbaycan Respublikası parlamentinin sədri, Azərbaycan Respublikasının Paris Sülh konfransında nümayəndə heyətinin rəhbəri Ə.M.Topçubaşov Azərbaycan Respublikası tərəfindən ona verilmiş səlahiyyətə əsasən, Amerika Birləşmiş Ştatlarında müstəqil Azərbaycan Respublikasının mənafeyini müdafiə və təbliğ etmək məqsədi ilə Nyu-York şəhərindən olan, hüquq məsləhətçisi işləməyə razılıq verən vəkil Valter M.Çandlerin xidmətindən istifadə etməyə razılıq verir. İmzalanmış müqavilənin şərtlərinə görə, yuxarıda qeyd edilən vəzifəni yerinə yetirmək üçün Ə.M.Topçubaşov V.M.Çandlerə ABŞ Azərbaycanın tam müstəqilliyini de-fakto tanıyan kimi əlli min dollar zəhmət haqqı verməli idi. Müqavilədə göstərilirdi ki, əgər ABŞ Azərbaycanın tam müstəqilliyini tanımaqdan imtina edərdisə, V.M.Çandlerə Azərbaycan tərəfindən heç bir kompensasiya ödənilmirdi! Müqavilə Azərbaycan Parlamentində təsdiq edildikdən sonra Ə.M.Topçubaşov və Valter M.Çandlerin imzası və Azərbaycan hökumətinin möhürü ilə hüquqi cəhətdən qüvvəyə minirdi.[1101] Öz növbəsində Gürcüstan Respublikası da V.Çandlerlə təxminən bu məzmunda bir saziş imzalamışdı.

V.Çandlerlə imzalanmış müqavilə barədə Ə.M.Topçubaşov Azərbaycan hökumətinə yazırdı: "Amerikalı vəkil Çandlerlə bağlanmış kontraktlara gəldikdə, deməliyəm ki,...bu vəkil Estlandiyanın /Estoniyanın -C.H./, Litvanın və Letoniyanın /Latviyanın - C.H./, həmçinin, Gürcüstan və Azərbaycanın mənafelərini müdafiə etməyi öz üzərinə götürür...Bütün bunlar ondan irəli gəlir ki, Amerikada kimi isə əldə saxlamaq zəruridir."[1102]

V.Çandler ABŞ-a yola düşdükdən sonra Ə.M.Topçubaşov Parisdə olan və Vaşinqtona yola düşmək ərəfəsində olan Amerika nümayəndə heyətinin üzvü

---

[1100] Contract № 1. September 1919. // ARDA, f.970, s.l, i.142, v.131-132

[1101] ARDA, f.970, s.l, i.142, v. 133-134; Jamil Hassanov. Azerbaijani-American Relations from 1918-1920: A Page in Their History, p.7

[1102] А.М.Топчибашев. Письма из Парижа, с.72



downloaded from KitabYurdu.az

H.Morqentau ilə görüşüb xahiş etdi ki, Azərbaycanın Birləşmiş Ştatlarda müvəkkili olan, onun yaxşı tanıdığı V.Çandlerə köməklik göstərsin. H.Morqentau buna razılıq verərək məsləhət gördü ki, "ABŞ-da Azərbaycanın öz nümayəndəliyi olsa, daha yaxşı olar." Söhbət zamanı Morqentau bildirdi: "Biz bütün kiçik xalqların dostuyuq. Sizin hamınıza kömək etməyə şadıq, lakin beynəlxalq siyasətdə, təkcə biz hər şeyi həll etmirik. Mən sizin memorandumla tanış oldum və görürəm ki, Azərbaycan varlı ölkədir və özü sərbəst yaşaya bilər. Siz Amerikada yaxşı qəbul edilirsiniz və həm də ola bilsin ki, sizin sərvətinizə layiq kapital tapıla bilər".[1103]

Əlbəttə, sonuncu məsələ Parisdə olan Azərbaycan nümayəndələrinin diqqətindən yayınmamışdı və Amerika ilə iqtisadi əlaqələr yaratmaq üçün ABŞ işgüzar dairələrinin nümayəndəsi Maks Rabinov Azərbaycan nümayəndəliyinin maliyyə işləri üzrə məsləhətçisi təyin olunmuşdu və onunla müqavilə bağlanmışdı. M.Rabinov Azərbaycandan dünya qiymətlərinə uyğun neft alınmasını, ABŞ maliyyə orqanları tərəfindən Azərbaycana kredit buraxılmasını, habelə, Azərbaycan üçün Amerika manufaktura mallarının alınmasını təşkil etməli idi.[1104] Bu əməliyyatda əldə olunmuş gəlirin 3 faizi M.Rabinova çatmalı idi. M.Rabinovla bağlı məsələlər Azərbaycan və Gürcüstan nümayəndələrinin 23 avqust, 18 sentyabr tarixli birgə iclaslarında müzakirə edilmişdi.[1105] M.Rabinovla müqavilə altı ay müddətinə bağlandı, tərəflər arzulayardısa, müddət artırıla bilərdi. M.Rabinov ABŞ-a qayıdan kimi Amerikanın "Standard oyl kompani of Nyu-York" neft şirkətinin direktoru, hələ 1919-cu ilin iyununda neft alınması ilə bağlı Bakıda danışıqlar aparmış P.İ.Tomas onunla əlaqəyə girib, Bakıdan neft alınması ilə bağlı uzun müddətli müqavilə bağlamaq istəmişdi. Bu barədə M.Rabinov noyabr ayının 1-də Ə.M.Topçubaşova göndərdiyi teleqramda "Standard oyl"la danışıqlar aparmaq üçün Ə.M.Topçubaşovdan icazə istəyirdi.[1106] Bu kompaniya ilə 1919-cu ilin iyul ayında 12 milyon pud kerosin alınması barədə P.İ.Tomasla yollar naziri X.Məlik-Aslanov arasında müvəqqəti saziş imzalanmışdı. 1920-ci ilin 31 yanvarına qədər "Standard oyl" kompaniyasına hər tonu 34 dollardan 6 milyon pud kerosin verilməli idi.[1107] Bu kompaniyanın vasitəsi ilə Azərbaycan ABŞ-dan hər pudu 2,5 dollara 40 min ton taxıl almışdı.[1108]

---

[1103] Azərbaycan Respublikasının Paris Sülh konfransındakı nümayəndəliyinin başçısı Ə.M.Topçubaşovun Nazirlər Şurasının sədrinə məktubu. 06-10.11.1919.//ARDA, f.970, s.1, i-146, v.10

[1104] Maks Rabinovun Paris Sülh konfransındakı Azərbaycan nümayəndəliyinin sədri Ə.M.Topçubaşova məktubu. 22.09.1919.//ARDA, f.970, s.l, i.142, v.116-117

[1105] Azərbaycan və Gürcüstan Sülh nümayəndələrinin birgə iclasının protokolu. 28.08.1919. //ARDA, f.970, s.l, i.142, v.228-229; Azərbaycan və Gürcüstan Sülh nümayəndələrinin birgə iclasının protokolu. 18.09.1919. //ARDA, f.970, s.1, i.142, v.235-236

[1106] Maks Rabinovun Paris Sülh konfransındakı Azərbaycan nümayəndəliyinin sədri Ə.M.Topçubaşova məktubu. 01.11.19197/ARDA, f.970, s.l, i.146, v.57

[1107] Азербайджан, 1919, 6 июля.

[1108] Азербайджан, 1919, 9 декабря.



downloaded from KitabYurdu.az

ABŞ-da əlaqəli şəkildə fəaliyyət göstərən V.Çandler və M.Rabinov qarşıya çıxan siyasi, iqtisadi və hüquqi xarakterli məsələləri aydınlaşdırmaq üçün Azərbaycan nümayəndə heyətinin üzvü M.Məhərrəmovu ABŞ-a ezam etməyi xahiş edirdilər.[1109] Lakin bu zaman Azərbaycan xarici işlər naziri M.Y.Cəfərovun imzası ilə sosialist partiyası və Azərbaycan parlamentinin üzvü Abbas bəy Ataməlibəyov Versala ezam edilmişdi ki, öz firqə yoldaşı M.Məhərrəmovu əvəz etsin.[1110] Nümayəndə heyətinin başçısı Ə.M.Topçubaşov belə mexaniki əvəz edilmələrin əleyhinə idi. O yazırdı: "Hər şeydən əvvəl bu vəziyyətdə əvəz olunan şəxsin vəzifə borcunun əvəz edən şəxsin üzərinə qoyulmasının mümkün olub-olmadığını nəzərə almadan bir kəsi başqası ilə sadəcə mexaniki yolla əvəz etmək, demək olar ki, yolverilməz haldır. Nümayəndə heyəti tərkibinə yeni şəxs əlavə edilməsini başa düşmək olar. Amma çətin ki, bu və ya digər kombinasiyanı tələb edən dəlilləri nəzərə almadan işin xeyrinə sadəcə dəyişiklik etmək mümkün olsun. Bundan əlavə qeyd edilən dəyişikliklərlə bağlı partiyanın qərarı nəzərə çatdırılır. Əlbəttə, mən bunun əleyhinə deyiləm. Lakin deməliyəm ki, nümayəndə heyəti müxtəlif partiyalara mənsub şəxslərdən ibarət olsa da, lakin indiyədək o, öz fəaliyyətində əsasən, bütün Azərbaycanın ümumi mənafeyi naminə çalışmışdır, bu mənafe partiyaların mənafeyindən üstün tutulurdu."[1111] Son nəticədə, Versalda olan sosialist partiyasının nümayəndələri bu məsələni birlikdə həll etdilər. Oktyabr ayının 9-da Parisə yetişən A.Ataməlibəyov nümayəndə heyətinin tərkibinə əlavə edildi və katib kimi işə başladı. O, Parisdəki heyətin tərkibində olan və müvəqqəti Bakıya dönən M.H.Hacınskini əvəz etdi. M.Məhərrəmov isə təcrübəli bir işçi kimi nümayəndə heyətinin tərkibində saxlanıldı.

Oktyabr ayının 18-də Valter Çandler Amerikadan Ə.M.Topçubaşova özünün hesabat xarakterli birinci məktubunu göndərdi. O yazırdı ki, ABŞ-da Gürcüstan və Azərbaycan kimi ölkələr barədə təbliğat kampaniyası aparmaq çox çətindir, çünki onlar Amerikada tanınmırlar və eyni zamanda estonlar, ukraynalılar, latışlar və ermənilər kimi koloniyaya malik deyildirlər. Çandler təklif edirdi ki, ya Azərbaycan və Gürcüstan nümayəndələri Amerikaya gəlməlidir, ya da bu işi o özü dostları ilə birlikdə görməlidir. V.Çandler yazırdı: "Prezidentin (V.Vilsonun - C.H.) uzunmüddətli xəstələnməsi təbliğat aparılması yolunda başlıca maneədir. Digər ölkənin müstəqilliyinin tanınması bizim hökumətin icra orqanının qərarından asılıdır. Bu, o deməkdir ki, hər şeydən əvvəl prezident fəaliyyətə başlamalıdır." V.Çandler prezident sağaldıqda onunla mütləq görüşəcəyini, Ə.M.Topçubaşovun məktubunu və Azərbaycana aid materialları ona çatdıracağını bildirirdi. İndi isə o,

---

1109 Maks Rabinovun Paris Sülh konfransındakı Azərbaycan nümayəndəliyinin sədri Ə.M.Topçubaşova məktubu. 01.11.1919.//ARDA, f.970, s.1, i.146, v.57

1110 Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 638, folio 89

1111 Azərbaycan Respublikasının Paris Sülh konfransındakı nümayəndəliyinin başçısı Ə.M.Topçubaşovun Nazirlər Şurasının sədrinə məktubu. 06-10.11.19197/ARDA, f.970, s.1, i.146, v.19



downloaded from KitabYurdu.az

Azərbaycan nümayəndələrindən aldığı materialları Amerika senatorları arasında yayaraq qeyd edirdi ki, prezident işə çıxdıqda "mən Azərbaycanın və Gürcüstanın müstəqilliyinin tanınmasına aid qətnaməni Senata və Konqresə verəcəyəm." Məktubda o, Azərbaycanın istiqlaliyyətini tanıtmaq üçün bütün vasitələrdən istifadə edəcəyini, Ə.M.Topçubaşov və gürcü nümayəndəsi Z.Avalovun Amerikaya gəlməsi üçün çalışdığını göstərirdi.[1112]

Ə.M.Topçubaşov Çandlerə yazdığı cavab məktubunda konfransda Qafqaz barədə cərəyan edən hadisələr, konfransda Azərbaycana münasibət, Denikinlə və digər məsələlərlə bağlı ətraflı məlumat vermişdi. O, Parisdə Amerika nümayəndə heyətinin üzvü və Henri Morqentaunun onunla tanış etdiyi M.Q.Buklerlə görüşmüş və Qafqazda cərəyan edən hadisələrlə bağlı Buklerin çoxlu suallarına cavab vermişdi. Xüsusən, Qafqazda ermənilərlə bağlı eşitdikləri M.Q.Bukler üçün yenilik olmuşdu. Söhbətin sonunda o, Əli Mərdan bəyə təşəkkür edərək demişdi: "Biz sizin qonşularınızı bir az da tanıdıq, onları heç də mələk saymırıq."[1113] Lakin M.Q.Buklerin dediyinin əksinə olaraq, ermənilər okeanın o tayında "mələk" donuna girə bilmişdilər. Amerikada fəaliyyət göstərən "Müstəqil Ermənistanın Amerika Komitəsi"nin sədri, Birləşmiş Ştatların Berlində keçmiş səfiri Ceyms Cerard "əzabkeş xristian ermənilərin", "xristian məbədlərinin" xilas edilməsini bütün vasitələrlə amerikanlara təlqin edirdi. Sentyabr ayının 28-də onun imzası ilə bütün Amerika şəhərlərində yayılmış müraciətdə göstərilirdi: "Erməniləri tamamilə məhv olmaq təhlükəsi təhdid edir. Ermənistan Respublikası nümayəndələrindən aldığımız teleqram bu məsələdə heç bir şübhə yeri qoymur. Ermənistan sonuncu yalvarışlarını göndərir ki, xristian Amerikası onu xilas etsin. Deməyə ehtiyac yoxdur ki, əgər erməni xalqının məhv edilməsi baş verərsə, xristian kilsəsi əbədilik təhqir olunacaqdır. Yazıb sizdən xahiş edirik ki, Amerika Birləşmiş Ştatlarının prezidentinə teleqramlar vurun, məktublar yazın, Ermənistanın xilas edilməsi üçün əsaslı və təcili tədbirlər görməyə onu tələsdirin. Sizin yaşadığınız yerlərdə təcili şəkildə kilsələrin diqqətini buna cəlb edin. Hər bir kişidən və qadından xahiş edirik ki, prezidentə və öz ştatlarından olan senatorlara teleqram vurub Ermənistanı xilas etmək üçün təcili tədbirlər görməyə çağırsınlar. Bizim icraiyyə komitəsi bu fikirdədir ki, yardım göstərmək üçün prezident yetərli hakimiyyətə malikdir və kömək etmək onun borcudur. Ermənistan məhv olur. Amerika öz sözünü deməlidir." Bu müraciətin mətnini Ə.M.Topçubaşova göndərərək, Çandler yazırdı ki, "Azərbaycanın və Gürcüstanın müstəqilliyi uğrunda mübarizə aparmaq üçün də bax belə komitələr və belə müraciətlər zəruridir."[1114] Erməni nümayəndələri

---

[1112] Valter Çandlerin Paris Sülh konfransındakı Azərbaycan nümayəndəliyinin sədri Ə.M.Topçubaşova məktubu. 18.10.19197/ARDA, f.970, s.l, i.146, v.53-54

[1113] Azərbaycan Respublikasının Paris Sülh konfransındakı nümayəndəliyinin başçısı Ə.M.Topçubaşovun Nazirlər Şurasının sədrinə məktubu. 06-10.11.19197/ARDA, 1.970, s.l, i.146, v.11.

[1114] Valter Çandlerin Paris Sülh konfransındakı Azərbaycan nümayəndəliyinin sədri Ə.M.Topçubaşova məktubu. 01.11.1919.//ARDA, f.970, s.l, i.145, v.59



downloaded from KitabYurdu.az

Kaçaznuni, Enfiadcyan və Piralovun Amerikaya səfəri münasibəti ilə C.Cerardın komitəsi nümayəndələr palatasının bütün üzvlərini, o cümlədən V.Çandleri də təbliğat xarakterli ziyafətə dəvət etmişdi. V.Çandler həmin dəvətnamənin mətnini də Əli Mərdan bəyə göndərmişdi. Ziyafətdə çıxış edən Kaçaznuni ABŞ siyasi dairələrinə bildirirdi ki, "Ermənistana silah versəniz əmin ola bilərsiniz ki, türklər, kürdlər və tatarlar erməni xalqının dincliyini pozmağa cəsarət etməzlər."[1115] Ziyafətdə iştirak edən və az sonra respublikaçılar partiyasından ABŞ-ın prezidenti seçilmiş U.Hardinq Kaçaznuniyə qulaq asdıqdan sonra bildirdi ki, bu təklifləri yığıncağın adından hökumətə vermək lazımdır. Ceymis Cerardın geniş məruzəsi əsasında yığıncaqda dörd bənddən ibarət qərar qəbul edildi. Orada federal hökumətdən tələb edilirdi ki, Ermənistan Respublikası Birləşmiş Ştatlar tərəfindən tanınsın; 30 min nəfərlik ordunu saxlamaq üçün Ermənistana ərzaqla, silahla və hərbi sursatla yardım göstərilsin; ABŞ-da yaşayan ermənilərə 10 min nəfərlik könüllü legion təşkil etməyə icazə verilsin, eyni zamanda İstanbul və Bolqarıstanda da 10 min nəfərlik erməni legionu təşkil edilsin və bu konüllü legionlar Ermənistana göndərilsin; Ermənistanın müstəqilliyi, Şərqi Anadolunun "erməni vilayətləri" və Kilikiyanın da daxil olduğu Ermənistan dövlətinin yaradılması haqqında hazırlanmış qətnamə ABŞ Senatından keçirilsin.[1116]

Noyabr ayının 1-də yazdığı məktubda Çandler ABŞ-da ermənilərə münasibətdə xristian həmrəyliyinin xeyli qüvvətləndiyini qeyd edirdi. O, göstərirdi ki, qarşılaşdığım hər hansı senator və deputat bu fikirdədir ki, guya azərbaycanlılara çox diqqət yetirmək lazım deyil, ona görə ki, onlar türk, tatar və müsəlmandırlar. Mən onları başa salıram ki, "Azərbaycan xristian ölkəsi olan Gürcüstanla tam həmrəydir, azərbaycanlılar və xristian gürcülər bu yaxında müdafiə paktı imzalamışlar və siyasi cəhətdən müttəfiqdirlər, onlar erməniləri də bu pakta dəvət etmişlər."[1117] Valter Çandlerin bu məktubuna cavab olaraq, Parisdə olan Azərbaycan və Gürcüstan nümayəndələri yazıb xahiş etdilər ki, "ermənilərlə heç bir mübahisəyə girmədən orada bizim xeyrimizə xüsusi təbliğat komitəsi yaratsın."[1118] Az sonra, noyabr ayının 3-də M.Rabinov Azərbaycan nümayəndələrinə məktubla müraciət etdi. Məktubdan məlum olur ki, o xeyli iş görmüş, Azərbaycana göndərmək üçün 15 milyon dollarlıq mal tədarük etmişdir. Amerika kreditləri məsələsinə gəldikdə isə bu məsələdə çətinlik ondan ibarət idi ki, ABŞ siyasi cəhətdən tanımadığı ölkəyə kredit vermirdi. Rabinov bunu üçüncü ölkə vasitəsi ilə etmək istəyirdi. M.Rabinov Ə.M.Topçubaşova bildirirdi ki, dekabrın 5-də o, Parisdə olacaqdır və özü ilə Bakıya yola salmaq üçün işgüzar adamların

---

1115 Yenə orada, v.58-59

1116 Азербайджан, 1920, 1 января.

1117 Valter Çandlerin Azərbaycan Respublikasının Paris Sülh konfransındakı nümayəndəliyinin sədri Ə.M.Topçubaşova məktubu. 01.11.1919.//ARDA, f.970, s.1, i.145, v.56

1118 ARDA, f.970, s.1, i.145, v.10



downloaded from KitabYurdu.az

böyük bir dəstəsini gətirir.[1119] M.Rabinovun qısa müddətdə ABŞ-da gördüyü ən mühüm iş Amerika-Qafqaz kommersiya palatasını təşkil etmək idi. Bu palata Azərbaycanla ticarət-iqtisadi münasibətlərdə həlledici rol oynaya bilərdi.

ABŞ-ın keçmiş Rusiya imperiyasında yeni yaranmış dövlətlərə, o cümlədən, Azərbaycana münasibətinin səciyyəvi cəhətləri V.Çandlerin noyabr ayının 10-da Ə.M.Topçubaşova göndərdiyi məktubda daha qabarıq şəkildə açılır. O, rəsmi şəkildə Azərbaycanın müstəqilliyinin tanınmasını Dövlət Departamenti qarşısında qaldıranda aydın olur ki, Birləşmiş Ştatlar Kolçak, Denikin və Yudeniçin aqibətinin nə ilə qurtaracağını gözləyir. V.Çandler göstərir ki, rus ağqvardiyaçı generallarının məğlubiyyəti Dövlət Departamentində fikri yeni yaranmış respublikaların xeyrinə dəyişdirməkdədir. ABŞ Dövlət Departamentində yeni respublikaların müstəqilliyinin tanınması ilə bağlı V.Çandlerin sorğusuna verilən cavabda göstərilirdi ki, Ştatların Departamenti son nəticədə kiçik xalqların müstəqilliyinin tanınmasının əleyhinə deyildir, lakin bu indi ona görə mümkün deyildir ki, Amerika hökuməti Millətlər Cəmiyyəti məsələsini axıra qədər həll etməmişdir və bir də Kolçaka axırıncı dəfə imkan verilir ki, bolşevizmi məhv etmək üçün öz gücünü göstərsin. Eyni zamanda bu məktubda yaxın vaxtlarda, Azərbaycan da daxil olmaqla, Rusiya xalqlarına ABŞ tərəfindən prezident layihəsi üzrə yardım göstəriləcəyinin mümkünlüyü söylənilirdi. V.Çandler haqlı olaraq qeyd edirdi ki, kiçik xalqlar öz müstəqilliklərinin tanınması üçün bir neçə ay, yəni, Kolçak və Denikinin tam məğlubiyyətini gözləməli olacaqlar.[1120]

1919-cu ilin payızında rus ağqvardiyaçı generallarının məğlubiyyəti hiss edildiyi üçün, təkcə ABŞ-ın deyil, Böyük Britaniya, Fransa, İtaliya siyasi və işgüzar dairələrinin də Qafqaza, o cümlədən Azərbaycana marağı artırdı. De-Monzienin rəhbərlik etdiyi Franko-Qafqaz Komitəsi oktyabr ayının 4-də Azərbaycan və gürcü, habelə Fransa işgüzar dairələrinin iştirakı ilə Qafqaza aid konfrans keçirmişdi.[1121] Konfransın işini şərh edən Fransa mətbuatının Qafqaza münasibətdə əvvəlki mühafizəkarlığı demək olar ki, yox idi. Konfransda Azərbaycan nümayəndələrindən C.Hacıbəyli və M.Məhərrəmov məruzə etmişdilər.

Oktyabr ayının ortalarında Fransa hərbi missiyası ilə birlikdə Fransa Respublikasının ticarət və sənaye nazirliyinin nümayəndəsi də Bakıya gəlmişdi.[1122] Xarici işlər naziri M.Y.Cəfərovla danışıqlarda onlar bildirmişdilər ki, Fransa hökuməti Azərbaycanın iqtisadi və siyasi vəziyyəti ilə maraqlanır və onunla dostluq münasibətləri yaratmağı arzulayır. Fransadan gəlmiş missiyanın başçısı

---

[1119] Maks Rabinovun Azərbaycan Respublikasının Paris Sülh konfransındakı nümayəndəliyinin sədri Ə.M.Topçubaşova məktubu. 03.11.1919.//ARDA, f.970, s.1, i.145, v.79-80

[1120] Valter Çandlerin Azərbaycan Respublikasının Paris Sülh konfransındakı nümayəndəliyinin sədri Ə.M.Topçubaşova məktubu. 10.11.19197/ARDA, f.970, s.l, i.145, v.80

[1121] Comite France-Caucase.// Bulletin d'Information de L'Azerbaidjan. Paris, 1919, 18 Novembre, №4, p.5; Fransa-Qafqaz komitəsi haqqında. 1919.// ARDA, f.970, s.1, i. 146, v.91.

[1122] Télégramme Le Ministre des Affaires EtrangèresA Mission Militaire Française Tiflis. // Ministère des Affaires Etrangère de France, Archives Diplomatique,vol.638, folio 95.



downloaded from KitabYurdu.az

qeyd etdi ki, fransız ictimaiyyəti və hökuməti Azərbaycandakı vəziyyət haqqında çox pis məlumatlandırılır. Onlar Azərbaycana səfər zamanı gördükləri vəziyyət haqqında Fransa hökumətinə məlumat verəcəklərini bildirdilər.[1123] Bunun ardınca isə İ.Enriko başda olmaqla, İtaliya missiyası Azərbaycana gəlmişdi. Böyük Britaniyanın ən böyük kompaniyalarından biri olan "Kosmos" kompaniyası ilə Azərbaycan nümayəndələri arasında imzalanmış sazişə görə, kompaniya Qara dəniz limanlarından Azərbaycanda olan artıq xammalın daşınıb Avropada satışının təşkil edilməsini öz üzərinə götürürdü.[1124]

Fransanın teleqraf və telefon kompaniyası Azərbaycan Respublikasının poçt-teleqraf işlərini ümumdünya standartlarına uyğunlaşdırmaq və Gəncə radiostansiyasını Eyfel qülləsindəki Avropa radiostansiyasına qoşmaq üçün Parisdəki Azərbaycan nümayəndələri ilə qarşılıqlı razılaşmaya əsasən, Azərbaycana xeyli avadanlıq göndərmiş və öz mühəndislərini ezam etmişdilər. 1919-cu ilin noyabrında ilk dəfə olaraq, Ə.M.Topçubaşov Eyfel qülləsindəki radiostansiyadan Gəncə radiostansiyasına birbaşa xətlə Azərbaycan Respublikası Nazirlər Şurasının sədrinə bu məzmunda teleqram göndərdi: "Əziz vətənimizin iqtisadi və mədəni tərəqqisində böyük rol oynayacaq ilk Azərbaycan radiostansiyasının fəaliyyətə başlaması münasibəti ilə sizi təbrik edirəm."[1125] Fransa ilə poçt-teleqraf sahəsində imzalanmış sazişdən az sonra Ə.M.Topçubaşov İsveçrənin Bern şəhərində yerləşən Ümumdünya poçt ittifaqına üzv olmaq üçün Beynəlxalq Büroya ərizə ilə müraciət etdi.

1919-cu ilin payızında Gürcüstan və Azərbaycan nümayəndələri Sülh konfransında Qafqaz məsələsinin həll edilməsini sürətləndirmək məqsədi ilə müxtəlif formalarda konfransın sədrinə və Beşlər Şurasının üzvlərinə müraciət etmişdilər. Hər iki nümayəndəlik Qafqaz işləri üzrə xüsusi komissiyanın yaradılması barədə sentyabrın 17-də konfransın sədrinə, sentyabrın 20-də isə Antanta dövlətlərinin konfransında olan nümayəndələrinə ərizə ilə müraciət etdilər.[1126] Ərizədə Azərbaycanda və Gürcüstanda, ümumilikdə Qafqazda cərəyan edən hadisələr dərindən təhlil edilir və göstərilir ki, Cənubi Qafqaza aid məsələ zəruri beynəlxalq problem kimi, rus məsələsindən asılı olmayaraq, müstəqil məsələ kimi yubadılmadan həll edilməlidir. Müraciətdə qeyd edilirdi ki, güclü xammal

---

[1123] Rapport sur le mouvement commercial de la province de l'Azerbaidjan pendant l'année Yount Il 1298. // Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol.638, folio 96 - folio 101; Азербайджан, 1919, 17 октября.

[1124] ARDA, f.970, s.l, i.142, v.128-130

[1125] Azərbaycan Respublikasının Paris Sülh konfransındakı nümayəndəliyinin başçısı Ə.M.Topçubaşovun Eyfel qülləsindəki radiostansiya vasitəsi ilə Nazirlər Şurasının sədrinə teleqramı. Noyabr, 1919.//ARDA, f.970, s.l, i.145, v.109

[1126] Président de la Délégation de Paix de la République d'Azerbaïdjan Ali Mardan Toptchibacheff - Son Excellence, Monsieur le Président de la Conférence de la Paix. Lle 17 septembre 1919.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol.832, folio 107-108



downloaded from KitabYurdu.az

ehtiyatları olan bu regionu Avropa və Amerika iqtisadi mexanizminə qoşmaq üçün poçt-teleqraf, kommersiya, maliyyə, dəmiryolu və digər sahələrin inkişaf etdirilməsi təxirəsalınmaz məsələlər kimi həll edilməlidir. Bütün bu məsələlərin həlli üçün ərizədə təklif olunurdu ki, "Sülh konfransında Qafqaz məsələsinə dair xüsusi komissiyanın yaradılması zəruridir."[1127]

1919-cu ilin payızında Gürcüstan və Azərbaycan nümayəndələri Qafqaza aid bütün məsələləri, ilk növbədə isə onlara aid siyasi məsələləri müzakirə etdilər və bu barədə Antanta Ali Şurasına nota vermək qərarına gəldilər. Azərbaycan nümayəndələri tərəfindən hazırlanmış kollektiv notanın layihəsinin müzakirəsində Azərbaycan, Estoniya, Latviya, Litva, Belorusiya, Ukrayna, Kuban, Şimali Qafqaz və Gürcüstan nümayəndələri iştirak etdilər. Nəticədə Belorusiya və Ermənistan nümayəndələri notanı imzalamaqdan imtina etdilər. Erməni nümayəndəsi doktor Ohancanyan bildirdi ki, "söhbət tanımaqdan gedirsə, erməni nümayəndəliyi bu notanı imzalamayacaq, çünki onlar belə hesab edirlər ki, Versal traktatına görə onları tanıyıblar." Bununla yanaşı, Ohancanyan əlavə etdi ki, "əgər türkləri, yaxud Denikini seçmək lazım gəlsə, ermənilər axırıncıya üstünlük verəcəklər."[1128] Qalan səkkiz respublikaların nümayəndələri sülh konfransının sədri Jorj Klemansonun adına hazırlanmış notanı imzaladılar və oktyabr ayının 8-də Sülh konfransına təqdim etdilər. Bu müttəfiqlərin Kolçakı tanıması ilə bağlı yeni respublikaların iyun ayındakı etiraz notasından sonra ikinci kollektiv nota idi. Notada yeni respublikaların maddi və mənəvi, ilk növbədə isə hərbi yardıma ciddi ehtiyaclarının olduğu göstərilir, bunun üçün onları beynəlxalq hüququn subyekti kimi tanımağın zəruriliyi qeyd edilirdi. Rusiyada qarşı-qarşıya duran müxtəlif qüvvələrin siyasi məqsədləri araşdırılaraq, notada belə bir nəticəyə gəlinirdi ki, bolşeviklər Rusiya imperiyasının hüdudlarında proletariat diktaturası, ağqvardiyaçı generalların simasında mürtəce qüvvələr isə həmin hüdudlarda hərbi diktatura yaratmaq planları ilə xalqlar həbsxanası olan köhnə Rusiyanı bərpa etmək istəyirlər. Bu arzuya çatmaq yolları müxtəlif olsa da, yeni yaranmış respublikaların taleyi baxımından məqsəd və mahiyyət eynidir. Notada haqlı olaraq qeyd edilirdi ki, Rusiyada bir-birinə qarşı vuruşan bu qüvvələr əlverişli məqam düşən kimi silahı yeni yaranmış demokratik respublikalara qarşı çevirməyə hazırdırlar. Belə bir şəraitdə yalnız Antanta dövlətlərinin yardımı müstəqil respublikaları Rusiyanın yeni və köhnə qüvvələrinin təcavüzündən qoruya bilər. Lakin səkkiz respublikanın nümayəndələri göstərirdilər ki, onların dövlətlərinin dəfələrlə müraciət etməsinə baxmayaraq, Antanta tərəfindən heç bir yardım alınmamışdır. Əksinə olaraq, bu yardım bolşevizmə qarşı mübarizə pərdəsi altında gizlənmiş, yeni respublikalara münasibətdə təcavüzkar məqsədlərdən əl çəkməmiş Kolçak və Denikinə

---

[1127] Ə.M.Topçubaşov və N.S.Çxeidzenin Sülh konfransının sədrinə məktubu. 17.09.1919. // ARDA, f.970, s.1, i.142, v.102

[1128] Azərbaycan Respublikasının Paris Sülh konfransındakı nümayəndəliyinin başçısı Ə.M.Topçubaşovun Nazirlər Şurasının sədrinə məktubu. 06-10.11.1919.//ARDA, f.970, s.1. v.146, v.2



downloaded from KitabYurdu.az

göstərilmişdir. Onların ciddi cəhdlərinə baxmayaraq, ötən dövr sübut etmişdir ki, xalqların azadlıq ruhuna məhəl qoymadan Rusiyanı köhnə hüdudlarda bərpa etmək artıq mümkün deyildir.[1129] Notada deyilirdi: "Bizim dövlətlərimizin məsələlərinin beynəlxalq həlli bundan sonra yubadılmamalıdır və Rusiya məsələsindən asılı olmayaraq həll edilməlidir. Bunu sülhün, humanizmin və tərəqqinin mənafeyi tələb edir. Bizim dövlətlərimizin beynəlxalq cəhətdən tanınmasının zəruriliyi göz qabağındadır... Bizim xalqlar beynəlxalq maliyyə aləmindən təcrid olunub, xarici kreditlərdən istifadə etmək və öz iqtisadi-maliyyə vəziyyətini tənzim etmək imkanından məhrum edilib."[1130] Notada dağılmış Rusiya imperiyasında yaranmış respublikaların müstəqilliyinin tanınması, onların beynəlxalq maliyyə sisteminə və iqtisadi münasibətlərə cəlb edilməsi zəruri bir məsələ kimi Sülh konfransının, Antanta dövlətlərinin xarici işlər nazirlərinin daxil olduğu və Fransanın xarici işlər naziri Stefan Jan Mari Pişonun sədrlik etdiyi Ali Şuranın nəzərinə çatdırılırdı. Notanın surəti oktyabr ayının 12-də Fransanın "Le Temps" qəzetində çap edilmişdi.[1131] Əvvəllər yeni respublikalara qarşı barışmaz, daha doğrusu mürtəce mövqe tutan Fransa mətbuatının belə məzmunda sənədlərə maraq göstərməsi, həmin respublikaların taleyində yaxşılığa doğru dönüşün başlandığından xəbər verirdi.

Bu notadan az sonra, oktyabr ayının 29-da, Fransa müstəmləkə liqasının xarici siyasət bölməsində Azərbaycan və Gürcüstan nümayəndələrinin müraciəti əsasında Cənubi Qafqaz məsələsi müzakirə edilmişdi. Liqanın direktoru Pol Burdari Azərbaycan nümayəndə heyətinin sədrinə göndərdiyi məktubda yazırdı: "Azərbaycan və Gürcüstan respublikalarının mövcud hökumətlərinin de-fakto və de yure tanınması haqqında xahişləri Fransa müstəmləkə liqasının iclasında müdafiə edilmişdir."[1132] Bu respublikalarda Fransanın yüksələn iqtisadi mənafeyini nəzərə alaraq, Liqa Azərbaycana və Gürcüstana təcili diplomatik nümayəndəlik göndərməsini Klemanso hökumətindən xahiş etmişdi. Pol Burdari məktubun axırında qeyd edirdi: "Mən ürəkdən arzulayıram ki, bu xahiş /Fransa hökumətinə Liqanın xahişi - C.H./ sizin daimi olaraq uğrunda çalışdığınız - xalqınızın müstəqil inkişafı məqsədinə xidmət etmiş olsun."[1133]

1919-cu ilin oktyabr ayında Parisdə olan Azərbaycan nümayəndələri daha iki mühüm addım atdılar. Bunlardan biri Hindistan müsəlmanlarının və

[1129] Note remise le 8 octobre, par les representants de nouveaux Etats a M. Georges Clemenceau, president du Conseil supreme interallie a la Conference de la Paix. // Bulletin d'Intormation de L'Azerbaidjan. Paris, 1919, 18 Novembre, №4, p.1-3

[1130] Ə.M.Topçubaşov (Azərbaycan), A.M.Çermoyev (Dağlılar Respublikası), S.R.Pusta (Estoniya), N.S.Çxeidze (Gürcüstan), L.Bıç (Kuban), İ.Seskis (Latviya), F.Naruşeviç (Litva) qraf Tışkevişin (Ukrayna) Sülh konfransının sədri Jorj Klemansoya notası. 08.10.1919.// ARDA, f.970, s.1, i.13, v.8-9

[1131] Bax: Le Temps, 1919, 12 octobre

[1132] Une letter De M.Bourdarie.// Bulletin d'Information de L'Azerbaidjan. Paris, 1919, 15 Decembre, №5, p.3

[1133] Pol Bardurinin Ə.M.Topçubaşova məktubu. 29.10.1919.//ARDA, f.970, s.l, i.5, v.8



downloaded from KitabYurdu.az

ismayililərin başçısı, hələ 1886-cı ildə yaradılmış Mərkəzi Müsəlman Cəmiyyətinin liderlərindən olan Ağa Xanla,[1134] ikincisi isə İran şahının Londona səfərini müşayiət edərkən yolüstü Parisə gəlmiş İranın xarici işlər naziri Firuz Mirzə ilə keçirilən görüşlər olmuşdu. Sentyabrın 30-da Londondan Parisə gəlmiş Ağa Xan Azərbaycan nümayəndələri ilə görüşdü. Ə.M.Topçubaşov Azərbaycanın istiqlaliyyəti haqqında ona geniş məlumat verərək, Azərbaycan Respublikasının Paris Sülh konfransından tələblərini Ağa Xana təqdim etdi. O, Azərbaycan haqqında İngiltərənin Baş Naziri Lloyd Corcla danışacağını və Azərbaycan nümayəndələrinin tələblərini ona çatdıracağını vəd etdi. Ağa Xan Londona döndükdən sonra Parisə - Azərbaycan nümayəndələrinin ünvanına Mərkəzi Müsəlman Cəmiyyətindən təbrik məktubu gəldi. Məktubda qardaş Azərbaycan xalqının müstəqilliyə nail olmasında Versalda olan Azərbaycan nümayəndələrinə uğurlar arzu edilirdi.[1135] Oktyabrın ortalarında Mərkəzi Müsəlman Cəmiyyətinin Baş katibi Mirzə Haşım İsfəhani də Parisə gəldi və oktyabr ayının 25-də İran nümayəndələrinin iştirakı ilə Hind-Azərbaycan nümayəndələrinin birgə müşavirəsi oldu.[1136] Müşavirədə, həm Mərkəzi Müsəlman Cəmiyyətinin nümayəndələri, həm də İranın xarici işlər naziri Firuz Mirzə Qafqazda müstəqil Azərbaycanın mövcudluğunun zəruriliyini və ona kömək göstərilməsinin vacibliyini qeyd etdilər. İran xarici işlər naziri müşavirənin bu qərarını Azərbaycan nümayəndələri ilə görüşdə bir daha təsdiq etdi və bildirdi ki, onlar Qafqaz Azərbaycanına ümumi maraq naminə kömək etməyə hazırdırlar və bu köməkdə öz xeyirlərinə heç bir məqsəd güdmürlər. Firuz Mirzə dedi: "Bizim nümayəndələrə birgə hərəkət etmək lazımdır. İngiltərə rəhbərlərinin diqqətini sizin məsələyə yönəltməyə mənim imkanım var. Bizim birgə çıxışlarımız həm sizə, həm də bizə kömək edər. Belə birləşmə formasını yalnız müzakirə etmək lazımdır və bunun üçün həm sizdən, həm də bizdən bərabərhüquqlu komissiya yaratmaq lazımdır."[1137] Göründüyü kimi, belə səmimi və faydalı münasibətlər İran tərəfinin 1919-cu ilin yayında Azərbaycana qarşı ərazi iddiaları üzərində köklənmiş tələblərdən əsaslı surətdə fərqlənirdi."[1138] İndi artıq müstəqil Azərbaycan dövlətinin olmasında İranın özünün də maraqları var idi. Hələ 1919-cu ilin iyulunda "Azərbaycan" qəzetində Yusif Vəzir Çəmənzəminli yazırdı: "Böyük rus tufanından həmişə zərər görənlərdən biri də İran idi. Bu məmləkət çoxdan bəri dövləti islahatları həyata keçirmək meylində idisə də, rus intriqaları heyfən ki, bu fikirləri yıxıb əzirdi. İranın bir daxili işləri yox idi ki, ona rus qarışmasın... Biçarə İran rus zərbəsindən göz aça bilmirdi ki,

[1134] L'Azerbaidjan et l'Aga Khan.//Bulletin d'Information de L'Azerbaidjan. Paris, 1920, 17 Janvier, №7, p.3

[1135] А.М.Топчибашев. Письма из Парижа, с.93

[1136] Azərbaycan Respublikasının Paris Sülh konfransındakı nümayəndəliyinin başçısı Ə.M.Topçubaşovun Nazirlər Şurasının sədrinə məktubu. 06-10.11.1919.//ARDA, f.894, s.10, i.94, v.21

[1137] ARDA, f.894, s.10, i.94,v.21

[1138] Azərbaycan, 1919, 7 iyun.



downloaded from KitabYurdu.az

ölkəsinin rahət və tərəqqisinə çalışsın. Rus yıxıldı. Rus ilə İran arasında Azərbaycan dövləti təşəkkül etdi. Rus qorxusuna qarşı Qafqaz orduları döşlərini sipər edərək durdular və duracaqlardır. İran da asudə nəfəs almağa başladı... hansı nöqteyi-nəzərdən baxsaq, İranın müstəqil və məsud yaşaması bizə əlverişlidir. Dövlətimizin "Azərbaycan" adlandığı sui-təfəhhümlərə səbəb oldu. Halbuki Təbriz əyalətinin, yəni İran Azərbaycanının İranın olub-olmaması barədə ortaqlıqda heç bir məsələ yoxdur. İranın haqqına təcavüz etmək fikrində deyilik, olmamışıq və olmayacağıq, bizim tərəqqi və istirahətimizi təmin edən yalnız qonşularımız ilə dostluğumuz olacaqdır."[1139] Rəsmi dövlət orqanlarında verilən belə yazılar və ayrı-ayrı bəyanatlar İran tərəfinin Azərbaycan Respublikasına olan əvvəlki şübhələrini aradan qaldırmışdı. Az vaxt içərisində Parisdə Azərbaycan-İran birgə komissiyası yaradıldı və ora Azərbaycan nümayəndələrindən M.Mehdiyev və C.Hacıbəyov, İran tərəfindən isə Parisə gəlmiş yeni nümayəndələr - Zəkov Mülk və Mustan-Sarus-Səltənə daxil oldular.[1140] Bir neçə günlük müzakirədən sonra birgə komissiya noyabr ayının 1-də dörd maddədən ibarət İran-Azərbaycan İttifaqı haqqında saziş hazırladı. Orada göstərilirdi: 1. Rusiyada hansı dövlət forması və quruluşu yaranırsa yaransın, Qafqaz Azərbaycanı, Azərbaycan nümayəndələrinin Sülh konfransına təqdim etdiyi tələblərdə və xəritələrdə göstərilən sərhədlərdə qəti olaraq birdəfəlik Rusiyadan ayrılır; 2. Qafqazın göstərilən dairəsində mövcud olan Azərbaycan Respublikası 1918-ci il mayın 29-dan etibarən Azərbaycan hökuməti tərəfindən ümumi seçki yolu ilə yaradılmış, Azərbaycan Müəssislər Məclisində təsdiq edilmiş qanun əsasında seçilən prezidenti və parlamenti ilə, paytaxtı Bakı şəhəri olmaqla, müstəqil, asılı olmayan, demokratik respublika kimi tanınır; 3. Xarici işlər sahəsində Azərbaycan Demokratik Respublikası Azərbaycan və İran hökumətlərinin qarşılıqlı razılıq əsasında işləyib müəyyən etdiyi əlaqələr formasında qonşu İran dövləti ilə siyasi-iqtisadi münasibətlər yaradır. Yuxarıda bir və ikinci maddələrdə göstərilən məqsədə nail olmaq üçün Azərbaycan Respublikası özünün müstəqilliyinin tanınmasında, hər cür qəsddən qorunmasında, təhlükəsizliyinin təmin olunmasında, siyasi, iqtisadi və mədəni inkişafında, hərbi gücündə İranın etdiyi kömək şəklində, İngiltərənin də həqiqiköməyinə ehtiyac duyur; 4. Bütün bu dörd maddə bir-birilə bağlıdır və Azərbaycan nümayəndəliyinin özü tərəfindən elan edilməlidir.[1141] Bu razılıq əldə edildikdən sonra Azərbaycan nümayəndələri bildirdilər ki, onlar özləri İran hökumətinin vasitəçiliyi ilə İngiltərə hökuməti ilə görüşüb lazımi məsələləri aydınlaşdırmalıdırlar. Ə.M.Topçubaşov İran nümayəndələri ilə hazırlanmış İttifaq Müqaviləsi haqqında Bakıya yazırdı: "Əlbəttə, İranın müasir vəziyyətini və eyni zamanda onun avqustun 9-da İngiltərə ilə bağladığı sazişi nəzərə alırıq və bizim fikrimizcə, əgər bu müqavilə həyata

---

[1139] Azərbaycan, 1919, 11 iyul.
[1140] А.М.Топчибашев. Письма из Парижа, с.94
[1141] Yenə orada, s.94-95



downloaded from KitabYurdu.az

keçərsə, onda çox gözəl nəticə alınar. Maddələrin mətnindən gördüyünüz kimi, bizim tərəfimizdən müstəqillik prinsipi möhkəm qorunur."[1142] Tərəflər arasında razılaşmadan aydın görünürdü ki, Azərbaycan nümayəndələri 1919-cu ilin avqustun 9-da İngiltərə ilə İran arasında imzalanmış sazişə "dolayısı yolla Britaniya qalxanının altında müdafiə imkanı kimi baxırdılar."[1143] Məlum olduğu kimi, avqustun 9-da Tehranda imzalanmış İngiltərə-İran sazişi İngiltərəyə bir sıra üstünlüklər verirdi.[1144] Lakin nəzərə almaq lazımdır ki, 9 avqust İngiltərə-İran sazişinə qarşı çıxan İran ictimaiyyəti həmin dövrdə xeyli dərəcədə bolşevik təbliğatının təsiri altında idi. Halbuki İranın vəziyyəti baxımından bu o qədər də sərfəsiz saziş deyildi. Elə müqavilənin birinci bəndində Böyük Britaniya hökuməti İranın ərazi bütövlüyünə və müstəqilliyinə sədaqətini ifadə edirdi. Sonrakı maddələrdə İran ordusunun müdafiə qabiliyyətini yüksəltmək üçün tədbirlər kompleksi nəzərdə tutulurdu. Dördüncü maddədə və əlavə sazişə əsasən isə Böyük Britaniya İrana uzun müddətə iki milyon funt sterlinq məbləğində kredit verirdi.[1145] 9 avqust sazişinə İranın təhlükəsizliyi baxımından yanaşıldıqda, Tehranın bu müqavilədə bir sıra siyasi məqsədlər güddüyü aydınlaşır. Məlum olduğu kimi, 1918-ci ildən başlayaraq, İranda bolşevizm təhlükəsi güclənmişdi. Gilan Sovet respublikası bunun əyani nümunəsi idi.[1146] Digər tərəfdən, Xəzər dənizində rus donanması ağalıq edirdi. Belə vəziyyətdə Rusiyada qarşı-qarşıya duran hər iki qüvvə İran üçün eyni dərəcədə təhlükəli idi. Ona görə də Böyük Britaniya kimi qüvvətli bir dövlətin İranın təhlükəsizliyini öz üzərinə götürməsi İran üçün etibarlı müdafiə sistemi demək idi. Şübhəsiz ki, bu saziş Böyük Britaniyanın da mənafeyinə uyğun idi. İranda siyasi, iqtisadi və hərbi cəhətdən möhkəmlənməklə Britaniya özünün Yaxın və Orta Şərqdəki müstəmləkələrində nəzarəti qüvvətləndirir, digər tərəfdən isə qeyd edilən regionda Böyük Britaniya siyasəti üçün ciddi təhlükə təşkil edən bolşevizmə qarşı etibarlı müdafiə sistemi yaradırdı.

İranla ittifaqa girməklə Azərbaycan nümayəndələri nəzərdə tuturdular ki, "Azərbaycan da İran kimi Britaniyadan eyni dərəcədə kömək alacaqdır."[1147] 1919-cu ilin yayında ingilis qoşunlarının Qafqazda qalmasına nail ola bilməyən Azərbaycan üçün öz istiqlaliyyətini Denikin və bolşevik Rusiyası təhlükəsindən qorumaqda bu, ən yaxşı vasitə idi. Əslində, Parisdə hazırlanmış "İran-Azərbaycan İttifaqı" az sonra bu ölkələr arasında faydalı əməkdaşlığın və işgüzar münasibətlərin yaradılmasında uğurlu başlanğıc oldu. 1920-ci ilin mart-aprel

---

[1142] Yenə orada, s.95-96
[1143] Swietochowski. Russian Azerbaijan, p.157
[1144] Əlavə məlumat üçün bax: С.М.Алиев. История Ирана. XX век, с.97-98.
[1145] ARDA, f.970, s.1, i.146, v.118-120
[1146] Gilan Sovet respublikası haqqında geniş məlumat üçün bax: В.Генис Красная Персия. Большевики в Гилане. 1920-1921. Москва, 2000; М.А.Персиц. Застенчивая интервенция. О советском вторжении в Иран и Бухару в 1920-1921 гг. Москва, 1999; S.Rüstəmova-Tohidi. Kominternin Şərq siyasəti və İran. 1919-1943. Bakı, 2001.
[1147] T.Swietochowski. Russian Azerbaijan, p.158



downloaded from KitabYurdu.az

aylarında Azərbaycanla İran arasında siyasi, iqtisadi, ticarət, poçt-teleqraf, gömrük, konsulluq mübadiləsi və digər məsələlərlə bağlı ikitərəfli müqavilələr imzalandı. Son nəticədə İran, Azərbaycan Respublikasının müstəqilliyini de yure cəhətdən tanıyan ilk dövlətlərdən biri oldu.[1148] Hadisələrin sonrakı inkişafı təsdiq etdi ki, 1919-cu ilin payızında Azərbaycan nümayəndələrinin Versalda İran nümayəndələri ilə əməkdaşlığı, onların Paris Sülh konfransındakı fəaliyyətinin uğurlu addımlarından biri hesab edilməlidir.

1919-cu ilin payızından başlayaraq, beynəlxalq iqlimin yeni yaranmış respublikaların xeyrinə dəyişdiyi dövrdə Azərbaycan nümayəndələri Parisdə, təkcə siyasi və iqtisadi məsələlərlə deyil, eyni zamanda geniş təbliğat işləri ilə də məşğul olurdular. Çox böyük maliyyə çətinliklərinə baxmayaraq, Versalda olan Azərbaycan nümayəndələri az qüvvə ilə böyük işlər görməyə nail ola bilmişdilər. Onların fədakarlığı sayəsində Azərbaycanın tarixi, əhalisi, iqtisadiyyatı, təbii sərvətləri və siyasi vəziyyəti haqqında ingilis və fransız dillərində kitabçalar seriyası hazırlanıb, çap edilmiş, ilk dəfə olaraq, Avropa mətbuatına çıxmaq mümkün olmuşdu. İstiqlaliyyətin tanınması ərəfəsində bunlar mühüm addımlar idi.

Xarici ölkələrdə təbliğat işi Azərbaycan Xarici İşlər Nazirliyinin də diqqət mərkəzində idi. 1919-cu ilin ortalarında Azərbaycan Xarici İşlər Nazirliyi nəzdində Cənubi Qafqazda rus siyasətinə dair materiallar toplayan xüsusi komissiya yaradılmışdı. Bu komissiya müstəqilliyi ideoloji baxımdan möhkəmləndirmək istiqamətində faydalı işlər görmüş, rus müstəmləkəçiliyinin ifşası baxımından maraqlı materiallar toplamışdı. Azərbaycanın tanındığı Şərq regionunda təbliğat işləri o qədər də çətinlik təşkil etmirdi. Azərbaycan və rus dillərində nəşr edilmiş materialları asanlıqla qonşu ölkələrdə yaymaq olurdu. Məsələn, Adil xan Ziyadxanovun 1919-cu ildə Bakıda nəşr edilmiş "Azərbaycan: tarixi, ədəbi və siyasi vəziyyəti" adlı kitabının üç min nüsxəsi qısa müddətdə İranda olan Azərbaycan konsulluğu tərəfindən yayılmışdı.[1149] Lakin Azərbaycanın az tanındığı Qərb ölkələrində onun haqqında təbliğat işləri aparmaq böyük çətinliklər təşkil etdiyindən bu iş planlı şəkildə aparılmalı idi. Ona görə də, Azərbaycan Xarici İşlər Nazirliyi Qərbi Avropa ölkələrində təbliğatın təşkili ilə bağlı xüsusi plan müzakirə edib qəbul etmişdi.

Orada göstərilirdi ki, Azərbaycan nümayəndələrinin Versalda olması onun tanınması üçün zəruri olan addımlardan biridir. Lakin Avropada buna zəmin hazırlanmalı, ictimai rəy formalaşdırılmalıdır. Sənəddə deyilirdi: "Bizim nümayəndələrimiz o zaman arzu olunan nəticələr əldə edə bilərlər ki, heç olmasa neytral dövlətlərin ictimai fikri onların tərəfində olsun. Bu əsasda ictimai fikri öz tərəfimizə çəkmək üçün Qərbi Avropanın böyük mərkəzlərində intensiv təbliğat

---

[1148] Bax: Qafqaz fövqəladə heyəti: Seyyid Ziya-əddin Təbatəbainin rəhbərliyi altında Qafqaza ezam olunmuş heyətin müzakirə və müqavilələrinə dair sənədlər (1919-1920). Tehran, Siyasi və beynəlxalq tədqiqatlar mərkəzi, 1379 (2000)
[1149] ARDA, f.970, s.1, i.203, v.3-4



downloaded from KitabYurdu.az

işlərini təşkil etmək zəruridir." Bu məqsədlə 1919-cu ildə Paris Sülh konfransında fəaliyyət göstərən nümayəndə heyəti üçün materialları toplayan xüsusi komissiya təsis edilmişdi. Avropa ölkələrində təbliğat işlərini genişləndirməyə zərurət onunla bağlı idi ki, erməni "təbliğatçıları" Azərbaycanda milli münasibətlərə, sosial-iqtisadi və siyasi vəziyyətə dair faktları saxtalaşdıraraq, guya onun siyasi, mədəni və iqtisadi sahəsində həddindən çox geri qaldığını "əsaslandırır", bu yolla Azərbaycanın müstəqil dövlət kimi tanınmasının əleyhinə çalışırdılar. Ona görə Azərbaycan Xarici İşlər Nazirliyi Qərbi Avropada iki mühüm vəzifəni - Azərbaycan haqqında yayılan saxta materialları təkzib etmək və Azərbaycanı populyarlaşdırmaq vəzifəsini yerinə yetirmək üçün təbliğat mərkəzi yaratmağı vacib bilirdi.[1150] Bunun üçün nəzərdə tutulurdu ki, Avropa mərkəzlərindən birində, konkret mənada İsveçrədə illüstrasiyalı əlavə ilə birlikdə heç olmasa bir qəzet buraxılsın, bu ölkələrdə Azərbaycanın tarixi, ədəbiyyatı, incəsənəti, sosial-siyasi vəziyyəti haqqında broşurlar çap edilib yayılsın, təbliğat məqsədi ilə Qərbi Avropa ölkələrində müxtəlif siyasi partiyaların mətbuat orqanlarından istifadə edilsin, açıq mühazirələr oxunsun və mitinqlərdə çıxışlar edilsin. Bu vəzifələri yerinə yetirməkdən ötrü Azərbaycan Xarici İşlər Nazirliyi "Azərbaycanın mənafeyinin müdafiəsinə həsr edilən Avropada qəzetlər buraxmaq və İsveçrəyə fövqəladə missiya göndərmək haqqında" məsələni müzakirə edib, parlamentin təsdiqinə verdi. Azərbaycan Xarici İşlər Nazirliyinin müəyyən etdiyi vəzifələri yerinə yetirmək üçün neytral ölkələr içərisindən İsveçrənin seçilməsi heç də təsadüfi deyildi. Parlament üçün hazırlanmış məruzədə qeyd edilirdi ki, hazırda neytral ölkələr içərisində öz coğrafi vəziyyətinə və siyasi əhəmiyyətinə görə İsveçrə dünya siyasətində başlıca rol oynayır. İndi yalnız İsveçrədən Qafqaz dövlətlərinə dair daha müstəqil və uğurlu siyasət aparmaq olar. Məruzədə İngiltərə, Fransa, İtaliya, Almaniya, yaxud Avstriyada müstəqil, hansı dövlətinsə siyasətinə uyğun gəlməyən təbliğatın aparılmasının qeyri-mümkün olduğu qeyd edilir, digər neytral mərkəzlər olan Kopenhagendə, Brüsseldə və Madriddə bu işin əlverişsiz olduğu göstərilirdi. İsveçrə son illərdə bu və ya digər dövlətlər qruplaşmalarına münasibətdə öz neytrallığını qoruyub saxlaya bildiyindən dünya siyasətinin bütün xətləri demək olar ki, burada kəsişirdi. Bütün bunları nəzərə alaraq, Azərbaycan Xarici İşlər Nazirliyi İsveçrəyə fövqəladə missiya göndərilməsini, Cenevrədə Azərbaycan mətbuat orqanının nəşr edilməsini, bu mümkün olmazsa, İsveçrə mətbuatından Azərbaycanın mənafeyi üçün istifadə etməyi zəruri hesab edirdi.[1151]

Versaldakı Azərbaycan nümayəndələri də Azərbaycan təbliğat mərkəzinin İsveçrədə yaradılmasına tərəfdar idilər. Millətlər Cəmiyyətinin Cenevrədə fəaliyyət göstərəcəyini nəzərə alaraq, Azərbaycan nümayəndələri ilk addım kimi orada ingilis və fransız dillərində çıxan "L"Eyrope Orientale" jurnalının rəhbərliyi ilə əməkdaşlığa başlamış və razılığa gəlmişdilər ki, 20 min nüsxə jurnala abunə

---

[1150] ARDA, f.2905, s.l, i.21, v.7

[1151] Yenə orada, v.8-10



downloaded from KitabYurdu.az

yazılmaq müqabilində "L"Eyrope Orientale"də Azərbaycan haqqında tez-tez yazılar getsin. Ə.M.Topçubaşov bu jurnalla əməkdaşlıq barədə Azərbaycan Nazirlər Şurasının sədrinə yazırdı: "Jurnal, gələcəkdə bizim üçün çox faydalı orqan olacaq, xüsusən, Cenevrədə Millətlər Cəmiyyətinin gözü qabağında bizim ocağımızın yaranması üçün bu jurnal çox lazımdır... Məsələ, təkcə jurnalda deyil, Cenevrədə elə bir mərkəz yaratmaq planlaşdırılır ki, keçmiş Rusiyanın ərazisində yaradılmış bütün yeni respublikaların müdafiəsini öz üzərinə götürə bilsin... bu işə kömək etmək, başlıcası isə Cenevrədə möhkəmlənməyə tələsmək lazımdır."[1152] 1919-cu ilin noyabr ayının 10-da Bakıya göndərdiyi məlumatda Ə.M.Topçubaşov yazırdı: "Etiraf etmək lazımdır ki, bizim burada olduğumuz ilk vaxtlara nisbətən indi mətbuat Azərbaycan haqqında daha çox yazır... İndi heç olmazsa bizə rəğbət göstərən mətbuat orqanları var."[1153] Böyük çətinliklərdən sonra 1919-cu ilin yayında və payızında Avropada müxtəlif dillərdə nəşr edilən "L"Eyrope Orientale", "Limaçe", "Les Paubles Libres" jurnallarında, "Le Temps", "Revus du Monde musulman", "Revus Kon Temporaine", "Humanite", "Le Dieçe Kolonial", "Le Derniçes Nouvelles", "Le Kroix" və digər qəzetlərdə Azərbaycan haqqında maraqlı məqalələr çap olunmuşdu. Azərbaycanı təbliğ etmək məqsədi ilə Ə.M.Topçubaşov "Limaçe" jurnalının naşiri ilə razılığa gəlmişdi ki, jurnalın bir nömrəsi Azərbaycana həsr edilsin. Qarşılıqlı razılıq əsasında bu noyabr nömrəsi olmalı idi. Ə.M.Topçubaşov yazırdı: "Azərbaycan üçün noyabr nömrəsini götürmək istədim, lakin əlimizdə olan fotoları, poçt şəkillərini və başqalarını nəzərdən keçirəndə, məlum oldu ki, nömrə çox solğun çıxacaq. Ordumuzu əks etdirən fotoların olmaması bizi xüsusilə pis vəziyyətdə qoyur. Bizdə nə general Mehmandarovun, nə də başqalarının bir dənə də olsun şəkli yoxdur. Halbuki bütün buraxılışlar həyəcanlı dövrü əks etdirən hərbi xarakterli fotoşəkillərlə doludur, bu, həm də ölkənin hərbi qüdrətini, müdafiə qabiliyyətini göstərən bir vasitədir."[1154] Bu mülahizələrlə bağlı olaraq, Ə.M.Topçubaşov noyabr nömrəsini 1920-ci ilin yanvar nömrəsi ilə əvəz etdi. Bakıya yazdığı məktubda o, təcili şəkildə fotoillüstrativ materialların göndərilməsini xahiş edirdi. Onun təxmini planı üzrə jurnalın üz qabığının əvvəlinci və sonuncu səhifələrində Kür vadisi, pambıq tarlası, Beş-Barmaq dağı, dəniz sahili, neft buruğu, Bakının ümumi fonu və Abşeronun xəritəsi getməli idi. Jurnalda gedəcək tarixi, siyasi, iqtisadi və mədəniyyət xarakterli məqalələrə görə Bakıda və Gəncədə tədris müəssisələrinin, bir neçə Azərbaycan kəndinin qədim mədəniyyət abidələrinin, görkəmli ictimai və mədəniyyət xadimlərinin, general S.Mehmandarov, Ə.Şıxlinski və İ.Usubovun, Bakının azad edilməsinin birinci ildönümü ilə bağlı Azərbaycan ordusunun hərbi paradının, parlamentin təntənəli iclaslarının fotoşəkillərinin göndərilməsi xahiş edilirdi.

[1152] Azərbaycan Respublikasının Paris Sülh konfransındakı nümayəndə heyətinin başçısı Ə.M.Topçubaşovun Nazirlər Şurasının sədrinə məktubu. 06-10.11.1919.//ARDA, f.970, s.1, i.146, v.8-9
[1153] Yenə orada, v.17
[1154] Yenə orada, v.16-17



downloaded from KitabYurdu.az

Bunlar əldə edildikdən sonra "Limaçe" jurnalı özünün 1920-ci ilin yanvar nömrəsini bütövlükdə Azərbaycana həsr etmişdi. Jurnalda Azərbaycanın tarixi, mədəniyyəti, siyasi vəziyyəti, iqtisadiyyatını əks etdirən yazılardan əlavə, Bakıdan göndərilmiş xeyli foto-illüstrativ materiallar da verilmişdi. 1919-cu ildə Cenevrədə çıxan "Journal de Geneve" və Lozannada çıxan "Les paubles Libres" jurnallarının hər birində fransız professoru Q.Borşenin iki məqaləsi çap olunmuş, bunlardan əlavə o, İngiltərə və Amerika mətbuatında da Azərbaycan haqqında məqalələrlə çıxış etmişdi. Azərbaycanı tanıtmaq baxımından onun "Journal de Geneve" jurnalında çap edilmiş "Öz müqəddəratını təyinetmə hüququ və Azərbaycan Respublikası" adlı məqaləsi daha səciyyəvi idi. Məqalənin girişində prezident Vilson tərəfindən xalqların təyini müqəddərat hüququna aid elan edilmiş prinsiplərin ciddi şəkildə pozulduğu göstərilir və xatırladılır ki, millətlərin öz müqəddəratını təyin etməsi üçün Vilson aşağıdakı şərtlərin olmasını vacib hesab edirdi: hər bir millət öz fiziki-intellektual və mənəvi-dini xüsusiyyətləri ilə fərqlənməlidir: bu millət öz müqəddəratını təyin etməyə qadir olduğunu göstərməlidir: həmin millət öz xərclərini ödəmək üçün iqtisadi, təbii və maliyyə sərvətlərinə malik olmalıdır: o, özünü xarici hərbi müdaxilədən qorumağı bacarmalıdır, həmin millət əvvəllər tərkibində olduğu hökumətin istibdad üsul-idarəsindən ziyan çəkmiş olmalıdır.[1155] Bu maddələrin bəzilərini ədalətli hesab etməyən Q.Borşe qeyd edir ki, Skandinaviya, Qərbi Avropanın bir sıra yerləri və Latın Amerikasında öz müqəddəratını təyin edib müstəqil dövlətlərini yaradan xalqların çoxu eyni kökə, eyni dini etiqada, eyni irqə və eyni dilə malik olublar. Belə bir şəraitdə onların müstəqilliyi bütün dövlətlər tərəfindən tanınıbdır. Borşe bildirirdi ki, elə xalqlar vardır ki, prezident Vilson tərəfindən elan olunmuş bütün beş şərti özündə cəmləşdirir, lakin onların müstəqilliyinin tanınması yubadılır. O yazırdı: "Biz görürük ki, Azərbaycan xalqların öz müqəddəratını təyin etməsi üçün zəruri olan bütün göstəricilərə malikdir. Mən bunu bütün Qafqazı gəzmiş və öyrənmiş kənar müşahidəçi kimi, bir fransız kimi deyirəm. Mən indiyə qədər təyini müqəddərat hüququnun tanınmasına etiraz edilən bir millətin müdafiəsi üçün səsimi qaldırıram və onların tələbinin ədalətli olduğuna dərindən inanıram." Q.Borşe Azərbaycan haqqında az məlumatı olan Avropa oxucularına bildirirdi ki, Azərbaycan öz təbii sərvətləri, coğrafi vəziyyəti, intellektual səviyyəsi baxımından bəşəriyyətə böyük xidmət göstərəcək ölkələrdən biri kimi diqqəti cəlb etməlidir. O yazırdı: "Ora Avropa ilə İran, Mərkəzi Asiya və Türküstan arasında mal mübadiləsinin təbii mərkəzidir... Rus kilsəsinin müsəlmanların dini azadlığını sıxışdırmasına baxmayaraq, azərbaycanlılar digər dini etiqadlara münasibətdə çox təmkinlidirlər."[1156] Q.Borşe saxta məlumatlar əsasında "ermənipərəstlik" azarına tutulmuş bir cəmiyyətdə ingilis və fransız dillərində çoxtirajlı jurnal vasitəsi ilə

---

[1155] Q.Borşe. Öz müqəddəratını təyinetmə hüququ və Azərbaycan Respublikası. //ARDA, f.970, s.1. i.142, v.136

[1156] Yenə orada, v.137



downloaded from KitabYurdu.az

Avropa ictimaiyyətinə müraciət edərək yazırdı: "Protestant etiqadçısı kimi, bunu deməyi özümə borc bilirəm ki, azərbaycanlıların mənəvi-etik keyfiyyətlərinə bələd olan xarici tacirlər onlara daha çox etibar edirlər, nəinki ermənilərə."[1157]

Azərbaycanın siyasi vəziyyəti ilə bağlı məqalədə qeyd edilirdi ki, 1918-ci ildə istiqlaliyyət elan edildikdən və bolşeviklər ölkədən qovulduqdan sonra Azərbaycan sürətlə demokratikləşmiş, ölkədə Parlament üsul-idarəsi yaradılmışdır. Q.Borşe bunu xüsusi şəkildə vurğulayırdı ki, qadınlara seçki hüququ verməklə Azərbaycan siyasi baxımdan qabaqcıl ölkələrin sırasına çıxmışdır. İl yarım ərzində mədəniyyət və təhsil sahəsində heyrətləndirici işlər görüldüyünə, Azərbaycan hökumətinin yüksək təhsil görmüş yerli adamlardan təşkil olunduğuna məqalədə geniş yer verilmişdi.

Azərbaycanın iqtisadi imkanları ilə bağlı Q.Borşe yazırdı: "İkinci elə bir ölkə yoxdur ki, təbiət ona bu qədər böyük sərvətlər bəxş etmiş olsun. Neftlə zəngin olan torpaqlardan böyük miqdarda neft çıxarılır və ondan kerosin, benzin və yağ istehsal olunur. Neftdən gələn gəlir bütün dövlət xərclərindən çoxdur."[1158] Bundan əlavə, məqalədə Azərbaycanda zəngin kənd təsərrüfatı ehtiyatlarının, üzümçülük, taxılçılıq, çayçılığın olduğu, onun dəmir, mis, marqaneslə zəngin olduğu işgüzar dairələrə çatdırılırdı. Jurnalda xatırladılırdı ki, əgər xarici kapital və xarici mühəndislər dəmir mədənlərinə cəlb olunarsa, yaxın vaxtlarda Azərbaycan metalı dünya bazarlarına çıxarıla bilər.[1159]

Azərbaycan öz müstəqilliyini qoruya biləcəkmi? Q.Borşe öz məqaləsində bu suala da müsbət cavab verirdi. O yazırdı ki, əlli minlik yaxşı təlim görmüş ordu qəhrəmanlığını rus-alman müharibəsində nümayiş etdirmiş və hazırda öz generallarının komandanlığı altında vətəni xarici təcavüzdən qorumağa hazırdır. Q.Borşenin fikrincə, azərbaycanlıların azadlığa və müstəqilliyə olan arzuları obyektiv qiymətləndirilməlidir. O, haqlı olaraq qeyd edirdi ki, Rusiya imperiyasında heç bir xalq azərbaycanlılar kimi ağır həqarətlərə məruz qalmamışdır. 1906-cı ilə qədər ana dilində kitab və mətbuat orqanlarının nəşrinə icazə verilmirdi. Az-çox verilən güzəştlərə də 1914-cü ildə müharibənin başlanması ilə son qoyulmuşdu. Q.Borşe Azərbaycanı müstəqillikləri Sülh konfransı tərəfindən tanınmış keçmiş Rusiya müstəmləkələri olan Polşa və Finlandiya ilə müqayisə edərək yazırdı ki, Polşa Almaniya imperatorundan müstəqilliyə vəd alaraq, müttəfiqlərə qarşı vuruşduğu halda, azərbaycanlı könüllülər rus ordusunun tərkibində müttəfiqlərlə çiyin-çiyinə döyüşürdülər. Onun fikrincə, Polşa heç vaxt rus zülmündən Azərbaycan qədər ziyan çəkməmişdir. Azərbaycan dilindən fərqli olaraq, polyak dili rus dilinə yaxın olan slavyan dil qrupuna daxil idi. Məqalədə Q.Borşe bu nəticəyə gəlirdi ki, "öz müstəqilliyini arzulayan hər bir xalq azad olmaq hüququna malikdir. Azərbaycan artıq sübut

---

1157 Yenə orada, v.137
1158 Yenə orada, v.138
1159 Yenə orada, v.138



downloaded from KitabYurdu.az

etmişdir ki, o müstəqil olmaq istəyir və öz müstəqilliyini qorumaq və ondan istifadə etmək bacarığına malikdir. Ona görə də Azərbaycan müstəqil Demokratik Respublika kimi Sülh konfransı tərəfindən tanınmalıdır."[1160]

1919-cu ilin oktyabr ayının 23-də Azərbaycanda və Gürcüstanda olmuş italiyalı kommersant Korsinin "Korrena della sera" qəzetində müsahibəsində də Azərbaycan Respublikasının müstəqillik uğrunda əzmlə mübarizə apardığı qeyd edilirdi. Korsi göstərirdi ki, hər iki respublikanın müstəqilliyi ən qısa vaxtda Sülh konfransı tərəfindən tanınmalıdır və hər iki respublika bu tanınmaya layiqdir. Korsi ilk avropalı idi ki, incə bir məsələyə toxunub yazırdı: Türkiyə ilə əməkdaşlıq Azərbaycanın tanınmasına mane olmamalıdır, eyni dinə və eyni etnik mənşəyə malik olan bu xalqların əməkdaşlığına təbii baxılmalıdır. Korsi Avropa siyasətçilərinə xatırladırdı ki, "əgər general Denikinin hücumunu dəf etmək mümkün olmasa, güman etmək olar ki, bu respublikalar bolşeviklərlə ümumi düşmənə qarşı ittifaqa girsinlər. Avropa bolşevizmin Qafqazda təntənəsinin acı nəticələrini qiymətləndirməyi bacarmalıdır. Qafqazda bolşevizm qalib gəlsə, Türkiyə və İrana da yol açılar."[1161]

Avropa mətbuatında aparılan təbliğat işlərindən başqa, Versalda olan Azərbaycan nümayəndələri Paris Sülh konfransının iştirakçılarını, Fransa, Böyük Britaniya, ABŞ və digər ölkələrin ictimaiyyətini məlumatlandırmaq üçün sentyabr ayından etibarən "Azərbaycan haqqında İnformasiya bülleteni" buraxmağa başlamışdılar.[1162] Səkkiz səhifədən ibarət olan Azərbaycan informasiya bülletenlərində rəsmi materiallar, diplomatik yazışmalar və notalar, respublika haqqında Qərb ölkələrinin mətbuat materiallarının icmalı, Azərbaycanın siyasi və iqtisadi həyatının xronikası verilirdi.[1163] Bu buraxılışların redaktoru tanınmış fransız şərqşünası, Azərbaycan xalqının yaxın dostu Lyusen Byuve idi. 1919-cu ildə bülletenin dörd nömrəsi çapdan çıxmışdı və qalan yeddi nömrəsi də 1920-ci ilin aprelinə qədər buraxılmışdı.[1164] Bülleten buraxılışı ilə bağlı 1919-cu ilin

---

[1160] Yenə orada, v.138
[1161] Азербайджан, 1919, 5 ноября.
[1162] Xarici ölkələrdə Azərbaycan Xalq Cümhuriyyəti haqqında nəşr işləri ilə bağlı məlumat üçün bax: V.Quliyev. Azərbaycan Demokratik Respublikası xarici mənbələrdə. //Azərbaycan Demokratik Respublikası. Bakı, 1992, s.47-62
[1163] Азербайджан, 1919, 5 ноября.
[1164] Bax: Bulletin d'Information d L'Azerbaidjan. Paris, 1919, 1 Septembre, №1, p.1-8; Bulletin d'Information d L'Azerbaidjan. Paris, 1919, 8 Septembre, №2, p.1-8; Bulletin d'Information d L'Azerbaidjan. Paris, 1919, 13 Octobre, №3, p.1-8; Bulletin d'Information d L'Azerbaidjan. Paris, 1919, 18 November, №4, p.1-8; Bulletin d'Information d L'Azerbaidjan. Paris, 1919, 15 December, №5, p.1-8; Bulletin d'Information d L'Azerbaidjan. Paris, 1920, 1 Janvier, №6, p.1-8; Bulletin d'Information d L'Azerbaidjan. Paris, 1920, 17 Janvier, №7, p.1-8; Bulletin d'Information d L'Azerbaidjan. Paris, 1920, 1 Fevrier, №8, p.1-8; Bulletin d'Information d L'Azerbaidjan. Paris, 1920, 15 Fevrier, №9, p.1-8; Bulletin d'Information d L'Azerbaidjan. Paris, 1920, 1 Mars, №10, p.1-8; Bulletin d'Information d L'Azerbaidjan. Paris, 1920, 15 Mars, №11, p.1-8; Bulletin d'Information d L'Azerbaidjan. Paris, 1920, 1 Avril, №12, p.1-8.



downloaded from KitabYurdu.az

noyabrında Ə.M.Topçubaşov yazırdı: "Hər şeydən əvvəl, biz Bülleten buraxılışını davam etdiririk, artıq üç nömrə çıxıb, dördüncüsü bu günlərdə çıxacaq. Biz bu bülletenləri soraq kitabçası kimi burada da, İngiltərədə də, Amerikada da hər yerə yayırıq. Eyni zamanda fransız və ingilis dillərində memorandum iqtisadi və etnoqrafik kitabçalar, əhalinin yerləşməsi vəziyyətini göstərən xəritə və diaqramlarla birlikdə hər yerə göndərilir."[1165] Bu baxımdan ingilis və fransız dillərində nəşr edilmiş "Qafqaz Azərbaycan Respublikasının Paris Sülh konfransına memorandumu" kitabçaları daha səciyyəvi idi.[1166] 1919-cu ildə Parisdə C.Hacıbəyli tərəfindən hazırlanmış "İlk müsəlman respublikası Azərbaycan" kitabı çapdan çıxmışdı.[1167] Həmin ildə o, "Revue du Monde musulman" qəzetində Cənubi Qafqazda milli zəmində baş verən hadisələrlə bağlı məqalələrlə çıxış etmişdi.

"İlk müsəlman respublikası Azərbaycan" kitabının elə birinci cümləsində Ceyhun bəy tarixin ədalətsizliyi ucbatından azərbaycanlıların bölünmüş xalq olduğunu Avropa oxucularının diqqətinə çatdırırdı. O, yazırdı: türk əhalisindən ibarət iki Azərbaycan vardır: İran mədəniyyəti və islamın şiə təriqətinə etiqad edən, İranda yerləşən Təbriz Azərbaycanı və Cənubi Qafqazda yerləşən Bakı Azərbaycanı. Avropa mətbuatında müxtəlif intriqaların nəticəsi kimi meydana çıxan erməni məsələsi haqqında geniş müzakirələr aparıldığı bir vaxtda Ceyhun bəy yazırdı ki, xristianlar rus bürokratizminin Cənubi Qafqazda həyata keçirdiyi zülmkarlıq siyasətinin yeganə qurbanları deyildirlər, digərləri də, ilk növbədə Bakının, Gəncənin və Qarabağın azərbaycanlıları da bu zülmə məruz qalıblar.[1168] Eyni zamanda kitabın əvvəlində Azərbaycanın sərhədlərini özündə əks etdirən çox qiymətli xəritə verilmişdi. Nümayəndə heyətinin üzvü Ə.Şeyxülislamovun Azərbaycan əhalisinin etnik tərkibi haqqında fransız dilində çıxan kitabçası da burada böyük marağa səbəb olmuşdu.[1169] Kitabça sülh konfransının bütün nümayəndələri arasında yayılmış və Amerikaya da göndərilmişdi. Bu broşura zəngin mənbələr əsasında yazıldığından onun nəticələri çox inandırıcı idi. Həmin mənbələr əsasında Cənubi Qafqazın əhalisinin dini inancları və milli-etnik tərkibi haqqında ətraflı məlumat verildikdən sonra kitabın sonunda təqdim edilən cədvəl əsasında Azərbaycan əhalisinin 75,41 faizini türklərin təşkil etdiyi bildirilirdi. Broşurda Cənubi Qafqaz və Azərbaycan əhalisinin dini və milli tərkibi cədvəllər,

---

[1165] Azərbaycan Respublikasının Paris Sülh konfransındakı nümayəndəliyinin başçısı Ə.M.Topçubaşovun Nazirlər Şurasının sədrinə məktubu. 29.11.19197/ARDA, f.970, s.l, i.142, v.7

[1166] Claims of the Peace Delegation of the Republic of Caucasian Azerbaijan presented to the Peace Conference in Paris. Paris, 1919; La Republique de l'Azerbaidjan du Caucase. Paris, 1919

[1167] La premiera Republique musulmane: l'Azerbaidjan. Editions Ernest Leroux, vol. XXXVI, Paris, 1919

[1168] La premiera Republique musulmane: l'Azerbaidjan, p.5

[1169] Composition antropologique et ethnique de la population de l'Azerbaidjan du Caucase. Paris, 1919. Bu kitabın tam mətni ilə Fransa Xarici İşlər Nazirliyinin diplomatik sənədlər arxivində də tanış olmaq olar, bax: Composition Anthropologique et Ethnique de la Population de l'Azerbaïdjan du Caucase. Classé 1er juin 1919 Délégation Azerbaïdjanienne à la Conférence de la Paix // Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol.638, folio 45-52



downloaded from KitabYurdu.az

rəngli diaqramlar və coğrafi illüstrasiyalar ilə təqdim edilirdi.[1170] Azərbaycanın siyasi və maliyyə vəziyyəti haqqında kitabçanı M.Hacınski hazırlamışdı.[1171] "Qafqaz Azərbaycanının iqtisadi və maliyyə vəziyyəti" adlı kitabçada müharibənin və bolşevik dağıntılarının Azərbaycana gətirdiyi fəlakətlər, ölkənin iqtisadi həyatının bərpa olunması, azad biznes mühitinin yaradılması, dəmir yolu və su nəqliyyatının işlək vəziyyətə gətirilməsi, Azərbaycanla Qərbi Avropa arasında mal mübadiləsinə mane olan bütün bürokratik əngəllərin aradan qaldırıldığı əhatə olunurdu. Kitabda göstərilirdi: "Azərbaycanın üzləşdiyi çətinliklər yalnız qısamüddətli böhranın təzahürüdür. Bu ölkənin güclü iqtisadi mərkəzə çevriləcəyini anlamaq üçün sadəcə rəqəmlərə baxmaq yetərlidir. Tükənməz sərvətləri olan bu ölkə bütün imkanlara malikdir. Qeyri-məhdud həcmdə çıxarılan neft, daha böyük ehtiyatlara malik neftli ərazilər, böyük həcmdə istehsal olunan pambıq, Kür sahillərində bunun üçün yararlı olan daha böyük ərazilər, tükənməz balıq ehtiyatları, böyük həcmdə kürü istehsalı, geniş meşələr, düyü plantasiyaları, yun, mədən sənayesi və s. bunun aydın göstəricisidir. Azərbaycan əlverişli coğrafi mövqeyə malikdir. O, Avropa ilə Rusiya, Avropa ilə İran, Rusiya ilə Mərkəzi Asiya arasındakı ticarət yollarının üzərindədir. Nəhayət, onun bütün varlığı ilə ənənələrə, xarici sənayeçiləri həvəslə qəbul edən babalarının adətlərinə sədaqətli olan əməksevər və sadə əhalisi vardır."[1172] Azərbaycan nümayəndə heyətinin üzvləri tərəfindən hazırlanıb Parisdə nəşr edilmiş "Azərbaycan rəqəmlərdə" kitabçası da Avropa işgüzar dairələrinə respublikanın iqtisadi həyatı haqqında maraqlı statistik məlumatlar verirdi. Xarici İşlər Nazirliyi tərəfindən göndərilmiş statistik materiallar əsasında hazırlanmış bu broşura respublikanın dövlət büdcəsi, onun mədaxili və məxarici, ölkənin iqtisadi zənginliyi haqqında Avropa oxucusunda aydın təsəvvürlər yaradırdı.[1173] 1919-20-ci illərdə Azərbaycan nümayəndə heyətinin üzvləri tərəfindən Parisdə yazılıb nəşr edilmiş bu kitablar, broşur və məqalələr bir çox cəhətlərinə görə bu gün də öz əhəmiyyətini saxlayır.

Azərbaycanın Versal Ali Şurası tərəfindən tanınmaq ərəfəsində bu nəşrlər Qərbin siyasi dairələri, ictimai xadimləri, geniş oxucu kütləsinə Azərbaycan haqqında müfəssəl məlumat verirdi. Çap materiallarının hazırlanmasında və onun faktlarla zəngin olmasında Azərbaycan Xarici İşlər Nazirliyinin Parisə göndərdiyi

---

[1170] Composition Anthropologique et Ethnique de la Population de l'Azerbaidjan du Caucase. Classé 1[er] juin 1919 Délégation Azerbaidjanienne à la Conférence de la Paix. // Ministère des Affaires Etrangère de France, Archives Diplomatique,vol.638, folio 52

[1171] Economic and Financial Situation of Caucasian Azerbaijan. Paris, 1919, 22 p; Bu kitabın tam mətni ilə Fransa xarici işlər nazirliyinin diplomatik sənədlər arxivində də tanış olmaq olar, bax: Situation économique et financiére de la République de l'Azerbaidjan du Caucase. Classé 1[er] juin 1919 Délégation de l'Azerbaidjan à la Conférence de la Paix à Paris. // Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol.638, folio 30-43

[1172] Economic and Financial Situation of Caucasian Azerbaijan, p.8

[1173] L'Azerbaidjan en chiffres. Paris, 1919.



downloaded from KitabYurdu.az

sənədlər, arayışlar, statistik məlumatlar və fotogörüntülər mühüm rol oynadı. Bu materiallar Azərbaycan haqqında hazırlanan təbliğati nəşrləri maraqlı etməklə yanaşı, eyni zamanda həmin nəşrlərə olan etimadı da artırırdı. "Azərbaycan" qəzeti 12 noyabr tarixli sayında yazırdı: Azərbaycan nümayəndələrinin ingilis və fransız dillərində nəşr etdikləri bir sıra broşurlar Avropanın geniş dairələrinin diqqətini gənc respublikanın siyasi və iqtisadi vəziyyətinə cəlb edir, onlara Azərbaycan əhalisinin milli tərkibi, qədim keçmişi və tarixi, müstəqil dövlətin yaranması və gələcək arzuları barədə maraqlı məlumatlar verir.[1174]

Beləliklə, 1919-cu ildə Parisdə nəşr olunmuş bu kitab və broşurlar, Avropanın müxtəlif mətbuat orqanlarında dərc olunmuş çoxsaylı məqalələr ilk dəfə olaraq, Azərbaycan, onun əhalisi, iqtisadiyyatı, siyasi sistemi, mədəniyyəti haqqında Qərb oxucularına geniş məlumat verirdi. Bütün bunlar Azərbaycanın azad dünyaya qovuşması istiqamətində əhəmiyyətli addımlar olub, yeni müstəqillik qazanmış bir millətin istək və arzularını əks etdirirdi.

---

[1174] Азербайджан, 1919, 12 ноября.



downloaded from KitabYurdu.az

## XII FƏSİL

### Azərbaycanın müstəqilliyinin Versal Ali Şurası tərəfindən tanınması

Keçmiş Rusiya imperiyasının dağılması nəticəsində yeni yaranmış respublikaların taleyində hiss ediləcək dönüş Böyük Britaniyanın Baş naziri Lloyd Corcun 1919-cu ilin noyabr ayının 17-də İngiltərə Parlamentinin İcma palatasındakı çıxışı ilə başlandı. Bu çıxış Rusiyada baş verən hadisələrin, ilk növbədə, Kolçakın məğlub olması, Denikinin isə 1919-cu ilin oktyabr ayından başlayaraq, öz mövqelərini tərk etməsinin aydın təzahürü idi. İngiltərənin və digər müttəfiqlərin külli miqdarda pul buraxdığı, hərbi sursatla kömək etdiyi və diplomatik yolla müdafiə etdiyi Denikin könüllüləri oktyabr ayının 20-də Oryoldan, az sonra Voronejdən, noyabrın 12-də Novoxoperskdən çıxmağa başladı. 1919-cu ilin axırlarında məlum oldu ki, "ağların" silahlı qüvvəsi ilə Rusiyanı kommunistlərin əsarətindən qurtarmaq işi demək olar ki, uduzulmuşdur. Yudeniçin Petroqradı almaq cəhdi baş tutmamış, Kolçak Sibirin dərinliklərinə qədər geri oturdulmuş, Denikin isə bir-birinin ardınca şəhərləri təslim edərək, Cənuba doğru geri çəkilmişdi. Lakin uzun müddət Denikin təhlükəsi altında olan Azərbaycan və Gürcüstan üçün indi Denikin ordusunun məğlubiyyəti yeni daha qorxulu bir vəziyyət yaradırdı. T.Svyatoçevski haqlı olaraq yazır: "Denikinin məğlubiyyəti Cənubi Qafqaz respublikalarında sevinc doğurmadı, çünki onlar qələbədən ruhlanmış bolşeviklərin simasında daha güclü düşmən qazandılar."[1175] Lakin Azərbaycan və Gürcüstanın belə çətin vəziyyətə düşməsi heç də o demək deyildi ki, onlar Denikinlə birlikdə, guya, gizli şəkildə Sovet Rusiyasına qarşı mübarizə aparırdılar. Bolşevik lideri V.İ.Leninin Azərbaycan və Gürcüstanı Denikinlə birlikdə Sovet Rusiyasına qarşı "hücum" edən "on dörd müxtəlif dövlətin" siyahısına daxil etməsi əsassız bir iddia idi.[1176]

Denikinin məğlubiyyətindən Qərb ölkələrinin, ilk növbədə, Böyük Britaniyanın narahatçılığı, 1919-cu ilin sonlarında ingilislərin Cənubi Qafqaza marağının artması qorxulu bolşevizm xəstəliyinin Yaxın və Orta Şərqə yayıla biləcəyi ehtimalından irəli gəlirdi. T.Svyatoçevski haqlı olaraq yazırdı: "Onlar başa düşürdülər ki, bolşeviklərə Qafqaz dağlarını keçməyə imkan verilsə, İrana, Türkiyəyə və Orta Şərqin qalan hissələrinə inqilabın yayılması üçün qapılar açılacaq."[1177] Baş Nazir Lloyd Corcun İcma palatasındakı 17 noyabr tarixli çıxışında iki dəfə Azərbaycan və Gürcüstanın adlarını çəkməsi xeyli dərəcədə bu amillərlə bağlı idi. Lloyd Corc öz çıxışında Rusiyadakı vəziyyəti təhlil edərək göstərirdi ki, Rusiyanın müxtəlif xalqlarının hərəkətləri o qədər də aydın deyildir,

---

[1175] Swietochowski. Russian Azerbaijan, p.159
[1176] Ленинский сборник, XXIV, с. 197
[1177] T.Swietochowski. Russian Azerbaijan, p.159



downloaded from KitabYurdu.az

ruslar özləri isə o qədər mürəkkəb xalqdır ki, hələ, nə vaxtsa, kənardan kiminsə onların başına ağıl qoymaq cəhdi heç vaxt uğurlu nəticə verməyib. Ona görə də indi Rusiyada "bolşevizm arabasını terror və soyğunçuluq sürükləyir."[1178] Lloyd Corc bolşevik siyasətinin gücünü kəndlilərdə görürdü. O, XVIII əsr Fransa inqilabına müraciət edərək göstərirdi ki, "yakobinçilər həmişə xalqı "İnqilab təhlükədədir" şüarı ilə birləşdiriblər. Bu, o demək idi ki, inqilabın kəndlilərə verdiyi torpaq təhlükədədir. Heç şübhə yoxdur ki, bolşeviklərin əsas müdafiəçisi olan rus kəndlisinin təfəkküründə də inqilaba münasibət belədir."

Lloyd Corcun fikrincə, Rusiyada bolşevizm əleyhinə olan qüvvələr heç də az deyildilər. Bu qüvvələr sırasına o, Baltik ölkələrini, Finlandiya və Polşanı, Qafqazda Azərbaycan, Gürcüstan və Ermənistanı, Rusiyada Kolçak, Petlyura və Denikini daxil edirdi. Eyni zamanda İngiltərənin Baş naziri belə bir maraqlı sual irəli sürürdü: niyə onlar birləşə bilmirlər? Bu sualın cavabında təcrübəli siyasətçi düzgün olaraq bildirirdi: "Ona görə ki, onların mənafeyi əsas məsələdə bir-birinə uyğun deyildir."[1179] Onun fikrincə, Kolçak və Denikin iki əsas məqsəd uğrunda mübarizə aparırdı: birincisi, bolşevikləri devirmək və Rusiyada köhnə rejimi bərpa etmək; ikincisi isə, vahid və bölünməz Rusiya uğrunda mübarizə idi. Əgər birinci məsələdə antibolşevik qüvvələr bir-birilə həmrəydilərsə, ikinci məsələdə bir-birinə münasibətdə düşmən mövqelərində dayanırdılar. O deyirdi: "Estonlar vahid Rusiyanı istəmir, litvalılar üçün bu zəhərdir, ukraynalıları dəqiq deyə bilmərəm... Digər ölkələri götürək, Denikin deyir ki, Gürcüstan, Azərbaycan, Rus Ermənistanı Rusiyanın bir hissəsidir. Onları Rusiyaya birləşdirmək onun siyasətinin başlıca məqsədidir, lakin yeni respublikalar bu haqda eşitmək belə istəmirlər. Onlar müstəqillik uğrunda mübarizə aparırlar... Onlar bolşevizm hücumuna qarşı birləşmək üçün belə bir şərt qoyurlar, biz onların müstəqilliyinə təminat verək və eyni zamanda biz onların ordusunu pulla və sursatla təchiz edək."[1180] Lloyd Corc İngiltərə İcma Palatasının üzvlərinə bildirirdi ki, işin çətinliyi Rusiyada antibolşevik qüvvələrin mənafelərinin bir-birinə uyğun gəlməməsindədir, bir tərəfdən Rus ağqvardiyaçı generalları köhnə, qüdrətli, vahid və bölünməz Rusiya uğrunda mübarizə aparır, digər antibolşevik qüvvələr isə öz milli müstəqilliklərini qoruyurlar. Lloyd Corcun çıxışında açıq deyilməsə də, onun məzmunundan aydın olurdu ki, o, öz müstəqilliyi uğrunda mübarizə aparan milli respublikalara və bu respublikalar içərisindən də, xüsusilə, Azərbaycan və Gürcüstana yardım göstərilməsinə tərəfdar idi.

Böyük Britaniya siyasi dairələrinin, ilk növbədə isə Lloyd Corcun Azərbaycan haqqında fikrinin yaxşılığa doğru dəyişməsində ingilis jurnalisti

---

[1178] D.Lloyd Corcun İcma palatasında nitqi. Fransız dilindən tərcümə. 17.11.1919. //ARDA, f.970, s.1. i.145, v.29

[1179] Yenə orada, v.30-31

[1180] Yenə orada, v.31



downloaded from KitabYurdu.az

Skotland Liddelin 1919-cu ilin sentyabr ayında "Morninq Post" və noyabr ayının 11-də "Tariq" qəzetlərində Azərbaycan haqqında çap edilmiş məqalələri də az rol oynamamışdı.[1181] S.Liddel birinci məqaləsində İngilis ictimaiyyətinə bildirirdi ki, Azərbaycan haqqında onlarda formalaşdırılan təsəvvürlər heç də düzgün deyildir. O, Azərbaycanı Cənubi Qafqazda müstəqil yaşamağa qadir olan birinci respublika hesab edirdi.[1182] Ermənilərin Böyük Britaniya və digər ölkələrdə yaydığı Qarabağ hay-küyü ilə bağlı S.Liddel yazırdı: "Öz coğrafi vəziyyətinə görə Qarabağ həqiqətən Azərbaycana məxsus olmalıdır."[1183] Cənubi Qafqazdakı erməni-azərbaycanlı münaqişəsi ilə bağlı ingilis jurnalisti bildirirdi: "Nə Rusiyada, nə Qafqazda elə bir adam tapa bilməzsən ki, ermənilər haqqında hansısa bir yaxşı söz desin. Rusların, tatarların /azərbaycanlıların - C.H./ və gürcülərin onlardan zəhləsi gedir, onları görməyə gözləri yoxdur. Doğrudur, ya yox, bunu mən demirəm, lakin fakt göz qabağındadır ki, ermənilər qonşularında özlərinə qarşı nifrət yaradıblar. Bununla belə, onların xaricdə təbliğatı elədir ki, Avropa, eləcə də, bütün dünya onların tərəfindədir." Azərbaycanlılara gəldikdə S.Liddel yazırdı ki, bir sıra keyfiyyətlərinə görə "tatarlar /azərbaycanlılar - C.H./ ermənilərdən çox üstündür." Onun fikrincə, əgər erməni təbliğatçılarının təxribatı olmasa idi, bu iki xalq bir-biri ilə dinc şəraitdə yaşaya bilərdi. Hətta o, yazırdı ki, Qarabağda Azərbaycanın suverenliyi bərpa olunduqdan sonra ermənilər özləri etiraf edirlər ki, heç vaxt burada belə dinclik olmayıb.[1184]

Böyük Britaniyanın Baş naziri Lloyd Corcun noyabr ayının 17-də İngilis Parlamentindəki çıxışı və noyabrın axırına qədər yenidən "Rus məsələsinə" iki dəfə toxunması, Fransa Millətlər liqası müstəmləkə və xarici siyasət bölməsinin sədri Pol Burdarinin Ə.M.Topçubaşovun adına göndərdiyi məktubun noyabr ayının ortalarında elan olunması bütün Avropa mətbuatında sensasiyaya səbəb oldu.[1185] Xüsusilə, Parisdə toplanmış ağ rus mühacirlərin mətbuatı daha bərk hay-küy qaldırdı və bu hadisəni böyük əsəbiliklə qarşıladılar. Ə.M.Topçubaşov Bakıya - Azərbaycan Nazirlər Şurasının sədrinin adına göndərdiyi məlumatda yazırdı: "Noyabrın 17-də Nümayəndələr Palatasında İngilis baş naziri Lloyd Corcun çıxışını fakt hesab etmək lazımdır. Britaniya hökumətinin başçısı yenidən Rusiyanın tərkibinə daxil olmaq istəməyən Azərbaycan, Gürcüstan və rus Ermənistanının iki dəfə adlarını çəkmişdir. Bu çıxış böyük hay-küy doğurmuşdur və hərtərəfli şərh olunur. Əgər noyabrın 17-də nəşriyyat fəhlələrinin tətili olmasaydı /elə ona görə də qəzetlər çıxmır/, artıq bu çıxışa həsr olunmuş tam bir

---

[1181] Азербайджан, 1919, 14 декабря.
[1182] Bax: Bulletin d'Information de L'Azerbaidjan. Paris, 1920, 17 Janvier, №7, p.1-2
[1183] Skodland-Liddel. Erməni-tatar (azərbaycanlı-C.H.) sazişi. Qarabağa sülhün gəlişi. 1919. // ARDA, f.894, s.l, i.103, v.10
[1184] Yenə orada, v.11-13
[1185] Uni letter de Bourdarie // Bulletin d'Information de L'Azerbaidjan. Paris, 1919, 15 Decembre, №5, p.3



downloaded from KitabYurdu.az

ədəbiyyat tərtib olunardı... Rus elementləri, xüsusilə, onların sol cinahı narazıdır."[1186]

Noyabr ayının 29-da həmin sol cinaha daxil olanlardan biri E.Stalinski fransız dilində həftəlik çıxan rus mühacirlərinin "Pour La Russe" qəzetində Lloyd Corcun parlamentdəki çıxışını öz geniş məqaləsində şərh edirdi. E.Stalinski yazırdı ki, İngiltərənin Rusiyaya münasibətdə yeritdiyi siyasət ikili siyasətdir. Bir tərəfdən o, bolşevizmi silah gücünə yıxmağa çalışan vahid və bölünməz Rusiya uğrunda mübarizə aparan rus generallarını müdafiə edir, digər tərəfdən yeni yaranmış dövlətləri öz müstəqilliklərini qorumağa həvəsləndirir. Xüsusilə, Lloyd Corcun vaxtilə Böyük Britaniyanın Baş naziri olmuş qraf Bikonsfild Bencamin Dizraelinin "Böyük və Qüdrətli Rusiya İngiltərə üçün təhlükə təşkil edir" sözlərini misal göstərməsi və buna öz münasibətini bildirməməsi Parisdə olan rus siyasi dairələrinin ciddi narahatçılığına səbəb olmuşdu. E.Stalinski hiddətlə yazırdı ki, Lloyd Corc, hətta "xatırlatmaq istəməmişdir ki, Bikonsfildin dövrü ilə müqayisədə beynəlxalq münasibətlər köklü surətdə dəyişilmişdir. Əksinə olaraq, onun bütün dəlilləri Rusiyanın bölünmüş hissələrinin birləşdirilməsinin qeyri-mümkünlüyünü sübut etməyə yönəldilmişdir. Lloyd Corcun sonuncu nitqi düşünməyə əsas verir ki, o, Rusiyanın parçalanmasına meyl göstərir."[1187] Avropanı və Asiyanı bolşevizm təhlükəsindən xilas etmək üçün ingilis siyasətçiləri düşünürdülər ki, bolşevik Rusiyasını lokallaşdırsınlar, onu İngiltərəyə tabe olan yeni yaranmış dövlətlərlə əhatəyə alsınlar. Belə olduqda Avropa və Asiya üçün bolşevizm təhlükəsi xeyli zəifləyirdi. "Pour La Russe" yazırdı: "Bolşevizmi lokallaşdırmaq uşaq xülyasıdır. Onu yeni yaranmış kiçik, zəif, pis təşkil olunmuş dövlətlərlə sanitar kordonu kimi əhatəyə almaq da uzunmüddətli ola bilməz." Bu yazı bir daha göstərirdi ki, rus mühacirləri Rusiya xalqları haqqında öz köhnə düşüncələrindən əl çəkmək istəmirlər. Onların fikrincə, güclü Rusiya onun Şərq əyalətlərində yaşayan xalqların azad inkişafı üçün təminat ola bilər. Onlar, hətta iddia edirdilər ki, guya "Rus demokratiyası bu xalqların iradəsinə zidd olaraq, onların Rusiyaya birləşdirilməsini heç vaxt ağlına gətirməz." Əksinə, E.Stalinski qeyd edirdi ki, "bu xalqlar Rusiyasız yaşaya bilməzlər."[1188] Rus xalqının imperiyadan miras qalma həyatı mənafeyinə tez-tez istinad edən "rus demokratları" öz müstəqilliyini elan etmiş xalqların həyatı mənafeyinə həqarətlə yanaşırdılar və bu da öz növbəsində Parisdə olan yeni dövlətlərin nümayəndələrinin etirazına səbəb olurdu. Milli respublikalara qarşı Qərb dövlətlərinin meylinin gücləndiyi bir vaxtda rus siyasi xadimləri yenidən Rusiyada mövcud siyasi qüvvələrin və yeni respublikaların

---

[1186] Azərbaycan Respublikasının Paris Sülh konfransındakı nümayəndəliyinin başçısı Ə.M.Topçubaşovun Nazirlər Şurasının sədrinə məktubu. 29.11.-02.12.1919.//ARDA, f.970, s.l, i.145, v.8-9

[1187] Pour la Russia, 1919, 29 Novembre

[1188] Pour la Russia, 1919, 29 Novembre



downloaded from KitabYurdu.az

nümayəndələrinin vaxtilə 1919-cu ilin yanvarında Şahzadə adalarında keçirilməsi planlaşdırılmış konfransa bənzər bir yığıncağın keçirilməsini təklif edirdilər. 1919-cu ilin əvvəllərində vəziyyətlərinin ağır olmasına baxmayaraq, yeni dövlətlərin nümayəndələri Şahzadə adalarındakı yığıncaqda iştirak etməkdən imtina etdikləri kimi, 1919-cu ilin axırlarında da rus mühacirlərinin irəli sürdüyü konfrans ideyasına da etiraz etdilər. 1919-cu ilin axırlarında bu ideyanın həyata keçirilməsi artıq real deyildi. Avropa mətbuatı açıq-aydın yeni yaranmış respublikaları, xüsusilə də Qafqaz respublikalarını müdafiə edirdi. Mətbuatda və siyasi dairələrin çıxışlarında Azərbaycana və Gürcüstana münasibətdə yaxşılığa doğru dönüşün yaranmasını Ə.M.Topçubaşov aşağıdakı amillərlə şərtləndirirdi: "Yudeniç və Kolçakın məğlubiyyəti, Denikinin ümidsiz vəziyyəti, müttəfiqlərin bundan sonra onlara pulla, azuqə və sursatla köməkdən imtina etmələri, Almaniyanın Rusiya ilə yaxınlaşmaq planları, Baltik dövlətlərinin bolşeviklərlə sülh bağlamaq cəhdləri, Amerika Senatında əksəriyyətin Sülh konfransına, xüsusilə də, Versal sülhünə olan mənfi münasibəti – ümumiyyətlə, bütün bunlar kiçik xalqlar üçün ruhlandırıcı və ümidverici müsbət cəhətlərdir. Belə şəraitdə Lloyd Corc əbəs yerə çıxış etmədi. Heç şübhəsiz ki, mətbuatda və ictimai rəydə yaxşı mənada dönüş yuxarıda dediyim hadisələrlə bağlıdır."[1189]

Noyabr ayının axırlarında Parisdə olan ABŞ dövlət katibinin müavini F.Polkla söhbətində Lloyd Corcun keçmiş Rusiya ərazisində yeni dövlətlərə münasibəti daha da aydınlaşdı. Lloyd Corc danışıqlar zamanı Amerika tərəfinə açıq şəkildə bildirdi ki, Kolçak və Denikinə kömək etməyin heç bir əhəmiyyəti yoxdur, onların məğlubiyyəti göz qabağındadır və onlara göndərilən bütün silah və hərbi sursat isə Qırmızı Ordu tərəfindən ələ keçirilir. Danışıqlar zamanı Lloyd Corc Polka bildirdi ki, vahid bolşevik Rusiyası Avropa üçün böyük təhlükəyə çevriləcəkdir. Ona görə də o, bu fikirdədir ki, "Gürcüstan, Azərbaycan, Ukrayna, Bessarabiya, Baltik əyalətləri və Finlandiya, ola bilsin ki, Sibirin müstəqilliyi tanınmalıdır."[1190] Noyabr ayının 29-da F.Polk Lloyd Corcla olan bu söhbəti barədə ABŞ-ın dövlət katibi Rabert Lansinqə məlumat verdi.

Böyük Britaniyanın Azərbaycana və Gürcüstana münasibəti aydınlaşdığı üçün, dekabr ayının ilk günlərində İngiltərə Xarici İşlər Nazirliyi özünün Cənubi Qafqazda olan ali komissarı Oliver Uordrop vasitəsi ilə respublika Nazirlər Şurasının sədri N.Usubbəyova bildirmişdi ki, "İngiltərə hökuməti Azərbaycanın müstəqilliyini müdafiə edir və Azərbaycana çox böyük rəğbətlə yanaşır."[1191] Uordropdan alınmış bu məlumatı dekabr ayının 14-də Bakıda açılan erməni-

[1189] Azərbaycan Respublikasının Paris Sülh konfransındakı nümayəndəliyinin başçısı Ə.M.Topçubaşovun Nazirlər Şurasının sədrinə məktubu. 29.11.-02.12.1919.//ARDA, f.970, s.l, i.145, v.16-17

[1190] Papers Relating to the Foreign Relations of the USA, Russia, 1919, p.126

[1191] Zəngəzur hadisələri zamanı xarici dövlətlərin nümayəndələri ilə görüşlər. 1919.// ARPİİ SPİHDA, f-276, s.9, i.12, v.47



downloaded from KitabYurdu.az

azərbaycanlı konfransına gəlmiş Ermənistan nümayəndələri T.Bekzadyan, Arqutinski-Dolqorukov və M.Arutyunyanı qəbul edən zaman N.Usubbəyov onlara bildirdi.[1192] Ermənilər Azərbaycanın müstəqilliyinin Böyük Britaniya tərəfindən tanınacağını hiss edib ciddi narahatçılıq keçirməyə başladılar. Bu məlumatdan sonra Ermənistan siyasi dairələrində və mətbuatında anti-ingilis əhvali-ruhiyyəsi daha da güclənməyə başladı. "Hayıstan Aşxatvor" qəzeti yazırdı ki, ingilislər ermənilərə irad tuturlar ki, onlar ictimai-iqtisadi problemləri unudub, həddindən çox siyasətə cəlb olunublar. Qəzetin fikrincə, guya bununla ingilislər Avropada və bütün dünyada ictimai fikrə təlqin etmək istəyirlər ki, ermənilər özləri özlərini idarə etmək qabiliyyətinə malik deyillər. Qəzet yazırdı: "Bizi günahlandıranlar unutmamalıdırlar ki, Qarabağ, Zəngəzur, Şərur, Naxçıvan və Qars erməniləri, yalnız, öz vətənlərinə birləşdikdən sonra monolit qüvvəyə çevriləcəklər." Ermənistan siyasi dairələri Böyük Britaniyanın "erməni məsələsinin dumanlı və cəfəng problem" adlandırmasını müttəfiqliyə xəyanət kimi qiymətləndirirdilər. Xosrov bəy Sultanovun Qarabağda Azərbaycan Respublikasının suveren hüquqlarını bərpa etməsini erməni təbliğatçıları ingilislərlə bağlayır və guya, bu tədbirləri həyata keçirməklə Böyük Britaniya Azərbaycanın timsalında "Kiçik Türkiyə" yaratmaq istəyir. Guya, bütün bunlar İngiltərə Parlamentinin İcma və Lordlar Palatasında ermənilərin müdafiəsinə həsr edilmiş çıxışlarla, ermənilərə verilən vədlərlə bir araya sığmır. Daşnak mətbuatı axırda belə bir nəticə çıxarırdı ki, "erməni xalqı böyük təəssüf hissi ilə bildirir ki, bizim ümidlərimiz boşa çıxmışdır, uzun müddət ərzində bizim yeritdiyimiz ingilispərəst siyasət nəticəsiz qurtarmışdır. İndi biz özümüz-özümüzü düşünməliyik və yeganə nicat yolumuz öz qüvvəmizə inamdadır."[1193] Bu məlumatları Avropada yaymaqla ermənilər Böyük Britaniyanı Qafqazda müttəfiqlərdən ayrı separat siyasət yeritməkdə təqsirləndirir, Qafqazda xristian mədəniyyətini "məhv edəcək" Azərbaycanın timsalında "Kiçik Türkiyə" yaradılacağı ilə Avropa ictimaiyyətini qorxudur, ən başlıcası isə Azərbaycanın müstəqilliyinin müttəfiqlər tərəfindən tanınmasına mane olmaq istəyirdilər. İngiltərənin Azərbaycanı tanımaq meyli Parisdə olan erməni və rus nümayəndələrini də yaxınlaşdırmışdı. Rus mühacirləri Rusiyanın "ögey övladları" olan yeni respublikaların nümayəndələrinə hər vəchlə "vahid və bölünməz Rusiya"nın azad və demokratik bir dövlət olacağını inandırmağa çalışırdılar. Ə.M.Topçubaşov keçmiş rus sosialisti Çaykovski ilə görüşünü belə xatırlayır: "Öz ideal demokratizminə və sosializminə istinad edərək, cənab Çaykovski tezliklə Ümumrusiya Müəssislər Məclisini təşkil etmək üçün Kolçak və Denikinin "qələbəsini" gözləyir, onların timsalında o, Rusiyanın xilas olmasını və onun ayrılmış hissələrinin Rusiyanın ağuşuna qayıtmasını görür... O, məni səhər

---

[1192] Conference Armeno-Azerbaidjanienna.// Bulletin d'Information de L'Azerbaidjan. Paris, 1920, 15 Fevrier, №9, p.1-2

[1193] Cənubi Qafqazda Britaniya siyasəti daşnakların nöqteyi-nəzərindən. 1919. //ARDA, f.970, s.1, i.62, v.19-20



downloaded from KitabYurdu.az

yeməyinə dəvət etdi, orada kimi görsəm yaxşıdır? Keçmiş Rostov Dövlət Dumasının üzvü Naxçıvan ermənisi Əcəmovu. O, bütün cəbhələrə işləyir /özü boynuna alır/, ermənilərə "məsləhətlərlə" kömək edir və eyni zamanda rus dövlətinin xilaskarları cəbhəsinə daxildir.. Ermənilər indi Rusiyanı mənəvi cəhətdən müdafiə etdikləri üçün ruslar onlara minnətdardırlar. Və hətta o, buna da işarə etdi ki, ermənilər Rusiyaya qarşı heç bir etiraz hərəkatında iştirak etmirlər. Denikin və Kolçaka düşmən kimi baxmırlar, etibarlı rus adamı olan Əcəmovun "məsləhətlərinin" mənası belədir."[1194]

Antanta ölkələri baş nazirlərinin dekabr ayında Londonda keçirilən görüşündə Cənubi Qafqaz respublikaları haqqında məsələ ayrılıqda deyil, ümumrus məsələsi fonunda müzakirə edildi. Böyük dövlətlərin başçıları rus generallarının uğursuzluqlarına təəssüflənir, Böyük Britaniyanın mövqeyinə keçməkdə tərəddüd edir, lakin necə hərəkət edəcəklərini də dəqiq bilmirdilər. Onlar bu fikirdə idilər ki, general Denikinlə Azərbaycan və Gürcüstanı barışdırsınlar və onların birgə müdafiəsini təşkil etsinlər. Bu məqsədlə onlar antibolşevik qüvvələrin birgə müdafiəsini təşkil etmək istəyirdilər. Bunu reallaşdırmaq üçün onlar iclasın qərarı ilə Britaniya parlamentinin üzvü Makkinderi Qafqaza ezam etdilər.[1195] Lakin Makkinderin missiyası uğurlu nəticə vermədi, çünki barışdırılması nəzərdə tutulan tərəflər arasında ziddiyyətlər çox dərin idi. Azərbaycan və Gürcüstan Denikinlə bir blokda iştirak etməkdən qəti surətdə imtina etdilər. Öz növbəsində Denikin də bu dövlətlərin danışıqlarda xarici dövlət kimi iştirak etmələrinin yolverilməz olduğunu göstərdi.

1919-cu ilin noyabr-dekabr aylarında beynəlxalq şəraitin yeni yaranmış respublikaların xeyrinə dəyişdiyini nəzərə alaraq, Versaldakı Azərbaycan nümayəndələri dekabr ayında Azərbaycan Respublikasının Millətlər Cəmiyyətinə qəbul edilməsi barədə memorandum hazırlayıb Cəmiyyətin katibliyinə təqdim etdi. Gürcü nümayəndələri də Cəmiyyətə belə bir memorandum vermişdilər. Millətlər Cəmiyyətinin katibliyində Azərbaycanın və Gürcüstanın müraciətlərini öyrənmək üçün Çili nümayəndəsi Antonio Qunetsin sədrliyi ilə xüsusi komissiya yaradıldı. Komissiya materialları və mövcud vəziyyəti öyrəndikdən sonra Azərbaycan məsələsini Gürcüstan, Ermənistan, Ukrayna və Kosta-Rika məsələləri ilə birlikdə Millətlər Cəmiyyətinin üçüncü komissiyasının müzakirəsinə verdi. Üçüncü komissiyaya F.Nansen /Norveç/ sədrlik edirdi. Ora İonesku /Rumıniya/, Millen /Avstriya/, Palasios /İspaniya/, Polits /Yunanıstan/, Spaloykoviç /Serbiya/ və Tsan Tsay Fu /Çin/ daxil idilər. Komissiya bu məsələlərə xüsusi diqqət yetirdi:

a) Millətlər Cəmiyyətinə daxil olmaq istəyən dövlətə zəmanət verən dövlət onu de-fakto, de-yure cəhətdən tanıyırmı?

---

[1194] Azərbaycan Respublikasının Paris Sülh konfransındakı nümayəndəliyinin başçısı Ə.M.Topçubaşovun Nazirlər Şurasıran sədrinə məktubu. 06-10.11.1919.//ARDA, f.970, s.l, i.146, v.14-15

[1195] З.Авалов. Независимость Грузии в международной политике, с.240



downloaded from KitabYurdu.az

b) Millətlər Cəmiyyətinə daxil olmaq istəyən dövlət müəyyən edilmiş sabit sərhədlərə və dayanaqlı hökumətə malikdirmi?

c) Bu dövlət azad surətdə idarə olunurmu?

d) Bu dövlətin beynəlxalq öhdəliklərə və tərksilah haqqında Cəmiyyətin qərarına münasibəti necədir? Bu şərtlər daxilində Cənubi Qafqaz respublikaları de-yure tanınmadığı və öz aralarında ərazi məsələləri sabit olmadığı üçün onların Millətlər Cəmiyyətinə qəbul edilməsi məsələsi müvəqqəti dayandırıldı.[1196] 1920-ci ilin yanvar ayının 8-də Cenevrədə keçirilən Millətlər Cəmiyyətinin ilkin müzakirələrində Azərbaycan nümayəndələrindən M.Məhərrəmov və A.Atamalibəyov iştirak etmişdilər.[1197]

1920-ci ildə yanvar ayının ilk günlərində Böyük Britaniyanın Cənubi Qafqazda Ali Komissarı Oliver Uordrop demək olar ki, hər gün müttəfiqlərə və İngiltərə hökumətinə teleqram göndərib məlumat verirdi ki, Denikin ordusu cənuba doğru geri çəkilir, bolşevik qüvvələri onu təqib edir. Uordrop təklif edirdi ki, təcili şəkildə Cənubi Qafqaz respublikalarını, eyni zamanda Dağıstan Respublikasını onların mövqelərini möhkəmləndirmək üçün tanımaq lazımdır. O yazırdı: "Əgər İngiltərə fəal hərəkət etməsə, Qafqaz respublikaları məcburdurlar ki, bolşeviklərlə sazişə girsinlər".[1198]

Yanvar ayının 2-də RSFSR xarici işlər naziri G.Çiçerin Azərbaycan və Gürcüstan hökumətlərinə nota ilə müraciət edərək, Könüllü orduya qarşı birgə mübarizə aparmaq üçün hərbi saziş bağlamağı təklif etdi. Lakin bu təklif səmimi niyyətlərdən irəli gəlməyib, Azərbaycan və Gürcüstan hökumətlərini zəiflətmək üçün təbliğati xarakterə malik idi. Könüllülər ordusu üzərində və ümumilikdə vətəndaş müharibəsinin gedişində Sovet ordusunun qazandığı qələbələr onun mövqeyini getdikcə möhkəmləndirirdi. Hərbi qələbələr öz növbəsində qonşu dövlətlərə diplomatik təzyiqləri gücləndirir və bolşevik təbliğatı üçün əlverişli şəraiti təmin edirdi. Azərbaycanın timsalında bu təzyiqlər 1920-ci ilin yanvarından aprelinədək diplomatik qarşıdurma səviyyəsinə qədər yüksəlmiş notalar mübadiləsində öz əksini tapmışdı. Ermənistan Respublikasının Azərbaycan ərazilərinə qarşı qəsbkarlıq planlarını həyata keçirdiyi bir vaxtda Sovet Rusiyasının çağırışı üzrə Azərbaycanın denikinçilərə qarşı müharibəyə daxil olub iki cəbhədə vuruşması onun üçün ağır nəticələr verə bilərdi. RSFSR xalq xarici işlər komissarı Q.V.Çiçerin isə 1920-ci il 2 yanvar tarixli notasında əslində Azərbaycan hökumətindən Denikinə qarşı tələsik müharibəyə girməyi tələb edirdi.[1199] O yazırdı: "Rusiya fəhlə və kəndlilərinin qəhrəmancasına səyi nəticəsində Qızıl Ordu

---

[1196] C.Həsənov. "Ağ ləkə"lərin qara kölgəsi. Bakı, 1991, s.91-92

[1197] Uni nouvella Ligue en Suisse.// Bulletin d'Information de L'Azerbaidjan. Paris, 1920, 1 Fevrier, №8, p.l

[1198] R.Ullman. Anglo-Soviet Relations 1917-1921, p.322

[1199] Bulletin d'Information de L'Azerbaidjan. Paris, 1920, 1 Mars, №10, p.l



downloaded from KitabYurdu.az

Yudeniçi və Kolçakı əzdi və Rostov-Dona doğru nizamsız surətdə geriyə çəkilən çar generalı Denikinin ağqvardiyaçı bandalarına sarsıdıcı zərbələr endirir. Əksinqilabi monarxiyaya sonuncu zərbələr endirən RSFSR hökuməti Rusiyanın cənubunda ağqvardiyaçı ordularının məhv olunmasını sürətləndirmək məqsədilə hərbi saziş bağlamaq haqqında Azərbaycana dərhal danışıqlara girməyi təklif edir. Sovet hökuməti bunu göstərməyi zəruri hesab edir ki, cənub əksinqilabi, nəinki Sovet respublikası üçün, eyni zamanda keçmiş Rusiya imperiyasının tərkibinə daxil olan bütün kiçik xalqlar üçün qatı düşmən hesab olunur. Denikin, nəinki rus fəhlə və kəndlilərinin, həm də gürcü, habelə azərbaycanlı fəhlə və kəndlilərinin düşmənidir. Biz ümid edirik ki, Gürcüstan və Azərbaycan fəhlə və kəndliləri onu öz düşməni hiss edirlər. Biz, həm də ümid edirik ki, onlar Sovet Rusiyası və Qafqaz arasında ağqvardiyaçı sipərinin nə vaxt sındırılacağını və əvvəllər bir dövlət sərhədlərində yaşayan xalqlar arasında əlaqənin bərpa olunması gününü həyəcanla gözləyirlər. Bu məqamda zərbəni sürətləndirmək lazımdır, şimaldan Rusiya fəhlə və kəndlilərin silahlı zərbəsi ilə birləşmək lazımdır. Biz belə hesab edirik ki, hələlik gec deyildir. Denikinə qarşı mübarizəyə başlamaq çağırışı ilə Azərbaycan hökumətinə və Azərbaycan xalqına müraciət edirik. Azərbaycan dövlətinin düzgün dərk edilmiş marağı və onun zəhmətkeş siniflərinin sosial-siyasi mənafeyi Azərbaycanı bizim təklifimizlə razı olmağa məcbur edəcək."[1200]

G.Çiçerinin notası alınan gün, yanvar ayının 6-da N.Usubbəyovun sədrliyi ilə Azərbaycan Dövlət Müdafiə Komitəsinin təcili iclası keçirildi. İclasda 1919-cu ilin dekabrında N.Usubbəyovun təşkil etdiyi ikinci hökumət kabinəsində xarici işlər naziri vəzifəsini tutan Xan Xoyski Sovet Rusiyasının Azərbaycanla və Gürcüstanla hərbi saziş bağlamaq təklifi barədə məruzə etdi. Məruzəni dinləyərək, iclas iki bənddən ibarət qərar qəbul etdi: 1. Xarici işlər nazirinə tapşırılsın: Sovet Rusiyasının təklifi barədə Gürcüstanla məsləhətləşdikdən sonra, Sovet Rusiyasına cavab versin ki, Azərbaycan Respublikası azad və müstəqil dövlət kimi Sovet Rusiyası ilə qarşılıqlı münasibətlər yaratmaq üçün danışıqlara girməyə hazırdır. 2. Antanta ölkələri ilə münasibətlərlə bağlı Böyük Britaniyanın son günlərin siyasi şəraitinə münasibətini aydınlaşdırmalı və İngiltərənin nüfuzundan respublikanın mənafeyinə uyğun istifadə edilməli.[1201]

Yanvarın 6-da Xan Xoyski G.Çiçerinin notasını və Azərbaycan Xarici İşlər Nazirliyinin Sovet Rusiyasına cavabını Bakıda olan ingilis nümayəndəsi polkovnik Stoksla ətraflı müzakirə etdi. Həmin axşam Stoks Britaniya Ali komissarlığının yerləşdiyi Tiflisə yola düşdü. Yanvar ayının 7-də Azərbaycan xarici işlər naziri Tiflisdə olan diplomatik nümayəndə Faris bəy Vəkilova göndərdiyi teleqramda

[1200] Sovet Rusiyasının Xalq Xarici İşlər Komissarı G.Çiçerinin Azərbaycan Xarici İşlər Nazirliyinə və Azərbaycan xalqına radioqramı. 06.01.1920. //ARDA, f.897, s.l, i.86, v.l

[1201] Azərbaycan Respublikası Dövlət Müdafiə Komitəsinin qərarları jurnalından çıxarış. 06.01.1920. //ARDA, f.970, s.l, i.l 12, v.8



downloaded from KitabYurdu.az

Gürcüstan Respublikasının və İngiltərə Ali komissarlığının Sovet Rusiyasının notasına münasibətlərini öyrənməyi xahiş edirdi. Teleqramda deyilirdi ki, dünən mən Sovet Rusiyasından Denikinə qarşı mübarizə aparmaq üçün hərbi saziş bağlamaq haqqında danışıqlara başlamaq təklifi barədə teleqram almışam. Eyni ilə belə bir teleqramı Gürcüstan hökuməti də almışdır. Xahiş edirəm təcili surətdə Geqeçkori ilə görüşün və Gürcüstan hökumətinin bu məsələ ilə bağlı fikrini və hansı tədbirlər görmək istədiyini aydınlaşdırın. Bizim hökumətimizin fikri belədir ki, bu məsələ ilə bağlı Azərbaycan və Gürcüstan hökumətlərinin sıx surətdə vahid fəaliyyət göstərməsi zəruridir. Hələlik biz belə fikirləşirik ki, suveren dövlətlər olan Azərbaycan və Gürcüstanla Sovet Rusiyası arasında qarşılıqlı münasibətlər yaratmaq üçün danışıqlara başlamağa razılıq vermək olar. Təcili şəkildə Uordropla görüşün və İngiltərənin nöqteyi-nəzərini aydınlaşdırın, dəqiqləşdirin ki, İngiltərə ən yaxın vaxtlarda bizə hansı yollarla və necə yardım göstərə bilər.[1202]

Tiflisdəki Azərbaycan diplomatik nümayəndəsinin Gürcüstan xarici işlər naziri ilə görüşü zamanı Xan Xoyskinin teleqramında göstərilən təkliflər bəyənildi və qərara alındı ki, qarşılıqlı münasibətləri qaydaya salmaq üçün Sovet Rusiyası ilə danışıqlar aparmaq olar, lakin Denikinlə mübarizəyə gəldikdə isə Rusiyanın daxilində gedən vətəndaş müharibəsinə Azərbaycan və Gürcüstanın müdaxilə etməsinin yolverilməz olduğu göstərildi. Oliver Uordropla görüş zamanı Britaniya Ali komissarı tezliklə Azərbaycan və Gürcüstanın müstəqilliyinin Antanta tərəfindən tanınacağını, bu respublikalara müdafiə olunmaq üçün yardım göstəriləcəyini bildirdi. Eyni zamanda Uordrop Sovet Rusiyasının notası ilə bağlı Qafqazda yaranmış vəziyyət barədə İngiltərə Xarici İşlər Nazirliyinə geniş məlumat göndərdi. Yanvar ayının 12-də Gürcüstan Xarici İşlər Nazirliyi Sovet Rusiyasına bildirdi ki, gürcü hökuməti mehriban qonşuluq münasibətləri yaratmaq üçün danışıqlara başlamağa hazırdır, lakin Rusiyanın daxili işi olan vətəndaş müharibəsinə qarışmaq fikrində deyildir.[1203] İki gün sonra Azərbaycan xarici işlər naziri Xan Xoyski də G.V.Çiçerinə cavab notasında Denikinin uzun müddət Azərbaycan üçün təhlükə təşkil etməsinə və ona qarşı Azərbaycan-Gürcüstan müdafiə paktı olmasına baxmayaraq, bu məsələnin Rusiyanın daxili işi olduğunu qeyd edərək, Azərbaycan Respublikasının Sovet Rusiyası ilə mehriban qonşuluq münasibətləri yaratmaq məqsədilə danışıqlara başlamağa hazır olduğunu bildirdi. 14 yanvar tarixli radioqramada F.Xoyski bildirirdi: "Yanvarın 6-da aldığım sizin 2 yanvar tarixli radioteleqramınıza cavab olaraq məlumat verirəm: Azərbaycan xalqı böyük tarixi hadisələrin gedişində nəhəng itkilər və çətinliklər bahasına azadlıq və müstəqilliyə nail oldu, öz dövlət quruluşunu demokratik respublika əsasında qurdu. Xalqın öz müqəddəratını təyin etməsi əsasında yaranan Azərbaycan Respublikası dönmədən o nöqteyi-nəzər üzərində israr edir ki, hər bir xalq öz taleyi və həyatını

---

[1202] Xarici işlər naziri F.X.Xoyskinin Gürcüstandakı Azərbaycan nümayəndəsi F.Vəkilova təcili diplomatik məlumatı. 07.01.1920. //ARDA, f.970, s.1, i.112, v.1a

[1203] З.Авалов. Независимость Грузии в международной политике, с.240



downloaded from KitabYurdu.az

özünün istədiyi kimi müəyyən etmək hüququna malikdir. Təyini müqəddəratdan sonra Azərbaycan hökuməti heç vaxt başqalarına özünün daxili işlərinə qarışmaq imkanı vermədi və öz növbəsində başqa xalqların daxili işlərinə qarışmamaq prinsipini müdafiə edir. Bu sarsılmaz prinsipdən çıxış edən Azərbaycan hökuməti öz həyatını istədiyi kimi qurmaqda rus xalqının daxili işlərinə müdaxiləni yolverilməz hesab edir. Azərbaycan Respublikası bitərəf dövlət kimi öz azadlığını və müstəqilliyini hər cür xarici qəsdlərdən müdafiə etməyə qərarlıdır. Məhz, elə buna görə Azərbaycan hökuməti həmişə Azərbaycan xalqının müstəqilliyinə qəsd edən çar generalı Denikinə qarşı dönməz mübarizə aparırdı və bu mübarizənin uğurlu olması məqsədi ilə qonşu gürcü hökuməti ilə hərbi müdafiə ittifaqı bağlamışdı. Azərbaycan hökuməti tərəfindən rəhbər tutulan bu xarici siyasət kursu Azərbaycan xalqı ilə digər xalqlar arasında mehriban münasibətlərin qurulmasını zəruri edir. Bu nöqteyi-nəzərdən Azərbaycan hökuməti hər iki dövlətin müstəqilliyi prinsiplərini rəhbər tutaraq danışıqlar yolu ilə Rusiya və Azərbaycan xalqları arasında mehriban qonşuluq münasibətləri yaratmağa hazırdır.[1204]

Göründüyü kimi, Azərbaycan tərəfi bu fikirdə idi ki, danışıqlara başlamaq üçün Sovet Rusiyası rəsmi şəkildə Azərbaycan Respublikasını tanımalıdır. Məhz, bu addım Azərbaycanın milli müstəqilliyinin qorunmasına təminat ola bilərdi. G.Çiçerinə göndərilən notanın məzmunu barədə ingilis Ali Komissarı Oliver Uordropa da məlumat verildi.[1205] Lakin görünür Azərbaycan Respublikasının belə mövqeyi Sovet Rusiyasını təmin etmirdi və RK/b/P MK-nın Siyasi Bürosu F.Xoyskidən alınmış cavabı və ümumiyyətlə, Azərbaycan hökumətinə münasibət məsələsini yanvarın 17-18-də keçirilən iclasında müzakirə etdi. G.Çiçerinin məruzəsi və V.İ.Leninin təklifi ilə iclas Azərbaycan Respublikasının daxili işlərinə müdaxilə ruhunda qərar qəbul etdi. Orada göstərilirdi: "Xalq xarici işlər komissarlığına tapşırılsın ki, Azərbaycan hökuməti barəsində çox böyük təmkinlik və etimadsızlıq siyasəti yeritsin, çünki o, Denikinə qarşı birgə hərbi əməliyyat aparmaq təklifimizdən imtina etmişdir və Xəzər dənizində bizə qarşı çıxan İngiltərə hərbi qüvvələrinə xidmət göstərir. Hər bir millətin zəhmətkeş kütlələrinin öz müqəddəratını təyin etməsi hüququnu dönmədən qəbul etməyimizi tam müəyyən şəkildə qeyd etməklə, xalq xarici işlər komissarlığı Azərbaycan hökumətinin bu cür davranışına qarşı qəti protest etməlidir."[1206]

Qafqazda bolşevik təhlükəsi ilə bağlı yaranmış vəziyyət Antanta ölkələrini ciddi şəkildə düşündürməyə və real əməli addımlar atmağa vadar edirdi. Qərbin siyasi dairələri yaxşı bilirdi ki, sovet ordusunun Cənubi Qafqaza təcavüzü bolşevik

[1204] Bax: Bulletin d'Information de L'Azerbaidjan. Paris, 1920, 1 Mars, №10, p.2; Xarici işlər naziri Xan Xoyskinin Sovet Rusiyasının xarici işlər üzrə xalq komissarına radioqramı. 14.01.1920.//ARDA, f.970, s.1, i.112, v.7

[1205] Gürcüstanda diplomatik nümayəndə F.Vəkilovun O.Uordropa məlumatı. 14.01.1919. //ARDA, f.897, s.l, i.69, v.33

[1206] V.İ.Lenin. Əsərlərinin Tam Külliyatı, 40-cı cild, s.57



downloaded from KitabYurdu.az

ideyasının İrana və Türkiyəyə yayılmasına səbəb olacaq, bütün Yaxın və Orta Şərqi həyəcan bürüyəcəkdir. Ona görə də Avropa siyasətçilərinin çoxu bu fikirdə idi ki, sovet hücumuna qarşı dura bilmək üçün Azərbaycan və Gürcüstanın müdafiəsini möhkəmləndirmək, onları müdafiə vasitələri ilə təmin etmək lazımdır. Lakin yeni formalaşan beynəlxalq münasibətlərin prinsiplərinə görə, müstəqilliyi tanınmayan dövlətlərə yardım göstərmək məsələsi hüquqi baxımdan ciddi çətinliklərlə qarşılaşırdı. Digər tərəfdən, 1920-ci ilin ilk günlərində yaranmış gərgin vəziyyətdə bu respublikaların müstəqilliyinin tanınmasına mane ola biləcək "vahid və bölünməz Rusiya" ideyası artıq öz əhəmiyyətini itirmiş, onun tərəfdarlarının ümidləri doğrulmamışdı. Ona görə də, hadisələrin çox sürətlə cərəyan etdiyi bir vaxtda Azərbaycan və Gürcüstanın müstəqilliyinin tanınması təxirəsalınmaz bir vəzifə kimi meydana çıxmışdı. Bu məqsədlə Böyük Britaniyanın təşəbbüsü ilə yanvar ayının 10-da Paris Sülh konfransı Ali Şurasının sessiyası çağırıldı. Sessiyada İngiltərə, Fransa və İtaliyanın hökumət başçıları və xarici işlər nazirləri, ABŞ və Yaponiyanın isə Sülh konfransındakı nümayəndələri və Fransadakı səfirləri iştirak edirdi. Ke d'Orsedə keçirilən sessiyada Cənubi Qafqaz respublikalarının məsələsi çox geniş və ətraflı müzakirə edildi. İngiltərənin Baş naziri Qafqazdakı vəziyyət barədə sessiyaya ətraflı məlumat verdi. O bildirdi ki, bolşeviklər Xəzər boyunca hərəkət edirlər, əgər onlar Denikini əzsələr və Xəzər dənizini ələ keçirsələr, ola bilsin ki, türklər onlarla birləşsinlər /burada Mustafa Kamal paşanın başçılığı ilə Türkiyədə başlanmış milli hərəkat nəzərdə tutulur - C.H./. Belə olduqda Qafqaz dövlətləri çıxılmaz vəziyyətdə qalacaqlar. Ona görə də Lloyd Corc təklif edirdi ki, bu dövlətlərə silah və hərbi sursat göndərmək üçün ağıllı bir yol fikirləşmək lazımdır.[1207] Onun təklifi ilə Ali Şura qərar qəbul etdi ki, hərbi ekspertlər Cənubi Qafqaz respublikalarına hərbi yardım göstərmək barədə təkliflər versinlər. Jorj Klemanso Lloyd Corcun bəyanatı ilə tam razılaşdı və qeyd etdi ki, Qafqaz işləri üzrə çox təcrübəsi olan Britaniya nümayəndələri "Cənubi Qafqaz respublikalarına kömək haqqında" memorandum hazırlasınlar. İclasda qərara alındı ki, bolşeviklərlə mübarizə məqsədilə Qafqaza hərbi yardım göstərilməsi məsələsi ekspertlər tərəfindən öyrənilsin və Britaniya nümayəndələri ilə birlikdə bu haqda Ali Şuraya məruzə edilsin.[1208]

Günorta Baş Şuranın iclası D.Lloyd Corc, J.Klemanso və F.Nittinin iştirakı olmadan xarici işlər nazirləri səviyyəsində davam etdirildi. İngiltərənin xarici işlər naziri Lord Kerzonun təşəbbüsü ilə xarici işlər nazirləri Cənubi Qafqaz respublikalarına münasibət məsələsinin siyasi tərəflərini müzakirə etdilər. Kerzon öz çıxışında dedi ki, Lloyd Corc Ali Şuranın iclasında Azərbaycan və Gürcüstanın müstəqilliyinin tanınmasını qoymaq fikrindədir. O, əlavə etdi ki, Ermənistan məsələsi Türkiyə məsələsi ilə birlikdə həll ediləcəkdir. Xarici işlər nazirləri uzun müzakirələrdən sonra belə bir yekdil qərara gəldilər ki, Azərbaycan və Gürcüstan

---

[1207] Papers Relating to the Foreign Relations of the United States. Paris Peace Conference, vol.IX, p.851
[1208] İbid, p.837-838



downloaded from KitabYurdu.az

respublikaları üçün üç tərəfdən təhlükə yaranmışdır. Birincisi, bolşevik Rusiyasının qoşunları cənub istiqamətində hərəkət edir, ikincisi, geri çəkilən Denikin ordusu bu respublikalara soxula bilər, üçüncüsü, kamalçılar Rusiya ilə razılıq əsasında bu respublikalara müdaxilə edə bilər.[1209] Vəziyyət böhranlı olduğu üçün Azərbaycan və Gürcüstan hökumətləri Antanta dövlətlərinə yardım üçün müraciət etmişdilər.[1210] Kerzon həmin müraciətlər barədə məlumat verib təklif etdi ki, yubanmadan Azərbaycan və Gürcüstanı de-fakto tanımaq lazımdır. Bu dövrdə yaranmış vəziyyəti təhlil edərək, sonralar M.Mehdiyev yazırdı: "Versal konfransının mühitindən aydın oldu ki, real surətdə mövcud olan dövlətləri tanımaq üçün artıq bütün şərait yaranmışdı. Sadəcə olaraq, bir təkan kifayət idi və bu təkanı Sülh konfransında nümayəndə olan İngiltərənin xarici işlər naziri Lord Kerzon verdi."[1211] Kerzona görə, Mudros barışığından sonra Britaniya qoşunları Cənubi Qafqaza birinci daxil olduğu üçün Britaniya hökumətinin digərlərinə nisbətən bu respublikalarla daha yaxın münasibətləri vardır. Bir gün sonra, yanvarın 11-də Müttəfiqlərin Ali Şurası Kerzonun təklifi üzrə bu məzmunda bir qərar qəbul etdi: "Müttəfiq və birlik ölkələri Azərbaycan və Gürcüstan hökumətlərini birlikdə de-fakto səviyyəsində tanıyırlar."[1212] Bununla da Azərbaycanın müstəqilliyi 1920-ci ilin yanvar ayının 11-də de-fakto olaraq Paris Sülh konfransı tərəfindən tanındı. ABŞ və Yaponiya nümayəndələri öz aralarındakı razılığa əsasən, bildirdilər ki, bu ölkələrin nümayəndələri belə mühüm bir məsələni öz hökumətləri ilə qabaqcadan razılaşdırmalıdırlar. Az sonra Yaponiya fevral ayının 7-də Ali Şuranın qəbul etdiyi qərara qoşuldu.[1213] Birləşmiş Ştatlar isə rəsmi surətdə bundan imtina etdi. ABŞ hökumətinin bu qərarı müxtəlif amillərlə bağlı idi. Bir tərəfdən Amerika hökuməti Cənubi Qafqazda Böyük Britaniyanın nüfuzunun yüksələcəyindən ehtiyat edirdi, digər tərəfdən isə Sülh konfransının yekun mərhələsində ABŞ-la onun Avropa müttəfiqləri arasında ciddi ixtilaflar yaranmışdı. Yanvar ayının 13-də ABŞ-ın Parisdəki səfiri Valles Vaşinqtona məlumat verdi ki, İngiltərə və Fransa Azərbaycanın və Gürcüstanın müstəqilliyini de-fakto tanımışdır və onlara yardım göstərmək fikrindədirlər. Eyni zamanda Ali Şuranın qərarı Vaşinqtondakı Fransa səfirinə göndərildi ki, bu barədə ABŞ hökumətini məlumatlandırsın. Orada deyilirdi: müttəfiqlər qərara gəlmişdilər ki, Rusiyanın sərhədlərinə toxunmadan onun qonşuları olan Azərbaycanın və Gürcüstanın müstəqilliklərini tanısınlar. Lakin son nəticədə bolşeviklər bu dövlətlərlə sülh bağlamaqdan imtina etdilər və güc vasitəsi ilə onların müstəqilliyinə mane olmağa cəhd edirlər. Bu halda müttəfiq dövlətlər bütün

---

[1209] İbid, p.953

[1210] З.Авалов. Независимость Грузии в международной политике, с.240

[1211] Papers Relating to the Foreign Relations of the United States. The Paris Peace Conference. 1919, vol.IX, p.985-959; Mir Yacoub. Le probleme du Caucase, p.121

[1212] Papers Relating to the Foreign Relations of the United States. The Paris Peace Conference, Vol.IX, p.959; Bulletin d'Information de L'Azerbaidjan. Paris, 1920, 17 Janvier, №7, p.1

[1213] Азербайджан, 1920, 15 февраля.



downloaded from KitabYurdu.az

vasitələrlə bu dövlətlərə yardım göstərəcəklər. Müttəfiq dövlətlər bilmək istəyir ki, Birləşmiş Ştatlar hökuməti bu siyasətlə razıdırmı?[1214] Yanvar ayının 24-də Dövlət katibinin müavini F.Polkun imzası ilə Fransadakı Amerika səfirliyinə cavab gəldi ki, Birləşmiş Ştatlar İngiltərə və Fransanın Qafqaz dövlətlərinə yardım göstərməsi ilə razılaşır, lakin onların tanınmasına Rusiyanın parçalanmasının başlanğıcı kimi baxır.[1215]

Yanvar ayının 12-də müttəfiqlərin birləşmiş hərbi komitəsi Qafqaz məsələsinə dair öz təkliflərini Versal Ali Şurasına göndərdi. Sənədi marşal Ferdinand Foş, general Sakvill Uest və Uqo Kovallero imzalamışdılar. Orada deyilirdi: Əgər bolşevizmi öz ərazilərində əzmək mümkün olmasa, o, Qafqaz kimi təhlükəli ərazilərə keçə bilər. Ona görə bolşeviklərin Qafqaza doğru hərəkətinə qarşı hərbi maneə yaradılması məsələsini bir daha diqqətlə nəzərdən keçirmək lazımdır. Yerli hökumətlərin qeyri-stabilliyini və hərbi birliklərin zəifliyini nəzərə alsaq, bolşevizmə qarşı bu maneə ilk dövrlərdə Avropa orduları tərəfindən yaradılmalıdır. Bu vəzifəni iki güclü diviziya yerinə yetirə bilər. Sonrakı mərhələdə təlim keçmiş yerli silahlı qüvvələr bu işə cəlb edilə bilər və tədricən Qafqazda Avropa Ordusu azaldıla bilər. Maliyyə və maddi məsələlərdən əlavə, Qafqaz müdafiə səddini yaratmaq üçün kifayət qədər zaman lazımdır. Buna ən azından üç ay vaxt gedəcək. Ona görə, bütün məsələlərə təcili şəkildə başlamaq lazımdır.[1216] Ekspertlər belə hesab edirdilər ki, müdafiə səddi yaradılana qədər müəyyən şərtlər daxilində Qafqaza hərbi sursat göndərmək işini davam etdirmək lazımdır və Xəzər dənizində müttəfiqlərin donanması vəziyyətə nəzarət etməlidir. Ekspertlərin fikrincə, müttəfiq dövlətlər qeyd edilənlərlə razılaşardılarsa, Qafqaz respublikalarına yardım göstərməyin yolunu və formalarını araşdırmaq olardı.

Həmin gün Britaniya nümayəndələri də buna bənzər bir sənəd hazırladılar. Onların fikrincə bolşeviklərin Avropanı dağıtmaq arzuları gerçəkləşmədi, buna görə onlar müsəlmanlarla danışığa girib Şərqə hərəkət etməyə qərar verdilər. Denikinin qaçılmaz məğlubiyyəti müttəfiqlərin hər iki cinahdan qorumaq istədikləri Cənubi Qafqazı təhlükəli bir koridora çevirir. İndi hər şey etmək lazımdır ki, hər iki qüvvənin (bolşevik Rusiyası və kamalçı Türkiyənin - C.H.) birləşməsinə yol verilməsin. Britaniyalılar belə hesab edirdilər ki, Gürcüstana hücum müttəfiqlər üçün pis nəticələr verə bilərdi və əgər Gürcüstana müttəfiqlərin köməyi göstərilərdisə, onlar öz sərhədlərini qoruya bilərdilər. Sənəddə təklif edilirdi ki, Gürcüstana və Azərbaycana siyasi, hərbi, maliyyə və ərzaq yardımı göstərilməsi zəruridir.[1217]

---

[1214] Papers Relating to the Foreign Relations of the United States. The Paris Peace Conference. 1919, vol.IX,p.295

[1215] Foreign Relations of the United States. 1920, vol.III, US Government Printing Office. Washington, 1947, p.703

[1216] Papers Relating to the Foreign Relations of the United States. The Paris Peace Conference. 1919, vol.IX, p.902-903

[1217] Ibid, p.903-904



downloaded from KitabYurdu.az

Versal Ali Şurasının qərarından sonra yanvar ayının 15-də Azərbaycan və Gürcüstan nümayəndələri Fransa Xarici İşlər Nazirliyinə dəvət edildilər. Azərbaycan nümayəndələrindən Ə.M.Topçubaşovu və M.Məhərrəmovu, Gürcüstan nümayəndələrindən İ.Sereteli və Z.Avalovu nazirliyin Baş katibi Jül Kambon, ingilis nümayəndəsi Filipp Kerr və İtaliya nümayəndəsi markiz de-la Torreta qarşıladılar. Jül Kambon Ali Şuranın üzvləri və müttəfiq ölkələr tərəfindən Azərbaycanın de-fakto tanınması barədə Paris Sülh konfransının rəsmi qərarını Ə.M.Topçubaşova təqdim etdi.[1218] O, nümayəndələri təbrik edib bildirdi ki, bundan sonra Azərbaycan və Gürcüstan müstəqilliyi tanınmış dövlətlər kimi, Sülh konfransına zəruri məsələlərlə bağlı rəsmən müraciət edə bilərlər.[1219] M.Mehdiyev bu məsələ ilə bağlı yazır: "Müsyö Kambon bəyan elədi ki, Azərbaycan və Gürcüstan respublikaları rəsmi və beynəlxalq hüquq normalarına uyğun olaraq, müstəqil dövlətlər kimi tanınmışdır. Bu məqamdan başlayaraq, bu iki ölkə rəsmi olaraq "Ali Şura" ilə əlaqəyə girə bilər, öz ehtiyaclarını, qeydiyyata alınmalarını, konfransın iclaslarında qanuni hüquqlarını, bərabər hüquqlu üzv olmalarını tələb edə bilərlər. Bundan başqa Kambon bildirdi ki, bu dövlətlərin hökumətlərinin tanınması aktı, eyni zamanda onların Rusiyadan ayrılmasının tanınması ilə müşayiət olunmalıdır. Bundan çıxış edərək demək olar ki, Azərbaycan və Gürcüstan Respublikaları bu gündən belə suveren dövlətlər hesab ediləcəkdir".[1220] Sonra J.Kambon nümayəndələrin "hər hansı arzu və təklifini soruşduqda Azərbaycan Respublikası adından Ə.M.Topçubaşov Azərbaycanın siyasi quruluşu haqqında qısa məlumat verib, onun tanınması üçün təşəkkürünü bildirdi və qeyd etdi ki, Azərbaycan Respublikası böyük dövlətlərdən yardım və müstəqilliyinin de yure tanınmasını gözləyir. Versal Ali Şurasının qərarı Azərbaycan nümayəndələrinə təqdim edildikdən sonra Fransa Xarici İşlər Nazirliyi teleqram vuraraq özünün bir sıra ölkələrdə olan diplomatik nümayəndəliklərini və Ali Komissarlarını Azərbaycan və Gürcüstanın tanınması haqqında Ali Şuranın qərarı barədə məlumatlandırdı[1221].

Versal Ali Şurasının tarixi qərarı haqqında məlumat yayılan kimi, Azərbaycan təmsilçiləri bir çox xarici dövlətlərin nümayəndələrindən, cəmiyyət və birliklərdən təbrik teleqramları aldılar. Müstəqilliyin tanınması münasibəti ilə Gürcüstan, Estoniya, İran, Hindistan və digər ölkələrin nümayəndələri, Lozannadakı Ukrayna bürosu, "Franko-Qafqaz" komitəsi, Cenevrədə yerləşən

[1218] La reconnaissance de l'independance de l'Azerbaidjan et de la Georgie.// Bulletin d'Information de L'Azerbaidjan. Paris, 1920, 1 Fevrier, №8, p.l

[1219] З.Авалов. Независимость Грузии в международной политике, с.241

[1220] Mir Yacoub. Le probleme du Caucase, p.122

[1221] Reconnaissance des Gouvernements de Georgie et d'Azerbaidjan Le 22 janvier 1920. // Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 638, folio 183



downloaded from KitabYurdu.az

Rusiya imperiyası tərkibindən çıxmış müstəqil respublikalar liqasının sədri cənab Pittard və digərləri təbrik teleqramları göndərmişdilər.[1222]

Yanvar ayının 15-də günün ikinci yarısı Versalda hərbi ekspertlər Şurası Azərbaycan və Gürcüstana hərbi yardım göstərmək məsələsini müzakirə etdi. Şuranın işində iştirak etmək üçün təcili surətdə Böyük Britaniyanın hərbi naziri U.Çerçil, İmperiya Baş qərargahının rəisi feld-marşal H.Vilson, admirallığın birinci lordu U.Lanq, admiral lord Bitti və digərləri Londondan Parisə gəldilər.[1223] Hərbi ekspertlərin iclası, yüksək rütbəli ingilis hərbçilərinin Parisə dəvət edilməsi müxtəlif şayiələrin yayılmasına səbəb oldu. Fransa radiosu belə bir xəbər yaydı ki, on min ingilis əsgəri Bakıya yola düşmək üzrədir. Radionun məlumatına görə, Lloyd Corc guya, Klemansodan xahiş etmişdi ki, Almaniyada olan fransız işğal ordusunun sayını artırsın, oradakı ingilis ordusunu o, çıxarıb Bakıya göndərmək istəyir. Lakin bütün bunlar hamısı şayiə idi. Aprel hadisələrinə qədər nə Bakıya, nə də, Tiflisə nəinki ingilis ordusu, heç ingilis hərbi müşavirləri də göndərilmədi.

Fransa, İngiltərə, İtaliya, Amerika və digər Qərb ölkələrin mətbuatı Azərbaycan və Gürcüstanın tanınması ilə bağlı çoxlu yazılar vermişdilər. Yanvarın ikinci yarısında "Le Temps",[1224] "Le France",[1225] "La Croix",[1226] "Bonsoir",[1227] "L'Ordre Public",[1228] "L'Echo de Paris",[1229] "L'Echo de France",[1230] "L'Eclair",[1231] "La Justice",[1232] "Daily Chronicle",[1233] "La Patrie",[1234] "New York Herald",[1235] "New York Times",[1236] "Chicago Tribune",[1237] "La France militaire",[1238] "La democratie nouwelle",[1239] "La Bataille",[1240] "L'Action Française",[1241] "L'Evenement"[1242] "La Petit Parisien",[1243] "La Lanterne",[1244] "L'Information",[1245]

---

[1222] Bulletin d'Information de L'Azerbaidjan. Paris, 1920, 1 Fevrier, №8, p.2
[1223] З.Авалов. Независимость Грузии в международной политике, с.243-244
[1224] Le Temps, 1920, 22 Janvier
[1225] Le France, 1920, 20 Janvier
[1226] La Croix, 1920, 21 Janvier
[1227] Bonsoir, 1920, 21 Janvier
[1228] L'Ordre Public, 1920, 21 Janvier
[1229] L'Echo de Paris, 1920, 21 Janvier
[1230] L'Echo de France, 1920, 16 Janvier
[1231] L'Eclair, 1920, 21 Janvier
[1232] La Justice, 1920, 21 Janvier
[1233] Daily Chronicle, 1920, 21 Janvier
[1234] La Patrie, 1920, 21 Janvier
[1235] New York Herald, 1920, 20 January
[1236] New York Times, 1920, 21 January
[1237] Chicago Tribune, 1920, 22 January
[1238] La France militaire,1920, 15 Janvier
[1239] La democratie nouwelle,1920, 22 Janvier
[1240] La Bataille, 1920, 22 Janvier
[1241] L'Action Française, 1920, 23 Janvier
[1242] L'Evenement, 1920, 23 Janvier
[1243] La Petit Parisien, 1920, 23 Janvier
[1244] La Lanterne, 1920, 23 Janvier



downloaded from KitabYurdu.az

"L'Effort national",[1246] "L'Homme libre",[1247] "La Montagne",[1248] "La Gazette de Lausanie"[1249] qəzetlərində, "Le Journal de Geneve",[1250] "Le Journal de Peuple",[1251] "Le Journal des Debats",[1252] "Le Journal d'Orient"[1253] jurnallarında gedən məqalələrdə Azərbaycan və Gürcüstanın müstəqilliklərinin Versal Ali Şurası tərəfindən tanınması böyük hadisə kimi dəyərləndirilirdi.

Hərbi ekspertlərin iclası yanvar ayının 16-da öz işini davam etdirdi. İclasa J.Klemanso sədrlik edirdi. O, bir gün əvvəl Azərbaycan və Gürcüstan nümayəndələri ilə görüşmüş J.Kambodan xahiş etdi ki, Cənubi Qafqazdakı vəziyyət haqqında məlumat versin. Kambon bu respublikaların ciddi maliyyə, hərbi və digər yardıma ehtiyacı olduğu və onların müdafiə qabiliyyəti barədə məlumat verdi. Jül Kambon qeyd etdi ki, hər iki respublikanın nümayəndələri siyasi, hərbi və maliyyə yardımı göstərilməsini xahiş ediblər. Əvvəllər onlar Denikindən ehtiyat edirdilər, lakin indi Könüllü ordu artıq zəifləyib. Ötən müzakirədə F.Kerr hər iki nümayəndəliyə hərbi vəziyyət haqqında sual verdikdə aydın olmuşdu ki, Gürcüstan 50 min, Azərbaycan isə təxminən 100 min adamı orduya səfərbər edə bilər. Bu məlumatlar da öz növbəsində Klemansoya verildi. Lakin nə J.Kambonun, nə də F.Kerrin məlumatları Klemansonu qane etmədi. Jorj Klemanso bu rəqəmlərə şübhə ilə yanaşırdı. Lloyd Corc isə əksinə qeyd edirdi ki, bu ölkələrdə yaxşı intizamlı döyüş qabiliyyətinə malik dəstələr var ki, bunların da çoxunu tatarlar (azərbaycanlılar - C.H.) təşkil edir. J.Kambon əlavə etdi ki, hər iki respublikanın ordusu köhnə çar ordusu və milli qvardiyaların əsasında yaradılmışdır. Hər iki respublika cəbhə xəttini saxlamaq üçün kifayət qədər əsgərə malikdir. Yeganə çatışmayan silah və sursat tədarüküdür. Bilavasitə bununla bağlı respublikalar müttəfiqlərə müraciət ediblər. Sonra J.Kambon dedi ki, Azərbaycan və Gürcüstan nümayəndələri Dağlılar Respublikasının da de-fakto tanınmasını istəyirlər, xüsusilə, azərbaycanlılar belə hesab edirlər ki, bolşeviklər Denikini təqib etsə, Könüllü ordu Dərbəndə gələ bilər və bu Bakını böyük təhlükə qarşısında qoyar. Bakının işğalı isə bütün Xəzər hövzəsini təhlükə altına sala bilər. Lloyd Corc Dağlılar Respublikasının tanınmasını ağıllı ideya kimi dəyərləndirdi. Onun fikrincə, müsəlmanlar bu addımı yaxşı qarşılaya bilərdilər. Eyni zamanda, o, əlavə etdi ki, müttəfiqlərin kifayət qədər silah və sursatı vardır, lakin iş bunun çatdırılması məsələsindədir. J.Klemanso dedi ki, Denikinə göndərilən silahın çoxu bolşeviklərin əlinə keçib. Uzun müzakirələrdən sonra nəhayət, qərara alındı ki,

---

[1245] L'Information, 1920, 24 Janvier
[1246] L'Effort national, 1920, 22 Janvier
[1247] L'Homme libre, 1920, 24 Janvier
[1248] La Montagne, 1920, 27 Janvier
[1249] La Gazette de Lausanie, 1920, 30 Janvier
[1250] Le Journal de Geneve, 1920, 20 Janvier
[1251] Le Journal de Peuple, 1920, 21 Janvier
[1252] Le Journal des Debats, 1920, 21 Janvier
[1253] Le Journal d'Orient, 1920, 21 Janvier



downloaded from KitabYurdu.az

sabah Azərbaycan və Gürcüstan nümayəndələrinin özlərinin iştirakı ilə feldmarşal H.Vilson müzakirələri davam etdirsin.[1254]

Yanvar ayının 17-də Azərbaycan nümayəndələrinin yaşadığı Klaric mehmanxanasında feldmarşal H.Vilsonun sədrliyi, admiral Bittinin, İngiltərə Xarici İşlər Nazirliyinin nümayəndəsi Robert Vansittartın, Azərbaycan və Gürcüstan nümayəndələrinin iştirakı ilə müşavirə keçirildi. Müşavirənin əsas məqsədi bolşeviklərin hücum edəcəyi təqdirdə Azərbaycan və Gürcüstana nə kimi maddi kömək göstərməyi aydınlaşdırmaq idi. Qafqaza müttəfiq qoşunlarının göndərilməsi məsələsi iclasda müzakirə edilmədi, yalnız hərbi sursat və ərzaq formasında yardım göstərilməsi məsələsinə toxunuldu. Admiral Bittinin - kənardan kömək olmadan Azərbaycan hərbi-dəniz donanması Xəzər dənizi sahillərinin müdafiəsini təşkil edə bilərmi? - sualına Ə.M.Topçubaşov - xeyr, təşkil edə bilməz - deyə cavab vermişdi.[1255]

1920-ci ilin yanvarın 19-da hökumət başçılarının iştirakı ilə Paris Sülh konfransının Ali Şurasının iclası Cənubi Qafqaz respublikaları məsələsini ətraflı müzakirə etdi. Artıq həmin gün Azərbaycan nümayəndələri tam heyətdə Paris Sülh konfransının iclasında iştirak edirdi. İclasa zəmanənin ən böyük siyasi xadimləri - Lloyd Corc, Klemanso, Nitti, Kambon, Matsi, Kerzon, Çerçil, Foş, Bitti, Vilson və digərləri toplanmışdı.[1256] İclasda Ali Şuranın 10 yanvardakı tapşırığı üzrə ingilis nümayəndələri tərəfindən hazırlanmış memorandum oxundu. Memorandumda aşağıdakı tədbirlər nəzərdə tutulurdu: 1. Azərbaycan və Gürcüstan tanınsın /bu bənd artıq həyata keçirilmişdi - C.H./; 2. Denikinə göndərilən və yolda olan silah və sursat Azərbaycana, Gürcüstana və Ermənistana göndərilsin; 3. Azərbaycan və Gürcüstana əlavə olaraq, ərzaq, maliyyə və hərbi /silah və sursat/ yardım göstərilsin; 4. Bakı və Batumun müdafiəsini möhkəmləndirmək məqsədi ilə əlavə tədbirlər görülsün; 5. Xəzər sahilinin müdafiəsi təmin edilsin, bolşevik ordusu və donanması Xəzər dənizinə buraxılmasın. Denikinin dəniz donanması müttəfiqlərin ümumi istifadəsinə qaytarılsın, bu mümkün olmadıqda həmin donanma batırılsın.[1257]

İclasda marşal Ferdinand Foş müttəfiqlərin hərbi ekspertlər Şurasının məruzəsi ilə çıxış etdi. Ən böyük mübahisə, yardımın necə və hansı formada göstərilməsi barədə idi. Hərbi ekspertlərə başçılıq edən marşal Foş Cənubi Qafqaza bir neçə diviziya göndərməyi zəruri hesab edirdi. Feldmarşal Vilson Ferdinand Foşu müdafiə edərək əlavə etdi ki, Britaniya donanması Xəzər dənizində təşəbbüsü ələ almasa, Cənubi Qafqazı saxlamaq mümkün olmayacaq. Hərbi nazir U.Çerçil

[1254] Papers Relating to the Foreign Relations of the United States. The Paris Peace Conference, vol.IX, p.866
[1255] З.Авалов. Независимость Грузии в международной политике, с.245
[1256] La reconnaissance de l'independance de l'Azerbaidjan et de la Georgie.// Bulletin d'Information de L'Azerbaidjan. Paris, 1920, 1 Fevrier, №8, p.1-2
[1257] Papers Relating to the Foreign Relations of the United States. The Paris Peace Conference, vol.IX, p.903-904



downloaded from KitabYurdu.az

Henri Vilsonla razılaşdı və bildirdi ki, İngiltərə Xəzər dənizinə nəzarət etməsə, Zaqafqaziyaya göndərilən bütün silah bolşeviklərin əlinə keçəcəkdir.[1258] Lloyd Corc hərbi ekspertlərin təkliflərinə qəti şəkildə etiraz etdi. O, qeyd edirdi ki, hərbçilər siyasətdən baş çıxara bilmirlər. "Əgər Cənubi Qafqazı ordu göndərmədən saxlamaq mümkün deyilsə və əgər göndərilən silah itiriləcəksə, məntiqi şəkildə yardımdan imtina etmək lazımdır. Hərbçilərin qərarını beləmi başa düşmək lazımdır?",[1259] - deyə Lloyd Corc marşal Foşdan soruşurdu. Marşal Foş haqlı olaraq, Qafqazın bolşevik təcavüzündən xilas olunmasını ora ordu göndərilməsində görürdü. Beləliklə, marşal Foşun başçılığı ilə hərbi ekspertlər bilavasitə ordu göndərilməsi, Lloyd Corcun təsiri altında olan siyasətçilər isə silah, hərbi sursat verilməsi ilə yardım göstərilməsinə tərəfdar oldular. Azərbaycan və Gürcüstana hərbi kömək göstərməyin zəruriliyini qeyd etməklə yanaşı, Lloyd Corc aydınlaşdırmaq istəyirdi ki, bu respublikalar göndərilən yardımdan səmərəli istifadə edə biləcəklərmi, yaxud general Denikinə göndərilən yardım kimi bu da bolşevik ordusunun əlinə keçməyəcək? Konfransın sədri J.Klemanso hərbi ekspertlərə müraciət edərək soruşdu: hansı təhlükə bu ölkələri təhdid edir və Lloyd Corc tərəfindən qaldırılan məsələlərlə bağlı müttəfiqlər tərəfindən göstərilən yardımdan səmərəli istifadə etmək mümkün olacaqmı?[1260] Lord Kerzon məlumat verdi ki, o, hazırda gözləmə zalında olan Qafqaz respublikalarının nümayəndələri ilə geniş müzakirələr aparmışdır. Onlar hazırda bolşeviklərin hücum edəcəyindən bərk narahatdırlar. Onlar belə hesab edirlər ki, silah və sursat vaxtında çatsa, təhlükəni sovuşdurmaq olar. Əks təqdirdə, onların hökumətlərinin yıxılması qaçılmaz olacaq. Lord Kerzon dedi ki, hər ehtimala qarşı onları dinləmədən qərar qəbul etmək lazım deyildir. J.Klemanso bu ideyanı bəyəndi və qərara alındı ki, Azərbaycan və Gürcüstan nümayəndələrini dinləsinlər.[1261] Qafqaz nümayəndələri iclasa qatıldıqdan sonra Klemanso onlara müraciət edərək dedi: "Cənablar! Hazırda konfrans Azərbaycan, Gürcüstan və Dağıstana silah, sursat və ərzaq göndərilməsi məsələsini müzakirə edir. Təkliflər səsləndirildi ki, siz bolşeviklərin ölkələrinizə ehtimal olunan hücumunun mümkünlüyü və sərəncamınızda olan müdafiə vasitələri haqqında ətraflı məlumat verəsiniz. Biz bilmək istəyirik sizə ayırdığımız köməyi necə istifadə etmək niyyətindəsiniz. Biz sizə effektli yardım göstərməyə hazırıq, lakin bilmək istəyirik sizin ölkələriniz indi hansı vəziyyətdədir. Bu kömək bolşeviklərə qarşı effektli istifadə edilə biləcəkmi, yaxud Denikinlə olduğu kimi bolşeviklər bu silahı ələ keçirəcəklər və vəziyyət daha da ağırlaşacaq. Razılıq əsasında hər iki nümayəndənin adından İ.Sereteli çıxış etdi. O, qeyd etdi ki, Gürcüstan və Azərbaycanın müttəfiqlərin yardımına böyük ehtiyacı vardır. İ.Sereteli dedi: "Hər iki respublika eyni halda bolşeviklərin hücumunu gözləyir,

[1258] Ibid, p.903
[1259] Ibid, p.891
[1260] Ibid, p.893
[1261] Ibid, p.891



downloaded from KitabYurdu.az

lakin məlum deyildir biz müdafiə oluna biləcəyik, ya yox. Əgər Antantanın köməyi gəlsə, bolşeviklər hücumu təxirə sala bilərlər. Əgər biz bolşevik hücumundan müdafiə olunmaq istəyiriksə, bu halda yardıma böyük ehtiyacımız vardır." Jorj Klemansonun -"Siz ordu istəyirsinizmi?", - sualına İ.Sereteli - "bu daha yaxşı olar, bolşeviklər gec-tez Cənubi Qafqaza hücum edəcəklər", - deyə cavab verdi. İ.Sereteli dedi: "Bizim xalqlar belə düşünür: əgər bolşeviklər hücum edəndə Antanta kömək etsə, hücumu ötüşdürməyə ümid etmək olar. Lakin bu kömək çox mühümdür və təcili göstərilməlidir. Denikin bizim torpaqlarımıza soxulanda adamlar ona qarşı vuruşmaq istəyirdilər, lakin ümidsiz idilər. İndi xalq görür ki, onların müstəqilliyi tanınıb və bizi əmin edirlər ki, dağlılar da daxil olmaqla, bütün qüvvələri bolşeviklərə qarşı səfərbər edəcəklər və müstəqilliyi qoruyacaqlar. Biz müharibə istəmirik. Biz, hətta mümkün olsa, bolşeviklərlə sazişə gəlməyə belə hazırıq." Jorj Klemanso İ.Serelelidən soruşdu: "Siz həqiqətən bolşeviklərlə saziş imzalaya bilərsiniz?" Sereteli cavab verdi ki, "bəli, lakin onlar bizə hücum etməyəcəklərinə və xalq içərisinə nifaq salmayacaqlarına təminat verməlidirlər." O, əlavə etdi ki, "əgər biz güclü olsaq və Antanta bizə kömək etsə, bolşeviklər bizim istiqlaliyyətimizi tanımaq məcburiyyətində qalacaqlar və öz niyyətlərindən əl çəkəcəklər." Sonra Lloyd Corc Azərbaycanın silahlı qüvvələri haqqında ətraflı sorğu-sual aparmağa başladı. Azərbaycan nümayəndəliyinin müşaviri M.Məhərrəmov məlumat verdi ki, zəruri olan silah və sursat olarsa, qısa müddətdə Azərbaycanda 100 min nəfər adamı orduya səfərbərliyə almaq olar. Lloyd Corcun "bu gün sizin ordunuz varmı?", - sualına cavab olaraq M.Məhərrəmov dedi: "Bizim kiçik ordumuz var, azərbaycanlı generalların komandanlığı altında yaxşı təlim görmüş 50 minlik ordu var. Lakin 10-12 min əsgərin silahı var." Lloyd Corc eyni sualı İ.Sereteliyə verdikdə Sereteli dedi ki, 15 min nəfərdən ibarət olan nizami ordu 16 batalyondan ibarət olub, yaxşı təlim görmüşdür. Əgər bizim silahımız olsa, iki həftə ərzində 50 min nəfər səfərbər edə bilərik. Lord Kerzon söz alaraq, Azərbaycan nümayəndələrinə belə bir sual verdi: "Məndə olan məlumata görə, Azərbaycan əsgərlərinin bir hissəsi türklərdir. Türk əsgərlərinin olması gələcəkdə bolşeviklərə qarşı döyüşə mane olmazmı? M.Məhərrəmov dedi ki, Azərbaycan Rusiya tərəfindən işğal edildiyindən əhalinin böyük bir hissəsi kömək üçün Türkiyəyə müraciət etdi. Onda türk ordusu Qafqazı azad etdi, bu ordunun zabitlərinin müəyyən hissəsi keçmiş Azərbaycan və Dağıstan sakinləri idi. Türklər Qafqazı tərk etdikdən sonra Azərbaycanda qalan türk zabitlərinin sayı 50 nəfərdən artıq deyillər, onlar qafqazlıdırlar və biz əminik ki, onlar da bütün xalq kimi bizim azadlığımız uğrunda bolşeviklərə qarşı vuruşacaqlar.[1262] İclasda çıxış edən Ə.Topçubaşov qeyd etdi ki, Azərbaycan Respublikasının bolşeviklər və Denikinin əleyhinə heç bir niyyəti yoxdur. O, Rusiyanın daxili işlərinə qarışmaq fikrində deyildir. Lakin Azərbaycanın müstəqilliyi üçün təhlükə törədən hər iki qüvvədən

---

[1262] Ibid, p.895-896



downloaded from KitabYurdu.az

özünü müdafiə etmək üçün bütün imkanlardan, ilk növbədə isə müttəfiqlərin yardımından səmərəli istifadə etməyi zəruri hesab edir. Əli Mərdan bəyin fikrincə, müttəfiqlər Ənzəlidə olan ingilis donanması vasitəsi ilə Bakının müdafiəsinə əhəmiyyətli köməklik göstərə bilərdilər. Ə.Topçubaşov Şimaldan gələn ordu ilə Cənubi Qafqaz respublikaları arasında bufer rolu oynayan Dağlılar Respublikasının da Müttəfiqlər tərəfindən de-fakto tanınmasını təklif etdi.[1263] Ə.M.Topçubaşovun bu sözlərindən sonra Lloyd Corc Denikinin Dağıstana hücumunun səbəbləri ilə maraqlandı. Sereteli dedi ki, Denikin Dağıstana və bütün Cənubi Qafqaza Rusiya əyaləti kimi baxır. F.Nitti bilmək istədi ki, Qafqaz dövlətlərinin tanınması bolşeviklərə qarşı müqavimət mühiti yaradacaqmı? İ.Sereteli bu sualı müsbət cavablandırdı və əlavə etdi ki, bu tanınma de-yure ilə tamamlansa, müqaviməti xeyli artıra bilər. M.Məhərrəmov söhbətə qoşulub məlumat verdi ki, Azərbaycan hökuməti Denikin donanmasının bölüşdürülməsinin əleyhinədir. İndi Denikin ordusu məğlub olduqda, matroslar arasında bolşeviklərə rəğbət yaranmışdır. Yəqin ki, onlar bolşeviklər tərəfinə keçəcəklər, bu da Bakı üçün və bütün Cənubi Qafqaz üçün təhlükə yaradacaq. Lloyd Corc maraqlandı ki, əgər silah gəlsə, Bakını müdafiə etmək olarmı? Bakının müdafiəsi üçün nə qədər adam səfərbər etmək olar? M.Məhərrəmov dedi ki, Bakıda artıq güclü qarnizon vardır. Klemanso bu qarnizonun sayını dəqiqləşdirmək istədikdə M.Məhərrəmov 7 min rəqəmini səsləndirdi. Sonrakı müzakirələr Qafqaz respublikalarının nümayəndələri olmadan davam etdirildi.[1264] İclasın bu mərhələsində U.Çörçil marşal F.Foşdan soruşdu ki, o, Qafqazın müdafiəsi məsələsinə müstəqil məsələ kimi, yoxsa bolşeviklərə qarşı mübarizə məsələsinin bir hissəsi kimi baxır. Marşal Foş cavab verdi ki, o, bu məsələyə bolşeviklərə qarşı mübarizənin bir hissəsi kimi baxır. U.Çörçil Denikinin, yoxsa bolşeviklərin Qafqaz üçün daha təhlükəli olduğunu soruşduqda Ferdinand Foş bolşeviklərin daha təhlükəli olduğunu bildirdi və dedi ki, ilk növbədə, bolşeviklərin cənuba doğru hərəkətini dayandırmaq, yeni yaranmış dövlətləri gücləndirmək lazımdır. O, Şərqi Avropa və Cənubi Qafqaz respublikalarının bolşevizmə qarşı ittifaqının yaradılmasını təklif edirdi. Marşal Foşun bu sözlərindən sonra iclas hərbi ekspertlərin iştirakı olmadan öz işini davam etdirdi.[1265]

İclasın gedişində lord Kerzon Ermənistanın Azərbaycan və Gürcüstanla birlikdə tanınmamasının səbəblərini izah etdi. O, dedi: mən Azərbaycan və Gürcüstanın tanınması təklifinə görə şəxsən məsuliyyət daşıyıram. Mən ona görə, Ermənistanı təklif etmədim ki, Türkiyə ilə sülh müqaviləsi imzalanmadığından Ermənistanın tanınması məsələsi məqsədə uyğun sayılmırdı. Amma buna baxmayaraq, bu gün Ermənistanın tanınması üçün əsas var. Bugünki mövcud Ermənistan, Gürcüstan və Azərbaycan kimi paytaxtı İrəvan olmaqla keçmiş

[1263] Ibid, p.901-902
[1264] Ibid, p.892-895
[1265] Ibid, p.897-898



downloaded from KitabYurdu.az

Rusiyanın ucqarlarında yerləşir. Bundan əlavə, Ermənistan dövləti Cənubi Qafqazın digər dövlətləri kimi bolşevizmə qarşı vuruşacağına vəd verir. Ümid edirəm ki, bu tanınma Türkiyə ilə müqavilədən sonra Ermənistanın sərhədlərinin tanınmasına mane olmayacaqdır. J.Klemanso Ermənistanın de-fakto tanınması məsələsini də səsə qoydu və məsələ müsbət həll olundu. Sonra Lloyd Corc məlumat verdi ki, ABŞ konqresi Ermənistana 25 milyon dollar məbləğində köməklik göstərməyi müzakirə edir. Onun fikrincə, bu məbləğ Qafqaz dövlətləri arasında bölünsəydi, daha yaxşı olardı. Qafqaza ordu göndərməklə bağlı Lloyd Corc dedi: Marşal Foş Qafqaza üç diviziya ordu göndərilməsinin zəruriliyini bəyan etdi. Tamamilə aydındır ki, Britaniya hökuməti bu diviziyaları ayıra bilməyəcəkdir. Jorj Klemanso həmin anda əlavə etdi ki, biz də bunu edə bilmərik. F.Nitti də qeyd etdi ki, biz də heç bir ordu göndərə bilmərik. Bununla da fikir mübadiləsi başa çatdı. İclasa yekun vuran Lloyd Corc Cənubi Qafqaz respublikalarına təcili şəkildə silah, hərbi sursat və ərzaq göndərilməsi ilə yardım göstərilməsini vacib hesab etdi. Azərbaycan və Gürcüstana ordu göndərmək məsələsinə gəldikdə isə o, etiraf etdi ki, bu mümkün deyildir. Cənubi Qafqaz respublikaları özləri öz hərbi qüvvələrini möhkəmləndirmək üçün tədbirlər görməlidirlər və Bakının müdafiəsi xüsusilə möhkəmləndirilməlidir. Lloyd Corc Ə.Topçubaşovun Dağlılar Respublikasının de-fakto tanınması barəsindəki təklifini müdafiə etdi.[1266] Eyni zamanda o, açıq şəkildə bəyan etdi ki, bolşeviklərə, ancaq Bakı lazımdır. Göndəriləcək silahın bolşeviklərin əlinə keçmə təhlükəsi ilə bağlı Lloyd Corc dedi ki, onsuz da bolşeviklərin əlinə böyük həcmdə silah keçib, indi 25 min və ya 50 min silahın onların əlinə keçməsi heç nəyi dəyişmir. Nəticədə müzakirə edilən məsələlərlə bağlı Ali Şura Qafqaz məsələsinə dair dörd bənddən ibarət qərar qəbul etdi: 1. Ermənistan və Dağlılar İttifaqı de-fakto tanınmalıdır. Bu qərar Türkiyə məsələsi ilə bağlı baxılacaq, Ermənistanın sərhədləri məsələsinə toxunmur; 2. Müttəfiq hökumətləri Cənubi Qafqaz respublikalarına ordu göndərmək imkanına malik deyildirlər; 3. Müttəfiqlər Cənubi Qafqaz respublikalarına silah, hərbi sursat və ərzaq göndərməklə köməklik göstərəcəklər; 4. Marşal Foşdan və feldmarşal Vilsondan xahiş edilsin ki, Cənubi Qafqaz respublikalarına göndəriləcək hərbi materialların nədən ibarət olması və hansı yolla çatdırılması məsələsinə baxsınlar.[1267] Bu iclasla nəinki Paris Sülh konfransı öz işini, eyni zamanda onun sonuncu iclasına sədrlik edən Fransanın Baş Naziri Jorj Klemanso da öz siyasi fəaliyyətini başa çatdırdı. 1929-cu ildə J.Klemanso vəfat edən zaman Azərbaycanın istiqlaliyyətinin tanınmasındakı roluna və xidmətlərinə görə Ə.M.Topçubaşov Azərbaycan Sülh nümayəndəliyinin rəhbəri kimi Fransa hökumətinə səmimi bir başsağlığı verdi. Orada deyilirdi: "Fransanın böyük siyasi xadimlərindən biri kimi Jorj Klemansonun vəfatı bizi dərindən

[1266] Mir Yacoub. Le probleme du Caucase, p.123
[1267] Papers Relating to the Foreign Relations of the United States. The Paris Peace Conference, vol.IX, p.902



downloaded from KitabYurdu.az

kədərləndirmişdir. Biz azərbaycanlılar həmişə xatırlayacağıq ki, Azərbaycanın müstəqilliyi Klemansonun sədrliyi ilə tanınmışdır.[1268]

Qərar qəbul edildikdən sonra İtaliyanın Baş naziri F.Nitti bildirdi ki, İtaliya rəsmi şəkildə Qafqaz respublikalarına hərbi material göndərə bilməz, çünki İtaliya parlamenti Rusiyanın daxili işlərinə müdaxilə etməmək haqqında qərar qəbul etmişdir. Lakin Nitti, Lloyd Corc və Klemansonun təzyiqi ilə Qafqaz respublikalarına qeyri-rəsmi yolla silah və hərbi sursat göndərməyə razılıq verdi. Eyni zamanda F.Nittiyə cavab olaraq, Lloyd Corc iclası yekunlaşdırarkən dedi ki, Kolçak və Denikindən fərqli olaraq de-fakto tanınan Azərbaycana və Gürcüstana göstərilən hərbi yardıma Rusiyanın daxili işlərinə müdaxilə kimi baxıla bilməz.[1269]

Beləliklə, 1920-ci ilin yanvarında Paris Sülh konfransında Azərbaycan Respublikasının siyasi cəhətdən tanınması dəyişən siyasi şəraitlə yanaşı, Ə.Topçubaşov başda olmaqla Azərbaycan nümayəndələrinin uğurlu diplomatik fəaliyyətinin nəticəsi hesab edilməlidir. Böyük çətinliklər və məhrumiyyətlər hesabına müstəqilliyin tanıdılması uğrunda mübarizəni Ə.Topçubaşov Parisdən Azərbaycan hökumətinin başçısı N.Usubbəyova hələ, 1919-cu ilin noyabrında göndərdiyi məktubda belə dəyərləndirirdi: "Siyasət qədər çox dəyişən və elastik heç nə yoxdur. Elə buna görə də, onun qabarması və çəkilməsi həmişə gözlənilməzdir. Lakin elə bir dövr başlanır ki, bizim də azad, müstəqil yaşamaq ümidlərimiz möhkəmlənir və gerçək bir formaya düşməyə can atır. Biz heç vaxt ümidimizi itirmirik, hətta keçmiş Rusiyanın bütün xalqları üçün əlverişsiz anlarda belə, hətta o vaxt bizə əbəs yerə zəhmət çəkdiyimiz deyiləndə belə ümidimizi üzməmişdik. Ona görə belə hərəkət edirdik ki, xalqımızın müstəqil yaşaya biləcəyinə və ən nəhayət, nəyin bahasına olursa-olsun istiqlaliyyət əldə edəcəyimizə inanırıq. Bununla belə biz başqa kiçik xalqların təsirli mübarizələrini də yaddan çıxarmamışıq. O xalqlar yarım il, bir il ərzində deyil, on illərlə və daha böyük zaman, uzun illər ərzində, özləri üçün azadlıq əldə etmək naminə çalışıblar və çox böyük şəxsi və maddi qurbanlar bahasına istəklərinə nail olublar. Belə dəyərli xoşbəxtliyin qarşısından biz heç vaxt çəkilmirik və çəkilməyəcəyik də, çünki özümüz üçün buna bərabər başqa heç nə bilmirik. Biz arzu edirik ki, hamı, bizim bütün xalqımız dərk etsin ki, bu aylarda, bu günlərdə biz azad siyasi-ictimai və iqtisadi həyata qadir olmağımızın sübutu yolunda imtahan vermək istəyirik."[1270]

---

[1268] Président de la Délégation de Paix de la République d'Azerbaïdjan A.M.Toptchibacheff - Le Cabinet a envoyé carte 29 novembre 1929.// Ministère des Affaires Etrangère de France, (MAE) Archives Diplomatique, Correspondance politique et commerciale, 1914-1940 Série «Z» Europe 1918-1940 Sous-Série URSS Russie-Caucase (Azerbaïdjan) Direction des Affaires Politiques et Commerciales 1 avril 1920-31 décembre 1929, vol. 639, folio 307

[1269] Documents on British Foreign Policy, vol.II, p.924

[1270] Azərbaycan Respublikasının Paris Sülh konfransındakı nümayəndəliyinin başçısı M.Topçubaşovun Nazirlər Şurasının sədrinə məktubu. 06-10.11.1919.//ARDA, f.970, s.l, i-146, v.27-28



downloaded from KitabYurdu.az

Müttəfiqlərin Ali Şurası tərəfindən Azərbaycanın istiqlaliyyətinin tanınması barədə məlumatı Qafqazda olan İngiltərənin səlahiyyətli nümayəndəsi Oliver Uordrop Azərbaycan hökumətinə bildirdi. Yanvar ayının 12-də o, Tiflisdən Bakıya göndərdiyi teleqramda yazırdı: "Lord Kerzon məni vəkil etmişdir Azərbaycan hökumətinə bildirim ki, dünən o, Parisdə təcili olaraq Azərbaycanın və Gürcüstanın de-fakto tanınması barədə təklif vermişdir. Müttəfiqlərin Ali Şurası yekdilliklə bu qərarı qəbul etmişdir."[1271] Azərbaycan nümayəndələrinin respublikanın müstəqilliyinin de-fakto tanınması barədə Parisdən göndərdikləri məlumat da bu məktubdan az sonra respublika hökumətinə yetişdi.[1272] Yanvar ayının 18-də isə İtaliyada olan Azərbaycan hərbi missiyasının başçısı general İ.Usubov Romadan Azərbaycan hökumətinin sədrinə və müdafiə nazirinə göndərdiyi teleqramda Azərbaycan Respublikasının tanınması haqqında qərarın yanvarın 17-də İtaliya Xarici İşlər Nazirliyində ona təqdim edildiyini bildirirdi."[1273]

Yanvar ayının 12-də O.Uordropun teleqramı alınan kimi hökumətin təcili iclası çağırıldı. Paris Sülh konfransının Ali Şurası tərəfindən Azərbaycanın istiqlaliyyətinin tanınması kimi böyük hadisəni qeyd etmək üçün xüsusi tədbirlər müəyyən edildi. Yanvar ayının 13-də bu mühüm hadisə ilə bağlı hökumət məlumatı elan edildi və hökumət teleqramı ilə yanvar ayının 14-də bütün Azərbaycanda bayram şənliklərinin keçirilməsi barədə məlumat verildi. Respublikanın paytaxtında mitinq və nümayişlərin, Azərbaycan ordusunun hərbi paradının və Azərbaycan Parlamentinin təntənəli iclasının keçirilməsi haqqında qərar qəbul edildi. Yanvar ayının 14-nün bütün Azərbaycanda qeyri-iş günü olduğu bildirildi.[1274] Yanvarın 14-də respublikanın baş naziri N.Usubbəyovun "Azərbaycan vətəndaşlarına" müraciəti elan edildi. Orada deyilirdi: "Vətəndaşlar! 1918-ci sənənin mayis ayının 28-də Azərbaycan millətinin əzmü qərarı ilə müstəqil elan edildi. Şiddətli hadisələr və fəlakətlər içərisində cümhuriyyət doğmuşdu. Bütün məmləkət qanlı iğtişaş və fəlakətə məruz qalaraq təxrib və təxriş edilməkdə idi. Kəndi müqəddəratını təyin etmiş və öz müqəddəs hüququna imal etmiş millət az bir zamanda iğtişaşa xitam verib, dövlət əsasını müvəffəqiyyətlə qurdu. Gələcəkdə milli qayə və amalımızın felən icrayə qonulması üçün müşkülata baxmayaraq, Azərbaycan öz hissəsinə düşən ağır imtahanlardan şərəflə çıxmağa müvəffəq oldu. Müstəqil həyata və kəndisini idarəyə müqtədir olduğunu göstərən millət kəndi iradəsilə hürr və demokratik yeni Azərbaycan Cümhuriyyətinin təsis və davamına təntənəli surətdə müvəffəq oldu. Azərbaycan istiqlaliyyəti haqqında böyük müttəfiqlər Şurayi Alisi tərəfindən müttəhimən rəy qəbul edilmişdir.

---

[1271] Tiflisdə Britaniya Ali komissarı Uordropun Azərbaycan Respublikasının Gürcüstanda diplomatik nümayəndəsi F.Vəkilova məlumatı. 12.01.1920. //ARDA, f.897, s.l, i.69, v.13

[1272] Ə.M.Topçubaşovun N.Usubbəyova təcili diplomatik məlumatı. 12.01.1920. //ARDA, f-897, s.l, i.69, v.18

[1273] General İ.Usubovun N.Usubbəyova teleqramı. 18.01.1919. //ARDA, f.970, s.l, i.157, v.48

[1274] Celebration de l'independence de la Republique d'Azerbaidjan.// Bulletin d'Information de L'Azerbaidjan. Paris, 1920, 15 Fevrier, №9, p.4-5



downloaded from KitabYurdu.az

Azərbaycan bütün hüquqa malik olaraq, Qərbin pişrov millətləri ailəsinə daxil olması onun tarixində ən işıqlı bir gündür. Bu gündən etibarən ruhən və mənən tərəqqi edərək, millətin qüvveyi-mənəviyyəsi gün-gündən nəşvü nüma edəcəyinə şübhə yoxdur. Yenidən nə növ maneə və xətalar baş versə də, hürr və müstəqil məmləkətin səadətini təmin etmək yolunda bütün vətəndaşların yekvücud olaraq müavintət və müzahirətdə bulunacaqlarına hökumət iman ediyor. Yaşasın müstəqil Azərbaycan xalqı".[1275]

Yanvar ayının 14-də saat 10-da Bakıda bayram şənlikləri başlandı, saat 12-də isə Parlamentin təntənəli iclası açıldı. Deputatlardan başqa bütün hökumət üzvləri, İngiltərə, Gürcüstan, Estoniya və Polşa diplomatik nümayəndələri də iclasda iştirak edirdilər. Sədrlik edən Həsən bəy Ağayev parlamentin iclasını açaraq, sözü 1919-cu ilin dekabr ayının 24-də yenidən xarici işlər naziri təyin edilmiş Xan Xoyskiyə verdi. Azərbaycan istiqlaliyyətinin elan edilməsi və onun böyük dövlətlər tərəfindən tanınması uğrunda mübarizənin ağırlığını öz çiyinlərində çəkənlərdən biri Fətəli Xan Xoyski öz qısa təbrik nitqində dedi: "1918-ci il may ayının 28-də Azərbaycan xalqı öz istiqlaliyyətini elan etdi. Lakin bunu elan etmək hələ az idi. Bütün dünyaya sübut eləmək lazım idi ki, biz müstəqil həyata layiqik. Və ötən il yarımda Azərbaycan xalqı Avropaya sübut etdi ki, o, müstəqil yaşaya bilər, müstəqil idarə edə bilər. Azərbaycan xalqının həyat qabiliyyətinə inanan Avropa bizim müstəqilliyimizi tanımağı lazım bildi. Birinci Azərbaycan hökuməti təşkil olunduğu vaxt, onun başında mən dururdum, indi isə bizim respublikamızın müstəqilliyinin tanınması haqqında xəbəri sizə çatdırmağı özüm üçün böyük xoşbəxtçilik hesab edirəm."[1276] Parlamentin iclasına sədrlik edən Həsən bəy Ağayev öz çıxışında göstərirdi ki, Azərbaycan Respublikasının on doqquz ay yarımlıq mövcudiyyətindən sonra Antanta onun müstəqilliyini tanıdı. "Bu bayram tək bizim bayramımız deyil, bütün türk xalqının bayramıdır. Sübut etmək lazım idi ki, biz müstəqil həyata layiqik. Avropa bizim dövlətimizdə olan nümayəndələri vasitəsi ilə bizim xalqın həyat qabiliyyətinə inandı və bizim müstəqilliyimizi tanıdı. Böyük qurbanlar bahasına biz buna nail olduq."[1277] Sonra o, müstəqilliyin tanınması ilə bağlı Gürcüstan Milli Məclisi, Ermənistan hökuməti, Gürcüstan müsəlman Milli Şurası, Qafqazda Alman mərkəzi Şurası, Azərbaycanda yaşayan polyakların, Norveç konsulunun, Azərbaycanda yaşayan Krım tatarları və digərlərinin göndərdikləri təbrik teleqramlarını oxudu.[1278] İclasda M.Ə.Rəsulzadə, A.B.Səfikürdski, S.Ağamalıoğlu, M.A.Quxman, S.A.Vonsoviç, A.D.Malxazyan,

---

[1275] Aux Citoyens de l'Azerbaidjan.// Bulletin d Information de L'Azerbaidjan. Paris, 1920, 15 Fevrier, №9, p.4; İstiqlal, 1920, 18 yanvar.

[1276] Au Parlement. Seance solennalle du 14 Janvier.// Bulletin d'Information de L'Azerbaidjan. Paris, 1920, 15 Fevrier, №9, p.5-6; Yanvar ayının 14-də keçirilən Parlamentin təntənəli iclasının stenoqramı. 14.01.1920. //ARDA, f.895, s.l, i.259, v.3

[1277] Yenə orada, v.6

[1278] Au Parlement. Seance solennalle du 14 Janvier.// Bulletin d'Information de L'Azerbaidjan. Paris, 1920, 15 Fevrier, №9, p.6



downloaded from KitabYurdu.az

V.A.Bakaradze təbrik nitqi söylədilər. Parisdəki Azərbaycan nümayəndələri M.Ə.Rəsulzadənin parlamentin tarixi iclasındakı istiqlaliyyətin tanınması ilə bağlı parlaq nitqinin tam mətnini fransız dilinə tərcümə edib, informasiya bülletenində dərc etmişdilər.[1279] İclasın sonunda Azərbaycanın müstəqilliyinin tanınması münasibəti ilə amnistiya elan etmək haqqında hökumətin qərarını ədliyyə naziri Xəlil bəy Xasməmmədov oxudu.[1280] Parlamentin təntənəli iclasından sonra müstəqilliyin tanınması ilə bağlı Azərbaycan xarici işlər naziri Xan Xoyski qəbul keçirdi. Baş nazir N.Usubbəyov, parlamentin sədrinin müavini H.Ağayev, bütün nazirlər və millət vəkilləri, Bakıdakı xarici nümayəndəliklər qəbulda iştirak etdilər. Fətəli xan Azərbaycanın həyatında baş vermiş bu tarixi hadisə ilə bağlı təbrik nitqi söylədi.[1281]

Bakı ilə yanaşı, Gəncədə də təntənəli istiqlal bayramı keçirildi. "Azərbaycan" qəzeti yazırdı: "Yanvarın 13-də Gəncə şəhərinə qeyri-rəsmi bir xəbər çatdı ki, Azərbaycan istiqlalı Versal Ali Şurası tərəfindən təsdiq edilmişdir. Bu xəbər üzərinə hər kəs bir-birini təbrik ilə qarşılayırdı. Axşama doğru rəisi-vükəla həzrətlərinin rəsmi teleqrafları alınmış olduğundan bütün şəhər sevinirdi... 14 yanvar Gəncədə çox az görülmüş günlərdən idi. Saat 1-də Gəncə Bələdiyyə idarəsinin fövqəladə bir iclası oldu... Gəncə valisi Xudad bəy Rəfibəyli cənabları əvvəlcə rusca, sonra türkcə olaraq, hökumət rəisi tərəfindən gələn rəsmi teleqramı oxudu. Təsdiq xəbərini yetirən bu sevinc teleqrafı sürəkli alqışlarla qarşılandı. Müqəddiməyi təşkil edən bələdiyyə rəisi müavininin nitqindən sonra Axundzadə Cavad, Səfikürdski Ağalar bəy, Məşədi Yusif Fərzxanov, Xuluflu Vəli və sevgili ədibimiz Köçərli Firudin bəy əfəndi tərəfindən nitqlər söylənib təbriklər edildi."[1282]

İstiqlaliyyətin tanınması münasibətilə Azərbaycan mətbuatında xeyli yazılar getdi. Yanvar ayının 14-də rəsmi hökumət orqanı olan "Azərbaycan" qəzeti yazırdı ki, bu gündən etibarən Azərbaycan və Gürcüstan respublikaları xalqların beynəlxalq ailəsinə daxil olurlar.[1283] "İstiqlal" məcmuəsi yanvar ayının 18-də yazırdı: "Çoxdan gözlənilən bayram gəldi. Böyük hadisə bərpa oldu. Ələski ildən bəri millətin bütün əqsamı tərəfindən min müşkülata təhəmmül edilən böyük mübarizə müvəffəqiyyət qazandı. Avropanın və yalnız Avropanın deyil, bəlkə də bütün dünyanın idarəsini əllərində bulduran böyük dövlətlər tərəfindən cümhuriyyətimizin istiqlalı tanındı: ...Tarixin içində olduğumuzdan keçirdiyimiz bayramın əzəmətini, bəlkə də lüzumunca təqdir edəmiyoruz... Fikrən kəndimizi əlli sənə bundan sonra bir zamanda təsəvvür edə bilsək, o zaman nə kibi bəxtiyar adamlar olduğumuzu, nə şanlı və şərəfli bir zamanda dünyaya gəldiyimizi oxurda

---

[1279] Au Parlement. Seance solennalle du 14 Janvier. Discours de M.Rassoul-Zade.// Bulletin d'Information de L'Azerbaidjan. Paris, 1920, 15 Fevrier, №9, p.6-7

[1280] Yanvar ayının 14-də keçirilən Parlamentin təntənəli iclasının stenoqramı. 14.01.1920. //ARDA, f.895, s.l, i.259, v.16

[1281] Азербайджан, 1920, 16 января.

[1282] Azərbaycan, 1920, 22 yanvar.

[1283] Азербайджан, 1920, 14 января.



downloaded from KitabYurdu.az

qibtə edəriz. Əvət, əslafımızın heç şübhəsiz böyük həyəcanlar və qeyrətlərlə oxuyacağı bu dövrü-tarixdə bulunuşumuzla iftixar edə biləriz."[1284]

İstiqlaliyyətin dünya siyasətini müəyyən edən dövlətlər tərəfindən tanınması Azərbaycan türklərinin öz gücünə inamını, sabaha ümidini artırmışdı. Azərbaycanın istiqlaliyyətinin Paris Sülh konfransının Ali Şurası tərəfindən tanınması münasibəti ilə M.Ə.Rəsulzadə yazırdı: "Mülki və siyasi hüquqlardan məhrum edilmiş, dövlətin idarəsinə yaxın belə buraxılmayan Şərqin zülm altında inləyən xalqlarından biri ilk imkan düşən kimi bütün çətinliklərə baxmayaraq, mədəni cəmiyyət yaradılmasında elə ləyaqət nümunəsi göstərdi ki, onun bu qabiliyyəti sayəsində Azərbaycan Cümhuriyyəti müttəfiqlərin və bütün dünyanın diqqətini cəlb etdi və beynəlxalq həyata daxil oldu. Müttəfiq dövlətlərin Ali Şurasının 1920-ci il yanvarın 11-də toplanmış iclası Azərbaycan Cümhuriyyətini de-fakto tanıdı. Rusiya imperiyasının xarabalıqları üzərində yaradılmış Cümhuriyyətlər arasında Azərbaycan Avropanın inandığı yeganə müsəlman qurumu idi. Bu yeni türk dövləti bütün müsəlman dünyasında yaradılmış yeganə türk cümhuriyyəti idi. Türk dünyasında və türk tarixində bu böyük və xoş məramlı hadisəni yalnız onunla bilavasitə bağlı olan Azərbaycan bayram etmirdi."[1285] Beləliklə, 1918-ci ilin 28 mayı və 15 sentyabrından sonra Azərbaycanın taleyində və tarixində üçüncü mühüm hadisə baş verdi. Azərbaycanın müstəqilliyinin Paris Sülh konfransı tərəfindən tanınması gənc respublikanın dünya birliyinə qovuşması, geniş əməkdaşlıq sisteminə daxil olması üçün böyük imkanlar açdırdı. Elə bu məramla da 1920-ci ilin yanvar ayının 29-da Azərbaycan nümayəndə heyətinin başçısı Ə.M.Topçubaşov və Gürcüstan heyətinin başçısı N.Çxeidze ölkələrinin bolşevizmə qarşı birgə müdafiə olunacağı barədə birgə bəyanatla çıxış etdilər.[1286] Fevral ayının 10-da isə hər iki nümayəndəliyin başçıları Birləşmiş Ştatların Parisdə olan səfirinə xüsusi məktubla müraciət edib, Vaşinqtonu Azərbaycan və Gürcüstanın müstəqilliyinin tanınması barədə Versal Ali Şurasının qərarına qoşulmağa çağırdı.[1287] Lakin bu zaman ABŞ Birinci Dünya müharibəsinin sonunda başlanmış təcridçilikdən beynəlmiləlçiliyə keçidin acı məğlubiyyətini yaşayırdı. Həmin keçidin banisi sayılan Vudro Vilson təcridçilərin böyük müqaviməti ilə qarşılaşmışdı.

---

[1284] İstiqlal, 1920, 18 yanvar.

[1285] M.Ə.Rəsulzadə. Azərbaycan Cümhuriyyəti, s.57

[1286] La defense de l' Azerbaidjan et de la Georgie.// Bulletin d'Information de L'Azerbaidjan. Paris. 1920, 1 Fevrier, №8, p.2-3

[1287] La reconnaissance des Republiques Transcaucasiennes. // Bulletin d'Information de L'Azerbaidjan. Paris, 1920, 15 Mars, №11, p.l



downloaded from KitabYurdu.az

## XIII FƏSİL

### Aprel işğalı ərəfəsində Azərbaycanın beynəlxalq vəziyyəti

Azərbaycanı və Gürcüstanı yalnız silah və hərbi sursat göndərməklə müdafiə edəcəyi barədə Versal Ali Şurasının qərarının elan edilməsi bolşevik təcavüzü üçün əlverişli şərait yaradırdı. Çünki onlar eyni ilə bu qaydada müttəfiqlərdən yardım alan Kolçak, Denikin və digər ağqvardiyaçı generalları məğlub edə bilmişdilər. Qafqazı, ilk növbədə isə Azərbaycanı və Gürcüstanı bolşevik təcavüzündən xilas etmək üçün bura ordu göndərilməsi zəruri idi. 1920-ci ilin əvvəllərində Denikinin məğlub olması, Sovet Rusiyasının fəallaşması, Azərbaycana qarşı erməni təcavüzünün baş qaldırması fonunda yaranmış vəziyyətin araşdırılması belə bir qənaətə gəlməyə əsas verir ki, yanvar ayının 19-da müttəfiqlərin Ali Şurasının yalnız silah və hərbi sursat göndərmək yolu ilə Azərbaycanı və Gürcüstanı müdafiə etmək haqqında qərarı bolşevikləri fəal addımlar atmağa sövq etdi. Həmin iclasın sənədləri ilə tanışlıq göstərir ki, marşal Ferdinand Foş başda olmaqla hərbi ekspertlər şurası və peşəkar hərbçilərin hamısı Azərbaycana və Gürcüstana ordu göndərilməsini zəruri hesab edirdilər. Yalnız Britaniya Baş naziri Devid Lloyd Corc başda olmaqla, siyasətçilərin təzyiqi Azərbaycana və Gürcüstana münasibətdə belə yarımçıq qərarın qəbul edilməsi ilə nəticələnmişdi. Halbuki Cənubi Qafqaza ordu göndərilməsinə o qədər labüd baxılırdı ki, hətta Paris qəzetləri düz iki həftə bu gün-sabah Qafqaza desant çıxarılacağından yazırdı. Yanvar ayının 31-də Azərbaycan və Gürcüstan nümayəndələri "Le Temps" qəzetində çıxış edərək, bu məlumatların həqiqətə uyğun olmadıqlarını bildirdilər.[1288]

1919-cu ilin payızından etibarən Sovet Rusiyası Antanta ölkələrinin Azərbaycana və Gürcüstana ordu göndərib-göndərməyəcəyi ilə ciddi şəkildə maraqlanırdı. RSFSR Xalq Xarici İşlər Komissarlığının Kopenhagendəki müvəkkili hələ 1919-cu ilin axırlarında ingilis nümayəndəsi O`Qredi ilə danışıqlar aparan M.M.Litvinov yanvar ayının 26-da G.V.Çiçerinə göndərdiyi teleqramda bildirirdi ki, İngiltərə hökuməti güclü şəkildə Qafqaza ordu göndərmək barədə yayılmış şayiələri təkzib edir.[1289] Belə bir şəraitdə Cənubi Qafqaz respublikalarına hərtərəfli hərbi yardım göstərmək olduqca zəruri idi. Məşhur ingilis tarixçisi Edvard Karr haqlı olaraq yazır ki, Parisdə deyilən gözəl sözlərin Cənubi Qafqaz üçün o qədər də əhəmiyyəti yox idi. Xarici yardım olmadan və hətta öz aralarında münasibətləri tənzim edən saziş bağlamadan Cənubi Qafqazın müstəqil respublikaları yaşaya bilməzdilər.[1290]

---

[1288] Le Temps, 1920, 31 Yanvier
[1289] Документы внешней политики СССР, т.1, М., 1958, с.331
[1290] Эдвард Карр. Большевикская революция 1917-1923 гг., т.1, II. М., 1990, с.275



downloaded from KitabYurdu.az

Müttəfiqlərin hərbi ekspertlər şurasının sorğusuna əsasən, Azərbaycan Xarici İşlər Nazirliyi, hərbi nazirliklə birlikdə Azərbaycanın müdafiəsinin təşkil edilməsi və Azərbaycan ordusunun ehtiyacları haqqında memorandum hazırlayıb yanvar ayının axırlarında onlara göndərdilər. Memorandumda Azərbaycanın istiqlaliyyətinin tanınmasının tarixi əhəmiyyətli bir hadisə olduğu göstərilməklə yanaşı, qeyd edilirdi ki, əgər Azərbaycanın müdafiəsi vaxtında və lazımi səviyyədə təşkil edilməzsə, bütün çəkilən zəhmət hədər gedə bilər. Sənəddə göstərilirdi ki, Azərbaycanın müdafiə qabiliyyətini möhkəmləndirmək üçün ona siyasi-mənəvi, hərbi-strateji, maliyyə-iqtisadi baxımdan müttəfiqlər tərəfindən yardım göstərilməlidir. Azərbaycan üçün ən ciddi təhlükənin Şimaldan və Xəzər dənizi istiqamətində olacağını nəzərə alaraq təklif edilirdi ki, onsuz da son günlərini yaşayan Denikin könüllüləri Dağıstanın ərazisindən çıxarılmalı və Dağlıların mübarizəsinə yardım göstərilməlidir. Azərbaycan Respublikası da öz tərəfindən Dağlılar Respublikasına yardım göstərməyə hazır olduğunu bildirirdi.[1291] Dağıstanın möhkəmləndirilməsi Azərbaycanın müdafiəsində mühüm rol oynaya bilərdi.

Xəzər dənizi tərəfdən təhlükəsizlik tədbirlərinə gəldikdə isə sənəddə bildirilirdi ki, təcili şəkildə Denikinin nəzarəti altında olan donanma tərksilah edilib, Azərbaycan hökumətinə verilməlidir. Bu mümkün olmasa, Azərbaycan hökuməti həmin gəmilərin müttəfiqlərdən hər hansı birinə verilməsinə etiraz etmirdi. Çünki Denikinin məğlub olduğu hiss edildiyindən gəmilərin bolşevikləşməsi ehtimalı güclənmişdi. Denikinə məxsus "Orlenok" gəmisində artıq bolşevik üsyanı baş vermişdi. Ona görə də memorandumda Xəzər dənizinə nəzarət edilməsində mühüm strateji əhəmiyyətə malik olan Denikinin Astarabad hərbi dəniz bazasının ya İrana, ya da İngilis hərbi komandanlığına verilməsinin zəruriliyi göstərilirdi. Sırf hərbi köməyə gəldikdə isə qeyd edilirdi ki, Azərbaycan ordusunun hərbi hazırlıq səviyyəsini və döyüş qabiliyyətini yüksəltmək üçün onun bütün ehtiyacları nəzərə alınmalıdır. Respublikanın maliyyə-iqtisadi həyatının sabitləşdirilməsi, beynəlxalq bazara çıxmaq, Avropa və Amerika ölkələri ilə birlikdə beynəlxalq mal mübadiləsində iştirak etmək üçün 40-50 milyon qızıl manat məbləğində kreditə ehtiyac olduğu bildirilirdi.[1292] Lazım olan məbləğin bir hissəsini Azərbaycan hökuməti vaxtilə İngilis komandanlığına verilmiş 8.405.471 manatlıq borcun hesabına əldə etmək istəyirdi.[1293] Bu borcun və ingilislər vasitəsi ilə L.Biçeraxova verilmiş qiymətli əşyaların qaytarılması barədə Azərbaycan hökuməti Böyük Britaniyaya müraciət etmişdi. Lakin fevral ayının əvvəllərində Lord Kerzon İngiltərənin Azərbaycana borcu olduğunu təsdiq etsə də, Azərbaycan Bankından alınan borcun və neft məhsullarının Azərbaycan əhalisinə yardım

---

[1291] Azərbaycan Respublikasının müstəqilliyinin böyük Avropa dövlətləri tərəfindən tanınması haqqında memorandum. Yanvar, 1920. //ARDA, f.970, s.l, i.228, v.l

[1292] Yenə orada, v.3-4

[1293] Maliyyə Nazirliyinin dəftərxanasından. 26.04.1919. //ARDA, f.84, s.l, i.434, v.19



downloaded from KitabYurdu.az

göstərən ingilis komandanlığının ehtiyacları üçün sərf edildiyini göstərmişdi.[1294] L.Biçeraxovun qəsb etdiyi qiymətli əşyalara gəldikdə isə, Böyük Britaniya hökuməti bu şərtlə həmin əşyaların qaytarılmasına razılıq verirdi ki, Azərbaycan çar Rusiyasının müharibəyə qədərki borclarından "öz payına" düşən hissənin qaytarılması haqqında öz üzərinə öhdəlik götürsün.[1295] Aprel hadisələrindən sonra bu məsələ barəsində aparılan danışıqlar yarımçıq kəsildi.

Xarici işlər nazirliyinin memorandumunda müttəfiqlərə təklif edilirdi ki, Azərbaycan hökuməti öz sərəncamında olan iki yüz milyon pud neft və iyirmi milyon pud kerosini 1,5-2 milyon pud taxıla, bir milyon pud şəkərə, aqrar sahə üçün zəruri olan kənd təsərrüfatı texnikasına, manufaktura mallarına, respublikanın ehtiyaclarını ödəyə biləcək miqdarda dərman preparatları və tibbi avadanlığa, dəmir yolları xətlərinin təmirinə, yüz parovoza, iki min sisternaya və 500 bağlı vaqona dəyişməyə hazırdır. Eyni zamanda memorandumda göstərilirdi ki, respublika iqtisadiyyatının inkişafı Azərbaycan üçün həyati əhəmiyyətə malik olan Batum şəhəri ilə bağlı məsələnin hansı qaydada həll edilməsindən asılıdır. Müttəfiqlərin nəzərinə çatdırılırdı ki, Batum məsələsinə baxılarkən, Azərbaycanın bu şəhərə və Batum limanına olan iddiaları nəzərə alınmalı, ilk addım kimi Azərbaycan Respublikasının Batum limanından maneəsiz istifadəetmə hüququ təmin edilməlidir.[1296]

Azərbaycanın müstəqilliyinin Versal Ali Şurası tərəfindən tanınması ona olan marağı artırmışdı. Belçika, İsveçrə, Hollandiya, Çexiya və Slovakiya, Finlandiya və digər dövlətlər Bakıda öz konsulluqlarını açmağa başlamışdılar. Yanvar ayının axırlarında Amerikanın "Yaxın Şərqə Yardım Komitəsi" ilə Azərbaycan hökuməti arasında iqtisadi müqavilə imzalanmışdı. Müqavilənin şərtlərinə görə, Azərbaycan tərəfi "Yaxın Şərqə Yardım Komitəsi"ni kerosin və mazutla təmin etməli idi, Amerika tərəfi isə əvəzində Azərbaycan hökumətinə ağ un verməli idi. Qarşılıqlı razılıq əsasında bir ton unun qiyməti 210 dollar, bir ton mazut 20, bir ton kerosin isə 35 dollar idi.[1297] Müqaviləni ABŞ tərəfindən komitənin sədri V.Haskel, Azərbaycan tərəfindən isə Gürcüstandakı diplomatik nümayəndə F.Vəkilov imzalamışdılar. Yanvar ayının 26-da eyni ilə buna bənzər bir müqavilə ingilis nümayəndəliyi ilə də imzalandı. Müqaviləyə əsasən, Azərbaycan hökuməti Batumda olan ingilis komandanlığına mazut göndərməli

---

[1294] Борьба за победу Советской власти в Азербайджане 1918-1920, с.401

[1295] F.Kazemzadeh. The Struggle for Transcaucasia, p.227

[1296] Azərbaycan Respublikasının müstəqilliyinin böyük Avropa dövlətləri tərəfindən tanınması haqqında memorandum. Yanvar, 1920. //ARDA, f.970, s.l, i.228, v.4

[1297] Azərbaycan hökuməti ilə Amerika Yaxın Şərqə Yardım Komitəsi arasında müqavilə. 26.01.1920. //ARDA, f.897, s.l, i.69, v.55-57



downloaded from KitabYurdu.az

idi.[1298] Mazutun dəyərini İngiltərə tərəfi Azərbaycan üçün çox zəruri olan möhkəm valyuta və hərbi sursatla ödəməli idi.

ABŞ və İngiltərə nümayəndələri ilə imzalanmış iqtisadi sazişlər italyanları da tələsməyə vadar edirdi. İtaliyanın Qafqazdakı Ali komissarı M.Qabba göstərirdi ki, özləri üçün neft alan ingilislər və amerikanlar digər dövlətlərə neft satmaqda Azərbaycan hökumətinə mane olurlar. İtaliyanın Qafqaza münasibəti ilə bağlı M.Mehdiyev yazırdı: "Qafqaz respublikalarının Ali Şura tərəfindən tanınması İtaliya parlamentinin Rusiyanın hüdudlarında yaranmış siyasi subyektlərlə əlaqəyə girmək arzusunu artırırdı, İtaliya rəsmiləri həmin ölkələrlə daim əlaqə saxlamaq fikrində olduqlarını bildirirdilər".[1299] Fevral ayında İtaliya sənayeçiləri və maliyyəçiləri arasında böyük nüfuzları olan senator S.Konti və K.Volpi başda olmaqla 35 nəfərdən ibarət İtaliya iqtisadi komissiyası Azərbaycana gəldi.[1300] Sənayeçi S.Konti Azərbaycan ordusu üçün silah və paltar göndərən əsas sahibkarlardan biri idi. General İ.Usubov Romada onunla görüşmüş, Azərbaycan ordusu üçün silah və paltar göndərilməsi məsələsini müzakirə etmişdi. General İ.Usubovdan başqa, 1920-ci ilin əvvəllərində hökumət üzvü X.Məlik-Aslanov İtaliyada və Azərbaycan parlamentinin üzvü A.Əmircanov isə Batumda italyanlarla bir sıra sazişlər imzalamışdılar. Bu sazişlərə əsasən, İtaliyadan 6 ədəd sürətli kater, 12 ədəd mina düzən cihaza malik kater, 6 sualtı qayıq, 92 dəniz artilleriyası, piyada qoşunlar üçün 135 min mərmiyə malik 34 top, 12 hidroplan, 4 aeroplan, 5 tank, 20 zirehli maşın, 10 min cüt uzunboğaz çəkmə, 70 min cüt ayaqqabı, 40 min dəst şinel və s. alınmalı idi.[1301]

İtaliya hökuməti hələ 1919-cu ilin axırlarında Azərbaycandan min ton neft almaq haqqında danışıqlar aparırdı və polkovnik Qabba İtaliyaya neft satılmasını baş nazir N.Usubbəyovdan xahiş etmişdi. N.Usubbəyov M.Qabbaya məktubunda qeyd edirdi ki, Azərbaycan hökuməti Batuma hər ay İtaliya hökuməti üçün beş yüz min pud neft və mazut göndərə bilər. Eyni zamanda baş nazir neftin hər tonunun 35 dollar, mazutun hər tonunun isə 25 dollar olduğunu xatırladırdı.[1302] İtaliya hökumətinin və ayrı-ayrı firmalarının nümayəndələri 1920-ci ilin əvvəllərində Azərbaycandan neft və neft məhsulları, pambıq, yun, ipək və digər məhsullar almaq barəsində sazişlər imzalamışdılar. İtaliyanın Azərbaycana iqtisadi marağı Orlando və Sanino hökumətini əvəz etmiş Nitti və Tittoni hökumətinin xammal bazarı axtarmaq proqramına uyğun idi. Lloyd Corc Nitti hökuməti haqqında yazırdı ki, bu hökumət bütün diqqətini "ölkənin daxili inkişafına və sırf ticarət

---

[1298] Batumda olan ingilis komandanlığına mazut göndərilməsi barədə Azərbaycan hökuməti ilə imzalanmış müqavilə. 26.01.1920. //ARDA, f.24, s.l, i.547, v.3

[1299] Mir Yacoub. Le probleme du Caucase, p.124

[1300] ARDA, f.897, s.l, i-69, v.39

[1301] А.Стеклов. Армия мусаватского Азербайджана. Баку, 1930, с.62-65

[1302] Azərbaycan Respublikası Nazirlər Şurasının sədri N.Usubbəyovun polkovnik Qabbaya məktubu. 1919. //ARDA, f.897, s.l, i.69, v.54



downloaded from KitabYurdu.az

ekspansiyasına yönəltmişdi".[1303] İtaliyanın Azərbaycana iqtisadi marağı güclü olduğu üçün, böyük dövlətlər içərisindən birinci olaraq, Bakıda E.İnsom başda olmaqla İtaliya diplomatik nümayəndəliyi fəaliyyətə başladı. Azərbaycan nümayəndə heyətinin məsləhətçisi M.Mehdiyev haqlı olaraq yazırdı ki, Qafqaz respublikalarının Ali Şura tərəfindən tanınması "Qafqaz xalqlarının, o cümlədən, bütün Yaxın Şərq xalqlarının taleyində böyük tarixi əhəmiyyətə malik bir hadisə olmaqla yanaşı, eyni zamanda Avropanın siyasətçiləri və iri sənaye ölkələri qarşısında də böyük perspektivlər açırdı".[1304]

Göründüyü kimi, 1920-ci ilin əvvəllərində Azərbaycan artıq geniş miqyaslı dövlətlərarası siyasi və iqtisadi münasibətlərə daxil olurdu, onun beynəlxalq vəziyyətində əvvəlki təcridçilik siyasətinin yerini hərtərəfli və geniş əməkdaşlıq siyasəti tuturdu. 1920-ci ilin fevral ayının 11-də Denikin Könüllü ordusunun məğlub olması respublikanın rahat nəfəs alması üçün çox mühüm hadisə idi. Qonşu dövlətlərdən Gürcüstan və İranla hərtərəfli əməkdaşlıq bərqərar edilməsinə başlanırdı. Hələ dekabr ayında birgə İran-Azərbaycan konfransı keçirilmişdi və bir sıra müqavilələrin layihəsi hazırlanmışdı. Ağa Seyid Ziyaəddin Təbatəbai başda olmaqla, İran missiyası Azərbaycan dövlət başçıları ilə səmərəli danışıqlar aparmış,[1305] yanvar ayının əvvəllərində isə Adil xan Ziyadxanov başda olmaqla Azərbaycan diplomatik missiyası Tehrana getmişdi.[1306] Yanvar ayının 14-də və 30-da Azərbaycan-İran konfransının növbəti iclaslarında tranzit məsələləri hərtərəfli müzakirə edilmiş və tranzit mallarına gömrük haqqı qoyulması barədə razılıq əldə edilmişdi. 1919-cu ilin axırlarında Tehranda və Bakıda aparılan danışıqlar çox uğurlu nəticələr verdi. Mart ayının 20-də Novruz bayramı axşamı on bir maddədən ibarət gömrük sazişi,[1307] doqquz maddədən ibarət ticarət sazişi,[1308] on səkkiz maddədən ibarət teleqraf əlaqələri haqqında saziş,[1309] on doqquz maddədən ibarət poçt əlaqələri haqqında saziş,[1310] iyirmi beş maddədən ibarət məhkəmə qərarlarının

---

1303 Д.Ллойд Джордж. Правда о мирных договорах. Т.II. с.409

1304 Mir Yacoub. Le probleme du Caucase, p. 128

1305 La delegation persane a Bakou. // Bulletin D'informations L'Azerbaidjan. Paris, 1 Fevrier 1920, № 8, p.4; Conference Persano-Azerbaidjanienne. // Bulletin D'informations L'Azerbaidjan. Paris, 15 Fevrier 1920, № 9, p.3

1306 Azərbaycan Respublikasının beynəlxalq əlaqələri haqqında hesabat. 20.01.1920. //ARDA, f.894, s.10, i.128, v.7

1307 Azərbaycan Respublikası ilə İran şahənşah hökuməti arasında gömrük sazişi. 20.03.1920. //ARDA, f.970, s.l, i.132, v.21-22

1308 Convention Commerciale et Douanière Conclue entre la République d'Azerbaïdjan (Caucase) et le Gouvernement Impérial de Perse. // Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 89; Azərbaycan Respublikası ilə İran şahənşah hökuməti arasında ticarət sazişi. 20.03.1920. //ARDA, f.970, s.l, i.132, v.23-24

1309 Accord Télégraphiqueentre la République d'Azerbaïdjan (Caucase) et l'Empire de Perse.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 82; Azərbaycan Respublikası ilə İran şahənşah hökuməti arasında teleqraf sazişi. 20.03.1920. //ARDA, f.970, s.l, i.137, v.44-48

1310 Convention Pour l'échange de colis postaux entre la République d'Azerbaïdjan et l'Empire Persan.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 15; Azərbaycan



downloaded from KitabYurdu.az

icrası haqqında saziş,[1311] on yeddi maddədən ibarət konsulluq əlaqələri haqqında saziş[1312] və ən nəhayət, Azərbaycan diplomatiyasının mühüm uğurlarından biri olan Azərbaycan Respublikası ilə İran şahənşah hökuməti arasında dostluq haqqında müqavilə imzalandı.[1313] Müqavilənin birinci maddəsində İran hökuməti Qafqaz Azərbaycanı Respublikasının müstəqilliyini de-yure cəhətdən tanıdığını təntənəli şəkildə elan edirdi. Müqavilənin ikinci bəndinə əsasən, tərəflər öz aralarında möhkəm dostluq və iqtisadi münasibətlər yaratmaq əzmində olduğunu təsdiq edir, üçüncü maddəyə əsasən isə beynəlxalq hüquqi əlaqələrə uyğun olaraq, Azərbaycan öz daimi səlahiyyətli nümayəndəsini Tehrana, İran isə öz nümayəndəsini Bakıya göndərməli idi. Müqaviləni Azərbaycan tərəfindən xarici işlər naziri F.X.Xoyski, ədliyyə naziri X.b.Xasməmmədov, yollar naziri X.b.Məlik-Aslanov, İran tərəfindən isə fövqəladə səlahiyyətli nümayəndə Ağa Seyid Ziyaəddin Təbatəbai imzalamışdılar. 20 mart 1920-ci il müqaviləsinə görə, İran Azərbaycan Respublikasının müstəqilliyini de-yure tanıyan ilk böyük dövlət idi. Qısa müddətdə Tehranda Azərbaycan səfirliyi fəaliyyətə başladı, aprel ayının 1-dən isə Təbrizdə Baş konsulluq, Rəştdə konsulluq, Məşhəddə vitse konsulluq, Xoy və Əhərdə konsul-agentlikləri yaradıldı.[1314] Ənzəlidə isə Azərbaycan konsulluğu fevral ayından fəaliyyət göstərirdi. Azərbaycan hökuməti tərəfindən fevral ayının birində Məhəmməd bəy Xəlilov Ənzəliyə vitse-konsul təyin edilmişdi.[1315]

Yeni yaranmış dövlətlərdən Litva və Polşa Azərbaycanla əlaqələr yaratmağa meyl göstərirdilər. Polşanın Tiflisdəki konsulluğu Bakıda vitse-konsulluq açmış və Qafqazda olan Polşa missiyasının üzvü S.Rılskini Azərbaycana konsul-agenti göndərmişdi. Yanvar ayının əvvəllərində isə Polşa hökumətinin Qafqazda olan diplomatik nümayəndəsi Ostrovski Bakıya gəlmişdi. Azərbaycan hökumət rəhbərləri ilə danışıqlar zamanı o, Rusiya imperiyasından çıxmış yeni dövlətlərin müdafiə xarakterli vahid blokunun yaradılması ideyası ilə çıxış etmişdi.[1316] Məlum olduğu kimi, yeni yaranmış respublikaların birgə müdafiə olunması ideyası hələ yanvar ayının ortalarında Versal Ali Şurası hərbi ekspertlərinin müşavirəsində və Ali Şuranın yanvar ayının 19-da keçirilən iclasında irəli sürülmüşdü. Böyük Britaniyanın hərbi naziri U.Çörçil Polşa və Finlandiyadan Azərbaycana qədər müdafiə zolağı yaradılmasının zəruriliyini göstərmiş,

Respublikası ilə İran şahənşah hökuməti arasında poçt əlaqələri haqqında saziş. 20.03.1920. //ARDA, f.970, s.l, i.131, v.69-73

1311 Azərbaycan Respublikası ilə İran şahənşah hökuməti arasında məhkəmə qərarlarının icrası haqqında saziş. 20.03.1920. //ARDA, f.970, s.l, i.130, v.2-7

1312 Azərbaycaıı Respublikası ilə İran şahənşah hökuməti arasında konsulluq sazişi. 20.03.1920. //ARDA, f.970, s.l, i.128, v.78-90

1313 Azərbaycan Respublikası ilə İran şahənşah hökuməti arasında dostluq haqqında müqavilə. 20.03.1920. //ARDA, f.970, s.l, i.137, v.27-28

1314 ARDA, f.970, s.l, i.221, v.30

1315 Вестник правительства, 1920, 17 апреля.

1316 ARDA, f.894, s.10, i.128, v.7



downloaded from KitabYurdu.az

J.Klemanso, F.Foş, H.Vilson və digərləri də bu təklifə tərəfdar çıxmışdı. Versal Ali Şurasının iclasında və digər ikitərəfli danışıqlarda söhbət bolşevizmdən müdafiə olunmaqdan gedirdi. Ali Şuranın iclasının qərarında aydın şəkildə göstərilirdi ki, Azərbaycan və Gürcüstan kənardan hücuma məruz qalardılarsa, Şura hücuma məruz qalmış dövlətlərə maddi yardım göstərməyə təminat verir. İstər Çxeidze və istərsə də Topçubaşov, həm Ali Şuranın iclasında və həm də az sonra Paris mətbuatında çıxış edib göstərmişdilər ki, onlar Rusiyanın daxili işlərinə qarışmaq, ona hücum etmək üçün starteji məntəqə rolu oynamaq fikrində deyillər.[1317] Ə.M.Topçubaşov qeyd edirdi ki, onlar Gürcüstanla birlikdə yalnız bolşevizmdən müdafiə olunmaq haqqında fikirləşirlər.[1318] Ona görə də, bir sıra tarixçilərin belə bir fikri obyektiv gerçəkliyə uyğun deyildir ki, Antanta və ABŞ Azərbaycan, Gürcüstan və Ermənistanı Sovet Rusiyası üzərinə antisovet yürüşə cəlb etmək istəyirdi.[1319]

Bolşevizmdən müdafiə olunmaqda böyük dövlətlər Polşaya xüsusi əhəmiyyət verirdilər. Yeni dövlətlərin birgə müdafiə olunmasından əlavə, Polşa bolşevizmin Avropaya yayılması yolunda güclü sipərə çevrilməli idi. Məhz, bu məqsədlə də ABŞ və Avropa dövlətləri Polşanı siyasi, iqtisadi və hərbi cəhətdən qüvvətləndirmək üçün ona hərtərəfli yardım göstərirdilər. 1920-ci ilin əvvəllərindən Polşa yalnız ABŞ-dan 1.700 milyon dollarlıq hərbi yardım almışdı.[1320] 1920-ci ilin yanvarından başlayaraq, Polşa xarici işlər naziri Patek Parisdə və Londonda ölkənin müdafiə qabiliyyətini möhkəmləndirmək üçün danışıqlar aparırdı. Hətta belə bir fikir yayılmışdı ki, 1920-ci ilin yazında Böyük Britaniya Sovet Rusiyasını Qafqaz üzərinə hücumdan yayındırmaq üçün Polşanı onun üzərinə hücuma təhrik edirdi.[1321] Lakin bu dövrdə Polşa və yenicə formalaşmağa başlayan "Kiçik Antanta" daha çox Fransanın təsiri altında idi, nəinki Böyük Britaniyanın.

Polşanın Bakıya gəlmiş diplomatik nümayəndəsi Ostrovski yeni dövlətlərin müdafiə blokunun yaradılmasını yalnız Sovet Rusiyasından deyil, eyni zamanda ağqvardiyaçı generallardan da müdafiə olunmaq üçün zəruri hesab edirdi. Layihəyə görə bloka Polşa, Finlandiya, Estoniya, Latviya, Litva, Gürcüstan və Azərbaycan daxil olmalı idi. Rumıniyanın da bloka cəlb edilməsi nəzərdə tutulmuşdu. Azərbaycan Xarici İşlər Nazirliyinin fikrincə, "sənayecə inkişaf etmiş və milyon nəfərlik orduya malik olan Polşa bu blokun başında dura bilərdi".[1322] Lakin sonralar Qafqazda baş vermiş hadisələr və Polşa ilə Sovet Rusiyası arasında müharibənin başlanması nəticəsində danışıqlar başa çatdırılmadı.

---

[1317] Le defense de l'Azerbaidjan et de la Georgie. Le 29 Janvier 1920. // Bulletin D'informations L'Azerbaidjan. Paris, 1 Fevrier 1920, № 8, p.2-3

[1318] Азербайджан, 1920, 3 апреля.

[1319] Bax: Волков Ф.Д. Тайны Уайтхола и Даунинг стрит. М., 1980, с.114

[1320] Документы внешней политики СССР, т.II, с.560

[1321] М.Павлович. Советская Россия и капиталистическая Англия. М., 1925, с.32

[1322] ARDA, f.894, s.10, i.128, v.7



downloaded from KitabYurdu.az

Eyni zamanda Polşanın Azərbaycana iqtisadi maraqları da var idi. 1920-ci ilin fevral ayının əvvəllərində Tiflisdəki Polşa diplomatik nümayəndəliyi Azərbaycan nümayəndəliyinə bildirmişdi ki, xammal, əsasən, pambıq və yunla dəyişmək üçün Polşa hökuməti altı yüz ton manufaktura malları, şüşə və dəmir məmulatı göndərməyə hazırdır. Fevral ayının 4-də Tiflisdən göndərilən teleqramda Azərbaycan nümayəndələri bildirirdilər ki, alınan malı Gürcüstan ərazisindən Azərbaycana aparmaq, Polşaya satılmış malı Gürcüstan ərazisindən Qara dənizə çatdırmaq üçün Azərbaycan hökumətinin təminat məktubunun olması zəruridir.[1323]

Azərbaycanın istiqlaliyyətinin tanınmasından sonra respublikanın Parisdəki nümayəndə heyətinin fəaliyyəti daha da genişləndi. Sülh konfransının rəsmən yanvar ayının 21-də başa çatmasına baxmayaraq, Azərbaycan nümayəndə heyəti hələ bir müddət Avropada öz missiyasını yerinə yetirməkdə davam edirdi. 1920-ci ilin yazında yeni respublikaların İsveçrədə ayrıca konfransının keçirilməsi gözlənilirdi. Buna hazırlıqla yanaşı, Azərbaycan nümayəndələri Paris Sülh konfransı Ali Şurasının 1920-ci ilin fevral-mart aylarında keçirilən London konfransında və aprel ayındakı San-Remo konfransında yaxından iştirak etdilər. Ali Şuranın müşavirəsi İngiltərədə keçiriləcəyi üçün Azərbaycan nümayəndələri Londona getdilər. Hələ səfər ərəfəsində Ə.M.Topçubaşov yazırdı: "İngilislərin fikrincə, sərbəst siyasi həyata qadir bir xalq kimi diqqətə layiqik. Bu bizim üçün xoşdur. İndi bizə Londona səfərin vacibliyi daha çox aydındır və biz bunu çox tez edəcəyik. Özü də təkcə səfər deyil, köçmək lazım gələcək, çünki rus məsələsi üzrə konfrans, görünür, məhz Londonda keçiriləcək. Vəziyyətin xeyrimizə həll olunmasına baxmayaraq, burada da /Parisdə-C.H./, Londonda da lazımi əlaqələri itirmirik".[1324]

1920-ci ilin fevral ayının axırlarında işə başlamış müttəfiqlərin Ali Şurasının London sessiyası rus məsələsini müzakirə etsə də, lakin bu məsələ ilə bağlı son söz demədi. Fevral ayının 24-də sessiya "Rusiyada müttəfiqlərin siyasəti" adlı memorandum qəbul etdi. Burada qeyd edilirdi: nə qədər ki, bolşeviklər tərəfindən terrora son qoyulmayıb, Sovet hökuməti ilə diplomatik münasibətlər yaradılması qeyri-mümkündür. Lakin memorandumda Rusiya ilə Avropa arasında ticarət əlaqələrinin yaradılmasının mümkünlüyü göstərilirdi. Millətlər Cəmiyyətinə təklif edilirdi ki, Rusiyada real vəziyyəti öyrənmək üçün ora xüsusi komissiya göndərsin. Bütün bunlar 1920-ci ilin əvvəllərində başlanmış İngiltərə-Sovet yaxınlaşma meylinin təzahür formaları idi. Hələ sessiyadan öncə Kopenhagendə aparılan danışıqlarda yanvar ayının 11-də hərbi əsirlərin dəyişdirilməsi haqqında Rusiya ilə İngiltərə arasında saziş imzalanmışdı. Həmin sazişə görə, İngiltərə öz üzərinə götürürdü ki, təkcə Britaniyada deyil, bütün Antanta ölkələrində olan rus hərbi əsirlərinin vətənə qayıtmasına kömək edəcəkdir. Elə Kopenhagendə aparılan

[1323] Azərbaycan Respublikası ilə Gürcüstan arasında saziş. 08.03.1920. //ARDA, f.970, s.l, i.26, v.9

[1324] Azərbaycan Respublikasının Paris Sülh konfransında nümayəndəliyinin başçısı Ə.M.Topçubaşovun Nazirlər Şurasının sədrinə məktubu. 29.11.02.12.1919. //ARDA, f.970, s.l, i.145, v.17



downloaded from KitabYurdu.az

danışıqlar nəticəsində Sovet Rusiyası İngiltərədən xeyli dərman, ərzaq və toxum ala bilmişdi. Yanvar ayının 16-da isə Antanta Ali Şurası Rusiya ilə müttəfiq və neytral dövlətlər arasında mal mübadiləsinə icazə vermişdi.[1325]

London konfransında müstəqilliyi müttəfiqlər tərəfindən tanınan yeni dövlətlərə tövsiyə edilirdi ki, Sovet Rusiyası ilə dinc münasibətlər yaratsınlar və Rusiya ilə müharibə aparan ölkələrə isə müharibəni davam etdirməyi məsləhət görmürdülər. Lakin müttəfiqlər bildirirdilər ki, əgər Sovet Rusiyası yeni yaranmış dövlətlərə hücum edərsə, onların qanuni sərhədlərini pozarsa, Antanta hücuma məruz qalmış dövlətlərə bütün vasitələrlə yardım göstərəcəkdir. Göründüyü kimi, bütün bu vədlər deklarativ xarakter daşıyırdı. Konkret mənada müdafiə qabiliyyətini möhkəmləndirmək üçün yardım alınması kollektiv qərarlardan çox, ikitərəfli münasibətlərdən asılı idi.

Azərbaycan və Gürcüstan bolşevizm təcavüzündən müdafiə olunmaq üçün yalnız İngiltərə yardımına ümid bəsləyirdilər. Digər dövlətlər sadəcə olaraq, bu missiyanı yerinə yetirmək imkanına malik deyildi. İngiltərənin Sovet Rusiyası ilə ticarət münasibətlərinin yaratmasında qarşıya qoyulan məqsədlərdən biri də Sovet Rusiyası ilə Qafqaz dövlətləri arasında münasibətləri yumşaltmaq və sonra isə onlar arasında dinc qonşuluq münasibətlərinin yaradılmasında vasitəçi rolu oynamaq idi.[1326] Lakin Azərbaycan və Gürcüstanın müdafiəsini möhkəmləndirmədən bu ideyaya ümid bəsləmək o qədər də real deyildi. Düzdür, Azərbaycana hərbi yardım göstərmək barədə ingilis nümayəndələri ilə danışıqlar aparılırdı. Lakin bu danışıqlar hələ konkret nəticələr verməmişdi. Şimaldan yaranmış təhlükə ilə əlaqədar Azərbaycan xarici işlər naziri Xan Xoyski Ə.M.Topçubaşova yazırdı: "Qırmızı Ordunun yaxınlaşması ilə əlaqədar yaranmış vəziyyət bizi məcbur edir ki, ingilislərin bizə edəcəyi hərbi yardım məsələsini aydınlaşdıraq. Bu istiqamətdə mən polkovnik Stoks vasitəsi ilə Uordropla danışıqlar aparıram. Əldə olunan məlumata görə, Uordrop bu barədə Londonla əlaqə saxlayır, oradan göstəriş gözləyir, öz növbənizdə siz də bu istiqamətdə bir sıra addımlar atmalısınız".[1327] Qeyd etmək lazımdır ki, 1920-ci ilin martında Bakıda olan ingilis nümayəndəsi Stoks Azərbaycan ordusunun ehtiyacları barədə materiallar toplamağa başlamışdı. Azərbaycan xarici işlər nazirinin müavini M.Xan Təkinski polkovnik Stoksa məktubuna Azərbaycan ordusunun hərbi ehtiyacları və Bakı limanı üçün zəruri olan texniki avadanlıqların siyahısını əlavə etmişdi.

Eyni zamanda Böyük Britaniya hökuməti Qafqaz respublikalarının bolşevik təhlükəsinə qarşı müdafiə qabiliyyətini möhkəmləndirmək üçün respublikalararası və millətlərarası münaqişəyə son qoymağı vacib hesab edirdilər. Bu məqsədlə 1920-ci il fevral ayının 23-də Tiflisdə O.Uordropun mənzilində Azərbaycan və Ermənistan nümayəndələrinin müşavirəsi keçirilmişdi. Fransa nümayəndəsinin

[1325] История Дипломатии. Т.III, М., 1945, с.74
[1326] З.Авалов. Независимость Грузии в международной политике, с.251
[1327] А.Раевский. Английская интервенция и мусаватское правительство, с. 169



downloaded from KitabYurdu.az

iştirak etdiyi bu müşavirədə Azərbaycan tərəfindən Gürcüstandakı diplomatik nümayəndə F.B.Vəkilov, Ermənistandakı diplomatik nümayəndə Əbdürrəhim bəy Haqverdiyev, Ermənistan tərəfindən parlament üzvü V.Papazyan və Tiflisdəki erməni nümayəndəsi A.Camalyan iştirak edirdilər. Müşavirəni açaraq, ingilis nümayəndəsi Azərbaycan-Ermənistan münaqişəsinə qəti surətdə son qoymağı tövsiyə edirdi. Ə.Haqverdiyev təklif etdi ki, sərhədlər məsələsi həll olunana qədər Qarabağda olduğu kimi, Naxçıvan və Zəngəzurda da Milli Şuralar yaradıb idarəçiliyi onlara vermək lazımdır. Sonra o, mübahisəli məsələlərlə bağlı Sülh konfransı çağırmağın zəruriliyini qeyd edib bildirirdi ki, gərginliyi zəiflətmək üçün sülh bağlananadək hər iki tərəf bu ərazilərdən ordusunu və təbliğatçılarını geri çağırmalıdır. İngilis və fransız nümayəndələri konfrans ideyasına tərəfdar çıxdılar. Lakin erməni nümayəndələri Ə.Haqverdiyev tərəfindən irəli sürülən bütün təkliflərin əleyhinə olub bildirdilər ki, mübahisəli ərazilərdə idarəçilik müvəqqəti olaraq müttəfiqlərə verilməlidir və bunu da Azərbaycan nümayəndələri qəbul edə bilməzdilər.[1328]

Ərazi mübahisələrinin həllini sürətləndirmək və hər üç Cənubi Qafqaz respublikasının iqtisadi və siyasi əlaqələrini genişləndirmək məqsədi ilə Böyük Britaniya nümayəndəliyi hər üç respublikanın rəhbərliyinə müraciət etmişdi. Mart ayının 5-də Azərbaycan hökumətinə göndərdiyi məktubda Uordrop yazırdı ki, əlahəzrət kral hökuməti bu ümiddədir ki, hər üç Cənubi Qafqaz respublikası öz aralarında siyasi və iqtisadi xarakterli ən sıx münasibətlərə girəcəklər. London və qarşıdakı San-Remo konfransında Cənubi Qafqaz respublikalarının sərhədləri məsələsinin müzakirə edilməsi nəzərdə tutulduğu üçün Uordrop yazırdı ki, Azərbaycan hökuməti tarixi-etnoqrafik dəlillərlə əsaslandırılmış ərazi tələblərinə aid ingilis nümayəndəliyinə xüsusi məruzə təqdim etsin. O bildirirdi ki, Qafqaz respublikalarının ən qısa vaxtda danışıqlara başlayıb, bir çox mübahisələri öz aralarında həll etməsi məqsədəuyğundur. Uordropun fikrincə, konfrans yalnız Cənubi Qafqaz respublikalarının razılığa gəlmədiyi məsələləri həll edə bilərdi.[1329]

London konfransında rus məsələsi ilə bağlı müzakirələr və Cənubi Qafqazda cərəyan edən hadisələr belə bir fikir söyləməyə əsas verir ki, Böyük Britaniya hökuməti Qafqaz respublikalarının bolşevik təcavüzündən müdafiə edilməsi, regionda milli münasibətlərin sabitləşməsində maraqlı idi və bu istiqamətdə bir sıra addımlar atmışdı.

London konfransında Azərbaycanın həyati mənafeyi ilə bağlı olan ciddi məsələlərdən biri də, Türkiyə ilə bağlanacaq sülh müqaviləsinin müzakirə edilməsi idi. Türkiyə ilə sülh müqaviləsinin hazırlanmasında ingilis-fransız blokunun təşəbbüsü ələ alması Versal müqaviləsindən narazı olan ABŞ-ın ciddi etirazına

---

[1328] Azərbaycan və Ermənistan nümayəndələrinin Tiflisdə müşavirəsi. 23.10.1920. //ARPİİ SPİHDA, f.276, s.9, i.1,v.36

[1329] Tiflisdə Britaniya Ali komissarı O.Uordropun Azərbaycan Respublikasının Gürcüstanda diplomatik nümayəndəsi F.Vəkilova məktubu. 05.03.1920. //ARDA, f.897, s.l, i.69, v.93



downloaded from KitabYurdu.az

səbəb olmuşdu. 1920-ci ilin fevralında istefaya çıxmış dövlət katibi R.Lansinqi əvəz edən B.Kolbi mart ayında müttəfiqlərin Ali Şurasına göndərdiyi notada xatırladırdı ki, Türkiyənin müttəfiqi olan Almaniyanın məğlub edilməsində ABŞ-ın xüsusi xidmətləri olmuşdur və ona görə də Birləşmiş Ştatlar Türkiyə ilə sülh müqaviləsinin hazırlanmasında yaxından iştirak etməlidir. İstanbul məsələsində B.Kolbi müttəfiqləri qeyri-ardıcıllıqda günahlandırır və qeyd edirdi ki, türklərin Avropadan qovulması başa çatdırılmalı və bu şəhər Amerika idarəçiliyinə verilməlidir.[1330] Lakin ingilis ordusu Qafqazdan çıxarıldıqdan sonra Böyük Britaniya siyasi dairələri Türkiyənin bölüşdürülməsinin ağır nəticələr verə biləcəyini anlamağa başlamışdılar və ingilislər bu regionda amerikanların qüvvətlənməsini arzulamırdılar. U.Çörçil yazırdı: "Türkiyə ilə sülh müqaviləsi hazırlanarkən, elə sənəd hazırlanmalı idi ki, Türkiyə İngiltərənin onun dostu olduğunu hiss etsin."[1331] Lakin bunun əksinə olaraq, Lord Kerzon başda olmaqla, bir qrup ingilis siyasi xadimləri Türkiyənin tamamilə taqətdən salınmasına və Türkiyə ilə Şərqin qalan müsəlman ölkələri arasında erməni xristian dövləti yaradılmasına tərəfdar idilər. Böyük Britaniyanın xarici siyasətini istiqamətləndirən Devid Lloyd Corc Türkiyəyə ehtiyatlı yanaşmaq fikrinin tərəfdarı idi.

Türkiyə ilə sülh müqaviləsinin müzakirəsi yenidən Cənubi Qafqaz respublikalarına marağı artırmışdı. Bu da təsadüfi deyildi. Çünki Cənubi Qafqaz respublikaları hələlik Rusiya ilə deyil, hər üçü məhz, Türkiyə ilə həmsərhəd idilər. Ermənistan Ali Şuranın London konfransını daha çox səbirsizliklə gözləyirdi. Türkiyə ilə sülh müqaviləsinin hazırlanması Ermənistanın sərhədlərini və statusunu müəyyən etməli idi. Ermənistanın gələcək sərhədlərini aydınlaşdırmaq üçün konfrans İngiltərə, Fransa, İtaliya və Yaponiya nümayəndələrindən ibarət komissiya yaratmışdı. Ermənilər bütün Trabzon vilayətinin və ümumilikdə Kiçik Asiyanın Şərq vilayətlərinin ona verilməsini tələb edirdilər. Antanta ölkələri xarici işlər nazirlərinin London müşavirəsi Ərzurumun Ermənistana verilməsi haqqında təklif hazırlamışdı. Təklifdə göstərilirdi ki, Ərzurum regionda həlledici strateji mövqeyə malikdir, onun türklərin əlində qalması müstəqil Ermənistanın mövcudluğunu təhlükə altına alır. Xarici işlər nazirlərinin müşavirəsi Ali Şura qarşısında məsələ qaldırırdı ki, Ərzurumun Ermənistana verilməsi və Ermənistanın dənizə çıxışını təmin etmək arzu olunan bir proqramdır. Onların fikrincə, guya sülhün və sabitliyin bərqərar olunması naminə, panislamist və pantürkist hərəkata zərbə vurmaq məqsədilə Türkiyə ilə digər müsəlman ölkələri arasında xristian erməni dövləti yaratmaq lazımdır.[1332] Məsələ gəlib, London konfransının müzakirəsinə çıxdıqda Lloyd Corc, Lord Kerzon başda olmaqla hazırlanan bu

[1330] Papers Relating to the Foreign Relations of the US, 1920, vol.VIII, p.750
[1331] В.Черчилль. Мировой кризис, с. 108
[1332] Д.Ллойд Джордж. Правда о мирных договорах. Т.II, с.425-427



downloaded from KitabYurdu.az

təklifləri təhlükəli bir ideya adlandırdı. Ümumiyyətlə, Türkiyə və Rusiyaya münasibətdə Britaniya siyasi dairələri arasında fikir birliyi yox idi. Onların bir hissəsi Türkiyənin bütövlüyünü saxlayıb Rusiyanın bölünməsinə tərəfdar idilərsə, digər bir hissəsi Rusiyanın ərazi bütövlüyünün bərpasına tərəfdar olub, Türkiyənin məhv edilməsinə üstünlük verirdilər.[1333] Lord Kerzonun Anadolunun Şərq vilayətlərinin Ermənistana verilməsi ideyası Türkiyənin məhv edilməsi planının tərkib hissəsi idi. Lloyd Corc bildirirdi ki, ermənilər bir tərəfdən Azərbaycan türkləri, digər tərəfdən Anadolu türkləri və bölgədə yaşayan kürdlərlə əhatə olunmuşlar. Ermənilərə böyük əraziləri vəd etmək çox sadəlövhlük olardı, halbuki indi yaşadıqları bir parça torpaqlarını onlar çətinliklə saxlayırlar. Lloyd Corcun fikrincə, Ermənistanın ərazisinin genişləndirilməsi uğrunda təbliğatın ən təhlükəli cəhəti onda idi ki, bu müttəfiqləri ağılsız addım atmağa, türklərdən intiqam almağa təhrik edə bilərdi. Lloyd Corcun fikrini İtaliyanın baş naziri F.Nitti də müdafiə edib bildirdi ki, Ərzurum ermənilər üçün çox təhlükəli hədiyyədir. Həm də açıq şəkildə bildirildi ki, Ərzurumda heç vaxt erməni əhalisi çoxluq təşkil etməyib, ona görə onun ermənilərə verilməsini heç cür əsaslandırmaq olmaz. Lord Kerzon qeyd etdi ki, "əgər Ali Şuranın fikri belədirsə, bu ermənilər üçün çox ağır zərbə olacaqdır".[1334] Lakin bu məsələ ilə bağlı konfrans son söz demədi, Ermənistanın sərhədlərinin müzakirə məsələsi San-Remo konfransına keçirildi. Lord Kerzonun belə mövqeyi onun ermənilərə məhəbbətindən daha çox, Türkiyənin güclənməsindən ehtiyatlanması ilə bağlı idi. Əslində o, erməniləri heç də "əzabkeş" xalq hesab etmirdi. 1920-ci ilin martında İngiltərə parlamentinin İcma palatasındakı çıxışında Kerzon deyirdi: "Mənə belə gəlir ki, siz erməniləri səkkiz yaşında təmiz və məsum bir qız uşağı kimi zənn edirsiniz. Bu fikirdə çox yanılırsınız. Halbuki ermənilər özlərinin son davranışları ilə nə qədər qaniçən bir xalq olduğunu qeyd-şərtsiz isbat etmişlər".[1335]

Bu məsələlər müzakirə edilən zaman Avropadakı Azərbaycan nümayəndələri ermənilərin Qarsda törətdiyi vəhşiliklər haqqında Qars milli şurasının sədri A.Zeynalovun Azərbaycan Xarici İşlər Nazirliyinə və müttəfiqlərin Tiflisdəki nümayəndələrinə göndərdiyi həyəcanlı teleqramı Parisdə buraxdıqları informasiya bülletenində dərc etmişdilər. Elə həmin nömrədə Azərbaycanın xarici işlər naziri Xan Xoyskinin Ermənistanın xarici işlər nazirinə iki notası da verilmişdi.[1336] Xarici işlər naziri Xan Xoyski ermənilərin Qars, Zəngəzur və İrəvanda törətdikləri vəhşiliklər haqqında Fransanın Qafqazda olan hərbi missiyasının başçısı Nonankourta da teleqramla məlumat vermişdi.[1337] Bu sənədlər

---

1333 Н.Жордания. Моя жизнь. Стенфорд, 1968, с. 106

1334 Д.Ллойд Джордж. Правда о мирных договорах. Т.II, с.427-428

1335 Enver Konukçu. Ermenilerin Yeşilyayladakı Türk Soykırımı, s.37, Tan.1920, 12 March.

1336 Bulletin D'informations. L'Azerbaidjan. Paris, 1 avril 1920, № 12, p.1-4

1337 Le Ministre des Affaires Etrangères Khoisky - Copie d'un télégramme de Bakou au Commandant de Nonancourt, Chef de la Mission Militaire Française. Le 30 mars 1920.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 638. folio 233



downloaded from KitabYurdu.az

ermənilərin Qarsda hansı vəhşilikləri törətdikləri barədə oxucularda aydın təsəvvür yaradırdı.

Qeyd etmək lazımdır ki, Trabzon vilayətinin Gürcüstana verilməsi barədə gürcü nümayəndələri də Ali Şuraya memorandum təqdim etmişdilər. Gürcülər Trabzon vilayətinə Qara dəniz sahillərində Batum vilayətinin davamı kimi baxırdılar. Londonda olan Azərbaycan nümayəndələri, əhalisi əsasən, müsəlmanlardan ibarət olan vilayətlərin Ermənistana verilməsi təklifini ədalətsiz və bu ərazilərin müsəlman əhalisinin gələcək taleyi baxımından arzuolunmaz hesab edirdilər.[1338]

London konfransında ciddi müzakirələrə səbəb olan məsələlərdən biri də Batum məsələsi idi. Azərbaycan nümayəndələri Batuma olan iddiaları ilə bağlı konfransa memorandum təqdim etmişdilər. Burada göstərilirdi ki, Batum Azərbaycan Respublikasının Avropa və Amerika bazarlarına yeganə çıxış yoludur. Batumla bağlı Gürcüstan və Ermənistan nümayəndələri də konfransa memorandum vermişdilər. Batum məsələsini hazırlamaq üçün yaradılmış komissiyanın üzvlərindən biri Kammerer (Fransa) göstərirdi ki, Qafqazdakı yeni dövlətlərdən heç biri Batum vasitəsi ilə dənizə çıxış yolundan məhrum olmamalıdır. O, qeyd edirdi ki, Batum limanı Bakı neft məhsullarının xaricə çıxarılması üçün başlıca tranzit məntəqədir.[1339] Mart ayının 1-də gürcü nümayəndələri Ali Şuraya nota verib tələb etdilər ki, Batum Gürcüstana birləşdirilməlidir, Gürcüstan Azərbaycan və Ermənistanla saziş bağlayaraq, onların azad şəkildə Batumdan istifadə etməsinə təminat verməyə hazırdır. Müttəfiqlərin layihəsinə görə, Batum üç yerə parçalanmalı idi. Vilayətin bir hissəsi Gürcüstana, bir hissəsi Ermənistana verilməli, Batum şəhəri özü isə Millətlər Cəmiyyətinin nəzarəti altında mənafeyi olan bütün dövlətlərin sərbəst istifadə edə biləcəyi azad şəhər olmalı idi. Bu layihə gürcülərin etirazına səbəb oldu. Londonda Azərbaycan və gürcü nümayəndələri arasında belə bir razılıq əldə olundu ki, hər iki respublika Batum vilayətinin parçalanmasını məqsədəuyğun hesab etmir. Azərbaycan Batum vilayətinin şəhərlə birlikdə Gürcüstana birləşdirilməsinə etiraz etmirdi, Gürcüstan isə Azərbaycanın Batuma olan iqtisadi maraqlarını tam təmin etməyi öz üzərinə götürürdü.[1340] Tərəflər qarşılıqlı razılıq əsasında Ali Şuraya yuxarıdakı məzmunda birgə müraciət hazırladılar. Gürcü nümayəndələri Batum məsələsi ilə bağlı bu müraciətə böyük əhəmiyyət verirdilər. Lakin son anda, Qars məsələsi ilə bağlı meydana çıxan mübahisələr Batumla bağlı birgə müraciətin Ali Şuraya təqdim edilməsinə mane oldu. London konfransında Antanta ölkələrinin xarici işlər nazirləri Qars vilayətinin Ermənistana verilməsi haqqında təklif hazırlamışdılar. Azərbaycanlıların nöqteyi-nəzərincə, əgər Qars Türkiyədən alınarsa, yaxşı olardı ki, onu Ermənistana deyil, Gürcüstana birləşdirsinlər. Ona görə, Azərbaycan

---

1338 З.Авалов. Независимость Грузии в международной политике, с.262
1339 Yenə orada, s.262
1340 З.Авалов. Независимость Грузии в международной политике, с.262



downloaded from KitabYurdu.az

nümayəndələri bu şərtlə Batumla bağlı müraciətə imza atacaqlarını bildirirdilər ki, Gürcüstan Ali Şuradan Qars vilayətinin ona verilməsini tələb etsin.[1341] Lakin gürcü nümayəndələri buna razı olmadılar.

Ermənilərin əsassız iddiaları nəticəsində Cənubi Qafqazdakı status-kvo London konfransında təsdiq edilmədi. Ermənistan nümayəndə heyətinin başçısı A.Ağaronyan təklif edirdi ki, yerlərdə sərhədlər məsələsini həll etmək mümkün olmadığı üçün onu, yəni Cənubi Qafqaz respublikalarının sərhədlərinin müəyyən edilməsi məsələsini Avropada, müttəfiqlərin köməkliyi ilə həll etmək lazımdır. Bu təkliflə nə azərbaycanlılar, nə də gürcülər razılaşdılar. Azərbaycan nümayəndələri bildirdilər ki, daşnak hökuməti qəsdən yerlərdə vəziyyəti gərginləşdirir ki, sərhədlər məsələsinin Qafqazda həll edilə bilməməsinə avropalıları inandırsın. Ermənilər yaxşı bilirdi ki, konfransda vəziyyət onların xeyrinədir. Ona görə Azərbaycan və gürcü nümayəndələri birgə qərara gəldilər ki, sərhədlər məsələsinin Paris, yaxud Londonda həll edilməsinə etiraz etməlidirlər və təkid etməlidirlər ki, Cənubi Qafqaz respublikalarının sərhədləri məsələsi onların özləri tərəfindən yerlərdə həll edilsin. Gürcülərin təklifi ilə belə bir razılıq əldə edildi ki, hər üç respublikanın paytaxtlarına teleqram göndərilərək məlumat verilsin ki, arbitraj komissiyası yaradıb, sərhədlər məsələsini həll etsinlər, əgər bu müsbət nəticə verməsə, onda sərhədlər məsələsinin müzakirəsi Avropaya keçirilsin.[1342]

Paris Sülh konfransında olduğu kimi, Ali Şuranın London konfransında da Azərbaycan nümayəndələri ilə erməni nümayəndələri arasında ciddi ixtilaflar var idi. Xüsusilə, kamalçılar hərəkatının genişlənməsi erməniləri bərk narahat etdiyi üçün, onlar Avropa siyasi dairələrinə belə bir fikir təlqin edirdilər ki, guya, Türkiyə ilə Azərbaycan arasında gizli hərbi saziş mövcuddur. Çox ehtimal ki, məhz, ermənilərin səyi nəticəsində İngiltərənin "Tayms" qəzeti mart ayının 20-də Azərbaycanla Türkiyə arasında guya gizli hərbi sazişin olduğu barədə məlumat çap etmişdi.[1343] Çox maraqlıdır ki, "Tayms" qəzetinin məlumatı Qarabağda qaldırılan erməni qiyamı ilə eyni günə düşürdü. Azərbaycan hökumətinin nümayəndəsi general Kərimovla Osmanlı dövlətinin nümayəndəsi Cavad paşa arasında 1920-ci ilin fevral ayında İstanbulda gizli şəkildə imzalanmış sazişin fransız hərbi missiyasının əlinə keçməsi bu şübhələri daha da artırmışdı.[1344]

Mart ayının 20-dən başlayaraq, ermənilər Qars və Azərbaycanla sərhəd rayonlarda da müsəlman əhalisinə qarşı hərbi əməliyyatlara başlamışdılar. Azərbaycan Respublikasının İrandakı diplomatik nümayəndəsi A.Ziyadxanov respublika Xarici İşlər Nazirliyinə göndərdiyi məruzədə yazırdı: "Mart ayının 20-

[1341] Yenə orada, s.262
[1342] З.Авалов. Независимость Грузии в международной политике, с.263
[1343] The Times, 1920, 20 March.
[1344] P.O. Le Chef d'Etat-Major Général Illisible - Le Général Franchet d'Esperey, Commandant en Chef les Armées en Orient, à Monsieur le Ministre de la Guerre, Copie pour: A.E., Mal Foch. Le 14 février 1920.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 638, folio 193-194



downloaded from KitabYurdu.az

dən başlayaraq, mən erməni hərbi hissələrinin Naxçıvan və Ordubad rayonlarına mütəşəkkil hücumları barədə Naxçıvandan və İranın müxtəlif yerlərindən teleqramlar almışam. Bu teleqramlarda göstərilir ki, İran erməniləri də hücumlarda iştirak edirlər. Top atəşləri xüsusi dağıntılara səbəb olur. Yerli əhali öz torpaqlarını qəhrəmancasına qoruyur, lakin tezliklə kömək göndərilməsini xahiş edirlər... Bu işlərdə İran ermənilərinin iştirak etməsi ilə bağlı...mən İran hökuməti qarşısında məsələ qaldırmışam. Eyni zamanda ermənilərin bu rayonda hücumları haqqında mən Tehranda olan İngiltərə, Amerika, Fransa səfirlərinə məlumat vermişəm".[1345]

Azərbaycan-Türkiyə gizli hərbi sazişinin olduğuna Avropa ictimaiyyətini inandırmaq üçün ermənilər belə məlumatlar yayırdılar ki, vaxtilə Bakının tutulması əməliyyatına komandanlıq etmiş Nuru paşa guya Qarabağdadır. Bu məlumatlar Qafqazda olan Fransa hərbi missiyası vasitəsi ilə Avropa siyasi dairələrinə çatdırılırdı.[1346] Azərbaycan xarici işlər naziri Xan Xoyski Ermənistan hökumətinə göndərdiyi notada bunun şayiə olduğunu göstərsə də, vəziyyətin süni şəkildə gərginləşdirilməsi üçün ermənilər belə təxribatlardan bacarıqla istifadə edirdilər. Bu şayiələrin yayılmasında əsas məqsədlərdən biri Azərbaycanı müttəfiqlərin yardımından məhrum etmək idi. Ə.M.Topçubaşov Parisdə müttəfiq dövlətlərin səlahiyyətli nümayəndələrinə nota təqdim edərək bu şayiələri qətiyyətlə rədd etdi.[1347] O, Azərbaycan ətrafında yaranmış böhranlı vəziyyətlə əlaqədar, xüsusilə Şimal təhlükəsi ilə bağlı respublika xarici işlər nazirliyindən geniş məlumat aldığından Müttəfiqlər tərəfindən Azərbaycana yardım göstərilməsi üçün fədakarlıqla çalışırdı. Azərbaycan-Türkiyə gizli hərbi sazişi haqqında məlumatlar yayıldıqdan sonra Parisdə olan erməni nümayəndələri Azərbaycana etibar etmədiklərini bildirdilər və 1919-cu ilin noyabrında Azərbaycanla Ermənistan arasında Tiflisdə imzalanmış müqavilənin onlar üçün əhəmiyyətini itirdiyini qeyd etdilər.[1348] Göründüyü kimi, "Tayms" qəzetində martın 20-də çap edilən məlumat, eynilə həmin gün Qarabağda erməni qiyamı, Naxçıvan və Ordubada qarşı başlanan hərbi əməliyyatlar, bunlarla bir vaxtda Londondakı erməni nümayəndələrinin 1919-cu il noyabr sazişindən imtina etmələri eyni bir niyyətdən irəli gəlirdi. London konfransında Cənubi Qafqaz respublikaları haqqında müzakirələr başa çatdırılmadı və qarşıdakı San-Remo konfransına keçirildi. Müttəfiqlərin London konfransının müzakirələrinə qatılan Azərbaycan nümayəndələri 1920-ci ilin mart ayının 3-də Londondakı Valter Cons Skulda Azərbaycanın tarixi və iqtisadi həyatına dair maraqlı bir konfrans keçirdilər. Konfrans iştirakçılarına professor

---

[1345] Azərbaycan Respublikasının İrandakı diplomatik nümayəndəsi A.Ziyadxanovun Xarici İşlər Nazirliyinə məruzəsi. Mart 1920. //ARDA, f.970, s.l, i.127, v.2

[1346] Secret Télégramme chiffré Constantinople, General Mangin à Guerre. Le 5 Mars 1920.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 638, folio 217

[1347] T.Swietochowski. Russian Azerbaijan, p.162

[1348] З.Авалов. Независимость Грузии в международной политике, с.263



downloaded from KitabYurdu.az

Montberand Azərbaycan haqqında geniş məlumat verdi.[1349] Parisə qayıtdıqdan sonra Londonda keçirilmiş konfrans barədə Azərbaycan nümayəndələri informasiya bülletenində geniş məlumat dərc etdilər.

Azərbaycan istiqlaliyyətinin tanınması və London konfransında cərəyan edən hadisələr təcili surətdə Avropa ölkələri və Amerikaya Azərbaycan Respublikasının diplomatik missiyalarının göndərilməsini zəruri edirdi. Bu məsələ hələ tanınmadan əvvəl Azərbaycan hökumətinin diqqət mərkəzində idi və hökumət hələ yanvar ayının 7-də Qərbi Avropa, Amerika, Polşa və keçmiş Rusiya imperiyası hüdudlarında yaradılmış yeni dövlətlərə diplomatik missiya göndərmək barədə qərar qəbul etmişdi. Lakin az sonra Azərbaycanın istiqlaliyyəti Paris Sülh konfransı tərəfindən tanındıqdan sonra vəziyyət yaxşılığa doğru dəyişdi və Avropa, Amerika ölkələri ilə beynəlxalq hüquqda nəzərdə tutulan formalarda diplomatik münasibətlər yaratmaq zərurəti meydana çıxdı.

Mart ayının 5-də hökumət öz iclasında bu məsələni müzakirə edərək, Avropa və Amerikaya altı diplomatik nümayəndə heyətinin göndərilməsi barədə qanun layihəsi hazırlayıb parlamentin müzakirəsinə verdi. Eyni zamanda hökumət, Paris Sülh konfransı öz işini başa çatdırdığı üçün konfransda olan Azərbaycan nümayəndəliyinin ləğv edilməsini də irəli sürürdü. Hökumətin hazırladığı "Qərbi Avropa və Amerikada Azərbaycan Respublikasının diplomatik missiyalarının yaradılması və Paris Sülh konfransındakı Azərbaycan nümayəndəliyinin ləğv edilməsi haqqında" qanun layihəsində göstərilirdi: 1. Bu ilin 1 aprelindən başlayaraq Fransa Respublikası, Böyük Britaniya, İsveçrə Respublikası, İtaliya, ABŞ və Polşa Respublikası hökumətləri yanında Azərbaycan diplomatik missiyaları təsis edilsin. 2. Fransa hökuməti yanında təsis edilən Azərbaycan diplomatik missiyası Parisə gəldikdən sonra, hökumətin 1918-ci il 28 dekabr tarixli qərarı ilə yaradılmış Paris Sülh konfransındakı Azərbaycan nümayəndəliyi ləğv edilsin. 3. Yuxarıda adları çəkilən altı diplomatik missiyanın fəaliyyəti üçün aprel ayının 1-dən etibarən altı ay müddətinə 88.320 funt sterlinq həcmində vəsait buraxılsın.[1350] Polşadan başqa qalan beş nümayəndəliyin hər biri dörd nəfərdən: diplomatik nümayəndədən, iqtisadi-texniki məsələlər üzrə mütəxəssis olan məsləhətçidən, katib və tərcüməçidən ibarət olmalı idi. Polşaya göndəriləcək missiya bilavasitə Polşa hökuməti ilə yanaşı Latviya, Litva, Ukrayna, Estoniya və Finlandiya dövlətləri ilə də siyasi-iqtisadi münasibətlərdə Azərbaycan Respublikasını təmsil edəcəyindən, bu missiyanın altı nəfər olması nəzərdə tutulurdu. Bütün altı nümayəndəlik ilə sistematik əlaqə saxlamaq üçün xarici işlər

---

[1349] Une Conference sur l'Azerbaidjan devant les Etudiants anglais. // Bulletin D'informations L'Azerbaidjan. Paris, 15 Mars 1920, № 11, p.5

[1350] "Qərbi Avropada və Amerikada Azərbaycan Respublikasının diplomatik missiyalarının yaradılması və Paris Sülh konfransındakı Azərbaycan nümayəndəliyinin ləğv edilməsi haqqında" qanun layihəsi. 05.03.1920. //ARDA, f.970, s.l, i.221, v.3



downloaded from KitabYurdu.az

nazirliyi hər missiya üçün ayrıca diplomatik kuryer ayrılmasını nəzərdə tutmuşdu.[1351]

Avropa ölkələrinə və ABŞ-a diplomatik nümayəndəlik göndərmək haqqında qanun layihəsi bir qədər gec, aprel ayının 15-də Azərbaycan Parlamentində müzakirə edildi. Qanun layihəsi haqqında parlament üzvü M.Əfəndizadə məruzə etdi. Parlamentin iclasında çıxış edən xarici işlər naziri Xan Xoyski layihə ilə bağlı bəzi məsələləri izah etdi. O dedi: "Əlbəttə, biz arzulayırıq ki, dünyanın bütün dövlətlərində öz nümayəndəmiz olsun, təəssüf ki, Azərbaycan elə vəziyyətdədir ki, bütün dövlətlərə öz nümayəndələrini göndərə bilməz. Ona görə də, hökumət ən nüfuzlu ölkələrə missiya göndərilməsi ilə məhdudlaşmağı qərara aldı. Hər şeydən əvvəl, İngiltərə, Fransa, İtaliya və Amerikaya missiyalar göndərilir. Bunlar o dövlətlərdir ki, təkcə Avropada deyil, bütün dünyada həlledici rol oynayırlar. Sonra İsveçrəyə missiya göndərilməsi nəzərdə tutulub. Bu ölkə elə bil ki, bütün dünyanın mərkəzi hesab edilir. Hər cür beynəlxalq konfransların böyük bir hissəsi İsveçrədə keçirilir. Kiçik İsveçrədə cərəyan edən hadisələr bəzən dünya siyasətinin gedişinə təsir göstərir. Ona görə də hökumət bu ölkədə diplomatik missiyanın olmasını zəruri hesab edir. Nəhayət, Polşaya missiya göndərilir. Azərbaycanla Litva, Latviya, Finlandiya, Estoniya, Rumıniya və digər ölkələr arasında sıx əlaqələr yaratmaq bu missiyanın vəzifəsidir. Göründüyü kimi, bu missiyanın işi digərlərindən çoxdur, ona görə də Polşaya gedən missiyanın üzvlərinin sayını iki nəfər artırmışıq".[1352] Eyni zamanda Xan Xoyski bildirdi ki, bu missiyalar müvəqqəti, altı aylıq müddət üçün nəzərdə tutulmuşdur, bu müddət ərzində hökumət hansı ölkədə daimi diplomatik nümayəndəlik təsis etmək məsələsini dəqiqləşdirməli idi. Parlament iclasında çıxış edən "Hümmət" fraksiyasının üzvü Ə.Q.Qarayev Sovet Rusiyasına diplomatik missiya göndərilmədiyi üçün qanun layihəsini kəskin şəkildə tənqid etdi. O dedi: "Mən bilmək istəyirəm bizim hökumətin dostluq münasibətləri qurmaq istədiyi dövlətlər içərisində nə üçün Sovet Rusiyası yoxdur. Nə üçün bütün imperialist dövlətlərinə missiya göndərərkən, siz öz həqiqi dostumuzu unudursunuz".[1353] Ə.Qarayevin çıxışı zalda böyük etiraza səbəb oldu. Xan Xoyski ona verdiyi kəskin cavabda deyirdi: "Mən bilmirəm çıxış edən natiq, həqiqətən müzakirə edilən məsələdən danışır, yoxsa demaqogiya ilə məşğuldur. Bizə deyirlər ki, nə üçün biz Sovet Rusiyası ilə dostluq münasibətləri yaratmaq istəmirik. Biz həmişə xalqımızın böyük rus xalqı ilə sıx yaxınlığı fikrində olmuşuq və oluruq. Əgər bu dostluq yoxsa, bu bizim günahımız deyil. Biz üç dəfə Sovet Rusiyasına dostluq münasibətləri qurmaq üçün danışıqlara getməyə hazır olduğumuzu təklif etmişik. İndiyə qədər bizim təklifimiz diqqətdən kənarda qalıb. Çıxış edən natiq nahaq yerə bizi günahlandırır. Əgər o, istəyirsə ki, bizimlə Rusiya arasında dostluq münasibətləri yaradılsın, qoy onda o, öz

[1351] Yenə orada, v.6
[1352] Azərbaycan parlamentinin iclasının stenoqramı. 15.04.1920. //ARDA, f.895, s.l, i.294, v.6
[1353] Yenə orada, v.12



downloaded from KitabYurdu.az

həmfikirlərini /Sovet Rusiyasını - C.H./ danışıqlara getməyə məcbur etsin. Bizə göstəriş vermək lazım deyil, göstərişi o kəslərə vermək lazımdır ki, indiyə qədər bu məsələnin həllini yubadırlar". Qanun layihəsinin müzakirəsi ilə bağlı A.Səfikürdski və Q.Qarabəyov öz fraksiyalarının adından bəyanat verdilər ki, onların fraksiyaları müzakirə edilən qanun layihəsini almayıblar və ona görə də, onu müzakirə etmək imkanları olmamışdır. Hər iki fraksiyanın /sosialist və ittihad/ nümayəndəsi təklif etdi ki, qanun layihəsinin müzakirəsini gələn iclasa saxlasınlar. Müsavat fraksiyası adından çıxış edən A.Əminov bildirdi ki, onlar qanun layihəsinin müzakirəsinin gələn iclasa keçirilməsinə etiraz etmirlər.[1354] Dörd gün sonra parlament aprel ayının 19-da yenidən bu məsələyə qayıtdı və Böyük Britaniya, Fransa, İtaliya, ABŞ, İsveçrə və Polşa /Latviya, Litva, Estoniya, Finlandiya, Ukrayna, Rumıniya/, Almaniya və Rusiyada diplomatik nümayəndəlik təsis etmək haqqında qanun qəbul etdi.[1355] Rusiyaya diplomatik nümayəndəlik göndərmək məsələsi ilə bağlı qeyd etmək lazımdır ki, aprel ayının 17-də RSFSR xarici işlər nazirinin müavini L.M.Qaraxandan teleqram alınmışdı ki, Sovet Rusiyası Azərbaycanla ticarət-iqtisadi əlaqələr yaratmağa razıdır. Rusiya ilə danışıqlar aparmaq üçün nümayəndəliyin təxmini heyəti də müəyyən edildi. Bura Ağa Əminov /sədr/, R.Rzayev, R.Vəkilov, M.Məlikov daxil idilər.[1356] Aprel ayının 21-də isə hökumətin işlər müdiri Pərviz Mirzə, parlament üzvləri R.Vəkilov və Ə.Pepinovdan ibarət Azərbaycan nümayəndə heyəti Azərbaycanla Dağıstan hakimiyyət orqanları arasında qarşılıqlı münasibətlər yaratmaq üçün Şimali Qafqaza yola düşdülər.[1357]

1920-ci ilin aprel böhranı ərəfəsində Azərbaycan Respublikasının beynəlxalq aləmdən təcrid edilməsi artıq aradan qaldırılmış və onun diplomatik cəhətdən geniş tanınması dövrü başlanmışdı. Azərbaycan Respublikası Gürcüstanla /səlahiyyətli nümayəndə F.Vəkilov/, Ermənistanla /səlahiyyətli nümayəndə Ə.Haqverdiyev/, İranla /diplomatik nümayəndə A.Ziyadxanov/, Türkiyə ilə /səlahiyyətli nümayəndə Y.V.Çəmənzəminli/ rəsmi diplomatik əlaqələr saxlayırdı. Azərbaycanın Batum konsulluğuna M.Əfəndiyev, Türküstandakı siyasi nümayəndəliyinə A.Sadıqov başçılıq edirdi.[1358]

Öz növbəsində Azərbaycanda da artıq bir çox xarici dövlətlərin diplomatik missiyaları fəaliyyət göstərirdi. İngiltərə /vitse-konsul Tevelk/, Belçika /konsul Ayvazov/, Yunanıstan /konsul Kusis/, Ermənistan /səlahiyyətli nümayəndə U.A.Bekzadyan/, Gürcüstan /səlahiyyətli nümayəndə N.S.Alişbaya/, Danimarka /konsul Z.F.Bmerinq/, İtaliya /konsul L.Qrikurov/, Litva /konsul agenti V.İ.Miskeviç/, İran /səlahiyyətli nümayəndə Səədül-Vəzir/, Polşa /konsul agenti S.Rılski/, ABŞ /vitse-konsul Randolf/, Ukrayna /vitse-konsul Qolovan/, Finlandiya

---

[1354] Yenə orada,v.l5
[1355] Азербайджан, 1920, 28 апреля; ARDA, f.970, s.l, i.224, v.4
[1356] Yenə orada, v.4
[1357] Yenə orada, v.5
[1358] H.Baykara. Azerbaycan İstiklal mücadilesi tarihi, s.284



downloaded from KitabYurdu.az

/konsul agenti Beçelius/, Fransa /konsul agenti Yemelyanov/, İsveçrə /konsul Klettyü/, İsveç /konsul Vander Pluq/ diplomatik nümayəndələri artıq tam səlahiyyətlə fəaliyyətə başlamış, Yaponiya hökuməti Azərbaycanla diplomatik münasibətlər yaratmağa hazır olduğunu bildirmiş, Vatikan isə Antuan Delabus başda olmaqla öz nümayəndələrini Bakıya göndərmişdi.[1359]

Hələ nə qədər ki, Avropa ölkələrinə diplomatik nümayəndəliklər göndərilməmişdi, Ə.M.Topçubaşov başda olmaqla Azərbaycan Sülh nümayəndə heyəti Versal Ali Şurasının keçirdiyi beynəlxalq tədbirlərdə Azərbaycan Respublikasını təmsil edirdi. London konfransından sonra müttəfiqlər Paris Sülh konfransında yarımçıq qalmış məsələləri müzakirə etmək üçün aprel ayının 19-26-da San-Remoda /İtaliya/ toplaşdılar. San-Remo konfransında Fransadan Mileran, İngiltərədən Lloyd Corc, İtaliyadan Nitti, Yaponiyadan Matsiu iştirak edirdi. ABŞ nümayəndələri konfransda müşahidəçi kimi təmsil edilmişdi.[1360] Yunan və Belçika nümayəndələri isə yalnız öz mənafeləri ilə bağlı məsələlərin müzakirəsinə gəlirdilər. Konfransda Azərbaycan nümayəndələrini maraqlandıran bir sıra məsələlər - Batum məsələsi, neft məsələsi, Türkiyə ilə hazırlanan sülh müqaviləsinin ilkin layihəsi və Türkiyə- Ermənistan sərhədləri, Cənubi Qafqaz respublikalarının sərhədləri, habelə rus məsələsi və Cənubi Qafqaz respublikalarına yardım göstərilməsi məsələsi müzakirə ediləcəkdi.

Hələ konfrans ərəfəsində Qafqaz respublikaları ilə bəzi məsləhətləşmələr aparmaq və xüsusilə, San-Remo konfransına qədər bu respublikalar arasında müxtəlif məsələlərə münasibətdə həmrəylik yaratmaq məqsədi ilə Böyük Britaniya öz Xarici İşlər Nazirliyinin nümayəndəsi Robert Vansittartı Parisə göndərmişdi. Aprel ayının 13-də İngilis nümayəndəsinin yerləşdiyi Kampbel mehmanxanasında N.Çxeidze, Ə.M.Topçubaşov, Boqos-Nubaryan və A.Ağaronyanın iştirakı ilə müşavirə keçirildi. Müşavirədə R.Vansittart çıxış edərək bildirdi: "Mən üzərimə qoyulan vəzifəni yerinə yetirmək üçün Parisə gəlmişəm ki, sizinlə bəzi ümumi məsələlərinizi dostcasına müzakirə edək." O, dedi: "Ali Şurada çoxları bu fikirdədir ki, Cənubi Qafqaz respublikalarının heç bir gələcəyi yoxdur, çünki onlar vəziyyəti sabitləşdirməkdə həmrəy olmağa qadir deyildirlər... həqiqətən, çox şey bu fikri təsdiq edir. Məsələn, bizə məlumdur ki, hər üç Cənubi Qafqaz respublikasının Batum haqqında tamamilə bir-birindən fərqlənən fikri vardır. Və digər mübahisəli məsələlər də çoxdur. Bir az əvvəl Londonda Topçubaşovun təqdim etdiyi memorandumla tanış olduqdan sonra mən fikirləşdim ki, orada yüksək dövlət xadiminə layiq ideya irəli sürülüb".[1361]

Azərbaycan hökuməti bu fikirdə idi ki, respublikanın Qərb ölkələri ilə ticarət əlaqələrini inkişaf etdirmək üçün Gürcüstan ərazisindən azad tranzit kimi istifadə edilməsi Versal Sülh Müqaviləsinin 89-cu paraqrafı ilə tənzimlənməlidir.

---

[1359] Адрес Календарь Азербайджанской Республики, с.7-8
[1360] История дипломатии. Т.3, с.210
[1361] З.Авалов. Независимость Грузии в международной политике, с.265-266



downloaded from KitabYurdu.az

Versal Sülh Müqaviləsi Çexoslovakiyanın dənizə çıxış yolunu Hamburqdan, Polşanın dənizə çıxış yolunu Dansiqdən, Buxarest sülhü isə Serbiyanın dənizə çıxış yolunu Salonikidən təmin etdiyi kimi, Azərbaycanın dənizə çıxış yolu da Versal Müqaviləsinin 89-cu paraqrafina uyğun olaraq, Batumdan təmin edilməli idi.[1362] Bundan əlavə, Londonda Britaniya Xarici İşlər Nazirliyinə təqdim etdiyi memorandumda Əli Mərdan bəy təklif edirdi ki, mübahisəli ərazilərə Cənubi Qafqaz respublikaları birgə nəzarət etsinlər.[1363] Lakin Ə.M.Topçubaşovun ingilislər tərəfindən bəyənilən bu təklifi gürcülər və ermənilərin etirazına səbəb oldu. Ermənilər Azərbaycanın Batuma olan iddiasını tamamilə inkar edirdilər, gürcülər isə qonşu respublikaların limandan istifadə hüququnu saxlamaqla Batumun şəriksiz olaraq onlara verilməsini tələb edirdilər. R.Vansittart gürcülərə bildirdi ki, müttəfiqlərin Batum üzərində Gürcüstanın suverenliyini tanımağa onun ümidi çox azdır.[1364] Britaniya nümayəndəsinin bu fikri onunla bağlı idi ki, Batum əslində ingilislərin nəzarətində idi və bolşeviklərin əlindən qaçan ağ ruslar ora doluşmuşdular. N.Jordaniya sonralar yazırdı: "Batum və onun ətrafı demək olar ki, ağqvardiyaçılara verilmişdi, İngiltərənin Gürcüstanda nümayəndəsi bizim dostumuz Uordropun olmasına baxmayaraq, Batuma münasibətdə bizə qarşı hər cür maneələr yaradılırdı".[1365]

Aprel ayının 15-də üç respublikanın nümayəndələri birlikdə, ayın 16-da isə yenidən ingilis nümayəndəsinin iştirakı ilə Batum məsələsini müzakirə etdilər. İngilis nümayəndəsi Qafqaz respublikalarının nümayəndələrinə açıq şəkildə bildirdi ki, Cənubi Qafqaz respublikaları arasında mübahisələrin həll edilməməsi müttəfiqlərin ora silah göndərilməsinə maneçilik törədən başlıca məsələdir. O dedi ki, müttəfiqlər "ehtiyat edirlər ki, sizə göndərilən silah qarşılıqlı çəkişmələrinizə xidmət etsin".[1366]

R.Vansittartın ciddi cəhdlərinə baxmayaraq, Qafqaz respublikaları nə Batum, nə də digər mübahisəli məsələlərdə razılığa gəlmədilər. Hər üç nümayəndə heyəti konfransda çıxış etmək üçün San-Remoya yola düşdü. Konfransın ikinci günü müttəfiqlər Ermənistanda 40 minlik ordu yaradılması məsələsini müzakirə etdilər və Ermənistan mandatının Norveçə verilməsi məsələsinə toxundular, lakin Norveç bundan imtina etdikdə yenidən həmin mandatın götürülməsi ABŞ-a təklif edildi. Konfransın keçirildiyi günlərdə, aprel ayının 23-də ABŞ Ermənistanı de-fakto tanısa da, lakin mandatın qəbul edilməsi məsələsi çox uzadıldı. Uzun süründürmələrdən sonra, iyun ayının 1-də Konqres Ermənistan mandatı ilə bağlı hökumətin təqdim etdiyi təklifi rədd etdi. O.Kaçaznuni 1923-cü ildə Buxarestdə

---

[1362] ARDA, f.28, s.1, i.42, v.35
[1363] Mir Yacoub. Le probleme du Caucase, p.133
[1364] З.Авалов. Независимость Грузии в международной политике, с.266
[1365] Н.Жордания. Моя жизнь, с. 106
[1366] З.Авалов. Независимость Грузии в международной политике, с.268



downloaded from KitabYurdu.az

nəşr edilmiş geniş həcmli "Daşnaksutyuna bir iş qalmadı" məruzəsində yazırdı: "Şimali Amerika Birləşmiş Ştatlarının Senatı Ermənistan üzərində mandatı götürməkdən imtina etdi, o mandatı ki, biz nə qədər böyük ümidlər bəsləyirdik".[1367] U.Çörçil də qeyd edir ki, böyük dövlətlər tərəfindən erməni məsələsinin həll ediləcəyinə təntənəli şəkildə verilən vədlər kağız üzərində qaldı. Heç bir ölkə Ermənistan üzərində mandatı götürmək istəmirdi. Britaniya, İtaliya, Amerika, Fransa onu tumarlayır və yalnız asta-asta başlarını yırğalayırdılar. 1920-ci ilin mart ayının 12-də Ali Şura bu mandatı Millətlər Cəmiyyətinə təklif etdi. Lakin vəsaiti və canlı qüvvəsi olmayan Cəmiyyət ağıllı hərəkət edərək qəti surətdə ondan imtina etdi.[1368]

Aprelin 20-də erməni məsələsinin San-Remo konfransında müzakirə edilməsi ermənilərin öz qonşularına olan təkəbbürlü münasibətini daha da artırdı. Cənubi Qafqaz respublikalarının sərhədləri məsələsini Avropada öz xeyirlərinə həll etmək üçün onlar yerlərdə sabitliyi pozur və yerlərdən teleqramlar göndərilməsinə nail olurdular ki, sərhədlər məsələsi Ali Şura tərəfindən həll edilsin. Mart ayında ermənilər qiyam qaldırıb, Qarabağda sabitliyi pozduqdan sonra Tiflisdə olan Fransa nümayəndəsi Parisə göndərdiyi teleqramda yazırdı ki, Qarabağ məsələsi burada həll edilə bilməz, onu həll etmək üçün Antanta Ali Şurası ən ciddi ölçü götürməlidir.[1369] Buna uyğun olaraq, ABŞ San-Remo konfransına təklif etmişdi ki, Ermənistanın Azərbaycan və Gürcüstanla olan sərhədləri Antanta Ali Şurası tərəfindən müəyyən edilməlidir. Lakin konfrans buna getmədi. Lloyd Corc təkidlə göstərdi ki, burada bu məsələ üzərində dayanmağa heç bir zərurət yoxdur. Ermənistanın Azərbaycan və Gürcüstanla sərhədləri qarşılıqlı saziş əsasında bu respublikaların özləri tərəfindən həll edilməlidir.[1370]

Türkiyə ilə digər müsəlman ölkələri arasında "Böyük Ermənistan" dövləti yaratmaq məsələsi yenidən San-Remoda qaldırıldı. ABŞ prezidenti V.Vilson "Böyük Ermənistan" yaratmaq barədə öz təklifləri ilə konfransın sədri F.Nittiyə müraciət etmişdi. Bu müraciət konfrans iştirakçıları tərəfindən təriflənsə də, son anda uğursuzluqla nəticələndi. F.Nitti bu haqda yazırdı: "1920-ci ilin yazında San-Remoda konfransa sədrlik etdiyim zaman mən Vilsondan odlu-alovlu bir məktub aldım. Məktubda o, Antanta dövlətlərini Ərzurum bölgəsini /orada iki-üç erməniyə güclə rast gəlmək olar/ və ermənilərin dənizə çıxışını təmin edəcək Trapezundu öz içinə qatan Böyük Ermənistan yaratmağa çağırırdı. Məktub məzəmmətlə, danlaqla dolu idi. Prezident Vilsonun arzusunda olduğu Ermənistanı yaratmaq üçün əvvəlcə gərək o yerlərdən türkləri və rusları qovub çıxarasan. Yaxşı, kim bunu götürəcək öz boynuna? Mən bu məsələ barədə marşal Foş, general Badolye, feldmarşal

---

1367 О.В.Качазнуни. Дашнакцутюн больше нечего делать. Баку, 1990, с.45

1368 В.Черчилль. Мировой кризис, с.278

1369 Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 4; ARPİİ SPİHDA, ARDA, f.276, s.9, i.15, v.29

1370 Д.Ллойд Джордж. Правда о мирных договорах. Т.II, с.443



downloaded from KitabYurdu.az

Vilson və digər hərbi ekspertlərlə məşvərət keçirdim. Hamı Vilsonun məqsəd və fikirlərini təriflədi, lakin nə İngiltərə, nə Fransa, nə də İtaliya ağır bir vəzifəyə - Ermənistanı öz protektoratlığına qəbul etmək məsələsinə razılıq vermədi... Çünki bu, birbaşa türklər, daha sonra isə ruslarla müharibə etmək demək idi. Erməniləri öz protektoratlığına götürmək barədə təklifdən, çox hörmətli bitərəf dövlət olan Norveç də ləyaqətlə imtina elədi".[1371] Yalnız Lord Kerzon təkid edirdi ki, əgər Ərzurum və Trabzon Ermənistana verilərsə, ermənilər öz qüvvələri ilə oranı müdafiə edə bilərlər. O, Lloyd Corc, Nitti və Mileranı bu ideyaya inandırmaq üçün erməni nümayəndələri Boqos Nubaryanı və A.Ağaronyanı Ali Şuranın müzakirələrinə dəvət etdi. F.Nitti Boqos Nubaryana müraciət edərək dedi: "Ermənistan Ərzurumu özünə qatmaq istəyirmi və o, özünün yeni sərhədlərini qorumağa hazırlaşırmı? Boqos Nubar-paşa belə hesab edirmi ki, Ermənistan öz ordusunu yenidən qurmaq və yeni dövlətin müdafiəsi üçün vəsait tapmaq iqtidarındadır?" Bir sual da Lloyd Corc əlavə etdi: "Paşa belə hesab edirmi ki, hazırda türklərin əlində olan Ərzurumu ermənilər tutmaq iqtidarındadır?"[1372] Bütün bu suallara cavab olaraq, Boqos Nubar paşa müttəfiqləri əmin etdi ki, ermənilər Ərzurumu tutub orada möhkəmlənə bilərlər. O, qeyd etdi ki, Ermənistanın indi 15 minlik ordusu var və heç bir çətinlik olmadan onlar bu ordunun sayını 40 minə çatdıra bilərlər. Bundan əlavə, ABŞ-dan 10 minlik erməni legionunun köməyə gəlməyə hazır olduğunu bildirdi.[1373] Sonra Lloyd Corc Boqos Nubardan soruşdu ki, son əlli-yüz ildə elə bir vaxt olubdur ki, ermənilər Ərzurum vilayətində sayca üstünlük təşkil etsinlər? O, bu suala təsdiqləyici cavab verdi. Lakin dəqiqliyi sevən ingilis baş naziri əlavə olaraq soruşdu ki, Boqos Nubar bu bəyanatını rəqəmlərlə təsdiq edə bilərmi?[1374] Boqos Nubar sorğuya müsbət cavab versə də, lakin nə o, nə də digər erməni nümayəndəsi A.Ağaronyan bu faktı rəqəmlərlə təsdiq edə bilmədilər. Digər məsələlərlə bağlı, ermənilərin cavabları Lloyd Corcu və Nittini təmin etmədi. Ermənilərin hərbi imkanlarını öyrənən hərbi ekspertlər San-Remo konfransına məlumat verdi ki, Ali Şura Ermənistana ordu göndərməmək haqqında qərar qəbul etmişdir, ermənilər yalnız öz qüvvələrinə arxalanmalıdırlar, belə olduqda onlar "Türkiyə Ermənistanı"nı və xüsusilə, Ərzurumu tuta bilməzlər.[1375] Çünki Anadoluda gedən prosesləri yaxından izləyən Antanta hərbi ekspertləri çox yaxşı bilirdilər ki, fransız və amerikalılar türklərin yolunu Avropaya, ingilislər isə Qara dənizə bağlayandan sonra Ərzurum Türkiyəni müdafiə edən qüvvələrin əsas mərkəzi idi.[1376] Böyük dövlətlərin nümayəndələri son anda başa düşdülər ki, Türkiyənin tərkibində erməni dövləti yaratmaq o qədər də asan məsələ deyildir.

---

[1371] Ф.Нитти. Вырождение Европы, с. 107
[1372] Д.Ллойд Джордж. Правда о мирных договорах. Т.II, с.434
[1373] Yenə orada, s.435
[1374] Yenə orada, s.437
[1375] Д.Ллойд Джордж. Правда о мирных договорах. Т.II, с.438
[1376] ARDA, f.970, s.l, i.22, v.28



downloaded from KitabYurdu.az

Uzun müddət Türkiyədə işləyən fransız diplomatı Jül Kambon erməniləri yaxşı tanıyır və onların hansı məqsədlər güddüyünü yaxşı bilirdi. O, Qərb dövlət başçılarına izah edirdi ki, Osmanlı imperiyasının hüdudlarında müstəqil erməni dövləti yaratmaq qeyri-mümkündür. Kambon yazırdı: "Ermənilər bolqar və yunanlar kimi təbii sərhədləri olan bir dövlət yarada bilməzlər, çünki onların ətrafındakı millətlər dözə bilməzlər ki, ermənilər onların ərazisini zəbt etsinlər, onları doğma torpaqlarından sıxışdırsınlar... Ermənilər pərakəndə halda Türkiyənin bütün ərazisinə yayılmışlar, hətta Ermənistanın ərazisinin özündə belə ermənilər müsəlmanlarla qarışıq halda yaşayırlar".[1377] Kambon qeyd edirdi ki, Türkiyədə erməni dövləti yaratmaq üçün heç bir əsas yoxdur. Onun izahatları Lloyd Corc, F.Nitti, A.Mileranın erməni məsələsinə daha ehtiyatla yanaşmasında böyük rol oynadı. Hərbi ekspertlərin rəyi elan olunduqdan sonra Lloyd Corc dedi: "Böyük Ermənistan dövləti yaradılmasının məsuliyyətini mən öz üzərimə götürə bilmərəm, Parisdə bu məsələlərlə məşğul olan Balfurla mən məsləhətləşdim, Balfur tamamilə mənim fikrimlə razıdır... Şəxsən mən, bu fikirdəyəm ki, Böyük Ermənistanın yaradılması Hindistanda və bütün dünyada arzuolunmaz əhvali-ruhiyyə doğura bilər".[1378] Lloyd Corcun bu fikri Türkiyə ərazilərini ələ keçirmək arzusunda olan ermənilərin ümidlərini tamam qırdı. Sonralar daşnak liderlərindən biri O.Kaçaznuni etiraf edirdi ki, mənasız və şişirdilmiş tələblər təbii ki, acı məyusluqla əvəz olunmalı idi.[1379]

Türkiyəni taqətdən salmaq üçün müttəfiqlər erməni kartı ilə yanaşı, ərəb kartından da istifadə etmək niyyətində idilər. Xristian həmrəyliyindən fərqli olaraq, ərəb kartında qarşıya qoyulan məqsədlərdən biri müsəlmanlar içərisinə nifaq salmaq, bununla da ərəblər vasitəsi ilə Avropa üçün təhlükə təşkil edən Türkiyəni məhv etməkdən ibarət idi. İtaliyanın baş naziri, hər üç konfransın iştirakçısı F.Nitti qeyd edirdi ki, "Parisdə, Londonda, San-Remoda heyrətamiz nəzəriyyələr müzakirəyə qoyulurdu. Oralarda ərəblərin türklərdən mədəni və ziyalı olmasından, türklərin faktiki olaraq, ərəblərin dininə sahib durmasından söhbət açır və hesab edirdilər ki, Türkiyəni məhv etmək üçün təkcə ərəblərin ayılması, ayağa durması bəs edər. Niyə müsəlman dünyası birbaşa Peyğəmbərdən başlanğıc olan Hicaz xəlifəsinə deyil, bir neçə yüz il öncə meydana çıxan və zorakılıqla qurulub, möhkəmlənən İstanbul xəlifəsinə etiqad etməlidir? Antantanın bütün yaradıcılığı məğlub dövlətlərin axırına çıxmaq üzərində qurulmuşdu".[1380]

Bunun üçün Antanta dövlətləri Türkiyəni və ərəb xəlifəliyini əvəz edəcək, ərəb dövlətləri yaratmaq layihəsini irəli sürdülər. Bu layihəyə görə, Ərəbistan 8 müstəqil və yarımmüstəqil əyalətə bölünməli, Kürdüstana muxtariyyət verilməklə, onun müstəqilliyi elan edilməli idi. Layihədə nəzərdə tutulurdu ki, Hicaz Hüseyn-

[1377] Mir Yacoub. Le probleme du Caucase, p.71
[1378] Д.Ллойд Джордж. Правда о мирных договорах. Т.II, с.438
[1379] О.В.Качазнуни. Дашнакцутюн больше нечего делать, с.44
[1380] Ф.Нитти. Вырождение Европы, с. 106-107



downloaded from KitabYurdu.az

ibn-Əlinin hakimiyyətinə verilsin. Lord Kerzon və digərlərinin fikrincə o, din sahəsində İstanbul Sultanını əvəz etməli idi.

Batum məsələsi ilə bağlı müzakirələr San-Remoda yenidən davam etdirildi. Aprel ayının 23-də Azərbaycan və gürcü nümayəndələri bu barədə konfransın katibliyinə birgə memorandum təqdim etdilər və aprelin 24-də isə ingilis nümayəndələri ilə bu məsələni hər üç Qafqaz respublikaları Raul mehmanxanasında keçirilən müşavirədə müzakirə etdilər. Lord Kerzon ermənilərin Batuma olan iddialarının yerinə yetirilməsinə cəhd göstərdi. Ermənilər gürcülərdən tələb edirdilər ki, Batum limanının bir hissəsi onların ixtiyarına verilsin, Ermənistandan ora dəmir yolu çəkilməsinə razılıq verilsin və dəmir yolu xətti zonası Ermənistan ərazisinin tərkib hissəsi hesab edilsin.[1381] İngilislər Ermənistanın Batum limanına çıxıntısı olmasını təkid etsələr də və bunu lord Kerzonun şəxsi xahişi kimi bildirsələr də, N.Çxeidze heç bir güzəştə getmədi. O, bildirdi ki, Ali Şurada lord Kerzonun nüfuzu çox yüksək olsa da, biz öz ictimai fikrimizlə, yerli əhalinin arzusu ilə hesablaşmalıyıq. N.Çxeidzenin bəyanatından sonra Ə.M.Topçubaşov qeyd etdi ki, Batumun yerli müsəlman əhalisinin arzusu da nəzərə alınmalıdır.[1382] Müttəfiqlər Batumu azad liman elan etdilər. Lloyd Corcun xahişi ilə ora Millətlər Cəmiyyətinin iradəsini yerinə yetirmək üçün bir fransız və bir italyan alayı göndərdilər. Azərbaycan Respublikasının Batum limanından azad surətdə istifadə etmək hüququ saxlanıldı. "Rus məsələsində" Kopenhagendə başlanan iqtisadi danışıqların davam etdirilməsi mümkün hesab edildi.[1383] Azərbaycan, Gürcüstan və Ermənistana xaricdən hücum olacağı təqdirdə müdafiə qabiliyyətinin möhkəmləndirilməsi üçün yardım göstərilməsinə gəldikdə isə, konfransın axırıncı günü müttəfiqlər bildirdilər ki, Cənubi Qafqaz respublikalarına yalnız bu halda yardım göstərilə bilər ki, onlar arasında möhkəm sülh və həmrəylik olsun.[1384] San-Remo konfransında bu qərarın elan edilməsinin birinci qurbanı Azərbaycan oldu. Azərbaycan nümayəndə heyəti hələ İtaliyadan Parisə qayıtmamış məlumat aldı ki, Sovet Rusiyasının XI Qırmızı Ordusu aprel ayının 28-də Bakını işğal etmiş və Azərbaycan hökumətini devirmişdir.

San-Remo konfransı Qafqaz respublikaları üçün yaxşı perspektivlər aça bilərdi. Lakin müttəfiqlərin ciddi cəhdlərinə baxmayaraq, bu respublikalar öz aralarında həll edilməsi mümkün olan mübahisələri aradan qaldıra bilmədilər. San-Remo konfransının iştirakçısı olan M.Mehdiyev yazırdı: "Müxtəlif məsələlər barəsində, xüsusilə, neftə dair danışıqların gedəcəyi ən əhəmiyyətli San-Remo konfransı ərəfəsində bütün Cənubi Qafqaz xalqlarının həmrəyliyi böyük əhəmiyyət kəsb edirdi, Qafqaz respublikalarının mənafeyinə böyük xeyri dəyərdi. Onda yəqin ki, Qafqaz məsələsinə İngiltərənin köməyi sayəsində bir də baxılardı, müttəfiqlərin

[1381] Mir Yacoub. Le probleme du Caucase, p.134
[1382] З.Авалов. Независимость Грузии в международной политике, с.279
[1383] Дипломатический словарь. Т.III, М., 1986, с. 13
[1384] ARDA, f.970, s.l, i.157, v.88



downloaded from KitabYurdu.az

respublikalara maddi və mənəvi kömək göstərməsi mümkün olardı. Sonrakı mərhələdə Cənubi Qafqaz respublikaları yəqin ki, Millətlər Cəmiyyətinə üzv ola bilərdilər və buradan da onların beynəlxalq aləmlə təması başlayardı. O dövrdə bolşeviklərin vəziyyəti etibarsız və mütərəddid idi. Belə bir əlverişli şəraitdə Cənubi Qafqazın kiçik respublikalarının nüfuzunu artırmaq üçün gözəl imkan yaranmışdı... Təəssüf ki, elə bu dəmdə ciddi bir səhvə yol verildi və Cənubi Qafqaz xalqlarının nümayəndələri kifayət qədər tədbirli və dərin düşüncəli olduqlarını nümayiş etdirə bilmədilər".[1385] Son nəticədə bu respublikaların hər üçü kiçik zaman fərqi ilə bolşeviklər tərəfindən işğal olundu. 1920-ci ilin aprelində birinci olaraq, Azərbaycan Şimaldan gələn bolşevik təhlükəsi ilə üz-üzə dayandı.

[1385] Mir Yacoub. Le probleme du Caucase, p. 137-138



downloaded from KitabYurdu.az

## XIV FƏSİL

### 1920-ci ilin aprel işğalı və Azərbaycan diplomatiyası

1920-ci ilin yanvarında Azərbaycanın istiqlaliyyəti Antanta dövlətləri tərəfindən tanındıqdan az sonra yanvar ayının 23-də RSFSR Xalq xarici işlər komissarı G.V.Çiçerindən ikinci nota alındı. Birinci nota ilə müqayisədə ikinci nota daha təcavüzkar məzmuna malik idi. Çiçerinin notasında F.Xoyskinin 14 yanvar tarixli birinci cavab notası təhlil edilir və orada Azərbaycanın Denikin təhlükəsinə qarşı barışmaz mübarizə aparmasına məhəl qoyulmurdu. Azərbaycan xarici işlər nazirinin cavabı bolşevik komissarın notasında dolayısı yolla Könüllü orduya qarşı mübarizədən imtina kimi dəyərləndirilir, Azərbaycan hökumətinin Rusiyanın daxili işlərinə qarışmaqdan imtina etməsi Sovet Rusiyası tərəfindən ağqvardiyaçı qüvvələrə kömək kimi qiymətləndirilirdi.[1386] Məsələnin digər tərəfi ondan ibarət idi ki, Polşa, Finlandiya, Baltik dövlətlərindən fərqli olaraq, Qafqaz milli dövlətləri Sovet hökuməti tərəfindən hüquqi cəhətdən tanınmamışdı. Halbuki Denikin kimi mürtəce generalın rəhbərlik etdiyi səyyar hökuməti artıq Azərbaycanın istiqlaliyyətini tanımışdı. Ona görə də, fevralın 1-də G.V.Çiçerinə göndərilən cavab notasında F.Xoyski Azərbaycanın istiqlaliyyətinin tanınması məsələsində Sovet Rusiyasının konkret, açıq və aydın fikir söyləməsini zəruri hesab etmişdi.[1387] Əslində bu məsələdən bəhanə kimi istifadə edən Sovet Rusiyası ondan Azərbaycana təzyiqi gücləndirmək məqsədilə istifadə edirdi. Qırmızı Ordu Cənuba doğru irəlilədikcə bu təzyiq daha təhlükəli xarakter alır və suveren dövlət əleyhinə açıq təbliğat kampaniyasına çevrilirdi. Fevralın 2-də Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsinin və Xalq Komissarları Sovetinin işi haqqında məruzəsində V.İ.Lenin qeyd edirdi ki, "biz Denikin əleyhinə saziş bağlamağı Gürcüstan və Azərbaycana təklif etmişik. Onlar başqa dövlətlərin işlərinə qarışmadıqlarını bəhanə edərək, bizim təklifimizdən boyun qaçırtdılar. Görək Gürcüstan və Azərbaycanın fəhlə və kəndliləri buna necə baxacaqlar".[1388]

1920-ci ilin fevralın axırı, martın əvvəllərində edilmiş notalar mübadiləsi də təxminən əvvəlkilərlə eyni məzmunda idi. Fərqli cəhət bundan ibarət idi ki, Qırmızı Ordu artıq Azərbaycanın sərhədlərinə yaxınlaşmış, hökumət daxilində yaranmış təhlükə ilə bağlı müxtəlif fikirlər meydana çıxmışdı. Bundan əlavə, 1920-ci ilin fevralında bilavasitə Moskvanın göstərişi ilə yaradılmış Azərbaycan Kommunist (bolşeviklər) Partiyası mövcud vəziyyətdən ölkə daxilində dövlət

---

[1386] Trosiemme note de Tchitcherine au minister des Affaires Etrangeres de l'Azerbaidjan, Khan Khoisky. // Bulletin D'informations de L'Azerbaidjan. Paris, 1 Avril 1920, p.5-6; 1920-ci ilin yanvar ayında notalar mübadiləsi və 1918-1920-ci illərdə Rusiya-Azərbaycan münasibətləri haqqında geniş məlumat üçün bax: Р.Мустафа-заде. Две республики: Азербайджано-Российские отношения в 1918-1922 гг. Москва, 2006, с. 14-105.

[1387] Azərbaycan, 1920, 11 fevral.

[1388] V.İ.Lenin. Azərbaycan haqqında. s.163



downloaded from KitabYurdu.az

çevrilişi həyata keçirmək məqsədilə istifadə etməyə cəhd göstərirdi. Sovet Rusiyasının xarici işlər komissarlığı fevral ayında Azərbaycanın istiqlaliyyətini tanımaq məsələsini müzakirə etdikdə, məhz Bakıda və Rusiyada fəaliyyət göstərən müsəlman bolşeviklərinin təklifini nəzərə alaraq, müsbət qərar qəbul etməmiş və müstəqil Azərbaycan Respublikasını tanımaqdan qəti surətdə imtina etmişdi.[1389] Hələ 1919-cu ilin iyul ayında PK(b)P MK-nın Siyasi və Təşkilati Bürosunda "Hümmət partiyasının əyalət komitəsi hüququnda müstəqil Azərbaycan Kommunist Partiyası kimi və Azərbaycanın müstəqil Sovet respublikası kimi tanınması haqqında" məsələ müzakirə ediləndə, Azərbaycanın müstəqilliyinin tanınmasına meyllər hiss edilsə də, lakin sonralar müsəlman bolşeviklərinin təkidi ilə bundan imtina edildi.[1390] Azərbaycan Respublikasına Sovet Rusiyasının münasibəti siyasi mülahizələrdən daha çox iqtisadi amillərlə bağlı idi. 1920-ci ilin yazında vətəndaş müharibəsi, əsasən, başa çatmış, fəlakətli dərəcədə dağılmış təsərrüfatı bərpa etmək kimi çətin bir vəzifə qarşıya çıxmışdı. Təsərrüfat həyatının bərpa edilməsi isə ilk növbədə neft məsələsi ilə bağlı idi. Nə qədər ki, vətəndaş müharibəsi gedirdi, Bakını tutmaq sadəcə olaraq, mümkün deyildi. Şimali Qafqazda Denikin könüllüləri və oyuncaq Xəzər hökuməti öz subyektiv niyyətlərindən asılı olmayaraq, Sovet Rusiyasının Bakıya doğru yolunda bir səddə çevrilmişdi. Lakin 1920-ci ilin yazında ağqvardiyaçı generallar üzərindəki qələbələrdən sonra vəziyyət Sovet Rusiyasının xeyrinə dəyişdi. Əslində elə 1920-ci ilin yanvarından başlanan diplomatik qarşıdurmanın arxasında da Bakı neftinə sahib olmaq məqsədləri dayanırdı. V.İ.Leninin mart ayının 17-də Qafqaz cəbhəsinin hərbi inqilab şurasına göndərdiyi teleqramda Bakının işğal edilməsi məsələsi açıq-aydın şəkildə göstərilmişdi. Teleqramda deyilirdi: "Bakını almaq bizə olduqca və olduqca zəruridir. Bütün səyinizi buna verin, həm də bəyanatlarda son dərəcə diplomatik olmaq və möhkəm yerli sovet hakimiyyəti hazırlandığını tamamilə yəqin etmək lazımdır... Qüvvələr yeridilməsi haqqında Baş komandanla şərtləşin".[1391] Rusiya Dövlət Sosial-Siyasi tarix arxivində bu teleqramın əlyazması ilə yanaşı, onun surəti də vardır. Teleqramın surətində Q.K.Orconikidze bu sözləri yazmışdır: "Teleqram Bakıya hücum hazırlanması dövrünə aiddir. Əməliyyat hazırlanmışdı..."[1392] V.Leninin bu teleqramından sonra Azərbaycanın işğal edilməsi ilə bağlı praktiki fəaliyyətə keçildi və Azərbaycan sərhədlərinə ordu toplanmağa başlandı. Mart ayının 21-də L.Trotski Xarkovda olan İ.Stalinə yazırdı: "Mən Tuxaçevskiyə bu məzmunda sorğu göndərirəm. Novorossiysk və Qroznı bizim tərəfimizdən tutulduqdan sonra oradan 3 atıcı və 3 atlı diviziyası götürmək

[1389] Bax: N.Nəsibzadə. Azərbaycanın xarici siyasəti (1918-1920). Bakı, 1996, s.230-251

[1390] PK(b)P MK-nın Siyasi Bürosu və Təşkilat Bürosunun iclasının protokolundan çıxarış. 19.07.1919.// AR PİI SPİHDA, f.1, s.44, i.118, v.6

[1391] Bakının tutulması ilə bağlı V.Leninin Q.Orconikidzeyə teleqramı. 17.03.1920// RDSSTA, f.85, s.13, i.1,v.1

[1392] Yenə orada, v. 1



downloaded from KitabYurdu.az

ehtimalı var. Əlavə ordular sizə yalnız naviqasiya açılandan sonra veriləcək. Xahiş edirəm deyin: bu şəraitdə siz Bakını tutmaq və əldə saxlamaq üçün əməliyyat keçirilməsini mümkün sayırsınızmı? Azərbaycana Gürcüstan tərəfindən kömək göstərilməsinin mümkünlüyünü nəzərə alın. Bunu əlavə edirəm ki, Gürcüstanın toxunulmazlığına tam təminat verməklə və neft vəd etməklə yaxşı olar ki, onlarla razılığa gələsiniz."[1393]

Azərbaycanın işğalı ərəfəsində Gürcüstanı neytrallaşdırmaq məqsədilə bolşeviklərin bu fikri gürcü kommunistlərdən biri vasitəsilə gizli şəkildə N.Jordaniyaya çatdırılmışdı. Rusiya kommunist partiyası Mərkəzi Komitəsinin üzvü olan bu kommunist Noj Jordaniyaya təklif etmişdi ki, Gürcüstan hökumətinin etibarlı adamlarından biri onunla Moskvaya getsin. O, vəd edirdi ki, Lenin Gürcüstanın müstəqilliyinin tanınmasına öz razılığını verəcək. Versal konfransında Qafqaz dövlətlərinin de-yure tanınması faktı baş vermədiyindən, 1920-ci ilin əvvəllərində Gürcüstan rəhbərliyi Moskva tərəfindən tanınmağa cəhd göstərir və bunun üçün yollar axtarırdı. Rusiyanın bolşevik dairələrində nüfuzu olan bir gürcü kommunistindən təklif alan kimi Gürcüstan rəhbərliyi öz nümayəndəsi Q.Uratadzeni gizli şəkildə Moskvaya göndərdi. Danışıqlar zamanı razılıq əldə olundu ki, Gürcüstan öz ərazisindən xarici qoşunları çıxarmalı, Sovet Rusiyası isə öz növbəsində onun müstəqilliyini tanımalı idi. Nəticə etibarı ilə elə bu məzmunda Rusiya ilə Gürcüstan arasında əməkdaşlıq haqqında bir müqavilə imzalandı.[1394] 16 maddədən ibarət olan müqaviləni 1920-ci ilin may ayının 7-də Moskvada Rusiya Sovet Respublikası tərəfindən Xalq Xarici İşlər komissarının müavini L.Karaxan, Gürcüstan tərəfindən isə Q.Uratadze imzaladılar.[1395]

Azərbaycana münasibətdə ilk dövrlərdə Rusiya bolşevik hökuməti açıq təcavüzə qərarlı deyildi və belə hesab edirdilər ki, yerli kommunistlərin əli ilə dövlət çevrilişini həyata keçirmək mümkün olacaq. Bu məqsədlə 1920-ci ildə yaradılmış Azərbaycan Kommunist Partiyasına böyük həcmdə silah, sursat və maliyyə yardımı göstərilirdi. Kommunistlərin fəallaşdığı bir məqamda, mart ayının 20-də ermənilər Qarabağın Dağlıq hissəsində Azərbaycan hökumətinə qarşı qiyam qaldırdılar. Sonralar məlum oldu ki, bu qiyamın izləri Moskvaya gedib çıxır. Şimal təhlükəsinin reallaşdığı bir məqamda bu hadisə Bakının müdafiəsinin zəiflədilməsinə xidmət etməli idi. Elə həmin vaxt G.Çiçerin Leninə yazırdı ki, Azərbaycana qarşı güc tətbiq edilməsi beynəlxalq aləmdə dostlarımızı bizə qarşı qaldırar. Lansberi və onun kimilər kiçik Azərbaycan xalqından vəcdə gəlmişlər. Kenvorsi, bizim əziz dostumuz "kiçik azad Azərbaycan" haqqında ilhamlı məqalələr yazır. Onlara dəlil verməməliyik ki, bizi imperialist hesab etsinlər.[1396]

---

[1393] Б.Краснов, В.Дайнес. Неизвестный Троцкий. Красный Бонапарт. М., 2000, с.366-367
[1394] Н.Жордания. Моя жизнь, с. 105-106
[1395] Bax: Traité entre la Géorgie et la Russie. Le 7 mai 1920.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 172-176
[1396] B.Rəfiyev. Aysberqin sualtı hissəsi. Bakı, 1995, s.8



downloaded from KitabYurdu.az

Lakin çox məhdud sosial bazası olan Azərbaycan Kommunist partiyası dövlət çevrilişi həyata keçirmək üçün ciddi imkanlara malik deyildi.

Şimal küləyinin sərin mehi yavaş-yavaş Azərbaycanın başı üzərindən əsdikcə müxtəlif pozucu qüvvələr ölkə daxilində bir-birindən ağır hadisələr törədirdilər. Sovet Rusiyasının hücumu ərəfəsində Moskvaya gəlmiş erməni nümayəndələri ərazi güzəştləri müqabilində Azərbaycan hökumətini devirmək işinə öz yardımını təklif edirdilər.[1397] Şübhəsiz ki, mart ayının ortalarında Qarabağda planauyğun şəkildə erməni qiyamının baş verməsi və Azərbaycan ordusunun Qarabağa cəlb edilməsi əvvəlcədən hazırlanmış pozuculuğun bilavasitə nəticəsi idi.

1920-ci ilin martında Qarabağın Dağlıq hissəsində Azərbaycan Respublikasına qarşı qaldırılan qiyamda, Qazax və Naxçıvana Ermənistan tərəfindən edilən təcavüzdə məqsəd nizami Azərbaycan ordu hissələrini Bakıdan çıxartmaq idi. Daşnak quldur dəstələrinin Xankəndi qarnizonuna hücumu ilə başlanan Qarabağ qiyamını yatırtmaq üçün ordu hissələri təcili surətdə Bakıdan və Dağıstan sərhədlərindən Qarabağın Dağlıq hissəsinə gətirilməyə başlandı. Erməni daşnakları ilə mübarizəyə səfərbər edilən dəstələr 5-ci Bakı piyada polkundan, 1-ci Cavanşir, 4-cü Quba piyada polklarından, Şirvan, Ağdaş, Gəncə piyada polklarından təşkil edilmişdi. Qarabağda və Qazaxda hərbi əməliyyatlar aprel ayının üçüncü ongünlüyünə qədər davam etdi. Əslində Qarabağ qiyamında və Qazax təxribatında qarşıya qoyulan məqsədə nail olunmuşdu, ordu hissələri bu regionlara cəlb edilməklə şimaldan XI Qırmızı Ordunun Bakıya maneəsiz daxil olması üçün şərait təmin edilmişdi. Əsgəran döyüşündə və Qazaxdakı hərbi əməliyyatlarda daşnak qoşunlarının tamamilə darmadağın edilməsinə baxmayaraq, bolşevik təcavüzü zamanı Azərbaycan ordu hissələri Bakıya gəlib çata bilmədi. Bu vaxt Bakıda cəmisi iki minə yaxın əsgər qalmışdı ki, onlar da şəhərdə yerləşən dövlət idarələrini qoruyurdular. Bakı şimaldan gələn təhlükə qarşısında tam müdafiəsiz idi. Böhranlı aprel günlərində Bakıya səfər edən Gürcüstan müdafiə nazirliyinin nümayəndəsi general Q.T.Kvinitadze Bakının və Samur sərhəd məntəqəsinin müdafiəsi ilə tanış olduqdan sonra bolşeviklərə qarşı mübarizə aparmaq üçün müəyyən hazırlıq işlərinin görüldüyünü təsdiq etsə də, lakin Azərbaycan ordusunun əsas hissəsinin ermənilərlə müharibəyə cəlb olunduğunu bildirirdi. O yazırdı: "Mənim üçün aydın oldu ki, Azərbaycan bolşeviklərlə müharibəyə elə də intensiv hazırlaşmayıb, Bakının tutulması bu gün-sabahlıq idi. 15-20 verst olan Samur xəttində cəmisi bir batalyon var idi. Azərbaycan ordusunun qalanı dövlətin cənubunda (cənub-qərbində - C.H.) idi, onlar orada ermənilərə qarşı müharibə aparırdılar".[1398]

---

[1397] N.Nəsibzadə. Azərbaycan Demokratik Respublikası, s.39

[1398] Генерал Г.И.Квинитадзе. Мои воспоминания в годы независимости Грузии 1917-1921. Парис, 1985, с.164



downloaded from KitabYurdu.az

Çevriliş planının həyata keçrilməsində Moskva müsəlman kommunistlərə böyük ümid bəsləyirdi. PK(b)P MK-nın üzvü Y.E.Rudzutak Leninə, Rıkova və Çiçerinə göndərdiyi teleqramda bildirirdi ki, "erməni-tatar münasibətləri baxımından Bakıda vəziyyət gərgindir. Hökumət tatar millətinə arxalanır. Çevrilişi yalnız müsəlmanlara arxalanaraq etmək olar, ona görə məsul vəzifələrə bir erməni də təyin etmək lazım deyildir".[1399] Göründüyü kimi, aprel təcavüzünə gedən yol xeyli əvvəl başlanmışdı. İşğalı şərtləndirən daxili və xarici amillər 1920-ci ilin ilk günlərindən hərbi, siyasi, diplomatik planlara daxil edilmişdi. Müəyyən qüvvələr bu işə cəlb edilmişdi. Ehtimal ola biləcək Britaniya müdafiə sistemini sarsıtmaq üçün İranda, Qafqazda və Orta Asiyada antiingilis təbliğatı genişləndirilir, Anadoludakı milli mübarizənin Antanta əleyhinə yönəlməsindən məharətlə istifadə edilirdi. Təcavüz aktı ərəfəsində görülən bütün tədbirlər britaniyalıların Azərbaycan sərhədlərindən uzaqlaşdırılmasına yönəlmişdi. Bu məqsədlə PK(b)P-nin Qafqaz Diyar Komitəsinə xüsusi tapşırıqlar verilmiş, İrana çox sayda bolşevik emissarları göndərilmişdi. Perspektivdə İranın bolşevikləşdirilməsi də nəzərdə tutulurdu. Tiflisdə oturan Britaniya Ali Komissarı Uordrop yanvarın 13-də Azərbaycanın Gürcüstandakı səlahiyyətli nümayəndəsi F.Vəkilova bildirirdi ki, bolşevik emissarlarının Azərbaycan ərazisindən İrana hərəkəti müşahidə edilir. Son vaxtlar bu hərəkətin güclənməsi barədə Britaniya hökumətinə xeyli məlumatlar daxil olmuşdur. Ali komissar bu təhlükəyə qarşı tezliklə tədbir görülməsinin zəruri olduğunu bildirdi.[1400]

İranda fəaliyyət göstərən bolşeviklərin səyi nəticəsində 1920-ci ilin yanvarında İsfahanda İran "demokratlarının" yığıncağı keçirilmişdi. Yığıncağın qətnaməsində qeyd edilirdi ki, İranın müstəqilliyi üçün rejimdən asılı olmayaraq, güclü Rusiya lazımdır. Eyni zamanda yığıncaq əhalini 9 avqust 1919-cu il İngilis-İran sazişinə, Rusiya əleyhinə olan Vüsuqüddövlə hökumətinə qarşı qaldırmağı qərara aldı. 1920-ci ilin əvvəllərindən başlayaraq, Gilan və Cənubi Azərbaycanda antiingilis çıxışları fəal xarakter almağa başladı. 1918-21-ci illərdə Gilandakı cəngəlilər hərəkatından Sovet Rusiyası istənilən məqsədlər üçün istifadə edə bilmişdi. 1920-ci ilin yazında Gilana səpələnmiş bolşeviklər Mirzə Küçek xanı öz təsirlərinə salıb onun vasitəsi ilə İngiltərə əleyhinə mübarizəni genişləndirməyə, İranı Xəzər sahillərindən sovetləşdirməyə ümid bəsləyirdilər. Onların fikrincə, İngiltərə donanmasının Xəzər dənizinin cənubunda lövbər salması Azərbaycanın sovetləşdirilməsinə ciddi maneçilik törədə bilərdi. Gilan hərəkatının bütün planı Sovet Rusiyasının agentləri tərəfindən hazırlanmışdı.[1401] İranda İngiltərə təsirini qırmaq üçün ruslar tez-tez Londona səfərə çıxan Əhməd şahı devirib, Rusiyaya meylli yeni dövlət yaratmaq istəyirdilər. Bu məqsədlə Gilandakı cəngəlilər

---

[1399] Р.Мустафа-заде. Две республики, с.97

[1400] Tiflisdəki Britaniya Ali Komissarı O.Uordropun Azərbaycan Respublikasının Gürcüstandakı diplomatik nümayəndəsi F.Vəkilova məlumatı. 13.01.1920. // ARDA, f.897, c.l, i.62, v.15

[1401] İranın müvəqqəti inqilabi hökumətinin bəyanatı. 07.09.1921.// ARDA, f.28, c.l, i.172, v.133



downloaded from KitabYurdu.az

hərəkatına xüsusi diqqət yetirilirdi. Hərəkatın başçısı Küçek xanın Midivaniyə, az sonra Leninə məktubları təşkil edilmişdi. Bu məktublarda Küçek xan yazırdı ki, "mən Rusiya Sovet Ordusuna etibar edirəm, azadlıq uğrunda İran xalqına kömək etməsini arzulayıram. Aprel hadisələri ərəfəsində cəngəlilər hərəkatı və Gilana gizli şəkildə göndərilmiş bolşeviklər vasitəsi ilə Xəzər sahili rayonlardan ingilislərin çıxarılmasına Sovet Rusiyası nail oldu. Azərbaycanın İrandakı diplomatik nümayəndəsi 1920-ci ilin mart ayının əvvəllərində göndərdiyi məlumatda qeyd edirdi ki, bolşevik təbliğatı nəticəsində Küçek xan İran hökuməti üçün ciddi təhlükəyə çevrilmişdir.[1402] Lakin cəngəlilər hərəkatını bütün İrana yaymaq mümkün olmadı. Gilan hərəkatının rəhbərləri Mirzə Küçek xan gilək, Ehsanulla xan bəhayi, Xali Qurban kürd olduğundan İranın qalan əhalisi cəngəlilər hərəkatına bir qədər ehtiyatla yanaşırdılar. Az sonra Küçek xan aldadıldığını başa düşərək kommunistlərdən uzaqlaşmağa başladı.

Sovet Rusiyasının İranda ingilisləri Azərbaycan sərhədlərindən uzaqlaşdırmaq üçün istifadə etdiyi ikinci böyük qüvvə kazaklar idi. Məlum olduğu kimi, kazak diviziyası çar dövründə rus nüfuzunu İranda yaymağın mühüm aləti idi. Kazaklar İran hökumətinə deyil, Qafqaz canişininə tabe idilər. Yaranmış vəziyyətdə onlar İran hərbi nazirliyinə tabe olmaqdan imtina etmişdilər. Əvvəllər müəyyən məsələlərə münasibətdə ingilislərlə kazaklar arasında əməkdaşlıq var idisə, 9 avqust 1919-cu il sazişindən sonra komanda heyəti, əsasən, ruslardan ibarət olan kazak hərbi hissələri Rusiyanın köhnə rəqibi olan Britaniyanın İranda birtərəfli qaydada möhkəmlənməsinə dözə bilmirdilər. İngiltərənin təsiri nəticəsində baş nazir Vüsuqüddövlə kazak dəstələrini buraxmaq və onları hökumətə tabe etmək haqqında əmr versə də, polkovnik Staroselski başda olmaqla, rus zabitləri İrandakı "xalis rus övladının ölümünə və məhvinə" qarşı güclü müqavimət göstərdilər. Rus zabitləri yaxşı başa düşürdülər ki, bu hərbi hissələr ləğv edilsə və ya ingilislərin əlinə keçsə, "rus ruhu İrandan birdəfəlik yox olacaqdır".[1403] On min nəfərlik şəxsi heyəti olan kazak alaylarının tərksilah ediləcəkləri təqdirdə onların vuruşacaqlarını bildirməsi ingilisləri və hökuməti geri çəkilməyə vadar etdi.

Aprel işğalı ərəfəsində baş verən digər mühüm məsələ 1920-ci ilin aprel ayında baş vermiş Təbriz üsyanıdır. Şeyx Məhəmməd Xiyabaninin işıqlı ideyalarına kölgə salmamaq şərti ilə hər halda onun başçılığı ilə Cənubi Azərbaycanda 1920-ci ilin fevral-mart aylarında Britaniya əleyhinə geniş anti-ingilis hərəkat başlanmışdı. Hətta bir sıra mitinq və yığıncaqlarda qırmızı bayraqlar qaldırılmışdı.[1404] Azərbaycan Cümhuriyyətinin işğalından 20 gün əvvəl, məhz

---

[1402] Azərbaycan Respublikasının İrandakı diplomatik nümayəndəsinin müavini Sadıxovun xarici işlər nazirinə məktubu. 06.03.1920. // ARDA, f.894, s.10, i.141, v.3

[1403] Azərbaycan Respublikasının İrandakı diplomatik nümayəndəsi A.Ziyadxanovun XİN-nə məlumatı. 12.04.1920. // ARDA, f.894, s.10, i.141, v.40-41.

[1404] Бах: Новый Восток, 1922, №2, с.268.



downloaded from KitabYurdu.az

aprel ayının 7-də Təbrizdə, əsasən, anti-ingilis məzmununa malik çox güclü üsyanın başlanmasını təsadüfi hadisə hesab etmək olmaz. İranın əhalisi arasında İngiltərəyə qarşı narazılığın güclü olmasından bolşeviklər məharətlə istifadə etdilər. Bu Azərbaycanın İrandakı diplomatik nümayəndəliyinin 1920-ci ilin mart ayında göndərdiyi hesabatda da öz əksini tapmışdır. Cənubi Azərbaycanda Britaniya əleyhinə hərəkatın qızışdırılmasında və aprel işğalı ərəfəsində ingilislərin Cənubi Azərbaycandan çıxarılması ilə nəticələnən güclü üsyanın başlanmasında Rusiyadan göndərilən bolşevik emissarlarının, "Hümmət" və "ədalətçilərin", habelə əvvəllər Rusiya təbəəsi olmuş ermənilərin xüsusi xidmətləri olmuşdu. Bunu İrana göndərilmiş bolşeviklərin aprel hadisələrindən az sonra N.Nərimanov, M.D.Hüseynov, Sovet Rusiyasının xarici siyasət idarəsinə göndərdiyi məktublar açıq şəkildə təsdiq edir. Qeyd edilən dövrdə isə Rusiyanın İran siyasəti xarici işlər nazirinin müavini L.M.Karaxan (L.M.Karaxanyan) tərəfindən müəyyənləşdirildi. Adı və soyadı saxtalaşdırılmış ermənilərin bolşevik adı altında Cənubi Azərbaycana göndərilməsinin əsas təşkilatçısı o idi. L.Karaxanyan tərəfindən İran hökumətinə göndərilmiş 1919-cu il 26 iyun notasında Sovet Rusiyasının İranla bağlı siyasətində çox maraqlı məqamlar var idi. Bu nota və az sonra İran zəhmətkeşlərinə ünvanlanmış 29 avqust tarixli müraciət Cənubi Azərbaycanda cərəyan edən hadisələrin sonrakı gedişinə ciddi təsir göstərmişdi. Ümumilikdə, bu dövrdə Cənubi Azərbaycanda gedən milli azadlıq hərəkatına gizli şəkildə bolşeviklərin təsir göstərdiyini təsdiq edən çoxlu sənədlər mövcuddur. Şeyx Məhəmməd Xiyabani kimi işıqlı bir şəxsiyyətin Azərbaycan Respublikasına münasibətdə səhv mövqe tutması, şimaldakı müstəqil Azərbaycan cümhuriyyətinə qısqanclıqla yanaşması Cənubi Azərbaycanda yaratdığı yeni dövləti Azərbaycan deyil, "Azadıstan" adlandırması xeyli dərəcədə bununla bağlıdır. Bunu Şeyx Xiyabani hərəkatı haqqında iri həcmli monoqrafiyanın müəllifi Əli Azəri və bir çox fikirləri ilə razılaşmadığımız tanınmış İran tarixçisi Seyid Əhməd Kəsrəvi də təsdiq edir.[1405] 1920-ci ilin aprel işğalı ərəfəsində Cənubi Azərbaycanda başlanan anti-ingilis hərəkat Azərbaycan Cümhuriyyətinin diqqət mərkəzində idi.

1920-ci ilin aprel işğalı ilə bağlı dəqiqləşdirmələrə ciddi ehtiyac duyulan məsələlərdən biri türk amilidir. Əlbəttə, bu məsələlərə Birinci dünya müharibəsindən sonra Antanta qüvvələrinə qarşı ölüm-dirim savaşına girmiş, sözün əsl mənasında həyatla ölüm arasında mücadilə edən Türkiyənin vəziyyəti baxımından yanaşılmalıdır. Antanta və xüsusilə, İngiltərə əleyhinə mübarizədə Türkiyə və Rusiyanın müvəqqəti mənafe eyniliyi ingilispərəst Azərbaycan milli hökumətinin siyasətinə zidd olsa da, Türkiyədəki milliyyətçi hərəkatın Azərbaycanın müstəqilliyinə qarşı yönəldiyini söyləmək əsassızdır. Türkiyənin müəyyən qüvvələrinin Qafqazdakı fəaliyyəti, RK (b)P Qafqaz Diyar Komitəsi ilə apardığı danışıqlar, əsasən, 1919-cu ildə yaranmış "Qaraqol" gizli yarımhərbi

[1405] Ə.Kəsrəvi. Tarix-e hijdahsale-ye Azərbaycan. Tehran, 1353, s.10



downloaded from KitabYurdu.az

təşkilatı ilə bağlı idi. Bu təşkilatın Rusiya bolşeviklərinin təsiri altına düşdüyünü təsdiq edən bəzi sənədlər mövcuddur. Belə ki, "Qaraqol" cəmiyyəti öz nümayəndəsi Baha Səidi Qafqaza göndərmiş, ona danışıqlar aparmaq və müxtəlif sənədlər imzalamaq səlahiyyəti vermişdi. 1919-cu ilin payızında aparılan danışıqlar nəticəsində "Qaraqol" cəmiyyəti ilə RK(b)P-nın Qafqaz Diyar Komitəsi Azərbaycanın istiqlaliyyətinin Versal Ali Şurası tərəfindən tanındığı gün - yəni yanvarın 11-də Bakıda on altı maddədən ibarət gizli bir müqavilə bağlamışdılar.[1406] Müqaviləni Rusiya hökuməti adından Ş.Z.Eliava, "Qaraqol" cəmiyyəti timsalında Türkiyə "müvəqqəti inqilabi hökuməti" adından Baha Səid imzalamışdılar. Müqavilə İngiltərəyə qarşı yönəlmiş, Qafqaz, Orta Asiya, Yaxın və Orta Şərqdə Britaniyaya qarşı birgə əməkdaşlıq məsələləri nəzərdə tutulurdu. Orada göstərilirdi ki, Rusiya Sovet hökuməti və Türkiyə inqilabi hökuməti müdafiə və hücum ittifaqına girirlər. Bu ittifaqda məqsəd müsəlman dünyasını - İran, Əfqanıstan, Ərəbistan, Misir, Hindistan və digər ölkələri İngiltərəyə qarşı qaldırmaqdır. Bütün bu məqsədlər üçün RSFSR Türkiyəyə pul, silah, hərbi müşavir və s. vasitələrlə kömək etməli idi. Müqavilənin Qafqaz, xüsusilə Azərbaycanla bağlı 12-ci maddəsi daha maraqlı idi. Orada göstərilirdi ki, Qafqazın qərbpərəst siyasət yeridən üç respublikası - Azərbaycan, Gürcüstan və Ermənistan imperializmə qarşı mübarizədə Sovet Rusiyası və Türkiyə Müvəqqəti İnqilabi hökumətinə mane olur. "Qaraqol" cəmiyyəti öz üzərinə götürürdü ki, Qafqazda kommunist partiyalarına və təşkilatlarına yardım göstərəcəkdir ki, mövcud qərbpərəst rejimləri devirsinlər və İngiltərəyə qarşı sazişi imzalayan hökumətləri hakimiyyətə gətirsinlər. Azərbaycanda dövlət çevrilişi etmək üçün "Qaraqol" türk əhalisi içərisində nüfuzundan və ayrı-ayrı tanınmış şəxslərdən istifadə edəcəyini bildirirdi. Tərəflər razılığa gəlirdilər ki, Azərbaycan hökuməti bu ölkənin "zəhmətkeşləri" qurultayının qərarı ilə qurulmalıdır və bu qurultaya kənardan təzyiq göstərilməməlidir.[1407]

11 yanvar tarixli müqavilə ilə əlaqədar qeyd etmək lazımdır ki, Sovet Rusiyası bu müqavilədən Britaniyaya təzyiq vasitəsi kimi istifadə etdi. Hələ yanvar ayında Gürcüstan hökuməti Tiflisdə oturan Ali komissar Uordropu bu barədə məlumatlandırmışdı. Gürcüstan hökuməti adından Geqeçkori bildirirdi ki, "Qərbdə sosialist inqilabı baş tutmadıqdan sonra bolşeviklər üzlərini Şərqə tutublar. Bizdə məlumat var ki, müsəlman dünyasını Britaniyaya qarşı qaldırmaq üçün bolşeviklərlə Türkiyə arasında saziş əldə edilib. Vilhelmə qismət olmasa da, indi Lenin müsəlman Şərqinin başçısı rolunda çıxış edir."[1408]

1920-ci ilin əvvəllərində Rusiya və Sibirdə yaşayan türk-tatar xalqlarının Türkiyəni müdafiə etməsi ingilisləri və rusları narahat etmişdi. Bu xalqların

[1406] Bax: Selahettin Tansel. Mondrostan Müdanyaya Kadar. Cilt 3, İstanbul 1991, s.248-249
[1407] Türkiyə üsyançı hərəkatı haqqında. 1920. // ARDA, f.894, s.10, i.145, v.6-8
[1408] E.Geqeçkorinin Tiflisdəki Britaniya Ali Komissarı O.Uordropa məlumatı. 06.01.1920. // ARDA, f.894, s.10, i.135, v.48



downloaded from KitabYurdu.az

nümayəndələrinin yığıncağında Versal Ali Şurasına qəbul edilən müraciətdə göstərilirdi: "Biz Volqa və Uralın türk-tatar xalqlarının nümayəndələri ümidvarıq ki, Antanta Ali Şurası Türkiyə məsələsini sözsüz türklərin xeyrinə həll edəcəkdir. Turanın 80 milyonluq əhalisi Türkiyənin parçalanmasına biganə qala bilməz. Antanta Avropada möhkəm sülh istəyirsə, türk dünyası ilə hesablaşmalıdır. Əgər köhnə əsrlərdə avropalıların ədalətsizliyi hələ türk xalqlarının yaddaşından silinməyibsə, ədalət və bərabərlik əsri olan XX yüzillikdəki yeni ağrılar yəqin ki, heç vaxt unudulmayacaqdır."[1409] O qədər də əsası olmayan Turan imperiyası vahiməsi Böyük Britaniyanı "rus işindən" xeyli kənara çəkilməyə vadar edirdi.

11 yanvar müqaviləsi ilə Sovet Rusiyası Britaniyanı şantaj etdikdən sonra "rus işinə" qarışmayacağı təqdirdə Türkiyə ilə (yəni "Qaraqol" cəmiyyəti ilə - C.H.) RK(b)P Qafqaz Diyar komitəsinin bağladığı müqavilədən imtina edəcəklərini bildirmişdi. 1920-ci ilin fevral ayının 29-da Mərkəzi Rusiya hökuməti "Qaraqol" cəmiyyəti ilə imzalanmış müqavilədən imtina etdi. Xarici işlər komissarı G.Çiçerin RK(b)P Qafqaz Diyar Komitəsinə - Ş.Eliavanın adına göndərdiyi teleqramda yazırdı ki, biz gənc türklərlə nə müdafiə, nə də hücum haqda ittifaq bağlamırıq, aydındır ki, bu İngiltərə ilə saziş məsələsində bizim əl-qolumuzu bağlayır: biz türk imperializmini şirnikləşdirmək fikrində deyilik: Nuru Paşa kimi qatı imperialist türk hərbçilərini Qafqazın müsəlman vilayətlərinə buraxmaq olmaz; Yarımkommunizm kimi təqdim edilən panislamizm əksinqilabi qüvvə kimi bizim üçün təhlükəlidir, bu gün olmasa da, sabah biz ona qarşı mübarizə aparmalı olacağıq; Gənc türklərlə ittifaqa girmək haqda müqavilə bağlamaq çox böyük səhv olardı; bu ittifaq gələcəkdə qeyri-müəyyən razılaşmalarla əvəz edilməlidir."[1410] Bu radioqramdan sonra mart ayında Kopenhagen və Londonda Sentrosoyuz missiyasına başçılıq edən L.Krasinlə ingilislər arasında danışıqlar başlandı. Xarici işlər naziri Lord Kerzondan fərqli olaraq, Britaniya siyasətini müəyyən edən Lloyd Corc Rusiya ilə qarşı-qarşıya gəlməyin əleyhinə çıxdı. Gürcüstan Respublikası baş naziri işləmiş N.N.Jordaniya sonralar Parisdə çıxan kitabında yazırdı: "Dünya üçün sirr deyildir ki, Sovet Rusiyasını Cənubi Qafqaz respublikalarının torpaqlarını işğal etməyə İngiltərə baş naziri Lloyd Corc sövq edirdi. Bu sirr Çiçerinin dilindən çıxmış və bütün dünya bu sirri hiss etmişdi".[1411] Çox sonralar 1950-ci ildə M.Ə.Rəsulzadə də Ankara xalq evində oxuduğu məruzədə bu faktı təsdiq edirdi. O yazır ki, "ingilislərin Qafqazdan çıxması bolşevikləri Qafqaza hücuma cəsarətləndirdi."

Eyni zamanda, o zamankı ingilis baş naziri Lloyd Corc Londona gəlmiş sovet xarici ticarət komissarı Krasinə Kral hökumətinin Qafqaz işlərinə qarışmadığını bildirdi. Beləliklə, Sovet Rusiyası Azərbaycanın işğalına beynəlxalq

---

[1409] Mərkəzi Rusiyanın və Sibirin türk-tatar xalqlarının Milli Məclisinin qərarı. 24.01.1920. // ARDA, (.894, s.10, i-92, v.30.

[1410] Çiçerinin Ş.Eliavaya direktivi. 29.02.1920. // ARDA, f.894, s.10, i.145, v.15.

[1411] Н.Жордания. Наши разногласия. Париж, 1928, с.45.



downloaded from KitabYurdu.az

təminatlar aldıqdan sonra əməli addımlara keçdi. İşğal ərəfəsində Azərbaycan Cümhuriyyətini müdafiə edə biləcək bütün xarici qüvvələr demək olar ki, neytrallaşdırılmışdı.

Xarici təhlükə ilə yanaşı, mart ayının axırlarında hökumətin istefa verməsi də böhranın dərinləşməsində az rol oynamadı. Lakin yeni hökumət yaradılmadığı üçün köhnə kabinet hələlik öz fəaliyyətini davam etdirirdi. Aprel ayının ortalarında Qırmızı Ordu hissələrinin Azərbaycan sərhədlərində toplanması Azərbaycan hökumətinin ciddi narahatçılığına səbəb olmuşdu. Aprelin 15-də Xan Xoyski G.Çiçerinə göndərdiyi teleqramda yazırdı ki, "Dağıstan denikinçilərdən təmizləndikdən sonra Azərbaycan xalqı bu ümiddə idi ki, şimaldan təhlükə qurtarmışdır. Azərbaycan xalqı qardaş dağlı xalqları və öz xalqının təyini müqəddəratını elan etmiş rus xalqı ilə dostcasına yaşayacaqdır. Bununla belə, Azərbaycan Respublikasının sərhədləri yaxınlığında, Dərbənd rayonu və Dağıstanın hüdudlarında Sovet hökumətinin silahlı qüvvələrinin toplanması müşahidə edilir. Azərbaycan hökuməti sovet hökumətinin fikrindən xəbərsizdir, ona görə xahiş edir ki, yuxarıda göstərilən rayonlarda sovet ordusunun toplanmasının səbəbləri haqda məlumat verilsin."[1412] Bu teleqramdan iki gün sonra RSFSR xarici işlər komissarının müavini L.M.Karaxandan Sovet Rusiyasının ticarət-iqtisadi münasibətlərə dair danışıqlara hazır olması barədə teleqram alınsa da, bu xeyli dərəcədə taktiki mülahizələrlə bağlı idi.

Qarabağda və Ermənistanla sərhəd rayonlarda hərbi əməliyyatlar davam etdiyi üçün Azərbaycan ordusunu Şimal sərhədlərinə gətirmək qeyri-mümkün idi. Aprel ayının 16-da Ermənistanın Bakıdakı diplomatik nümayəndəsi Arutyunyan Ermənistan xarici işlər nazirliyinə göndərdiyi şifrəli teleqramda qeyd edirdi: "Xoyski bildirir ki, şimaldan təhlükə və ölkənin vəziyyətinin ağır olmasına baxmayaraq, onlar ordunu Qarabağdan çıxara bilməzlər, ona görə ki, Zəngəzur istiqamətindən yeni hücumun olmayacağına əmin deyillər".[1413] Aprel ayının 18-də Quba qəza rəisi Daxili İşlər Nazirliyinə göndərdiyi gizli teleqramda Azərbaycanın sərhədlərinə toplanmış sovet hərbi hissələrinin hərbi hazırlıq planları barədə məlumat verirdi.[1414]

Aprel ayının 21-də Qafqaz cəbhəsi komandanlığının XI Ordu rəhbərliyi və Volqa Xəzər donanmasına göndərdiyi 490 nömrəli direktivdə göstərilirdi ki, Azərbaycanın əsas qüvvəsi öz dövlətinin qərb cəbhəsində məşğuldur. Ona görə XI Orduya və Volqa Xəzər donanmasına Tuxaçevski, Orconikidze və Zaxarovun imzası ilə göndərilən direktivdə əmr edilirdi ki, aprel ayının 27-də Azərbaycan sərhədini keçib, beş gün ərzində Yalama-Bakı əməliyyatını yerinə yetirsinlər.

---

[1412] Азербайджан, 1920, 20 апреля

[1413] Ermənistan Respublikasının Azərbaycandakı diplomatik nümayəndəsi Arutyunyanın Ermənistan XİN-nə teleqramı. 16.04.1920. // AR Pİİ SPİHDA, f.276, s.9, i. 15, v.29

[1414] Ermənistan Respublikasının Azərbaycandakı diplomatik nümayəndəsi Arutyunyanın Ermənistan XİN-nə teleqramı. 16.04.1920. // AR Pİİ SPİHDA, f.276, s.9, i. 15, v.29



downloaded from KitabYurdu.az

Aprel ayının 23-də bu direktivdə dəyişiklik edildi və sərəncam verildi ki, XI Ordunun son vəzifəsi Bakı quberniyasını tutmaq deyil, bütün Azərbaycanı ələ keçirməkdir.[1415] Elə həmin gün G.Çiçerinə göndərdiyi teleqramda Q.Orconikidze Azərbaycan ətrafında yaranmış vəziyyəti və Bakıdakı durumu belə səciyyələndirirdi: "Sizin teleqramınızı mən yalnız indi Petrovska gəlişim zaman aldım. Ümumilikdə biz artıq burada siyasət yürüdürük, lakin bu siyasət həlledici gücə arxalanır. Şəxsən mənim fikrimcə, sizin Azərbaycana cavabınız tamamilə müvafiqdir, yalnız xahiş edirəm bir az yubandırın. Bakıda vəziyyət indi belədir: ittihadçılar, sosialistlər və digər partiyalar hökumətdən çıxıblar, belə ki, Usubbəyov hökuməti yalnız müsavatçılardan ibarətdir... Bizim Bakıya qan tökülmədən daxil olmağımız və orada Sovet hökuməti elan etməyimiz istisnalıq təşkil etmir. Nərimanov Bakıda həddindən çox lazımdır. Acizanə şəkildə xahiş edirəm, günü sabah onu bura göndərin".[1416] Aprel ayının 24-də isə V.Leninə və G.Çiçerinə göndərdiyi teleqramda G.Orconikidze Azərbaycana şərtlərin diktə edilməsinin zəruri olduğunu bildirərək yazırdı: "Bizim fəaliyyətimizin sizin siyasətinizlə əlaqələndirilməsi istiqamətində hər şey ediləcək".[1417]

Aprel ayının 26-da Ermənistan hökuməti barışıq imzalamaq xahişi ilə çıxış etdi. Lakin gec idi. Azərbaycanın taleyi artıq Moskvada həll edilmişdi. Ölkə daxilində təxribatçılıq işləri ilə məşğul olan bolşeviklər öz fəaliyyətlərini XI Qırmızı Ordunun komandanlığı ilə, xüsusilə hərbi İnqilab Şurasının üzvü Q.K.Orconikidze ilə sıx əlaqələndirirdilər. A.İ.Mikoyan başda olmaqla, "Azərbaycan" bolşevikləri XI Qırmızı Ordunun Azərbaycanı işğal etmək planlarının həyata keçirilməsində, işğal əməliyyatının vaxtının müəyyən edilməsində fəal iştirak edirdilər.

XI Ordu aprel ayının 26-da artıq Azərbaycan sərhədlərini keçmiş, aprelin 27-də Quba və Qusar işğal edilmişdi.[1418] Hərbi qüvvələr əsasən, Qərb cəbhəsində olduğu üçün XI Qırmızı Orduya qarşı Samur sərhəd qoşunlarının müqaviməti ciddi itki ilə nəticələndi. Hərbi nazir S.Mehmandarovun aprel ayının 27-də ordunun yerləşdiyi qərb cəbhəsinə vurduğu təcili teleqramın da heç bir əhəmiyyəti olmadı. O, bildirirdi: "Bolşeviklər Yalama stansiyasına hücum edib, içəriyə doğru hərəkət edərək, Xudatı tutmuşlar, vəziyyət böhranlıdır. Əmr edirəm, elə bu gün hər birində 500 tüfənglidən az olmayaraq, Qazaxdan bir batalyon və Gəncədən bir batalyonu Qızılburuna göndərin".[1419]

---

[1415] Интернациональная помощь XI армии в борьбе за победу Советской власти в Азербайджане. Документы и материалы. 1920-1921 г. г.Баку, 1989, с.19

[1416] Bakıda vəziyyət haqqında G.Orconikidzenin V.İ.Leninə və G.V.Çiçerinə teleqramı. 23.04.1920.//RDSSTA, f.85, s.13, i.6, v.l

[1417] Azərbaycan sülh şərtlərini diktə etməyin zəruriliyi haqqında G.Orconikidzenin V.İ.Leninə və Q.V.Çiçerinə teleqramı. 24.04.1920.// RDSSTA, f.85, s.13, iş.7, v.l

[1418] Токаржевский Е.А. Из истории иностранной интервенции и гражданской войны в Азербайджане. Баку, 1957.

[1419] Стеклов А. Армия Мусаватского Азербайджана. Баку, 1928. с.43.



downloaded from KitabYurdu.az

Respublikanın Sovet Rusiyası tərəfindən təcavüzə məruz qaldığı, sərhədlərinin pozulduğu barədə Azərbaycan hökuməti aprelin 27-də müttəfiqlərin Tiflisdəki nümayəndələri Qraf de Martelə, polkovnik Qabbaya və H.Luko təcili məlumat göndərdi. Azərbaycan hökuməti müttəfiqlərin nümayəndələrindən xahiş edirdi ki, Ermənistanın Azərbaycana yenidən hücum etməməsi üçün Ermənistan hökumətinə təsir göstərsinlər. Çünki, baş vermiş təcavüz aktı ilə əlaqədar hökumət öz qoşunlarını Qarabağdan və Ermənistanla sərhəd rayonlarından çıxarmağı planlaşdırırdı.[1420] Müttəfiqlərin nümayəndələri elə həmin gün Ermənistan hökuməti ilə əlaqəyə girdilər. Aprel ayının 28-də Ermənistan hökuməti bildirdi ki, onların orduları dayandıqları mövqelərdən irəliləməyəcək və Azərbaycana hücum etməyəcəklər. Bunun müqabilində onlar bir sıra şərtlər irəli sürürdülər.[1421] Lakin gec idi. Aprelin 28-də artıq Bakı tutulmuş, rus qoşunları Kürdəmir və Yevlaxa qədər irəliləmişdilər.

Sovet Ordusunun Bakıya yaxınlaşdığı məqamda - aprelin 27-si gündüz saat 4-də Azərbaycan bolşevikləri, RK(b)P Qafqaz Diyar Komitəsinin Bakı bürosu və fəhlə konfransı adından XI Ordu dəstələrinin Biləcəri stansiyasında dayanmasına arxalanaraq, respublika parlamentinə hakimiyyəti təhvil vermək haqqında ultimatum təqdim etdilər. Aprelin 27-də axşam belə bir ultimatum hələ yaranmamış Azərbaycan Sovet hökuməti Qırmızı donanmasının komandanı Çingiz İldırımın imzası ilə parlamentə verildi. Orada deyilirdi: "Azərbaycan Sovet Sosialist Respublikasının Qırmızı Donanması Sizə təklif edir ki, yubanmadan hakimiyyəti yoldaş Nəriman Nərimanov başda olmaqla, Azərbaycan fəhlə-kəndli hökumətinə verəsiniz. Bu halda Qırmızı Donanma milliyyətindən asılı olmayaraq, Bakının bütün əhalisi üçün sülh və sakitliyin qorunacağına təminat verir. Cavab bu sənəd alınandan sonra iki saat ərzində verilməlidir, əks təqdirdə atəş açılacaqdır".[1422]

Qeyd etmək lazımdır ki, hələ bundan xeyli əvvəl böhranlı mart günlərində, ümumiyyətlə, 1920-ci ilin baharında Azərbaycan parlamenti və hökumətində fikir ayrılıqları yaranmışdı. Şimaldan təhlükə reallaşdıqca Sovet Rusiyasına qarşı sərt xəttin tərəfdarı olan xarici işlər naziri F.Xoyski qrupu ilə, güzəştçilik siyasətinin tərəfdarları olan daxili işlər naziri M.Hacınski qrupu arasında ixtilaflar dərinləşmişdi. F.Xoyski tərəfdarlarının M.Hacınski tərəfdarlarını hökumətdən uzaqlaşdırmaq tələbi axıra çatdırılmadı. M.Hacınski daxili işlər nazirliyindən uzaqlaşdırılsa da, hökumətdə yeni mühüm bir vəzifə - ticarət və sənaye naziri

---

[1420] Le 28 avril 1920 Télégramme à chiffrer № 28-29 Haut Commissaire Français Constantinople Pour Diplomatie Communiquer Amiral. // Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 12; Azərbaycan hökumətinin qraf de Martelə, polkovnik Qabbaya və K.Lyükə təcili diplomatik məlumatı. 27.04.1920. //ARPİİCPİHDA, f.276, siy.9, iş 15, v.43.

[1421] Ermənistan Respublikasının Gürcüstanda diplomatik nümayəndəsi Tumanyanın Ermənistan XİN-nə teleqramı. 29.04.1920.//ARPİİCPİHDA, f.276, siy.9, iş 15, v.45.

[1422] Çingiz İldırımın Azərbaycan Parlamentinə ultimatumu. 28.04.1920. // RDSSTA, f.85, s.27, i. 313,v.20



downloaded from KitabYurdu.az

vəzifəsini tutdu. Aprelin əvvəllərində hökumət böhranı baş verdikdə isə yeni hökuməti təşkil etmək M.Hacınskiyə tapşırıldı. Lakin o, müxtəlif bəhanələrlə yeni hökumətin təşkil edilməsini yubadır, bolşeviklərlə birlikdə koalisyon hökuməti yaratmaq üçün bolşevikləri hökumətə daxil olmağa çağırırdı. Son anda bolşeviklər hökumətə daxil olmaqdan imtina etdilər.[1423] Bütün qeyd edilən məsələlərlə yanaşı, 1920-ci ilin aprelində olmuş ciddi hökumət böhranı da öz növbəsində XI Qırmızı Ordunun Bakıya daxil olması üçün əlverişli şərait yaradırdı. Hökumətdə olan fikir ayrılıqları parlamentdə siyasi partiyalar arasındakı fikir ayrılıqlarını da gücləndirdi. Bu parlamentin sonuncu təcili iclasında özünü qabarıq şəkildə nümayiş etdirdi. Həmin vaxt Bakıya səfər edən Gürcüstan Müdafiə Nazirliyinin yüksək rütbəli əməkdaşı general Q.Kvinitadze öz xatirələrində yazır ki, 1920-ci ilin aprelində Azərbaycan ziyalıları arasında, əsasən, üç meyl var idi. Ziyalıların böyük hissəsi Türkiyəyə meylin tərəfdarı idi, ikinci hissə Azərbaycanın tam müstəqilliyinə üstünlük verirdi, üçüncü az bir hissə isə, bu və ya digər bayraq altında Rusiyaya birləşməyə tərəfdar idilər. Denikinin məğlubiyyəti və bolşeviklərin bilavasitə Azərbaycan sərhədlərinə yaxınlaşmasından sonra bu meylin tərəfdarları güclənmişdi.[1424]

Aprelin 27-də Parlamentin sonuncu iclasına M.Ə.Rəsulzadə sədrlik edirdi. Kəskin diskussiyaların gedişində sosialist fraksiyası və onlara yaxın olan fraksiyalar hakimiyyəti bolşeviklərə vermək tələbini müdafiə etdilər. Həmin axşam Parlamentdəki tarixi çıxışında M.Ə.Rəsulzadə göstərirdi: "Qardaşlar! Qarşımızda bir ultimatum durur. Burada təslimdən bəhs edilir. Fəqət qardaşlar, təslim nə deməkdir. Kimə görə mövqeyimizi tərk edirik? Bizə deyirlər ki, hüdudlarımızdan keçən ordunun başında Nicati adında bir türk komandanı var. Rusiyadan gələn bu təcavüzkar ordu təxminən bilirəm ki, həyat və ölüm mübarizəsi aparan Türkiyəni xilas etmək üçün gedir. Qardaşlar! Türkiyə Azərbaycanın xilaskarıdır. Millətimizin amalını uca eyləyən müqəddəs bir məmləkətdir. Onun xilasına gedən bir qüvvəni biz, məmnuniyyətlə yola salarıq. Fəqət bir şərtlə ki, bu qüvvə bizim azadlığımızı, müstəqilliyimizi çeynəməsin. Halbuki qardaşlar, bizdən soruşmadan torpağımıza keçən hər hansı bir qüvvə dostumuz deyil, düşmənimizdir. Duyduğumuz bu təbliğat düşmən təbliğatıdır. Bizi aldadırlar. Yalandır, gələn rus ordusudur. Onun istədiyi 1914-cü il hüdudlarını almaqdır. Anadolunun imdadına getmək bəhanəsi ilə yurdumuza girən işğal ordusu buradan bir daha çıxmaq istəməyəcəkdir. Rusiya ilə anlaşmaq üçün hökuməti mütləq bolşeviklərə təslim etməyə, ultimatumu qəbul etməyə ehtiyac yoxdur. Bu ultimatumu kəmali nifrətlə rədd edirik... İstiqlalımızı göz bəbəyi kimi müdafiəyə qərar verən bir məclisin dinlədiyi bir ultimatumu qəbul etməsi, hökuməti öz əliylə dost cildinə girmiş bir düşmənə təslim etməsi deməkdir.

[1423] ARDA, f.970, s.l, i.224, v.5
[1424] Генерал Г.И.Квинитадзе. Мои воспоминания в годы независимости Грузии, с. 162



downloaded from KitabYurdu.az

Biz buraya millətin iradə və arzusu ilə gəldik, bizi buradan yalnız qüvvət və süngü çıxarmalıdır".[1425]

M.Ə.Rəsulzadə və Şəfi bəy Rüstəmbəyovun kəskin etirazlarına baxmayaraq, iclas axşam saat 11-də hakimiyyəti dinc yolla bolşeviklərə vermək haqqında qərar qəbul etdi. Hökumət öz fəaliyyətini dayandırdı. M.Ə.Rəsulzadə deyirdi: "...Yazıqlar olsun ki, biz "Bir kərə yüksələn bayraq bir daha enməz" idealına etdiyimiz afərinləri unutduq, canımız və malımız qorxusundan bu istiqlal bayrağını qırmızı bir bezə dəyişdik".[1426] Azərbaycan Parlamentinin hakimiyyəti təhvil vermək haqqında qərarında deyilirdi: "Sizin 27 aprel tarixli məktubunuzu müzakirə edərək, onun məzmununu indiki vəziyyətlə tutuşduraraq, bizim seçdiyimiz komissiya sizin təklifinizi, o cümlədən:

1. Sovet hakimiyyətinin idarə etdiyi Azərbaycanın tam müstəqilliyinin qoruyub saxlanılmasını;
2. Azərbaycan Kommunist Partiyasının yaratdığı hökumətin müvəqqəti orqan olacağını;
3. Hər hansı kənar təzyiqdən asılı olmayaraq, Azərbaycanın əsl idarə formasını fəhlə, kəndli və əsgər deputatlarının timsalında Azərbaycanın ali qanunvericilik orqanının yaranacağını;
4. Hökumət idarələrindəki qulluqçuların tutduğu vəzifələrdə qalmasını (yalnız vəzifəli şəxslər əvəz olunur);
5. Yeni yaradılmış kommunist hökumətinin hökumət və parlament (keçmiş - C.H.) üzvlərinin həyat və mülkiyyətinin toxunulmazlığını təmin edəcəyini;
6. Qırmızı Ordunun döyüşlə Bakı şəhərinə daxil olmasına yol verməmək üçün tədbirlər görüləcəyini;
7. Yeni hökumətin Azərbaycanın müstəqilliyini tapdalamaq məqsədilə hər hansı bir kənar həmləyə (haradan olursa-olsun) qarşı qəti tədbirlərlə və əldə olunan bütün vasitələrlə mübarizə aparacağını nəzərə alıb Azərbaycan parlamenti bu şərtlərə əməl edəcəklərini bildirdikləri üçün səs çoxluğu ilə hakimiyyəti müsəlman kommunistlərinə vermək barədə qərar qəbul edir.[1427]

Lakin cəmisi bir neçə saat sonra bu razılaşmanın əksinə olaraq, Anadoluya getmək bəhanəsi ilə Biləcəri stansiyası yaxınlığına gəlib çatmış XI Qırmızı Ordu Bakıya daxil oldu. İşğal faktı başa çatdıqdan sonra yeni hakimiyyət aprel ayının 29-da gündüz saat 14-də Sovet hakimiyyətinə ordu göndərilməsi haqqında rəsmi müraciət etdi. Müraciətdə Qırmızı Ordu dəstələrinin göndərilməsi ilə real köməklik göstərilməsi xahiş edilirdi. Müraciətdə deyilirdi: "Xarici və daxili əksinqilabın

---

[1425] "Ağ ləkə"lərin qara kölgəsi. Bakı, 1991, s.95-96
[1426] M.Ə. Rəsulzadə Əsrimizin Səyavuşu. Bakı, 1991, s.55
[1427] Azərbaycan Xalq Cümhuriyyəti. Parlament. II cild. Bakı, 1998, c.978-979; Le 29 avril 1920 Télégramme à chiffrer № 30 Haut Commissaire Français Constantinople. // Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 13



downloaded from KitabYurdu.az

birləşmiş quldur dəstələrinin təzyiqinə öz qüvvəsi ilə müqavimət göstərməyə imkanı olmayan Azərbaycan Müvəqqəti İnqilab komitəsi dünya imperializminə qarşı birgə mübarizə aparmaq üçün qardaşlıq ittifaqı bağlamağı Rusiya Sovet Respublikası hökumətinə təklif edir və Qızıl Ordu dəstələri göndərmək yolu ilə dərhal həqiqi yardım göstərməyi xahiş edir".[1428] Halbuki istənilən ordu artıq Bakıda idi və Anadoluya getmək də yaddan çıxmışdı. Az sonra imzalanmış müqavilənin heç bir bəndinə bolşeviklər tərəfindən əməl edilmədi. Bununla da, Azərbaycanın tarixində mühüm hadisə olan 23 aylıq istiqlala son qoyuldu və Azərbaycan yenidən Rusiya tərəfindən işğal olundu. Bolşevik emissarlarının yazışmalarından aydın olur ki, Azərbaycanın müstəqilliyinin müsəlman kommunistləri tərəfindən saxlanacağına verilən vədlər deklarativ xarakter daşıyırdı və onların səlahiyyətləri çərçivəsində olan bir məsələ deyildi. Bu İ.Stalinin Azərbaycana müdaxilənin başlandığı anda, aprel ayının 27-də, Moskvaya G.Çiçerinə göndərdiyi teleqramdan daha aydın görsənir. O yazırdı: "Siz tamamilə haqlısınız ki, yoldaş Orconikidze müəyyən qədər özünəməxsus xətt yeridir. Mənim fikrimcə, bu onunla izah olunur ki, Azərbaycan reallıqlarına tamamilə uyğun olmayan bu təlimat ona (eləcə də bizə) yoldaş Lenin tərəfindən verilib. Belə ki, biz Bakıda heç bir şansı olmayan qabaqcadan baş verəcək üsyana ümid bəsləyirik..." Azərbaycanın gələcək müstəqilliyi haqqında söhbətlərə gəldikdə İ.Stalin yazırdı: "Mənə belə gəlir gələcək (güman edilən) müstəqillik ciddi praktiki əhəmiyyəti olmayan yalnız bəyanat formasında təsəvvür edilə bilər."[1429]

Aprel ayının 28-də AK(b)P MK Azərbaycanda Sovet hakimiyyətinin elan edilməsini xüsusi teleqramla V.İ.Leninə xəbər verdi. Aprelin 29-da V.İ.Lenin şüşə-çini istehsalı fəhlələrinin ümumrusiya qurultayında deyirdi: "... dünən Bakıdan aldığımız bir xəbər göstərir ki, Sovet Rusiyasının vəziyyəti yaxşılaşmaqdadır: sənayemizin yanacaqsız qaldığı bizə məlumdur, indi isə xəbər almışıq ki, Bakı proletariatı hakimiyyəti öz əlinə almış və Azərbaycan hökumətini yıxmışdır. Bu, o deməkdir ki, indi bizim bütün sənayemizi canlandıra biləcək bir iqtisadi bazamız vardır... Beləliklə, nəqliyyatımız və sənayemiz Bakı neft mədənlərindən çox böyük yardım alacaqdır".[1430] Bu "köməyi" gözləməyə çox vaxt lazım gəlmədi. May ayının 4-də Q.K.Orconikidze və S.M.Kirov V.İ.Leninə məlumat verirdilər ki, mədənlər və ticarət donanması tamamilə təhlükəsizdir. Neft məhsullarının ehtiyatı 300 milyon puddur, gündəlik istehsal 20 milyon puddur. Hələlik, Həştərxana 1,5 milyon pud göndərilir. Göndərişin həcmi Həştərxandan asılı olacaq.[1431]

---

[1428] Ordu göndərilməsi haqqında Sovet hökumətinə teleqram. 29.04.1920. // Rusiya Federasiyası Dövlət Arxivi, f. 130, s.4, i.496, v.25

[1429] İ.Stalinin Moskvaya teleqramı. 27.04.1920.// ARPİİ SPİHDA, f.1, s.l, i.2a, v.4

[1430] V.İ.Lenin. Azərbaycan haqqında. s. 168

[1431] Ordu göndərilməsi haqqında sovet hökumətinə müraciət. 29.04.1920. // Rusiya Federasiyası Dövlət Arxivi. F.139. s.4. i.496, v.25



downloaded from KitabYurdu.az

Aprel ayının axırlarında Bakının işğalı başa çatdıqdan sonra may ayının 4-də V.Leninə göndərdikləri teleqramda Q.K.Orconikidze və S.M.Kirov Azərbaycanın işğalını belə təsvir edirdilər: "Azərbaycan Kommunist komitəsinin aprel ayının 28-nə keçən gecə hakimiyyətin kommunistlərə verilməsi haqqında hökumətə təqdim edəcəkləri tələblərindən məlumatlı olan bizim ordumuz aprelin 26-da Azərbaycan sərhədlərini keçdi. Bizim zirehli qatarımız bu zaman Xaçmazda idi. Qısa müşavirədən sonra hökumət hakimiyyətin müstəsna olaraq, müsəlmanlardan təşkil olunmuş Azərbaycan və Bakı İnqilab Komitəsinə verdi. Müstəqil Azərbaycan Sovet Sosialist Respublikası elan edildi. İnqilab Komitəsinin birinci addımı hərbi kömək üçün və hərbi ittifaq bağlamaq təklifi ilə Sovet Rusiyasına müraciət etməsi oldu. Bizim ordumuz şəhərə müqavimətsiz girdi. Hakimiyyət kommunistlərə verildikdən iki saat sonra tərkibində piyada batalyonları olan bizim zirehli qatar Bakıya gəldi".[1432] Teleqramda V.Leninə bildirilirdi ki, ən yaxın zamanlarda Azərbaycanda baş verənlər eynilə Gürcüstanla da olacaq. Ona görə, teleqram müəllifləri tövsiyə edirdilər ki, Gürcüstanla heç bir danışıq aparılmasın.[1433] Ən nəhayət, aprel ayının 23-də G.Çiçerinə teleqramında təcili olaraq, N.Nərimanovun göndərilməsini acizanə surətdə xahiş edən Orconikidze indi V.Leninə yazırdı ki, Xalq Komissarlar Soveti N.Nərimanova heç bir vəkalət verməsin.[1434] May ayının 7-də V.İ.Lenin, İ.V.Stalin və G.V.Çiçerinə göndərdikləri teleqramda Q.K.Orconikidze və S.M.Kirov yenidən Gürcüstan məsələsinə toxunaraq yazırdılar ki, gürcü qüvvələrinin mübarizə apardığı indiki vəziyyət bizim müdaxiləmiz üçün çox əlverişlidir. Azərbaycanda baş verənlər kiçik dəyişikliklərlə burada da təkrar olunacaqdır. Bundan əlavə, Gürcüstan ələ keçirilməsə, Azərbaycanın işğalı müsəlmanlarda çox qəzəb doğura bilər, halbuki Azərbaycan hökuməti bütün mümkün güzəştlərlə sülh bağlamağa hazır idi.[1435] Göründüyü kimi, Azərbaycanın işğalına bolşeviklər bütün Cənubi Qafqazın ələ keçirilməsi kimi baxırdılar. Bakının tutulması onların fikrincə, iqtisadi əhəmiyyətindən başqa, daha çox siyasi əhəmiyyətə malik idi. May ayının 3-də Q.K.Orconikidze bildirirdi: "Azərbaycan paytaxtının tutulması Sovet Rusiyasının ucqarlarında "yeni yaranmış dövlətlər" və bir çox başqa müstəqil əksinqilabçılar üçün bir dərs olduğundan siyasi baxımdan az əhəmiyyətli deyildir. Bu dövlətlər vasitəsi ilə Qərbi Avropanın burjua diplomatları "bolşevizm təhlükəsindən" mühafizə olunacaqlarını fikirləşirdilər".[1436]

---

[1432] Q.K.Orconikidze və S.M.Kirovun V.İ.Leninə teleqramı. 04.05.1920.// RDSSTA, f.850, c.13. i.12, v.100

[1433] Yenə orada. v.100

[1434] Yenə orada, v.101

[1435] Q.K.Orconikidze və S.M.Kirovun V.İ.Leninə, İ.V.Stalinə və G.V.Çiçerinə teleqramı. 07.05.1920. //RDSSTA, f.5, c.l, i.245, v.l

[1436] Q.K.Orconikidzenin Vladiqafqaza teleqramı. 04.05.1920. // RDSSTA, f.85, c 13, i.10, v.2



downloaded from KitabYurdu.az

Hadisələrin araşdırılması göstərir ki, 1920-ci ilin aprelində Azərbaycanda nə inqilabi şərait mövcud idi, nə də inqilab baş verdi. Sadəcə olaraq, xarici təcavüz nəticəsində beynəlxalq münasibətlərə və beynəlxalq hüquqa zidd olaraq, dünya ölkələri tərəfindən tanınmış suveren dövlət zor tətbiq etməklə işğal edildi. Bolşeviklər hakimiyyəti qəsb etdilər. XI Qırmızı Ordu ilə Bakıya gələn bolşevik Pervuxin öz xatirələrində yazır ki, aprel ayının 28-də səhər adamlar küçələrdə nə baş verdiyindən xəbərsiz idilər. Onlar əsgərlərdən soruşurdular: "İvan, heç olmasa deyin görək nə baş verib, kim hakimiyyəti qəsb edib? Bizim yerli bolşeviklər, yoxsa gəlmələr?"[1437] Bu hadisələrin fəal iştirakçısı H.Sultanov da sonralar etiraf edirdi ki, Sovet hakimiyyəti Azərbaycana hazır formada, XI ordusunun süngüsü ilə gətirildi. Həmid Sultanov 1920-ci ilin oktyabrında keçirilmiş AK(b)P-nın II qurultayındakı çıxışında göstərirdi ki, hakimiyyətin devrilməsi üçün MK heç bir fəhlə, heç bir kəndliyə göstəriş verməmişdi. O deyirdi ki, hakimiyyətin devrilməsində mən yaxından iştirak etmişəm. Ona görə elə bilirdik ki, arxamızda MK-dan olan əziz yoldaşlarımız deyil, bizim Yalamada olan qırmızı süngümüz dayanır. Mən hökumətə tələbləri verməyə gedəndə qətiyyən MK-ya arxalanmırdım. Mən bilirdim ki, indi də olmasa, sabah, ya da birisi gün qırmızı süngü burada olacaq. Bu müddət ərzində əgər məni və mənim yoldaşlarımı öldürsələr, Bakı fəhlələri qalacaqdır və Sovet hakimiyyətini hazır formada alacaqdır. Belə də oldu, biz Sovet hakimiyyətini hazır formada aldıq, onu bizə hazır formada gətirdilər".[1438] Azərbaycanda hakimiyyəti ələ keçirən bolşeviklərin ilk addımlarından biri Bakıda olan xarici dövlətlərin diplomatik nümayəndələrini həbs etmək oldu.[1439] Bütövlükdə, Bakıda həbs edilən xaricilərin sayı 400 nəfər idi.[1440] Cənubi Qafqazda Britaniya Ali Komissarı H.Lukun məlumatı əsasında Ənzəliyə getmək üçün İstanbul - Tiflis yolu ilə hərəkət edən admirallığın birinci lordu B.Frezer başda olmaqla 32 Britaniya donanma zabitləri məhz aprel ayının 28-də Bakıya yetişdilər və elə həmin gün də bolşeviklər tərəfindən həbs edildilər. Hələ aprel ayının əvvəllərində Zaqafqaziyada Britaniya Ali Komissarı O.Uordropu əvəz etmiş H.Luk İstanbula, "Qara dəniz ordusuna" teleqram vuraraq Ənzəliyə ingilis donanma zabitlərinin göndərilməsinin zəruriliyini bildirmişdi. Bu addım Xəzər dənizində güclənmiş bolşeviklərin ehtimal edilən təhlükəsindən Ənzəli

---

[1437] 1917-1918-ci illərdə Bakıda və Azərbaycanda inqilabi hadisələr haqqında xatirələr. Pervuxinin xatirələrindən. // AR Pİİ SPİHDA, f.276, c.2, i.20, v.72

[1438] Azərbaycan K(b)P-nın II qurultayının stenoqramı. Oktyabr, 1920. // AR Pİİ SPİHDA, f.1, s.1. i.8, v.280

[1439] Commissariat de la République Française au Caucase. Monsieur de Martel Commissaire français au Caucase à Son Excellence Monsieur Millerand Président du Conseil Ministre des Affaires Etrangères. Le 24 mai 1920.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 77

[1440] Information Renseignements sur Bakou. Le 25 août 1920. // Ministère des Affaires Etrangère de France, Archives Diplomatique,vol. 639, folio 158



downloaded from KitabYurdu.az

limanının müdafiəsini möhkəmləndirmək məqsədilə atılırdı. H.Lukun teleqramına əsasən, təcili şəkildə 32 Britaniya donanma zabiti İstanbul - Tiflis - Bakı yolu ilə Ənzəliyə yola salınmışdı. Aprel işğalı zamanı Bakıda həbs olunan həmin zabitlər bir neçə ay sonra bolşeviklər tərəfindən hərbi əsirlər kimi İngiltərə ilə dəyişdirildi.[1441]

Bir sıra Qərb tarixçiləri haqlı olaraq qeyd edirlər ki, Qafqazın vaxtilə çar Rusiyası tərəfindən işğal edilməsi ilə Sovet Rusiyası tərəfindən işğal edilməsi arasında tarixi bir paralellik mövcuddur.[1442] F.Kazımzadə yazır: "Ölkənin adı və zahiri müstəqillik forması saxlanılsa da, qısa bir müddət ərzində Azərbaycanı yenə də Rusiya uddu".[1443] 1979-cu ilin may ayında ABŞ-ın beynəlxalq əlaqələr üzrə agentliyinin Vilson Mərkəzi və SSRİ-ni öyrənən C.Kennan institutunun birgə keçirdiyi konfransda çıxış edən F.Kazımzadə göstərirdi ki, "Qırmızı Ordu 1920-21-ci illərdə Cənubi Qafqaz respublikalarını işğal etdi. Moskva öz ağalığını pərdələmək üçün yeni yaranmış bolşevik hökumətləri ilə müqavilələr bağladı. Əslində isə Cənubi Qafqaz Moskvanın müstəmləkəsi kimi idarə olunurdu".[1444] Amerika alimi R.Payps da Azərbaycanın işğal olunması faktını təsdiq edir. O, yazır ki, 1920-ci il aprel ayının 28-də başda Orconikidze və Kirov olmaqla XI Ordunun qoşunları Bakıya gəlib Azərbaycanı işğal edərək Sovet hakimiyyətini qurdular.[1445] Qərb tarixçilərindən U.Allen, P.Muratov, X.Seton-Uotson, A.Spektor, U.Kolarz, S.Uimbiş, A.Beniqsen, R.Syüni, T.Svyatoçevski və digərləri də bu fikirdədirlər.[1446]

Aprel ayının sonunda San-Remo konfransından Parisə dönən Azərbaycan nümayəndələri Bakının işğalı xəbərini Fransa mətbuatından aldılar. Bu məlumatı alan kimi Ə.M.Topçubaşov Fransa Nazirlər Kabinetinə və Xarici İşlər Nazirliyinə müraciət edib Azərbaycan Nazirlər Şurasına təcili radioqram göndərilməsi işində köməklik göstərilməsini onlardan xahiş etdi. Ə.M.Topçubaşov bu radioqrama

---

[1441] Bax: H.Luke. Cities and men. Oxford, 1953, p. 101-104; D. de Martel - Affaires Etrangères Télégramme à l'arrivée Duplicata, Tiflis par Constantinople, le 28 mai 1920. // Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 101

[1442] W. Allen and Paul Muratof. Caucasian Battlefields, p.500

[1443] F.Kazemzadeh. The Struggle for Transcaucasia, p.285

[1444] Бах: Советский Азербайджан: мифы и действительности, с.25

[1445] R.Pipes. The Formation of the Soviet Union: Communist and Nationalism, 1917-1923. Cambridge, 1964, p.227

[1446] Bax: W.Allen, P.Muratof. Caucasian Battlefields: A History of the Wars and Turco - Caucasian Border (1828-1921). Cambridge, 1953; V.Kolarz. Russia and Her Colonial. London, 1953; I.Spector. The Soviet Union and thc Moslem World. 1917-1958, Wash. 1958; A.Bennigsen, E.Wimbush. Moslem National Communism in the Soviet Union: A Revolutionary Strategy for the Colonial World. Chicago, London, 1979; R.Suny. The Baku Commune, 1917-1918: Class and Nationalist. Princeton (N.Y.), 1972; H.Seton-Watson. The New Imperialism. London, 1961; T.Swietochowski. Russian Azerbaijan, 1905-1920: The Shaping of National Identity in Moslem Community. Cambridge, 1985; T.Swietochowski. Russia and Azerbaijan: A Borderland in Transition. New York, 1995; T.Swietochowski and B.Collins. Historical Dictionary of Azerbaijan. Lanham, 1999



downloaded from KitabYurdu.az

cavab alacağına əmin olduğunu Fransa rəsmilərinə bildirirdi.[1447] Fransa Xarici İşlər Nazirliyinin köməkliyi ilə Ə.M.Topçubaşov may ayının 3-də Azərbaycan Nazirlər Şurasının sədrinə bu məzmunda radioqram göndərdi: "Artıq iki gündür qəzetlər Azərbaycandan alınmış mühüm məlumatlar dərc edir. San-Remodan qayıdan Azərbaycan nümayəndələri baş vermiş hadisələr barədə məlumatsızdır. Acizanə şəkildə rica edirik baş vermiş hadisələr barədə nümayəndəliyi məlumatlandırın."[1448] Eyni zamanda yubanmadan Parisdə olan Azərbaycan nümayəndələri müttəfiq dövlətlərin Ali Şurasına, Fransa, İngiltərə, Amerika və İtaliya hökumətlərinə və xarici dövlətlərin Parisdə olan səfirliklərinə suveren Azərbaycan dövlətinin Sovet Rusiyasının silahlı qüvvələri tərəfindən işğal olunduğu haqqında nota təqdim etdilər. Sülh konfransına verilmiş notada göstərilirdi: "Azərbaycan nümayəndələri ümid edirlər ki, Sülh konfransı müstəqilliyinin bərpa olunmasında Azərbaycana köməklik göstərəcəkdir".[1449] Bu məzmunda notalar və müraciətlər dəfələrlə Millətlər Cəmiyyətinə, dünya siyasətini müəyyən edən ölkələrə də verildi. Azərbaycanın Millətlər Cəmiyyətinə müraciətində deyilirdi: "... Azərbaycan milləti böyük məclisin məsaisini məmnuniyyətlə salamlar və Millətlər Cəmiyyətinin xidmətlərinin təhəqüqü ilə bütün bəşəriyyətə səadət gəlməsi ümidini izhar edər. Fəqət, eyni zamanda Cenevrədə birləşmiş olan millətlər təmsilçilərinə müraciət edərək, Azərbaycan xalqının məruz qaldığı ələm və nəqab ilə nəzəri diqqətinizi cəlb etmək istəyirik".[1450] Müraciətdə Azərbaycan Demokratik Respublikasının Azərbaycan türk millətinin iradəsini ifadə etdiyi, müttəfiqlər tərəfindən tanınan bu dövlətin həyat qabiliyyətli olduğu göstərilərək yazılırdı: "Fəqət, 1920-ci ilin aprelində rus bolşevikləri Azərbaycanı istila etdilər və qeyri-bərabər hərbdən sonra Qızıl Ordu məmləkəti əsgəri işğalı altına aldı... Millətlərin həyatını sülhü-ədalət əsasları üzərində sırf yaşamaq və sərbəstcə inkişaf etmək üçün mücadilə aparan kiçik Azərbaycan millətinin çəkdiyi ələmə qarşı laqeyd qalacağınızı zənn etmirik. Millətlər Cəmiyyətinin nəzəri diqqətinin dünyanın bu güşəsinə yönələcəyinə və ali məclisin Azərbaycan millətinə və onun haqlı tələbatına mənəvi himayəsini

[1447] Président du Parlement, Président de la Délégation de Paix de la République d'Azerbaïdjan A.M.Toptchibacheff - A Son Excellence Monsieur le Président du Conseil des Ministres et Ministre des Affaires Etrangères de la Republique Française. Le 3 mai 1920. // Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 20

[1448] Président Délégation Topchibacheff - Président Conseil des Ministres Republique Azerbaïdjanienne. Le 3 mai 19207/ Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 21

[1449] F.Kazemzadeh. The Struggle for Transcaucasia, p.286.

[1450] League of Nations from the President of the Peace Delegation of the Azerbaijan Republic. Bibliotheque de documentation international contemproraine (BDIC, Nanterre), Paris, Microfilms des archives du gouvernement Azerbaidjan.



downloaded from KitabYurdu.az

göstərəcəyinə ümid edirik..."[1451] 1920-ci ilin iyun ayının 30-da isə Ə.M.Topçubaşov sovet ticarət komissarı M.Krasinin Rusiyanın Qərb ölkələrinə olan borclarının Bakı neftinin həmin ölkələrə konsessiya verilə biləcəyi ilə ödənilməsi barədə bəyanatına qarşı Versal Ali Şurasının sədrinə etiraz notası vermişdi.[1452] Sonralar Spa, London, Genuya, Haaqa, Lozanna, Streze konfranslarına da bu məzmunda müraciətlər verildi. Məsələn, 1920-ci ilin iyul ayının 4-də Spa konfransına təqdim edilmiş müraciətdə göstərilirdi: "Azərbaycanın Sülh konfransında olan nümayəndə heyəti Sülh konfransının diqqətini Azərbaycanın Sovet Rusiyası tərəfindən işğalına yönəltmək istəyir... Versal Ali Şurası tərəfindən Azərbaycanın müstəqilliyinin de-fakto tanınması xalqın böyük ruh yüksəkliyinə səbəb olmuşdu. Bu tanınma xalqa ümid verirdi ki, onların yaratdığı gənc dövlətin həyatında yeni dövr başlayır... Lakin bu tanınmadan az sonra ölkəmiz bolşeviklər tərəfindən işğal edildi...Yaranmış bu şəraitdə hadisələrin həllinin açarı müttəfiq dövlətlərin, Sülh konfransının və Millətlər Cəmiyyətinin əlindədir.[1453] Bu müraciətin surətləri Spa konfransında təmsil olunan ayrı-ayrı nümayəndə heyətlərinin başçılarına təqdim edildi. Fransa nümayəndə heyətinin başçısına yazdığı məktubda Ə.M.Topçubaşov bildirirdi ki, rəhbərlik etdiyiniz Fransa Respublikasının konfransdakı nümayəndə heyətinin Azərbaycan üçün böyük həyati əhəmiyyət daşıyan məsələlərə diqqət yetirəcəyinə bəslədiyimiz dərin inamın ifadəsi kimi bu müraciəti Sizə ünvanlayırıq.[1454] Lakin bunların elə bir əhəmiyyəti olmadı. Hətta ABŞ kimi bir sıra dövlətlər Azərbaycanın Sovet Rusiyası tərəfindən işğalından bölünməz Rusiya ideyasını və Ermənistanın müstəqilliyini müdafiə məqamı kimi istifadə etdikdə Ə.M.Topçubaşov 1920-ci ilin avqust ayının 16-da ABŞ-ın Parisdəki səfirinə kəskin bir nota ilə müraciət etməli oldu. Orada deyilirdi: "Mənim başçılıq etdiyim Azərbaycan Respublikasının Parisdə Sülh konfransındakı nümayəndə heyəti adından, sizin hökumətə ünvanlanmış bəyannaməni, cənab Səfir sizə təqdim etmək şərəfindəyəm. Avropa mətbuatı, Birləşmiş Ştatların Xarici İşlər Nazirliyinin İtaliya səfirliyinə göndərdiyi notasının tam mətnini dərc etmişdir. Polşa - Rusiya məsələlərindən bəhs edən bu notada, eyni zamanda, Azərbaycan Respublikasının həyati maraqlarına da toxunulub. Bu səbəbdən, Azərbaycan Respublikasının Paris Sülh konfransındakı nümayəndə

---

[1451] League of Nations from the President of the Peace Delegation of the Azerbaijan Republic. Bibliotheque de documentation international contemproraine (BDIC, Nanterre), Paris, Microfilms des archives du gouvernement Azerbaidjan.

[1452] A.Toptchibacheff Président de la Délégation de Paix de la République d'Azerbaïdjan - Monsieur le Président du Conseil Suprême de la Conférence de la Paix. Le 30 juin 1920.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 135

[1453] Monsieur le Président de la Conférence de la Paix à Spa. Le 4 juillet 1920. // Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 124-132

[1454] Président de la Délégation de Paix de la République d'Azerbaïdjan - A M. le Président de la Délégation de la République française à la Conférence de Spa. Le 7 juillet 19207/ Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 133



downloaded from KitabYurdu.az

heyəti bu notaya münasibətdə etinasız qala bilməzdi və ona görə də, notanın Azərbaycana aid məqamlarına Birləşmiş Ştatlar hökumətinin diqqətini cəlb etmək məcburiyyətindədir. Rus xalqına böyük simpatiya nümayiş etdirən nota rus xalqının gözəl gələcəyini, Rusiyanın erməni dövlətinə verəcəyi əraziləri çıxmaq şərti ilə vahid və bölünməz Rusiyada görür. Azərbaycan xalqının rus dövlətindən, onun gələcəkdə hər hansı forma alacağına baxmayaraq, ayrılmaq və 28 may 1918 il tarixində öz müstəqil Azərbaycan Xalq Cümhuriyyətini yaratmaq qərarına əsaslanaraq, Azərbaycan nümayəndə heyəti, heç bir halda, gələcək Rusiyaya münasibətdə bu mövqeylə razılaşa bilməz. Bu qərar bir əsrə yaxın müddətində rusların Qafqazda və o cümlədən, Azərbaycanda hakimiyyətinin nəticəsidir, çünki heç bir hüquqa malik olmayan və sayı dörd milyon yarım olan Azərbaycan əhalisi, öz təbiətinə tam yad olan rus əsarəti altında boğulurdu. Sülh konfransına və həmçinin, Birləşmiş Ştatlar hökumətinə nümayəndə heyəti tərəfindən təqdim olunmuş siyasi hesabatlarda, rusların bir əsrlik hakimiyyətindən sonra Azərbaycan əhalisinin acınacaqlı vəziyyəti gerçək şəkildə təsvir edilmişdir. Azərbaycanlılar rus İmperiyasının dağılmasından sonra, digər Qafqaz xalqları ilə birlikdə öz müstəqilliklərini elan etmişlər, bu yolda onlar iki ildən artıq böyük qurbanlar vermişlər və indi də rus bolşeviklərinə qarşı mübarizələrini davam etdirirlər. Bütün bu qurbanlar Azərbaycanın gələcəkdə müstəqil yaşamaq arzularından irəli gəlir, çünki azərbaycanlılar irq, din, dil baxımından slavyanlardan fərqlənirlər və onlarla nə adətlərində, nə də mənəvi və intellektual düşüncələrində heç bir oxşarlıqları yoxdur. Əgər Birləşmiş Ştatların Xarici İşlər Nazirliyinin notası, ermənilərin zor gücünə işğal ediləcəyini səbəb gətirərək, onların müstəqillik hüququnu tanıyırsa, onda bizə bəyan etməyə icazə verin ki, Qafqazın ruslar tərəfindən işğalı zamanı, Azərbaycan xanlıqlarının və azad Dağıstanın əhalisinin simasında yalnız müsəlmanların ruslara qarşı mübarizə apardığını nəzərinizə çatdıraq. Azərbaycanın və Dağıstanın rus işğalına qarşı mübarizəsi yarım əsr davam edib. Halbuki Qafqaz erməniləri heç vaxt ruslara qarşı mübarizə aparmayıblar. Ancaq biz, kiçik erməni millətinə və çox milyonlu rus xalqına ən xoş arzular diləyirik. Biz, sadəcə qeyd etmək istəyirik ki, kiçik Azərbaycan millətinin də böyük xalqların köməyi və müdafiəsinə ehtiyacı var və azərbaycanlılar daha çox diqqətə və ədalətli münasibətə layiqdirlər. Bundan əlavə, Azərbaycan xalqı iki dəfə - 1918-ci ildə və 1920-ci ilin aprel ayından etibarən, rus bolşevikləri tərəfindən dəhşətli müdaxiləyə məruz qalıblar və hal-hazırda heç bir yerdən kömək almadan onlara qarşı qanlı mübarizə aparmaqdadırlar. İki dəfə rusların hakimiyyəti nəticəsində bizim kiçik ölkədə 200 minə yaxın insan qurban olub, dörd şəhər və yüzlərlə kənd talan edilib, saysız var-dövlət, pul, müxtəlif mallar, Xəzər donanması müsadirə olunub və ölkənin əsas sərvəti olan Bakının neft sənayesi itirilib. Kiçik ölkə olmasına baxmayaraq, böyük qurbanlar vermiş Azərbaycan xalqı, Sülh konfransının Ali Şurası tərəfindən Azərbaycan Respublikasının de-fakto tanınması faktından ilham alaraq, gələcək azad həyat arzusu ilə yaşayır. Azərbaycanın nümayəndə heyəti



downloaded from KitabYurdu.az

inanmaq istəyir ki, böyük dövlət kimi Amerika və onun məşhur prezidenti, millətlərin öz müqəddəratını təyinetmə hüququnun əsas carçısı olan V. Vilson kiçik Azərbaycan xalqının artıq həyata keçirmiş öz müqəddəratını təyinetmə hüququnu tanıyacaqdır. Bunun yolunda Azərbaycan bütün qurbanlara hazırdır. Azadlığın tərəfdarı olan Amerika xalqına, onun demokratik ictimaiyyətinə müraciət edərək, Azərbaycan nümayəndə heyəti Amerikanın Xarici İşlər Nazirliyinin notası ilə əlaqədar bu bəyannaməni sizə təqdim edərək, bildirir ki, Azərbaycan xalqı hökumət formasından asılı olmayaraq rus dövlətinə birləşdirilməyəcək və müstəqil Azərbaycan Xalq Cümhuriyyəti olaraq yaşamağa davam edəcək, bütün ölkələrlə və o cümlədən, gələcək Rusiya ilə iqtisadi münasibətlər saxlayacaqdır."[1455] Rusiyanın 1914-cü il sərhədlərində bərpasına belə münasibət digər Qərb ölkələri üçün də səciyyəvi idi. Ona görə də, müraciət edilmiş Antanta ölkələri bir qayda olaraq Azərbaycanın bolşeviklər tərəfindən işğal edilməsini sükutla qarşıladılar. Müstəqilliyi Paris Sülh konfransı tərəfindən tanınmış Azərbaycan Respublikasının beynəlxalq münasibətlər sistemində iştirakı aprel işğalı ilə sona çatdı. Onun Parisdəki nümayəndələri isə Azərbaycan siyasi mühacirlərinin ilk dəstəsinə çevrildilər.

[1455] Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Arxivi, sənəd № 8856



downloaded from KitabYurdu.az

## NƏTİCƏ

Azərbaycan Xalq Cümhuriyyətinin ikiillik diplomatik fəaliyyətinin araşdırılması belə bir nəticəyə gəlməyə əsas verir ki, Azərbaycan xalqının milli maraqlarına uyğun xarici siyasət kursunun müəyyən edilməsi, mürəkkəb beynəlxalq şəraitdə həmin kursun həyata keçirilməsi, Azərbaycan Respublikasının dünya birliyi tərəfindən tanınmasına nail olunması respublika hökumətinin, onun xarici siyasət idarəsinin başlıca məqsədi idi. 1918-1920-ci illərdə Azərbaycan hökumətinin xarici siyasət kursunun öyrənilməsi təsdiq edir ki, bu illərdə Azərbaycan diplomatiyasının əsas qayəsi Azərbaycanın istiqlaliyyətini qorumaq, beynəlxalq münasibətlər sisteminə daxil olmaq və tədricən Qərbin bərabər hüquqlu tərəfdaşına və regionun aparıcı dövlətinə çevrilməkdən ibarət olmuşdur. Bu vəzifələri yerinə yetirmək üçün Azərbaycan diplomatiyası istiqlaliyyətin ilk aylarındakı Türkiyə oriyentasiyasından Versal Ali Şurası tərəfindən de-fakto tanınmaya qədər, bir sıra qonşu dövlətlərlə mürəkkəb münasibətlərdən normal əməkdaşlığa, hətta bəzi məqamlarda strateji tərəfdaşlığa qədər maraqlı bir yol keçmişdir.

Azərbaycanın yerləşdiyi coğrafi vəziyyət hələ qədim zamanlardan onu dövlətlərarası münasibətlərin subyektinə, dünya ticarət və mal mübadiləsinin mərkəzinə, qərblə şərq, şimalla cənub arasında əlaqələrin kəsişdiyi ölkəyə çevirmişdi. Uzun əsrlər boyu Azərbaycan diplomatiyası regionda mürəkkəb beynəlxalq vəziyyətin tənzimlənməsində, Avropa ölkələri ilə çoxtərəfli münasibətlərin yaradılmasında mühüm rol oynamış, beynəlxalq münasibətlər tarixi və təcrübəsi baxımından xalqın mənəvi sərvətinə çevrilmiş zəngin təcrübə toplamışdır.

Hələ XIX əsrin axırları - XX əsrin əvvəllərində genişlənən milli demokratik ideyalar, müstəmləkə əsarətindən azad olmaq zərurətini və müstəqil Azərbaycan ideyasını doğurmağa başladı. XX yüzilliyin əvvəllərində bütün Yaxın və Orta Şərqdə oyanma prosesinin önündə gedən, islam ümmətçiliyindən türk millətçiliyinə tarixi keçidi uğurla başa çatdıran Azərbaycan böyük dünya siyasətinə inteqrasiyanın üç mühüm istiqamətini baxışlar sisteminə çevirə bilmişdi. Bu sistem milli kimlikdə türkçülük, dini inancda islamçılıq, düşüncə tərzində qərbçilik üzərində qurulmuşdu. Azərbaycan Xalq Cümhuriyyəti öz xarici siyasətini bu üçlü düsturun vəhdəti üzərində qurmuş, onun hazırlanması və gerçəkləşdirilməsində tarixi təcrübə ilə yanaşı, yeniləşmiş dünyanın çağdaş tələbləri də nəzərə alınmış, tarixilik və müasirlik baxımından toplanmış zəngin təcrübədən səmərəli istifadə edilmişdi. 1918-1920-ci illərdə Azərbaycan diplomatiyasının keçdiyi tarixi yolun araşdırılması nəticəsində müəyyən edildi ki, Azərbaycan xarici siyasətində rəhbər tutulan bu üç istiqamət Avropa mədəniyyətinin dağıdıcısı kimi təqdim edilən pantürkizm və panislamizmlə, yaxud bir sıra məqamlarda süni şəkildə qabardılan "Qərb aludəçiliyi" ilə bağlı olmayıb, real və sağlam ideya istiqamətinə söykənmiş,



downloaded from KitabYurdu.az

Şərq mənəviyyatı ilə Qərb mədəniyyətinin universal dəyərlərini özündə ehtiva etmişdir.

Xalqların bərabərliyi əsasında sülh və əmin-amanlıq, dövlətlərarası münasibətlərdə qarşılıqlı faydalı əməkdaşlıq mühitinin bərqərar edilməsi Azərbaycan diplomatiyasının çıxış nöqtəsini təşkil edirdi. 1918-1920-ci illərin tarixi təcrübəsi göstərdi ki, regional çəkişmələr və millətlərarası ziddiyyətlər, zor gücünə əsarət altına alma və milli istismarın qapalı və açıq formaları deyil, qarşılıqlı hörmət, bir-birinin daxili işlərinə müdaxilə etməmək, mübahisəli məsələləri danışıqlar yolu ilə həll etmək, beynəlxalq münasibətlərin subyekti olan hər bir dövlətin suverenliyi və ərazi bütövlüyünə hörmət edilməsi, dünya xalqlarının mədəni bağlantılarının dərinləşdirilməsi Azərbaycan Respublikasının xarici siyasətinin səciyyəvi cəhətləri idi. Məhz, ilk dəfə Azərbaycan hökuməti tərəfindən həmin dövrdə irəli sürülən Qafqaz xalqlarının həmrəyliyi ideyası bu mühüm prinsiplərə sədaqətin məntiqi nəticəsi kimi meydana çıxmışdı. Qafqazdakı milli ədavətin yerli deyil, gətirilmə bir fəlakət olduğunu, onun rus müstəmləkə əsarətinin mirası olduğunu göstərən Azərbaycan siyasi xadimləri Qafqaz xalqlarının müstəqilliyini onların dinc birgə yaşayışı ilə əlaqələndirirdilər. Ə.M.Topçubaşov hələ Azərbaycan istiqlaliyyəti elan edilməzdən bir il əvvəl yazırdı: "Rusiyada yaşayan qeyri-rus xalqlar barəsində köhnə rus hökumətinin siyasəti bu xalqları bir-birindən ayırmaq, onları bir-birinin üzərinə təhrik etmək siyasəti idi. Ermənilər ilə azərbaycanlılar arasında toqquşma, məhz bu zərərli siyasətlə, insana nifrət siyasəti ilə izah edilməlidir".[1456]

1918-1920-ci illərin tarixi təcrübəsi göstərdi ki, aralarında olan müxtəlif ziddiyyətlərə baxmayaraq, Qafqaz xalqlarının dinc birgəyaşayışı, siyasi və iqtisadi maraqları, bütün sahələri əhatə edən regional əməkdaşlığı bölgədə daimi sülhün və davamlı inkişafın, bütövlükdə Qafqazın çiçəklənməsinin ən etibarlı təminatıdır. 1919-cu ilin iyununda öz aralarında olan kiçik mübahisələri bir kənara qoyaraq, Gürcüstan və Azərbaycan respublikalarının Denikin təhlükəsinə qarşı birgə hərbi ittifaq bağlamaları bunun ən yaxşı nümunəsi idi. Cənubi Qafqazın bu iki respublikası arasında formalaşan hərbi-siyasi birlik ideyasını dünya siyasətini müəyyən edən dövlətlər də müdafiə edirdilər. Lakin Ermənistan tərəfinin pozuculuq mövqeyində dayanması "Qafqaz evi" ideyasını o dövrdə reallaşmağa imkan vermədi. Bu bir tərəfdən Cənubi Qafqaz respublikalarının beynəlxalq aləmdə tanınmasını çətinləşdirirdi, digər tərəfdən isə bu respublikaların Sovet Rusiyası tərəfindən işğal edilməsi üçün əlverişli şərait yaradırdı. Halbuki Baltik respublikalarının həmrəyliyi onların tarixi inkişafının və milli müstəqilliklərinin mühüm şərti idi. M.Ə.Rəsulzadə sonralar yazırdı: "Təkcə Azərbaycan deyil, onunla eyni müqəddərat daşıyan digər Qafqaz cümhuriyyətləri daha əllərinə keçən fürsəti

[1456] Каспи, 1917, 18 апреля



downloaded from KitabYurdu.az

tamamilə istifadə etmək imkanında olmadılar. Məlum olduğu kimi, Baltik sahilindəki cümhuriyyətlərin qazandıqları zəfər onlara nəsib olmadı".[1457]

Araşdırılan tarixi çərçivədə Azərbaycan Respublikasının beynəlxalq münasibətlər sistemində iştirakını şərti olaraq, üç dövrə bölmək olar: Türkiyə oriyentasiyası dövrü (1918-ci ilin may-oktyabr ayları), Qərb oriyentasiyası dövrü (1918-ci ilin noyabrı - 1920-ci ilin yanvarı), geniş beynəlxalq əməkdaşlığa daxil olmaq uğrunda mübarizənin başlanması dövrü (1920-ci il yanvar-aprel ayları). 1918-ci ilin may - oktyabr aylarını əhatə edən birinci dövr Azərbaycan Respublikasının həyatında ən ağır dövr idi. Digər iki Cənubi Qafqaz respublikalarından fərqli olaraq, Azərbaycan istiqlaliyyətinin elan edilməsi daha çətin bir vəziyyətlə üzləşmişdi. Bolşevik Rusiyasının Azərbaycana münasibətdə Bakı Xalq Komissarları Soveti vasitəsilə yeritdiyi işğalçılıq siyasəti ağır nəticələr vermiş, müxtəlif yadelli ünsürlər bu vəziyyətdən öz maraqlarına uyğun istifadə etmiş və nəticədə Azərbaycan ərazisində bolşevik-erməni koalisiyası tərəfindən 1918-ci ilin yazında azərbaycanlıların soyqırımı törədilmişdi. Bolşeviklər Bakıda azərbaycanlıların meyitləri üzərindən addımlayaraq, hakimiyyəti qəsb etmişdilər. Azərbaycanın bolşeviklərə qarşı mübarizədə böyük qurbanlar verdiyinə toxunan Ə.M.Topçubaşov 1920-ci ilin iyun ayının 30-da Versal Ali Şurasının sədrinə yazdığı məktubda yalnız 1918-ci ilin mart ayında 12 min azərbaycanlının qətlə yetirildiyini bildirirdi.[1458] Belə bir dövrdə ölkənin istiqlaliyyətini elan etməklə Azərbaycan siyasi xadimləri təmsil etdikləri millətin taleyində böyük bir tarixi missiyanı yerinə yetirmiş oldular. XIX əsrin əvvəllərində Azərbaycan ərazisi Rusiya tərəfindən ayrı-ayrı xanlıqlar formasında işğal edilmişdisə, bir əsrlik müstəmləkə zülmünün bütün ağırlığına baxmayaraq, müxtəlif tarixi amillərin təsiri altında imperiyanın tərkibindən vahid millət, vahid dövlət, vahid vətən ideyası ilə çıxdı. Bu mütərəqqi tarixi proses idi və bununla da Azərbaycan məsələsi beynəlxalq bir məsələyə çevrildi. Bu faktın əhəmiyyətindən bəhs edərək, M.Ə.Rəsulzadə yazırdı: "28 may 1918-ci il Bəyannaməsini elan etməklə Azərbaycan Milli Şurası, sözün siyasi mənası ilə, bir Azərbaycan millətinin varlığını təsbit etmişdir. Belə ki, Azərbaycan kəlməsi sadə coğrafi, etnoqrafik və linqvistik bir kəlmə olmaqdan çıxaraq siyasi bir aləm olmuşdur. Bu tarixdən etibarən bu isimdə bir türk millətinin öz varlıq və istiqlalı yolunda mücadilə qurduğunu bütün cahan duymuş, digər milli məsələlər yanında, Azərbaycan məsələsi daha beynəlmiləl bir qiymət və əhəmiyyət qazanmışdır".[1459]

Bu dövrdə Azərbaycanda və dünyada gedən siyasi proseslərin dərindən araşdırılması belə bir nəticəyə gəlməyə əsas verir ki, Azərbaycan xarici

---

[1457] İstiklal, 1933, 28 may

[1458] Président de la Délégation de Paix de la République d'Azerbaïdjan A.Toptchibacheff - Monsieur le Président du Conseil Suprême de la Conférence de la Paix. Le 30 juin 1920. // Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 638, folio 135

[1459] İstiklal, 1933, 28 may



downloaded from KitabYurdu.az

siyasətindəki Türkiyə oriyentasiyası Birinci dünya müharibəsinin sonunda yaranmış obyektiv reallıqlardan irəli gəlirdi. Yeni qurulmuş milli hökumətin ölkəni Sovet Rusiyasının təcavüzündən, erməni talanlarından və yadellilərin Azərbaycanın əleyhinə olan müxtəlif planlarından qorumaq üçün Osmanlı imperiyasından hərbi yardım alması (4 iyun 1918-ci il müqaviləsinə əsasən) beynəlxalq hüquqa uyğun yeganə mümkün diplomatik addım idi. Məhz bu mühüm diplomatik addım nəticəsində Birinci dünya müharibəsinin sonunda vuruşan güclərin əsas hədəfinə çevrilmiş Bakı şəhəri yadellilərdən təmizləndi, Azərbaycanın milli, mədəni, tarixi, siyasi və iqtisadi mərkəzi kimi əbədilik respublikanın paytaxtına çevrildi. Bu ümummilli hadisə çətin beynəlxalq şəraitdə fəaliyyət göstərən Azərbaycan diplomatiyasının ən böyük uğuru idi.

Birinci dünya müharibəsində alman-türk blokunun məğlubiyyəti Azərbaycan Respublikasının beynəlxalq vəziyyətinə ağır təsir göstərdi, gənc dövləti böyük güclərin imzaladığı Mudros barışığının subyektinə çevirdi. Azərbaycan hökumətinin, onun İstanbuldakı diplomatik nümayəndəliyinin etirazlarına baxmayaraq Xalq Cümhuriyyəti Mudros barışığının ağır şərtlərini öz çiyinlərində daşımalı oldu. Azərbaycanın bloklararası münasibətlərin və beynəlxalq hüququn subyektinə çevrilməsi onun strateji mövqeyinin, təbii imkanlarının dünya siyasətinə təsiri ilə bağlı idi. Birinci dünya müharibəsinin qurtarması ilə Azərbaycan diplomatiyasının türk-alman oriyentasiyası da başa çatdı.

Dünya müharibəsinin yekunu kimi müttəfiqlərin Bakıya daxil olması ilə Azərbaycan Cümhuriyyəti diplomatiyasında Qərb oriyentasiyasının güclənməsi kimi səciyyələnən ikinci dövr başlanır. 1918-ci ilin noyabrında Antanta qüvvələrinin Bakıya daxil olması ilə antiazərbaycan qüvvələri fəallaşsa da, lakin imperiya ənənələrini bərpa etmək istəyənlərin ümidləri doğrulmadı. Müttəfiq komandanlığı Azərbaycan hökumətini respublikanın ərazisində yeganə qanuni, həyat qabiliyyətinə malik hökumət kimi tanıdı.[1460] Mudros barışığının şərtlərinə uyğun olaraq, Bakıya işğal məqsədilə daxil olan müttəfiq komandanlığı tərəfindən Azərbaycan hökumətinin respublika ərazisində yeganə qanuni hakimiyyət kimi tanınması böhranlı şəraitdə Azərbaycan xarici siyasətinin mühüm diplomatik uğuru kimi dəyərləndirilməlidir.

Qalib dövlətlər arasında münasibətləri tənzimləyəcək Paris Sülh konfransına yeni yaranmış respublikalar öz istiqlaliyyətini tanıtmaq baxımından böyük ümidlər bəsləyirdilər. 1918-ci ilin noyabrında yenidən fəaliyyətini bərpa edən Azərbaycan Milli Şurası ABŞ prezidenti V.Vilsona, dünya xalqları və dövlətlərinə müraciət qəbul etməklə müharibədən sonra qurulan beynəlxalq münasibətlər sistemində fəal iştirak etmək arzusunda olduğunu nümayiş etdirdi.

[1460] Le Commandant des troupes alliées à Bakou Général-Major V.N. Thomson Bakou, le 28 decembre 1918. // Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 832, folio 42



downloaded from KitabYurdu.az

Böyük çətinliklər hesabına Azərbaycan nümayəndələrinin Parisə buraxılması, onların ABŞ prezidenti V.Vilson və digər nüfuzlu şəxslər tərəfindən qəbul edilməsi, Versal konfransının rəhbərləri və müxtəlif komissiyalarına çoxsaylı nota, memorandum və müraciətlərin təqdim edilməsi Azərbaycan haqqında təsəvvürləri genişləndirdi, onun dünya siyasi proseslərinə daxil olmaq uğrunda əzmini ortaya qoydu. Rus siyasi mühacirləri, erməni təbliğatçılarının Qərb siyasi dairələrində Azərbaycan əleyhinə formalaşdırdıqları mənfi əhvali-ruhiyyəni aradan qaldırmaq üçün Parisdə olan Azərbaycan nümayəndələri ciddi çətinliklərlə qarşılaşmalı oldular. Azərbaycanın əleyhdarlarının ciddi cəhdlərinə baxmayaraq, Qafqaza gələn müxtəlif xarici missiyalar Azərbaycan hökumətinin elan etdiyi demokratik prinsiplərə sədaqətini, öz qonşuları ilə sülh və dostluq şəraitində yaşamaq arzusunu və ən nəhayət, Azərbaycanın Qafqazda yeganə həyat qabiliyyətli respublika olduğunu təsdiq etdilər. Bu böyük həqiqətin etirafına nail olunmasında Azərbaycan xarici siyasət idarəsi, Azərbaycan diplomatiyasının müstəsna rolu olmuşdu.

Öyrənilən dövrdə Azərbaycan üçün ən ciddi təhlükə Şimaldan - Rusiya tərəfindən idi. Rusiyada qarşı-qarşıya duran hər iki qüvvə - bolşeviklər və denikinçilər Azərbaycan üçün eyni dərəcədə təhlükəli idi. Onların hər ikisi eyni məqsəd - dağılmış Rusiya imperiyasını 1914-cü il hüdudlarında bərpa etmək uğrunda mübarizə aparırdılar. Mövcud şəraitdə isə Denikin ordusu müttəfiqlərlə sıx bağlı olduğundan o, ingilislər tərəfindən müdafiə edilən Azərbaycan və Gürcüstana açıq müdaxilə etməyə cəsarət etmirdi. Denikinçilərin subyektiv niyyətlərindən asılı olmayaraq, uzun müddət Könüllü ordunun bolşevik Rusiyası ilə yeni yaranmış respublikalar arasında yerləşməsi bu respublikalara bolşevik təcavüzünü yubandırırdı. Müttəfiqlər tərəfindən müdafiə edilən Denikin könüllülərinə münasibətdə Azərbaycan Respublikasının ehtiyatlı hərəkət etməsi, rus ağqvardiyaçılarına qarşı, əsasən, diplomatik yolla mübarizə aparması mövcud vəziyyətin, yaranmış reallıqların obyektiv qiymətləndirilməsi ilə bağlı idi. Ağ və qırmızı Rusiyaya münasibətdə rəng çalarlarından asılı olmayaraq, Azərbaycan hökumətinin tutduğu mövqe ölkənin müstəqilliyinə, respublikanın suverenliyinə əsaslanırdı. Azərbaycan Xarici İşlər Nazirliyinin ölkənin istiqlaliyyətini təhdid edən Şimal təhlükəsinə qarşı ortaya qoyduğu sərt movqe ondan ibarət idi ki, "kim olursa-olsun bolşevik - menşevik, denikinçi və i.a. Azərbaycanın istiqlaliyyətinə qəsd edən hər kəs onun düşmənidir."[1461] Bu prinsipial mövqe 1918-1920-ci illərdə xarici dövlətlər, xarici qüvvələrə münasibətdə Azərbaycan diplomatiyasının çıxış nöqtəsini təşkil edirdi.

1919-cu ilin payızında beynəlxalq vəziyyətin yeni yaranmış respublikaların xeyrinə dəyişməsi Rusiyada, Qərb ölkələrində və ümumilikdə dünyada cərəyan edən proseslərlə bağlı olsa da, respublikanın taleyindəki dönüş məqamlarında

---

[1461] Azərbaycan Respublikası xarici işlər nazirinin müavini A.Ziyadxanovun Kuban hökumətindəki diplomatik nümayəndə C.Rüstəmbəyova təcili diplomatik məlumatı. 26.06.1919. //APDAf.970, s.l.i-89, v.38



downloaded from KitabYurdu.az

Azərbaycan hökumətinin, onun xarici işlər nazirliyinin, bütövlükdə diplomatik korpusun istiqlaliyyətə sədaqəti müəyyənedici meyar idi. Böyük dünya siyasətinin əzablı yollarında heç bir çətinlik Azərbaycan hökumətinin, onun Paris Sülh konfransındakı nümayəndələrinin azadlıq və müstəqilliyə olan inamını sarsıda bilmədi. Nəhayət, böyük çətinliklərdən sonra dünya siyasətini müəyyən edən Paris Sülh konfransının Versal Ali Şurası 1920-ci ilin yanvar ayının 11-də Azərbaycan Respublikasının istiqlaliyyətini de-fakto tanıdı. Bu tanınma təkcə Azərbaycan üçün deyil, bütün Yaxın və Orta Şərq ölkələri üçün, türk və İslam dünyası üçün əhəmiyyətli hadisə idi. Çünki Azərbaycan dövləti qabaqcıl Qərb ölkələri tərəfindən rəsmi şəkildə tanınan, Qərb ictimai fikrində qəbul edilən ilk türk və müsəlman respublikası idi. Versal Ali Şurası tərəfindən tanınma Azərbaycan diplomatiyasının Birinci dünya müharibəsindən sonra yeni tənzimlənən beynəlxalq münasibətlər sistemində qazandığı ən böyük qələbə idi. Bu qələbəni qazananlar Azərbaycan diplomatiyası tarixində özlərindən sonrakı nəsillərə örnək olacaq vətənə xidmətin, müstəqilliyə sədaqətin parlaq bir nümunəsini yaratdılar.

1920-ci ilin yanvarından başlanan üçüncü dövr Azərbaycan Respublikasının geniş beynəlxalq əlaqələrə, dövlətlərarası münasibətlərə daxil olması uğrunda mübarizə ilə səciyyələnir. Bu dövrdə Azərbaycan nümayəndələri müttəfiqlərin Ali Şurasının London, San-Remo konfranslarında iştirak etmiş, Millətlər Cəmiyyətinə və digər beynəlxalq təşkilatlara üzv olmağa cəhd göstərmiş, Bakıda iyirmidən artıq dövlətin diplomatik nümayəndəlikləri təsis edilmişdi. 1919-cu ilin axırlarından İran dövləti ilə aparılan diplomatik danışıqlar uğurlu nəticələr vermiş, 1920-ci ilin martında İran Azərbaycanın müstəqilliyini de-yure tanımış və iki dövlət arasında münasibətlərin bütün kompleksini tənzimləyən müqavilələr və sazişlər sistemi imzalanmışdı. 1920-ci ilin aprelində isə Azərbaycan Parlamenti Avropa və Amerika ölkələrində altı mühüm diplomatik nümayəndəlik təsis etmək haqqında hökumətin təqdim etdiyi qanun layihəsini qəbul etmişdi. Bu qanuna və dövlətlərarası razılığa əsasən, Azərbaycan hökuməti London, Paris, Cenevrə, Roma, Varşava və Vaşinqtona diplomatik missiyalar göndərməli idi. Buna qədər isə İran, Türkiyə, Gürcüstan, Ermənistan, Dağlılar İttifaqı, Ukrayna, Krım, Mərkəzi Asiya və digər qonşu dövlətlərdə Azərbaycanın səlahiyyətli nümayəndələri işə başlamışdılar. 1920-ci ilin əvvəllərində Cənubi Azərbaycanın bütün böyük şəhərlərində Cümhuriyyət hökumətinin ya baş konsılluğu, ya konsulluğu, ya da konsul agentliyi fəaliyyət göstərirdi.

Azərbaycan Respublikası beynəlxalq vəziyyətinin sabitləşdiyi, istiqlaliyyətinin dünya tərəfindən təsdiqləndiyi, geniş beynəlxalq əməkdaşlığa daxil olduğu bir dövrdə Sovet Rusiyasının təcavüzünə məruz qaldı. Dünyada bərqərar edilən beynəlxalq münasibətlərin və beynəlxalq hüququn elementar normalarına zidd olaraq, xarici təcavüz nəticəsində müstəqil, suveren Azərbaycan Respublikası devrildi. Bu hadisə ilə bağlı sənəd və materialların araşdırılması təkzibedilməz şəkildə sübut edir ki, Azərbaycan hökumətinin devrilməsi yerli "inqilabi



downloaded from KitabYurdu.az

hadisələrlə" bağlı olmayıb, ümumdünya tarixi prosesinin tərkib hissəsidir. Rusiya imperiyası qalib Antantanın məğlub üzvü kimi dağıldığından dünyanın taleyini müəyyən edən dövlətlər bu dağılmaya hazır deyildilər. Çar Rusiyasının hüdudlarında yaranmış yeni respublikaların beynəlxalq münasibətlər sisteminə çətinliklə daxil olması və son nəticədə onların bolşeviklər tərəfindən işğal edilməsi qalib dövlətlərin öz keçmiş müttəfiqlərinə ehtiyatlı münasibətlərinin məntiqi nəticəsi idi.

İlk Azərbaycan Respublikasının diplomatik addımlarının hazırlanıb həyata keçirilməsində Azərbaycanın tanınmış dövlət və siyasi xadimlərindən Ə.M.Topçubaşov, M.Ə.Rəsulzadə, F.X.Xoyski, N.Usubbəyov, M.H.Hacınski, M.Y.Cəfərov, Ə.Şeyxülislamov, C.Hacıbəyov, M.Mehdiyev, M.Məhərrəmov, A.Ziyadxanov və digərləri yaxından iştirak etmişlər. Mürəkkəb beynəlxalq şəraitdə Azərbaycan istiqlaliyyətinin ağır yükünü öz çiyinlərində daşıyan bu şəxslərin diplomatik bacarığı nəticəsində Azərbaycan Respublikası ümumdünya tarixi prosesinə daxil ola bilmişdi. Məhz bu şəxslərin sayəsində Azərbaycan siyasi müstəvidə dünya səhnəsinə çıxmış və xalqın taleyinin dönüş məqamlarında milli maraqların firqə mənafeyindən üstün olduğunu sübut edə bilmişdi. Onların keçdiyi həyat yolu, müstəqillik ideallarına siyasi məzmun vermək bacarıqları "milli dirilik" tariximizin ən parlaq səhifələrindəndir.

1920-ci ilin aprel işğalından sonra Parisdə qalan Azərbaycan sülh heyətinin üzvləri Avropada siyasi mühacirlərin ilk dəstəsinə çevrildilər və siyasi fəaliyyətlərini davam etdirdilər. Azərbaycan parlamentinin sədri kimi Əli Mərdan bəy 1920-1923-cü illərdə Millətlər Cəmiyyətinin Cenevrədə keçirilən toplantılarında iştirak edib, Cəmiyyətin rəhbərliyinə təqdim etdiyi müraciətlərdə Azərbaycanın bolşevik əsarətindən azad edilməsi üçün beynəlxalq birlikdən yardım istədi.[1462] Azərbaycanın Paris Sülh konfransındakı nümayəndə heyətinin başçısı kimi o, 1920-1921-ci illərdə Versal Ali Şurasının rəhbərliyinə dəfələrlə müraciətlər ünvanladı.[1463] 1920-ci ildə Fransa Xarici İşlər Nazirliyinə göndərdiyi

---

[1462] Président de la Délégation de Paix de la République d'Azerbaïdjan Ali Mardan Toptchibacheff - A Son Excellence M.Paul Hymans, Président de la Premiére Assemblée Générale de la Sociéte des Nations, Genéve. Le 7 décembre 1920.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 185-186; Président de la Délégation de Paix de la République d'Azerbaïdjan Ali Mardan Toptchibacheff - A Son Excellence Sir Eric Drummond, K.C.M.G., C.B., Secrétaire général de la Ligue des Nations, à Genève. Le 4 septembre 1921.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 233-234; Président de la Délégation de Paix de la Rèpublique d'Azerbaïdjan Ali Mardan Toptchibacheff - A Son Excellence Sir Eric Drummond, Secrétaire Général de la Société des Nations. Le l[er] fevrier 1923.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 279

[1463] Président de la Délégation de Paix de la République d'Azerbaïdjan A.Toptchibacheff - Monsieur le Président du Conseil Suprême de la Conférence de la Paix. Le 30 juin 1920.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 135; Président de la Délégation de Paix de la République d'Azerbaïdjan A.M.Toptchibacheff – A Son Excellence Monsieur le Président du Conseil Suprême des Alliés Paris. Le 20 janvier 1921.// Ministère des Affaires Etrangère de France, Archives



downloaded from KitabYurdu.az

məktubda Ə.M.Topçubaşov ölkədə bolşevik terrorundan bəhs edir və Sovet Rusiyasının təcavüzünə qarşı Fransa hökumətindən yardım istəyirdi.[1464] 1921-ci ildə müttəfiqlərin Ali Şurasının London konfransına təqdim etdiyi notada o, müstəqilliyi Versal Ali Şurası tərəfindən tanınmış Azərbaycanın bolşevik təcavüzünə qarşı müdafiə edilməsini xahiş edirdi.[1465] 1922-ci ildə Avropa iqtisadiyyatının bərpasına dair Genuya konfranslarında, 1923-cü ildə Türkiyə və boğazlar məsələsinə dair keçirilən Lozanna konfransında iştirak edərək, Ə.M.Topçubaşov Azərbaycanın bolşeviklər tərəfindən işğal edilməsi məsələsini gündəliyə gətirdi. Paris Sülh konfransına göndərilmiş nümayəndə heyətinin üzləri Fransanın və digər dövlətlərin nümayəndələri ilə görüşərək, Azərbaycanın bolşeviklər tərəfindən işğalının faciəli nəticələri barədə onlara ətraflı məlumatlar verdilər.[1466]

Müasir dünyanın reallıqları fonunda 1918-1920-ci illərin tarixi təcrübəsi bir sıra məqamlarda bu gün də öz aktuallığını saxladığından ilk Azərbaycan Cümhuriyyətinin diplomatik fəaliyyətinə milli-mənəvi xəzinə kimi qayğı ilə yanaşılır, respublika xarici siyasətinin həyata keçirilməsində həmin illərdə toplanmış tarixi təcrübədən səmərəli istifadə edilir. 1998-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyi ilə bağlı, 1918 - 1920-ci illərdə fəaliyyət göstərmiş parlamentin, hökumətin və xarici işlər nazirliyinin sənədlərinin ümummilli lider Heydər Əliyevin sərəncamı ilə nəşr edilməsi bunun aydın təzahürü idi.[1467]

Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından ötən 90 il ərzində dünya siyasətində ciddi keyfiyyət dəyişiklikləri baş vermiş, beynəlxalq münasibətlər

---

Diplomatique, vol. 639, folio 194; Président de la Délégation de Paix de la République d'Azerbaïdjan A.M.Toptchibacheff - A Son Excellence Monsieur le Président du Conseil Suprême des Alliés. Le 26 mars 19217/ Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 638, folio 15 bis

[1464] Président de la Délégation de Paix de la République d'Azerbaïdjan A.Toptchibacheff – A Son Excellence Monsieur le Président du Conseil des Ministre et Ministre des Affaires Etrangères de la République Française. Le 8 octobre 1920.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 165

[1465] Cachet de la Délégation de Paix de la République d'Azerbaïdjan - A Son Excellence Monsieur le Président du Conseil Suprême des Alliés à Londres. Le 17 février 1921.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 198

[1466] Secrétaire Général de la Délégation de Paix de la République d'Azerbaïdjan A.Atamalibekov - Au Ministère des Affaires Etrangères de la République Française. Le 7 juillet 1922.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 257; Visite de M.Djeyhoun bey Hadjibeyli, Membre de la Mission diplomatique de la République d'Azerbaïdjan, à M. de Peretti. Le 20 juillet 1923.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 285; Président de la Délégation de Paix de la République d'Azerbaïdjan A.M.Toptchibacheff - A Son Excellence Monsieur Raymond Poincaré, Président du Conseil des Ministres et Ministre des Affaires Etrangères de la République Française. Le 23 août 1923.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 287; Président de la Délégation de Paix de la République d'Azerbaïdjan A.M.Toptchibacheff - A Son Excellence Monsieur Edouard Herriot Président du Conseil de la République Française Quai d'Orsay Paris. Le 17 juin 1924.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 291

[1467] Азербайджанская Демократическая Республика. Внешняя политика. Баку, 1998



downloaded from KitabYurdu.az

sistemində demokratizm meylləri güclənmişdir. Əgər 90 il əvvəl, 1918-ci ildə elan edilmiş Azərbaycan Respublikasının beynəlxalq cəhətdən de-fakto tanınması üçün iki ildən bir qədər az vaxt lazım gəlmişdisə, ötən əsrin 90-ci illərində bu proses bir neçə həftə ərzində başa çatdı. Hazırda Azərbaycan Respublikasının sivilizasiyalı beynəlxalq münasibətlər sisteminə daxil olmuş, dünya xalqları ailəsinin bərabərhüquqlu üzvünə çevrilmiş, böyük transmilli layihələrin həyata keçirildiyi ölkə kimi beynəlxalq aləmdə öz layiqli yerini tutmuşdur. Bununla da 1918-1920-ci illərdə Azərbaycan diplomatiyasının qarşısında duran böyük dünya siyasətinin iştirakçısına çevrilmək, beynəlxalq birliklərin bərabərhüquqlu üzvü olmaq, dünya xalqları ailəsinə daxil olmaq kimi qlobal vəzifələr artıq yerinə yetirilmişdir. Azərbaycan xalqının tarixi ənənələri, milli dəyərləri əsas götürülməklə, müasir beynəlxalq münasibətlərin başlıca meylləri nəzərə alınmaqla Azərbaycan prezidenti İlham Əliyevin dediyi kimi, XXI əsrin əvvəllərində Azərbaycan Cənubi Qafqazın lider dövlətinə çevrilmişdir.



downloaded from KitabYurdu.az

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ XARİCİ İŞLƏR NAZİRLİYİNİN DİPLOMATİK KORPUSU HAQQINDA QISA MƏLUMAT

**Ağayev Əhməd bəy Mirzə Həsən oğlu -** 1918-ci ilin dekabr ayından Paris Sülh konfransına göndərilən Azərbaycan nümayəndə heyətinin üzvü.

**Ağayev Əliyusif Məhəmməd oğlu -** 1919-cu ildən Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi nəzdindəki Cənubi Qafqazda rus siyasətinə dair materiallar toplayan xüsusi komissiyanın üzvü.

**Ağayev Məhəmməd bəy -** 1919-cu ildən Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi nəzdindəki Cənubi Qafqazda rus siyasətinə dair materiallar toplayan xüsusi komissiyanın üzvü.

**Ağayev Məmməd bəy** -1920-ci ilin dekabr ayından Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi nəzdindəki Cənubi Qafqazda rus siyasətinə dair materiallar toplayan xüsusi komissiyanın üzvü.

**Ağayev Səfər ağa -** 1920-ci ilin yanvar ayının 1-dən Azərbaycan Respublikasının Batumdakı baş konsulluğunun katibi.

**Babayev Qulam Rza oğlu -** 1919-cu ilin noyabr ayının 21-dən Azərbaycan Respublikasının İran hökuməti yanında diplomatik nümayəndəliyinin əməkdaşı. Zakaspidə konsul agenti.

**Babayev Miryusif bəy** -1919-cu ilin mart ayının 1-dən Azərbaycan Respublikasının Ermənistan hökuməti yanında diplomatik nümayəndəliyin informasiya şöbəsinin müdiri.

**Behbudov Səlim bəy -** 1919-cu ildən Azərbaycan Respublikasının İstanbuldakı nümayəndə heyətinin üzvü.

**Camalov Hüseyn bəy Mirzə oğlu** -1919-cu ilin dekabr ayının 14-dən Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi nəzdindəki Cənubi Qafqazda rus siyasətinə dair materiallar toplayan xüsusi komissiyanın üzvü.

**Cəfərov Məmməd Yusif Hacıbaba oğlu -** 1885-ci ildə Bakıda anadan olmuş, 1912-ci ildə Moskva Dövlət Universitetinin hüquq fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. O, çox gənc yaşlarında IV Dövlət Dumasına deputat seçilərək, 1912-1917-ci illərdə onun müsəlman fraksiyasının fəal üzvlərindən biri olmuşdur. M.Y.Cəfərov öz çıxışlarında müsəlmanların maarifləndirilməsi, onların milli və vətəndaş hüquqlarının qorunması məsələlərinə xüsusi əhəmiyyət verərək kazarmalara çevrilmiş məscidlərin geri qaytarılması, bağlanmış milli məktəblərin açılması tələblərini irəli sürmüş, çarizmin köçürmə siyasətini kəskin tənqid etmişdir. M.Y.Cəfərov 1917-ci ilin fevral inqilabından sonra IV Dövlət Dumasının Cənubi Qafqazdan olan üzvlərinin təşəbbüsü ilə yaradılmış xüsusi Zaqafqaziya Komitəsinin üzvü olmuş, həmin komitədə sənaye və ticarət işlərinə rəhbərlik etmişdi. 1917-ci ilin noyabrında Zaqafqaziya Komissarlığı təsis edildikdə M.Y.Cəfərov komissarlıqda ticarət və sənaye naziri vəzifəsini tutmuş, 1918-ci ilin



downloaded from KitabYurdu.az

fevralında Zaqafqaziya Seymi işə başladıqdan Seymin müsəlman fraksiyasının fəal üzvü olmuş, bir sıra hallarda fraksiyanın iclaslarına sədrlik etmişdir. 1918-ci ilin may ayının 28-də İstiqlaliyyət bəyannaməsini imzalayanlardan biri olan M.Y.Cəfərov F.X.Xoyskinin yaratdığı birinci hökumət kabinetində ticarət və sənaye naziri vəzifəsini tutmuş, kabinetin istefasından sonra o, 1918-ci ilin iyun ayından Azərbaycan Respublikasının Gürcüstan hökuməti yanında diplomatik nümayəndəsi işləmiş və 1919-cu ilin aprelində təşkil olunmuş IV hökumət kabinetində xarici işlər naziri vəzifəsini tutmuşdur.

**Cəlilzadə Osman bəy -** 1920-ci ildən Azərbaycan Respublikasının İstanbuldakı diplomatik nümayəndəliyinin katibi.

**Dadaşov Qafar -** 1920-ci ildən Azərbaycan Respublikasının Petrovsk şəhərində konsul agenti.

**Əfəndiyev Mahmud bəy -** 1918-ci ilin noyabr ayının 7-dən Azərbaycan Respublikasının Batumda baş konsulu.

**Əliyev Məmməd -** 1919-cu ildən Gürcüstan hökuməti yanında nümayəndəlikdə Azərbaycan Respublikasının hərbi attaşesi. Podpolkovnik.

**Əliyev Mikayıl -** 1918-ci ildən Petrovsk şəhərində Azərbaycan Respublikasının konsul agentliyinin katibi.

**Əmircanov Əliyar bəy -** 14 mart 1920-ci ilin mart ayının 14-dən Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin diplomatik şöbəsində qulluqçu. 1920-ci ilin aprel ayının 1-dən Xarici İşlər Nazirliyi katibinin əməkdaşı.

**Əşrəfov Əliyusif -** 1919-cu ildən Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi nəzdindəki Cənubi Qafqazda rus siyasətinə dair materiallar toplayan xüsusi komissiyanın üzvü.

**Gəraybəyov Ağalar bəy -** 1920-ci ilin fevral ayının 25-dən Azərbaycan Respublikasının Ənzəlidəki vitse-konsulluğunda katib.

**Hacıbəyov Ceyhun bəy Əbdülhüseyn oğlu -** 1918-ci ilin dekabr ayından Paris Sülh konfransına göndərilən Azərbaycan nümayəndə heyətinin müşaviri.

**Hacınski Məmməd Həsən Cəfərqulu oğlu -**1875-ci ilin mart ayının 3-də Bakıda anadan olmuş, 1902-ci ildə Peterburq Texnologiya İnstitutunu bitirdikdən sonra Bakıya qayıtmış və 1902-1917-ci illərdə Bakı Dumasının üzvü olmuşdur. M.H.Hacınski 1904-cü ildən başlayaraq şəhərin ictimai-siyasi həyatında yaxından iştirak etmiş, müsəlman əhalisi arasında siyasi iş aparan "Hümmət" təşkilatının yaradıcılarından olmuşdur. O, 1911-ci ildə Bakıda əsası qoyulan Müsavat partiyasının ilk üzvlərindən biri olmuş, 1917-ci ilin rus inqilabına qədər partiyanın gizli tədbirlərində iştirak etmişdir. 1917-ci ilin martında Bakıda yaradılan Müsəlman Milli Şurasının İcraiyyə Komitəsinə rəhbərlik edən M.H.Hacınski həmin ilin aprelində Bakıda keçirilən Qafqaz müsəlmanlarının, habelə 1917-ci ilin mayında keçirilən Rusiya müsəlmanlarının Moskva qurultayında fəal iştirak etmişdir. O, 1917-ci ilin oktyabrında Türk Ədəmi Mərkəziyyət - Müsavat partiyasının birləşdirici qurultayında Mərkəzi Komitəyə üzv seçilmiş, həmin ilin



downloaded from KitabYurdu.az

payızında yaradılan Cənubi Qafqaz Komissarlığının və sonrakı dövrdə Zaqafqaziya Seyminin tərkibində müxtəlif rəhbər vəzifələr tutmuşdur. M.H.Hacınskinin diplomatik fəaliyyəti hələ o, xarici işlər naziri vəzifəsini tutmazdan əvvəl başlamışdır. Cənubi Qafqaz Komissarlığının və Seyminin Türkiyə ilə apardığı Trabzon və Batum danışıqlarında M.H.Hacınski Azərbaycanı təmsil etmişdir. O, 1918-ci ildə Fətəli xan Xoyskinin başçılığı ilə yaradılmış 1-ci və 2-ci hökumət kabinələrində Azərbaycan Respublikasının xarici işlər naziri vəzifəsini tutmuş,1918-ci ilin dekabr ayından Paris Sülh konfransına göndərilən Azərbaycan nümayəndə heyətinin üzvü olmuşdur.

**Hacıyev Balabəy -** 1919-cu ilin may ayının 15-dən Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi dəftərxanasının xüsusi tapşırıqlar üzrə məmuru.

**Hacıyev İsmayıl -** 1919-cu ildən Azərbaycan Respublikasının Yekaterinburq şəhərindəki nümayəndəliyin iqtisadiyyat şöbəsinin əməkdaşı işləmişdir.

**Haqverdiyev Əbdürrəhim bəy Əsəd bəy oğlu -** 1919-cu ildən Azərbaycan Respublikasının Dağlılar Respublikasında, sonra isə Ermənistan hökuməti yanında diplomatik nümayəndəsi işləmişdir.

**Hüseynov Şeyxəli -** 1919-cu ildən Azərbaycan Respublikasının Krım hökuməti yanında konsul agenti olmuşdur.

**Hüseynzadə Əli bəy Hüseyn bəy oğlu -** 1918-ci ilin dekabr ayından Paris Sülh konfransına göndərilən Azərbaycan nümayəndə heyətinin əməkdaşı.

**Xanbudaqov R. -** 1920-ci ilin mart ayının 16-dan Azərbaycan Respublikasının İtaliyada diplomatik nümayəndəliyinin başçısı.

**Xasməmmədov Xəlil bəy Hacıbaba oğlu -** 1918-ci ildə İstanbul sülh konfransına göndərilmiş Azərbaycan nümayəndə heyətinin üzvü.

**Xəlilov Məmməd bəy -** 1920-ci ilin fevral ayının 1-dən Azərbaycan Respublikasının Ənzəli şəhərinə vitse-konsulu təyin edilmişdir.

**Xoyski Fətəli xan İsgəndər xan oğlu -** 1875-ci ildə Şəki şəhərində anadan olmuş, 1897-ci ildə Moskva Universitetinin hüquq fakültəsini bitirmişdir. 1897-1907-ci illərdə o, Yelizavetpol, Kutaisi, Yekaterinador quberniyalarında müxtəlif vəzifələrdə çalışmışdır. 1907-ci ildə Xan Xoyski II Dövlət Dumasına Gəncədən deputat seçilmiş və milli haqların əldə edilməsi istiqamətində millət vəkili kimi səmərəli fəaliyyət göstərmişdir. İkinci Dövlət Duması buraxıldıqdan sonra Azərbaycana gələn F.X.Xoyski 1907-1912-ci illərdə Gəncə, 1913-1917-ci illərdə isə Bakı dairə məhkəmələrində andlı iclasçı kimi fəaliyyət göstərmişdir. 1917-ci ilin rus inqilabından sonra fəal siyasi mübarizəyə qoşulan Fətəli xan Bakıda yaradılan Müsəlman Milli Şurasının Müvəqqəti İcraiyyə Komitəsinin üzvü olmuş və az sonra Bakı şəhər Dumasının sədri seçilmişdir. O, 1917-ci ilin noyabr ayında yaradılmış Zaqafqaziya Komissarlığında Xalq Maarifi Komissarı, 1918-ci ilin aprel ayında yaradılmış Zaqafqaziya federasiyası hökumətində isə ədliyyə naziri vəzifələrini tutmuşdur. 1918-ci ildə may ayının 28-də Azərbaycanın istiqlalı elan



downloaded from KitabYurdu.az

olunduqdan sonra bir-birinin ardınca yaradılan üç hökumət kabinəsinə məhz Fətəli xan Xoyski rəhbərlik etmişdir. O, cümhuriyyət hökuməti dövründə birinci dəfə 1918-ci ilin dekabr ayının 26-dan 1919-cu ilin mart ayının 14-nə kimi, ikinci dəfə 1919-cu ilin dekabr ayının 24-dən 1920-ci ilin aprel ayının 1-nə kimi Azərbaycanın xarici işlər naziri olmuşdur. 1920-ci ilin aprelində Azərbaycan Cümhuriyyəti devrildikdən sonra Fətəli xan həmin ilin iyununda Tiflisdə erməni terrorçuları tərəfindən qətlə yetirilən Azərbaycanın ilk dövlət xadimi və diplomatı idi.

**Xuramoviç İsmayıl bəy -** 1919-cu ilin iyul ayının 7-dən Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi dəftərxanasının direktoru. 1919-cu ilin avqust ayının 12-dən eyni zamanda informasiya bürosuna başçılıq etmiş, 1920-ci ilin aprel ayının 1-dən Gürcüstandakı diplomatik nümayəndəliyin müşaviri vəzifəsinə təyin edilmişdir.

**İsmixanov İbrahim xan -** 1920-ci ildən Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin diplomatik şöbəsinin rəisi vəzifəsini icra etmişdir.

**İsrafilov Müslüm bəy -** 1920-ci ilin aprel ayının 1-dən Azərbaycan Respublikasının İrandakı diplomatik nümayəndəliyinin birinci katibi.

**Koqnovitski Pavel İvanoviç -** 1919-cu ilin sentyabr ayının 1-dən Paris Sülh konfransına göndərilmiş nümayəndə heyəti üçün material toplayan komissiyanın üzvü təyin edilmişdir. 1920-ci ildən Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin topoqrafiya və statistika şöbəsinin müdiri işləmişdir.

**Kriçinski Aslan bəy -** 1919-cu ilin oktyabr ayının 13-dən Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi nəzdindəki Cənubi Qafqazda rus siyasətinə dair materiallar toplayan xüsusi komissiyanın sədri.

**Qaibov Cahangir bəy -** 1919-cu ilin iyul ayının 7-dən Azərbaycan Respublikası Xarici İşlər nazirinin müşaviri vəzifəsini icra etmişdir. 1919-cu ilin may ayının 10-dan nazirliyin dəftərxanasının direktoru olmuşdur. 1919-cu ilin iyul ayının 27-dən İstanbuldakı diplomatik nümayəndəlikdə müavin və maliyyə hissəsinin müşaviri təyin edilmişdir.

**Qazıyev Cavad bəy -** 1919-cu ilin noyabr ayının 15-dən Azərbaycan Respublikasının Ermənistan hökuməti yanında diplomatik nümayəndəliyinin qulluqçusu.

**Qazıyev Həsən bəy -** 1919-cu ilin avqust ayının 1-dən Azərbaycan Respublikasının Ermənistan hökuməti yanında diplomatik nümayəndəliyinin katibi.

**Qədimbəyov A. -** 1919-cu ildən Azərbaycan Respublikasının Batumdakı konsulluğunun katibi.

**Qiyasbəyov Mustafa bəy -** 1 yanvar 1920-ci ilin yanvar ayının 1-dən Azərbaycan Respublikasının Ermənistan hökuməti yanında diplomatik nümayəndəliyinin müşaviri və xüsusi tapşırıqlar üzrə məmuru işləmişdir.



downloaded from KitabYurdu.az

**Mahmudbəyov Şamil bəy -** 1920-ci ilin aprel ayının 8-dən Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin ümumi şöbəsinin müdiri vəzifəsini icra etmişdir.

**Məhəmməd Ağa oğlu -** 1920-ci ilin fevral ayından Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi nəzdindəki Cənubi Qafqazda rus siyasətinə dair materiallar toplayan xüsusi komissiyanın üzvü.

**Məhərrəmov Məmməd bəy -** 1918-ci ilin dekabr ayından Paris Sülh konfransına göndərilən Azərbaycan nümayəndə heyətinin üzvü.

**Məlikov Səfvət bəy Həsən bəy oğlu -** 1918-ci ilin dekabr ayından Paris Sülh konfransına göndərilən Azərbaycan nümayəndə heyəti katibliyinin əməkdaşı.

**Məmmədov Zeynal -** 1919-cu ildən Azərbaycan Respublikasının Petrovsk şəhərində konsul agenti təyin edilmişdir.

**Mehdiyev (Mirmehdiyev) Miryaqub -** 1918-ci ilin dekabr ayından Paris Sülh konfransına göndərilən Azərbaycan nümayəndə heyətinin müşaviri.

**Məmmədov T. -** 1919-cu ildə Zaqafqaziya konfransında Azərbaycan nümayəndə heyətinin katibi.

**Mirzəbabayev M.S. -** 1919-cu ildən Azərbaycan Respublikasının Ermənistandakı diplomatik nümayəndəliyinin katibi.

**Mirzə Ələkbər xan -** 1920-ci ildən Azərbaycan Respublikasının İrandakı diplomatik nümayəndəliyinin ikinci katibi.

**Mirzə İbrahim xan -** 1920-ci ildən Azərbaycan Respublikasının İrandakı nümayəndəliyinin katibi.

**Musayev Ağa Saleh oğlu -** 1920-ci ilin yanvar ayının 15-dən Azərbaycan Respublikasının Ermənistan hökuməti yanında diplomatik nümayəndəliyinin müşaviri vəzifəsini icra etmişdir.

**Nəcəfov Rzaqulu -** 1920-ci ilin mart ayının 1-dən Azərbaycan Respublikasının Gürcüstan hökuməti yanında diplomatik nümayəndəliyində konsulluq şöbəsinin rəisi.

**Pepinov Əhməd bəy Ömər oğlu -** 1919-cu ildən Azərbaycan Respublikasının İstanbuldakı nümayəndə heyətinin katibi.

**Pərviz Mirzə -** 1920-ci ildən Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin dəftərxanasının müdiri işləmişdir.

**Rəsulzadə Məhəmməd Əmin Hacı Molla Ələkbər oğlu -** 1918-ci ildə İstanbula sülh konfransına göndərilmiş Azərbaycan nümayəndə heyətinin sədri. 1918-ci ildə yaradılmış Azərbaycan Milli Şurasının sədri.

**Rudzinski Vyaçeslav Stanislavoviç -** 1919-cu ilin aprel ayının 1-dən Zakaspi hökuməti yanında konsulluğun katibi. 1 oktyabr 1919-cu ilin oktyabr ayının 1-dən Xarici İşlər Nazirliyinin ümumi şöbəsinin rəisi. 1920-ci ilin aprelində diplomatik münasibətlər qurmaq üçün Polşaya ezam olunmuşdur.

**Rüstəmbəyov Əsəd bəy -** 1919-cu ildən İstanbuldakı Azərbaycan nümayəndə heyətinin üzvü.



downloaded from KitabYurdu.az

**Rüstəmbəyov Cəfər bəy** - 1919-cu ilin mart ayının 19-dan Kuban hökuməti yanındakı diplomatik nümayəndə.

**Sadıqov Ələkbər** - 1919-cu ilin aprel ayının 2-dən Aşqabad şəhərində Azərbaycan Respublikasının Zakaspi hökuməti yanında konsulu. 1919-cu ilin oktyabr ayının 7-dən Azərbaycan Respublikasının İrandakı diplomatik nümayəndəliyinin müşaviri, 1920-ci ildən isə diplomatik nümayəndənin müavini.

**Sadıqov Camal** - 1919-cu ildən Azərbaycan Respublikasının Ukraynada konsulu vəzifəsini icra etmişdir.

**Səfərəlibəyov Şirin bəy** - 1919-cu ilin sentyabr ayının 1-dən Azərbaycan Respublikasının Ermənistandakı diplomatik nümayəndəliyinin müşaviri vəzifəsini müvəqqəti icra etmişdir.

**Səfikürdski Aslan bəy Ağalar bəy oğlu** - 1918-ci ildə İstanbula sülh konfransına göndərilmiş Azərbaycan nümayəndə heyətinin üzvü.

**Skotland-Liddel** - 1919-cu ilin sentyabr ayının 6-dan Azərbaycan Xarici İşlər Nazirliyinin informasiya şöbəsinin əməkdaşı.

**Sulkeviç Quzman** - 1920-ci ildən Azərbaycan Xarici İşlər Nazirliyi dəftərxanasının direktor müavini, 1920-ci ilin aprel ayının 1-dən isə nazirliyin departament direktoru.

**Sulkeviç Konstantin Davidoviç** - 1919-cu ilin may ayının 10-dan Azərbaycan Xarici İşlər Nazirliyi dəftərxanasının direktor müavini.

**Sultanov Paşa bəy** - 1919-cu ilin sentyabr ayının 15-dən Azərbaycan Respublikasının Rostov-Don şəhərində konsul agenti.

**Sübhanverdixanov Abdulla bəy** - 1918-ci ilin iyul ayının 26-dan Azərbaycan Xarici İşlər Nazirliyi katibi olmuşdur. 1 yanvar - 1 fevral 1919-cu ilin yanvar ayının 1-dən fevral ayının 1-nə qədər nazirliyin dəftərxanasının direktoru vəzifəsini icra etmişdir. 1919-cu ilin oktyabr ayının 22-dən Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin diplomatik şöbəsinin müdiri vəzifəsini icra etmişdir. 1920-ci ildə Azərbaycan Respublikasının Batum şəhərində vitse-konsulu vəzifəsinə təyin edilmişdir.

**Şepotyev Aleksandr Sergeyeviç** - 1919-cu ilin aprel ayının 8-dən Azərbaycan Xarici İşlər Nazirliyində kargüzar vəzifəsini müvəqqəti icra etmişdir. 1920-ci ildən nazirliyin informasiya şöbəsinin rəisi olmuşdur.

**Şeyxülislamov Əkbər ağa İbrahim oğlu** - 1918-ci ilin dekabr ayından Paris Sülh konfransına göndərilən Azərbaycan nümayəndə heyətinin üzvü.

**Şıxlinski Abdulla ağa** - 1920-ci ilin mart ayının 27-dən Azərbaycan Xarici İşlər Nazirliyinin diplomatik şöbəsinin qulluqçusu, 1920-ci ilin aprelindən diplomatik şöbədə qeydiyyat bölməsinin müdiri.

**Tahirov Əziz bəy** - 1919-cu ildən Azərbaycan Respublikasının müttəfiq komandanlığı yanında nümayəndəsi.

**Talışinski** - 1919-cu ildən Azərbaycan Respublikasının Gürcüstandakı diplomatik nümayəndəliyinin ikinci katibi.



downloaded from KitabYurdu.az

**Təkinski Məmməd xan -** 1919-cu ilin yanvar ayının 29-dan Azərbaycan Respublikasının Ermənistandakı diplomatik nümayəndəsi. 1919-cu ilin oktyabrından nazir müavini vəzifəsini icra etmişdir. 17 yanvar 1920-ci ilin yanvar ayının 17-dən müvəqqəti olaraq Xarici İşlər naziri vəzifəsini icra etmişdir.

**Topçubaşov Ələkbər bəy Əli Mərdan bəy oğlu -** 1918-ci ilin dekabr ayından Paris Sülh konfransına göndərilən Azərbaycan nümayəndə heyətinin katibi.

**Topçubaşov Əli Mərdan bəy Ələkbər bəy oğlu -** XX əsrin əvvəllərində genişlənən Azərbaycan milli hərəkatının ən tanınmış nümayəndələrindən idi. O, 1863-cü ildə Tiflisdə doğulmuş, 1888-ci ildə Peterburq Universitetinin hüquq fakültəsini bitirmişdir. 1896-cı ildən Bakıya gələn Əli Mərdan bəy 1897-ci ildən etibarən Azərbaycanda milli ideyanın inkişafında mühüm rol oynamış, "Kaspi" qəzetinin redaktoru olmuş və 1917-ci ilə qədər davamlı olaraq bu qəzeti nəşr edə bilmişdir. 1905-1907-ci illərin birinci rus inqilabı dövründə Ə.M.Topçubaşov siyasi mübarizənin önündə olmuş, Rusiya Müsəlmanlar İttifaqına rəhbərlik etmiş, birinci Dövlət Dumasına vəkil seçilmiş, Dumanın müsəlman fraksiyasına başçılıq etmiş və bütövlükdə XX əsrin əvvəllərində Rusiya müsəlmanlarının liderinə çevrilmişdir. 1906-cı ilin iyulunda Vıborq bəyannaməsini imzaladığından paytaxtın Krestni həbsxanasında bir neçə ay yatmalı olmuşdu. 1917-ci il inqilabından sonra Ə.M.Topçubaşov yenidən siyasi proseslərin mərkəzi simalarından birinə çevrilmiş və Bakıda müsəlman Milli Şurasının əsas təşkilatçılarından biri olmuşdur. 1917-ci ilin aprelində Qafqaz müsəlmanlarının Bakı qurultayı, həmin ilin mayından Rusiya müsəlmanlarının Moskva qurultayı məhz Ə.M.Topçubaşovun ideya və siyasi rəhbərliyi altında keçirilmişdir. O, 1918-ci ilin avqustunda fövqəladə səlahiyyətli nümayəndə kimi Osmanlı İmperatorluğunun paytaxtı İstanbul şəhərinə ezam olunmuş, həmin ilin oktyabrında isə Azərbaycan Respublikasının xarici işlər naziri təyin edilmişdir. 1918-ci ilin dekabr ayında Ə.M.Topçubaşov Azərbaycan parlamentinin sədri seçilmiş və Paris Sülh konfransına göndərilən Azərbaycan nümayəndə heyətinə başçılıq etmişdir.

**Topçubaşov Rəşid bəy Əli Mərdan bəy oğlu -** 1918-ci ilin dekabr ayından Paris Sülh konfransına göndərilən Azərbaycan nümayəndə heyəti sədrinin şəxsi katibi.

**Vəkilov Faris bəy İbrahim ağa oğlu -** 1919-cu ildən Azərbaycan Respublikasının Gürcüstandakı diplomatik nümayəndəsi vəzifəsində işləmişdir.

**Vəkilov İbrahim ağa Paşa oğlu -** 1920-ci ildən Azərbaycan Xarici İşlər Nazirliyinin hərbi-topoqrafiya şöbəsinin rəisi işləmişdir. General-mayor.

**Vəkilov Mustafa bəy Nadir ağa oğlu -** 1918-ci ildə Ə.M.Topçubaşovun rəhbərliyi ilə İstanbula göndərilən Azərbaycan missiyasının katibi

**Vəzirov (Çəmənzəminli) Yusif Vəzir Mirbaba oğlu -** 1918-ci ildən Ukrayna, Polşa və Krımda Azərbaycan Respublikasının diplomatik nümayəndəsi,



downloaded from KitabYurdu.az

1919-cu ilin dekabr ayının 24-dən isə İstanbulda diplomatik nümayəndəliyin başçısı vəzifəsində işləmişdir.

**Yelenin Əli bəy Zahirbəy oğlu -** 1919-cu ilin iyul ayının 14-dən Azərbaycan Respublikasının Dağlılar Respublikası hökuməti yanında diplomatik nümayəndəliyinin katibi təyin edilmişdir. 1919-cu ilin sentyabr ayının 1-dən Azərbaycan Xarici İşlər Nazirliyinin diplomatik şöbəsində kargüzar.

**Usubbəyov Nəsib bəy Usub oğlu -** 1919-cu ildən Azərbaycan Respublikası Nazirlər Şurasının sədri və Xarici İşlər naziri.

**Zeynalov Kərim -** 1920-ci ilin yanvar ayının 1-dən Azərbaycan Xarici İşlər Nazirliyində xüsusi tapşırıqlar üzrə məmur.

**Ziyadxanov Adil xan Əbülfət oğlu -** 1877-ci ildə Gəncədə doğulmuş, və Moskva Universitetinin hüquq fakültəsinin məzunu olmuşdur. Adil-xan hələ XX əsrin əvvəllərində müsəlmanların milli və siyasi hüquqlarının alınmasında fəal iştirak edən şəxslərdən biri kimi Rusiya hökumətinə təqdim edilmək üçün 1905-ci ildə Ə.M.Topçubaşov tərəfindən hazırlanmış müsəlmanların tələblərini imzalayanlardan biri idi. O, 1906-cı ildə Qafqaz canişini yanında Tiflisdə keçirilən azərbaycanlılarla ermənilərin nümayəndələrindən yaradılmış "barışdırıcı komissiyanın" toplantısında iştirak etmiş və ermənilərin müsəlmanlara qarşı törətdiyi milli qırğın siyasətinə qarşı yaradılmış "Difai" partiyasının təşkilat komitəsinin üzvlərindən biri olmuşdur. 1917-ci ilin fevral inqilabından sonra Gəncədə yaradılmış Milli Müsəlman Şurasının Müvəqqəti İcraiyyə Komitəsinin 7 üzvündən biri də Adilxan Ziyadxanov idi. O, 1918-ci ildən Azərbaycan Respublikası xarici işlər nazirinin müavini işləmişdir. 1919-cu ilin noyabrından İran hökuməti yanında Azərbaycan Respublikasının diplomatik nümayəndəsi təyin edilmişdir.



downloaded from KitabYurdu.az

# Biblioqrafiya

## Nəşr olunmuş sənədlər

### *Azərbaycan dilində*


• Azərbaycan Arxivi, 1988, № 1-2
• Azərbaycan Xalq Cümhuriyyəti. Böyük Britaniyanın Arxiv sənədləri. Elmi redaktoru və ön sözün müəllifi Y.M.Mahmudov, tərtib edəni N.Ə.Maksvell. Bakı, 2008
• Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). I cild. Bakı, 1998
• Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). II cild. Bakı, 1998
• Azərbaycan Cümhuriyyəti hökumətinin qanun və binagüzarlıq məcmui, 1919, № 1-2
• Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə. Bakı, 1990
• Qasımov M. Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914-1918-ci illər). III hissə (sənədlər, materiallar, xəritələr, şəkillər). Bakı, 2004
• 28 may 1919-cu il. Azərbaycan Cümhuriyyəti istiqlalının birinci səneyi-dövriyyəsi. Bakı, 1919
• Fətəli Xan Xoyski. Həyat və fəaliyyəti (sənəd və materiallar). Bakı, 1998
• Zaqafqaziya Seyminin müsəlman fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları 1918-ci il. Bakı, 2006
• V.İ.Lenin Azərbaycan haqqında. Bakı, 1970


### *Rus dilində*


• Адрес-календарь Азербайджанской Республики. Под. ред. А.М.Ставровского. Баку, 1920
• Азербайджанская Демократическая Республика (1918-1920 гг.). Законодательные акты (Сб. Документов). Баку, 1998
• Азербайджанская Демократическая Республика (1918-1920 гг.). Парламент. Стенографические отчеты. Баку, 1998
• Азербайджанская Демократическая Республика (1918-1920 гг.). Внешняя политика. Документы и материалы. Баку, 1998
• Акты Кавказской Археографической Комиссии. Архив Главного Управления Наместника Кавказа. Томь II. Издан под редакциею председателя комиссии А.Д.Берже. Тифлис, 1868




downloaded from KitabYurdu.az

• Акты Кавказской Археографической Комиссии. Архив Главного Управления Наместника Кавказа. Томь III. Издан под редакциею председателя комиссии А.Д.Берже. Тифлис, 1869
• Документы и материалы по внешней политике Закавказья и Грузии. Тифлис, 1919
• Интернациональная помощь XI армии в борьбе за победу Советской власти в Азербайджане. Документы и материалы. 1920-1921 г. Баку, 1989
• Ключников Ю.В., Сабанин А. Международная политика новейшего времени в договорах, нотах и декларациях. Часть 2, М., 1926
• Март 1918 г. Баку. Азербайджанские погромы в документах. Составитель: С.Рустамова-Тогиди. Баку, 2009
• Описание Карабахской провинции, составленное в 1823 году, по распоряжению главноуправляющего в Грузии Ермолова, действительным статским советником Могилевским и полковником Ермоловым 2-м. Тифлис, 1866
• Раевский А. Мусаватское правительство на Версальской конференции. Донесения председателья Азербайджанской мусаватской делегации. Баку, 1931
• Топчибашев А.М. Дипломатические беседы в Стамбуле. 1918-1919 гг. Баку, 1994
• Топчибашев А.М. Письма из Парижа. Баку, 1998

***Qərbi Avropa dillərində***

• Communist Takeover and occupation of Georgia. Special Report No.6 of the select Committee on Communist Aggression. House of Representatives Eighty-third Congress, second session. Under authority of H.Res. 346 and H.Res 438. United States Government Printing office. Washington: 1955.
• Conditions in the Near East: Report of the American military mission to Armenian. By the U.S. Senate. Senate Document 266, 66-th Congress, 2-nd Session, Washington, 1920
• General Records of the American Comission to Negotiate Peace 1918-1931 American Delagation Field Missions of the American Delagation Harbord Military Mission to Armenia. The National Archives. Archives and Records Service. General Service Administration. Washington, 1970
• Armenian Allegations: Myth and Documents. Washington, 1987
• Documents on British Foreign Policy 1919-1939. First Series. Vol I. London, 1947 Documents on British Foreign Policy 1919-1939. First Series. Vol. II, 1948
• House Documents. Vol. I, part 3. 66-th Congress. 3-d Session. December 6, 1920- march 4, 1921. US Government Printing Office Washington, 1936



downloaded from KitabYurdu.az

• Papers relating to the Foreign Relations of the United States. 1918, Russia, vol. II, Washington, 1932
• Papers relating to the Foreign Relations of the United States. 1918, Russia, vol. VII, Washington, 1932
• Papers Relating to the Foreign Relations of the United States. 1919, Russia, US Government Printing Office, Washington, 1937
• Papers Relating to the Foreign Relations of the United States. The Paris Peace Conference. 1919, vol. IV, Washington, 1946
• Papers Relating to the Foreign Relations of the United States. The Paris Peace Conference. 1919, vol. VI, United States Government Printing Office, Washington, 1946
• Papers Relating to the Foreign Relations of the United States. The Paris Peace Conference. 1919, vol. VII, United States Government Printing Office, Washington, 1946
• Papers Relating to the Foreign Relations of the United States. The Paris Peace Conference. 1919, vol. IX. US Government Printing Office. Washington, 1946
• Papers Relating to the Foreign Relations of the United States. The Paris Peace Conference. 1919, vol. X. US Government Printing Office. Washington, 1946
• Papers Relating to the Foreign Relations of the United States. The Paris Peace Conference. 1919, (the King-Grane Report), vol. XII. US Government Printing Office. Washington, 1947

## II. Ədəbiyyat

### *Azərbaycan dilində*

• Azərbaycan Cümhuriyyəti (1918-1920). Bakı, 1998
• Azərbaycan Demokratik Respublikası (Məqalələr toplusu). Bakı, 1992
• Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Bakı, 2008
• Azərbaycan tarixi. Yeddi clddə, V cild (1900-1920-ci illər). Bakı, 2001
• Əhmədova F. Nəriman Nərimanov - ideal və gerçəklik. Bakı, 1998
• Görüryılmaz M. Türk Qafqaz İslam Ordusu və Ermənilər (1918). Bakı, 2008
• Göyüşov A. 1917-1920-ci illərdə Şimali Qafqaz dağlılarının azadlıq uğrunda mübarizəsi. Bakı, 2000
• Hacıyev A. Qars və Araz Türk Respublikasının tarixindən. Bakı, 1994
• Həsənov C "Ağ ləkə"lərin qara kölgəsi. Bakı, 1991
• Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920). Bakı, 1993
• Həsənov H. Nəriman Nərimanovun milli dövlətçilik baxışları və fəaliyyəti. Avtreperat. Bakı, 2004.
• İbrahimli X. Azərbaycan siyasi mühacirəti. Bakı, 1996



downloaded from KitabYurdu.az

• İbrahimov Z. İngilis - Amerikan müdaxiləçilərinə qarşı Azərbaycan xalqının mübarizəsi. Bakı, 1950
• İskəndərov A. Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı. Bakı, 2006
• Qasımov M. Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914-1918-ci illər). II hissə, Bakı, 2001
• Qasımlı M., Hüseynova E. Azərbaycanın xarici işlər nazirləri. Bakı, 2003
• Köçərli T. Qarabağ: yalan və həqiqət. Bakı, 1998
• Köçərli T. Yaddan çıxmaz Qarabağ. Nəqşi-cahan Naxçıvan. Bakı, 1998
• Köçərli T. Qarabağ. Bakı, 2002.
• Mahmudov Yaqub. Azərbaycan Diplomatiyası. Ağqoyunlu və Səfəvi dövlətlərinin Avropa ölkələri ilə əlaqələri (XV-XVII yüzilliklər). Bakı, 2006
• Mədətov Q. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi və Naxçıvan MSSR-in təşkili. Bakı, 1958
• Məmmədov X. Azərbaycan milli hərəkatı (1875-1918-ci illər). Bakı, 1996
• Məmmədzadə M. Milli Azərbaycan hərəkatı. Berlin, 1938
• Mir Yaqub. Beynəlmiləl siyasətdə petrol. İstanbul, 1928
• Musayev İ. Şimali Azərbaycanda ictimai-siyasi vəziyyət (1917-1920). Bakı, 1992
• Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı, 1996
• Musayev İ. Azərbaycanın xarici siyasəti (XX əsr). Bakı, 2001
• Nəcəfov B. Azərbaycan Demokratik Respublikası (daxili və xarici siyasət). Bakı, 1992
• Nəsibzadə N. Azərbaycanın xarici siyasəti. Bakı, 1996
• Paşayev A. Açılmamış səhifələrin izi ilə. Bakı, 2001
• Rəsulzadə M.Ə. Azərbaycanın təşkilində müsavat. Bakı, 1920
• Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. İstanbul, 1923
• Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu. Azərbaycan ədəbiyyatı, Çağdaş Azərbaycan tarixi. Bakı, 1991
• Süleymanov M. Azərbaycan ordusu (1918-1920). Bakı, 1998
• Süleymanov M. Qafqaz İslam ordusu və Azərbaycan. Bakı, 1999
• Swietochowski T. Rusiya və Azərbaycan. Sərhədyanı bölgə keçid dövründə. Bakı, 2000
• Şaumyan S. Seçilmiş əsərləri. II cild. Bakı, 1978
• Şeyxzamanlı N. Azərbaycan istiqlal mücadiləsi xatirələri. Bakı, 1997
• Ə. Şıxlinski. Xatirələrim. Bakı, 1984
• Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. I-II cildlər. Baş redaktor, Y.Mahmudov. Bakı, 2004 - 2005
• Topçubaşov Ə.M. Azərbaycanın təşəkkülü. İstanbul, 1918



downloaded from KitabYurdu.az

• Vəkilov R. Azərbaycan Cümhuriyyətinin yaranma tarixi. // Azərbaycan, 1919, 28 may
• Yaqublu N.Məmməd Əmin Rəsulzadə. Bakı, 1991
• Yaqublu N. Müsavat partiyasının tarixi. Bakı, 1997
• Yaqublu N. Bakının qurtuluşu. Bakı, 2008
• Ziyadxanlı A. Azərbaycan. Bakı, 1919

### *Türk dilində*

• Abdul Haluk Çay. Ermenilerin Baküda yaptığı 31 Mart 1918 Katliamı. Tarih Boyunca Türklerin Ermeni Toplumu ile İlişkileri Sempozyumu Tebligleri. Ankara, 1985
• Akçura Y. Yeni Türk Devletlerinin Öncüleri. Ankara, 1981
• Atnur İ.E. Türkiyede ermeni kadınları ve çocukları meselesi. (1915-1923). Ankara, 2005
• Arşiv belgelerine göre Kafkaslarda ve Anadoluda ermeni mezalimi. 1909-1919. II cild. Ankara, 1995
• Aydemir Ş.S. Enver Paşa. C.3. İstanbul, 1978
• Aydemir Ş.S. Suyu arayan adam. İstanbul, 8 baskı, 1987
• Azerbaycan belgelerinde ermeni sorunu. 1918-1920. Ankara, 2001
• Baykara H. Azerbaycan İstiklal Mücadelesi Tarihi. İstanbul, 1975
• Caferoğlu A. Kafkasya Türkleri. Ankara, 1976
• Devlet N. Rusya Türklerinin Milli Mücadele Tarihi (1905-1917), Ankara, 1985 Duran T. Birinci dünya savaşında Sonunda Türk Diplomatisinin ilk Başarası Brest-Litovsk Hazırlıkları. Belleten (Nisan-Temmuz), 1973
• Erdağ (Akgül) N. Milli mücadile döneminde Kafkas Cümhuriyyetleri ile ilişkiler (1917-1921). Ankara, 1994
• Eroğlu V. Ermeni Mezalimi. İstanbul. 1978
• İhsan İ. Rusiyada birinci müsulman Kongresi tutanakları. Ankara, 1990
• İzzet S. Büyük Harbte (1918) 15 Piyade Tameninin Azerbaycan ve Şimali Kafkasiyadakı Hareket ve Müharibeleri. İstanbul, 1936
• Gökdemir A. Cenubi qerbi Kafras hökümeti. Ankara, 1998
• Hacaoğlu A. Arşiv Vesikalariyla Tarihte Ermeni Mezalimi. İstanbul, 1976
• Halaçoğlu Y. Ermeni tehciri ve Gerçekler (1914-1918). Ankara, 2001
• Halil Paşa. İttihad ve Tarakkiden Cumhuriyete. Bitmeyen Savaş, Kütulamare kahramanı Halil Paşanın Anıları. Ankara, 1991
• Hasanlı C. Azerbaycan tarihi 1918-1920. Türkiye`nin yardımından Rusiyanın işğalına kadar. Ankara, 1998
• Hizal A. Kuzey Kafkasiya Hurriyet ve İstiklal Davası. Ankara. 1961
• Hüsamettin Yıldırım. Rus-Türk-Ermeni Münasebetleri (1914-1918). Ankara, 1990



downloaded from KitabYurdu.az

• Keykurun N. Azerbaycan İstiklal Mücadilesi Hatıraları. İstanbul, 1964
• Keykurun N. Azerbaycan İstiklal mücadilesinden hatireler. (1905-1920). Ankara, 1998
• Kirzioğlu F. Kars İli ve Çevresinde Ermenilerin Yaptıkları Mezalim. Ankara, 1970
• Kurat A.Nimet. Birinci dünya savaşinda Türkiye'de bulunan Alman generallerinin rapartları. Ankara, 1966
• Kurat A.Nimet. Türkiye ve Rusiya. Ankara, 1970
• Karabekir K. Ermeni Dosyesi. İstanbul, 1995
• Karabekir K. Doğunun Kurtuluşu. Erzurum, 1990
• Karabekir K. İstiklal Harbimiz. İstanbul, 1988
• Kılıç S. Ermeni sorunu ve Almaniya-Türkiye ilişkileri Alman Arşiv Belgelerile. İstambul, 2003
• Konukçu E. Ermenilerin Yeşilyayladaki Türk Soykırımı (11-12 Mart 1918). Ankara, 1990
• Mazıcı N. ABD`nin Guney Kafkasya Politikası Olarak Ermenistan Sorunu 1919-1921. İstambul. 2005
• Mim Kemal Öke. Ermeni Meselesi. İstanbul, 1986
• Nur R. Hayatım ve Hatıralarım. İstanbul, 1967
• Saray M. Azerbaycan türklerinin tarihi. İstanbul, 1993
• Shissler A.Holly. İki imparatorluk arasında: Ahmet Ağaoğlu ve yeni Türkiye. İstanbul Bilgi Universiteti yayınları, 2005
• Sünbül T. Azerbaycan Dosyası. Ankara, 1990
• Sürmeli S. Türk-Gürcü ilişkileri (1918-1921). Ankara, 2001
• Süslü A. Ruslara göre ermenilerin yaptıkları Mezalim. Ankara, 1987
• Şahverdiyev E. Türkiye ve Azerbaycan açısında ermeni sorunu. Ankara, 2002
• Şimşir B. İngilis Belgelerinde Atatürk (1918-1938). I, Nisan 1919 - Mart 1920. Ankara, 1973
• Şimşir B. Malta Sürgünleri. İstambul, 1976
• Şimşir S. Azerbaycanın İstiqlal mücadilesi. İstanbul, 2002
• Talat Paşanın Hatıraları. İstanbul, 1946
• Tansel S. Mondros'tan Mudanya'ya kadar. C. I, II, III, IV, İstanbul, 1991
• Ünivar V. İstiklal harbinde Bolşeviklerle sekkiz ay. 1920-1921. İstanbul, 1948
• Yılmaz İ. Gümrü antlaşması. Ankara, 2001
• Yücer N. Birinci dünya savaşinda Osmanlı Ordusunun Azerbaycan ve Dağıstan Herekatı. Ankara, 1996



downloaded from KitabYurdu.az

*Rus dilində*


• Абуталыбов Рамиз. Годы и встречи в Париже. М., 2007
• Авалов З. Независимость Грузии в международной политике. Париж, 1924
• Агамалиева Н., Худиев Р. Азербайджанская Республика. Страницы политической истории. 1918-1920 гг. Баку, 1990
• Адамия В.И. Из истории английской интервенции в Грузии (1918-1921). Сухуми, 1961
• Алдерванди Марескотти Л. Дипломатическая война. Воспоминания и отрывки из дневника (1914-1919). М., 1944
• Алиев Г.З. Турция в период правления младотурок. М., 1972
• Аркомед С.Т. Материалы по истории отпадения Закавказья от России. Тифлис, 1923
• Арский Р. Кавказ и его значение для Советской России. Петроград, 1921
• Аршаруни А.Й. Очерки Панисламизма и Пантюркизма в России. М., 1931
• Асадов С. Миф о «Великой Армении». Баку, 1999
• Азербайджанская Демократическая Республика (1918-1920 гг.). Отв. ред. Н.Агамалиева. Баку, 1998
• Азербайджанская Демократическая Республика. Сборник статей. Сост. Р.Абуталыбов. М., 2008
• Азербайджан и Россия: общества и государства. Отв.ред.и сост. Д.Е.Фурман. М.: 2001
• Азизбекова П.А. Братская помощь великого русского народа победе Советской власти в Азербайджане. Баку, 1954
• Азимов Г.С. Великий Октябрь в Азербайджане. Баку, 1987
• Базиянц А.И. К вопросу о захватнической политике США в Азербайджане (1919-1920).// Уч. зап. ин-та востоковедения. Т.XIX. М., 1958
• Байков Б. Воспоминания о революции в Закавказье (1917-1920 гг.). Берлин, 1922
• Байрамов К.М. Рабочий класс Азербайджана в борьбе за победу Великого Октября. Баку, 1987
• Багирова И. Политические партии и организации Азербайджана в начале XX века. 1900-1917. Баку, 1997
• Бадаев А. Азербайджанское национальное движение. 1917-1918 гг. Баку, 1998
• Балаев А. Февральская революция и национальные окраины. Мартовские события 1918 года в Азербайджане. М., 2008
• Балаев А. Мамед Эмин Расулзаде (1884-1955). М., 2009
• Батурин Ю. Досье разведчика. Опыт реконструкции судьбы. Москва, 2005.




downloaded from KitabYurdu.az

• Вельский С, Манвелов А. Революция 1917 года в Азербайджане. Баку, 1927
Березкин А. США активный организатор и участник военной интервенции против Советской России (1918-1920 гг.). М., 1952
• Борян Б.А. Армения, международная дипломатия и СССР. В двух томах. М., 1928
• Волков Ф.Д. Крах английской политики интервенции в дипломатической изоляции Советского государства. М., 1954
• Волков Ф.Д. Тайны Уайт-холла и Даунинг-стрит. М., 1980
• Волхонский М., Муханов В.. По следам Азербайджанской Демократической Республики. М., 2007
• Гаджиев А. Демократические республики Юго-Западного Кавказа (Карская и Аракс-Тюркская республики). Баку, 2004
• Гамбашидзе Г. Из истории политики США в отношении Грузии (1917-1920). Тбилиси. 1960
• Генерал Г.И.Квинитадзе. Мои воспоминания в годы независимости Грузии 1917-1921. Парис, 1985
• Гражданское Управление Закавказьем от присоединения Грузии до наместничества Великого Князя Михаила Николаевича. Исторический очерк. Составитель по поручению Военно-Исторического отдела В.Н.Иваненко. Тифлис, 1901
• Гулиев Дж.Б. Борьба Коммунистической партии за осуществление ленинской национальной политики в Азербайджане. Баку, 1970
• Гулиев Дж.Б. К истории образования Второй Республики Азербайджана. Баку, 1997
• Гурко-Кряжин В.А. Английская интервенция 1918-1919 гг. В Закаспии и Закавказье.// «Историк-марксист», 1926, №2
• Гусейнов И.А. Баку в захватнических планах английских империалистов в 1918 г.// Труды Азерб. филиала ИМЭЛ. Т. XIII. Баку, 1947
• Гусейнов И.А. Победа советской власти в Азербайджане в 1920 г. и помощь XI Красной армии.// Труды Аз. фил. ИМЭЛ при ЦК ВКП (б), т. XVIII. Баку, 1952
• Гусейнов М.Д. Тюркская демократическая партия федералистов «Мусават» в прошлом и настоящем. Баку, 1927
• Дарабади П. Военные проблемы политической истории Азербайджана начала XX века. Баку, 1991
• Деникин А.И. Очерки русской смуты. М.,1991
• Денстервиль Л. Британский империализм в Баку и Персии в 1917-1918 гг. Тифлис, 1925
• Дерябин А.И. Гражданская война в России 1917-1922: Национальные армии. М., 1998
• Жордания Н. Наши разногласия. Париж, 1928



downloaded from KitabYurdu.az

• Жордания Н. Моя жизнь. Стенфорд,1968
• Записки Джемал паши (1903-1919). Тифлис. 1923
• Имранлы К. Создание армянского государства на Кавказе: истоки и последствия. М., 2006
• Искендеров М. Из истории борьбы коммунистической партии Азербайджана за победу Советской власти. Баку, 1958
• Исхаков С.М. Российские мусульмане и революция (весна 1917 — лето 1918). М., 2004
• Караев А.Г. Из недавнего прошлого. Баку, 1926; Т.Гусейнов. Апрельская революция. Баку, 1926
• Карр Э. Большевистская революция 1917-1923. М., 1990
• Качазнуни О.В. Дашнакцутюн больше нечего делать. Баку, 1990
• Кемаль М. Воспоминания президента Турецкой республики. М., 1924
• Корсун Н.Г. Первая мировая война на Кавказском фронте. М., 1940
• Краснов В., Дайнес В. Неизвестный Троцкий. Красный Бонапарт. М., 2000
Кузнецова С. Крах турецкой интервенции в Закавказье.// Вопросы истории. 1951, №9
• Кулиев М. Враги Октября в Азербайджане. Баку, 1927
• Кунина А. Провал американских планов завоевания мирового господства в Закавказье. М., 1960
• Латышев А.Г. Рассекреченный Ленин. М. 1996
• Литвин А. Красный и белый террор в России. 1918-1922. М., 2004
• Лиддель-Гарт. Правда о войне 1914-1918 гг. М., 1935
• Ллойд Джордж Д. Военные мемуары. T.I-VI. М., 1934-1938
• Ллойд Джордж Д. Правда о мирных договорах. Т.2. М., 1957
• Лорд Берти. За кулисами Антанты. Дневник Британского посла в Париже.1914-1919. М.,-Л.,1927
• Лудшувейт Е.Ф. Турция в годы первой мировой войны. М., 1966
• Людендорф Э. Мои воспоминания о войне 1914-1918 гг. Т. 2. Москва, 1924
• Миллер А.Ф. Американский план захвата Константинополя в 1919.// Вопросы истории. 1951, №3
• Милюков П.Н. Воспоминания. М., 1991
• Милюков П.Н. История второй русской революции. М.,2001
• Минасян О. Внешняя политика Закавказской контрреволюции в первой половине 1918 года.// «Историк-марксист», 1938, книга шестая.
• Мустафазаде Р.С. Две республики. Азербайджано-российские отношения в 1918-1922 гг. М., 2006
• Наджафов Б. Лицо врага. Часть I. Баку, 1993
• Наджафов Б. Лицо врага. Часть II. Баку, 1994
• Найдель М.И., Согомонов Ю.В. К истории интервенции США в Закавказье в 1917-1921 гг.// «История СССР». 1961, №3



downloaded from KitabYurdu.az

• Никольсон Г. Как делается мир в 1919 г. М., 1945
• Нитти Ф. Вырождение Европы. М.-Пг., 1923
• Нитти Ф. Европа без мира. Пг.-М., 1923
• Павлович З.М. Советская Россия и капиталистическая Америка. 1922
• Политические деятели России 1917 года. Биографический словарь. М.,1993
• Попов А.П. Из истории революции в Восточном Закавказье. // «Пролетарская революция», 1924, №5,7, 8-9, 11
• Потто В.А. Кавказская война. Персидская война 1826-1828 гг. Том 3, Тифлис, 1901
• Пуанкаре Р. Происхождение мировой войны. М., 1924
• Раевский А. Английская интервенция и мусаватское правительство. К истории интервенции и контрреволюции в Закавказье. Баку, 1927
• Раевский А. Английские «друзья» и мусаватские «патриоты». Баку, 1927 Расул-заде М.Э. О пантуранизме (В связи с Кавказской проблемой). Париж, 1930
• Рыбас С, Рыбас Е. Сталин: судьба и стратегия. Т.I, М., 2007
• Ратгаузер Ю.А. Борьба за Советский Азербайджан. Баку, 1929
• Ратгаузер Ю.А. Революция и гражданская война в Баку, ч.1. 1917-1918. Баку, 1927
• Саакян Р.Г. Франко-турецкие отношения и Киликия в 1918-1923 гг. Ереван, 1986
• Сеф С. К вопросу о социальной сущности «Мусавата».// «Большевик Закавказья», 1928, №5-6
• Сеф С. Борьба за Октябрь в Баку. Тифлис, 1930
• Ставровский А. Закавказье после Октября. М., 1925
• Стеклов А. Армия Мусаватского Азербайджана. Баку, 1928
• Султанбеков Б.Ф., Малышева СЮ. Трагические судьбы. Казань. 1996
• Сумбатзаде А.С. Социально-экономические предпосылки победы советской власти в Азербайджане. Баку, 1972
• Сеидзаде Д.Б. Азербайджанские депутаты в Государственной Думе России. Баку, 1991
• Токаржевский Е.А. Бакинские большевики - организаторы борьбы против германо-турецких интервентов в Азербайджане в 1918 г.// Труды Азерб. филиала ИМЭЛ. Т. VI. Баку, 1947
• Токаржевский Е.А. Бакинские большевики - организаторы борьбы против германо-турецких и английских интервентов в Азербайджане в 1918 г.// Труды Азерб. филиала ИМЭЛ. Т. XIII. Баку, 1947
• Токаржевский Е.А. Из истории иностранной интервенции и гражданской войны в Азербайджане. Баку, 1957
• Топчибашев А.М. Меморандум, предъявленный находящимся в Константинополе почетным представителям держав Антанты чрезвычайного



downloaded from KitabYurdu.az

посланника и полномочного министра Азербайджанской Республики при правительствах Блистательной порты, Армении и Грузии. Ноябрь 1918 г. (пер. с фр.). Баку, 1993
• Туганова О.Е. Политика США и Англии на Ближнем и Среднем Востоке. М., 1960
• Усманова Д. Мусульманские представители в Российском парламенте. 1906-1916 гг. М., 2005
• Уртадзе Г. Образование и консолидация Грузинской Демократической Республики. Мюнхен, 1956
• Хачапуридзе Г. Аджарыстан в период английской оккупации. // «Борьба классов», 1934, №12
• Хачапуридзе Г. Борьба грузинского народа за установление советской власти. М., 1956
• Хауз Э. Архив полковника Хауза. Т. 1-4; М., 1937-1945
• Хейфец С.Я. Закавказье в первую половину 1918 г. и Закавказский сейм.// «Былое», 1923, №21
• Хейфес А.Н. Советская Россия и сопредельные страны Востока в годы гражданской войны. М., 1964
• Черчиль У. Мировой кризис. М., 1932
• Шавров Н.И. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам. СП., 1911
• Шамсутдинов А.М. Участие Султанской Турции в интервенции против Советской России в 1918 г.// Учен. Записки Ин-та востоковедения АН СССР, т.XIV, 1965
• Шахгельдиев Г. Помощь русского народа победе советской власти в Азербайджане. Баку, 1960
• Шпилкова В.И. Империалистическая политика США в отношении Турции (1914-1920). М., 1960
• Штейн Б.Е. «Русский вопрос» на Парижской мирной конференции (1919-1920 гг.). М., 1949
• Юсифзаде С.З. Первая Азербайджанская республика: история, события, факты англо-азербайджанских отношений. Баку, 1998

### *Qərbi Avropa dillərində*

• Allen W., Muratof P. Caucasian Battlefields: A History of the Wars and Turco - Caucasian Border (1828-1921). Cambridge, 1953
• Alstadt A. The Azerbaijani Turks: Power and Identity under Russian Rule. Stanford, 1992
• Atamian S. The Armenian Community. N.Y. 1955
• Bammate Haydar. Le Caucase et la revolution Russe. Paris, 1929



downloaded from KitabYurdu.az

• Bechofer C.E. In Denikin's Russia and the Caucase, 1919-1920. London 1921
• Bennigsen A., Wimbush E. Moslem National Communism in the Soviet Union: A Revolutionary Strategy for the Colonial World. Chicago, London, 1979
• Claims of the Peace Delegation of the Republic of Caucasian Azerbaijan presented to the Peace Conference in Paris. Paris, 1919
• Claims of Persia before the Conference of the Preliminaries of Peace at Paris. Paris, 1919
• Composition antropologique et ethnique de la population de l'Azerbaidjan du Caucase. Paris, 1919
• Delegation Georgienna a la Conference de la paix, Memoire prsente d la Conference de la Paix. Paris, 1919
• Economic and Financial Situation of Caucasian Azerbaijan. Paris, 1919
• Evans I. United States Policy and the Partition of Turrey, 1917-1924. Baltimore, 1965
• Fatemi N.S. Diplomatic History of Russia. 1917-1923; N.Y.; 1952
• Fisber L. The war for Baku. "Oil Imperialism". Ch.l. London, 1976
• Foumiau Vincent. Deux Langues, triois pays, Pour Quelle Societe plurielle// Journal of Azerbaijani Stadies, Vol.l, Nub.2, 1998
• Hadjibeyli Djeyhoun Bey. La premiera Republique musulmane: l'Azerbaidjan. Editions Ernest Leroux, vol. XXXVI, Paris, 1919
• Harbord James. American mission to Armenia.// International Conciliation, (New York), no.151, 1920, June
• Hasanli J. Spring 1918: Armenian terrorism and the turko-moslem genocide in Azerbaijan.// Journal of Azerbaijan Studies. 1998, vol.l, №4; vol.2, №l
• Hassanov Jamil. Azerbaijani-American Relations from 1918-1920: A page in Their History. // Caspian Crossroads, vol.2, Issue 1, Spring-Sumer 1996
• Heath W. Lowry. The Story behinde Ambassador Morgenthau's Story. Istanbul, 1990
• Hopkirk Peter. On Secret Service East of Constantinople. The Plot to Bring Down the British Empire. John Murray, London, 1994
• Howard Harry N. The King-Grane Commission. Beyrut, 1963
• Hovannisian R. The Republic of Armenia. Berkley-Los-Angelos-London, 1971 Hovannisian. Armenia on the Road to Independence, 1918. Los Angeles, 1971; Hovannisian R. The Allies and Armenia, 1915-1918.// Journal of Contemporary History, III, January 1968
• Jaeschke G. Die Republik Aserbeidschan.// Die Welt des Islams, XXIII, 1941, №1-2
• Kayaloff Jacques. The Fall of Baku. Bergenfield, N.Y.: Michael Barbour Publications, 1976
• Kazemzadeh F. The Struggle for Transcaucasus (1917-1921). New-York, 1951
• Kolarz V. Russia and Her Colonial. London, 1953



downloaded from KitabYurdu.az

• La Republique de l'Azerbaidjan du Caucase. Paris, 1919
• Le 28 Mai l919. Paris, 1919
• L'Azerbaidjan en chiffres. Paris, 1919
• Leluw Ch. Azerbaijan: A Quest for Identity. New-York, 1998
• Lenczowski G. Russia and the West in Iran. 1918-1948. N.Y. 1952
• Lenkowsky S. Pan-Turkism and Islam in Russia. Camləridge, 1960
• Luke H. Cities and men. Oxford, 1953
• MacDonell R. And Nothings Long. London, 1938
• McCarthy Justin. Muslims and Minorities. New York, 1983
• McCarthy Justin. The American Image of Turks.//American Philanthropy in the Near East, 1820-1960. Athens, Ohio, 1970
• McCarthy Justin. The Anatolian Armenians, 1912-1822.// Armenians in the Ottoman Empire and Modern Turkey (1912-1926). Istambul, 1984
• McCarthy Justin. The Report of Niles and Sutherland an American Investigation of
• Eastern Anatolia after World War I. XI. Türk Tarih Kongresi, Cilt V, Ankara, 1994
• Mir - Yacoub. Le probleme du Caucase. Paris, 1933
• Mandelstam A.N. La Societe des Naions et les puissances devant le probleme armenien. Paris, 1926
• Monroe E. Britain's Moment in the Middle East. 1914-1956. L. 1963
• Nansen F. Armenia and the Near East. London, 1928
• Pipes R. The Formation of the Soviet Union: Communist and Nationalism, 1917-1923. Cambridge, 1964
• Rasul-zade M.E. Azerbajdzan w walce o niepodleglosc. Warsaw, 1938
• Rowlinson A. Adventures in the New East, 1918-1922. London-New-York, 1923
• Seton-Watson H. The New Imperialism. London, 1961
• Shissler A.Holly. Between Two Empires: Ahmet Ağaoğlu and the New Turkey. I.B.Tauris Co Ltd, London, 2003
• Sonyel S. The Great War and the Tragedy of Anatolia. (Turks and Armenians in the Maelstrom of Major Powers). Turkish Historical Society Printing House, Ankara, 2000
• Spector I. The Soviet Union and the Moslem World. 1917-1958. Wash. 1958
• Suny R. The Baku Commune, 1917-1918: Class and Nadonalist. Princeton (N.Y.), 1972
• Swietochowski T. Russian Azerbaijan, 1905-1920: The Shaping of National Identity in Moslem Community. Cambridge, 1985
• Swietochowski T. Russia and Azerbaijan: A Borderland in Transition. New York, 1995
• Swietochowski T. and Collins B. Historical Dictionary of Azerbaijan. Lanham, 1999



downloaded from KitabYurdu.az

• Teague-Jones R. The Spy Who Disappeared: Diary of a Secret Mission to Russian Central Asia in 1918. London, 1990
• The Caucasian Republics. By V.Dumbadze. Washington, 1925
• Transcaucasia: Nationalism and Social Change: Essays in the History of Armenia, Azerbaijan and Georgia. Ed. By R.Suny, Ann Arbor, 1983
• Ullman R. Anglo-Soviet Relations 1917-1921. London, 1968
• Zenkovsky S. Pan-Turkism and Islam in Russia. Cambridge, 1960.



downloaded from KitabYurdu.az



Azərbaycan Milli Şurasının sədri **Məmməd Əmin Rəsulzadə**



downloaded from KitabYurdu.az



Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin sədri **Əli Mərdan bəy Topçubaşov**



downloaded from KitabYurdu.az



Azərbaycan Xalq Cümhuriyyəti nazirlər şurasının ilk sədri **Fətəli xan Xoyski**



downloaded from KitabYurdu.az



Azərbaycan Xalq Cümhuriyyətinin ilk xarici işlər naziri **Məmməd Həsən Hacınski**



downloaded from KitabYurdu.az



Копія.

Константинополь, Берлинъ, Вѣна, Парижъ, Лондонъ, Римъ, Вашингтонъ, Софія, Бухарестъ, Тегеранъ, Мадридъ, Гаага, Москва, Стокгольмъ, Кіевъ, Христіанія, Копенгагенъ.-

Министру Иностранныхъ Дѣлъ.-

Такъ какъ Федеративная Закавказская Республика раздроблена была отдѣленіемъ отъ нея Грузіи, Національный Азербайджанскій Совѣтъ объявилъ 28 текущаго мѣсяца независимость Азербайджана, состоящаго изъ восточнаго и южнаго Закавказья, и провозгласилъ Азербайджанскую Республику точка Увѣдомляя Васъ о вышеизложенномъ, имѣю честь просить Ваше Превосходительство сообщить объ этомъ Вашему Правительству точка Временное пребываніе моего Правительства будетъ въ Елисаветполѣ.- 30 Мая 1918 г.

Хойскій Предсѣдатель Совѣта Министровъ Азербайджанской Республики.-

Въ удостовѣреніе чего Министръ-Предсѣдатель подписалъ Фатали Ханъ Хойскій.-

Constantinople, Berlin, Vienne, Paris, Londres, Washington, Sofia, Rome, Bucarest, Téhéran, Madrid, La Haye, Stockholm, Moscou, Kiew, Khristiania, Copenhague

Ministres des affaires Etrangères

La République Fédérative Transcaucasienne ayant été demembrée par la sortie de la Géorgie, le Conseil National d'Azerbeidjane a declaré le 28 courant l'independance d'Azerbeidjane composé du Transcaucase d'Est et de Sud et a institué la République démocratique d'Azerbeidjane stop En vous faisant part du susmentionné j'ai l'honneur de prier Votre Excellence d'en informer Votre gouvernement stop le 29 mai 1918

Khoïsky President du Conseil des Ministres de la République d'Azerbeidjane.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması haqqında xarici ölkələrə göndərilən teleqram.
30 may, 1918-ci il.



General Ə.Şıxlinski və Nuru paşa Gəncədə. İyun, 1918-ci il.



downloaded from KitabYurdu.az



228

استانبول قونفرانسنه مأمور
آذربایجان حکومتی هیئت مرخصه‌سی

۱۰ آغستوس ۱۳۳٤
نومرو ۲۱

خارجیه ناظری محمد حسن بك افندی حضرتلرینه

واپورك بو كونه قدر باطومده دایانوب ده یولا دوشمه‌دیکی
سزه اوچنجی بر پاكت كوندرمه‌یه ده امكان ویریور.
بو كون انور پاشا حضرتلری ایله كوروشدم. پاشا دیوردیكه ارمنیلرله
كورجیلرله ده حدود بحثی آچوب هر ایكیسی ایله ده دعوا ایتمك موافق دكلدر.
بزم خریطه‌جه بورچالو واسطه‌سیله تركیه‌یه بر قوریدور آچیلیر؛ فقط بورا
حال حاضرده كورجیلرك النده‌در. عینی زمانده ده آذربایجان پروژه‌سنجه قازاخ
اویزدینك بر قسمی ارمنیلره ترك اولونیور. حال بوكه ارمنیلره بر آز آچیقه
وسعت ویرمك اونلارك اشتهاسنی اویناتمق دیمكدر. یاخشی اولاردیكه
آذربایجان پروژه‌سنده تصور اولونان بورچالو ایله تفلیس سنجاقنك قسم
مهمی كورجیلره ویرلمك صورتیله اونلارله بر ائتلاف حاصل اولایدی. اوزمانه
قازاخ ارمنیلره ویرلمیه‌یدی. بالعكس بورادن كچه‌رك بورچالینك جنوب
قسمندن تركیه‌یه آرزو اولونان قوریدور آچیلایدی؛ ارمنستانك حدودی
ایسه اسكی ایروان غوبرنیاسی حدودی ایله كیده‌یدی. بونك مقابلنده اولاره
دارالاكوزی بلكه ده ارمنیلره ترك ایتمك اولار. بو خاطره دیدیم كه شبهه‌سز بزم
لایحه‌ده تفصیلاتده بجه حدود كوزه‌دیلن افراطه قارشی مقابل افراطدر. اورادان
كری چكلمك بزه ممكن‌در. سغناخ سنجاقنده‌دن بر قدر ویره بیلریز. فقط
مسلمانلاردان عبارت بورچالی‌یی ترك ایله بونك یرینه ارمنیلردن عبارت بر
حصه‌یی كوتورمك اولمز ده. آذربایجانده چوق بولونان ارمنی عنصرینی
چوغالدیره، بزی ایسه آزالدیر. دارالاكوزی ترك ایتمك ایسه قطعیاً ممكن
دكلدر؛ چونكه بوراسینك قسم كلیسی اسلامدر. اویله ایسه دارالاكوزی
ده ویره‌مییز دیدی. ملاحظه‌لری سیزه بیلدیرمیش اولیوروم. هر حالده
سز كندی نقطهٔ نظركزده اصرار ایدكز، فقط عینی زمانده كورجیلره

İstanbuldakı Azərbaycan nümayəndə heyətinin başçısı M.Ə.Rəsulzadənin xarici işlər naziri M.H.Hacınskiyə məktubu. 1918-ci il.



downloaded from KitabYurdu.az



Osmanlı İmperatorluğunun hərbi naziri **Ənvər paşa**



downloaded from KitabYurdu.az




Türkiyə nazirlər kabinetinin sədri **Tələt paşa**



General L. Denstervil Bakı ətrafında cəbhə xəttində. Sentyabr, 1918-ci il.



downloaded from KitabYurdu.az


X 13

استانبولده آذر...

هیئت مرخصه رئیسی محمد امین رسول زاده حضرتلرینه

32.47.9.47.17.23.22.1.23. 5.13.7.1.22.51.7.13.4.47. 14.29.47=
=22.2.13. 2.13.7.47.19.47. 22.13.77.1. 19.47.1.51.7.13.
32.47.72.47.77.91. 7. 51.13.16.47.16.8. 4.47.29.47.72.8.
51. 2.29.23.3. 51.2.47.29.47.22.
5.31.9.1. 12.13.22.53.2.31. 16.8.51.8.9.16.13.22.51.7.47.23.
7.9.13.72.5.1.11.23. 51.13.9.13.3.13.22.13. 1. 32.29=
=47.2.1.19. 13.29.16.23.22.17.23.22.2.13.
19.51.23. 51.23.9.23.22.1.53. 1. 51.13.72.31. 5.31.9.1.
47.2.29.23.12.13.22.31. 47.2. 4.47.29.47.72.13. 1.
51.19.47.5.47.72.29.47. 51.47.47.5.12.13.91.51. 51.
22.13.16.1.
53. 9.1. 44.22.47. 5.31.9. 22.13. 14.29.47.22.2.23.
19.13.77.1. 17.1.19.31.
22.47. 19. 2.47.2. 16.47.16.23.22.2. 7.47.4.72.13.

Bakı cəbhəsindəki vəziyyət barədə xarici işlər naziri M.H.Hacınskinin İstanbula, M.Ə.Rəsulzadəyə göndərdiyi şifrəli teleqram. Sentyabr, 1918-ci il.



downloaded from KitabYurdu.az



Chef de la DÉLÉGATION
du
GOUVERNEMENT AZÉRBAIDJANE
POUR LES NÉGOCIATIONS
DE CONSTANTINOPLE

„30" Aout 1918
№ 24

A Son Excellence
Comte Bernstorff
Ambassadeur Impérial d'Allemagne

Monsieur l'Ambassadeur,

J'ai l'honneur de ~~porter~~ présenter à Votre Excellence copie de la déclaration d'indépendance de la République d'Azerbaïdjan qui a été précédemment télégraphié aux Puissances et dont l'arrivée à destination nous était ignorée à cause des difficultés de communications télégraphiques. La dite indépendance sera officiellement annoncée à votre Gouvernement par la Délégation qui va prochainement visiter les capitales des Puissances centrales et neutres dans le même but.

Agréez, Monsieur l'Ambassadeur, les assurances de ma très haute considération.

İstanbuldakı Azərbaycan nümayəndə heyətinin Osmanlı İmperatorluğundakı Almaniya səfiri Bernsdorfa etiraz notası. Sentyabr, 1918-ci il.



Müttəfiq dövlətlərin başçıları Paris sülh konfransında. Yanvar, 1919-cu il.



downloaded from KitabYurdu.az



Azərbaycan xalq Cümhuriyyətinin IV hökumət kabinetində xarici işlər naziri
**Məmməd Yusif Cəfərov**



downloaded from KitabYurdu.az



Azərbaycan Xalq Cümhuriyyəti IV hökumət kabinetinin iclası. Aprel, 1919-cu il.



D.Lloyd Corc, V.Orlando, J.Klemanso və V.Vilson Paris Sülh konfransında. 1919-cu il.



downloaded from KitabYurdu.az



N° 4

Délégation britannique
Paris
25 Juillet 1919.

Monsieur le Président,

J'ai reçu de Monsieur le Ministre l'ordre de vous faire savoir que le Gouvernement de Sa Majesté se prépare à envoyer Mr. Wardrop en mission dans la Transcaucasie.

Mr. Wardrop a été spécialement choisi pour cette mission à cause de sa connaissance approfondie de la Transcaucasie et de son long service en qualité de membre du Service Consulaire de Sa Majesté. On espère qu'il pourra partir vers la fin de ce mois.

Mr. Wardrop renseignera le Gouvernement de Sa Majesté sur la situation en Transcaucasie, mais sa mission ne sera fait en aucun sens être regardée comme une reconnaissance du Gouvernement Azerbaïdjanien par le Gouvernement de Sa Majesté.

Je suis Monsieur
Votre très obéissant
et humble serviteur
Signé Eyre Crowe

Au Président de la
Délégation Azerbaïdjanienne
Claridge's Hotel

PRÉSIDENT DE LA DÉLÉGATION DE PAIX
DE LA
RÉPUBLIQUE D'AZERBAÏDJAN

Ə.Topçubaşovun Böyük Britaniyanın Paris Sülh konfransındakı nümayəndə heyətinə məktubu.
25 iyun, 1919-cu il.



downloaded from KitabYurdu.az




Azərbaycan nümayəndə heyəninin Paris sülh konfransına təqdim etdiyi xəritə. İyun,1919-cu il.



Azərbaycan Xalq Cümhuriyyətinin təhsil almaq üçün Avropa ölkələrinə göndərdiyi tələbələrin bir qrupu. 1919-cu il.



downloaded from KitabYurdu.az



Azərbaycan nümayəndə heyətinin "Klaric" mehmanxanasında keçirilən iclası. Soldan sağa. Abbas bəy Atamalibəyov, Məmməd Məhərrəmov, Əli Mərdan bəy Topçubaşov, Əkbər ağa Şeyxülislamov, Ceyhun bəy Hacıbəyli və Mir Yaqub Mehdiyev. Paris, 1989-cu il.



Azərbaycanın müstəqilliyinin Paris Sülh konfransı tərəfindən tanınması münasibətilə xarici işlər nazirliyində keçirilən qəbul. 14 yanvar, 1920-ci il.



downloaded from KitabYurdu.az

M 14145
4 AE D 119
AE 8° Sup 5595
SG - 4 MAI 1981

N° 8 1er Février 1920

# BULLETIN D'INFORMATIONS DE L'AZERBAÏDJAN

ORGANE BI-MENSUEL

*RÉDACTION : Hôtel Claridge, 74, avenue des Champs-Élysées, PARIS (VIIIe)*

TÉLÉPHONE : ÉLYSÉE 48-13

En Dépôt aux ÉDITIONS ERNEST LEROUX, 28, rue Bonaparte, Paris-VIe

## La reconnaissance de l'indépendance de l'Azerbaïdjan et de la Géorgie

Le 12 janvier, le Conseil suprême a reconnu l'indépendance des deux Républiques voisines, l'Azerbaïdjan et la Géorgie. Ces deux pays qui occupent, au sud du Caucase, l'espace s'étendant entre la mer Noire et la mer Caspienne, se sont proclamés, en mai 1918, États indépendants; ils existent encore, ayant chacun un gouvernement, un Parlement, une administration judiciaire, civile et politique, des écoles et une armée bien organisée. Les deux peuples, azerbaïdjanien et géorgien, qui sous le régime tzariste avaient vécu en paix l'un avec l'autre, ont, peu après la proclamation de l'indépendance, conclu une alliance défensive, pour résister à toute attaque contre leur liberté et l'intégrité de leurs territoires, de quelque côté et de quiconque vienne cette attaque.

Cette alliance des deux peuples, azerbaïdjanien et géorgien, a proposé à la République arménienne d'Erivan de se joindre à elle.

Au commencement de 1919 le Gouvernement et le Parlement de l'Azerbaïdjan et de la Géorgie ont envoyé une Délégation spéciale de chacun des pays à la Conférence de la paix, à Paris, pour travailler en faveur de l'indépendance commune, et depuis près d'une année ces deux Délégations ont fait tout leur possible pour arriver au résultat désiré. Elles ont présenté à la Conférence leurs mémoires, avec des renseignements historiques, ethnographiques, économiques et statistiques, etc., sur lesquels se basent les revendications de l'Azerbaïdjan et de la Géorgie.

Pendant ce temps, les représentants des Républiques ont eu des entretiens avec des hommes d'État anglais, français, italiens, américains, etc. Les deux Délégations ont leurs représentants à Londres, Rome, etc.

La décision susdite du Conseil suprême a été officiellement communiquée aux délégations de l'Azerbaïdjan et de la Géorgie à la séance du Conseil suprême, sous la présidence de M. Jules Cambon et en présence des représentants de l'Angleterre et de l'Italie.

Le 19 janvier, la Délégation de l'Azerbaïdjan ayant M. Toptchibacheff à sa tête, et celle de la Géorgie présidée par M. Tchkheidze, ont été invitées à la séance de la Conférence de la paix, dont le président était M. Clemenceau, et où assistaient les premiers ministres de l'Angleterre, M. Lloyd George; de l'Italie, M. Nitti; le représentant du Japon, M. Matsi, ainsi que les maréchaux Foch et Wilson, etc. Répondant à la question sur la menace bolche-

B.N. S.G.

Azərbaycan nümayəndə heyətinin Parisdə buraxdığı informasiya bülleteninin fevral sayı. 1920-ci il.



downloaded from KitabYurdu.az



M.Məhərrəmov, M.Mehdiyev, Ə.M.Topçubaşov, Ə.Şeyxülislamov. Paris, 1920-ci il.



downloaded from KitabYurdu.az



Ə.M.Topçubaşovun Paris yaxınlığındakı Saint Kloud şəhərindəki məzarlıqdakı qəbirüstü abidəsi.



downloaded from KitabYurdu.az

## MÜNDƏRİCAT

Ön söz ........................................................................................ 4

Giriş ........................................................................................ 6

I FƏSİL. 1917-ci ilin fevral inqilabından sonra Cənubi Qafqazda vəziyyət və region uğrunda diplomatik mübarizənin başlanması ........................................ 15

II FƏSİL. Trabzon və Batum konfransları. Azərbaycanın müstəqilliyinə doğru ilk diplomatik addımlar ........................................ 36

III FƏSİL. Müstəqilliyin elan edilməsi və Azərbaycan Xarici İşlər Nazirliyinin ilk addımları ........................................ 73

IV FƏSİL. Bakının azad edilməsi uğrunda diplomatik mübarizə ........................ 97

V FƏSİL. Birinci dünya müharibəsinin sonunda Azərbaycan Xarici İşlər Nazirliyinin diplomatik fəaliyyəti və müttəfiqlərin Bakıya daxil olması ............ 135

VI FƏSİL. Azərbaycan diplomatiyası Paris Sülh Konfransına hazırlıq dövründə170

VII FƏSİL. Azərbaycan Xarici İşlər Nazirliyinin fəaliyyətinin genişlənməsi və Versalda ilk diplomatik addımlar ........................................ 207

VIII FƏSİL. Azərbaycan diplomatiyası "Bölünməz Rusiya" və "Böyük Ermənistan" iddiaları ilə üz-üzə ........................................ 233

IX FƏSİL. Qərb mandatlığına münasibət: Fransa, Britaniya və İtaliya ilə yaxınlaşmaq cəhdləri ........................................ 271

X FƏSİL. ABŞ-ın Qafqaza marağının güclənməsi və Azərbaycan .................... 293

XI FƏSİL. ABŞ-da lobbiçilik cəhdləri və Qərbi Avropada təbliğat işlərinin genişləndirilməsi ........................................ 322

XII FƏSİL. Azərbaycanın müstəqilliyinin Versal Ali Şurası tərəfindən............. 345

tanınması ........................................ 345

XIII FƏSİL. Aprel işğalı ərəfəsində Azərbaycanın beynəlxalq vəziyyəti ........... 372

XIV FƏSİL. 1920-ci ilin aprel işğalı və Azərbaycan diplomatiyası .................. 397

NƏTİCƏ ........................................ 419

Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirliyinin diplomatik korpusu haqqında qısa məlumat ........................................ 428

Biblioqrafiya ........................................ 436



downloaded from KitabYurdu.az

**Cəmil Həsənli**

**Azərbaycan Xalq Cümhuriyyətinin**
**Xarici Siyasəti**
**(1918-1920)**

T.: 994 12-510 24 65
F.: 994 12-510 24 87
M.: 994 50 -213 44 33
e/p.:garisma@mail.ru

Yığılmağa verilmişdir : 08.06.2009
Çapa imzalanmışdır : 22.06.2009
Format : 60x90 1/16
Fiziki çap vərəqi : 36
Tirajı : 1000



downloaded from KitabYurdu.az